XAQANİ İSMAYIL

# "ERMƏNİ MƏSƏLƏSİ" VƏ TÜRK-MÜSƏLMAN SOYQIRIMI


ДѢЛО


LIETA № 646









63.3(5Aze)
İ 82

XAQANİ İSMAYIL

# "ERMƏNİ MƏSƏLƏSİ" VƏ TÜRK – MÜSƏLMAN SOYQIRIMI

*ENSİKLOPEDİK TARİXİ ARAŞDIRMA*

Bakı 2013

Nərgiz NƏŞRİYYATI
BAKI-2013

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 88471

Rəyçilər:
Hacı Hacıyev,
*tarix elmləri doktoru, professor*
Bəxtiyar Əkbərov,
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, professor*
Məhəmməd Teymurlu, *fəlsəfə elmləri doktoru, professor*
Kamran İsmayılov,
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

Xaqani İSMAYIL, ««Erməni məsələsi» və türk-müsəlman soyqırımı» (Ensiklopedik araşdırma), Bakı, 2013. – 508 s.

«Erməni məsələsi» və türk-müsəlman soyqırımı» kitabı I Dünya Savaşı fonunda Qafqaz, Güney Azərbaycan, Anadolu və Orta Asiya türklərinin, müsəlmanlarının soyqırımını arxiv bəlgələri və sənədli qaynaqlar əsasında işıqlandıran bir əsərdir. Müəllif kitaba həmçinin "erməni məsələsi", erməni tarixinin bəzi saxtalaşdırılmış məqamları haqda qeydlərini və qondarma "erməni soyqırımı"nı təkzib edən elmi araşdırmalarını da daxil edib. Əsərdə Türk Ordusunun I Dünya Savaşı zamanı və onun fonunda Qafqaz, Güney Azərbaycan və Anadolu bölgələrinə qurtarıcı hərəkatı da araşdırılaraq, adı çəkilən nahiyələrdə 1915-1921 olaylarına daha geniş aydınlıq gətirilmişdir. Bundan başqa, kitabda türk yazılı abidələrinin qədimliyi də işıqlandırılaraq soyqırıma məruz qalan xalqın mədəni kimliyi təqdim edilmişdir.

Kitab əsasən elmi ictimaiyyət, siyasətçilər (özəlliklə diplomatlar), təhsil ictimaiyyəti, habelə diaspor qurumları üçün nəzərdə tutulmuşdur.

ISBN 987-9952-8085-0-6

$$\text{İ}\ \frac{742000000}{079}\ 728-2013$$

*Kitabın nəşrinə göstərdiyi maddi və mənəvi dəstəyə görə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov cənablarına dərin təşəkkürümüzü bildiririk.*

*Hörmətli Əli müəllim! İnanırıq ki, Sizin bu xeyirxah addımınız xalqımızın tərəqqisinə, qələbəmizin təminatına bir töhvə olacaq. Heç şübhə etmirik ki, bu təşəkkür və minnətdarlıq hisslərimizə ölkəmizdə və ondan kənarda yaşayan vətənsevər soydaşlarımız, həmçinin türk və müsəlman dünyasının tarixi taleyinə biganə qalmayan çoxsaylı ümumtürk və dünya oxucuları da şərik olacaq!...*

**Nəşriyyatdan.**

## *MÜƏLLİF HAQQINDA*



Xaqani Neyman oğlu İsmayıl (İsmayılov) 1962-ci ildə Qərbi Azərbaycanın Calaloğlu bölgəsinə aid Kalinin elinin Qaraqala kəndində doğulmuşdur.

1977-79-cu illərdə Bakıdakı 1 saylı Respublika Fizika-Riyaziyyat Təmayüllü Məktəbdə təhsil almış 1979-cu ildə Riyaziyyat fənnindən Respublika üzrə Olimpiadada I yeri tutmuş, 1984-cü ildə isə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakultəsini bitirmişdir.

1990-cı ildə "Qarabağ taleyimiz" adlı tarixi-siyasi, mənzum pyesi müstəqil "Millət" nəşriyyatı tərəfindən nəşr edilmişdir. 1989-1990-cı illərdə yayımlanan müstəqil "Həqiqət" qəzetinin baş redaktoru olmuşdur.

1991-1992-ci illərdə "Hikmət" qəzetində satira və yumor şöbəsinin müdiri, 1993-97-ci və 2003-cü illərdə ictimai-siyasi satirik "Kefli İsgəndər" Qəzetində baş redaktor işləmişdir. "Türkün səsi", "Hürriyət", "Yeni Azərbaycan", "Millət", "Olaylar", qəzetində satira səhifələrinin aparıcısı, adı çəkilən əksər qəzetlərdə aparıcı-redaktor , "R.N.Novruz-94" nəşriyyatında redaktor vəzifələrində çalışmışdır.

Hal-hazırda "Təhsil problemləri" qəzetində redaktor vəzifəsində fəaliyyətini davam etdirir.

Bədii, publisistik yazıları, tarixi araşdırmaları və siyasi şərhləri "Hürriyət", "Azadlıq", "Respublika" , "Ekspress", "Yeni Azərbaycan", "Olaylar" kimi gündəlik qəzetlərdə, "Azərbaycan" jurnalında və ANS-in "Hesabat" jurnalında, habelə "Təhsil problemləri" "Mədəniyyət", "The Azəri Times", "Azəri News", "Etimad", "Nəbz", "Qərbi Azərbaycanın səsi", "Nota Bene", "p.s: Nota", "Yeni Xəbər", "Türküstan", "Vətəndaş naminə", "Vətəndaş nəzarəti", kimi həftəlik nəşrlərdə, müxtəlif saytlarda və başqa mətbuat orqanlarında yayınlanmışdır. Müəllif Azərbaycan, Türkiyə, Pakistanın müxtəlif universitetlərində də bu araşdırmaları ilə çıxış etmişdir.

"Xalqımıza və mədəniyyətlərimizə qarşı törədilmiş soyqırım. Xilaskar Qafqaz İslam Ordularının Yürüşləri" (Təhsil, mədəniyyət, turizm sahəsi işçiləri və tələbə-gənclər üçün yaddaş) kitabının (2007) həmmüəllifidir (əsas müəllifi). Qeyd edək ki, həmin kitabın rəyçisi AMEA Tarix İnstitutudur.

Yazışı-jurnalist, tarixi araşdırmaçıdır. Şeirlərindən; nəsr və nəzmlə yazılmış satiralardan, pyeslərdən, məsxərələrdən... ibarət kitabların müəllifidir. "Qarabağ taleyimiz" (1990), "Salam, İstiqlal" (2000; 2001), "Haqsız dünya" (2001), "Azəri soyqırımı" (2002; 2007) adlı bədii kitabları yayınlanmışdır.

Bədii yaradıcılığına (şer və satiralarına) klassiklər səviyyəsində, yüksək rəylər verilmişdir.

Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

"31 Mart" Azərbaycanlı Soyqırımını Tanıtım Təşkilatının Başqanıdır.

Azərbaycan-Türkiyə dövlətlərarası "Babaların Tarixi Zəfər və Şəhadət Yolu" layihəsinin tarixi-bədii məsələlər üzrə ekspertidir.

Pakistan-Azərbaycan Əlaqələri Cəmiyyətinin qurucusu və Başqanıdır.

"Azəri soyqırımı" pyesinə və tarixi araşdırmalarına görə qeyri-hökümət təşkilatlarının (Türkiyə Universitetləri Məzunları İB və Tərxis Olunmuş Hərbiçilərin Gəncləri Maarifləndirmə İB-nin) təqdimatı ilə Türkiyənin Azərbaycandakı Böyükelçiliyinin "Bir millət – iki dövlət"ödülünə layiq görülmüşdür.



# ÖN SÖZ

Bu gün bütün mədəni dünyanı təhdid edən ən qorxulu təhlükələrdən biri təcavüzkar erməni separatizmidir. Açıq-aşkar anti-Azərbaycan, anti-türk, anti-islam səciyyə daşıyan erməni separatizminin ideya əsasını qonşu xalqların əraziləri hesabına "Böyük Ermənistan" yaradılmasını nəzərdə tutan bədnam nəzəriyyə təşkil edir.

Öz məqsədlərinə çatmaq üçün erməni şovinistləri ən alçaq, anti-bəşəri metodlardan – terror, soyqırım, deportasiyadan istifadə edir, qonşu xalqların torpaqlarını zorla ələ keçirməyə can atırlar. Azərbaycan xalqı son iki əsrdə ermənilərin vəhşi mübarizə formalarının dəfələrlə şahidi olmuş, bu gün də onun torpaqlarının beşdə biri düşmən tapdağı altındadır.

Erməni millətçiləri bu gün də qonşu xalqlara şər-böhtan atmaqda, fitnə-fəsad törətməkdə, tarixi hadisələri saxtalaşdırmaqda davam edirlər.Yüz ilə yaxındır ki, onlar öz yalanları ilə dünya ictimaiyyətini çaşdırmağa, özlərinin əzabkeş obrazlarını yaratmağa çalışırlar.

Hələ 1905-ci ildə «Həyat» qəzetində Əli bəy Hüseynzadə erməni böhtançılarına üzünü tutaraq deyirdi: "erməni müəllifləri çahilanə nifaq, hər iki tərəfi müsavat üzrə zərərdidə edib, eyni müsibət və fəlakətlərə düçar etdiyi halda, erməniləri haqlı, insaniyyətli, bigünah və əlhasil məsum bir quzu kimi göstərməyə, bizi isə bunun əksi – ovsaf ilə tövsif etməyə qeyrət ediyorlar, qəzetlərlə, teleqraflarla, ajanslarla Avropanın bir ucundan o biri ucuna, bəlkə də Amerika və Avstraliyaya qədər o yolda fəryadlar ediyorlar.

Daha doğrusu bizim kibi aciz qalmayıb, edə biliyorlar idi. Pişik öz pisliyini sitr etdiyi kibi, bunlar da öz qüsurlarını, öz qəbahətlərini, öz vəhşətlərini söz tufanı içində gizləyib, bizim isə ən kiçik qəbahətimizi birəni dəvə edərcəsinə mübaliğələndiriyorlar idi. Bu qədərlə də iktifa etməyib adətən qəsdi-iftiralarda bulundular."

Bu gün bütün tarix elmi qarşısında duran ən başlıca vəzifə ermənilərin Azərbaycan və türk xalqlarına qarşı həyata keçirdiyi soyqırım və terror siyasətini ifşa etməkdən, erməniliyin əsl simasını açıb göstərməkdən, onun məzlumluq maskasını qırıb atmaqdan ibarətdir. Tarix və həqiqət bizim tərəfimizdədir. Son vaxtlar bu istiqamətdə həm Türkiyədə, həm də Azərbaycanda bir sıra addımlar atılsa da, hələ qarşıda bizi çox ciddi işlər gözləyir. Erməni fitnəkarlığını, saxtakarlığını konkret faktlarla, sənədlərlə ifşa etmək üçün biz indikindən daha səylə çalışmalı, bütün fəaliyyəti buna yönəltməliyik. Bu istiqamətdə atılan hər bir addım dəstəklənməli və alqışlanmalıdır.

Bu baxımdan tədqiqatçı-alim Xaqani İsmayılın ««Erməni məsələsi» və türk-müsəlman soyqırımı» adlı kitabının işıq üzü görməsi mühüm hadisə sayılmalıdır. Kitabda Türkiyə və Azərbaycan ərazilərində erməni vəhşiliklərini ifşa edən sənədli materiallar öz əksini tapmışdır. Müfəssəl ensiklopedik əsər təsiri bağışlayan bu kitab yarandığı dövrdən zəmanəmizədək «erməni məsələsi»nin əsl mahiyyəti, əsas mərhələləri və acı nəticələrini elmi sübut və dəlillərlə açıb göstərmişdir.

Məlumdur ki, XX əsrin əvvəllərində öz fəaliyyətlərini Cənubi Qafqaza yönləndirən erməni millətçiləri burada gələcək erməni dövlətçiliyini yaratmaq məqsədi ilə bölgənin yerli əhalisi olan Azərbaycan türklərinə qarşı xəyanətkar əməllərə, terror hərəkətlərinə başlamış 1905-1906-cı illərdə Bakıda, Şamaxıda, Gəncədə, Tiflisdə, İrəvanda, Naxçıvanda, Şuşada qanlı faciələr törətmişlər. Lakin onlar bu dəfə layiqli cavab alsalar da, öz xain fəaliyyətlərini davam etdirmək üçün əlverişli məqam gözləmişlər. Belə məqamın I Dünya Müharibəsindən və Rusiya İmperiyasının süqutundan sonra yarandığını düşünən ermənilər bolşevik

Rusiyasının simasında özlərinə siyasi müttəfiq tapdıqlarına ümid edərək 1918-ci ilin yazında Bakı quberniyasında və digər bölgələrdə əsl soyqırım törətmiş, insanlığa qarşı cinayətin növbəti iştirakçılarına çevrilmişlər.

Xaqani İsmayıl daşnak-bolşevik tandeminin Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Salyanda, Qarabağda, İrəvanda, Naxçıvanda törətdikləri qətliama dair yeni sənədlər təqdim etməklə, soyqırım hadisəsinin əsl mahiyyətini bir daha ortaya qoymuşdur.

Kitabda diqqəti cəlb edən mühüm məqamlardan biri də odur ki, orada həmin dövrdə (1918-1920-ci illərdə) Azərbaycandan başqa, türk-müsəlman əhalinin yaşadığı bölgələrdə- Anadoluda, Cənubi Azərbaycanda, Borçalıda, Şimali Qafqazda dinc əhaliyə qarşı soyqırım, terror hadisələri arxiv sənədlərinə və elmi qaynaqlara əsaslanaraq geniş araşdırılmışdır. Kitabın fərqləndirici xüsusiyyətlərindən biri 1914-1921-ci illərdə ermənilərin Anadoluda türklərə qarşı yapdıqları kütləvi qırğın və zülmləri əks etdirən arxiv sənədlərini ortaya qoymasıdır. Əsərdə həmçinin həmin dövrdə cərəyan edən proseslər, Mustafa Kamal və Kazım Qarabəkirin başçılığı altında Anadolunun və Cənub-Qərbi Qafqazın erməni bandit dəstələrindən xilas edilməsi, yerli türk-müsəlman əhalinin öz milli mövcudluqlarını qorumaq üçün apardıqları mücadilə də geniş araşdırılmışdır. Bundan əlavə, Nuru paşanın başçılığı ilə Qafqaza gələn Qafqaz İslam Ordusunun hərbi xilaskarlıq əməliyyatları da mərhələlərlə tədqiq edilərək, Azərbaycanın, o cümlədən Bakının qurtuluşu tarixi qaynaqlar əsasında oxuculara çatdırılmışdır.

X.İsmayılın qondarma "erməni soyqırımı" iddialarını təkzib edən elmi araşdırmalarının isə çox mühüm elmi və siyasi əhəmiyyəti vardır. Ümumiyyətlə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq, müəllif müxtəlif ölkələrin arxivlərindəki sənədlərə istinad edərək ermənilərin və onların havadarlarının tarixi saxtalaşdırmaq cəhdlərini qətiyyətlə ifşa edir. Bu baxımdan kitabda verilmiş Osmanlı İmperiyası DİN-in "Dövlət əleyhinə fəaliyyətlərdə bulunan erməni komitə mərkəzlərinin qapadılması haqda" 24 aprel 1915-ci il tarixli əmri, Osmanlı Parlamentinin Təhcir Qanunu və onların şərhi çox təqdirəlayiqdir.

X.İsmayıl müxtəlif elmi mənbələrə əsaslanmaqla kifayətlənməyib müxtəlif ölkələrdə müxtəlif dillərdə mövcud olan, "erməni soyqırımı"nı yalanlayan sənədləri də ortaya qoymuşdur. Bu sənədlər sırasında I Dünya Müharibəsi gedişində "erməni və yunan qırğınları"nı araşdıran Britaniya Krallıq Prokurorluğunun istintaq sənədləri və b. xüsusi önəm daşıyır.

Kitabda geniş oxucu kütləsinə məlum olmayan bir sıra arxiv sənədlərinin surəti də verilib. Bu baxımdan "Rus diplomat və hərbçiləri ermənilər haqda", "Kipr və ermənilər", "Erməni sui-qəsdi Türküstanda" bölmələrində işıqlandırılan, bundan başqa, Şaumyanın sağ qalaraq sonra Hindistanda yaşamasını təsdiq edən gizli sənəd və faktlar indiyədək tarixçilər üçün də qaranlıq məsələlərə aydınlıq gətirilməsi nöqteyi-nəzərindən çox dəyərlidir.

Xaqani müəllimin kitabda erməni vəhşiliyini əyani şəkildə açıb göstərən, o cümlədən Qarsda günahsız qadınlara (həmçinin azyaşlı rus qızına və onun anasına və b. xristianlara) qarşı ağlasığmaz hərəkətləri təsdiq edən önəmli sənədlərə yer verməsi müəllifin bu sahədə uzun axtarışlarının mühüm nəticəsi hesab edilməlidir.

Müəllifin qələmə aldığı "Erməni terroru yeni dönəmdə" adlı bölmədə yerləşdirdiyi materiallar ermənilərin hal-hazırda da öz "ənənələrinə" sadiq qaldıqlarını, tarixi saxtalaşdırmaqdan, türklərə şər və böhtan atmaq cəhdlərindən əl çəkmədiklərini sübuta yetirir.

X.İsmayılın hazırladığı və bu kitaba daxil etdiyi "Zəngəzur və işğal-qəsbkarlıq nəticəsində itirilmiş başqa ərazilər məsələsinin qaldırılması və Ermənistan – Azərbaycan münaqişəsinin tarixi varisliyi ilə bağlı kompleksin ortaya qoyulması ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinə Müraciət" Ermənistanda rezonansla qarşılanmış: "Arminfo", "İA Regnum", "Vision", "Hayastan.com" və b. ingilisdilli, fransızdilli və rusdilli informasiya agentlikləri, saytları və qəzetləri də bu müraciətə (konsepsiyaya) münasibətlərini bildirmişlər. Başqa sözlə, müəllifin atdığı güllə hədəfə dəymiş, erməni tərəfi ciddi bir diplomatik arqument basqısı qarşısında qala biləcəyini dərk etmişdir...



Kitabın "Əlavə bölüm"ündə, ermənilərin vəhşi kimi təqdim etdikləri türklərin əslində hansı yazılı mədəniyyətə sahib olduğu şərh olunub: ən qədim türk (o sıradan Azərbaycan ) yazılı abidələri və əlifbalarının mənşəyi haqqında qısaca bəzi zəruri bilgilər verilib. Türk yazılı abidələrinin və əlifbalarının ilkinliyi əsasən də əcnəbi müəlliflərə dayanaraq inandırıcı şəkildə əsaslandırılıb.

Kitabın sonunda müəllifin "Kəşmir məsələsi", Ukrayna xalqının "Qolodomor" faciəsi və "Orta Asiyada daşnak faciələri" kimi elmi ictimaiyyət üçün yeni olan maraqlı tədqiqatları da yer alıb...

Əlbəttə erməniləri türklərə və azərbaycanlılara qarşı təcavüzə təhrik edən dünya imperializmi Yer kürəsinin müxtəlif nahiyələrində fitnə-fəsad törətməkdə davam edir ki, bu da dünyada bəzən (Kəşmir məsələsinin timsalında) nüvə qarşıdurmasına qədər aparıb çıxara biləcək münaqişə ocaqlarının yaranması ilə nəticələnir.

Bu araşdırmada Hindistanın işğal etdiyi Kəşmir ərazilərində hind ordusu tərəfindən insan hüquqlarının barbarcasına pozulması, "Kəşmir məsələsi"nin tarixi, bu bölgənin beynəlxalq statusu, Kəşmir əhalisinin lehinə olan BMT qətnamələrinin məzmunu və mahiyyəti, dünya miqyaslı təşkilat və şəxslərin Kəşmirin gələcəyi ilə bağlı bəyanları və proqnozları, Kəşmirdə şəffaf şəkildə keçirilməsi nəzərdə tutulan xalq səsverməsinə Hindistanın yaratdığı zəncirvari əngəl siyasətinin üz və astar mənzərələri Pakistan qaynaqları və beynəlxalq sənədlərlə açıqlanır, habelə Hindistanın atəşkəsi pozub qəflətən Pakistana hücumu və müdhiş müharibə... Pakistanın qat-qat üstün qüvvə üzərində parlaq qələbəsi... hal-hazırda da iki nüvə dövlətinin bu müşkül səbəbilə qarşıdurmasının beynəlxalq təhlükəsizliyə təhdid yaratması şərh olunur.

Əsərdə diqqəti cəlb edən, onu digər kitablardan fərqləndirən başlıca cəhətlərdən biri də burada tarixiliklə müasirliyin vəhdətinə nail olunmasıdır. Kitabda verilmiş materiallar erməni tarixinin bütün mərhələlərində erməni millətçilərinin öz sərsəm ideyalarını həyata keçirmək üçün göstərdikləri fəaliyyətləri güzgü kimi özündə əks etdirir.

İkincisi, müəllifin gəldiyi qənaətlər onun subyektiv fikirlərinin nəticəsi deyil, tarixi sənədlərə əsaslanan elmi yekunlardır.

Əsasən elmi ictimaiyyət, siyasətçilər (xüsusilə də diplomatlar), təhsil ictimaiyyəti, habelə diaspor qurumları üçün nəzərdə tutulan bu kitab Xaqani İsmayılın uzun illər ərzində müxtəlif ölkələrin arxivlərində, elmi mərkəzlərdə, kitabxanalarda apardığı səmərəli araşdırmaların nəticəsidir.

Müəllifin tədqiqatlarının bir xüsusiyyəti də ondan ibarətdir ki, onun kitab vasitəsilə oxucuya çatdırdığı yeni sənədlərin çox zaman ya fotosurəti, ya da ən azı arxiv şifrələri təqdim edilib, tarixi qaynaqların adları və səhifələri tam göstərilib -başqa sözlə səhihlik son dərəcə təmin edilib, istənilən dünya oxucusuna və ya ekpertinə, o sıradan opponentlərə şübhə yeri buraxılmayıb... ki, bu da "erməni məsələsi" ilə bağlı müasir səviyyədə polemikada çox əhəmiyyətli şərtdir.

Əsərdə (tarixin axarı ilə) erməni millətçilərin təsiri altında yaranmış bu xalqın etnik-psixoloji problemləri də araşdırıldığından, istər "erməni məsələsi" (və həmçinin qondarma "erməni soyqırımı"), istərsə də ermənilərin tarixi iddiaları haqda, o sıradan Dağlıq Qarabağ məsələsi barədə ədalətli mövqeni müəyyən etmək üçün əsər konfliktoloqlara, beynəlxalq sülh

yaratma missiyasını üzərinə götürmüş yüksək çinli diplomatlara, politoloqlara... və dövlət adamlarına səhih və hərtərəfli mənbə kimi faydalı ola bilər.

Heç şübhəsiz ki, müəllifin bu kitabındakı bir çox məqamlar elmi ictimaiyyət üçün yeni olduğu üçün təhsil ictimaiyyəti üçün də yeni və əhəmiyyətlidir. Bu səbəbdən də X.İsmayılın bu əsəri geniş anlamda bir dərslikdir və onun bu tədqiqatlarının müvafiq hissələri orta və ali məktəblərin tarix dərsliklərinə salınması zəruridir.

Yuxarıda sadalanan səbəblərdən də Xaqani İsmayılın ««Erməni məsələsi» və türk-müsəlman soyqırımı» adlı tarixi tədqiqatının nəinki təkcə Azərbaycan və türk dillərində, həmçinin ən önəmli Avropa dillərində və rusca nəşrini vacib və təxirəsalınmaz hesab edirəm.

**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru: Kamran İSMAYILOV**



## BİGANƏLİK – İNFORMASİYA SAVAŞINDA MƏĞLUBİYYƏTDİR!

Xaqani İsmayılın ««Erməni məsələsi» və türk-müsəlman soyqırımı» kitabının çapa təqdim edilmək üçün hazırlanmış nüsxəsi ilə bir rəyçi kimi tanış olmamışdan hələ bir neçə il öncə müəllifin "Azəri soyqırımı" adlı tarixi-bədii əsərini oxumuş, onun tarixi-bədii missiyası ilə tanış olmuşdum. Əslində "Azəri soyqırımı" kitabı ilə tanışlığım həmin kitabın redaktorlarından biri, o vaxt XİN-nin mətbuat xidmətinin başçısı olan Mətin Mirzənin vasitəsilə baş vermişdi... Bu əsərin yeni nəşr olunduğu o zaman çoxları kimi biz də tezliklə səhnələşəcəyini gözləyirdik. Ancaq...

«Erməni məsələsi» və türk-müsəlman soyqırımı» kitabına gəldikdə isə, digər rəyçilər kimi, mən də mövzunun əhatəliliyi, faktların və yeni tarixi sənədlərin zənginliyi, istinadların dəqiqliyi və etibarlılığı, müəllif şərhlərinin aydınlığı və dərinliyi, önəmli tarixi hadisə, detal və sənədlərin daha geniş bazada təqdimatı və açıqlanması – başqa sözlə kitabın dəlil, məntiq yükü və mükəmməllik xüsusiyyətləri baxımından heyrətimi və sevincimi açıqca ifadə edərək müəllifə xeyir-dua dilədim.

Xaqani İsmayıl kitabında haqlı olaraq azərbaycanlıların 1918-ci il soyqırımına və "erməni soyqırımı" iddialarına xüsusi yer ayırmış və hər iki mövzunun əhatə olunmasında öncüllük edərək yeni sənədlər üzə çıxarmışdır. O, belə bir tezis irəli sürərək sübuta yetirmişdir ki, "erməni millətçiləri "erməni soyqırımı" iddialarını hüquqi müstəvidə əsaslandıra bilmədikləri üçün onu siyasi müstəviyə atmışlar!" Ona görə də, üstündən bir əsrə yaxın müddət keçməsinə baxmayaraq, heç bir məhkəmədə təsdiqini tapmayan "erməni soyqırımı" iddiaları simsar ölkələrin parlamentlərini dolaşmaqdadır. Başqa sözlə göstərilə iddia ilə bağlı hüquqi qərarlar alınması mümkün olmadığı üçün siyasi qərarlar alınır... Yəni məsələ siyasiləşmişdir!..

Soyqırım anlayışına görə, iddianın məhkəmədə sübut edilməsi və müvafiq məhkəmə qərarının alınması zəruri tələbdir. Müəllifin araşdırmalarından bəlli olduğu kimi, Azərbaycan dövlətinin arxivlərində 1918-ci il soyqırımına dair tutarlı istintaq sənədləri var. Nəinki təkcə Xocalı hadisələri ilə bağlı sənədlərə, həm də 1918-ci il soyqırımı ilə bağlı sənədlərə əsaslanaraq azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qaldıqlarını beynəlxalq müstəviyə daha cəsarətlə çıxarmaq olar. Türkiyəyə gəldikdə isə, Osmanlı arxivlərindəki dəlillər də, Britaniyanın apardığı istintaqın sənədləri də türklərin "erməni soyqırımı" ittihamı qarşısında suçsuz olduğunu heç bir şəkk-şübhə olmadan sübuta yetirir. Müəllifin bir tədqiqatçı kimi məsələlərə bu cür yanaşması nə qədər müstəqildirsə, həm də Azərbaycan və Türkiyə diplomatiyasının beynəlxalq aləmdəki uzlaşmış fəaliyyət mövqeyinə tam uyğundur. Məlum olduğu kimi, hər il 24 aprel ərəfəsi erməni millətçiləri və diasporu, həmçinin onların havadarları yüksək dünya kürsülərindən Türkiyəni "erməni soyqırımı"nda ittiham edərək həm Ermənistanın bugünkü Azərbaycan torpaqlarının 20%-ni işğal etməsi faktını və Xocalı soyqırımı gerçəklərini kölgədə qoymaq, tədricən unutdurmaq, Qarabağdakı status-kvoya dünyanı öyrəşdirmək istəyir; həm də Türkiyəyə ərazi iddialarını gerçəkləşdirmək və imkan olarsa Azərbaycandan silahlı yolla yeni ərazilər qoparmaq üçün tarixi fürsət gözləyirlər.

Düşmənin yüzilliklər boyu uzaqmənzilli siyasi hiyləgərlik xəttini araşdıraraq onun məkr şəbəkəsindən hali olan müəllif haqlı olaraq bu əsəri ilə bütün siyasətçiləri, diplomatları, diaspor qurumlarını, hüquqşünasları, dövlət nümayəndələrini, mədəniyyət təmsilçilərini, tədqiqatçı və media işçilərini... nəhayət ziyalı gəncliyi Vətənin və millətin bu günü və gələcəyi naminə bu həqiqətlərlə silahlanıb indiki dövrün ən önəmli mübarizəsi olan informasiya savaşında Azərbaycanın müdafiəsində fəallığa çağırır.

Bu çağırışa biganə qalmaq olmaz!

Bəxtiyar ƏKBƏROV,
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, professor*

## *MÜƏLLİFİN ARAŞDIRMALARININ TƏQDİMATI VƏ XARİCİ SƏFƏRLƏRİ HAQDA*
### *(ŞƏKİLLƏRLƏ)*

Bu kitabın müəllifi Xaqani İsmayıl Azərbaycan, Türkiyə və Pakistanın müxtəlf universitələrində, yüksək rəsmi kürsülərdə və qeyri-hökumət qurumlarının düzənlədikləri konfranslarda zaman-zaman tarixi araşdırmaları ilə çıxış edərək kölgədə qalan bir çox tarixi həqiqətləri diqqətə çatdırıb. Onun çıxışlarını bu ölkələrin media orqanları, o sıradan TV və radioları, saytları (bunlardan başqa, ABŞ –da yayımlanan Güney Azərbaycan Televizyonu) və dövlət agentlikləri (Türkiyənin "Anadolu" agentliyi) zaman-zaman yayınlayıb. Müəllifin Bakı Dövlət Universitəsi, Naxçıvan Dövlət Universitəsi, Sumqayıt Dövlət Universitəsi, BDU-nun Gənc İstedadlar Liseyi və Türkiyənin Bakıdakı "Anadolu Lisesi"ndə; Türkiyə Kültür və Turizm Bakanlığının dəvəti ilə dövlətlərarası layihə uzmanı kimi iştirak etdiyi Türkiyənin Ərzurum Atatürk Universitəsi, (Trabzon) Qaradəniz Texniki Universitəsi və Qars Qafqaz Universitəsində; İqdır, Qars, Trabzon, Ərzurum valiliklərində rəsmi törənlərdə; Türkiyə Kültür və Turizm Bakanlığının, "Kazım Qarabəkir Vəqfi"inin İstanbulda, Çanaqqalada və b. yerlərdə düzənlədikləri tədbir və konfranslarda; TRT-nin müsafiri olaraq bulunduğu zaman Ankarada Türk Tarix Qurumu, dərnəklər, media quruluşları ilə görüşlərdə, Pakistanın Pişəvər Universitəsi, İslamabad Siyasi Araşdırmalar İnstitutu, Pakistan Xarici İşlər Nazirliyi, Mədəniyyət və Gənclər Nazirliyi, İnformasiya və Yayım Nazirliyi və Pakistan Parlamentində düzənlənmiş rəsmi görüş və törənlərdəki çıxışları bu qəbildəndir. Pakistan tərəfi Xaqani İsmayılın özətlərini təqdim etdiyi bu araşdırmaları bütövlükdə kitab şəklində ingiliscə çap edərək yaymağı təklif etsə də, Azərbaycan tərəfi əsərin ingiliscəyə çevrilməsi ilə bağlı məsələni həll etmədiyi üçün layihə yarımçıq qalmışdır. Eyni tale Xaqani İsmayılın "Azəri soyqırımı" tarixi-mənzum pyesinə də aid edilə bilər: belə ki, bu pyesin Pakistanda səhnəyə qoyulması üçün Pakistan Mədəniyyət və Gənclər Naziri Xəvəcə Səəd Rəfiqinin təklifi əsərin ingiliscəyə və ya urducaya çevrilməsi probleminin Azərbaycan tərəfi və ya "xeyriyyəçiliyi" öz xeyrinə, yaxud qeyri-milli maraqlara sərf eləyən "Türkiyə-Azərbaycan iş adamları", həmçinin diaspor dəllalları tərəfindən həll edilməməsi səbəbindən indiyədək də arzu olaraq qalmaqdadır...

***

Müəllifin başçılığı ilə Azərbaycan nümayəndə heyətinin Pakistan səfəri haqda daha ətraflı tanış olmaq üçün Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin orqanı olan "Mədəniyyət" qəzetində yayınlanmış aşağıdakı məqaləni təqdim edirik:



## *GENİŞ MƏTBUAT KONFRANSI*
*(Kiçik ixtisarla)*

Rəsmi dəvət üzrə (aprelin 22-30 aralığında) Pakistanda səfərdə olmuş (ilk) Azərbaycan media və ictimaiyyət nümayəndələri (2008-ci il) mayın 20-də Beynəlxalq Mətbuat Mərkəzində səfərin nəticələri ilə bağlı mətbuat konfransı keçirdilər...

Heyət üzvləri Pakistanda keçirdikləri görüşlər, ölkələrimiz üçün önəmli olan mədəni-mənəvi ilişgilər barədə geniş məlumat verdilər. "Təhsil problemləri" qəzetinin redaktoru, yazıçı-tarixi araşdırmaçı Xaqani İsmayılın rəhbərlik etdiyi bu heyətdə "Euro xəbər" qəzetinin və "İrəli" Gənclər Təşkilatının təmsilçisi Mikayıl Həsənli, "Azad Azərbaycan" TV-nin Xəbərlər Xidmətinin redaktoru Bəhruz Məhərrəmov, Siqma Araşdırmalar Mərkəzinin araşdırmaçısı, DAK-ın Gənclər Təşkilatının qeyri-hökumət qurumları ilə iş üzrə sədr müavini Pərvanə Süxəndani, "Marketinq" jurnalının əməkdaşı Mirağa Ələkbərov da iştirak etmişlər.

Çıxışlardan məlum oldu ki, İslamabad Siyasi Araşdırmalar İnstitutu (İPRİ) ölkənin Baş Nazirinin təşkil etdiyi bir qurumdur və qrantlar əsasında maliyyələşir. İPRİ-nin hazırladığı sənədlər uluslararası qurumlarda Vaşinqtonun müvafiq İnstitutlarının araşdırma sənədləri ilə eyni səviyyədə sayılır. Azərbaycan heyətinin ilk görüşü də məhz bu institutda olmuşdur. Heyət üzvləri sözügedən ölkədəki görüşlərinin Azərbaycan dövlətçiliyi üçün ən önəmli məqamlarını diqqətə çatdırdılar: "Qarşılıqlı çıxışların məzmunu hər iki xalqın bir-birinə daha da yaxınlaşmaq, doğmalaşmaq, bir-birinə dəstək olmaq niyyətini üzə çıxarırdı. Biz pakistanlılara Hindistanla münaqişədə olduqları Kəşmir məsələsində dəstəyimizi sürdürəcəyimizi, bu məsələnin ictimaiyyətə daha geniş açıqlanmasında yardımçı olacağımızı bildirdik. Onlar da eyni mövqeni Dağlıq Qarabağ məsələsinə münasibətdə bizimlə paylaşdılar".

"İstər bu İnstitutdakı görüşümüzdə, istərsə də Xarici İşlər Nazirliyi və Pakistan Parlamentindəki görüşlərimizdə qrupumuzun rəhbəri Xaqani İsmayıl I Dünya Savaşı zamanı və onun fonunda Türkiyə, İran (özəlliklə Güney Azərbaycan) və Qafqaz bölgəsində baş vermiş türk-müsəlman soyqırımları, erməni işğalları, Türkiyəyə qarşı erməni xəyanəti, dırnaqarası erməni soyqırımı və s. haqda Türkiyə, Azərbaycan və müxtəlif dünya ölkələrindəki arxiv sənədlərinə əsaslanaraq ətraflı məlumat verdi. Azərbaycanlıların soyqırımlarını tarixi sənədlərə, o sıradan 1918-1920-ci il aralığındakı istintaq materiallarına dayanaraq açıqladı, xalqımızın başına gətirilən soyqırımın hüquqi-siyasi aspektdən tanınması zərurətini vurğuladı..."

Qonaqlardan "İdeal demokratiya" qəzetinin baş redaktoru Məhərrəm Zaman, professor Ziyatxan Nəbibəyli, tədqiqatçılar Əli Kərimbəyli, Sənubər Sarallı və başqaları da uluslararası siyasi məclislərdə Pakistanın Azərbaycanı dəstəkləməsini xüsusi qiymətləndirərək Pakistan dövlətinə və bu ölkənin Türk və Azərbaycan sevgi-sayğısı ilə yaşayan səmimi, sadə xalqına öz təşəkkürlərini bildirdilər...

Səfər çərçivəsində Pakistan Xarici İşlər Naziri Şah Məhmud Qureyşi, Mədəniyyət və Gənclər Naziri Xəvəcə Səəd Rəfiqi, İnformasiya və Yayım Naziri Katibliyinin başçısı Fəzalur Rəhman Maliklə və Pişəvər Universiteti-Rusiya, Çin və Mərkəzi Asiya Ölkələrini Öyrənmə Mərkəzinin dekan və professor-müəllim heyəti ilə görüşlər keçirildiyi bəlli oldu.

Səfər iştirakçıları bildirdilər ki Senatın Xarici Əlaqələr Komitəsinin Sədri M.H.Səid Azərbaycan nümayəndələrinin şərəfinə Parlamentin rəsmi qonaqlar üçün ziyafət salonunda Parlament üzvlərinin, xarici ölkə səfirlərinin, media nümayəndələrinin iştirakı ilə brifinq keçirmiş və ziyafət vermişdir. Pakistanın Mədəniyyət və Gənclər Naziri Xəvəcə Səəd Rəfiqi isə Xaqani İsmayılın 1918-ci il hadisələrindən bəhs edən "Azəri soyqırımı" tarixi-mənzum pyesinin Pakistan teatrlarında səhnəyə qoyulmasını təklif etmişdir.

"Pakistanlıların vətənsevərliyi, Türk-Azərbaycan sevgisi, qonaqpərvərliyi, nail olduqları demokratik-hüquqi dövlət sistemi bizləri çox sevindirdi" – deyən səfər iştirakçıları əlavə

etdilər ki, münasibətləri bizdən sonrakı nəsillərin daha da inkişaf etdirməsi üçün Azərbaycan–Pakistan Dostluq Cəmiyyətinin yaradılmasına ehtiyac duyduq və səfərdən döndükdən sonra müvafiq təşəbbüs qrupu da yaratdıq. "Düşünürük ki, səfərimiz uğurlu oldu və Pakistan–Azərbaycan dostluğu bir qat da dərinləşdi"- deyən qrupun başçısı Xaqani İsmayıl mətbuat konfransını yekunlaşdırdı.

**Kəmalə CƏBRAYIL**

*("Mədəniyyət" qəzeti, 22.05.2008. Bakı, səh.4)*

**Qeyd:** *Məlumdur ki, Azərbaycan Respublikasının müstəqilliyi öncə Türkiyə, sonra İran və Pakistan tərəfindən tanınıb. Üstəlik, Pakistan daha da irəli gedərək, Ermənistanı bir dövlət kimi indiyədək tanımaqdan imtina edib, Azərbaycana təcavüz siyasətindən əl çəkməyənədək də, tanımayacağını bildirib. Ona görə də bu kitab müəllifi Azərbaycanın Pakistanla əlaqələrinin gərəkli sahələrdə (öncəliklə: siyasi, hərbi, mədəni, iqtisadi alanlarda) zirvələrə qaldırılmasının zərurət olduğu qənaətindədir.*






*Pişəvər Universitəsində*




***İslamabad.** Pakistan İnformasiya və Yayım Nazirliyində*




***İslamabad.*** *Pakistan Parlamentinin rəsmi ziyafət salonu. (Soldan) Xaqani İsmayıl, Mikayıl Həsənli, Pakistan Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Müşahid Hüseyin, Mirağa Ələkbərov, Bəhruz Məhərrəmov*




***İslamabad Siyasi Araşdırmalar İnstitutunda görüşdən sonra***




***İslamabad.*** *Azərbaycanın Pakistan səfirliyinin qarşısında*




***Pakistanın Hindistanla sınırındakı hərbi törəndə.*** *Soldan: Pərvanə Süxəndani, Xaqani İsmayıl, Mirağa Ələkbərov, Mikayıl Həsənli (Pakistan əsgərləri ilə)*



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 88471




*İstanbul Universitəsinin professoru Alparslan İşıqlı ilə*




***Soldan:*** *Musiqiçi İstanbul İsmayıl, prof. Dəmir Gədəbəyli, Xaqani İsmayıl, Türkiyəli eyitimçi-yazar Mahiyə Morgül, siyasətçi Svetlana Bayramlı*





***Trabzon.*** *Kazım Qarabəkir Paşanın qızı Timsal xanımla Qaradəniz Texniki Universitəsindəki konfransdan sonra*




*Qars Qafqaz Universitəsində*



**Azərbaycan Yazıçılar Birliyində** Xaqani İsmayılın "Azəri soyqırımı" kitabının təqdimetmə mərasimi (02 .04.2003). Aparıcılar: (solda) Azərbaycan Jurnalistlər Birliyinin Katibi Ramiz Əskər, (sağda) Azərbaycan Yazıçılar Birliyinin Katibi Fikrət Qoca



**Bakı. Filarmoniya. Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Böyükelçisi (halhazırda Türkiyə Prezidenti Katibliyinin Başqanı) Hüseyin Avni Karslıoğlu Xaqani İsmayıla "Bir millət, iki dövlət" mükafatı təqdim edir.** (Soldan) Azərbaycan Milli Məclisinin Sədr müavini Ziyafət Əsgərov, Hüseyin Avni Karslıoğlu, Türkiyə Universitələri Məzunları İB-nin sədri Çingiz Bayramov, Xaqani İsmayıl, Tərxis Olunmuş Hərbçilərin Gencləri Maariflendirmə İB-nin sədri Emin Həsənli





**Trabzon.** Qaradəniz Texniki Universitəsi. Müəllifin ekspert kimi təmsil olunduğu Türkiyə-Azərbaycan dövlət heyəti Kazım Qarabəkir Paşanın qızı Timsal xanımla



**Doğu Anadolu.** Türkiyə-Azərbaycan dövlət və universitə təmsilçilərindən ibarət heyət Ərzurum bölgəsində




***Soldan:*** *Pakistanın Azərbaycandakı Səfirliyinin hərbi attaşesi cənab Colonel Rizwan Afzal Malik, Xaqani İsmayıl və Pakistanın Azərbaycandakı Səfiri cənab İnayat Ullah Kakar Pakistanın Ordu Günü (Defence Day) münasibətilə rəsmi törəndən sonra*



***Tehran.*** *Pakistanın "KALEEM" həftəliyinin redaktoru Sultan Mahmood Shaheen və Xaqani İsmayıl*



***Tehran konfransında fasilə zamanı.*** *Pakistan nümayəndəsi Ahmed Hussain və Xaqani İsmayıl*







***İran. Əksər dünya ölkələrindən gəlmiş 400 nümayəndənin təmsil olunduğu Beynəlxalq "Əxlaq və siyasət" konfransı.*** *– 1-ci şəkildə soldan: Xaqani İsmayıl digər ölkə nümayəndələri ilə (Tehran); 2-ci şəkildə sağdan: Hindistan nümayəndəsi, İranın Dehlidəki səfirliyinin əməkdaşı, urdu soylu Faizi Naqvi və Xaqani İsmayıl (Məşhəd)*



***Konfrans nümayəndələri Məşhəd ziyarətgahında.*** *Soldan: Bütündünya Tatar Gəncləri Forumunun sədri Aysin Ruslan (Rusiya,Tatarıstan), məhkəmədə vəkil Abdul Marsook (Şri Lanka), Xaqani İsmayıl (Azərbaycan), müqəddəs "Quran"ı gürcücəyə çevirmiş ərəbşünas, Tbilisi Dövlət Universitəsinin professoru Giorgi Lobzlanidze (Gürcüstan) və adı bizə məlum olmayan növbəti bir ölkə təmsilçisi*



**1 №-li Respublika Fizika-Riyaziyyat Təmayüllü Məktəbin məzunları olmuş Azərbaycanın bir qrup ziyalısı öz şagird yoldaşları müəlliflə.** *(Soldan): Kamandar Səfərov, Vəli Orucov, Ədalət Əliyev, Hacı Mübariz Bayramov, Xaqani İsmayıl (müəllif), Gündüz Mustafayev, İkram Məmmədov, Habil Abdullayev, Misir Bədəlov, Elşad Alcanov, Fərahim Nağıyev, Oruc Bayramov, Malik Kərimov*





**Müxtəlif təşkilatların nümay... ...yaziyyat Təmayüllü Məktəbin məzunlarından ibar... ...Nic kəndindəki qədim alban məbədini– Çota...** *...soldan) Oruc Bayramov, Akif Qasımov, ... Mustafayev, Fərahim Nağıyev, (2-ci şə... ...nın üzvü Maqari Sevan*

63.3(5Aze)
İ 82
88471
İsmayıl X.
"Erməni məsələsi" və türk- müsəlman soyqırımı.
Bakı,,2013
3346.6.10.16.
15.00 AZN

Qeyd:

Bu alban kilsəsi qədim bir məbəddir: öncə taxtadan düzəldilmiş, XVII əsrdə isə indiki görkəmdə yenidən inşa edilmişdir.1836-cı ildə çar Rusiyasının fərmanı ilə Qafqazdakı bütün başqa alban kilsələri kimi bu dini ocaq da erməni kilsəsinin tabeçiliyinə keçirilmiş, buraya erməni kilsəsi keşiş təyin etdikdən sonra yerli alban-udi əhalisi kilsəni tərk etmişdir. Sovetlər dönəmində quru mal anbarı kimi istifadə edilən bu kilsə binası 2003-cü ildən əsl sahiblərinə ibadət üçün qaytarılmışdır. Robert Mobilinin başçılığı ilə 2003-cü ildən fəaliyyət göstərən alban-udi icmasının üzvləri alban məbədlərinə və bu icmanın təmsil etdiyi xalqın ulusal kimliyinə dair erməni iddialarını qətiyyətlə rədd edirlər. İcma üzvlərindən bizi məbədlə tanış edən Maqaki Sevan da azərbaycanca gözəl danışmaqla bərabər, bizlərdən də heç nə ilə fərqlənmirdi. Xatırladaq ki, 4000 nəfər alban-udinin və 3000 nəfərə yaxın azərbaycanlının yaşadığı Nic kəndində daha iki alban məbədi var, ancaq o kilsələrin təmirə ehtiyacı olduğundan hələlik fəaliyyət göstərmir.

***

*Rəsmi qaynaqlara görə, Çotari alban kilsəsi (məbədi) –Qafqaz Albaniyasında xristianlığın ilk təbliğat mərkəzlərindən (I-II əsrlər) olub. İsa peyğəmbərin həvarilərindən (apostol) olmuş müqəddəs Yeliseyin şərəfinə bina edilən kilsə böyük zaldan və onun üzərində ucaldılan çadırabənzər dam ilə örtülmüş kiçik zəng qülləsindən ibarətdir. Kilsə dördkünc planda inşa edilib. Kilsənin tikintisində Qəbələnin dağlarından gətirilən daşlardan istifadə olunub. Təkcə Qəbələ rayonunda deyil, eləcə də digər qonşu ərazilərdə olan alban kilsələrinin tikintisində də bu dağların daşlarından istifadə edilib. 2002-ci ildə məbəd əsaslı bərpa olunub. Hazırda məbəddən udilər dini ayinləri yerinə yetirmək üçün istifadə edirlər. Məbəd müqəddəs Yeliseyin adını daşıyır. 2006-cı ilin may ayında Qəbələ rayonunun Nic qəsəbəsində Müqəddəs Yelisey qədim alban kilsəsinin yerində Çotari alban-udi kilsəsinin açılış mərasimi keçirilmişdir **(1)***

Qaynaq:

1. http://www.gomap.az/info/

## İMPERİALİZMİN TÜKƏNMƏYƏN GEDİŞLƏRİ

*(Müəllifdən)*

I Dünya Savaşında Türk və İslam Dünyasını çökdürə bilməyən səlibçi imperializm (o sıradan "İncil"in orijinalını–bununla da İsa peyğəmbərin Şərqə gedərək uzun sürə təlim aldığını* *(Bax: Kamil Odər. Tarixə yeni baxış., Bakı, 2005.)* və sonra gələcək peyğəmbərin ismi ilə bağlı insanlığı müjdələməsini... – gizləyərək, xaçlı aləmini yanlış idrak (düşüncə) və ilhamlarla yönəldən Roma Kilsəsi–Vatikan) Sovetlər Birliyinin dağılmasından sonra bu məsələni yenidən gündəmə gətirir. Sovetlər Birliyinin mövcudluğu zamanı Qərbin Türkiyəyə və başqa islam dövlətlərinə öz siyasətində ehtiyacı böyük olduğundan, səlibçi dövlətlər bizimlə "hesablaşmağı", görünür, indiki dönəmə saxlamışlar.

Yəqin ki bu ağaların ön planlardan biri Türk Dünyasını parçalamaq, digəri qüdrətli islam dövlətlərini zəiflətmək, sonra isə Orta Doğuda xəritələri yenidən cizərək Türk-İslam Dünyasının onurğa sütununu birdəfəlik sındırmaqdan ibarətdir. İslam aləminin başına gələn fəlakətlər (Fələstin, Kəşmir, Doğu Türküstan (Uyğurıstan), Balkanlar (əski Yuqoslaviyadan qopan: Bosniya-Hersoqovina, Kosovo...) bir sözlə, I və II Dünya savaşları aralığıda 1 milyon, daha sonrakı dönəmlər də daxil olmaqla, 1,5 – 2 milyon nəfərədək qaçqın düşüb Türkiyəyə sığınan bosniyalı, alban və b. türksoylu (hətta slavlardan öncə məskunlaşmış olan) xalqların yaşadıqları ərazilər / –qaynaq: *TRT Bəlgəsəl, 27.01.2011. yayım- Ankara vaxtı ilə saat 18.00.-dan*), Quzey Kıbrıs, Dağlıq Qarabağ və b. yerlərdə baş verən] və onun bir çox ciddi sorunlarının çözülməməsi də birbaşa bu strategiya ilə bağlıdır. Taktika isə xalqlarının başını süni, dolayı məsələlərlə qatıb, üzərlərinə gələn əsl fəlakətin nədən ibarət olmasını anlamalarına və qabaqlayıcı tədbirlər almalarına macal tapmamaları üçün onlara göz açmağa imkan verməmək, onları vaxt darlığına salmaq, problem selində boğub, sonra əsas məqsədi uyqulamaqdır. Doğrudan da bu strategiya və taktikanın uyqulanması səbəbindəndir ki, başqa xalqlar təhsildə, elmdə, iqtisadi texnologiya, sosial tərəqqi və demokratik dəyişikliklər alanında yeni-yeni addımlar atdığı halda bir çox müsəlman ölkələrində nəinki hələ də köhnə müşküllərlə mübarizələr davam edir, hətta bir çox hallarda bu problemlərə yeniləri də əlavə olunmaqdadır. Xüsusən də Azərbaycanın timsalında bu xarakteristika daha qabarıq görünür: Dağlıq Qarabağ məsələsində illərdir yönünü itirmiş gəmi kimi "çapalayan" Azərbaycan Respublikası təhsil, elm, iqtisadi azadlıq, sosial tərəqqi, milli-mənəvi dəyərlərin qorunması və demokratik dəyərlərin tətbiqi sarıdan ürəkaçan durumda deyildir.

*[Bu sırada bir anlığa, haşiyə çıxaraq, imperialistlərin irəlidə gedənlərindən NATO-nun Baş Katibi Yaap de Hoop Sxeffer cənablarının Azərbaycan Prezidenti İlham Əliyevi Brüsseldə görər-görməz ("bismillah" və "əlhəmdülillah" arasında) qullandığı: "Ərazi bütövlüyü prinsipi sual altında qoyulmamalıdı..." ifadəsini yada salmaq istərdik. Belə çıxır ki, ölkəmizin ərazi bütövlüyü üçün bu zat bizim Prezidentdən daha çox can yandırırmış...* Bir deyən yoxmu ki, ayə, a *Yaap de Hoop cənabları, o söz sənin "müqəddəs" ağzından çıxanadək Azərbaycan NATO-nun 200 kərə irili-xırdalı tədbirinə qatılıbdır... və sənin dediyin bu Məlikməmməd nağılını da sizinkilər ildə 200 düz dəfə çeynəyərək çürüdürlər. Ancaq NƏTİCƏ "RƏHMƏTLİK" ortada yoxdu ki, yoxdu...]*

O da məlumdur ki, bizim başımız üzərində hərlənərək "Fatihə"mizi hazırlayan KABUS *(kölgə)* qardaş və dindaş Türkiyə Cümhuriyətinin də "Fatihə"sini proqramlaşdırmaqdadır... Bunu duyan, duymayan və duymaq istəməyənlərə parçalanmış Türkiyə cəmiyyətinin də dərdi, belə getsə (*haşa!*), həkimlik deyil, mollalıq olacaqdır.

KABUSa inanmayaraq, 24 apreldə gözlərini yumub ABŞ Prezidenti Obamanın ağzına "zilləyən", Türkiyənin Amerikaya "dayı" deyən hissəsi 2009-cu ilin 24 aprel günü də yenə möhkəm peşman oldu. Barak Obama haqqı-ədaləti (və əski müsəlmanlığını), üstəgəl, amerikalılığını yaddan çıxararaq, bir Vartana, bir Andranikə dönüb erməncə danışmağa başladı: "meds yeğren" ("böyük fəlakət"). Onun bu manerası (təməni) böyük siyasətə gəlişindən öncə Tülkülük İnstitutunu da əla qiymətlərlə bitirdiyindən xəbər verir. (Və çox təəssüf ki, çağdaş dünyada belə-belə hoqqalara hələ də "siyasət" deyilir.) Üstəlik, o zaman, Obama erməncə danışmağı ilə bərabər, həm də "Daşnaksütyun"un üzvlük haqqını yemiş adamlar kimi danışdı. – O, 1915-ci ildə 1,5 milyon ermənin "qətl edildiyini" bildirdi və bunu "qorxunc hadisə" adlandırdı.

Ancaq Obamanın ermənilərə bu cür **tarixi yaltaqlanması**ndan sonra da qonşularımız, yenə, həmişəki adətləri üzrə naşükürlük etmiş, Amerika Erməni Milli Komitəsinin rəhbəri Ken Xaçikyan və Amerika Erməni Milli Assambleyasının irəlidə gedənlərinin timsilçisi ABŞ Prezidentinin "soyqırım" ifadəsi işlətmədiyi səbəbindən məyus olduqlarını bildirmişlər...

**Haşiyə:**

1. Azərbaycanın sabiq dövlət müşaviri, politoloq, *professor Qabil Hüseynli demişkən, madam,* (ABŞ Konqresinin Nümayəndələr Palatasının *sədri ) Nensi Pelosi (24 apreldə bu Palatanın "Cannon" ofisindəki* **erməni ağlaşması***nda) deyir ki, "erməni soyqırımı" ilə bağlı söylədiyi sözlər onun dilindən deyil, ürəyindən gəlir, madam ki, Amerikanın ermənilərə bu qədər ürəyi yanır, o zaman San-Fransiskoda Dağlıq Qarabağ ermənilərinə bir muxtariyyət yaratsın...*

2. Fransanın və "erməni məsələsi" adlı "*diplomatlar komediyası*"nda rol alan başqa hegemon dövlətlərin ermənilərə gerçək münasibətini bilmək üçün K.Güründən iqtibas etdiyimiz aşağıdakı iki tarixi fakta diqqət etmək də yetərlidir: "Bir zamanlar, Rusiya Türkiyənin doğu vilayətlərini tutmuşdu. Onda bəyan etdi ki, burada ermənilərə yer yoxdur, ümumilikdə isə, Rusiyada erməni məsələsi mövcud deyil, necə ki, yakut məsələsi mövcud deyil. Vaxt var idi, Fransa Kilikiyanı (*Türkiyənin güney vilayətlərindən biri* –X.İ.) işğal etmişdi və o zaman bildirmişdi ki, burada erməni muxtariyyəti yaratmaqdan söz gedə bilməz və oraya erməni miqrant axınını yolunu kəsdi." (Bax: **Кямуран Гюрюн. Армянская досье. Баку, 1993., стр.6.)**

Halbuki yuxarıda adı keçən Türkiyə vilayətlərinin işğal olunmasına ermənilər həm daxildən, həm xaricdən (diaspor vasitəsilə), həm də hərbi əməliyyatlara qatılaraq əsgəri yolla yardımçı olmuşdular və əks halda, ermənilərin dəstəyi olmasa, o bölgələrin işğalı əsla mümkün deyildi. Ermənilərsə bu dəstəyi ona görə verirdilər ki, Rusiya da, Fransa da onlara həmin bölgələrdə erməni muxtariyyəti yaradacaqlarını vəd etmişdilər...]

Məsələyə əsl, gerçəkçi münasibət, obyektiv yanaşma isə, çox təəssüf ki, "demokratiyanın beşiyi" sayılan ABŞ dövlətinin yüksək rəhbərliyində təmsil olunanlardan hər hansı biri tərəfindən deyil, sıravi bir konqresmen tərəfindən sərgilənmişdir. – Həmin konqresmen, ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü, Ohayo Ştatından seçilmiş Jan Smit "soyqırım" haqda ermənilərin iddialarını qətiyyətlə rədd etməklə yanaşı, bu haqda öz arqumentini də açıqlamışdır: **"1915-ci il hadisələri "soyqırım" deyil və bunu Amerika alimləri də bildirirlər."** *Konqresmen bu alimlər sırasında Prinston Universitəsindən məşhur tarixçi Bernard Levis və Norman İtzkovits, Kaliforniya Universitəsindən Stenford Şav (Şou), Luskvil Universitəsindən Justin (Jastin) Makkarti, Massaçusets Universitəsindən Günter Levi və Brayan Uilyams, Boston Universitəsindən David Fromkin, Brandis Universitəsindən Aviqdor Levi, Tennessi Texniki Universitəsindən Maykl Günter, Corc Vaşinqton Universitəsindən Roderik Davidson, "Hunter" Kollecindən Pyer Oberlinq, Xarici Siyasət Araşdırmaları İnstitutundan Maykl Radu və hərb tarixçisi Edvard Eriksonun adını çəkir.*

Ancaq təəccüblü burasıdır ki, bütün bu məsələlərə münasibətdə ABŞ imperializmi yenə də həqiqətə göz yumaraq azğıncasına hökm vermə siyasətinə davam etməkdədir.

Bu səbəblərdən çoxları kimi rahatsızlıq duyan Türkiyə müxalifətinin nümayəndələrindən biri, CHP-çi millət vəkili Canan Arıtmaz da haqlı olaraq indiki Türkiyə iqtidarının ABŞ imperializminin və sionistlərin basqısı ilə, zorən yürütdüyü xarici və daxili siyasəti ələşdirərək bir neçə il öncə deyirdi: **"ABŞ Prezidenti Barak Obama "soyqırım" deməsin deyə bu il Ermənistanla sərhədləri açmağa razılaşdınız. Gələn il isə buna görə Ağrı dağını verəcəksiniz, ondan sonra Doğu Anadolu bölgəsini, ondan sonra Kipr gələcək, ən sonda "Kürdüstan"mı deyəcəklər?"**

***Ancaq nə yaxşı ki, müxalifətçi xanım Canan Arıtmazı, əslində bütün Azərbaycanı və Türkiyəni, o sıradan da Türkiyə hakimiyyətini rahatsız edən bu başağrısı Türk hökumətinin doğru balanslaşmış, gerçəkçi siyasəti sayəsində aradan qalxdı. Bununla belə, zaman keçdikcə, hakimiyyətdə kimlərin olmasının fərqinə varmayaraq, Türkiyə hökumətlərinə, yuxarıda anladılan qəbildən, bənzər basqılara cəhd ediləcəyi, əlbəttə ki, istisna deyildir...***

Ancaq təbii ki, imperializm təkcə türkləri yönəltmək siyasəti ilə kifayətlənməyərək, zaman-zaman onlara düşmən etdiyi erməniləri də yönəltməyə çalışır və daim bu gərilmiş münasibətlərdən "bazarlama fərasəti" ilə gəlir götürməyə nail olur.

Anti-türk siyasətinə görə imperialistlərin əlində alət olduqlarını get-gedə daha aydın hiss edən erməni liderlərindən biri-Ermənistanın indiki Baş Naziri Tiqran Sarkisyan özü də etiraf edir ki, *"Ermənistanın xarici siyasəti anti-türk siyasəti üzərində deyil, ermənipərəst siyasət üzərində qurulmalıdır..."*

Digər tərəfdən Tiqran Sarkisyan bəyan edir ki, Türkiyə ilə imzalanması nəzərdə tutulan razılaşmada "Qars müqaviləsinin təsdiqi və ya tarixçilərdən ibarət komissiyanın yaradılması barədə heç bir müddəa yoxdur". Bu da o deməkdir ki, Ermənistan (Rusiyanın vasitəçiliyi ilə) Türkiyə, Azərbaycan və Gürcüstanla imzaladığı Qars müqaviləsinə yenidən baxmaq "hüququ"nu gələcəyə saxlamaqla, əslində Türkiyənin (**və nəinki təkcə Türkiyənin!**) indiki sərhədlərini şübhə altına alır, həm də tarixçilərdən ibarət komissiyanın yaradılmasına razılıq verməyərək (bu iddianın məhkəmə perspektivinə özü də inanmayaraq) uydurma "soyqırım" manipulyasiyasını siyasi müstəvidə davam etdirəcəyini bildirir.

Ancaq "erməni məsələsi"nin, yeni *"diplomatlar komediyası"*nın (**Haşiyə:** *bu komediyaya bu yaxınlarda Fransa Prezidenti Nikola Sarkozi də özünəməxsus riyakarlıqla yeni əlavə, daha doğrusu yeni yaradıcılıq töhfəsi verib. "Armenpress" agentliyinin də yazdığı kimi, Sarkozi eynən beləcə də deyib:* ***"Fransa Ermənistanı özünə dost və bacı hesab edir".*** – *Bax:* F.Məmmədov. Sarkozi Ermənistanı "riskə getməyə" çağırır. "Yenu Müsavat", 19.10.2011., Bakı.) və "soyqırım" məzhəkəsinin gülünc və faciəli (tragikomik) tərəfi ondan ibarətdir ki, günlərin bir günü hətta erməni xalqı özü də artıq bu iddiaların onun əleyhinə işlədiyini görüb bunlardan əl çəkmək istəsə belə, bir sıra imperialist dövlətlər bu təcrübədən keçmiş "kart"ın oyundan çıxarılmasına izin verməyəcəklər. **Bax o zaman erməni siyasəti də əsl böhran, Ermənistan dövləti isə intihar mərhələsinə daxil olacaqdır...**

Sonda irəli sürdüyümüz bu qənaət bir fərziyyə kimi görünsə də, danılmaz həqiqət ondan ibarətdir ki, sülh və tərəqqi istəyən bütün xalqlar "göy və sarı şeytan sinfi"ndən (imperializmdən) imkan daxilində uzaq durmalıdır, əks halda imperializmin qara niyyətindən doğan bəd aurası (havacatı) bu xalqların gələcəyini zülmətə qərq edə bilər...



***

Ancaq erməni millətçilərinə və ya bütöv Ermənistana Uca Tanrının göstərib-göstərməyəcəyi acı aqibət dərsi bizləri məsuliyyətdən iraq tutmur. Təkcə onu demək kifayətdir ki, (tərcümə olunacağı təqdirdə) bu gün Azərbaycan, Türkiyə, Avropa (Almaniya, Yunanıstan, Böyük Britaniya və b...), Rusiya, ABŞ, Gürcüstan, Ermənistan, İsrail, Quzey Kıbrıs, Orta Asiya, İran, Pakistan... və b. ölkə oxucularını heyrətə sala biləcək tarixi fakt və sənədlərlə zəngin bu kitabın çapı nəşriyyatlarda maliyyə səbəbləri üzündən düz üç il idi ki, gecikirdi. İstər Azərbaycan, Türkiyə şirkətlərləri, istərsə də Türkiyənin Azərbaycan Böyükelçiliyi (sayın Hulusi Kılıc dönəmi nəzərdə tutulur) məsələyə dəstək verəcəklərini bildirsələr də, əməldə bu kimi ciddi niyyətlərdən çox uzaq olduqlarını sübut etdilər. (Sayın Böyükelçi Hulusi Kılıcın bizim "Azəri soyqırımı" tarixi pyesimizin Türkiyədə səhnəyə qoyulması haqda irəli sürdüyü təklifin də nə zaman gerçəkləşəcəyi bəlli deyil. Və deyəsən, möhtərəm Hulusi bəyə öz təklifini yazılı şəkildə xatırladaraq, bu məsələyə yenidən diqqət ayırması üçün ona yardımçı olmağımıza lüzum vardır...)

**Bəs yaralarımızı kim sarımalıdır?! – Əlimizdə külli miqdarda arxiv sübutlari, etibarlı tarixi materiallar olduğu halda faciələrimizi hələ də uluslararası məhkəmələrə çıxara bilməmişik!.. Kimdir günahkar(lar)?** – *Bu da aydındır.* – Sadəcə bir məqama toxunmaq kifayətdir ki, həm Türkiyənin, həm də Azərbaycanın dağdan ağır iç dərdləri anlaşılsın: 2007-ci ilin yazında (baharında) mən bəndeyi-həqiriniz Bakıda, tanınmış Türkiyəli hüquqçu-vəkil Kamal Kerinçsizə 1918-ci il Mart soyqırımı ilə bağlı öncə İstanbulda məhkəmə prosesi başlatmağımızı təklif etdim. Dəlillərimi sənədləri özətləri ilə – "teleqram üslubu"nda anlatdıqdan sonra o, mənim ideyamı ilkin yanaşmada bəyəndi. (**Haşiyə-qeyd:** Bənzər məsələlərdə bir araya gəlmək və işlərimizə dəstək verməklə bağlı İqdır Bələdiyyəsi də məni Türkiyəyə dəvət etmişdi. Dəvətlisi olduğum o vaxtkı İqdır Bələdiyyəsi Başqanı sayın Nurəddin Arasla ardıcıl təmas və müzakirələrim nə qədər xoş olsa da, soyqırımı tanıtım fəaliyyətlərinin beynəlxalq məhkəmə müstəvilərinə keçirilməsi üçün müvafiq maliyyə və təşkilati dəstək ala bilmədim. Daha doğrusu, sayın Nurəddin Aras, özünün və çevrəsinin bu cür imkanlara sahib olmadığını bildirdi). Bir sözlə, Türkiyəyə 2008-ci ildəki səfərim zamanı, çox ciddi səbəblər üzündən, bu məsələlərə maddi, təşkilati, hüquqi dəstək ala bilmədiyimdən bu istiqamətdəki fəaliyyətlərimizin sürüncək bir halda davam edəcəyi anlaşıldı...

Bənzər məsələlərə dəstək arayışı ilə 2008-ci ilin avqustunda Ankarada görüşdüyüm Türk Tarix Qurumu Başqanı dr.Yusuf Halaçoğlu da Avropanın göbəyində – *İsveçrədə bir konfransda* "erməni soyqırımı" iddialarının əksini sübut etdiyi üçün *İsveçrə məhkəməsi tərəfindən* yarğılanmış və Türkiyə hökumətinə onun yarğılandığı ölkəyə təslim edilməsi tələbi göndərilmişdi...

[Xatırladaq ki, Türk Tarix Qurumu Başqanı dr.Yusuf Halaçoğlu ermənilərlə ortaq tarix komissiyası yaradıb "erməni soyqırımı" iddialarının birgə araşdırılmasına da razılığını dilə gətirərək tələb edir ki, Türkiyə dövləti öz arxivlərini açdığı kimi, ermənilər də (əsasən *Daşnaksütyun Partiyası* nəzərdə tutulur –X.İ.) Boston, İrəvan və Qüdsdəki arxivlərini açmalıdırlar – Bax: "Üç nöqtə" qəzeti, 21.05.2008., Bakı.]

Bununla belə, həqiqət, onun daşıyıcılarının timsalında susmayacaq, indiki qaranlıqlar da bir gün aydınladılacaqdır. İlahi yaranış, insanlığın əbədi missiyası (görəvi) bunu tələb edir.

***

Bu məntiqlə imkansızlıq kimi görünən durumlarda belə, azacıq da olsa, imkan bulmağa çalışaraq, biz də xalqımızın haqlı özünümüdafiə savaşı yönündə yeni addımlarına başlanğıc vermək istədik...

2008-ci il aprelin son ongünlüyündə Azərbaycandan media və sivil toplum örgütlərindən ibarət ilk heyətin başçısı olaraq Pakistana dəvət olunmuşdum. Pakistan XİN, Mətbuat və Yayım Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Pakistan Parlamentində 1918-ci il Mart soyqırımı ilə bağlı sənədli tarixi açıqlamalarla çıxış edərək qarşı tərəfin bundan sonra azərbaycanlıların 1918-ci il soyqırımını tanıması ilə bağlı bəyanat verməsinə nail oldum. Pakistan dövlətinə Azərbaycan-Pakistan ictimai əlaqələrinin daha yüksək, daha dərin müstəviyə keçirilməsi üçün layihələr verdim. İslamabaddakı Azərbaycan Səfiri sayın doktor Eynulla Mədədli fəaliyyətimizlə bağlı məsələlərə aydınlıq gətirmək üçün bizi Səfirliyə dəvət etdi. Ancaq Bakıya qayıtdıqdan sonra o möhtəşəm lahiyəyə dəstək verən olmadı. Hiss etdim ki, Pakistan tərəfi bundan çox məyusluq hissi keçirir; indiyədək də xəcalətdən mən və heyət arxadaşlarım özümüzə yer tapa bilmir, bütün bu müəmmaları qarşı tərəfə izah edə bilmirik...

Bununla belə, xalqımızın və onun xeyirxahlarının hər bir məsələdə ümidi Uca Tanrıya bağlı olduğu üçün bir gün haqsız dünyanın da bəsirət gözünün açılacağını düşünürük.

**Qeyd:** *Bu yaxınlarda ABŞ-ın Nevada Ştatında soydaşlarımızın təbliğatı sonucunda* ***31 Mart faciəsi*** *ilə bağlı bu ildən etibarən* ***Azərbaycanlıların anım günü*** *qeyd edilməsi haqda qərar qəbul olunub. (Bu bilgini ANS-ə sunan: "Amerikanın Səsi" Televiziyasının müxbiri .Dilşad Əliyarlı –* ***Qaynaq: ANS. Xəbərlər., saat-21.00., 04 yanvar 2011.*** *). Bu yenilik də bir daha bizim 2005-ci ildən etibarən (İTV-də, AzTVR-də,"Təhsil problemləri" qəzetində, GünAz TV-də, STV-də, TRT-də, Avrasiya TV-də, TV-5-də, Ulusal Kanalda və s.) irəli sürərək, açıqladığımız 31Mart Azərbaycanlı Soyqırımını Tanıtım Konsepsiyasının doğru yönlərə istiqamətləndiyini təsdiq edir.*

**Müəllif**



## «ERMƏNİ MƏSƏLƏSİ» BEYNƏLXALQ MİQYASDA GÜNDƏMƏ ÇIXARILANADƏK ERMƏNİLƏRİN VƏZİYYƏTİ

Xristian dünyası tərəfindən süni sürətdə atılmış «erməni məsələsi» beynəlxalq konfransların gündəliyinə və barış sazişlərinin maddələrinə daxil edilməzdən öncə bu qalmaqallı toplumun-erməni xalqının yaşamı, öz milli – dini dəyərlərini mühafizə edibetməmə durumu, iqtisadi vəziyyəti və s. istər-istəməz hər bir oxucuda maraq doğurur. Doğrudandamı ermənilər tarixən «vəhşi» türklərdən saysız-hesabsız zülmlər, işgəncələr görmüş, dini inancları və milli gələnəkləri (adət-ənənələri) və mədəniyyətləri assimlyasiya (özgələşmə) təhlükəsi ilə üzləşmişdi. Bugünkü erməni təbliğatına, o cümlədən 1000-dən artıq erməni saytlarındakı iftira və hədyanlara cavab vermək üçün nəinki alimlərimiz, hətta hər bir azərbaycanlı ziyalısı, Azərbaycan vətənpərvəri və sadə həyat tərzi yaşayan orta təhsilli yurddaşımız da bu sualların cavablarında aciz qalmamalıdır.

Bu məqsədlə də hər şeydən öncə oxucularımıza ermənilərin türklərlə münaqişədən əvvəlki durumunu əks etdirən bir neçə vacib məqamı, dünyanın ən müxtəlif dinlərinə və millətlərinə mənsub olan müəlliflərin *(onların sırasında həmçinin erməni müəllifləri də var)* dilindən çatdırmaq istərdik:

«Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb. »

***(İ.M. Dyakonov)***

***

«Ermənilər işğalçılar kimi gəlmiş və yerli əhalini əsarət altına almışlar. »

***(R. Hovannisyan)***

***

«...Ermənilər İsveçrədən gəliblər.» ***(R. Kiriyan)*** – **(1:** s. 259-260).

***

«Ermənilər səkkiz əsr ərzində əvvəlcədən Səlcuq, sonra isə Osmanlı hökmranlığını məmnuniyyətlə qəbul etmiş, idarə sistemindən qətiyyən şikayət etmədən, öz dininə asudə itaətlə məşğul olmuş, dövlətdə mühüm vəzifələr tutmuş və ticarətdə hakim mövqeyə nail olmuşlar. Faktlar belədir.»

***(Fransız alimi, jurnalisti və hüquqşünası Jorj de Malevil) – (2:*** s. 17 ).

***

«Biz həyatımız boyu türk millətinə borcluyuq, türklər olmasaydı, bu gün nə erməni milləti olardı, nə də erməni mədəniyyəti.»

***(Erməni yazıçısı Torkum Stepanyan) – (3:*** s. 3).

***

«Türkləri hər hansı bir vəhşilikdə necə ittiham edirlər etsinlər, yalnız bunu deyə bilərəm: Türkiyənin müxtəlif şəhərlərində erməni-müsəlman toqquşmaları haqqında şəxsən bütün mənə məlum olanlardan belə qənaətə gəlirəm ki, qanlı işlər hər yerdə məhz ermənilərin öz təşəbbüsü ilə başlanmışdır.

Türklər Asiyanın nəinki müsəlman, həm də başqa xalqlarının ən yaxşı hissəsidir.»

*(Çar Rusiyasının Van və Ərzurumdakı baş konsulu Mayevski) – (4: s. 30).*

***

«Türkiyə tarixi keçən yüzillikdə ermənilərin kütləvi təqibi haqqında heç s bir fakt bilmir. Əksinə, onlardan çoxu 1915-ci il faciəsinə qədər yüksək dövləti vəzifələr tutmuşdu. Toqquşma nəticəsində tələfat isə hər iki tərəfdən döyüş əməliyyatının qanunauyğun nəticəsidir ki, genosid hesab edilə bilməz.»

*(Strasburqdakı Şərq Tədqiqatları İnstitutunun direktoru Pyer Dyümon) – ( 3: s. 3).*

***

«Ermənilər indiki dövrdə milli varlıqlarına görə həqiqətən Səlcuq və Osmanlı türklərinə borcludurlar. Bizanslıların və ya digər Avropalıların əlində qalsaydı, erməni adı bu gün sadəcə olaraq tarix kitablarında saxlanılan bir ad ola bilərdi.»

*(Levon Dabağyan) – (5: s. 17).*

***

«Erməni milləti (Bizans imperiyasının tərkibində ikən) zülm – əsarət altında qalmışdı. Bütün məmləkətimiz qan içindəydi. Bu qanlar vətənimizin bir ucundan o biri ucunadək dərya kimi aşıb-daşırdı»...

«(Bizans hökmranlığı altında ikən) məzhəbini dəyişmək istəməyən ermənilərin boğazına əridilmiş qurğuşun tökərək, ən facieli ölümlərə mübtəla edirdilər...»

*(Qədim erməni tarixçisi Urfalı Matevos)*

«Erməni kralı Qaqiqin əl-qolunu bağlatdırıb (bizanslılar) köpəklərə parçalatdırmışdılar...» *(5: s. 17).*

***

«Uraratu dili və xalqı ilə erməni dili və xalqının heç bir qohumluğu yoxdur. Ermənilər Urartuya e.ə VI əsrdə gəlmişlər. Urartululardan bəhs edən mixi yazılar isə e.ə IX əsrə aiddir.»

*(Fransız alimi Fransua Lenorman) – (6: s. 124-129).*

***

«Ermənilər Frikyadan gəlmədirlər. Onlar tədricən Frikyadan şərqdə yerləşən yüksəkliklərə yiyələnib, oradan qədim urartuluları sıxışdırıb, onların adına, dilinə və rəvayətlərinə yiyələnib, özlərininki ilə əvəz etdilər.»

***(Bu fikrin də müəllifi Lenormandır. O, bu qənaəti söylərkən Henrik Raulsonun ermənilər haqqında dediyi mülahizələri də təsdiq edib. İ.Q.Çavçavadze də Lenormanın fikirlərini yüksək qiymətləndirib.)** – (6: s. 124-129; 7: s. 33-35, 92).*

***

Ermənilər... friqlərlə birlikdə Qərbdən e.ə. 7- 6-cı əsrlərdə Şərqə gəlmişlər

*(N. Pastermacyan) – (1: s. 260).*



***

"Ermənilərin əcdadları Çarox çayı hövzəsindən gəlmişlər" ( 47: s.220).

***

"Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibləri olublar, öz yaxınlarını sataraq, həmişə güclü qonşularına məharətlə qulluq ediblər."

*(Akademik Kerop Patkanyan) – (42: s.5).*

***

**Dünya xanımlarının bir qismi erməni qadınının bir qayda olaraq öz ərinə xəyanət etmə təcrübəsini, başıpapaqlısının həmin əməldən hali olmaması incəsənətini mənimsəməyə cəhd göstərsələr də, azları buna nail ola bilir. Yeniyetmə erməni qızları öz *bakirəliklərindən elə erkən, elə həvəslə imtina edirlər ki, sanki onlar namus çəpərlərinin bütövlüyünü qorumurlar, üstlərinə qonmuş tozu çırpırlar."***

*(K.Marks, F. Engels) – (43: s.131).*

***

"Ermənilərin alçaqlığı və əclaflığı təbii xarakterlərindən, bir növ genlərindən gəlir".

*(İngilis hərbçisi Dikson) – (50: s.13).*

***

"...aclıq illərində ermənilər bir-birini öldürür, oğul-uşaqlarını qızardıb yeyirdilər. Ər arvadını, arvad ərini, bir-birini öldürür, yeyir, doymurdular..."

*(Foma Metsonmski, erməni keşiş) – (51: s.116).*

***

"Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o, buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib?

Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur."

*(Manuk Abeqyan) – (44: s.11).*

***

"Kilikiyadan Qafqaza qədər uzanan ərazilər heç vaxt erməni xalqına məxsus olmayıb".

*(Riçard Hovanisyan) – (48: s.29).*

***

"Əgər Movses Xorenatsinin (Musa Xorenli –X.İ.) qədim Ermənistanı var idisə, onda mənə heç olmasa bunu təsdiq edən bir arxeoloji obyekt göstərin".

*(Akademik Piotrovski) –(48: s.29).*

***

"İndiki Ermənistan ərazisində ilk dövlət qurumu Sak çarlığı – qədim türk mənşəli dövlət idi". *(Erməni tarixçisi Q.Kapantsyan, "Hayasa") –(48: s.34).*

***

"Bizim ikiüzlülüyümüz ana bətnindən peyda olur".
*(Erməni şairi Yeğişe Çarens –(48: s.42)).*

***

«Ulu şahım... Beynənnəhreyndən (Mesopotamiyadan) Van gölü sahillərinə, oradan da Qafa ( Qafqaza ) oğuz-türk torpaqlarına 5-5, 10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə, məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürünü yaradırlar ki, bu da istiqbalda nəsillərimizə baş ağrısı verəcək...

Bu işləri indi Ağkilsə (Əçmiədzin) kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir... Qarışıq nigahlar məni qorxudur, Şahım! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım Vətənin dışarına. Sənin qulun Rəvan Xan.»

***(İrəvan əyalətinin icmal dəftəri, 1519. İrəvan qalabəyisi və Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə məktubundan) –(8; 40; 41: s.5-6).***

***

Qarabağ erməni əhalisinin diş sisteminin analizi göstərmişdir ki, bu ərazidəki əsl ermənilər gəlmədirlər. Əvvəlki Qarabağ erməniləri isə albanlardan dönmədirlər.

***(Məşhur akademiklər İ.Orbeli, S.Usremyan və b. erməni alimlərinin araşdırmalarından) – ( 45 ).***

***

"Erməni xalqı öz dövlətçiliyindən çox tez – bizim eranın V əsrində məhrum olmuşdur, həm də Qafqazda yox, Mesopotamiyada".

***(Tarix elmləri doktoru Fəridə Məmmədovanın akademik A.Saxarovla dialoqundan) – ( 46: s.83).***

***

"Bir çox illər bundan öncə Yerevanda, səs-küylü, qafqazaxas gecədə, arağın təsiri ilə ağırlaşmış bir erməni ilə qızğın diskussiyaya (müzakirə, mübahisə –X.İ.) urcah oldum, hansı ki, məni ciddi şəkildə inandırmağa çalışırdı, İsa Məsih yarıermənidir.

– Axı necə ola bilər? Hansı yarısı? –deyə mən təəccübləndim. – Bəllidir ki, Məsihin anası yəhudidir, atası isə – Cənab Allahdır. Belə çıxır ki, Allah ermənidir?

– Başqa necə ola bilər? – deyə tamamillə ciddi şəkildə (erməni) müsahibim cavab verdi."

***("Komsomolskaya Pravda" qəzetinin əməkdaşı Darya Aslamova) – (49 ; 48: s.40-41).***

***



*İndi isə, ermənilərlə əlaqəli tarixi mənbələrdən məlum olan bu iqtibasları sadaladıqdan sonra ermənilərin tarixi keçmişi ilə bağlı bəzi zəruri məqamlara diqqəti cəlb edək.*

Ermənilərin tarixində dönüş nöqtələrinin ən vacibi kimi heç şübhəsiz ki, onların xristian dinini qəbul etmələri sayıla bilər. Bu, 301-ci ildə knyaz Trdatın fərmanı ilə baş verdi. Ermənilərin iddiasına görə, guya baş patriarx Eçmiədzində (əsl adı müxtəlif dövrlərdə Ağkilsə və Üçkilsə olduğu bildirilir; elə «Eçmiədzin»-«Üç müəzzin» də türkcədən alınma sözdür) oturururmuş. VI əsrdə Roma kilsəsindən ayrılan ermənilər Qüds şəhərində yeni bir patriarxlıq yaratdılar. **Məzhəblərin zidd gəlməsi və dava ilə nəticələnməsindən sonra 993-994-cü illərdə Roma ordusu böyük qüvvə ilə ermənilərin üzərinə hücuma keçərək onları qılıncdan keçirdi, qalanlarını isə əsarət altına aldı.**

Erməni kilsəsi və onların dini lideri olan erməni katolikosu öz xalqını ölümcül təhlükədən xilas etmək üçün Səlcuq hökmdarı Sultan Alp Arslana *(hökmdarlıq tarixi: 1063-1072-ci illər olmuşdu* – X.İ.) müraciət etdi. 26 avqust 1071-ci ildə Malazgirt vuruşunda Bizans İmperatoru Roman Diogeni məğlub etmiş ünlü Səlcuq Sultanı Alp Arslan erməniləri də himayə edərək, onları Bizans zülmündən qurtarmışdı.

1091-ci il fevralın 26-da erməni katolikosu Barsesin müraciətindən sonra isə türk Sultanı Məlikşah erməni kilsəsi və monastırlarının, erməni din xadimlərinin vəziyyətini yaxşılaşdırmağa dair sərəncam imzaladı. Bir qədər əvvəl ermənilərin dəfələrlə bizanslılarla birləşərək döyüş meydanında türklərə qarşı vuruşduqlarına baxmayaraq, Səlcuq və Osmanlı imperatorluqlarında onların dini inanclarına, gələnəklərinə, milli dəyərlərinə nəinki zərər gəlmir, hətta aciz, kiçik bir xalq kimi onlar hərtərəfli himayə edilirdi. Belə ki, o tarixi dövr və Sultan Məlikşahın rəftarı haqqındakı qeydlərində erməni katolikosu Vasil yazırdı: «O ( yəni Məlikşah ) hər tərəfdən barış və hakimanə bir idarə qurmuşdu... Bildiklərimizin hamısından adil olduğuna görə heç bir insana kədər vermədi... Hərb və zorakılıqla deyil, könüllərə yol tapmaqla indiyədək heç bir hökmdarın əldə edə bilmədiyi məmləkətlərə sahib oldu» ( 1: s. 261-262).

Qədim erməni tarixçisi Urfalı Matevos da Sultan Məlikşahın xalqlara ədalətli bir hami olması haqda yazırdı: **«Məlikşahın səltənəti Allahın lütfünə nəsib oldu. Hakimiyyəti uzaq ölkələrə qədər yayıldı və ermənilərə sakitlik verdi... Qəlbi xristianlara qarşı şəfqətlə dolu idi. Keçdiyi ölkələrin xalqları ilə ata kimi rəftar edirdi»** (9: s. 63-64).

Erməni tarixinin həmin dövrünə münasibətdə çağdaş erməni müəllifi Ter Çersisyanın 1972-ci ildə qələmə aldığı mülahizələr də qədim türk dünyasının ədalətindən xəbər verir: **«Ermənilər Bizansın öldürücü ilhaq siyasətinin xeyli davam etdiyi və ermənilərə qarşı düşmənçiliyin artdığı bir vaxtda Şərqdə Səlcuq türklərinin zühur etdiyi göründü... Bizansın Malaskert (*Malazgirt*-X. İ.) fəlakətinə uğramağı üzündən bütün ermənilər 1071-ci ildə Səlcuqların idarəsinə keçdilər... Səlcuqların köməyi ilə hürriyyət qazanan ermənilər Qriqoryan idarəsində tərəqqi etdilər»** (1: s. 262)...

***

Səlcuqlardan sonra Osmanlılar da ermənilərin barış, rifah və tərəqqi şərtlərilə yaşamasına imkan yaratmışdılar. 1326-cı ildə Orxan bəy Bursanı fəth etdi və müəyyən bir müddət ərzində Bursa türklərin baş şəhəri oldu. Bu zaman Orxan bəy ermənilərin də Bizans təhlükəsindən birdəfəlik qurtulması üçün onların Anadoluda məskunlaşmasına icazə verdi. Onun şəfqəti nəticəsində erməni patriarxlığı da Bursaya köçürüldü. İstanbulun fəthindən sonra, 1461-ci ildə Fateh Sultan Mehmet Bursanın baş yepiskopu Hovakimi bütün ermənilərin patriarxı kimi tanımışdı və onu iki yüz erməni

ailəsi ilə birlikdə İstanbula köçürdü. Sultan Mehmetin əmri ilə patriarxlığa və erməni ailələrinə münasib yerlər ayrıldı, bununla da İstanbulda güclü bir erməni icması yarandı (**1:** s. 262).

(Heç də təsadüfi deyil ki, erməni kilsəsinin rəsmi saytında deyilir: *«Erməni kilsəsi tarix boyu erməni xalqı ilə o qədər yaxın olmuşdur ki, indi onları bir-birindən ayrı düşünmək mümkün deyil. Millət və kilsə məfhumları o qədər qaynayıb-qarışmışdır ki, sanki «milli kilsə» termini məhz ermənilər tərəfindən məxsusi düşünülmüşdür.»*

Görünür, cuhudlar iudaizmi yalnız özlərinə məxsus olan bir din kimi anladıqlarıtək, uyğun bir təfəkkür tərzi ilə ermənilər də dinlərini və erməni kilsəsini sırf dini təsisat deyil, millətçiliyin qulluğuna verilmiş masqalı dinçilik və masqalı din idarəsi kimi qəbul edirlər).

***

Türkiyə ermənilərinin sonradan xristian havadarlarının meydana çıxması prosesi isə öz təməlini 1536-cı il tarixindən başladı, desək, yanılmarıq. 1536-cı ildə Osmanlı hökumətinin Fransa ilə bağladığı müqavilə əsasında fransızlar bütün Osmanlı torpaqlarında ticarət hüququ əldə etdilər. Fransızlara həm də tam dini azadlıq bəxş edildi. Bundan başqa, həmin sənədin imzalanması nəticəsində Osmanlı ərazilərindəki katoliklər üzərində fransızların protektoratının fəaliyyətinə qeyri-məhdud imkan yarandı.

Türk tarixçiləri, o sıradan Kamuran Gürün Osmanlı İmperiyasının durğunluq dövrünü 1579-cu ildən – Mehmet Paşa Sokulunun ölüm tarixindən, düşmə dönəminin başlanğıcını isə 1699-cu ildən – Karlovits sazişindən hesablayırlar. 1774-ci ildə Küçükqaynarca müqaviləsi isə Osmanlı İmperiyasının böyüklüyünə və güclülüyünə son qoydu (**10:** s. 67)...

1831-ci ildə Fransız səfirliyinin xahişi ilə Sultan II Mahmud ermənilərin dilinin, adət-ənənələrinin qorunması üçün «erməni icması»nın qeydə alınması haqda əqd imzaladı (**9:** s. 96, 105).

Və 1878-ci ilədək Osmanlı ərazisində yaşayan ermənilərin Anadolu türkləri ilə münasibətlərində çox ciddi bir pozuntular hiss olunmamışdı, desək, yanılmarıq (**1:** s. 264)...

«Bu erməni icması türklərin gündəlik həyatının fəaliyyətini təmin edirdi. Qədim zamanlardan daha çox idarə etməyə öyrənmiş türklər, sənayenin bütün sahələrini ermənilərə buraxmışdılar. Nəticədə Türkiyədə bütün bankirlər *(bank yiyələri)*, tacirlər və mexaniklər ermənilərdən ibarət idi. Bundan başqa, ermənilərlə müsəlmanların psixoloji uyqarlığı və maraq eyniliyi də yaranmışdı... Çətin ki, elə bir paşa və yüksək rütbəli (türk) çinovnik tapılsın ki, ermənilərdən borc almasın. Hətta imkansız türk kəndlisi əkinə toxum almaq üçün ermənilərə borc xahişilə müraciət etməli olurdu. Osmanlı hətta bir gün belə ermənisiz yaşaya bilməzdi. **Bu (həqiqət) o dərəcədə aydın idi ki, Türkiyəni məhv etmək istəyən ruslar, ilk öncə oradakı erməni icmasını öz tərəfinə çəkməyə başladılar.** Onlar 1828-ci ildə Ərzurumu işğal edib erməniləri də öz cəza tədbirlərinə cəlb etmişdilər ki, ruslar geri çəkiləndə ermənilər öz torpaqlarını qoyub getməli oldular» (**11:** s. 81-82).

F.Valvinin «İslamda inqilablar» (London, 1925, ingiliscə) kitabından götürülmüş bu sitatı qeyd edən rəhmətlik professorumuz Sabir Əsədov yazırdı ki, həmin iqtibas 1857-ci ildə Nyu-York mətbuatında dərc edilmişdir. Yəni o zamankı qərblilər ermənilərin Osmanlıdakı durumuna ancaq qibtə ilə yanaşa bilərdilər, vəssalam. Osmanlını süquta uğratmaq üçünsə iqtisadi-siyasi planlardan başqa, daxildə təfriqə yaratmaq planı da lazım gəlirdi (**12:** s. 203-204).

Erməni knyazı İsrael Orinin I Pyotrla görüşməsindən sonra isə Rusiyanın Qafqaz, İran, Türkiyə və ermənilər haqda siyasəti daha da müəyyənləşdi. Və demək olar ki,



bu günə qədər də İsrael Orinin I Pyotra etdiyi təklif – Şimali və Cənubi Qafqazı, daha sonra İranı əsarət altına alaraq isti dənizlərə çıxış əldə etmək; Qafqaza erməniləri köçürərək, orada çar Rusiyasına dayaq ola biləcək sədaqətli bir xristian ( erməni ) icması formalaşdırmaq; tədricən erməniləri himayə edərək Türkiyədə də erməni dövləti yaratmaq... Türkiyə və İranın birdəfəlik süqutuna səbəb olmaq və s. – rus siyasətinin ana xəttini təşkil edir (**1:** s.117-119).

Şimal müharibəsi I Pyotrun bu planları həyata keçirmə cabalarını bir qədər ləngitsə də... nəhayət, o Şimali Qafqaza qoşun yeritdi və ömrünün sonuna yaxın, yəni 1724-cü ilin oktyabrında erməni xalqını himayə etmək haqqında fərman imzaladı. Bu fərmana görə Rusiyanın işğalı altına keçən ərazilərdə ermənilərin yerləşdirilməsinə ( köçürülməsinə) icazə verildi (**13:** s.188).

1761-ci ildə isə İsrael Orinin missiyasını davam etdirərək onun soydaşı İosif Emin də erməni dövlətinin (muxtariyyətinin) yaradılması üçün Rusiya hökuməti ilə müvafiq danışıqlar aparırdı (**14:** s. 84).

Ümumiyyətlə isə, bəzi mənbələrə görə, erməni-rus əlaqələri hələ Kiyev Rus Dövləti zamanından mövcud olub. Əlbəttə, söhbət iqtisadi-mədəni körpülərin yaranmasından gedir (**14:** s. 84).

XVII-XIX əsrlərdə Osmanlı və Rusiya arasında baş verən bir neçə müharibə nəticəsində Osmanlı İmperiyası Krımı, Sağsahil Ukraynasını, Balkanların bir hissəsini ...nəhayət, Qafqazı ruslara güzəştə getdikdən sonra ermənilərin də öz xaç ortaqları ilə yeni sövdələşmələrə girişmək üçün imkanları yarandı. Həmçinin İran-Rusiya müharibələrindən də qalib çıxan şimal qonşumuz Araz çayı ilə Azərbaycanı ikiyə böləрək, 15 il mərdliklə müqavimət göstərən İrəvan xanlığının süqutundan sonra , 1828-ci il martın 21-də bugünkü siyasətlərinin təməli kimi mərkəzi İrəvan şəhəri olmaqla **«Erməni Vilayəti»**ni yaratdı (**1:** s. 120-121).

Qafqazın ən önəmli, strateji nöqtəsi olan İrəvan qalasının təslim edilməsində ermənilərin xəyanətkar rolundan bəhs etməzdən qabaq ermənilərin bağlı qapılar arxasında hələ çox öncələrdən apardığı bəzi danışıqlara diqqəti cəlb etmək istərdik.

Həmin məsələ haqqında ətraflı bəhs edən hörmətli tarixçi-alim İsrafil Məmmədova görə, erməni dövləti qurmaq «proqramı», XII əsrdən etibarən hazırlansa da, XVI əsrin II yarısında bu «proqramın» həyata keçirilməsi yolunda ikinci mərhələ başlandı. 1562-ci ildə Mikael Sebatsietsi məsələni yoluna qoymaq üçün gizli yığıncaq çağırmalı oldu. Abqar Toxatetsi başda olmaqla Romaya nümayəndə heyəti göndərildi. 1666-cı ildə elçilər XIV Lüdovikdən kömək diləmək üçün Fransaya getdilər. Elçilər ümidsiz qayıdır, ermənilər yenə də inamı itirmirdilər. 1678-ci ildə yenə İtaliyaya elçi göndərmişdilər. Təşəbbüsü İsrael Ori öz əlinə almışdı. İtaliya, Fransa, Almaniya erməni dövləti qurmaq proqramını alqışlamadı. İsrael Ori 1699-cu ildə katolikos Minasla birlikdə Almaniyaya getdi. Lakin İohann Vilhelmdən müsbət cavab ala bilmədilər.

Üçüncü mərhələ «1699-cı ildən başlandı. Avropadan dəstək ala bilməyən ermənilər Rusiyaya pənah gətirdilər. Çar I Pyotrla məktublaşma xeyli davam etdi. 1701-ci ildə İ.Ori və arximandrit Minas İmperatorun şəxsi qəbulunda oldular. Avropanın dövlət başçılarına təqdim edə bilmədikləri 36 maddəlik «proqramı» I Pyotra verdilər. 1703-cü ildə I Pyotr artıq «Ermənistan» xəritəsini dönə-dönə nəzərdən keçirmişdi. İ.Orinin təqdim etdiyi bu xəritədə İrəvan xanlığı və Zəngəzur qabarıq şəkildə təsvir olunurdu» (**1:** s. 117-119).

Yenə də həmin müəllifin İrəvan arxivləri, erməni-rus mənbələri, o sıradan Çar Rusiyası arxivlərindəki məxəzlər əsasında apardığı araşdırmalara görə, İ.Ori I Pyotru İrəvan şəhəri və qalasının coğrafi mövqeyi, hal-hazırkı durumu, strateji və siyasi əhəmiyyəti haqqında ətraflı məlumatlandırırmış. 1699-cu ildə Angeğaqot yığıncağının qərarı əsasında hazırladığı məktubda o, İrəvan şəhəri barədə yazırdı: «Rus qoşunları Cənubi Qafqaza daxil olandan sonra, güman ki, türklər savaşa başlaya bilərlər. Lakin bu-

nun faydası yoxdur. Müharibə onlara heç nə verməyəcək, «çünki burada tutulmalı yeganə şəhər varsa, İrəvan şəhəridir» **(1: s.117-119)**.

Başqa bir məktubunda bu erməni knyazı İrəvan qalasında bombanın, barıtın yoxluğu, bu cür sursatların ermənilərin əlində cəmləşməsi, qalanın iki qapısı olması, rus qoşunlarının hücumu zamanı bu qapıları yerli ermənilərin (söhbət İrəvan qalasının möhkəmləndirilməsi və s. üçün oraya cəlb edilmiş bənnalardan, başqa bu cür sənət sahiblərindən və sosial vəziyyəti aşağı olan kiçik sayda ermənilərdən gedir) asanlıqla açacağı haqda I Pyotru məlumatlandırırdı. Ancaq «erməni xəstəliyi» bu məktubda da özünü büruzə verməkdəydi: guya ruslar İrana hücum etsə, qosqoca İran dövləti cəmi 48 min qoşun çıxara biləcəyi halda, ermənilər ruslara köməklik məqsədilə 192 min nəfərlik qoşun çıxara biləcəkmiş.

Bununla belə, rus ordusuna birləşməyə hazır olan arxiyepiskop Minas Pərvazyanın başçılığı ilə guya 40000 nəfərədək erməni ordusunun mövcudluğu da bildirilir, rusların hücum edərək yaxınlaşdığı təqdirdə belə silahlı dəstələrin sayının daha 40000 nəfərlik artırılacağına söz verilirdi *(22 sentyabr, 1722)* **(1: s.118-119)**.

Növbəti biclik və həyasızlıq 1724-cü il aprelin 4-də İvan Karapetin «Ermənistanda vəziyyət haqqında» Çara göndərdiyi hesabatda özünü büruzə verir. O dövrün sənədlərində «Ermənistan» anlayışı nəinki dövlət, heç coğrafi məfhum kimi də nə Qərb, nə də Rusiya rəsmi dairələrinin leksikonunda (söz ehtiyatında) olmadığı halda, İ. Karapet kimi erməni başbilənləri bu məfhumu hamının, o sıradan rusların da beyninə yeritməyə çalışırdılar. Beləliklə, ermənilər Qafqazda etnodemoqrafik durumu xristianların xeyrinə dəyişdirmək üçün I Pyotru çoxdan xəyallarında dolandırıb ölməyə qoymadıqları «erməni məsələsi»ndən yararlanmağa sövq etdilər **(15: s. 15, 21-22, 99)...**

1724-cü il noyabrın 10-da I Pyotr ermənilərin 3 nümayəndəsini qəbul etdikdən sonra onların Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə və başqa bölgələrdə yerləşdirilməsinə çalışmağı üçün general-leytenant Matyuşkinə və Levaşova tapşırıq verdi **(16: s. 479)**.

Sonrakı rus padşahı Yekaterina da 1726-cı ildə fevralın 22-də ermənilərə mərhəmət göstərmək haqqında fərman imzaladı **(1: s. 120)...**

Onu da qeyd etmək vacibdir ki, Cənubi Qafqazın ən strateji nöqtəsi olan İrəvan qalasına doğru savaşlarda rusların 15 ildən sonra da olsa uğur qazanması və sonluqda, Sərdarabad və İrəvan qalalarının süqut etməsi məsələsində ermənilərin həm xəyanətinin, həm də o bölgələrdə vaxtilə xüsusi məqsədlə fərdi qaydada məskunlaşmış erməni ailələrinin ruslara kömək göstərməsinin böyük rolu olmuşdu. Belə ki, tanımadıqları ərazilərdə rus qoşunları tələyə düşmək, aclıqdan, xüsusilə də susuzluqdan qırılmaq təhlükəsi ilə üzləşən zaman erməni fədailəri dəfələrlə onları vəziyyətdən çıxarmış, onlara yemək vermiş, gizli su quyularının yerini bildirmiş, hətta silah, qoşqu vasitələri, miniklərlə yardım etmişdilər **(1: s.147-149)**.

***

Çar Rusiyasının arxivləri, İran və Osmanlı mənbələri, Qərb diplomatlarının hesabatları, müxtəlif alim və səyyahların əsərləri, həmçinin o zamankı və sonrakı bir çox erməni müəllif və mənbələrinin hamısı birmənalı şəkildə ermənilərin Çar Rusiyasının himayəsi ilə Qafqaza və İranın şimalına (Cənubi Azərbaycana) köçürüldüyünü dəfələrlə qeyd etsə də **(17; ...)**, çağdaş erməni «tarixçilərinə» və siyasətçilərinə bu həqiqət sərf etmədiyi üçün onlar hələ də dünya oxucusunu çaşdırmaqdan nə usanmır, nə də utanmaq bilmirlər. Onların dırnaqarası arqumentlərini yerlə yeksan etmək üçün hörmətli tədqiqatçımız İsrafil Məmmədov erməni müəllifi T.M.Avetisyanın özünə istinadən 1420-ci illərdən (Pir Yaqub Hüseyn oğlu dövründən) 1827-ci ilədək (Hüseyn xan Qacar 1807-1827 dövrünədək) İrəvan hökmdarlarının siyahısını təqdim edib **(18: s.112-114)**. Bu da İrəvanın bir şəhər və bir xanlıq kimi tarixdə mövcud olan bütün məlum dövrünü əhatə edir. Buradakı bütün hökmdarlar türk olduğu halda **(1: s.42-44)**, bəs bir neçə il öncə ermənilər guya «erməni şəhəri İrəvan»ın 2500 illiyini hansı məntiqlə qeyd edirdilər?! Əlbəttə, bu məntiqi «həyasızlıq məntiqi» və ya sadəcə olaraq «erməni məntiqi» adlandırmaq olar...



Doğrudur, «Erməni Vilayəti» yaradılanadək (1828-ci il martın 21-dək) də ermənilər Qafqaza az-az da olsa köçməyə davam etmiş, daha doğrusu, orta əsrlərin sonuna nisbətdə nəzərə çarpacaq intensivliklə könüllü qaydada mülklər almaq və fəhlə-sənətkar kimi çalışmaq yolu ilə əsasən də İrəvan bölgəsinə köçmələrini sıxlaşdırmışdılar. Bu köçlər xüsusən də Çar Rusiyasının Qafqaza sahib olmaq üçün aşkar savaşa başladığı XVII əsrin sonundan daha fərqli sürət kəsb etməyə başlamışdı. Bununla bərabər, yerli müsəlmanların da uzun və amansız müharibələrdən təngə gələrək, Türkiyəyə, İrana və s. köçmələri müşahidə olunurdu. Bütün bu kimi amillərə baxmayaraq «Erməni Vilayəti» adlandırılan əyalətin başkəndi İrəvanda 1828-ci ildə azərbaycanlılar hələ də mütləq əksəriyyət - 75,6% təşkil edirdilər. Bu rəqəm əsrin sonuna yaxın (1897-ci il statistikası ilə) 43,1%-ə, 1916-cı ildə isə 24,4%-ə düşmüşdü **(1: s.167)**.

«Erməni Vilayəti»nin ilk yönəticilərindən general Paskeviç 1828-ci il mayın 26-da qraf Dibiçə göndərdiyi raportda bu köçlər haqqında yazırdı: 279 ailə Qarabağa, 948 ailə İrəvan vilayətinə köçürülüb. Polkovnik Lazarev əmin edib ki, tezliklə köçkün ailələrinin sayı 5000-ə çatacaqdır **(1: s.384)**.

Rusların da Cənubi Qafqaza köçürülməsi haqda Dövlət Şurası 1830-cu ildə ayrıca qərar qəbul etmişdi.

Rusiya quberniyalarından «narazı» rus (malakan) kəndlilərinin Şimali Azərbaycana, onun tərkib hissəsi olan İrəvan quberniyasına köçürülməsi başlandı. Sektantların ilk köçü 1803-cü ildə Zəngəzur mahalının Nəzərçay kəndinə gəldi **( 19: s. 27)**.

Tambov və Saratov quberniyasından malakanlar Göyçə mahalının kəndlərinə köçürüldülər **(20: s. 281)**.

Yenə də göstərilən müəllifin erməni və Çar arxivlərinə, bundan başqa erməni – rus müəlliflərinə istinadən apardığı araşdırmalara söykənərək, deyə bilərik ki, «Erməni Vilayəti»nin yönəldicilərindən biri–erməni keşişi Nersesin yerli müsəlmanlara etdiyi zülm və haqsızlıqlar Paskeviç vasitəsilə Çara çatdırıldıqdan sonra, Çar hökuməti özü bu haqsızlıqlardan qeyzə gələrək keşiş Nersesi 15 il müddətinə Bessarabiyaya sürgünə göndərmişdi. Bununla belə aborigen xalq xristian idarəçiliyinin zülmü altında inləyirdi. Məhkəmələrdə hakimlər mütləq rus millətinin nümayəndələrindən təyin olunurdu. Hər beş nəfər məhkəmə iclasçısının üçü rus, biri erməni, biri isə müsəlman əhalidən seçilirdi **(1: s.161,163-164)**. Təbii ki, şəraitdən bəhrələnərək ermənilər hər cür imtiyazlardan istifadə edirdilər. Qafqazda, xüsusən də İrəvan çevrəsində etnik «təmizləmə» siyasətinin izləri hətta küçələrə, bağlara kimi sirayət etməkdəydi. Birdən-birə İrəvan küçələrinin adları dəyişdirilərək, «Tsarskaya, Tserkovskaya, Ter- Quqasovskaya, Armyanskaya, Xotsents» və s. adlandırılmağa başladı. Hətta İrəvan xanlığından xatirə qalmış bağ adlarını da dəyişməyi unutmadılar **(1: s.220-221)...**

Bir çox müsəlmanlara öz dədə-baba mülklərinə ayaq basmağı da qadağan etmişdilər. Hətta İrəvan sakini Hacı Cabbar Kərbəlayı İbrahim oğlu Zəngi çayının suyundan istifadə etmək üçün ərizə yazmalı olubmuş. Bu ərizə Q.D.Kolçevski, V.F.Uspenski və başqalarının iştirakı ilə 1903-cü il fevralın 15-də qurultayda müzakirə də edilibmiş **(21: v.13)**. Tarixçi-alim İsrafil Məmmədovun təbirincə desək: «Şəhər Hacı Cabbarın, çay onun, su payını isə kimlər verməlidir?!».

**Onu da qeyd edək ki, o vaxtkı «Erməni Vilayəti»nin ərazisində 85 min müsəlman yaşadığı halda, bütün köçmələrlə birlikdə 1828-ci ildə burada cəmi 22500 nəfər erməni məskunlaşmışdı.** Lakin sonralar ermənilərin azğınlaşacağından və müstəqil gücə çevriləcəyindən ehtiyatlanan çar Rusiyası özü «Erməni Vilayəti»ni

ləğv edərək onun ərazisini quberniyalara parçaladı. 1880-cı ildə Sankt Peterburqda nəşr olunmuş «Narodı Rossii. Etnoqrafiçeskiy oçerk» adlı kitabda rusların özləri erməni xarakterini və ermənilərin bədbəxtliyinin səbəblərini şərh etmişlər. Bu nəşrə görə ermənilər Qafqazda, o cümlədən Tiflisdə, Axalsixdə, Axalkələkdə, bundan başqa, Kizlyar (*Qızlar*-X.I.), Mozdok, Stavropol, Georgiyevsk və Rostov-Don yaxınlığında məskunlaşmış, həmçinin orada xüsusi bir Naxçıvan şəhəri (Nor Naxçıvan – Yeni Naxçıvan) salmışlar **(22:** s.331**)**. Həmin mənbə təsdiq edir ki, ermənilər dünyaya səpələndikləri, indiyədək müxtəlif dövlətlərin tabeliyində olduqları və müxtəlif mühitlərin təsiri altına düşdükləri üçün öz tipik simalarını itirmişlər.«Hiyləgərlik ermənilərin xarakterinin fərqləndirici xüsusiyyətini təşkil edir»...Pula hərislik və yaşama həvəsi erməniləri hiyləgər, üzlü, vəziyyətdən heyrətedici dərəcədə yaxşı baş çıxaran; lazım gəldikdə aldadan, xidmətçilik və tapşırıqlar arayan, onları var gücü ilə yerinə yetirən insanlara çevirir. Təki öz mənfəətinə olan ümidi həyata keçirsin, çox vaxt qeyri-məqbul yollarla olsa da **(22:** s.332**)**. Ermənilərin «xaraktersizliyi»ni L.I.Veliçko da onların cuhudlar kimi bütün dünyaya səpələnməyində görür **(23:** s.82**)**.

Onu da qeyd edək ki, ermənilər təkcə biz türklərə qarşı deyil, ərazilərində yavaş-yavaş, xain niyyətlərlə məskunlaşdıqları başqa millətlərə qarşı da həmişə iblis taktikası yürütmüşlər. Lakin uzaqgörən xalqların başçıları bu qəliz toplumun yetirəcəyi gələcək başağrısını vaxtında hiss edərək onlardan üzülüşə bilmişlər.

Məsələn, **Yassa kilsəsində saxlanılan bir sənəddə ermənilərin hələ 1321-ci ildən Moldaviyaya gəlməyə başlaması qeyd olunur ki, onların gizli məqsədlərini hiss edən Moldaviya hakimiyyəti 1525-ci ildə ayrıca qanun qəbul edərək, həmin ölkə ərazisində dövlət torpaqlarını satın almağı, yüksək vəzifə tutmağı, moldaviyalı qadınla evlənməyi, ərzaq məhsulları satmağı, yeməkxana və mehmanxana saxlamağı ermənilərə yasaq edibmiş. Başqa ölkələrdə, o cümlədən Çar Rusiyasının özündə də ermənilərdən ehtiyatlanmağı büruzə verən fərmanlar verilmişdi (1:** s.78-79**)**.

*(Rus-erməni münasibətlərindəki problemlərə növbəti səhifələrimizdə yeri gəldikcə toxunacağımızdan, burada təfərrüata varmırıq...)*

***

Bölüm başlığında ifadə etdiyimiz mövzunu oxuculara xatırladaraq, sözümüzü onunla yekunlaşdırmaq istərdik ki, «erməni məsələsi» beynəlxalq siyasi məclislərin gündəliyinə salınmazdan öncə erməni xalqının Osmanlı və Rusiya ərazilərində heç bir xüsusi problemi yox idi, əksinə, bu xalq Osmanlılardan şəfqət, Qərbdən məhdud da olsa müəyyən himayə görür, Rusiya isə artıq onun güvənc yerinə çevrilmişdi: onu nadir təbiətli gözəl türk (Qafqaz) torpaqlarında məskunlaşdırmaqda davam edirdi...

***

«Erməni məsələsi»nin uluslararası müzakirə mövzusuna çevrilməsindən bəhs etməzdən öncə hörmətli oxucuların diqqətini o məqama qədərki yaxın xronologiyaya (*tarixi olayların vaxt ardıcıllığı ilə yazılışı* – X.I.) cəlb etməyə lüzum vardır:

- 1722-ci il – Türkiyə-İran müharibəsi başlandı.
- 1722-ci il – I Pyotr Cənuba yürüş əmri verdi.
- 1723-cü il 26 iyul – rus qoşunları Bakını tutdular.
- 1725-ci il 11 fevral – erməniləri Xəzəryanı vilayətlərdə məskunlaşdırmaq haqqında Rusiya xarici işlər kollegiyası sərəncam verdi **(1:** s. 653-654**)**.
- 1804-cü il 3 yanvar – rus qoşunları Gəncəni tutdular. Gəncə, Şəmşəddin və Basarkeçər Rusiyanın işğalı altına keçdi.



- 1804-cü ilin may – sentyabr ayları-general Sisianovun başçılığı altında rus qoşunları İrəvana hücuma keçdilər.
- 1806-cı il 8 fevral – Bakı xanı tələ quraraq Sisianovu öldürtdürdü.
- 1808-ci il 26 sentyabr – 30 noyabr-rus qoşunları İrəvana ikinci dəfə hücuma keçdilər. Hücum bu dəfə də uğursuzluqla nəticələndi.
- 1808-ci il 1 noyabr – general-mayor Nebolsin başda olmaqla rus qoşunları Naxçıvanı işğal etdilər.
- 1813-cü il 15 sentyabr – Çar I Aleksandr Gürcüstanda rus ordusuna kömək göstərdikləri üçün ermənilərə təşəkkürünü bildirdi **(1:** s. 655-656**)**.
- 1813-cü il 12 oktyabr – Gülüstan sülh müqaviləsi imzalandı.
- 1826-cı il 21 sentyabr – Rus ordusu yenidən İrəvan xanlığının ərazisinə soxuldu **(1:** s. 657**)**.
- 1827-ci il 30 mart – Tiflisdə ermənilərin ilk hərbi paradı keçirildi.
- 1827-ci il 2 aprel – Rus qoşunlarının İrəvana sayca 3-cü hücumu başlandı.
- 1827-ci il 1 oktyabr – Ruslar nəhayət ki, qədim Azərbaycan şəhəri İrəvanı tuta bildilər (1: s.657).
- 1827-ci il 13 oktyabr – Rus qoşunları Güney Azərbaycan şəhəri Təbrizi də ələ keçirdilər.
- 1828-ci il 10 fevral – Türkmənçay sülh müqaviləsi imzalanaraq İrəvan, Naxçıvan xanlıqları və Ordubad rayonunun ərazisi Rusiyanın tabeliyinə keçdi.
- 1828-ci il 20 fevral – İran ermənilərinin Cənubi Qafqaza köçürülməsinə start verildi.
- 1828-ci il 21 mart – Çar I Nikolayın fərmanı ilə Qafqazdakı Qərbi Azərbaycan ərazilərində «Erməni Vilayəti» yaradıldı (1: s. 657-658).
- 1829-cu il 29 dekabr – general Paskeviç erməni kilsəsinin nizamnaməsini hazırlamaq üçün gizli komitə yaratmaq haqqında sərəncam verdi.
- 1829-1830-cu illər – Qafqaza 90-100 min nəfərədək erməni köçürüldü **(1:** s.657-658**)**.
- 1840-cı il 10 aprel – «Erməni Vilayəti» ləğv edildi. Gürcü-İmereti quberniyası və Xəzər Vilayəti yaradıldı (1: s.659).
- 1870-ci il – Konstantinopolda (İstanbulda) ermənilərin «Hayrenik» («Vətən») adlı qəzetlərinin ilk sayı nəşr olunub.
- 1870-ci il – Konstantinopoldakı Qalatasaray litseyinin erməni müəllimləri üsyançı «Dprotsasiradz İnkerutyun» («Məktəbsevərlər cəmiyyəti») yaratdılar.
- 1871-ci il 1 yanvar – Mürtəcə və millətçi yönümlü «Aravelyan mamul» («Şərq mətbuatı») erməni məcmuəsi nəşrə başladı.
- 1872-ci il 3 may – Vanda gizli «Miutyunev prkutyun» («İttifaq və qurtuluş») cəmiyyəti təsis olundu.
- 1874-cü il 20 iyun – Böyük Qarakilsədə «Hayreniki siro qrasenyak» («Vətənə məhəbbət idarəsi») adlı gizli erməni təşkilatı yaradıldı.
- 1874-cü il 19 iyul – Erməni məktəblərinin erməni kilsəsi himayəsində saxlanması ilə bağlı Çar qərar verdi **(1:** s. 660**)**.
- 1877-ci il 12 (24) aprel – Çar II Aleksandr Türkiyəyə müharibə elan etdi.
- 1877-ci il 18 (30 aprel) – Rus ordusunun İrəvan bölməsi general Ter-Qukasovun başçılığı altındakı erməni könüllü hərbi birləşmələri ilə birləşərək Türkiyənin Bəyazid şəhərini işğal etdi.
- 1877-ci il 28 may – Rus qoşunları Alaşkertə soxuldu. General Loris-Melikovun qoşunları Ərdəhanı ələ keçirdi.

- 1877-ci il 3 oktyabr – Rus qoşunları erməni generalı Lazarevin başçılığı altında Qars yaxınlığında Muxtar paşanın ordusunu darmadağın etdi.
- 1877-ci il 6 noyabr – general Lazarevin qoşunları Qarsı tutdu.
- 1878-ci il 19 yanvar – Rusiya və Osmanlı arasında Andrianopol sülh sazişi imzalandı.
- 1878-ci il 8 (20) fevral – rus ordusu Ərzurumu tutdu.
- 1878-ci il avqust – Vanda «Sevxac» («Qara xaç») gizli erməni təşkilatı yaradıldı **(1: s.661)...**

***

Türkiyə arxivlərindəki sənədlər, Qərb diplomatlarının öz ölkələrinə göndərdikləri raportlar və başqa sənədlər Anadoludakı ermənilərin yerli hökümətdən ilk narazılıq motivlərini belə « şərh edirlər » :

Türkiyədəki ermənilərin hüquqları Osmanlı hakimiyyət orqanları tərəfindən tapdalanmayıb və erməni kəndliləri orada yetərincə torpaqlara sahib olublar. Ancaq XVIII əsrin əvvəllərində erməni vilayətlərindəki torpaqların çoxuna sahib olan kürd əşirət başçıları Sultan hakimiyyətinə tabe olmaqdan yayınaraq mülklərə sahib olduqları ərazilərdə müstəqil hakim kimi hərəkət etməyə başlamışdılar. Ümumiyyətlə, 1804-cü ildən yerli kürd ağaları mərkəzi hökumətə itaət etmir, üsyanlar qaldırır, müstəqil olmaq istəyirdilər. Rezenin bildirdiyinə görə, bu qarşıdurma bəzən danışıq yolu ilə çözülür, bəzi hallarda isə kürdlər qəza qoşunları vasitəsilə itaətə gətirilirdi **(24: s.51).**

Sasundakı erməni kəndliləri də 1890-cı illərdə dövlətə vergi vermir, əvəzində kürd ağalarına xərac ödəyir və onların dəstəyinə güvənirdilər.

Nəzərə çatdıraq ki, Türkiyədə ermənilərin məskunlaşdıqları ərazilərdə 276 kəndin torpaqları kürd ağalarının əlinə keçmişdi **(25: s.23-26).**

Erməni müəllifi Levon Sarqsyanın da təsdiq etdiyi kimi, Türkiyə ermənisi Rusiya (Aleksandropol-*Gümrü*) ermənisindən fərqli olaraq torpaq qıtlığından şikayətlənə bilməzdi **(26: s.71).**

Ancaq XIX əsrin IV rübünə doğru erməni kəndlilərinin kürd ağalarından şikayətləri başladı. Bu şikayət Sultan hökumətindən deyil, yerli kürd hakimlərindən idi. Çağdaş oxucu üçün çox maraqlı ola biləcək bu məqamlara bəzi diplomatik raportlarla aydınlıq gətirmək istərdik:

**İngiltərənin Ərzurumdakı konsulu Hampson 1891-ci il yanvarın 16-da öz hökumətinə göndərdiyi məktubda bu münasibətləri belə şərh edir: «Hüseynin (*yerli kürd ağa* – X.I.) nökərlərindən dörd nəfəri gecədən xeyli keçmiş Xaço adlı bir ermənin evinə girir və beş qızıl verməkdən imtina etmiş ailə başçısı ilə haqq-hesabı çürütmək istəyirlər. Xaço evdə olmadığından arvadını ölümcül yaralayır, ailədəki 6 və 7 yaşlı iki oğlunu qətlə yetirirlər...»** ( 27: s.165-167).

**Kürd ağa Hüseynin əmri ilə Eyintalda 21 kəndə basqın edib ermənilərdən 350 funt-sterlinq pul və 200 batman yağ aparıblar... Hüseyn quldurluqla məşğuldur, erməni kəndlərini talayır, od vurub yandırır, 9 kəndi bu minvalla yandırıb, 10 nəfəri şəxsən özü qətlə yetirib, 11 nəfərin isə sağ əlini, qulaq və burnunu kəsib (** 27: s.164)...

Bu materiallar o zaman İngiltərə Baş naziri Solsberqə və kraliça Viktoriyaya da çatdırılıbmış **(28:** v.53).

«Mşak» dərgisinə göndərilmiş bir məktubda da kürd Heydəronlu Əli oğlu Musa ağanın 35 erməni kəndini çapıb-talaması, daha sonra İrana qaçması haqqında xəbər verilirdi.

Erməni-türk münaqişələrinə aydınlıq gətirən yuxarıdakı sonuncu mənbənin növbəti arqumentinə də diqqət yetirək:



«Erməni məsələsinin nə vaxt və necə kəskin xarakter aldığını demək çətindir. Bu məsələ tədricən inkişaf etməkdəydi. 80-ci illərin sonlarında ermənilərə qarşı kürdlərin və türklərin təzyiqləri, ayrı-ayrı kürdlərin, o cümlədən Musa bəyin törətdikləri özbaşınalıqlar artıq hamıya bəlli idi» **(28:** s.12-14).

Bir sözlə, «erməni məsələsi»nin beynəlxalq konfransların gündəminə çıxarılmasından öncə Türkiyə ərazisində türk-erməni problemi yox, kürd-erməni və bunun vasitəsilə də türk-kürd problemi var idi. Bu problemin yaradıcıları da sadə kürdlər deyil, yuxarıda qeyd etdiyimiz kimi, ağalar, əşirət başçıları idi. Türkiyə erməniləri isə, erməni tarixçisi Leonun etiraf etdiyi kimi, «Türkiyənin ən tacir və ən dövlətli xalqı idi» **(29:** s.251-252).

Əlbəttə, bu kimi məsələlər İngiltərə, Rusiya və başqa ölkələrin diplomatlarına yaxşı bəlli idi.

***

«Erməni məsələsi»nin dövriyyəyə buraxılma mexanizmini, bəhanə və hərəkətverici qüvvələrini, tarixi sui-istifadə durumlarını, gündəmə çıxarılma ardıcıllığını və məsələyə mərhələ-mərhələ yanaşmaların dialektikasını ilkin qaynaqlar vasitəsilə hərtərəfli və dolğun araşdıran sayın İsrafil Məmmədovun və başqa tədqiqatçılarımızın araşdırmalarına dayanaraq söyləyə bilərik ki, «erməni məsələsi»nin gündəmə gəlməsini gerçəkləşdirən son və əsas amil 1877-78-ci illərdə baş verən Rusiya-Osmanlı müharibəsi oldu.

Genəlliklə, tarixi mənbələr bildirirlər ki, hələ 1630-cu ildən etibarən Osmanlı İmperiyası tənəzzülə uğramağa başlamışdı. XIX əsrdə Osmanlı İmperatorluğundakı qriqoryan, protestant və katolik ermənilər din və məzhəb mübarizəsinə qurşanmış olduqları halda dünyanın böyük, hegemon dövlətləri Osmanlının diz çökməsini gözləyir, özləri də bu məsələ ətrafında müxtəlif planlamalar aparır və tezliklə süquta uğrayacaq bu imperiyadan daha çox pay mənimsəyə bilmək məqsədilə erməni millətçiliyinin vüsət almasına, kilsə nüfuzunun genişlənməsinə səxavət kisələrini gen-bol açaraq dərindən-qabıqdan çıxırdılar **(1: s. 263).**

Professor Sabir Əsədov yazır ki, «erməni məsələsi»-qərb ermənilərinin azadlıq və öz müqəddəratını təyin etmək və müstəqil dövlət yaratmaq uğrunda mübarizələri diplomatiya tarixində belə adlanır. XIX əsrin 70-ci illərində rus-türk müharibəsindən sonra «erməni məsələsi» «Şərq məsələsi»nin tərkib hissəsi oldu. Bu məsələni qaldıran ermənilər öz ümidlərini 1877-78-ci il müharibəsinə, daha doğrusu, rus tüfənginin qələbəsinə bağlamışdılar ( 12: s. 193-194).

İ.Məmmədova görə, erməni millətçiliyi və ekstremizmi üçün yaranmış münbit şəraitdən gen-bol bəhrələnən ilk erməni lideri məhz patriarx Mkrtiç Xrimyan oldu. Osmanlı dövlətinin sinəsində ayrıca bir erməni dövləti yaratmaq barədə onun təklifi öz taleyini həmişəlik türk imperatorluğuna bağlamış ermənilərin özü tərəfindən də rədd edildi. M.Xrimyan din başçısı kimi öz postundan istefa verməyə məcbur oldu. Lakin onun varisi patriarx Nerses Varjapetyan da Xrimyanın yolunu tutaraq «erməni məsələsi»ni tədricən qaldırmağa cəhd göstərirdi. N.Varjapetyan bu məqsədlə 17 mart 1878-ci il tarixində İngiltərənin İstanbuldakı elçisi Loyarda müraciət etdi: «Bir il bundan əvvəl bizim Osmanlı üsul-idarəsindən heç bir şikayətimiz yox idi. Lakin Rusiyanın bu son zəfərləri vəziyyəti dəyişdirdi. İndi biz də Qərbdə bağımsız bir Ermənistana sahib olmaq istəyirik. Əgər siz yardım etməsəniz, biz bu istəyimizi gerçəkləşdirmək üçün Rusiyaya müraciət etməli olacağıq». İngilis elçisi erməni patriarxının iştahının güc gəldiyi Van, Sivas, Diyarbəkir, Kilikiya və başqa nahiyələrin heç birində ermənilərin çoxluq təşkil etmədiyini bildirdi. Ancaq patriarx fikrindən dönmədi. O, növbəti məktubu 13 aprel 1878-ci il tarixində İngiltərə Xarici İşlər Naziri Solsberiyə ünvanladı:

«Ermənilərlə türklərin bir yerdə yaşaması artıq imkansızdır. Bərabərlik, ədalət, vicdan azadlığı ancaq xristian dövlətində bərqərar ola bilər. Burada müsəlman üsul-idarəsini xristian üsul –idarəsi əvəz etməlidir» **(1: s.263-264).**

1878-ci ilin fevralın 19-da Rusiya ilə Türkiyə barış aktı imzaladılar. Özü də İstanbulun 12 km-dəki San-Stefano qəsəbəsində, Tatyan Arakel adlı erməninin malikanəsində (Görünür, bu rəmzilik də heç təsadüfi deyildir. Erməni liderləri hərçənd çirkin üsullarla olsa da, böyük bir savaşın astanasında olduqlarını düzgün proqnozlaşdıra bilmişdilər. Düşmənçilik etsələr də, onların bu uzaqgörənliyi təqdir olunmalıdır).

San-Stefano sazişi 29 maddədən və iki bölmədən ibarət idi. I bölmə Balkanlara, II isə Kiçik Asiyaya aid idi: Qars, Əhdəhan, Bəyazid, Soğanlı dağınadək (cəmi 36 650 kv.km) böyük bir ərazi savaşı udduğu üçün Rusiyaya verilməli idi.

Vəziyyətdən sui-istifadəyə qərar verən Konstantinopoldakı erməni milli məclisi və erməni patriarxlığı bu sazişdə ermənilər üçün Türkiyə tərəfinə aşağıdakı şərtlərin qəbul etdirilməsi məqsədilə çar II Aleksandra, kansler Qorçakova və danışıqlar aparan rus nümayəndə heyətinə bu sərtləri gizli olaraq çatdırmışdı:

1. «Qərbi Ermənistan», «Şərqi Ermənistan»la birləşdirilsin;
2. Müstəqil Ermənistan daim Rusiyanın nəzarətində qalsın;
3. «Qərbi Ermənistan» Türkiyənin tərkibində qalmalı olduğu halda islahatlar keçirilənədək (ermənilərin nəzərdə tutduğu həmin «islahat»lara görə, **polisin çoxu ermənilərdən təşkil olunmalı, ermənilərə əməlli-başlı hərbi təhsil verilməli, kürdlər və çərkəzlər (Şimali Qafqazdan Türkiyəyə köçmüş əhalinin Osmanlı ərazisindəki ümumi adı) ermənilər yaşayan bölgələri tərk etməli, yaxud da dağlardan enərək şəhər və kəndlərdə məskunlaşmalı, valilər və qəza rəisləri ermənilərdən ibarət olmalı... idi) rus qoşunları bölgədən çıxmamalıydı.**

Uzun sürən gərgin mübahisələr və müzakirələrdən sonra «erməni məsələsi» 16-cı maddə altında San-Stefano sazişinə daxil olundu və uluslararası status qazandı. Bu haqda «Mşak» qəzeti 37-ci sayında belə yazırdı: «16-cı maddənin məzmunu budur ki, Ermənistana quberniya müstəqilliyi veriləcəkdir...» **(1: s. 268-271).**

Ancaq Rusiyanın bu cür qələbəsi və Türkiyənin məğlubiyyətindən təkbaşına yararlanmağa çalışması böyük Avropa dövlətlərinə sərfəli deyildi. Ona görə də San-Stefano sazişini Avropada müzakirə etmək qərarına gəldilər. Beləliklə, 1878-ci il iyunun 1-də Berlində Otto Bismarkın sədrliyi ilə Avstriya, Macarıstan, Almaniya, Böyük Britaniya, İtaliya, Fransa, Türkiyə elçilərinin iştirakı ilə başlayan beynəlxalq konqresdə ermənilər də iştirak etməyə çalışsalar da, onlar bu yüksək məclisə buraxılmadılar.

Avropanın kəskin reaksiyasından ehtiyatlanaraq Rusiyanın bəzi məsələlərdə güzəştə hazırlaşdığını və «erməni məsələsi»nin konqresdə araşdırma predmeti olmadığını duyan erməni liderləri Konstantinopol patriarxlığından Avropa ölkələrinə elçi heyəti göndərdilər. Bu heyətin sədri Mkrtiç Xrimyan, katibi Minas Çeraz idi. Konqresin öz işinə başladığı dövrdə erməni elçiləri Avropanın qapılarını «yağır» etmişdilər. İtaliya, Fransa, İngiltərədə bir çox qapıları döydükdən sonra Almaniyaya üz tutdular **(1: s. 273).**

Ermənilərin Londonda ikiaylıq ardıcıl səyləri məyusedici nəticə vermişdi. Güc-belə ilə qəbuluna düşdükləri Xarici İşlər naziri Solsberi ermənilərin Türkiyədə «əzabkeş» obrazına girmələrini təhqirlə qarşılamış və münasibətini belə yekunlaşdırmışdı: **«Londonun Ermənistandan 3000 mil uzaqda olduğunu gərək biləydiniz. Bizim gəmilərimiz Ermənistan dağlarına qalxa bilməz. Taleyinizin daha pis olmasını istəmirsinizsə, itaət edin, səbir eləyin, mən sizə ancaq bunu deyə bilərəm» (1: s. 274).**

Dindaşların acı həqiqət «meyvəsini» onlara «qabığı ilə» həzm elətdirəcəyini gözləməyən «hay» öncülləri kor-peşman Almaniyaya üz tutdular. *«Laber»* qəzetinin *(1958-ci il, № 102)* yazdığı kimi, *Bismark* onları daha kəskin qarşıladı: ***«Pomeranlı***



*(alman-X.İ.)* ***bir əsgərin sümüyünü bütün ermənilərə dəyişmərəm!»*** Almaniya Kanslerinin bu reaksiyasından sonra Mkrtiç Xrimyan» «Allaha təvəkkül» deyib Almaniya İmperatoru I Vilhelmə müraciət etmək, bununla da müəyyən mənəvi rahatlıq tapmaq ümidindəydi. Ancaq İmperatorla görüşmək sevdası baş tutmadı. Belə olan halda M. Xrimyan erməni üsullarından yararlanaraq xristian yarlığı ilə özünü İmperatorun xanımının yanına təpmək qərarına gəldi. Alman dövlətçiliyinin möhkəm olduğu bu məqamda da özünü təsdiqlədi və ermənilər üçün növbəti tragikomik situasiya burada da «ekrana» gəldi. Nümayəndə heyətinin katibi Minas Çeraz bu anı belə qeyd edir: *«...Qapının ağzında bizi rəsmi geyimli nəhəng bir kişi qarşıladı. Dedik ki, İmperatriçəni görmək istəyirik. Bunu eşitcək o zorba kişi bizi söyməyə başladı. Yaxınlaşıb Mkrtiç Xrimyana bir şillə çəkdi, Xrimyan çaşıb qalmışdı. Xrimyanın başı hərləndi, papağı səkiyə düşdü ...*

*Şilləni tək ona deyil, elə bil BÖYÜK ERMƏNİ XALQINA vurmuşdular...»* **( 30 ).**

Berlin Konqresində San-Stefano sazişinin bir neçə maddəsi dəyişikliyə uğradı. Maddələrə edilən dəyişiklər nəticəsində İngiltərənin tələbi ilə rus qoşunları Qars və Batum qapılarınadək geri çəkilməli oldular. Konqresin son iclasında San – Stefano anlaşmasının ermənilərlə bağlı 16-cı paraqrafı da müzakirəyə çıxarıldı. Bu problemlə əlaqədar ingilislərin layihəsi bəyənildi. Həmin layihədə San-Stefano barış aktının müddəalarının tələblərinə tam əks olan tələblər irəli sürülmüşdü. Məsələn, Berlin Konqresinin 61-ci maddəsinə görə, rus ordusu təcili olaraq «Qərbi Ermənistan»ı tərk etməli idi və Türkiyədəki islahatlara nəzarət hüququ Rusiyadan alınaraq Avropa ölkələrinə (əslində İngiltərəyə) verilirdi...

Ermənilər dindaşları olan Avropadan bu qərarı gözləmirdilər. Bu təqdirdə onlar «erməni məsələsi»nin həllini silaha sarılaraq Osmanlı hökumətinə qarşı üsyana qalxmaqda görürdülər. Hacında və Qazan dağında 100000 nəfər silaha sarılıb general Lazarevi üsyana rəhbərlik etməyə çağırdılar. Bununla «erməni məsələsi»nin yeni mərhələsi başlandı. Və bu məsələ Osmanlı torpağından tədricən Qafqaza, Azərbaycana doğru öz həll coğrafiyasını dəyişməyə başladı **(1: s.276-277)...**

Ümumilikdə, İsrafil Məmmədovun tədbirincə desək, «erməni məsələsi» XIX əsrin II yarısında dünyanın ən azı 6 dövlətinin Şərq siyasətində mənafelər düyününün gərəkli ilməsinə döndü və beynəlxalq «status» aldı.

Doğrusu, bu nəticə, tək-tək erməni liderləri istisna olmaqla Türkiyə ermənilərinin özü üçün də gözlənilməz idi.

## «ERMƏNİ MƏSƏLƏSİ»NİN SİLAHLI ÜSYAN VƏ TERROR MƏRHƏLƏSİ

Raffi imzalı erməni nasir (Hakop Melik Hakopyan) Türkiyə ermənilərinin o zamankı durumu haqda «Ports» qəzetinin 1877-ci il tarixli 3-cü sayında belə yazırdı: «...Özümüz öz torpaqlarımızın sahibi idik... Qonşularımız bizə toxunmazdılar. Mehriban yaşayır, ONLARA KİRVƏ DEYİRDİK...» **( 31 ).**

Rus generalı Mayevski də öz qeydlərində: «1895-cı ilə qədər ermənilərin Türkiyədəki narahatlığının hamısı uydurmadır»-deyə iftiraçı erməni liderlərinə və müəlliflərinə etirazını bildirirdi. «...Ermənilərdə müstəqillik fikri sadəcə onların arasına soxulan Çar Rusiyası agentlərinin, bir qisim kilsə keşişlərinin və bir ovuc aldanmış azlığın başlarında idi.» **– (1: s. 279).**

Doğrudan da, İsrafil Məmmədovun da qeyd etdiyi kimi, «erməni məsələsi» siyasi baxımdan Osmanlı dövlətinə qarşı sui-istifadə məqsədilə Rusiya tərəfindən ortaya atılmış və həmin məqsədlə də sonralar İngiltərə, Fransa, Almaniya və b. Avropa döv-

lətləri tərəfindən məharətlə istifadə olunmuş siyasi şüar, hərraca qoyulmuş məsələ, diplomatlar komediyası olmuşdur.

Hüquq çərçivəsində «erməni məsələsi»ni Avropaya qəbul etdirməyin mümkünsüz olduğunu görən erməni millətçiləri bu «tarixi aksiom»u silahlı hərəkat gücünə, dünyanı fakt qarşısında qoyaraq əsaslandırmaq yolunu tutdular. Patriax Nerses Varjapetyan «İslahat komissiyası» adından müxtəlif ünvanlara namələr göndərir, erməniləri bir kəlmə ilə silahlı üsyana hazırlaşmağa səsləyirdi.

Nəticədə 1878-1884-cü illərdə Zeytunda iki dəfə silahlı üsyan baş verdi. «Erməni məsələsi»ni silahlı üsyan vasitəsilə çözməyə çalışan erməni komitələri, təşkilat və cəmiyyətləri şəbəkəsi Avropanı, Kiçik Asiyanı, Qafqazı, Rusiyanın iri şəhərlərini bürüdü. Vanda «Birlik və Qurtuluş», Ərzurumda «Böyük Ermənistan», Peterburqda «Vətənpərvərlər İttifaqı», Şuşada «Qüvvə və Qüdrət», Moskvada «Vətənpərvərlər İttifaqı», Tiflisdə «Gənc Ermənistan» (o vaxt ermənilərin dövlətçiliyi olmadığı üçün Ermənistan uzağı, ancaq coğrafi məfhum ola bilərdi, yəni bölgə, ərazi, torpaq... və ərazinin, torpağının gənc olması da ancaq erməni təfəkkürünün məhsulu ola bilərdi –X.İ.) təşkilatları, Londonda, Parisdə, Berlində komitələr və klublar, sonralar «Armenakan», «Hnçak», «Daşnaksütyun» partiyaları fəaliyyətə başladı. Qanuni mübarizə üsullarını birdəfəlik öz fəaliyyət tərzlərinə yabançı elan edən ermənilər qan tökülməsini öz «qurtuluş» (əslində iştaha) fəlsəfələrinin baş aksiomu kimi düşüncələrinin «üzərindən» asmışdılar. Beləliklə, 1884-cü ildə Sasunda, 1895-ci ildə Zeytunda, 1896-cı il Vanda silahlı üsyanlar baş verdi. Erməni şovinizmi Türkiyə məkanının dışında, o sıradan Qafqazda da səylərini artırmaqdaydı. İrəvanda 33 erməni təbliğatçısı «Azad Hayastan» qəzeti vasitəsilə Türkiyə və «Ermənistan» türklərinə qarşı çıxaraq «Böyük Ermənistan», «Türksüz Ermənistan» uğrunda mübarizəyə səsləyirdi. Bu çağırış əndazəni o qədər aşmışdı ki, çar polisi həmin 33 nəfəri tutuqlamışdı. Çar ordusunun generalı Dmitri Komarov general Lazareva yazaraq bildirmişdi ki, "okruq"ların Türkiyəyə qaytarılma xəbərini eşidən kimi bu yerlərdə (*Şərqi Anadoluda* – X.İ.) yaşayan ermənilər dərhal Rusiya ərazilərinə (*yəni əsasən Qafqaza* –X.İ.) köçməyə tələsdilər **(1:** s. 279-283**)**.

Müqayisə üçün bildirək ki, 1812-1826-cı illərdə İrəvan bölgəsi də daxil olmaqla Quzey Azərbaycan ərazisində cəmi 51530 nəfər erməni vardısa, 1897-ci ildə bu rəqəm 784346-ya çatmışdı. Bir sözlə, tarix üçün qısa zaman kəsiyi sayılan 70-80 il ərzində bizim torpaqlardakı ermənilərin sayının 15 dəfədən çox artması bu çağırılmamış qonaqların sürətli və sürəkli köçlərindən xəbər vermirmi?

İrəvan əyalətinə gəlincə, 1828-ci ildə burada cəmi 25000 erməni məskunlaşmışdısa, XIX əsrin sonunda İrəvan quberniyası ərazisində onların sayı 19,5 dəfədən də çox artaraq 439926 nəfərə çatmışdı (1: s. 284).

**Ancaq erməniləri Qafqazda belə sürətlə məskunlaşdıran Çar hökuməti bir qədər sonra «ERMƏNİ MƏSƏLƏSİ»NİN QAFQAZDA GÜNDƏLİYƏ GƏLMƏSİNDƏN özü narahat olmağa başlamışdı. Bu xüsusda Rusiya Daxili İşlər naziri 1883-cü il noyabrın 27-də yazırdı: «Son zamanlar Qafqazda ermənilər arasında çaxnaşma nəzərə çarpır. Bu, erməni millətinin siyasi müstəqillik meyli ilə bağlıdır. Təəssüf ki, dövlət xidmətində olan erməni məmurlarına da bu hiss yad deyil, doğmadır. Bu səbəbdən də Qafqaz Mülki İdarəsi VƏZİFƏLİ ŞƏXSLƏR SIRASINDAN ERMƏNİLƏRİN ÇIXARILMASI BARƏDƏ MƏSƏLƏ QALDIRIB» (32:** v.6 **). Az sonra İmperator özü də «ERMƏNİLƏRİN YAŞADIQLARI YERLƏRDƏ ERMƏNİLƏRƏ MƏMURLUQ VƏZİFƏSİ» verməmək barədə sərt bir sərəncam imzalamışdı (32:** s.7 **). İrəvanda həbs olunmuş 33 erməni müəllim və ziyalısına qarşı açılmış cinayət işindəki ittihamnamənin başlanğıcında deyilirdi: «Erməni padşahlığını bərpa etmək cəhdinə görə, erməni padşahlığı ideyasını təbliğ etdiyinə görə...» Yəni cəmi-cümlətanı 5 il öncə San-Stefanoda ermənilərin muxtar hərəkətlərini müdafiə edən Rusiya özü artıq eyni əlamətlərlə üzləşməli olmuşdu. Hətta çar məmuru Tiflis kitabxanasında rast gəldiyi Xaçatur Abovyanın «Ermənistanın yaraları » kitabını görcək romanı ayaq altına alaraq qeyzlə demişdi: «RUSİYADA ERMƏNİSTAN YOXDUR, YARASI DA OLA BİLMƏZ !» (1:** s.284-285**)**.

1895-ci ildə Çar hökuməti «Azad Hayastan» qəzetinin səhifələrində separatçı (bölücü) mövqeyi açıq-aşkar təbliğ etdiyi üçün erməni fəhlələrinin inqilabi təşkilatını bağlamışdı.

Ötən əsrin əvvəlindəki sui-istifadə üçün yararlı durumdan bəhrələnən «Daşnaksütyun» partiyası «erməni məsələsi»ni silaha sarılmaqla həll etməyə səsləyir, Qafqazdakı türk torpaqlarında «Böyük Ermənistan» xülyasını gerçəkləşdirməyə çalışırdı. 1905-ci il mayın 22-də «Daşnaksütyun»un Qafqaz Komitəsi müvafiq əmr də imzalamışdı. Bu əmrdə bildirilirdi ki, ERMƏNİNİN SİLAHINI ƏLİNDƏN ALMAĞA, EVİNDƏ AXTARIŞ APARMAĞA, ONU HƏBS ETMƏYƏ ÇALIŞAN HƏR BİR KƏS ÖLDÜRÜLƏCƏKDİR. Onları Bakı Qubernatoru Nakaşidzenin, Yelizavetpol qubernatorunun müavini Andreyevin, qəza rəisləri Boquslavskinin, Smerlinqin, Naşşanskinin, Pavlovun taleyi gözləyir.

Daşnaklar erməni ordusuna rəhbərlik üçün 7 nəfərlik Baş Hərbi Şura və Şuranın nəzdində 35 nəfərdən ibarət baş qərargah yaratmışdılar. «Hnçak» partiyası da aktivləşmişdi.

«Hnçak»ın baş qərargahı Londonda, ilk qurumları isə Qafqazda canfəşanlıq göstərirdilər **(1:** s.285-286**)**.

1905-ci il iyunun 31-də erməni çətələri İrəvan yaxınlığındakı Mənqüs kəndinə basqın edib azərbaycanlıları qətlə yetirdilər. Qadınlar, uşaqlar və qocalar da xilas ola bilmədilər. Quduz yağılara təslim olmayaraq, təkbaşına, mərdanəliklə müqavimət göstərən Novruz kişinin başını kəsib əvvəlcə Aleksandropola (*Gümrüyə*-X.İ.), sonra da Bakıya göndərdilər. Novruz kişinin kəsilmiş başının üstündəki məktubda yazılmışdı: **«Bu, 150 min müsəlmanın başıdır.»**

M.S.Ordubadinin bildirdiyi kimi, bu "min beş yüz müsəlman sərkərdəsinin başını", yəni Novruz kişinin başını Tijrabat erməni kəndində keşiş Ayrapet özü kəsmişdi **(33:** s. 30-31**)**.

**Ermənilərin belə qara, namərd əməlləri o dövrün çar dəftərxanasında heç də az əks olunmamışdı. Məsələn, Rusiya DİN polis departamentinin bir sənədində deyilir: Türkiyədəki məlum hadisələrdən sonra Zaqafqaziyaya yarım milyon erməni gəlmişdir. Bu ermənilər dərhal öz qara əməllərini göstərdilər (34:** s.8**).**

**Məlumat üçün xatırladaq ki, XX əsrin əvvəllərində Cənubi Qafqazda 54 qəza vardı və bunların yalnız 5-də ermənilər üstünlük təşkil edirdilər (1:** s.287**).**

1905-1906-cı illərdə ermənilər təkcə İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında 200-dən çox müsəlman kəndini dağıdıb yerlə yeksan etmiş, əhalini əsil soyqırıma uğratmışdılar. Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi dağıdılmış, əhali qılıncdan keçirilmiş, bəziləri də canını qurtarıb öz evindən qaçqın düşmüşdür. Rəsmi statistika göstərir ki, təkcə İrəvan quberniyasında 1905-1906-cı illərdə 10 min nəfərdən artıq türk (azərbaycanlı) soyqırıma uğrayıb **(1:** s.288**)**.

O dövrün sənədlərindən bəlli olur ki, 1905-ci ildə Qafqazdakı türk kəndlərinin ümumi sayı 5910 (İrəvan quberniyasında 860, Yelizavetpol quberniyasında 1173, Bakı quberniyasında 1111 və s.) imiş.

Bakı quberniyasında müsəlmanların dəfələrlə artıq say çoxluğuna malik olması erməniləri narahat etdiyindən 1905-ci il fevralın ilk günlərində Bakıda müsəlman qırğını törətdilər. Az sonra İrəvanda iğtişaşlar kütləvilləşdi. Naxçıvan və Zəngəzurda erməni silahlıları müsəlman kəndlərinə basqın etdilər.

O zamankı Eçmiədzin qəza rəsinin məlumatında bildirilir: 800 nəfər silahlı erməni müsəlmanların yaşadığı Toros kəndinə hücum edib. Kənd darmadağın olub; 53 nəfər öldürülüb, yaxud yandırılıb. 27 müsəlman yaralanıb. 255 ev, kəndin ot tayaları, taxıl zəmiləri yandırılıb. **Qəza rəsinin arayışında o da deyilir ki, «Daşnaksütyun» partiyası həm barışıq çağırışları ilə erməni və müsəlman xalqlarına müraciət edir, həm də gizlicə terrorçuluq əməlləri həyata keçirir (1: s.289-290).**

Görkəmli ədibimiz Məmməd Səid Ordubadi də «Qanlı sənələr» əsərində bu hadisələri böyük böyük həyəcan və ürək yanğısı ilə qələmə almışdı: 1905-ci il iyunun 9-da ermənilər azərbaycanlılar yaşayan Təkyə kəndinə hücum etmişlər. Müsəlmanlar tamamilə yaraqsız, ermənilər isə mükəmməl şəkildə silaha sarılmış halda. Axund Məhəmməd Əli Mirzə Əbdül-Hüseyn Qazızadənin imarəti, İKİ YÜZ CİLD QURAN VƏ MÜQƏDDƏS KİTAB YANDIRILMIŞDIR. Eçmiədzində iyunun 10-da 9 tanınmış azərbaycanlı kəndi dağılsa da, hökumət heç bir tədbir görməmişdir **(34: s.35)...**

"Qanlı sənələr"də deyildiyi kimi, Saqqarsuda sığınacaq tapmış müsəlmanların başı üstündən sübh çağı bir erməni silahlı dəstəsi «Ya Əli, Ya Əli!» – deyə fərhad edincə, camaat bunu müsəlman qoşunu sanaraq öz mövqelərinindən çıxıb bu qoşuna sarı gedincə misli görünməmiş bir qırğına məruz qalmışdı. Saqqarsunun ətrafında qan gölməçəsi görünürdü. Qanın üzü buz bağlasa da, daşın bir tərəfindən damcı-damcı qan sızırdı. Həsən Əfəndinin qətl yerindən bir az şimala qarşı bir palaz parçası görünürdü... Palazı çəkən kimi 15 nəfər üzərində çiçək, yəni abilə əlaməti sönməmiş körpə cocuqların kəsilmiş başları və bir para bir-birinə qarışmış bədənləri göründü. Cənub səmtdə həddən artıq arvad-uşaq bədənləri tökülmüşdü **(34: s.131,133-134)...**

Ümumilikdə, təqribi hesablamalara görə, 1905-1906 və 1918-1920-ci il hadisələrində 2 milyona yaxın azərbaycanlı soyqırıma, deportasiyaya və başqa təzyiqlərə məruz qalmışdır **(1: s.292).**

***

**Ermənilərin Rusiya, xüsusən də Qafqaz bölgəsində özünü qeyri-məhdud imtiyazlara malik toplum kimi aparması, Qafqazdakı türk torpaqlarında erməni dövləti yaratmağa çalışması və bu yolda ardıcıl terror siyasəti yeritməsi, eləcə də çoxlu çar məmurunu qətlə yetirməsi Peterburq Sarayını da silkələməli oldu. Cavab tədbiri kimi 1912-ci ildə yanvarın 17-sində Senat məhkəməsi Peterburqda «Daşnakların işi» deyilən silsilə cinayət işlərinə baxmağa başladı. Dırnaqarası inqilabi fəaliyyətə və dövlət məmurlarını vəhşicəsinə aradan götürdüklərinə görə 159 nəfər erməni haqda Rusiya cinayət məcəlləsinin 112-ci maddəsi ilə cinayət işi qaldırılmışdı.**

Orası da maraqlıdır ki, müttəhimlərdən ikisi həbsxanadaca gəbərmiş, doqquzu isə qaçmağa nail olmuşdu. İsrafil Məmmədovun tarixi fakt və qaynaqlara əsasən qeyd etdiyi kimi, martın 19-da oxunan məhkəmə hökmünə əsasən 159 erməni məhbusdan 94-nə bəraət verildi, qalanları 4-6 il müddətində azadlıqdan məhrum edildi. Bu təəccüblü hökmə səbəb isə məhbusların sırasında Melik-Azadyan, Şapaşnikyan, Gəngəoğluyan kimi kapitalistlərin erməni terroruna, indiki ifadələrlə desək, sponsorluq *(hamilik)* etməsi idi ki, həmin iş adamları Rusiyanın ən məhşur hüquqçularını vəkil qismində bu məhkəmə prosesinə cəlb etmiş, onları maddi cəhətdən ələ almışdı. Məhkəmənin hökmünə təsir edən ikinci «yumşaldıcı» səbəb isə siyasi idi: 1912-ci ildə Rusiyanın xarici siyasətində növbəti qalxınma baş verirdi. Balkanlar məsələsi ilə birgə ruslar «erməni məsələsi»ni də yenidən gündəmə atmışdılar ki, bundan da məqsəd Osmanlı dövlətindən yeni ərazilər və güzəştlər qoparmaq üçün növbəti kampaniyaya başlamaq idi. Dövlət Dumasının 6 iyun 1913-çi il tarixli iclasında P.Milyukov, Gəncədən deputat seçilmiş (20 oktyabr 1912) erməni hüquqçusu M.Papacanyan «erməni



məsələsi»ni Rusiya Dumasının müzakirə predmetinə çevirmişdilər. Ancaq gürcü menşeviki, deputat A.Çxengeli «Erməni Makedoniyası kimə lazımdır?», rus monarxisti, deputat P.Markov «...Qafqazın sərhəd xəttində Ermənistan yaratmaq Rusiyanın nəyinə lazımdır ki, sonra da Rusiya Ermənistan ilə birləşməyə qalxsın» deyə «erməni məsələsi»ni kinayə ilə qarşılayırdılar. Ancaq M.Papacanyan nə utanmayaraq, nə də usanmayaraq hər çıxışında yenə «erməni məsələsi»ni qaldırmaqdan əl çəkmirdi **(1: s.293-294)...**

Ruslarla ermənilərin münasibətləri tarixinə dair əvvəlki yazılarımdan birində qeyd etdiyim çox ciddi bir məqamı təkrar xatırlatmaq istərdim.

**Hələ 1779-cu il noyabrın 14-ü tarixində Çar II Yekaterinanın fərmanı ilə Rostov-Don bölgəsindəki Nor Naxçıvan (Yeni Naxçıvan) rayonunda ermənilərə muxtariyyət (özərklik) statusu verilmişdi. 1780-cı ildə orada ermənilərin inzibati özünü idarəetmə orqanı, magistratı, polisi, hətta müstəqil məhkəməsi fəaliyyət göstərirdi. Bundan başqa, Həştərxan və Mozdokda ermənilərin öz «Dadastarigirk»ləri, yəni məhkəmə divanı, indiki anlamda «cinayət məcəlləsi» qüvvəyə minmişdi. 1811-ci ildə Donda ermənilərin arı və pətək rəsmli gerbi də yaradılmışdır. Rəsmi məlumatlara görə, artıq 1850-ci ildə Nor Naxçıvanda və ətrafındakı 5 kənddə 17 min erməni məskunlaşmışdı... Ancaq erməni icmasının özünü «göydən zənbillə düşmüş», ruslardan və başqa millətlərdən «ağıllı» toplum kimi aparması, bir sözlə saygısızlıq, naşükürlük və qudurğanlıq etməsi Çar hökumətinin hiddətinə səbəb oldu və Rusiya Nazirlər Kabinetinin 2 iyun 1831-ci il tarixli qərarı ilə, ermənilərə verilmiş imtiyazlar və Senatın 27 mart 1840-cı il tarixli qərarı ilə Nor Naxçıvanda** (Новый Нахичеван на Дону – *В.Л.Величко*) **ermənilərə verilən muxtariyyət və Rusiya ərazisindəki müstəqil erməni məhkəmələri ləğv edildi. Eyni səbəblərdən Qafqaz canişininin əmri ilə 1907-ci ildə Tiflisdəki erməni mətbəəsi bağlandı. Səbəb kimi, qərəzli, böhtançı, millətlərarası ədavət yayan nəşrlərin çapı göstərilirdi (1: s.79-81; 35).**

Bununla belə ermənilər yenə də «strateji tərəfdaşlıq» kartı ilə rus hakim dairələrinin qılığına girir, türk-müsəlman dünyasına, xüsusən də Osmanlı İmperiyasına qarşı alət olma imtiyazlarından fərasətlə yararlanırdılar.

1901-ci ildə daşnakların «Fırtına» adlanan terrorçu cəza dəstəsi yaradıldı. Bolqarıstanın Plovdiv şəhərində fəaliyyətə başlayan bu dəstənin ilk qurbanı erməni bankiri, Moskva milyonçusu İsahak Yamkaryan oldu.

Silahlı erməni çətələri formalaşdırılaraq İrəvan-Mirzəcan-Taron, İrəvan-Dəvəli, Maku, Xoy-Van yolu ilə türklərə qarşı təxribata və savaşa yönəldildi. «Hnçak» partiyası isə «Qartal» adlanan təxribat bölüyü yaratmışdı. İrəvandan da «Ardavad» və «Masis» adlı 102 nəfərlik dəstə formalaşdırılaraq sərhəddəki türk qarnizonlarına həmlə etməyə göndərildi.

1901-ci ildə Berlində Beynəlxalq Sülh Bürosu isə «erməni məsələsi»ni siyasi çevrələrin, dövlət elçilərinin dartışmasına təqdim etmişdi.

Anadol Frans, Jan Jores kimi tanınmış şəxslər «əzabkeş erməni xalqının» müdafiəsinə qalxmışdı. Londonda, Parisdə, Romada, Berlində mitinqlər də keçirirdilər. Həmin şəxslərin təşəbbüsü ilə 1902-ci il iyunun 4-dən 7-dək Brüsseldə «erməni məsələsi»ni dəstəkləmək məqsədi güdən beynəlxaq konfrans çağırıldı. Konfrans müvafiq qətnamə qəbul etdi və komissiya heyəti ayırdı. Brüsseldə ermənilərlə həmrəylik bildirən mitinq də təşkil edildi. Jan Jores çıxış edərək Fransa tərəfdən Avropanın fikrini «erməni məsələsi»nə yönəldəcəyinə əminliyini bildirdi. Daha sonra xatırlatdı ki, Rusiyanın mövqeyi də Fransanın mövqeyindən asılıdır **(1: s. 295-296).**

Ermənilər içərisində din xadimləri yenə də təşəbbüsü ələ almışdılar. 1904-cü ildə katolikos Mkrtiç Xrimyanın tapşırığı ilə arxiyepiskop Hovsen Saracyan (Amerika) və arxiyepiskop Sahak Ayvazyan (İran və Hindistan) böyük dövlətlərin başçılarına müra-

ciət edərək, «erməni məsələsi»nə yardımçı olmalarını istədilər. Fransa Prezidenti Lüben iyulun 6-da onları qəbul etdi. Prezident «erməni məsələsi»nə rəğbətlə yanaşdığını ifadə edərək bildirdi ki, Berlin sazişini təkcə Fransa deyil, digər ölkə başçıları da imzalayıblar **(36:** s. 22-26).

Yuxarıda qeyd olunan arxiv sənədində göstərilir ki, erməni elçiləri Berlin sazişini imzalayan digər dövlətlərin başçılarından da eyni laqeydlik gördülər.

Jorj Loran (Belçika) London konfransında (15 iyul 1906-cı il) bu barədə yeni təklif verdi: Berlin sazişindəki «erməni məsələsi» ilə bağlı maddənin yerinə yetirilməsi Səfirlər Şurasına tapşırıldı. Daimi fəaliyyətdə olan Səfirlər Şurası «erməni məsələsi»nin həll edilməsi üçün ardıcıl olaraq tədbirlər görməli idi. Lakin Səfirlər Şurasının da fəaliyyəti etikaya riayət və rəsmiyyətçilik çərçivələrini aşa bilmədi. Bu dəfə katalikos M.Xrimyan İngiltərə rəhbərinə «sentimentallıq»la dolu məktublar yollamalı oldu. Rədd cavabı, xüsusən də İngiltərədən verilmiş kəskin mənfi reaksiya erməniləri sarsıtsa da, daşnak partiyası silahlı üsyan və terror taktikasına keçməyi qərara aldı. Xristofor Mikaelyanın başçılığı ilə terrorçu qrup yaradıldı. 1905-ci il iyulun 21-də daşnaklar Sultan II Əbdül Həmidə qarşı sui-qəsd planını həyata keçirdilər. Təsadüf nəticəsində Sultan xilas oldu.

Balkanlardakı müharibənin başlanması (9 oktyabr 1912) və Türkiyənin ilk məğlubiyyəti (3 noyabr) «erməni məsələsi»nin qeyri-adi vüsət almasına səbəb oldu. Erməni ümummilli hərəkatının dalğaları Türkiyədən Avropaya, oradan da Rusiyaya, Cənubi Qafqaza yayıldı. Erməni öncülləri 1912-ci il sentyabrın 19-da Tiflisdə yığıncaq keçirərək Çar hökumətinə yenidən müraciət etməyi qərar aldılar. Batumda, Bakıda, Rusiya İmperiyasının tabeliyində olan başqa şəhərlərdə də müvafiq toplantılar təşkil etdilər. Məqsəd çar Rusiyasından «erməni məsələsi»nin həllini və Türkiyədəki erməniləri himayəyə götürməyi xahiş etmək idi. Katolikos V Gevork Rus Çarına müraciət göndərdi. Qafqaz canişini Voronsov-Daşkov da II Nikolaya məktub göndərərək Rusiyanın sədaqətli dostları olan erməniləri himayəyə götürməyi tövsiyə edir, əks halda bu təşəbbüsə Avropanın yiyələnəcəyi haqda Çarı xəbərdar edirdi.

Konstantinopol (İstanbul) erməniləri də Rusiyaya arxalanaraq erməni milli məclisinə toplaşdılar **(1:** s.297-299).

Patriarxin müavini Arşaruni milli məclisin üzvü Qarayan Konstantinopoldakı Rus səfiri Girslə görüşüb ermənilərin istək və tələblərini ona açıqladılar. Sonra Girs Rusiya Xarici İşlər naziri Sazanova yazaraq bildirirdi ki, ermənilər Rusiyaya rəğbət bəsləyirlər, onların tələblərinə ən ciddi diqqət yetirmək lazımdır. O, qeyd edirdi ki, əks halda ermənilər Avropaya müraciət etməli olacaqlar. Səfir ermənilərə heç olmasa ümid verməyin zəruri olduğu qənaətində idi **(37:** s. 3).

Rusiyanın diplomatik təzyiqlərindən sonra, Türkiyə hökuməti erməni milli məclisinin nümayəndələrini dəvət edərək, dövlətin ermənilərlə islahat layihəsini ortaya qoymuş və hətta bu lahiyəni qəzetdə də çap etdirmişdi. Lakin ermənilər Osmanlı hökumətinin bu proqramını rədd edərək Türkiyədə Ermənistan dövləti yaratmaqla bağlı hazırladıqları başqa layihəni Rus hökumətinə təqdim etdilər *(aprel 1913-cü il)* **(37:** s.24).

Çar Rusiyası ermənilərin bu tələbini dəstəkləməkdəydi. «Novoye vremya» qəzeti ermənilərin təşəbbüsünü alqışlayır, «Russkoye slovo» isə hətta «Əldə silah ermənilərin müdafiəsinə qalxmalı!» (1913) deyirdi **(1:** s. 300).

***

1 avqust 1914-cü ildə dünyanı yenidən bölüşdürmək üçün böyük dövlətlər (İngiltərə, Almaniya, Rusiya...) dünya savaşına başladılar. İngiltərə öz müstəmləkələrini əldən verməmək, Almaniyanı zəiflətmək, Misirdə mövqeyini möhkəmləndirmək, Fələstinə və İkiçayarasına yiyələnmək; Rusiya isə Qara dəniz boğazlarına, Qalitsiyaya, Osmanlının ermənilərin yığcam yaşadığı ərazilərinə sahib olmaq niyyətindəydilər. Təbii ki, bu I Dünya Savaşında həm də Fransanın, Almaniyanın və başqa dövlətlərin, o cümlədən müharibəyə 1917-ci ildə qoşulan ABŞ-ın da bəlli maraqları var idi.



*I Dünya Savaşından hələ 6 ay öncə-26 yanvar 1914-cü ildə rus diplomatiyasının növbəti təzyiqi ilə Osmanlı hökuməti şərq vilayətlərdə islahatlar, o sıradan həmin bölgədə ermənilərə muxtariyyət verilməsi ilə bağlı saziş imzalamışdı. Bu nailiyyət I Dünya Müharibəsinin lap əvvəllərindən ermənilərin Rusiya tərəfində savaşmasına əhəmiyyətli dərəcədə təkan vermişdi* **(1:** s. 301-302).

Katolikos V Gevork «erməni məsələsi»nin həllinin vaxtı çatdığını Qafqaz canişini Voronsov-Daşkova bildirdikdə, o, məqamında hər şeyin ermənilərin xeyrinə çözüləcəyini vəd etmişdi. Çar II Nikolay da V Gevorku qəbul etdiyi 15 dəqiqəlik tarixi görüşdə ermənilərin ruslar tərəfində canla-başla vuruşmağı istənilir, əvəzində savaşdan sonra «erməni məsələsi»nin həlli vəd olunurdu. Bütün bu münasibətlərin və ümidlərin nəticəsində çar Rusiyası ərazisindəki ermənilər rus ordusuna 250 min nəfər əsgər verdilər. İngiltərə və ABŞ ordularında da 50 mindən çox erməni əsgəri savaşırdı. Bundan əlavə, erməni liderləri Türkiyə ermənilərini də könüllü bölüklər təşkil edərək Birləşmiş Qüvvələrin (Antanta və s.) tərəfində vuruşmağa çağırırdılar **(1:** s. 303-304).

Hələ 1912-ci ildə böyük dövlətlərlə danışıqlar aparmaq üçün Tiflisdə yaradılmış Erməni Milli Bürosu 1914-cü ilin sentyabrında Rus hökumətindən onun ərazisində erməni könüllü silahlı dəstələri yaratmağa rəsmi icazə aldı. Artıq 1914-cü ilin sonunda 4 belə könüllü silahlı dəstə mövcud idi. Bu dəstələrə müxtəlif vaxtlarda Andranik Ozanyan, Arşak Qavafyan (Kerri), Vardan Mehrabyan, Hamazasp Srvantsyan başçılıq etmişdilər. Qərargah rəisi Yudeniç general Yanuşkeviçə teleqram göndərərək Türkiyədəki erməniləri silahlandırıb üsyana qaldırmaq üçün 25 min tüfəng, 12 milyon güllə göndərilməsini xahiş etmişdi. O dövr hadisələri barədə Stenford C.Şou belə yazırdı: «Erməni könüllülərinin köməyi ilə rus ordusu Van istiqamətində hücuma keçərək mayın 14-də oranı tutan kimi iki gün ərzində yerli müsəlman əhalini kütləvi sürətdə qırmağa başladılar». Rusların himayəsi altında Vanda erməni hökuməti qurulmuşdu. İyulun ortalarında hər tərəfdən 250 min erməni gəlib Vanda toplanmışdı» **(1:** s.305).

Qafqazdakı erməniləri silahlandırmaq üçün Voronsov-Daşkov da hərbi nazir Suxomilova yazaraq 5 min tüfəng və 50 milyon güllə istəyirdi.

Bütün erməni döyüşçülərinin başçısı Andranik Ozanyan idi və müəlliflərin yazdığına görə o, on il əvvəl qaçdığı Bolqarıstandan geri gəlmişdi...

O zamankı, «Mşak» erməni qəzetinin yazdığı kimi, Ümumavropa müharibəsinin üçüncü mərhələsi başa çatmasa da, «Daşnaksütyun»un fəaliyyətinin ölümcül nəticələri artıq göz qabağında idi **(38:** s.175,178).

Yeri düşmüşkən, bu məqamda oxucuların diqqətini, bir qədər geriyə, XIX əsrin başlanğıcındakı erməni terroruna da yönəltmək istərdik. «Erməni məsələsi»nin həllinə terror vasitəsilə nail olmaq istəyən daşnak liderlərinin əmri ilə Aleksandropolda kahin Vasilovu, İrəvan dəmiryol stansiyasında Stepan Dramkovu öldürdülər. Tiflisdə general – adyutant knyaz Qalitsına qarşı sui-qəsd törətdilər, general Əlixanovu, Bakı qubernatoru Nakaşidzeni, Yelizavetpol qubernatorunun müavini Andreyevi, qəza rəisləri Boquslavskini, Şmerlinqi, Neşşanskini, Pavlovu, polismeystr Saxarovu, Pristav Cavaxovu və b. vəzifəli şəxsləri aradan götürdülər **(1:** s. 305-307).

Cənubi Qafqazda erməni terroru öz iddialarını diqtəedici səviyyədə həyata keçirmə havası ilə bölgəni sarsıtmışdı. Lakin bunu da yetərli hesab etməyən erməni başbilənləri nizami ordu yaratmağa başladılar. Çox çəkmədi ki, Türkiyə və Qafqazdakı erməni gənclərindən ibarət 100000 nəfərlik ordu ərsəyə gəldi. Ardınca Erməni İnqilab Şurasının hərbi nizamnaməsi də müəyyən edildi (1904- cü il). Erməni dəstələri Qafqazdakı türk məskənlərində meydan sulayaraq silahsız əhalini qılıncdan keçirir, gələcəkdə yaranması planlanan «erməni dövləti» üçün ərazi «hazırlayırdı» **(1:** s.308).

Erməni dövlət xadimi Askanaz Mravyan «Daşnaksütyunun böhranı» əsərində *(səh. 37)* daşnak siyasətinin mahiyyətini çox sadə və aydın bir dillə açaraq yazırdı: «Onlar qırğınlar törədir, ancaq bunu böyük bəla hesab etmirdilər. Bircə ki, qırğınlar Avropanın diqqətinə yetərli olsun»... Başqa bir tanınmış erməni dövlət xadimi Aleksandr Myasnikyan isə daşnakların fəaliyyətini belə qiymətləndirirdi: «Ermənistanın müsəlman və rus kəndlərini onlar odla, qılıncla məhv etdilər... Daşnak ordusunun başında duran kimlər idi? Aram və Rubendən Martiros və Pilosadək nadan, talançı, quldur xmbapetlər. Bu ordu silahsız müsəlmanlara divan tutmaqda, dinc əhalini çapıb-talamaqda məharətli və cəsarətli idi» **(39:** s.354-365) .

***

1914-cü il noyabrın 4-də tərkibində çoxsaylı erməni könüllü bölükləri olan rus qoşunları Osmanlı torpaqlarını işğala başladı. Dörd gün sonra Ərzurumdakı Körpüköy tutuldu. 1915-ci il yanvarın 3-4-də Sarıqamış, 1916-cı il fevralın 16-da Ərzurum, martın 17-də İsfahan (İran), aprelin 18-də Trabzon işğal edildi. Mayın 2-3-də Xoy və Dilmanda yerli əhaliyə divan tutuldu. Van və Urmiya (Urmu) gölləri arasındakı əraziləri yandırdılar, iyunun 25-də Ərzincan, avqustun 23-də Muş zəbt olundu.

Həsənqala, Sarıqamış, Ərdəhan, Qars, İzmir, İrəvan, Ərzincan, Trabzon bölgələrində ermənilər müsəlman (türk) kəndlərini yerlə yeksan edir, oda qalayır, əhalini qılıncdan keçirirdilər. Yerli əhalini məscidlərə doldurub diri-diri yandırır, qocaları və uşaqları torpağa basdırır, hamilə qadınların qarnını yarıb körpə balalarını çıxarıb boğur, tikə-tikə edib bişirir və anaları öz körpələrinin ətini yeməyə məcbur edirlər **(1:** s.316)...

General Harborda göndərdiyi məktubda Kazım Qarabəkir Paşa yazırdı:

"Ordumuz fevralın 22-də Mamaxatunu azad etdi. Burada biz sağ qalmış heç bir nəfərə rast gəlmədik. Bütün əhalini qırıblar, meyitləri iri bir quyuya doldurublar. Alacakənddə gördüklərimizi isə təsəvvürə gətirmək belə mümkün deyil. Gözlərimiz önündə dəhşətli bir mənzərə canlandı: Əcaib hala salınmış meyitlərin döşləri... Bütün uşaqların bədənləri süngülərlə dəlik-deşik edilib. Qocaları və qadınları saraya doldurub diri-diri yandırıblar, gəncləri balta ilə şaqqalayıb asıblar. Həmvətənlərimizin bu faciəsi insanın qəlbinə dağ çəkir " **(1:** s.316-317)...

Muş süqut edəndə çevrədəki 15 kəndin əhalisini erməni hərbçiləri ağır at nalları ilə nallayaraq Hazal gölünə tökmüşdülər. Gənc qızların döşlərini kəsib manyakcasına əzab verərək məhv etmişdilər. Beşikdəki yaralı körpənin ağzına anasının döşünü kəsərək tıxamışdılar. Şeyx Əbdül Qafar Əfəndi başının dərisinin soyulmasına dözməyərək keçinmişdi. Xəstələri, uşaqları və qadınları Təkkə monastırına doldurub diri-diri yandırmışdılar.

Jorj de Malevilin yazdığına görə, ermənilər Dikili Daşda yüzə yaxın uşaq və qadının başını kəsmişdilər **(1:** s.318-319)...

Sonralar, erməni könüllü hərbi birləşmələrinin terrorçu və bölücü hərəkətlərinin nəzarətdən çıxacağından, bunun Rusiyanın özü üçün də başağrısına çevriləcəyindən ehtiyat edən Qafqaz canişini 1916-cı ilin mayında erməni könüllü dəstələrinin tərxis edilməsi *(buraxılması)* haqqında əmr verdi.

1916-cı il noyabr 26-da isə Fransa Osmanlı dövlətinə qarşı savaşmaq üçün erməni könüllülərindən – erməni qaçqınlarından ibarət legion formalaşdırmışdı. «Şərq legionu» adlanan bu hərbiləşdirilmiş qurum Kilikiyada gələcək erməni dövləti ordusunun özəyi kimi nəzərdə tutulmuşdu. Həmin legion 1920-ci ilin sentyabrın 27-də tərxis edildi **(1:** s.326)...



Ədəbiyyat:


1. İsrafil Məmmədov . Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
2. Жорж де Малевил. Армянская трагедия 1915-го года. Баку, 1990.
3. Ə.M.Quliyev, A.Ə.Quliyev. Türk oğlu,...17-ci hücuma hazır ol!, Bakı, 2003.
4. Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevskinin xatirələri. Bakı, 1994.
5. Süleyman Kocabaş. Ermeni Meselesi Nedir Ve Ne Deyildir. İstanbul, 1958.
6. Ленорманъ. Ассириологические письма. Серия 1-ая, письмо 2-ое.
7. И.Г.Чавчавадзе. Армянские ученые и вопиющие камни. Тифлис, 1902-Баку, 1990.
8. İrəvan əyalətinin icmal dəftəri, 1519. – Bakı, 1996.
9. Atamoğlan Məmmədli. Ermənilərin gerçək tarixi. Bakı, 2005.
10. Кямуран Гюрюн. Армянское досье. Баку, 1993.
11. F.Valvi. Revolutions in İslam. London, 1925.
12. Сабир Асадов. Миф о « Великой Армении». Баку, 1999.
13. Эзов Г.А. Сношение Петра Великого с армянским народом., СПб., 1898.
14. ASE, 10 cilddə, 4-cü cild. Bakı, 1980.
15. Армяно-русские отношения в первый трети 18-го века. Ереван, 1987.
16. Azərbaycan tarixi, uzaq keçmişdən 1870-ci illərə qədər., Bakı, 1996.
17. Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России. Москва, 1831.-Баку, 1990.
18. Avetisyan T.M. Erməni soyadları. İrəvan, 1987, *(erməncə)*.
19. Сегал И. Л. Елизаветполская губерния, «Кавказский вестник», №5, Тифлис, 1902, гл. 11.
20. АКАК, т. 10, Тифлис, 1895, док. 293.
21. Ermənistan DTA, f. 134, iş 203, v. 13.
22. Народы России. Этнографический очерк., СПб., 1880.
23. В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы., СПб., 1904; Баку, 1990.
24. *Габудилин Х. З. Младотуреукая революция, 1936.*
25. Qəza mülkləri haqqında məlumat. Konstantinopol, 1876.
26. Levon Sarqsyan. Türkiyə Ermənistanına səfər. İrəvan, 1980.
27. Положение армян в Турции., 1896.
28. АВПР. Ф.Политархив, д. № 3447.
29. Leo. Xoca kapitalı, 1-ci c., İrəvan, 1934.
30. "Lraber" qəzeti, 102-ci sayı, 1958- ci il.
31. Ports" qəzeti, 3-cü sayı, 1877.
32. LMTDA F.229, siyahı 2, iş 11136.
33. Məmməd Səid Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə erməni-müsəlman davasının tarixi, 1911., Bakı, 1991.
34. Дашнаки, Баку, 1990.
35. ЦГИАЛ. Ф.102, 1910, д.14, 1, 144.
36. Ermənistan MDTA F.56, iş 387.
37. Реформы в Армении, СПб.,1915.
38. Галоян Г.А. Рабочее движение и национальный вопрос в Закавказъе 1900-1922. Ереван,1969.
39. Мясникян А. Ф. Избранные произведения. Ереван, 1965.
40. "Xalq qəzeti", 24 dekabr 1997-ci il.
41. Əziz Ələkbərli. Qərbi Azərbaycan, II c., Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları (Zəngibasar, Qəmərli və Ellər rayonları)., Bakı, 2002.
42. «Министерство Народного Просвещения», 1875, № 175.
43. K.Marks, F. Engels. Əsərləri, III c., Bakı.
44. Manuk Abeqyan. Erməni ədəbiyyatı tarixi., İrəvan, 1975.
45. «Kommunist» qəzeti, Bakı, 08.06.1989.
46. Ю.Помпеев. Кровавый омут Карабаха., Баку, 1992.
47. История древного мира., изд. «Просвещение»,1979.
48. *Джумшуд Нуриев, Шабнам Нуриева. Тајны истории фалсификации.,Баку, 2009.*
49. *Дарья Асламова. Россия и Армения –зачем мы нужны друг-другу? «Комсомолская Правда», Москва, 16.06.2009.*
50. Məhərrəm Zaman, Nəbi Xudiyev. Sonsuz erməni vandalizminin iç üzü., Bakı, 2007.
51. Ramazan Hüseynov. Qərbi Azərbaycan Mühacir Hökuməti: ideyadan gerçəkliyə., Bakı, 2006.

*Əlavə ədəbiyyat:*


1. Mehmet Perinçek. Ermeni Devlet Adamı B.A.Boryanın gözüyle türk-ermeni çatışması., 2. Basım, İstanbul, 2006.

2. Армянский вопрос на Кавказе (По материалам российских архивов и изданий). Санкт-Петербург, 2011, издательство «Академия исследования культуры», в 3-х томах., Издатель: Общество «Европа-Азербайджан»

3. Исрафил Мамедов. Триология панарменизма, в 3-х томах., Баку, 2006.

4. The Armenian question. Basic knowledge and documentation (Engin Lütem – editor), Ankara, 2009, şif: 65685.




Католикос Мкртич Хримян



Иван Лазарев основатель богатой и влиятельной династии Лазаревых, меценатов и ярких представителей армянской диаспоры Российской империи.



## AZƏRBAYCANLILARIN SOYQIRIMI

### 1918-Cİ İL MART QIRĞINLARI

Qafqazda baş verən ermeni hərbi-siyasi azğınlığının zirvə – kulminasiya nöqtəsi olan 1918-ci il Bakı Mart hadisələrinə aydınlıq gətirməzdən öncə dünyada, Osmanlı və Qafqaz bölgələrində baş vermiş zəncirvari, bir çox qarşılıqlı motivlərlə bir-birinə bağlı tarixi-siyasi-hərbi olayları sadalamamaq Bakı, Şirvan hadisələrinin mahiyyətinə, ümumilikdə Qafqazda türk-müsəlman (azərbaycanlı) soyqırımı ilə bağlı zəruri təfsilata kölgə sala bilərdi. O səbəbdən də hətta bugünkü ermeni-azərbaycanlı münaqişəsini də həmin tarixi-siyasi kontekstdən çıxarmaq metodoloji səhv olar, yanlış qavramalara və yanlış fəaliyyətlərə gətirib çıxarardı...

1918-ci il Bakı hadisələrinə ən yaxın, zəruri tarixi geriyəbaxım (ekskurs, gözatımı, gözgəzdirimi) isə 1917-ci il Rusiyadakı Oktyabr Devrimindən üzübəri ola bilər. Hakimiyyəti ələ alan Lenin I Dünya Savaşında yeni Rusiyanın-Sovetlərin rolunu fərqli görürdü. O, hakimiyyəti əldə saxlamaq üçün çar Rusiyasının bəzi imperialist niyyətlərindən, o sıradan, tabeliyində olan xalqları əzmək strategiyasından vaz keçdiyini bildirdi. Hətta xalqların öz müqqəddaratlarının təyinində azad olduqları barədə bəyannamələr də qəbul etdi. Əslində isə Leninin niyyəti imperializmin yeni-pərdələnmiş formasını yaratmaq idi. Nümunə üçün deyə bilərik ki, Bakı (Azərbaycan) haqda Leninin almanlarla gizli sövdələşməsi vardı və bu sövdələşmədə almanlar öz müttəfiqləri olan osmanlıları sataraq Bakı neftinə görə türklərə xəyanət etmişdilər. Söhbət 1918-ci il 3 mart Brest-Litovsk sülh anlaşmasına edilən 27 avqust tarixli gizli əlavədən gedir (1: s. 15)...

Qafqazı yenidən Rusiyaya birləşdirmək üçün Lenin də "erməni kartı"ndan yararlanaraq, Oktyabr İnqilabının «qırxı çıxmamış» – 1917-ci il dekabrın 16-da RSFSR XKS-nin qərarı ilə Stepan Şaumyanı Qafqaza fövqəladə komissar təyin etmişdi (55: v.108).

Ərzincan Barışı (5 dekabr 1917-ci il) sonucunda Rus qoşunları Ərzurum və Qarsdan çıxmalı idi. Bu ordudakı erməni könüllü silahlı dəstələri də geri qayıtmaq zorunda qaldı. Dekabrın 19-da Qafqazdakı Rusiya ordusunun buraxılmasına dair sərəncam imzalandı. Dekabrın 26-da erməni könüllü silahlı dəstələrinin buraxılması haqqında Baş Komandanın verdiyi gözlənilməz əmr davakar daşnak çevrələrini daha da qəzəbləndirdi. Bu əmrdə göstərilirdi ki, "erməni ordusu" əvəzinə rus ordusu içərisində toplam bir neşə bölük erməni əsgəri saxlanmalı, qalanları isə taleyin axarına buraxılmalıdır. "Türkiyə Ermənistanı"nı alaraq "Qafqaz Ermənistanı"na qatıb "Böyük Ermənistan" dövləti qurmaq ideyasının puçluğa uğraması və "erməni ordusu"nun buraxılması silaha sarılmış erməni fədailərinin qəzəbini və qəddarlığını daha da artırdı (2: s. 394).

Erməni könüllü çətələri Türkiyə sınırlarından çəkilmək zorunda qaldıqdan sonra Qars-Gümrü yolu ilə Qafqaza qayıtdılar. Talin, Əştərək, Qurdqulu, Uluxanlı bölgələrindəki müsəlman kəndləri qarət edilib, sakinləri qılıncdan keçirildi. Bu minvalla erməni çətələri İrəvana qədər gəlib çatdılar. Başqa bir dəstə də İqdır, Kərimarx, Eçmiədzin, İrəvan yolu boyunda olan müsəlman kəndlərini yerlə bir edir, yerli azərbaycanlı (türk), müsəlman əhalini qırır, evləri yandırır, sanki Türkiyədəki uğursuzluğun əvəzini çıxmağa çalışırdılar. İrəvandan sonra erməni çətələri Qəmərli, Vedibasar, Sədərək yolu ilə Dərələyəzə doğru hərəkət etdilər. İkinci qrup isə İrəvandan Dərəçiçək, Nor Bayazit (Yeni Bəyazid), Basarkeçər, Zəngəzur, Qarabağ yolu boyunca yerləşən yaşayış məskənlərinə yönəlmişdi. Təkcə 1917-ci ilin dekabrından sıradakı ilin martınadək erməni quldur çətələri İrəvan qəzasında 32 , Eçmiədzin qəzasında 84, Yeni Bəyazid qəzasında 7 ... (ümumilikdə isə 197) kəndi yağmalamış, yandırıb-dağıtmışdı. O

dönəmdə on minlərlə türk-müsəlman mənsubu olan yerli sakin qılıncdan keçirilmiş və ya öz ana yurdundan didərgin salınmışdı (2: s. 327).

**Qafqazda erməni və müsəlmanların hərbi-siyasi güc balansının kəskin şəkildə öz xeyirlərinə olduğunu yaxşı başa düşən erməni liderləri öz siyasi beyinlərini və hərbi güclərini tədricən Bakıya yönəltmişdilər. Təkcə bu faktı xatırlamaq yerinə düşər ki, çar Rusiyası müsəlmanları əsgəri xidmətə qəbul etmədiyi halda, Güney Qafqazda (Anadolu cəbhəsində) 250 min nəfər erməni Rusiya ordusunun tərkibində xidmət göstərirdi (bu bölgədə qulluq edən rusların sayı isə toplam 170 min nəfər idi) və ucqarlardakı hərbi hissələr Lenin inqilabı ilə tərxis olunduqdan sonra yüz minlərlə erməni hərbçisi öz xidməti silahları ilə Doğu Anadolu, əsasən isə Qafqaz bölgəsi müsəlmanlarına qan uddururdu. Zənnimcə, tarix bəlkə də bundan çox qırğın görə bilərdi, ancaq bundan çox vəhşilik görməmişdi.**

I Dünya Müharibəsindən maksimum mənfəət götürmək üçün ermənilər üç əks (və ya müxtəlif) cəbhədə vuruşurdular. Bir qisimləri rus, bir qisimləri Antanta və üçüncü qisimləri Deninkinin tərəfində. İkrah doğuran cəhət o idi ki, ermənilərin bu üçüzlülüyünə baxmayaraq, həm Antanta, həm Rusiya, həm də Denikin 1919-cu il Paris Sülh Konfransında erməniləri dəstəkləyirdilər...

Lenin və qeyri-qanuni surətdə elan edilmiş ermənipərəst Bakı Soveti qurumu müsəlmanları sosializm, bərabərlik və xalqların öz müqəddəratını azad surətdə təyini prinsipləri ilə arxayınlaşdıraraq əslində aborigen qafqazlılar, xüsusən də Azərbaycan türkləri üçün qorxunc bir tələ hazırlayırdılar.

Beləliklə, Bakı Sovetinin (tərkibi əsasən erməni, rus və b. xristianlardan oluşdurulmuş) öz hərbi birləşmələrindən başqa, Erməni Milli Şurasının, «Daşnaksütyun»un başkəsən hərbi bölükləri də Bakıya cəmləşmişdi. Burada eserlərin silahlı qurumları və başqa xristian çətələri də mövcud idi. Rusiyanın İran və Türkiyə sərhədindəki Qafqaz qarnizonları da öz silah-sursatlarını ya ermənilərə satmış, ya da muzdlu olaraq savaşmaq üçün Bakıya cəmləmişdi. Onları saxlamaq məqsədilə Bakının nefti və Xəzərin sərvətləri talan edilirdi.

Bakıda qırğınlar törədərək bu bölgəni işğal altına almaq üçün ermənilər həm də ideoloji-siyasi zəmin hazırlayırdılar. O zaman Bakıda rusca yayınlanan «İzvestiya» qəzetinin redaktoru Anastas Mikoyan,«Bakinskiy raboçiy» qəzetinin redaktoru isə Arsen Əmiryan idi. Bakı Sovetinin orqanları olan bu qəzetlərdə guya müsəlmanların, xüsusən də Osmanlılardan dəstək alan müsavatçıların xristianlara qarşı kütləvi qırğın hazırladıqları haqda ardıcıl materiallar çap edərək, sonra bunların Avropa qəzetlərində yayılmasına nail olurdular.

Hacı Zeynalabdin Tağıyevin əsgəri hissədə ehtiyatsızlıq nəticəsində həlak olan oğlunu dəfn etmək üçün Lənkərandan Bakıya gələn müsəlman «Evelina» gəmisinin tərk-silah edilməsi və onların rəhbəri general Talışxanovun həbs edilməsi hadisələrin gedişini surətləndirdi. Müsəlman camaat məscidlərə yığışaraq general Talışxanovun buraxılmasını, müsəlman hərbçilərin silahlarının qaytarılmasını tələb etməyə başladılar.






*Ermənilərin ilk müstəqillik dönəmində (1918-1920) fransızca tərtib etdikləri xəritə*



*Silahlı erməni çətəsi*




*Ərazisinin böyük qismi işğal olunmuş Türkiyənin Sevr müqaviləsi ilə parçalanma planını əks etdirən, ermənilərin tərtib etdiyi xəritə*

The First Armenian Republic,1918-1920




Ermənilərin ilk müstəqillik dönəmində (1918-1920) ingiliscə tərtib etdikləri xəritə



**Великая Армения при Тигране II**

*(Ermənilərin iddia etdiyi* ***"Dənizdən-dənizə "Böyük Ermənistan""****)*






**Великая Армения, 70 до н. э.**

*(Erməni iddialarının mənbəyi olan üç dəniz arasındakı "Böyük Ermənistan"ın növbəti xəritəsi)*

**Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi xəritələri**









**Qaniçən erməni liderləri və soyqırımçı çətə komandanları**

*(Tatevos Amiryan, Stepan Lalayan, Yakov Zavriev, Stepan Zoryan-Rostom, Hovanes Ter-Hovanesyan (Kaçaznuni), Xristofor Mikaelyan , Ovsep Arqutyan, Aram Manukyan, Avetis Aqaronyan, Nikol Duman, Armen Qaro , Vardan Xanasori , Murad Sebastatsi və bəzi başqalarının fotosunu hələlik bula bilmədiyimiz üçün bu "fotosərgi" yarımçıqdır)*


Stepan Şaumyan


Andranik Ozanyan Torosi



Njdeh


Dro


Hamazasp


Mikoyan

Армянская революционная федерация Дашнакцутюн

Հայ Յեղափոխական Դաշնակցություն





**Alexander Hatisuan (Aleksandr Xatisyan)**
*[Ararat Respublikasının ikinci dönəm (avq. 1919- may 1920) Baş Naziri]*



Başabəla **"Daşnaksütyun"** Partiyasının qurucuları:
"demokrat" Xristofor Mikaelyan, "xalqçı" Rostom Zoryan və "anarxist" Simon Zavaryan

***1890 Tiflis***



Bu faktları xristianlara təhdid kimi qələmə verən erməni bölükləri 1918-ci ilin martın sonuna yaxın Təzə-Pir məscidi istiqamətindən başlayaraq silahsız müsəlmanlara divan tutdu, şəhəri darmadağın etdilər. Müsəlmanların mədəniyyət mərkəzinin yerləşdiyi «İsmailiyyə» binasını, müsəlman qəzetlərinin çap olundugu «Kaspi» mətbəəsini, "Açıq söz" qəzeti redaksiyasını və başqa əhəmiyyətli binaları yandırıb darmadağın etdilər. Bəzi məlumatlara görə şəhərdə 17 min (başqa bilgilərdə isə: 30 000) nəfər müsəlman məhv edilmişdi. Qalanları isə canını qurtarıb müxtəlif istiqamətlərə qaçmağa başlamışdılar.

Bakı hadisələrinin ilk günündə hətta Bakı Soveti hakimiyyətinə heç bir aidiyyəti olmayan, birbaşa Rusiya tabeliyində olan hərbi təyyarələr eskadrili də Bakını bombalamış, Xəzərdəki rus hərbi gəmiləri isə şəhərdəki müsəlman məhəllələrini top atəşi ilə darmadağın etmişdi. Lakin elə həmin gün ruslar Bakıda "xristianlara qarşı təhlükə"nin ermənilər tərəfindən ortaya atılmış məqsədli uydurma olduğu haqda səhih məlumat əldə etdikdən sonra dərhal atəşi dayandırmışdılar **(20; 24; 3)**.

Əjdərbəy məscidi ətrafında, Məhəmmədi deyilən nahiyyədə də kütləvi qırğınlar xüsusi vəhşiliklə özünü büruzə verirdi. Gənc qadınlara, qızlara təcavüz edilir, onların döşləri və tənasül üzvləri kəsilir, sonra sinələrindən, başlarından divara mıxlanırdılar. Hamilə qadınların bətni doğranır, oğlan uşaqlarının tənasül üzvləri, burnu və qulaqları kəsilir, qocalara sümük ataraq onların ləyaqəti alçaldılırdı **(3)...**

Arxiv sənədlərinə görə, "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70%-i (*Korqanovun Mərkəzə bildirdiyi kimi, zabitlərinin də, cüzi istisnalarla, demək olar ki, hamısı* – X.İ.) ermənilərdən ibarət idi **(33)** .

Martın 30-u axşam saat 5-də Bakıda ilk atəşlər açıldı. Aldatma siyasəti yeridib özlərinin bitərəfliyini élan etmiş Daşnaksütyun və Erməni Milli Şurası bu ilk atəşlərdən sonra Bakı Sovetini müdafiə etdilər **(34)** .

Martın 30-nda bir müddət öncə Nərimanovun evində S.Şaumyanla və İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılacağı vədinə baxmayaraq, "Hümmət"ə o qədər də etibarı olmayan bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi. Onlar həm də Nərimanovun çoxluğu öz ətrafında birləşdirib, "sağa meyillənməsi"ndən narazı idilər **(35)**.

Tarixə qanlı faciə kimi daxil olan Mart qətlləri üç gün davam etdi **(36:** s.327**)**.

İlk atəşlərdən sonra şəhər silahlı dəstələrlə doldurulmuşdu. Ermənilər şəhərin güney hissəsində səngərlər qazıb, torpaq və daşdan sədlər qurmağa başlamışdılar. Erməni Milli Şurası və Daşnaksütyun rəhbərliyinin müsəlman cəmiyyətləri ilə apardığı danışıqlar təxribat xarakteri daşıyırdı. Belə təhlükəli məqamda Bakı menşeviklərinin lideri Ayollo Bakı Sovetini müdafiə edəcəklərini, eserlərin başçısı S.Saakyan isə panislamizmə qarşı vuruşacaqlarını, hətta bolşeviklərə dərin nifrət bəsləyən kadetlər də "rus işi" uğrunda mübarizə aparan bolşevikləri müdafiə edəcəklərini bildirirdilər **(37:** s.77**)** .

"Kazino" mehmanxanasında yerləşən təcili açılmış təlim qərargahına başçılıq etmək A.Mikoyan və N.Anançenkoya tapşırılmışdı...

Hərbi gəmilərin heyətini martın 30-da guya "şəhərdə müsəlmanların rus əhalini qırdıqları" uydurma xəbəri ilə aldatdıqdan sonra Xəzər donanması gəmilərindən müsəlman məhəllələrinin bir neçə saat top atəçimə tutulması şəhərdə vahiməli bir vəziyyət yaratdı.

Rus-molokan hərbi dəstələri də eyni qayda ilə aldadılaraq, Bakıya gətirildikdən sonra durumun tam tərsinə olduğunu görüncə onlar savaşmaqdan imtina etdiklərindən Bakı Soveti və erməni qüvvələri tərəfindən tərk-silah olundular. Molokanlardan alınan silahlar növbəyə durmuş erməni "könüllüləri"nə paylandı.

Martın 31-də müsəlman elçiləri İnqilabi Müdafiə Komitəsinin ultimatumunu qəbul etdiklərini bildirmək üçün Sovetin İcraiyyə Komitəsinə gəldilər. Ancaq orada Caparid-

ze ilə aparılan danışıqlar heç bir sonuc vermədi, hətta müsəlmanların heyəti geri qayıdarkən 3 nəfəri yolda güllələndi **(38)** .

*[O qanlı olaylardan tipik bir epizodu da yada salmağa dəyər: arxiv materiallarına əsaslanan Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin işçisi Vəfa xanım Məmmədkamalqızının da yazdığı kimi, indi "Güllüdərə" (bir zamanlar "Qanlı dərə") adlanan yerdə, hal-hazırkı Bakı Sirkindən yuxarıda – Göy Məscidin arxa səmtində, onun babası, hamam sahibi Məşədi Şamxal Allahqulu oğlu Quliyev də ermənilərin hücumuna məruz qalmış və onlara igidliklə müqavimət göstərərək, şəhid olmuşdu. Onun boynuna kəndir salaraq sürümüş, ölmədiyini görcək, vəhşisəsinə başını kəsmişdilər ( 4 ) ...*

*Xatırladaq ki, həmin nahiyədə, bir zamanlar Bolşaya Morskaya adlanan caddədə (tanınmış ictimaiyyətçi-yazar Xoşqədəm bəy Cəbrayıloğlunun atası "avtoritet Qurd Cəbrayıl" kimi məşhur olan şəxsin təxminən 80 yaşlı ana nənəsi) yataq xəstəsi Fatmanisə xanımı qılıncla doğramışdılar. Evdəki "Quran" kitablarını ayaqyoluna atmış, ev-eşiyi talan etmişdilər. Mərhum Cəbrayıl kişinin vaxtilə Xoşqədəm bəyə söylədiyinə görə, o vaxtlar "Güllüdərə"də şəhər əhalisinin kasıb təbəqəsi –mədən fəhlələri, bənnalar və b. yaşadığı üçün müqaviməti təşkil etmək mümkün olmamışdı. Bu ərazidə olan cəmi 5-6 silahlı qoçu da varlı məhəlləsi olan Təzəpir ətrafındakı qoçularla birgə fəaliyyət göstərirdi. Ermənilərin Bolşaya Morskaya caddəsi çevrəsinə hücümü zamanı ailənin qalan üzvləri isə Xoşqədəm bəyin ana babası usta Teyyubgilin indiki Süleyman Rəhimov və Mustafa Sübhi küçələrinin kəsişməsində yerləşən evinə sığınıbmışlar... Türklər gəldikdən sonra ortada tökülüb-qalan meyitlərin çoxluğundan basdırmağa yer qalmadığından, Fatmanisə xanımı öldürüldüyü evin həyətindəcə basdırıbmışlar... Ermənilər tərəfindən murdarlanmış "Quran" kitabının bir nüsxəsini sonradan bərpa edərək Xoşqədəm bəy hələ də özündə saxlayır...]*

Fövqəladə İstintaq Komissiyasının Bakıdakı Mart hadisələri ilə bağlı aydınlaşdırdığı bəzi məqamları da diqqətə çatdırmaq istərdik.

Soruşdurma sənədlərində A.N.Ter-Akopov, F.Antonov, ata-oğul Melikovlar, Vaçiyants, Daşnaksütyun Partiyası üzvləri və başqa ermənilərin fəallığı ilə yapılmış vəhşiliklərdən – Zabrat kəndində ermənilər tərəfindən parçalanmış müsəlman cəsədlərinin quyudan çıxarılmasından, Cavad Aşurbəyovun, hərbi həkim Kərimbəy Sultanovun, Abas Eyvazoğlu adlı Bakı sakininin xanımının, çox sayda şəhərin müsəlman əhalisinin, 80 nəfər İranlı tacirin, 14 nəfərlik bir ailənin qətl edilməsindən; küçələrdə köksləri (sinələri), burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış və qadınlıq orqanına zopa soxulmuş qadın cəsədləri ilə dolu olduğundan bəhs olunur.

Başqa istintaq bəlgələrindən anlaşılır ki, 20 mart 1918- ci il (*yəqin ki, əski təqvimlə*-X. İ.) tarixində ermənilər "Səadət" müsəlman məktəbini dağıtmış, 1 yaşlı cocuğun və 95 yaşlı iflic qadının tüfəng qundağı ilə başına vuraraq öldürmüş, 300 nəfəri qətl etmiş, qadın və cocuqları tutuqlamışlar.

Stepan Lalayev, M.Ter-Sarkisov və Antonovun oğlanları başda olmaqla silahlı ermənilər məscidlərdə qadın və qızların irzinə sataşmış, onlara təcavüz etmiş, müsəlmanları küçə və meydanlarda qırıb-çatmış, onları quyulara atmış və məscidləri murdarlamışlar.

K.A.Almazoğlunun ifadəsində 24 nəfərin, S. M. Rzabəyoğlunun ifadəsində 12 nəfərin həlak edildiyi, Həbib Sadıxovun şəhadətində isə Hacı Akif və bütün ailəsinin öldürüldüyü və Təzəpir camesinin həyətində 500 cəsədin bulunduğu göstərilir.

Ən önəmli soruşdurma bəlgələrinin birində (*1-ci Müsəlman Atlı Alayı 2-ci Bölük Komandanı Əli Əsədullayevin ifadəsi*) isə, 1918-ci il Mart olaylarında ermənilər tərəfindən 30 000 azərbaycanlının (müsəlmanın) qətlə yetirildiyi bildirilir **(5; 6; 7; 8)**.



Sənədlərdə göstərildiyi kimi, martın 31-də Bakıda azərbaycanlı əhalini qırıb-çatır, uşaqları yanan evlərin içinə atır, körpə uşaqları süngülərin ucuna keçirirdilər; şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Çoxlu gənc qadını diri-diri divara mıxlamışdılar. Qaçıb qurtarmaq istəyənləri güllələbaran etmək üçün şəhərin müxtəlif yerlərində öncədən pulemyotçular (makinalı tüfəngçilər) yerləşdirilmişdi. **( 39 )** .

Həmin gün axşamüstü İçərişəhərin alınması əməliyyatı başladı. Bu əməliyyatda N.Anançenko başda olmaqla, gənc Suren Şaumyan və b. fəal iştirak edirdilər. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədilməsini təsdiq edən onlarca sənəd vardır **( 39 )**.

Təkcə üç gün (18-21 mart (yeni təqvimlə: 30 mart-1 aprel)) ərzində Bakıda "əksinqilabçı" adı ilə 12 min azərbaycanlı öldürülmüşdü. **( 40 :** s.173 **)** .

Bakı olayları ilə bağlı menşevik qəzeti "Naş qolos" yazırdı: "Hər yerdə meyitlər qıc olmuş, eybəcər hala salınmışdır. Təzə Pir məscidinin yanında ağır mənzərə var. Məscid atəşdən zərər çəkmişdir. Ziyarətgahın təhqiri geniş kütlələrin qəlbini ağrıdır, meyitlər onları daha da həyəcanlandırır" **( 41 )** ...

İngiltərənin və Rusiyanın dəstəyi ilə Bakıda təkcə Mart qırğınlarında 25 min azərbaycanlını öldürdüklərini deyən, o hadisələrin fəal iştirakçılarından biri, erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsdenin "İnsanlar belə imişlər" kitabında da o müdhiş olaylar haqqında geniş açıqlama verilir. Həmin kitabda müsahibəsi yayınlanan Apresyan Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qarsda da ermənilərin qırğınlar törətdiyini etiraf edib **(47:** s.4**)**.

Araşdımaçı-alim Məshəti Əliyevanın araşdırmalarına görə, Bakı hadisələrində əsir düşənlərin sinələrində tonqal yandırır, əzalarını kəsir, gözlərini çıxarır, kürəyinə qaynar samovar bağlayıb təpədən aşağı yuvarladır, uşaqları yanan ağaca bağlayırdılar **(46:** s.5**)**.

Bu hadisələrdə döşləri, burunları, qulaqları kəsilmiş, zorlanmış müsəlman qadınlarına, qaz sobası üzərində yandırılmış uşağa **(44:** v. 40), lüt soyundurulmuş üç qadın, 6 yaşlı qız, 8 yaşlı oğlan cəsədinə və üzərinə salınan üç it tərəfindən gəmirdilmiş *("ov səhnəsi" oynanaraq)* südəmər körpə meyidinə də rast gəlinmişdir **(45:** v.16-17**)...**

Erməni metodlarına və tarixi gerçəkliklərə qarşı unutqanlığımızı nəzərə alaraq onu da qeyd edim ki, yaxın keçmişimizdə Moskvanın əli və Qərbin loyallığı şəraitində Qarabağı işğal edən ermənilərin babaları da o vaxtkı soyqırım aktlarına hazırlıqları son dərəcə ehtiyatla, eyni zamanda optimal vaxt udumu ilə həyata keçirmişdilər. Bakıdakı qırğınlardan öncə Şaumyan Nərimanovu, Caparidze də Rəsulzadəni dəfələrlə arxayın etməyə çalışmış, qarşı tərəfin hazırlıq görməməsi üçün dəridən-qabıqdan çıxmışdılar....

Bakıdakı 30 mart-1 aprel (*yeni təqvimlə*) qırğınlarından sonra qısa fasilədən istifadə edərək, aprelin 16-18 aralığında müsəlman qırğınlarını və erməni işğalını pərdələmək məqsədilə A.Caparidzenin sədrliyi ilə Bakıdakı «Astoriya» mehmanxanasında qatillər dırnaqarası sülh konfransı da düzənləmişdilər. «Konfrans»ın ən başlıca məqsədi isə erməni-bolşevik işğalını dolayısıyla legitimləşdirmək idi. Bu «konfrans»da bəzi xarici ölkə elçiləri də iştirak edirdilər. İran konsulu Həbibulla xan da burada qırğınların və işğalın nəticələrini legitimləşdirmək istəyənlərə xeyir-duaçılıqla məşğul idi...

Bütün bunlar azmış kimi, hər ehtimalı gözə alan soyqırımçı erməni-bolşevik yönətimi gələcək dönəm üçün də yeni hazırlıqlar yapmaq üçün Bakıda müsəlmanlara qarşı növbəti aldadıcı manevrlərə əl atmağı qərara alır. Bu xüsusda A.Caparidzenin Stepan Şaumyana ünvanladığı 2 aprel 1918-ci il tarixli teleqramda Şimaldan (Rusiyadan) və Daşkənddən (Xəzər yolu ilə) əlavə yardım gələnədək müsəlmanlara

Bakıda muxtariyyət vəd etmək (sonra vaz keçmək niyyətilə), M.Əzizbəyovu isə əhalisi qırılıb boşalmış müsəlman məhəllələrinə komissar təyin etmək tövsiyə olunurdu ( **42** ) ...

**Qeyd.** *1918-ci il Bakı olaylarında bir ilginc məqamı qeyd etməmək olmaz. Bu müdhiş olaylar zamanı azərbaycanlıların az da olsa, müəyyən bir qismini yəhudilər, ruslar və gürcülər öz evlərində gizlədərək, qırğından xilas etmişdilər.*

*Bəzi yəhudilərin və rusların bu cür insani fədakarlığı o hadisələrin şahidi və zərərçəkəni Məhəmməd Muradzadə tərəfindən "Mart hadiseyi-əliməsi" (31 mart 1919-cu il) adlı anılarında göstərilmişdir. Məhəmməd Muradzadə o vaxtlar çox gənckən qonşusu Levin adlı yəhudinin onu və gənc qardaşını tüfəng və süngülərindən ölüm saçan erməni-bolşevik qüvvələrinin müxtəlif zamanlarda üç dəfə (bəziləri ölüm xəbərdarlığı ilə olan) hücumundan xilas edərək, guya öz ailə üzvləriymiş kimi qurtarması, sözün həqiqi mənasında bizlər üçün baş endirib saygı ilə daim yad etməyə layiq yazılmış bir tarix kimi görülməlidir.* ***(43:*** *s.15-24).*

***

Haqsız dünya 17 min müsəlmanın vəhşilik, min bir işgəncə və görünməmiş təhqiramiz üsullarla qətl edilməsinə, qalanlarının isə öz torpağında didərgin salınmasına məhəl qoymayaraq vicdansızcasına susur, bəzi dövlətlər də bu susqunluqlarından gəlir gözləyirdilər...

Azərbaycanın qəzalarına "sovet qoşunları" adı altında göndərilən cinayətkar dəstələrə quldur erməni "hərbçi"ləri T.Əmiryan, Hamazasp rəhbərlik edirdi. Daşnak cəlladlardan Bakı çevrəsində ən ağır ziyan çəkən isə Şamaxı qəzası oldu **(25:** s 332**).**

Hələ yanvarın 16- dan etibarən Şamaxının ermənilər yaşayan Mədrəsə kəndinə də guya gələcəkdə bolşevizmi müdafiə məqsədi ilə Bakı Soveti başbilənləri və erməni liderləri xeyli silah-sursat, o cümlədən top-tüfəng, mərmi və s. daşıyıb-yığmışdılar.

Martın I yarısında Şamaxıya məlumat çatmışdı ki, Bakıdan Şamaxıya toplar, pulemyotlar və böyük miqdarda hərbi sursatla 2–3 min nəfər civarında erməni qoşun dəstəsi gəlir. Dəstəyə Şaumyandan birbaşa təlimat almış Stepan Lalayev (Lalayan) başçılıq edirdi **(25:** s 332**).**

Martın 15–də sübh çağı S. Lalayanın dəstəsi Şamaxıya ilk dəfə hücum edərək, şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdu. Bu atışma sonucunda dinc əhali arasında çoxlu sayda tələfat oldu. Axşama yaxın sakitlik yarandı ( **26** : s.333 ).

Martın 17-də isə erməni yepiskopu Baqrat və molokan dini icmasının nümayəndəsi Karabanov Şamaxı müsəlmanlarının başçıları qarşısında müqəddəs İncilə and içərək Bakıdakı hadisələrin Şamaxı əhalisinə təsir etməyəcəyini, burada ermənilərlə müsəlmanların və başqalarının əl-ələ verib sülh, əmin-amanlıq şəraitində yaşayacaqlarını bildirmişdilər ( **9** ). Elə həmin and mərasiminin səhəri günü–sübh tezdən Şamaxı müsəlmanları Mədrəsə tərəfdən onlara atılan topların vahiməli səsindən diksinərək oyandılar. Əksər nailiyyətlərini xristianlıq əqidəsi ilə alış-veriş nəticəsində qazanmış ermənininin müqəddəs İncili və öz Astvasını-Allahını necə «doladığını» bu epizoddan yaxşı anladan daha «uğurlu nümunənin» axtarılmasına belə, yəqin ki, heç kəs həvəs göstərmək ehtiyacında deyildir.

Beləliklə, silahsız Şamaxı müsəlmanları da Bakı Soveti hakimiyyəti adı altında fəaliyyət göstərən erməni çətələrinin amansız təcavüzünə məruz qaldı.

Qız-qadın və uşaqları Allahın evinə, yeni Şamaxıdakı Cümə məcidinə sığındırmaq istəyən Axund Molla Cəfər Qulunun da səyləri heç bir nəticə vermədi. –Stepan Lalayanın əmri ilə ermənilər qadın və uşaqları öldürüb... məscidi yandıraraq oradakı insanları da külə döndərdiər.



[Bax: *Şamaxıdakı rus keşişi, İcraiyyə Komitəsinin üzvü İohan Fyodoroviç Boqomolovun A.Caparidzeyə göndərdiyi rəsmi sənədin surəti və 19.02.1919-cu il tarixində istintaqa verdiyi ifadənin surəti* – (**10** )]:

***Şamaxı qırğınlara dair bir keşişin şəhadəti Bakı qırğınlarından sonrakı görüntülərdən biri***





Arxiv sənədlərinin birində (FTX arayışı) 18 mart hücumu belə təsvir edilir:

Martın 18-də Şamaxı gecə ikən güneydən ermənilər, quzey-doğudan isə malakanlar tərəfindən mühasirəyə alındı. Onlar şəhərin müsəlman hissəsini bombalamağa başladılar. Ermənilər və molokanlar axşama yaxın şəhərin ən varlı hissəsi "Piran – Şirvan"a daxil oldular... Şəhərin küçələrində azərbaycanlı meyitləri üst-üstə qalanmışdı ( **26** : s.333 ).

Bu vəhşiliklər Gəncədən silahlı türk-müsəlman (*azərbaycanlı* –X.İ.) dəstəsi Şamaxı şəhəri və Şamaxı qəzası əhalisinin köməyinə gələnəcən, yəni bir neçə gün davam etmişdi. Gəncəlilərin gəlişindən sonra ermənilər və molokanlar Şamaxı şəhərindən molokan yaşayan Qozlu kəndinə çəkildilər. Müsəlman qoşunları onları təqib edərkən aydın oldu ki, ermənilər və molokanlar sayca (*yəqin ki, eləcə də hərbi – texniki təchizat sarıdan* –X.İ.) qat-qat üstündür və buna görə də Gəncə qoşunları geri çəkilməli, 4 gün sonra, şəhərin demək olar ki, əhalisinin çoxunu da özləri ilə aparıb Şamaxını tərk etməli oldular.

Müsəlman qoşunları gedəndən bir neçə gün sonra ermənilər və molokanlar şəhəri ikinci dəfə tutaraq növbəti qətliam, talan və b. azğınlıqlar törətdilər.

Sonucda Şamaxı şəhəri və qəzasının 72 kəndi erməni-bolşevik qoşunları tərəfindən darmadağın edildi ( **26** : s.333 ).

Sonralar Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı Fövqəladə İstintaq Komissiyası Bakı, Şamaxı, Quba və b. bölgələrimizdə baş verən soyqırımı və vandalizim aktlarını araşdıraraq çox əhəmiyyətli faktlar əldə etmişdir. İstintaq Komissiyasına Novatski və başqa qeyri-müsəlman mütəxəssislər də cəlb olunmuş, eyni zamanda bu komissiyanın sənədləri ruscaya tərcümə edilmişdi.

Bu sənədlər içərisində Şamaxı hadisələrinin istintaq materialları mühüm yer tutur. İstintaq nəticəsində Şamaxı əhalisini qətliama uğradanlar içərisində Lalayandan başqa aşağıdakı şəxslərin də xüsusi zalımlıqla fərqləndiyi göstərilir: Qavriil Karaoğlanov, Qyulbendov (Qyulbendyan), Mixail Arzumanov (Arzumanyan), Aqamalov (Qarabağ ermənisi), Sedrak Vlasov, Samuel Daliyev (Daliyan), Petrosyans, İvanovs, Ovanesov və başqaları ( **9** ).

Şamaxı hadisələri erməni vəhşiliyinin bir çox mühüm detallarını üzə çıxarmışdı: köməksiz əhalinin güllələbaran edilməsi, qız və qadınların zorlanması, sinəsinin,

tənasül üzvlərinin kəsilərək eybəcər hala salınması, qocaların təhqir olunması, cocuqların paya ilə yerə çaxılması, hamilə qadınların kürəyinə qaynar samovar bağlanması, onların bətninin yarılaraq körpələrinin çıxarılması və sonra başının kəsilməsi, bəzi adamların at kimi nallanaraq qana bələnməsi, çoxlarının gözlərinin çıxarılması, ağız və burunlarının kəsilməsi və s.

Sənədlərdə qeyd olunur ki, Axund Molla Cəfər Qulunun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmiş, üzünün dərisini soymuş... sonra yandıraraq, min bir əzabla öldürmüşdülər. Qeyd edək ki, Bakıda elə keçən başqa Azərbaycan ziyalılarını da bu cür əzablarla məhv etmişdilər. Əzabla öldürülən ziyalı şəxslərdən şəhər rəisi Teymur bəy Xudaverdov, Rusiya Dövlət Dumasının Şamaxıdan seçilmiş deputatı Məmməd Əliyev və b. da vardı.

Şamaxı qəzasının 120 azərbaycanlı kəndindən 86-sı ermənilər tərəfindən qarət edilmiş, yandırılmış, dağıdılmış, əhalisi öldürülmüşdür.

Şamaxı əhalisindən sağ qalıb canını qurtaranlar isə qaçıb başqa yerlərə, o sıradan uzaqlıqdakı dağlara sığınmışdılar.

O zamankı şahid ifadələrindən aydın olur ki, ermənilər yerli əhalinin qiymətli əşyalarını və pullarını da yağmalamış; varlıların evlərini də əvvəlcədən siyahılaşdırmışdılar. Məlumatlara görə, o zamankı talamalar nəticəsində Şaumyan və Mikoyan da külli miqdarda sərvətə sahib olmuşlar.

Şamaxı molokanları da ermənilərə tərəfkeşlik edərək, din düşmənçiliyi adı altında onlarla birgə Şamaxı müsəlmanlarını təkləmiş, onlara qan uddüraraq var-yoxlarını talamışlar.

FİK-in üzvü Novatskinin məlumatında Şamaxı hadisələrinin şahidləri Məşədi Qadım, Məşədi Nadiroğlu, Cabbar Ağa Mamedoğlu, Ağacan Mehtioğlu, Nəsrəddin İbrahimoğlu, Saday Adıgözəloğlu... Molla Qamzı Əhməd Əfəndioğlunun şahidlikləri və Əngəxaran kəndinə dair tutuşdurma dəlillərinə görə Çuxuryurd kəndlilərindən (molokanlardan) Boris İvanoviç Polovinkin, Vasiliy Borisoviç Polovinkin, ümumiyyətlə, Polovinkin soyadı ilə cəmi: 7 nəfər), Yefim Çerkazov, İvan Mixayleviç Lorin, Nikita Lorin (bu soyadla cəmi: 5 nəfər), Andrey Kostryulin, Matvey Salamatin, İvan Lapin..., Boris Gerasimov (cəmi: 27 nəfər); Jebanı kəndindən İvan Korolyov və Stepan Nazariç da yüz nəfərlik silahlı dəstə yaradaraq 18 mart 1918-ci il tarixində Şamaxı əyalətinin Əngəxaran kəndində yaşayan müsəlmanları qətl etməyə başlamışdılar. 200 nəfər müsəlmanın burunlarını kəsib, gözlərini oyaraq öldürmüş, dəyərli əşyalarını götürmüş, mal-qoyunlarını sürüb aparmışlar. Bu səbəblə də Qanunun 13, 129, 922, 927, 1630, 1633, 1634, 1453 və 1667 maddələrilə cəzalandırılmaları qərara alınmışdır **( 11 ; 29:** s.364-365 **).**

Ümumilikdə, Şamaxıda yaşayan müsəlmanlara qarşı ermənilər tərəfindən törədilən kütləvi qətllər, bugünkü anlamda desək, soyqırımı aktları Azərbaycan Dövlət Arxivində 1061-1-108 şifrəsi altındakı sənəddə də ifadə olunmuşdur. Bundan başqa, arxiv sənədləri Şamaxının Meyniman kəndinə 1918-ci ilin martında **( 12)** ; Zərgəryan, Kevlüç və İnqar kəndlərinə 1918-ci ilin aprelində edilən erməni təcavüzü nəticəsində baş verən qanlı olayları **(13)** bütün vacib detalları ilə əks etdirir. ( *Hər üç sənəd-11, 12, 13-FİK üzvü Novatskinin FİK-in sədrinə hesabatından ibarətdir. Bu hesabatların əsaslandığı dəlillər və b. şahid ifadələri də ADA-da mühafizə olunan sənədlər içərisindədir.*)

Bir sözlə Şamaxı qətliamı tam sənədləşdirilmiş, vurulan zərərlər də aşkarlanmış, cinayətkarların cəzası da müəyyənləşdirilmişdi.

Şamaxı hadisələrinin icraçılarının başçısı Stepan Lalayan isə sonralar hərbi cinayətkarlıqda şubhəli bilinən şəxs qismində ingilislər tərəfindən həbs olunmuş, onun və başqalarının barəsində qəti tədbir görmək üçün Azərbaycan hökumətindən tutarlı sübutlar tələb edilmişdi.



(Bax: *Şamaxı əhalisinin Lalayanın təhvil verilməsi xahişi ilə general Tomsona 29 noyabr 1918-ci il tarixli müraciətinin surəti* ):



ЕГО ПРЕВОСХОДИТЕЛЬСТВУ

Главнокомандующему Союзными Армiями Господину Т О М С О Н У

Уполномоченные Шемахинцами, проживающими въ г. Баку, Гад. Сол. Заманов, Гаджи МиръИсмаилъ Миръ Галимовъ и Гаджи Абдулъ Гусейнъ Кадыровъ.

ПРОШЕНIЕ

До нашего свѣдѣнiя дошелъ достовѣрный слухъ, что арестованный своей полицiей, въ настоящее время Степанъ Л А Л А Е В Ъ находится въ Вашемъ распоряженiи, Ваше Превосходительство, во Имя Бога, справедливости и человѣколюбiя, мы обращаемся къ Вамъ съ покорнѣйшей просьбой этого человѣка-изверга, потерявшаго всякую совѣсть, предать военному суду за всѣ его злодѣянiя, причиненныя намъ Шемахинцамъ. Въ мартѣ мѣсяцѣ онъ прибылъ въ Шемаху со своей шайкой и по пути сравнялъ съ землей всѣ селенiя и деревни, а жители буквально были вырѣзаны. Что онъ натворилъ въ городѣ-это не поддается описанiю. Все мужское населенiе въ городѣ вырѣзали, не пощадили даже дѣтей мужскаго пола, женщинъ изнасиловали на глазахъ мужей и родителей. Городъ былъ дотла разграбленъ, а потомъ подожженъ, ни одна мечеть не уцѣлѣла, изъ 8 тысячъ домовъ уцѣлѣло только зданiе Реальнаго училища. Городъ въ настоящее время изъ себя представляетъ сплошное кладбище. Во всемъ нашемъ несчастiи виновенъ только С. Л А Л А Е В Ъ, ибо все дѣлалось по его приказанiю и мыслимо ли, чтобы такой человѣкъ избѣгъ-бы кары. Для подтвержденiя всего вышеизложеннаго, мы просимъ Васъ, Ваше Превосходительство, прикомандировать въ Шемаху одного изъ Вашихъ подчиненныхъ.

"29" Ноября 1918г. г. Баку.

**ADA. F.1061, siy.1, iş 99, v.13, 14**

Nəhayət, Azərbaycan hökuməti ayrıca bir qərar verərək və əlavə maliyyə ayıraraq Stepan Lalayanın cinayət işi ilə bağlı materialları, o sıradan bütün şahid ifadələrini ingilis dilinə çevirib Birləşmiş Qüvvələrin (Antantanın) polis komissarlığına göndərmişdir. [Bax: *müəllifin arxivdən (ADA-dan) aşkar etdiyi S.Lalayanın cinayət işinin (arxiv şifrəsi: 1061-1-99) ingiliscəyə çevrilmiş səhifələrindən birinin surəti*]:

9.

60

h) Mademoiselle Sultan being duly warned states —

I reside in AKHUNDOFFS House. Baku. About the end of March or beginning of April 1918, I was in the house of Madam SAKIENAH KHANOM, at Shemakha, being employed as servant, and on a day which I do not remember, Lalieff, the accused now before you whom I identify, together with about 7 armed Armenians came in and demanded that all the men should be handed over as they were going to be taken prisoners. The accused also demanded that all the gold in the house should be given up. He threatened that if we did not tell him where the gold was he would shoot us. I thereupon showed Lalieff where it was kept, & he ordered his men to dig up the ground in the cellar which they did, and they found the Box containing about 8 lbs in gold which they distributed between themselves.

Eighth Witness for Prosecution.

Yaaiur Beg, Abdul Salim, & Mahmed Sadik were taken away, together with an old man named Abdul Alli. Later in the day I saw the dead body of Abdul Alli lying at the entrance to the house, & the dead bodies of the other three men in the street about 20 yards away.

Myself, together with about 20 other persons took refuge in the cellar, and after we had been there some 15 minutes or so, the accused came and ordered us to all get out as he was going to take us prisoners. When we got outside we were bunched together & fired on, all except 5 being killed. Lalieff was present mounted on a horse, & I distinctly heard him issue orders to the effect that they, (the Armenians) were not to be afraid, but were to annihilate them. We were then taken away as prisoners to a place where they were collecting all the prisoners, and the same day I proceeded on foot en route to Baku. After arrival at Malakhan we were given Carts to ride in. Lalieff did not come from Shemakha to Baku with the prisoners.

Her mark.

W.H. Dowse. Lieut. R.F.A.





М. Ю.

ПРЕДСѢДАТЕЛЬ
БАКИНСКАГО ОКРУЖНАГО
СУДА

29 апрѣля 1919

№ 9/7701

Гор. Баку

Г. Судебному Слѣдователю по наиболѣе важнымъ дѣламъ Рожанскому.

Представленіемъ на имя Окружнаго Суда Вы возбудили ходатайство о выдачѣ Леониду Воецкому 750 руб. за переводъ дознанія съ англійскаго языка на русскій, а [illegible] 750 р.

Прошу Ваше Высокородіе сообщить свѣдѣнія на сколькихъ листахъ было это дознаніе и почему Вами опредѣлена столь высокая плата за переводъ этого дознанія.-

И. д. Предсѣдателя Суда [signature]

секретарь [signature]

آذربایجان حکومت [illegible]

Азербайджанское Правительство
М. [illegible]
Председатель
Чрезвычайной Следственной
Комиссии
9 декабря 1918 года
г. Баку
№ 134

Господину Командующему Союзными войсками в гор. Баку

Сообщаю Вашему Превосходительству о дознании Степана Лалаева следующие данные, имеющиеся в делах Чрезвычайной Следственной Комиссии.

Из показаний допрошенных в Баку свидетелей видно, что названный Лалаев в [illegible] 19 марта сего года руководил командой армянских солдат на Николаевской улице, причем солдаты его отряда врывались в дома и убивали невооруженных, мирных жителей мусульман.

Показаниями другой группы свидетелей установлено, что тот же Лалаев с своими товарищами [illegible], Сергеем [illegible]

Nəticə uğurlu olmuş, general Tomsonun tabeçiliyində olan Birləşmiş Qüvvələrin polis komissarı sənədlərlə tanış olduqdan sonra S.Lalayanı Azərbaycan hökumətinə təhvil vermək barədə razılıq ifadə edən məktubla o zamankı ədliyyə-istintaq orqanlarına müraciət etmişdi.

(Bax: *Birləşmiş Qüvvələrin polis komissarının AXC Ədliyyə Nazirinə göndərdiyi 724 saylı 14.02.1919-cu il tarixli məktubun ADA-da saxlanılan surəti*):


Копія.

КОМИССАРЪ ПОЛИЦІИ СОЮЗНЫХЪ ДЕРЖАВЪ. 14-го февраля 1919 г. № 724. гор. Баку.

г. Министру Юстиціи. копія г. Прокурору Окружного Суда.

Вслѣдствіе техническихъ трудностей, связанныхъ съ разборомъ дѣла Степана ЛАЛАЕВА Союзнымъ Военнымъ Судомъ, въ числѣ коихъ входитъ [illegible] свидѣтелей [illegible] Главнокомандующій Союзными Войсками въ Баку рѣшилъ передать [illegible] не судъ мѣстныхъ властей.

[illegible] копію настоящаго отношенія.

При семъ прилагаю всѣ имѣющіеся у меня и относящіеся къ этому дѣлу документы.

ПОЛКОВНИКЪ /подпись/.

Адъютантъ Комиссара КАПИТАНЪ /подпись/.

Вѣрно: Секретарь Министра Юстиціи.

Nəhayət, S.Lalayan Azərbaycan hökumətinin sərəncamına keçmiş və qazamatda min bir əzablar nəticəsində gəbərmişdi.

S.Lalayanın hərbi cinayətkar fəaliyyəti haqda FİK-nın sədri A.Xasməmmədovun, FİK-nın üzvləri Aleksandroviç və A.Kaluqanın imzaları ilə Birləşmiş Qüvvələrin Bakı şəhər Komandanına göndərilən 9 dekabr 1919-cu il tarixli məktubda da rəsmi bilgi verilir və lazım gələrsə şahid ifadələrindən çıxarışların da təqdim oluna biləcəyi xatırlanır **(49. –Bax: 50:** s.760–762**)**.

Yeri gəlmişkən hörmətli professor Solmaz xanım Tohidi–Rüstəmovanın sənədlər əsasında tərtib etdiyi (*məsləhətçi: Milli Təhlükəsizlik Naziri Eldar Mahmudovdur –müəl.)* "Mart 1918-ci il. Bakı. Azərbaycan qırğınları sənədlərdə" kitabında bizim bu kitabın bu səhifəsində yayınladığımız, arxiv şifrəsi ADA. 1061-1-99, v.9. olan sənədin yazılma tarixi səhvən *4 fevral 1919-cu il* göstərilib [bax: **Март 1918 г. Баку. Азербайджанские погромы в документах. (Судебно-следственные документы). Составитель: Рустамова-Тохиди Солмаз., 2009, Баку.**, səh. 762]. Yuxarıda yayınladığımız sənədin orijinalının surətindən də göründüyü kimi, bu tarix *14 fevral 1919-cu il*dir. Səhvin indiki tərtibat zamanı baş vermiş çap (korrektə) səhvi, yaxud Parisə göndərilən informasiya hazırlanarkən texniki qüsur olduğunu müəyyən etmək üçün Parisdə saxlanılan nüsxələrə və ya onların surətinə diqqət yetirmək lazımdır. Ancaq yəqin, olan bir fakt bundan ibarətdir ki, Birləşmiş Qüvvələrin Polis Komissarının AXC Ədliyyə Nazirinə göndərdiyi çox önəm daşıyan bu məktubun tarixi adı xatırlanan kitabda yanlış göstərilmişdir, növbəti nəşrə ehtiyac yaransa, o zaman düzəliş etmək gərəkdir.

Arxiv sənədləri sırasında saxlanan ilginc sənədlərdən biri də, S.Lalayanın 8 noyabr 1919-cu ildə Gəncə qazamatında cəza çəkərkən Novatski tərəfindən dindirilməsini əks etdirən istintaq protokoludur. İttihamçının o dövrün qüvvədə olan Cinayət Məcəlləsinin 403-407-ci maddələri ilə verdiyi sualları cavablandırarkən haqq divanından qorxan –



azərbaycanlıların kütləvi qırılmasında və əmlaklarının talan edilməsində özünü "günahkar bilməyən" Şamaxı doğumlu, 27 yaşlı Stepan Balabekoviç Lalayevin (Lalayanın) cavabı ilə tanış olduqda insan doğrudan da dəhşətə gəlir. Qəribə burasındadır ki, Lalayan özünü günahkar bilməməklə kifayətlənməyib, hətta 1918-ci il Mart hadisələri zamanı Aşurbəyov və ailəsinin, şahzadə Mənsur Qacarın, hətta Hacı Zeynalabdin Tağıyevin şəxsində Azərbaycanın görkəmli adamlarını qoruduğunu və ya qoruma altına aldığını – evinə qoruma heyəti göndərdiyini iddia edir! **(51. –Bax: 50:** s.765–767**)**.

Növbəti sənədlərdən biri isə Yelizavetpol Quberniya Qazamatı rəisinin FİK üzvü Novatskiyə ünvanladığı 22 noyabr 1919-cu il tarixli məlumatıdır. Məlumatda bildirilir ki, Stepan Lalayev 21 noyabr tarixində ölmüşdür və meyitin polis-tibbi ekpertiza məqsədilə yarılması nəticəsində ölüm səbəbinin ürək iflici olduğu müəyyənləşmişdir. Məktubun arxa üzündə FİK sədri A.Xasməmmədovun qeydi FİK sədrinin bu məlumatı Azərbaycan Məhkəmə Palatası Prokuroruna göndərdiyi aydınlaşır **(52. –** Bax: **50:** s.771**)...**

***

**[*Qeyd:* Acınacaqlı haldır ki, Şaumyan kimi başçısı, Arsen Əmiryan, Mikoyan kimi fəal rəhbərləri, Tatevos Əmiryan, Stepan Lalayan, Hamazasp kimi görünməmiş başkəsənləri olan, Azərbaycanda seçilməmiş, Bakıda öz-özünü elan etmiş qaniçən erməniçi bir qurumun-Bakı Sovetinin adı Bakı şəhərindəki metrostansiyadan-son 5 ildən artıq bir sürədə dəfələrlə bu məsələni müxtəlif mətbuat orqanlarında, televiziyada və rəsmi məktubla Bakı şəhər İcra Hakimiyyətində qaldırmağımıza və məsul tərəfin bizimlə razılaşmasına, hətta «İçərişəhər» adı ilə əvəzlənəcəyi vədinə rəğmən, məsələnin həlli səbəbsiz yerə illərlə süründürülərək bu yaxınillərdə həyata keçirilmişdir. Caparidzenin heykəlinin götürülməsi ilə bağlı tələbimizlə və başqa müvafiq məsələlərlə isə Bakı şəhər İcra Hakimiyyəti yetkililəri razılaşmasalar da, nəhayət dövlət rəhbərliyi tələbimizi yerinə yetirməli oldu: Caparidzenin, Əzizbəyovun heykəlləri...: götürüldü. Ancaq Qafqaz İslam Ordusunun, Ənvər paşanının, Xəlil paşanın, Nuru paşanın, Kazım Qarabəkir paşanın adına nəinki heykəl (anıt), prospekt (caddə), meydan, hətta bir yarımçıq küçə-dalan də yoxdur. Azərbaycan naminə nə isə-azacıq bir xidməti olanların, hətta bəzən Azərbaycan xalqına əslində düşmənçilik mövqeyində olmuş bəzi üzdəniraq yazıçıların, alimlərin, ictimai-siyasi xadimlərin adları isə tinbaşı vətəndaşın gözünü "döyənək" etməkdədir... Ancaq ümid edirik ki, bu haqsızlıqlar da zaman-zaman aradan qalxacaq, Azərbaycan dövləti (imperialist) yadelli ağaların tələblər dalğasının yaratdığı "təngnəfəslik"dən özünə gəlib xilaskar Türk Ordusunun şərəfli tarixi missiyasını gerçəkdən dəyərləndirməyə çalışacaqdır... ]**

Şamaxı hadisələri zamanı şəhərin zəngin və məşhur adamlarına-Şihayev, Həsənov, Cəbrayılbəyov, Müfti Hüseynbəyov, Əlimirzəyev, Əfəndiyev, Babayev, Böyükbəy Hüseynov, Hacı Yaqub, Ələkbərov, Teymur Əbutalib, Hacı Fətəli, Fəttahbəyov və başqalarına aid qiymətli əşyaları qarət edərək, onların evlərini yandırdılar.

Şahidlərin bildirdiyinə görə, Bakıdakı, Şamaxıdakı və s. qarətlər nəticəsində Anastas Mikoyan və T.Əmiryan Azərbaycan xalqının 20 milyon **(14:** s. 99**)**, Stepan Şaumyan isə 80 milyon qızıl pul vəsaitini mənimsəmişdilər **(15:** s. 7**) !**

Şamaxı hadisələri haqqındakı istintaq məlumatlarında bildirilir ki, ermənilər Şamaxının tanınmış şəxsiyyətlərini-Duma üzvü Məmməd Tağı Əliyev, Hacı Baba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül-Xaliq, Hacı Əbdül Hüseynov, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seyidov, Zeynəb xanım Veysova, Əli Abbasbəy İbra-

himbəyov və bir çox ziyalıları da məhv etmişdilər. İstintaq hesabatlarına əsasən, Şamaxı müsəlmanlarına dəyən ümumi maddi zərər 2 milyard rus rublu məbləğində imiş ( 9 ).

Şamaxı əhalisinə tutulan haqsız divan və şamaxılıların var-yoxunun talanması azmış kimi, ermənilər böyük şair, 1905-1906-cı il erməni-müsəlman qırğınları zamanı xalqı (müsəlmanları) hidayətə, ermənilərlə xitabətə (dialoqa) çağıran Mirzə Ələkbər Sabirin əlyazmalarını da özləri ilə aparmışdılar...

Şamaxı şəhərindəki qırğınlarında 8 minə qədər (başqa bir qaynaqda 7 min – **27:** s.349) azərbaycanlı öldürmüşdü. Onlardan 1653-ü qadın, 965-i uşaq idi, şəhərə 1 milyard manatdan artıq ziyan vurulmuşdu (**28:** v.7).

Şamaxı şəhərində 12 məhəllə məscidi, bundan başqa, 800 illik tarixə malik nadir memarlıq abidəsi olan "Cümə məscidi" yandırılmışdı.

FTX-nın aktlarına görə, Şamaxı qəzasının 53 kəndində ermənilər qısa müddətdə 8027 nəfər azərbaycanlını (4190-kişi, 2560-qadın, 1277-uşaq) öldürmüşdülər.

Maddi zərər (şəhərə dəyən 1 milyard manatlıq zərərdən əlavə) o dövrün qiymətləri ilə 339,5 milyon manata çatırdı.

Rəhbərlikdən əsas günahkarlar olaraq Şaumyanın və Korqanovun (*o da ermənidir - X.İ.*) adı çəkilir (**29:** s.364-365).

Bu olaylardan sonra Şamaxı şəhəri uzun müddət özünə gələ bilmədi: hadisələr ərəfəsində 15 min əhalisinin 80%-indən çoxu azərbaycanlılar olan Şamaxıda 1921-ci ildə cəmi 1700 nəfər yaşayırdı (**30:** s.184).

## QUBA QIRĞINLARI

Fövqəladə İstintaq Komissiyasının apardığı soruşdurma sənədlərindən bəlli olur ki, 1918-ci ilin aprelində A.Caparidzenin təyinatı ilə bolşevik təmsilçisi David Qolovani öz silahlı dəstəsi ilə Qubaya gələrək özünü komissar elan edir. Barışçı yerli müsəlman camaatın psixologiyasını öyrənən Qolovani burada bir təhlükə olmadığını anlayaraq Quba qazamatındakı 200 cinayətkar ermənini azad edirir.

Bir neçə günlük fasilədən sonra hadisələrin bu cür gedişindən narahat olan Ləzgi bölüyü qəflətən dağ tərəfdən Qubaya yaxınlaşır və Qolovaninin təslim olmasını tələb edir. Qolovani təslim olmayınca Ləzgi bölüyü atəş açır və hər iki tərəf qarşılıqlı atəş yağmuruna qərq olur.

Qolovani geri qayıtmaq zorunda qalır və ona dəstək olan ermənilərlə ortodoks ruslardan ibarət bir qrupu da özü ilə bərabər götürür...

1918-ci il mayın 1-də isə sabah saatlarında Bakıdan başqa bir silahlı qrup Qubaya hərəkət edir. Yerli müsəlmanlar bu qrupun onlara zərər verəcəyini düşünmürdülər... Bu silahlı qrupun komandanı Daşnaksütyun Partiyasının təmsilçisi Amazasp və onun yardımçısı Nikolay idi. Bu qrup erməni millətçilərindən təşkil olunmuşdu. Amazaspın bu dəstəsi Quba şəhərinə girər-girməz onları dinc şəkildə qarşılayan, hətta bolşevizmi qəbul etdiklərini bildirən əhaliyə atəş açdı...

Ermənilər qarşılarına çıxan kişi, qadın, körpə və yaşlılara fərq qoymayaraq onlara divan tutur, evlərə soxularaq ailələri bütünlüklə məhv edirdilər.

İstintaq ifadələrində bildirildiyi kimi, Kərbəlayı Məmməd Tağı oğlunun 14 nəfərlik ailəsi ucdantutma öldürülmüşdü. Məhəmməd Rəsul oğlunun ailəsi, arvadı və üç uşağı (uşaqların başlarını kəsmişdilər), Hacı Dadaşbala Qasımoğlunun arvadı və oğlu qətl edilmiş, Kərbəlayi Əbuzərin iki qızının başı (anasının qucağındaca) kəsilmişdi. Molla Şahbaz, Usta Məhəmməd Rəsul Bayram oğlu, Rəsul Kazımoğlu və bir çox başqaları olmazın işgəncələrlə öldürülmüşdülər.



Təxmini məlumatlara görə, Quba qəzasında 2000 nəfər müsəlman öldürülmüş, 100-ə yaxın qız və qadına təcavüz edilmişdi. Ümumilikdə əhaliyə aid 25 milyon rus rublu dəyərində mal və ərzaq qarət edilmiş, 100 milyon rubl dəyərində 105 ev yandırılmış, cəmi 2 milyon rubl dəyərində başqa zərərlər yetirilmişdir...

Müsəlmanlar təslim olmaq və qırğını dayandırmaq məqsədilə ağ bayraq qaldırsalar da, Dəvəçi-Bazar, Qızıl-Burun kəndləri erməniləri duz və çörəklə qarşılamaq üçün 11 ağsaqqalı seçib Amazaspın dəstəsinə xahiş-minnət üçün göndərsələr də, bunların heç bir faydası olmamış, daşnaklar bu məsum insanları da güllələbaran etmişdilər. Ermənilər daha sonra bir çox məscidləri və çox sayda «Qurani-Kərim»i də yandırıb misilsiz azğınlıq nümayiş etdirmişdilər.

Qubada Hamazaspın rəhbərliyi ilə qısa sürədə bütövlükdə 122 kənd talan edilərək dağıdılmış, yandırılmış, minlərlə azərbaycanlı, dağlı, o sıradan ləzgi qılıncdan keçirilmişdi. Bu kəndlərdən Dəvəçi, Sadan, Çarxana, Zağlıcan, Əlixanlı, Siyəzən, Rəhimli, Qaraqaşlı və başqalarını göstərmək olar...

Sonralar Qolovaninin özü də ifadə verərək, Amazaspın 2000 nəfərlik bu «cəza dəstəsi»nin siyasi məqsədlərlə deyil, müsəlman xalqından hansısa intiqam almaq niyyətilə Daşnaksütyun Partiyası tərəfindən göndərilmiş olduğunu bildirmişdir.

Qırğınların başında duran Amazasp demişdi: «Mən erməni xalqının qəhrəmanıyam, siz və türklər tərəfindən öldürülən ermənilərin intiqamını almağa gəldim. Xəzər dənizindən Şahdağa qədər olan bölgədə yaşayan bütün müsəlmanların kökünü kəsmək üçün burdayam...»

Amazaspın dəstəsinə Qubadakı ermənilər də qoşulmuşdu (Arutyun Ayrapetov, Bərbər Cavad, Avakov, Quba şəhər təmsilçisi Əlibəyov və b. şahidlər ifadələrində bu faktı təsdiq etmişdilər) ( **16** ; **31** ).

Rusiya arxivlərinin birində saxlanan sənəddə də Quba-Xaçmaz bölgəsində Hamazaspın başçılığı ilə törədilən dəhşətli vəhşiliklər barədə Novatskinin FİK sədrinə ünvanladığı "Quba və Quba qəzası kəndlərinin dağıdılması və adı çəkilmiş şəhər və kəndlərin sakinləri üzərində edilmiş zorakılıq haqqında" məruzəsi öz əksini tapmışdır (**53:** v.417; **25:** s.351).

**[Qeyd:** AMEA İnsan Haqları İnstitutunun direktoru mərhum Rövşən Mustafayevin "Azadlıq" radiosuna verdiyi müsahibədən bəlli olur ki, bir müddət əvvəl, onun rəhbərlik etdiyi İnstitut 1918-1919-cu illərdə Azərbaycanda yəhudilərin erməni quldur dəstələri tərəfindən qətlə yetirilməsinə dair faktları üzə çıxararaq ictimaiyyətə açıqlamışdır. Belə ki, həmin dövrdə Quba yaxınlığındakı Şmi dərəsində dinc yəhudilərə qarşı dəhşətli qətliam həyata keçirilib. "Biz artıq soyqırıma məruz qalan şəxslərin dəqiqləşdirilməsi ilə məşğul oluruq. Azərbaycanın Quba rayonunda və onun ətrafında qətlə yetirilmiş yəhudilərdən artıq 118 nəfərin kimliyi-adı, soyadı, atasının adı müəyyənləşdirilib."

Onu da qeyd edək ki, rəsmi rəqəmlərə görə, soyqırımda öldürülən yəhudilərin sayı 1200-1300 nəfərdir.

Lakin bu rəqəmlərdə xeyli dəyişiklik olub. Belə ki, Sovet qoşunları tərəfindən Azərbaycanda milli hökumət devrildikdən sonra Azərbaycan SSR-in rəhbərliyində xeyli sayda erməni mənşəli şəxslər təmsil olunduğundan ermənilər arxivlərimizə müdaxilə ediblər:

"Soyqırımı törədənlərdən biri-erməni generalı Sərkisyanın oğlu, çox güman ki, Azərbaycanda dövlət başında olan erməni mənşəli adamların himayəsi ilə bizim arxivə girib. Əlbəttə ki, onun öz atasının qanlı əməllərini təsdiq edən faktları, arxiv sənədlərini götürməsi mümkündür və bizim fikrimizcə, çox böyük ehtimalla bu, belə olub".

Onu da qeyd edək ki, AMEA İnsan Haqları İnstitutunun əsas mənbələri təkcə arxiv sənədləri deyil, həm də yəhudilərin dini mərkəzləridir. İsrail Parlamentinin

üzvlərindən, Yerusəlim Universitetindən və bir neçə intellektual qurumdan bu araşdırmalar qonusunda Rövşən Mustafayevə dəstək olmaq təklifi ilə məktublar da ünvanlanıb.

R. Mustafayevə görə, ermənilər "Hizbullah"a da sızaraq, orada yəhudilərə qarşı mübarizə belə aparırlar: **2001-ci ilin may ayında İsraildə Stefan Nikolyan adlı erməni mənşəli pilot-kamikadze ilk aviaterror törətdi... Maraqlıdır, İsraildə baş vermiş avia-terraktı "Hizbullah" təşkilatı öz üzərinə götürdü və özünün uğurlu əməliyyatı kimi təqdim etdi. Göründüyü kimi, erməni terrorçularının da təmsil olunduğu"Hizbullah" təşkilatının əsas hədəfi İsraildir...**

R. Mustafayev bildirib ki, ümumilikdə, ermənilərin yəhudilərə və türklərə qarşı qanlı əməliyyatları nəinki indiki dövrdə və ya 1918-ci ildə baş verib, hətta 1895-ci, 1898-ci illərdə də olub. Səbəb? – "Bəlkə ona görə ki,1810-cu ildə ilk dəfə ermənilər və yəhudilər arasında ***"İsa peyğəmbər kimdir-yəhudi, yoxsa ermənidir"*** məsələsi qalxmışdı? O vaxtlar ermənilər iki nəfərdən ibarət komanda yaratmışdılar – onların adları da məndə var – İsa peyğəmbərin cənazəsini Yerusəlimdən çıxarıb Amerikaya aparmaq istəyirdilər. Ermənilər və yəhudilər arasında ilk konflikt də o vaxtdan yaranıb. Bəlkə də bu düşmənçiliyin tarixi kökləri buna gedib çıxır" **(48: s.2).**

Qeyd: *Ermənilərin (o sıradan, faşist ordusunun əmrindəki çoxminlik erməni könüllülərinin) yəhudilərə qarşı soyqırımı fəaliyyətləri ilə bağlı daha ətraflı araşdırmalarla tanış olmaq üçün oxuculara Rövşən Mustafayevin "Ölüm marşı" adlı tədqiqatına müraciət etmək tövsiyyə olunur.]*

***

Rəsmi məlumatlara görə, bütövlükdə Şamaxıda 8 min, Qubada 2 min günahsız müsəlman erməni millətçilərinin murdar əllərilə insanlıq tarixində görünməmiş bir vəhşiliklə qətlə yetirilmişdi. Əlbəttə, ermənilərin bu dırnaqarası qəhrəmanlığının səbəbləri, əvvəlki qeydlərimizdə də bu və ya başqa şəkildə bildirdiyimiz kimi, aşağıdakılardan ibarət idi:

–I Dünya Müharibəsi ərəfəsində və Müharibənin gedişində Osmanlı İmperiyasının şərq əyalətlərində (Rusiya ilə sərhəd bölgəsində) yaşayan ermənilərin Osmanlı üzərinə hücuma keçən rus ordusuna yardım etməsi (belə ki, yerli erməni əhali üsyana əl atmış, türk ordusunda xidmət göstərən ermənilər isə öz silahları ilə birgə rusların tərəfinə keçmişdi), sonralar buradakı erməni silahlı bölüklərinin Rusiyanın Qafqaz bölgəsində xidmət göstərən hissələri ilə birgə hərəkət etməsi, 1917-ci il Peterburqdakı Oktyabr Devrimindən sonrakı situasiyadan sui – istifadə edərək Qafqazda mobil, böyük hərbi potensiala yiyələnməsi və canlı qüvvəyə çevrilə bilməsi;

– Ermənilərin öz milli siyasətlərini istər bolşevizmlə, istərsə də Qərblə çox tezliklə və çevikcəsinə «əlaqələndirə» bilməsi;

– Osmanlı dövlətinin I Dünya Müharibəsinin gedişində (və ənəlliklə, sonunda da) öz müttəfiqləri ilə birgə məğlub duruma düşməsi;

– Azərbaycan (Bakı) məsələsində Almaniyanın öz müttəfiqi Osmanlıya xəyanət edərək Leninlə gizli sövdələşməyə getməsi;

– Almaniyanın Batum qapısından Türk ordusunun Gürcüstan (Tiflis) üzərindən Qazax səmtinə hərəkət etməsinə icazə verməməsi (əlbəttə, bu məsələdə Gürcüstanın da təşəbbüsü vardı);

– Çarlıq Rusiyasının müsəlmanları əsgəri xidmətə almaması ucbatından Qafqazdakı müsəlmanların hərbi potensialının çox cüzi olması və s...

Xatırladaq ki, 1917-ci il Rusiyada Oktyabr Devrimindən sonra Qafqazda türk (müsəlman), gürcü və ermənilərin milli şuraları yaradılmış, bu millət təmsilçilərinin iştirakı ilə Tiflisdə bu xalqların qanuni orqanı kimi Zaqafqaziya Seymi (*«Seym»* polyakca-sejm, litovca-saimas, çexcə-snem sözlərindən, çevirməsi *məclis* deməkdir) və onun formalaşdırdığı hökumət fəaliyyət göstərirdi. Seym Cənubi Qafqaz xalqlarının Rusiyadan ayrılaraq özgür bir dövlət subyekti (konfederasiya) təşkil etdiklərini bildirdi. Onların bu müstəqil xətt yeritmə cəhdləri Leninin 1917-ci il Oktyabr Devrimindən sonra Rusiyanın ucqarlarında xalqların öz müqəddəratını təyinetmə prinsipini bəyan etməsinə söykənirdi. Əməli addım kimi Lenin Şərqi Anadoludan işğalçı çar (rus) qoşunlarını çəkmiş, Qafqazdakı, İran və Türkiyə sərhədlərindəki Rusiya hərbi hissələrini tərxis etmişdi. (Ancaq sonralar məlum oldu ki, Lenin müvəqqəti olaraq, özünü xarici təzyiqlərdən sığortalamaq və ucqarlardakı xalqları arxayın edərək, vaxt qazandıqdan sonra onları yenidən «Rusiya kolxozu»na, guya yeni münasibətlərlə qatmaq siyasəti yeridirmiş...)

Cənubi Qafqaz xalqlarının yeganə qanuni dövləti sayılan Zaqafqaziya Seymi xalqların Rusiyadan ayrıldığını bəyan edən kimi Osmanlı dövləti dərhal bu dövləti tanıdı və onunla diplomatik körpülər qurdu. Seym özünü qərbyönümlü dövlət kimi təqdim etsə də, özünə güvənmək istəmir, buradakı erməni və gürcü nümayəndələri Türkiyə ilə müstəqil anlaşma yapmaqdan çəkinir, dolayısıyla, Rusiyanın himayəsindən çıxmağı risq kimi görürdü... Qafqazla bağlı bütün ciddi məsələlərin həllinə doğru addımlar atmağı yubadır, başqa sözlə, Qafqazı idarəçilik böhranına sürükləyirdi.

Nümunə üçün deyək ki, Seym hökuməti bolşevizmi özünə düşmən saysa da, bolşeviklərin himayəsi ilə Bakıda, Şirvanda və s. baş verənlərə qarşı Cənubi Qafqazın qanuni hökuməti kimi heç bir tədbir görmürdü, hətta görmək belə istəmirdi (Sonralar Gəncəyə iki yüz nəfərlik gürcü süvari bölüyünün göndərilməsi istisna olmaqla). Osmanlı dövlətinin də durumu çox fəlakətli olsa da, türklər bütün varlığı ilə Qafqazı düşünür, buradakı müsəlmanlara qarşı soyqırımın qarşısını almaq üçün heç olmasa, müəyyən hüquqi anlaşma əldə etmək istəyirdi. Bu anlaşma ilə Türkiyə ordusu Qafqazda soydaşlarının və dindaşlarının kütləvi qırğınlarının qarşısını almalı idi.

Zaqafqaziya Seymi isə Türkiyənin Qafqaza ayaq basmasına razı ola bilmədiyindən, məsələni belə yubatmaqla bu bölgədə müsəlmanların qırılıb azalacağını, zəifləyəcəyini və bununla da ermənilərin və gürcülərin əbədi hakimiyyətinin bərqərar olacağını düşünürdü.

## BAKI, GÖYÇAY, ŞAMAXI QƏZALARINDA SOYQIRIMI. KÜRDƏMIR QƏTLİAMI

Bakı və ona bitişik böyük bir nahiyədə erməni – bolşevik işğalı hökm sürürdü. Bununla kifayətlənməyən düşmən qüvvələri iyunun 1- də Kürdəmiri də ələ keçirmişdi.

Arxiv materiallarında bildirilir ki, erməni millətçiləri əsgəri (bolşevik) geyimdə müsəlman əhaliyə saldırmış, evləri, mağaza və cameləri (məscidləri) yağmalayıb, atəşə vermişdilər. Şahidlərin ifadələri göstərir ki, ermənilərin hərəkətləri milli düşmənçilikdən başqa bir şey deyil; onlar müsəlmanları təhqir edir, öldürür, evlərini yandırır və onlara müxtəlif işgəncələr verir, kəndlilərin mal-mülkünü talayırdılar. Bu olayda Kürdəmirdə 56 ev və baqqal dükanı, 127 ədəd evlərə bitişik mülklər, 2 min (*düşünürük ki, arxiv nəşrində yanlışlığa yol verilmişdir*-X.İ. ) məcsid yağmalanaraq yandırıldı. Yerli imama (axunda-X.İ.) aid ev talan edildi, „Qurani – Kərim" yandırıldı, bəzi başqa «Quran» kitabları da cırıq-cırıq edildi. Kürdəmirdən sonra Cəngi (Caylı) kəndi, Qaravəlli, Qarabucaq, Mustafanı, Xəlil-Qasımbəy, Ərəb-Mehdibəyli kəndləri və zəngin bəylər olan Sultanovun və Sədəli bəyin evləri yağmalandı. Bütün bu yaşayış məskənləri ermənilər tərəfindən talan edilib yandırıldı.

Caylı cəndi qarət edilərək yandırıldı, orada ələ keçən 20 nəfər müsəlman işgəncə ilə öldürüldü.

Qaravəllidə 30 evin hamısı, Qarabucaqda isə 121 ev yağmalanıb yandırıldı, 7 nəfər isə xunxarcasına öldürüldü. Xəlil –Qasımbəy kəndində 9 ev yandırıldı, ələ keçən 7 nəfər məhv edildi. Ərəb-Mehdibəyli kəndində 84 ev yağmalanıb yaxıldı, 83 nəfər (o sıradan 4 qadın, 1 uşaq) öldürüldü **( 17 ).**

Aşağı Ələk bölgəsindəki kəndlərə tutulan divan haqda istintaq materialları da Azərbaycan Dövlət Arxivində saxlanılmaqdadır (buradakı 24 kəndə aid evlərin yandırılması, vurulan maddi zərər və qətl edilən insanların sayı barədə bilgilər və s.). Təkcə Cəhri kəndində 119 ev yandırılmış, əhaliyə yarım milyon qızıl rus pulu məbləğində zərər dəymiş, 86 nəfər sakin öldürülmüşdür. Ərəb və Xanlıqova kəndlərində daha çox (hər birisində 106 nəfər) öldürülmüş, Glüli (Güllülü?!-X.İ.) yaşayış məskəninə 1825000 qızıl rus pulu məbləğində zərər vurulmuş, 30 nəfər yerli sakin qətil edilmişdir **( 18 )...**

Bir sözlə, ermənilər bolşevizm maskası altında Salyan da daxil olmaqla Azərbaycanın cənub səmtini də qılıncdan keçirərək böyük bir işğal zonasına sahib olmuşdular.

Kürdəmir, Ağsu erməni əsarətinə alınmış, düşmənlər Qaraməryəm də daxil olmaqla Göyçay ətəklərinədək Azərbaycan torpaqlarına ağalığı ələ keçirmişdi.

Sadaladığımız bütün bu proseslər baş verənədək türk ordusu Azərbaycan torpağına hələ qədəm qoymamış, yalnız Nuru paşa mayın 25-də öz zabit heyəti ilə Gəncəyə yetişə bilmişdi. Nuru paşanın gəlişi isə erməniləri daha da fəallaşdırdı. Onlar türk hərbi hissələrinin müəyyən hüquqi və başqa əngəllər ucbatından ləngiməsindən sui-istifadə edərək Yevlax istiqamətinə yürüməyi qərara aldılar...

Nuru paşanın qarşısında çox böyük müşküllər dururdu: ordu hələ bir neçə həftədən tez yetişə bilməyəcəkdi, yerli qüvvələr isə azsaylı könüllü bölüklərdən ibarət idi (onlara general Əliağa Şıxlinski rəhbərlik edirdi).

Şaumyan isə erməni generalı Androniklə teleqram vasitəsi ilə əlaqə saxlayaraq Cənubi Qafqazda erməni siyasi-hərbi güc mərkəzlərinin fəaliyyətlərini uzlaşdırırdı. O, Andronikin 1918-ci ilin 22 iyul tarixli **«Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu Sizin sərəncamınıza verə bilərəm»** məzmunlu teleqramına cavab olaraq yazırdı:

**«Culfa, xalq qəhrəmanı Andronikə. Sizin 577 №-li teleqramınızı aldım. Tam mətnini Moskvaya-Mərkəzi hökumətə verdim. Öz tərəfimdən Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram, türk süngüsündən ziyan çəkən bütün cəsur döyüşçülərə salam yetirin»** ( **19**: s. 112).

Növbəti bir arxiv sənədində də göstərilir ki, Andronik 1919-cu ilin [*sənədi təqdim edən qaynaqda (Azərbaycan tarixi, 7 c. -də, V c) xətaya yol verilib: 1918-ci il olmalıdır* –X.İ.] yayında bir tərəfdən Şaumyan vasitəsilə Sovet Rusiyasına yaxınlaşmağa, digər tərəfdən ermənilərin katolikosunun araçılığı ilə ingilislərlə ittifaq yaratmağa çalışırdı **(54**: v.183; **25**: s.443-444)**...**

Ancaq oxucu elə düşünməsin ki, Andronik və Şaumyanın əlaqələri 22 iyul 1918-ci il tarixindən başlayır. Əsla yox! Şaumyanın şəxsində erməni bolşeviklərinin Andronik, Hamazasp və başqa erməni başkəsən siyasətçi-komandanlarının şəxsində daşnaklarla işbirliyi çoxdan mövcud idi və hətta vaxtı ilə Lenin Şaumyanı bir marksist kimi milli məsələdə tutduğu mövqeyinə görə tənqid etmişdi. Bu, «Oktyabr İnqilabı»ndan çox-çox qabaqlar baş vermişdi. Ümumilikdə ermənilər öz «marksist», «sosialist», «beynəlmiləlçi», «sivil», «insanpərvər» fikirlərini yazılı ədəbiyyatlarda nə qədər ifadə etsələr də, gerçəkdə bir yırtıcı, insanlıq düşməni olduqlarını ört-bastır edə bilməmişdilər. Eyni qayda ilə, Ermənistanda ilk maksist dərnəyini 21 yaşında yaradan Stepan Şaumyan da qədim türk şəhəri olan Tiflisin suyunu içib, türk yaşayış məntəqəsi Cəlaloğluda «marksizm işığı»nı yandırması ilə öyünsə də, Andronikə məktubunda türkü zalım düşmən kimi qələmə verməklə kifayətlənmir, Leninə yazdığı aşağıdakı məktubda da millətçilik kartını açmağa vadar olur (əlbəttə, pərdəli şəkildə):



**«...Daşnaksütyun»da 3-4 min nəfərlik milli hissələr var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin (daşnakların) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi. Lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verdik. Bakıda onlar qalib gəlsəydilər, Cənubi Qafqaz Rusiya üçün itirilmiş olardı» ( 20 ).**

Göründüyü kimi Şaumyan Cənubi Qafqazın itirilməməsi bəhanəsi ilə milli qırğın törətdiklərini özlərinə haqq qazandıraraq etiraf edir. Ancaq Zaqafqaziya Seymi özü də hələ Cənubi Qafqazın Rusiyadan ayrı bir dövlət subyekti olduğunu rəsmən bildirməmişdi. Bu, mayın 26-28 aralığında baş verəcəkdi. Deməli, Lalayans (Lalayan), Tatevos Əmirov, Hamazasp və başqalarının azğınlaşmış quldur çətələri vasitəsilə Bakı, Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkəran qəzalarında türk-müsəlman soyqırımı törətməyə Kreml masasında erməni məntiqincə «bolşevizm uğrunda mübarizə» deyilməklə heç bir hissiz-həyəcansız «fatihə» vermək gündəlik siyasi vərdişdən ayrı bir şey deyilmiş. Bununla belə, V.Leninə göndərdiyi həmin məktubda S.Şaumyan həqiqəti deməyə cəsarət etməmiş, hər ehtimala qarşı, qırğının miqyasını da qəsdən azaldaraq hər iki tərəfdən cəmi 3 min nəfərə «endirmişdi».

*Xatırladaq ki, təkcə Mart hadisələrində Bakıda 17 min, bölgədə isə ümumilikdə 30 min nəfər türk-müsəlman həlak olmuşdu* **( 21; 22 )...**

Unutmaq olmaz ki, Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni cəza dəstələrindən ciddi ziyan çəkmişdi. 2 min nəfərlik sovet (*erməni-sovet* – X.İ.) qoşununun Lənkəranda baş alıb gedən qanlı terror və vəhşi soyğunçuluğunun qarşısını Zaqafqaziya Seyminin bu zaman bölgədə olan gürcülərdən ibarət silahlı dəstələri almışdır. Şaumyanın sonrakı planı Gəncəyə yerimək və bir qisim yerlərdə erməni üsyanları qaldıraraq Azərbaycanı boğmaq idi **( 32 )**.

Mart qırğınlarından sonra 1918-ci ilin sentyabrınadək müxtəlif koalisiyalarda olan ermənilər Bakıda tüğyan edir, imkansızlıq ucbatından şəhəri tərk edə bilməyən və çevrədəki kəndlərdə yaşayan azərbaycanlı əhalini əzab və işgəncə ilə qılıncdan keçirirdilər. Bakıda törədilən türk-müsəlman soyqırımının saxtalaşdırılmasına, ona vətəndaş savaşı donu geyindirilməsinə, qətl edilənlərin sayının "redaktə" olunmasına ilk cəhdi də bu hadisələrin təşkilatçısı və başçısı S.Şaumyan etmişdi. Onun Moskvaya, XKS-nə göndərdiyi 13 aprel tarixli hesabatındakı bəzi məqamlara da diqqət yetirək: ***"Uç gün-30, 31 mart və 1 apreldə Bakı şəhərində şiddətli vuruşma olmuşdur. Bir tərəfdən Sovet Qırmızı Qvardiyası, bizim təşkil etdiyimiz beynəlmiləl Qızıl Ordu, Qırmızı Donanma və erməni milli hissələri, o biri tərəfdən "Müsavat" partiyasının başçılıq etdiyi... müsəlman "Vəhşi diviziya"sı və silahlı müsəlman quldur dəstələri vuruşurdular. Bizə aviyasiya məktəbinin hidroaeroplanları da kömək etdi... Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir... Hər iki tərəfdən öldürülənlər üç mindən artıqdır... Onlar Bakıda üstün gəlsəydilər, şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri- müsəlman ünsürlər tərk-silah edilib qırılardı"*** ( **20** ) **.**

***1918-ci il Azərbaycanlı soyqırımını uluslararası səviyyədə qiymətləndirməyə çıxarmaq planını qanıtlayan arxiv bəlgələrindən biri***



Срочно.- 128

Азербайджанской Республики

Въ Министерство Внутреннихъ Дѣлъ.

5 июня 1919 г.

1546

Въ виду предполагаемаго въ срочномъ порядкѣ образованія Чрезвычайной Международной Слѣдственной Коммиссіи по разслѣдованію насилій, чинимыхъ надъ мусульманскимъ населеніемъ Карабаха и смежныхъ съ Гянджинской губерніей уѣздовъ Эриванской губерніи, армянами и войсками Армянской Республики, по приказанію Г. Министра Иностранныхъ Дѣлъ, Канцелярія проситъ срочно сообщить всѣ имѣющіеся въ Министерствѣ Внутреннихъ Дѣлъ данныя касающіяся упомянутыхъ насилій надъ мусульманами.-

Вице - Директоръ Канцеляріи

Дѣлопроизводитель



**Şamaxı faciəsi ilə bağlı arxivdəki istintaq materialları qovluğunun üz qabığı**



LIETA № 646

Дело

Чрез. След. Комиссии

о погроме г. Шемахи

Iesākta 15/VII 1918 g.

Pabeigta 26/XII 1920 g.

Uz. 107 [illegible]

Ermәni yepiskopu Baqrat isә 1919-cu ilin payızında Bakıya gәlmiş general Harborda tәqdim etdiyi sәnәddә ermәnilәrin Mart hadisәlәrindә iştirakını danıb gizlәdir, saxtakarlıq vә riyakarlıqda S.Şaumyandan da irәli gedәrәk, Mart hadisәlәrindә cәmi 1000 nәfәrin (300 ermәni + 700 müsәlman) öldürüldüyünü bildirirdi **( 23 )**.

**Ədəbiyyat:**


1. Cemil Ünal. Türk Ordusunun Kafkasya harekatı ve Bakünün kurtarılışı. "Azerbaycan" dergisi, Eylül-Ekim 1990, Ankara.
2. İsrafil Məmmədov . Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
3. Khagani İsmayil. Genoside of Azeri people-1918, «The Azeri times», Baku, 28 march 2003.
4. Газ. «Эхо», Баку, 02 .04.2005.
5. ASPİHDA. 277-2-13.
6.ASPİHDA. 277-2-25.
7.ASPİHDA. 277-2-26.
8.ADA. 894-4-65.
9. FİK üzvü Novatskinin məlumatı, ADA. 1061-1-108.
10. ADA. 1061-1-99, v.11. **[Qeyd:** bu sənədin arxiv şifrəsi Türkiyə-Azərbaycan arxiv idarələrinin birgə hazırladığı **"Azerbaycan Belgelerinde Ermeni Sorunu" (Ankara, 2001)** adlı arxiv nəşrində

yanlış gedib – fond sayı **1061** əvəzinə **1610** göstərilib; bax: "Azerbaycan Belgelerinde Ermeni Sorunu", s.25.]
11. 13.06.1919 tarixli sənəd, ADA.1061-1-110.
12. ADA. 1061-1-5.
13. ADA. 1061-1-102.
14. Ариф Мансуров. Белые пятна истории и перестройка. Баку, 1990.
15.«Политический мошенник» məqaləsi, «Vətən səsi» qəzeti, Bakı, 12 iyun 1991.
16. FİK-in üzvü Novatskinin məlumatı, ADA. 1061-1-95.
17. FİK sədrinin 22.10.1918-ci il tarixli arayışı. Qeydiyyat tarixi: 18.12.1918, ASPİHDA. 277-2-16).
18. ADA. 1061-1-97.
19. N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti ( 1918-1920). Bakı, 1996.
20. S.Şaumyanın V.Leninə (RF XKS-nə) yazdığı 13 aprel 1918-ci il tarixli məktub. *Bax: Шаумян С.Г. Избранные произведениə., изд. 2, Баку, 1978.*
21. ASPİHDA. 277-2-13, 277-2-25, 277-2-26.
22. ADA. 894-4-65.
23. ARDSPİHA, f. 276, siy. 9, iş 3, v.25.
24. ARDSPİHA, f. 276, siy. 2, iş 20, v.69.
25. Azərbaycan tarixi, 7 c. -də, V c., Bakı, 2008.
26. FTK-nın sədri Ələkbər bəy Xasməmmədovun AXC Ədliyyə nazirinə məruzəsi. *Bax:* Azərbaycan tarixi, 7 c. -də, V c., Bakı, 2008.
27. AXCE, 2 c.-də, II c., Bakı, 2005.
28. ARDA, f.106, siy.1, iş 108.
29. Azərbaycan tarixi, 7 c. -də, V c., Bakı, 2008; A.Paşayev. Açılmamış səhifələrin izi ilə., Bakı, 2001; Azerbaycan Belgelerinde Ermeni Sorunu, Ankara, 2001. *Bax:* AXCE, 2 c.-də, II c., Bakı, 2005.
30. *«Новыј Восток», 1922, № 3.*
31. ARDA, f.1016, siy.1, iş 95, v. 5-8.
32. Azərbaycan tarixi, 7 c. -də, V c., Bakı, 2008, s.334. *Bax:* ARDA, f. 894, siy. 10, iş 144, v. 14.
33. ARDSPİHA, f. 276, siy. 2, iş 20, v.44.
34. "Yeni Kafkasiya", 31 mart 1924.
35. ARDSPİHA, f. 276, siy. 2, iş 20, v.47.
36. Azərbaycan tarixi, 7 c. -də, V c., Bakı, 2008.
37. Türk dünyası araşdırmaları", 1919, №110.
38. ARDSPİHA, f. 276, siy. 2, iş 20, v.69.
39. ARDSPİHA, f. 276, siy. 2, iş 22, v.75-77.
40. Azərbaycan Demokratik Respublikası (tarix, ictimai-siyasi və mədəni həyat).
41. Газета *«Наш голос», 24 марта 1918 г.*
42. A.Caparidzenin Stepan Şaumyana 2 aprel 1918-ci il tarixli teleqramı. *Bax: «Беллетен КРО г.Баку и его рајонов» , 4 апрелə 1918 г.*
43. Məhəmməd Muradzadə. Mart hadiseyi-əliməsi., 31 mart 1919. –Bakı, 1996.
44. AR Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi f.277, siy.2, iş 13, v.40.
45. AR Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi f.277, siy.2, iş 27, v.16-17.
46. "Azərbaycan" qəz., Bakı, 24.04.2010., s.5
47. Süleyman. "Soyqırım" iddiası ilə çıxış edən ermənilərin dəhşətli vəhşilikləri., "Olaylar" qəz., Bakı, 24-26.04.2010.
48. "İsraildən erməniyə tərs şapalaq"., "Nota bene" qəz., № 01 (001). 24.09.-01.10.2006., Bakı.
49. ADA. 1610-1-99, v. 6-8.
50. Март 1918 г. Баку. Азербайджанские погромы в документах.( Судебно-следственние документы). Составитель: Рустамова-Тохиди Солмаз., 2009, Баку.
51. ASPİHDA, f.277, siy.2, iş 27, v.285-286.
52. .ASPİHDA, f.277, siy.2, iş 27, v.336.
53. RFDA, f.1, siy.2, iş 8.
54. NMRDA, f.314, siy. 5, iş 63.
55. ARPİİSSA f.276, siy. 3, iş 209.

***Əlavə ədəbiyyat:***

Рустамова-Тогиди Солмаз Али кызы. 1918. Азербайджанские погромы в фотографиях и документах., Б., 2012, 208 стр. (rus, ingilis və türk dillərində); Рустамова-Тогиди Солмаз Али кызы. Куба. Апрель-май 1918. Мусульманские погромы в документах., Б., 2010, 560 стр. (rus, ingilis və türk dillərində); Рустамова-Тогиди Солмаз Али кызы. Шемаха. Март-июль 1918. Азербайджанские погромы в документах.Том I. Город Шемаха., Б., 2012, 870 стр. С фотографиями и картой.,Том II. Селения Шемахинского уезда, Б., 2012, 884 стр. С фотографиями и картой. (rus, ingilis və türk dillərində); məsləhətçi: AR Milli Təhlükəsizlik Naziri Eldar Mahmudov.



***Bakı. 1918-ci il martın sonu***







КОМИССАРЪ ПОЛИЦІИ [illegible]НЫХЪ ДЕРЖАВЪ

Марта 1919 г.

№ 82

г. БАКУ

Г-ну Министру Юстиціи

Настоящую переписку препровождаю на Ваше распоряженіе.

Начальникъ Англійской военной полиціи

ADA 1061-1-99, v.99



Бак. Окружный Судъ

Столъ

2 апр. 1919

№ 3840

г. Баку

Заводывающему Г. Судебному Следователю

Вслѣдствіе представленія отъ 1 апрѣля 1919 года за № 191, Окружный Судъ увѣдомляетъ Ваше Высокоблагородіе, что о выдачѣ Леониду Евгеньевичу Роз[illegible] вознагражденія за произведенн[illegible] въ суммѣ 750 руб. — коп., сообщено Предсѣдателю Окружнаго Суда вмѣстѣ съ симъ за № 3834.

Тов. Предсѣдателя [illegible]

Членъ Суда

И. д. Секретаря [illegible]

ADA 1061-1-99, v.116





~~38~~ 83

Мадамъ Ковзаръ, будучи предупреждена о присягѣ, показываетъ: —

18ти свидѣтель обвиненія

Я проживаю въ №130 по Тиринской (?) ул.

Въ мартѣ 1918 года, я проживала въ Шераванѣ (?). Однажды, не помню точно дня, обвиняемый Лалаевъ, котораго я опознаю, пришелъ въ домъ моего отца. Въ томъ же домѣ проживали моя сестра, 3 брата и мой отецъ. Лалаевъ, какъ только вошелъ въ домъ, отдалъ приказъ убивать всѣхъ мусульманъ. Солдаты, поэтому, убили моего отца выстрѣломъ изъ ружья. Мои 3 брата были также убиты — ихъ проткнули штыками. Я, вмѣстѣ съ сестрой была уведена въ мечеть въ качествѣ плѣнницы и на слѣдующій день, вмѣстѣ съ другими женщинами и дѣтьми, числомъ около 600, насъ отправили въ сел. Чеизманданъ (?), гдѣ мы оставались дней 10; а затѣмъ были отправлены въ Баку.

Я своими глазами видѣла, какъ Лалаевъ закололъ одного изъ моихъ братьевъ штыкомъ. —

(Поставленъ крестъ)

ADA 1061-1-99, v.89



1.

6. A
52

(i)

Statement of Evidence in the case of STEPAN LALAIEFF.

ISIBECK SULOMONBECK OLI ISEMBECKOFF being duly
warned states —

I reside at N° 156 at the corner of [illegible] —
Marienskyia Street. On or about 16th or 17th March 1918,
I am not sure of the date, various murders, robberies etc were
being committed by the Armenians – the accused being one of
their leaders. One day about 1.0 pm some armed Armenians
entered my House & looted it. One of the party, I don't know whom
stuck a bayonet into a boy who was coming downstairs – killing
him. They took away my father, mother, also 2 of my brothers
& my Sister in Law. Being afraid I went & hid in a well, where
I remained for 3 hours, after which period I went back to my
rooms & found everything had been taken away. I then went
to the house of my Uncle which is situated in Persian
Street where I remained for several days, and on going
back to my own house I found all my relatives had
returned.

Isabec Alimbecoff





2

A
53

(b)

Madam Zarabcham being duly warned states —
I reside at IMAMLI Street. about March or April
1918, at Shemaxa, I do not remember the date, a relation of
Lalieffs came to my house with a party of armed Armenians,
looted it & then set fire to it. My Husband, 2 sons, 2 daughters
& 2 Sisters-in-Law were in the house at the time, and all, with
the exception of myself & one daughter were burnt to death
When I came out of the House some of the party were
going to kill my daughter but were prevented from doing so by
some Molakhans. We were taken to a house where we remained
for 3 days, after which we went to a village outside the town
to live. Several days later we came back into the city & were
arrested by the Armenians who confined us in a Mosque. After
about 4 days the Mosque was set on fire, but I and my
daughter succeeded in getting away. About 200 perished as the
result of this. The people who succeeded in getting out of the
Mosque were fired on, & several killed. We were again arrested
& after being kept as prisoners in various places were taken and
confined in another Mosque where we remained for 2 months.
On several occasions during this period I have seen the
accused riding at the head of a party of armed Armenians,
though I have not actually seen him commit any atrocities.

3.

54

c)

Madam Ziba being duly warned states –

I reside at Baku, the address I do not know.

About March or April 1918, I was taken prisoner in Sherawan ~~to Baku~~, together with about 100 or more persons, by the Malaghans, and taken to the House of Lalieff's father. On arrival there all the boys & girls between the ages of about ten to eighteen years were taken away. My woman was amongst them. What happened to her I do not know – I have not seen her since. The remainder of us were taken away & imprisoned in a Mosque. On the following day it was set on fire and about 60 persons were burnt to death. Those who managed to get outside were fired on & several killed. I was again arrested, imprisoned in another house for 8 days, & finally taken to Baku, where we were again imprisoned in a Mosque for 3 months.

Whilst at Sherawan, I saw the accused on one occasion riding a Black Horse at the head of a party of armed Armenians. I did not see the accused commit any atrocities.

3rd Witness for Prosecution.



4.

55

d)

Hussein Alli Ibraguin bgli being duly warned states –

I reside at No 205 SURAKHANSKYA Street.

On or about 19th March 1918, I, together with 2 men ~~went into~~ sought refuge in the Mussulman School "SADET" as we were afraid of the Armenians, there being a great deal of fighting going on at this time. About 10.0. am, the accused, together with 2 Armenian Soldiers, all of whom were armed, came & knocked at the door. As we did not open the door, they forced it ~~open~~, & I being afraid, rushed up on to the roof. As I was going up I heard 2 shots fired. I escaped & took refuge in a Mosque. Some 2 or 3 days later the disturbances between the Armenians & Tartars ceased, and I went to the School to find out what had happened to the other two fellows. On going inside I saw one of the men whom I left there, lying in the Courtyard – dead. He had been shot through the head. Two days later I found the other man lying dead on No 20 Berth, where all dead Bodies had been taken by some Red Cross Mission.

Witness for Prosecution.

5.

56

TALEB ABDULLI OGLI being duly warned states –

I reside at GHOARHEAST, and employed as a servant. Some time between 15th March & 15th April 1918, I saw Lalieff near a Mosque in SHEMAKHINST, apparently in command of between 400 & 500 armed men. The accused was dressed in the uniform of a Russian Soldier, had 2 Belts of Mauser Ammunition round his waist, a Mauser Pistol in his hand, and a pair of Binoculars suspended from his neck. I saw the accused address his men, & I distinctly heard him issue orders to the effect that they were "not to kill all of them, but to bring the most of them alive, as he himself was going to sentence them." I did not wait to see what happened as I was afraid. [illegible signature]

6

57

Madam SAKIENAH KHANOM, being duly warned states –

I reside in BOZAVAD Street, Shemakha.

Some time in March 1918, I do not remember the exact date, I was in my fathers House, when the accused now before you whom I identify, together with about 10 armed men, came in. They took away my husband, my brother-in-law, and then ordered me to show them where my father kept his gold. This I would not do, so 4 or 5 men went into the bedroom and brought out a large box. They asked for the key of the box, and as I did not produce it, they smashed it & found the box empty. They then caught hold of the male servant & threatened to kill him if he did not show them where the gold was kept. The servant then showed them the place, & they took it away. The accused was present all this time, & was continually threatening us that none of us would be left alive, & that all would be killed. When I went out of the House I asked the Aust Down Guard, who was standing there, what had happened to my husband. He went away & returned after about 15 minutes, & He then informed me that my husband had been killed.

My mother, two Uncles, Aunt, Grandmother & son & Sons were brought outside the House, & were immediately shot down, all except myself & 2 sons being killed. Stephan Lalieff issued the orders for these people to be killed, & I was present at the time. [illegible signature]

9) Mademoiselle BALASH, aged 13 years being duly warned states —

58

Tenth witness for Prosecution.

I reside at Varonzakobi Street Baku, in AKHUNDOFF's House. About March or April 1918, I am not sure which month I was residing at Shemakha. About 3.0. pm one day Latiff, together with about 12 armed men came into the house of Madame SAKIENAH KHANUM where I was employed as servant. The accused demanded Taimur Beg, who was at that time the head man of the labourers. Taimur Beg was brought from his hiding place and handed over to the Armenians, being taken away by them. Two other men, Abdul Salim & Mahmed Sadik were also taken out of the house. I ran after the party who was taking them away & implored them to pardon these three men. I was threatened with a Rifle so I ran back to the House. I ~~took~~ went into a room overlooking the street, and on looking out through the window I saw the 3 men being stripped — they were left with their shirts & under pants on only. The men were about 30 yards from where I was watching. They were then placed together in line ~~facing the [illegible]~~ & deliberately shot at by 3 Armenians. Whilst they were lying on the ground about 80 shots were fired at them.

Some time minutes later I went into the cellar where all the other occupants of the house had taken refuge. Latiff, the accused now before you whom I identify, together with 2 other armed Armenians came there and ordered us all to get outside. We were taken to the door of the Street and bunched together, being fired at by some Armenians. Out of 120 or 13 of us, 5 only, were left alive. Before we were fired on I actually saw the accused personally shoot the sister of Taimur Beg with a Rifle. Latiff also gave the orders for us to be fired on, and as far as I remember his actual words were "Now you can fire."

The others who were left were taken prisoners, taken to where all the other prisoners were being collected, and on the



8

59

same day we proceeded on foot en route to [illegible], where we arrived 5 or 6 days later. The accused was in charge of the prisoners. On the march we were continually being threatened with our lives. No food was given us during the whole journey, & we ~~[struck]~~ suffered much hardship.

X

Her mark

[illegible] Lieut. R.A.

(2) 60

Sixth witness for Prosecution

Mademoiselle Sultan being duly warned states —

I reside in AKHONDOFFS House, Baku. About the end of March or beginning of April 1918, I was in the house of Madam SAKIENAH KHANOM, being employed as servant, at Sherwan, and on a day which I do not remember, Lalieff, the accused now before you who[m] I identify, together with about 7 armed Armenians came in and demanded that all the men should be handed over as they were going to be taken prisoners. The accused also demanded that all the gold in the house should be given up. He threatened ~~that~~ if we did not tell him where the gold was he would shoot us. I thereupon showed Lalieff where it was kept, & he ordered his men to dig up the ground & ~~[illegible]~~ ~~the [illegible]~~ which they did, and they found the Box containing about 8 lbs in gold which they distributed between themselves.

Yamin Beg, Abdul Salim, & Mahmed Sadik were taken away, together with an old man named Abdul Alli. Later in the day I saw the dead body of ~~[illegible]~~ Abdul Alli lying at the entrance to the house, & the dead bodies of the other three men in the street about 20 yards away.

Myself, together with about 20 other persons took refuge in the cellar, and after we had been there some 15 minutes or so, the accused came and ordered us to all get out as he was going to take us prisoners. When we got outside we were bunched together & fired on, all except 5 being killed. Lalieff was present mounted on a horse, & I distinctly heard him issue orders to the effect that they, (the Armenians) were not to be afraid, but were to annihilate ~~them~~ us. We were then taken away ~~[illegible]~~ to a place where they were collecting all the prisoners, and the same day I proceeded on foot en route to Baku. After arrival at Malakhan we were given Carts to ride in. Lalieff did not come from Sherwan to Baku with the prisoners.

His mark.

Wm. Powe, Lieut. R.A.



10.

(1) 61

Ninth witness for Prosecution.

Madam Sona being duly warned states —

I reside at 56 Surakhanski Street, Baku. In March 1918, I do not remember the date, I was in my house at Sherwan when Lalieff, the accused now before you whom I identify, together with about 20 armed Armenians came in, and demanded that all the men be handed over. Six men named Salmah, Aghajarah, Agha Hussein, Mosel, Asad Ali, Asgad were taken outside by the Armenians, as were also 4 ladies, by name Golba Gom, Gooli, Kissa, & myself & baby. On arrival outside the baby was taken away from me & its throat cut by some Armenian whom I do not know. Lalieff was present when this was done. I offered to give them all the money there was in the house if they would spare us, but they took no notice. The men were taken to the opposite side of the road, placed against the wall & fired on, all ~~being~~ were killed.

All the ladies were taken away to a house, & on the same day we all proceeded on foot en route to Baku, where we arrived 5 or 6 days later. No food was given us during the journey.

Lalieff did not accompany the prisoners.

+

Her mark.

Wm. Powe, Lieut. R.A.

11.

H 62

k). Madam SAKINEH being duly warned states —

I reside at No — CHARDOROVSKVIA ~~[illegible]~~ St. Baku.

[Pro]se Witness for [illegible]

About the end of March or beginning of April 1918, the accused, Latieff, whom I identify, came to my house at Sherawan, together with about 20 armed Armenians. My son in law & my daughter were also in the house with me. As soon as they saw my son-in-law, someone, I dont know who, fired at him, & killed him.

I ran away together with my daughter (who had been beaten by the Armenians) and proceeded to the village of [illegible], where we were fed & clothed by the inhabitants, & sent on to Baku.

My nephew who was in the cradle was also killed by the Armenians, though I dont know by whom.

At my house, I heard Latieff give orders they were to "beat & kill all Mussulmans, but to spare all the handsome girls".

X

Her mark.

W.H. Jones, Lieut. R.G.A.



12

H 63

l) Madam BADA being duly warned states —

I reside at CHARDOROVSKVIA Street Baku.

Witness for [Pro]secution

About the end of March or beginning of April 1918, I was residing at Sherawan. One day, I dont remember which, all the neighbours together with the occupants of my house, took refuge in the cellar owing to so many outrages being committed. There were about 20 women & 4 men altogether. Suddenly a shot was fired through the window from the outside, so we opened the doors, & on doing so I saw the accused, whom I now identify, standing there together with another soldier. Both these came into the cellar and took away 10 of the females. I paid to the accused Fifty thousand Roubles & also gave him about 1½ lbs of Gold. In addition I gave him all my rings, bracelets etc and begged for my husband to be spared, but without avail. He was shot dead by Latieff. Two of the other men were taken out into the Court yard & shot dead by Latieff himself. The fourth man escaped.

My six months old Baby was taken from me by one of the two, I cannot say for certain by which one, and thrown into the air - the fall killing it. I escaped & took refuge in a Mosque & eventually succeeded in reaching Baku.

X

Her mark

W.H. Jones Lieut. R.G.A.

Q. How was accused dressed?

A. In soldiers uniform.

13.

64

m) [illegible] Witness for Prosecution

Madam KOBRA being duly warned states—

I reside at No — LONHAN Street Baku.

About the end of March 1918, I was residing at Shemakha. One day, I cannot remember which, I heard a great deal of firing. On opening the door to see what was the matter, I saw a man riding up the street on a horse, followed by about 100 armed Armenians. I recognise the accused now before you as being the man I saw riding up the street. He was dressed in a soldier's uniform. I went back into the house to inform the others what was happening, when suddenly I heard the door being opened. On looking round I saw Haliff accompanied by 7 or 8 armed Armenians entering. The accused ordered my husband to be killed, and he was shot dead by one of the soldiers, but I don't know by whom. One of the neighbours who was ill & lying in bed in my house was also shot dead by one of the soldiers. The accused ordered his men to take away my money which I had hidden in the clothes of my baby, which I was nursing. I gave them the money, — 30 Ten Rouble Gold Pieces — & I was then taken, together with my mother & two children, out into the Street, where I was joined by some of my neighbours. We were all taken to a Mosque & after staying there for one day we escaped and went to a village near Shemawan, & afterwards to AGHDASH village where we were fed by the Inhabitants. Eventually I succeeded in reaching Baku.

My house was looted, and afterwards set on fire.

Her mark. X

Wm. Jones Lieut. R.F.A.

Q. 1. What sort of Hat was [he] wearing?

A. 1. You were dressed the same & the men.

Q. 2. What coloured horse was [he] riding?

A. 2. A Grey one.



14.

65

n) [illegible] Witness for Prosecution.

Madam NARGIS being duly warned states

I reside at No 1 Pirinski Street Baku. About the end of March 1918 I was residing at Shemawar. One day I do not know which about 12.30 pm Haliff, the accused now before you whom I identify entered my house accompanied by about 30 armed Armenians. Also residing in the house were my brother & his two sons. ~~The accused~~ ~~came there & said~~ The accused caught hold of my brother by the arm, & said he was going to kill him. He also said he was going to revenge the blood of his father. I went to the accused & begged him to kill me, & to spare my brother & his 2 boys. He replied I am going to kill them, and at the same time struck me on the chest with his fist. The accused then shot my brother dead with a Rifle, & also shot his two boys. The latter were shot through the heart. I was present in the room during this.

My house was then set on fire. I was taken away to a Mosque & kept there for 3 days, after which the Malaghans took us to a village named GHEZMAIDAN where I remained for 4 days, afterwards being taken together with 5 other women to Baku.

Her mark. X

Wm. Jones Lieut. R.F.A.?

15

o) Madam Ghuli Begum being duly warned states—

15 / 66

I reside at No 56 Surakhanski Street Baku. In March 1918 I was residing at Shemakha, and on or about 20th March 1918 owing to the disturbances which were taking place, I fastened my doors, & took refuge in the cellar, together with my husband, brother, brother in law & 3 women, including my daughter aged 13 years. My baby I was carrying in my arms. Some armed Armenians came & forced the door open, & demanded that all the men be given up. My mother-in-law told them there were no men there. Latiff, the accused now before you was stood at the entrance to the cellar. The soldiers searched the cellar & discovered the three men hiding. They took us all out into the yard, & from there into the street. Latiff was among the party of soldiers & he said we were not going to be killed. but in the street the men were taken away from us. Latiff beckoned 3 Armenians towards him & ordered them to kill the three men, which they did by shooting them with their rifles.

The accused then gave orders for the women to be taken to the Mosque, where we were kept for about 8 hours, being afterwards taken to the Barracks, and given a certain amount of food. My daughter was taken away by one of the Armenian Soldiers & raped.

The same day we were taken by the Molokans to the village of CHAZMAIDAN where we remained for 3 or 4 days, being afterwards taken to Baku. There were about 500 women and children, and a great many died on the road from starvation.

+

Her mark.

2 Tenth time for Prosecution



16

p) Madam MINA being duly warned states—

16 / 67

I reside at No 1, Perinski Street Baku. About the end of March 1918 I was residing at Shemakha, near Latiff's house. One day I don't remember which, Latiff, the accused now before you whom I identify, came to my house accompanied by 6 armed Armenians. Residing in the same house was my mother, uncle, my sister & 2 brothers. They came into the room where I was sitting, searched the room and found my uncle who was hiding in a W.C. His throat was cut by Latiff, who then left the room. The soldiers then collected the 5 of us and took us to a Mosque, myself being taken on to the Barracks. My mother who was carrying my baby, tried to prevent them taking me away, but was pushed by one of the soldiers with the result that the Baby fell from her arms & was killed. I was taken to the Barracks where I was kept for 3 or 4 days, being afterwards taken together with about 200 other prisoners to CHAZMAIDAN, & thence to Baku.

+

Her mark.

Wm. Jones. Lieut. R.G.A.

Tenth time for Prosecution.



17

AZIZ OGLI

HAJI KARIM, being duly warned states–

I reside at KORDAMERA Street. About the end of March 1918 I was residing at Sherawan. One day, I don't remember which, I was standing outside the door of my House, together with my cousin, and I saw Lalieff, the accused now before you, whom I identify, riding up the street on a horse, followed by about 25 armed Armenians. I went back & stood in the doorway & shouted for my cousin to come inside. When Lalieff got opposite the House I saw him fire 2 shots at my cousin, with his [illegible] the soldiers also firing several shots at him with their Rifles by the order of Lalieff. My cousin was killed. Being afraid I ran away & succeeded in escaping.



MADAM TUTIKHANUM being duly warned states:

Incident No 152 Brinsky Street. In March 1918, I was residing at Sherawan with my mother. One day, I do not remember the [illegible] I was in my fathers house when Lalieff, the accused now before you whom I identify, came there accompanied by about 15 Armenians. In the same house were residing my 3 Brothers, Sister & father. When they entered the house Lalieff gave orders they were to kill all the Mussulmans. The soldiers who were with Lalieff then killed my father [illegible] by shooting him with a rifle. My 3 Brothers were also killed by the soldiers who stabbed them with their Bayonets. Myself & sister were then taken to a Mosque & the following day, together with about 600 other women & children, we were taken to [illegible] where we remained for about 10 days, being afterwards taken to Baku.

Lalieff himself did not murder any of my relations.

Her mark. +

10th Dorset Lieut. [illegible]


I, Madam NOWSAR, being duly sworn and states:
I reside at No. 130 Pirinski Street. In March 1918, I was residing at Shemakha. One day, I don't remember which, the armed Lalieff, whom I identify, came to my father's house. In the same house were residing my sister, 3 Brothers & my father. When they entered the house, Lalieff gave orders they were to kill all the Mussulmen. The soldiers thereupon killed my father by shooting him with a rifle. My 3 Brothers were also killed, being stabbed with Bayonets. I was then taken together with my sister to a Mosque as prisoners & the following day, together with about 600 women & children we were taken to SHEZMAIDAN; where we remained for about 10 days, being afterwards taken to Baku.
I actually saw Lalieff stab one of my brothers with a bayonet.
+
Her mark.
[illegible] Police Lieut. R.O.I.

**ADA 1061-1-99, v.52-70**





Türkiyə ilə Azərbaycan arasında Batum şəhərindəki 4 iyun 1918-ci il tarixli anlaşma, o cümlədən hərbi yardım haqda 4-cü bənddə ifadə olunan razılaşma da, məhz Zaqafqaziya Seyminin dağılmasından-Qafqaz ölkələrinin müstəqillik elan etməsindən sonra baş tutdu.

Milli Şuranın sədri M. Ə. Rəsulzadə və Azərbaycanın digər təmsilçisi M. Hacınski bu anlaşmaya əsaslanaraq Osmanlı dövlətindən hərbi yardım istədilər. Onu da bildirək ki, hələ xeyli əvvəl Seymin Azərbaycan təmsilçiləri Osmanlı hökumətinə hərbi yardım danışıqları üçün Nağı bəy Şeyxzamanlını ezam etmişdilər. Bəzi mənbələrə görə, Ömər Faiq Nemanzadə də Nağı bəylə bu danışıqların bir qismində iştirak edib.

Nağı bəyi Osmanlı dövlətinin Hərbi Naziri Ənvər paşa hərarətlə qarşılamış, Baş Nazir Tələt paşanın da bu məsələdə israrlı olduğunu bildirmişdi. Xatırladaq ki, Seym üzvlərilə görüşlərində Osmanlı İmperiyasının Ədliyyə Naziri Xəlil Menteşe də gürcü və erməni heyəti ilə sərt danışaraq, ya Rusiya ilə Osmanlı arasında imzalanmış 1918-ci il 3 mart tarixli Brest-Litovsk müqaviləsinin şərtlərini tanımağı, ya da Cənubi Qafqaz dövlətinin müstəqilliyini qəbul edərək türklərlə sülh və dostluq haqda saziş imzalamağı tələb edirdi. Ancaq Seymin erməni və gürcü fraksiyaları Zaqafqaziya Seyminə nə müstəqil, nə də Rusiyanın nüfuz dairəsində olan dövlət kimi türklərlə hər hansı bir dinc münasibətləri ifadə edən sənəd imzalamasına imkan vermir, müxtəlif hiyləgər bəhanələrlə vaxtı uzatmağa çalışırdılar. Lakin bu xain qonşuluq siyasətindən təngə gələn Osmanlı dövləti Seymlə ultimativ tonda danışmağa məcbur oldu və ona düşünmək üçün cəmi bircə gün sürə verdi...

Nağı Şeyxzamanlının xatirələrindən o da məlum olur ki, Gənctürklər hərəkatının öndərlərindən Camal paşa da türklərin Azərbaycana hərbi yardım etməsinin zərurət olduğunu ciddi cəhdlə təlqin edən çox az şəxslərdən biri idi.

Ancaq bu günkü oxucu heç də elə təsəvvür etməsin ki, o vaxt Osmanlının Azərbaycana hərbi yardım göstərməsinə orada hamı tərəfdar idi. Əksinə, Osmanlı özü də istiqlaliyyətini itirmə təhlükəsi altında olduğu üçün Qafqaza ordu göndərmək türk rəsmiləri üçün qeyri-ciddi addım, yumşaq desək, böyük ehtimallı risq sayılırdı. Xatırladaq ki, I Dünya Savaşı davam edirdi, hüquqi cəhətdən Osmanlı dövləti hələ də imperiya olaraq qalırdı və Xilafətin mərkəzi də məhz burada yerləşirdi (Türkiyədə Xilafət rəsmən 1924-cü ilin martında ləğv olunmuşdur).

Osmanlının I Dünya Savaşında Almaniya ilə birgə məğlub tərəf olması; onun imperiya (sultanlıq) və xilafət statusunun Antantanı, Avropanın bir çox əsas güc mərkəzlərini, bundan başqa ərəb dünyasını da ona qarşı qaldırması türkləri çıxılmaz vəziyyətə salmışdı. Rusiyanın və erməni millətçilərinin türklərə yaratdığı müşkülləri də buraya əlavə etdikdə, o dönəmdə Osmanlının Azərbaycana ordu göndərməsinin həqiqətən də böyük risq olduğu anlaşılır. Növbəti bir problem isə, türklərin I Dünya Savaşındakı müttəfiqi Almaniyanın Bakı neftinə şirnikərək, V. İ. Leninin təklifi ilə Rusiya ilə Brest-Litovsk sülh müqaviləsinə gizli əlavə bənd imzalaması idi. Bu bəndə görə, almanlar türklərin Qafqaza hərbi yürüşünə mane olmalı, əvəzində Rusiya Bakı neftindən gələn gəlirin ¼ (bəzi qaynaqlara görə, isə ½ ) payını Almaniyaya verməli idi. Üstəlik, Gürcüstan da gizli şəkildə Almaniyaya müraciət etmişdi ki, o, Türk Ordusunu hər vəchlə Qafqaza, xüsusən də Gürcüstana buraxmasın. Hətta almanların məhdud hərbi heyəti başda general fon Kress olmaqla Tiflisdə yerləşdirilmişdi... (Bu mövzu haqda *"Qafqaz İslam Ordusunun hərbi əməliyyatları"* bölümündə daha ətraflı bəhs edəcəyimizdən, burada təfərrüata varmırıq).

Bir sözlə, Kiçik Asiyada Anadolu türkləri, Qafqazda isə azəri türkləri, ümumilikdə isə, Qafqaz müsəlmanları təklənmişdilər. Belə məqamlarda da yalnız Tanrının millətə göndərdiyi tarixi şəxsiyyətlər baş çıxara, qərar qəbul edə bilər. Bu şəxsiyyətlər də Turan dünyasının böyük ürək sahibləri, potensial şəhidləri, bü gün də bizlərin açdığı haqq savaşının ilhamvericiləri, qoruyucu ruh sahibləri Ənvər paşa, Tələt paşa, Camal paşa idilər. Bu məqamda Ənvər paşa sadəliyinin və ucalığının daha da anlaşılması üçün müəllifi olduğum «Azəri soyqırımı» pyesindən bir sitat gətirmək istəyirəm. Buradakı ifadə Nağı Şeyxzamanlının vasitəsilə Ənvər paşanın dilindən belə verilmişdir:

«Aludə olmadıq görəvlərə biz,
Biz bir xilaskarlıq görəvindəyiz!»

Doğrudan da 1918-ci ilin sentyabrındakı Mudros barışığından, daha gerçəyi, təslim (məğlubiyyət) aktından sonra Ənvər paşa istefa verərək sadə bir türk komandanı kimi Orta Asiyaya gəldi və orada Türküstanın bolşeviklərlə savaşının ilhamverici qəhrəmanına və şəhidinə çevrildi... Tələt paşa Almaniyada kilsədən çıxarkən, Camal paşa isə Tiflisdə küçədəcə erməni terrorçuları tərəfindən şəhid edildilər... (*Erməni terroru haqda sonrakı bölümlərdə bu məsələlərə daha ətraflı toxunmağa çalışacağıq*).

Bu uca ruhların təsiri altında istər-istəməz bir qədər sonrakı tarixi olaylara yönəlməyimizin ardınca, yenə də oxucuları hal-hazırkı bölümün əsas mövzusuna yönəltmək istərdim.

Beləliklə, Ənvər paşa Azərbaycanı özü üçün ikinci vətən hesab edərək, buranı xilas etməyin zərurətini ortaya qoydu və təcili tədbirlər görməyə başladı. Azərbaycanda və Türkiyədə çox az adama bəlli olar ki, Qafqaza gedəcək orduya komandan kimi ilk olaraq Ənvər paşa məğrur türk generalı prins Fərruxu seçmişdi. Prins Fərruxu kənardan müşahidə edən Nağı Şeyxzamanlı isə onun başqa bir komandanla əvəzlənməsini xahiş etdi. Ənvər paşa təəccüblənərək bu əvəzlənmə xahişinin hansı zərurətdən irəli gəldiyini soruşduqda, Nağı bəy prins Fərruxun içkiyə və əyləncəyə meylli bir general olduğunu müşahidə etdiyini bildirdi... və Qafqazda əsgəri heyətin belə şəxslərin komandanlığı altında vuruşacağı halda problemlərin ortaya çıxa biləcəyini söylədi.




Osmanlı Hərbi Naziri
Ənvər Paşa


Osmanlı Baş Naziri
Tələt Paşa


Osmanlı Şərq Ordular Qrupu komandanı və Azərbaycan Hökumətinin üzvü Xəlil paşa


Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa



Əliağa Şıxlinski



Nağı bəy Şeyxzamanlı



Прокламація.

Ввиду образованія Коал
ціоннаго Азербайджанск
го Правительства по
предсѣдательствомъ Ф.
Хойскаго, симъ объявля
что Союзное Командов
кіе будетъ оказывать п
ную поддержку этому п
вительству, какъ ед
ственной мѣстной зако
ной власти въ предѣлах
Азербайджана.

Командующій Союзными войсками гор
Баку.
Генералъ майоръ
В. М. Томсонъ.

V.Tomsonun Azərbaycan Hökumətini tanıması haqda bəyannamə (bildiriş)



Xeyli mübahisə xarakterli götür-qoydan sonra Nağı bəy Ənvər paşanın kiçik qardaşı, o zamanlar polkovnik rütbəsində olan, yaşı heç 30-u da haqlamamış cavan bir komandanın-Nuru bəyin namizədliyini təklif etdi və bu namizədin üzərində dayandı. N. Şeyxzamanlı Nuru bəyin cavan olmasına baxmayaraq, istedadlı və uzaqgörən bir komandan olduğunu artıq Rusiya mətbuatından öyrəndiyini bildirmişdi. O zamankı rus mətbuatı yazırdı ki, Trabzon savaşında Nuru bəyin uzaqgörən hərbi strategiyası sayəsində onun tabeçiliyində olan bölüklər heç kəsin proqnozlaşdıra bilmədiyi halda rus ordusunu əzib geriyə atmışdı. Bundan başqa, o zamankı Rusiya mətbuatı Nuru bəyin Suriya cəbhəsindəki uğurlarını da qiymətləndirərək işıqlandırmışdı. Bu arqumentləri və Ənvər paşanın qardaşı kimi də onun hərbi hissələrinin Osmanlı tərəfindən texniki təminat problemlərinin vaxtı-vaxtında həll olunacağını önə çəkən N. Şeyxzamanlı, nəhayət Nuru bəyin namizədliyini qəbul etdirə bilmişdi. Sultanın sərəncamı ilə Nuru bəyə paşa rütbəsi verilərək, bölgəmizdə qan tökülməsinin və islam mənsublarının kütləvi qırğının qarşısının alınması üçün o, xüsusi səlahiyyətlə Qafqaza göndərilmişdi.

Prins Fərruxun namizədliyi üzərindəki mübahisədən nəticə çıxararaq Qafqaza göndərilən türk hərbçiləri içkidən və islamda haram buyurulan başqaadətlərdən əl çəkəcəklərinə and içdikləri üçün də bölgəmizə göndərilən türk ordusu Qafqaz İslam Ordusu adlandırılmışdı...

Hüquqi manеələr nəzərə alınaraq əvvəlcə Nuru paşa öz zabit heyəti ilə Mosuldan çıxaraq Cənubi Azərbaycan ərazisinə hərəkət etdi. Bu zaman Antanta və rusların İranı işğal etməsindən yararlanan oradakı erməni silahlıları Xoy, Səlmas, Urmu (Urmiya) şəhərlərində azərbaycanlıları kütləvi surətdə qırğına məruz qoymuşdular. Nuru paşanın qərb tərəfdən Cənubi Azərbaycana hərəkətindən dərhal qorxuya düşən ermənilər qırğınlara ara verərək şərqə tərəf çəkildilər. Onlarla birgə azərbaycanlıların kütləvi surətdə qırılmasında ermənilərə pul və silahla, təlimat, komandan dəstəyi və hərbi heyətlə köməklik göstərən Antanta qüvvələri də Ənzəli səmtinə qaçdılar.

Çox böyük ürək ağrısı və hədsiz təəssüflə qeyd etməliyəm ki, bu gün xalq qəhrəmanı kimi sevdiyimiz Şeyx Məhəmməd Xiyabani isə öz 500 nəfərlik dəstəsi ilə o vaxt rusların mövqeyini müdafiə etmiş, Cənubi Azərbaycanı xilas etməyə, oradakı ermənilərin (və müttəfiqlərinin) azərbaycanlıları kütləvi şəkildə qırmasının qarşısını almaq üçün bölgəyə daxil olan Türk Ordusuna qarşı vuruşmuşdu. Türk Ordusu Xiyabaninin dəstəsini əzərək, özünü də həbs edib əvvəlcə Urmiyaya, sonra Qarsa göndərmiş... sonralar bağışlayaraq azad etmişdi...

*(Hörmətli oxuculara məlum edim ki, Güneydəki və Quzeydəki hadisələri müqayisə etdikdə belə anlaşılır ki, deməli, Şimali Azərbaycanda Əliheydər Qarayevin, Qəzənfər Musabəyovun, Məşədi Əzizbəyovun və başqalarının rolunu Cənubi Azərbaycanda da Şeyx Məhəmməd Xiyabani və onun həmfikirləri oynayırmış. Çox təəssüf...)*

...Nuru paşa Güney Azərbaycandan (Təbriz üzərindən) Naxçıvana, oradan da Cəbrayıl-Tərtər-Ağdam-Yevlax yolu ilə Gəncəyə gəldi. Amma istər Cənubi Azərbaycanda, istərsə də Şimali Azərbaycanda Nuru paşa öncə əsas yaşayış mərkəzlərinə zabitlər buraxaraq, bütün Qafqaz bölgəsində Osmanlı nəzarətinin təməlini qoymağa başladı.

Yevlaxda hərarətlə qarşılanan Nuru paşa bəzi Azərbayan rəsmilərinin müşayiəti ilə mayın 25-də Gəncəyə yetişdi. Gəncədə xüsusi intizar və məhəbbətlə qarşılandı ki, bu intizar və məhəbbət təkcə Gəncə əhalisinin və Azərbaycan rəsmilərinin deyil, varlığını xilas etmək istəyən və istiqlala təşnə olan bütün azərbaycanlıların, ümumilikdə isə bu hadisələri diqqətlə izləyən Türk Dünyasının rahatsızlığını və həyəcanlar dolu sevincini ifadə edirdi...

Ədəbiyyat:

1. Шејхзаманлы Н. Азәрбајҹан истиглал мүҹадиләси хатирәләри. Бакы, 1997.
2. Азербайджанская Демократическая Республика. Документы и материалы. Баку, 1998.
3. Рәсулзадә М.Ә. Азәрбајҹан Ҹүмһуријјәти. Бакы, 1990.
4. Һәсәнов Ҹ. Азәрбајҹан бејнәлхалг мүнасибәтләр системиндә. 1918-1920. Бакы, 1993.
5. Mehman Süleymanov. Nuru paşa. Bakı, 1999.
6. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.

## TÜRK-AZƏRBAYCAN VƏTƏNSEVƏRLİYİ NECƏ QALİB GƏLDİ...

**Əsrlərlə namı dörd bir cəhətdə dolaşan Dəmirqapı Dərbəndsiz, Çar ordularına qarşı 15 il sərasər və yalquzaq kimi tənha savaşmaqla Peterburqu lərzəyə gətirən ilməz soylular yurdu Xan İrəvansız, Dədəm Qorqud qəhrəmanlarının izini yaralı-paralı köksündə saxlayan Ulu Borçalısız... yaşamayan, yalnız mövcud olan, qarı düşmən dəftərində kiçik işarələrlə yazılan AZƏRBAYCAN!**

**Bəs minilliklərin daş yaddaşı olan Qız Qalasının bakirəliyini pozaraq, «petrol qoxan gülümüz»ə (*Almas Yıldırım*) əbədi sahib olsalardı necə, varlığımız təsəvvürə gələrdimi?.. Və əgər adı cılızlar cılızı bir varlıq olub özü yoxluqdan aşağı o cür mövcudluğu bizlərdən kimsə xəyalında canlandırmağa cəsarət edərdisə, onda onun mənəvi nəsibi nəhayətsiz bir heçlikdən, qaradan da qatı miskinlik havasından qeyri bir şey olmazdı yəqin...**

**Bakısız Azərbaycan bir heçliyi, Avrasiyanı saran Türk Dünyası isə qanadsız, nəhəng bir quşu xatırladardı.**

**Turk Dünyasının azman oğulları da bu məntiqlə Qız Qalamızı intihardan... «petrol qoxan gülümüz»ü isə vaxtilə «itimizlə bir yalaqda yuyundum içən qarı düşmən»dən qurtardı. Ancaq necə? Bunun üçünsə rəsmi tarixə və şahid materiallarına nəzər salaq...**

Bakının Türk-Azərbaycan qüvvələri tərəfindən erməni-bolşevik (daha sonra, bunların qabıqdəyişmə nəticəsində törəməsi olan Sentrokaspi) qüvvələrindən böyük məhrumiyyətlər hesabına geri alınmasından bəhs edərkən, öncə o dövrkü Bakıya yönəlik siyasi gəlişmələrdən və burada yerləşdirilmiş hərbi heyətlərin potensialından bəhs etmək vacibdir.

Qafqazda azəri, gürcü və ermənilərin öz etibarlı nümayəndələri vasitəsilə oluşdurduqları qanuni hakimiyyət-mərkəzi Tiflisdə yerləşən Seym (Məclis) hakimiyyəti, Zaqafqaziya Konfederasiyası idisə, Lenin bu hakimiyyəti devirmək və Qafqazı yenidən Rusiyanın tabeçiliyinə qatmaq məqsədi ilə Şaumyanı Rusiya Federasiyası Xalq Komissarları Sovetinin 16 dekabr 1917- ci il tarixli qərarı ilə Qafqaza fövqəladə komissar göndərmişdi. Eyni məqsədlə də S. Şaumyanı bir qrup erməni-bolşevik tərəfindən 1917- ci ilin noyabrından etibarən Bakıda qanunsuz olaraq elan edilmiş Bakı Soveti deyilən qurumda sədr seçmişdilər. Və bu üstqurumun ictimai bazasının çox zəif olduğunu görən Şaumyan məkrli planlarını həyata keçirmək üçün hərbi birləşmələrə söykənmə yolunu üstün tutdu. O, I Dünya Müharibəsindən istifadə edərək, Qafqazda böyük erməni dövləti yaratmaq istəyən digər erməni ideoloqları ilə səyləri birləşdirib, Bakıda hələlik bolşevizm maskası altında mövcud olacaq bir erməni (və ya erməni-bolşevik) dövləti qurmağı qərara aldı. Bu məqsədlə də 1917-ci il Oktyabr Devrimindən sonra çar Rusiyasının İran və Türkiyə sınırından tərxis olunmuş erməni və rus hərbçiləri öz silahları ilə birgə Bakıya cəlb edilirdi. Təkcə bir fakta diqqət yetirmək kifayətdir ki, *I Dünya Müharibəsi zamanı çar ordusunun tərkibində Qafqaz bölgəsində 250 min erməni xidmət edirdi. Ermənilər I Dünya Müharibəsinin gedişindən yararlanaraq dövlət qurmaq üçün bütün siyasi, maliyyə və hərbi potensiallarını səfərbər etmişdilər və bilərəkdən onların bir qismi Rusiya, bir qismi Antanta, bir qismi isə Denikin tərəfində vuruşurdu.* Və qəribə burasındadır ki, bir-birinə qarşı vuruşan Antanta, Rusiya və Denikin də «erməni məsələsi»nin həllini dəstəkləyirdilər. Ermənilərin üç mövqedən gerçəkləşən bu cür fədakarlıqları 1919-cu ildəki beynəlxalq Paris Sülh Konfransında onlar üçün karlı siyasi mənfəətə çevrilmişdi.



1918-ci il Bakısındakı ermənilərin hərbi potensialına gəldikdə isə, təsəvvür üçün qeyd edək ki, onların istifadəsində nəinki uzaqvuran toplar, zirehli hərbi qatar, hətta hərbi gəmilər və bombardmançı təyyarələr də var idi! Və Bakının mühasirəsi zamanı bu bombardmançı təyyarələr havaya qalxaraq, Qafqaz İslam Ordusunun səngərlərini bombardman edirdi. Heç təsadüfi deyildi ki, Bakının mühasirəsi zamanı 5 avqust tarixindəki birinci uğursuz cəhddən sonra Nuru Paşanın əlavə hərbi yardım haqda Osmanlı hökumətinə göndərdiyi teleqramda ehtiyac siyahısına «bir dəstə təyyarə» də daxil idi.

Düşmən qüvvələrinin başqa bir dəstəyi isə general Denstervilin başçılığı ilə Bakıya yeridilmiş ingilis qüvvələri idi. Üstəlik Almaniya dövləti də erməni-bolşevik (Sentrokaspi) qüvvələrinə yardımlarda bulunurdu. Belə ki, öncəki qeydlərimizdə də bəhs etdiyimiz kimi, 3 mart 1918-ci il tarixli Brest-Litovsk anlaşmasından sonra, daha dəqiq desək, 27 avqust 1918-ci ildə Leninin gizli təşəbbüsü ilə Almaniya və Rusiya arasında razılaşmalara gizli bir bənd əlavə olunmuşdu. Bu da Rusiyanın Bakını təkrar ələ keçirəcəyi halda Almaniyanın etiraz etməyəcəyi müqabilində Bakı neftindən karlı pay (gəlirdən 25%) alacağı haqqındaydı. Türklərin Bakıya gəlməsini istəməyən gürcü yetkililər də Almaniyaya müraciət edərək Türk hərbi birləşmələrinin Batumdan Gürcüstan ərazisi (Batum-Tiflis dəmiryol xətti) ilə Azərbaycana tərəf hərəkət etməsinə imkan verməməyi xahiş etmişdilər. Hətta almanların məhdud hərbi kontingenti başda general fon Kress olmaqla, Tiflisdə qərar tutmuş, vəziyyətə nəzarət edirdi. Almaniyanın Bakı üzərindəki marağını öz müttəfiqi Osmanlı ilə deyil, vuruşduğu Rusiya vasitəsi ilə həyata keçirmək niyyəti Türkiyəni təkləmiş, Türk və Azərbaycan siyasətçilərini sarsıtmışdı. (Doğrudur, sonradan almanlar bu səhvlərini etiraf etmişdilər...)

O zamankı Bakının durumunu təsvir etməyə çalışarkən, onu da unutmaq olmaz ki, ermənilər bolşevizm maskası altında Bakıda, Azərbaycanın başqa bölgələrində soyqırımı törətməzdən və öz hakimiyyət dairələrini genişləndirməzdən öncə Bakıda A. Mikoyanın redaktorluğu ilə çıxan «İzvestiya», A. Əmiryanın redaktorluğu ilə nəşr olunan «Bakinskiy raboçiy» qəzetləri vasitəsilə, bundan əlavə, Avropa qəzetlərinə ötürdükləri dezinformasiya xarakterli məlumatlarla belə bir təbliğata nail olmuşdular ki, guya Bakıda və eləcə də Qafqazda xristianların kütləvi qırğını planlaşdırılır.

Cənub qonşumuz İran da Azərbaycan məsələsində gizli şəkildə erməniləri dəstəkləyirdi (kimlərsə bəlkə bu dəstəyi "zorən siyasət" də saya bilər). İranın mövqeyindən, I Dünya Müharibəsi gedişində rusların İranın quzeyinə qoşun yeritməsindən, ingilislərin timsalında Birləşmiş Qüvvələrin isə İranın güneyini tutmasından və nəhayət, öz gizli potensiallarından sui-istifadə edən daşnaklar 1918-ci ilin martında Cənubi Azərbaycan ərazisindəki Urmu (Urmiya), Xoy, Səlmasda da əliyalın azəri türklərini kütləvi sürətdə qırmışdılar. İranın cənub hissəsində mövqe tutmuş ingilis, fransız qüvvələri də rusların dəstəyi ilə bu qırğınları törədən ermənilərə nəinki dayaq durur, hətta hərbi və maddi yardım da göstərirdilər.

Yalnız Nuru paşanın öz zabit heyəti ilə Cənubi Azərbaycandan keçərək, Naxçıvana doğru hərəkət etməsi zamanı bu qırğınlara ara verildi və erməniləri himayə edən Antanta hərbçiləri də İranın cənub-qərbinə doğru çəkildilər.

Onu da xatırladaq ki, 1918-ci ilin aprelində guya barışıq məqsədi ilə A.Caparidzenin başçılığı ilə Bakıdakı «Astoriya» mehmanxanasında çağırılmış dırnağarası sülh konfransının da yeganə məqsədi Bakı Sovetinin hakimiyyətini və Bakıda müsəlmanların məğlubiyyətini legitimləşdirmək idi. Həmin konfransda İran konsulu da məmnuniyyətlə bu plana dəstək verirdi. 15 sentyabrda ermənilərin məğlubiyyəti zamanı erməni elçisini öz maşınına mindirib Nuru paşanın hüzuruna gətirən də məhz İranın Bakıdakı konsulu Həbibulla xan idi. Hətta o, Nuru paşaya bildirirdi ki, məğlub tərəfin barış üçün müəyyən şərtləri də var. Nuru paşa isə ermənilərin bu qədər qırğından sonra, azğıncasına hələ bir şərt də qoymaq niyyətini eşitcək qəzəblənib onları qeyd-şərtsiz təslimə məcbur etmişdi.

Azərbaycanın və eləcə də Bakının 1918-20-ci illərdə düşdüyü ağır siyasi-hərbi vəziyyətə dair onu da əlavə edək ki, o vaxtkı Ararat Respublikası beynəlxalq rəyi çaşdıran siyasət yeridərək, bir tərəfdən guya Azərbaycanla normal qonşuluq prinsiplərini tanıyır, digər tərəfdən Andronik və başqalarının əli ilə Azərbaycan torpaqlarını zəbt etməklə dövlətçiliyimizi Qafqazda heçə endirmək siyasəti yürüdürdü. Üstəlik, Ararat Respublikası həm də Türkiyə ilə dostluq-əməkdaşlıq (həm də hərbi) haqqında saziş bağlamış, Osmanlı Sultanına, Qafqazdakı erməni dövlətini tanıdığı üçün təşəkkür məktubu göndərmişdi. Bu qarışıq situasiyada daşnaklar Azərbaycanı Qafqaz xəritəsindən bütünlüklə silmək məqsədilə hətta Qarabağ və Qutqaşında erməni toplumunu, üstəlik Gəncədə də erməni məhəlləsini təpədən-dırnağacan silahlandırmışdılar. Türk Ordusunun, dünya dövlətlərinin narazılığına baxmayaraq, Azərbaycanın suverenliyini bərpa etmək üçün Qafqaza yeridiləcəyi haqda ehtimalların gücləndiyi bir vaxtda ermənilər daha qəti hərəkət edərək (bax: Leninin Şaumyana teleqramından sitat: «Mı v vostorqe v vaşey tvyordo-reşitelnoy politike») Göyçayı, Ağdaşı, daha sonra, Yevlaxdakı Kürüstü körpünü ələ keçirməyə tələsirdilər. Türk əsgəri heyətinin hələ gəlməməsi və Azərbaycandakı yerli hərbi kontingentin sayca və hərbi texnikaca müqayisəolunmaz dərəcədə azlığı erməniləri daha qətiyyətli olmağa və tələsməyə meyllənditirdi. Erməni siyasətçilərinin planlarına görə, Andronik də Zəngəzur-Qarabağ istiqamətindən Gəncəyə tərəf yürüməli, sonra, Qutqaşın və Gəncədəki silahlı ermənilər ayağa qalxmalı, beləliklə Gəncə də süqut etməli idi. Yevlaxın, o sıradan oradakı Kürüstü körpünün ələ keçirilməsi üçün ermənilər Kürdəmir- Yevlax dəmiryol xəttinə zirehli qatar buraxmaq istəyir və onun yardımına çox güvənirdilər. Buna görə də Nuru paşanın ilk əmri Gəncədəki erməni məhəlləsinin tərksilah edilməsi, şəhərdə sabitliyin yaradılması olsa da, növbəti əmri Kürdəmir-Yevlax dəmir yolunun dağıdılması ilə bağlı idi. O, Türk hərbi hissələrinin ancaq bir qisminin gəlib çatdığı bir halda düşməni zaman baxımından önləmək, ləngitmək taktikası irəli sürürdü.

***

Avqustun 5-də Qurd Qapısı yönündən Bakıya girən dar yolla Türk-Azərbaycan qüvvələri erməni-rus-ingilis qüvvələrini sıxışdıraraq mühasirəni yarıb, üçbucaq şəklində irəliləsə də içəridəkilərin silah-sursatının tükənməzliyi ucbatından uzun sürən atışmalardan sonra bizim iri silahların mərmiləri tükənərək, canlı qüvvəmiz böyük itkilər verib geri çəkilmişdi...

Nuru paşa Bakı üzərinə həlledici hücumu təşkil etmək üçün öncə şimal tərəfdə mövqeləri möhkəmləndirməyi vacib sayaraq, Yanardağ və Binəqədinin alınması, şəhər içində kəşfiyyat işlərinin gücləndirilməsi və s. haqda əmr verdi. Daha sonra Ənvər paşaya əlavə əsgəri və hərbi sursat yardımı üçün teleqram göndərdi. Teleqramda 5000 əsgər gücü, 6 topçu bölüyü, 1 dəstə təyyarə, 20 ədəd avtomobil və s. istənilirdi.



O zaman Bakıda çıxan daşnak qəzetləri isə dünya dövlətlərinə arxalanaraq, «dünya qanunları əsasında» belə bir azğın mülahizə irəli sürürdülər: **«Biz Bakını I Dünya Müharibəsinin gedişində aldığımız üçün o, bizə düşür»...**

Beləliklə, Bakının qaytarılması üçün əlavə hərbi qüvvələrin yetişməsini gözləməkdən başqa çarə qalmamışdı. Bununçün Rumın cəbhəsindən Süleyman İzzət bəyin komandanlığı altında olan bölüklərdən ibarət növbəti eşelon (qədəmə, qoşun qatarı) Qars-Gümrü-Qarakilsə-Qazax üzərindən Gəncə bölgəsinə yetişdi...



**_Molla Süleyman Yolçu_**

Arxiv və şahid materiallarından əldə etdiyimiz bilgilərə görə, Türk Ordusunun eşelonlarından biri (Cəlaloğlu-Sarvan (Borçalı)-Qazax yolu ilə hərəkət edən qismi) isə ilkin bölüklərin komandanlığında Tasun əfəndi (*bu ad şahid yaddaşından götürülmüşdür –X.İ.*) olmaqla indiki Ermənistan-Gürcüstan sərhəddinə təxminən 3 kilometr qalmış Molleyiv (Molla Eyublu) kəndi yaxınlığındakı Koroğlu Qalası adlanan dağlıq ərazisində dayanmış, öz kəşfiyyatçılarını bu bölgənin ağsaqqalı, Qori Seminariyasının məzunu, Osmanlı dövlətinə yaxınlığı ilə tanınan, müsavatçı Molla Süleyman Yolçunun o zamanlar yaşadığı kəndə-3-4 km irəlidə yerləşən Başkeçidin Saatlı kəndinə göndərmişdi...

Tasun əfəndi hissələrin (rəsmi qaynaqlardan bəlli olduğu qədər, çox güman ki, 5-ci firqəyə, Cəmil Cahid bəyin komandanlığındakı 9-cu piyada alayına aid qüvvələr–X.İ.) bu təhlükəli bölgədən keçəcəyi zaman hansı əngəllərlə üzləşə biləcəyi haqda məsləhətləşdiyi zaman Molla Süleyman 6-7 kilometr irəlidə, yunan kəndləri Qora (Mədən) və Sakir (Qaşqatala) yaxınlığında çox təhlükəli uçurum üzərindəki bir dar taxta körpüdə və onun ətrafındakı talada Türk Ordusuna duzaq hazırlandığı haqda onda xristian əhalidən alınmış bəzi məlumatlar olduğunu bildirir...

Nəhayət, Molla Süleymanın silahlı dəstəsinin yardımı ilə düşmənin arxasına keçərək, gözətçilər əsir götürülür... sirlər öyrənildikdən sonra düşmən özü mühasirəyə alınaraq güllələbaran edilir, sağ qalanları isə əli boynunda silahları təhvil verməyə məcbur olurlar...

Sonucda Taxta Körpü və onun civarındakı minalar da çözülərək Ordunun yolu açılır...

**[Haşiyə:** *Sonralar bu hadisəni L.Beriya İ.Stalinə məruzə edir. Və Müsavat Partiyasının üzvü olan Molla Süleymanı tutuqlayaraq Orta Asiyaya sürgünə-həbsxanaya göndərirlər. Bir neçə ildən sonra oradan da guya "öz xahişi ilə" İrəvana köçürərək bu qəhrəman xarakterli, fiziki cəhətdən də çox sağlam olan əfsanəvi şəxsiyyəti ermənilərin əli ilə indiyədək də sirr qalan hansı bir məxfi yollasa həbsxanada aradan götürürlər. Məzarı İrəvan yaxınlığındakı Toxmaqgöl qəbiristanlığındadır. Məzarı naməlumdur-nömrələnmiş, hətta öz övladlarına belə tanıtmaq yasaqlanmışdı... Vəfatından xəbərsiz olaraq onun görüşünə gedən oğlu Mustafa müəllimin dediyinə görə, Molla Süleymanın yaxın dostu və dustaq yoldaşı çox həyəcanla, ağlayaraq xəbərdarlıq edib ki, "təcili buralardan uzaqlaş və heç kəsdən heç nə soruşma, yoxsa sənin də başını bəlaya qatarlar". Həmin şəxs haqlıydı: çünki Mustafa müəllimin böyük qardaşı İsmayıl Molla Süleyman oğlunu da atasından az sonra həbs edərək Uzaq Şərqə-Maqadana, sürgünə-qalaya (qazamata) göndərmişdilər...*]

Türk Ordusunun bu eşelonu (qədəməsi) təlðədən xilas olduqdan və son olaraq, Süleyman İzzət bəyin komandanlığındakı firqə Bakı ətrafına yetişdikdən sonra qüvvələr nisbəti nəzərə alınıb əməliyyat planı cızıldı. Nuru paşadan aldığı əmrlər əsasında şəhərə hücumun təşkili Mürsəl paşaya tapşırıldı. Şəhərin cənub-qərb tərəfindən hərəkət edən qüvvələrə Suriya hərbində ad çıxarmış Cəmil Cahid bəy, şimal səmtində yerləşmiş qüvvələrə isə cinah döyüşlərindəki uğurları ilə məşhur *(ünlü)* olan Süleyman İzzət bəy rəhbərlik edirdi. Düşmən səngərlərinin üç müdafiə səddini süngü döyüşləri ilə gecə qaranlığında susduraraq, Qurd Qapısı yüksəkliyini səssizcə, bir güllə atılmadan ələ keçirən Qafqaz İslam Ordusu düşməni çaşdıraraq Biləcəri istiqamətinə cəmləmək üçün açıq döyüşə Qurd Qapısından yox, şimaldan başladı. Düşmən güclü müqavimət göstərir, hətta şimal cəbhəsindəki qüvvələrimizi sıxışdırırdı. Ora bir qədər kömək göndərən Nuru paşa ingilislərin, ermənilərin və rusların ağla sığışdıra bilmədikləri, Türk Ordusunun 40 gün əvvəl uğursuzluğa düçar olduğu dar Qurd Qapısı keçidindən inadlı mühasirəni yararaq, əsas qüvvələri şəhərə yeritdi...

Ümumiyyətlə, Bakı savaşı 29 yaşlı, paşa rütbəsini yenicə almış Nuru bəyin dahi hərbi strateq və taktika bilicisi olduğunu sübuta yetirdi. Silah-sursatca qat-qat üstün olan qüvvələrə qalib gəlmək üçün Nuru paşa düşmənin silah anbarlarını nişan almağı, küçə döyüşlərindən az-az istifadə etməyi buyurmuşdu.

Sentyabrın 13-ü gecə saat 24 radələrində (Rüştünün xatirələrində: *14-nə keçən gecə saat 1-də*) başlanan döyüş nəticəsində ayın 15-i səhər tezdən Bakı alınmış... şəhərdəki erməni-xristian qüvvələri qaçaraq, Bakı ətrafına dağılışmışdılar... Onlara hərbi dəstək verən Denstervilin başçılığı altında olan ingilis birləşmələri də Qurd Qapısındakı səngərlərin səssiz keçilmə xəbərini eşidincə şoka düşərək, öz hərbi gəmiləri ilə Xəzərlə cənuba qaçmışdılar...

İran səfirinin maşınında hansısa şərtlərlə təslimə imza atmağa gələn erməni-Sentrokaspi nümayəndəsi ilə söhbətdən çox keçməmişdi ki, ingilis elçisi general Tomsonun Türk qoşunlarının Bakıdan dərhal çıxarılması haqqında ultimatumunu Nuru paşaya çatdırdı.

Əks halda Tomson özü şəhərə hücum edəcəyini bildirirdi. (Bu ultimatumda bir qəribə məqam da vardı: erməni-Sentrokaspi hərbi birləşmələrinin qanuni ordu hissələri kimi Bakıda hökumət ordusunun tərkibinə alınması tələb olunurdu). Nuru paşa bu ultimatumu rədd edərək, dəniz istiqamətindən ingilislərin ehtimal olunan hücumunun qarşısını almaq üçün general Ə. Şıxlinskiyə dərhal istehkamları gücləndirmək və topları dənizə yönəltmək haqqında əmr verdi...

Nuru paşanın bu qətiyyətindən sonra general Tomson qərarını dəyişmiş ...və onun elçiləri ilə Azərbaycan hökuməti arasında gedən uzun sürən diplomatik danışıqlar nəticəsində Tomson Azərbaycan hökumətini tanımalı olmuşdu...




Məmmədəmin Rəsulzadə


Əlimərdan bəyTopçubaşov


Fətəli xan Xoyski


Nəsib bəy Yusufbəyli


Səmədağa Mehmandarov


Xəlil bəy Xasməmmədov

1918-ci il oktyabrın 30-da Böyük Britaniya və Türkiyə nümayəndələri arasında Yunanıstanın Mudros liman şəhərində imzalanan barışıq aktına əsasən Türkiyə öz qoşunlarını İran, Kilikiya, Zaqafqaziya və Dağıstandan çıxarmalı oldu.

Tomsonun ardıcıl ultimatumlarına baxmayaraq, Nuru paşa Türk Ordusunun Bakıdan çəkilməsini xeyli gecikdirdi..

Nəticə etibarı ilə onu deyə bilərik ki, 1918-ci ildəki Azərbaycan, Bakı savaşı türk-azəri vətənpərvərliyi qarşısında dünyanın Antanta, Rusiya, Almaniya və s. kimi supergüclərinin də aciz olduğunu təsdiq etdi.

Zənnimizcə, bu savaşın son günü-15 Sentyabr (Eylül)-Türk-Azərbaycan əbədi dostluğunun qutlama günü kimi təqvimlərdə qeyd edilməli, vətənsevərlik hissinin yüksəklərə qaldırılmasında əvəzsiz bir örnək tarixi kimi daim düşüncələrə sunulmalıdır.

(**Bu mövzu ilə bağlı daha ətraflı, bax:** bu kitabın *"Qafqaz İslam Ordusunun hərbi əməliyyatları"* fəsli).


**Ədəbiyyat:**

1. Bu kitabın *"Qafqaz İslam Ordusunun hərbi əməliyyatları"* fəslinin ədəbiyyatı.
2. Bu kitabın *"Nuru paşanın Qafqaza göndərilməsi"* bölümünün ədəbiyyatı.
3. İsrafil Məmmədov. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
4. Bu kitabın *"Güney Azərbaycanlıların soyqırımı"* bölümünün ədəbiyyatı.
5. AXCE, 2 c.-də, Bakı, 2004-2005.


## CAVAD QƏZASINDA AZƏRBAYCANLILARIN SOYQIRIMI

*(Salyan və Neftçala hadisələri )*

Erməni-bolşevik qüvvələri Cavad qəzasını (Salyan bölgəsini) və Kürün cənub axarlarını da ələ keçirərək işğal zonasını genişləndirmək, Kür üzərindən hərbi gəmilər vasitəsilə Yevlağadək hərəkət edərək oradakı Kürüstu körpünü partlatmaq, Qafqaz İslam Ordusu qüvvələrinin əlaqəsini kəsmək, habelə Cavad qəzasının bol taxıl ehtiyatına yiyələnərək ordusuna güvənli arxa cəbhələrindən birini əldə etmək niyyətilə bu bölgəyə doğru hərəkətə keçdi.

Hələ 1918-ci il aprelin 21-də Salyan şəhərində Sovet hakimiyyəti elan edən Bakı Soveti hökuməti buraya Məşədi Əzizbəyovun başçılığı altında 240 nəfərlik hərbi dəstə, aprelin 23-də isə Korqanovun göstərişi ilə Lənkərandan 200 nəfər döyüşçü və bir savaş gəmisi göndərib, beləliklə, Rəşid Axundovun təşkilatçılığı ilə Salyanda Qızıl (*Qırmızı*-X.İ.) Qvardiya yaratmışdı...

Yazıçı-publisist Azər Turan doğulduğu Salyan bölgəsində şahid materiallarını qeydə alıb, bu bölgə müsəlmanlarının soyqırımı haqda bilgiləri oxucularla bölüşmüşdür. Onun həmsöhbətlərindən biri, rəhmətlik Hidayət kişi 1918-ci ilin yayında Cavad qəzasının Qaralı kəndindəki hadisələrə toxunaraq belə deyir: «Ermənilər bura paraxodla gəlmişdilər. O vaxt qoçu Əsgərdən başqa heç kəsdə silah yox idi. Əsgərin tüfəngi də ingilis aynalısı idi. Kəndin yuxarı tərəfindən başıpapaqlıları xırman yerinə topladılar. Heç kəs Əsgəri satmadı. 26 nəfəri xırman yerindəcə güllələdilər... Əsgər gətirib aynalısını təhvil verəndə ... Əsgərin bədəninə 40-50 güllə vurdular. » **(1 :** s.7-8 **).**



Müəllifin araşdırmalarına görə, Salyan-Neftçala yörəsində soydaşlarımızın kütləvi qırğınları „Qızıl" Qvardiyanın 3-cü, 5-ci taborları tərəfindən gerçəkləşdirilmişdir. Xatırladaq ki, Salyandakı 3-cü taborun başçısı Ter-Avakimov, Neftçaladakı 5-ci taborun (Mehman Süleymanova görə isə, bu taborun 1-ci bölüyünün-X.İ.) komandanı isə Danilyan idi. Soyadlarından da göründüyü kimi bu komandanların hər iki erməni millətinin bolşevik-Qızıl əsgər maskası ilə Cavad qəzasında „ zühur " edən nümayəndələri idi **(1:** s.8**).**

Erməni-bolşevik bandaları Cavad qəzasının Uzunbabalı kəndinin əhalisini son nəfərinədək güllələbaran etmiş, kəndi isə yandırıb xarabazara çevirmiş, Tatarməhlədə (Bojiy Promıseldə) qırğınlar törətmişdilər.

Müəllifin qeydlərinə görə, erməni-rus hərbi bölükləri Kür çayına daxil olaraq Bankə-Seyidlər-Uzunbabalı-Tatarməhlə-Xıllı-Abasallı-Qaralı-Qarabucaq-Surra-Ərəbbəbirxanlı-Cəngən və Qaraqaşlıya qədər hərəkət edərək bu bölgənin silahsız azərbaycanlılarını qılıncdan keçirmiş, güllələbaran etmişlər.

Azər Turan Yavuz Bülənt Bakilərin „ Üsküpdən Kosovaya " kitabındakı olaya, ərzurumlu Dadaşın söylədiklərinə toxunaraq-«Görənlərin anlatdığına görə came qapısının altından küçəyə insan yağı axmış. Məhəlləni elə bərbad bir yanıq qoxusu tutdu ki...»-bənzər hadisəni Qarakənd insan küllüyündə gördüyünü bildirir **(1:** s.10-12**).**

Müəllifin başqa bir şahid-həmsöhbəti, 1918-ci ildə Qaraqaşlıda erməni vəhşiliyi sonucunda sağ əli biləyindən kəsili Sürəyya Abbasova bildirir ki, Babazənni dağında qaynı Ağakişini, 16 qadın və 2 uşağı ermənilər qılıncdan keçirmiş, Tanrının lütfü sayəsində o, 3 gündən sonra türklərin ölüləri yığıb dəfn etməyə aparması zamanı ağır yaralı halda xilas olmuşdur.

*(Sürəyya xanımın dediklərindən bir məqamı da xatırlatmaq yerinə düşür: eyni kəndin kişilərindən biri ermənilərə bələdçilik etdiyi halda, Kürə su götürməyə gedən gəlinlərdən biri o tərəflərdə vəziyyətə gizlicə nəzarət edən erməninin başını oraqla kəsmişdi !)*

Ermənilər 1918-ci ilin iyulunda Qaraqaşlı yaxınlığındakı Ərəbbəbirxanlı kəndinin əhalisini tikə-tikə doğramış, sonralar onların dəfn olunduğu yer „ əldə ölənlərin qəbirləri " adı ilə xalqın yaddaşına köçmüşdür **(1:** s.14-15**)...**

Bölgədə azğınlıq törədən erməni-sovet birləşmələrinin hərbi potensialı az deyildi : 2 mindən çox piyada, 12 pulemyot və 6 ədəd top. Kür çayında üzən 2 hərbi və bir nəqliyyat gəmisi də düşmənə aid idi. Lakin Muğanın komissarı 200-ü rus, 300-ü iranlı (Türk qaynaqlarında : əcəm-X.İ.), qalanları ermənilərdən ibarət bu 2000-lik qoşunla kifayətlənməyib, Cavad qəzasındakı malakanların və b. dini əqidəyə sahib olan rusların səfərbərliyi hesabına bu rəqəmi 6000-ə qədər artırmağı nəzərdə tutur və Bakıdan da əlavə silah-sursat yardımı istəyirdi **(2:** s. 212**).**

Bu bölgədəki azərbaycanlıların soyqırımını dayandırmaq və erməni-bölşevik qüvvələrindən Cavad qəzasını təmizləyərək, onların gələcək təhlükəli planlarını önləmək üçün Qafqaz İslam Ordusunun Salyan-Neftçala nahiyəsinə hərbi müdaxiləsi qaçılmaz idi.

1918-ci il 27-28 iyun aralığında Surra və Qarabucaq kəndləri arasında şiddətli döyüşlər getdi. Qafqaz İslam Ordusu bu savaşlara komandanlıq edən keçmiş Çar ordusunun zabiti albay Nazim Ramazanovun əmrinə 10-cu Qafqaz piyada alayının 28-ci taborundan bir bölük, 30-cu taborundan bir pulemyot taqımı və iki rus topu, bundan başqa 140 nəfərlik azərbaycanlı süvari bölüyü verilmişdi **(2:** s.212**).**

Təbii ki, qüvvələr nisbəti çox qeyri-bərabər idi, üstəlik Kür çayındakı düşmən hərbi gəmiləri türk-Azərbaycan qüvvələrini aramsız atəşə tuturdu. Sonucda qüvvələrimiz geri çəkilərək Ərəbqardaşbəyli kəndi yaxınlığında mövqe tutub, erməni-bolşevik dəstəsinin qarşısını kəsməyə çalışsa da, bu cəhd də uğursuzluqla nəticələndi **( 3 ).**

Surra-Qarabucaq arasındakı uğursuzluqdan sonra Cavad dəstəsinin komandanı bir piyada bölüyü, bir pulemyot taqımı və bir dağ topundan ibarət heyəti də Salyan ətrafında döyüşən qüvvələrimizə yardım üçün göndərdi. İyulun 2-də erməni-bolşevik qüvvələri türk-Azərbaycan bölüklərinin saldırmasına davam gətirməyərək, 600 nəfərədək canlı qüvvə də itki verib, Bakı istiqamətinə doğru çəkilməyə başladı **(4: s.565; 2: s.213).**

Əlbəttə, istər erməni zülmü, istərsə də erməni-bolşeviklərə qarşı türk-Azərbaycan qüvvələrinin apardığı hərbi əməliyyatlar bu gün də Salyan bölgəsi əhalisinin dilindən düşmür: Azər Turan bu xüsusda Aşıq Qəhrəmanı və onun Yavuz Büləntin „Üsküpdən Kosovaya" kitabında dərc olunmuş şerini də xatırladır.

Müəllif şahid yaddaşına və rəsmi qaynaqlara dayanaraq:

- « Türk ordusunun Qaraqaşlıdakı 40 nəfərlik bölməsinə türk zabiti Ramazan bəy, Bankədə döyüşən dəstəyə isə keçmiş Çar ordusunun zabiti mayor Nazim Ramazanov başçılıq edirdi... Mehman Süleymanlının verdiyi məlumata görə, Ramazan bəyin dəstəsində 2 Maksim pulemyotu, 2 top vardı... »-deyə o bölgədə xalq arasında „ Ramazan paşa " adlı xilaskar komandan obrazının yarandığını da əlavə edir.

Xatırladaq ki, Qafqaz İslam Ordusu 5-ci Qafqaz firqəsi ərkani-hərb rəisi Rüşdü bəyin „ Böyük hərbdə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi " adlı xatirələrində, qovulan düşməndən 4 makinalı tüfəng, 63 piyada tüfəngi, 100 sandıq piyada və top mərmisi, 7 kiçik vapur (*bərə* -X.İ.), bir miqdar benzin və s.- in götürüldüyü barədə Ramazan bəyin komandanlığa verdiyi məlumat da qeyd olunur. Həmin məlumatda Bankəni tərk edənə qədər 11 şəhid (9 nəfəri türk) verildiyi, 13 yaralı olduğu göstərilir və 28-ci taborun 3-cü bölük komandiri, birinci mülazim Bəsri və 26-cı taborun 1-ci bölük komandan vəkili Həmdi əfəndilər ibrazi-fədakari eylədiklərindən təltif olunmaları istənildiyi bildirilir **(1: s.18-20).**

Azər Turan vaxtilə şəhid türk əsgərlərinin dəfnində iştirak etmiş rəhmətlik Müseyib Rzayevin dilindən erməni-bolşeviklərin bu bölgəyə gəldiyi „Demosfen" gəmisini xatırlayır və bildirir ki, bu gəmiyə Bankədə bir hərbi təyyarə də enibmiş.

Şahidlərin bildirdiyinə görə, türklər erməni gəmilərini batıraraq, bu batmış gəmilərin hesabına Kürün mənsəbini ermənilərin üzünə bağlamış, Xəzər dənizi üzərindən Kürüstü Yevlax körpüsünə tərəf erməni-bolşevik qüvvələrinin hərəkatını dayandırmışdı **(1: s.23).**

Müəllif Cavad qəzası hadisələrində Xıllı kəndində fəaliyyət göstərən müsavatçıların müstəsna xidmətlərini də qeyd edir.

Xatırladaq ki, 1918-ci il iyulun sonlarında Bankədən çəkilən türklər hər ehtimala qarşı, hərbi bölüklərdən birini hələlik bu bölgədə saxlamağı uyğun görmüşdülər **(1: s.30).**

Bakı bölgəsində, ümumilikdə Qafqazda, cərəyan edən hadisələr böyük dövlətlərin, o sıradan Almaniyanın da diqqətini cəlb edirdi.

1918-ci il iyunun 22-də saat 10-da Bakının Salyan qışlalarına icazəsiz şəkildə enən, sonra heyəti tutulan alman təyyarəsinin fəaliyyəti də kəşfiyyat xarakterli idi. Tiflisdəki alman hərbi missiyasına aid bu təyyarənin Bakı civarında kəşfiyyat məqsədi burada saxlanılan 1000 nəfər alman əsirini silahlandırmaqla Bakının ələ keçirmə imkanlarını araşdırmaqmış **(5 ; 6: s.75).**

Əvvəlki bölümlərdə də bildirdiyimiz kimi, Brest-Litovsk barışığına gizli əlavə üçün Lenin sonralar Almaniya ilə separat danışıqlara başlamışdı.

1918-ci il iyulun əvvəllərindən V.Leninin İ.Stalinə göndərdiyi teleqramda bu xüsusda belə deyilirdi: « Bakı ilə bağlı olaraq ən mühümü odur ki, siz Şaumyanla daimi əlaqədə olun və Şaumyan Berlində səfir İoffeyə neftin bir hissəsini almanlara



verəcəyimiz təqdirdə türklərin Bakıya hücumunu saxlamağa razı olmaları haqqında edilmiş təklifdən xəbəri olsun. Əlbəttə ki, biz razılaşacağıq » **(7: s. 545).**

İ.Stalin də öz növbəsində müvafiq teleqramla S.Şaumyanı məsələdən agah etdi:

1. „Bizim Zaqafqaziya məsələsi ilə bağlı ümumi siyasətimiz belədir ki, gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili işi kimi tanınmasına Almaniyanı məcbur edək. Onların həllində almanlar iştirak etməməlidirlər. Məhz buna görə də biz Gürcüstanın Almaniyanın diqtəsi ilə əldə edilmiş müstəqilliyini tanımırıq.

2. Ola bilsin ki, biz Gürcüstan məsələsində almanlara güzəştə getməli olduq. Ancaq biz güzəştə yalnız Almaniyanın Ermənistanın və Azərbaycanın işlərinə qarışmayacağına razılaşacaqları təqdirdə gedəcəyik.

3. Almanlar Bakının bizdə qalmasına razılaşaraq xahiş edirlər ki, əvəzində onlara bir qədər neft ayıraq. Biz bu „ xahişi " əlbəttə ki, yerinə yetirə bilərik.

4. Sizin uğurlarınız bizi sevindirir. Ancaq biz istərdik ki, siz almanlarla münasibətlərin mürəkkəbləşməsinə yol verməmək üçün Yelizavetpoldan (Gəncədən) o tərəfə keçməyəsiniz, daha doğrusu müstəqilliyi Almaniya tərəfindən tanınmış Gürcüstanın hüdudlarına daxil olmayasınız" **(7: s. 547).**

**Bu teleqramdan göründüyü kimi, İ.Stalin Cənubi Qafqaz, xüsusən də Bakı məsələsində rəhbərliyin mövqeyini ortaya qoymaqla bərabər Şaumyana Gürcüstana-Tiflisə tərəf keçməməyi xatırladaraq, əslində həm də ermənilərin bolşevik maskası ilə Tiflisə də təhdid yarada biləcəyindən ehtiyatlandığını büruzə verir. Şaumyanın siyasətinin astar üzünü yaxşı bilən Stalin Tiflis ətrafında erməni (daşnak) xutorları yaradan Drolarla, Andraniklərlə iş birliyindən ehtiyatlanaraq, ona „ Gürcüstana ayaq basma ! " ismarıcı verirdi, ancaq əlbəttə, səbəb kimi Almaniyanın tələbləri göstərilirdi. Bu da ki fikri çatdırmağın bolşevik üslublarından biri idi.**

Ancaq Gürcüstan məsələsində alman faktoru vardı, Bakı məsələsində olduğu kimi. Almaniya Osmanlı dövlətinə təzyiq edərək türklərin Bakıya girməsini önləmək istəyirdi. Almaniyanın və Rusiyanın bu hiylə və gizli danışıqları qarşılığında Osmanlı rəhbərliyi də manevr etməli oldu.

Ənvər paşa bir yandan Şərq Orduları Qrupu komandanına və onun vasitəsilə Nuru paşaya rəsmi teleqramlarla əmrlər göndərib Bakı üzərinə əməliyyatları dayandırmağı əmr edir edir, digər tərəfdən gizli kanallarla onlara təlimat yollayıb Bakını işğaldan təmizləməyə tələsdirir və əlavə hərbi qüvvə və sursat göndərtdirirdi.

Nəticə isə hamını, xüsusən də dünyanın böyük dövlətlərinin rəhbərliklərini şoka saldı: Qafqaz İslam Ordusu möhtəşəm təhdidləri belə bilərəkdən gözə almayaraq, Bakını qafası və çəkməsi mikrob daşıyıcısı olan erməni-bolşevik ordusundan, onun müttəfiqlərindən təmizlədi **(2: s.213-216).**

**Ədəbiyyat:**


1. Azər Turan. Qafqaz İslam Ordusu Neftçalada – 1918.
2. Mehman Suleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan . Bakı, 1999.
3. Газета «Известия Бакинского Совета», 2 июля 1918 .
4. Birinci dünya harbinde türk harbi Kafkas cebhesi 3-cü Ordu harekatı. c.11, Ankara, 1993.
5. Газета «Бакинский Рабочий», 23 июня 1918.
6. Rüştü. Büyük harpte Bakü yollarında 5. Kafkas piyada fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı, 1934, № 34.
7. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг. Баку, 1957.

I Dünya Savaşının gedişində İranın güneyini Antantaya aid ingilis hərbi birləşmələri, quzeyini isə çar Rusiyası işğal etmişdi.
Xristianların İranı, o cümlədən Güney Azərbaycanı işğal altında saxlamasından sui-istifadə edən İran, Türkiyə, Qafqaz (İrəvan və s.) bölgəsindəki bir qisim erməni silahlıları birləşərək azərbaycanlılar yaşayan Urmiya, Xoy, Səlmas və s. yaşayış məntəqələrində müdhiş qətliam törətmişdilər. Ümumiikdə, o dövrdə İranda ermənilər və başqa xristianlar tərəfindən 130 min nəfər müsəlmanın öldürüldüyü bildirilir **(8: s. 144).**
Ancaq çox təəssüf ki, Quzey Azərbaycanda yayınlanan elmi, tarixi-mətbu nəşrlərdə bu olaylar haqda məlumatlar çox cüzidir; bu barədə əksər alim və ziyalılarımız belə, demək olar, tamamilə bilgisizdirlər.
Ona görə də oxucuları bu xüsusda, əsasən Güney Azərbaycan, ümumilikdə desək, İran qaynaqları ilə məlumatlandıracağıq.
Belə qaynaqlar sırasında, öncə, Əhməd Kəsrəvinin «Azərbaycanın 18 illik tarixi» kitabını və atası o hadisələrin iştirakçısı olan ünlü qələm adamı doktor Cavad Heyətin Tehranda farsca və ərəb əlifbası ilə azərbaycanca nəşr olunan «Varlıq» dərgisindəki məqaləsini göstərmək istərdik...
C. Heyətin də yazdığı kimi, Ə. Kəsrəvinin "Azərbaycanın 18 illik tarixi" kitabında (səh. 710-764) rus və ingilislərin təhrikləri, Amerikan missionerlərinin erməni və assuri bölükləri ilə müzakirələri və Batı Azərbaycanı müsəlmanlardan «təmizləyərək» burada xristianların oluşdurduqları bir dövlətin qurulması yolunda adı çəkilən böyük xristian dövlətlərinin erməni və assurilərə göstərdikləri hərbi və maddi yardımlar haqda ətraflı bilgi verilmişdir...
Həmin kitabın 723-cü səhifəsində müəllif yazır ki, Urmiya xristianlar tərəfindən işğal edildikdən sonra «Petros jandarmanın komandanı və İbrahim xan adlanan qaçaq Qafqaz ermənisi polis idarəsinin başqanı oldu. Bir tərəfdən (şəhəri idarə edən 16 nəfərlik Xristian Məclisi) tüfəng və digər silahları xalqdan (yerli azərbaycanlılardan – X. İ.) alır, digər tərəfdən mister Şetin (misyonerlərin şefi və Amerikan konsulunun yardımçısı) əmriylə, öldürülmüş insanlar evlərdən və soqaqlardan toplanıb gömülürdü. Bu sırada əkmək (çörək – X.İ.) qıtlığı, aclıq və qışın soyuğu durumu daha da pisləşdirirdi. Ruslar tərəfindən yandırılan bazar onarılmadan (təmir (bərpa) edilmədən, düzəldilmədən – X. İ.) yerli müsəlmanların mezbahasına (sallaqxanasına – X. İ. ) çevrilmişdi, xristianlar o çevrədəki müsəlmanları öldürürdülər...» **(8: s.146).**
«Silahları toplamaq bəhanəsilə evlərə girib, bütün dəyərli əşyaları (eynən Quzey Azərbaycandakı kimi – X. İ.), qida maddələrini alır və evlərdəki insanları öldürürdülər, kimsənin can və mal güvənliyi yoxdu, müsəlmanlara qarşı bu biçim davranışlar Osmanlı ordusu gəlincəyə qədər davam etdi» **(8: s.146).**
Doktor Cavad Heyət Ə. Kəsrəvinin yuxarıda adı çəkilən kitabındakı «Simitkonun Marşimonu öldürməsi» bölümünə xüsusi toxunaraq oradan ilginc, bizlər üçün də yeniliklərlə dolu iqtibaslar gətirir:
«Urmiyədə ayaqlanan (yəni ayağa qalxan – X. İ.) xristianlar yabançı dövlətlərin himayəsilə ayrı bir güc oluşdurmaq və ya daha doğrusu İrana qarşı xristian bir dövlət qurmaq çabasındaydılar. Ancaq assurilər və ermənilər olaraq sayları az olduğundan kürdləri də özləriylə bərabər yapmaq istədilər və bu xüsusda ən uyğun adam olaraq Simitkonu (kürdlərin rəisini) seçdilər.
Bu qərar üzərinə assurilərin rəisi və baş keşişi Marşimon silahlı 140 nəfərlə İsmayıl Ağa Simitkonu görməyə getmişdir. Simitkonun etirafına görə Marşimon ona belə demişdir: «Kürdüstan adlanan bu torpaqlar (*Güney Azərbaycanda soydaşlarımızla yanaşı yaşayan kürdləri öz tərəflərinə çəkmək üçün ermənilər və assurilər o məqamda həmin bölgəni kürdlərin qılığına girmək məqsədilə qəsdən «Kürdüstan» adlandırmışlar* – X. İ.) hamımızın vətəni olmuşdur. Fəqət məzhəb ayrılıqları bizi dağıtmış və bu duruma düşürmüşdür. İndi isə bu ölkəni ələ keçirməli və birlikdə yaşamalıyız... Biz ordu səfərbər etdik, ancaq süvari gücümüz yoxdur. Əgər siz də bizimlə bərabər olursanız, Təbrizə qədər hücum edib oranı da alırız». Bu təklif İsmayıl Ağa Simitkoya bir müsəlman olaraq ağır gəlir və Marşimonu adamları ilə birgə öldürtdürür! [(*Buna bənzər hərəkəti Quzeydə (Laçında) Sultan bəy Andronikə və onun əsgərlərinə qarşı yapmışdı. Qoşunu ağır tələfat versə də, Andronik özü isə pusqudan yayına bilmişdi.* –X.İ.) – **(5: s.8-15).**] Marşimonun ölüm xəbəri Urmiyəyə yayılınca xristianlar dini liderlərinin əmriylə iki gün qətliam yapıb, 10 min müsəlmanı və musəvini (*yəhudi* – X. İ.) öldürürlər» **(8: s.145-146).**
«Marşimonla birlikdə Osmanlı torpaqlarından gələn Cilovlar yaklaşıq 12 min ailədən ibarət idi. Bunlara zatən Urmiyə, Salmas, Sulduz və çevrəsində bulunan 20 minə yaxın erməni və assuri ailəsi də ekləndi (*əlavə olundu, əkləndi* – X. İ.). İrəvan, Van və Naxçıvandan qaçıb gələn 5-6 min erməni də onlarla birləşdi. Bunlardan 20 min nəfəri təcrübəli əsgərdi, Rus ordusunun 800 subayı (zabiti – X. İ.) da Rusiyaya dönməyib, 72 fransız subayıyla birlikdə əsgərlərə komandanlıq edirdilər. Savaş təchizatı 25 top və 100 mitralyözdən (pulemyot, makinalı tüfəng – X. İ.) ibarətdi. Rus konsulu Nikitin, Amerikan konsulu Şet və fransız xəstəxanasının baş həkimi Kujol planlama və yönləndirmə görəvlərini yürüdürdülər. Assurilərdə Marşimonun ölümündən sonra Ağa Petros sorumluydu, Məlik Nüşabə də önəmli mövqedə olan assurilərdəndi» **(8: s.145).**
Əhməd Kəsrəvinin "Azərbaycanın 18 illik tarixi" əsərində *( səh. 755 )* yazdığı kimi, beləliklə erməni, assuri, cilov və onların rus, Qərb və amerikalı hamiləri ilə yerli müsəlmanlar arasında savaş sürərkən, birdən-birə Osmanlı ordusu Səlmas tərəfdə görünməyə başlamışdı. Osmanlılar dərhal topları dağın başında yerləşdirib, gözləmədən atəş açmış və bu olaydan ruhlanan Xoy əhalisinin (azərbaycanlılar – X. İ.) də savaşmağa cəsarəti artmışdı. Ermənilər iki tərəfdən atəşə məruz qaldıqları üçün qələbəyə ümidlərini itirmiş... Osmanlıların şiddətli hücumları ilə onların çoxu məhv edilmişdi...
...«Osmanlılar 2-3 gündə Xoy və çevrəsində bulunan bütün (silahlı-X. İ.) erməni erkəklərini öldürdülər və sonra Urmiyəyə geri döndülər» **(8: s.145)...**
Çox şükürlər olsun ki, «azəri» xalqının tarixini, etnogenezini farsa bağlayan, fars şovinizminin təsirinə düşən və o «araşdırma»larında xalqına xəyanət yoluna bulaşdığını sonralar etiraf edən İran tarixçisi, milliyyətcə azərbaycanlı olan Əhməd Kəsrəvi **( 2:** s. 255) 1918-ci il hadisələrini qələmə alarkən ədalət hissini unutmayıb... və türklərin – Osmanlıların Güney Azərbaycanın yaxın tarixindəki xilaskar rolunu nəinki danmayıb, hətta təqdir edib *(səh. 755, 763):*
**«Beləcə Səlmas və Urmiyə fitnələri Osmanlılar tərəfindən basdırıldı və Dr. Şet (*doktor Şet* – X. İ.) və yandaşlarının törətdikləri fitnə atəşi 130 mindən artıq müsəlman və bir çox xristianın ölümü ilə sona çatmış oldu. Çevrədəki bütün binalar xarab oldu. Xristianlar (yerli – X. İ.) da evlərindən-yurdlarından dərbədər oldular. Bir toplumun yabançıların əlində oyuncaq olmasının sonucu bax budur!» (8: s.145).**
Doktor Cavad Heyətin qeyd etdiyi kimi, başqa İran müəllifləri Əhməd Qəviyanpurun «Urmiyə tarixi» kitabında və professor Həsən Əlibəylinin «İpək Yolu» dərgisində yayınladığı məqaləsində də olaylar Kəsrəvinin yazdıqlarına uyğundur. Bu iki qaynaqda hadisənin gedişatı belə təsvir olunur:
1918-ci ilin Ocaq (yanvar) ayında İngiltərənin 2-ci qolordu (*korpus*-X. İ.) komandanı Qresi, Urmiyədəki fransız xəstəxanasının müdiri Kujol, Amerikan

konsulunun müavini və misyonerlərin şefi Makdavel, Rusiyanın Urmiyədəki konsul müavini V. P. Nikitin və assurilərin baş papazı (keşişi – X.İ.) Marşimon bir sürə müzakirələrdən sonra, silahlanmış erməni-assuri birliklərinin bölgədə qalmış Çar ordusu qüvvələrinin dəstəyi və amerikanların maddi yardımı ilə türklərə qarşı savaşı davam etdirməsinə və Azərbaycanda (İranın quzeyində) müstəqil xristian dövlət yaratmağa qərar verdilər. İngilislərin tövsiyəsiylə kürdlərin də bu məqsədə cəlb edilməsi önərildi (təklif oldundu, irəli sürüldü – X. İ.) **(8: s.144-145).**

Bu mənbələrdə Marşimonun Simitkonun hüzuruna 140 süvari əsgər və bir neçə rus zabiti ilə 3 mart 1918-ci il tarixində getdiyi bildirilir... Marşimonun (və başının dəstəsinin) ölüm xəbəri Səlmasa yetişdiyi andan assurilər və erməni daşnakları iki gündə on minə yaxın silahsız müsəlmanı soy qırımına uğratdılar. Bu vaxt, həqiqətən, Assuri kilsəsi qətliam fitvası da vermişdi **(8: s.144)...**

Adı çəkilən qaynaqların söykəndiyi tarixi dəlillərə görə, o zaman rus silahlı qüvvələri həm də yerli müsəlmanların silahsızlandırılması haqda əmr veribmiş: «İran dövləti Azərbaycanda tərəfsizliyi qoruya bilmədiyi üçün müttəfiqlərin qərarı ilə yabançı (Osmanlı) orduları önləmək və Azərbaycana girmələrini əngəlləmək məqsədilə Milli Xristian Ordusu qurulur... Müsəlmanlar aşağıdakı şərtlərə riayət etməlidirlər:

1 – Stepanyansın başqanlığında 16 nəfərlik bir Məclis qurulur.

2 – Şəhərdə olağanüstü (fövqəladə – X.İ.) hal elan edildiyindən, polis idarəsinin başqanı bu Məclis tərəfindən təyin edilməlidir.

3 – Müsəlmanlar 48 saat zərfində (burada: ərzində – X.İ.) silahsızlanmalı və silahlarını təslim etməlidir.

4 – İran Kazak birimləri (birlikləri – X. İ.) rus komandanlığına tabe olmalıdır **(8: s.144).**

Bu zaman erməni general Andranik 3 min nəfərlik orudusuyla Araz çayını keçərək Xoyu mühasirəyə alıb, xoyluları qılıncdan keçirdikdən sonra Urmiyəyə doğru yol alıb xristian qüvvələrilə birləşmək və xristian dövlətinin qurulacağı yerdə Osmanlı ordusunun mühtəməl (*mümkün* – X. İ.) hücumunun qarşısını almaq üçün hərəkətə keçər. Andranik öz planlarını gerçəkləşdirmək və «Böyük Ermənistan» dövlətini qurmaq qonusunda (mövzusunda – X. İ.) rus və ingilis komandanlarının da onayını (*təsdiqini, tədbirini* – X. İ.) almışdı» **(8: s.144).**

Əvvəlki qaynaqların da bildirdiyi kimi, bundan sonra Osmanlı Ordusu Azərbaycana gələrək Xoy və Səlmasda Andranikin qüvvələri və başqa xristian hərbi birləşmələrlə savaşa girərək Güney Azərbaycanda xristian dövlətinin qurulması xəyalını alt-üst etdi. Ancaq bu xəyal müsəlmanlara ümumilikdə 130 min can itkisi hesabına başa gəlmiş oldu **(8: s.143-145) ...**

Bəzi məlumatlara görə isə, 1918-ci il martın sonunda, üç gün ərzində Urmu, Səlmas və Köhnəşəhr şəhərlərində 150 min nəfər azərbaycanlı öldürülmüşdü **( 1 )**. Ümumilikdə isə, 1917-1918-ci illər ərzində Güney Azərbaycanın qərb bölgələrində 190 min nəfərə yaxın Azərbaycan türkünün qətlə yetirildiyi bildirilir **(14: s.286)...**

Ustad Məhəmməd Hafizzadə "Qarabağ" kitabında Mehdixan Ağasinin "Tarixi-Xoy" əsərinə dayanaraq ermənilərin o zamankı (1918-ci il dövrü) fəaliyyətləri və müsəlman qırğınları haqqında yazır:

Əhməd Dehqana görə 25 min, Ə.Kəsrəviyə görə 12 min ailə-erməni ciloları (İran qaynaqları bu toplumun adını bəzən "cilov", bəzən də "cilo" kimi yazırlar-X. İ.) keşiş Marşimonun rəhbərliyilə 1294 şəmsi tarixində Osmanlı torpaqlarından İrana keçdilər. Cilolar və assurilər I Dünya Savaşı dönəmində Osmanlı torpaqlarında 200000 nəfər təşkil edirdilər ki, bunların da ¾ -ü Van gölü yanında məskunlaşmışdılar. Tarixdə onları adətən tünd, sərt, təəssüblü, rəhmsiz xalq kimi səciyyələndirmişlər **(12: s.184).**



Mehdixan Ağasi isə o dövr hadisələri haqda bunları bildirir: I Dünya Savaşında bunlar (*cilolar* –X.İ.) Müttəfiq Dövlətlərin yardımı ilə Osmanlı dövlətinə yağı oldular. Osmanlı dövləti onlarla mübarizəyə başlayanda orada duruş gətirə bilməyib Səlmasa gəldilər. Sonra Müttəfiqlər bunları Xoy, Səlmas və Urmiyədə yerləşdirdilər-cilolar qaçqın kimi gəldiklərindən bu üç şəhərin yerli camaatı onlara öz yardım əllərini uzatdı. Amma çağırılmamış bu qonaqlar özlərinə gələndə rus, ingilis, amerikan himayəsi altında İrandakı isavilərlə, ermənilərlə və başqaları (assurilər...) ilə müstəqil dövlət yaratmaq məqsədilə əl-ələ verdilər **( 12: s.184).**

O gəlmələr Osmanlının intiqamını bu yerli xalqdan – silahsız və köməksiz azərbaycanlılardan almaq istədilər. Onlar silahlanıb hərbi marş oxuyaraq yaxın vaxtlarda bu bölgədə, Ney-Nəvaya qədər, axırıncı müsəlman nəfəsinə son verənədək bütün azərbaycanlıları və b. müsəlmanları qırmağı planlaşdırmışdılar **(12: s.184-185).** Müttəfiqlərin planlarına da ən çox qaçan və ən çapuq meyl edən cilolar idi.

Nakişi assurilər, gəlmə, qəddar cilolar, rəhmsiz ermənilər, başıpozuq rus əsgərləri Azərbaycanın qərbində-Urmiya, Səlmas və Xoy bölgəsində qətllərlə və soyğunçuluqla məşğul idilər **(12: s.185).**

Yeperm adlı İrəvan tərəfdən gəlmiş quldur öz dəstəsilə Səfərqulu kəndinə hücum çəkdikdən və atışmada öldükdən sonra-ertəsi gün erməni, assuri və rus əsgərləri bu kəndin camaatını qılıncdan keçirib, bir nəfəri sağ buraxmırlar, kəndin bütün var-dövlətini də talan edirlər. Nankor və daşürək assurilər divarı baş böyüklüyündə deşib müsəlmanların başını divarın o üzünə keçirdir, sonra başa ip sarıyır, ipin o biri uclarını bir neçə danaya bağlayb danaları çubuqlayır, beləliklə baş bədəndən ayrılırdı **(12: s.185-186)...**

Osmanlı sərhəddindəki Mərcəvər kəndində isə iki nəfər rus qazakını ölü halda tapan kimi ruslar və ermənilər o kəndə saldıraraq hamını öldürüb, uşaq və qadınları da kənddən perik saldılar. Şalu kəndində bir qazak ölüsü tapılan tək rusların təlimatı ilə cilolar kəndi yandırdılar, əhalini də qılıncdan keçirdilər **(12: s.186)...**

Başqa sözlə, Xoy, Urmiyə, Səlmas, Təbriz kimi şəhərləri Azərbaycan türklərindən, ümumilikdə müsəlmanlardan "təmizləyib", bu bölgədə bir erməni-xristian dövləti yaradaraq sonra "Böyük Ermənistana" birləşdirməyi planlaşdırırdılar **(12: s.189).**

Nəticədə Urmiyədə 10 min nəfər bir neçə saatın ərzində qətlə yetirildi, uşaqlar böyüklərdən betər işgəncə ilə öldürüldülər. Ciloların da qoşunları Dilmağan şəhərinə basqın etməyə görə mühasirəni sıxlaşdırırdılar. Əhali qaçmaq üçün gecəni gözləyirdi. Yeganə qaçma imkanı Sədiqian darvazası idi ki, oranı da cilolar toplarla və b. vasitələrlə atəşə tutmuşdular. Yüzlərlə ana uşaqlarını itirmişdi. Qaçanları güllələyir, evləri yandırırdılar. Xəndəklər meyitlərlə dolu idi. Anaların çoxu südəmər körpələrini çaya atırdı ki, düşmənin əlinə keçməsin. 40 min nəfər uşaq-böyük və qocanı bu meyitlərin üstündən keçirərək ac-susuz, soyuqda Həftvana apardılar. Bir hissəsi qırılıb tələf oldu, bir hissəsi də Güney kəndinə qaçıb birtəhər canını qurtardı **(12: s.191)...**

Xoyla Təbriz arasındakı 200 km.-lik yolda addımbaşı cənazələrə rast gəlinirdi. Bu müsəlman qaçqınları bir yandan da kürd əşirət başçısı İsmayıl ağanın silahlı adamları soyur-lütləyirdilər. Məscidə sığınan müsəlmanları isə assurilər elə məsciddəcə ucdantutma qırmışdılar **(12: s.191-192).** O zaman bu bölgədən Tehrana məlumat göndərən Mirzə Sadiq xan Müstəşarətdövlə (üç dəfə Daxili İşlər naziri təyin olunub) yazır ki, iki Rusiya ermənisi paytaxta varid olublar və cümə günü 15 nəfər erməni (6-sı qazak qərargahının vəzifəli şəxsləri) İsgəndərxan adlı ermənin evində gecə saat 12-yə qədər toplantı keçirib, İran tərəfə silah keçirmək barədə məşvərət ediblər. Hicri/qəməri 1333-cü ildə qələmə alınan bu yazılı bildirişdə o da göstərilir ki, ermənilər məharətlə Qəzvinə yetərincə silah yerləşiriblər; başqa vacib yerlərə də gizlicə lazımi silah-sursat yerləşdirməklə, planlaşdırırlar ki, İran dövlətinin əsas obyektlərinə, o cümlədən jandarm idarələrinə və s. cəld və effektli basqın həyata keçirə bilsinlər. Tehrana, Qəzvinə

göndərilən silahların 1/3-i qazaklara, 2/3-si isə şəhərlərdə "öz ermənilərinə" paylanacaq. Silah gətirənlərin də "rus soldatı" qiyafəsində ermənilər olduğu bildirilirdi (**12:** s.192-193).

Mənbədə qeyd olunur ki, içki adı ilə də yeşiklərdə Qəzvinə silah-sursat aparılırmış. Tehran ermənilərinin də Güney Azərbaycan torpaqlarında dəstə-dəstə, "rus saldatı" kimi yerləşərək bu proseslərdə fəal iştirak etdiyi bildirilir (**12:** s.193).

Müəllif (**Məxfi polis raportları kitabının (İran)** ***52-59-cu səhifələrindəki*** **materiallara dayanaraq**), nəticə etibarı ilə qeyd edir ki, Qərbi Azərbaycanda ermənilər və onların xristian havadarları elə bir müdhiş cinayət törətmişlər ki, bunu tarix bağışlamayacaq. Qafqazdan – Cənubi Azərbaycana: Qarabağdan – Qaradağa... və s. şəhərlərədək qan hamamı yaradan bu vəhşilər tarixdə insanlığın da üzünü qara edən bir mənfur iz buraxmışlar ( **12:** s. 193).

"Urmiya tarixi" kitabında İran müəllifi Məhəmməd Tamaddun da o facieli olaylara xüsusi yer ayıraraq geniş şəkildə işıqlandırmışdır...

Mirzə Bala Məmmədzadə isə ermənilərin o vaxtkı ərazi iddialarını sadalayaraq, ümumiləşdirib deyir: "...ermənilərin "Böyük Ermənistan"ı nə az, nə də çox, Türkiyə, İran və Qafqaz türklərinin yaşadıqları bütün əraziləri əhatə etməli idi" (**7:** s.5).

"...Urmi bəlası deyə yad olunan bu qanlı faciələrdə qırılan islamların miqdarı saya gəlməyəcək qədər çox olduğu kimi, erməni "mücahidləri" tərəfindən "əsir" götürülən gənc azəri qızlarının "alayları" halında "rəsmi keçid"ləri də unudulmamışdır , " – deyə M. B. Məmmədzadə o hadisələr vaxtı ermənilərin alçaqlıqları manyaklıq dərəcəsində etdiklərinə də toxunur (**7:** s.30)...

Sıradan, başqa bir qaynaq da Güney Azərbaycan olaylarına aydınlıq gətirərək, bölgədə ingilislərin fitnəkar planlarını açıqlayır:

İngilis kəşfiyyatı hər birinə ayrılıqda olmaqla Urmu boyunca "Aysor dövləti", "Kürdüstan", "Böyük Ermənistan" yaradılması ssenarisini gündəmə gətirmişdi. O məqsədlə də burada Qarapapaq türklərinin soyqırımı həyata keçirildi. Sonra Osmanlı dövləti Əli İhsan Sabis paşanın komandanlığı altında bölgəyə qoşun yeritdi. Bu qoşunlar Kərkük və Urmu vilayətlərində baş vermiş türk soyqırımının davam etməsinin qarşısını aldı. Erməni, kəldani və aysorlara məxsus birliklərin yerləşdiyi məntəqələrdə isə xeyli sayda ingilis casusu edam olundu (**13:** s.8).

Qeyd edək ki, Əli İhsan Sabis paşa Türkiyədə yayınlanmış 6 cildlik xatirələrində imperiyaçıların və başqa türk düşmənlərinin iştah saldığı Urmu vilayətinin önəmini yüksək dəyərləndirərək, onu Anadolu, Güney Azərbaycan və Orta Asiyanı coğrafi, iqtisadi, mədəni və hərbi baxımdan əlaqələndirən ən mühüm strateji nöqtə kimi qiymətləndirmişdir (**13:** s.8)...

***Haşiyə:*** Türk generalı Veysəl Ünüvar da 1948-ci ildə İstanbulda yayınlanmış "Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)" adlı xatirə kitabında Güney Azərbaycanlıların qətliamına qısaca toxunmuşdur. O, Simitkonu "Simiko", Marşimonu "Mir Şasmun", assuriləri isə "nəsturi" (Mosul bölgəsindəki xristian toplumuna və bu toplum üyələrinə verilmiş ad-X. İ.) kimi adlandıraraq belə yazır: "1918-ci ilin əvvəllərində Simiko Urmiyə nəsturi rəisi Mir Şasmunu pusquya salıb başının adamları ilə birlikdə öldürmüşdü. Bunun üzərinə nəsturilər də müsəlman kəndlərini qətliama uğradır, rəvayətə görə 10000 adam öldürülür" (**9:** s.9). Görünür, V.Ünüvar bu olaylar haqda şifahi (ağızdan) və ötəri bilgiyə malik olduğundan bu olaydakı tərəfləri tam göstərməmişdir.Ancaq onun Simiko haqda və 1919-cu ildə Van dolaylarında durumla ilgili sunduğu başqa bilgilər yetərincə dəyərlidir: " ...Mosul və Qars bölgələri arasındakı sahədə on birinci Qafqaz diviziyamızın yerləşdiyi Van və Hakkaridə kürdləri üsyana qaldırıb müqavimət imkanını aradan qaldırmağa, ermənilərin istilaçılıq hərəkətlərini asanlaşdırmağa cəhd göstərirdilər.



Bütün cənub cəbhələrimizdə ingilislərin apardığı təbliğat ilə ermənilərin Iğdır cəbhəsində söylədikləri söz eyni idi: hər ikisi kürdlər ilə ermənilərin qardaş olduqlarını iddia edirdilər. Beləcə məqsədləri açıqca görsənir, bizim bir şey söyləməyimizə lüzum qalmırdı. Düşmənlərin sözünün mənasını aşirət ağaları, başçıları çox yaxşı başa düşdülər. İngilislərin istismar üçün (Mosul siyasi hakiminin) qızıllarına arxa çevirdilər. Cənub sərhəddimizi qoruyurdular. Təhlükə ancaq şərq tərəfdən gələ bilərdi.

Şərqdə, İranda kiçik bir aşirət rəisi Simiko hiyləgərliyi və cürətliliyi ilə qonşu aşirətləri soyğun məqsədilə öz ətrafında birləşdirmişdi. Bu adam ümumi hərbdən əvvəl bizə qarşı hərəkətlərə başlamış, müharibə zamanı isə vəziyyətin gedişinə uyğun olaraq bir neçə dəfə bizdən rusların tərəfinə və ruslardan bizim tərəfə keçmişdi. 1919-cu ilin əvvəllərində ölkəmizdə yenə oğurluq, soyğunçuluqla məşğul olmağa başladı. Bu adam ingilislərlə birləşə bilməzdi, çünki nəsturilərlə qan davası vardı. Ermənilərlə birləşə bilərdi. O zamankı İran hökumətinin isə qəribə bir halı vardı: müharibədən əvvəl baş verənlərdən xəbəri yox imiş kimi davranar və bunları Osmanlı hökumətinin üstünə yıxmaq üçün bəhanə axtarardı. (İran) ümumi hərb müddətində aradan çıxdı, müharibədən sonra isə bizdən 1960 il əvvəlki Part-Roma hüdudunu, yəni Fateh Sultan Məhmət dövründəki Fərat hüdudunu istədi və 1919-cu ildə qəbul etdikləri bir müqavilə ilə ingilislərin nəzarətinə keçdi. Ona görə Simiko məsələsində İrandan bir himmət gözləmək olmazdı" (**9:** s. 8-9).

General Veysəl Ünüvarın bildirdiyinə görə, daha sonra o özü Simikonu Türk tərəfə çəkmək üçün görəvləndirilsə də, Simiko onunla görüşməkdən yayınmış, Ünüvarla görüşə ( Dir köyünə) öz yerinə Şeyxülislamı olan o tərəflərdəki Kirəsin adlı sünnü türkmən aşirəti mollası Siracəddin əfəndini göndərmiş... sonra türklərin dünyaya qarşı üsyan etmiş bir millət kimi istiqlal mücadiləsində qərarlı olduqlarını duyunca Türkiyəyə verdiyi rahatsızlığı dayandıraraq, İranda bir xanlıq qurmağa cəhd etmişdi. İran hökuməti təhlükəni görmüş və Şərəfxana və Xoyda bir birlik saxlamaq (tutmaq) zorunda qalmışdı. Türkiyə də Simiko bəlasından qurtulub, əsl düşmənlə məşğul olmağa başlamışdı (**9:** s. 9-10).

*Qeyd 1:* O zaman iranlılarla osmanlılar arasında dostluq ilişgilərini gücləndirmək məqsədilə Təbrizdə «İttihadi-İslam Cəmiyyəti» yaradılmışdı ki, bu cəmiyyətin də İran tərəfdən eşbaşqanı (həmsədri – X. İ.) doktor Cavad Heyətin atası Mirzə Əli Heyət (Müctəhib) idi. Və bu yazıda gedən materialların tarixi həqiqət olduğunu da o, öz oğlu – Tehranda nəşr olunan «Varlıq» dərgisinin baş yazarı (redaktoru), vətənsevər soydaşımız doktor Cavad Heyətə vaxtilə nəql etmişdir. Xatırladaq ki, həmin cəmiyyətin Osmanlı tərəfdən həmsədri mərhum Yusif Ziya bəy idi. Orası da məlum olur ki, Mirzə Əli Heyətin fəaliyyəti Güney-Batı Azərbaycana daxil olan Osmanlı ordusunun baş komandanı Ali İhsan Paşa tərəfindən də yüksək qiymətləndirilmişdir (**8:** s.143).

Ancaq çox təəssüf ki, Mirzə Əli Heyətdən fərqli olaraq, o zaman Quzey Azərbaycanda olduğu kimi, Güney Azərbaycanda da bəzi millət başçılarımız yanlış mövqe tutaraq, Rusiya kommunistlərinə, əslində ruslara və ermənilərə xidmət göstərmiş, Türk ordusunun gəlişinə qarşı olmuşlar. Belə öndərlərdən biri-Quzey Azərbaycanda da xatirəsini həmişə məhəbbətlə andığımız Şeyx Məhəmməd Xiyabani idi. Millətimizin qan içində boğulduğu bir məqamda onu xilasa gələn Türk ordusuna qarşı çıxan Xiyabani başının dəstəsilə birgə məğlub edilmiş, sonra əsir alınaraq Türkiyəyə aparılmış, amma bir neçə aydan sonra əfv edilərək buraxılmışdı (**3:** s.86). Amma təbii ki, qoca tarix və ədalətli Tanrı bu cür haqsızlıqları nə Məşədi Əzizbəyova, nə Şeyx Məhəmməd Xiyabaniyə, nə də bu qəbildən olan başqa öncül şəxsiyyətlərimizə bağışlamayacaqdır...

Cənubdakı mənbələrdə o zaman xilaskarlıq missiyası ilə İrana gələn Osmanlı ordusunun komandanı Ferik bəyin İran hökumət tərəfdarı millətpərvər şəxsiyyət Əmir

Ərşəd Xana məktubundan da bəhs edilir, eyni zamanda bu şəxsiyyətlərlə ortaq fəaliyyətlərdə bulunan ağabəyi Sərdar Aşayir Hacıalılının (doktor Cavad Heyətin yeznəsi doktor Cahanşah Hacıalılının atası), güneyli topçu komandanı – sonralar general rütbəsi almış Mahmud Eminin də adı müsbət planda hallanır **(8: s. 143)**.

Bütün bu qeydlərdən hasil olan ən ciddi nəticə isə odur ki, o zaman Vəhib və Xəlil paşaların (Osmanlı Şərq Ordular Qrupu komandanları), Nuru paşanın (Qafqaz İslam Ordusu komandanı), Kazım Qarabəkir paşanın (Osmanli Doğu Cəbhəsi komandanı), Əli İhsan paşanın, eləcə də digər çox görkəmli türk zabitlərinin və məğrur məhmətciyin (türk əsgərinin) qaziliyi və şəhidliyi bahasına Güney-Quzey Azərbaycan və Doğu Anadolu ərazilərində növbəti erməni-xristian dövlətinin qurulmasının qarşısı birdəfəlik alındı.

**Qeyd 2:** Bütün bu qanlı olaylara və tarixi keşməkeşlərə nəzər saldıqdan sonra ermənilərin İran daxilində yenidən kök atıb siyasi-iqtisadi uğurlar qazanmasının isə məntiqini əsla "başa düşmək" olmur: necə ola bilər ki, İranda (o sıradan Güney Azərbaycanda) Azərbaycan türklərini və başqa müsəlman xalqlarını soy qırımına uğradaraq, orada erməni-xristian dövləti yaratmağa çalışan bir topluma sonralar İranda yaşıl işıq yandırılmışdır?!

Xatırladaq ki, İran içərisində ermənilərin siyasətlərini "yenidən qurması" vaxtilə Mirzə Bala Məmmədzadənin də diqqətini cəlb etmişdi.

Ararat daşnak hökumətinin süqutundan sonra ermənilərin Təbrizdə güclənməsi və oranı erməni hərəkatının əsas mərkəzlərindən birinə çevirməsi Mirzə Bala Məmmədzadəni özəlliklə çox qayğılandırmışdı **(4: s.195)**.

O, vaxtlar İranın iqtisadiyyatında və ticarətində böyük rolu olan ermənilərin, Sovet səfirinin də erməni millətindən (Davtyan) təyin edilməsinə nail olduqlarını bildirən M.B.Məmmədzadə ermənilərin "Droşaq" qəzetindəki növbəti hiylələri barədə ("Droşaq"dan iqtibas gətirərək) yazırdı: "1894-1896 sənələrində Van və Ərzurum vilayətlərində ermənilər qətli-am edilərkən dost rus konsulları erməni mühacirlərini Osmanlı cəlladlarına təslim edərkən, İngilis konsulu erməniləri türk toplarına hədəfi – ittixaz etdiyi zaman arqadaş İran millətinin konsulları idi ki, erməni millətinin mühafizəsini və erməni bədbəxtlərinin qətli-amdan xilasını düşünürdülər və 1914-1915 sənələrində alman və Amerika şahbəndərlərindən ziyada İran konsulusları erməni millətinin himayəsinə səy edir, ermənilərin mühafizəsini düşünürdülər" **(7: s.14)**.

Əlbəttə, nə 1894-1896-cı ildə erməniləri soyqırıma uğradan olmamışdı, nə də Osmanlı və ya başqa ölkə arxivlərindəki sənədlərdə İran səfirlərinin Anadolu ermənilərini bu cür himayə etməsi barədə məlumata rast gəlinməyib. Sadəcə olaraq Qərbdən, çar və bolşevik Rusiyasından istədiyini tam ala bilməyən ermənilər gələcək siyasətləri üçün İran dövlətinə və farslara (bu dövlətin əsasını təşkil edən türklərə deyil!) yarınmaqdaydılar, vəssalam.

"Droşaq" öz fikrini yekunlaşdıraraq bu qərara gəlir ki, İran dövlətinin Türkiyə ermənilərini himayə etmələri və s. "siyasi fikirlərdən deyil, eyni arqadaşlıq və qandaşlıqdan irəli gəlirmiş" **(7: s.30)**.

Göründüyü kimi, erməni siyasətçiləri və müəllifləri lazım gəldikdə iranlını (farsı, türkü) düşmən (yəni müsəlman) kimi qırıb-dövlətçiliyini məhv etməyə, lazım gəldikdə isə hami-xılaskar, hətta arqadaş və qandaş kimi qılıqlayıb, qoltuğuna girməyə hazırdır. Eynilə ingilislərə (və onların müttəfiqlərinə), ruslara, gürcülərə **(11: s. 14-15,18,31. )** və hətta Osmanlı dövlətinə yaxud Gənctürklərə münasibətdə olduqları kimi **(10: s.25; 6: s. 334-336)**.



**Ədəbiyyat:**

1. "Ayna" qəzeti, Bakı, 20 aprel 2001-ci il.
2. Azərbaycan Sovet Ensiklopediyası.10 cilddə. 4-cü cild. Bakı, Elm,1980.
3. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. 10-cu cild. Bakı, Elm, 1987.
4. Həbiboğlu Vəli. Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası. Bakı, 2002.
5. Eloğlu Səbahəddin. Zəngəzur hadisələri. Bakı, 1993.
6. Məmmədov İsrafil. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.
7. Məmmədzadə Mirzə Bala. Ermənilər və İran. Bakı, 1993.
8. Dr. Cevat Heyet. Batı Azerbaycanda Hıristyan bir devletin kurulması planları ve Avrupalılarla Osmanlıların rolü (1918). "Varlıq" dergisi, Tehran, 2004, yaz buraxılışı.
9. General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). İstanbul, 1948, Naxçıvan, 2006.
10. Ананикян Бакунц. Идейно-политический крах партии Дашнакцутюн. Иреван, 1979.
11. Качазнуни Ованнес. «Дашнакцутюн» больше нечего делать!, Баку, 1990.
12. Ustad Məhəmməd Hafizzadə. Qarabağ . Qum, miladi 2002, (farsca).
13. Ənvər Börüsoy. Urmuda kürdlər niyə və kimə qarşı silahlanırlar?, "Təzadlar" qəz., Bakı, 20-22.04.2010.
14. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. I cild. Bakı, 2004.

**Əlavə ədəbiyyat:**

1. Səməd Sərdari Niya. Müsəlmanların soyqırımı Arazın o tay-bu tayında., "Əxtər" (Təbriz), 1383 h.ş.
2. Rəsuloğlu B. Azərbaycan yolunda (məqalələr toplusu). "Urmiyadan Şamaxıya mart qırğınları"., Bakı, 2001.
3. Onullahi S. Erməni millətçiləri və İran., Bakı, 2002.
4. Onullahi S. Cənubi Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımları. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri. Beynəlxalq elmi sessiyanın materialları (mart-may, 2003).
5. Xudiyev N. Cənubi Azərbaycanda ermənilərin törətdiyi soyqırımları., "Dirçəliş –XXI əsr" jurnalı, Bakı, 2003,№61.

*(Qeyd: Farsca mətnləri Azərbaycan türkcəsinə çevirən Xoylu dostum Əsgər bəy Yəminiyə təmənnasız zəhmətləri vasiləsilə dərin təşəkkürümü bildirirəm.)*

## BORÇALI HADİSƏLƏRİ

### Epiqraf əvəzi:

*1918-ci il mayın 26-da-Gürcüstanın istiqlalını elan edən gün Gürcü Milli Şurasının yeni başçısı Noe Jordania demişdi: " Biz bir millətin dərdinə acıyırıq. Bu, erməni millətidir, hansı ki, müstəqil dövlətini yaratması üçün öz müstəqil ərazisi yoxdur." O çağlarda Gürcüstanda yayınlanan "Qruziya" qəzetində çıxış edən bir müəllif isə bu məsələ barədə daha sərt yazırdı: "Azərbaycan, Gürcüstan kimi, Ermənistanın da öz müstəqil ərazisi olsaydı, dövlət işləri ilə asanca uğraşmaq olardı. İndi Ermənistan yaratmaq üçün qonşuların ətindən, canından parçalar qoparmaq lazım gəlir... "*

*Saxta "beynəlmiləlçilik" xofu altında Zəngəzur kimi, Borçalını da parçalayıb yarısını Ermənistana qatdılar. Hələ 1763-cü ildı yunanların köməyi ilə əsası qoyulan Gümüşxana, Allahverdi, eləcə də Şamlıq, Ağtala, Tambulat qızıl-gümüş yataqları, barlı-bərəkətli torpaqlar, qəlbi dağlar, lilpar bulaqlar... zorən Ermənistana verildi...*

*İndiyə gəldikdə isə, Loru-Borçalının güney yarısı öz dosdoğma yurddaşlarından uralanıb ( 1: s.22 )...*

**Borçalı-Azərbaycan türklərinin yığcam yaşadığı qədim tarixi mahallardan biridir.** "Borçalı" sözü ən böyük türk tayfalarından birinin adı olmuşdur. Bunu Gürcü Sovet Ensiklopediyası da etiraf edir. Lakin orada bu ad e.ə.I minillik əvəzinə, XVII əsrə aid edilir. Borçalı tarixən Azərbaycan dövlətlərinin tərkibində olub. 18-ci əsrin əvvəlində Səfəvi dövlətinin Gəncə bəylərbəyliyinə aid idi. Bəylərbəyi Ziyadoğlunun 1736-çı ildə Nadirin Muğanda şah edilməsinə qarşı çıxması səbəbilə Nadir şah (1736-47) Borçalı və Qazax mahallarını Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarlığına peşkəş etdi. Nadir şah öləndən sonra Borçalıda özgür sultanlıq yarandı **(2: s.100-101)**. Çar I Aleksandr 1801-ci il 12 sentyabr tarixli manifest imzalayaraq Şərqi Gürcüstanı Rusiyaya qatdıqdan sonra Borçalı mahalı da Borçalı distansiyası adı ilə həmin tərkibə qatıldı. Borçali distansiyasının ərazisi 8 min kv. verst (1 verst = 1,0668 km) təşkil edirdi. Borçalının Rusiyaya ilhaqından 31 il ötdükdən sonra da, buraya xeyli sayda türk olmayan əhalinin köçürülmələrinə baxmayaraq, yenə də türklər üstün idilər-əhalinin ümumi sayına nisbətən 61,6% təşkil edirdilər. Köçürülmə nəticəsində ermənilər 26,4%, yunanlar 5,6%, gürcülər 4,86%, almanlar 2,27% "xüsusi çəkiyə" sahib idilər. Azərbaycan Xalq Cümhuriyyəti XİN-in əməkdaşı A. Şepotyev qeyd edirdi ki, bu nisbəti dana bilməyən I Nikolay dövründə (1825-55) bu vilayət ayrıca "tatar distansiyası" təşkil etdirdi, ancaq sonralar strateji mülahizələrə söykənən Çar hökuməti Borçalını Tiflis quberniyasına birləşdirmişdi. 1880-ci il mayın 6-da yaranan Borçalı qəzası isə Borçalı (Şüləver), Yekaterinenfeld, Lori (Cəlaloğlu) və Trialet (Başkeçid) polis sahələrini əhatə edirdi. Qədim Borçalı torpaqları olan Qarayazı və Qaraçöp elləri isə Tiflis qəzası tərkibinə verildi.

1917-ci il Qafqaz təqviminə görə, Borçalı qəzasının hüdudları 6036,96 kv. verst idi, yaxud Rusiyaya birləşdiriləń zamankı 8 min kv. verstdən 1963,0 verst az idi, əhalisi isə 169351 nəfər, o cümlədən 30,3% müsəlmanlardan ibarətdi. Qazax qəzasından Axalkələyə, Nəmli dağlar (sənəddə, rusca: *Мокрые горы* –X.İ.) , Əyriqar və Əmlikli dağ silsiləsinə qədər uzanan Borçalının mərkəzi hissəsində azərbaycanlılar 93% (ermənilər 2,5%, gürcülər 4,5%), Qarayazıda isə azərbaycanlılar 88,8% təşkil edirdi **(4: v.18; 3: s.261)**. Rusiyanın Qafqazı işğalından sonra zaman-zaman çoxsaylı yunan, rus, ukrain, alman koloniyaları Borçalıya səpələnsə də, bu xalqlar əsasən qəzanın şimal-qərbində məskunlaşdırılmışdılar **(4: v.18)**.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan edildikdən sonra Borçalı əhalisi Azərbaycana birləşmək haqda məsələ qaldırdı. AXC Borçalı qəzasının Borçalı və Yekaterinenfeld polis sahələrini tamamilə, Lori və Trialetin isə bir qismini öz ərazisi saydığını bildirdi. Etnik-strateji və iqtisadi mülahizələrə görə çox əhəmiyyətli sayılan bu bölgədən Qazax-Qars-Batum dəmiryolu inşa etməklə Azərbaycan Qara dənizə çıxışını gerçəkləşdirmək niyyətindəydi. Ancaq ötən bölümlərdəki qeydlərimizdən də məlum olduğu kimi, o dövrdə Rusiya Ermənistanı dəstəklədiyi kimi, Almaniya da Gürcüstanı dəstəkləyirdi və almanların hərbi birləşmələri general fon Kressin komandanlığı altında Tiflis və onun yaxın çevrəsində qərar tutmuşdu. Bu imkandan istifadə edən Gürcü hökumətinin sifarişi ilə alman qoşunları Borçalını tutdu, nəticədə bölgə Gürcüstan hökumətinə tabe edildi.

Bütün bunlara rəğmən Borçalı azərbaycanlıları yenə etiraz edərək Azərbaycana birləşməkdən vaz keçmədiklərini bildirirdi. Bundan sonra almanlar, onların ardınca da türklər Cənubi Qafqazı tərk etdilər. Borçalı isə Gürcüstan Respublikasının yuridiksiyasında qaldı **(3: s.261)**. Ermənilər özləri üçün bu şəraiti fürsət hesab edərək Aleksandropol (Gümrü) qəzasını tutaraq Borçalının hüdudlarına qədər hərəkət etdilər. Azərbaycanın bu tarixi torpağını ələ keçirmək üçün daha sonra Ermənistan Gürcüstana müharibə elan etdi. Ümumən isə, müharibənin zəminində Ermənistanın Axalkələk və Borçalı qəzalarına qarşı sürdüyü əsassız ərazi iddiaları durur.



1918-ci il oktyabr-noyabr aylarında tərəflər arasında qarşılıqlı ittihamlar kəskin şəkil aldıqdan sonra ermənilər Axalkələk və Borçalıda təxribat və silahlı toqquşmalar törətdilər. Bunun ardınca Ermənistan Axalkələyə süvari eskadron, Borçalıya isə 4-cü erməni polk hissələrini göndərdi və dekabrın 9-da hərbi əməliyyatlara start verdi. Ermənistanın Gürcüstana verdiyi notada bildirilirdi ki, gürcülər Borçalı, Axalkələk qəzalarını, bundan başqa Tiflis də daxil olmaqla Tiflis qəzasının bir hissəsini Ermənistana verməlidir (! –X.İ.). Dekabrın 18-31-də baş verən həmin müharibə Azərbaycanın bu tarixi bölgəsinə böyük ziyan vurdu. Nəhayət, İngiltərənin müdaxiləsilə dekabrın 31-də ermənilər döyüşləri dayandırdı və qarşı tərəf də barışa qoşulduğunu bildirdi **(3: s. 317)**.

Ermənistan və Gürcüstan ordularının mövqeləri arasından, Borçalının yarıya bölən demarkasiya xətti müəyyən edildi **(4: v.18 arxa üz)**. 1919-cu il yanvarın 9-17-də Tiflisdə Ermənistan-Gürcüstan sülh konfransı keçirildi. Qərara əsasən Borçalının şimal hissəsi Gürcüstana, cənub hissəsi isə Ermənistana verildi. Alaverdi (Allahverdi –X.İ.) mis mədənlərinin olduğu orta hissə –Lori (Calaloğlu da buraya daxildir –X.İ.) isə „neytral zona" elan edilərək, orada İngilis general-qubernatorluğu yaradıldı **(3: s. 317)**.

1920-ci ilin sentyabrında işğalçı Ermənistana qarşı hərbi əməliyyatlara başlayan Türk ordusu Gümrünü, Qarakilsəni tutaraq Lori neytral zonasına yaxınlaşdı **(3: s.261-262)**. Calaloğlu və Kolagirəndən başlayaraq Borçalının cənub hissəsini qismən işğal etdi **(4: v.18 arxa üz)**. Ermənistan-Gürcüstan arasında bağlanmış 13 noyabr tarixli sazişə əsasən gürcülər Lori neytral zonasına daxil oldular. 29 noyabrda isə Ermənistanın bolşevikləşməsindən istifadə edən ermənilər Lorini ələ keçirmək planı hazırlamışdılar.

1921-ci il fevralın 11-dən 12-nə keçən gecə Loridə ermənilərin qiyamı təşkil edildi və gürcü qoşunları Borçalıdan çıxarıldı. XI Qırmızı Ordunun müdaxiləsilə Gürcüstanda Sovet hökuməti quruldu. Rusiya K(b)P MK Qafqaz bürosunun 1921 il 7 noyabr tarixli ilə Lori bütünlüklə Ermənistana verildi.

1929-cu ildə, Borçalı qəzası da ləğv edildi: Borçalı (1950-ci ildən Marneuli), Lüksemburq (Bolnisi), Beşkeçid (Dmanisi) rayonları yaradıldı **(3: s.261-262)**.

***

Xatırladaq ki, digər bölgələrimiz kimi Borçalı mahalı da 1918-ci ildə etnik təcavüzə məruz qalmışdır. 1918-ci ildə Borçalıya soxulan Andronikə məxsus quldur dəstələr Dirnik kəndi tərəfdən Qızılhacılıya hücum etmişdir. Əslən Borçalı mahalının Qızılhacılı kəndindən olan Cöyrə oğlu Qara onların qabağını saxlamış, düşmən itki verib geri qaçmağa vadar olmuşdur. O zamankı qanlı döyüşlərdən biri də "Bolus döyüşü" adlanırdı və indiki Bolnis uğrunda gedən döyüş idi. Quldur və qaniçən Andronik 800 nəfərlik silahlı qüvvə ilə Bolnisə hücum etdikdə, Xaçın kəndinin ermənilər də onlara qoşulmuşdu. "Cöyrə oğlu Qara Qızılhacılıdan İsrafil ağanın köməyinə gəlmişdi: Ağ çərkəzi paltarda, ağ atın belində olan Cöyrə oğlu Qaranı görəndə, ermənilərin bir hissəsi silahlarını ataraq qaçmışdı. Yel dağı yaxınlığındakı vuruşmada Cöyrə oğlu Qaranın dəstəsi Axalkələkdə, Sağamoyda, Boqdanovkada azğınlıq edən erməni dəstəsini darmadağın etmişdi..."

Bu vətənsevər və daşnaklara qarşı fəaliyyətinə görə, tək-tək xalq qəhrəmanları kimi, Sovetlər zamanında, 1928-ci ildə Cöyrə oğlu Qara da həbs edilərək, 1929-cu ildə öldürülür.

*"Hardan alaq Cöyrə oğlu Qaranı,*
*Çəkə xəncərini, kəsə aranı"* – deyimi ilə bu ellərin Qaçaq Nəbisi kimi yadda qalan bu xalq qəhrəmanının 1933-cü ildə ailəsini də Qazaxıstanın Akmolinsk vilayətinə

sürgün edərək Gürcüstanda vəzifədə olan erməni öncülləri ondan beləcə intiqam almışdılar (**3:** s. 286).

1918-ci ilin iyunundan etibarən Borçalıda müsəlman qırğınlarının səngimə dövrü isə Qafqaz (Türk) İslam Ordusunun Qars–Gümrü–Calaloğlu xətti ilə bu bölgəyə daxil olması sayəsində başlamışdı...


**Ədəbiyyat:**

1. Шурəддин Мəммəдли. Параланмыш Борчалым оj... Лорум оj..., «Гаjтарылан көч карваны», Бакы, 1998.

2. Маhал Мəммəдли, Меhрибан Аббасова. Тарихи Борчалы маhалы., «Гаjтарылан көч карваны», Бакы, 1998.

*3. AXCE, 2 c.-də*, I c., Bakı, 2004.

4. Борчала. Доклад Щепотьева. ГААР фонд 28, опись 1, дело 171.

***Əlavə mənbələr:***

Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990; Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990; Məmmədli Ş. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi. Bakı, 1991; Məmmədli Ş. Ulu Borçalı. Bakı, 1998; Победа Советской власти в Закавказье. Тбилиси, 1971; Аргутинский-Долгоруков А.М. Район Тифлиско-Карсско-Эриванской железной дороги в экономическом и коммерческом отношениях. Тифлис, 1897; Ерицов Е.Д. Экономическая быть государственных крестьян Борчалинского уезда: Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т. VII, Тифлис, 1887; Обозрение Российских владений за Кавказом, ч. II , 1836; Щепотьев А. Доклад о спорных Кавказких территориях, на которые имеют право самоопределившиеся Азербайджанские тюрки: Известия АН Азерб. ССР (серия истории, философии и права), 1990, №2.


## *QARAYAZI HADİSƏLƏRİ*

1840-cı il aprelin 10-da Cənubi Qafqazdakı inzibati islahat haqqında qanunla ərazi quberniya və qəzalara bölündü.

Qarayazı və Borçalı **distansiya** (*distansiya* – müsəlman türklərə, xristian qeyri-türklərin birgə yaşadıqları əraziyə o zaman verilmiş inzibati addır), türklərin yaşadığı Zaqatala isə **daire** şəklində Tiflis quberniyasına daxil edildi. Tiflis quberniyasına aid Şirak və Eldar çölləri Qazax və Sığnax qəzaları arasında bölündü.

1846-cı ildə Borçalı qəzaya çevrildi və Qarayazı, Qaraçöp Borçalıdan ayrıldı. Qarayazı nahiyə kimi Tiflis, Qaraçöpsə Sığnax qəzalarına aid edildi (**1:** s.128).

Qafqazın işğalından sonra çarizmin müxtəlif inzibati-ərazi dəyişiklikləri etməsinin kökündə, heç şübhəsiz, türk inzibati vahidliklərini pozaraq, istər erməni, istərsə də rusların köçürülməsindən də istifadə edərək türk toplumunun birlik və mobillik potensialına ölümcül zərbələr vurmaq məqsədi dayanırdı. Yerli əhali isə çar Rusiyasının müxtəlif təzyiq vasitələrinə və erməni-gürcü millətçilərinin anti-türk hiylələrinə baxmayaraq öz "mən"ini qismən də olsa qorumağı bacarırdı. Aşağı Qarayazılı-Qazağın Şıxlı kəndindən olan Rusiyada ömürlük sürgünə məruz qalmış ziyalı Mustafa Ağa Arif (1774-?), 1915 -ci ildə rus cəza dəstələrini və onların yerli satqın qoçularını dağlarda, Qarayazı meşələrində, Salahlıda qırıb-çatan və Tiflisdə dar ağacı ilə taleyi yekunlaşan Qaçaq Kərəm; Qaçaq Nəbi və V.L.Veliçkonun "Qafqaz" əsərində ələkeçməz qaçaq, xalq arasında ədalətsizliyə qarşı savaşçı kimi ad və nüfuz qazanan Halay bəy Mursaqulov kimi say-seçmə oğullarımıza tay Qaçaq Cahangir kimi igidlərinin dili ilə, əli ilə...



Qeyd edək ki, Qarayazı və Borçalı distansiyalarında türklər çoxluq, gürcü və ermənilər azlıq təşkil edirdi (**1:** s.129-130; **2:** s.35).

Ancaq istər ermənilər, istərsə də çarizm, velikorus şovinizmi türk ulusunun bel sütununu sındırmaq üçün yeni zaman fürsəti, tarixi şərait gözləyir və bu məqsədlə hər cür hazırlıqlarını tamama yetirirdilər.

Nəhayət, 1905-ci ilin payızında Borçalı, Qarayazı, Tiflis, Qazax və Qaraxaç yaylaqları tərəfdə ermənilərin təşəbbüs və təcavüzləri müqabilində erməni-azərbaycanlı münaqişələri baş verdi. 1905 -ci ildə ermənilər Qazağı yandırıb Şıxlı kəndinə saldırdılar.

O hadisələrin şahidi mərhum Allahverdi kişi deyirdi ki, o tay Şıxlıya erməni hücumu zamanı Qarayazıdan-Nəzərlidən, Kosalıdan xeyli sayda könüllü Kürün Gəmi qayası deyilən hissəsindən keçərək soydaşlarına yardıma getmişlər.

Qarayazıya aid Vayofka kəndində də erməni-müsəlman toqquşması olmuş, nəticədə ermənilərə layiqli "dərs" verilmişdir.

Bədənlərində erməni gülləsinin və ya süngüsünün izini daşıyan Qarayazı ağsaqqallarının şahid ifadələrinə görə, ermənilər silahsız azərbaycanlı əhalisini-qoca, uşaq və qadınları min bir əzabla vəhşicəsinə qətl edirdilər, ancaq elə ki açıq döyüş başlayırdı, müqavimət göstərilirdi, o zaman ermənilər pərən-pərən düşürdülər.

1905-ci ilin 20-24 noyabr aralığında Tiflisdə ermənilər əllərinə keçən azərbaycanlıları, o sıradan, Cənubi Azərbaycandan gəlmiş, şəhərdə fəhləliklə başını dolandıran zavallı soydaşlarımızı xəncərlə doğrayır, körpüdən Kürə atır, qarşılarına çıxan şəhər sakinlərini hamının gözü önündə vəhşiliklə məhv edirdilər. "Ən dəhşətli toqquşma azərbaycanlı Şeytanbazar və erməni Avlabar (Hallavar) məhəllələrində olmuşdur. Bu toqquşmada Tiflisə yaxın Qarayazı kəndlərindən-Soğanlıqdan, Qaracalardan, Təhlə və Qaratəhlə kəndlərindən, hətta Qaratəpədən (onlardan ermənilərlə döyüşdə həlak olmuş Məşədi Məhəmməd Sadıq oğlunun və onun oğlu Qasımın adını çəkmək olar) çoxlu könüllülər Şeytanbazarda yaşayan soydaşlarına köməyə gəlmişdilər. XIX əsrdə Türkiyədən köçüb azərbaycanlı Soğanlığı yaxınlığında məskunlaşmış erməni Soğanlığını da azərbaycanlılar erməni vəhşiliyinə cavab olaraq dağıtmışdılar. Erməniləri Qarayazıdan qovmuşdular" (**1:** s.130-131).

1905-ci il hadisələri haqqında M.S.Ordubadi yazırdı: *"1905-ci il 20 noyabr axşam saat 9-da* şəhərin müsəlman hissəsində atışma baş verib yarım saata qədər davam etdi. Bu atışma əsnasında müsəlmanlar və ermənilər tərəfindən çoxlu tələfat olsa da bilinmir. Atışma Xarpux və Alavar adlanan yerlərdəki evlərdən baş verirdi...

*1905-ci ilin 21 noyabr xəbərləri.* Bu gün təzədən hər tərəfdə erməni-müsəlman arasında atışma baş verib çox şiddətlə davam edilirdi...

...İğtişaşın birinci günlərində Mixaylov xəstəxanasının morquna (meyitxanasına – X.I.) 12 meyit gətirildi. Onların biri erməni övrəti, digəri erməni kişisi, 10 nəfər isə islam şəhidləri idi...

...Noyabrın 24-də atışma təkrar başlanıb hər tərəfdən bir çox tələfatlar verildi..."

M.S.Ordubadinin qeydlərindən aydın olur ki, hər iki tərəfdən, üstəlik gürcülərdən də, yaralananlar az olmamış, şəhərdə dağıntı – tələfat aşırı dərəcəyə çatmışdır.

Bu fürsətdən yararlanan erməni millətçisi, bağırsaq zavodunun sahibi Sərkis iki nəfər silahlı erməni göndərib müsəlman qonşusunun bağırsaq zavodunu yandırmışdı.

"Müharibə şəhərin 6; 7, bəzən 5; 8-ci sahələrində baş verib bir çox atışmadan sonra erməniləri son dərəcə zəif saldı. Demək ki, müharibə noyabrın 20-dən başlayıb 29-na kimi davam etdi.

Bu müharibələrdə 24 nəfər erməni qətl olunmuş və bir bu qədər də yaralanmışdı. Müsəlmanlardan isə 15 qətl və yaralı olmuşdur" (**3:** s.98-100).

Qarayazı hadisələrini araşdıran V.Ömərli qeyd edir ki, 1917-18 -ci illərdə də ermənilər Borçalı və Qarayazıda türkdilli sakinlərə qarşı yeni vəhşiliklər törətmişdilər. O, belə vəhşiliklərdən sonra baş vermiş məşhur Sağamoy döyüşündə qarayazılıların, xüsusən də təhləllilərin igidliyindən, ermənilərə layiqli cavab-dərs verməlorindən də bəhs edir. Və Sağamoy döyüşünün qəhrəmanları olan igid qarayazılılardan Seyidəhmədlidən Seyid Əhməd, Sadıqlı Sarı Bayram, Xallı Söyün və başqalarının (cəmi 80 nəfər) adını nəsillərin unutmamalı olduğunu diqqətə çatdırır.

Müəllif qeyd edir ki, 1917 -ci ildə Rusiyadakı Fevral İnqilabından sonra Qars cəbhəsindən Rusiyaya qayıdan əsgərlərlə birgə gələn ermənilər, Gürcüstandakı alman və gürcü qoşunları, yerli qeyri-azərbaycanlılar, gürcü tavadları, alman və erməni mülkədarları, inzibati orqanlar, Türkiyədən qaçmış Andronik dəstələri Dağ Borçalı yaylaqlarında da azərbaycanlılara divan tutmuş, haqsız qətllər törətmiş, soyğunçuluq və talançılıq etmişlər. Açıq döyüşlərdə isə azərbaycanlılar ermənilərə müvafiq cavab verməkdə acizlik göstərməmişdilər **(1: s.131)**.

Azərbaycan arxivində Gürcüstan azərbaycanlılarının durumu ilə bağlı sənədlərdə də o zaman soydaşlarımızın ağır sınaqlardan keçdiyi, haqsız zülmlərə məruz qaldığı aydın olur **( 4 )**.

Bölgəni işğal etmiş alman komandanlığının müsəlman və xristianlara münasibətdə ayrı-seçkilik siyasəti, müsəlman qırğın və talanlarına şərait yaratmaqdan əlavə, onların şəriət işlərinə müdaxilə etməsi Gürcüstandakı azərbaycanlıları çıxış yolu aramağa sövq etmişdi: 1) İdarə olunma mərkəzi Tiflis olmaqla Türkiyənin himayəsi altında yarımmüstəqil Qarapapaq xanlığının yaradılması və ya 2) Tiflis şəhəri ilə birlikdə tarixi Borçalı, Başkeçid, Qaraçöp, Qarayazı torpaqlarının Azərbaycana birləşdirilməsi **( 5: s.65)**.

Əhalinin 88,8%-ni təşkil edən Qarayazılıların, türk zonası Borçalının 93%-ni təşkil edən Borçalıların bu doğal hüququ idi **(8: v.18; 5: s. 47)**. Vahid Ömərlinin yazdığına görə, ermənilərin Anadolu bölgəsində törətdikləri müsəlman qırğınları və vandalizm nəticəsində Borçalı, Qarayazı və Tiflisə bir çox türk və kürd ailələri pənah gətirmişdilər.

Müəllif tarixi qaynaqlara və şahid yaddaşına söykənərək bildirir: "... hiylə, xəyanətlə, qəfləti zərbə ilə müvəqqəti uğur qazanan ermənilər Osmanlı türklərinin köməyilə Borçalıda ağır məğlubiyyətə uğradılar. Bu qələbənin çalınmasında yerli bəylərin, ağaların və bütün rəiyyətin əvəzsiz rolu olmuşdur."

V.Ömərlinin əsərində həmçinin, Aşağı Qarayazıda (Şıxlıda) yaşayanMası və Meqi ləqəbli iki qardaşın ermənilərlə savaşda onları ciddi tələfata uğradıb, sonra, əsir düşməmək üçün bir-birini güllələməsinin bir şərəfli xatirə kimi elin yaddaşında qaldığından, qarayazılılardan Firudin oğlu Dəli Əhməd (prof. Camal Mustafayevin əmisi), Sarı Alı oğlu Mahmud, Hacıbayramlı Mustafa oğlu Musa (Qurban ağanın böyük qardaşı) və b. igidlərin də Qarayazı ellərinin erməni təcavüzündən xilas olmasında rollarından bəhs olunur **(1: s.134-135)**.

Yeri gəlmişkən, Gürcüstan azərbaycanlılarının, türklərinin özünümüdafiəsində böyük təşkilatçılıq fəaliyyəti göstərmiş yazıçı-publisist Ömər Faiq Nemanzadənin xidmətləri də xüsusi qeyd olunmalıdır...

Erməni iddialarına gəldikdə isə, Qara dənizdən Aralıq dənizinə, Qarabağ dağlarından Ərəbistan səhralarınadək "yaradılmalı" olan "Böyük Ermənistan" tərkibinə İrəvan quberniyası, Ərdəhanın şimalı istisna olmaqla Qars vilayəti, "Türkiyə Ermənistanı"nın 7 vilayəti və Kilikiyanın 4 sancağı, Yelizavetpol quberniyasının cənubi-qərb hissəsi və Tiflis quberniyasının cənub yarısı **(6: s.43)**, yəni Lc Başkeçid, Borçalı, Qarayazı da daxil "olmalı" idi.

15,6 min kv. km-lik Azərbaycan torpaqları (Borçalı, Qarayazı, Sığnaq, Şərur-Dərələyəz, Yeni Bəyazid və b.) Gürcüstan və Ermənistanla mübahisəli ərazilər sayılır,



milli Azərbaycan hökuməti bu torpaqların ana vətənə qovuşması üçün mübarizəni davam etdirirdi **(7: s.9)**. Mübahisəli ərazi məsələlərinin, həmçinin bu səbəblər üzündən baş verən münaqişələrin yoluna qoyulması üçün Azərbaycan Cümhuriyyəti hökumətinin diplomatik yollarla, habelə sülh vasitələri ilə Ermənistan və Gürcüstan hökuməti ilə fəal təmasları, yazışmaları, birgə konfrans keçirmə cəhdləri çoxsaylı arxiv materiallarında öz əksini tapsa da **(9 ; 10)**, beynəlxalq şəraitin əlverişsizliyi səbəbindən nəticələr qənaətbəxş olmadı. Sonrakı dönəmdə Qafqazın zorla bolşevikləşdirilməsi də azərbaycanlıların yeni zorakılıq və repressiya dalğasına məruz qalması ilə nəticələndi və öz dədə-baba torpaqlarında suverenliklərini təmin etmələri qarşısında keçilməz sipər çəkdi **(1: s.134-138)**.

**Ədəbiyyat:**


1. Ваһид Өмәрли. «Гарајазы. Күрчүстанда түркләр». Бакы, 2001.
2. Mehdixan Vəkilov. Ömür-dedikləri bir karvan yolu. Bakı, 1986.
3. М.С.Ордубади. «Ганлы илләр. 1906-1906-чы илләрдә Гафгазда баш верән ермәни-мүсәлман давасынын тарихи», 1911-Бакы, 1991.
4. Borçalı qaziləri Allahyarzadə Yusif əfəndi, Şeyx Məhəmməd Əli və başqalarının imzası ilə 19 sentyabr 1918-ci ildə AXC Nazirlər Şurasının Sədrinə və surəti Osmanlı Sultanına göndərilmiş məktub; ADA f.970, siyahı 1, iş 24, vv. 11-15.
5. Известия АН Азерб. ССР (серия истории, философии и права), 1990, №2.
6. Ов. Качазнуни. Дашнакцутюн больше нечего делать., Баку, 1990.
7. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920-ci illər, Bakı, 1998.
8. Борчала. Доклад Щепотьева., ГААР фонд 28, опись 1, дело 171.
9. ADA f.970, siyahı 1, iş 126.
10. ADA f.970, siyahı 1, iş 121.


## *ŞİMALİ QAFQAZ BÖHRANI : DAĞISTAN HADİSƏLƏRİ*

1917- ci il Oktyabr çevrilişindən sonra bolşevikləri dəstəkləyən sovetlər, Terek kazakları və Dağlı xalqlarının Milli şuraları noyabrın 8-də Vladiqafqazda birgə yığıncaq keçirdilər. Yığıncaqda Terek kazaklarının atamanı M.Karaulov və Şimali Qafqaz Dağlıları Mərkəzi Komitəsinin sədri Ə. Çermoyev, Terek Vilayəti İcraiyyə Komitəsinin sədri P.Kotsev və vilayət soveti rəhbərliyi bölgəni idarə etmək məqsədilə komissarlıqlar yaratdılar. Oktyabrın sonunda Petroqraddakı çevriliş Dağıstanda pislənərək, Terek dağlıları ilə birgə Terek-Dağıstan hökuməti yaradılması ideyası ortaya çıxdı. Dekabrın 2-də Şimali Qafqaz Dağlı İttifaqı yaradılmasını bildirən bəyannamə qəbul edildi. Rəşid xan Qaplanov müvəqqəti hökumətin başçısı seçildi. General Talışxanov hərbi komissar, M. Karaulov ədliyyə və maliyyə komissarı, "Dikaya diviziya"nın komandanı general Polevtsev Terek-Dağıstan hərbi hissələrinin komandanı təyin edildilər. Ancaq bolşeviklərin apardığı təbliğat və Qafqaz cəbhəsindən tərxis edilib Rusiyanın içərilərinə qayıdan rus əsgərlərinin yerli əhaliyə (*əsasən də müsəlmanlara* –X.İ.) qarşı zorakılıqları və təhdidləri milli toqquşmalarla nəticələndi. Dekabrın 13-də bolşevikyönümlü rus əsgərləri M.Karaulovu öldürdülər. Ardınca rus-kazak hərbçiləri bölgədə dağlılara qarşı genişmiqyaslı qətl və qarət aktları həyata keçirməyə başladılar. Qroznıda, Vladiqafqazda rus əsgəri qüvvəsinə arxalanan Sovetlər 1918-ci ilin başlanğıcından hakimiyyətə yiyələndilər. Martın 17-də Pyatiqorskda Terek Xalq Komissarları Soveti yaradıldı. Şimali Qafqaz bolşevikləşdirilməyə başladı **(1: s.159)**.

Dağıstanda isə Nəcməddin bəy Qotsinskinin və Şeyx Uzun Hacının başçılığı altındakı islamçı qüvvələr fəallaşdılar. Petrovsk-Port (Mahaçqala) bolşeviklərdən geri

alındı və arındı. Nəcməddin bəy Dağıstan və bütünlüklə Şimali Qafqaz müsəlmanlarının imamı kimi bölgədə öz hakimiyyətini elan etdi (2: s.177).

Hadisələrin bu cür gedişi Şaumyanın başçılığı ilə fəaliyyət göstərən erməni-bolşevik Bakı Sovetini narahat edirdi. Bolşeviklərin nümayəndəsi olan Dərbənd sovetinin nümayəndəsi Bakı Sovetinin 22 (9) fevral 1918-ci il tarixli iclasındakı çıxışında deyirdi: "...İndi Dərbənddə müsəlman milli komitəsi tərəfindən hakimiyyət ələ alınmışdır. Bir ay bundan öncə bu qurum özünü başqa cür aparırdı, ancaq hərbi hissələrin (*yəqin ki Rusiyaya məxsus olan* –X.İ.) çəkilməsindən sonra torpağı ayağının altında hiss etdi. İcraiyyə Komitəsindən xahiş: 1.Real qüvvə göndərmək, 2.Təbliğatçılar yollamaq, 3.Bənzər hərəkətlərə qarşı etiraz sənədi qəbul edib Dərbənd şəhər dumasına ünvanlamaq..." (16: v.96). Başqa sözlə, erməni-bolşevik qüvvələri Güney Qafqazdan başqa, Dağıstanı, ümumilikdə Quzey Qafqazı da susdurmaq istəyirdi.

N.Qotsinski 1918-ci il aprel ayının əvvəlində Bakıda müsəlman soyqırımının qarşısını almaq üçün Dağıstan süvari alayının da iştirak etdiyi yürüşə başladı və erməni-bolşevik qüvvələri Xaçmaz yaxınlığında məğlub edildi (2: s.177). Nəcməddin bəyin komandanlığındakı Dağıstan könüllüləri Bakı Sovetinin qurduğu Biləcəri – Xırdalan müdafiə səddini yarmağa hazırlaşdığı vaxt bolşeviklərin Həştərxandan dəniz yolu ilə Mahaçqalaya hərbi qüvvə yeritməsi xəbərini alıb geri–Dağıstana qayıtmağa məcbur oldular (3: s.50).

Bu olaydan sonra Terek-Dağıstan hökuməti iflic durumuna düşdü, onların milli liderləri Zaqafqaziya Seymi ilə birləşmək, sonucda bütün Qafqaz xalqlarının təmsil olunduğu hakimiyyət yaratmaq istəyi ilə Tiflisdə yığışmağa başladılar. Erməni və gürcü nümayəndələrinin imtinasına rəğmən azərbaycanlı nümayəndənin təkidilə Trabzona göndərilən heyət içərisinə Dağlı nümayəndələri də alındı (1: s.187-189).

1918-ci ilin mart ayında Tiflisdə Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası ilə Quzey Qafqaz elçiləri heyətinin birgə toplantısının protokolundan aydın olur ki, dağlıların birləşmək haqda təkliflərinə qarşı çıxan əsas tərəf məhz ermənilər imiş ( 4 ; 1: s.220) ...

Bu da təsadüfi deyil ki, bir il sonra, 1919-cu ildə Paris Sülh Konfransına göndərilmiş Dağlı elçilərindən Heydər Xadzaraqov Quzey Qafqaz Respublikası hökumətinin başçısı P.Kotsevə yazaraq erməni məkri və təhlükəsi haqda xəbərdarlıq etməyə məcbur olmuşdu: "Zəmanəmizin ərköyün övladlarına çevrilmiş erməniləri artıq heç bir vasitə ilə bizim başıbəlalı Ümumqafqaz evinə bərabərhüquqlu üzv kimi daxil olmağa razı salmaq mümkün deyildir; bəlkə də ola bilər ki, hələ biz sağlığımızda ikən öz varlı diyarımızı Böyük Ermənistan iştahından qorumaq zorunda qaldıq. Bir də nəzərinizə çatdırmaq istəyirəm ki, onlar artıq burada sınırları bizim burnumuzun altından keçən xəritələrini yaymaqdadırlar. Məncə, tarixin bir neçə dəfə Ermənistanın Quzey Qafqaza işğalçı hücumlarının şahidi olduğu yaddan çıxarılmamalıdır" (5: s.149)...

Trabzondakı görüşlərdən sonuc əldə edə bilməyən Dağlı elçiləri İstanbula üz tutub, Osmanlı rəhbərliyi ilə birbaşa danışıqlara girdilər. Onlar Batum sülh konfransı ərəfəsində Ənvər paşayla da görüşüb, ondan yardım istədilər. 1918-ci il mayın 11-də müvafiq istiqlal bəyannaməsi qəbul edərək Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası (Dağlı Respublikası) yaradıldı. Dağlı Respublikası rəhbərləri Əbdülməcid Çermoyevin və Heydər Bammatın imzaladığı müvafiq nota Osmanlı hökumətinə təqdim olundu və bu akt məmnunluqla qarşılandı. (6: s. 88). Alman nümayəndə heyəti isə Dağlı Respublikasının bütün Şimali Qafqazı əhatə etməsinin əleyhinə çıxırdı. Almanlar Kuban vilayətindəki kazaklarla münasibəti daha üstün tutduqlarını bildirirdilər (1: s. 191-192). Mayın 24-də Ə.Çermoyevin başçılıq etdiyi Dağlı Respublikası hökuməti Gəncəyə köçdü. Dağlı Respublikası 1918-ci il iyunun 8-də



Batumda Osmanlı dövlətilə dostluq və əməkdaşlıq müqaviləsi imzaladı. Bu müqavilə əsasında Osmanlı İmperiyası Dağlı Respublikasına hərbi yardım etməyi və onu xarici təhlükələrdən müdafiə etməyi öhdəlik kimi öz üzərinə götürürdü.

N.Yüceer də Dağlı elçilərinin fəaliyyətinə aydınlıq gətirərək o dövrdəki təmasları haqqında belə yazır: "Trabzondan Batuma gələn Dağıstan heyəti burada Ənvər Paşa ilə görüşüb ondan da yardım tələbində bulunmuşlardı. Osmanlı hökumətiylə də görüşmələrdə bulunmaq üzərə Ənvər Paşa ilə birlikdə İstanbula gələn Dağıstan heyəti burada çox yaxşı qarşılanmış, İstanbul mətbuatı bu heyətə, Dağıstanın sorunlarına geniş yer vermişdir " (3: s.52).

Yeri gəlmişkən bildirək ki, o vaxtlar Osmanlı Şeyxülislamı özü də soy etibarilə Qunib avarlarından idi (7: s.140).

Dağlı hökumətinin üzvləri P.Kotsev və V.G.Cabagiyev Tiflisdə Yusif İzzət paşa ilə Osmanlı hərbi yardımının təfsilatıyla bağlı danışıqlar apardılar və ilk xarici işlər naziri Heydər Bammat diplomatik missiya ilə Avropaya göndərildi. 1918-ci ilin iyununda Nuru paşa Dağlı hökumət başçısı Ə.Çermoyevin xahişinə cavab olaraq İsmayıl Haqqı bəyin komandanlığı ilə 74 zabit və 577 əsgərdən ibarət hərbi qüvvə göndərdi. O zaman bu dəstə Dağıstanın dağlıq ərazilərində bolşeviklərə qarşı savaşan Nuh bəy Tarkovskinin və polkovnik Cəfərovun başçılıq etdikləri bölüklərə dəstək oldu. İyunun 21-də Qunib aulunda qərargah yaratmış, əslən Çərkəz soyundan olan İsmayıl Haqqı bəy bütün Şimali Qafqaz müsəlmanlarını bolşeviklərə qarşı birləşməyə, mübarizəyə səslədi. 1918-ci ilin yayında Bakı yaxınlığında Qafqaz İslam Ordusu qüvvələri tərəfindən əzişdirilən L.Biçeraxov isə vaxt itirmədən, dərhal öz rus kazak dəstəsilə Dərbəndi, Mahaçqalanı tutaraq orada ağqvardiyaçı Rusiya hakimiyyətini bərpa etdi. N.Tarkovski də Dağlı könüllüləri ilə Xunzaxa, sonra Temirxan-Şuraya yürüş edib, bölgənin bir qismini rus kazaklarının işğalından qorudu. Bunun ardınca, Biçeraxov başkəndi Petrovsk olan "Qafqaz-Kaspi" dövlətinin yarandığını bildirdi. Onun təşkil etdiyi yeni hökumətdə sənaye naziri vəzifəsini N.R.Ter-Mkrtıçyants adlı erməni tuturdu. Biçeraxov hökumətinin Petrovskda "Vestnik" adlı rəsmi qəzeti də yayınlanırdı ( 8 ). 1918-ci il sentyabrın sonunda Osmanlı və Azərbaycan hərbi birləşmələri dağlıların imdadına yetişdilər. Yusif İzzət paşanın komandanlığındakı hissələr oktyabrın 6-da Dərbəndi, noyabrın 7-də Petrovsk-Portu (Mahaçqala –X.İ.) Biçeraxov komandanlığındakı rus-kazak-erməni birləşmələrindən təmizlədi.

Oktyabrın 13-də Dağlı Respublikası hökuməti Ə.Çermoyevin başçılığıyla Dərbəndə, oktyabrın 24-də isə Temirxan-Şuraya köçdü. Azərbaycan hökuməti oktyabrın 8-də 1 milyon rubl faissiz kredit, daha sonra əlavə maliyyə yardımı, yanacaq, silah-sursatla da Dağlı Respublikasına köməklik göstərdi. Noyabrın ortalarında Antantanın tələbindən sonra Dağlı Respublikası Biçeraxovla barışıq imzalayaraq, Osmanlı qüvvələri bölgədən çıxarıldı.

1918-ci il noyabrın 12-də Temirxan-Şurada Dağıstan, Çeçen və İnquş elçilərinin iştirakıyla böyük toplantı keçirildi. İştirakçılar Dağlı Respublikası hökumətinə tam etimad göstərdiklərini bildirdilər. Dağlı Respublikasının rəsmi orqanı olan "Quzey Qafqaz" qəzeti ilk, 24 noyabr saylı buraxılışında Dağlı hökumətinin bölgədəki bütün xalqlara, o sıradan ruslara hüquqi təminat verdiyini bəyan edirdi.

1918-ci il noyabrın 28-də Bakıda AXC və Dağlı Respublikası aralarında müqavilə bağlanması və dağlılara 10 milyon rubl maliyyə yardımı ayrılması Dağlı Respublikası üçün böyük əhəmiyyət kəsb etmişdi.

Tomsonun təklifilə Dağlı Respublikası hökuməti dekabrın 10-da Bakıda Şimali Qafqazın rus, kazak əhalisinin təmsilçilərilə müqavilə imzaladıqdan sonra dekabrın 15-də Ə.Çermoyev istefa verdi. Dekabrın 19-da P.Kotsev yeni koalisyon hökumət qurduğu zaman iki nazir postu da kazaklara ayrıldı. Ancaq Biçeraxovun pozuculuq fəaliyyəti nəticəsində kazaklar Dağlı hökuməti ilə əməkdaşlıqdan qaçdılar. Dekabrın

31-də Tomson Rostov-Petrovsk dəmiryol xəttinədək Dağlı Respublikasının, onun güneyindəki Dağıstan ərazisi L.Biçeraxovun, Petrovsk və Dərbənd limanları isə Antantanın nəzarətində olacağını bildirdi. Bu addım Şimal Qafqaz xalqlarını parçalamağa və Denikinin təcavüzünə zəmin yaratdı.

1919-cu il yanvarın 20-də Dağlı məclisi yarandı, qumuq ictimai xadimi Zübeyir Temirxanov bu parlamentin sədri seçildi.

1919-cu ildə "bölünməz Rusiya" savaşçısı Denikin Terek vilayətini tutaraq, inquşların müqavimətinə çətinliklə də olsa üstün gələrək Vladiqafqazı ələ keçirdi. Dağlı hökumətinin ingilislərlə və Denikinlə danışıqları sonuc vermədi.

[Çeçen Vilayəti qubernatorunun Dağlı Respublikası hökumətinə bildirişinə dayanaraq Ə.Haqverdiyevin Temirxan-Şuradan XİN-ə göndərdiyi 28 mart 1919-cu il tarixli məlumatda martın 26-da səhər saat 7-də kazakların Alxan-yurd kəndinə və Xangəl dərəsinə hücumundan bəhs olunur. Çeçen elçisinin Azərbaycan diplomatik elçisinə bildirişində isə Dağıstan polkunun çeçenlərin guya onları qəbul etmədiyini bəhanə edib, kazaklarla döyüş təhlükəsini görərək Çeçen ölkəsini taleyin ümidinə buraxıb çəkilməsi; çərkəzlərin, qabardinlərin, osetinlərin Könüllü Ordu ilə birgə fəaliyyət göstərməsi; habelə inquşların da könüllülərə təslim olması ifadə edilir. Əgər çeçenlərə kömək gəlməsə, onlar təslim olacaq, daha sonra könüllülərlə birgə Dağıstana təhlükə yaradacaq **(18).** ]

Denikin könüllü ordunun komandanı Lyaxovu Terek-Dağıstan diyarına hakim təyin edərək, martın 5-də Çeçenistana qüvvə yeritdi.

Azərbaycan hökumətinin hər cür dəstəyi, Gürcüstan hökumətinin 7 mart tarixli etiraz notası və Dağlı hökumətinə yardım göstərəcəyi bəyanatı da effekt vermədi. Martın 28-də Dağlı Respublikasının ağır vaxtlarında Azərbaycanın diplomatik nümayəndəliyi Temirxan Şurada fəaliyyətə başladı.

Çeçenistanın çox hissəsinin işğalı Dağlı Respublikasında hökumət böhranı yaratdı. Dağlılar arasında böyük nüfuzu olan din xadimləri Şeyx Uzun Hacıya və Şeyx Əli Hacıya Dağlı qüvvələrini səfərbər etmək haqdakı müraciətlər də artıq çox gecikmişdi. Denikinin qüvvələri cənuba yeridildiyindən xalqın son ümid yeri Azərbaycan idi: **1919-cu il aprelin əvvəlində Dağıstandakı əhali Dağlı Respublikasından çıxıb Azərbaycana birləşmək naminə böyük bir hərəkata başladı.** Azərbaycanın Dağlı Respublikasındakı diplomatik elçisi Əbdürrəhim bəy Haqverdiyev aprelin 15- də Xarici İşlər naziri Məmməd Yusif Cəfərova göndərdiyi məlumatda Dağıstanın 10 dairəsindən 4-nün açıq, qalanlarının isə gizli arzusu Azərbaycana birləşmək olduğunu bildirildi **( 9 )**. Dağlı Respublikası hökumətinin zabitləri, o sıradan hərbi nazir müavini olmuş general H.M.Xəlilov da bu mövqeyə sahib idilər. Kürə, Qaytaq, Tabasaran, Avar və Dərbənd bölgələrini təmsil edən elçilər həm tarixi, həm də iqtisadi bağlılığı önə çəkərək Azərbaycan-Dağıstan siyasi ittifaqını yaratmağı vacib hesab edirdilər. Aprelin 29-da bu məsələ Dağlı Respublikası parlament üzvlərinin, zabitlərin, ruhanilərin və ziyalıların birgə yığıncağında da müzakirə olundu. Dağıstan deputatlarının öndəri M.Q.Dibirov, sayılan din xadimi Şeyx Uzun Hacı da bu təklifə tərəfdar idilər **( 10 )**.

Mayın 5-də Bakıda U.Tomson Fətəli xan Xoyski ilə görüşündə Dağıstanın iqtisadi, topoqrafik və b. cəhətlər səbəbilə Azərbaycana bağlılığını önə çəkərək o vilayətin Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsini labüd hesab etmişdir **( 11 )**.





Prosesi hiyləgərcəsinə izləyən Denikin bölgədə fəallaşaraq təxribatlara əl atdı: onun tərəfindən Dağıstana yerli özünüidarəçilik statusu veriləcəyi vəd edildi, Könüllü Ordunun əsas hədəfinin bolşeviklər olduğu önə çəkildi və yüksək rütbəli Dağlı zabitlərinin Şimali Qafqazın müsəlman bölgələrinin idarəsinə cəlb edilməsi zabit heyətinin mövqeyində dəyişiklik yaranmasına gətirdi.

Belə bir böhranlı durumda mayın 12-də P.Kotsev hökuməti istefa verdi. Zabitlərin təzyiqi nəticəsində parlament yeni hökuməti təşkil etməyi general H.M.Xəlilova tapşırdı. Xəlilov da xəyanətə əl ataraq Denikin nümayəndəsilə danışıqlar apararaq Dağlı Respublikası hökumətini buraxdı və mayın axırında Dağıstan Könüllü ordu – denikinçilər tərəfindən müqavimətsiz halda ələ keçirildi.

Ə.Haqverdiyev iyunun 7-də Dağıstandakı olaylar haqda Azərbaycan hökumətinə yolladığı bilgidə Denikinin Dağıstanda cəmi 1 mindən artıq hərbi qüvvəsi olduğu və yerli əhalinin arzusu nəzərə alınaraq Mahaçqalaya qədərki ərazini Azərbaycana birləşdirmək üçün tədbirlər görməyə çağırdı **(12 ; 17).** Britaniyanın 11 iyun tarixində açıqladığı demarkasiya xəttinə görə də Könüllü Ordu, yəni denikinçilər Port-Petrovskdan (*Mahaçqala* –X.İ.) 5 mil cənubda dayanmalı idi.

Bu məqamlarda ermənilər də marıqda duraraq Denikin ordusunun daha da güneyə-Azərbaycanın içərilərinə doğru yürüşünə diqqət kəsilmişdilər və ehtimal olunan fürsətdən yararlanmağa hazırlaşırdılar. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Azərbaycan Xarici İşlər naziri M.Y.Cəfərova İrəvandan göndərdiyi 7 iyun 1919-cu il tarixli teleqramında bu məsələ öz əksini tapır: "Ermənilər Könüllü Ordunun (*Denikin tərəfdarları* –X.İ.) hərəkatından sevincdədirlər: ümid edirlər ki, onlar (*denikinçilər* –X.İ.) Bakını tutacaq. Ancaq 1 iyunda Xatisov naharda mənim yanımda məni Ermənistan və Azərbaycanın müstəqillik barədə ümumi maraqlarının olduğuna əmin etmişdi. Könüllü Ordunun bizə qarşı hərəkatının durumu mürəkkəbləşdirəcəyi (zorlaşdıracağı) halda Ermənistan düşmən mövqeyi tutacaqdır, ona görə də Şərur-Naxçıvan bölgəsində Ermənistana qarşı təhdid (qorxu) yaratmaq gərəkdir, bunun üçün hərbi təşkilatlanmaya təcili para yönəltmək lazımdır" **( 13 )**...

Azərbaycan hökuməti Dərbəndi və demarkasiya xəttinə qədərki Dağıstan ərazisini azad etmək üçün diplomatik və hərbi hazırlığa başlasa da, Denikin cənubi Dağıstanı tərk etməkdən qəti boyun qaçırdığı üçün Britaniya hökuməti avqustun 4-də demarkasiya xəttini Dağıstanın cənub sərhəddinə çəkərək Dağıstanı da bütünlüklə Könüllü Ordunun təsir dairəsinə aid etdi.

Beləliklə, tarixi ərazimizin önəmli bir hissəsinin-tacı Dəmirqapı Dərbənd olmaqla-qaytarılması üçün yaranmış tarixi şansı da itirdik və Şimal təhlükəsi azğın, ac-yalavac bir şər kabusu kimi Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərinə tərəf yaxınlaşmağa başladı **(14:** s.294-295).

Xatırladaq ki, Azərbaycan Cümhuriyyətinin mövcudluğu zamanı onun ərazisi 113895,97 km $^2$ idi. Bunun da 97297,67 km $^2$ mübahisəsiz, 16589,30 km $^2$ mübahisəli ərazilər hesab olunurdu **(15:** s. 422).

**Ədəbiyyat:**


1. Алтај Көјүшов. 1917-1920-чи илләрдә Шимали Гафгаз халгларынын азадлыг угрунда мубаризәси. Бакы, 2000.
2. Ş. Erel. Dağıstan ve Dağıstanlılar. İstanbul, 1961.
3. Nasir Yüceer. I Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan harekatı. Ankara, 1996.

4. ARDA. f.970., siy.1., iş.1, v.3,3 (arxa).
5. Красный Архив, т. 68, Москва, 1935.
6. W.-G. Cabağı. Kafkas-Rus mücadelesi. İstanbul, 1967.
7. Ч. Һәсәнов. Азәрбајҹан бејнәлхалг мүнасибәтләр системиндә. (1918-1920). Бакы, 1993.
8. *Газета «Азербајджан». Баку, 8 ноебрә 1918 г.*
9. ARDA. f.970, siy.1, iş 59, v.14-16. Əsli.
10. ARDA. f.970, siy.1, iş 59, v.27.
11. ARDA. f.970, siy.1, iş 60, v.2-3. Surəti.
12. ARDA. f.970, siy. 1, iş 48, v. 44-45. Surəti.
13. ARDA. f.970, siy. 1, iş 48, v. 39. Surəti.
14. AXCE , 2 c.-də, I c.,Bakı, 2004.
15. Azərbaycan tarixi, 7 c.-də, 5-ci c., Bakı, 2001.
16. ARPİISSA f.276, siy.3, iş 209.
17. ARDA. f.970, siy.1, iş 59, v.4,6.
18. ARDA. f.970, siy.1, iş 59, v.1,2.

*Əlavə mənbələr:*

Азербайджанская Демократическая Республика. 1918-1920. Внешняя политика (документы и материалы), Баку, 1998; AXCE; 2 c. – дя, Bakı, 2004, 2005; Азярбайъан тарихи, 7 с.-дя, с. 5, Бакı, 2001; Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы), Баку, 1998; Азербайджанская Демократическая Республика, Документы и материалы, 1918-1920 гг., Баку, 1998.

***

*Qeyd:* Azərbaycanın istiqlalına təhdid yaradan şəxslərdən biri-*DENİKİN Anton İvanoviç* (16. 12. 1872, Varşava yaxınlığında-08.08.1947, ABŞ, Miçiqan ştatı, Ann-Arbor) briqada, diviziya, korpus komandiri, cəbhə komandanı, general-leytenant (1916) olmuşdur. O, generallar L.G. Kornilov və M.Alekseyevlə birgə Donda Könüllü Ordunun yaradılmasında iştirak edib, Kornilov öldürüldükdən sonra, 1918- ci ildə komandan olmuşdur. 1918-in iyulunda Moskva üzərinə hücum çəkərək Sovet hökuməti üçün ciddi təhlükə yaratmışdır. 1919-cu ildə iyunun 16-da Denikin təhlükəsinə qarşı Azərbaycan-Gürcüstan hərbi müdafiə paktı imzalanmışdı. Denikin 1920 -ci il fevralın 7-də Cənubi Qafqaz respublikalarının müstəqilliyini tanımağa məcbur oldu.

Denikinin inadcıl ardıcılı, Azərbaycanın müstəqilliyinə daim "baş ağrısı" olan ağqvardiyaçı komandanlardan birincici isə polkovnik Biçeraxov idi.

*Biçeraxov Lazar Fyodoroviç* (1882-1934-cü ildən sonra)-Çar ordusunda kazak qoşunları polkovniki, milliyyətcə osetin. I Dünya Müharibəsində İranın şimalında hərbi əməliyyat aparan Rusiya qoşunları tərkibindəki kazak dəstəsinin komandanı olmuşdur. Böyük məbləğdə pula qarşılıq, 1500 nəfərlik kazak ordusunun vasitəsilə 1918-ci il iyunun 27-28-də general Densterville Bakıya hücum etmək planını müzakirə etmişdir. Biçeraxov öz ordusunun Bakı Soveti Ordusu tərkibində türklərə qarşı vuruşması üçün Şaumyana da təklif vermişdir.

Ancaq Qafqaz İslam Ordusu onun qoşunlarını əzdikdən sonra Biçeraxov dəstəsilə Dağıstana keçmiş, Mahaçqalanı tutmuş və A. Denikinlə əlaqə yaratmışdır. Biçeraxov həm ingilislərlə, (bolşeviklərə qarşı olduğu üçün) həm də Erməni Milli Şurası və „Daşnaksütyun"la sıx əlaqəyə malik idi. 1919-cu ildə mücacirətə məcbur oldu. (*Bax:* **AXCE, 2 c.- də, I c., Bakı, 2004,** s.254-255).



## *QƏRBİ AZƏRBAYCANLILARIN SOYQIRIMI*

***Epiqraf yerinə:***

**XI əsrdə Səlcuq İmperatoru Alp Arslan ordusunun əsir tutuğu bir erməniyə yazığı gələrək onun əl-qolunu açdırır. Bunun əvəzinə həmin erməni dərhal Alp Arslanın üzərinə atılır və köynəyinin qolunda gizlətdiyi xəncəri onun sinəsinə saplayır (6: s. 121).**

***

**Ermənilərin özünəxas xainlik və vəhşiliklərlə dolu tarix yaratması Əmir Teymuru da dərin düşündürmüş və qayğılandırmışdır. Ermənilər barədə o, belə demişdir:**

**"Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə ya məni alqışlayacaqlar, yaxud da lənətləyəcəklər" ( 14 ).**

**Üzərindən 8 əsr ötsə də, hələ də Əmir Teymuru erməniləri bağışladığına görə alqışlayan ictimai fikrə rast gəlmədik. Ancaq bizcə, Əmir Teymur erməniləri sadəcə ona görə yerli-dibli məhv etməyə çalışmamışdı ki, bu məxluqu da Tanrı yaradıb. Hər bir türk, hər bir müsəlman, erməni vəhşiliklərinə tarix üçün müşahidə pəncərələri açan biz-Azərbaycanlı müəlliflər də həmçinin, həmişə erməni millətçilərinə qarşı qanuni tədbirlərlə kifayətlənmişik. Ancaq görünür ki, ermənilərə münasibətdə türklər həm yumşaq qanunlarla davranmış, üstəlik bu yumşaq qanunları belə yetərincə uyqulamamış, bağışladıqları xəyanətin qılıncı sonra özlərini – türkləri, müsəlmanları kəsmiş, ağlar günə qoymuşdur!**

### *ZƏNGƏZUR HADİSƏLƏRİ*

Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli yığıncağının qərarına əsasən müsəlmanların qədim şəhəri İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəşt edilməsi ( 1 ) Azərbaycan tərəfinin sülhlə bağlı gözlədiyi nəticəni vermədi.

Ermənistan Respublikası ilə Osmanlı arasında 1918-ci il 4 iyun tarixli Batum müqaviləsinə əsasən İrəvan quberniyasının üçdə bir hissəsindən azı ermənilərin əlində qalmaqla, yerdə qalanı (Sürməli qəzası, Aleksandropol (Gümrü), Şərur, Eçmiədzin və s. də daxil olmaqla) Osmanlı dövləti tərkibinə keçdi. Ancaq I Dünya Müharibəsində Osmanlı dövlətinin ağır məğlubiyyəti və onun nəticəsində bağlanmış Mudros barışığı (30 oktyabr 1918-ci il) nəticəsində Türk Ordusunun Qafqaz və İrandan çəkilməsi türklərin bu torpaqlarda sahibliyini gerçəkləşdirməyə imkan vermədi. Bu tarixi şəraitdən sui-istifadə edən ermənlər "Böyük Ermənistan" yaratmaq niyyəti ilə türk-müsəlman soyqırımını dövlət səviyyəşində davam etdirməyə başladılar. ABŞ tədqiqatçıları Castin və Karolin Makkartilərin hesablamalarını görə, 1918-20-ci illər aralığında İrəvan quberniyasında 180000 müsəlman, yaxud quberniya müsəlmanlarının üçdə ikisindən çoxu ya öldürülmüş, yaxud da didərgin salınmışdı.

Xatırladaq ki, təkcə 1917-ci ilin fevralından 1918-ci ilin martınadək olan dövrdə İrəvan quberniyasında 200 azərbaycanlı kəndi dağıdılmış, 135 min nəfərdən çox soydaşımız isə məhv edilmiş və ya qaçqına çevrilmişdi!

Qeyd edək ki, o zaman İrəvan quberniyası aşağıdakı qəzalardan ibarət idi: 1. Aleksandropol, 2. Eçmiədzin; 3. Sürməli; 4. İrəvan; 5. Yeni Bəyazid; 6. Şərur-Dərələyəz; 7. Naxçıvan. Və İrəvan quberniyasındakı, azərbaycanlılara qarşı etnik

təmizləmə-soyqırımı fəaliyyətlərini həyata keçirən silahlı canilərin başında Andranik, Dro, Njde və b. durmuşdu.

Mudros Barışığından sonra, 1918-ci ilin noyabr-dekabr aylarında Türk Ordusunun Qafqazı tərk etməyə məcbur olması erməni millətçilərinin daha da fəallaşmasına, xüsusən də Zəngəzur və Qarabağ üzərinə, qısa müddətli səngimələrlə həmlələr edərək bu bölgə müsəlmanlarına yeni faciələr dövrü yaşatmasına fürsət verdi.

Zəngəzur qəzası dağlıq bölgədə yerləşdiyi üçün əlaqələri Şuşa qəzası ilə tamamilə, Cəbrayil qəzası ilə qismən kəsilmişdi. Azərbaycan kəndləri erməni kəndlərinin arasında qaldığı üçün əlaqələri ancaq erməni kəndlərindən keçməklə baş tuturdu. Onu da bildirək ki, Zəngəzur müsəlmanlarının durumu bir də ona görə ağır idi ki, buradakı erməni kəndlərində mövcud olan silahlı dəstələrdən savayı, bölgəni Andranikin çoxminli nizami ordusu nəzarətdə saxlayır və soydaşlarımızı ucdantutma qırğına məruz qoyurdu.

1918-ci ilin sonlarında Andranikin silahlı dəstələri Zəngəzur qəzasında, habelə, Şuşa və Cəbrayıl qəzasının kəndlərində qırğın və talanları xeyli genişləndirdi **(24: s.106)**. **Bu qırğınların miqyasından bölgədəki Birləşmiş Qüvvələrə aid ingilis qoşunlarının komandanı general Tomson da dəhşətə gəlmiş və Andranikə bu məzmunda teleqram göndərmişdi: *"Andronikə və ya Şuşa rayonundakı erməni komandanına. Aldığım məlumata görə ermənilər azğınlıq və talanlar törədirlər. Müttəfiqlərin nümayəndəsi kimi mən sizə əmr edirəm ki, bu qanunsuzluqlara birdəfəlik son qoymaq üçün tədbirlər görün və bütün ermənilərə xəbər verin ki, onlar sakitcə öz evlərində qalsınlar. Əgər siz bu əmrləri yerinə yetirməsəniz baş verə biləcək qan tökülməsinə görə şəxsən məsuliyyətə cəlb ediləcəksiniz. Xahiş edirəm bu teleqramı aldığınızı təsdiq edəsiniz. General Tomson."* (25: v.25).**

1918-ci ilin sonu–1919-cu ilin əvvəllərində ingilis nümayəndələrinin göstərişinə görə, Zəngəzurda baş alıb gedən müdhiş qırğınların dinc yolla qarşısının alınmasına çabalar da göstərildi. Lakin Andranikin dəstələri heç bir razılaşmaya, danışıqlara məhəl qoymurdu. Onun başçılığı ilə yenidən 30-dan artıq Azərbaycan kəndi talan edildi **(24: s.108)...**

Əslində Andranikin və ümumilikdə ermənilərin ingilislər tərəfindən dəstəkləndiyi də açıq-aşkar idi. İngilis mayoru Qibbon Zəngəzur qəzası ərazisində nəzarətin Andranikə verildiyi haqda Tomsonun əmrini yerli azərbaycanlı əhaliyə çatdırmışdı və guya bütün bunlar qırğınların qarşısını almaq üçün ən düzgün addım imiş (? –X.İ.) **(8)**.

Zəngəzur qəza rəisi Məlik Namazəliyevin xatirələrindən də anlaşılır ki, İrəvan quberniyası, Zəngəzur qəzası və Şuşa bölgəsində Andranikin qüvvələri tərəfindən "erməni qaçqınlarını müşaiyət etmək" adı altında bu bölgədəki müsəlman yaşayış məntəqələri "etnik təmizləmə"yə məruz qalır, onların əvəzinə ermənilər yerləşdirilirdi və mayor Qibbon da bütün bu planların içindəydi: "... Mən mayor Qibbonu ikinci dəfə qarşılayıb yola saldıqdan sonra pristavdan məlumat aldım ki, ermənilər Razdar kəndini bütünlüklə məhv etmişlər, əhalinin bir hissəsini də öldürmüşlər. Müsəlmanların böyük dövlətlərin missionerlərinin iştirakı ilə, göz qarşısında vəhşicəsinə öldürülməsi həmişə cəzasız qalmışdır **(9: s.132)...**

***

Erməni müəllfi A.A. Lalayan « «Daşnaksütyun» partiyasının əksinqilabi rolu" məqaləsində göstərir ki, "Daşnaksütyun" Ermənistanda hakimiyyətdə olduğu otuz ay müddətində Zaqafqaziyadakı erməni əhalisinin 35%-ni, türk (azərbaycanlı) əhalisinin isə 65%-ni məhv etmişdir. **(11: s.41-65)**.



Tədqiqatçılar müəyyən etmişlər ki, daşnak hakimiyyəti dönəmində Qərbi Azərbaycanda (indiki Ermənistan) türklərin sayı 77%, kürdlərin sayı 98%, yezidlərin sayı isə 40% azalmışdır **(12: s.77)...**

GENERAL TOMSONUN ULTİMATUMUNDAN SONRA ANDRANİKİN ZƏNGƏZUR QƏZASININ ERMƏNİ VƏ MÜSƏLMAN ƏHALİSİNƏ GÖZDƏN PƏRDƏ ASMA NİYYƏTİLƏ MÜRACİƏTİ


Копія.-

ОБРАЩЕНІЕ

къ Армянскому и Мусульманскому населенію Зангезурскаго уѣзда.

Какъ извѣстно теперь населенію уѣзда мое движеніе въ Шушу было пріостановлено приказомъ командующаго союзными войсками въ Баку генераломъ Томсономъ. Приказъ этотъ былъ основанъ на ходатайствѣ председателя Азербайджанскаго Правительства г. Хана Хойскаго. Генералъ Томсонъ, въ своемъ приказѣ, врученномъ мнѣ въ Забугѣ капитаномъ английской арміи г. Скуэромъ и капитаномъ французской арміи г. Касвиллтомъ отъ 13 ноября на мое имя, какъ на командира союзнаго отряда, объявляетъ, что вслѣдствіе наступленія всеобщаго мира всякія боевыя дѣйствія мною должны быть прекращены, поэтому я пріостановилъ свое движеніе въ Шушу и прекратилъ всякія боевыя дѣйствія. На основаніи этого приказа требую прекратить всякія враждебныя дѣйствія другъ противъ друга, предупреждая, что всякія самочинныя выступленія, отъ кого бы они не исходили, будутъ въ корнѣ подавлены и виновные наказаны по законамъ военнаго времени. Генералъ-Маіоръ Андраникъ. 23 ноября 1918 года. Гор. Герюсы.-

Вѣрно: Секретарь

Fövqəladə Təhqiqat Komissiyası Zəngəzurda ermənilər tərəfindən dağıdılmış 115 müsəlman kəndində baş verən hadisələri istintaq vasitəsilə müəyyən edərək bildirmişdir ki, məruzə edilən müddətədək həmin kəndlərdə 3257 kişi, 2776 qadın və 2196 uşaq öldürülmüş; 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır.

Vaqudi kəndində ermənilər 400-dən artıq azərbaycanlının sığındığı məscidə əl qumbaraları ataraq sonra da od vurub içərisindəki müsəlmanlarla birgə bu müqəddəs Allah evini yandırmışlar **(2: s.461)**.

Başqa bir mənbədə bu haqda deyilir: Zəngəzurlulardan 400 nəfəri qaçıb məsciddə Allaha sığınanda Andranikin cəlladları bu müsəlmanları da diri-diri yandırmaqdan həzz almışdır ( 7 ) ...

İmişli kəndinə basqın edərək yağmaladıqdan sonra, südəmər uşaqları süngülərə taxaraq göyə qaldırmış, öldürülənlərin meyitlərini tikə-tikə doğramışdılar. Vaqudi kəndindən qaçmaq istəyən uşaq və qadınların isə başlarını qılınc və xəncərlə üzmüş... və insanlıq tarixində, heç bir müharibələrdə belə rastlanmayan bir çox başqa vəhşilik "nümunə"ləri icad etmişlər **(2:** s.461).

Zəngəzur faciələri ilə bağlı arxivlərdə saxlanılan digər çoxsaylı sənədlər sırasında Kərçivan kəndində yüz nəfərdən artıq müsəlmanın toplanaraq öldürülməsi haqda qəza rəisi Tairovun Ordubaddan General-Qubernatora göndərdiyi 11 saylı 6-1-1920-ci il tarixli teleqramı **(31:** v.5), Böyük Vedidən A.Şadlinskinin Taxməkanlı kəndində 37 nəfər müsəlmanın öldürülməsi haqda General-Qubernatora ünvanladığı 147 saylı 7-1-1920-ci il tarix li teleqramı **(31:** v.7), Şuşadan Bakıya XİN-nə göndərilən, daxilolma sayı 301, 21-1-1920-ci il tarixli yanvarın 19-da erməni nizami qüvvələrinin artilleriya bölmələri tərəfindən Əli Kumuşaq, Eyvarlı, Şamauz, Şurpuxa, Morza, Novla, Tarlı, Ain (*bu adların ruscadan çevrildiyini nəzərə almaq gərəkdir* –X.İ.) kəndlərinin tamamilə darmadağın edilməsi, əhalinin köməksiz qalması, çıxılmaz vəziyyətə düşməsi, üstəlik İran yönündən də İran ermənilərinin hücum təhlükəsi olduğunu bildirən Məmməd Həsən Xocayunski, Faruz bəy Sərməstbəyov, Abasbəy Mirzəyev, Bəhram bəy Cavanşir və İsmayıl Muxtarovun imzası ilə göndərilmiş teleqramı **(31:** v.11), Cəbrayıldan məktəb baxıcısı Axundovun Bakıya, Parlamentə ünvanladığı Mcaqandan (başqa sənədlərdə: *Xocalan;* əslində: *Xocahan* –X.İ.) Qaladərəsinədək 6 kəndin darmadağın edildiyi, 9 kəndin yandırıldığı, ermənilərin qadınlara və uşaqlara da rəhm etmədən öldürdükləri barədə 151 saylı 22-1-1920-ci il tarixli teleqramı **(31:** v.15), həmin hadisələrlə bağlı Cəbrayıl qəzasının 3 (*yəqin ki 3-cü* –X.İ.) sahəsinin əhalisinin və pristavının ayrı-ayrılıqda Parlamentə yolladıqları 160 saylı 23-1-1920-ci il tarixli və 140 saylı 21-1-1920-ci il tarixli teleqramları **(31:** v.16), Parlament üzvü Cəlil Sultanovun Koryagindən Azərbaycan Parlamentin Sədrinə, Nazirlər Şurasının Sədrinə, "Müsavat", "İttihad", "Sosialistlər" Parlament fraksiyalarının sədrlərinə, "Azərbaycan" qəzetinə, Parlament üzvü Mirzə Sadıq Axundova ünvanladığı Xocalan və Qaladərəsi arasında 15 kəndin məhv edildiyi haqda 257 saylı 23-1-1920-ci il tarixli teleqramı **(31:** v.17), Azərbaycan Xarici İşlər Nazirinin Ermənistan Xarici İşlər Nazirinə göndərdiyi 301 saylı, 22 yanvar 1920-ci il tarixli məktubu **(31:** vv.28, 28 arxa üz, 29) və s. sənədləri nümunə göstərmək olar.

Zəngəzur qəzasının kəndlərində vəhşiliklə törədilmiş qətllərin, dağıdılmış evlərin hesabatı Zəngəzur qaçqınları haqqında FİK-in 25 fevral–9 mart 1919-cu il aralığında şahidlərin dindirilməsi ilə tərtib etdiyi protokollarda da öz əksini tapır **( 30 )**.

1920-ci ilə dair də Zəngəzurun müsəlman kəndləri üzrə qətliam haqda statistika aparılaraq olaylar sənədləşdirilmişdir **(31:** vv.49, 49 arxa üz, 50)...

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər naziri M.Y.Cəfərovun Ermənistan XİN-ə göndərdiyi 29 noyabr 1919-cu il tarixli notada deyilir ki, 23 noyabr 1919-cu ildə tərəflər arasında silahlı toqquşmaların dayandırılması haqda sazişə baxmayaraq, Sizin qoşunlar tərəfindən Zəngəzur qəzasının Oçunir, Davidan, Atqız, Şabadan, Anisu və Quşnular kəndləri darmadağın edilmişdir – çoxsaylı tələfat var. Kilatlar və çevrədəki müsəlman kəndləri əlaqədən məhrumdur və ermənilər tərəfindən mühasirədədirlər. Dərələyəz qəzasının Köçəbəy-Qısır-Mar, Tır, Qayalı, Leyliqaçan, Baalı, Gögərçin, Qəmkənd və İtdil kəndləri də həmçinin. Sonucda 300 kişi öldürülmüş, 30 qadın əsir götürülmüşdür. Bununla belə, göstərilən istiqamətlərə nizami erməni qüvvələrinin göndərildiyi xəbərləri ulaşmaqdadır **( 3 )** ...



Zəngəzurun müsəlman əhalisinə qarşı ermənilərin hücum və vəhşilikləri 1919-cu ilin dekabrından başlayaraq yenidən şiddətləndi. Müsəlmanlara məxsus Oxçu, Şabadan, Atqız, Pordavdan kəndlərini hədəfə alan yeni qanlı əməliyyatlar başlandı. Bu əməliyyatlarda artıq erməni Ararat Respublikasının rəsmi, nizami ordusu da iştirak edirdi. Ancaq Azərbaycan hökumətinin Ararat Respulikasına göndərdiyi notalara cavab olaraq bu dövlət həmin əməlləri riyakarcasına danaraq bunların Andranik və başqa erməni quldur dəstələri tərəfindən törədildiyini bildirirdi.

Şahidlərin o zamankı ifadələrinə görə, Vaqudi kəndində əsir götürülmüş 15 gözəl müsəlman qız zorlanmaq üçün erməni yaraqlılarına paylanmış, sonra mənəvi və fiziki işgəncələrdən ölmüşdülər. Həmin kənddə ermənilər qadınları öldürməzdən öncə zorlayıb, döşlərini kəsirdilər. Meyitləri o qədər eybəcər hala salırdılar ki, sonra onları tanımaq belə mümkün olmurdu **(2:** s.461).

Müsəlman kəndləri talan edilir və oda qalanırdı, müdafiə olunmaq istəyən kəndlər isə ermənilər tərəfindən mühasirəyə alınır və yerlə yeksan edilirdi.

Həmin hadisələrin, iştirakçısı olan A.Lalayan sonralar yazırdı: " Türk qadınlarının və uşaqlarının, qocaların və yeniyetmələrin məhv edilməsində daşnak dəstələri... maksimum "şücaət" göstərdilər. Daşnak dəstələrinin ələ keçirdiyi kəndlər canlı insanlardan "azad olunur" və eybəcərləşdirilmiş meyitlərlə dolu xarabazarlığa çevrilirdi."

Xatırladaq ki, o dövrdə Zəngəzur Azərbaycanın ərazisi idi və Ararat Respublikası əvvəlcə nə Zəngəzura, nə Naxşıvana, nə də Qarabağa iddia etmirdi. Əksinə, İrəvan onlara güzəşt olunan zaman (29. 05. 1918-də) Erməni Milli Şurası Azərbaycana qarşı heç bir ərazi iddiasının olmadığına və olmayacağına təminat vermişdi...

Zəngəzur əhalisi etnik "təmizləmə" təhlükəsindən qurtulmaq üçün Azərbaycanın paytaxtına müraciətlər edərək kömək istəsə də, bu da nəticəsiz qalırdı.

1920-cı il yanvarın 23-də Cəbrayıldan Hüseyn Axundzadə və b. tərəfindən Azərbaycan Cümhuriyyəti parlamenti və hökumətinə ünvanlanmış teleqram Zəngəzurun o zamankı halını daha gerçək şəkildə əks etdirir: "İkinci dəfə teleqraf edirik, Zəngəzur müsəlmanları sarıdan başınız sağ olsun. Zəngəzurlular nə qədər ağladılarsa da, nalələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı..." **(31:** v.21, 21 arxa üz).

Həmin tarixdə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü Cəlil bəy Sultanovdan da mərkəzi hökumətə və parlamentə teleqram daxil olmuşdu: "İndicə aldığım səhih məlumatlara görə, yanvarın 19-da erməni nizami ordusu 10 top və çoxlu pulemyotlarla Xocahan və Qaladərəsi arasındakı bir sıra tatar (Azərbaycan) kəndlərinə hücum etmişdir. Dünənə qədər 15 kənd məhv edilmişdir." **(31:** v.17)

C.Sultanov Parlamentə göndərdiyi 3-cü teleqramında isə bunları bildirirdi: "Bu gün axşam vaxtı qəza rəisi ilə birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən məhv edilmişdir. Vuruşmada istifadə edən nizami erməni ordusunun sayı on minə çatır... Aldığımız məlumata görə, sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşmək, nəticədə, Naxçıvanla əlaqəni tamamilə kəsmək, beləliklə də, həm Qarabağ, həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Qarabağın dağlıq hissələrinin erməniləri sürətlə üsyana hazırlaşırlar".

Yanvarın 24-də C.Sultanovun Cəbrayıldan göndərdiyi sonuncu teleqramı da bədbin çağırış və notlarla bitir: "...Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər öz qüvvələrini Cəbrayıl qəzasının sərhəddində cəmləşdirirlər. Qarabağı xilas etmək lazımdır. Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir" **(2:** s. 461-462).

Bu teleqramlar Zəngəzurun aqibətini göstərdiyindən, bir qədər əvvələ qayıdaraq Azərbaycan hökumətinin bu qəzą ilə bağlı tədbirlərinə nəzər salaq.

1919-cu ilin iyulunda Zəngəzurda böyük qüvvəyə malik erməni-daşnak nizami ordu hissələri var idi. Onlar Qızılboğaz keçidi vasitəsilə Ermənistan hökumətilə əlaqə saxlayırdılar. 1919-cu il oktyabr ayında Zəngəzurun gəlmə erməni əhalisini azərbaycanlılara və Azərbaycan hökumətinə qarşı qaldırmaq məqsədilə buraya çoxlu təxribat qrupları göndərilmişdi. Üstəlik, bölgəyə Ermənistan Respublikasından yeni nizami qüvvələrin göndərilməsi də planlaşdırılırdı.

**Zəngəzur faciələri ilə bağlı arxiv sənədlərindən bəziləri:**








Копія съ копіи.

ДОКЛАДЪ ПРАВИТЕЛЬСТВУ.

Вотъ уже четыре мѣсяца, какъ разныя части территорій Азербайджана раздираются бандами, которыя подъ именемъ большевиковъ, безотвѣтственныхъ армянскихъ воинскихъ частей и прочее творятъ неслыханныя звѣрства надъ жизнью и имуществомъ мирнаго мусульманскаго населенія. Въ то же время общественное мнѣніе Европы настраиваетъ совершенно противоположно благдаря неправильной информаціи, посылаемой организаторами этихъ бандъ. Въ интересахъ общегосударственныхъ, въ интересахъ пострадавшихъ группъ населенія представляетъ безусловно необходимымъ создать организацію, которая занялась бы I/ Точной регистраціей всѣхъ случаевъ насилія, 2/ обстоятельствъ, при которыхъ совершались эти насилія, 3/ Установленіе виновниковъ и размѣровъ причиненныхъ убытковъ.

Организація эта должна носить характеръ Чрезвычайной Слѣдственной Комиссіи, при чемъ труды этой Комиссіи должны быть оглашены на главныхъ Европейскихъ языкахъ / Русскомъ, Французскомъ и Нѣмецкомъ и, разумѣется, Турецкомъ языкахъ/ и широко распространены.

Къ организаціи этой Комиссіи надо приступить теперь же, ибо многое, что легко установить теперь по горячимъ слѣдамъ, въ смыслѣ опроса лицъ, фотографированія и удержанія другихъ вещественныхъ доказательствъ, позднѣе сдѣлается затруднительнымъ, а можетъ быть совершенно невозможнымъ.

Если Правительство соглашается съ этой цѣлью, то я просилъ бы поручить кому нибудь изъ Министровъ организацію этой Комиссіи и ассигновать временно на расходы этой Комиссіи 50000 рублей.

Министръ Иностранныхъ Дѣлъ М.Гаджинскій.

Елисаветполь 15 Іюня 1919 года.

Съ подлиннымъ вѣрно:

ADA 1061-1-64

В Ы П И С К А

из журнала постановленій Комитета Государственной обороны Азербайджанской Республики отъ 6-го Января 1920 г.

| С Л У Ш А Л И: | П О С Т А Н О В И Л И: |
|---|---|
| Докладъ Министра Внутреннихъ Дѣлъ о необходимости принятія мѣръ противъ продолжающаго разоренія армянами мусульманскихъ селеній Зангезура. | 2. Предложить Министру Иностранныхъ Дѣлъ настаивать передъ Верховнымъ Комиссаромъ Гаскелемъ объ образованіи специальной комиссіи по разслѣдованію послѣднихъ событій въ Зангезурѣ и принятіи съ его стороны мѣръ противъ непрекращающагося уничтоженія армянами мирнаго населенія Зангезура. |

Съ подлиннымъ вѣрно:

За Секретаря Комитета / Подпись/

Вѣрно:

Дѣлопроизводитель

ADA 970-1-113



В Ы П И С К А

изъ журнала постановленій Правительства Азербайджанской Республики отъ 21 марта 1919 года.

| С Л У Ш А Л И: | П О С Т А Н О В И Л И: |
|---|---|
| Докладъ Министра Юстиціи о расширеніи полномочій Чрезвычайной Слѣдственной Комиссіи. | Согласно первоначальному предположенію о полномочіяхъ Чрезвычайной Слѣдственной Комиссіи разъяснить, что послѣдняя имѣетъ всѣ тѣ права, которыя по уставу уголовнаго судопроизводства предоставлены судебной слѣдственной власти. |

Съ подлиннымъ вѣрно: Помощникъ Секретаря /подпись/ Настоящая выписка препровождается Господину Министру Юстиціи для свѣдѣнія. 26 Марта 1919 года, № 2437. Секретарь Правительства /подпись/, Помощникъ Секретаря /подпись/, вѣрно: Секретарь Министра Юстиціи Кланкъ. Копія настоящей выписки препровождается, для свѣдѣнія и руководства г. Председателю Чрезвычайной Слѣдственной Комиссіи. 29 Марта 1919 года № 1483 гор. Баку. Директоръ Канцелярія /подпись/. Дѣлопроизводитель /подпись/. Съ подлиннымъ вѣрно:

Секретарь Комиссіи

7

ПОСТАНОВЛЕНІЕ

1919 года, Ноября "21" дня. Чрезвычайная Слѣдственная Комиссія при Азербайджанскомъ Правительствѣ, разсмотрѣвъ дѣло о разгромѣ мусульманскихъ селеній Зангезурскаго уѣзда Елизаветпольской губерніи, въ связи съ докладомъ Члена той же Комиссіи Михайлова о разгромѣ селенія Катаръ и принимая во вниманіе, что хотя, какъ видно изъ дѣла и упомянутаго доклада, въ показаніи одного изъ допрошенныхъ Комиссіей свидѣтелей Гюль-Ханума Али-бека кызы Мешеди Шафиевой и Ишхана Гасанали оглы имѣются прямыя указанія на виновность по этому дѣлу жит. сел. Арцивуг, Сумбата бека Мелик-Степанова, сел. Тыра Ашота бека Мелик-Карагданова, сел. Хара-бурдина Егора Арутюнова и сел. Годали Арама Бабаева, но указанія эти, какъ основанныя на показаніи одного лишь свидѣтеля, и при томъ слишкомъ общаго и неопредѣленнаго характера, не представляютъ достаточныхъ основаній для привлеченія названныхъ лицъ въ качествѣ обвиняемыхъ, Комиссія, руководствуясь 396 ст. Уст. Уг. Суд., ПОСТАНОВИЛА: вопросъ о привлеченіи названныхъ лицъ къ дѣлу въ качествѣ обвиняемыхъ оставить открытымъ, до выясненія ихъ виновности производствомъ предварительнаго слѣдствія.-

ПРЕДСѢДАТЕЛЬ ЧРЕЗВЫЧАЙНОЙ СЛѢДСТВЕННОЙ КОМИССІИ [signature]

ЧЛЕНЫ КОМИССІИ [signatures]

ADA 1061-1-64



ПОСТАНОВЛЕНІЕ.

1919 года, Сентября "9" дня. Чрезвычайная Слѣдственная Комиссія при Азербайджанскомъ Правительствѣ, разсмотрѣвъ дѣло о разгромѣ мусульманскихъ селеній Зангезурскаго уѣзда, Елизаветпольской губерніи, въ связи съ докладомъ Члена той же Комиссіи Михайлова о разгромѣ селенія Мусульманлыкъ, и принимая во вниманіе, что, хотя, какъ видно изъ дѣла и упомянутаго доклада, въ показаніи одного изъ допрошенныхъ Комиссіей свидѣтелей Магомеда Аббаса-оглы — имѣются прямыя указанія на виновность по этому дѣлу жит. селен. Норадиз Мукана Джевад-довна Нерсеса Арутюнова, селен. Дных Мелика Овакесова и др.

но указанія эти, какъ основанныя на показаніи одного лишь свидѣтеля и при томъ слишкомъ общаго и не-

ADA 1061-1-61

Чрезвычайная Следственная Комиссия при Азербайджанском Правительстве, Баку

№ 690

IŞ

ДЕЛО

О вооруженном нападении и разгроме селения Татар Джебраильского уезда

Başlanmışdır gynyndə il
Начато „ .. " дня 191.. г.

Qurtarmışdır gynyndə il
Окончено „ .. " дня 1920 г.

Na vərəqə листах

ADA 1061-1-40



5

ЗАНГЕЗУРСКІЙ уѣздъ
Ганджинской губерн.
4
Селеніе Шеки

Осенью 1918 года, организованный, вооруженный ружьями и пулиметами отрядъ армянскимъ солдатъ и сельчанъ селеній Ангелаутъ, Каракилиса, Мазра, Шалатъ совершенно неожиданно окруживъ мусульманское селеніе Ш е к и, состоявшее изъ 380 дымовъ, напалъ на него, открывъ учащенную стрѣльбу. Жители селенія бросились спасаться въ близь лежащія пещеры и бѣжали кто куда могъ, оставивъ на произволъ судьбы свои строенія, скотъ и домашнее имущество. Армяне ворвались въ селеніе, грабили имущество, угоняли скотъ, убивали жителей, разрушали и поджигали селеніе. Сожжено 75 домовъ и строеній и разрушено 55. Убито было 140 мужчинъ, 160 женщинъ и 200 дѣтей, ранено 80 мужчинъ, 56 женщинъ и 20 дѣтей. Среди нападавшихъ армянъ сельчане Шекинцы опознали жителей селенія Ангелаутъ, Микиртычъ-бека, Якуба, Бедроса и Крикора по фамиліи пока не выясненныхъ, священника изъ того же селенія, Старшину Акопа Бадалова и Хачатура и жит. города

Герусы Николая Осипова.

Описанныя выше преступленія и опознаніе перечисленныхъ виновныхъ устанавливается показаніями свидѣтелей жителей селеніи Шеки: Кербалая-хана-Кербалая-Курбана-оглы /л.д.4 т.I/ и Абдурахмана-Оруджъ-оглы /л.д. 19 т.2/.-

Въ виду изложеннаго полагалъ бы перечисленныхъ выше армянъ привлечь къ уголовной отвѣтственности по признакомъ преступленій предусмотрѣнныхъ 2 и 4 п.п.269-, 922, 924, 1459, 1453, 1454, 1606, 1627, 1633, и 1634 ст. ст. Улож.о наказ.-

Членъ Слѣдственной
Комиссіи

**ADA 1061-1-88**



6

ПОСТАНОВЛЕНІЕ.

1919 года, Ноября "21" дня. Чрезвычайная Слѣдственная Комиссія при Азербайджанскомъ Правительствѣ, разсмотрѣвъ дѣло о разгромѣ мусульманскихъ селеній Зангезурскаго уѣзда, Гандинской губерніи, въ связи съ докладомъ Члена той же Комиссіи Михайлова о разгромѣ селенія Казанчи и принимая во вниманіе, что хотя, какъ видно изъ дѣла и упомянутаго доклада, въ показаніи одного изъ допрошенныхъ Комиссіей свидѣтелей Рачина Магфрани оглы

имѣются прямыя указанія на виновность по этому дѣлу жит. сел. Гадрут Герасима Теванова, Тевоса Мнацаканова и Шахбаза Вартанова

но указанія эти, какъ основанныя на показаніи одного лишь свидѣтеля, и при томъ слишкомъ общаго и неопредѣленнаго характера, не представляетъ достаточныхъ основаній для привлеченія названныхъ лицъ въ качествѣ обвиняемыхъ, Комиссія, руководствуясь 396 ст. Уст.Уг.Суд., ПОСТАНОВИЛА: вопросъ о привлеченіи названныхъ лицъ къ дѣлу въ качествѣ обвиняемыхъ оставить открытымъ, до выясненія ихъ виновности производствомъ предварительнаго слѣдствія.-

ПРЕДСѢДАТЕЛЬ ЧРЕЗВЫЧАЙНОЙ
СЛѢДСТВЕННОЙ КОМИССІИ

ЧЛЕНЫ КОМИССІИ

Александровъ

**ADA 1061-1-75**

ЗАНГЕЗУРСКIЙ

уѣздъ

5

5

селенiе АЛИДАРА

Въ концѣ ноября мѣсяца 1918 года, организованный, вооруженный ружьями и пулиметами отрядъ сельскихъ армянъ селенiй: Мигры, Оставуръ, Малволанъ, Абiазъ, Галуръ, Ванкъ, Лишкъ, Тештинъ, Курисъ, Акаракъ Вагриваръ, Уджанабасъ, съ участiемъ армянскихъ солдатъ и офицеровъ совершенно неожиданно окружилъ мусульманское селенiе Алидара, открылъ учащенную стрѣльбу и ворвался въ самое селенiе. Жители въ паникѣ бросивъ на произволъ судьбы всѣ свои постройки, домашнее имущество, скотъ, запасы хлѣба, въ паникѣ бѣжали частью въ пограничную Персiю, частью въ мусульманскiя селенiя Зангезурскаго и Джебраильскаго уѣздовъ. Ворвавшiеся въ селенiе армяне и солдаты сжигали и разрушали постройки, грабили имущество, угоняли скотъ

**ADA 1061-1-90**



ПОСТАНОВЛЕНIЕ 7

1919 года, Ноября "20" дня. Чрезвычайная Слѣдственная Коммиссiя при Азербайджанскомъ Правительствѣ, разсмотрѣвъ дѣло о разгромѣ мусульманскихъ селенiй Зангезурского уѣзда, Елизаветпольской губернiи, въ связи съ докладомъ Члена той же Коммиссiи Михайлова о разгромѣ селенiя Алидара и принимая во вниманiе, что хотя, какъ видно изъ дѣла и упомянутаго доклада, въ показанi[illegible] одного изъ допрошенныхъ Коммиссiей свидѣтелей Фаррух бека-Гасан Кулибека Ордубекова и др. имѣются прямыя указанiя на виновность по этому дѣлу жит. селен. Мигри Довуди, Аршака Матевоса Восканянц и др.

но указанiя эти, какъ основанныя на показанiи одного лишь св[illegible]дѣтеля и при томъ слишкомъ общаго и неопредѣленнаго характер[illegible] не представляютъ достаточныхъ основанiй для привлеченiя назва[illegible]ныхъ лицъ въ качествѣ обвиняемыхъ, Коммиссiя, руководствуясь [illegible] ст. Уст. Уг. Суд., ПОСТАНОВИЛА: вопросъ о привлеченi[illegible] названныхъ лицъ къ дѣлу въ качествѣ обвиняемыхъ оставить откр[illegible]тымъ до выясненiя ихъ виновности производствомъ предварительнаго слѣдствiя.-

ПРЕДСѢДАТЕЛЬ ЧРЕЗВЫЧАЙНОЙ СЛѢДСТВЕННОЙ КОММИССIИ Алекперов

ЧЛЕНЫ КОММИССIИ Михайлов

Алимардов

Абиев

**ADA 1061-1-90**

ЗАНГЕЗУРСКІЙ

уѣздъ

15

селеніе ЛЕГВАЗЪ и
отселокъ БАНАВШАПОШЪ

Осенью 1918 года большой организованный, вооруженный отрядъ армянъ селеній Мигри, Вагриваръ, Уджанабасъ, Курисъ, Акоракъ, Лишкъ, Таштинъ, Коларъ, Ванкъ и Астазуръ совершенно неожиданно напавъ на сосѣднее мусульманское селеніе Легвазъ и его отселокъ Банавшапошъ, состоявшее изъ 80 домовъ открылъ по селенію сильную ружейную стрѣльбу. Мусульмане, въ паникѣ бѣжали оставивъ на произволъ судьбы свои усадьбы и все домашнее имущество. Армянскій отрядъ ворвался въ деревню, разрушилъ и сжегъ дома и постройки крестьянъ, похитилъ все домашнее имущество, хлѣбъ въ зернѣ, угналъ селенскій скотъ, убивалъ жителей и въ домахъ и на улицахъ и вблизи селенія искавшихъ

ADA 1061-1-80



ЗАНГЕЗУРСКІЙ

уѣздъ

6

селеніе МЕЛИКЛЫ

Въ мартѣ мѣсяцѣ 1918 года вооруженный, организованный отрядъ армянъ сельчанъ селеній: Каладжихъ, Ангелаутъ, Щалатъ, совершенно неожиданно окружилъ и напалъ на мусульманское селеніе Меликлы, состоявшее изъ 40 дымовъ, открылъ учащенную стрѣльбу изъ ружей, ворвался въ самое селеніе. Армяне начали жечь строенія селенія, грабить имущество, угонять скотъ, убивать жителей. Часть убито было въ самомъ селеніи, часть во время бѣгства. Убито было 95 мужчинъ и 62 женщины и дѣтей.

Среди нападавшихъ армянъ мусульмане опознали жителей селенія Каладжихъ Михаила Торосова, Солтана Амирджанова, Бахшія Худіева, Богдана Ягубова, жителя селенія Ангелаутъ Ивана Айрапетова, Хачатура Карабегова, жителя селенія Каладжихъ Ивана, Хачатура

[illegible] дства

[illegible]варительнаго слѣдствія.-

ADA 1061-1-89

Zəngəzur bölgəsində Ermənistanın silahlı qüvvələrinin iştirakı ilə oradakı gəlmə erməni əhalinin Azərbaycan hökumətinə qarşı hazırlanan qiyamının qarşısının alınması üçün, ölkənin ərazi bütövlüyünün qorunması və azərbaycanlı əhalinin soyqırımının dayandırılması məqsədilə Azərbaycan hökuməti bu qəzaya hərbi dəstələr göndərməyi qərara aldı. Hərbi nazirliyin 1919-cu il 30 oktyabr tarixli əmriylə yaradılan Zəngəzur dəstəsi (1-ci piyada diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlinskinin komandanlığı altında) 1919-cu il noyabrın 3-7-də bölgədə hərbi əməliyyat keçirdi.

Sultan bəy Sultanovun rəhbərliyi ilə yerli partizanlar da bu əməliyyata dəstək verirdilər. Bu döyüşə ciddi hazırlaşan ermənilərin Dığ və Gorus ətrafında 6 minədək canlı qüvvəsi, 4 qaubitsası və 2 ədəd topu vardı. Atəşlərin dəqiqliyi düşmən tərəfin təcrübəli zabitlərə malik olduğunu göstərirdi. Ermənilərin süvari qoşunları da azı 3 bölükdən ibarət idi **(4:** s.377-386**).**

Dığ istiqamətindəki döyüşlərdə Azərbaycan hissələri əvvəlcə uğur əldə etsə də, düşmənin qüvvəcə çoxluğu, dağ şəraitindəki mövqe üstünlüyü və təminat cəhətdən fərqlər, yol problemi və yolların çoxunun Andranik tərəfindən dağıdılması və s. obyektiv səbəblər Azərbaycan qoşun hissələrinin hücumunu səngitdi, nəticədə qüvvələrimiz ilkin mövqeyə qayıtmalı oldu. General C.Şıxlinski mərkəzə göndərdiyi raportunda üç taborlu bir piyada alayının verilməsi ilə döyüş tapşırığının müvəffəqiyyətlə icra olunacağını tam əminliklə bidirsə də **(26:** v.31**)**, problemin Azərbaycan – Ermənistan hökumətlərarası danışıqlar yolu ilə həll edilmə ehtimalını əsas gətirən Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Zəngəzur əməliyyatlarını dayandırdı **(4:** s.388**).**

Əlbəttə, bu Azərbaycan hökuməti tərəfindən səhv yanaşma idi və bunun acısını ola bilsin ki, Azərbaycan və Türk xalqları əsrlərlə çəkəcəkdir. Zəngəzurun ermənilər tərəfindən alınması Türkiyə ilə Azərbaycanın arasını pazla ayırmaq anlamına gəlir ki, həmin ifadəni də ilk dəfə ermənilər özləri işlətmişlər...

1920-ci il yanvarın 13-də Müttəfiq Dövlətlər tərəfindən Gürcüstanla bərabər Azərbaycanın da müstəqilliyi de-fakto tanındı. "Erməni millətçi dairələri Azərbaycanın müstəqilliyinin tanınmasına, iddia olunan Azərbaycan torpaqlarının Ermənistana verilməməsindən qətiyyən razı deyildilər. Dövlətlər arasında sərhəd hələ dəqiqləşdirilməsə də, ermənilər artıq bu məsələnin büsbütün onların xeyrinə həll ediləcəyinə əmin deyildilər. Ona görə də onlar Müttəfiq Dövlətlərin ermənilərə qarşı ərazi məsələsində "səxavət" göstərmələrini gözləmədən yenidən silah gücünə öz niyyətlərinə nail olmağa cəhd göstərdilər" **(27:** v.21,25 – *Bax:* **4:** s.390**).**

1920-ci ildə Yeni Bəyazid qəzasının Basarkeçər mahalı, İrəvan qəzasının Vedibasar mahalı, Gəncə quberniyasının Zəngəzur qəzası, Qazax qəzasının cənub hissəsi; 1922-ci ildə Göycə, Dilcan əraziləri; 1923-cü ildə Naxçıvanın tərkibində olan 9 azərbaycanlı kəndi (ermənipərəst-velikorus Kirovun Azərbaycana rəhbər təyin edildiyi dönəmdə); 1929-cu ildə Qazaxın 5 min hektar torpaq sahəsi, Cəbrayıl qəzasının Nüvədi, Yernəzir və Tuğut kəndləri (erməni Mirzoyanın Kreml tərəfindən Azərbaycana rəhbər təyin edildiyi dönəmdə **– 28:** s.3**)**; 1946-cı ildə daha 4 min hektar Azərbaycan ərazisi Ermənistana peşkəş edildi **( 5 ).**

***

Tarixi qaynaqlardan bəlli olur ki, İqdır və Eçmiədzin qəzalarında azərbaycanlıların qırğını və "etnik təmizləmə" əməliyyatları general Dronun başçılığı altında həyata keçirilmişdir. Onun çətələri və əmrində olan nizami hərbi dəstələr bu bölgədə 60-dan çox kəndi dağıtmış, yandırmış, yerli müsəlman əhaliyə qarşı amansız "tədbirlər"ə əl ataraq faktiki olaraq soyqırımı siyasəti gerçəkləşdirmişlər **(6:** s.170-171**).**



Bütün kişilərini qırdıqlarını Şorca kəndi də daxil olmaqla, bu kəndlərdə ələ keçən qadınların namusuna təcavüz etmişlər **( 15 )...**

Qulu Kəngərlinin yazdığı kimi, erməni başkəsəni Yaponun dəstəsi Dərələyəz mahalındakı Zeytə, Qabağlı, Qurdqulax, Yengicə, Əmağu kəndlərinin əhalisindən barışıq adı ilə silahları yığdırmış, ələ keçən 2 000 nəfəri 200 m. hündürlükdə olan Arpa qayasından uçuruma töküb məhv etmiş, Qarxaça kəndində 500 nəfəri qılıncdan keçirib, bir qismini də dama doldurub yandırmışdır.

Müəllif Dərələyəz mahalında qanlı əməlləri ilə elin yaddaşında mənfur iz buraxmış Samson və Matos Qazaryan qardaşlarının da adını çəkərək onların vəhşi əməllərindən bəhs edir **(13:** s.10-11**).**

Erməni təcavüzlərinin tüğyan etdiyi o dövrlərdə bəzi başqa bölgələrimizdəki kimi, İrəvan bölgəsinin də əhalisinin bir qismi Türkiyə və İrana keçmiş, sonralar onların müəyyən hissəsi geri qayıtmış, bir çoxları isə oralardaca qalıb yaşamağı üstün tutmuşdular.

İran ərazisinə keçib geri dönənlərdən birisi-İrəvan sakini Molla Dərvişzadə molla Abbas oğlu demişdir ki, İrandan vətənə qayıdanda Qəmərli kəndindəki məscidin həyətində körpələrə, uşaqlara və onların kəsilmiş başlarına payaların sancıldığını görüncə dəhşətə gəlib sarsılmışlar **(6:** s.171**).**

Göycə mahalının Krasnoselo rayonunda da erməni millətçiləri "əllərinə keçən qadınları, uşaqları, qocaları bir yerə yığıb quyulara doldurmuş, üstlərinə daş tökmüşlər. Həftələrlə həmin quyulardan insan naləsi eşidilirmiş ki, bundan da daşnaklar, onların başçıları ləzzət alırmış" **(16:** s.81**).**

Andranikin dəstələri Gölkəndə, Toxluca, Şorca, Ardanış və b. kəndlərdə azərbaycanlılara divan tutmuşdur. Şorca kəndində qaça bilməyənləri güllələyir, müxtəlif işgəncələrlə öldürür, uşaqları süngülərin ucunda gəzdirirmişlər **( 17 ).**

Krasnoselonun Ağbulaq, Bəriyabad, Qaraqaya, Əmirxeyir, Yanıqtəpə, Çaykənd, Cıvıxlı, Cil və b. kəndlərinə də hücum edən Andranikin bandaları əhalini qırıb-çatmış, kəndləri dağıtmış, var-dövlətini talan etmişdir. Eçmiədzin bölgəsinin azərbaycanlıları da eyni taleyi yaşamışlar: bu rayonun 700 nəfərdən çox əhalisi olan Ayarlı kəndi bütünlüklə soyqırımına məruz qalmışdır (çoxu işgəncələrlə öldürülmüş, qaçanlar isə dağda-daşda tələf olmuşdur), 800 nəfər sakini olan Qarğabazarı, 500 nəfərə yaxın soydaşımızın məskunlaşdığı Qəmərli kəndi də eyni aqibəti yaşamışdır.

Ümumilikdə isə, Eçmiədzin bölgəsinin Yuxarı Qarxun, Yuxarı Türkmənli, Kiçik Zeyvə, Kürəkənli, Məmmədabad, Molla Dursun, Hacı Qara, Hacılar, Haramlı və b. kəndlərinin azərbaycanlıları da 1918-ci il olaylarında soyqırıma məruz qalmış, ancaq sonralar bu əhalinin az bir hissəsi geri dönmüşdü; bir çox kəndlərə ermənilər yiyələnmiş, bəzi yaşayış məntəqələri isə sözün əsl mənasında xarabalığa çevrilmişdi.

Azərbaycanlıların ermənilərdən sayca çox üstün olduğu Əştərək rayonunun Avan, Angersağ, Aşirabad, Bayram Əli, Qaraceyranlı, Qaraşam, Qızıl Teymur, Qızılxaraba, Qoytul, Qoş, Qoşabulaq, Əgərək, Zeynal Bulağı, Kiçik Kənd, Kötəkli, Nəzirvan, Orqov, Pərsi, Təkiyyə, Tülünabi, Üşi, Uçan, Hamamlı, Haxıs, Cadqıran və b. (cəmi 36 azərbaycanlı kəndi) yaşayış məskənlərinin əhalisi də ermənilərin amansız hücumları səbəbindən soyqırımına məruz qalmışdır.

İndiki Ermənistanın 1918-ci ildə azərbaycanlıların çoxluq təşkil etdiyi Talin rayonu ərazisindəki Aynalı, Şeyx Hacı, Aralıx, Aşağı Ağcaqala, Aşağı Qaraqoymaz, Aşağı Pirtikən, Baxçacıq, Quldərviş, Əkərək, Yeşil, Yuxarı Ağcaqala, Yuxarı Qaraqoymaz, Karvansara, Mehriban, Sultanabad və b. kəndlər erməni hökumətinin nizami quldur dəstələrinin saldırmalarına uğrayaraq, soyqırımı və didərginlik taleyi yaşamışlar. Sonralar bu kəndlərə gəlmə ermənilər köçürülmüş, azərbaycanlıların da az bir hissəsi geri qayıtmışdır. Türkiyə ilə sərhəddə yerləşən Sərdarabad (1930-cu ildən: "Hoktemberyan") şəhəri və eyniadlı rayonun ərazisindəki Ağcaarx, Kiçik A'murlu,

Təzəkənd, Xeyirbəyli, Xocayarlı, Hacı Bayramlı, Hasar, Qatırabad, Şahverdi, Sofiabad, Kərimarx, Canfida və b. kəndlərdəki azərbaycanlılar erməni daşnak hökumətinin formal və qeyri-formal silahlı qüvvələri tərəfindən vəhşicəsinə qırılmış, onların doğmaca yerlərinə ermənilər köçürülərək, sonralar qayımaq istəyən azərbaycanlılara imkan verilməmişdir **(6:** s.175-177**)**.

Andranik, Yapo və Dronun hərbi cinayətkar dəstələri əhalisinin təqribən 90%-i azərbaycanlılar olan Vedibasar mahalına da qan uddurmuşdular.

Vedinin Avşar, Aysar, Ağkilsə, Aşağı Ərmik, Bayburt, Bağçacıq, Böyük Vedi, Böyük Gilanlar, Qaladibi, Qaraqoyunlu, Qaratorpaq, Qarağac, Qarın Burun, Qədirli, Dəhnəz, Daşlı, Dəvəli, Əzizkənd, Əli Qoruğu, Əliməmməd, Əlimərdan, Əsni, Zimmi, İmirzik, İnqala, Yaycı, Yellicə, Yeni kənd, Yengicə, Yeranos, Yuxarı Əmrik, Karvansara, Kiçik Vedi, Kolanlı, Göydüz, Körpükənd, Küsüs, Manquk, Reyhanlı, Sarıxanlı, Seyid Kotanlı, Taytan, Tərəkəmələr, Xalisə, Xosrov, Çobandərə, Çimkənd, Şahablı, Şidli, Şirazlı, Şıxlar və b. kəndləri yuxarıda adı çəkilən erməni daşnak komandanlarının amansız, vəhşi çətələrinin saldırmasına uğramışdır. Andranikin dəstələrinin Xalisə, Çimənkənd, Şidli, Şirazlı kəndlərində törətdiyi vəhşiliklər xüsusilə fərqlənirdi **(6:** s. 178**)**.

Vedinin 1918-ci il hadisələrində düşdüyü ağır vəziyyət Əziz Ələkbərlinin, Telli Pənahqızının və Vedi ahıllarının şahid yaddaşından o olum-ölümlü dövrləri bu günün və gələcəyin-tarixin yaddaşına daşıyan başqa müəlliflərin kitab və məqalələrində daha geniş əksini tapmışdır.

Vedibasarlıların soyqırımından bəhs edən Əziz Ələkbərli yazır ki, Türkiyədən məğlub olaraq qaçmış "Van" və "Sasun" polkları kəndləri toplardan və zirehli qatardan atəşə tutur, öldürülənlərin qarnını yırtır, gözlərini oyur, bəzi cəsədləri yandırır, əhalinin var-yoxunu talayır, eşidilməyən-görünməyən vəhşiliklərə əl atırdılar. *(Bu deyilənlər 16-19 avqust 1919-cu il tarixli, Paris Sülh Konfransının sədrinə ünvanlanmış sənəddə öz əksini tapıb).* Qaraxaç, Qədirli, Qarabağlar, Ağasıbəyli, Dəhnəz kəndlərinin kişilərini isə ermənilər son nəfərə kimi qətlə yetirmişlər **(18:** s.79-80**)**.

Telli Pənahqızı da Vedi və vedililərə həsr etdiyi "Ayrılıqdan sonra çəkilmiş şəkillər" kitabında o dövr hadisələrinin əsas məqamlarına toxunaraq yazır:

"Müdafiyeyi-məzluman" siyasi təşkilatının başçısı Hüseynağa Şahtaxtinskini 1917-ci ildə daşnakların gizli fitvası ilə qətlə yetirdilər...

"Seyfulla Süleymanovun (sonralar çekist olmuşdur-X.İ.) neçə il qabaq söylədiyi mülahizələr getdikcə gerçəkləşirdi. 1918-ci ildə daşnak orduları azərbaycanlılara qarşı amansız və qanlı təcavüzlərini açıq-aşkar həyata keçirməyə başladılar. Onlar böyük qüvvə ilə Vedi mahalına, Şərur, Naxçıvan ərazilərinə hücuma keçdilər..."

*(Telli Pənahqızının bildirdiyi kimi, Abbasqulu bəy Şadlinski (Şadlı – X.İ.) və onun Seyfulla Süleymanov kimi igid silahdaşları xarici qüvvələrdən silah və hər cür dəstək alan erməni komandanları Andronik, Nijde (Njde), Dro, Vahan, Eğazar kimilərinə qarşı bölgə türklərini (müsəlmanlarını) səfərbər edirdilər.*

*Sonralar, silah-sursatın tükəndiyi bir dövrdə Abbasqulu bəy ən çox hücuma məruz qalan Vedi və Şərur mahalının əhalisini müvəqqəti olaraq İrana ( Güney Azərbaycana – X. İ.) köçürmək zərurəti qarşısında qalmışdı...*

*1921-ci ildə İrandan qayıdan Abbasqulu bəy "Qırmızı Tabor" adlı məşhur sılahlı dəstəni yaradaraq Qəmərli cəbhəsində, Şərur, Naxçıvan istiqamətində, Sisyan, Zəngəzur bölgələrində daşnak ordularını yerlə yeksan etmişdi* – **19:** s.18-20**)**.

Quqark rayonunun çoxu azərbaycanlılar, az bir qismi Türkiyədən köçmüş ermənilər yaşayan Vartanlı kəndində isə 1000-dən çox azərbaycanlını və bir neçə yüz ermənini iclas adı ilə bir komaya yığıb, sonra, bu kənddə ermənilərlə azərbaycanlıların mehriban yaşaması çağırışıyla iclası açan keşiş Vartanı və başqa erməniləri bayıra çıxararaq içəri doluşan erməni silahlıları samanı neftlə isladıb



komanı yandırırlar. Vəli Həbiboğlunun yazdığına görə, bu hadisə ilə bağlı Rusiya Dövlət Arxivində saxlanan sənəddə isə 1918-ci ilin avqustunadək burada erməni millətçiləri tərəfindən qətlə yetirənlərin ümumi sayı 165 nəfər göstərilir ki, bu da həqiqətdən çox uzaqdır.

Vəli Həbiboğlunun qeyd etdiyi kimi, soyqırıma məruz qalmış Qərbi Azərbaycan bölgələrindən biri də İrəvanın şimal-şərqində yerləşən Kotayk rayonudur. V.Həbiboğlu 1918-ci ildə azərbaycanlıların çoxluq təşkil etdiyi bu bölgənin Andranik və daşnak Ermənistan hökumətinin başqa cani komandanlarının quldur, qaniçən dəstələri tərəfindən soyqırıma uğradılmış kəndlərinin adını çəkir: Avdallar, Artiz, Aşağı Qaxt, Başkənd, Bozkosa, Qayaxaraba, Qaraçala, Qaraçörək, Qızqala, Qurbağalı, Damagirməz, Dəlləkli, Əkərək, Zər, Yelqovan, Yellicə, Kamal, Kənkan, Kərpicli, Küzəcik, Göykilsə, Güllücə, Nurnus, Oxçu qalası, Təzəxarab, Çobangörükməz və başqaları. Bu kəndlərin əhalisinin çoxu öldürülmüş, işgəncələrə məruz qalmış, qaçaraq sağ qalanlar isə acı didərgin həyatı yaşamışlar **(6:** s.179-181**)**.

Basarkeçərin azərbaycanlılar yaşayan 31 kəndi (xatırladaq ki, 1918-ci ildə bu bölgədə cəmi 6 erməni kəndi vardı) də erməni vəhşiliyinin, Andranikin sağ əli olan rotmistir Silikov qardaşları və mayor Vahramın başçılıq etdiyi qərargahın hədəfinə çevrilmişdi. Müsəlmanlara rəhm edən hər hansı ermənin dərhal güllələnməsi haqda Andranikin verdiyi əmr erməni banda başçılarını daha da azğınlaşdırmışdı.

Beləliklə, Basarkeçərin Şişqaya kəndində 640 nəfər (380 nəfəri qadın, qoca və uşaq olmaqla), Kiçik Məzrədə 90 nəfər (2 nəfər qadın isə əsir kimi aparılmışdı), Hüseynquluağalıda 30 nəfər, Daşkənd kəndində 21 nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, şişqayalıların bir çoxu daş-qalaq edilmiş və ya kürəklərinə qaynar samovar bağlamışlar.

40 000 nəfərdən çox azərbaycanlı isə bu hadisələrdən sonra, 1918-ci ilin əvvəlində ayaqyalın, başıaçıq ana yurdlarını buraxıb Kəlbəcər-Qumlubulaq aşırımı ilə Azərbaycana üz tutmuşdur **( 20 )**.

Tarixi qaynaqlardan məlum olur ki, ermənilər Göycənin Çamırlı, Mədinə, Bağlı, Anaqızoğlu, Qışlaq, Qulalı, Alçalı, Kiçikqaraqoyunlu, Küsəcik və Dəliqardaş kəndlərini də viran qoymuş, altını üstünə çevirmişlər.

Basarkeçərdə türk əhalini məhv edən Andranik yanlısı mayor Vihramın öz "qəhrəmanlığı"nı qürurla etiraf etməsi sənədlərdə öz əksini tapmışdır **( 21:** s.50**)**.

Türk Ordusunun 1918-ci il ilin iyun ayından etibarən Cənubi Qafqaz, İran və Dağıstan müsəlmanlarını soyqırımdan və erməni-rus, erməni-Antanta işğalından qurtarmaq üçün xilaskar hərbi əməliyyatlara başlaması bu qırğınların əksər bölgələrdə bir müddət dayandırılmasına səbəb oldu. Bununla əlaqədar qaçqınların bir hissəsi öz viran olmuş, talanmış yurdlarına qayıtdılar. Ancaq gələcəyə yeni erməni məkrləri planlaşdırılırdı.

1919-cu ilin yazında, qırğınların Göycə bölgəsində müvəqqəti səngidiyi vaxtlar, ermənilərin Göycə agsaqqallarına göndərdiyi "barışıq və gedən qaçqınların qayıtmasına razılıq" ismarıcından sonra, Göycənin Daşkənd kəndində Tanrıverdi kişinin 150-200 nəfər qonaq-qara tutan evində erməni və azərbaycanlıların toplaşaraq yeyib-içməyə aludə olması, hətta Aşıq Ələsgərin şəyirdi Aşıq Nəcəfin də məclisi şənləndirməyi, azərbaycanlıların çox sayda qoyun-qurbanlıqlar kəsməsi... və qəflətən erməni silahlı dəstələrinin tökülüb onları mühasirəyə alması və hamısını son nəfərədək qırıb başlarını hələ də qaynayan qurban qazanlarının yanına atması ermənilərdən dost olmayacağını göstərməklə yanaşı, bizim də başımıza gələnlərin çoxunun babalarımızın, xanlarımızın-sultanlarımızın (indiki dövrdə isə özümüzün) ehtiyatsızlığı sayəsində baş verdiyindən ciddi nəticələr çıxarmağımızı tələb edir **( 22 )**.

Göycə qəzasında təkcə 14 aprel 1919-cu il hadisələrini – yəni buradakı növbəti türk qırğınlarının yeni dalğasını özündə əks etdirən yerli əhalinin ərizə və

şikayətlərindən ibarət əski əlifba ilə yazılmış sənədlər toplusu 233 səhifəlik dəlillər külliyyatını təşkil edir ( 29 )....

1919-cu il mayın 17-də nəşr olunmuş "Azərbaycan" qəzetinin yazdığı kimi, bütün bu vəhşiliklərdə "Məqsəd Göycə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləmək" idi.

Aşağıdakı sətirlər də o dövrdə çıxmış "Azərbaycan" qəzetinə məxsusdur: "Artıq Göycə rayonunda müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd aprel ayının 13-20 tarixlərində dağıdılmışdır" ( 10 : s.7)...

## *GÖYCƏ HADİSƏLƏRİ*

5-ci əsrin sonlarından "Göycə" adlandırıldığı güman olunan bu bölgə Azərbaycanın tarixi-coğrafi bölgələrindəndir. Şah İsmayılın 1510-cu ildə verdiyi fərmanda da "Göycə mahalı" qeydi vardır. Rus işğalından sonra 1849-cu ildə yaranan İrəvan quberniyasının Nor-Bayazet (Yeni Bəyazid) qəzasına daxil edilmişdi. 1917-ci il Qafqaz təqvimindəki bilgiyə görə, Yeni Bəyazid qəzasının ərazisi 4 122, 76 kv. verst, əhalisi 174 111 nəfər idi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Yeni Bəyazid qəzasının 1-ci və 2-ci polis sahələri mübahisəsiz, 3-cü polis sahəsinin isə bir qismi Ermənistanla mübahisəli ərazi sayılırdı və Azərbaycan daxilində Göycə dairəsi təşkil edilmişdi. XİN-nin məlumatına görə, "Göycə rayonu" adı altında Göycə gölü və Kiçik Qafqaz dağları arasında yerləşən İrəvan quberniyasının Yeni Bəyazid qəzasının şərq hissəsi nəzərdə tutulurdu. Əhalisi tamamilə müsəlmanlardan ibarət idi. Bu əhali özlərini Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində hesab edirdi, buna görə də Göycəyə qeyri-rəsmi yiyələnib, gələcəkdə rəsmiləşdirmək niyyətilə ermənilər 1919-cu ildə Zod, Daşkənd, Basarkeçər və b. kəndlərdə azərbaycanlılara qarşı soyqırım törətdilər ( 23: s.400 ) .

Türkiyənin Bəyazid şəhərindən Rus işğalından sonra Göycəyə köçürülüb gələn ermənilər burada həmin adı Nor (Yeni) Bəyazid kimi rəsmiləşdirərək Göycə bölgəsindəki qəzaya belə bir gəlmə adın verilməsinə nail olmuşdular. İ.Şopenin 1829-1832-ci illərdə apardığı kameral təsvirə görə, Göycə mahalında 59 kənd vardı. Rusiya tərəfindən buraya ermənilərin köçürülməsi ərəfəsində 999 azərbaycanlı ailəsi (yaxud 5607 nəfər) və cəmi-cümlətanı 15 erməni ailəsi (90 nəfərlik) yaşayırmış... Ancaq sonra çar Rusiyası ümumilikdə Qafqaza, həmçinin Göycəyə külli miqdarda erməni əhalisi köçürərək balansı pozmağa nail oldu. Müqayisə üçün bildirək ki, təkcə Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra buraya Türkiyədən 1485 erməni ailəsi (8557 nəfərlik) köçürülmüş... və sonralar bu köçürmələr azərbaycanlıların nisbətinin 29,1%-ə düşməsinə gətirib çıxarmışdı...

Yeni Bəyazid qəzası tərkibindəki Dağlıq zolağın 5-ci sahəsinin müsəlman əhalisi üzrə müvəkkilinin 1919-cu il mayın 17-də verdiyi məlumatda bildirilir ki, 1919-cu il 13 apreldən etibarən Ararat Respublikası nizami hərbi hissələri Göycə bölgəsinin Yeni Bəyazid qəzası ərazisindəki dinc müsəlman əhali üzərinə hücum etmişlər. Ermənilərin niyyəti Göycə gölünün şərq və şimal hissəsini buradakı müsəlmanlardan "təmizləmək" idi. Nəticədə Yeni Bəyazid qəzasındakı 84 müsəlman kəndi dağıdılmış, yandırılmış, əhalisi də qırğına məruz qalmışdır... Erməni təbiri ilə desək, Göycə müsəlmanlardan qanla "təmizlənmişdir".

Bu hadisələrdən sonra baş verən növbəti xəyanət-bolşeviklərin (o cümlədən Azərbaycan bolşeviklərinin, bəlkə də zorən) Göycəni ermənilərə güzəşt etməsi sonucunda bu qədim torpaq da itirildi, beləliklə Azərbaycan Göycə boyda da kiçilməli



oldu. Ermənistan SSR hökuməti öz qələbəsini tarixiləşdirərək Göycədəki türk yer adlarını da ermənicə əbədiləşdirməyə çalışdı: beləliklə Basarkeçər-Vardenis, Çəmbərək-Krasnoselsk, Qaranlıq-Martuni, Kəvər-Kamo adlandırıldı (2: s.436)...

**Qeyd:** Əslində bolşevikləşmədən sonra da Azərbaycan hökuməti Nərimanovun öndərliyi ilə erməni hərbi təcavüzünə və Ermənistanın torpaq iddialarına qarşı prinsipal mövqedə dayanaraq bir müddət ciddi mübarizə aparmışdı. Ancaq şərtlər Azərbaycanın xeyrinə olmadığı üçün yuxarıda sadalanan itkilər qaçılmaz oldu. Xatırladaq ki, hələ Müsavat hakimiyyəti dönəmindən Nərimanov Ermənistanın təcavüzünə qarşı fəal çıxış edir, Moskva hökumətinə müvafiq arayışlar göndərirdi. Onun Çiçerinə yazdığı (surəti Vladiqafqaza: Orconikidzeyə) belə məktubların birinə hətta Qafqazın kommunist liderləri Mdivani, Mikoyan, Nuricanyan da imza atmışdılar **(32: v.115).** Ermənistan Xarici İşlər Naziri Ohancanyanın Sovet Azərbaycanı hökumətinin 8 may 1920-ci il tarixli notasına cavabı da Nərimanov hökumətinin əsl mövqeyini ortaya qoyur. Həmin notadakı faktlar Ohancanyanı silkələdiyindən əməli və punktual cavab verə bilmədiyi üçün mətləbdən yayınaraq yazır ki, indi Azərbaycanda Sovet çevrilişinin məqsədi aydınlaşır. Bu çevriliş bəy-xan müsəlman hökumətini guya inqilabi sosialist hökuməti ilə əvəzləyib, əslində isə Azərbaycanın dövlət həyatında və siyasi həyatında heç bir niyyət dəyişikliyi yoxdur. Azərbaycanın guya inqilabi və sosialist olan hökumətinin ilk addımları Qarabağ və Zəngəzur ermənilərinin kölələşdirilməsinə yönəlib **(32: v.44)...** Bu kimi tarixi sənədlər də Nərimanov siyasi məktəbinin sağlam və milli təfəkkürə söykəndiyini, ancaq tarixin keşməkeşlərində bir neçə məcburi pis variantdan nisbətən məqbulunu seçmək zorunda qaldığını sübut edir.

**Ədəbiyyat:**


1. *Müsəlman Milli Şurasının yığıncağının 3 saylı protokolu, Tiflis şəhəri, 29 may 1918-ci il:* ARDA, f. 970, siyahı 1, iş 1, vərəq 51-52.
2. AXCE, 2 c.-də, II c., Bakı, 2005.
3. Газета «Азербайджан», Баку, 3 декабря 1919 г., № 262.
4. Suleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı, 1998.
5. İnqilab İsmayılov. Ermənilərin soyqırım, repressiya və deportasiya siyasəti. "Azərbaycan" qəzeti, Bakı, 24 aprel 2001-ci il.
6. Vəli Həbiboğlu. Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası. Bakı, 2002.
7. Azərbaycan Mərkəzi Dövlət Arxivi, fond 970, siyahı 1, iş 161, vərəq 1-9.
8. Azərbaycan Mərkəzi Dövlət Arxivi, fond 895, siyahı 4, iş 65, vərəq 80.
9. Azərbaycan SSR EA-nın xəbərləri. Tarix, fəlsəfə, hüquq. 1989, №2.
10. Teymur Əhmədov. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri. Bakı, 2001.
11. Азəрбајҹан ССР ЕА-нын хәбәрләри. Тарих, фәлсәфә, һүгуг. 1990, №1.
12. Чәмил Һәсәнов. "Аг ләкә"ләрин гара көлкәси. Бакы, 1991.
13. Q.Kəngərli. Erməni lobbisi, Azərbaycan faciəsi. Bakı, 1991.
14. "Azərbaycan" qəzeti, Bakı, 26 fevral 2002-ci il.
15. "Azərbaycan" qəzeti, Bakı, 9 fevral 1919-cu il.
16. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995.
17. "Azərbaycan" qəzeti, Bakı., 8,12 fevral 1919-cu il.
18. Əziz Ələkbərli. Qərbi Azərbaycan. I cild, Vedibasar mahalı. Bakı, 2000.
19. Тељли Пәнаһгызы. Ајрылығдан сонра чәкилмиш шәкилләр. Бакы, 2001.
20. "Вәтән сәси" гәзети, Бакы, 4 ијул 1990-чы ил.
21. Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 1989, №4.
22. Вәли Илјасов. Sındırılan saz. "Азәрбајҹан" гәзети, Бакы, 24 апрел 2001-чи ил.
23. AXCE, 2 c.-də, I c., Bakı, 2004.
24. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı,1996.
25. AR Mərkəzi Dövlət Arxivi f.970, siyahı 1, iş 163.
26. Mərkəzi Dövlət Arxivi f. 2898, siy.1, iş 6.
27. Mərkəzi Dövlət Arxivi f. 970, siy.1, iş 171.

28. Seymur. Azərbaycana ermənilər də rəhbərlik edibmiş., "Yeni Müsavat" qəzeti, Bakı, 24 yanvar 2011-ci il.
29. ADA f.970, siy.1, iş 82.
30. ADA f.1061, siy.1, iş 91.
31. ADA f.1061, siy.1, iş 113.
32. ADA f.28, siy.1, iş 99.

*Əlavə mənbələr:*

Адрес-календарь Азербайджанской Республики на 1920 г., Баку, 1920; Щепотьев А. Доклад о спорных кавказских территориях, на которые имеют право самоопределившиеся азербайджанские тюрки, Известия АН Азерб. ССР (серия истории, философии и права), 1990, №2; Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı, 2002; Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, Bakı, 1990.

## *QARABAĞDA AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLARI (1918-1920)*

Ermənilərin Qarabağa aid Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları Azərbaycan hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyası (FTK) tərəfindən araşdırılıb, çoxsaylı şahid ifadələri, baxış protokolları, məruzələr və faktlara söykənən materiallarla təsbit edilmişdir. FTK-nin üzvü N.Mixaylovun məruzələrinin birində deyilir ki, I Dünya Savaşı cəbhələrində Sovet Rusiyasının müharibələri dayandırması səbəbilə orada xidmət göstərən ermənilərin öz silah-sursatlarıyla birgə fərarilik etməsi nəticəsində bu bölgə erməniləri də kifayət qədər silahlanmışdılar. Ancaq Cavanşir qəzası müsəlmanları isə sadəlöhvlüklə bu prosesi müşahidə edərkən, silahların yaxın gələcəkdə məhz onlara qarşı yönələcəyini xəyallarına belə gətirmirdilər.

N.Mixaylov öz məruzəsində göstərir ki, 1917-ci ilin dekabrından etibarən erməni-daşnak çətələri Kolanı icmasının azərbaycanlı kəndlərinə həmlə edərək onlardan hələ Yer üzündə mövcud olmayan (*hətta elan belə edilməmiş* –X.İ.) Ermənistan Respublikasını tanımağı tələb edir və guya bu dövlət üçün azərbaycanlılardan zorla vergi yığırdılar (**1:** s.131-132).

1918-ci ilin avqustunda ermənilər Şuşada qurultay çağırdılar. Həmin qurultayda 7 nəfərlik bir qurum seçib onu Qarabağ hökuməti adlandırdılar və bütün hakimiyyətin ona verilməsini tələb etdilər (**7:** s.376).

Azərbaycanlılar da Şuşada özünümüdafiə dəstəsi yaratmağa məcbur oldular. Andronikin dəstəsi ilə Zəngəzura gəlməsi isə Qarabağda hərbi durumun daha da zorlaşmasına zəmin yaradırdı. 1918-ci ilin iyun ayının 22-də Osmanlı Ordusunun bölgədəki 12-ci firqəsi tərəfindən ağır zərbə alan Andronik və onun tör-töküntüləri Naxçıvana çəkilərək orada öz vəhşiliklərini sürdürürdülər. 4-cü korpusun tabeçiliyində olan 11-ci Qafqaz firqəsi Naxçıvana doğru hərəkət edərək, 3000 piyada və 600 süvaridən ibarət erməni quldur dəstəsini əzişdirdi; beləliklə, iyulun 20-də Naxçıvan ətrafında vəziyyət sabitləşdi. Bu zərbədən sonra Andronik öz tör-töküntülərini Zəngəzura və Qarabağa topladı; burada da kütləvi qırğınlara rəvac verdi.

Avqustun 9-da Nuru Paşaya göndərdiyi məktubda Qarabağ məntəqəsi komandanı yarbay İsmayıl Həqqi bəy bölgədə genişlənən təcavüzün qarşısını almaq üçün yerli



qüvvələrin yetmədiyini, bu səbəbdən də Qarabağa əlavə hərbi qüvvələr göndərilməsini xahiş edirdi (**7:** s.377-378).

1918-ci il sentyabrın 25-də Qafqaz İslam Ordusunun Cəmil Cahid bəyin komandanlığı altında olan hissələri Qarabağa daxil olaraq, orada üç həftəyə başa çatdırılması nəzərdə tutulan xilaskarlıq missiyasına başladılar.

Qarabağ hərəkatına xüsusi önəm verdiyi üçün oktyabrın 1-də Nuru paşa özü də Ağdama gəldi (**7:** s.380-381).

Erməni tərəfi Qafqaz İslam Ordusunun basqı və hücumu nəticəsində öncə uğursuzluğa düçar olsa da, sonralar aldığı əlavə qüvvə və maddi yardımlar sayəsində bölgədə durumu yenidən mürəkkəbləşdirməyə müvəffəq oldu.

"Bundan başqa erməni millətçiləri beynəlxalq aləmdə də kifayət qədər səs-küy salaraq türk qoşunlarının Qarabağda "günahsız" erməniləri qırması barədə xəbərlər yayırdılar. Xüsusilə Osmanlı ordusu Baş Komandanlığının Ərkani-hərbiyyə rəyasətini öz üzərinə götürmüş yeni Sədrəzəm Əhməd İzzət Paşanın Qafqazda və o cümlədən Azərbaycandakı vəziyyətə kifayət qədər bələd olmaması ermənilərin ona müəyyən təsir göstərməsinə yol açırdı. Onunla görüşmək imkanı olan erməni nümayəndələrinin hələ Bakının azad edilməsi zamanı (*guya* –X.İ.) 30 min erməninin öldürülməsi, indi isə bu qırğınların Qarabağda davam etdirilməsi barəsindəki hay-küyləri Əhməd İzzət Paşanı Azərbaycanla bağlı əvvəlki hökumətin yeritdiyi siyasətdən geri çəkilməyə sövq etdi və oktyabrın 23-də o, Qarabağ hərəkatının dayandırılmasını tələb etdi.

Əhməd İzzət Paşa kabinetini belə addımlar atmağa bir tərəfdən də Müttəfiq Dövlətlər məcbur edirdilər. Ermənilər öz təbliğatları ilə Müttəfiq Dövlətlərdən istifadə etməyə çalışdıqları kimi, Müttəfiq Dövlətlər də ermənilərdən istifadə etməyə çalışır və onların hay-küylərinin həqiqət olması kimi qələmə verərək bu yolla Türkiyəni Qafqazdan tamamilə sıxışdırmağa cəhd göstərirdilər. Türkiyə müttəfiqlərinin I Dünya Müharibəsində məğlub olması isə Türkiyəni Amerika və İngiltərənin hər cür tələbləri qarşısında müqavimətsiz qoymuşdu" (**7:** s.389-390).

Beləliklə dezinformasiya və beynəlxalq təzyiq sayəsində türk ordusu Qarabağdan çəkilərək, bölgənin yeni təhlükələr ocağına dönüşməsinin qarşısını almaq missiyasını yarıda dayandırdı...

Təbii ki, bu hadisələrin ardınca Qarabağda Azərbaycan türklərinə qarşı yeni bir qətliam dalğası da başladı...

***

Erməni basqınlarından zara gəlmiş Cavanşir qəzasının bir qisim kəndlərinin, o sıradan İmarət-Qərvənd kəndinin əhalisi və Umudlu kəndinin bir hissəsi payızda böyük təlafatla Murovdağı aşaraq, bu qəzanın aran kəndlərinə köç edib orada məskən salırdılar.

Qarabağda 1918-ci il və 1919-cu ilin əvvəllərində soyqırıma məruz qalan qəzalardan biri də Cəbrayıl qəzası idi. Bu qəza 12 azərbaycanlı və 3 erməni kənd icmasından ibarət idi. FTK-nın məlumatlarından göründüyü kimi, 1918-ci il dekabrın ilk günlərindən ermənilər əvvəlcə tək-tək azərbaycanlıları qətlə yetirib mal-heyvanlarını sürüb aparır, sonra kəndlərə mütəşəkkil basqınlar həyata keçirirdilər. Bir sözlə arxivlərimizdə 1918- ci ilin sonu 1919-cu ilin əvvəllərində ermənilər tərəfindən Cəbrayıl qəzasının Eyvazlı, Dolanlar, Şıxlar, Məlikli və b. kəndlərinə hücumlar və müsəlman əhalinin əmlaklarının yandırılması və var-dövlətlərinin talan edilməsi barədə çoxlu faktlara söykənən məlumatlar var.

Ancaq Qarabağda ermənilərin azərbaycanlılara vurduğu ən böyük zərər isə Şuşa qəzası ərazisində idi.

Şuşa-Qaryagin (Cəbrayıl) və Şuşa-Əsgəran yollarını silahlı çətələr vasitəsilə nəzarətə alan erməni yaraqlıları bu yollarda azərbaycanlıları qarət və tərk-silah edir, getdikcə bu quldur.dəstələri nizamlı hərbi birləşmələrə çevirib burada yaşayan erməni əhalisini Azərbaycan hökumətinə tabe olmamağa təhrik edirdilər.

Şahid bəlgələrinə görə, 1918-ci ilin dekabrında ermənilər Qoqo kəndinin azərbaycanlılar yaşayan 55 evini dağıtmış və yandırmışlar. Mülkədar Cavanşirin malikanəsini də viran qoymuş, ailə başçısı Əsəd ağa Cavanşiri, oğlu Soltan ağanı, qızı İranə bəyimi, qardaşı qızı Fatma bəyimi, evin qulluqçusu və nökərlərini vəhşicəsinə qətlə yetirmiş, avandanlıq, mal-qara və kənd təsərrüfatı alətlərini qarət etmişdilər.

Erməni millətçiləri Tuğ kəndinin azərbaycanlılar yaşayan hissəsini dağıtmışdılar. Salakətin, Şıxımlı, Gövşadlı, Divanlılar və Çərəküz kəndlərini tamamilə dağıdaraq yandırmış, əmlaklarını talan etmişlər.

Şahid ifadələrinə söykənən FTK məlumatından aydın olur ki, təkcə Şuşa qəzasında erməni basqınları sayəsində qarət edilmiş və yandırılmış azərbaycanlı kəndlərində soydaşlarımızdan 100-dən çoxu öldürülmüş, onlara 100 milyon manatdan çox ziyan dəymişdir.

Azərbaycan hökuməti Bakıdan İngilis komandanlığının razılığını alaraq 1919–cu ilin yanvarında Azərbaycanın Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ərazisindəki bu qanlı soyqırımı hadisələrini durdurmaq üçün general-qubernatorluq yaratdı. Ermənilər Şuşadakı erməni milli şurasının təlimatı və əmri ilə hərəkət edərək bu general-qubernatorluğu da tanımadılar. 1919-cu il iyunun 1- də çoxlu sayda silahlı ermənilərin gizli yolla Şuşaya daxil olması haqda bilgi əldə edən Şuşadakı Azərbaycan hakimiyyət orqanları azərbaycanlılara məxsus Üçtığ yüksəkliyində gözətçilərin sayını artırdı. İyunun 4-də Üçtığ yüksəkliyi tərəfindən gözlənilmədən başlayan atışma tezliklə bütün şəhəri bürüdü. 50 nəfərə yaxın erməni silahlıları azərbaycanlı əsgərlərin səngərlərinə hücum etdi. Ermənilər tərəfindən hücuma rəhbərlik edən Arzumanov və başqaları məhv edildi, azərbaycanlılardan isə 3 əsgər həlak oldu **(1: s.131-132).**

1920-ci ilin yazında Qarabağ bölgəsində qiyam qaldıran ermənilər əslində o dövrlərdə şimal sərhədlərimizə yaxınlaşan rus bolşevikləriylə birgə Azərbaycana qarşı ortaq sui-qəsd planı hazırlamışdılar **(2: s.94-95).**

Martın 22-də gecə saat 3-də erməni qüvvələrinin eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən Azərbaycan qoşun bölmələri üzərinə hücumu başladı. Əsgərandakı 50 nəfərlik kiçik dəstəmiz qəhrəmancasına müqavimət göstərərək həlak oldular. O biri məntəqələrdə isə ermənilərin hücumu uğurla nəticələnmədi. Onların 24 martda səhər saat 6-da Tərtər üzərinə hücumları da dəf edildi.

Hələ martın 19-da şimal sərhədimizdəki 1-ci Tatar süvari alayının, Quba piyada alayının bir taborunun Qarabağa göndərilməsi haqda hərbi nazir göstəriş vermişdi. Martın 24-də Gəncə piyada alayının 2 ədəd topa malik bir taboru da bu bölgəyə yola salındı. Bu bölgədə döyüş əməliyyatlarına rəhbərlik etmək üçün martın 26-da Ağdamda Azərbaycan Ordusunun qərargah rəisi general-mayor H.Səlimovun rəhbərliyi ilə xüsusi qərargah da yaradıldı.

Martın 24-25-də ermənilərin Tərtərə hücumu uğursuzluqla nəticələndi. Martın 26-da Tərtər ətrafında Azərbaycan bölmələrinin və partizanların uğurlu əməliyyatı davam etdirilərək, gündüz saat 12-də Çaylı və Bruc erməni kəndləri ələ keçirildi.

8- ci Ağdaş piyada alayı və Zaqatala piyada alayının 700 nəfərlik Nuxa taboru da Qarabağa hərəkət etmək əmri aldı. Martın 29-da Əsgəran istiqamətində əsas hücum başlandı. Uğurla başlayan bu döyüş təcrübəsizlik və qarşılıqlı əlaqələrin düzgün



tənzimlənə bilməməsi ucbatından müsbət nəticə vermədi və qüvvələrimiz geri, əvvəlki mövqelərinə çəkilməli oldular.

Aprelin 2-də Zaqatala piyada alayının, Şirvan alayının və Tərtər süvari alayının hissə və bölmələrinin bölgəyə gəlib çatması ilə Əsgəran üzərinə yeni hücum hazırlığına başlandı.

Əlavə nizamlı qüvvələrlə möhkəmləndirilən Ağdam dəstəsi aprelin 3-də yenidən Əsgəran istiqamətində hücuma keçdi. Erməni silahlı qüvvələri bütün imkanlarını səfərbərliyə alıb, Ağdaş dəstəsinin qabağını kəsməyə çalışsalar da, böyük tələfat verib, öncə Əsgəranı, ardınca Xocalını tərk etməyə vadar oldular. Bu iki strateji məntəqənin azad edilməsinin ardınca Ağdam dəstəsi gün ərzində Ağdam-Əsgəran yolu kənarındakı Kətik, Aranzəmin və Naxçıvanik kimi möhkəm müdafiəyə malik olan məntəqələri də ermənilərdən təmizləyib, Malıbəyliyə yaxınlaşdılar.

Ermənilər Malıbəyli-Daşkənd və Şuşikənd məntəqələri arasında cəmləşdilər. Aprelin 5-də Ağdam dəstəsi Şuşikənd istiqamətində hücuma keçdi. Sağdan Şuşikəndin doğusundakı yüksəkliklərə doğru Tatar süvari alayının bölmələri, soldan-Şuşikənd qəbiristanlığı yönündən Bakı piyada alayının bir taboru, mərkəzdən isə 4-cü Quba piyada alayının bölmələri irəliləyirdi. Saat 20-də hissələrimiz döyüşü uğurla sona çatdırıb Şuşaya daxil oldular.

Aprelin 9-dan 12-dək Şuşa yaxınlığındakı Keşişkənd çevrəsində gedən gərgin savaş sonucunda Qarabağdakı erməni güclərinin əsas bazası məhv edildi.

Beləliklə 1920-ci il martın 22-də başlanmış bu əməliyyatlar Azərbaycan Ordusunun qələbəsilə yekunlaşdı və Qarabağda Azərbaycan dövlətinin suverenliyi bərpa olundu **(1: s.127-128).**

Xatırladaq ki, Qarabağ və Zəngəzur bölgələrindəki vəziyyətin böhranlı duruma çatması nəticəsində DİN-nin təklifi ilə Azərbaycanin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında müvəqqəti general-qubernatorluq yaradılması və hökumətin 1919-cu il yanvarın 29-da Xosrov paşa bəy Sultanovu general-qubernator təyin etməsi ermənilər tərəfindən etirazla qarşılandı: **Ermənistan da Qarabağa ərazi iddiası irəli sürdü və fevralda Britaniyanın Tiflisdəki silahlı birləşmələrinin komandanı Uokerə müraciət etdi. Müraciət cavabsız qaldığından Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyanın da müxtəlif vasitələrlə təsir göstərməsinə baxmayaraq, Tomsonun nümayəndəsi polkovnik Şatelvord Şuşaya gedərək, ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə tabe olmasını tələb etmişdi... bununla belə ermənilər Azərbaycan hökumətinə təbəəlik etmək fikrindən uzaq idilər. Tomson mayın 5-də Fətəlixan Xoyskiylə görüşündə pozuculuq fəaliyyəti göstərən şəxslərin sürgün olunması haqda sərəncam verdiyini bildirmişdi. Ancaq erməni bölücüləri Qarabağda durumu kəskinləşdirmək istiqamətindəki fəaliyyətlərinə ara vermirdilər (1:** s.129)...

Öncəki bölümlərin birində də xatırlatdığımız kimi, nəzərə almaq lazımdır ki, ermənilər I Dünya Müharibəsi zamanı üç qismə "bölünərək" həm Antantanın, həm bolşeviklərin, həm də ağqvardiyaçıların tərəfində vuruşmaqla bu üç hegemon qüvvənin hər birindən bəhrələnməyə çalışır, əksər hallarda da buna nail olurdular.

Andranik Antantanın hərbi-siyasi casusu ola-ola, „Bakı Soveti"nin lideri erməni Şaumyana teleqram yollayaraq işğal etdiyi Naxçıvanı (Culfanı) ona təslim etməyə hazır olduğunu bildirdiyi halda, üçüncü qüvvə olan polkovnik Biçeraxov və general Denikinlə də əlaqəyə malik idi. Heç də təsadüfi deyildi ki, Biçeraxov Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkatına mane olub onun bölmələri ilə savaşır, Denikin isə Dağıstanda, Azərbaycanın və Qafqazın şimalında müsəlman qırğınları törədir, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin, hökumətinin potensialına və suverenliyinə real təhlükə yaradırdı **(3:** s. 268-269; **4; 5:** s.13).

"Bakı kommunası"nı müdafiə edən daşnak liderlərindən A. Camalyanın 1918-ci il avqustun 16-da alman hərbi missiyasının başçısı general fon Kresslə görüşündə "Andranik Zəngəzurdan Qarabağa keçmək, türklərə arxadan zərbə endirmək və Bakıya yol açmaq istəyirdi" (3: s.269; 6: s.407) deməsi də ilk baxışdan çox qəribə və ilginc səslənə bilər. Belə ki, Antantanın müttəfiqi (daşnaklar özlərini belə adlandırırdılar – X.İ.) Antantanın düşməninə (*almana* – X.İ.) vaxtı ötmüş "muştuluq" üçün "müjdə" çatdırır ki, bəs biz (yəni səninlə müharibədə qarşı tərəf) sənin müttəfiqinə (*türklərə* – X.İ.) zərbə endirərək Bakını əldə saxlamaq istəyirdik. Əlbəttə, Camalyanın bu məntiqi I Dünya Savaşındakı müttəfiqliyin rəsmilikdən daha çox maraqlar gerçəkliyinə söykəndiyi üçün əslində əsaslı idi. Ancaq nə yaxşı ki, türklər Bakını qaytara bildi və sonluqda Almaniya öz səhvini etiraf etmiş oldu. Buna "gücün həqiqəti təsdiq etdirməsi"ndən başqa bir ad vermək doğru olmur... təəssüf.


**Ədəbiyyat:**

1. AXCE, 2 c.-də, II c., Bakı, 2005.
2. Чәмил Һәсәнов. "Аг ләкә"ләрин гара көлкәси. Бакы, 1991.
3. Агаян Ц. Роль России в истинных судьбах армянского народа. Москва, 1978.
4. «Бакинский рабочий», Баку, 18 июля 1918 г.
5. Шахдин И. «Дашнакцутюн» на службе русской белогвардейщины и английского командования на Кавказе, Тифлис, 1931.
6. Azərbaycan Tarixi, 7 c.-də, 5-ci c., Bakı, 2001.
7. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan., Bakı, 1999.

*Əlavə mənbələr:*

Paşayev A. Açılmamış səhifələrin izi ilə, Bakı, 2001; Erməni terrorçu dəstələrinin və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər), qısa xronoloji ensiklopediya. Bakı, 2003; Преступления армянских террористических и бандитских формирований против человечества (XЫX-XXЫ вв), краткая хронологическая энциклопедия. Baky, 2002; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (stenoqrafik hesabatlar), c. 1-2., Bakı, 1998; Azərbaycan tarixi, 7. c. də, c. 5., Bakı, 2001; Paşayev A. Açılmamış səhifələrin izi ilə., Bakı, 2001; Köçərli T. Qarabağ., Bakı, 2002; Musayev I. Xosrov bəy Sultanov Dağlıq Qarabağ münaqişəsinin həlli haqqında, "Qarabağ dünən, bu gün və sabah" kitabı., Bakı, 2002; Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы)., Баку, 1998; История Азербайджана по документам и публикациям., Баку, 1990.




## *NAXÇIVAN HADİSƏLƏRİ*



***29 oktyabr 1933-cü ildə***
***Bir uzaqgörənlik və bizlərə bir təlimat...***

**"...Bu gün Sovetlər Birliyi dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Fəqət, sabah nə olacağını bu gün heç kim bilə bilməz. Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalanıb bölünə bilər. Bu gün əlində sıx-sıx tutduğu millətlər buxovlarından azad ola bilər. Dünya yeni bir düzənə girər. Bax, o zaman Türkiyə nə etməli olduğunu bilməlidir. Bizim bugünkü dostumuzun nəzarətində dili bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq!**
***– Hazır olmaq-yalnız o günü susaraq gözləmək deyildir !***
***– Hazırlanmaq lazımdır! Millətlər buna necə hazırlaşır ?***
***– Mənəvi körpüləri əsas götürərək! Dil bir körpüdür, İnanc bir körpüdür,..Tarix (isə daha möhkəm) bir körpüdür!.. Köklərimizə enməli və olayların böldüyü-Tariximizin içində bütünləşməliyik!.***
***Onların bizə yaxınlaşmasını gözləməməliyik !***
***Bizim onlara yaxınmaşmağımız gərəkdir !!!... "***

*1918-1921-ci illərdəki Naxçıvan olaylarına təfsilatı ilə aydınlıq gətirməzdən öncə o dövr hadisələrinin önündə olan Mirzə Bağır Əliyevin anılarına diqqət edək:*

*"ƏZNƏBÜRT HADİSƏSİ"*

1918 sənəyi-miladi yanvarın 17-də Əznəbürt qəryəsinin erməniləri müsəlmanların üzərinə hücum edib 22 nəfər müsəlman övrət və kişilərini qətlə yetirdilər.

İşbu xəbər Naxçıvan müsəlmanlarına çatdıqda Naxçıvan ermənilərindən qatillərin verilməsini tələb etdilər.

Sonra ermənilər də bildirdi ki, guya Cəhriq köyünün müsəlmanları Dəmirzindən və Şeyx Məhəmməd köylərinin ermənilərindən 2 nəfəri tutub öldürüblər.

Uyezd (*qəza* –X.İ.) komissarı İbrahim Qədimov bir qaç süvarinin müşayiətilə həmin köylərə gedib aradıqda ermənilər tərəfindən verilən xəbər yalana çıxdı...

Müsəlman milli komitəsi rəhbərliyi istifa (istefa –X.İ.) etdiyi üçün 1918 -ci il martın 2-də yeni sədr-Mirzə Nəsrullah Əmirov və müavin Cabbar Kələntərov və yeni üzvlər seçildilər və bu gündən etibarən müharibə qopdu (1: s.10-11) ...

Martın 2-də (1918-ci ildə) axşam saat 5 radələrində şəhər (*Naxçıvan* –X.İ.) ermənilərı tərəfindən bir araba silah aparıldığını görən müsəlmanlar arabanı saxlamaq istədikdə atışma oldu: Teymur Məşədi Hüseyn oğlu, Tağı bəy Kəngərlinski və iki erməni qətlə yetirildi...

Şəhər erməniləri atışmanı eşitdikdə istehkamlardan müsəlman hissələrini bombardman etməyə başladılar. Müsəlmanlar da bunları qarşılayıb hər iki tərəfdən güllələr yağmur kimi yağmaya başladı.

Martın 3-də sübhə bir saat qalmış atışma dayansa da sübhdən yenə davam etməkdəydi. Müsəlman topları Əlixanlı və Qala məhəlləsi cəbhələrindən erməni hissələrini bombardman edirdi.

Gecə erməni qoşunu hücum etmək istədikdə müsəlmanlar tərəfindən atəşə tutulub bir qədər tələfat verdikdən sonra dala oturdu.

**Martın 7-də erməni milli komitəsi yeni canlı qüvvə və top bəklədiyi üçün müsəlmanları aldadaraq sülh təklif etdi. Müsəlmanlar isə ermənilərin incə siyasətini başa düşmür, onların sülh təkliflərinə inanırdılar.**

Nehrəmli Hacı Molla İsmayıl bir əlində tapança, bir əlində Quran tutaraq qabaqda yürüyüb cihad edərək müsəlmanları həyəcana gətirirdi. Həmin hücumda erməni Xalatovun binası tutularaq xeyli patron və silah ələ keçirildi. Sonra Cahan Poladovun (*o da ermənidir* –X.İ.) binasına hücum olundu...

Erməni komitəsi martın 9-da hiylə işlədərək sülhün bərpasına nail oldu. Ancaq çox çəkmədən, sabahı gün, martın 10-da yeni qüvvə və top əldə edən ermənilər aramsız atəşlərə başladılar...

Martın 14-dən Şahtaxtı, Quraq və Nehrəm qəryələrindən 100-ə qədər adam imdada çatdı...

Martın 15-də axşam saat 11 radələrində Maku sərdarı Murtuzaqulu xan erməni milli komitəsinə və müsəlmanlardan Cəfərqulu xanın adına məktub yazaraq barışmağı təklif edir, əks halda cəzalandırılacaqlarını bildirirdi.

Ermənilər bu məktuba etina etməyib müharibənin şiddətlənməyinə dəxi fitva verdi.

Martın 18-də erməni topları camenin minarəsini atəşə alıb böyük bir atışma oldu.

Şərur tərəfdən bir qaç müsəlləh adamlar Məşədi Əsgər Həmzəyevin sərkərdəliyi ilə Naxçıvana tərəf gəldikdə Qaraxanbəyli ermənilərinin atəşinə tuş gələrək geri çəkilməyə məcbur oldular.

Ərkani hərb fitvası ilə Kəlbalayi Oruc Məşədi Salman oğlu tərəfindən 3 nəfər müsəlman casusu (*ermənilərə casusluq edən müsəlman* –X.İ.) güllələndi.

Martın 19-da müsəlman topları ermənilər yaşayan Qaraxanlı köyünü bombardmana başladı.

Martın 20-də sülhün əmələ gəlməsi müşahidə olunurdu...

Martın 21-də gecədən iki saat keçmiş erməni dəstəsi Xoşlu məhəlləsinə hücum edib oranı işğal etdilər. Cəfərqulu xan və qeyrilərin imzasıyla martın 22-də Maku sərdarına müraciət olundu, o da ermənilərə məktub göndərdi, yenə faydası olmadı...

Martın 26-da Milli Komitə iclasında Rəhimxan Naxçıvanski ərkani-hərb rəisi, Hacı Mehdi Bağırov rəis müavini seçildilər...

Martın 31-də Milli Komitədə Əlincəçay nahiyəsində bulunan müsəlman köylərinə Binənigar, Qızılca, Saltax, Noraşen, Xoşkşen erməni qüvvəsi tərəfindən (saldırılaraq) işğal edilib yandırılmaları və müsəlmanların qətl və qarətə düçar olub qaçmaları xəbərləri alınırdı. Müsəlman qüvvəsinin isə Qaraxanbəyli erməni kəndini mühasirəyə alıb atəşə tutması və 25 nəfər itki verməsi bildirilirdi...



Aprelin 10-da Əkbər xan Naxçıvanski Tiflisdən Maku təriqi ilə Naxçıvana 149 İran tüfəngcisi ilə varid oldu. Ertəsi gün Milli Komitəyə gəlib Maku xanının 60 minlik ordu ilə yardım etməsi və bunun müqabilində Naxçıvanın ona tabe olması təklifini çatdırdı. Milli Komitə isə İqbalüssəltənə adına və digəri Seyfəddin xan adına məktublar yazaraq bu təklifin müqabilində öz suallarını göndərdi.

Aprelin 13-də sülh bərpa olundu və İrəvandan Əli xan Makinski və Hacı Rza da sülh yaratmaq məqsədilə Naxçıvana varid oldular. Osmanlı tərəfdən də bir zərf alındı. Xəbərdə Ənvər paşanın əmri ilə 25 min süvari və arxasınca piyada olmaq üzrə türk əsgərinin İqdıra tərəf hərəkət etməsi bildirilirdi. Deyilirdi ki, bu əsgərlər Ərzurum, Trabzon və Xoy üzərindən hərəkətdə bulunur. Bu xəbər müsəlmanlarda ruh yüksəkliyi yaratdı.

Aprelin 14-də Seyfəddin xan tərəfdən celoyların Qafqaza yürüşü barədə göndərilən xəbərin müqabilində Nehrəmli Kərbəlayi Muxtar onları izləmək üçün Dərəşam təpələrini (Araz kənarında Nehrəm təpələrinin ən mühümlərindən biri) tutmaq əmri verdi. Nehrəm və Təzəkənd göylərində bir ayroplanın (uçağın) dövr edib İrana tərəf uçması haqda da məlumat gəldi.

Aprelin 15-də hava gəmisinin Culfa tərəfindən İrəvan tərəfinə teyr etməkliyi (*uçmağı* –X.İ.) müşahidə olundu. Osmanlı sərkərdəsi Bəkir Sadiq əfəndi tərəfindən Milli Komitə sədri Mirzə Nəsrullah Əmirov namına bir məktub alındı. Məktub naxçıvanlıların Osmanlıya müraciətinə cavab olaraq yazılmışdı və məktubda türk qüvvələri yetişənədək müqaviməti davam etdirmək tövsiyyə olunurdu.

Aprelin 16-da müvəqqəti sülh yarandığı təqdirdə Cəfərqulu xan külfətiylə şəhərdən çıxıb Makuya hərəkət etmək fikrində bulunduğu zaman camaat tərəfindən imtina olundu. (*Mənbədən elə məlum olur ki, Cəfərqulu xan ermənilərin gələcək planlarını bildiyi üçün Naxçıvanı satıb İrana keçmək istəyirmiş...* – X.İ.) Osmanlı qüvvəsinin Makuya və Qafqazın bəzi nöqtələrinə yetişmək xəbəri mütəreddüdən alındı. Maku sərdarının tərəfindən Qaraçuq təriqlə müsəlmanlara göndərilən top mərmilərinin zəbt edilməsi xəbəri çatdı. Əlavə olaraq müsəlman toplarının da sərdar tərəfindən alınması əhalini dəxi yas və ələmə düçar qıldı.

Aprelin 26-da Ərkani-hərb rəisi Rəhim xan Milli Komitə sədri Əmirovla sədrlik üstündə mübahisəyə başladı və Rəhim xan hökuməti buraxıb evinə getdi. [**Qeyd 1:** *Qəribə burasıdır ki, sabahı gün onları Erməni Milli Komitəsinin rəisi barışdırıb və islam millətinin hüquqlarını onlara tanıdıb (?!)...* **Qeyd 2:** *Mənbə onu da qeyd edir ki, tez-tez türklərin gəlmə xəbəri dolaşırmış və bu xəbəri ermənilər müsəlmanları yoxlamaq məqsədilə ortaya atırmışlar* – X.İ.]

Mayın 3-də Osmanlı paşalarının Qızılboğaza çatıb Naxçıvan müsəlmanlar nüməyəndələri ilə didarda bulunmaq xəbəri məktubla Müsəlman Milli Komitəsinə yetirildikdə müsəlmanlara böyük fərəh üz verdi...

Millət xaini Rəhim xan bu xəbəri eşitcək tab gətirməyib erməni tərəfinə gedərək onlara yetirdi. Nəticədə saat 2-də Xarazyan bir səfrəzə qoşun ilə təbil vura-vura Qaraxanbəyli köyünə yürüş etdi. Və oradan Culfaya hərəkət etdi...

24 mayda Naxçıvan və həvalisi komandanı Xəlil bəy tərəfindən teleqram alındı: teleqrafın məzmunu Osmanlı qəhrəman əsgərlərinin musiqi dəstəsi ilə Tiflisə daxil olması və Göyçə gölü ətrafına cəm olmuş erməni qüvvəsinin Osmanlı qüvvələri tərəfindən mühasirə olunması, Fransa və İngiltərənin davaya qarışması, erməni baş komandanı Nazaryanın bəlx və ədavatın çoxluğundan özünü həlak etməsi, Səlmasın ciloylardan təmizlənməsi idi. Həmin gün Maku təriqlə Osmanlı qüvvəsinin Şahtaxtına vürud etməsi xəbəri alındı.

26 mayda Xanlıqlar kəndinin ermənilərinin Xəlil bəyə təslim olmaq və Şahtaxtıda üç nəfər müsəlman xainlərinin edam olunması xəbəri çatdı.

30 may. Türkiyə komandanı Xəlil bəy Şahtaxtıda sülh xəbərdarlığı məqsədilə Xarazyanı və sədri-məclis Mehdiqulu xan Diyarbəkirini çağırdı.

3 iyun. Xəbər çıxdı ki, Təbrizdə və ətrafında sosial-demokrat firqəsi əksəriyyə və ittifaq ilə ingilis dövlətinə tabe olub, Osmanlı qoşununun əleyhinə yürüş keçirib dava edir. Şahtaxtında bir qədər Osmanlı qoşunu meydani-hərbə yürüş edibdir, Gəncə tərəfdən altı minə yaxın müsəlman qoşununun Axta kəndinə yetişmək xəbəri də çatdı...

İyunun 6-da saat 7 radələrində türk zabitləri qatarla Naxçıvana çatdı. Topçubaşı Hüsni bəy, Helmi bəy və Şükrü bəy bir erməni zabitlə faytona əyləşib şəhərə gəldikdə Bəylər ağa Kəngərliskinin evində əyləndilər.

İyunun 8-də türk əsgərlərinin irəliləyişinə mane olmaq məqsədilə bölgəyə tərəf hərəkət edən Andronikin qüvvələri yolları, körpüləri, tünelləri dağıtmağa başladı.

Sonrakı günlərdə Andronikin Araz körpüsünü dağıtması, Yaycı kəndini qətl və qarət etməsi, daha sonra bölgənin başqa yaşayış məntəqəsinə də bu cür fəlakətlərin üz verməsi xəbərləri qeydə alınırdı.

25-30 avqust. İrəvan müsəlmanları tam təxliyyə olunub Gümrüyə, Əlqədər və Naxçıvana fərar etdilər.

31 avqust. Dərələgiz mahalında, Cul, Martiruk və Hakaza köylərin tərəflərində Andronik və Yaponun dəstələri cəm olub müsəlman köylərinə yürüş edib atəşə tutmaq haqda xəbərlər alındı. Naxçıvan mahalında 4-cü nahiyədə ermənilərin Büst, Baradaşt, Gal və Hakaza köylərində cəm olub toplanmaqları məlum oldu.

1 sentyabr. Qövl ordu komandanı Kazım paşa (yəqin ki, *Kazım Qarabəkir paşa* - X.İ.) saat 4 radələrində Naxçıvandan Təbrizə yollandı.

Bələdiyyə rəisi Rəhim xan 9 sentyabrda hökumət tərəfindən tərk olunub yerinə Hacı Məhəmməd Bağırov cənabı təyin edildi.

12 sentyabr. Bu gün 9-cu firqə (*yəqin ki, Osmanlı qüvvəsi* –X.İ.) Təbrizə yürüş etdi.

Bundan sonra Birləşmiş Qüvvələrin (Antantanın) tələbilə Türk Ordusu Qafqazı, o cümlədən 1918-ci il səfər ayının 24-də (sentyabrın 24-də) Naxçıvanı tərk etdi. Bundan əndişələnən yerli xalq ayın 19-da Araz-Türk hökumətinin yaradıldığını bildirmişdi. Bu hökumətin hərbi naziri sonralar Qars hökumətinin başçısı olacaq İbrahim ağa idi.

Bundan sonrakı dövr ingilislərin, ümumən, Birləşmiş Qüvvələrin kölgəsinə sığınan erməni hərbi birləşmələrinin, Andronikin və eləcə də Ararat Respublikasının bölgəyə, o cümlədən Naxçıvan müsəlmanlarına qan uddurma dövrü və hətta 5 may 1919-cu ildə Naxçıvanda zorla erməni hökuməti qurmaları dövrü kimi səciyyələnə bilər. Mayın 5-də ingilis generalı Deyvinin müşayiəti ilə gələnlər-Naxçıvana təyin edilən yeni-erməni general-qubernator Xaytsov və bir qisim erməni məmurları Naxçıvanın azərbaycanlı rəhbərliyinin iştirakı ilə bu təyinatı bəyan etdilər. Xaytsov bu qərarın ingilislərinin əmri ilə həyata keçirildiyini və guya hər iki tərəf üçün sülh yaratmaq məqsədi daşıdığını söyləyirdi **(1: s.11-122)** ...

***

İndi isə daha aydın təsəvvür üçün Naxçıvan türklərinin soyqırımını anladan bəzi faktları nəzərə çatdıraq...

Andranikin başkəsən çətələri Sirab kəndində 3 məscidə sığınmış qoca, qadın və uşaqları diri-diri yandırtdıqdan sonra Qahab kəndində də bu dəstələr tərəfindən yüzlərlə dinc sakin vəhşiliklə öldürüldü, evlər yandırıldı, kənd darmadağın edildi, bu kənddəki məscidlərə od vuruldu.

Culfanın Xanağa kəndində də ermənilər eyni faciələri törətdilər **(5: s.106)**.



Andranikin ordusunda olan Yapo adlı quldur dəstə başçısı öz silahdaşları ilə Əmovu kəndində yerli sakinləri yerindəcə baltalayıb-doğrayır, çoxunu da diri-diri tonqala atırdılar.

Yapo Yaycı kəndinin də tarixinə heç vaxt unudulmayacaq faciələr "yazıb": Balta ilə hamilə qadının qarnını yarıb körpəni süngünün ucunda götürüb tonqala atan, gülləyə qıymayıb 300 nəfər yerli azərbaycanlını diri-diri quyularda basdıran Yapolar yetişdirən erməni komitəçiləri məktəbi türk qanı içməkdən doymurdu.

Tarixi sənədlərdə və yaşlı nəslin yaddaşında unudulmaz iz buraxmış bu hadisələr haqda Güllü Məmmədova da "Qarabəkir əfsanəsi" adlı tarixi romanında ətraflı şəkildə bəhs edərək, bu hadisələri geniş oxucu kütləsinə çatdırmağa çalışmışdır.

Təxtəsər kəndində və onun ətrafında çoxlu qırğınlar törədən ermənilər Əylis düzündə Məşədi Mustafanın kürəyinə qaynar samovar bağlamış, Şərur ərazisində də saysız-hesabsız qırğınlar törətmişdilər. Şərurun Çərçiboğan kəndindəki 15-20 nəfər tüfəngi olan yerli sakinlərin müqavimətini qıran peşəkar qaniçən daşnak dəstələri kənd məscidini yandırmış, kənd sakini Səfərin atasının və bir neçə nəfərin başını kəsmiş, 50-yə yaxın insanı güllələmiş, 25-30 km. aralıda yerləşən İran körpüsünü keçmək üçün tələsənlərin də çoxu dar körpüdən keçə bilməyərək çayda boğulmuşdular **(5: s.114-116)**.

Bütün bu vəhşilikləri törədən erməni hərbi-siyasi "elita"sının məqsədi Ararat Respublikası sərhədlərinin Türkiyə sərhədlərindən başlayaraq Şuşaya qədər uzadılmasını və bu ərazidə bir nəfər belə olsun müsəlmanın, türkün yaşamamasını təmin etmək idi **(6: s. 77)**...

***

Naxçıvan Milli Komitəsinin qətiyyətsizliyi, həlledici məqamlarda düşmənə qarşı müqaviməti təşkil edə bilməməsi türk qüvvələri komandanlığında acı təəssüf və ümidsizlik hissi oyatdığından hələ türklər bölgəyə gələn zaman dərhal Naxçıvan Milli Komitəsini və Milli hissələri buraxmış, türk komandanı Xəlil bəyi Naxçıvana general-qubernator təyin etmişdilər **(7: s.17)**...

Türk Ordusunun çəkilib getməsindən sonra isə Naxçıvan və bitişik bölgələrin müsəlman əhalisi əl-ələ verərək erməni qüvvələrinə qarşı müqaviməti təşkil etməyə çalışırdılar. Şərurdan Fətulla Hüseynov, Vedidən Abbasqulu bəy Şadlinski, Nehrəmdən Kalba Muxtar, Sədərəkdən Həsən Şahvələd oğlu, Qafar Əliyev, Çivədən Bala bəy Vəkilov və onlarla- yüzlərlə cəsur Azərbaycan oğulları işğalçılarla ölüm-dirim savaşına çıxmış, hələ öz sağlıqlarında qeyrət, şərəf rəmzinə çevrilmişdilər **(2: s. 62)**.

Belə ağır bir vəziyyətdə Cəfərqulu xan Naxçıvanın İrana birləşdirilməsini istəyirdi, ancaq Kalbalı xan başda olmaqla Naxçıvan camaatı onun istəyini rədd edirdi.

Mənbələr qeyd edir ki, 1918-20-ci illərdə Naxçıvanda Hüseyn Cavid, Bəhram xan və Əziz xan Naxçıvanskilər, Teymur bəy Makinski, Bağır Rzayev, Məhərrəm Əliyev, Kalbalı xan və onlarla digər uzaqgörən siyasətçilər fəaliyyət göstərir, sonralar onların rəyi ilə keçirilən referendumlarda Naxçıvan Diyarı Azərbaycanın ayrılmaz hissəsi hesab edilirdi **(2: s.69)**.

Britaniya hökumətindən hərtərəfli yardım alan Ermənistan Baş Naziri Q.Xatisovun Araz-Türk Respublikasına göndərdiyi teleqramla Ordubadın və Naxçıvanın Ermənistanın tərkibinə daxil edilməsi göstərilir. Ancaq ingilis generalı Devi ilə yerli əhali arasında danışıqlarda bu mövqe həmişə ciddi müqavimətlə qarşılanırdı. 1919-cu ilin mayında Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı, Culfa ermənilərin əlinə keçdi. Müsəlmanların qabaqcıl xadimlərini aradan götürüb həbs etməyə başladılar. Bu zaman Şahtaxtı, Qəmərli, Dəvəli stansiyalarında duran zirehli qatarlar (ingilislərin

nəzarətində olan) erməni quldur dəstələrinə kömək edirdi *(eynən 1989-cu ilin yanvarında Arazdəyəndəki rus sərhəd dəstəsi kimi).*

Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun da dəstəyi ilə Naxçıvan erməni hökumət nümayəndələrini qovmaq üçün ciddi hazırlıq işləri aparırdı. O məqamlarda Azərbaycan Xalq Cümhuriyyətinin də başı bərk qarışmışdı. Bir tərəfdən də şimalda – Dağlılar Respublikası Denikin tərəfindən işğal olunmuş, Dərbənd də onun əlinə keçmişdi. 1919-cu ilin sentyabrın 1-də Haskelin Azərbaycan Cümhuriyyəti Nazirlər Şürasının Sədri N.Usubbəyova təqdim etdiyi layihədə Naxçıvan və Şərur-Dərələyəz ərazilərini "neytral zona" hesab etməyi təklif edirdi. Əslində bu layihə erməni təcavüzünü qanunilәşdirməkdən başqa bir şey deyildi **(2:** s.70-74**).**

Xatırladaq ki, polkovnik V. Haskel Antantanın Ermənistana təyin etdiyi ali komissar idi və bu zaman Naxçıvanda Amerika general -qubernator üsul-idarəsi hökm sürürdü.

Yeri gəlmişkən, qeyd edək ki, ingilislərin ardınca 1919-cu il oktyabrın 24-də ***ABŞ Naxçıvana öz general-qubernatorunu –*** *polkovnik Edmund L. Dellini* təyin etdi. Ancaq ermənilərin razılıqla qarşıladığı bu qərar, AXC və naxçıvanlılar tərəfindən etirazla qarşılandı. Sonunda Delli Naxçıvanda qubernator kimi deyil, Haskelin nüməyəndəsi kimi qaldı. 1920-ci ilin yanvarında isə sonuncu amerikan əsgəri də Naxçıvanı tərk etdi.

Onu da xatırladaq ki, Naxçıvan strateji bölgə olduğu üçün orada bir çox dövlətin marağı var idi. Naxçıvan və bölgə əhalisinin çox ağır bir durumunda bəziləri ümidini yenidən türklərə, bəziləri isə sovetlərə bağlayırdı.

Ermənilərin Cənub-Qərbi Qafqaz və Şərqi Anadolu bölgəsində meydan sulaması və hətta Türkiyəyə meydan oxuyaraq Antantanın dəstəyi ilə qərbə doğru irəliləməsi, Qarsda erməni idarəçiliyinin yaranması vəziyyəti daha da mürəkkəbləşdirir və Kazım Qarabəkir paşanın təkidi ilə türk bölüklərinin yeni bir xilaskarlıq "tur"una çıxmasını zərurətə çevirirdi. Türk Ordusunun bu hərəkatını önləmək və ya heç olmasa ləngitmək üçün Sovetlər vasitəçilik missiyasını üzərinə götürsə də, nəticə dəyişmədi, ermənilər öz mövqelərindən əl çəkmədilər. **Bu fürsətdən istifadə edən XI Qırmızı Ordu Zəngəzur və Naxçıvanı ələ keçirməyi qarşıya məqsəd qoydu.**

9 iyun 1920-ci ildə (vaxtilə-7 avqust 1918-ci il tarixində burada qərargahı qurulan) Kazım Qarabəkir paşanın komandanlığı ilə Türk hissələri Naxçıvana doğru hərəkətə keçdilər. Ancaq Doğuda nəzərdə tutulan geniş əməliyyat (Qarsın azad edilməsi və s.) hələ sentyabrın axırlarında başlayacaqdı. 11- ci Qırmızı Ordunun 1- ci Qafqaz polku da Gorus, Şahbus və Cəhridən keçərək, 1920-ci il iyulun 28-də axşamüstü Naxçıvana yetişdi.

Xatırladaq ki, bolşeviklər İrana keçmiş mücahidlərimizi, o cümlədən Abbasqulu ağa Şadlinskini bu taya dəvət edərək bölgədə daşnaklara qarşı vuruşmaq təklifində bulunmuşdu. Sonralar Abbasqulu ağanın başçılığı ilə "Qırmızı tabor" daşnaklara qarşı savaşda bolşevik qüvvələrlə müstəqil müttəfiq kimi çıxış edirdi.

Bölgədə daşnakların tam təslim olması isə yalnız və yalnız Türk Ordusunun yeni bir Doğu hərəkatının başlanması nəticəsində mümkün oldu.

20 oktyabr 1920-ci il Bakanlar Qurulunun verdiyi əmrə əsasən Kazım Qarabəkir paşanın komandanlığı altında Sarıqamış, Qars, Gümrü istiqamətində xilaskarlıq yürüşü başladı. Böyük təlafat və biabırçı məğlubiyyət nəticəsində gülünc vəziyyətə düşən ermənilər türklərin Gümrüdən sonra İrəvana hərəkət edəcəyini görüb təslim oldular. 2 dekabrda daşnak Ermənistanı ilə Türkiyə arasında Gümrü sazişi imzalandı...

Gümrü müqaviləsinin II və XII maddələri Kazım Qarabəkir paşanın vaxtilə haqqında özəlliklə bəhs etdiyi *["Hər tərəfdən məhsur bir haldayız, yalnız Azərbaycana açıq bir Naxçıvan pəncərəsi vardır, onun qapanmamasını istiyorum."-*



Kazım Qarabəkir paşanın minbaşı Veysəl bəylə XI Tümən komandanı Cavid bəyə göndərdiyi məktubdan **(4:** s.62)] Naxçıvan bölgəsi ilə bağlı idi **(4:** s.63)**...**

Sonralar bolşeviklərin də Naxçıvanı ermənilərə verməyə çalışdığını görən Kazım Qarabəkir paşa və Türkiyə rəhbərliyi üç Qafqaz cümhuriyyətlərini və vasitəçiliyi üzərinə götürmüş Moskvanı sülh masası arxasında oturmağa məcbur edərək, 1921-ci ilin oktyabrın 13-də Qars müqaviləsinin imzalanmasına nail olmuşdular **(3:** s.77-78,136-137,242-252**).**

**İosif Stalinin "Naxçıvan üzərində niyə bu qədər israr edirsiniz?" sualına da türk elçisi belə cavab vermişdi:**

– *"Orası Türk qapısı, ondan."* – **(4:** s.64**).**

Beləliklə Naxçıvanın statusu müəyyən edildi, onun əsil sahibi tanındı, yeni Türkiyənin himayəsində Azərbaycanın tərkibində Muxtar Respublikaya çevrildi.

Sovetlər zamanında NaxçıvanlaTürkiyə arasında bəlli səbəblərdən ilişgi olmasa da, 1991-ci ildə Azərbaycan müstəqilliyə qovuşduğu dönəmdə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Ankaraya gələrək Baş Nazir Süleyman Dəmirəllə görüşmüş və **Türkiyənin Naxçıvan üzərində sözhaqqına və qarantor görəvinə malik olduğunu gündəmə gətirmiş, gərəkən yardımları yapmasını istəmişdi.** Bu görüşdən sonra Türkiyə Naxçıvanla yaxından ilgilənmiş, 28 may 1992-ci il tarixində isə bu ilginin ilkin sonucu olaraq Iğdır Vilayətinin Aralıq ilçəsindəki Dilucu məntəqəsindəTürkiyə və Azərbaycan arasında Ümid Körpüsü adlandırılan dostluq körpüsü işə salınmış **(4:** s.66) və "bir millət, iki dövlət" düşüncəsindən doğan addımlar bu körpü üzərindən gəlişməyə başlamışdır.

**Ədəbiyyat:**


1. Mirzə Bağır Əliyev . Qanlı günlərimiz. Bakı, 1993.
2. Əli Əliyev. Əlincə yaddaşı: Naxçıvan-1914-1992. Bakı, 1997.
3. AXCE, 2 c.-də, II c., Bakı, 2005.
4. İsmayıl Hacıyev, Əbülfəz Quliyev. "Atatürkün yaratdığı Naxçıvan: dostluq körpüsü dövləti", Azərbaycanda Atatürk Mərkəzi, bülleten 1(21)., 2007, Bakı.
5. Vəli Həbiboğlu. Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası. Bakı, 2002.
6. V.Arzumanlı, V.Həbiboğlu, K.Muxtarov. 1918-ci il qırğınları. "Öyrətmən", Bakı, 1995.
7. S.Sadıxov. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı, 1995.


**Qeyd:** *Gümrü*-Qərbi Azərbaycanda kimmer tayfası adı ilə bağlı yaşayış məskəni. 1728-ci ildə Şirəkel (Şörəyel) nahiyəsinə, sonra İrəvan xanlığına daxil idi. Əhalisini türk-müsəlmanlar təşkil edirdi. Rus işğalından, 1828-ci il Türkmənçay müqaviləsindən sonra 1837-ci ildə rus çarı şərəfinə Aleksandopol adlandırılmışdır. 1920-ci il noyabrın 7-də türk qoşunları Gümrünü tutdu və qorxuya düşən daşnak Ermənistanı 2 dekabrda Türkiyə ilə təslimçi Gümrü müqaviləsi imzaladı.

Ancaq noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan olunduğundan, reallıqların öz xeyrinə dəyişməsi nəticəsində, sovet qaynaqlarının yazdığına görə, Sovet Ermənistanı Gümrü müqaviləsindən imtina etmişdi...

Телеграфъ

Телеграмма 171

ГЛАВН. МИНИСТРУ ВНУТРЕННИХ ДЕЛ.

Въ БАКУ

11/VI

7234-9

КАЗАХА

№ 171

Принята

456

ПОСРЕДАМ [illegible] ПРЕДСТАВИТЕЛИ СЕЛЕНИЙ ГЕЗАЛ ДАРА АЛЕКСАНДРОПОЛЬСКАГО УЕЗДА МАМЕД ДЖАЛИЛ ОГЛЫ [illegible] МУСА ОГЛЫ И ТАХАР ДЖАЛИЛ ОГЛЫ И СООБЩИЛИ ФАКТ ОГРАБЛЕНИЙ И НАСИЛИЙ КОТОРЫМ ОНИ ПОДВЕРГЛИС СО СТАРАНЬ АРМЯН ВО ВРЕМЯ [illegible] АРМЕНИИ В АЗЕРБАЙДЖАН ТОЧКА [illegible] ТАКЖЕ ПРЕДСТАВИТЕЛИ КЯЛНЕ КЕНД ЛИЦЕ НАБИ КАХРАМАН ОГЛЫ МИРЗАЛИ [illegible]

РАСПОРЯЖЕНИЕМ [illegible] СЕЛЕНИЙ БЫЛИ ПЕРЕСЕЛЕНЫ ВДЕ ЧЕТЫРЕ СЕЛЕНИЯ [illegible] ДЛЯ ТОГО ЧТОБЫ МУСУЛЬМАНЕ СПЛОТИВШИС ЛЕГКО МОГЛИ БЫ ОТРАЖАТЬ НАПАДЕНИЯ АРМЯНСКИХ БАНД ТОЧКА ДЕЛО ПОКАЗАЛО ОБРАТНОЕ ТОЧКА [illegible] УНИЧТОЖИТ ОДНИМ УДАРОМ

Телеграфъ

Телеграмма 172

Въ БАКУ

Принята

456.

СРАЗУ ПЯТ СЕЛЕНИЙ НАСЧИТЫВАЮЩИХ СЕБЕ 400 ДОМОВ ТОЧКА КАК ПРЕДПОЛАГАЛИ ТАК И СДЕЛАЛИ ТОЧКА УНИЧТОЖИЛИ [illegible] ДОМОВ СЕЛЕНИИ БАБАНИШИ 100 ДОМОВ СЕЛЕНИИ КЕРАДЖАЛИ [illegible] ДОМОВ СЕЛЕНИИ ТУЛЬНАБЪ 25 ДОМОВ СЕЛЕНИИ МАХТИ-ХАНЛИ И 30 ДОМОВ СЕЛЕНИЙ ГЕЗАЛ ДАРА ТОЧКА ИЗ ПОСЛЕДНЯГО СЕЛЕНИЯ УЦЕЛЕЛО 7 СЕМЕЙСТВ ТОЧКА В КАЗАХЕ ПРОДОЛЖАЕТСЯ БОЛЬШОЙ НАПЛЫВ БЕЖЕНЦЕВ ТОЧКА ПРОШУ ВАШЕ ВЫСОКОПРЕВОСХОДИТЕЛЬСТВО ПРИНЯТИИ РЕШИТЕЛЬНЫХ ШАГОВ КАК ПЕРЕД ПРАВИТЕЛЬСТВОМ АРМЕНИИ ПРЕКРАЩЕНИЯ ПОДОБНЫХ ЯВЛЕНИЙ ТАК И ПЕРЕД МИНИСТРОМ ПРИЗРЕНИЯ К УСТРОЙСТВУ НЕСЧАСТНЫХ БЕЖЕНЦЕВ 2505 ОСОБО

УПОЛНОМОЧЕННЫЙ Р. КАРАФАРОВЪ

**Gümrü bölgəsindəki Gözəldərə, Babanişi, Kəracalı, Tulınab (Tülnab) və Mehtixanlı kəndlərinə ermənilərin hücumu və faciəli nəticələr barədə Qazaxdan Bakıya göndərilən teleqram**



газ. "Азербайджанъ"
№ 119. 11 іюня 1919 г.

МЕМОРАНДУМЪ АРМЯНСКОЙ ДЕЛЕГАЦІИ.

Армянскіе верхи продолжають свои обычныя жалобы. "Журналь де Деба" пишетъ: "Армянская делегація Мирной Конференціи передаетъ слѣдующій меморандумъ:

"На Востокѣ паника, произведенная великой побѣдой была очень непродолжительна. Подъ руководствомъ сторонниковъ панисламизма и пантурамизма злые элементы поднимаютъ голову и возобновляютъ свою кровавую дѣятельность. Будучи безсильны противъ союзниковъ, они съ остервененіемъ выступаютъ противъ вѣчнаго козла отпущенія армянскаго народа, которому они не прощаютъ его симпатій къ державамъ согласія.

Турки и татары, съ радостью замѣчаютъ, что перемиріе не вызвало никакой перемѣны въ судьбѣ армянскаго народа, и что Турецкая Арменія продолжаетъ оставаться въ рукахъ своихъ бывшихъ хазяевъ, которые еще держатъ въ своихъ гаремахъ сотни тысячъ армянскихъ дѣвушекъ, а сотни тысячъ армянъ бѣженцевъ на Кавказѣ еще живутъ въ общежитіяхъ, умирая отъ голода и эпидемій.

Армянская делегація еще обратила вниманіе союзниковъ на послѣднія убійства армянъ въ Киликіи. Послѣ того была получена через французскую миссію извѣстная телеграмма Министра Иностранныхъ Дѣлъ Тиграняна.

Это все та же кровавая рука, которая руководитъ анти-армянской борьбой, начиная отъ Тавра до Арарата. Младотурки, пользуясь неподвижностью и замѣшательствомъ союзниковъ, пытаются нанести армянскому народу окончательный ударъ и этимъ создать для союзниковъ новыя осложненія. Это они въ послѣднее время возбудили фанатизмъ арабовъ противъ армянъ въ Алеппо. Это они въ За-

2

2 стр.

кавказѣ организовали и обучили татарскія массы при помощи турецкихъ инструкторовъ и турецкихъ кадровыхъ войскъ. Извѣстно, что татары были союзниками туронъ во время войны. Они сражались съ англо-армянскими силами въ Баку.

Составляя 3 милліона, они представляютъ ужасную силу и въ данное время имѣютъ въ колоссальныхъ размѣрахъ оружіе, которое досталось имъ отчасти отъ турецкой арміи и отчасти оставлено русскими войсковыми частями.

Если не будетъ положенъ конецъ вооруженію и военной организаціи татарскихъ полчищъ, то они на Кавказѣ вызовутъ новую катострофу.

Армянскій народъ погибнетъ, а отъ этого дѣло союзниковъ потерпитъ фіаско, и для пріостановленія все разрастающейся пантатарской войны, союныя державы будутъ вынуждены перебросить солидную организованную силу.

Хотя турецкая армія удалилась съ Кавказа, однако они замѣнены татарской арміей, кадры которой состоятъ изъ турецкихъ офицеровъ и всецѣло находятся въ распоряженіи турокъ, а потому надо считать абсолютно необходимымъ:

I. Удалить турецкихъ офицеровъ, присутствіе которыхъ на Кавказѣ является преступнымъ нарушеніемъ условій перемирія.

2. Разоружить татарскія полчища.

3. Усилить и реорганизовать армію Армянской Республики, которая является единственнымъ элементомъ, могущимъ воспрепятствовать возстановленію варварства.

Армянскій народъ, по прежнему надѣется, что великіе союзники наконецъ, прислушаются къ его отчаяннымъ крикамъ и своимъ вѣскимъ вмѣшательствомъ предупредятъ новыя бѣдствія, которыя угрожаютъ ему поголовнымъ уничтоженіемъ.

Меморандумъ повторяетъ, какъ видитъ читатель обычную армянскую тактику-требовать чужого вмѣшательства и строить всѣ свои расчеты на насиліяхъ надъ сосѣдями.

Въ виду того, что съ одной стороны эта статья представляетъ инсинуацію по отношенію мусульманскаго населенія Закавказья, а съ другой стороны, какъ видно изъ ея содержанія, упоминается въ [illegible] Министра Иностранныхъ дѣлъ Армянской Республики Тагра-



3

- 3 стр.-

няна, то Министерство Иностранныхъ дѣлъ Азербайджанской Республики сочло своимъ долгомъ прежде, чѣмъ выразить свой протестъ по поводу ея содержанія, удостовѣриться, дѣйствительно ли имѣли мѣсто подача подобнаго меморандума армянской делегаціи въ Парижѣ и отсылка телеграммы, приписываемой Министру Иностранныхъ дѣлъ Тиграняну.

По этому поводу Министерство Иностранныхъ дѣлъ обратилось съ запросомъ въ штабъ Союзнаго Командованія въ гор. Баку, въ Дипломатическому Представителю Армянской Республики въ г. Баку, Дипломатическому Представителю Азербайджана при Правительствѣ Арменіи, дипломатическому Представителю Азербайджана при Правительствѣ Грузіи.

*Ermənilərin Azərbaycan rəsmilərini aldadaraq Sülh Konfransına tamamilə başqa mövqedən və başqa mövzuda təqdim etdikləri memorandum–[* **ADA 970-1-83]**



Копія 18

1) Г. Председателю Парламента Азерб. респ. 8 июля 1919 г. за № 1972

Мин. Ин. Дел
7 іюля 1919 г.
№№ 1951
1952

2 ЕГО ПРЕВОСХОДИТЕЛЬСТВУ КОМАНДУЮЩЕМУ

БРИТАНСКИМИ СИЛАМИ въ г. Баку

и

3 ВЪ ВОЕННУЮ ИТАЛЬЯНСКУЮ МИССІЮ ВЪ

ЗАКАВКАЗЬѢ.

и 4) Французской Военной Миссіи.

Правительство Азербайджанской Республики обратилось къ Армянскому Правительству съ предложеніемъ образовать смѣшанную Правительственно-Парламентскую комиссію изъ представителей Арменіи и Азербайджана съ участіемъ представителей союзниковъ для разслѣдованія столкновеній между армянскимъ и мусульманскимъ населеніемъ.





MISSIONE MILITARE ITALIANA
IN
TRANSCAUCASIA

li 11/VII 1919

N. di protocollo 37

Risp. al foglio N. del

OGGETTO:

Его Превосходительству
Господину Министру Иностранных
Дел Азербайджанской Республики

Настоящим честь имею подтвердить получение письма Вашего Превосходительства от 7 VII за № 1952.
Я тотчас же телеграфировал Королевскому Правительству в Рим чтобы сообщить ему Вашу просьбу.
По получении ответа о принятом решении я немедленно доведу его до сведения Вашего Превосходительства.
Пользуюсь случаем выразить Вашему превосходительству мое глубокое уважение

Капитан Фрегата

(подпись) А. Гранафеи


صورتی
آذربایجان مجلس مبعوثانی صدری جنابلرینه
صورتی




آذربایجان
حکومت جمهوریه
Правительство Азербайджанской Республики
27 июня 1919 г.
1884
Въ Совѣтъ Министровъ.
ПРАВИТЕЛЬСТВО АЗЕРБЕЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
29. ИЮН 1919
Вход. № 3297
При семъ имѣю честь представить на разсмотрѣнiе Совѣта Министровъ законопроектъ объ отпускѣ 5 миллiоновъ рублей на организацiю международной Европейской слѣдственной Комиссiи съ объяснительной запиской къ нему.-
Товарищъ Министра Иностранныхъ Дѣлъ
Директоръ Канцелярiи
Дѣлопроизводитель

14

ЗАКОНОПРОЕКТЪ

ОБЪ АССИГНОВАНІИ ПЯТИ МИЛЛІОНОВЪ РУБЛЕЙ НА ОРГАНИЗАЦІЮ МЕЖДУНАРОДНОЙ ЕВРОПЕЙСКОЙ СЛѢДСТВЕННОЙ КОМИССІИ.-

На организацію Международной Европейской Слѣдственной Комиссіи изъ представителей Союзныхъ Командованій въ Закавказьѣ и Европейскихъ Державахъ для разслѣдованія конфликтовъ между армянскимъ и мусульманскимъ населеніемъ Закавказья, имѣвшихъ мѣсто и продолжающихся до настоящаго времени, изъ средствъ Государственнаго Казначейства ассигнуется въ подъотчетное расходованіе Министерства Иностранныхъ Дѣлъ ПЯТЬ / 5 / МИЛЛІОНОВЪ РУБЛЕЙ.-

ТОВАРИЩЪ МИНИСТРА ИНОСТРАННЫХЪ ДѢЛЪ



MISSIONE MILITARE ITALIANA
IN
TRANSCAUCASIA
SEZIONE MARINA

Baku li II-7 1919
N. 71 di protocollo
Risp. al foglio N. 195 del 7 - 7

OGGETTO:

A S.E. il Ministro degli Affari Esteri
della Repubblica dell'Azerbeigian.

Ho il pregio di informare V.E. che io ho preso visione della lettera 1952 del 7 corrente mese.

Ho subito telegrafato al Regio Governo d'Italia in Roma per partecipargli la vostra domanda.

Sarà mia premura communicare a V.E. immediatamente la decisione che sarà presa .

Colgo l'ocasione per esprimere a V.E. i sentimenti della mia personale considerazione.

IL CAPITANO DI FREGATA .

Справка: Просьба о назначении смешанной следственной комиссии для расследования армяно-мусульм. столкновений

11/VII М. Ве[illegible]



Mission
Militaire Française
au Caucase
BACOU

26 іюля 1919
№ 289

Господину МИНИСТРУ
Иностранныхъ Дѣлъ Азербайджанской Республики
г.Баку.

Въ отвѣтъ на Ваше отношеніе отъ 8-го с./м. за №1977, увѣдомляю Васъ, что въ смѣшанную комиссію по разслѣдованію столкновеній между армянскимъ и мусульманскимъ населеніемъ, назначается отъ французской военной миссіи на Кавказѣ капитанъ ПУАДЕБАРЪ, который находится въ Эривани.

Представитель Французской Военной Миссіи на Кавказѣ для г.Баку:
Commandant Aubery

ADA 970-1-83



*ANADOLU TÜRKLƏRİNİN SOYQIRIMI*

**ABŞ Genəl Qurmay Başqanı general Harbord:**
**"Böyük Ermənistanda erməni görmədim."**

*24 sentyabr 1919-cu ildə Ərzuruma gələn ABŞ tədqiq heyəti (Genəl Qurmay Başqanı) general Harbord başqanlığında olmaq üzrə bütün Anadolunu aradı. Harbord heyətinə Kazım Qarabəkir paşa ermənilərin Gölə, Qars, Ərdəhan, Kağızman,Tuzluca (Duzluca), İqdır, Zəngibasar, Gərnibasar, Vedibasar, Kəmərli (Qəmərli), Şərur, Noraşen və Naxçıvan kimi bölgələrdə yapdığı türk-müsəlman soyqırımını incələyərək təsbit etdirdi. Sonuc olaraq bu bilgiləri Kazım Qarabəkir paşa 12 makina səhifəsi həcmində bir rapor şəklində heyət başçısına verdi.*

*Bu incələmələrdə şəxsən iştirak edən Harbord həmin raporu aldıqdan sonra belə demişdi: **"Böyük Ermənistanda erməni görmədim."*** – **(2:** s. 827).

***

**I Dünya Savaşında ən erkən, ən çox, ən uzunsürəli zülmə və soyqırıma məruz qalan xalq, heç şübhəsiz ki, Anadolu türkləri-müsəlmanları idi... O məqamlarla bağlı tarixi hadisələrin (Osmanlıya qarşı böyük dövlətlərin savaşları və erməni xəyanətinə hesablanmış işğallar, etnik "təmizləmə"lər, Anadoluda türk kimliyinin yox edilməsi çabaları...) gedişatına toxunarkən, öncəki bölümlərimizdə də bu olaylara dair geniş açıqlama verdiyimizdən indiki bölümdə ancaq bəzi zəruri, yığcam bilgiləri diqqətinizə çatdırmaqla və bir qisim sənədləri tanıtmaqla kifayətlənəcəyik...**

Hər şeydən öncə yada salaq ki, həmin dövrdə 200 000 nəfər erməni Müttəfiq Dövlətlərin ordularında Osmanlıya qarşı savaşa qatılmışdı. 60 000-lik erməni çətələri isə Anadolu köylərində və qəsəbələrində toplu qırğınlara girişərək 530 000 nəfər türk-müsəlmanı xunxarca (*qaniçən*-X.İ.) öldürmüşdü... İndi Anadolunun hər köşəsində ermənilər tərəfindən qətl edilmiş türklərə aid toplu məzarlıqlar ortaya çıxmaqdadır. (*Av. Zafer Zor. "Kitab haqqında"* – **1:** s. 6).

Bu olaylara genəl olaraq, bölgələr üzrə, qısa da olsa, aydınlıq gətirməyə çalışaq...

***

Belə bölgələrdən biri Doğu Anadolunun İqdır elidir.

Sürməli çuxurunda yerləşən qədim türk eli "İqdırda ermənilərin yapdıqları zülmlərin və qətliamların böyük qanıtları vardır. Oba köyü, Haqməhmət köyü və Gədikli köyü toplu qətliam yerləri ulusal basın önündə açılmış və qətliamların doğruluğu canlı şahidlərin də ifadələri pəkişdirilərək (*möhkəmləndirmək* – X.İ.) isbatlanmışdır. Ancaq İqdırda açılmamış bir çox qətliam yerləri və toplu məzarlar da mövcuddur. Küllük, Bayraqtutan, Nəcəfəli, Yaycı, Köçqıran, Qadıqışlaq köyləri bunlardan bir neçəsidir" **(1:** s. 8)...

***

Türk araşdırmaçısı Əli Əşrəf Uzundərənin yazdığına görə, ermənilər Araz çayı üzərində Əlican (Qaraqoyunlu?) Körpüsünü tutaraq Dro (Drastomat Kanayan), Dr.Xaçatur Bonapartyan və yardımçılarının komandanlığı ilə İqdırda qətliamları sürdürmüşlər... (*İnsanlıq Suçu. Ali Eşref Uzundere.* – **1:** s.12).

İqdır, Tuzluca və Aralıqda ermənilər çoluq-cocuq, gənc-ixtiyar demədən çox sayda türkü qətlə yetirmişlər.

***

I Dünya Savaşı öncəsində Şebinkarahisarda türklərə qarşı qətliam düzənləyən Sivaslı Murad, Sasun Canavarı kimi şöhrət qazanan Andranik və Muş qətliamını gerçəkləşdirən Arşak kimi erməni komitəçilərin liderliyi ilə Ərzincan, Bayburt, Ərzurum, Qars, Ərdəhan və İqdır kimi bir çox yerlərdə qətliam hərəkətləri yapılmışdır. Bölgədə olan müsəlman əhali rus subaylarının (*zabit* -X.İ.) artıq etkinliklərini (*təsir*-X.İ.) itirməleri səbəbilə, yox olma qorxusu ilə qarşı-qarşıya dayanmışdı **(1: s.11)...**

**[Haşiyə (qeyd):** Diqqət et, əziz oxucu! *Türkdən türkə çevirməni bizlər bəzən ərəb, fars sözləri ilə "etməli" oluruq: öncələrdə də dediyimiz kimi,* ***bizə tezliklə dil islahatı (yəni: düzəlişləri) lazımdır!!!]***

***

29 aprel 1918-ci ildə Gümrüdən Ahalkələyə gələn 500 arabadakı 3000 nəfər türk-müsəlman köçkün də ermənilər tərəfindən öldürülmüşdür. Eyni günlərdə iki top və iki makinalı tüfəngi olan 1000 nəfərlik erməni qüvvəsi Tuzluca və İrəvan bölgəsində bulunan türk-müsəlman köylərinə saldıraraq qadınları və cocuqları öldürmüşdür...

9-cu Qafqaz Firqəsi Komandanı miralay Rüşdü tərəfindən 21 avqust 1919-cu ildə 15-ci Qolordu Komandanı Kazım Qarabəkirə göndərilən raporda isə göstərilir ki, kürdlərin 18 avqustda Kağızmandakı ermənilərə saldırmasından sonra ermənilər bölgədəki müsəlmanları camelərə dolduraraq öldürməyə başlamışlar... 21 avqustda 12-ci Firqə Komandanı Osman Nurinin 15-ci Qolordu Komandanına göndərdiyi raporda da eyni olaylar göstərilərək, Kağızman, İqdır, Kulp (Qulp) civarında bir çox köyə ani olaraq toplarla və makinalı tüfənglərlə saldıran ermənilərin zülmündən bəhs edilir.

11 sentyabr 1919-cu il tarixli Hərbiyə Nəzarətinə göndərilən bir raporda isə erməni vəhşiliyi belə ifadə olunmuşdur: "Ermənilər müəzzinləri azan oxurkən daşlayıb səbb etmişlər (*söymüşlər*-X.İ.), qadınlara bir çox işgəncələr verərək namuslarına təcavüz etmişlər. Topladıqları islam qadınlarını üryan bir halda ermənilər öz əsgərləri arasında gəzdirmişlər."

17 sentyabr 1919-cu ildə, ermənilər İqdırın 6 km doğusunda yerləşən Adbak köyünün əhalisini tamamilə qırmış və bu köyün 1 km-liyindəki 300 evlik Yağcı (*Yaycı*-X.İ.) köyü əhalisini faciəli və vəhşi şəkildə qətliama uğratmışlar.

*11 mart 1920-ci ildə erməni silahlı dəstələri Ağbaba, Zərdüşad, Şürəgel (Şörəyel) və Çıldır qəzalarına hücum çəkərək, buradakı müsəlman əhalini cürbəcür işgəncələrlə məhv etmişlər. Ermənilər təkcə Zərdüşadda qadın və cocuqlardan ibarət 2000 nəfər müsəlmanı öldürmüş, 28 köyü tamamilə dağıtmış və topladıqları müsəlman qızlarının bir qismini Gümrüyə, bir qismini isə Qarsa gətirib erməni evlərinə paylamışdılar.* ***Müsəlman qadınlarının tuman-köynəklərini bazarlarda car çəkərək satan ermənilər*** *bu basqınlarda onlara yararlılıq göstərən Qarsdakı kürd rəislərindən Davuda çoxlu pul-para verərək ödülləndirmişdilər.*

2 iyul 1920-ci il tarixli bir bəlgədə isə Aralıq civarında 1500 çocuğu suya ataraq boğan ermənilərin bu mənfur hərəkətləri sonucunda bölgədə cocuq cəsədləri üzündən içməli suyun içilməz hala gəldiyi bildirilir.

5 iyul 1920-ci il tarixli başqa bir raporda da Qars, Sarıqamış,Qaraqurd, İqdır bölgələrində ermənilərin müsəlmanları qətliama uğratdıqları göstərilir. Bu raporda adı çəkilən cinayətlərdə (müsəlmanların evlərə doldurularaq yandırılmaları, süngülərlə öldürülərək Araz çayına atılmaları, mal-mülklərinin yağmalanması və b.) sorumluluq erməni generalı Obesyana aid olduğu bildirilir. Həmin raporda 1918-ci ildən bəri Qars və cevrəsində öldürülən müsəlmanların sayının 25 min nəfərə ulaşdığı xatırlanır. 25 iyul 1920-ci il tarixli başqa bir bəlgədə isə, ermənilərin İqdır bölgəsindəki müsəlmanlara saldırmaqla kifayətlənmədikləri, bölgədəki malakan köylərini də yağmaladıqları və bu haqda müsəlman və malakan köyləri əhalisinin hüdud ( *sınır*-X.İ.) komandanlıqlarına müraciət edərək müvafiq yardım istədikləri ifadə edilir.

Bir sözlə, ermənilər 1915-ci ildən 1920-ci ilin sonlarınadək, Şahtaxtı, Zəngəzur, Naxçıvan, İqdır, Sərdarabad və çevrəsindəki yüzlərlə köydə minlərlə müsəlmanı, qadın və cocuq demədən, min bir işgəncələrlə öldürərək cəsədlərini üzvlərə parçalamışlar. Andranik və Bapun (*yəqin ki, Yapo nəzərdə tutulur*- X.İ.) çətələrinin türk yaşayış məntəqələrini yaxıb-yıxdıqları, yerli türklərin mal-mülkünü, heyvanını yağmaladıqları, zülmdən qaçıb qurtulanların isə köçməyə məcbur olduqları arxiv bəlgələrindən aşkarca görünməkdədir (*Dr.Şenol Kantarcı. Ağrı Dağı Eteklerinde Yitik Canlar.* **- 1:** s.12-14).

Ermənilər tərəfindən həmin illərdə İqdırın Qoçqıran, Daşburun, Bulaqbaşı, Qadıqışlaq, Haqməhmət, Oba, Yaycı, Küllük, Bayraqtutan, Gədikli və b. köylərində türklərə qarşı toplu qətllər yapılmışdır. Bunlardan Oba (1-2 mart 1986-cı ildə), Haqməhmət (5-6 oktyabr 1999-cu ildə), Gədikli köyü (27 may 2003-cü ildə) uluslararası media ( ***BBC*** *də daxil olmaqla*) və elm adamlarının ( *o sıradan italyan tarixçisi, prof. dr. Stefano Trinkhese və avstriyalı tarixçi prof. Erix Faygelin*) hüzurunda canlı şahidlərin ifadələri ilə də təsdiq edilərək qazıntı aparılıb, toplu məzarlar açılmışdır **(1: s.25).**

Araşdırmaçı Ziya Zakir Acarın yazdığı, qətliama məruz qalan Naxçıvan və İqdır civarındakı Bulaqbaşı, Novruz, Uluxanlı, Qəmərli, Ciləxan, Şeyxlər, Qoçaq, Fəqirlər, Əliməhmət və Xızırlı köyləri əhalisinin bəzilərinin ifadələrindən də göründüyü kimi: ingilislərin Qarsa girməsiylə barış imzalandığı və istəyənlərin köylərinə dönə biləcəkləri elan edildiyi halda ermənilər tərəfindən geri dönən müsəlmanların yollarda qətl edildiyi və bu qətliamları yaparkən qadınları, cocuqları da süngülərlə dəlik-deşik etməkləri, top və makinalı tüfənglərlə toplu qətllər törətdikləri, qundaqdakı körpələrin qıçlarını ayıraraq başlarını daşla əzdikləri, qadınların doğulmamış cocuqlarını qarınlarından süngü ilə çıxardıqları; Qoçaq köyündə qadın və cocuqları bir-bir doğradıqdan sonra üzərlərinə qaz yağı töküb yandırdıqları, qocaların (ixtiyarların) saqqallarını qısqaclı maşa ilə çəkərək üzlərinin dərilərini soyduqları; cocuqların balta və xəncərlərlə qafalarının parçalanıb gözlərinin çıxarıldığı, cocuqların şişlərə keçirildiyi; bütün mal və heyvanların yağmalandığı, minlərcə türk-müsəlmanın soyqırıma məruz qoyularaq Araz çayının kəsilmiş və boğulan insan cəsədləri ilə dolub-daşdığı... və başqa bu qəbildən olan olayları özündə əks etdirən Osmanlı arxiv bəlgələri, o sıradan tanıq (şahid) ifadələri İqdır və çevrəsində ermənilərin türklərə qarşı yapdıqları qətliamları bir daha təsdiq etməkdədir **(1: s.72).**

**Ədəbiyyat:**

1. Ziya Zakir Acar. Görenlerin gözüyle Iğdırda Ermeni katliamı. Ankara, 2007.
2. Kazım Karabekir. İstiklal Harbimiz. İstanbul, 1962.

OSMANLI ARXİVLƏRİNDƏ 1914-1921-Cİ İLLƏR ARALIĞINDA ERMƏNİLƏRİN TÜRKLƏRƏ YAPDIQLARI KÜTLƏVİ QIRĞIN VƏ ZÜLMLƏRƏ AİD BƏZİ BƏLGƏLƏRİN SİYAHISI

**07 03 1915** Rus əsgərlərinin erməni çətələri ilə birlikdə Van, Qars, Ərdəhan, Bitlis, Məmurətül-əziz, Diyarbəkir, Trabzon və Ərzurumda yapdıqları qırğın, qəsb, təcavüz, işgəncə; ihrak (tonqalda yandırma) və b. insanlıq suçlarına aid ayrıntılı bilgi. (HR.SYS.2872/1; İslam Ahalinin Düçar Oldukları Mezalim Hakkında Vesaika Müstenid Malumat (*bundan sonra qısaca:* **İADOMHVMM** *kimi yazılacaqdır*). 2-ci baskı, Şubat 1919. – İstanbul, 2006 (sonuncu basqıya hazırlayan: Emin Kutluğ), s.68). **14 05 1916 , 23 05 1916, 07 06 1916** tarixli bəlgələr də (HR. SYS. 2872/2, 2872/3, 2872/4) eyni bölgələri əhatə edərək, eyni məzmun daşıyır.

**24 07 1914** Ermənilərin Kağızman, Gümrü və Naxçıvan bölgələrindəki islam köylərini basaraq minlərlə müsəlmanı öldürmələri; Artvində və Ərdəhan Gölədəki (yəqin ki, *Ərdəhana bağlı Gölədəki* demək istənilir – X.İ.) ermənilərin əhaliyə saldırıb, əşrafdan bəzilərini öldürmələri haqda bəlgə. (HR. SYS, 2877/54; İADOMNVMM, s.68).

**27 09 1915** Ermənilərin rus əsgəri ilə birgə Osmanlı ordularına qarşı savaşmaqları və Anadoludakı ermənilərin mövcud durumları haqda Bolqarıstanda yayınlanan "Zarya" qəzetindəki yazı. (HR. SYS. 2880/34; İADOMHVMM, s.69).

**08 08 1917** Bayburt və İspir qəzalarında Arşak çətəsi və ermənilərin türklərə qarşı törətdikləri faciəli zülmlər, vəhşi cinayətlər, eşidilməmiş işgəncələr haqqında Rus Qızılxaç həmşirələrindən (*tibb bacısı* – X.İ.) və Moskva Tibb Fakültəsi öyrəncilərindən Madam Tatyana Kremelinin anıları. (HR.SYS, 1877/1; İADOMHVMM, s.70).

**25 01 1919** Ermənilərin Gölə,Çıldır, Qars, Ərdəhan və köylərində 15-60 yaş arası kişiləri şəhid edərək ( *millət vəkilləri də daxil olmaqla*), qadınları əsir alıb namuslarına toxunduqları və s. haqda bəlgə. (HR. SYS. 2877/2; İADOMHVMM, s.70).

**29 04 1919** Ərzurum, Həsənqala və köylərində ermənilər tərəfindən yandırılaraq; yaxud süngü, balta, güllə kimi çeşidli vasitələrlə şəhid edilən erkək, qadın və cocuqlar haqda bilgiləri əks etdirən dəftər. (HR. SYS, 2877/3; İADOMHVMM, s.70).

**13 06 1919** Balıq Göl civarında ermənilərin hücumuna məruz qalan Zilan və Şərqanlı kürd əşirətlərinə mənsub əhalinin bu zülmlərdən qorxaraq hicrətə məcbur olmaları; ermənilərin Kağızman, Çıldır, Ərdəhan və Sarıqamışda müsəlman əhaliyə yapdıqları saldırma, soy qırımı və yağmalama haqda bəlgə. (HR. SYS. 2877/6; İADOMHVMM, s.70).

**30 06 1919** Ermənilərin Qara Urqan, Kağızman, Ərzurum, Qars, Bəyazid, Sarıqamış, Naxçıvan və Araz bölgələrində qadın və cocuqlar da daxil olmaq üzrə çeşidli bədən üzvlərini kəsərək müxtəlif şəkildə müsəlmanlara qarşı icra etdikləri qətliam, qadınlara həqarət, təcavüz, basqın və yağmalama qonusunda ingilis əsgəri təmsilçisinə verilən rapor. (HR. SYS. 2877/13; İADOMHVMM, s.71).

**02 07 1919** Ermənilərin Naxçıvan və çevrəsində türklərin silahlarını yığaraq soy qırımı yapdıqları... hüduddakı Güləntab və Qızılhamamlı müsəlman köylərinə basqın



düzənləyərək xalqı qətl etməkdə olduqları haqda bəlgə. (HR. SYS. 2877/15; İADOMHVMM, s.72).

**03 07 1919** Doğu Anadoluda Sekman, Arzı, Kəpənək, Təpədüz, Harclı və Todeviran köylərində ermənilər tərəfindən yapılan irzə sataşma, yağmalama və cocuq-qadın ayrımı yapmayaraq baltayla parçalama, yandırma kimi çeşidli şəkillərdə yapılan soy qırımı olaylarının toplandığı "qeyd dəftəri". (HR. SYS. 2877/17; İADOMHVMM, s.72).

**09 07 1919** Qaraqurd, Sarıqamış və Ağcaqala civarında yerləşən Məscidli-Gilyantəpə, Pozat, Qurudərə, Bozquş və digər köylərdə ermənilərin yapdıqları toplu qətliam, qadın və erkəklərin alınıb aparılması, qəsb və yağmalama kimi zülmlər haqda Amerikan nümayəndəsinə verilmiş rapor. Hüdudda ermənilərin yapdıqları zülmlərlə ilgili raporların İstanbul Amerikan Səfirliyinə bildirilməsi qonusunda Ərzincana gələn ABŞ nümayəndəsinin xahişi. (HR. SYS. 2877/30; İADOMHVMM, s.73).

**12 07 1919** Gölə və Çıldır bölgəsində ermənilərin xərac toplayıb, adamları aradan götürdükləri; Kağızmanlı Əziz Əfəndi yol yoldaşı və ailəsi ilə birgə Qarsa gedərkən Təhnis Köyü ilə Ağadərəli arasında ermənilər tərəfindən öldürüldükləri, sonra ermənilərin onların əllərini, qulaqlarını, burunlarını və dodaqlarını kəsib dərilərini üzərək yanlarında və kökslərində açdıqları ciblərə doldurub gözlərini oyduqları və iki qadına qarşı da alçaqcasına rəftar etdikdən sonra öldürdükləri ... və b. bənzər olaylar haqqında bəlgə. (HR. SYS. 2877/36; İADOMHVMM, s.74).

**06 07 1919** Qara Kilsə-Qarapikar, Armudlu, Küplücə və Araz qıyısında (sahilində) bulunan müsəlmanlara qarşı ermənilər tərəfindən yapılan tutuqlama, zorla silahlarının və mallarının alınması, qətliam və mütəmadi atəş altında tutulması kimi vəhşi hərəkətləri ilə bağlı rapor və məktublar. (HR. SYS. 2877/22; İADOMHVMM, s.74).

**08 07 1919** Ermənilərin Qaraqurdun Məscidli və Kilyan Təpə, Sarıqamışın Pozat köyləri ilə Kağızman civarındakı islam əhalisini qətliam şəklində qırmağa başladıqları... Quru Dərəni də basaraq orada 5 kişi, 3 qadını şəhid etdikdən sonra 33 kişi, bir gəlin, bir qız və 440 baş heyvanı alıb apardıqları... Qars və Oltu arasındakı Ağcaqalaya aid dörd köyə saldırıb köyün birinin xalqını tamamən, o birilərindən isə 60 nəfəri götürərək doğradıqları və komandanlarının Arşak olduğu ... Bozquş Köyündə də birisinin qadınını və qızını apardıqları haqda bəlgə. (HR. SYS. 2877/25; İADOMHVMM, s.75).

[ *İxtisarla siyahısını verdiyimiz bu sənədlərdən bəzilərində ermənilərlə birgə rum çətələrinin də türklərin soyqırımında iştirakı aydın olur:* **08 07 1919,** HR. SYS. 2877/24 (İADOMHVMM, s.74); **08 07 1919,** HR. SYS. 2877/26 (İADOMHVMM, s.75); **08 07 1919,** HR. SYS. 2877/27 (İADOMHVMM, s.75) və b. ]

**14 07 1919** Ermənilərin sınırda bulunan Qazi Qaya, Çörəklər, Ayntab, Armudlu, Başköy , Dərbxan, Qalabad, Ağqoyun, Gömək və Qanlıqaya köyləri ilə Qaraqurd və Baş Qara Kilsə bölgələrində yapdıqları soy qırımı, irzə sataşma, basqın və yağmalama olayları haqda bəlgə. (HR. SYS. 2877/38; İADOMHVMM, s.75).

**15 07 1919** Naxçıvan və çevrəsindəki 45 köydə ermənilərin yapdıqları təcavüzlər və Böyük Vedi köyü xalqının bir çoxunun öldürülməsi haqda bəlgə. (HR. SYS. 2877/40; İADOMHVMM, s.76).

**22 07 1919** Ermənilərin 400 piyada və üç top ilə Hocivanik Qəryəsində müsəlmanlara qarşı soy qırımı yapdıqları haqda bəlgə. (HR. SYS. 2877/53; İADOMHVMM, s.77).

**25 07 1919** Hüdud nahiyəsində incələmə yapan və ermənilərin müsəlmanlara qarşı törətdiyi zülmləri görən İngilis nümayəndəsi yarbay Ravlinsonun Dərsəadətdəki ingilis qərargahına keşidə edilmək (*nüsxələnib yayılmaq-paylanmaq* –X.İ.) üzrə Ərzurumdakı ingilis yüzbaşısı Feleçerə göndərdiyi telqrafnamədə Oltudan Bəyazid hüduduna qədər olan cəbhədə ermənilərin qətliam yapmaqda olduqları etiraf edilərək, ermənilərin tədib (*cəzalandırma, tənbeh* – X.İ.) edilmələrinin gərəkdiyindən bəhs edən bəlgə. (HR. SYS. 2877/56; İADOMHVMM, s.77).

**26 07 1919** Ermənilərin Qəmərli yörəsindəki üç müsəlman köyün əhalisini tamamən doğrayıb Araza tökdükləri... Sarıqamışa qədər gələn erməni əsgərlərinin arasında ingilislərin də bulunduğu... Ermənilərin özlərinin müsəlmanlara qarşı ingilislər tərəfindən tovlandıqlarını açıq-açığa söylədikləri haqda bəlgə. (HR. SYS. 2877/57; İADOMHVMM, s.77).

**30 07 1919** 1335-ci il Temmuz ayı ərzində (*əski Osmanlı təqvimilə*) Qafqazda ermənilərin törətdikləri cinayətlərin özətlərini bəyan edən-15-ci Qolordu komandanı mirliva Kazım Qarabəkir paşadan Amerika İncələmə Heyəti Başqanlığına göndərilən yazının surəti. (HR. SYS. 2877/63; İADOMHVMM, s.78).

**31 07 1919** Ermənilərin hüdud xaricindəki müsəlmanlara yapdıqları zülmləri İngilis Mümessilinə (*nümayəndəsinə* –X.İ.) anlatmaq üçün Ərzuruma getməyə müsaidə (*izn*) tələbində bulunan Rum papazına (*keşiş* –X. İ.) rədd cavabı verilməsi haqda. (HR. SYS. 2877/64; İADOMHVMM, s.78).

**14 08 1919** Ermənilərin İrəvan və civarındakı müsəlman əhalidən bəzilərini Eçmiədzinə aparıb qətl etməkləri ... haqda. (HR. SYS. 2877/69; İADOMHVMM, s.78).

**14 08 1919** İqdır civarındakı Balıqlı Gölünün quzey-doğusunda müsəlmanların məskunlaşdığı Yuxarı Qatırlı, Aşağı Qatırlı, Gül Əhməd və Tavuz qəryələri əhalisinin ermənilər tərəfindən öldürülməsi, mallarının yağmalanması haqda. (HR. SYS. 2877/70; İADOMHVMM, s.78).

**15 08 1919** İqdıra gələn 1000 nəfərlikdən çox bir piyada alayı və əski Rus qiyafətli 300-ə qədər süvarinin müsəlmanları qırmağa başladıqları... Bir Amerika iaşə heyətinin Vandan Bəyazidə gedərək ermənilər tərəfindən məsum sivil xalqa yapılan zülmləri yerində təsbit edərək fotolarını çəkdikdən sonra geri döndüyü haqda. (HR. SYS. 2877/71; İADOMHVMM, s.79).

**16 08 1919** Erməni Dördüncü Müstəqil Firqəsi (*Diviziya*-X.İ.) komandanı Bayburtlu Arşak tərəfindən hüdud xaricindəki əşirətlərin rəislərindən Eyub Paşaya göndərilən məktubda ermənilərin müsəlmanlara yapdıqları zülmləri etiraf etdiyi haqda bəlgə. (HR. SYS. 2877/72; İADOMHVMM, s.79).

**21 08 1919** Kağızman əşrəflərindən Məhməd Bəyin ermənilər tərəfindən qaçırıldıqdan sonra qaba ətində ciblər düzəltmək və əllərini oraya soxmaq surətilə şəhid edilmiş bir halda Kiçik Zaim Qəryəsi civarında bulunduğuna dair. (HR. SYS. 2877/75; İADOMHVMM, s.79).



**31 12 1919** 15-ci Qolordu Komandanlığının İngilis olağanüstü yetkilisi yarbay Ravlinsona son vaxtlarda ermənilərin yapdığı öldürmə, talama və zülmlərlə bağlı verdiyi raporun əsaslandığı ilkin qeyd dəftəri. (HR. SYS. 2878/12; İADOMHVMM, s.80).

**02 01 1920** Qars, Sarıqamış və Gümrü civarında 02 01 1920-23 08 1920 aralığında yapılmış erməni zülmünün xülasəsi (ilkin qeyd dəftəri). (HR. SYS. 2878/13; İADOMHVMM, s.80).

**02 03 1920** Qars İslam Komitəsinin Güney-Batı Qafqazda, Zəruşad, Şahnalar və Çıldır bölgələrində müsəlmanlara qarşı ermənilərin törətdikləri zülmlərlə bağlı yazdığı məktub. (HR. SYS. 2878/18; İADOMHVMM, s.81).

**09 03 1920** Əlviyə-i Səlasədəki nizami erməni qüvvələrinin Qarsın quzey-doğusundakı Ağbaba, Zəruşad və 33 köydə yapdıqları soyqırım, dağıntı, qadın və cocuqların parçalanması, köylərin yağmalanması və bir qisim insanların əsir olaraq Qarsa götürüldüyü haqda o mıntıqadakı (*nahiyə, bölgə* –X.İ.) İngilis təmsilçisinə və Hərbi Nazirliyə yazılan 15-ci Qolordu Komandanlığı və Ərzurum Vilayətinin bildirişləri. (HR. SYS. 2878/20; İADOMHVMM, s.81).

**16 03 1920** Çıldır, Zəruşad və Ağbabada erməni zülmlərindən sonra amerikalı albay Hasgel ilə bir amerikan və bir ingilis məmurun xalqı yatırtması (*sakitləşdirməsi*), ermənilərin eyni məntəqədəki 28 köyə təkrar hücumuna, daha faciəli qətliama girişdiklərinə, qadınları və qızları bölgədən götürdüklərinə və b. əməllərinə dair 15-ci Qolordu Komandanlığına verilmiş yazılı bildiriş. (HR. SYS. 2878/22; İADOMHVMM, s.81).

**08 06 1920** Qarsın Şurakil (*Şuragil, Şörəyel*- X.İ.) qəsəbəsi köylərində ermənilərin yapdığı qətliamlar, dağıntılar, yağmalamalar və qızların zorla aparılması haqqında və Oltu yörəsinə ermənilərdən qaçan mühacirlərin gəldiyinə dair Narman Qayməqamlığının iki telqrafının 15-ci Qolordu Komandanlığına və Ərzurum Valiliyinə bildirilməsi barədə. (HR. SYS. 2878/39; İADOMHVMM, s.82).

**18 10 1920** Tortum Qayməqamlığının qəzalarında 50000 evin ermənilər tərəfindən dağıdılıb-yandırıldığı, bu qəzadakı 64 köyün bundan istisna olmadığı və qəzadakı 3750 müsəlmanın şəhid edilib yetimlərin xeyir qurumlarına paylaşdırılmağa çalışıldığı haqda şifrəli telqraf. (HR. SYS. 2878/48; İADOMHVMM, s.83).

**19 10 1920** Ərzurumu tərk edən ermənilərin gedərkən geridə 3845 insanı öldürüb 14 767 344 quruşluq əşya və pulu qəsb etmələri haqda... Şəhərin azad olunmasının ikinci günü ayrıca 4344 şəxsin bələdiyyə tərəfindən dəfninin gerçəkləşdirildiyinə dair yer və ad siyahısı ilə Ərzurum Hilal-i Əhmər (*Qızıl Aypara* – X.İ.) Cəmiyyətinin yetimlər və qadınlarla ilgili ad siyahısı. (HR. SYS. 2878/49; İADOMHVMM, s.83).

**19 10 1920** Pasinlər Qayməqamlığının ermənilər tərəfindən yandırılıb-talanan köy adları ilə əhalisi öldürülən köylərin adları və genəl durumla ilgili şifrəli telqraf. (HR. SYS. 2878/50; İADOMHVMM, s.83).

**25 10 1920** Ərzurum daxilində erməni zülmünə məruz qalan köy və şəxslərlə bağlı cədvəl. (HR. SYS. 2878/52; İADOMHVMM, s.83).

**28 10 1920** Aşqala Nahiyə Müdirinin Ərzurum Valiliyinə göndərdiyi yazı. Nahiyə sınırlarında 1334-cü (miladi: 1918-ci) il içərisində ermənilər tərəfindən yapılan qətliam və təxribat. (HR. SYS. 2878/54; İADOMHVMM, s.83).

**03 12 1920** Qarsa bağlı Gölənin qəryələrindən Topdaş və Kelpikördə erməni komandan Mazmanovun nəzarətində qadın-uşaq demədən yapılan qətliam və yağma haqqında. (HR. SYS. 2878/61; İADOMHVMM, s.84).

**04 12 1920** Qarsa bağlı Kasor və qəryələrində ermənilər tərəfindən yapılan qətliam və yağma barədə. (HR. SYS. 2878/62; İADOMHVMM, s.84).

**04 12 1920** Sarıqamış və qəryələrində ermənilər tərəfindən yapılan zülmlər və yağma haqda ayrıntılı cədvəl. (HR. SYS. 2878/63; İADOMHVMM, s.84).

**04 12 1920** Oltuya bağlı Olur qəzası ilə Bardız və Kosor nahiyələrində ermənilər tərəfindən yapılan zülmlər və qəsblərlə ilgili ayrıntılı cədvəl. (HR. SYS. 2878/66; İADOMHVMM, s.84).

**26 12 1920** Naxçıvan bölgəsində ermənilərin yapdığı zülm, qəsb və saldırmalarla ilgili ayrıntılı cədvəl. (HR. SYS. 2878/76; İADOMHVMM, s.85).

**28 01 1921** Ermənilərin Naxçıvan və Qafqazlarda yapdıqları qətliam və yağmalarla ilgili bilgilər. (HR. SYS. 2878/79; İADOMHVMM, s.85).

**20 02 1921** Bolşevik ordusu içərisində bulunan ermənilərin və bolşevik rusların Tiflis ilə Borçalı bölgələrindəki türk köylərində yapdıqları zülmlər və yörə əhalisinin qurtarılma istəyini özündə əks etdirən məktubları. (HR. SYS. 2878/82; İADOMHVMM, s.85).

**06 04 1921** Qarsa bağlı Qarakilsə və civarında erməni daşnaqlarının yapdığı talan və zülmlərin təsbiti ilə ilgili Şərq Cəbhəsi Komandanlığının təhriratı (*rəsmi yazısı*–X.İ.). (HR. SYS. 2878/87; İADOMHVMM, s.86).

KARS VE ÇEVRESİNDEKİ ÖN ARAŞDIRMALARDA TESBİT EDİLEN 62 TOPLU MEZAR MAHALLERİ:

KARS:
1- Akbaba köyü (Merkez)
2- Alçılı köyü (Merkez)
3- Aynalı köyü (Merkez)
4- Boğazköy (Melikköy, Merkez, 280 iskeletli toplu mezar)
5- Dereçi Mahallesi (Merkez)
6- Digor (Merkez)
7- Kalo köyü (Derecik, Merkez, 360 iskeletli toplu mezar)
8- Orta Kilise köyü (Ortalar, Merkez)
9- Subatan (Subasan) köyü (Merkez, 570 iskeletli toplu mezar)



ARDAHAN:
10- Ardahan (Merkez, Halit Efendi Mahallesi)
11- Ardahan (Merkez, Sıddık Cengiz tarlası, 500 iskeletli toplu mezar)
12- Ardahan (Merkez, Şavak yolu)
13- Çataldere köyü (Gemerek mevkii)

AHILKELEK (hudut ötəsi):
14- Acarca köyü
15- Badiğna köyü
16- Dangal köyü
17- Havur köyü
18- Koros köyü
19- Morcahit köyü
20- Mulabi köyü

ARALIK:
21- Aralık (Merkez Körpüler Mahallesi)

ARPAÇAY:
22- Arpaçay (Merkez Bahçeler Mahallesi)
23- Büyük Çatma köyü (178 iskeletli toplu mezar)
24- Güvercin köyü
25- Küçük Çatma köyü (178 iskeletli toplu mezar)
26- Mescitli köyü
27- Şamran köyü
28- Taşbaşı köyü
29- Tomarlı köyü
30- İncedere köyü (Kuyu içinde iskeletler)

ÇILDIR:
31- Aşağı Cincirof köyü
32- Berihatun köyü
33- Kayabeyi köyü
34- Meryem köyü
35- Ölçek köyü
36- Rabat (Yıldırımtepe) köyü
37- Sikip (Kotanlı) köyü ( 80 iskeletli toplu mezar)
38- Yukarı Cincirof köyü

GÖLE:
39- Dereyolu köyü
40- Esenboğaz köyü (456 iskeletli toplu mezar)
41- Sürgüden köyü (170 iskeletli toplu mezar)

IĞDIR:
42- Bayrak Tutan köyü (Ağa Çelik Samanlığı)
43- Hakmehmet köyü (Uzun Hasan Kuyusu'nda 85 iskeletli toplu mezar ve "1334 (1918)'de 51 şehit" yazılı şehitlik)
44- Koçkıran (Aşburun) köyü (Camii ve havuzunda toplu mezar)
45- Küllük köyü (1918'deki katliamda Yakup Görel Kuyusu'nda medfun 40 kişi)
46- Oba köyü (1986 Martı'nda toplu mezarı açılmış olup, Erzurum Müzesi Katliam Seksiyonu'nda iskeletler ve bulgular sergilenmekdedir.

KAĞIZMAN:
47- Alipınarı mevkii
48- Çeperli köyü (150 iskeletli toplu mezar)
49- Çilehan köyü
50- Kızılveren köyü



TUZLUCA:
51- Alipınarı köyü
52- Sofular köyü

DİĞER KÖYLER:
53- Alaca köyü
54- Hacı Halil köyü
55- Harabe köyü
56- İlham köyü
57- Kaluköy
58- Ketak köyü
59- Mağisto köyü
60- Milanlı köyü
61- Tekneli köyü
62- Yakınsu köyü (19 şehit)*

(**Qeyd:** Siyahı çevirmədə yarana biləcək ad yanlışlıqlarından saqınmaq üçün orijinalda – Anadolu türkcəsində verilmişdir.)

***Ədəbiyyat**: Yakın Tarihimizde Kars ve Doğu Anadolu Sempozyumu, Ankara, 1992, s. 34-36.





## KAZIM QARABƏKİR PAŞA VƏ DOĞUNUN XİLASI

Türkiyənin doğusunda Şərq Fatehi kimi böyük iz buraxmış, sonralar TBMM Rəisi görəvinədək yüksəlmiş Kazım Qarabəkir Paşa 1882-ci ildə İstanbulda Kiçik Mustafa Paşa səmtində dünyaya gəlmişdir. Ailəsi Konyanın Qafriyat kəndindəndir. Sonralar bu kənd böyüyüb qəsəbəyə çevrilmiş və ona Qarabəkir adı verilmişdir. Atası Məhmət Emin Paşa 1853-54–cü illərdə könüllü olaraq Krım hərbinə qatılmış və yararlı xidmətinə görə gümüş medala layiq görülmüşdü. Kastamonuda Alaybəyliyi, İskilipdə Qayməqamlıq... nəhayət, Məkkədə Vali Vəkili olan Məhmət Emin bəy Paşa rütbəsinə yüksəlmiş, ancaq ömür vəfa etməmiş 1893-də xolera xəstəliyindən vəfat etmişdir. Anası Həvva xanım isə 1917-də İstanbulda dünyadan köçmüşdür. Kazım Qarabəkir ilk təhsilə İstanbulda başlamış, sonra Van, Harput və Məkkədə davam etmişdir. 1905-ci ildə Hərb Akademiyasını (Erkan-i Hərbiyə Məktəbini) birinciliklə bitirmişdir. 15 aprel 1911-ci ildə rəsmi müraciətinə əsasən Qarabəkir soyadını almışdır.

1914-cü ilin oktyabr ayınadək, yeni I Dünya Hərbinə qədər Rumelidə çeşidli görəvlərdə bulunmuş, 1907-ci ilin iyulunda Kolağası (Böyük Yüzbaşı), 4 aprel 1912-ci ildə Minbaşı, 1914-cü ildə Yarbay (Qayməqam) olmuşdur. I Dünya Hərbindən öncə İran və İraq cəbhələrinə yollanmış, 1915-ci ildə Çanaqqala Cəbhəsində görəvləndirilmiş, bu sırada Albay (Miralay) rütbəsinə yüksəlmiş, ertəsi sənə 1 il yarım yenidən İraq Cəbhəsində qalmış, 1917-ci ildə Diyarbəkirdəki 2-ci Qolordu Komandanlığına gətirilmiş, 1917-ci ilin sonlarında Ərzincan civarındakı 1-ci Qafqaz Qolordusu Komandanlığına keçirilmişdir. Qarabəkir Paşa 24 dekabr 1917-ci ildə Silvandakı qərargahından atla yola çıxaraq; bərabərindəkiləri ilə birlikdə 1-ci Qafqaz Qolordusu qərargahının bulunduğu Rəfahiyəyə gəlmişdir **(1: s. 1-3)**.

1916-cı ilin iyulunda rusların işğalına keçən Ərzincan Qarabəkir Paşanın qüvvələri tərəfindən 13 fevral 1918-ci ildə xilas edilmişdir. Hərbdən əvvəl 6000 ev və

22000 əhali bulunan bu şəhərdə 1923-cü ildə cəmi 1600 ev və 9000 civarında nüfus (əhali) qalmışdı.

Kazım Qarabəkir Paşanın komandanlığında olan hərbi qüvvələr 12 mart 1918- ci ildə Ərzurumu, 5 aprel 1918-ci ildə Sarıqamışı, 25 aprel 1918-ci ildə Qars Qalasını geri qaytardılar.

*[Yeri gəlmişkən, qeyd edək ki, Nuru Paşanın Qafqaz İslam Ordusuna komandan təyin edilməsindən öncə, 23.02.1918-ci il tarixində Ənvər Paşa bu görəvi Kazım Qarabəkir Paşaya təklif edibmiş. Ancaq həmin dönəmdə Kazım Qarabəkir Paşa Ərzurumun azad edilməsi uğrunda döyüşlərlə məşğul olduğundan hələlik bu cəbhədə hərbi əməliyyatların sona çatdırılması üçün ona möhlət verilməsini istəmiş, Ənvər Paşa da razılaşmışdı –* ***(2: s.103).*** *Lakin görünür, Doğu Anadoluda əməliyyatların davamı nəzərdə tutulduğundan və Azərbaycana hərbi yardım məsələsinin isə həlli yubandığından bu qonuda dəqiq bir qərar vermək zərurəti ortaya çıxmış və Azərbaycan tərəfinin təklifi ilə cavan bir komandan olan Nuru bəy Qafqaz İslam Ordusuna rəhbər təyin edilmişdir. Ancaq indiki zamandan o dövr hadisələrinə nəzər saldıqda aydın olur ki, hər iki missiya çox önəmli olduğundan Osmanlı rəhbərliyi optimal seçim edərək bu şərəfli missiyanın birində Kazım Qarabəkir Paşanı saxlayaraq, digərinə Nuru Paşanı təyin etmişdi. Doğu Anadolunun iki dəfə (1918, 1920) geri alınması və Azərbaycanın işğaldan qurtarılması (1918) hərbi əməliyyatları böyük başarılarla həyata keçirildiyindən həm bu böyük komandanların, həm də Osmanlı yönətiminin o dövr hadisələrinə münasibətdə ən doğru mövqe sərgilədikləri heç bir şübhə doğurmur.]*

30 oktyabr 1918-ci ildə Mondros (Mudros) Barışı imzalananda 1-ci Qafqaz Qolordu komandanı Qarabəkir Paşanın qərargahı Təbrizdə idi.

31 oktyabrda həmin Qolordu qərargahı ləğv edilərək onu İstanbula çağırdılar. 1 noyabr axşamı o, Naxçıvandan qatarla Qarsa hərəkət etməli oldu, oradan avtomobillə Batuma, 7 noyabr 1918-ci ildə Reşitpaşa vapuru (*bərə* –X.İ.) ilə İstanbul Boğazına gəldiyində 28 noyabr olmuşdu. İstanbulda 29 noyabrda ilk görüşdüyü şəxs İsmət bəy *(İnönü)* idi. Böyükdərə qənşərindən keçərkən orada Türk bayrağının endirilərək yerinə İngilis bayrağının yüksəldilməsi (asılması), buradakı qürurlu ingilis subayı qarşısındakı iztirablar içərisində qıvrılan Türk subayının (*zabit* –X.İ.) duruşu acı mənzərə yaradırdı, hətta İsmət bəyi də tamamilə ümidsizliyə gətirib çıxarmışdı **(1: s. 3-6).** Bu ruh düşkünlüyü ilə bağlı, İsmət İnönü də daxil olmaqla, çoxlarının ordudan istefa etmək haqda məsləhətinə baxmayaraq Kazım Qarabəkir Paşa öz mübarizəsinə davam edir və növbəti görəv olaraq 23 dekabr 1918-də Tekirdağdakı 14-cü Qolordu Komandanlığına göndərilir. 13 mart 1919-da Ərzurumda 15-ci Qolordu Komandanlığına keçirilir. 12 aprel 1919-da Gülcəmal bərəsi ilə İstanbuldan hərəkət edərək, 17 apreldə Samsuna, ertəsi gün Orduya və Giresuna uğrayır, 19-30 apreldə Trabzonda qalaraq, 3 mayısda Ərzuruma yetişir.

Mudros Mütakeresinin (*mütakerə, barış* –X.İ.) imzalanmasından bir ay sonra, Qafqazdan Türk Ordusunun çəkilməsi səbəbilə erməni istilasından qorunmaq üçün Qarsda Milli İslam Şurası qurulmuşdu. Bu şura özünün II qurultayında Güney-Batı Qafqaz Keçici Milli Hökumətinə çevrilmişdi. 13 aprel 1919- cu ildə ingilislər Qarsı işğal edərək bu hökuməti dağıtmış, ora bir erməni vali və bir də erməni komandan təyin etmişdilər. 1920-ci ildə də ermənilər Sarıqamış civarınadək yaxınlaşaraq müsəlman kəndlərinə basqın yapır, xalqa zülm verirdilər. Qars bölgəsindəki bu proseslər ermənilərə qarşı sərt tədbirlər almağı zəruri edirdi. Beləliklə Ankara hökumətinin razılığı ilə 20 oktyabrda hazırlıqları tamamlayan Kazım Qarabəkir Paşa 30 oktyabr 1920-ci ildə Qarsı və sonra ona bitişik bölgəni erməni işğalından və zülmündən qurtarır **(1: s. 6-7).**



**Ədəbiyyat:**

1. Prof. Dr. Nejat Göyünc. Kazım Karabekir Paşa. "Fikir, siyaset ve devlet adamı Kazım Karabekir Paşa" paneli, Ankara, 2000.
2. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.



***Kazım Karabəkir Paşa*** *milli mücadilə arxadaşları ilə*

## CƏNUB-QƏRBİ QAFQAZ CÜMHURİYYƏTİ (CQQC) – QARS DEMOKRATİK CÜMHURİYYƏTİ

Mudros barışının (1918-ci il, 30 oktyabr) tələblərinə əsasən Türk Ordusunun Qafqazdan çəkilməsindən az sonra Cənubi Qərbi Qafqazda türk əhalisinin erməni və gürcü təhlükəsindən öz haqlarını müdafiə məqsədilə bir neçə kiçik dövlət qurumu yarandı. 1918-ci il oktyabrın 29-da Ömər Faiq Nemanzadənin başçılığı ilə Ahıska hökuməti quruldu. Noyabrın 3-də Naxçıvanda Araz-Türk hökuməti yarandı. Noyabrın 5-də Borçalılı Emin Ağanın sədrliyi ilə Qars İslam Şurası, bundan-sonra Hacı Abbas oğlu Kərbəlayi Məhəmmədin başçılığı ilə Ağbaba Milli Şurası təsis edildi.

Noyabrın 30-dan etibarən 3 gün ərzində keçirilən II Qars Konqresində Batumdan Naxçıvanadək ərazilərdə Qars İslam Şurası hökuməti quruldu, hökumətin rəisi əslən Gümrüdən olan İbrahim bəy Cahangirzadə seçildi. 1919-cu il yanvarın 17-18-də 141 nümayəndənin təmsil etdiyi III Qars Konqresi bu hökuməti Cənubi-Qərbi Qafqaz hökuməti Müvəqqəti Milliyəsi adlandırmış, onun Anayasası qəbul edilmişdi...

25 mart 1919-cu ildə isə Cənubi-Qərbi Qafqaz Hökuməti öz müstəqilliyini elan edərək Cənubi-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti adı ilə fəaliyyət göstərməyə başlayır... Sonra 1919-cu il aprelin 12-də ingilislərin müdaxiləsi ilə süquta uğrayır.

İngilislər erməni Korqanovu Qarsa vali təyin edir və CQQDR-in parlament, hökumət üzvlərini həbs edərək onlardan 11 nəfərini Malta adasına sürgünə göndərirlər. Aprelin 19-da ingilislərin köməyilə Qarsa daxil olan Korqanovu, Vilson prinsiplərini əsas gətirərək yerli əhali rədd etsə də, bu etirazlar fayda vermir, aprelin 30-da Qars daşnak hökumətinin idarəçiliyinə keçir və bölgələrdə qəza təşkilatlarını qurmaq üçün nümayəndələrini yerlərə göndərir. Xatırladaq ki, ermənilər Sovet Rusiyasının verdiyi 29 dekabr 1917-ci il (*yeni təqvimlə: 11 yanvar 1918 ci il* – X.İ.) tarixli "Türkiyə Ermənistanı haqqında dekret"ə "əsaslanaraq" və bölgəyə ingilislərin nəzarət etməsindən istifadə edərək bu ərazini də "Böyük Ermənistan"a qatmaq istəyirdilər. Belə ki, Qars İslam Şurası hökumətinə Naxçıvan, Ordubad, Qəmərli, Sürməli (İqdır), Şərqi Şörəyel, Ahıska, Axalkələk, Batum bölgələri daxil idi və ərazisi 40 min kv. km. təşkil edirdi. Hələ **1919-cu il yanvarın 13-də İngilis generalı Bisç Qarsa gələrək Erməni Stepan Korqanovu Qars vilayətinə vali təyin etdiyini bildirəndə, Qars hökuməti rəhbərliyi onu xatırlatmışdı ki, burada əhalinin 85%-i türklərdən ibarətdir və buraya erməni rəhbər təyin edilməsi Vilson prinsiplərinin tələblərinə ziddir. Onda general Bisç Milli Şura hökumətini tanıdığını bildirərək Gümrüyə dönmüşdü (1:** s.16; **2:** s.283-285).

Məlumat üçün qeyd edək ki, Qars Cümhuriyyətinin əhalisi 1,7 milyon nəfər *(1,5 milyonu türk-müsəlman olmaqla)* təşkil edirdi. Dövlət dili türk dili idi; üçrəngli (ağ, yaşıl, qara), ay-ulduzlu bayrağı vardı və Batum şəhərində həftədə üç dəfə nəşr olunan " Sədayi-millət " qəzeti hökumətin rəsmi orqanı idi.

1919-cu il aprelin 12-də daşnak qoşunları ingilislərin dəstəyi ilə Qars vilayətinə soxuldular.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qars hökumətinin Bakıya ünvanladığı 26 yanvar 1919-cu il tarixli notasına əsaslanaraq ermənilərin Qarsda törətdiyi soyqırımı ilə bağlı ingilis komandanlığına etiraz bildirildi.

**Ancaq təbii ki, ingilislərin məqsədi başqa idi: əksinə, onlar CQQC hökumətinin 35 üzvünü tutuqlayaraq, zirehli qatarla Gümrüyə, sonra Batum yoluyla Malta adasına sürgün etdilər (1:** s.17-19; **2:** s.284-285)...

1920-ci ilin payızınadək CQQC-nin ərazisi erməni-gürcü işğalı altında qaldı. İbrahim bəy Cahangirzadə başda olmaqla, bu hökumətin üzvləri 23 may 1921-ci ildə Azərbaycan Xalq Komissarları Sovetinin Sədri Nərimanovun köməyi ilə Maltadan, əsirlikdən xilas olub vətənə qayıtdılar (**1:** s.19; **2:** s.285).

Xatırladaq ki, Türk Ordusunun 2-ci dəfə (1920-ci ildə) müdaxiləsinə qədərki dövrdə Cənubi-Qərbi Qafqaz, Cənubi Qafqazın başqa bölgələri və Qars çevrəsində ermənilər və onlara dəstək verən qüvvələr tərəfindən geniş miqyasda dövri olaraq türk-müsəlman əhali soyqırımına uğradılmışdı. İndi də bir qədər CQQC-nin ərazisinə daxil olan bölgələrdəki bu hadisələr və bu ellərdəki müqavimət hərakatını təşkil edən liderlərin fəaliyyətinə toxunaq.

Belə liderlərdən biri İbrahim bəy Cahangiroğlu (Cahangirzadə) (1874, Gümrü – 19.05.1948, Qars) idi.

...1914-cü ilin noyabr ayında Türkiyənin hərbi naziri Ənvər paşa İbrahim bəyi könüllüləri ilə birgə İran və İraq cəbhələrinə göndərmişdi. 1918-ci ilin mayında Ənvər paşa onu İstanbula çağırmış, "Fəxri alay komandanı" kimi 9-cu ordu komandanı Yaqub Şevqi paşanın sərəncamına göndərmişdir. İyunun ortalarında Şörəyel qaymeqamı təyin edilən İbrahim bəy İrəvan və digər bölgələrdən qovulmuş qaçqınları ətraf kəndlərə yerləşdirmiş, onlara zəruri qayğı göstərmişdir. Araz-Türk Respublikasının hərbi naziri seçilən İbrahim bəy 20 tabur (batalyon) təşkil etmişdir. Bu taburlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Vedibasar, Qəmərli və Zəngibasarda yerləşdirilərək, həmin bölgələrin əhalisini ermənilərin



törətdikləri soyqırımlardan müdafiə etmişdir. CQQC isə mövcudluğunun 6 ayı ərzində ərazisini erməni və gürcü millətçilərinin təcavüzündən qorumuşdur...

*İbrahim bəyin sonrakı taleyinə gəldikdə isə, o, Maltadan sürgündən döndükdən bir müddət keçmiş Kazım Qarabəkir paşanın tövsiyyəsilə yenidən Qarsa qayıtmış və oranın bələdiyyə başqanı seçilmiş, 1921-1927-ci illərdə həmin vəzifədə çalışmışdır* ***(1: s.20-21)...***

***

Noyabrın 15-də I Qars Konqresində Gümrü və Ağbabanı Peterburqda ali təhsil almış Vəkil Xəlilbəyoğlu Əli bəy təmsil edirdi. Konqresdə Fəxrəddin Ərdoğanın başçılığıyla „Müvəqqəti heyət" seçildi. Ağbabanın Qaraçanta kəndindən Əhməd bəy Hacıyev də bu heyətin tərkibinə daxil edildi. Konqres Qafqazdan çəkilən Türk Ordusundan silah əldə etməyi və Üç Sancaq çevrəsində Qars İslam Şurasının şöbələrini açmağı qərara almışdı (1: s.30)...

Ağbaba Şurası Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd ağanın və Qaraçantalı Əhməd bəy Hacıyevin rəhbərliyi sayəsində bölgə əhalisini erməni təcavüzlərindən qorumaq üçün səfərbərlik keçirir və Ağbaba süvari alayını təşkil edirdi. **Yerli əhali arasında yeni qoyulan qaydaya görə, əsgər verə bilməyən ailələr bir tüfəngin pulunu və bir at, ya da bir inək verməli idilər, əks halda ciddi cəzalandırılırdılar** (1: s.31)...

Qafqazdan çəkilən Türk Ordusunun zabiti, yüzbaşı Xurşud bəy Ağbabada qalaraq, könüllü dəstələrin təlimini öz üzərinə götürmüş və onları erməni daşnaklarına qarşı savaşacaq həddə qədər təlim etmişdi (1: s.31)...

1919-cu ilin yanvarın 21-də Arpaçayın qərbinə (Ağbabaya) keçə bilməyən ermənilər Gümrü çevrəsindəki kəndlərə hücum edərək xalqın varidatını ələ keçirib, özlərini də ucdantutma güllələmişdilər. CQQC yanvarın 27-də Azərbaycan hökumətindən hərbi sursat almaq və bölgə əhalisinə hərbi təlim keçmək məqsədilə maddi yardım və əsgəri qüvvə istəmişdi. Azərbaycan hökuməti bu məqsədlə bir tümən *(min)* əsgəri qüvvə ayırsa da, gürcülər bu qüvvənin Gürcüstan ərazisindən Qars bölgəsinə keçməsinə icazə verməmişdilər. Ancaq bir neçə min altun *(qızıl)* şəklində maddi yardım Ağbabada qəhrəman savaşçı Hacı Abbas oğlu Məhəmməd bəyə çatdırılaraq, hərbi xərclərə sərf olunmuşdu (1: s.32-33).

F.Ərdoğan yazır ki, milli təşkilatlarımız erməniləri elə sıxışdırmışdı, sonucda onlar "Böyük Ermənistan" xülyasından əl çəkərək, kiçik qəzalarımızla barışıq əldə etmək məcburiyyətində qalmışdılar. **(Bax:** *8 bənddən ibarət razılaşmanın mətni* – **1:** s. 34)...

" Ermənilər Ağbaba bucağına 1919-cu ilin sonlarından başlayaraq, 1920-ci il içində lap çox zərər və ziyan verərək; bir çox köyləri yandıraraq, əhalisini Gürcüstana qaçıb sığınmaya və Türkiyəyə keçməyə zorlamışdılar...

...1920-ci il yanvarın 26-da erməni komandanlarından Baratov və Marzmanovun top və tüfənglərlə silahlanmış əsgərləri Şörəyelin əksər kəndlərini viran qoyduğu kimi, Ağbabanın da Gümrüyə yaxın aran kəndlərindən-Orçoğluda 150, Qaraməmməddə 20, Kiçik Qızıldaşda 100, Qaraçantada 150, Güllübulaqda 300 islam evini yandırıb mallarını və əşyalarını qarət edib, əhalisindən çoxunu qırıb, öldürmüşdülər" (*Kazım Qarabəkir "1919 və 1920-də Qafqazda islamlara qarşı yapılan Erməni məzalimi"* – **1:** s. 35).

Mənbələrdə o da qeyd olunur ki, Ağbaba nahiyəsinin dağlıq hissəsi Qars vilayətində yeganə bölgədi ki, ermənilər ora axıradək soxula bilməmişdilər. Və bu səbəbdən də İrəvan quberniyasında 25 mindən çox qaçqın Ağbaba və ona qonşu olan Zərdaş nahiyələrinə sığınmışdılar. Lakin ərzaq, dərman qıtlığı və tif xəstəliyinin yayılması ucbatından hər gün azı 40-50 nəfər vəfat edirdi... Türk qoşunları 1920-ci ilin

oktyabrında Qarsı azad etdikdən sonra Hacı Abbas oğlu Kərbəlayı Məhəmməd ağanın 700 nəfərlik süvari alayı 9-cu Türk diviziyasının tərkibinə qatılaraq Gümrünün ermənilərdən azad edilməsində iştirak etmiş və bu savaşın sonunda ön cəbhədə olmuşdur (2: s.283-285; 1: s.35-36)...

***

Bölgədəki təhlükənin o zaman son məqama çatdığı Türk mənbələrində də təfsilatıyla qeyd olunmuşdur:

"...General Kvinitadze komandasındakı müntəzəm Gürcü ordusu Atabəyoğlu Sərvər Bəyin idarəsində bulunan Ahıska–Əhdəhan Milli Şura qüvvələrini nəhayət pozaraq irəliləyib 1919-cu il Nisanın əvvəllərində Ərdəhan hüduduna gəlincə, General Dvi ilə şəhərdə bulunan bir ingilis alayı da 12 Nisan 1919-cu il axşamı ansızın Qars Parlament binasını basaraq, hökumət ərkanını yaxalayıb tirənlə (*qatar'a* –X.İ.) Tiflis üzərindən Batuma, ordan da Malta adasına sürgünə göndərdi. Ertəsi – 13 Nisan günü General Dvi rəsmən Qarsı işğal etdiyini elan edərkən İngilis təyyarələri də xalqı yatırmaq üçün uyuşdurucu bəyannamələr atırdı (*səpirdi* – X.İ.)" (3: s.558).

**Ədəbiyyat:**

1. Ramazan Hüseynov. Qərbi Azərbaycan Mühacir Hökuməti: ideyadan gerçəkliyə. Bakı, 2006.
2. A X C E, 2 c.- də, I c., Bakı, 2004.
3. Kırzıoğlu M.Fahrettin "Kars tarihi", I cilt, İstanbul, 1953.

## TÜRKİYƏNİN CƏNUB VƏ QƏRB CƏBHƏLƏRİNDƏKİ HADİSƏLƏR

### CƏNUB CƏBHƏSİNDƏKİ OLAYLAR – NÖVBƏTİ BİR İDDİA: "ERMƏNİ KİLİKİYA DÖVLƏTİ?"

İndiki Suriya ərazilərinə (o vaxtlar Osmanlı tabeçiliyində olan) köçürülmüş yüz minlərlə erməni Mudros Ataşkəsindən sonra öz əski yaşayış yerlərinə dönməyə başladı. [*Təhcir olayı* ilə bağlı bölümdə də göstərdiyimiz kimi, qayıtma izni ilə əlaqəli sənədin başlığında da həmin icazənin məzmunu ifadə olunub: **"Savaş səbəbilə başqa yerlərə nəql edilən Rum (yunan) və Ermənilərin iaşə və yerləşmələrinin təmin edilərək əminlik içində geri dönmələrinə müsaidə edildiyinə dair DİN-dən bəzi Vilayət və hərbi briqadalara şifrəli teleqraf", 22 oktyabr 1918-ci il; Daxiliyyə Nazirliyi Aşayır (Köçəri Qəbilələr) və Mühacirlər Müdiriyyəti Ümumiyyəsi.** –X.İ.]. Avstriyalı tarixçi, professor Erix Faygelin araşdırmalarında göstərildiyi kimi, bu dəfə ermənilər "Erməni Kilikiya Dövləti" yaratmaq niyyəti güdməyə başladılar. Bəllidir ki, onlar müharibədən öncəki kimi, yenə də bu ərazilərdə azlıq təşkil edirdilər. Fransız-erməni işğalçıları türklər tərəfindən geri atıldıqdan sonra Mersin və Tarsus əhalisi yerlərinə qayıtdılar. Təbii ki, onlar fransız-erməni hakimiyyəti altında yaşamağı azacıq da olsa arzu etmirdilər. Ancaq erməni fanatları Seyhan və Ceyhan çayları arasında yerləşən bütün ərazini "muxtar" elan etdilər. Bu gülünc əməliyyatın təşəbbüsçüsü vaxtilə Sasun üsyanının təşkilatçısı olmuş, veteran-terrorçu Mixran Damacyan idi. Fransızlar onu yerinə oturtmaq istədikdə, o, 5 avqust 1920-ci il tarixində bu ərazilərdə "Kilikiya Müstəqil Erməni Dövləti"ni elan etdi. Mixran Damacyan bir qrup fanat terrorçu soydaşı ilə Adanada Hakimiyyət Sarayını ələ aldı və sonra özünü "Fransız protektoratlığı (himayəsi)



altında erməni hökmdarı" adlandırdı. İşə müdaxilə edən fransız komandan Damacyan və onun "hökumət"indən bu məzhəkəyə son qoymalarını qətiyyətlə tələb etdi. Məzhəkə qəti tələblərdən sonra yığışdırıldı. Ancaq fransızlar Kilikiyada erməni dövlətçiliyi məcarasının qarşısını tam ala bilmədilər (1: s.128)...

11 dekabr 1918-ci ildə 400 ermənidən ibarət fransız batalyonu Musadağ ətrafındakı Dördyol şəhərini tutmuşdu. 20 yanvar 1920-ci ildə fransızlar Maraşdan geri çəkilməyə başladılar. 6 fevralda İstanbul patriarxı Parisə teleqram göndərərək bildirdi ki, guya türklər 2000 ermənini "qırıblar". 25 fevralda Röyter agentliyi Maraşda 70000 ermənininin "qırıldığını" car etdi (1: s.128)...

Bölgədə yaxşı silahlanmış ermənilərlə türklər arasında savaş sürməkdəydi. Nəhayət 20 oktyabr 1921-ci ildə türk hökuməti ilə Fransa nümayəndəsi Franklin Buyon arasında razılaşma imzalandı. Razılaşmanın tələblərindən biri fransız qoşunlarının qeyd-şərtsiz bölgədən çıxarılması idi. Türkiyə təbəəsi olmalarına rəğmən bölgəyə qayıtmış erməni əhalinin böyük çoxluğu da fransız qoşunları ilə bərabər bu ərazilərdən çəkildi (1: s.128)...

**Bir ilginc, ibrətəmiz faktı da qeyd etmək yerinə düşərdi ki, Livanda qərar tutan Kilikiya fransız baş komandanı türkləri sevməyən, onlarla ünsiyyətə girməkdən qaçan bir şəxs olmasına baxmayaraq, o, 24 noyabr 1921-ci ildə Adananı tərk edəndən öncə oradakı fransız hərbçi qəbiristanlığına baş çəkib, məzarlara güllər qoyduğu zaman kədərlə demişdir: "Fransız əsgərlərinə, hansı ki, boş yerə öz həyatlarını qurban vermişlər" (1: s.130)...**

1921-ci il dekabrın 1-də türklər Aralıq dənizi sahillərinə çataraq bu ərazilərdə öz suverenliklərini bərpa etdilər. Cənub cəbhəsində müşkül həll olunsa da, Qərb cəbhəsində savaş davam edirdi (1: s.130)...

### QƏRB CƏBHƏSİNDƏKİ OLAYLAR: YUNAN – ERMƏNİ HÜCUMU

Ermənilərin köçürülməsi İstanbul və İzmir ermənilərinə şamil edilməmişdi. O zaman elə görünürdü ki, buna ehtiyac yoxdur. 1919-cu ilin yazında yunanların qərbdən qəfil hücumu zamanı [(Erix Faygel bu tarixi gah *15 mart*, gah da *15 may* deyə göstərir; təəssüf ki, naşir də bu yanlışlığa diqqət etməmişdir, bəlkə də naşir özü yanlışlığa yol vermişdir –X.İ.) – (1: s.130-131)] baş verən hadisələr göstərdi ki, İzmir erməniləri də köçürülsəydi daha məqsədəmüvafiq olardı. **Çünki yunan hücumlarının ilk günlərində ermənilər türklərə qarşı qəddarlıqları ilə seçilirdilər. İzmirdə terror idarəolunmaz səviyyəyə çatdıqda yunanlar öz müttəfiqlərinə qarşı ölçü götürməyə məcbur oldular: iki erməniyə ölüm cəzası kəsdilər.** Vaşinqtondakı Konqres Kitabxanasında saxlanan Bristol Komissiyasının məruzəsində Müttəfiq Qüvvələrin zabitlərinin gözü qarşısında ermənilərin İstanbul və İzmir arasında yerləşən ərazilərdə, o cümlədən, Yalova və Gemlik ətrafında türklərə qarşı vəhşilikləri ifadə olunub (1: s.131). Bütün bu bölgə türklərdən "təmizlənmişdi" və yunan-erməni ağalığına meydan verən bir əraziyə dönüşdürülmüşdü. Sonralar Lozan Konfransında türk elçiləri bu hadisələri xatırlatmış, göstərilən faktlara heç kəsin etiraz etməyə cürəti çatmamışdır.

Yunanlar ən yeni silahlarla silahlanmış, Müttəfiq Dövlətlərdən güclü maddi dəstək alaraq türk qüvvələri üzərinə hücuma keçmiş, tezliklə yeni başkənd Ankara yaxınlığında yerləşən Aymanı məntəqəsinə çatmışdı. Hökumət təslim şərtini rədd edərək müvəqqəti olaraq Sivasa köçmüşdü... Nəhayət türklər Ankara divarlarından əks-hücuma başlayaraq düşmənin mövqelərinə doğru irəliləməyə başladılar. 12 günlük (21.08.-02.09.1921.) döyüşlərdə türklər düşməni qərbə tərəf əhəmiyyətli məsafədə geri atmağa müvəffəq oldular (1: s.131).

13 iyun 1921-ci ildə yunan kralı Konstantin Anadoludakı qanlı müharibəni şəxsən izləmək üçün bölgəyə gəlmişdi (1: s.132)...

2 sentyabr 1922-ci ildə Əskişəhər, bir həftə sonra Manisa türk qüvvələri tərəfindən geri qaytarıldı. Yunanlar geri çəkilərkən Manisa və İzmiri yandırmışdılar. İzmirdə 25000 tikili-

şəhərin yarısı yanaraq yararsız hala düşmüşdü. Nəhayət 11 oktyabrda Müdanyada türklərin yunanlar üzərində qələbəsini təsbit edən sülh müqaviləsi imzalandı (1: s.132)...

22 noyabrda isə Lozan danışıqları başladı (1: s.132)...


Ədəbiyyat:

1. *Эрих Файгл. Армянская мифомания. 2007. (ISBN 3-85002-583-7 ab 1.1.2007: ISBN 978-3-85002-583-6; издана в Турции, 168 с.).*


## DOĞU ANADOLUNUN VƏ CƏNUBİ – QƏRBİ QAFQAZIN QURTULUŞU



1920-ci ilin əvvəllərində «erməni məsələsi» daha təhlükəli həddə çatmışdı. Münaqişə dövlətləri türklər üçün erməni və gürcülərdən ibarət bir Qafqaz səddi yaratmışdılar. Məqsədləri Türk Ordusunu ağır qış şərtləri altında silahlarıyla birgə qarın altına gömmək və Osmanlı hökumətinə istədikləri anlaşmanı qəbul etdirmək idi.

Məbuslar Məclisi yeni toplamışdı. Mustafa Kamal paşa Qarabəkir paşanın azərilər və dağıstanlılarla anlaşaraq, bu səddi yıxmaq üçün həmən hərəkətə keçməsini istədi. Bir tərəfdən də işğalçı İngilis Ordusunun bölgədəki komandanı Ravlinson da belə bir hərəkat üçün **Kazım Qarabəkir Paşanı** təşviq etməkdəydi. Analoji bir mövsümdə, I Dünya Savaşı sırasında Ənvər və Hafiz Hakkı paşaların Sarıqamış hərəkatında 65 min türk övladı dönaraq həlak olmuşdu. Sonra bu fəlakət bir dəfə də təkrarlanmış, müdafiədəki bir türk qolordusu sərt iqlim ucbatından tamamilə tələf olmuşdu. Türk Ordusunu növbəti bir intihar dalğasına salmamaq üçün Kazım Qarabəkir paşa ilk baharın gəlişini gözləməyi qərara aldı və bu qərarını Mustafa Kamal paşaya çatdırdı.

23 aprel 1920-ci ildə Böyük Millət Məclisinin açılmasından sonra Qarabəkir paşa hərəkat üçün zamanın yetişdiyi qənaətinə gəlmişdi. Bu vaxtsa Mustafa Kamalı doğudakı hərəkatdan İç Anadoludakı üsyanlar daha çox narahat etməkdəydi. İç Anadoludakı üsyanları yatırmaq üçün Mustafa Kamal paşa Qarabəkir paşadan birliklərindən bir hissəsini öz sərəncamına göndərməsini istədi. Ancaq Qarabəkir paşa, ordusunun düzən və birliyinin pozulacağını, xalqın ruhdan düşəcəyini və ən önəmlisi, Doğu hərəkatının təhlükəylə üzləşəcəyini əsas gətirərək Mustafa Kamalın bu istəyini təmin etməkdən saqındı. Əlbəttə bu durumda hər iki öndər haqlıydı. Çünki o tarixi məqamda hər iki komandan üçün uzaq təhlükədən çox yaxın təhlükə daha önəmli idi (1: s.40-42)...

Nəhayət, Kazım Qarabəkir paşa 12 iyun 1920-ci il tarixində təşəbbüsü qullanaraq 15-ci Qolordunu hərəkətə keçirdi. Düşmən qarşısında mövqeyini gücləndirmək üçün ermənilərdən qabaq hərəkata başlamağı Qarabəkir paşa əsaslı səbəblərə, incə hesablamalara... dayanaraq qərara almışdı.



14 iyunda Bakanlar Kurulu qərarıyla "Şərq Cəbhəsi" quruldu və onun komandanlığına Kazım Qarabəkir paşa təyin edildi. Qarabəkir paşanın ilkin məqsədi ildırımsürətli hərəkatla Soğanlı dağlarını aşaraq, Sarıqamışı ələ keçirmək, Doğu yolunu açmaq və keçidləri, yeni strateji mövqeləri tutmaq idi.

22 iyun tarixində Ankaradan "Hərəkat yapılmayacaqdır" deyə əmr gəldi. Səbəb də bu idi ki, Rusiyadan „Savaşa səbəbiyyət verməyin. Ermənilərlə sizi anlaşdıracağız",- məzmunlu bir məktub gəlmişdi (1: s.42-43). Mustafa Kamal paşa öncə barış variantını sınamaq istəyirdi. Bu arada BMM-də Bolşevik Rusiya və Batı dövlətlərinin himayəsini istəyən qruplar üzərə çıxmağa başlamışdı. Qarabəkir paşaya görə, hər iki belə qrupun düşüncəsi təhlükəliydi: "Biri atəşdə yanmaq, digəri suda boğulmaq" təklifinə bənzəyirdi. O səbəbdən də Kazım Qarabəkir paşa qurtuluşu millətin öz gücündə görürdü.

Doğu hərəkatı dayandırıldı. Rusiyaya bir heyət göndərildi nəticə hasil olmadı. Ordu bütün yayı gərəksiz yerə gözlədildi. Başqa bir tərəfdən də ermənilər ***Sevres Andlaşmasını İxtilaf Dövlətləriylə*** (*Sevr Anlaşmasını Münaqişə Dövlətləriylə –X.İ.*) birlikdə imzaladıqdan sonra daha təcavüzkar mövqe sərgiləməkdəydi.

Hərəkat çox gecikmişdi, növbəti qış yaxınlaşırdı. Kazım Qarabəkir paşa (əslində Doğu hərəkatının təşəbbüsçüsü və inadcıl tələbkarı...) rahatsız idi. Tarixi fürsəti itirməkdən qorxurdu... Bundan daha pisi, özünü də təklənmiş bir komandan kimi hiss etməyə başlamışdı...

*Nəhayət, 20 oktyabrda Bakanlar Kurulundan hərəkata keçmək haqda əmr çıxdı.*

**Kazım Qarabəkir paşa 9-cu və 12-ci Tümənləri dərhal Sarıqamış istiqamətində hərəkətə keçirdi. Sürətlə irəliləyən Türk Ordusu Qars üzərinə basqın formasında bir "tərs cəbhə" hərəkəti düzənlədi. Əslində bu savaş Qarabəkir paşanın hərbi strategiyadakı dahiliyini bütün parlaqlığı ilə ortaya çıxardı. 30 oktyabrda Qars geri alındı. Erməni hissələri dağınıq halda Gümrü səmtinə doğru qaçdılar. Qars savaşında ələ keçən silah və cəbbəxana Türk Ordusuna 10 il bəs edəcək qədər çox idi. Bu uğurdan sonra Qarabəkir paşa TBMM tərəfindən Korgenerallığa (ferik) yüksəldildi.**

Qars əməliyatından sonra Türk Ordusu Gümrü üzərinə hücuma keçdi. 6 noyabrda ermənilər barış istəməli oldular. Kazım Qarabəkir paşa silahların və Gümrünün birgə təslimini tələb etdi... Ermənilər Gümrünü təslim etməyə məcbur oldular. 25 noyabr Gümrüdə barış görüşmələri başladı. Türk heyətinin başçısı Qarabəkir paşanın israrı ilə Erməni heyəti Sevres Andlaşmasındakı imzalarını geri almalı oldu. 3 dekabrda ermənilərlə Gümrü Andlaşması imzalandı və Gümrü ermənilərə buraxıldı (*Sovet qaynaqlarında isə Gümrü Andlaşmasının tarixi "2 dekabr" göstərilir –X.İ.*).

Məsələ tamamlanmamışdı-Ərdəhan və Artvin işğal altındaydı. Qarabəkir Paşa ildırımsürətli bir hərəkat həyata keçirərək Ərdəhan və Artvin vilayətlərini geri aldıqdan sonra Mustafa Kamal paşa Ahalkələk, Ahıska və Batumun da geri alınmasını istədi. Eyni sürətlə həyata keçirilən bu əməliyyat da uğurla nəticələndi, Doğu Anadolu türkləri düşmənlərin zülmündən və işğalından xilas edildi (**1: s.43-45**).

Avstriyalı professor Erix Faygel də Gümrü Andlaşmasına toxunaraq onun Kazım Qarabəkir və Aleksandr Xatisyan tərəfindən imzalandığını və indiyədək də qüvvədə olduğunu bildirir. Faygel qeyd edir ki, bu Andlaşmanın bütöv mətnini Mavi Bonçuqun arxivindən və Erix Faygelin "Terror haqqında həqiqətlər" kitabından (ingilis və fransız dillərində) əldə etmək olar. O, xatırladır ki, Gümrü Andlaşmasından öncə – 6 noyabrda türklər Qarsı alıb Gümrüyə tərəf irəlilədiyi zaman erməni tərəfinin təklifi ilə barışıq əldə olunsa da,ağır keçən danışıqlar sonucunda hərbi əməliyyatlar yenidən bərpa olunmuş və 15 noyabrda Ermənistan Respublikası Şaxtaxtı yaxınlığında ağır məğlubiyyətə uğramışdı. Bu sonluqdan sonra da ermənilər yenidən aman (sülh) istəməli oldular. **[Qeyd:** Gümrü Andlaşmasının imzalanma tarixini Faygel 2 dekabr

1922-ci il kimi göstərib. Bizim yuxarıdakı qeydlərimizdən göründüyü kimi, bu tarix 2 dekabr 1920-ci ildir. Zənnimizcə, bu yanlışlıq Faygelin istinad etdiyi mənbədən qaynaqlanır və ya naşirin xətasıdır **(5: s.130-131)]...**

Bu məsələlərə rus qaynaqları da kifayət qədər yer ayırmışdır, ancaq təbii ki, öz mövqelərindən yanaşmaq şərti ilə.

Bu qaynaqlar bildirir ki, Antanta və ABŞ-ın təhriki ilə Daşnak Ermənistanı 1920-ci ildə Türkiyə ilə müharibəyə təhrik olundu. 9 iyunda Kazım Qarabəkir paşanın komandanlığı altında Türk Ordusu Naxçıvana doğru hərəkət etdi. RSFSR bu müharibəni önləmək istəsə də, daşnaklar və türklər (əslində təkcə daşnaklar!.. Çünki yuxarıdakı qeydlərimizdən də göründüyü kimi türklər uzun müddət hərəkatı saxlamışdı, ancaq erməni tərəfi vaxt udmaqla məşğul idi və mövqeyini daha da sərtləşdirməkdəydi -X.İ.) Sovetlərin təklifini qəbul etmədilər. ABŞ və Antanta daşnaklara silah və bir qədər də zaymla kömək göstərirdilər... Sovet rəhbərliyinin yenidən çağırışlarını qəbul etməyən daşnaklar Antanta və ABŞ-ın köməyinə bel bağlayırdılar. İmperialist dairələr Türk-Sovet münasibətlərinin pisləşməsinə və Türkiyənin Qafqaza-antisovet yürüşünə çıxmasına çalışırdılar. Menşevik Gürcüstanı 6 noyabrda mövqeyini bildirərək Ermənistana köməkdən imtina etdi. 7 noyabrda türklər Aleksandropolu (Gümrünü- -X.İ.) tutdular. 12 noyabrda Aqin stansiyasını ələ keçirib İrəvana tərəf hücuma keçdilər. Noyabrın 18-də daşnaklar məcburi sülh imzalamağa vadar oldular. Beləliklə, dekabrın 2-də Aleksandrpolda barışıq imzalanaraq, nəticədə Ermənistan Türkiyənin **satellitinə** (*yeni əlaltısına, tərəfdarına* –X.İ.) çevrilirdi...

Nəhayət, 1921-ci il martın 16-da Sovet Rusiyası ilə Türkiyə arasında müqavilə imzalandı: Qars vilayəti və bəzi başqa rayonlar Türkiyənin yuridiksiyasında qaldı və Sovet Rusiyasının tələbi ilə Türk Ordusu Aleksandropolu (*Gümrü* –X.İ.) və Naxçıvan vilayətini tərk etdi.

**13 oktyabr 1921-ci ildə Qarsda Türkiyə və Zaqafqaziya Respublikaları arasında sülh müqaviləsi imzalandı (2: s. 216).**

*Xatırladaq ki, Şərqi Anadolunun, Gümrü-Ağbaba nahiyəsinin və Naxçıvanın xilası Şərq fatehi Qarabəkir əfsanəsi kimi qədirbilən Türk və Azərbaycan xalqlarının yaddaşında, habelə qoca tarixin daş yaddaşında əbədi yaşayacaqdır.*

*Naxçıvanı soyqırımı və işğaldan xilas edən məhmətçiyin əfsanəvi komandanı Qarabəkir paşanın adına bu gün o qədim Nuh yurdunda, Naxçıvan şəhərinin "Yeni Naxçıvan" massivində Kazım Qarabəkir məscidi ucaldılmış, bu böyük vətənsevərin xatirəsi ağsaqqal və ağbirçəklərin dilindən düşmür, haqqında soydaşımız Güllü Məmmədova "Qarabəkir əfsanəsi" adlı tarixi roman da qələmə almışdır...*

*Bir sözlə həm Türkiyə, həm də Naxçıvan (bütünlüklə Azərbaycan) və yəqin ki, böyük Türk Dünyası Kazım Qarabəkir sevgisini özləşdirməkdə haqlıdır...*

***

**Qeyd:**

Dəyərli oxuculara məlum edək ki, hal-hazırda Qars bölgəsində yaşayanların böyük əksəriyyəti Azərbaycan türkləridir və onların xeyli hissəsi Qafqazdan köçmüşlər.

Əvvəlki qeydlərimdə şahid materiallarına əsaslanaraq bildirmişdim ki, bu köçmənlərdən 2000 ailənin və ya 2000 nəfərin (əsasən Dağ və Aran Borçalı nahiyəsindən olan) Qarsa köçməsinin təşkilatçısı və hökumətlərarası razılaşdırılması, icrası ilə bağlı rəhbərlik edən şəxs Qori Seminariyasının məzunu, müsavatçı, xalq rəhbərlərindən biri olan, Türk dövlətinin rəhbərliyi ilə etibarlı münasibətlərə malik Qərbi Azərbaycanın Calaloğlu qəzasının Qaraqala kəndində yaşayan Molla Süleyman Yolçu olmuşdur. Bu şəxs 1918-ci ildə Türk Ordusunu Dağ Borçalıda müdhiş bir tələdən qurtardığı üçün sonralar tutuldu və 1942-ci ildə İrəvan həbsxanasında müəmmalı şəkildə aradan götürüldü.

Qafqaz azərbaycanlılarının o zaman kütləvi şəkildə Qars bölgəsinə köçməsinin



hüquqi zəminınə gəlincə isə, "Kars tarixi"ndən aşağıdakı sətirlərə diqqət edək: "Qarsın Son Qurtuluşundan sonra 1921-ci ildə imzalanan Muahedələrlə: Gümrü və Rəvan kimi "Ermənistan" ilə Ahılkələk və Borçalı kimi „Gürcüstan" Sovyet Cümhuriyətləri torpaqları sayılan bölgələrin yerli Türk əhalisi, mübadilə və ya iltica (*sığınacaq arama* –X.İ.) yoluyla **Qars ilinə** (*elinə* –X.İ.) gələrək yerləşdilər" **(3: s.559).**



CONFERENCE DE KARS

Procès Verbal № 6

Séance du 13 Octobre 1921

Préside: J.HANETZKY, Délégué Russe

Sont présent: Les Délégués de Turquie - KIAZIM KARA BEKIR PACHA, VELI BEY, MOUHTAR BEY, MEMDOUH CHEVKET BEY

Les Délégués d'Arménie - Camarade A.MRAVIAN, Camarade P.MAKINTZIAN

Le Délégué d'Azerbaidjan - Camarade BEHBOUT CHAHTAHTINSKY

Les Délégués de Georgie - Camarade Ch.ELIAVA, Camarade A.SVANIDZE

La Séance est ouverte à 12 heures.

Les Délégations approuvent le procès verbal de la séance plenière du 10 Octobre. Sur la proposition de la Délégation Turque il est décidé que ce procès verbal sera signé par les Délégués.

On donne lecture du texte du Traité. Les Délégations l'acceptent et les Délégués procèdent à la signature du Traité et du Procès verbal. Les formalités de la signature étant terminées le Délégué Russe prononce un discours au nom des Délégations Transcaucasiennes auquel répond le Président de la Délégation Turque. (Voir annexes I et 2).

La séance est levée à 2 h. 25

Premier Secretaire de la Délégation Turque

Premier Secretaire des Delegations Transcaucasiennes et Russe

***ADA fond 28, siyahı 1, iş 58***



***

***SÖZSONU***

Prof. Dr. Salim Qocanın Qarabəkir paşa haqqında söylədiyi bəzi qənaətləri oxucularla bölüşməyə dəyər.

O, Mudros Barışından sonra Türkiyə dövlətinin xilası üçün Mustafa Kamalın və Kazım Qarabəkirin rollarından bəhs edir... və göstərir ki, hər iki öndər dövlətin və millətin ancaq Anadoluda veriləbiləcək bir mücadilə sonucunda qurtarıla biləcəyi qənaətindəydilər...

Dogrudur, Mustafa Kamal paşa öncə özünü hərbi nazir kimi görür və bu yolla ölkənin xilasını təmin etməyi düşünürdü, ancaq İstanbula çağırılınca, oradakı ab-hava, əhval-ruhiyyə onun ümidlərini sarsıtdığı üçün, özünü geniş yetkilərlə 9-cu Ordu Müfəttişliyi (*müfəttişi* – X.İ.) görəvinə təyin etdirdi.

Mustafa Kamal paşa kimi İstanbula çağırılan Kazım Qarabəkir paşa da ölkənin və millətin xilasını Doğuda və Doğudakı hərəkatda görürdü, ona görə də bu xüsusda görəv almaq üçün hərəkətə keçdi. Bu məqsədlə Genəl Qurmayda görəvli arxadaşı İsmət (İnönü) bəylə görüşdü: fikrini söylədikdən sonra özünün Ərzuruma təyin olunmasında yardımçı olmasını istədi. Ancaq İsmət bəy bu fikirləri ciddi qarşılamadı: "Bunu yapmaq imkansız. İkimiz də əsgərlikdən çəkilərək bir çiftlik (təsərrüfat, malikanə-X.İ.) quralım..." deyə cavab verdi. Məqsədində çox ciddi olan Qarabəkir paşa, bu dəfə **Genəl Qurmay Başqanı Fevzi Çakmak paşaya** müraciət etdi. O da "Tasfiye (*kənarlaşdırma, ləğv* –X.İ.) edilirsin, Divan-i Hərbə verilirsin "... sözləriylə Kazım Qarabəkir paşanı düşüncəsindən daşındırmağa çalışdı. Bu durumla barışmayaraq Kazım Qarabəkir paşa bildirdi: "Trabzona ayaq basmağıma mane olmayınız, ötəsi milli dava olacaqdır!" Nəhayət, Kazım Qarabəkir paşa böyük risq və təzyiq bahasına özünü Ərzurumda olan 15-ci Qolordu Komandanlığına başçı təyin etdirdi **(1: s.31-32).**

Beləliklə Kazım Qarabəkir paşa 19 aprel 1919-cu il tarixində Trabzona, Mustafa Kamal paşa da 19 mayıs 1919-cu ildə Samsuna çıxdı... Sonralar bunların birincisi Doğu Anadolunun (bundan başqa, Cənubi-Qərbi Qafqazın, o cümlədən də Naxçıvanın), ikincisi isə bütünlüklə Türkiyənin qurtuluş mücadiləsinin başlanğıc günü kimi tarixə keçdi...

Nəhayət, Qarabəkir paşa Ərzuruma gəldi və 15-ci Qolordu Komandanlığına başladı. Rus işğalı və ermənilərin törətdiyi soyqırımı üzündən pərişan bir durumda olan bölgə əhalisi, paşanı bir milli qəhrəman kimi qarşıladı. Çünki Qarabəkir paşa bircə il öncə –1918-ci ildə Ərzincanı, Ərzurumu, Qarsı və Gümrünü erməni işğalından və zülmündən qurtarmışdı **(1: s.34-35)...**

***

Başqa sözlə, bugünkü Türkiyə və Azərbaycan xəritəsi, Şərqi Anadolu və Cənubi-Qərbi Qafqaz türklərinin o vaxtkı soyqırımdan xilası səbəbiylə Türkiyə, Azərbaycan dövlətləri və millətləri Kazım Qarabəkir paşa şəxsiyyətinə, zəkasına və fədakarlığına borcludur. Belə ki, Kazım Qarabəkir paşanın bu xidməti təkcə onun qəhrəmanlığında və böyük sərkərdə olmağında deyil, həm də türkün nadir siyasi öndərlərindən, fikir babalarından biri olmasındadır.

Bir qədər də Kazım Qarabəkir paşanın sonrakı taleyi haqqında...

14 yanvar 1920 -ci ildə Mustafa Kamal paşadan aldığı teleqraf ilə 3-cü, 13-cü və 15-ci Qolordular əmrinə verilməklə Kazım Qarabəkir paşa Şərq Cəbhəsi komandanı görəvini aldı.

23 aprel 1920-ci ildə Ankarada açılan TBMM-ə Ədirnədən millət vəkili seçilsə də, həm də Qolordu Komandanlığındakı görəvini davam etdirməsi uyğun görülmüşdü. 6 mayıs 1920-ci ildə TBMM hökuməti onu həm də Ərzurum Valisi təyin etdi. 29 iyun 1923- cü ildə II TBMM-ə İstanbuldan millət vəkili seçilən Kazım Qarabəkir 17 noyabr 1924-cü ildə Hüseyn Rauf Orbay, Ali Fuat Cəbəsoy, Refet Bele, Cefer Tayyar Eğilməz, Dr. Adnan Adıvar kimi şəxslərə birgə Tərəqqipərvər Cümhuriyyət Firqəsi yaradaraq onun genəl başqanı olmuşdur. 3 iyun 1926-cı ildə partiyasının bir qisim üzvünün söz və davranışlarıyla Doğudakı Şeyx Səid üsyanına səbəb olduğu dolayısıyla Tərəqqipərvər Partiya bağlandı və ona qarşı qurama ("irtica təşəbbüsləri, qaçaqçılıq" və s.) ittihamlarla ictimayi rəy formalaşdırılırdı, bəzi üzvlər (qəzetçi, universitə müəllimi və aydınlar olmaq üzrə) İstiqlal məhkəmələrinə verildilər (**4:** s.59-60).

26 iyun 1926-da Qazi Mustafa Kamala sui-qəsd hazırlığı yapanlar sırasına millət vəkili Kazım Qarabəkiri də qatmaq istədilər. Kazım Qarabəkir tutuqlanınca Başvəkil İsmət İnönü işə müdaxilə etmiş, Əmniyyət Müdirliyinə əmr verərək Kazım Qarabəkiri sərbəst buraxdırmışdı. Bundan sonra İstiqlal Məhkəməsi TBMM adından yarği yetkisi qullandığı irəli sürülərək İsmət paşanın da tutuqlanmasını gərəkli görmüşdür. Bu gəlişmələr sonucunda Kazım Qarabəkir təkrar tutuqlanmışdır. 27 iyun başlayan məhkəmə 13 iyulda tamamlanmış, sanıqlardan (suçlulardan) bir qismi ölüm cəzasına layiq görülmüşdür. Kazım Qarabəkir və bəzi məbuslar (elçilər, millət vəkilləri) bəraət qazanmışlar (**4:** s.61-62).



5 dekabr 1927-ci ildə ordudan əmǝkliliyə çıxan Kazım Qarabəkir paşa İstanbulda Erenköydəki evində inzivaya (tənhalığa) çəkilərək, 1938-ci ilə qədər xatirələrini və əsərlərini yazmışdır. 1938-ci ildə yeni Cümhurbaşqanı və çox yaxın dostu İsmət İnönünün namizəd göstərməsi ilə mərhum Halil Edham Eldemin ölümüylə boşalan millətvəkilliyi yerinə seçkidə İstanbuldan TBMM-nə 2-ci dəfə üzv seçilmişdir. 1946-da TBMM-nə yeni seçkilərdə də İstanbuldan millət vəkili seçilən Kazım Qarabəkir 23 iyul 1946-cı ildə TBMM Başqanı seçilmiş, ömrünün sonunadək bu görəvi sürdürmüşdür.



Kazım Karabekir paşa, nəhayət, şərəfli bir ömrə əlvida edərək, 26 yanvar 1948-ci ildə qəlb krizindən (*infarktdan* –X.İ.) dünyasını dəyişmişdir (**4:** s.62-63).

Beləliklə, böyük türk komandanı, siyasətçisi, ünlü fikir adamı, möhtəşəm kitablar müəllifi, xeyriyəçi, şəfqətçil və Türk Dünyasının gələcəyinin ciddi şəkildə maariflənmədən keçdiyini görən, həm də bu prinsiplər uğrunda ömrünün sonunadək savaşan böyük ürək sahibi dünyamızı cismani olaraq tərk etdi. Ancaq cismani...

**Ədəbiyyat:**


1. Salim Koca. Kazım Karabekir Paşanın Türk İstiklal Savaşındakı Rolü. "Fikir, siyaset ve devlet adamı Kazım Karabekir Paşa" paneli, Ankara, 2000.
2. Большая Советская Энциклопедия, в 30 т-х, II т., Móсква, 1970.
3. "Kars tarixi", I c., Kırzıoğlu M.Fahrettin, İstanbul, 1953.
4. Mustafa Turan. Kazım Karabekir Paşanın Fikri Yapısı. "Fikir, siyaset ve devlet adamı Kazım Karabekir Paşa" paneli, Ankara, 2000.
5. Эрих Файгл. Армянская мифомания. 2007, (ISBN 3-85002-583-7 ab 1.1.2007: ISBN 978-3-85002-583-6; издана в Турции, всего 168 с.).


***(Kitabın başlanğıcından bura qədərki bölümlərin müxtəlif hissələri, ixtisarla, "Təhsil problemləri" (2005-2007), "Ekspress" (2009-2010), "Mədəniyyət" (2009-2010), "Hürriyət" (2009), "The Azeri Times" (2003), "Azadlıq", "Respublika", "Hərbi and", "Vətəndaş naminə", həmçinin başqa həftəlik qəzetlərdə və bəzi saytlarda yayınlanmışdır.)***

## TARİXİ DƏLİLLƏR «ERMƏNİ SOYQIRIMI»NIN MÖVCUDLUĞUNU TƏKZİB EDİR

**Önyazı:** *Türk tarixçisi Osman Karabıyık ( 36: s. 43) T.G. Dcuvaranın "Türkiyəni parçalamaq üçün yüz plan" kitabından maraqlı misal gətirir. O, 1808-ci ildə Napaleonun dediyi bir fikri xatırladır: "Rusiya ilə dəfələrlə Osmanlı dövlətinin bölüşdürülməsini müzakirə etdik. Hər səfərimdə qarşımıza İstanbul çıxır və anlaşmaya mane olurdu. İstanbul olmasa idi, paylaşma gerçəkləşəcəkdi. Ruslar İstanbulu istəyir, mən də onların İstanbulu almalarına razı olmurdum. İstanbul başlı-başına bir məmləkətdir. Kim oranı əldə edərsə, dünyaya hökm edər" (35: s. 5)...*

***

1912-ci il oktyabrın 9-da nəhəng dövlətlərin Osmanlıya qarşı müharibəyə başlamasıyla türklərin yeni qara günlərinin başlanğıcı qoyuldu. O zamandan 1913-cü il may ayının 30-dək Andranikin komandanlığındakı silahlı quldur dəstələri türklərə qarşı xüsusi qəddarlıqla savaşırdı. 1912-ci il noyabrın 10-da «erməni məsələsi»ni Rusiya və Avropa diplomatiyası qarşısında yeni erməni iştahını ifadə edən tələblərlə ortaya qoymaq üçün Avropada yaxşı tanınan Osmanlı Məclisi-Məbusanının üzvü Poğos Nübar Paşanın başçılığı ilə nümayəndə heyəti yaradıldı. 1913-cü il iyulun 3-də isə Konstantinopolun Yeni Köy sarayında «Erməni islahatları komissiyası» işə başladı. 1914-cü il yanvarın 26-da Konstantinopolda Rusiya və Osmanlı dövlətləri arasında müqavilə də imzalandı, ancaq iyulun 19-da I Dünya Savaşının başlanması səbəbiylə həyata keçmədi.

1914-cü il oktyabrın 18-də erməni könüllü dəstələrinin köməyi ilə rus qoşunları Alaşkerd hövzəsini ələ keçirib, noyabrın 10-da Ərzurum çevrəsindəki döyüşdə türk bölüklərini yenmişdilər. 1915-ci il aprelin 11-22-də ermənilər Türkiyə daxilində də türklərə qarşı vuruşurdular... Vanda qırğın mayın 19-dək davam etdi **(1: s.324-326)...**

Batı qaynaqlarında «Gelibolu savaşları» adlanan, İxtilaf Dövlətlərinin 5 Qasım (noyabr) 1914-cü ildə Osmanlı dövlətinə açdığı savaşlar isə öz müdhişliyi və canlı qüvvə itkisi ilə tarixin ən böyük və ən qanlı savaşlarından idi.

Saysız-hesabsız canlı qüvvə və cəbbəxana ilə hücuma keçmiş ingilis-fransız gəmilərinin qurudakı türk qüvvələrinə aylarla hücum çəkərək yağdırdığı saysız-hesabsız top mərmilərinin də İxtilaf Dövlətlərinə qələbə gətirmədiyini görən, İstanbulu ələ keçirə bilmədiyi üçün əsəbləri pozulan ingilis admiralı Carden başkomandanlıq yapa bilməyəcəyini bildirdikdən sonra İngiltərəyə geri göndərilərək onun yerinə fransız admiralı J.M. de Robeck təyin edildi. Carden kimi Robeck də boğaza çox sayda qüvvə ilə güclü hücuma keçərək türklərin iradəsini sındırmaq taktikasını seçmişdi. İngilis-fransız minaaxtaran gəmiləri boğazı minalardan təmizlədikdən sonra, martın 17-də Ağdəniz orduları Baş Komandanı general Hamiltonun da qatıldığı toplantıda səhər tezdən güclü dəniz hərəkatı qərara alındı. Ancaq elə həmin gün, 17 mart axşamı Nüsrət mina gəmisi Qaranlıq Liman bölgəsini yenidən minaladı.

**Və 18 mart 1915-ci il sabahı boğaza girən və tabyaları (səngər, müdafiə qurğuları, süni təpələr və s.) atəşə tutan ingilis-fransız donanmaları Çanaqqala Boğazının iki yaxasındakı türk mövqelərindən açılan sıx top zərbələri və Qaranlıq Limana tökülən minaların dalbadal partlaması sayəsində 35% itki verib, geriyə qaçmağa məcbur oldu. Sonrakı manevrlər zamanı daha 7 düşmən gəmisi minaya çarpılaraq sıradan çıxdı. Bu uğurlu müdafiəyə başçılıq edən Çanaqqala möhkəmləndirilmiş mövqe (qala) komandanı Cavad Paşa «18 Mart qəhrəmanı» kimi tarix yazdı və tarixə yazıldı (2:** s.260).



Düşmən komandanlığı bu uğursuzluqdan sonra dəniz hərəkatına dəstək üçün general Hamiltonun əmrində olan Avstraliya və Yeni Zelandiya əsgərlərindən ibarət korpusu Arıburnuna, ingilis-fransız qüvvələrini isə Səddülbəhrə çıxaracaqdı. 75 min nəfərlik bu quru qüvvələrinə qarşı Osmanlı rəhbərliyi də 5-ci ordunu qurdu və milliyyətcə alman olan Liman Von Sandersi komandan təyin etdi. Bu savaşda 5-ci ordu ehtiyat tüməni komandanı isə Mustafa Kamal idi.

Yeni hücum dalğası 25 Nisan (aprel) 1915-ci ildə ingilis general Hamilton və fransız general D.Amadenin (daha sonra Gourand) rəhbərliyi ilə başladı.

O dövrdə düşmən qüvvələrinin aviasiyasının türklərin aviasiyasından çox-çox modern və sayca üstün olmasını da əlavə etsək, türk məhmətciyinin hansı güclərlə üz-üzə olduğunu nisbətən də olsa təsəvvür edə bilərik.

Ancaq nə xoş ki, düşmənin bütün bu kimi hərbi texnika və canlı qüvvə üstünlüyünə baxmayaraq türklər Çanaqqala və Geliboluda dünyanın birləşmiş, azğın qüvvələrinə layiqincə dərs verib, dünya tarixinə qızıl hərflərlə nəhəng bir səhifə yaza bildilər: nəticədə düşmənlər 19-20 Aralıq gecəsi Anafartalar və Arıburnu cəbhəsindən, 8-9 Ocaqda da Səddülbəhrdən çəkildilər.

Xatırladaq ki, İxtilaf Dövlətləri Çanaqqalaya 410000 ingilis, 79000 fransız olmaqla yarım milyona yaxın əsgər göndərmişdi. Təkcə ingilislərdən 213980 nəfər canlı itki verilmişdi. Genəlqurmay Əsgəri Tarix və Strateji Araşdırmalar Başqanlığının rəsmi qeydlərinə görə, türklərin müdafiəsində isə 700000 nəfər iştirak edirdi və 213882 nəfər şəhid verilmişdi **(2: s.206-207)...**

[Türkiyədə yayınlanmış "İslam Ensiklopediyası"ndan alınmış bu rəsmi bilgilərə yenidən baxmağı təklif edən türk qəzetçisi Erhan Afyoncu Çanaqqala bölgəsindəki Osmanlı əsgərlərinin sayı haqda belə yazır: "Bir çox kitabda, Çanaqqala savaşında 250 min şəhid verdiyimiz anladılır. Müzəffər Albayraq ilə Tuncay Yılmazərin "Sorularla Çanakkale Muharebeleri" adlı kitabları Çanaqqala ilə ilgili bir çox yanlışı, o sıradan, bu rəqəmlər barədə yanlışı düzəldir. Osmanlı Genəlqurmayının rəsmi açıqlamalarına görə, Çanaqqala cəbhəsində zayiat: 55177 şəhid, 100177 yaralı, 10067 qayıb (*itkin* –X.İ.), 21498 xəstəlikdən ölümdü. Xəstəlikdən dolayı hava dəyişimi alan 64440 əsgər də bura daxil edilirsə, toplam rəqəm 251359-u bulmaqdaydı. 250 min şəhid sayı deyil, savaşamayacaq hala gələn əsgərlərimizin toplam sayıdır. Cəbhədə həlak olanlara, daha sonra (ağır) yaralandığı üçün vəfat edənlər də eklənd iyində (*üzərinə gəlindiyində* – X. İ.) şəhid sayımız 101279-dur" –( 3 ) ]...

Doğu Cəbhəsinə gəlincə, 1916-cı ilin fevral-mart aylarında Muş, Bitlis rusların işğalı altında idi. May ayında Parisdə «Fransa-Ermənistan» komitəsi yaradıldı. Noyabrın 26-da Fransa hökuməti Türkiyədə vuruşmaq üçün erməni qaçqınlarından ibarət «Şərq legionu» təşkil etdi. Türkiyədə yaradılması nəzərdə tutulan legion Kilikiya erməni dövləti ordusunun əsas özülü olmalı idi **(1: s.326).**

Ayrıca Antanta (Birləşmiş Qüvvələr) tərəfindən vuruşan ermənilərin toplam sayı isə 50 min nəfərdən çox idi **(1: s.394).**

Erməni iddialarının getdikcə azğınlıqla sonuclandığını hiss edən Çar Rusiyası 1916-cı ilin mayında könüllü erməni silahlı dəstələrinin buraxılaraq, rus ordusunun tabeliyinə verilməsi haqda əmri isə ermənilərin daha da hiddətlənməsinə, rus komandanlığına tabe olmaqdan imtina edərək quldur dəstələri şəklində Qafqazda müsəlman kəndlərini qarət etməsinə, dinc əhaliyə divan tutmasına «bəhanə» verdi. Bu minvalla «erməni məsələsi» bir problem (sorun) kimi Zaqafqaziyada (Cənubi Qafqazda) cəmləşdi **(4: s.16)...**

Ermənilərin I Dünya Savaşı boyunca və ondan sonrakı (1921-ci llədək) dövr ərzində Anadoluda və əski İrəvan xanlığı ərazisində törətdiyi faciələrlə bağlı detallara başqa bölümlərimizdə toxunduğumuzdan hal-hazırkı mətləbdən yayınmayaraq,

«erməni soyqırımı» iddialarını yalanlayan tarixi dəlillərin toplusunda bir sıra əhəmiyyətlərini diqqətə çatdırmağa cəhd edək...

1918-ci il martın 2-də «cəmi 3 il əvvəl soyqırıma məruz qalan» erməni xalqının liderlərindən biri – Ş.Zavriyev «türk qoşunlarını köməyə çağırmaq, türk süngüsü ilə müstəqilliyi qorumaq» çağırışı ilə çıxış edirdi. Ermənilər 1918-ci il 12 mart-14 aprel aralığında Trabzonda, 11 may-4 iyun aralığında isə Batumda türklərlə diplomatik danışıqlar aparırdılar. Daşnak partiyasını təmsil edən Al.Xatisyan belə̇cə də deyirdi: «Bir halda ki, Qafqaz Rusiyadan ayrılıb, deməli biz bundan sonra türk oriyentasiyasına üstünlük verməliyik».

Bu münasibətlərin sıcaqlığı səbəbindən idi ki, elə həmin ilin yayında Xəlil paşa (*Osmanlı Şərq Orduları Qrupu Komandanı* – X.İ.) müsəlmanların, daha doğrusu azəri türklərinin bölgədə barış və istiqrar (*sabitlik, dayanıqlıq* – X.İ.) arzusu ilə ermənilərə başkənd kimi yenicə güzəşt etdiyi İrəvana təşrif buyurmuşdu. Bu saygılı müsafiri, türk paşasını Ermənistan hakimiyyət yöneticiləri, yəni daşnaklar son dərəcə mehribanlıqla və gurultulu alqışlarla qarşılamış, bu yüksək qonağın şərəfinə təmtəraqlı ziyafət də verilmişdi. Bu sıcaq münasibətin qarşılığı olaraq Xəlil paşa da daşnak zabitlərinin bir qisminə Osmanlı dövləti adından medal da təqdim etmişdi. Yenicə yaradılmış erməni dövlətinin daşnak hökumətini təmsil edən çıxışçılar Xəlil paşaya minnətdar olduqlarını uca səslə bildirir və təşəkkür edirdilər.

Bu ilginc olaylar haqqında Xəlil paşa öz xatirələrində yazır:

"Rusiyada ixtilal (*devrim* – X.İ.) çıxınca Türk Orđusu önündəki birlikləri dağıldı. Bu cəbhələri ermənilər tutaraq kıyasıya *(müvafiq, analoji, bənzər, uyğun –X.İ.)* savaşa girişdilər. İki yanlı olaraq çox qanlı çarpışmalar oldu isə ermənilər kəndi cəbhələrinə çəkildilər. Biz də buraları işğal etdikdən sonra arada qismən də olsa sükunət hasil oldu. Anlaşılan bu havanı daha pəkiştirmək *(qərarlı etmək, möhkəmləndirmək – X.İ.),* daha istiqrarlı şəkil vermək düşüncəsiylə olmalıdır ki; Erivana dəvət edildim. Bu qədər qanlı hesablaşmalar, qanlı savaş və boğazlaşma sonunda bir Türk Paşasının Ermənistan içinə dəvət edilməsi qəribə görünə bilər. Hətta bu ziyarət yüzminlərcə intiqam davalarının havasıyla təhlükəli də sayıla bilərdi. Oysa dəvəti qəbul etməkdə tərəddüd etmədim."

Təbrizdən İrəvana bir xəyal aləmi içində yavərləriylə irəliləyən Xəlil paşa daha sonra bunları bildirir:

"Sabahleyin saat tam 09.00-da trənim (*qatar* –X.İ.) Erivandan bir az irəlidəki (6 km. Batıda) Eçmiədzində (Üçkilsədə) durdu. İstasyonda bizi inanılmaz həyəcanlar, coşqunluqlar içində qarşıladılar. Böyük xalq qələbəliyindən başqa bütün hökumət ərkanı və əsgəri komandanlar da oradaydı. Musiqi çalınırdı. Sanki bir qaç öncə bir-birimizin boğazına sarılan sarılanlar biz deyildik."

Trəndən enmək üçün hazırlanırdım ki, mən Vanda Jandarm komandanı ikən Daşnaksütyun Cəmiyyəti başqanı və sərkərdəsi olmuş Aram Paşa ağlayaraq boynuma sarıldı. Aram əslində Vanlı bir erməni idi. Paşa-filan deyildi. İxtilal (*devrim*-X.İ.) komitəsi içindəki mövqeyi və savaşlardakı mücadilələri ilə hər kəs ona "Aram Paşa" deyirdi. Aram Paşa ilə orada qarşılaşmaqdan çox məmnun oldum. Aram yenə Vandakı dostluq günlərimizdə olduğu kimi adımla "Xəlil!", "Xəlil!" deyə çağırır, durmadan ağlayırdı.

Tiflisdə olan almanlar bu Ermənistan ziyarətimdə məni rahat buraxmadılar. General Von Kress (rus, Azərbaycan qaynaqlarında: *fon Kress* –X.İ.), maiyətilə (*müşayiətçilər* –X.İ.) birlikdə orada bulunmaları üçün məndən izn istəmişdi. Uyğun gördüm. Bizim trənimiz Eçmiədzin istasyonuna girərkən, Kress də ulaşmış oldu.

Trəndən endik. Von Kress də hənuz enmiş bulunurdu. Şöylə bir səlamlaşdıqdan sonra Aramın təqdimləri ilə erməni hökuməti irəri gələnlərini tanıdım. Onlar da məni nasıl olsa tanıyırlardı...



Ölümün ta ortasına addımımı atmışdım bir dəfə (**38**: s.238)... Qoltuq altındakı tapançamı dirsəyimlə yoxlarkən, belimdəkini də əmniyyəti açıq bir şəkildə taxdığımı düşündüm və nasıl olsa bir çarəsini bulurdum...

İstasyondan Rəvanadək 2.5 km. yolumuz vardı. Avtomobilimə Aramı aldım. Von Kress də başqa avtomobilə, digər erməni irəri gələnləri ilə bərabər endi. Yol boyu sıralanmış erməni əsgərləri:

–Yaşa Halil Paşa!.. – səsləriylə göstəri yapırlardı.

Aram tədirgindi. Quşquluydu. Bir ara qulağıma:

–İki gün öncə İç İşləri Bakanı oldum. Fırınlar xalqa əkmək (*çörək* –X.İ.) yetirə bilmədiyindən gözəl dayaq (*kötək* – X.İ.) yedim. **Bütün vücudum xurda xaş** (*xurd-xəşil* **– X. İ.** ) **!** Əgər Hökumətə sadiq güclər yetişməsəydi, indi birlikdə olmayacaqdıq. Aclıq üzündən Hökumətin nüfuzu qalmadı. Şəhər çevrəsindəki dağlara da bizə sadiq çətələri yerləşdirdik. Qısaca Halil Paşa, çox zor durumdayız!..

Şəhərdə bizə bir qonaq, Von Kressə də ayrı bir qonaq hazırlanmışdı. Müşayiətimlə yerləşdikdən sonra bir ara yalnız qaldım. Yavərlərimə bir çatışma halında yapacaqları işi söylədim. Bir erməni saldırsın da birə dək döyüşəcəkdik.

Az sonra məlum protokol ziyarətləri başladı. Üsulən Von Kresslə bərabər Erməni Baş Bakanını, Cümhurbaşqanını məqamlarında ziyarət etdik. Yeni qurulan bağımsız hökumətlərini qutladıq. Von Kresslə daha öncə mütəbaqatımız (*razılaşdırma*-X.İ.) üzrə o günün axşamı mən Gümrüyə, o da Gümrü üzərindən Tiflisə dönəcəkdik. Dönməmizə müsaidə edilməsini rica etdik. Aralarında ermənicə qonuşdular və sonra Aram Paşa:

**–General Von Kress proqramına sadiq qalaraq avdət edə bilərlər. Oysa biz şərqliyiz. Şərq adətlərinə sadiq qalaraq yaxın qonşumuz Xəlil Paşanı bir ya bir qaç gecə qonaq etmədən buraxmayacağıq, -dedi.**

*–Aram Paşa! Mənim də dönməm gərək!* – dedim isə;

**–Xəlil Paşa, bir gecə qonaq etmədən səni buraxmam!**

*Digər ermənilər də israr edincə, qalmaqdan başqa çarəm olmadı.*

Von Kressi həp birlikdə istasyona götürüb yolçu edərkən, Von Kress trəni hərəkət etmədən şunları söyləməkdən kəndini alamadı (*özünü saxlaya bilmədi* –X.İ.):

–Paşam, aylardan bəri könüllərini qazanmaq istədiyimiz erməniləri bir gündə təshir (*sehrləmə, qulluğuna gətirmə* –X.İ.) etdiniz. Buna heyrət edirəm. Biz müttəfiq sifətilə bununla iftixar edirəm...

Sadəcə üzünə baxıb gülümsədim.

"Bilirdim ki, Almanların bütün cəhdləri para, silah, uçaq sözü verərək erməni ruhundakı əski türk düşmənliyini alovlandırmaq və siyasətlərini bu koza (*kozır, təsirli vasitə* –X.İ.) bağlamaqdır."

Von Kressi uğurlayıb, şəhərə döndük" (**39**: s.190-192)...

Türk araşdırmaçısı Nizaməddin Onk da bu qonuya toxunaraq, Xəlil paşanın İrəvan səfəri haqda yazır:

"1918-ci il, sentyabrın sonları idi...

**Bir tarix axımında türk şəhəri olaraq gələn Erivan (Rəvan) şimdi də erməni çoxluğunu sinəsinə çəkmişdir. Şu anda bir türk paşasının ziyafətilə məhəllələri də şənlik içindəydi. Uzaqdan ümid bağladıqları kəndi dövlət böyükləri gəlmişdi sanki!.. Anlaşılan** (*bu idi ki* –X.İ.) **Osmanlı ədaləti və əzəməti silinməmişdi damaqlarından**" (39: s. 192).

*Mövzuya yenə Xəlil paşanın öz dilindən nəql olunan aşağıdakı sətirlərlə davam etmək yerinə düşər:*

**"Axşam düşürdü. Bələdiyyənin yaşıllıqlar içərisindəki bağçasında böyük bir süfrə quruluydu. Yeməkdən öncə rakılar və şərablar açıldı. Qədəhlər qaldırılırkən silah səsləri başladı. Müşaiyətim tədirgindi. Ən ufaq qımıldamada**

**arxadan vurulmaq duzağına qarşı hazırdıq. Hərbi Nazir olan Nazarbekov hər silah partlamasında müfrəzələr (*silahlı dəstə, hissə* –X.İ.) göndərib gərəkən əmri verirdi. General Nazarbekov mən "Qüvvə-i Səfəriyə" ilə İrana girdiyimdə Xoy sırtlarını savunan Rus generalı idi. Əskidən düşməndik, şimdi bir gecənin içində dost olub çıxmışdıq...**

**...Gecəni tülkü uyqusunda keçirdik. Sabah olunca pəncərənin önündə minlərcə erməni toplanmışdı. Hər şey ola bilərdi. Həmən tədbir aldıq.** O anda Aram Paşanın gəldiyini duyurdular. Həyəcanlı idi:

***–Paşam! Erməni xalqına xitabən bir qaç söz etmənizi rica edə bilirmiyəm?"***

*Bu məqamları anladaraq N.Onk yazır:*

"Aramın isteyi üzərinə Erivanın geniş meydanında qurulan kürsüyə doğru ilərlədilər. Öndə Aram, arxasında Xəlil Paşa və onun həmən arxasında Yavər Səlahəddin Bəy yürüdü. Alandakı (*meydan* –X.İ.) altmış minə qədər ermənin çoxu Türkiyədən çıxarılmış kimsələrdi. Həmən həpsinin bir əqrəbası, bir babası, bir qardaşı imha (*məhv* –X.İ.) edilmişdi. Bunlar intiqam hırsı (*acıq, qəzəb, şiddət* –X.İ.) içində bu qətliamları yapan adam olaraq Xəlil Paşanı tanıyırdı (Əslində isə, Osmanlı arxivlərindəki bəlgələrdə; bundan əlavə, təkcə Türkiyədə deyil, eləcə də bütün dünyada nadir olan İqdır Soyqırım Muzeyində və Anadolunun başqa muzeylərində türk-müsəlman soyqırımı ilə ilgili düzənlənmiş sərgilərdə nümayiş etdirilən türklərə məxsus sümüklər, cırılmış "Quran" parçaları, islam nişanəsi olan təsbehlər, muncuqlar və s. eksponatlar da bir daha 1915-20-ci illərdə türklərin ermənilərə deyil, ermənilərin türklərə soyqırım yapdığını isbata yetirir. Silahlı üsyan edən və ya Rus Ordusunun tərəfinə keçərək türklərə qarşı savaşlarda ölənlər isə, müharibə qanunlarına əsasən, təbii ki, qətliama uğramış sayılmaz. Üstəlik, o zaman əksər dövlətlərin qanunvericiliyində olduğu kimi, Osmanlı qanunvericiliyində də üsyan və ya dövlətə xəyanət edən vətəndaşlara ceza kimi ölüm hökmü nəzərdə tutulurdu. Bununla belə Sultan özü də tez-tez əfvlərə əl atır, yaxud da böyük xristian olkələrin (ABŞ, İngiltərə, Rusiya...) böyükelçiliklərinin müdaxiləsilə üsyançı, terrorçu ermənilər həbsdən və ya güllələnmədən qurtulurdular. Başqa sözlə, "erməni qətliamı" iddiası hər cür əsasdan məhrum, 90 il ard-arda çeynənmiş, çürümüş siyasi bir tezisdir –X.İ.). Şübhəsiz bu qələbəlik xalqın içində zülüm gördüyünə inanmışları da az deyildi. Erməni milləti bu xüsusda çox xunxar (*qaniçən –X.İ.*) idi. Hökumət əlbəttə tədbir almışdı. Oysa zəif bir hökumətin tədbirinin nə dəyəri ola bilərdi. Nə də olsa Xəlil Paşa və müşayiətçiləri kəndini ucuza düşürmək istəmirdi.

Onlar ilərlərkən bir alqış tufanı qopdu. Yer, göy sallandı sanki! Kürsüyə çıxan Xəlil Paşa, soyuqqanlı şəkildə qonuşmasına söylə başladı **(38: s.239-243)**:

– Zalım bir padişahı yıxmaq üçün, hür və məsud bir vətən qurmaq üçün əlbirliyi etdiyim erməni milləti!..

Vətənin ən qorxunc və acı günlərində vətənimi düşmənə əsir olaraq tarixdən silməyə qalxdıqları üçün son fərdinədək yox etməyə çalışdığım erməni milləti!..

Bu gün türk millətinin alicənablığına sığındığı üçün hüzura və rahatlığa qovuşdurmaq istədiyim erməni milləti!.. Əgər siz türk vətəninə sadiq qalırsanız, sizə əlimdən gələn ən eyi şeyi yapacağam. Əgər yenə bir takım şüursuz komitəçilərə taxılaraq türkə və türk vətəninə xəyanətə qalxarsanız, bütün məmləkətinizi saran ordularıma əmr verərək dünya üstündə nəfəs alacaq tək erməni buraxmıyacağım! Ağlınızı başınıza alın!

Köylərinizə, evlərinizə, ailələrinizin səadəti üçün dönün və çalışın. Zaman bugünkü yaraları silər.

Özətlə keçən bu qonuşma alqış tufanı arasında sıx-sıx kəsilirdi. Xitab bitincə müdhiş bir gurultu və alqış qopdu.



Xəlil Paşa açıq və kəsin qonuşmuşdu. Heç ağlından çıxarmadığı bu meydandan sağ dönəməyəcəyi idi. Kürsüdən enincə yanında olan Aram Paşa:

– Xəlil, bu gün burada sənin də, mənim də sağ dönüb-dönəməyəcəyimizi ilk andan bəri düşündüm, -dedi.

Xəlil Paşa:

– Əvət, dönməyə bilirdik. Oysa mən doğru bulduğumu yapdım və doğru bulduğumu söylədim.

Hökumət proqramı gərəyincə buradan Eçmiədzinə gedildi. Yol boyu hər iki yanda sıra-sıra əsgərlər düzülmüşdü. Bunların arxasında və kilsə alanında köç səbəbiylə ac, səfil, pərişan minlərcə erməni bulunurdu. Bu kötü mənzərəyə qarşı içi burkulan *(ürəyi sıxılan –X.İ.)* Xəlil Paşanın da insanlıq duyğuları hərəkətlənirdi. Oysa yaşadıqları dövləti içdən yıxmağa çalışan, rahat qazanc dolu bir yaşantı yerinə qoca Türk dövlətinin torpağına, malına göz dikənlərin bu hala düşdükləri gerçəkdi. Dövlət ihmal *(etinasızlıq, sayğısızlıq-X.İ.)* və xəyanət qəbul etməzdi.

Nəhayət Eçmiədzinə (Üçkilsəyə) varıldı. Katolikosun oturduğu böyük salonda ruhani lider törən əlbisəli olub ayaqdaydı. Uzun saqqallı, qırmızı yanaqlı, yaşına rəğmən sağlıqlı olduğu gözükən bu sayğın ixtiyarı Xəlil Paşa öncə əsgərcə səlamladıqdan sonra əllərini öpdü. O da gözləri yaşararaq Paşanın yanaqlarından öpdü.

Katolikos Azərbaycan türkcəsi ilə qonuşurdu. Yeməyə oturunca katolikos, sırasına gətirilən Xəlil Paşaya:

– Bax Xəlil Paşa! Biz cənabı-haqqın inayətilə aclıqdan ölməyəcək qədər bir şeylər bulub keçiniriz. Oysa yollarda sərilmiş, tökülmüş xalqın durumu acıdır. Əcaba zatialinizdən bizə bir az imdad mümkünmüdür?

O sırada 9-cu Ordunun üç illik yiyəcək stoku (*ehtiyatı* –X.İ.) olduğu anlaşıldığından, buradan Erməni Hökumətinə təslim edilmək üzərə 200 ton hububat üçün əmr yazıldı. Yiyəcək Eçmiədzin istasyonuna peydərpey göndərilmək üzərə yola çıxarılacaqdı.

Xəlil Paşa, qurmay başqanı Bəsri və yavəri Səlahəddin bəylər ilə müşayiətçilərini alaraq, Erməni dövlət, hökumət və yüksək əsgəri ərkanın uğurlamasıyla Gümrüyə trənlə döndülər" **(39:** s. 192-193).

**[Haşiyə:** Nizaməddin Onk Xəlil Paşanın *Xatirələr*ində Rəvanda yaşayan türklərdən söz açılmadığını bildirir və bu kəsirə münasibətini sərgiləyir: "Oysa Erməni Dövlətini dahi ələ keçiricək hatırı sayılı türk iləri gələnləri vardır. Qaça-köçə rəğmən yenə (*İrəvanın* – X.İ.) 30% türk olduğu bəlirtilməkdədir. Şəhər mərkəzi və önəmli məhəllələrdə Türklər çoxluqdadır" – **(39:** s. 193)**]**.

***

Ermənistanla Osmanlı dövləti arasında ilk ilişgilər isə 1918-ci ilin baharından başlamış, iyunun 4-də isə Batumda tərəflər arasında «sülh və dostluq» müqaviləsi imzalanmışdı.

Bu müqavilədə Ermənistanın ərazisi 9 min kv. km., əhalisi 324285 nəfər qeyd edilmiş, onun ərazisində 6 km uzunluğunda dəmiryol xətti olduğu göstərilmişdi. Daşnak hakimiyyəti bu müqavilənin imzalanmasından çox keçməmiş Osmanlı dövlətinin başkəndinə – Konstantinopola bir təsirli teleqram yollayaraq ürəkdən sevdikləri mehriban dostları Ənvər Paşaya, Tələt Paşaya, şəxsən Sultana Ermənistana azadlıq və müstəqillik bəxş etdiklərinə görə səmimiyyətlə təşəkkür edir və yazırdılar: SULTAN OLMASAYDI, AZAD ERMƏNİSTAN DA OLA BİLMƏZDİ!!! **(5:** s.25; **1:** s.334)...

Ermənistanın istiqlaliyyət qazandığı dönəmlərdə türklərlə münasibətlərinə dair növbəti bir erməni müəllifinin qeydləri də günümüzdən baxdıqda həddən çox ilginc görünür:

Ermənistanın öncül bölşevik şəxsiyyətlərindən Artaşes Balasiyeviç Karinyan (Qabrielyan) Tiflisdə basılan "Bolşevik Zakavkazya" dərgisinin **1928-ci il (№2, 29 fevral; №7-8, 15 oktyabr; №9-10, ay-gün göstərilməmiş) saylarında "Erməni milliyetçi akımların özəllikləri üzərinə" başlıqlı üç bölümdən oluşan dizi məqaləsində ölkəsinin o dönəmdə yürütdüyü siyasətə toxunaraq yazırdı (37:** s.7): **"Hər nə qədər qəribə görünsə də, yeni** Ermənistan hökuməti, "bağımsızlıq" elan edildikdən sonra da, Tiflisdən ayrılaraq, öz dövlətinin torpaqlarına daşınmağa cəsarət edə bilmədi. Dəmiryol xətti türklərin əlindəydi.

Ermənistan hökuməti, 17 iyun günü, Güney Qafqazyadakı Alman işğal birliyi komandanı fon Kressin təmsilçiləri olan iki alman zabiti (subayı) ilə (Türk Cəbhəsi komandanı Vəhib Paşanın təmsilçisi) bir Türk subayı eşliyində, Qazax və Uzuntala üzərindən Ermənistana hərəkət etdi. Bu səyahətə qatılanlardan birisi anılarında, "Avtomobillərimiz üzərində Türk bayrağı dalğalanırdı" deyə yazmışdır.

"Bağımsız" Ermənistanın ilk hökuməti öz başkəndinə (*İrəvan gözə alınır* – X. İ.) belə getməkdəydi.

Biz bu olayı, "bağımsız" Ermənistanın daşnak nazirlərindən birisinin anlatımına dayanaraq eynən çatdırırıq". (**Babalyan. "Bağımsızlıq tarixindən səhifələr".**, *Ayrenik,* 1923, sayı 8, s.43-45. – *Bax:* **37:** s.90-91).

Göründüyü kimi, Karinyan da daşnak Ermənistanının ilk xarici siyasi yönünün Türkiyəmeyilli olduğunu təkzibedilməz dəlillə ortaya qoymuşdu.

Batum konfransında Ermənistan daşnak hökumətini təmsil edən nümayəndə heyətinin başçısı, ömrünü Türkiyəyə qarşı mübarizələrə və müharibələrə həsr etmiş Al. Xatisyan həmin konfransdan sonra Türk komandanına göndərdiyi məktubda münasibəti minnətdarlıq notları üzərində kökləmişdi: «Əlahəzrət, özümdə cəsarət tapıb Sizi əmin etmək istəyirəm ki, erməni milli şurası öz borcunu ödəmək üçün əlindən gələni edəcək, Əlahəzrət, dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm». Batum müqaviləsinin 4-cü bəndində hərbi sahədə Osmanlı-Ermənistan münasibətləri belə ifadə olunurdu: Ermənistan Respublikasının hökuməti xahiş etdikdə qayda-qanun və sabitlik yaratmaqda ona silahlı qüvvələrlə kömək etməyi Osmanlı İmperiyası hökuməti öz üzərinə götürür. Bu maddə ilə Ermənistan daşnak hökuməti hətta öz daxilində sabitlik yaratmaq hüququnu da özünün rəqib saydığı ölkəyə verirdi **(6: s.54).**

1920-ci il dekabrın 2-də Aleksandropolda daşnak hökuməti Türkiyə ilə son müqaviləsini imzaladı. Xatırladaq ki, bu zaman artıq İrəvanda sovet respublikası elan edilmişdi. Aleksandropol müqaviləsinin 13-cü maddəsi Türkiyə hökumətinə Ermənistan ərazisində hərbi əməliyyatlar aparmaq hüququ verirdi.

**Ermənistanda sovet hakimiyyəti elan edilməsindən 8 gün qabaq daşnaklara məxsus «Harac» qəzetində çap olunmuş bir yazıda isə belə bir çağırış da vardı: «Erməni xalqı yaşamaq, öz dövlətini, özünün fiziki varlığını qoruyub saxlamaq istəyirsə, bundan sonra rus deyil, dönmədən türk oriyentasiyası yeritməlidir».**

**Daşnakların indi «erməni soyqırımı»nın kulminasiya ili kimi tanıtdıqları 1915-ci ildən cəmi 5-cə il sonra türkləri hami, xilaskar gözü ilə görən bu çağırışları ifadə edən başqa bir teleqram da Ermənistan Mərkəzi Dövlət Tarix Arxivində saxlanılır:** *«Bolşeviklərə qarşı vuruşlarda Türkiyənin dost köməyinə son dərəcə ehtiyacımız var.»* **( 7 ).**

Növbəti bir erməni qaynağında isə Türkiyəyə münasibət (erməni tədqiqatçısı Ruben Darbinyanın timsalında) belə ifadə edilirdi: «Son iki on illik ərzində bizim bütün siyasi səhvlərimiz, büdrəmələrimiz ruspərəstliyimizdən irəli gəldi» **(8: s.369).**



Erməni iddialarını yalanlayan erməni müəlliflərindən biri də tanınmış dövlət adamı, "erməni məsələsi"ndə nüfuzlu söz sahibi olan B.A. Boryan idi. Boryan "Ermənistan, uluslararası diplomatiya və SSRİ" (I c., 1928, Moskva, II c., 1929, Leninqrad) adlı ikicildlik təqribən 1000 səhifəlik əsərində "erməni məsələsi"ni qədim dönəmlərdən Lozan Konfransınadək araşdıraraq önəmli mülahizələr irəli sürərək onları dəlillərlə əsaslandırmışdır.

Boryan bu kitabı nədəniylə erməni millətçiləri tərəfindən xain elan edilmiş və çox sərt eləşdirilərə uğramışdır.

Türk araşdırmaçısı Məhməd Pərinçək "Ermeni Devlet Adamı B.A. Boryanın Gözüyle Türk-Ermeni Çatışması" adlı əsərində Boryanın bu qonularda önəmli görüşlərini sunmuş və Rusiya Federasiyası Dövlət Arxivi, Rusiya Əsgəri Tarix Dövlət Arxivi, Rusiya İctimai-Siyasi Tarix Dövlət Arxivindəki bəlgələr üzərində araşdırmalar apararaq **(43:** s.7-9) yeni dəlillər ortaya qoymuşdur.

Hadisələrə başqa don geydirənlərdən fərqli olaraq, Boryan olaylara gerçəkçi qiymətləndirmə ilə yanaşaraq, səmimi şəkildə bildirir:

"Ermənilərin ayaqlanması (*üsyana qalxması* –X.İ.), onların tarixi və hüquqi haqqıdır. Əgər dövlət, xalq ayaqlanmasını sərt bir şəkildə əzir və ayaqlananları basdırırsa (burada: *onlara əks həmlə edirsə* –X.İ.) , bu da onun tarixi və hüquqi haqqıdır" **(42 :** s.363,365**).**

Boryan əsərində İran və Rusiyanın daha öncəki dönəmlərdə ölkə çıxarları gərəyi ermənilərə qarşı aldığı önləmlərə də toxunmuşdur. İran şahı II İbrahim, savaş sırasında Rusiyayla işbirliyi yapan ermənilərə qarşı sərt uyğulamalarda bulunmuşdur. Eyni şəkildə Rus Çarlığı da III Aleksandr dönəmində erməni milli hərəkatını göz altında tutmaq məqsədilə bir çox yasaqlamalara əl atmışdır. Məktəblər qapadılmış, kilsənin mal varlıqlarına əl qoyulmuş, erməni xalqı üzərində basqı qurulmuşdur **(42 :** s.143,267,323. **–***Bax:* **43:** s.62**).**

Boryan, erməni məsələsinin əsl suçlularını da sərgiləmişdir. O, ermənilərin, böyük dövlətlərin doğu siyasətinin qurbanı olduğunu qeyd edir. Ermənilər, imperialist dövlətlərin iqtisadi və siyasi çıxarları üzündən acı çəkmişlərdir. İngiltərə, Rus Çarlığı və Almaniya, yaşanan olayların (*faciələrin* –X.İ.) sorumlusudur **(42 :** s.149,165,241,247. **–***Bax:* **43:** s.62-63**).**

Hnçaq Partiyası yetkililərinin hazırladığı arayışda isə, Kilikiya bölgəsində yaşanan qarşılıqlı qırımın (qırğınların) sorumluları olaraq fransızlara işarə edilir. Doğunun əzilən azlıq xalqlarının "uca savunucusu" Fransanın "eyilik" dolu öyüdləri qarşılıqlı qırğınlara yol açmış, ölkəni fəlakət bölgəsinə çevirmişdir. Antəpdəki Erməni Olağanüstü Məclisi də fransızları təxribatçı siyasətlərindən dolayı suçlamış və Kilikiyadakı erməni faciəsinin sorumluluğunun onların üzərində olduğunu bildirmişdir. (*Hnçaq Partiyası Mərkəz Yürütmə Qurulu təmsilçilərinin 10 Eylül 1920-ci il tarixli arayışının ilgili bölümləri üçün baxınız:* **44:** v.11 – **43:** s.63-64)...

Növbəti bir erməni müəllifi S.G.Pirumyan da erməni millətçilərini və onların məqsədli havadarlarını peşman edəcək açıqlamalar vermişdir .O, Şərqiyyat Bilim Dərnəyi tərəfindən 1934-cü ildə Tiflisdə yayınlanan "Diaspordakı daşnaklar" əsərində erməni şovinist millətçiliyinin təmsilçisi daşnakları saldırğan şəkildə səciyyələndirməkdədir və onun düşüncəsinə görə, erməni könüllü birləşmələrinin qurulması özü xətadır; ermənilərlə bağlı yaşanan faciələrin isə sorumlusu imperializm və daşnaklardır. Pirumyan bildirir ki, Çar Rusiyası erməniləri türklərin üzərinə sürüb qırdırmağı və işğalın ardından bölgəyə Don kazaklarını yerləşdirməyi planlaşdırmışdı; "Dənizdən-dənizə Ermənistan" Batının "Doğu planları" çərçivəsində gəlişdirilmiş bir lahiyədir; Daşnaklar dövlət səviyyəsində Ermənistan torpaqlarında müsəlman xalqa qarşı etnik təmizləmə aparmışlar; Lozan Andlaşmasından sonra

Batı "ari ulusları qoruma" siyasəti altında erməni və kürd bölücülüyünü birləşdirməkdədir ( 49 ) ...

Erməni tarixçisi prof.Leo da, həmçinin, yaşanan olayları dış dəstəklə yaradılan erməni hərəkatına bağlayır. **Uluslararası hüquq professoru Komarovski bu nöqtədə sorumluluğun Avropaya düşdüyünə diqqət çəkir. Tarixçi Amfiteatrov isə ermənilərin özgürlüyünü əngəlləyən əsas güclərin İngiltərə, Almaniya, Rusiya və Fransa olduğunu bildirir (43:** s.64)...

***

Bir qədər yuxarıda sadaladığımız 1918-20-ci illərdəki Ermənistan–Türkiyə (Osmanlı) münasibətlərinə dair müqavilələrin mahiyyətinə qayıdaraq, qeyd edək ki, o müqavilələrin göstərilən bəndləri və erməni qaynaqlarındakı Osmanlı dövlətinə, Anadolu türklərinə qarşı sayğılı münasibət, hətta hamilik və xilaskarlıq missiyasının hüquqi səviyyədə həvalə edilməsi bir daha göstərir ki, o zamankı – 1915-ci il hadisələri və onun nəticələri ilə bağlı ermənilər Osmanlını «bağışlanmaz günahkar» və ya «körpüləri yandırmış qəvi düşman» simasında qəti görməmişlər. Bir də yəqin ona görə ki, o vaxtkı olaylarda ermənilər Osmanlı içərisindəki xəyanət, qiyam, rusların və batılıların tərəfində savaşma və s. kimi özlərini aşağılayan hərəkətlərinin müqabilində qarşı tərəfin tədbirlərini, o sıradan sayı 300-400 min, bəzi mənbələrdə 600 min kimi göstərilən ermənінin Şərqi Anadoludan o vaxtlar Osmanlının başqa bir vilayəti olan Mesopotamiyanın quzeyinə köçürülməsini qaneedici sayırdılar...

***

İrlandiyalı tarixçi-professor Pat Ualşın Britaniya arxiv materiallarına əsaslanan araşdırmalarının sonucu da (yuxarıda şərh etdiyimiz) erməni iddialarını təkzib edənlərin mövqeyi ilə səsləşir. Belə ki o, 2009-cu ildə Belfastdakı ATHOL nəşriyyatında yayınlanmış "Forgotten Aspekt of İreland`s Great War on Turkey: 1914-1924" ("Unudulan yönlərilə İrlandiyanın Türkiyəyə qarşı Böyük Savaşı: 1914-1924") adlı kitabındaTürkiyə və türk xalqı əleyhinə I Dünya Savaşı ərəfəsində ingilislərin quraşdırdıqları son dərəcə məxfi sənədləri ilk dəfə üzə çıxarmış və elmi araşdırmaya, təhlilə cəlb etmişdir. Bu kitabda müəllif ingilislərin "erməni qətliamını"nı *(indiki anlamda: soyqırımı –X.İ.)* saxta sənədlərlə necə hazırladıqlarını, dünyanı olmayan "erməni soyqırımı" hadisəsi ilə necə aldatdıqlarını aşkara çıxarmışdır. (Bu haqda AMEA-nın əməkdaşı Əli Kərimbəylinin Adanadakı Çukurova Universitəsinin professoru, doktor Mete Korkut Gülmenin **mete.gulmen@ gmail.com** saytındakı bilgilərə dayanan araşdırmasında geniş bəhs olunur **( 47 ) ...** İngilis casusu Hemferin etirafları isə Türkiyəni bölmək istəyənlərin iç və dış səbəbləri (əslində: *bəhanələri*) çoxdan *(bu etiraflar 1710-cu ildə İngilərə Müstəmləkəçilik Nazirliyindən alınmış casusluq və təfriqəçilik missiyasının etirafıdır –X.İ.)* süni surətdə hazırlamağa başladıqlarının növbəti dəlilidir **( 48 ) ...**

***

Rusiya və Osmanlının Qafqaz uğrundakı mübarizəsi tarixini araşdıran ABŞ-ın Prinston Universitetinin professoru, tarixçi Michael A.Reynoldsun araşdırmaları da istisnasız olaraq arxiv materiallarına və ciddi tarixi qaynaqlara söykəndiyindən öz zəngin faktları ilə erməni iddialarını rədd edir. "Anadolu və İran kürdləri aramsız basqınlar düzənləyir, Daşnaksütyun erməniləri silahlanmaya məcbur edirdi. İyunda Osmanlı assuriyalılarının *(aysorlar, cilolar –X.İ.)* nümayəndələri Rusiyanın



Urmiyadakı konsul yardımçısına bildirdilər ki, onların sırasından 35000 nəfər silahlı üsyana qalxaraq (*Osmanlıya qarşı –X.İ.*) rusların komandanlığı altında qarşıda gözlənilən müharibədə vuruşmağa hazırdır" **(51:** s.115). Göründüyü kimi, bəzi kürd əşirət başçılarının özbaşınalığı bölgədə dövləti sarsıdır; ermənilərin və aysorların isə üsyana hazırlanaraq rusların tərəfinə keçmə fəaliyyətləri Türkiyənin doğu bölgələrinin ruslar tərəfindən işğalını asanlaşdırmağa xidmət edirdi...

Michael A.Reynoldsun araşdırmalarında erməni komitəçilərinin Rusiya dövləti ilə xəyanətkarcasına işbirliyində olduğunu sübut edən çoxsayda tarixi faktlar yer alır **(51)** ki, bu da türklərin erməniləri qırması kimi cəfəng uydurmaların heç bir gerçək əsası olmadığının əyani göstəricilərindəndir...

***

Ermənilərin "soyqırıma uğradılması" haqqında əfsanəvi iddiaları təməlli şəkildə rədd edən ABŞ professoru mərhum Səmyuel Uimz də erməni müəllifi Riçard G. Hovanisyanın «The Republic of Armenia» (Volume I. Universiti of California, Los Angeles) kitabındakı fikirlərini və başqa erməni tədqiqatçılarının və siyasətçilərinin mülahizələrini təkzib edərək yazır: «Paris Sülh Konfransı 28 iyun 1919-cu ildə öz işini başa çatdırdı. Konfransın materialları Versal Müqaviləsi kimi tanındı. Orada Avropa məsələləri müzakirə olundu və Millətlər Birliyi yarandı. Müqavilə Osmanlı İmperiyasına münasibət bildirmədi. Bu məsələ sonralar çözələnəsi idi.

Konfransda bərabərhüquqlu yer almasına imtina olunmuş ermənilər konfransın gedişinə hər vəchlə müdaxilə etməyə çalışır, onları dinləmək istəyən hər kəsdən dilənçi payı almağa cəhd göstərirdilər. Aşağıdakı spesifik məsələlərdə müttəfiqlərin onların tələblərinə məhəl qoymaması ermənilərin ciddi narazılığına səbəb oldu: «1) Ermənistan Respublikasını tanımaq; 2) Türkiyə Ermənistanındakı yaşayış məntəqələrindən müsəlmanların çıxarılması və oraya erməni qaçqınlarının yerləşdirilməsi; 3) Türkiyə Ermənistanını hərbi müdaxilə vasitəsilə işğal etmək; 4) Ermənistan üçün dərhal mandatlı millət statusu yaratmaq. Hər bir məsələ üzrə Parisin cavabı ya neqativ, ya da tərəddüdlü oldu» **(9:** s.292**).**

Bütün bu müddət ərzində isə erməni agentləri xristian dünyasından sədəqə almaq üçün etdikləri xahişə tərəfdar axtarırdılar.

Böyük Britaniya, Fransa, İtaliya, İsveçrə, Danimarka və xüsusilə Birləşmiş Ştatlardakı ermənipərəst cəmiyyətlər Ermənistanın bu sifarişini müdafiə edirdilər. Ermənistanın müstəqilliyi uğrunda Amerika Komitəsi İrəvandakı hökumətin de fakto tanınması haqqında minlərlə adamın xahişini toplamışdı. Sülh Konfransı öz işinə başlayan kimi yüzlərlə Amerika keşişinin fərdi xahişi ilə Ermənistanın «öz tarixi sərhədlərində» yenidən qurulmasına iyirmi beş qubernatorun ümid bəsləməsi ictimaiyyətin diqqətinə çatdırıldı **(9:** s.293**).**

Din xadiminin oğlu olan ABŞ prezidenti Uilson (Vilson) bu nağılların təsiri altına düşsə də, o, 8 yanvar 1918-ci ildə Vaşinqtonda Konqresin birgə sessiyasında çıxış edərkən I Dünya Savaşında zərərə uğradığı üçün kömək edilәsi bir neçə spesifik millətin (dövlətin) adını çəkdi: Rusiya, Belçika, Fransa, İtaliya, Avstriya, Macarıstan, Rumıniya, Serbiya və Polşa. Prezident bir dəfə də Ermənistanın adını çəkmədi.

Bundan sonra ABŞ prezidenti Uilson Konqresə Dünya Sülhünün 14 maddəsi kimi tanınan təklifini verdi. 12-ci maddədə prezident Osmanlı İmperiyasına münasibətini belə bildirirdi: «Müasir Osmanlı İmperiyasının türk hissələrində möhkəm suverenlik təmin olunmalıdır, lakin türk nəzarətində olan digər millətlərə də şübhəsiz həyat təhlükəsizliyi və hüquqlarına tamam müdaxilə edilməyən müxtariyyət inkişafı verilməli, Dardanel boğazı isə beynəlxalq təminat altında bütün millətlərin gəmilərinin azad keçidi və ticarəti üçün dərhal açılmalıdır» **(10:** s.403-406**).**

Göründüyü kimi, minlərlə ermənipərəstin imza toplamasına və otuz qubernatorun xahişlərindən təsirlənməsinə (9: s.294) baxmayaraq, ABŞ prezidenti Uilsonun erməni-türk məsələsində qərarı Türk himayəsində başqa xalqlar kimi ermənilərə də təhlükəsizlik və muxtar inkişaf təminatından o yana getmirdi (11: s.140-142)...

Səmyuel A.Uimz həmin kitabında Henri P.Biərzin 1943-cü ildə çap edilmiş «Birləşmiş Ştatların Hərbi Dəniz Donanması türk sularında, 1914-1924» adlı kitabından Hovanisyanın da gətirdiyi sitatı gətirir: «Bristol erməni niyyətlərinin iç üzünü açan və Amerikanın erməni mandatının toruna düşməsini istəməyən ən məşhur tənqidçi idi...» (11: s.144) və admiral Mark Bristola, feldmarşal ser Henri Hyucizə əsaslanaraq erməni iftiralarının ifşasına davam edir.

O, ABŞ arxivlərindəki Bristol sənədlərindən də sitat gətirir: «Bristol ermənilərə onların layiq olmadığı diqqət yetirən «nəzəriyyəçiləri və sentimentalistləri» tez-tez tənqid atəşinə tutur. O, erməniləri «özlərini və ya hər hansı başqasını idarə edə bilməyən və keçmişi olmayan xalq adlandırır».

Admiral Bristol erməni iddialarını «təhqiredici» adlandırır və milli özünüdərk tarixində «Ermənistan adlı məfhumun heç vaxt olmadığında israr edirdi (11: s.145).

«Admiral Mark Ləmbert Bristol 1919-cu ildən 1927-ci ilə qədər Türkiyə sularında ABŞ Donanması Birləşməsinin komandanı və Türkiyədə ABŞ-ın xüsusi səlahiyyətli nümayəndəsi işləmişdir. Onun hesabatları Konqres Kitabxanasının əlyazmalar fondunda saxlanılır.

Bristolun Amerika sərhəd komissarlığının xarici məsələlər üzrə katibi Doktor Ceyms L.Bartona yazdığı 28 mart 1921-ci il tarixli məktubundan bir hissəyə nəzər salaq:

«...Yaxın Şərq regionunda Yərrounun hesabatları vardır və erməni hesabatlarının tamamilə saxta olduğunu bizim öz amerikalı adamlarımız aydın göstərirlər. Birləşmiş Ştatlarda isə heç bir düzəliş verilmədən belə saxta hesabatların dolaşması qanunun zorakılıqla pozulmasıdır və heç şübhəsiz, ermənilərə yaxşılıqdan daha çox pislik edir... Qarsda və Aleksandropolda olmuş Amerika region əməkdaşlarımızın və Yərrou kimi adamların hesabatlarına əlavə olaraq mənim öz kəşfiyyat zabitimdən aldığım hesabatlara əsasən bilirəm ki, erməni hesabatları düz deyil. Orada elə bir imkan varmı ki, siz və Yaxın Şərq Komitəsi belə saxta hesabatların müxtəlif instansiyalarda dolaşmasına son qoya biləsiniz?» *(Bristol Papers, Manuscript Division, Library of Congress).*

R.G.Hovannisyanın və onun həmfikirlərinin mövqeyini tənqid edən Səmyuel A.Uimz yazır: «Yəqin o başa düşməmişdi ki, müttəfiqlərin bütün əhalisi erməni dilənçiləri üçün sədəqə deyil, vergi ödəyir... Ermənilər öz xalqını yaşatmaq üçün müttəfiqlərin vergi ödənclərinin 100%-nin hamısına yiyə durmaq və tələb etdikləri hər şeyin onlara verilməsini istəyirlər, hələ bu azmış kimi, onların günah işlərini yoluna qoymaq üçün gərək müttəfiqlər öz oğullarını həmin əraziyə döyüşməyə göndərsinlər» (11: s.147).

Riçard G.Hovannisyan yazır: «Ermənistanın müstəqilliyi uğrunda Amerika Komitəsinin təşəbbüsü ilə bir kardinal, 85 bişop, 20000 keşiş, 40 ştat qubernatoru və 250 kollec və universitet prezidenti Uilsona (ABŞ prezidentinə) iddia ilə müraciət etmişdir ki, Qara və Aralıq dənizləri arasında müstəqil Ermənistan yaradılmasına yardım göstərsin, İrəvan hökumətini de-fakto tanısın və mümkün olan bütün üsullarla Ermənistanı müdafiə etsin» (9: s.309-310).

Hovannisyandan bu sitatı gətirən Səmyuel A.Uimz xatırladır ki, bu gün də Birləşmiş Ştatların içində Ermənistan öz yaxşı təşkil olunmuş və məharətlə dirijorluq edilən işini aparır. Bu işin nəticəsi kimi ABŞ adambaşına Ermənistana Yer üzünün istənilən millətindən daha çox xarici yardım göstərir. «Müttəfiqlərin Sülh Konfransı ermənilərin iddia etdikləri torpaqlara mandat istəməsi tələbini rədd etdi. Üstəlik, Sülh



Konfransının rəsmiləri Birləşmiş Ştatların nümayəndəsi polkovnik U.N.Haskeli Ermənistan üzrə baş komissar təyin etdilər. Hovannisyan bununla bağlı özünün və ermənilərin münasibətini belə ifadə edir: «Beləliklə, Ermənistana mandatlı hakimiyyət, müəyyən edilmiş sərhədlər və təminatlı gələcək vermək əvəzinə, Sülh Konfransı ona nəzarət edən, məsləhət və təskinlik verən komissar göndərdi» (9: s. 339).

«...Erməni yalvarışlarına münasibətdə Müttəfiqlər daşürəklilik nümayiş etdirdilər. Döyüşən ölkə olmasına baxmayaraq Ermənistanı nə de-fakto dövlət kimi, nə də hökumət kimi tanınmadı. Ona Paris Sülh Konfransında formal yer verilməsindən də imtina olundu. Dünyanın əsas dövlətləri Türkiyə Ermənistanını işğal etməyə meyl göstərmədi və ya heç olmazsa bu işi görmək üçün erməni ordusunu tələb olunan kadr və silah-sursatla təmin etmədi» (9: s.339).

Hovannisyandan sitat gətirdikdən sonra Uimz yalançı erməni iddialarının təkzibini belə yekunlaşdırır: «Başqa sözlə desək, Paris Sülh Konfransında və sonrakı digər konfranslarda Müttəfiqlər erməni tələblərini öyrənir və əsası olmadığını aydınlaşdıraraq onların heç birini qəbul etmirdi...

***1948-ci ildən başlayaraq ictimai fikrin tələsi kimi irəli sürülmüş «genosid» planına əsasən 1915-ci ildə onlara dəymiş ziyanla əlaqədar olaraq ermənilərin iddialarını Müttəfiqlər bir də nəzərdən keçirmişlər (!!! – X.İ.). Müttəfiqlər bir də təhqiqat işləri aparmış və bu cür iddiaları əsassız saymışlar.*** Dünyanın ermənilər yaşayan ərazisində nə üçün sülhün olmamasının əsas səbəbi də ermənilərin ardıcıl surətdə odla oynamasıdır. Ermənistan hələ də aclıq çəkən, torpaqsız, cırtdan, sədəqə diləyən terrorçu ölkə olmaqda davam edir...» (11: s.148-150).

Növbəti bir ABŞ ekspertinin xatirələri də Bristolun, Yərrounun və b.-nın mövqeyi ilə səsləşir: ABŞ Gəmiçiliyi Şurasının İstanbuldakı nümayəndəsi Artur Tremen Çester "Nyu-York Tayms" dərgisinin 1929-cu il fevral sayında ermənilərin təhlükə törətdikləri bölgədən, özü də satqınlığa görə köçürüldüklərini bildirir (40: s.53-54)...

"Erməni genosidi" iddialarının müəllifləri və tərəfdarları tərəfindən uydurulmuş zərərçəkən erməni sayı haqda mülahizələri təkzib edən qaynaqlara və onların dəlillərinə də diqqət ayırmağa dəyər.

Rəhmətlik professor Sabir Əsədov belə qaynaqlardan bir neçə əhəmiyyətlisini nəzərə çarpdıraraq 1915-ci il hadisələri ilə bağlı olayları ifadə edən daha doğru statistikanı ortaya qoymuşdur. Onun söykəndiyi müəllif Gürün isə türk professoru Kamal Karpata istinadən 1893-cü ildən etibarən Osmanlıda əhalinin siyahıya alınma məsələsinə toxunaraq yazır: "Siyahıya alma zamanı hər kəs bir anket doldururdu, belə ki, sonralar o anketi göstərmədən vətəndaş heç bir iş görə bilmirdi, ona görə də siyahıya almanın nəticələri etibarlı sayılır. Siyahıya alma bütün vətəndaşların yaşayış yerlərinə baş çəkmək və sorğu aparmaqla keçirilirdi. Anketlərin doldurulması da yerli hakimiyyət nümayəndəsinin iştirakı ilə gerçəkləşirdi.

Qeyd etmək yerinə düşərdi ki, siyahıya alma materiallarının hazırlanması və nəşrinə rəhbərliklə 1892-ci ildə yaradılmış statistika idarəsi məşğul idi. Onun da rəhbəri mənşə etibarilə yəhudi olan Fəthi Frankonu 1897-1903-cü illərdə Şinabyan, sonra – 1908-ci ilədək amerikalı Rober əvəz etmişdi..."

Osmanlı İmperiyası təsisatlarının əhali haqqında rəsmi məlumatları (professor K.Karpat tərəfindən təqdim olunan) belədir.

***1893-cü il 1905-ci il 1914-cü il***

**Müsəlmanlar 12 587 137 15 508 753 15 044 846**
**Ermənilər (*qriqoryanlar*) 1 001 465 1 031 708 1 161 169**
**Ermənilər (*katoliklər*) – 89 040 67 838**

Beləliklə... 1914-cü ildə ermənilərin ümumi sayı **1229007** nəfərdən ibarət idi. Diqqətəlayiqdir ki, erməni patriarxlığı Berlin konqresinə 3 000 000 rəqəmini (*1878-ci ildə* –X.İ.) təqdim etdikdən sonra bu «rəqəmi» bir daha təkrarlamır və həmin göstəricini 1 780 000-ə endirir.

... Patriarxlığın statistikasını hətta patriarxlığın nümayəndəsi Vahan Varjapet də təkzib edir **(12: s.116-118)**.

Qərb qaynaqları 1 300 000-1 500 000 aralığında rəqəm verirlər. Onlar içərisində daha çox etibara layiqlisi Linç və xüsusi böyük tədqiqat işi aparmış Kuinetdir. Biz Kuinetin verdiyi rəqəmi qəbul edə bilərik, bir şərtlə ki, İstanbul erməniləri də daxil olunsun: **1500000**.

Türk qaynaqlarına görə, 1896-cı ildə erməni əhalisi 1 160 000 nəfər idi» **(13: s.208-210)**. Daha sonra professor Sabir Əsədov ehtimal olunan müəyyən xətaları nəzərə alıb, bu rəqəmi artıqlaması ilə götürərək 1 300 000-ə yaxın hesab edir.

Kuinetin verdiyi rəqəmlər də kilsə kitablarından alınmışdı. Əgər kilsə nümayəndəsi V.Varjapetin şəhadətini nəzərə alsaq (kilsənin bilərəkdən rəqəmləri artıq göstərməsi haqda – X.İ.), o zaman bu təhriflərin Kuinetin hesablamalarında özünü göstərməsi də qaçılmazdır. Həm də Kuinetin 1894-1896-cı illər qiyamına qədərki dövrü əhatə edən bu hesabatından sonra erməni müəlliflərinin özlərinin də etiraf etdiyi kimi, minlərlə erməni Osmanlı torpaqlarını tərk etmişdi.

Bütün bunlara əsasən də 1896-cı ildə Osmanlı ərazisində 1300000 nəfər ermənin yaşadığı aydın olur **(12: s.118-119; 13: s.210)**.

Türk alimlərinin araşdırmalarına görə, 1915-ci il köç hərəkatı zamanı adları qeyd olunan bir çox sayda ermənilərin adları, soyadları və sənədləri 1916-17-18-ci illərdə rəsmi şəkildə başqa-başqa yerlərdən: bir ölkədən digər ölkəyə gedən sərnişin gəmisinin qeydiyyat kitabından çıxmışdır. Yəni Osmanlıdan başqa ölkələrə gedən ermənilər də 1915-ci ilin ölüləri siyahısına salınmışdı **(45: s.9)...**

Bu fakt da bir daha göstərir ki, ermənilər öz yalanlarını şişirdib "kosmik səviyyə"yə çatdırmaq üçün nəinki bu dünyadakı diriləri, hətta o dünyadakı ölüləri də saxtakarlığa "çağırır".

«Erməni soyqırımı» iddialarının əsasında duran «arqumentləri» dərindən tədqiq edən türk alimləri Kamuran Gürün, Süleyman Qocabaş, amerikan alimləri (ər-arvad) Castin və Karolin Makkarti öncə o olayların soyqırımı olub-olmadığı sualını qoyurlar. Arxiv sənədlərinə əsaslanaraq onlar soyqırımı yox, müharibə, qırğınlar, qurbanlar və hər iki tərəfdən itkilər olduğunu sübut edirlər. *Sual olunur:* **Əgər türklər ermənilərdən 3 dəfə artıq itki veribsə, bu niyə türklərin yox, ermənilərin soyqırımı adlanmalıdır?!**

Köçürülməyə gəldikdə isə, ermənilər Rusiya ilə sərhəd bölgəsindən köçürülmüşlər, ancaq Türkiyənin qərbindəki – məsələn, İstanbul və İzmirdəki ermənilər köçürülməmişlər. Ancaq dünyanın müxtəlif nöqtələrindəki erməni «qaynaqlarına» (Tiflisdəki «Horizon», «Madriddəki – «Armeniya», Londondakı «Ararat», Nyu-Yorkdakı «Qotçnak» mətbu nəşrlərinə) istinad edən Arnold Toynbinin «Ermənilərə qarşı vəhşilik, xalqın məhv edilməsi» adı ilə nəşr olunmuş kitabında ermənilərin köçürülməsi xəritəsini göstərərkən İstanbul və İzmir də ora daxil edilmişdir. (Xatırladaq ki, həmin kitab «erməni məsələsi»nə həsr olunmuş «Mavi kitab» seriyasından ilk buraxılış kimi 1916-cı ildə «Vellinqton hauz» nəşrində çap edilmişdir. Adı çəkilən erməni nəşri Londondan başqa Paris, Madrid, İsveçrə, İtaliya, Almaniya, Hollandiya, Danimarka, İsveç və Rusiyada da yayınlanır. Məlumat üçün bildirək ki, təkcə 1916-cı ilin birinci yarısında «Vellinqton hauz»un 118 səhifəlik 3-cü hesabatında 282 adda kitab və kitabça çap edildiyi göstərilir) – **(12: s.61; 13: s.212-214)**.

Ciddi mənbələrdən birmənalı şəkildə anlaşılan bir məsələ də Avropada «diplomatların komediyası» adlanan "erməni məsələsi"ni sui-istifadə edən böyük



xristian dövlətlərinin anti-türk və imperialist siyasətidir. Hələ XIX əsrin 80-ci illərində böyük dövlətlərin qısqırtdığı amerikan missionerləri tərəfindən erməni gənclərinə xüsusi təlim keçilirdi (hər il 1 500-2 000 gənc erməni katolikliyi qəbul etmək şərti ilə Amerikaya aparılaraq öyrədildikdən sonra Türkiyəyə qaytarılırdı).

Avropa və Rusiyanın da ermənilərə verdiyi hərtərəfli dəstək barədə çox deyildiyindən burada o məsələyə çox vaxt ayırmağa lüzum görmürük...

Beləliklə, «Hnçak», «Daşnaksütyun», «Qamsaraqan» və b. təşkilatlar tərəfindən türklərə qarşı ardıcıl qiyamlar başladı. 1895-1896-cı illərdə Van üsyanı, Osmanlı bankına hücum, II Sasun üsyanı, Adana hadisələri... və nəhayət Rus Ordusunun tərəfində duraraq Türkiyə dövlətinə qarşı ermənilərin çıxışları yerli hökuməti müvafiq tədbirlər görməyə vadar elədi. Birinci belə bir tədbir Şərqi Anadoludan ermənilərin qismən köçürülməsi idi **(13: s.214)**.

ABŞ tədqiqatçısı, Luisvil Universitetinin tarix professoru, demoqraf Castin Makkarti və onun xanımı Karolin Makkarti də erməni-türk məsələlərində erməni saxtakarlarının yaratdıqları stereotipləri dağıdan bir çox gizlinləri açmışlar. Bu mövzuda nəşr etdirdikləri əsərləri, xüsusilə də «Türklər və ermənilər. Erməni məsələsi üzrə təlimat» adlı kitabla erməni iddialarının qaynaqlarına çılpaqlığı ilə aydınlıq gətirərək, hadisələrə obyektiv qiymət verərək, tarixin erməni saxtakarlarına «yox!» deyəcəyini, onların iddialarını qəti rədd edəcəyini, onların cavabını verəcəyini bildirmişlər **(14: s.5-6)**.

Eyni problemə olduqca səmərəli metodologiya ilə yanaşan türk müəllifi Kamuran Gürün aşağıdakı iki məqama aid təkzibiylə professional erməni saxtakarlarını və onlardan qaynaq kimi yararlanıb müxtəlif xristian sentimentalizmi ilə dolu əsərlər yazan ermənipərəst dünya müəllif və siyasi dairələrini məyus edir:

«Birincisi, Aram (bəzi qaynaqlarda: Aron, Aran) Antonyanın «Erməni soyqırımı şəhadətnaməsi» ilə bağlıdır. Mən Antonyan tərəfindən dəlil gətirilən sənədlərin etibarlılığına şübhə edirəm, xüsusən qeyd edək ki, ingilis araşdırmaçıları onlara məhəl qoymurlar. Artıq 1983-cü ildə «Erməni dosyası»nın işıq üzü görməsindən sonra «Ermənilərin Tələt Paşanın adına çıxdıqları teleqramların əsl məğzi (*məramı* – X.İ.)» tədqiqatı ortaya çıxdı, belə ki, bu araşdırmada bir çox alimlərin tədqiqatlarına əsaslanaraq Antonyanın «sübut» gətirdiyi sənədlərin özünün saxta olduğu isbat edildi.

İkincisi, guya Hitler tərəfindən yəhudilərin məhvi üçün nasist siyasətinə haqq qazandırmaq məqsədilə «söylənmiş» ifadəyə aiddir... Ermənilərin təsdiqinə görə, Hitler yəhudilərin fiziki məhvi ilə bağlı direktiv imzalayarkən guya ki belə deyib: «Ermənilərin Türkiyədə qırılmasını bu gün kim xatırlayır?» Daha artıq əminlik yaratmaq üçün «sənəd» də təqdim olunub, hansı ki, ora yuxarıda göstərdiyimiz sözlər də daxildir. Keçirilmiş ekspertiza nəticəsində aydınlaşdırılmışdır ki, yuxarıda xatırlanan yığıncağın Nürnberq Tribunalına təqdim olunmuş dörd protokolunun birində onu etibarlılıqdan məhrum edən dəyişiklik aparılmışdır. Həm də ki, bu saxtalaşdırılmış sənəd bir ingilis qəzetində dərc edilmiş və bu zaman aşkarca, beynəlxalq tribunalın materiallarına qoşmağa nail olmaq məqsədi daşımışdır» **(12: s.4-5)**.

*Sual olunur:* Əgər Osmanlı dövlətinin ermənilərin soyqırımı ilə bağlı əmri, sərəncamı və ya qeyri-rəsmi göstərişi, yaxud sadəcə niyyəti var idisə, nə üçün o zaman Osmanlı tabeçiliyində olan Suriya ərazisinə köçürülən 200 000 nəfər erməni sağ-salamat qalmışdı? Əksinə, onları Osmanlı hökuməti özü qoruyurdu. Əlbəttə, köçürülmə zamanı erməni kalonlarına (burada: *köç qatarı* –X.İ.) müxtəlif qəbilə və bandaların hücumu, xüsusən də, aclıq və xəstəlik səbəbilə ölənlər vardı. Ancaq bunun da məsuliyyəti haqda düşünənlər öncə bu məsuliyyəti köçürülmə zərurətini yaratmış, erməni xəyanətini təşkil və idarə edən siyasi və hərbi liderlərin üzərində sınasalar daha düzgün, daha ədalətli nəticə əldə etmiş olardılar.

Van üsyanından sonra 27 may 1915-ci ildə ermənilərin köçürülməsi haqda müvəqqəti qanun qəbul edildi. Və bu qanunun həyata keçirilməsi 1 ay sonra başladı. Bu aralıqda Osmanlı rəsmiləri ermənilərin mülk və həyatlarının qorunması, həmçinin müəyyən kateqoriyalı vətəndaşların, katoliklər də daxil olmaqla (hesab edilirdi onlardan təhlükə gəlmir) köçürülmədən azad olunması haqda göstərişləri mətbuatda dərc etdirirdilər. Məqsəd partizan hərəkatını – qiyamçıları yerli sakinlərin dəstəyindən məhrum etmək idi ki, bu tipik mübarizə üsulu qədimdən ta indiyədək zorən tətbiq edilməkdədir. Osmanlı dövləti əsrlərlə ictimai asayişi pozanları, o sıradan qiyamçı türkləri də belə müvəqqəti köçürməklə belə problemlərin həllinə nail olmuşdur. Hələ Bizans İmperiyası dövründə də ayrı-ayrı erməni qrupları zorla Bizansın başqa hissələrinə (əsasən batıya, Anadolunun içərilərinə) köçürülürdü **(15:** s. 1-3**)**.

1915-ci ilin mayında ermənilərə qarşı xeyli gecikmiş, ancaq sərt tədbirlərin görülməsi üçün aşırı dərəcədə hərbi-siyasi səbəblər var idi. Erməniləri köçürmə qaydalarına görə, onlar hərbi əməliyyatlar zonasından, dəmiryol zonaları və başqa strateji rayonlardan dərhal köçürülməli idi. Ermənilərin köçürüldüyü yeni bölgələrdə isə onların sayı həmin nahiyənin, rayonun ümumi əhalisinin sayının 10%-ni keçməməliydi. Ancaq ermənilərin Şərqi Anadolu bölgəsindən müvəqqəti köçürülməsi qərarından (27 may 1915-ci il) öncə ermənilərin bu bölgədə qiyamı (13 aprel 1915-ci il və b.), müsəlmanlara qarşı hücumları nəticələrində saysız-hesabsız yerli türk və kürd əhali də öz yurd-yuvalarından perik düşmüşdülər. Osmanlı hökumətinin «deportasiya» qərarı daha rəsmi görünsə də, ancaq rus və erməni dəstələrinin qırğınlarla həyata keçirdiyi deportasiya daha real, daha böyük miqyaslı idi. Başqa sözlə, Osmanlı hökumətinin həyata keçirdiyi müvəqqəti köçürmə əməliyyatı, erməni və rusların qırğın və soyğunçuluqla müşahidə olunan türk və kürdləri deportasiya etmə əməliyyatlarından təzyiq dərəcəsi etibarilə yumşaq sayılmalıdır.

Osmanlı hökuməti ermənilərin müvəqqəti köçürülməsini hərbi zərurətlə əsaslandıraraq rəsmi bəyan etmişdir.

Osmanlı hökuməti köçürülən erməniləri yerli müsəlman və kürd qaçaqların nifrətindən qorumaq məqsədilə ermənilərin müdafiəsi üçün qanunlar da vermiş... hətta ermənilərə qarşı cinayət hadisələri törətmiş 1000-dən artıq Osmanlı vətəndaşı cəzalarını almış, bəzilərinə ölüm hökmü belə kəsilmişdir **(13:** s.215-219**)**.

Y.H.Bayur da ermənilərin köçürülməsinin istər daxildə, istərsə də (xüsusən) xaricdə çoxlu müxtəlif yanaşmalar doğurduğunu qeyd edir. Erməni və yunan mətbuatında yazılanlar isə Amerika və Avropa ictimaiyyətinin reaksiyasına hesablanmışdı. Əlbəttə, problemi yaradan ermənilər olduğundan məsuliyyət də onların üzərində idi. (Ancaq burada hər bir erməninin günahkar olduğu nəzərdə tutulmur, təbii ki, istisnalar vardı...). Dövlətin özünün varlığı həll olunan məsələdə düşmən tərəfdən müharibədə iştirak etməyin dövlət qarşısında məsuliyyəti olmaya bilməzdi. Kilsələrdə gizlətdikləri silahları yerli erməni əhali Osmanlı Ordusuna qarşı savaşan erməni bandalarına ötürərkən türk hökuməti adekvat tədbir görməli idi **(16:** s.43**)**.

Bir daha köçürülən ermənilərin sayı məsələsinə qayıdaraq qeyd edək ki, 07.12.1916-cı il tarixində DİN-nin Osmanlı hökumətinə verdiyi məruzədə 702900 nəfər köçürüldüyü və bunun üçün 1915-ci ildə 25 mln, 1916-cı ilin oktyabrınadək 86 mln quruş xərcləndiyi, ilin axırınadək 150 mln quruşa ehtiyac olduğu bildirilir **(17:** s.15-22**)**.

Kamuran Gürün isə yazır ki, 1915-ci ildə 300000 rəqəmi göstərilirdi, hər il bu rəqəmi böyütdülər... tarix ölüləri ikinci belə çoxaltma halına rast gəlməyib **(12:** s.271**)**.

Əgər fərqli stasistik bilgilərə qalsa, köçürülənlərin sayını dəfələrlə kiçik (100 000 nəfər) göstərən qeyri-türk müəllif və qaynaqlar da var **( 41 –** *Bax:* **40:** s.50-51 **)** ...

Əlbəttə, müharibədə və o zamankı Türkiyəni saran yatalaq, ospa və s. xəstəliklər nəticəsində ölən erməniləri türk siyasətinin qurbanları sırasına aid etmək olmaz.



Çünki təkcə I Dünya Savaşı zamanı cəbhədə Türkiyə 550 min-600 min nəfər itki vermişdi. Bundan başqa 2 milyondan artıq Türk vətəndaşı isə xəstəlik və aclıq, həmçinin erməni və yunan bandalarının arxa cəbhədəki dinc əhaliyə hücumu nəticəsində həlak olmuşdu. İqlim dəyişimi və yol hadisələri nəticəsində ölən ermənilərin taleyində də Osmanlı hökuməti suçlu sayıla bilməz. Çünki ermənilər Osmanlıya düşman olan tərəflərin sırasında türklərə qarşı açıq-aşkarca vuruşdu, bu da Türk hökumətini son dərəcə qətiyyətli addımlar atmağa məcbur etdi **(12:** s.271-272**)**.

Erməni millətçilərinin və onların havadarlarının iddialarını tarixi dəlillərlə təkzib edən avstriyalı tarixçi-uzman, professor Erix Faygel İrəvan və Boston arxivlərini amaqda maraqlı olmayan erməni diasporunu tənqid hədəfinə çevirərək yazır: nədən 23-24 aprel 1915-ci ildə İstanbulda həbs edilmiş 235 nəfər erməni icma liderinin (çoxu Çankırı və Ayvasa, Ankaradan şimalda yerləşən, onların təhlükə təşkil edə bilməyəcəyi bölgələrə sürülmüşdür -E.F.) sayı günümüzdə şişirdilərək 2350 göstərilir? Hətta bu cür saxtakarlığa müasir şərhçilər, o sıradan *Hamburger Alendblatt* nəşrinin jurnalistləri və *Neue Zırcher (? –X.İ.) Nachrichten* nəşrinin jurnalistlərindən biri də qoşulmuşdur **(50:** s.88**)**.

Erix Faygel G.Morgentau, İ.Lepsius və A.Andonyanın nəşr etdiyi yazı və "sənəd"lərə inanaraq erməni mafiyasının toruna düşən Frans Verfelin "Musa dağında qırx gün" bədii əsərinə toxunaraq müəllifin istedad və zəhmətinin əsərin saxtakar "tarixi"liyi ucbatından haqsızların dəyirmanına su tökdüyünü təəssüflə qeyd edir **(50:** s.88-117**)**.

Erix Faygel həmçinin müəllifin özünün də "sudan duru olmadığı"nı diqqətə çatdıraraq bildirir: Frans Verfel gözəl başa düşürdü ki, onun bu əsəri vasitəsilə türklərə təzyiq edirlər **(50:** s.115-117**)**. "Musa dağında qırx gün" bədii əsərinin müəllifi şair Frans Verfeli anlamaq üçün onun mənşəyinə və ətrafına nəzər salmağı məsləhət görən Faygelin araşdırmalarından bu qənaətə gəlmək olur ki, 1880-ci ildə Praqada varlı yəhudi ailəsində doğulan Verfelin bu əsərdə təqdim olunan baxışları subyektiv faktorlardan qaynaqlanır və təhriflərlə, saxtakarlıqlarla doludur **(50:** s.100**)**...

***

Erməni iddialarına tarixi faktlarla aydınlıq gətirmək üçün yenidən 1915-ci il olaylarına, məcburi köçürülmədən öncəki tarixi şərtlərə nəzər salaq...

Van ələ keçirildikdən sonra 18 may 1915-ci ildə rus Çarının Bəyazid cəbhəsindəki rus qoşunlarının komandanına göndərdiyi teleqramda «Van əhalisinə (*ermənilərə – X.İ.*), göstərdikləri şücaətə görə minnətdarlıq» çatdırmaq xahiş olunurdu. Bu, Parisdə çıxan «Tempo» qəzetinin 13 avqust 1915-ci il sayındakı məqalənin mətləbi ilə də səsləşir: «Müharibənin əvvəlindən etibarən Aram (Manukyan –X.İ.) öz dinciliyini qurban verib, iş-gücünü ataraq, silah götürüb Vanda üsyana başçılıq elədi. İndi Rusiya bu vilayəti ələ keçirib. Müharibədə özlərini əla göstərən ermənilərə minnətdarlıq əlaməti olaraq Aramı qubernator təyin etdilər».

9 fevral 1916-cı il tarixli «Sole de Midi» nəşri isə bu haqda belə yazır: «Bizə çatan məlumata görə, müsyö Sazanov Dumada bildirib ki, Vanda Aram Manukyanın başçılığı ilə 10 min erməni bir ay ərzində türk ordusunun qarşısında müqavimət göstərib və hələ ruslar gəlib çıxanadək türkləri geri çəkilməyə vadar ediblər. 30 min erməni inqilabçıları Sasun dağlarında 9 aydır ki, ümidsiz mübarizə apararaq rus ordusunun və (*onlarla birgə Qafqazdan gələcək* –X.İ.) erməni könüllülərinin hissələrini gözləyirlər.

Kilikiyada minlərlə erməni ingilis-fransızların köməyini gözləyir» **(16:** s.38-42**)**. Sazanov özü də bildirir ki: «Ermənilər bu müharibədə ruslarla Osmanlı İmperiyasına qarşı vuruşur». Sevrdə bu faktı ermənilər özləri də təsdiq etdilər.

O dövrdə Türkiyə baş qərargahının rəisi general Bronsartın «Doyçe Alqemayne Tsaytunq» (4 iyul 1921-ci il tarixli) nəşrindəki qeydlərində də Türkiyədəki erməni üsyanlarının hazırlanması və maliyyələşdirilməsinin ruslar tərəfindən əvvəlcədən təşkili, Türkiyənin yüksək çinovniklərinə və hərbi xadimlərə qarşı sui-qəsdlərin planlaşdırılması qeyd olunur. Burada əli silah tutan bütün müsəlmanların Türk Ordusunda müharibəyə qoşulmasından istifadə edərək erməni yaraqlılarının dinc türk kəndlilərinə basqın edərək onları qətliama uğratması da təəssüflə bildirilir: «Ermənilərin mənə məlum olan vəhşilikləri türklərin ayağına yazılan amansızlığı çox üstələyir» **(18:** s.621**)**.

Aşkar türk əleyhdarı olan Hasse Arfa da o illərdə ermənilərin vəhşiliyini açıqca qeyd etmişdir: «1914-cü ildə türklərin Sarıqamış altındakı uğursuzluqlarından və türk ərazilərinin ruslar tərəfindən işğalından sonra Qafqaz və Türkiyə ermənilərindən təşkil olunmuş könüllü polklar ora qədəm basdılar. Bunlardan biri Andranik adlı bir qaniçənin komandanlığı altındaydı... Bu ermənilər kürdlər tərəfindən öldürülmüş həmvətənlərinin intiqamını alaraq görünməmiş vəhşiliklər törədirdilər. 1915-1918-ci illərdə Türkiyənin şərq vilayətlərində bunlar 600 min kürdü öldürmüşdülər» **(19:** s.25-26**)**.

Bir daha qurbanlar məsələsinə qayıdaraq bildirək ki, Toynbinin hesablamalarına görə, «Mavi kitab»da da göstərildiyi kimi, ölmüş ermənilərin sayı guya 600 min nəfər təşkil edirdi. Toynbinin adi qayda ilə apardığı hesablamaları biz daha əsaslı və dəqiq şəkildə apararaq, daha düzgün nəticə əldə edə bilərik.

Millətlər Liqasının yerdəyişmiş şəxslər üzrə komitəsi göstərir ki, I Dünya Savaşının gedişində Türkiyədən Rusiyaya 400 min-420 min nəfər erməni mühacirət etmişdir (*Fritof Nansenin hesabatı* –X.İ.). Burada müharibədən sonra Rusiyada yaşayan Türkiyə ermənilərinin sayı da nəzərə alınmışdır... 1921-ci il martın 16-da isə Rus-Türk müharibəsi Moskva müqaviləsi və Şərq cəbhəsinin ləğvi ilə bitdi...

1921-ci ildə İstanbul patriarxı bildirdi ki, Osmanlı İmperiyasının ərazisində o ildə (Sevr Müqaviləsinin imzalanmasına qədər) 685 min erməni vardı. (Buraya geri qayıdan qaçqınlar da aid idi.)

Beləliklə, Rusiyada yaşayanlar da daxil olmaqla Türkiyə ermənilərinin ümumi sayı 1045000 nəfərə çatır.

1914-cü ildə Türkiyədəki erməni əhalisinin sayı **1300000**-ə yaxın olduğu üçün bütün müharibə illəri ərzində ölən ermənilərin ümumi sayı **300 min** nəfəri aşmır **(12:** s.174-175; **13:** s.220-223**)**.

Erməni xalqının, o sıradan onun əsas yönətici partiyası olan «Daşnaksütyun»un Türkiyədəki qanlı hadisələrdə və məyusedici sonuclarda məsuliyyəti və rolu haqda konkret fakt və rəylərlə çıxış edən erməni müəlliflərindən biri, həm də «Daşnaksütyun»un ideoloqu və hakimiyyəti dövründə Ermənistanda Baş Nazir vəzifəsində çalışmış Hovannes Kaçaznunidir.

Kaçaznuni Erməni İnqilabçı Partiyası Daşnaksütyunun öz qurultayında qəbul etdiyi qərarın əksinə olaraq, nəinki könüllü drujinaların təşkilində, hətta onların Türkiyəyə qarşı hərbi əməliyyatlarında feal iştirak etdiyini, daşnakların kütlə əhval-ruhiyyəsi ilə zəhərləndiyini və fəlakətə aludə olduqlarını qeyd edir **(20:** s.10**)**.

O, həmçinin bir qədər əvvəllərə, 1905-1906-cı il hadisələrinə qayıdaraq o zaman da partiyadaşlarının erməni-müsəlman qırğınında hadisələrin arxasında getdiyini bildirir. H.Kaçaznuni demək istəyir ki, «Daşnaksütyun» müəlliflik və təşəbbüsçülük funksiyalarını itirərək başkəsən, qantökən, korazehin siyasi yaxıngörən (nadan) xmbapetlərin arxasınca gedərək onların yandaşına çevrilmişdir.

1914-cü ilin payızından erməni könüllü dəstələri türklərə qarşı silahlı çıxışlara başladı. Bu silahlı çıxışlar ermənilərin son bir qərinə ərzində hazırlandığı psixologiyanın təbii təzahürü idi **(20:** s.11**)**.



1914-cü ilin qışı və 1915-ci ilin ilk ayları Rusiya erməniləri, daşnaklar da həmçinin, canlanma və ümid dövrünü yaşayırdılar.

Rusiya erməniləri Müttəfiq Dövlətlərin Türkiyə üzərində qələbə çalacağına əsla şübhə etməyərək sonucda Türkiyənin parçalanacağını və yerli ermənilərin azad olacağını (yəni *azad dövlətə sahib olacağını* – X.İ.) düşünürdülər.

«Əsas olmadan... biz əmin idik ki, səylərimiz və köməyimiz bizə Ermənistan muxtariyyətini bəxş edəcək, hansı ki, bu (*muxtariyyət* – X.İ.) Türkiyədəki azad edilmiş erməni vilayətlərindən və Zaqafqaziya Ermənistanından ibarət olacaq».

«Biz erməni xalqının imkanlarını və bu məsələdə rusların rolunu şişirtmiş, düzgün qiymətləndirməmişdik» – deyə erməni ideoloqu 1915-ci il hadisələrində ermənilərin məsuliyyətini qeyd etmək cəsarətində bulunur **(20:** s.12**)**.

Türkiyə ermənilərinin faciəli taleyində erməni könüllü dəstələrinin (əslində: *bandalarının* –X.İ.) rolu məsələsində birmənalı rəy söyləməkdən çəkinən daşnak ideoloqu H.Kaçaznuni anoloji məsələni başqa cür qoyaraq, olduqca aydın bir şəkildə erməni siyasətçilərini ittiham edir: «Fakt faktlığında qalır, bu isə əsasdır ki, 10 illər əvvəl başladılmış türk hakimiyyətinə qarşı mübarizə Türkiyə ermənilərinin qovulmasına və məhv olmasına, Türkiyə Ermənistanın boşaldılmasına gətirib çıxardı» **(20:** s.13**)**.

Vandan, Alaşkertdən, Basendən yüz minlərlə erməninin Qafqaza qaçaraq, burada aclıq, lütlük, xəstəlik, qorxu içərisinldə olmasını xatırladan daşnak lider, sonra bu şəxslərdən bir qisminin Şirak və Ararat vadilərində – Rusiya ermənilərinin kandarında aclıq və xəstəlikdən öldüklərini yada salır.

İdeoloq bildirir ki, o vaxt «Qəzəblənmiş və qorxmuş bizlər günahkarlar axtarırdıq və ... rus hökumətinin timsalında bunu dərhal tapırdıq».

«Deyirdik ki, ruslar bizi aldatdılar və satdılar... Ruslar elə hərəkət etdilər ki, Ermənistan (*"Türkiyə Ermənistanı"* –X.İ.) (viran qalıb) boşalsın və sonra oraya kazakları yerləşdirsinlər. **Knyaz Lobanov – Rostovskinin hamıya məlum olan layihəsi – «Ermənisiz Ermənistan»** həyata keçirilirdi» **(20:** s.14**)**.

H.Kaçaznuni bildirir ki, artıq ermənilər anlayırdılar ki, «Türkiyə ermənilərini nəyin bahasına olur-olsun qorumaq rusların planına daxil deyilmiş **(20:** s.14**)**.

"Bir siyasi partiya kimi, unuduruq ki, bizim məsələ ruslar üçün maraq kəsb etmirdi və onlar bir hadisədə (halda) asanlıqla tərəddüdsüz şəkildə bizim meyitlərimizin üstündən keçəcəklər" **(20:** s.14-15**)**.

"Ruslar hücum etdikdə, biz əmin idik ki, onlar ermələri xilas etməyə gedirlər (*"erməniləri xilas etmək" dedikdə əksər erməni müəllifləri coğrafi məkan olan "Türkiyə Ermənistanı"nın azad dövlətə çevrilməsini nəzərdə tuturlar, əks halda ermənilər Türkiyədə nəinki həmişə azad olmuşlar, hətta böyük dövləti vəzifələrə yiyələndiklərini də aləm bilir* –X.İ.), ancaq (ruslar) geri çəkildikdə, deyirdik ki, bizi türklərə verib qırdırmaq üçün çəkilirlər.

Rusların satqınlığı üçün sübutlar axtarır və əlbəttə tapırdıq, 6 ay öncə rusların bizə xoşniyyətli münasibəti haqda mübahisəsiz dəlillər tapdığımız kimi.

Qəddar taleyə acı-acı şikayətlənmək və **bizim bədbəxtliyimizin səbəbini bizdən kənarda axtarmaq** bu bizim milli psixologiyamızın xarakterik cizgilərindən biridir, hansı ki, Daşnaksütyun partiyasından da yan keçməmişdi.

Rusların bizə münasibətdə alçaqcasına rəftar etmələri qənaətində sanki xüsusi təskinlik tamamlanırdı (sonra növbə fransızlara, bolşeviklərə -bir sözlə bütün dünyaya çatmalı idi)." – **(20:** s.15**)**.

Ermənilər Gürcüstana yaratdıqları problemlərin qarşılığında hələ gürcülərdən siyasi fayda da gözləyirdilər. Bax, xalis erməni məntiqi buna deyərlər!

1917-ci il Rusiyadakı Fevral İnqilabından sonrakı durumda gürcüləri iki cəbhə (erməni–rus və türk–azərbaycanlı) arasında manevr edərək hər iki cəbhəyə təzyiqdən

divident götürməkdə suçlayan daşnak lideri Kaçaznuni əslində Gürcüstanı o zamankı Osmanlı və Azərbaycan Xalq Cümhuriyyətinin müttəfiqi kimi qələmə verir **(20: s.18).**

Əslində gerçəklik tam mənası ilə belə deyildi: gürcülər türklərin Qafqaza gəlişini əngəlləmək üçün Almaniyanı dövrəyə buraxmış və ərazisində general fon Kressin komandanlığı altında olan alman hərbi kontingentini yerləşdirmişdi; üstəlik, Lenin Almaniyanı (Türkiyənin müttəfiqini) Brest-Litovsk sülhündən sonra separat sövdələşməyə cəlb etmiş və 1918-ci il avqustun 27-də öz aralarında gizli əlavə bənd imzalamışdılar. Türk Ordusunun Batum üzərindən, Gürcüstan ərazisi ilə (Batum-Tiflis dəmir yolu vasitəsilə) Qazağa, Gəncə istiqamətinə hərəkət etməsini əngəlləyən də məhz alman-bolşevik sövdələşmələri və Bakı neftindən 25% pay vədi idi. Nəticədə almanlarla gürcülər Bakı və onun ətraf qəzalarını soyqırımı və işğaldan xilas etməyə tələsən Qafqaz (Türk) İslam Ordusunu Batumdan keçməyə qoymadılar və Türk qüvvələrinin yardıma gələn hissələrinin də *(bir və ya bir neçə qədəmə –X.İ.)* Dağ Borçalının Gürcüstana aid olan hissəsindəki Qora (Qaşqatala) və Sakir (Mədən) yunan kəndləri yörəsində-qorxunc dağ çayı üzərindəki körpü ətrafında erməni-gürcü hərbi birləşmələri tərəfindən tələyə salınmasına cəhd edildi. Dağ Borçalı azərbaycanlılarının yardımı sayəsində Türk Ordusu bu qorxunc tələdən və Bakı şəhəri də erməni-rus-ingilis işğalından qurtuldu **( 21 ).** Ona görə bir çox həqiqətləri etiraf etməsinə baxmayaraq, Hovannes Kaçaznuninin bu məsələdəki mövqeyi az-çox ermənipərəstdir.

1918-ci ilin noyabrında, ümumi barışıqdan sonra Türkiyə və Almaniya qoşunları Qafqazı tərk etdilər. Noyabrın sonunda ingilis qoşunları Batumda qərar tutdular. Ermənilər ingilisləri və Antantanı özlərinin müttəfiqləri hesab etdiyindən bu dəyişikliklərdən çox şey gözləyirdilər. Ancaq Antantanın onlara verdiyi dəstəyi az sayan ermənilər müttəfiqləri haqda belə düşünürdülər: "Yenə səhv etdik. İngilislər heç bir fərq göstərmirdilər. Elə bil onlar bilmirdilər və ya unutmuşdular ki, biz onların müttəfiqiyik... Əlbəttə, biz ingilislərdən razı qalmadıq və qərara gəldik ki, onlar nankordur" **(20: s. 31)...** Bəli bələdir-bir müddət sonra Naxçıvanı və Qarsı işğal edərək ermənilərə bəxş edən ingilislər erməni gözündə yenə nankormuş!!! Ermənilərin digər haqsız ərazi iddialarına ən azı loyallıq göstərmiş, əslində önəmli tarixi məqamlarda onlara dəstək vermiş (Cənubi Azərbaycanda, Naxçıvanda, Qarsda, Zəngəzurda, Bakıda, Qarabağda və s.) ingilislər doğrudanmı, ermənilərə münasibətdə nankormuş!? Erməniləri silah-sursatla, pul-para ilə təmin edən və onlara hərbi qüvvə ilə dəstək verən ingilislər, başqa sözlə Antanta dövlətləri nankor imiş!.. Erməni meyarlarının naşükürlüyü, erməni tərəzisinin əyrilik dərəcəsi bu cür qiymətləndirmələrdə özünü lap qabarıq büruzə verir, elə deyilmi, əziz oxucu?! Hovannes Kaçaznuni daşnak bürosu adlandırdığı Ararat hökumətinin fəaliyyətinə tənqidi yanaşmasını davam edir: "Biz Azərbaycanla rəsmən müharibə vəziyyətində deyildik, ancaq faktiki olaraq onlarla Qarabağda vuruşurduq və Qazaxda tez-tez toqquşmalarımız olurdu. Ölkənin içərisində Ağbaba, Zod, Zəngibasar, Vedibasar, Şərur-Naxçıvan, Zəngəzur və s.-də yerli müsəlman əhali ilə bir sıra qanlı döyüşlərimiz gedirdi...

... Azərbaycanla az-çox məqbul **modus vivendi** *(münaqişə tərəfləri arasında müvəqqəti anlaşma –X.İ.)* tapa bilmədik, inzibati tədbirlərlə müsəlman rayonlarında qayda yarada bilmədik, silaha əl atmağa, qoşunları hərəkətə gətirməyə, dağıntı və qırğınlar törətməyə məcbur olduq və bəzən bunda uğursuzluqlarla da qarşılaşdıq, hansı ki, bu da hakimiyyətin nüfuzuna, şübhəsiz, zərbə vururdu. Vedibasar, Şərur-Naxçıvan kimi vacib məntəqələrdə öz hakimiyyətimizi hətta silah gücünə də yarada bilmədik, məğlubiyyətə uğradıq və çəkildik." – **(20: s.33).**



**Ermənilərin ən təxribatçı aktlarından biri də 1919-cu ilin 28 mayında, müstəqilliyin 1-ci ildönümü "münasibətilə" Ermənistanı "Birləşmiş" Ermənistan elan etmələri idi.**

Bundan başqa, erməniləri Avropada, sülh konfransına getmiş yan-yana iki erməni heyəti (Ararat Respublikasının nümayəndələri və Türkiyə ermənilərinin Milli nümayəndəliyi) təmsil edirdi **(20: s.33-34).**

1 avqust 1919 -cu ildə, Ermənistanda seçkilərdən sonra ilk parlamentin açılışı oldu. "Biz başa düşmürdük ki, seçkilər açıqca sübut etmişdi ki, bizim xalqımız müstəqil siyasi həyat üçün hələ yetişməyib." – **(20: s.35).**

«1920-ci ilin payızında "oynanan" erməni-türk müharibəsi bizi birdəfəlik sındırdı»- deyə "Daşnaksütyun" lideri Qərbin təhriki və dəstəyi (maddi, texniki təminat və s. sarıdan) ilə Türkiyəyə hücum etmələrinin çox böyük yanlış olduğunu önə çəkir: "... qəflətən **Oltanı** işğal etməyimiz Türkiyəyə çağırış oldu. Elə göründü ki, biz özümüz savaşmaq istəyirik...

...Biz onların təkliflərini rədd etdik. BU, BÖYÜK CINAYƏT İDİ..."-deyə Kaçaznuni həmin vaxt Türkiyəyə savaş açmağı erməni-daşnak rəhbərliyi üçün tarixi cinayət kimi qiymətləndirir, həmin dövrdə danışıqlarla nəyə isə nail olmağın mümkünlüyündə israr edirdi **(20: s.37).** Həmin məsələyə Türkiyədəki tarixi qaynaqlardan ( Fahrettin M.Kirzioğlunun "Kars tarihi", müxtəlif müəlliflərin məqalələr toplusu: "Fikir, siyaset ve devlet adamı Kazım Karabekir Paşa paneli" və başqaları kimi) yanaşdıqda, erməni tərəfin itirib-qazanacağı mövzusunda Hovannes Kaçaznuninin haqlı olduğu şübhə doğurmur.

O, 1923-cü ildə "Daşnaksütyun"un qurultayındakı çıxışında hədsiz peşmanlıqla deyirdi: "İndi biz başa düşürük ki, 1920-ci ilin payızında türklərlə birbaşa Sevr sazişinin qiymətləndirilməsi əsasında müqaviləyə nail olsaq, çox şeyi udardıq." – **(20: s.38).**

"Müharibə bizim tam məğlubiyyətimizlə bitdi. Bizim tox, yaxşı silahlanmış və geyinmiş ordumuz vuruşmadı. Qoşun daim geri çəkilir, silahı tullayır və kəndlərə səpələnirdi.

Ordu daxili müharibələrdə pozğunlaşmışdı – məqsədsiz xarabaqoymalar və cəzasız soyğunçuluqlar səbəbindən" **(20: s.38)...**

Əlbəttə, erməni müəllif ad çəkməsə də, burada daşnak-erməni ordusunun məhz azərbaycanlı yaşayış məskənlərini alt-üst və qarət etməsi nəzərdə tutulur.

**Ən qəribə və təəccüblüsü isə 1919-cu ilin yazında Ermənistanın Parisdəki Sülh Konfransına təqdim etdiyi memorandumun iştah və iddia tutumu idi. Ermənilər Qara və Aralıq dənizləri arasında, Qarabağ dağlarından tutmuş Ərəbistan səhralarınadək "Böyük Ermənistan" dövlətinin layihəsini vermişdilər və onun həyata keçirilməsi tələbini qoyurdular.**

Bu bir siyasi-ruhi xəstənin nağılına bənzəyən beynəlxalq diplomatik sürpriz haqqında daşnak öndəri, ideoloqu, Ermənistanın Baş Naziri olmuş Hovannes Kaçaznuni özünütənqidi məruzəsində belə deyir:

"Bu imperialist tələbi necə həyata keçirmək olardı?..

...qəribə və inanılmazdır, ancaq ***erməni Parisi*** irəli sürmüşdü bu tələbi, bizim nümayəndələr isə müstəmləkələrdə hakim olan əhval-ruhiyyə ilə təsir altına düşmüşdü-belə hadisələr bizə yaxşı tanış idi.

Nümayəndələrə deyilmişdi ki, əgər onlar bu tələbləri qoymasalar, Türkiyə erməniləri (Milli nümayəndələrin şəxsində) öz məsələlərini "Ararat" Respublikasının məsələsindən ayıracaq və bizdən asılı olmayaraq böyük dövlətlərə müraciət edəcəklər. Bundan savayı, göstərilirdi ki, *Amerika kiçik Ermənistana mandatı qəbul etməyəcək, ancaq "dənizdən-dənizə" Ermənistana isə qəbul edər...*

***Paris memorandumu, xüsusən də müstəmləkələrdə, yetişməmiş qafaları ilhamlandırmışdı. Elə bil kağızdaca dövlətin sərhəddini çəkmək kifayət idi ki, ona malik olasan.***

*Faydasız və şişirdilmiş tələblər təbii ki, acı məyusluqla növbələnməli idi»* **(20:** s.43). Türkiyədəki "Erməni məsələsi"nin canvermə xronologiyasını davam etdirən daşnak lider sonsuz təəssüf hissi ilə əlavə edir:

**"Sevr müqaviləsi, hansı ki, Kilikiya, Xarbert və Sivas haqqında heç nə xatırlatmırdı... məyusluq və sadəcə şikayətlər doğurdu. Biz deyirdik ki, böyük dövlətlər ədalətsiz çıxdılar, bizi xidmətlərimizə görə qiymətləndirmədilər, mükafatlandırmadılar, bizim mübahisəsiz haqlarımızı ixtisar etdilər. Bir az keçmiş-yeni və daha böyük məyusluqlar... ABŞ Senatı Ermənistan üzərində mandat qəbul etmədi, o mandatı ki, biz ona çox ümidlər bağlamışdıq.**

**Vilsonun Ermənistan sərhədləri haqda layihəsi də bizi təmin etmədi...**

**...Türklər nə Vilsonun qərarını, nə bizim şikayətimizi və nə də Sevr müqaviləsini tanımaq istəmirdilər...**

**1922 -ci ildə Türkiyə ermənilərinin məsələsi can verməyə başladı.**

**Lozanna konfransında isə ilk dəfə rəsmi olaraq "home"** (burada: *ocaq*) **sözü tələffüz edilmiş və protokola salınmışdı. Sevr müqaviləsi tamamilə unudulmuşdu. Müstəqil Ermənistan haqqında heç bir söz yox idi, hətta muxtar vilayətlərdən də danışmırdılar, hansısa milli "home"-dan söz gedirdi, yad evdə şübhəli ocaqdan...**

**...*Home* tələbi Türkiyə üçün məcburi idi və *home* özü də Türk hakimiyyətindən asılı olmamalıydı.**

**Mart ayında məsələ bu cür qoyulmuşdu. İlin sonunda, Lozannada, iş başqa istiqamətə yönəldi. *Home* tələb kimi təklif edilmədi, bir dost məsləhəti və xahişi kimi türklərin xeyirxah diqqətinə təqdim olundu...**

**...Türklər... çox təəssüflə bildirdilər ki, ...xahişi qəbul etməməyə məcburdular. Müttəfiq dövlətlər ancaq ümidsizlik jesti etdilər. Onlar deyirdilər ki, biz bütün vasitələri tükətdik, bütün mümkün və qeyri-mümkünləri etdik, ancaq bədbəxt ermənilər üçün bundan artıq heç nə edə bilmərik və keçdilər... kuponlar məsələsinə.**

**Ancaq burada yol. Çiçerin** (*yoldaş Çiçerin* –X.İ.) **çıxış etdi və Sovet Rusiyası adından ürəyiaçıqlıqla Türkiyə ermənilərinin qalıqlarına Krımda, Volqa sahillərində və Sibirdə sığınacaq təklif verdi.**

**Dövlət *home*-a çevrildi. *Home* koloniyaya çevrildi... Sibirdə. Dağ siçan doğdu»** (20: s. 44-46)...

[O da maraqlıdır ki, bolşevik mənbələrin Ermənistanda hakimiyyətə gələn bolşevik hökumətin 2 dekabr 1920-ci il tarixli Aleksandropol sazişini tanımadığı haqda verdiyi bilgilərin əksinə olaraq (*təəssüf ki , Azərbaycan sovet akademik nəşrləri bu önəmli məsələlər haqda tamamilə susaraq, loyallıq nümayiş etdirmişlər* –X.İ.), *Hovannes Kaçaznuni Sovet Ermənistanının Aleksandropol sazişini imzalayaraq təsdiq etdiyini bildirir* –**(20:** s.57; **22:** s.85 ; **23:** s.216)]

Kaçaznuni olub-keçənləri dəfələrlə analiz edərək, sonda "Daşnaksütyun"a intihar təklifində bulunur!!! – **(20:** s.60)...

Firqədaşlarının təəccüb və tənələrindən çəkinməyərək, o:

– "Mən erməni vətənini və erməni xalqını sevirəm, –bu bədbəxt, sərt ölkəni və bu aydın olmayan, kirli, gizliniyyət, özünəvurğun və acgöz xalqı. Onu ləyaqətinə görə sevmirəm, ancaq – onun bütün qüsurvə yaraları ilə sevirəm" – deyərək öz xalqına münasibətini də bildirməyi unutmamışdı **(20:** s.68) ...

Zənnimcə, Kaçaznunini ən çox düşündürən və ağrıdan da məhz millətinin hesabına yazılan itki və məğlubiyyətlərdə öz millətinin və eləcə də onun liderlərinin–



daşnakların günah çəkisinin həlledici olması idi. Və bu günahların ağırlıq mərkəzi kimi də o, I Dünya Müharibəsi ərəfəsində və onun ilk gedişatında ermənilərin ədalətsiz, vicdansız, qaniçən, üsyançı-işğalçı ikili roluna diqqəti çəkir: «...Bu haqda (yəni *Türkiyədə "erməni məsələsi" və ermənilərin taleyi* haqda –X.İ.) biz 1914-cü ildə düşünməliydik, o zaman ki, biz könüllü dəstələr yaradırdıq; daha əvvəl, Daşnaksütyunun əsasını qoyarkən; ondan da əvvəl, **Raffinin** povestləri və **Qamar Katilin** (*erməni müəllifləri* –X.İ.) "azad mahnıları" ilə ruhlanan vaxtı düşünməliydik". » **(20:** s.73).

Kaçaznuni firqədaşlarına sual edərək soruşur ki, əgər yepiskop Mesrop, Al. Xatisov, doktor Zavriyev, S.Artyunov, Dro və Andronik olmasaydı, başqaları üzə çıxardımı və eyni işi görərdilərmi?

Başqa sözlə, 1915 -ci il erməni tələfatının və köçürülməsinin əsas səbəbini erməni lider Kaçaznuni 1) silahlı, qaniçən erməni çətələrinin yaradılmasında; 2) ermənilərin çoxillik siyasi istiqamətlərinin kökündən yanlış, xatalı, yalnız faciələr və uğursuzluq vəd edən yol olmasında görür **(20:** s.11) .

Buradan da aydın görünür ki, erməni tərəfi öz günahını çox gözəlcə başa düşür; sonda, yəni xəyanətin zirvə nöqtəsinə çatdığı zaman Osmanlı dövləti Doğu Anadoludakı erməniləri müvəqqəti köçürməklə ancaq özünümüdafiə hüququndan istifadə edib.

*Bolşevik S.Xanoyan adı çəkilən kitabı nəşrə hazırlayarkən yazdığı ön sözdə* ***Kaçaznuninin tarixi məruzəsini "Daşnaksütyun" partiyasına qarşı irəli sürülmüş ittiham aktı*** *adlandırmışdır* **(20:** s.4).

Bu günlərdə Türkiyəyə qarşı 1915-ci il (əslində 1915-1923) hadisələrinə görə ittiham tərəfi kimi çıxış edən daşnak tör-töküntülərinin babaları və özləri, dünyaca dolu sübutlara rəğmən hələ də dünya tərəfindən müttəhimlər cəbhəsində oturdulmadıqlarından, saxta dəlil, mülahizə və hay-həşirlərini işə keçirməkdə, dünya parlamentlərinin tarixçi-hakim rolunda bəyan etdiklərinə bab ümidlər yetişdirməkdədirlər.

Bu məqamda ilginc bir faktı da diqqətə çatdırmaq yerinə düşərdi. Politoloq Natiq Miri bildirib ki, ABŞ prezidenti Ronald Reyqan müşavirinə tapşırıbmış ki, "erməni soyqırımı" ilə bağlı araşdırıb, hesabat hazırlasın. Müşavirin hazırladığı həmin hesabatda göstərilib ki, 1915-ci ildə Osmanlıda yaşayan 500 min erməni köçürülüb, ermənilər tərəfindən isə 2 milyon türk qətlə yetirilib **(46:** s.8) . Bununla belə, ya bu arayışdan öncə, ya da sonra Ronald Reyqan 24 aprel çıxışında bu olaylar haqda "soyqırım" ifadəsi işlədib...

Ancaq bu gün nə o hesabat (arayış), nə də ondan qat-qat üstün hüquqi gücə malik Bristol sənədləri, o qəbildən olan başqa raporlar, bir çox obyektiv ABŞ tarixçilərinin tədqiqatları ABŞ və başqa böyük dövlətlərin yönəticilərinin rəsmi leksikonuna "yol tapa bilmir"...

***

*Bir qədər də Türkiyədəki ermənilərin 1915-ci ildəki müvəqqəti köçürülmə olaylarının vaxtında aldığı beynəlxalq hüquqi dəyərləndirmələrə diqqət edək.*

30 yanvar 1919-cu ildə Osmanlı dövlətinin Gənctürklər hakimiyyətinin önəmli xadimləri : nazirlər və deputatlar Hacı Adil, Hüseyn Cahid, d-r Tevfiq Rüştü, "İttifaq və Tərəqqi" Partiyasının katibi Midhət Şükrü, MK üzvləri Qara Kəmal, Ziya Göyalp, keçmiş Daxili İşlər naziri İcmayıl Canpolad, Qarasudan deputat və İzmir valisi Rəhmi bəy – cəmi 27 nəfər tutuqlanaraq qazamata salındılar ( **24:** s.1507; **12:** s.290).

27 aprel 1919-cu ildə Gənctürklərin öncülləri: müttəhim kürsüsündə oturmağa vadar edilmiş sədrəzəm Səid Xadim paşa, Məclis (parlament) sədri Xəlil Əhməd Nəsimi **(xarici işlər naziri),** İbrahim, Şükrü, Kamal, Kiçik Tələt, Püşkar Rza, Ziya Göyalp, Atif, İstanbulun komendantı Cavad bəy və qiyabi olaraq (iştirak etməyənlər): cənab Ənvər, cənab Camal , d-r Nazim , d-r Bahəddin Şakir , d-r Rüsuhi və keçmiş təhlükəsizlik rəisi Əziz bəy barədə məhkəmə prosesi başladı. Şikayət edilənlər: Ənvər, Camal və Tələt prosesdə sadəcə "cənab" adlandırılırdılar **(12:** s.290-291**).**

**Prosesin gedişində ingilislər onlar üçün maraq kəsb edən tutuqluları Malta adasına göndərdilər.**

16 mart 1920-ci ildə Maltaya yeni bir tutuqlu qrupu da göndərildi, beləliklə İstanbulun işğalından sonra ilin sonunadək adadakı türk məhkumların sayı 118-ə çatdı **(25; 12:** s.294**).**

Onlardan 55-i ermənilərin deportasiyası ilə bağlı cinayətlərdə (16 nəfər birbaşa cinayəti törətməkdə, 17 vəzifəli şəxs cinayətkar səhlənkarlıqda, 22 nəfər isə qırğınlarla bağlı şübhəli şəxs qismində) ittiham olunurdu **(26; 12:** s.294**)...**

Kamuran Gürünün yazdığı kimi, sual yaranmışdı: bu məhkumları kim və necə mühakimə edəcək? Ən uyğun görülən İngiltərə Krallıq prokuroru idi və 10 iyul 1919-cu ildə Londona bu haqda kağız da göndərdilər...

Krallıq prokurorunun təklifinə əsasən "deportasiya" ilə bağlı cinayətlər Sevr müqaviləsinə daxil edildi (*bənd*: 230). – ( **12:** s.295**).**

*Ancaq məsələ bununla bitmirdi: istər İngiltərə* Krallıq *prokuroruna, istərsə də uluslararası məhkəməyə mühakimə olunanların günahları barədə sübutlar tələb olunurdu. İngiltərə Krallıq prokuroru 8 fevral 1921-ci il tarixli məktubu ilə zəruri sənədlərin toplanıb ona təqdim edilməsini tələb etdi* ***( 27 )****.*

*İstanbuldan göndərilən kağızlar elan olunan ittihamlara cavab vermirdi. Çünki bu kağızlar agent* ***danos****ları (xəbərçilik, şeytançılıq, çuğul-X.İ.), şayiə və buna bənzər başqa "sübutlar" idi. İstanbul Yüksək Komissarlığı erməni və yunanların istənilən donosu ilə, sübutsuz-filansız kütləvi həbslər həyata keçirmişdi. Heç bir şahidin belə olmaması ittihamın əsassızlığına dair şübhələri artırırdı.*

*Krallıq prokuroru 29 iyul 1921-ci ildə bu məsələni diqqətə almağa məcbur oldu: "...Nə qədər ki, təqdim olunan sənədlər daha inandırıcı sübutlarla təsdiq olunmayıb, Krallıq Prokurorluğu sonuc əldə olunacağına əmin deyil"* ***( 28 )****.*

*İngiltərə son imkana əl ataraq, zəruri sənədlərin toplanmasına kömək üçün başqa ölkələrə (ABŞ, Fransa və b.-na) də müraciət etdi* ***(29; 30; 12:*** *s.296-297****).*** *13 iyul 1921-ci ildə Vaşinqtondakı İngilis böyükelçisi bu haqda öz ölkəsinə bildirirdi: "Təəssüf edirəm ki, Maltada saxlanan türklərə qarşı istifadə edilə biləcək heç nə tapılmayıb" –* ***( 31 )****.*

*Başqa sözlə, ingilislər hər vasitəyə əl atsalar da, ancaq heç nəyə nail ola bilmədilər. İş Maltada saxlanan türklərlə Anadoluda saxlanan hərbi əsirlərin dəyişdirilməsi ilə sona çatdı* ***(12:*** *s.297****).***

***Qeyd:***

*Bir qədər də bu dəyişdirilmənin tarixçəsinə toxunaq... Məncə, bu tarixçəni çox qolay şəkildə anladan iki tarixi sənədə diqqət etmək kifayətdir:*

*İngilislərin bir qrup (növbəti) türk vətənsevərini Maltaya sürgün etməyə hazırlaşması ilə bağlı Mustafa Kamal paşanın Kazım Qarabəkir paşaya göndərdiyi 22 yanvar 1920-ci il tarixli şifrəli teleqramında deyilir:* ***"15-ci Ordu Komandanlığına.*** *İngilislərin nazirləri və deputatları, hər şeydən öncə Rauf bəyi izləməsi halında Anadoludakı ingilis zabitlərini tutuqlamaq gərəkdir. Ərzurumda olan Raulinsonu*



*qorxutmamaq üçün xahiş edirəm ki, bütün hazırlıq işləri gizli aparılsın. Mustafa Kamal."*

*Martın 16-da İstanbul işğal olundu. O vaxt Raulinson Ərzurumda idi. Kazım Qarabəkir paşa Ərzurum dairə komandanına göndərdiyi məktubda yazırdı:* ***"Ərzurum dairə komandanına.*** *İngilislərin İstanbul hökumətinə münasibətdə güc qullanmasından qəzəblənmiş Ərzurum əhalisi ingilis komendantı Raulinsona qarşı arzuolunmaz hərəkətlərə əl ata bilərlər. Raulinsonun iqamətgahına zabit komandası altında bir dəstə göndərmək, onu və tabeçiliyindəki şəxsləri qoruma altına götürmək, silahlarını almaq, onları uyğun bir yerdə yerləşdirmək, saxlanılanların həyat və şərəflərinə saygı göstərmək tələb olunur. Kazım Qarabəkir."*

***Bu yazışmalardan sonra,*** *Raulinson qərargah heyəti ilə birgə həbs olunur...* ***Sonucda,*** *o və başqa ingilis hərbi əsirləri Maltada günahsız yerə sürgündə saxlanan türk siyasi məhbusları ilə dəyişdirilir... türk siyasi elitasına yapılan rəzalət ortadan qalxır* ***(12:*** *s.317-318****) ]...***

*Yeri gəlmişkən yada salaq ki, ingilislər Qafqaz hərəkatı nədəni ilə Nuru paşanı da İstanbula qayıdanadək izlətdirib Trabzon-İstanbul gəmisindən enən kimi Hərbiyyə Nəzarətinin polisləri tərəfindən tutuqlatdırmış, sonra Batuma götürərək orada İngilis hərbi divanında mühakimə etmiş* ***(34:*** *s.111-112;* ***33:*** *s.171-172****),*** *ona ölüm hökmü kəsərək Batum qalasına atmışdılar. Azərbaycan hökuməti Qafqazlarda qırğınların qarşısını aldığı üçün xalqın adından Nuru paşanın buraxılması xahişi ilə İngiltərə hökumətinə müraciət etsə də, İngiltərə yetkililəri imtina cavabı vermişdilər. İşi belə görən Batum bölgəsindəki bəzi qeyrətli azərbaycanlılar milli Azərbaycan hökumətinin kiçik maliyyə dəstəyi ilə bir qrup halında silahlanıb dustaqlar həyətdə gəzən vaxt Batum qalasına basqın edərək, silahlı atışma ilə Nuru paşanı qaladan çıxara bilmişdilər. Bu atışmada bizimkilər 1nəfər şəhid vermiş, 3 nəfər də ingilis həlak olmuşdu. Xatırladaq ki, Nuru paşanın Batum qalasından qaçırılmasına Təməl bəy adlı azərbaycanlı başçılıq edirdi* ***(34:*** *s.112-114* ***).***

*İngilislərin tutuqlayıb Batumda İngilis hərbi divanında mühakimə etdikləri (yarğıladıqları) komandanlar sırasında 5-ci firqə komandanı Mürsəl bəy, 12-ci firqə komandanı Ali Rıfat bəy də vardı. İstər Nuru paşa ilə, istərsə də bu komandanlarla, heç bir suç sahibi olmadıqları halda, ingilislər saygı ilə davranmamış, əksinə şəxsiyyətlərinə toxunacaq hərəkətlərə yol vermişdilər* ***( 33:*** *s.171-172****)...***

***

*Ermənilərlə ilgili maraqlı tərəflərin sübut, şahid tapa bilməməsi türklərin günahsız olduğunu qanıtlayır, erməniləri və onların havadarlarını çətin duruma salırdı. Maraqlı dövlətlərin istiqbaratlarının əlinə keçən hər yeni sənəd ermənilər üçün yeni bir peşmanlıq silləsi rolunu oynayırdı.*

*Belə sənədlərdən biri-Tələt paşanın sonralar ingilislərin də əlinə keçən (d-r Saləhi Sonyelin ingilis* ***arxivlərində çalışarkən bulduğu sənəd.*** *Orijinalının İngiltərə arxivlərindəki şifrəsi:* ***dosye seriyası: 371, sənəd № 9518 E. 5523)*** *ermənilərin müvəqqəti köçürülməsi barədə verdiyi gizli əmri bu cür yekunlaşırdı:* ***"Komitələrin fəaliyyətinə qadağa qoyan bu təlimat erməni-müsəlman qırğınlarına gətirib çıxaracaq hərəkətlərdən saqınmağı tövsiyyə edir."*** *Bu sənədə görə İngiltərə XİN-nin əməkdaşı D.Q.Osbornun xidməti qeydində də deyilir: "Təlimatın sonuncu maddəsi qırğınlara yol açan hərəkətlərin qarşısını almağa çağırır"* ***(32; 12: s. 297).***

***Tələt paşanın ermənilərin müvəqqəti köçürülməsi barədə verdiyi gizli əmrin ingilis rəsmiləri tərəfindən zamanında edilmiş, yuxarıda tanığı olduğumuz yorumu da bir daha "erməni soyqırımı" iddialarının erməni siyasətçiləri***

***tərəfindən uydurulmuş və imperiyaçıların işinə yarayan vicdansız bir hiylə "layihə"sindən başqa bir şey olmadığını sübut edir.***

*Ədəbiyyat:*


*1. İsrafil Məmmədov. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002.*
*2. Türkiye Diyanet Vakfı. İslam Ansiklopedisi, c.8., İstanbul, 1993.*
*3. Erhan Afyoncu. Tarihin pusulası. "Bugün" qazetesi, İstanbul, 18 mart 2007.*
*4. Qurko-Kryajin. Erməni məsələsi. Bakı, 1990.*
*5. Ananikyan B. Daşnaksütyunun ideya-siyasi iflası. İrəvan, 1979.*
*6. Mikaelyan Kr. İnqilabçının düşüncələri. Cenevrə.*
*7. Teleqrâmın mətni: Erm. MDTA, fond 200.*
*8. «Nor iği», İrəvan, 1929, №1.*
*9. Riçard G. Hovanisyan «The Republic of Armenia» (Volume I. Universiti of California, Los Angeles).*
*10. Woodrow Wilson–His Life and Work. Easton, Read and McKennan.*
*11. Səmyuel A. Uimz «Ermənistan: terrorçu xristian ölkənin gizlinləri. Bakı, 2004.*
*12. Кямуран Гюрюн. Армянское досьсе. Баку, 1993.*
*13. Сабир Асадов. Миф о «Великој Армении». Баку, 1999.*
*14. Castin, Karolin Makkartilər. «Türklər və ermənilər. Erməni məsələsi üzrə təlimat", 1989. – Bakı, 1996.*
*15. Zafer Özkan. Tarihsel akış içerisinde terördən politikaya ermeni meselesi. İstanbul, 2001.*
*16. Y.H.Bayur. Türk İnkilabı Tarihi, cilt ıı, kısım ııı....*
*17. E.Aknouni. Yes Plaies du Gaucase. Geneva,,,*
*18. Viconte de Coursons. La Rebellion Armenienne, son origine Sonbut., Paris.*
*19. H.Arfa. The kurds. London, 1968.*
*20. Ов. Качазнуни. Дашнакцутюн больше нечего делать. 1923. – Баку, 1990.*
*21. **Dağ Borçalılardan götürülmüş şahid materialı:** İsmayılov Mustafa Molla Süleyman oğlunun, İsmayılov Üzeyir Molla Süleyman oğlunun, Mütü Mustafazadənin (Molla Osman nəvəsi) ifadələri **(müəllifin arxivindən);** "Qafqaz İslam Ordusunun hərbi əməliyyatları" fəslinin ədəbiyyatı.*
*22. АСЕ, 10 ч-дə, 4-чү ч., Бакы, 1980.*
*23. БСЭ, в 30 –ти томах., II т., Москва, 1970.*
*24. C. Bayar. Ben de yazdım. Cilt 1. İstanbul,1965, s.1507 –Bax: Кəмуран Гəрəн. Армəнское досєсе. Баку, 1993, стр. 290.*
*25. (İngiltərə Xarici İşlər Nazirliyinin arxivi): FO. 371/6504/09697/CP. 3269. – (Bax: Кəмуран Гəрəн. Армəнское досєсе. Баку, 1993, стр. 294).*
*26. Ibid., 371/4175/X/M/08794/163689.*
*27. Ibid., 371/6499/9556/E. 1801.*
*28. Ibid.,371/6504/9697/E. 8745.*
*29. Ibid.,371/6503/9647/E. 6311.*
*30. Ibid., E. 6311/132/44 .*
*31. Ibid.,371/6504/9697/8519.*
*32. FO 371/4241/170751.*
*33. Kazım Karabekir. Soykırım yalanı. Ermeni mezalimi., (6-cı baskı), İstanbul, 2005.*
*34. Mehman Süleymanov. Nuru paşa., Bakı, 1999.*
*35. İsmayıl Vəliyev "Milli qarşıdurma və erməni problemi"- M. Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, 1998-ci il nəşrinə ön söz.*
*36. Osman Karabıyık. Türk-Ermeni münasibetlerinin dünü ve bu günü. İstanbul, 1984.*
*37. A.B.Karinyan. Ermeni Milliyetçi Akımları., İstanbul, 2007.*
*38. Sorgun Taylan. Bitmeyen Savaş (Halil Paşa)., İstanbul, 1997.*
*39. Nizamettin Onk. Kafkasyadan Anadoluya Iğdır tarihi., İstanbul, 2006.*
*40. Джумшуд Нуриев, Шабнам Нуриева. Тайны истории фальсификации., Баку, 2009.*
*41. Н. Сокольский. «Очерки о современный Турции»., Тифлис, 1923.*
*42. Б.А.Борян. Армения, международная дипломатия и СССР., 1928-1929, Москва, Ленинград.*
*43. Mehmet Perinçek. Ermeni Devlet Adamı B.A. Boryanın Gözüyle Türk-Ermeni Çatışması., 2.Basım, İstanbul, 2006.*
*44. Rusiya İctimai-Siyasi Tarix Dövlət Arxivi fond 5, siy. 2, dosya 92.*
*45. Tapdıq Qurbanlı. 24 aprel "erməni soyqırımı" cəfəngiyyatdan başqa bir şey deyil (prof. Nizami Cəfərovla müsahibə)., "Səs" qəz., Bakı, 24.04.2010.*





*46. Vüsalə Rüstəmova. ABŞ prezidenti "erməni soyqırımı"nın saxta olduğunu bilib., "Bizim Yol" qəz., Bakı, 24.04.2010.*
*47. Əli Kərimbəyli. "Erməni soyqırımı" hardan qaynaqlandı?! (III hissə)., "Davam" qəzeti, Bakı, 18.10.2011.*
48. İngilis casusunun etirafları. Mister Hemferin xatirələri., "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı, 2008, səh.11. –Bax: *Əli Kərimbəyli. "Erməni soyqırımı" hardan qaynaqlandı?! (II hissə)., "Davam" qəzeti, Bakı, 11.10.2011.*
*49. S.G.Pirumyan.Diasporadakı Taşnaklar. İstanbul,2007 (türkce) .–Tiflis, 1934 (ruscasından çevirme.)*
*50. Эрих Файгл. Армянская мифомания. 2007, (ISBN 3-85002-583-7 ab 1.1.2007: ISBN 978-3-85002-583-6; издана в Турции, всего 168 с.).*
*51. Michael A.Reynolds.Shattering Empires.,Cambridge University Press, 2011.*

***Əlavə ədəbiyyat:***

*1. Prof. Dr. Alparslan Işıklı. Said Nursi, Fethullah Gülen ve "Laik" sempatizanları., 7. bası, İstanbul, 2007.*
*2. Çengiz Özakıncı. Türkiyenin siyasi intiharı: Yeni Osmanlı tuzağı, 15.basım, İstanbul, 2008.*


***(Araşdırma "Ekspress" qəzetində (2010) ixtisarla yayınlanmışdır.)***

## *ERMƏNİLƏRİN "SOYQIRIMI", YOXSA MÜVƏQQƏTİ KÖÇÜRÜLMƏSİ ? – OSMANLI BƏLGƏLƏRİNDƏ*

### *Giriş*

*1015-1020-ci illərdə Səlcuq hökmdarı Alparslanın atası Çağrı bəyin Anadoluya düzənlədiyi kəşf əsasında Bizans İmperatorluğuna tabe olan ermənilərlə Malazgirt zəfərindən sonra Anadolunun sürətlə türkləşdirilməsi və islamlaşdırılması sonucunda ilk münasibətlər başlamışdır **(1: s.3).***

*Osmanlı dövlətinin zəifləyib çökməyə başladığı dönəmlərdə isə Avropa öz mənfəətləri üçün "Şərq məsələsi" deyə bir məsələni ortaya atmışdı ki, bunun tərkibində ermənilərlə bağlı planlar da vardı.*

*Nəhayət, 1789-cu il Fransız İnqilabından sonra avropalılar milliyyətçilik toxumları səpərək, Osmanlıya qarşı bu siyasətlərində uğur qazandılar.*

*Avropa dövlətləri, Osmanlıdan qopardığı tavizlər (ödənc, təzminat – X.İ.) sonucu iç işlərinə qolayca qarışmağa və xristian təbəəni ayağa qaldırmağa başladılar. Və bunların sonucunda baş verən 93-cü il hərbi Rusiyanın zəfəri ilə nəticələndi. Ayastefanos (San-Stefano –X.İ.) və Berlin Andlaşmalarından sonra Balkan xristianları bağımsızlıq qazandılar. Sıra Anadolu xristianlarının müstəqilliyinə gəlmişdi. İmperialist dövlətlər bu tarixi ərəfədə erməniləri seçdilər **(1: s. 3).***

*Rusiya erməni mövzusunu 1816-cı ildə Moskvada Erməni Şərq Dilləri İnstitutunu quraraq daha sistemli bir şəkildə ələ aldı **(1: s. 4).***

*1878-ci ildə Vanda Qara Xaç Cəmiyyəti quruldu. 1880-ci ildə Rusiya idarəsindəki Ermənistanda qurulan dərnəklər Anadolu ermənilərinə silah göndərməyə başlamışdılar **(1: s.4; 2: s.66).***

*Yurd dışındakı quruluşlar (təşkilatlar) Rusiya, İran, Avropa və Amerika şəhərlərində şöbələr açdıqları kimi Osmanlı içərisində də gizli şəkildə təşkilatlandılar. **Amerikan** (Nəşrdə səhvə yol verilib. Əslində **Armenakan** olmalıdır – X.İ.) Partiyası İstanbul, Trabzon, Muş və Bitlisdə (1: s. 63-64), Hnçak Partiyası da İstanbul, Bafra, Merzifon, Amasya, Tokat, Yozqat, Arapkir və Trabzonda şöbələr açdı **(1: s. 132).***

Daşnaksütyun isə İstanbul ilə Doğu Anadolu şəhərlərində təşkilatlandı (**1:** s.4).

İlk ciddi olaylar 1890-cı ildə meydana gəldi. Bu ilin haziran ayında Ərzurumda Anavətən Müdafiəçiləri Cəmiyyəti üzvlərinin və temmuzda İstanbulda (Qumqapıda) Hnçak Partiyası mənsublarının ermənileri ayağa qaldırması sonucu yaranan milli-siyasi partlayış yüz illərlə barış içərisində qardaş kimi yaşayan iki topluluğu qarşı-qarşıya gətirdi (**3:** s.458-464; **2:** s.140-144).

İki tərəfdən on iki adamın həlak olduğu olaylar, Avropa mətbuatında erməni qırğınları törədilmiş kimi yer aldı...

Ermənilər ölkənin bir çox yerlərində törətdikləri (bənzər) hadisələrdən başqa, Sasun, Van və Giritdə də üsyana qalxmışdılar.

Yabançı dövlətlərin onlara marağını "tükətməmək" üçün Daşnak və Hnçak komitələrinin 1896-cı ildə Vanda qaldırdıqları üsyanda 418 müsəlman və bunun qarşılığında 1715 erməni öldürülmüşdü (**1:** s.5).

İttihadçıların "İttihadı Anasır" uğrunda verdikləri tavizlər (bədəl-ödənc, təzminat – X.İ.) ermənilərin işinə yaradı. II Əbdülhəmidin silah idxalı qadağasını məşrutiyyət idarəsi aradan qaldırdığından ermənilər sürətlə silahlandılar. (Bunu ittihadçıların çox böyük və kobud səhvi hesab etmək olar! –X.İ.) İstanbulda "31 Mart Vaqiəsi"nin çıxmasının ertəsi günü Adanada ermənilər qətliama başladılar. Hadisə isə yenə də, hər zamankı kimi, Avropaya "Ermənilər öldürüldü!" nidaları ilə çatdırılırdı (**4:** s.373-374; **1:** s.5)...

***

### *Təhcirin (köçürülmənin) səbəbləri və alınan tədbirlər*

Osmanlı dövləti I Dünya Savaşına girdikdən sonra erməni komitələrinin düşmanla işbirliyi yapdığı və Anadoluda silsilə üsyanlar təşkil etdiyi xəbərləri alınınca, problemin sovuşacağı zənnilə kəskin tədbirlərə əl atmamışdı. Ancaq erməni zülmkarlığı getgedə artdıqca Daxili İşlər Naziri Tələt Paşa Ərzurum məbusu (deputatı –X.İ.) Vartkes Əfəndiyə ermənilərin düşmənlə iş birliyini davam etdirəcəkləri halda çox şiddətli tədbirlər görüləcəyi barədə xəbərdarlığını çatdırmışdı ( **5:** s.235-237 ).

Tələt Paşa eyni zamanda 1914-cü ilin dekabrında doğu vilayətlərə göndərdiyi gizli təlimatda olduqca böyük miqdarda olan və özəlliklə ermənilərin təhsili və öyrədilməsi ilə ilgilənən yabançı quruluş və məmurların hərb dövründə başqa bölgələrə göndərilmələrinin düşünüldüyünü də bildirmişdi ( **6** ).

... Nəhayət Osmanlı hökuməti tərəfindən Zeytun, Maraş və onun ətrafından bəzi zərərli ermənilər Konyaya sövq edildi. Fəqət burada da toplu halda bulunmaları, bir müddət sonra yerli ermənilərlə birləşib, təhlükə təşkil etmələri nəticəsində bundan sonrakıların Hələbin güney-doğusu ilə Zor və Urfa havalisinə (çevrəsinə) sövq edilmələrinə qərar verildi ( **7** ).

Tələt Paşa Zeytun ermənilərinin sakitləşməməsi qarşılığında 23 Nisan 1331 (6 may 1915) tarixində Maraş Mutasarrıfına (hakim, daire reisi –X.İ.) göndərdiyi gizli bir şifrə ilə Zeytunluların tamamilə xaric edilməsini əmr etdi ( **8** ).

Osmanlı dövləti ölüm-qalım savaşında olduğu bir dövrdə ermənilər cəbhədə və arxa cəbhədə düşmənlərin işinə yarayacaq fəaliyyətlər göstərirdilər. Artıq sezilirdi ki, ümumi, kütləvi bir üsyana hazırlaşırlar.

Bu durumla əlaqəli Başkomandanlıq 10 R. 1333 (25 fevral 1915 -ci il) tarixində ermənilərin çətələr qurduğuna, əsgərlikdən qaçaraq quldurluq etdiklərinə, yoxlamalar zamanı onlarda silahlar, bombalar tapıldığına və bütün bunların üsyana hazırlıq olduğuna şübhə etməyərək fövqəladə tədbirlər həyata keçirilməsini istəmişdi: Erməni



kişiləri səyyar orduda və silahlı xidmətlərdə qullanılmayacaq, komandanlar silahlı hücumlara qarşı duracaqlar, gərək isə örfi idarə (hərbi vəziyyət – X.İ.) elan edəcəklər, hər yanda sayıqlıq göstəriləcək, planlı hərəkat olmayan yerlərdə axtarış aparılmayacaq, dinc və sadiq əhaliyə zərər verilməyəcək (**9:** s. 185-186).

DİN-in 16 Ca. 1333 (1 aprel 1915-ci il) tarixli əmrilə erməni polis və məmurlarının uyğun bölgələrə və ya erməni olmayan vilayətlərə göndərilməsi buyuruldu ( **10; 11.**).

Osmanlı hökuməti səfərbərlik elanından doqquz ay ötənədək səbr etsə də, Van üsyanı baş verən kimi yaranın cərrahi əməliyyata ehtiyacı olduğu anlaşıldı: 9 C. 1333 (24 aprel 1915-ci il) tarixində vilayətlərə və mutasarrıflıqlara (sancaqlara) gizli bir **tamim** (*təlimat* –X.İ.) yollanaraq erməni komitə mərkəzlərinin qapadılması, sənədlərinin müsadirə edilməsi və komitə başçılarının tutulması istənilirdi ( **12** ).

Sonra keçici bir qanunla müsəlman olmayan vətəndaşlardan, xüsusilə də ermənilərdən silahların yığılması əmr olundu (**13; 1:** s .5-7).

Ancaq 2345 nəfər komitəçinin tutulması və b. tədbirlər də nəticə vermədi: Vanda üsyan davam edərək getdikcə şiddətlənir, digər bölgələrdəki ermənilər də üsyana qalxır, yolları kəsir və müsəlman kəndlərinə hücum çəkərək günahsız, dinc sakinləri qılıncdan keçirirdilər.

2 may 1915 -ci ildə Başkomandan Vəkili Ənvər Paşa Daxiliyyə Naziri Tələt Paşaya vəziyyətlə bağlı müraciət edərək öz mövqeyini açıqladı. Tələt Paşa isə təcili şəkildə köçürülmə tədbirlərini həyata keçirməyə başladı və 13 B. 1333 (27 may 1915 -ci il) tarixində Osmanlı Vəkillər Məclisində "Vakt-i seferde icraat-ı hükümete karşı gelenler için cihet-i askeriyyece ittihaz olunacaq tedabir hakkında kanun-i muvakkat" çıxarıldı və qüvvəyə mindi (**14; 15:** s.40; **2:** s.214; **1:** s.8; **59:** s.9).

Ardınca, 15 Rəcəb 1333-cü ildə (indiki təqvimlə: 30 may 1915-ci il –X.İ.) Məclisi-Vükəla tərəfindən "Düşmanla iş birliyi yapan, məsum xalqı qətl edən və üsyan çıxaran ermənilərin, hərb hərəkat alanlarından uzaqlaşdırılaraq Mosul, Zor, Hələb və Suriyənin bəzi bölgələrinə sövqləri üçün Daxiliyyə Nızarətinin 26 may 1915-ci il tarixli və 270 nömrəli təzkirəsi (*lahiyə* –X.İ.) üzərinə Məclisi-Vükəla da müvafiq qərar imzaladı.

Təhcir (köçürmə) doğrudan da cəbhələrin güvənini sarsıdacaq bölgələrdə: Qafqaz və İran cəbhəsinin gerisində yerləşən Ərzurum, Bitlis və Van bölgələri ( **16** ) ilə Sina cəbhəsi arxasındakı Mersin və İsgəndərun bölgələrində həyata keçirilmişdi. Sonra bu köçürmə üsyan çıxaran və erməni komitəçilərinə yataqlıq (*cinayəti gizlətmə, ört-basdır* – X.İ.) edən digər vilayətlərdəki ermənilərə də şamil olundu (**1:** s. 9).

Zeytun, Maraş və Haçin kimi problemli (sorunlu) yerlərdən Urfaya sövq edilən ermənilərin sonra burada da müşkül yaradacağına görə, köçürmə qərarından sonrakı erməni köçləri Hələb, Rakka, Zor, Kerek, Havran, Mosul, Diyarbəkir və Cizrəyə doğru istiqamətləndirildi. Xatırladaq ki, o zaman ermənilərin köçürüldükləri ərazilər də Osmanlı əraziləri idi və buna görə də köçürülən yerdə ermənilərin ümumi əhalinin 10%-indən çox təşkil etməməsi vacib tələb kimi qoyulmuşdu (**17; 1:** s. 9).

Köçürülmə şərtlərindən biri də köçürülən şəxslərin əmlak toxunulmazlığı idi ( **18** ). Bu tələbi təmin etmək üçün **"Emval-i Metrüke Komisyonu"** *(Tərk Edilmiş Mallar Komissiyası)* quruldu ( **19** ). Ermənilərin malları siyahıya alınaraq, bir nüsxəsi yerli kilsədə qorunacaq, bir nüsxəsi yerli yönətimə (idarəyə) veriləcək, bir nüsxəsi də komissiyada qalacaqdı. Xarab ola bilən əşya, var və heyvanlar açıq artırma ilə (yuxarı qiymətlə) satılacaq, parası qorunacaqdı. Qanunla bu köçürmələr müvəqqəti olduğundan ermənilər geri qayıdıncaya qədər həm komissiya, həm də məhəlli idarələr onların tərk olunmuş əmlak, mal və pullarına görə cavabdehlik daşıyırdılar (**1:** s. 8-9).

Sərt qış səbəbilə 17 M. 1334 (25 noyabr 1915-ci il) tarixindən etibarən köçürülmə müvəqqəti dayandırılmış, daha sonra isə bu tədbirə birdəfəlik son verilməsi-yəni ermənilərin köçürülməməsi qərara alınmışdır ( **20** ).

## OSMANLI DİN-NİN 24 APREL 1915-Cİ İL TARİXLİ GİZLİ TƏLİMATI








| بولى متصرفلغنه | ديار بكر ولايتنه | ادرنه ولايتنه |
|---|---|---|
| جانيك » | سوريه » | ارضروم » |
| چتالجه » | سيواس » | آطنه » |
| زور » | طربزون » | انقره » |
| عسير » | قسطمونى » | آيدين » |
| قره‌سى » | قونيه » | بتليس » |
| قدس شريف » | معمورة العزيز » | بصره » |
| قلعهٔ سلطانيه » | موصل » | بغداد » |
| منتشا » | وان » | بيروت » |
| تكه » | يمن » | حجاز » |
| قيصرى » | اورفه متصرفلغنه | حلب » |
| مدينهٔ منوره محافظلغنه | ازميت » | خداوندكار » |




DH.ŞFR, 52/96, 97, 98









MV, 198/24



I Dünya Savaşından sonra isə köçkün ermənilərin istədikləri halda geri dönmələri və mal-pullarını geri almaları, daşınmaz əmlaklarına yenidən sahib olmaları, qanunla və icraatla təmin edilmişdi (**1**: s. 12). Osmanlı dövlətlətinin ermənilərə və ermənilərin köç zamanı qayğılarına çoxlu pul-para xərcləməsinə baxmayaraq, bəzən kürd yaraqlılarının və başqa quldur dəstələrin hücumuna məruz qalma səbəbindən **( 21 )** və ya humma (qızdırma) və tif xəstəliklərinin yayılması sonucunda ölənlər də olmuşdu. Köçlər əsnasında qanun pozuntusuna yol vermiş vəzifəli şəxslər cəzalandırılmışdılar **( 22 )**.

Köçlərlə bağlı sui-istifadə hallarını təhqiq etmək üçün yerlərə (Şurayi Devlet Azası (*üyəsi, üzvü* –X.İ)) İsmayıl Hakkı Bəyin rəhbərliyi ilə komissiya heyəti göndərilmişdi **(23; 1**: s. 12-13**)**. Onu da bildirək ki, köçürülmə ermənilərin hamısına aid deyildi. Xəstə və atmalar (korlar), katolik **( 24 )** və protestantlar **( 25 )**; əsgər və ailələri **( 26 )**, məmur və tacirlər **( 27 )** və bəzi əmələ (*işçi, fəhlə* –X.İ.) və ustalar istisna idilər **(1**: s. 10**)**.

Ümumilikdə o dövr hadisələrinə daha dərindən nüfuz etmək üçün Osmanlı arxivlərindəki bəzi sənədləri diqqətinizə çatdırmaqda fayda görürəm:

–Qars və Ərdəhan civarında otuz min müsəlman kişinin öldürülməsi, evlərin yandırılması, qadın və cocuqların pərişan olması, Osmanlı ordusundakı ermənilərin qəsdən əsir düşərək sirləri ruslara ötürməsi; bu xüsusda ehtiyatlı davranılması... Osmanlı əsirlərilə qaydasında davranılması üçün İtaliya səfirliyinin nəzarəti ilə cəhdlər edildiyi haqda Xarici İşlər Nazirliyindən Daxili İşlər Nazirliyinə 6 mart 1915-ci il tarixli, şifrəli teleqraf **( 28; 1**: s. 20-21**)**;

–Düşmən tərəfdarı xristianlar və onlarla işbirliyi yapan müsəlmanların evlərində axtarış aparılması və Hərb Divanına verilmələri haqda DİN-dən 4-cü Ordu komandanlığına 23 may 1915-ci il tarixli şifrəli teleqram **(29; 1**: s. 34**)**;

–Sövq olunan ermənilərin yollarda qorunmaları, onlara saldıranların cəzalandırılmaları haqda Daxili İşlər Naziri Tələt Paşanın Ərzurum Vilayətinə göndərdiyi 14 iyun 1915-ci il tarixli, şifrəli teleqram **(30; 1**: s. 43**)**;

Eyni gündə və eyni mövzuda Tələt Paşanın Diyarbəkir, Məmurətül-əziz, Bitlis Vilayətlərinə də göndərdiyi teleqram: "Ərzurumdan ixrac olunan ermənilərdən beş yüz nəfərlik bir karvanın Ərzincan arasında kürdlər tərəfindən qətl edildiyi Ərzurum Vilayətindən isar (*bəlkə də qaynaqda texniki yanlışlığa yol verilmişdir: burada ərəbcədən alınmış "isar"dan daha çox, "isal" sözü yerinə düşür ki, o da verilmə, çatdırma, yetirmə mənasını verir; ancaq teleqramın orijinalı əski Osmanlıcada olduğu üçün və onu ayrıca tədqiq etmədiyimizdən qənaətimiz kəsin deyil*-X.İ.) olunmuşdur." Teleqramda Tələt Paşa tərəfindən, köçkünlərin yollarda qorunması və s. tələb olunur **(31; 1**: s. 44**)**;

–Köçürülən ermənilərin durumlarının təhqiqi ilə bağlı Tələt Paşanın Hələb Vilayətinə göndərdiyi 17 iyun 1915 tarixli, şifrəli teleqraf **(32; 1**: s.46-47**)**;

–Erməni cocuqlarının yetimxanalarda yerləşdirilməsi, bina məsələsini və cocuqların sayını müəyyənləşdirmək üçün Maarif Nazirinin Diyarbəkir, Adana, Trabzon, Sivas, Bitlis, Van və s. Vilayətlərə göndərdiyi 26 iyun 1915-ci il tarixli, şifrəli teleqram **(33; 1**: s. 50**)**;

–Katolik ermənilərin köçürülməməsi üçün Tələt Paşanın Ərzurum, Adana və s. Vilayətlərə və Urfa, Canik, Maraş Mutasarrıflıqlarına 4 avqust 1915 tarixli şifrəli teleqramı **(34; 1**: s. 72**)**;

– Ermənilərlə birgə rumların (yunanların) da köçürüldüyü halı ilə bağlı bilgi alındığını və bu xüsusda təhqiqat yapılmasını və məlumat verilməsini tələb edən teleqram. Bu şifrəli teleqram 9 avqust 1915-ci il tarixində Tələt Paşa tərəfindən Əskişəhər Mutasarrıflığına göndərilmişdir **(35; 1**: s. 74**)**;

–Erməni məbus (vəkil, millət vəkili) və ailələrinin ixrac edilməmələri üçün Tələt Paşanın müvafiq Vilayət və Mutasarrıflıqlara göndərdiyi 15 avqust 1915 -ci il tarixli, şifrəli teleqram **(36; 1**: s. 78**)**;

–Protestan *(protestant* –X.İ.) ermənilərin köçürülməməsi haqda 15 avqust 1915-ci ildə Tələt paşanın aidiyyatı vilayət və Mutasarrıflıqlara göndərdiyi şifrəli teleqraf **(37; 1:** s.77-78**)**;

–Məmurətül-əzizdə erməni çətələrinin jandarmlara saldırması və jandarmlarla çatışmaları haqda. ABŞ Məmurətül-əziz konsulunun ABŞ səfiri Henri Morqantauya göndərdiyi 23 avqust 1915 -ci il tarixli məktub. Məktubda "erməni məsələsi" ilə bağlı terrora qurşanmış Şedak Talumyan, Beqos de Beqosyanın, qətl edilən jandarm Məhmədin və başqalarının adı çəkilir, durum haqda geniş bilgi verilir (imzalayan: *Lesli de Vis, ABŞ şahbəndəri*) **(38; 1:** s. 88-89**)**;

–Xəstə və kor ermənilər və onların ailələrinin köçürülməməsi haqda DİN-dən Adana Vilayətinə göndərilmiş 15 sentyabr 1915 -ci il tarixli, şifrəli teleqraf **(39; 1:** s. 91-92**)**;

–Humma (qızdırma) və tifo (qarın yatalağı) xəstələrindən gündə Hamada 70-80 nəfər köçkünün ölməsi haqda xəbərlə bağlı mühacirlərin yerlərinə daha tez çatdırılması haqda Daxili İşlər naziri Tələt Paşanın Suriya Vilayətinə 17 oktyabr 1915 tarixli, şifrəli teleqramı **(40; 1:** s.107**)**;

–Yol məsrəfini özləri ödəyə bilən ermənilərin Hama, Humus və Şam tərəfə getmələrinə icazə verildiyi haqda Daxili İşlər naziri Tələt Paşanın Hələbdə Mühacirət Müdiri Şürkü bəyə 18 oktyabr 1915 tarixli şifrəli teleqramı **(41; 1:** s.108-109**)** ;

–Erməni sövqiyyatının (köçürülmələrinin) bundan sonra dayandırılması haqda Tələt Paşanın Vilayət və Sancaqlara göndərdiyi 27 oktyabr 1915-ci il tarixli şifrəli teleqramı **(42; 1:** s.117**)**;

–Urfadan Rakkaya göndərilən erməni köçü üzərindəki konvoyda uyğunsuz davranışlara yol verən bəzi Osmanlı jandarmlarının Hərb Divanına (Hərbi Məhkəməyə) verilmələrinə dair Tələt Paşanın Urfa Sancağına ünvanladığı 6 noyabr 1915-ci il tarixli, şifrəli teleqramı **(43; 1:** s.121-122**)**;

–Köçürülmələr dayansa da, ermənilərdən çətələr yaradan, təxribat törədən və hökumətdən qaçaq olan quldurlara sığınacaq verənlərin də köçürülməsi hallarının davam etməsi bəzi sənədlərdən görünür. Məsələn:

Konyadakı fitnə-fəsadçı və çətəçi ermənilərin Zor yaşayış məntəqəsinə sövq edilmələri haqda DİN tərəfindən 10 iyul 1916-cı il tarixlində Konya Vilayətinə göndərilmiş şifrəli teleqram **(44; 1:** s.149-150**)**;

21 May 1917-ci il tarixli Geyvə Qayməqamlığı İzmit Sancağına yollanmış məruzə. Məruzə Geyvə Qaimi Məqamı Vəkili Jandarm Bölük Komandanı Yüzbaşı Hüseyin Səbri tərəfindən hazırlanmışdır **(45; 1:** s.172-174**)** ;

–Növbəti, çox mühüm bəlgə isə Ermənilərin geri dönmələrinə icazə verildiyi haqdadır. "Savaş səbəbilə başqa yerlərə nəql edilən Rum (yunan) və Ermənilərin iaşə və yerləşmələrinin təmin edilərək əminlik içində geri dönmələrinə müsaidə edildiyinə dair DİN-dən bəzi Vilayət və hərbi briqadalara şifrəli teleqraf", 22 oktyabr 1918-ci il; Daxiliyyə Nazirliyi Aşayır (Köçəri Qəbilələr) və Mühacirlər Müdiriyyəti Ümumiyyəsi **(46; 1:** s.175-176**)**;

–Erməni və rumların geri dönüşlərinin asanlaşdırılması və ehtiyaclarının sağlanması (burada: təmini –X.İ.) haqda DİN Köçəri Qəbilələr və Mühacirlər Müdiriyyəti Ümumiyyəsi tərəfindən Vilayət və hərbi briqadalara göndərilən 5 noyabr 1918-ci il tarixli, şifrəli məktub **(47; 1:** s.180-181**)**;

–Köçürülmə zamanı suç işləyənlərin hərbi məhkəməyə verilməsi haqda Osmanlı Məclisinin qərarı (14 dekabr 1918-ci il) – **(48; 1:** s.189-191**)**;

–Suç işləyərək Yunanıstana və b. ölkələrə qaçmış rumların yenidən Osmanlı ölkəsinə qayıtmasının qadağan edilməsi haqda DİN-dən XİN-nə 3 yanvar 1919-cu il tarixli təzkirə **(49; 1:** s.192-194**)** və buna bənzər, ermənilərin və hətta müsəlman, qeyri-müsəlman, olmasına baxmayaraq fərarilik və b. suç səbəbindən mühacir olan şəxslərin



İxtilaf Dövlətlərinə aid nəqliyyat vasitələrilə yenidən Osmanlı məmləkətinə dönməyinə icazə verilməməsi də bəlgələrdə ifadə olunmuşdur.

–Sənədlərdən bəziləri də ermənilərə münasibətdə humanitar tədbirlər və dövlət nəzarəti haqqındadır. "Ermәni cocuqları haqqında yapılan muamele" sahibsiz erməni qız və oğlanları haqda məlumatlar: onların harada yaşaması, kilsəyəmi, qohumlarınamı və ya kiməsə təslim edilməsi, bəzilərinin hansısa maaşa evdə çalışması və s. haqda bilgilər də sənədləşdirilmişdir, arxivlərdə saxlanılır **(50; 1:** s.196-202**)**;

–Rum və ermənilərə yapılan yardımlar ( **51** ); Geri dönən rum və ermənilərin mallarının qaytarılması haqda ( 52 ) və bənzər tədbirlər barədə Osmanlı arxivlərində istənilən sayda bəlgə saxlanılır **(1: s.206-207, s. 208-209** və s.);

–Köçürülməyə məruz qalmış erməni və rumların bəzi vergilərdən müəyyən zaman kəsiyində azad edilməsi haqda sənəd (19 mart 1919-cu il, Daxiliyyə Naziri Cemal paşa) ***(53; 1:** s.232-233);*

–Daxili İşlər Nazirliyi Ümumi Əmniyyət Müdirliyinin Kayseri Sancağına göndərdiyi 31 yanvar 1919-cu il tarixli şifrəli teleqram isə "ERMƏNİLƏRİN TOPLUCA YER DƏYİŞDİRMƏLƏRİNƏ MEYDAN VERİLMƏMƏSİ" haqda xəbərdarlıqdır **(54; 1:** s.213).

Osmanlı arxivlərindəki sənədlərdən göründüyü kimi, Osmanlı dövləti erməni köçürmələrini bəlli bir qanun çərçivəsində və mümkün nəzarətlə həyata keçirmiş, problem ötüşən dövrdən sonra ermənilərin geri qayıtmalarına həm icazə vermiş, həm də hüquqi-maddi-mənəvi zəmin yaratmışdır. Bundan başqa, köçürülmə əsnasında ədalətsizliyə yol verən vəzifəli şəxslər, jandarmlar və başqaları dövlət tərəfindən cəzalandırılmışlar. [*Bax:* "TEHCİR SIRASINDA SUÇ İŞLEYENLERİN YARĞILANMASI" haqda arxiv sənədi-9 *Qasım (noyabr) 1919-ci il.* – **(55; 1:** s.249-250**)]**.

Diqqətçəkən ən mühüm məqamlardan biri isə Osmanlı dövlətinin köçürülmə əsnasında baş vermiş qanunsuzluqların araşdırılması və suçların müəyyən edilməsi məqsədi ilə yaratdığı komissiyaya bir neçə Avropa ölkəsinin (Hollandiya, Danimarka, İspaniya, İsveç və s.) hərəyə 2 hüquqşünas olmaqla üzv göndərməsi xahişinə rədd cavabı verilməsidir. [*Bax*: **"Soruşdurma komisyonları oluşdurulması təklifinin rədd edildiyinə dair Hollandiya, Danimarka, İspaniya və İsveç səfirliklərindən gələn notalara aid qeyd"**, *6 may 1919-cu il. – 56; 1: s.245 ]).*

[Maraqlıdır ki, ingilislər hətta hərbi senzuranın köməyi ilə Türk tərəfinin bu xahişinin teleqram vasitəsilə göndərilməsinə mane olmaq belə istəmiş ( **57** ), ancaq gecikmişdilər. O halda İngiltərə adi çəkilən olkələrin hökumətlərinə Türkiyəyə nümayəndə göndərməmək haqda xahişlə müraciət etmişdi **( 58 ) ...** Və yuxarıda da qeyd etdiyimiz kimi, sonucda Avropadan Osmanlı dövlətinin yaratdığı soruşdurma komissiyasına hüquqşünas göndərilməsi təklifinə imtina cavabı gəlmişdi.]

Bax, burada xoruzun quyruğu görükür! Necə olurdu ki, Avropalılar öz xristian, məhrəm erməni qardaşlarının hüquqları və taleyi ilə bağlı biganəlik göstərirdilər?! Ancaq təbii ki, bu biganəlik deyildi, sadəcə olaraq Osmanlı hökumətinin ermənilərlə bağlı qanuni tədbirlərinin hüquqi şəffaflığına şahidlik etmək həmin Avropa dövlətlərinə sərf etmirdi!

**Ədəbiyyat:**

1. Osmanlı Belgelerinde Ermeniler (1915-1920), Ankara, 1994.
2. Kamuran Gürün. Ermeni Dosyası. Ankara, 1983.
3. Esat Uras.Tarihte Ermeniler ve Ermeni meselesi. İstanbul, 1976.
4. İ.H. Danişmend, Kronoloji 4.
5. Ermeni Komitelerinin Amal və Harekatı İhtilaliyyesi.
6. BOA. DH. ŞFR, nr. 14/119.
7. BOA. DH. ŞFR, nr. 52/102.
8. BOA. DH. ŞFR, nr. 52/286.

9. Tarih Boyunca Ermeni Meselesi.
10. BOA. DH. ŞFR, nr. 51/192.
11. BOA. DH. ŞFR, nr. 52/249-52/285).
12. BOA. DH. ŞFR, nr. 52/96, 97, 98).
13.BOA. DH. ŞFR, nr. 52/188.
14.Meclis-i Vükela Mazbatası, 198/163;
15.Yusuf Hikmet Bayur. Türk İnkılabı Tarihi., Ankara, 1963, III/3.
16. BOA. DH. ŞFR, nr. 52/282, nr. 53/48, nr. 53/93, nr. 53/129, nr. 54/51, nr. 54/54.
17. BOA. DH. ŞFR, nr. 54/308; nr. 54/143.
18. ATBD, Aralık 1982, sayı 81, Belge 1832.
19. BOA. DH. ŞFR, nr. 54/226.
20.BOA. DH. ŞFR, nr. 57/135.
21. BOA. DH. ŞFR, nr. 57/71, nr. 57/51.
22. BOA. DH. ŞFR, nr. 57/309.
23. BOA. DH. ŞFR, nr. 58/38.
24. BOA. DH. ŞFR, nr. 54/55, nr. 54-A/252, nr. 52/292.
25. BOA. DH. ŞFR, nr. 55/20.
26. BOA. DH. ŞFR, nr. 55/18, nr. 55/292; nr. 58/2.
27. BOA. DH. ŞFR, nr. 53/295.
28. BOA. HR. HU. Kr. 122/6.
29. BOA. DH. ŞFR, nr. 53/85.
30. BOA. DH. ŞFR, nr. 54/10.
31. BOA. DH. ŞFR, nr. 54/9.
32. BOA. DH. ŞFR, nr. 54/54.
33. BOA. DH. ŞFR, nr. 54/150.
34. BOA. DH. ŞFR, nr. 54-A/252,
35. BOA. DH. ŞFR, nr. 54-A/328.
36. BOA. DH. ŞFR, nr. 55/19.
37. BOA. DH. ŞFR, nr. 55/20.
38. BOA. DH. EUM, 2. şb. 68/83.
39. BOA. DH. ŞFR, nr. 56/27.
40. BOA. DH. ŞFR, nr. 57/71.
41. BOA. DH. ŞFR, nr. 57/54.
42. BOA. DH. ŞFR, nr. 57/135.
43. BOA. DH. ŞFR, nr. 57/309.
44. BOA. DH. ŞFR, nr. 65/176.
45. BOA. DH. EUM, 2/227.
46. BOA. HR. MÜ, 43/34.
47. BOA. HR. MÜ, 43/34.
48. BOA. Meclis-i Vükelâ Mazbataları, 213/62.
49. BOA. HR. MÜ, 43/16.
50. BOA. HR. MÜ, 43/2-17.
51. BOA. DH. ŞFR, nr. 95/209.
52. BOA. DH. ŞFR, nr. 95/226.
53.BOA. DH. SYS, nr. 53/2.
54.BOA. DH. ŞFR, nr. 95/277.
55. BOA. DH. EUM, 5/27.
56. BOA. HR. MÜ, 43/17.
57. FO. 371/4172, X/M 09394-29498.
58. FO. 371/4173, X/M 08936-47913.
59. Armenians in Ottoman documents (1915-1920). Ankara, 1995.

***(Araşdırma "Ekspress" qəzetində (2010) yayınlanmışdır.)***





**Армянские федаины в Турции в 1915 г.**

*(Türkiyədəki "soyqırıma uğramış", "dinc", "məzlum" erməni vətəndaşlar –X.İ.)*

***

## Цари Великой Армении

**Династия Ервандидов**

Ерванд II (вторично) 333—331
Михран 331—до 317
(Неоптолем, сатрап) 323—321
Ерванд III до 317 —ок.260
Артавазд ок. 260 — ок.212
Ерванд IV ок. 212 —ок.200
*Разгром царства Селевкидами.*

*("Erməni" adını subar türklərindən mənimsəmiş "hay"ların iddialarına görə, bunlar "Böyük Ermənistan"ın erməni (hay) çarlarıdır. –X.İ.)*

***Qaynaq:*** **http://pravitelimira.ru/land/landa/armenia.php**

## "DÜSSELDORF RUS ORTODOKS METROPOLİTİ PAULOSUN MƏKTUB"UNDAN

*[Bu məktub Düsseldorfdа qərar tutan Rus Ortodoks Metropoliti Paulos tərəfindən 29 aprel 1986 tarixində ABŞ televiziyasında tarixi gerçəklərə zidd və tamamilə erməni yanlısı mövqeyindən yayınlanan proqrama etiraz bildirmək və məsələyə aydınlıq gətirmək məqsədilə 22 aprel 1986-cı il tarixində film yapımçısı WDR Qurumu Entandanına (**İntendan** –çox güman ki **intend** sözündən; burada: **planlayıcı, nəzərdə tutan** mənasında* –X.İ.) *göndərilmişdir.]*

"...1 – Aran Andonian adlı erməni bir yazarın 20-ci illərdə ortaya çıxardığı və guya Tələt Paşa tərəfindən göndərildiyi iddia edilən teleqrafların məzmununun tarixçilər tərəfindən incələnməsindən sonra, şəkil olaraq da saxta olduqları açıqca ortaya çıxmışdır. Tarixlərinə baxıldığı zaman, saxtakarların hicri və miladi tarixi bir-birinə çevirə bilmədikləri (*saxtakarlığı həyata keçirən zaman* –X.İ.) ortaya çıxmaqdadır. Bu teleqrafların orijinalları Berlin Davasında qəbul edilməmiş və qəbul edilən mətn də dəlil olaraq qəbul edilməmişdir.

I Dünya Savaşının qalibləri Osmanlı İmperatorluğunun yüksək rəhbərliyində olmuş bir neçə təmsilçisini Malatyaya (naşir səhv edir: "Malta" olmalıdır, Paulosun almanca yazdığı məktubun orijinalında da "Malta" göstərilib –X.İ.) sürgün edərək, suçu onların üzərinə yükləmək istəmişdir. Hələ o zamanlar Aran Andonianın təqdim etdiyi teleqramların saxta olduqları bilindiyindən, dəlil olaraq qəbul edilməmişdir.

2-Atatürkün "Osmanlı dövlətinin sorumluluğu altında olan erməni qətliamı"ndan bəhs edərək bir açıqlama yapmış olduğu da bir təhrifdir, hətta bunu erməni yazar James Taskıyan da 1982-ci ilin payızında Bostonda çıxan "The Armenian Review" adlı dərgidə təsdiqləmişdir.

3-Eyni şəkildə Hitlerin yapdığı iddia edilən açıqlama da tarixi təhrifdir. Hitler, belə açıqlama heç bir vaxt verməmişdir. Nürnberq Məhkəməsi bunu mənasız bir şey kimi dəyərləndirmişdir...

... 6 – İlk bəlgə (*guya, 18 fevral 1331-ci il tarixində verilmiş, soyqırımın əmr edildiyini isbatlayan bəlgə* –X.İ.) Aran Andonian tərəfindən fransızca olaraq çıxarılan kitabın 104 və 105-ci səhifələrində, eyni kitabın ingiliscəsində isə, səh. 52 və 53-də yayınlanmışdır. Guya orijinal olan bəlgələrin altında rütbə haqda qeyd yoxdur. Aran Andonian orijinalları qeyb etdiyini iddia etməkdədir. Osmanlıların rəsmi yazılarının isə "Allah adıyla" *(Bismillah = B.)* deyə başladığı tarixçilər tərəfindən bilinməkdədir.

Yapılan araşdırmalarda Aran Andonianın bəlgələrinin bir qeyri-müsəlman tərəfindən bacarıqsızcasına və yanlış bir şəkildə yazıldığı üzə çıxır. Bütün bunlar Andonianı saxtakarlıqda suçlamaq üçün bəsdir. Ancaq daha çox dəlillər də mövcuddur: Andonian ya rumi və miladi təqvimin fərqini bilməmiş və ya nəzərə almamışdır. Osmanlı dövründə 1917-ci ilədək yeni il 1 martda başlamaqda idi. Miladi təqvimə Cümhuriyyətin qurulmasından sonra, 1925-ci ildə keçilmişdir...



...7 – İkinci bəlgə isə, 25 mart 1331 tarixini daşımaqdadı... Heç bir Osmanlı məmur belə bir xəta yapmadığı kimi, yüksək rütbəli bir məmurun da, bu xətanı yapması mümkün deyil.

8 – Bəlgələrin altındakı imzalar da saxtadır (*farsca yayın, səh. 197*).

Hələb valisi Mustafa Abdülhaq bəyin imzası, Aran Andonianın kağızlarındakı imzalardan çox fərqlidir. Həm də, şifrə qeyd dəftərində və rəsmi qeyd arxivində bu tarixdə belə teleqraflar çəkildiyinə dair hər hansı bir qeyd mövcud deyil. Bir-iki yerdə saxta olan teleqraf üzərində eyni nömrələr qoyulmuşdur ki, bu da mümkünsüz bir işdir.

Tarixi qaynaqlara görə, ermənilər (təxminən 3000 nəfər) Kiprə Bizans dövründə, VI əsrin ikinci yarısında gətirilmişlər **(1:** s. 51**)**.

Amerikalı tarixçi, professor *Ronald C.Jennigs "Chistians and Muslims in Ottoman Cyprus and the Mediterranean World, (1571-1640)"* (New-York, 1993) adlı kitabında Kipr (Kibris) adasında müsəlman olmayan əhali sırasında ortodoks rumları, erməniləri, maronitləri (suryani), yəhudiləri göstərir. Deməli, Osmanlı dövründən Kıbrısda bir qədər də olsa, ermənilərin mövcudluğu şübhəsizdir **( 2 )**.

Tarixi bəlgələrdən anlaşılır ki, Kıbrısda Osmanlı zamanından yaşayan ermənilərin bir hissəsi də 1335-ci ildə Misir Məmlük Dövləti Kilikiya bölgəsini tutduğu vaxt Kıbrısa qaçan Kilikiya ermənilərdir **(3:** s. 9**)**.

Ermənilərin sonrakı qisimləri isə 1909-cu il Adana hadisələri ucbatından, habelə 1921-1922-ci illərdə fransızların Adana və ətrafını boşaltmaları səbəbilə (*yəqin ki, bunlar Osmanlı idarəsində daha yaşamaq istəməyən ermənilər idi* – X.İ.) İngilis müstəmləkəsi olan Kıbrısa toplum halda (təqribən 8000 nəfər) köçmüşlər. Maraqlıdır ki, Osmanlı dövlətindən ehtiyatlanıb Kıbrısa mühacirət edən ermənilər adada məhz türklər yaşayan səmtlərə yerləşmək istədiklərini bildirmişlər **(4:** s. 82**)...**

I Dünya Savaşı başlayanda İxtilaf Dövlətləri Kıbrıs ermənilərindən də az-çox yararlanmaq qərarına gəlmişdi. Bu məqsədlə Fransa və İngiltərə Kıbrısda erməni əsgəri qüvvələr yaradıb formalaşdırmış, Osmanlıya qarşı savaşda iştirak etmə hazırlıqları tamamlanaraq 2 Ekim (oktyabr) 1916-cı il tarixindən Boğaztəpə (Monarga), Dokuzevlər və Lefkoşada cəmi 3 kamp (düşərgə) fəaliyyətə başlamışdır **(3:** s. 41**)**.

Erməni elçisi Boqos (Poqos) Nübarın da qatıldığı, İngiltərə-Fransa arasında bağlanan Sykes-Picot andlaşmasına dayanaraq, Qahirə və Kıbrısda erməni könüllüləri albay Romiu və b. fransız komandanlar tərəfindən eyitim görürdülər. 1916-cı ilin noyabrından etibarən bu cür təlimlərə Kıbrısda qatılan ermənilərin sayı 3 000 nəfər göstərilir **(16:** s. 52-53**)**.

Kipr (Kıbrıs) türklərinin bu hərakata etiraz sərgiləyəcəyindən ehtiyatlanan fransızlar yerli türk öncüllərini müxtəlif bəhanələrlə tutuqlayıb Girnə Qalasına salaraq, həbsdə saxlamış, 1923-cü ilədək fransız və ingilislər türk toplumunu başsız qoymaq və səsini çıxara bilməyəcək bir duruma gətirmək üçün türklərin yeni liderlərini də üstəlik həbs edib, zaman qazanmaq istəmişlər **(5:** s. 63**)**.

Əvvəlcə hərəsi 200 nəfərlik 6 legion bölüyündən ibarət olan, sonra 5000 min nəfərə çatan erməni hərbi qüvvələri 1917-ci ildən etibarən ingilis generalı *Allenby*nin komandanlığı altında türklərə qarşı acı sonuclar verən savaşa qatılmışlar. Osmanlıda (Mersin, Dördyol və İsgəndərum bölgəsində) səfərbərlikdən qaçan və ya cinayət törətmiş ermənilərin bir qismi, fransızlar tərəfindən Musa Dağından və ingilislər tərəfindən Port Saiddən gətirilmiş ermənilər və Kıbrısdakı işçi (əsir) suriyalı, İraqlı ərəb və s. birgə türklərə qarşı qurulmuş bu hərb düşərgələrinə cəmləşdirilmişdilər.

O vaxtlar Kıbrıs ermənilərinə Anadoludan qaçaq düşən erməni liderləri, bəzi xristian nufuzlu şəxsiyyətləri və təşkilatları, yerli nüfuzlu rum təşkilatları və s. də aktiv dəstək verməkdəydi.

Rəsmi dəstəyin bir forması olaraq, Avropa və ABŞ-dan gələn yardımları masqalamaq üçün İngilis Yüksək Komissarlığı Kıbrısda "Hərb fondu" yaratmış və fonddan istifadə səlahiyyətini "Fransız Erməni Düşərgəsi" Komandanlığına vermişdir **(5:** s.73-75**)**.

Savaş zamanı əsir alınmış türklərin yerləşdirildiyi düşərgədə erməni və rus soylu həkimlərin xəstə və yaralı türklərə qarşı münasibətləri, davranışları dözülməz olmuşdu **(5:** s. 86**)**.



Onlara yönəlik yardım və qayğılardan öz təbii xislətlərinə uyğun olaraq "ərköyünləşən" erməni terror düşərgəsindəki erməni qudurğanları Trikomo adlanan bir rum kəndinə hücum çəkərək soyğunçuluğa çalışmış, hətta Krallığın Mühafizə Alayına məxsus bir ingilis əsgərini də öldürmüşlər. Bundan başqa rum yönətimindən yardım alan düşərgədəki erməni terrorçuları Kıbrısda türk kəndlərinə saldırmış, Karpaz bölgəsindən Mağusaya gedib-gələn türklərə yollrda təhlükə törətmiş, onları soymuş, peyğəmbər və dinlərinə sataşmış, türk əsir düşərgələrini daşlamış və s. azğınlıqlar törətmişlər.

20 Ekim (oktyabr) 1921-ci ildəki Ankara Andlaşmasından sonra, nəhayət, Fransa bayrağı altındakı erməni terror düşərgəsi bağlanmış, düşərgəylə bağlı səlahiyyət ingilis əsir düşərgəsi komandanı yarbay Motherwellə keçdikdən sonra, terrorçu ermənilər Kıbrısı tərk etmişlər **(5:** s. 91-93; **6:** s. 15-17; **4:** s. 83**)...**

Kıbrısda daimi məskunlaşmış ermənilərsə, əsasən Lefkoşada və bir hissəsi də Mağosa (qaynaq bu şəhərin adını bəzən *Mağusa*, bəzən də *Mağosa* yazır –X.İ.) ətrafındaydılar, çoxu ticarətlə və sənətkarlıqla məşğul idilər. Siyasətdə aktivlik göstərir və yerli imkanlı soydaşlarının maddi dəstəyindən yararlanırdılar **(4:** s. 82-84**)...**

Yeri gəlmişkən 1960-cı ildə Kıbrıs Cümhuriyyətinin rəsmən elan ediləcəyi zaman ermənilər rum toplumu ilə birləşmə variantını seçsələr də, sonra Türk tərəfi öz ərazisində yaşayan ermənilərin çıxmasını tələb etməmiş, ermənilər də türklərin bu münasibətini 1964-cü ildə qəzetçilərlə təmaslarında büruzə vermişlər **(7)**.

1960-1965-ci illərdə 1200 nəfər Sovetlər Birliyinə və müəyyən qədəri də başqa yerlərə köçərək, ümumi sayları 3000 düşmüş, ancaq Rum Camaat Məclisində deputat kürsüsünə malik olmuşlar **( 8:** s. 1-2 **)**.

Sonrakı dövrlərdə də ermənilər rumların siyasi təbliğatında aktiv şəkildə yer almışlar **(9)**.

Adadakı hadisələrin böhran dönəmində Türk kəsimində yaşayan ermənilər telsiz rabitə və telefonlarla rumlara məlumatlar çatdırmış, sınırdakı erməni kilsəsinin Rum kəsimində qalmasına yardımçı olmuşlar **( 10 )**.

Kıbrıs erməniləri kilsə üsulu ilə Livan ermənilərini Türkiyənin əleyhinə təşkilatlandırmış; 24 Aralıq (dekabr) 1964-cü ildə Kıbrıs Xarici İşlər naziri Kiprianosun vasitəsilə BMT Təhlükəsizlik Şurasında "erməni məsələsi"ni yenidən gündəmə çıxarmağa müvəffəq olmuşlar. Kiprianos 1915-ci il Köçürmə Qanunu ilə bağlı hadisələrin 50 illiyini qeyd edəcəklərini bildirərək, türklərə qarşı futbolsayağı erməni "pas"ına "pas"la cavab vermişdir.

Kıbrıs erməni katolikosu Makarios Həbəşistanın başkəndi Əddis-Əbəbədə İmperator Haile Seasienin iştirakı ilə olan toplantıda da Kıbrıs məsələsini Türkiyəyə qarşı qullanmış, onda ermənilərə də Türkiyədə muxtariyyət verilməsini istədiklərini bildirmişdir **(11:** s. 272-273**)**.

Kıbrıs ermənilərinin deputatı Berj Tilbianın başçılığı və Ermənilərin baş patriarxı Vazgenin əmri ilə, Rum Təmsilçilər Məclisinin Başçısı Glafkos Kliridesin himayəsi altında Kıbrıs erməniləri 24 Haziran (iyun) 1915-ci ildə Melkonyan İnstitutunda "soyqırım"ın 50 illiyini anmışlar **(12)**.

29 aprel 1982-ci ildə isə Kipr Rum Parlamenti "1965-ci ildə erməni xalqına qarşı soyqırım, Türk rejimi tərəfindən təşkil olunmuş şəkildə gerçəkləşdirilmişdir" – qənaətini bəyan etdi.

"BBC 6 Temmuz (iyul) 1987-ci il tarixində İsrail İstiqbarat Təşkilatının bilgisinə dayanaraq Kıbrısda, Trodos dağlarındakı düşərgələrdə, ASALA-ya mənsub erməni terrorçularının təlim gördüyü xəbərini yaymışdır. Xəbərdə, Güney Kıbrısdakı düşərgələrdə 700-ə yaxın erməni, kürd və kıbrıslı rum terrorçunun öyrədildiyi, ASALA-nın Suriyadakı bir neçə düşərgəsini Güney Kıbrısa daşıdığı, bu düşərgələrə

maddi dəstəyi təmin etmək məqsədi ilə Erməni Milli Hərəkatının Lefkoşanın Rum kəsimində, Afina və Tripolidə irtibat (xəbər) və bağlantı şöbələri qurduğu da bildirilir" **(4: s. 88).**

Kıbrıs Rum Yönətimi Ermənistan Respublikası ilə yüksək səviyyədə əlaqələrə malikdir və strateji tərəfdaşlıq etməkdədir.

"Yunanıstan hərbi məktəblərində çox sayda erməni zabitləri eyitilir və bu zabitlərə əsgəri təhsilləri öncəsində Güney Kıbrısda yunan dili öyrədilir" **( 13 )** .

Güney Kıbrısda ermənicə radio verilişləri yayınlanır və "Paros" dərgisi (həm də rumca) nəşr olunur **( 14 )** .

"Kıbrıslı rumların dəstəyi ilə adada Erməni Gizli Qurtuluş Ordusunun düşərgələri fəal durumdadır. 17 türk diplomatına sui-qəsd yaparaq öldürən bu terrorçu qurumun mindən çox terrorçu üzvü vardır" **(15: s. 29).**

Güney Kıbrıs parlamenti 25 aprel 2002-ci il tarixli toplantısında "Erməni soyqırımı"nı anma tədbiri təşkil etmiş, həmin parlamentdə erməniləri təmsil edən Petros Kalayciyan da hər bir erməni adından təşəkkürünü bildirmişdir.

Güney Kıbrısın bütün partiyaları da eyni mövqedən dayanaraq, 1915-ci il hadisələrində türkləri ittiham platformasından çıxış edirlər **(14)** .

Ermənilərin yüzillər boyu türklərə qarşı yapdığı soyqırımlar, yunanların 1919-1922-ci illərdə Anadoluda Türkiyəni işğal etməyə çalışması ilə bağlı tökdüyü türk qanı və rumlarla yunanlıların 1963-1974-cü illərdə Kıbrıs türklərini qətliama uğratmaları azmış kimi Yunanıstan-Güney Kipr-Ermənistan üçlüyünün yüksək siyasi, hərbi işbirliyində təbii ki, yenə də əsas məqsəd türklərə qarşı yüni fitnə-fəsadların, köhnə və təzə iddiaların planlanmasıdır.

Bunların yürütdüyü anti-türk, anti-islam siyasətin qarşılığında bəzi müsəlman ölkələri (Livan, Fələstin, Suriya) və o cümlədən, Ermənistan-Yunanıstan-İran siyasi üçlüyünə qatılmış **(17 )** cənub qonşumuzun mövqeyi təəssüf doğurur **(4: s. 88-90).**

**Ədəbiyyat:**


1. Окно в мир. Кипр., Москва, 1996.
2. Netice Yıldız. Kıbrıs ve Akdenizde Müslüman ve Gayrimüslimler. Tarih ve Toplum, Kasım 1994, sayı 131.
3. Belgelerde Ermeni Sorunu., Ankara, 1984.
4. Sadık Feridunoğlu. Bitmeyen ermeni sorunu. İstanbul, 2002.
5. Ulvi Keser. Kıbrıs 1914-1923, Fransız Ermeni kampları, İngiliz esir kampları və Atatürkçü Kıbrıs Türkü. Lefkoşa, 2000.
6. I Dünya Savaşında Kıbrısta gelişen olaylar. Lefkoşa, 1992.
7. Kıbrıs Türk İnsan Hakları Komitesi Bildirisi, 2 Temmuz 1969.
8. Kıbrıs Türk Enformasyon Merkezi, 17 Eylül 1965.
9. Special News Bulleten, 27 Nisan 1965, sayı 483.
10. Special News Bulleten, 31 Ocak 1964, sayı 36.
11. Veysel Eroğlu. Ermeni mezalimi. İstanbul, 1995.
12. CBC/1, Rumca yayın-saat: 07.30. 24.04.1965.
13. Volkan, 20 Şubat, 2002; Halkın Sesi, 24 Şubat, 2002.
14. AZG Armenian Daily, 26 Nisan, 2002.
15. Сабир Асадов, Исрафил Мамедов. Терроризм причина и следствие., Баку, 2001.
16. Zafer Özkan. Tarihsel Akış İçerisinde Terörden Politikaya Ermeni Meselesi. İstanbul, 2001.
17. AZG Armenian Daily, 12 Şubat, 2002.




## *GÜRCÜSTANDA ERMƏNİLƏRİN TÖRƏTDİYİ SOYQIRIM VƏ SALDIRILAR*

Tarixi bəlgələrə görə, 1890-1909-cu illərdə Osmanlı ərazisindəki Ərzurum, Kayseri, Yozqat, Çorum və b. yaşayış məskənlərində üsyan edən ermənilərin bir hissəsi öncə Qafqazda təlim aldıqdan və Osmanlıya keçərək fitnə-fəsad, üsyan törətdikdən sonra da geri qaçmış, bunların arxasınca da yerli ermənilər terror aksiyalarına keçmişlər **(1: s. 52).**

Daşnakların o zamankı hazırlığını təsəvvür etmək üçün bildirək ki, hələ 1892-ci ildən etibarən milli ordu qurmaq yolunda təcili tədbirlər görən erməni liderləri, artıq 1905-ci ildə, Qafqazdakı ilk açıq silahlı toqquşmalar zamanı 100000 nəfərlik etnik ordu yaratmağa nail olmuşdular **(2: s.18-19).** "Ermənilər hələ 1903-cü illərdə Batum limanında bomba partlatmış, bir neçə qatar qəzası, küçə qarışıqlıqları, getdikcə artan soyğunçuluq olayları, daha sonra isə bir neçə siyasi sui-qəsd gerçəkləşdirmişdilər" **(3: s. 122-123).**

Ermənilərin 1917-ci ilin dekabrından 1918-ci ilin 8/21 mayınadək Axalkələk bölgəsinin müsəlmanlarına necə qan uddurması haqda rus hərbi həkimi, memuarçı Xoroşşenko belə yazır: "Keçən il noyabrın sonunda Ağbabalı 8 müsəlman yerlilərdən ot almaq üçün Boqdanovka kəndinə gəldi. Bundan xəbərdar olan Xocabəy kəndinin erməniləri dərhal həmin səkkiz müsəlmanın ətrafını sararaq xəncərlə onların üzərinə hücum etdilər. Dördünü öldürərək, gözlərini oydular, dillərini kəsdilər. Nəhayət cəsədlərə çeşidli işgəncələr yapdıqdan sonra digər dördünü də silahla öldürüb cəsədlərini Ağbabalılara təslim etdilər. Xəncərlə öldürdükləri dörd cəsədi də yandırdılar.

1918-ci ilin yanvarında ermənilər islam kəndlərinə hücum etməyə başladılar. Əvvəl "Silahlarınızı bizə təhvil versəniz, sizə bir şey etmərik" deyə onları aldatmağa başladılar. Müsəlmanlar ermənilərin bu sözlərinə inanaraq silahlarını təslim etdilər. Ermənilər müsəlmanların silahlarını aldıqdan sonra bu kəndləri yandırıb-dağıtdılar: Tospiyə, Kokiyə, Zərivan, Tonokan, Kulilis, Pankana, Soqoma, Kuvasi, Alovezya və Gümris. Bu kəndlərin üzdə olan bütün qida və aşyalarını götürdülər. Kənd əhalisinin bir hissəsi dərhal öldürülərək, qalan qadın və kişilər əsir kimi Axalkələk qəsəbəsinə apardılar... Aclıq və çırkabdan əsir müsəlmanlar arasında tif (bröşnoy) [*qarın yatalağı* – X.İ.] xəstəliyi peyda oldu. Həkimlərin əsirləri zəruri qidalandırma və təmizliyə şərait yaradılması barədə müraciətini ermənilərin qəbul etməməsi müsəlmanların qırılmasına səbəb oldu. Kimsə bu müsəlmanlara yardım edə bilmədi" **(4; 5: s.149-150).**

Abastuman və Borcam bölgələrindəki hadisələr haqda rus zabiti Matoyev 17 aprel 1918-ci il tarixli məruzəsində deyir: "Ermənilər, əmrə və qaydalara uymayaraq bir neçə müsəlman kəndini yandırdılar, failləri (*suçluları* –X.İ.) bulunmadı. Abbastuman və Borcamdan teleqraf və telefon kəsildi. Bir tərəfə çıxmaq olmur. Kəndlər bizdən imdad istəyir, bizdə imdad yox" **(5: s. 42; 6.).**

Türk müəllifi Veysəl Eroğlu da "Ermeni mezalimi" kitabında (7: s. 200) qeyd edir ki, 1 may 1918-ci ildə Axalkələk çevrəsindəki Asaraça, Danqai, Mulanıç, Morcahit, Padiğna, Havur və Kumrus kəndləri ermənilər tərəfindən yandırılaraq, əhalisi də qılıncdan keçirilmişdir **(1: s. 53).**

Qafqaz respublikaları istiqlaliyyət elan etdikdən sonra, Borçalı, Qori bölgələrini və hətta Tiflisi "Böyük Ermənistan"ın bir hissəsi kimi "gördüklərindən" 1918-ci ilin yay və payızından Borçalıda məskunlaşmış ermənilər ayağa qalxdılar: buradakı Şulaver erməni kəndindəki silahlı çətələr azərbaycanlılar yaşayan İmir, Saraclı, Yuxarı Saral, Aşağı Saral və Gorarxı kəndlərinə hücum çəkərək, bu yaşayış məntəqələrini dağıdıb, talayıb, yandırdılar **(8: s. 19).**

Ermənilərin bu cür fəaliyyətlərinin şahidi olan ingilis qəzetçisi Scotland-Lidel 30 yanvar 1919-cu il tarixində Tiflisdə dərc olunmuş məqaləsində tam haqlıydı: "Daşnak

üçün öldürülmüş erməni daha əzizdir. Ermənilərin ölüsü qalxıb deyir ki, mən özüm ölməmişəm, məni öldürmüşlər" (**9:** s. 41).

Ermənistan-Gürcüstan savaşında ermənilər Tiflisə yaxınlaşmışdılar, bununla belə 1920-ci ilin payızında Kazım Qarabəkir paşanın daşnakları öz "köhnə" mövqelərini oturtmaq üçün əks-hücuma keçdiyi zaman ermənilər gürcülərdən yanacaq yardımı istəmişdilər.

Xoroşşenko sonra qeyd edir ki, 1918-ci ilin rumi təqvimlə 8 (miladi 21) mayında Türk ordusu Karsak kəndinə ayaq basan kimi ermənilər qaçmağa başladılar. Qaçarkən də, əvvəlcə, yəni saat 5-də, əsir alıb düşərgədə saxladıqları müsəlmanları xəncərlə və tüfənglərlə öldürdükdən sonra, ölüləri yığdıqları evlərin damlarını da onların üzərlərinə yıxdılar. Bəzi cəsədləri də çuxurlara atdılar, üstlərinə kirəc tullayıb, qaz yağı töküb yandırdılar ( **4** ).

İndi də ermənilərin dezinformasiyası və təbliğatı nəticəsində yaranmış anti-türk atmosferinə münasibətdə gerçəkləri Kutais valisi Cuqaşvilidən eşidək: ««Türklər kəsirlər, öldürürlər» deyə şayiələr çıxır, mən sizə bəyan edirəm ki, bu doğru deyildir.

Türk hökuməti və türk əsgərləri öz işi ilə məşğul olanlara heç bir şey yapmaz və ilişməz. Mal və mülklərini də mühafizə edərək onlara yardım edər. Əhalinin yerlərinə gəlməsini, sahibsiz qalan evlərdəki əşyasına sahib olmasını və sahibsiz qalan evlərin zay (xarab) olmaqda olduğunu Türk Hökuməti bizə bildirir» ( **10** )...

Son alman taqımı Tiflisdən çəkilən kimi Ermənistan Gürcüstana ərazi iddiası ilə savaşa başladı.

Gürcüstanın "Versiya" qəzetində dərc olunan məqaləyə və 1918-ci ildə Qafqaz bölgəsində olan alman qüvvələrinin baş komandanı baron Kress Kresenştaynın "Mənim Qafqaz missiyam" adlı kitabındakı xatirələrinə əsasən isə məlum olur ki, 1918-ci ilin dekabrında ermənilər Borçalıdakı *Yekaterinfil* kəndi (Kresenştaynın təbirincə: *Katerinenfeld* – indiki **Bolnis(i)**) ərazisində 400-dək dinc alman əhalini də səbəbsizcə öldürmüş və kəndin qırağında bir quyuya basdıraraq gömmüşlər ( **11** ).


**Ədəbiyyat:**

1. Sadık Feridunoğlu. Bitmeyen Ermeni sorunu. İstanbul, 2002.
2. Дашнаки. Баку, 1990.
3. Cemal Anadol. Tarihin ışığında Ermeni dosyası. İstanbul, 2001.
4. Aksire (Aksigin) dairəsi müfəttişi dr. Xoraşşenkonun məruzəsinin əsli, rusca., Ankara Universitesi Türk İnkilap Tarihi Enstitüsü Arşivi, dosya 74, № 17571.
5. Azmi Süslü. Ruslara göre Ermenilerin Türklere yaptıkları mezalim, Ankara, 1987.
6. Matoyevin III Gürcü Piyada Firqəsi (Alayı) Komandanlığına yazmış olduğu məruzənin əsli: T.C. Genəlkurmay III. Ordu Mezalim Dosyası, numara: 28.
7. Veysel Eroğlu. Ermeni mezalimi. İstanbul, 1995.
8. Şurəddin Məmmədli. Paralanmış Borçalı. Bakı, 1995.
9. И. Мәммәдов, С. Әсәдов. Ермәнистан Азәрбајчанлылары вә онларын ачы талеји. Бакы, 1992.
10. Kutais valisi Cuqaşvilinin vilayət idarəsinə və b. yerlərə göndərdiyi teleqram, 1918-ci il aprelin sonları: T.C. Genelkurmay III. Ordu Mezalim Dosyası, 30 numaralı arşiv.
11. Nəriman Əliyev, Kərəm Məmmədov. "Bolnisidə alman soyqırımı"., "Ekspresş" qəzeti, Bakı, 15.05.2009.




## ERMƏNİLƏRİN TÜRK KİLSƏLƏRİNƏ İDDİALARINA DAİR

İran müəllifi Ustad Məhəmməd Hafizzadə araşdırmalar sonucunda bu qənaətə gəlmişdir ki, Azərbaycanın o tay, bu tay şəhərlərində kilsələr alban türklərinə məxsusdur: Əvvəllər Zərdüşt dininə qulluq edən albanlar xristianlıq mövcud olanda xristianlaşdılar və ŞƏRQƏ DOĞRU BAXAN KİLSƏLƏR İNŞA ETMƏYƏ BAŞLADILAR. Ancaq sonra islam dini zühür edəndə onlar kilsələri buraxaraq müsəlmançılığa üz tutdular (məscidlər tikdilər). Bu kilsələr türklər tərəfindən boşlandıqdan sonra, tədricən fürsəttələb ermənilər 200-300 il bundan öncə Qarabağın kəndlərində barmaqla sayıla biləcək dərəcədə az olan xristianların yaşadıqları kəndlərə gələn Fransa keşişlərinin (casus kimi onları burada tapdıqdan sonra) təlimatı ilə bu alban (türk) kilsələrin (yerli müsəlman hakimiyyətindən izn aldıqdan sonra) bərpası, təmiri və sonra onlardan yerli xristianların istifadəsi bəhanəsilə təməldən dəyişdirib Qərb kilsələrinə bənzətmək cəhdi baş tutmadı!

Ustad Məhəmməd Hafizzadə tarixi qaynaqlara söykənərək bildirir ki, Mocmbar (Cənubi Azərbaycanda erməni yaşayış məntəqəsi) ermənilərinin özlərinin yazdığına görə, bu bölgədəki ermənilərin ən qədim qəbirləri 210 il bundan öncəyə, yəni Nadir şah dövrünə aiddir. Ancaq professor Zəhtabi bu bölgədə aşkarladığı Mannai (yəni mannalılara-türklərə aid olan) qəbirlər, onun fikrincə-dünya alimlərinin də razılaşdığı kimi, 2300 il qədimliyə malikdir. Ancaq xaricdə (əsasən Qərbdə) buraxılan yeni kitablarda, bu qəbirləri öz qəbirləri kimi qələmə verirlər. (Xatırladaq ki, Cənubi Azərbaycandakı Mocmbar, Səhrun yaşayış məskənlərini də ermənilər Nadir şaha bir təsadüfdə xoş gələn bir erməni qızını ona peşkəş etməklə əldə etmişlər). Şəmsi Təbrizinin "Ermənilər və müsəlmanların qətliamı" kitabında (səh. 16-da) yazdığı kimi, sonralar Mocmbar və Səhrun kəndlərində bir nəfər də müsəlman qalmadı. (O da Fransadan gəlmiş memarların buralardakı türk kilsələrini erməni kilsəsinə çevirən görkəm verilməsi üçün çox əlləşmələrini, ancaq bunun mümkün olmadığını bildirir.) Şəmsi Təbrizi ermənilərin qonşu müsəlman kəndlərini (Sar, Munur, Aluçə-Məlik, Ulu, Lari və s.) qılıncdan keçirdiyini, qadınlara və uşaqlara da rəhm etmədiklərini də yazır.

Müəllif anladır ki, tarixi baxımdan Azərbaycanda ermənilərin öz kilsələri moğollardan qabaqkı dövrə getmir: Hülaku buddaçı idi. Ancaq onun xanımı-Doquz xatun Krait sülaləsinin son padşahı Avang xanın qızı olmuşdur. Hülaku buddist, xanımı-xaçpərəst olduğu üçün də məmləkətdə xristianlar qol-qanad açdılar. Ermənilər xristianlıq şüarlarıyla bu dəfə hökmdarın xanımına yarınaraq Vartan adlı bir erməni Doquz xatunun özünə müşavir götürməsinə nail oldular. Moğolların hakimiyyəti altında olan İran, Azərbaycan, Türkiyə və b. islam dövlətlərində isavilər əl-ayaq açdılar. Hətta Suriya və Misirdə müsəlmanlarla savaşırdılar ki, Beytül-Müqəddəsi müsəlmanlardan azad etməyə kömək göstərsinlər. Məqsədləri Asiya və Afrikanın bu bölgələrindən müsəlmanları uzaqlaşdırmaq idi.

Hülakunun ölümündən sonra Doquz xatun təkcə erməni Vartanla məşvərət edirdi. Onun məsləhətilə Doquz xatun Hülakunun taxtına Abaqanı otuzdurdu. Ancaq bu dövrdə Qıpçaq çölü moğolları müsəlmançılığı qəbul etdiklərindən İran və s. bölgələrdə müsəlmanlara qarşı basqılar səngidi. Bundan sonra, ermənilər bir araya gələrək, Vartan vasitəsilə İsaq adında ermənini Bağdada vali təyin etdirdilər. Vali İsaq isə Disaysın əli ilə moğol Cuyni sülaləsindən Ətamülkü terrorla öldürtmək istəmişdi, ancaq plan baş tutmamış, həm də ifşa olunmuşdu. Nəhayət, məsələdən hali olan Abaqa İsaqı öldürtmüşdü.

Abaqa da buddist idi və atasının sağlığının son illərində Rum imperatoru ilə malik olduğu əlaqələri o da davam edərək, öz səltənətinin axırlarında Papaya məktub yazaraq məsih dinini qəbul etmək istəyini bildirmişdi (**1:** s.198; **2:** s.76-77, 374-376)...

Beytül-Müqəddəsdə vuruşan Avropa xristianlarına bu bölgədən dəstək ifadə etdikdən sonra, qərb və cənub- qərbdən təhlükə altında olan bu xristianlar məcbur olub Şərqə-Azərbaycana doğru gəlirlər ki, moğol hökmdarın himayəsi ilə bu bölgədə rahatlıq tapa, məskunlaşıb tədricən müsəlmanların torpaqlarını işğal edələr.

Vəziyyətlə əlaqədar üsyana qalxmış Xoy, Səlmas müsəlmanlarını Xarəzmşah hakimiyyəti ardıcıl qırmağa başladı (Doquz xatun dövründə)... və ermənilər də moğolların qoşunları içində Xoy və Səlmasa daxil olaraq orada yerləşib-möhkəmləndilər.

Hülaku xanın dövründə burada bütxana, xanımının şərəfinə kilsə tikilmişdi. Ermənilərə məxsus olan Arazın o tay-bu tayındakı kilsələr də məhz həmin dövrdə inşa edilib.

Hülakunun Qiytu Buqa adlı bir isavi komandanı isə Dəməşqi alanda məscidləri döndərib kilsə etmişdi (3: s. 79-84).

## Eçmiədzinə aparılmış "oğurluq tarix"



Ermənilər daim öz işğalçılıq hərəkətlərini başqalarının mədəniyyət abidələrini və başqa dəyərlərini mənimsəməklə "tamamlayırlar".

Nümunə üçün, indi Eçmiədzində saxlanan bu daş–abidə 13-cü əsrdə (Güney) Azərbaycanın Culfa məntəqəsindəki Qoca kəndindən oğurlanıb aparılıb. Və qədimdən mütəxəssislərə bəllidir; dünyanın müxtəlif tarixçiləri də təsdiq edirdilər ki, bu, azərbaycanlılara məxsusdur (3: s.194). Ancaq...

Ədəbiyyat:


1. Tarixi – moğol (farsca)...
2. Tarixi –Xoy, Mehdixan Ağasi, Təbriz, 1350 şəmsi (1971 miladi).
3. Ustad Məhəmməd Hafizzadə. Qarabağ. Qum, 2002 miladi, (farsca).




## Kiş kilsəsi-Müqəddəs Yelisey kilsəsi



**Qafqazda tikilmiş ilk xristian kilsəsi olan Şəki rayonundakı məşhur Kiş məbədi**

"...Bu barədə Alban salnaməçisi Moisey Kalankatuklunun əsərində kifayət qədər məlumat vardır. 1130-cu ildə Gəncə şəhərində anadan olmuş, 1184-cü ildən ömrünün sonunadək Xaçın knyazlarının yanında xidmət etmiş alban salnaməçisi Mxitar Qoş özünün məşhur "Alban salnaməsi" əsərində bu tarixi faktı bir daha təsdiq edərək yazır: "...Müqəddəs Yeliseydən müqəddəs Qriqorisə qədər 300 il keçmişdir". "Aqvan tarixi" salnaməsindən məlum olur ki, İsa peyğəmbərin şagirdi müqəddəs Faddeyin xristian dinini yaymaq məqsədilə Ermənistanda başlamaq istədiyi missionerlik fəaliyyəti faciə ilə nəticələnmiş, bütpərəst erməni çarı Sanatruk müqəddəs apostolu tutdurub qətlə yetirmişdir. Apostol Faddeyin şagirdi müqəddəs Yelisey Qüds şəhərinə qayıdıb apostolun şəhid olduğunu bildirir. İsa peyğəmbərin din qardaşı müqəddəs Yakov xristianlığı təbliğ etmək üçün müqəddəs Yeliseyi Albaniyaya göndərir. Çola vilayətində missionerlik etdikdən sonra ölkənin Uti vilayətinin Kiş kəndinə gələn müqəddəs Yelisey orada kilsə tikdirir. Yalnız Qafqaz Albaniyası ərazisində deyil, ümumiyyətlə,Qafqazda tikilmiş ilk xristian kilsəsi olan məşhur Kiş məbədi hazırda Şəki rayonunun Kiş kəndində yerləşir. Məbədin üzərində hazırda heç bir epiqrafik yazı olmasa da memarlıq-planlaşdırma xüsusiyyətləri, inşaat üslubu və texnologiyası abidənin alban memarlarının yaratdıqları qiymətli sənət əsəri olmasını sübut edir. Dəfələrlə bərpa və təmir edilmiş məbəd zəmanəmizə kifayət qədər yaxşı vəziyyətdə gəlib çatmışdır. Vaxtilə məbədin üzərində onun müqəddəs apostol Yelisey kilsəsi olduğunu və 1244-cü ildə alban kilsəsinin arxidiakonu Serafim tərəfindən yenidən qurulduğunu bildirən kitabə olmuşdur. XIX əsrin 30-cu illərində Zaqafqaziya Rusiyaya birləşdirildikdən sonra Sinodun qərarı ilə Alban kilsəsi rəsmən ləğv edildikdən və məbədləri erməni kilsəsinə tabe edildikdən sonra bir çox digər alban məbədləri kimi bu məbədin də kitabəsi təmiz pozulmuşdur."

Qaynaqlar:


1. Qafqaz Albaniyasının məbədləri. Vaqif Əsədov, Azərbaycan Tarix və Mədəniyyət Abidələrinin Mühafizə Cəmiyyəti sədrinin müavini. "Xalq qəzeti", Bakı , 25. 06. 2009, s. 7.
2. http://www.anl.az/

Tarixi qaynaqlara dayanan müəlliflər erməni xalqının tarix səhnəsində b.e.ə. VII əsrdə-assurilərin hücumu sonucunda çökən Urartu dövlətinin süqutundan sonra göründüklərini yazırlar.

Onların məskunlaşdığı ərazi Araz çayının dağ vadiləri idi, belə ki, bura da əvvəl assuri, sonra Midiya, daha sonra İranın Makedoniyalı İsgəndər tərəfindən fəthi nəticəsində yunan ərazisi oldu. İsgəndərin vəfatından sonra Selevkilərin hakimiyyətinə keçdi.

Bu bölgə yerli hökmdar Tiqran zamanında (b.e.ə. 95-66-cı illər) xarici şərait nəticəsində (qonşuları Mitridat və pers monarxının romalılarla toqquşmasından istifadə edərək) müvəqqəti, ötəri müstəqillik qazansa da, nəhayət Pompey tərəfindən yenilib müstəqil hakimiyyəti devrildi.

Xatırladaq ki, Tiqranın müasir anlamda erməniliyi də az ehtimala malikdir. Çünki b.e.ə. 400-cü ildə sonralar coğrafi anlamda Ermənistan adlanan bu ərazidən Ksenefon (Anabaz) keçən zaman oradakı əhali elamca, yəni Asiya dilində danışırdı **(1: s. 15).**

Erməni etnosu (bugünkü dili, fiziki tipi, dini ilə tanıdığımız) görünür, erkən orta əsrlərdə formalaşmışdır. "Ona görə də Tiqrandan "erməni monarxı" düzəltmək mifiklik dərəcəsi baxımdan Versinjetoriksdən (Qalliya sərkərdəsi) "fransız generalı" düzəltmək cəhdinə bənzəyir."

Zaman-zaman Sasanilərin, bizanslıların, sonra ərəblərin əsarətinə keçən Ermənistan, 885-ci ildə yəhudi mənşəli feodal Axad Baqratuninin hakimliyi ələ alması ilə Bağdadın vassallığına çevrildi. Yəhudi mənşəli Baqratuni ailəsi Abbasilərdən müstəqillik əldə edə bilsə də, nəticə Ermənistanın feodal parçalanması ilə yekunlaşdı.

**Anidə** (*Anı* –X.İ.) erməni abidələrinin yaranması da məhz bu dövrə təsadüf edir **(1: s.15-16).**

1045-ci ildə Baqratilər hökmdarlarından biri öz knyazlığını vasiliyevs Konstantin Monomaxa vəsiyyət etdi.

Hakimiyyətin Bizansa qaytarılmasından çox keçməmiş, 1071-ci ildə səlcuq türkləri rum vasilyevsi Diogeni yenərək, sonucda Anadolunu da ələ keçirdilər.

Qonşu dövlətlərin zəifləməsi dönəmində feodal münasibətləri və anarxiya ilə ürəksıxıcı hala gəlmiş Ermənistanın möhkəm olmayan "müstəqilliyi" təxminən 75 il sürdü **(1: s.17).**

J. de Malevilin araşdırmalarına görə o zaman Kiçik Ermənistan adlanan dövlət də mövcudmuş (*Kiçik Ermənistan da, yaqin ki, coğrafi məfhumdur* –X.İ.). Və bu dövlət XII əsrdə xaçlı yürüşləri girdabında yaradılmışdı, Kaysəri və Adana arasındakı dağıdılmış feodallıqların ərazilərini birləşdirirdi. Bu yerləri Bizanslılar erməni feodallarına Ermənistanın 1045-ci il anneksiyası əvəzinə kompensasiya kimi vermişdilər. Bunun nəticəsində erməni feodallarının, öz kəndliləri ilə birgə, Kilikiyaya imiqrasiyası (köçü) baş verdi.

Erməni knyazlığı (paytaxtı Sis olmaqla) Edes (Urfa), Antiox, Tripoli fransız knyazlıqlarına söykənirdi. Erməni knyazlığının "qızıl saatı" imperator Henrix VI Barbarossa tərəfindən knyaz II Leonun taclandırılması vaxtına təsadüf etdi **(1: s.17-18).**

Monqolların Anadoluya 1247-ci ildəki yürüşü zamanı Kiçik Ermənistan monqollara tabe olmaqla, həm də Suriyadakı fransız müstəmləkələşdirməsini dəstəkləyirdi.

Bu siyasət Hülaku xanın 1260-cı ildə məğlubiyyətindən sonra təbii ki, Kiçik Ermənistanın məmlüklər tərəfindən işğalına və dağılmasına gətirib çıxardı. Məmlüklərin ikinci yürüşü 1375 -ci ildə Sisin alınması, Kilikiyanın fəthi və çoxu erməni olan 40 min nəfərin Hələbə köçürülməsilə yekunlaşdı. Onlar indiki erməni əhalisinin Suriya və Fələstindəki nüvəsiydi. Kilikiyanın axırıncı hökmdarı IV Leon 1342 -ci ildə ölərkən



özünün təravətdən düşmüş məmləkətini Kiprin fransız şahzadələri Luzinianlara vəsiyyət etdi. Beləliklə, tarixin tanıdığı ikinci erməni təsisatı da yox oldu. "Osmanlı dövlətinin statistikasına əsasən, 1914 -cü ildə Adana əyalətində və Kaysəri, Maraş rayonlarında (bəzi yerlərdə, Zeytundakı kimi, yığcam şəkildə) 150000-dən bir qədər az erməni yaşayırdı. Ancaq buna görə ermənilərin "tarixi haqla" Kilikiyaya yiyələnməyə inad göstərməsi... Fələstin və Livanı flamand baronlarının nə vaxtsa tutduqları, Yerusəlimin hakimi olduqları və bu iki regionda indi də fransızca adlanan qalalar tikdikləri üçün Belçikanın bu ölkələrə dair (tarixi) haqqını müdafiə etməsi qədər absurddur **(1: s.18).**

Böyük Ermənistan adlanan coğrafi ərazi isə yenidən Bizans tərəfindən fəth olunduğundan 1045-ci ildə muxtarlığını itirmişdi. O zamandan bu ölkə siyasi müstəqilliyini, ölkə toplumu isə birliyini itirmiş, ermənilərin sonrakı bədbəxtliklərinin kökündə duran səbəblər də həmin birliyin itirilməsindən sonrakı proseslər sayəsində yaranmışdı.

Bizans, Səlcuq, Osmanlı vassallığından sonra, 1386-cı ildə isə Teymurilərin hakimiyyəti altına düşən Ermənistan 1450-ci ildə Ağqoyunlu türklərinin idarəsinə keçdi, ardınca 1473-cü ildə Səfəvilər bu ərazini öz ölkələrinə birləşdirdilər **(1: s. 18-19).**

1514-cü ildə Sultan I Səlim Çaldıranda Səfəvilərə qalib gələrək Şərqi Anadolunu tutdu, Ermənistan (*dövlət deyil, ərazi kimi nəzərdə tutula bilər* –X.İ.) və Azərbaycanı himayəsinə keçirdi. Sonrakı, uzun sürən Osmanlı – İran (Səfəvi) savaşında da zəfər çalan (1555-ci ildə) həzrəti Sultan Süleyman Amasya müqaviləsinə əsasən Ermənistan, Azərbaycan, Minqreliya (Gürcüstan) və Abxaziyanı götürdü.

1636-cı il Qəsri-Şirində imzalanan saziş nəticəsində isə Osmanlı dövləti Güney Qafqazın doğu hissəsini: Azərbaycanı və Ermənistanın bir hissəsini-Arazın güneyindəki ərazilərin bir qismini İrana (Səfəvilərə) güzəştə getdi.

1632-ci ildə rusların Qafqaza soxulmasından sonra sərhədlərdə dəyişiklik baş verdi.

1774-cü ildə Kiçik Qaynarca Sülhü ilə Osmanlı Krımı, 1812-ci il Buxarest sazişiylə Qara dənizin doğu sahilləri (və 1801-ci ildə anneksiya edilmiş Abxaziya və Gürcüstan) ruslara verildi.

Türk təzyiqindən azad olan çar Rusiyasının Qafqazdakı ordusu İranla uzunsürən savaşa girərək 1828 -ci ildə Arazın quzeyi Rusiyaya birləşdirildi: *İrəvan xanlığı ərazilərində "Erməni Vilayəti"* yaradıldı.

1828-ci ilin aprelində Loris-Melikovun ordusu Türk Anadolusunu işğal etdi, 5-ci rus-türk müharibəsi çərçivəsində ilk dəfə olaraq Qars qalası qarşısında mühasirə yaratdı. Məhz bu hadisələr vaxtı Türkiyənin erməni əhalisi Rusiya Ordusuna dəstəkçi kimi çıxış etdi. Xatırladaq ki, həmin Rusiya ordusu İrəvanda erməni könüllülərindən təşkil olunmuş, Eçmiədzin katolikosu tərəfindən fanat dərəcəsinə çatdırılmış, Türkiyə ermənilərini qiyama qaldırmaq niyyəti güdərək müsəlmanlara qarşı terrorçuluq hissləriIə aşılanmışdı **(1: s. 20).**

Ermənilərin niyyətləri ilə rusların imperiyaçılıq məqsədlərinin uzlaşdığı XVII əsrin sonu-XVIII əsrin əvvəlindən etibarən rus qılıncının kəsəri erməni iştahı ilə tənzimlənirdi. Türkiyəyə 1828-ci il hücumundan sonrakı dövrdə, Andrianopol sazişinə əsasən Osmanlı Batumu itirdi, ancaq 1855-ci il Krım savaşı nəticəsində Sevastopolu tutdu. Ruslar isə əvəzində Qarsı işğal etdilər, ancaq 1856-cı il Paris Sazişinə görə əvvəlki sərhədlər təsdiq edildi, Qars qalası da türklərə qaytarıldı...

1877-ci ildə isə ruslar Türkiyənin şərqinə, Türkiyə ermənilərinin yığcam yaşadığı bölgələrə soxulmaq əhval-ruhuyyəsində qərarlı idilər. Sayca 3-cü dəfə Qarsı tutub, türklərin qərb cəbhəsini darmadağın etdikdən sonra, Berlin razılaşmasına görə Arazın yüksək dağlıq vadisi və Qars, Ərdəhan vilayətləri Rusiyaya keçdi. Ruslar Qarsı Tiflis dəmiryolu ilə birləşdirib Qars qalasını möhkəmləndirməyə çalışırdılar.

1880-ci ildən etibarən Türkiyə Ermənistanı qiyamlar, banditlik və qarışıqlıq dövrünü yaşadı **(1: s.20-21)...**

1914-cü ilin noyabrında Osmanlı müharibəyə girdi.

*"Erməni xəyanətinə hesablanmış rus uğuru"nu qabaqlamaq üçün 1914-cü ilin dekabrında Ənvər paşanın komandanlığı ilə Türk Ordusu 1878-ci ildə Rusiyaya birləşdirilmiş olan Qars istiqamətində hücuma keçsə də, sərt şaxta və düşmənin müqavimətı Sarıqamışda türklərin uğursuzluğu ilə nəticələndi və 2 km hündürlikdəki qarlı dağlarda köməksiz qalmış 90 min türk əsgəri dona düşüb həlak oldu* **(1:** s.96**).**

Sonra Ərzurumdan şərqə, yeni sərhəd ətrafında cəbhə sabitləşdi.

1915-ci ilin əvvəlində isə ruslar Ararat (Ağrıdağı) keçərək, güneyə, İran sınırlarına doğru endikdən sonra, qabaqcadan planlaşdırılmış ssenari üzrə Van ermənilərı türklərə qarşı qiyama qalxdılar. Bu olay, ermənilərin bu xəyanəti və düşmənlə iş birliyi müharibə gedən Osmanlı ölkəsində hökuməti ilk əhəmiyyətli miqdarda erməni köçürülməsinə vadar etdi **(1:** s.21**).**

O dövr bəlgələri istisnasız olaraq, bu köçürülməyə səbəb olan zəminin məhz ermənilər və onların himayədarları tərəfindən hazırlandığını qanıtlamaqdadır. Belə bəlgələrdən bəzilərinə üz tutaq:

"Rusiyanın Qafqaz ordusu Van istiqamətində hücuma keçir... Bu orduda böyük miqdarda erməni könüllüləri var... Aprelin 28-də onlar İrəvandan çıxaraq... mayın 14-də Vana yetişdilər, burada növbəti iki gün ərzində yerli müsəlmanların əzişdirilib-qırılmasını təşkil etdilər... Vanda rusların müdafiəçiliyi ilə erməni dövləti quruldu və görünürdü ki, bu (dövlət) müsəlman əhalinin qırılıb-qovulması ilə ayaqda dura bilər **(2:** s.316; **1:** s.22**).**

Ermənilər Vanda əhalinin 42%-ni (33789 nəfər) təşkil edirdilərsə **(2:** s.316**)** kişiləri Osmanlı cəbhələrində savaşlarda olan Vanın yerdə qalan müsəlman əhalinin hansı miqyasda qırğın və təcavüzə məruz qaldığını təsəvvür etmək olar **(1:** s. 22**)...**

Amerika tarixçisi Stenford C. Şounun dedikləri ilə Avropa tarixçisi Feliks Valyinin qeydləri də tam mənasıyla səsləşir: "1915-ci ilin aprelində erməni inqilabçıları Vana sahib oldular və orada Aram və Varelunun (daşnak liderləri) komandanlığı altında qərargah qurdular. Mayın 6-da (ola bilsin, köhnə təqvimlə) rayondan müsəlmanları "təmizlədikdən" sonra onlar şəhəri rus ordusuna açdılar... Onların içərisində daha tanınmışı (Vanda) Türk parlamentinin üzvü, Qarro ləqəbiylə tanınmış Pasdermacyan idi. O türklərin ruslarla toqquşmaları zamanı erməni könüllülərinə başçılıq edirdi" **(3:** s. 253; **1:** s. 23**).**

Bu səbəblə də 18 may 1915-ci ildə rus çarı "Vanın erməni əhalisinə sədaqətləri üçün təşəkkür" bildirmişdir, Aram Manukyan isə burada rus qubernatoru təyin edilmişdir **(1:** s. 23**).**

"Muşun minlərlə erməni əhalisi, həmçinin Türkiyənin doğu bölgələrinin vacib mərkəzlərindəkilər yeni erməni dövlətinə axışmağa başladılar. Və bunların içərisində qaçmış dustaqlar da vardı... İyulun ortasında Vanda ən azı 250 000 erməni cəmləşmişdi... Ancaq iyulun əvvəlində Osmanlı hissələri rus ordusunu sıxışdırmağa başladı. Geri çəkilən ordunu minlərlə erməni müşayiət edirdi: onlar, ölü doğulmuş dövlətlərinin yol verdiyi qırğınlara görə cəzalardan qorxurdular" **(2:** s.316; **1:** s.23**).**

Türklərin qəzəbli düşməni erməni müəllifi Hovanisyan bu hadisələr haqda belə deyir: "Çaxnaşma (təlaş) ifadəedilməz idi. Qubernatora (*yaqin ki, Osmanlı dövlətinin təyin etdiyi qubernator nəzərdə tutulur* –X.İ.) qarşı müqavimətdən, şəhərin azad edilməsindən (*yəni yerli müsəlmanların qırılıb-qovulub şəhərin erməniləşdirilməsindən* –X.İ.), erməni hökumətinin qurulmasından bir ay sonra hər şey itirilidi. 200 000 qaçqın (erməni) çəkilən rus ordusu ilə birgə Cənubi Qafqaza qaçdı. Parlaq nələri vardısa itirə-itirə, kürdlərin qurduqları saysız-hesabsız tələlərə düşə-düşə" **(4:** s. 53; **1:** s. 23**).**

Ancaq bir az sonra vəziyyət dəyişdi: avqustda ruslar Vanı yenidən götürdü. Şərq cəbhəsi 1915-ci ilin sonunda Van-Ağrı -Xorasan xətti ilə müəyyənləşdi.

1916-cı ilin fevralında ruslar iki istiqamətdə güclü hucuma keçdilər: Van gölü ətrafından- güney tərəfdən, sonra Bitlis və Muşa, ikinci, Qarsdan Ərzuruma.



Bu zaman rusları qeyri-müntəzəm, dağıdıcı erməni kolonları müşayiət edirdi.

Amerikan tarixçisi Şou bu hadisələr haqda belə yazır: "Bunun ardınca bütün müharibə ərzində ən dəhşətli qırğın baş verdi: miyondan artıq müsəlman kəndlisi qaçmağa məcbur oldu... Onlardan minlərcəsi Ərzincana doğru geri çəkilən Osmanlı Ordusu ilə birgə qaçmağa cəhd edən zaman tikə-tikə doğranmışdı" **(2:** s. 323; **1:** s. 25**).**

1916-cı ilin payızında cəbhə xətti yarımçevrə şəklində, rusların əlində olan Trabzon və Ərzincandan cənubda Bitlisədək uzanırdı və 1918-ci ilin yazınadək də bu durumda qaldı **(1:** s . 25**).**

Bolşevik inqilabından sonra 1917-ci il dekabrın 18-də Rusiya ilə Osmanlı arasında Ərzincanda barışıq imzalandı, bundan sonra 3 mart 1918-ci il tarixində bağlanan Brest-Litovsk müqaviləsi Türkiyə və Rusiyanın 1877-ci il sərhədlərinə qaytarılmasını bəyan etdi.

Çəkilən Rusiya Ordusundan əlavə silah-sursat əldə edən nizamsız erməni çətələri Ərzincan və Ərzurumda sistemli olaraq müsəlman qırğınları təşkil edirdilər [*sitat Tverdoxlebovdan* – **(1:** s. 26**)**].

Şou bildirir ki, Trabzon, Ərzincan, Ərzurum, Van və Bitlisin 3 300 000 nəfər təşkil edən türk əhalisinin (erməni-rus təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində) bu ərazidə müharibədən sonra cəmi 600 000 nəfəri qalmışdı, o da qaçqın halında. Məqsəd beynəlxalq ictimaiyyətin gözündə gəlmə ermənilər üçün bu ərazilərə müstəsna sahiblik hüququ əldə etmək idi **(1:** s. 26**).**

30 oktyabr 1918 -ci il Mudros Sazişindən sonra Türk Ordusunun Qafqazdan çəkilməsi ermənilərin yeni iddialarına meydan verdi: 19 aprel 1919-cu il tarixində onlar yenidən Qarsı tutdular. Fürsətdən gürcülər də yararlanıb, Ərdəhanı ələ keçirdilər. Bu da o demək idi ki, Türk sərhəddi yenidən 1878-ci il cizgilərinə qayıtdı.

Qarşıdakı ilyarım müddətdə ermənilər işğal etdikləri ərazinin ucqarlarına, şimali-qərb istiqamətində Qara dənizə doğru və Trabzona saysız-hesabsız hücumlar həyata keçirdilər **(1:** s. 27; **5:** s. 295-318**).**

Vilson prinsiplərinin 12-ci maddəsinə **(1:** s.27**)** həm qane olmayan, həm də sonralar bundan da məhrum olan (Türkiyə dövlətinin yeni, qətiyyətli xətti nəticəsində) ermənilər Doğu Anadolunun xilaskarı Kazım Qarabəkir paşanın qətiyyəti nəticəsində Türk Ordusuna yenidən biabırçılıqla məğlub oldular. 28 sentyabr 1920-ci ildə hərəkata başlayan Türk Ordusu 30 oktyabrda Qarsı, 7 noyabrda Gümrünü aldı...

*(Sonralar imzalanan Aleksandropol (Gümrü), Qars müqavilələri və Lozanna konfransının erməni, türk, azərbaycanlı və s. tərəflər üçün hansı nəticələr verdiyi haqda digər bölümlərdə bəhs etdiyimizdən, burada təkrara ehtiyac görmürük.)*

***

Türk düşmənçiliyinə qurşanmış Ternondan **(6:** s. 156**)** fərqli olaraq erməni müəllifi Papazyan **(7:** s.230; **1:** s.44**)** 1915-ci il hadisələri ilə bağlı erməni liderlərinin məsuliyyətini aydınca qeyd edərək yazır: "Daşnak" Partiyasının Türkiyə ermənilərı bölməsinin liderləri Türkiyənin müharibəyə girdiyi zaman loyallıqlarını saxlayacaqları haqda vədə əməl etmədilər. Onların fəaliyyətinə rus hökumətinin maraqları təsir edirdi və onlar heç bir qədər də olsun özlərinə ermənilərin Türkiyəylə sonra apardığı müharibənin doğuracağı təhlükə haqda hesabat vermirdilər..."

Tarixçi Rafael de Noqales də ermənilərin məsuliyyətini nəzərdə tutaraq yazır: "Hərbi əməliyyatlar gedəndə Ərzurumdan Osmanlı Məclisinin deputatı, Pasdermacyan Türkiyənin III ordusunun, demək olar ki, bütün erməni əsgər və zabitləriylə birgə əks-Rusiya tərəfə keçdi. Tezliklə o, həmin əsgər və zabitlərlə geri qayıdır. Onlar kəndləri yandırmağa və əllərinə keçən müsəlmanları rəhmsizcəsinə öldürməyə başlayırlar" **(8 :** s.232; **1:** s. 42-44**).**

Başqa bir əcnəbi tarixçi Kler Prays da bu məsələlərdə diqqəti "... şərq sərhəd tərəfdə ermənilərin fərarilik edərək rus ordusuna keçməsinə" yönəldir **(9:** s. 234; **1:** s. 44-45).

Osmanlı hökümətinin səfərbərlik elanından sonra Ecmiədzin katolikosunun Vorontsov-Daşkova 5 avqustda göndərdiyi məktuba cavab olaraq 2 sentyabr tarixində Qafqaz general-qubernatoru bildirirdi:

"Mən istərdim ki, həm bizim, həm də xaricdəki ermənilər indi öz fəaliyyətlərini mənim təlimatlarımla uzlaşdırıb həyata keçirsinlər. Sizdən, dindarlara öz təsirinizdən istifadə edərək, bizim ermənilərlə xaricdəkilər tərəfindən indi və gələcəkdə, rus-türk müharibəsi zamanı, mənim göstərişlərimə əməl olunmasını təmin etməyi xahiş edirəm" **(10:** s.243; **11:** s.583-585). Avqustun 5-də (1914-cü il) Aram Turabyan adlı Türkiyə ermənisi Marseldə mətbuat konfransı keçirərək, Osmanlı dövlətinin səfərbərlik elanına qarşı sabotaj xarakterli bəyanatında Türkiyədəki ermənilərin nə Rusiyaya, nə Fransaya və onların müttəfiqlərinə, nə də "ürəklərinə yaxın olan əziz Balkan ölkələrinə" qarşı vuruşmayacaqlarını, Rusiya erməniləri isə türklərə qarşı intiqam savaşında Moskva ordusu sıralarında olacağını bildirmişdi **(10:** s. 244; **12:** s. 6).

R. de Noqales də "Four Years Beneath the Crescent" əsərində **(13:** s. 45) ermənilərin satqınlığını; Başqala, Saray, Bəyazid və b. yerlərdə müsəlman qırğınları törətmələrini və Ərzurumda, Vanda, bir sözlə arxa cəbhədə üsyan qaldıraraq müharibə aparan Osmanlı dövlətinə arxadan zərbə təhlükəsi yaradacaqlarını nəzərə olan türk hökumətinin qanuni tədbirlərə əl atmasını normal hesab edir **(10:** s. 245).

M.P. Prise da "A.Histori of Turkey" əsərində ermənilərin Qafqazdakı rus hakimiyyəti ilə gizli iş birliyinə getdiyini qeyd edir **(14:** s. 91; **10:** s. 245).

Avropanı ermənilərə gah muxtariyyət, gah da müstəqillik tələb edərək onları satqınlığa təhrik etməkdə suçlayan Filipp de Zara da erməniləri geri çəkilən türk əsgərlərinə hucum çəkməkdə, arabaları soymaqda, partizan bandaları yaratmaqda, fərarilik etmiş Türkiyə ermənilərindən rus zabitlərinin komandası altında çoxlu polklar yaratmaqda və s. fəaliyyətlərdə günahkar bilir **(10:** s.245-246; **15:** s.159-160). C.Price isə "The Rebirth of Turkey" əsərində yazır ki, əslində Ənvər paşanın 1908-ci il Osmanlı konstitusiyasına əsaslanaraq istənilən türkü, ermənini və s. güllələməyə ixtiyarı vardı... Ancaq... hökumət, Sarıqamışdakı hərbi uğursuzluq, Çanaqqalada böyük miqyaslı qanlı savaşlar, ermənilərin kütləvi fərariliyi fonunda bu qətiyyətli (*ancaq humanist* –X.İ.) qərarı qəbul etdi **(16:** s. 86-87). Osmanlı arxivindəki sənədlərdən birində də ( **17** ) 3 avqustdakı ümumi səfərbərlik bildirişinə cavab olaraq "Zeytunu qorumaq üçün" Zeytun ermənilərinin Türk bayrağı altında qulluqdan imtina edərək, erməni zabitlərinin komandanlığı altında Zeytun fədailər polku yaratmaq istədiklərinə rədd cavabı aldıqdan sonra, 30 avqustda üsyana qalxdıqları ifadə olunur **(10:** s.247).

ABŞ-ın Alleppodakı konsulunun Dövlət Departamentinə göndərdiyi məruzə (məruzəyə amerikan missioneri, protestant, din xadimi Con E. Merillin məktubu da əlavə olunmuşdu) də o dövr hadisələrinin gerçək qavranması üçün lazımi xüsusları ehtiva edir: "Zeytunda həyəcanların yaranmasından öncə protestant missioneri qerr Blank və iki qriqoryan keşişi, hökumətin razılığı ilə, münaqişənin sülh yolu ilə təmin edilməsi üçün Zeytuna yollandı... Komitə də uğura nail olmadı. Qanunu pozan 30 nəfər Zeytun və Maraş arasında dağlarda gizlənir. Onlar içməli su, qida və döyüş sursatları ilə təmin edilmişlər" **(10:** s.247-248; **18:** s.196)...

13 sentyabr 1914-cü il tarixində Ərzurum qubernatoru 3-cü Ordunun komandanına məlumat bildirmişdi ki, Şərqi Anadoluda ruslar erməniləri üsyana hazırlayırlar və 101 il azadlıqdan məhrum edərək Sibirə göndərdikləri Armaisi Qarsa gətirərək, onun vasitəsilə orada bandalar yaradırlar **(10:** s. 248-249).

Osmanlı arxivlərində ermənilərlə bağlı sənədlərin cüzi bir hissəsini öyrənməklə Osmanlı dövlətinin üsyançı erməniləri ölkənin Mesopotamiya hissəsinə köçürməsinə



həqiqətən də vadar olduğu barədə şübhə və gümanlar aradan qalxır. Belə sənədlərdən bir neçəsinə yenə müraciət edək: "8 oktyabr 1914-cü ildə Trabzon qubernatoru Camal Əzmi bəy DİN-nə bildirirdi: "Məlum oldu ki, ruslar Rusiya və Türkiyə ermənilərindən ibarət 800 nəfərlik dəstəni silahlandırmış və Artvin tərəfə göndərmişlər. Onlar Artvin və Ardanuç (?) arasında yayılaraq, partizanların sayını 7000-ə çatdırmalı və arxa cəbhədə sabitliyi pozmağa başlamalıdırlar" **(10:** s. 249; **19.**).

3-cü Ordunun komandanı da 11 oktyabr 1914-cü ildə baş komandanlığa bildirirdi:"Aşkarlanmışdır ki, ruslar Qafqazda Rusiya və Türkiyə ermənilərindən və yunanlardan ibarət silahlı birləşmələr yaradır və bizim əraziyə göndərirlər. Bizim hissələrdən ermənilərin fərarilik halları da artmışdır" **(10:** s. 249; **20.**).

Bəyazid qarnizonunun rəisinin DİN-nə göndərdiyi 14 oktyabr tarixli məktubundan isə məlum olur ki, Rusiyadakı erməni komitəçiləri 600 nəfərlik könüllü ilə Sehpatdan Xoy yoluyla Səlmasa getmişlər. Bunlardan çoxu da Osmanlı-Van, Muş, Bitlis, Qars və Gümrü erməniləri olduğu, onların komandirlərinin Andranikin gəlişini gözlədiyi və s. məlumatlar da həmin məktubda DİN-ə çatdırılmışdır **(10:** s. 249-250; **21.**).

Noyabrın 29-da 1914-cü ildə hərbi əməliyyatlar başlamağıyla da jandarm batalyonu komandiri Kazım bəy Özalpın Vanda ermənilərin üsyan hazırlığı barədə hökuməti xəbərdar etməyi bir oldu **(10:** s.250).

Vandan DİN-ə 2 dekabrda göndərilmiş teleqramda orada ermənilərin hələlik sakit davrandıqları, ancaq Səlmasda ruslarla birgə fəaliyyət göstərdikləri, sərhəddəki dəstələrə Teluri qiyamının (*II Sasun üsyanı* – K.G.) rəhbəri Andranik və onun yoldaşlarının komandanlıq etmələri bildirilir. (10: s. 251; 22.).

Ərzurum qubernatoru Tahsin bəyin 20 dekabr tarixli məruzəsində Kərçikan və Gevaş qəzalarında üsyan əlamətləri olduğu, ermənilərin teleqraf xətlərini dağıtmaları, jandarm leytenantını öldürmələri, rayona Bitlisdən döyüşən jandarm və milis dəstələri göndərildiyi, əlavə köməyə ehtiyac olduğu nəzərə çatdırılır **(10:** s.251; **23.**).

Qubernator 21 fevral 1915-ci il tarixli, DİN-ə ünvanlanmış teleqramında isə Haksef nahiyəsində ermənilərin üsyana qalxmasına, Muş qəzasının Siranun kəndində Türk hökumət qüvvələrinə ermənilərin atəş açmasına, 2 saat atışma olmasına, Küməş kəndinin Akan bucağında da 8 saatlıq qarşılıqlı atəşin sürməsinə diqqəti çəkir **(10:** s.251; **24.**).

Bitlis qubernatorunun eyni tarixli, eyni mətləbli teleqramında Küməş kəndinin Akan bucağında erməni daşnak heyətin (Ruben, Zaven və Muş daşnak rəisi Eşro) olması da daşnakların çətəçiləri yönətdiyindən xəbər verir və bu məqam qubernatoru rahatsız edirdi **(10:** s.251-252; **25.**).

Həyəcanlı xəbərlərlə dolu çox sayda teleqramlardan biri də, Van qubernatorunun 20 mart 1915-ci il tarixli teleqramı idi: Bütün günü Vilayət boyu döyüşlər getdi, çarpışma axşama doğru daha da amansızlaşdı. Erməni banditlərinin sayı 2000-i ötür, üsyanı yatırmaq üçün tədbirlər görülür ( **26** )...

Ali İhsan paşanın xatirələrində o dövr olayları haqda belə deyilir: "Van qubernatoru Cövdət bəy hələ 1915-ci ilin martında Van üsyanının başlanacağı haqda, hansı ki, aprelin 17-də alovlandı və vilayəti bürüdü, I-ci ekspedisiya korpusunun komandanlığına və Baş Komandanlığa xəbərdarlıq etmişdi. Elə həmin gün (*17 aprel* – X.İ.) I ekspedisiya korpusu ancaq Rumiyəyə kimi gedib çıxmışdı. Üsyanın yatırılması üçün Van jandarm birliklərinin xeyli hissəsinin cəlb olunması zərurəti yarandı.

Əgər I ekspedisiya korpusu həftələrlə Mosul və Rəvandizdə gözləməsəydi və Van jandarm birliklərinin imkanlarından istifadə etsəydi, Vanda erməni üsyanının başlanmasına qədər Dilman bölgəsində ruslara zərbə endirsəydik, ola bilsin ki, uğur qazana bilərdik. Hər halda aprelin ortalarında erməni üsyanı bizi Van jandarm birliklərinin əhəmiyyətli bir hissəsini arxa cəbhədəki fəaliyyətlərə yayındırmağa vadar etdi" **(27:** s.218,219,205)... Ancaq bizə elə gəlir, Türkiyə erməniləri, xüsusən də onun ən

qaynar ocağı Van üsyançıları Qafqaz Canişininin təlimatları ilə fəaliyyət göstərdiklərindən, hörmətli Ali İhsan paşanın dediyi kimi, ruslar üzərinə bir neçə həftə əvvəl hücuma keçsəydi, o zaman ermənilər də üsyana daha tez başlayacaqdılar. Mülahizəmiz Eçmiədzindəki bütün ermənilərin katolikosu ilə Qafqazın general-qubernatoru Vorontsov-Daşkov arasındakı son məktublaşmadan aydınlaşır **(10: s.243)**.

Buna görə də həmin Van hadisələrində nə vilayət rəhbərliyi, nə də ordu komandanlığı ciddi səhvə yol verməmiş, optimal seçimlə hərəkət etmişlər. [Yada salaq ki, anısından bəhs etdiyimiz bu general həmin Ali İhsan paşadır ki, 1918-ci ilin yazında Cənubi Azərbaycanlıları soyqırımdan xilas etməyə gələn türk ordusunun komandanıydı **(bax:** bu kitabın *"Güney Azərbaycanlıların soyqırımı"* bölümünə)].

Üsyanönçəsi və üsyan dövründə diviziya komandirlərinin həyəcanlı məruzələrindəki erməni xəyanəti, vəhşiliyi, məkri haqqında məlumatların tutumu o dönəmdə Osmanlı dövlətinin olum-ölüm dilemması qarşısında olduğunu bir daha təsdiq edir.

Fevralın 25-də 5-ci Ordu komandanı Baş Komandana bildirirdi ki, Dəvəli qəzasındakı tuthatut zamanı ermənilərdən çox sayda bomba, silah, barıt və s. tapılmışdır **( 28 )**.

Aprelin 27-də Diyarbəkirin qubernatoru da yoxlama zamanı ərazisindəki ermənilərdən böyük miqdarda silah-sursat, hərbi təchizat, partlayıcılar aşkarlandığı və təkcə quberniya mərkəzində 1000-dən çox komitəçi-fərari tutulduğunu rəhbərliyə çatdırırdı **( 29 )**.

1915-ci ilin mayında isə Osmanlı dövlətinin vəziyyəti böhranlı durumda idi: Doğu Anadoluda ruslar, Çanaqqala ətrafında isə ingilis və fransızlar qəti hücuma keçmişdilər. İxtilaf Dövlətləri cənubdan "Kanal" (Boğaz) əməliyyatına başlamışdılar. Zeytun, Van və Muşda ermənilər üsyana qalxmış, mayın 17-də ruslar Vanı götürmüşdülər **(10: s.253,255-256)**.

Osmanlı dövlətinin erməniləri ölkənin Mosul, ... , Zor sancaqlarına köçürməsinə gəlincə isə, bu Köçürmənin əsaslandığı qanunun adı TƏHCİR QANUNU idi, "təhcir" də Gürünün dediyi kimi, heç "deportasiya" anlamına da gəlmir, sadəcə müvəqqəti köçürməni ehtiva edir **(10: s. 257)**.

**Osmanlı hökumətinin sonrakı qanun və qərarları ilə üsyançı (komitəçi), təxribatçı, dövləti cinayətləri olan və s. bu kimi ağır suç törətmişlər istisna olmaqla, yerdə qalan ermənilərin əvvəlki yaşayış məskənlərinə qayıtmalarına icazə verildi və geri köçmək istəyən ermənilərlə bağlı bütün problemlər dövlət səviyyəsində həll edildi** (*bax:* bu kitabın *"Ermənilərin soyqırımı, yoxsa müvəqqəti köçürülməsi? – Osmanlı bəlgələrində"* bölümü).

Türk müəllifi Gürün müharibə apararkən bənzər durumlara düşmüş dövlətlərin təcrübələrinə baş vuraraq, eyni problemi araşdırıb paralellər aparan Avropa müəllifi O.Hedinin "Bagdad, Babylon, Ninive" əsərindən **(30: s.70)** iqtibas gətirir:

"Lord Kitçner, Sudanı tutaraq (bu, İngiltərənin ermənilərlə bağlı bütün dünyada hay-küy salması ilə eyni vaxta təsadüf edirdi), ölkədə qayda yaratmaq üçün, əlinə silah ala bilən hər bir kəsi ucdantutma qırdı. Fransız arxivləri də fransızlar tərəfindən Transvaalda təmərküzləşmiş düşərgələrə atılmış, acından ölməyə məhkum edilmiş on minlərlə yerli qadın və uşağın şəkilləri ilə doludur. İrlandiyalı Corc Çatterson-Xilin "Ord Oç Bild" jurnalında yazdığı kimi **(31: s. 561)**, ingilislər başa düşəndə ki, qırmaqla və İrlandiyanın xaricinə irlandiyalıları zorla deportasiya etməklə, onları məhv edə bilməyəcəklər, ingilislər irlandlara, Hindistanda sınaqdan çıxardıqları "aclıq hökmü" tətbiq etmək qərarına gəldilər. Nəticədə 1841-1911-ci il illər aralığındakı 70 illik dövrdə irlandların sayı 8196597 nəfərdən 4381951 nəfərə düşdü, təkcə 1846-1848-ci illərdə, məhsul bol olmağına baxmayaraq, aclıqdan 3 milyon irland həlak oldu, eyni zamanda



vergi və icarə haqqı şəklində ölkənin xaricinə 50 milyon funt-sterlinqlik ərzaq çıxarılmışdı. 1849-1851-ci ildə aclıqdan 400000 nəfər də həlak oldu".

I Dünya Savaşı başlayan zaman İngiltərədə almanlara qarşı görülən tədbirlər zamanı, Fransanın Şimali Afrikada məşhur "ölüm yaradıcılığı" siyasəti həyata keçirərkən, Əlcazair və Tunisdə azadlıq mübarizəsi iştirakçılarından nə qədəri öldürüldü.

II Dünya Müharibəsi dövründə almanlardan geri alınan ərazilərdəki əhalinin, çox zaman məhkəməsiz-zadsız, "işğalçılarla əməkdaşlıq" ittihamı ilə güllələnməsi, rusların Krım tatarlarını, Məshəti türklərini, Şimali Qafqaz xalqlarını Orta Asiya və Sibir cəhənnəmlərinə köçürməsi, azərbaycanlıların heç bir səbəb olmadan Ermənistan və Gürcüstandan köçürülmələri və s. kimi haqsızlıqlar-əsl deportasiya və soyqırımı aktları durarkən Türkiyənin müharibə bölgəsindəki qiyamçı erməniləri müvəqqəti köçürüb, sonra geri yerləşdirməsinə soyqırım deyilməsi Yerə və Göyə sığmayan haqsızlıq və ikiüzlülük, riyakarlıq deyilmi?! **(10: s.258-259)**.

**Ədəbiyyat:**


1. Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку, 1990 .
2. Шоу С. Дж. Т. II .
3. Felix Valyi "Revolutions in islam", Londres, 1925.
4. R.Hovanisian. Armenia on the Road to independence., Los-Angeles, 1963.
5. Gürün "Ermeni dosyası", Ankara, 1983.
6. Ternon. Преступное молчание....
7. K.S.Papazian. Patriotism Perverted. Boston, 1934.
8. Rafael de Nogales. For Years Beneath the Crescent. New York, 1926.
9. Clair Price. The Rebirth of Turkey. New York, 1923.
10. Кямуран Гюрюн. Армянская досье. Баку, 1993.
11. E. Uras. Tarihte Ermeniler ve Ermeni Meselesi. İstanbul, 1976.
12. A.Turabian. Les volontaires Armeniens sous les Drapeaux Francais. Marseille, 1917.
13. R. de Nogales. Four Years Beneath the Crescent., N.Y., 1926.
14. M.P. Prise. A. Histori of Turkey., London, 1956.
15. P. de Zara. Mustafa Kemal, Dictatuer., Paris, 1936.
16. Clair Price. The Rebirth of Turkey. New York, 1923.
17. Genel Kurmay №1/131, KLS 2287. Dosya 12, F.1-10.
18. (ABŞ Milli Arxivi): USNA. M-353/6, №867.00/761.
19. Genelkurmay. № 4/3671. KLS 2818. Dosya 59, F. 2-23.
20. Ibid., KLS 2811. Dosya 26, F. 15-1.
21. Ibid., KLS 2818. Dosya 59, F. 2-36.
22. Ibid, KLS 520. Dosya 2024. F.5.
23. Dahilie Nezareti Şifre Defteri, №48, 846-151214. 4.
24. Genelkurmay. № 4/3671, KLS 2820. Dosya 69. F. 2-5, 5-1.
25. Ibid., 1/131, KLS 2287. Dosya 12. F. 6-2.
26. Ibid., № 4/3671. KLS 2818. Dosya 59, F. 1-17.
27. A.İ. Sabis, Harp hatıralarım. Cilt 2. Ankara, 1951.
28. Genelkurmay. №1/131, KLS 2287. Dosya 12, F.8.
29. Ibid., № 4/3671, KLS 2820. Dosya 69, F.3-82.
30. O.Hedi "Bagdad, Babylon, Ninive", Leipzig, 1918.
31. "Ord Oç Bild" jurnalı, 1916-cı il.

## "ERMƏNİ MƏSƏLƏSİ" VƏ SAXTA ERMƏNİ TARİXİNƏ AİD BƏZİ QEYDLƏR

Saxta "erməni tarixi" məsələsi bir çox alimlərin diqqətində olduğu kimi, Azərbaycan Ensiklopediyasının başqanı, professor İsmayıl Vəliyevin də nəzərindən yan keçməyib. O, erməni yalanlarına tanınmış rus alimlərinin dili ilə çox inandırıcı təkziblər verirərək yazır: "Bu xüsusiyyətlər erməni tarixçilərində elə bir həddə çatıb ki, onlar az qala Şumer-akkad dövrü abidələrinə, mixi yazılı tarixi yadigarlara sahib çıxırlar. Qafqazda da onlar bu işlə məşğul olmuşlar. Onlar burada mövcud olan əski çağların mədəni abidələrini heç bir dəlil və sübut olmadan öz adlarına çıxırlar.

Qafqazdakı bizanslılara, gürcü və azərbaycanlılara məxsus tarixi abidələri zorla öz adlarına çıxır, qədim nə görürlərsə, özününküləşdirməyə çalışırlar. Gürcü yazıçısı və ictimai xadimi İ.Q.Çavçavadze bu faktları təhlil etmiş və erməni alimlərinə (*və mən deyərdim ki, həm də onların havadarlarına* –X.İ.) susdurucu cavablar vermişdir ( 1 ). Lakin saxta tarixçilər mənəviyyatlarından dolayı yenə də susmamışlar. Uydurmaçı S.Ayvazyan Çexoslovakiyada çap olunan bir jurnalda məqalə dərc edirərək indiki Ermənistan ərazisində tapılmış Atabəylər dövləti dövründə zərb olunmuş sikkə üzərindəki yazını tərsinə oxuyaraq onu "e.ə. XIX əsr xayyas pulu" adlandırmış, Azərbaycanın Zeyvə kəndindən tapılan və üzərində ərəb əlifbası ilə "Əli...Qasımxan" sözləri olan qəbirüstü yazını tərsinə oxuyub yanlış nəticələr çıxarmış... və guya bu torpaqların ən əski ermənilərə məxsusluğunu "sübut" etmişdir. Rus alimi B.B. Piotrovski bu acınacaqlı fakta ermənilərin öz elmi mətbuatlarında kəskin cavab vermişdir ( 2 ).

V. Xaçaturyan adlı bir erməni "alimi" isə bütünlüklə Urartuya sahib çıxaraq onu erməni dövləti hesab etməyə, qədim tayfa və ölkələri özününküləşdirməyə qalxmışdır. Onun primitiv, zəif məntiqinə görə "Arm", "Orm", "Urm", "Urum" və s. tərkibli sözlər guya ermənilərə məxsusdur. Bu məsələni də görkəmli rus alimi İ.M.Dyakonov tənqid edərək yalan olduğunu sübuta yetirmişdir ( 3 ; 4: s.4).

***

Bu bölgəyə aysor dilində Urartu, ivritcə Ararat, aramicə Harmiyap, Harmeni kimi adlar verilmiş və ilk dəfə Bisütün kitabəsində (e.ə. 522-486) Armeni-"Yuxarı məmləkət" kimi qeyd olunmuşdur.

Dədə Qorqud boylarında da bu bölgə və buradakı xalqlar, onların tarixi ilə bağlı geniş bilgilər verildiyi halda, ermənilərin nə adı çəkilmiş, nə də onlarla əlaqəli bir söz belə işlədilməmişdir **(6:** s. 8).

***

Urartu dövləti e.ə. 612-ci ilədək, midiyalılar bu bölgəni öz hakimiyyətləri altına alana qədər mövcud olmuş... e.ə. VII yüzilliyin sonlarında bu ərazilərə qərbdən Hind- Avropa dillərindən birində danışan bir qəbilə gəlmişdi. Bir qisim tarixçilər bu gəlmələrin frikiyalılarla birlikdə gəldiklərini bildirirlər. Həmin gəlmələr Urartunu istila etmiş, sonra bu bölgədə hakimiyyət midiyalıların əlinə keçmişdir. Tarixçilərdən bəziləri heç bir dəlilə, sənədə əsaslanmadan orada qurulan növbəti (Urartudan sonra) dövlətin erməni dövləti olduğu qənaətini irəli sürürlər...

Hettlərlə ermənilər arasında münasibət axtaran səlnaməçilər də müvafiq sənəd, elmi dəlil və nəticə əldə edə bilməmişlər. Başqa sözlə, "Erməni tarixinin ilk dövrləri Misir, Qədim Yunanıstan, Roma, Hett, İran və ya göytürk mədəniyyətlərində olduğu kimi, arxeoloji qazıntılar nəticəsində meydana çıxarılmış abidə və kitabələrə istinad etməkdən məhrumdur, çünki belə tarixi dəlillər aşkar olunmayıbdır **(6:** s. 10-11).



***

Türk araşdırmaçısı M. Sədi Koçaş "Armeni" (Yuxarı məmləkət) adını mənimsəyən ermənilərin Arsas (Arşak) kral sülaləsinə də əsassız iddia etdiklərini bildirərək yazır: "İsgəndərin ölümündən 60 il sonra Arsas (Arşak) parfiyalıların idarəsini ələ almışdır...

Bu dövlətə erməni krallığı deyilsə də, xalqının çoxmillətli, kral ailəsinin də əslən asiyalı olduqları məlumdur. Bu dövlətə erməni krallığı, xalqına isə erməni deyilməsinin səbəbi bölgəyə verilən Armeni (Yuxarı məmləkət) adından irəli gəlmişdir.

Göründüyü kimi, bu sülalənin qurucusu Arsas (Arşak) erməni deyil, parfiyalıdır. Bu sülalədən olan krallar bir çox zəfərlər qazanmışlar. Həmin dövrdə şərq bulqarlarından çoxlu qəbilələr də Qafqazdan gəlib bu bölgədə məskunlaşmışlar".

Təbii ki, ermənilərin öyündüyü kral II Tiqran da Arsasın oğlu olduğu üçün o da parfiyalı idi **(6:** s. 12-13).

***

Erməni irqi haqqında müxtəlif alimlər aşağıdakı qənaətlərə gəlmişlər:

**Professor R.Vernont:**

"Ermənilər İran dillərindən hiss ediləcək dərəcədə fərqli bir dildə danışırlar. Fiziki cəhətdən də yekcins deyillər. Genəlliklə, İran qrupuna aidiyyətləri yoxdur...

Onlar...türklər, kürdlər, samilər və moğollarla qarışmışlar..."

**J. Deniker** isə erməniləri İran qrupuna aid edir... "Ermənilər müxtəlif ünsürlərdən təşkil olunaraq qarışıq bir irqdir. Boyları 163-169 arasında, yastıbaşlı, 85-87 baş ölçüsündə, irqləri hindu, əfqan, aysor və türk irqlərindən yaranmışdır..."

**Robert Cais:**

"Ermənilər Pamir yaylaqlarından gələn ari soylarla Mesopotamiyadan şimala doğru köç edən sami irqə mənsub tayfaların qarışığıdır...

Kürdlərlə erməniləri bir-birindən ayırmaq mümkün deyildir. Yaxın qohumdurlar..."

**N.Kassoviç:**

"Erməni irqi təmiz (yekcins) bir irq deyildir..."

**U.S.Monroy:**

"Ermənilər irq etibarı ilə iranlı, kürd, bəluc və qaraçılarla qohumdurlar...

Yəhudilərlə fiziki və mənəvi oxşarlıqları var. Özlərinə xristian yəhudi və ya xristianlaşdırılmış yəhudi deməbri bu səbəbdəndir..."

"Ermənilərin ayrı bir irq və millət kimi buralara gəlib məskunlaşdığını qəbul etsək belə, onlardan çox əsr əvvəl bu bölgələrə gəlmiş aysorlar, nairilər, urartulular, iberlər, müxtəlif kürd qəbilələri ilə qarışdıqları şübhəsizdir" **(6:** s. 20-21).

Makedoniya, Roma, Bizans və ərəblərin istilaçı orduları ilə gələnlər içərisindən də ermənilərlə qaynaşıb-qarışanlar az olmamışdır **(6:** s. 21).

***

"**M.Brosset**in "Arxeoloji məlumatlar və Ani xarabalıqları" əsərində Anidəki (*Qolu Uzun Oğullarının*) ana dillərinin türkcə olduğu yazılmışdır. Deməli, anili qriqoryan ermənilər də Orta Asiya mənşəlidir".

Məşhur şərqşünas V.Minorski isə e.ə. VII əsrdə Şərqi Türküstandan gələn Saka (İskit) türklərinin Urartuluları məğlub edərək, sonra Araz-Kür çayları bölgəsində yerləşdiklərini bildirmişdir.

Bütün deyilənlərdən çıxan nəticələrdən biri budur ki, erməni irq adı deyildir **(6:** s. 22).

***

Ermәni abidәlәri haqqında fikir söylәyәn ciddi alimlәrin rәyi belәdir: xristianlıqdan әvvәl ermәnilәrin sәnәt әsәrlәri mәlum deyil. Qәdim abidәlәrindәn biri – Qarni mәbәdinin xarabalıqlarında isә yunan-Roma tәsiri aşkardır, әslindә bu tikinti diqqәtlә araşdırılsa onun ermәnilәrә deyil, yunan vә Roma mәdәniyyәtinә aid olduğu bәlirlәnәr **(6: s.22-23).**

***

Ermәni dilinin mәnşәyi mәchuldur, bu xalq müxtәlif dövrlәrdә farsca, yunanca, sonralar türkcә danışmışdır.

*"Ermәni dili İran dillәri qrupuna aid olan zәnd vә fars dillәri әsasında formalaşmışdır. Qәdim köklәrә malik olmasına heç bir sübut yoxdur".* **(Le Normand)**

Deleqarde, Qoşe, Vindişman, Peterman da bu vә ya başqa formada Le Normandla hәmfikir olduqlarını ortaya qoyurlar.

**Başqa bir alim qrupu isә ermәni dilinin әslindә Turan dili olduğunu, sonrala fars vә yunan tәsirinә düşdüyünü irәli sürürlәr.**

*"Bu dildә aysor, ibrani (ivrit), Midiya, gürcü, minqrel, laz, Urartu, Nairi, İskit, yunan, әrәb, türk, moğol, kürd, latın, rus kәlmәlәri vardır. Xristianlıqdan әvvәlki yazıları olmadığından ermәnilәrin dilinin qәdimliyini bildirәn heç bir sәnәd yoxdur".* **(De Morqan)**

**Türk müәllifi M. Sәdi Koçaşın dediyi kimi, Uebster lüğәti ermәni dilinin Hind-Avropa dillәri ailәsindәn heç biri ilә münasibәti olmayan bir dil olduğunu tәsdiq edir.**

**"Ermәni әlifbası 38 hәrfdәn ibarәtdir... Mesrop әlifbası vә ya Danyelli deyilәn bu yazının Yenisey-göytürk oyma yazısı ilә bәnzәrliyi vardır.**

**Bu әlifbanın 11 hәrfi tamamәn göytürk әlifbasına bәnzәyir. Qrabar adlanan vә Turan ünsürlәri ilә zәngin olan ermәni dili bu әlifbadan istifadә etmişdir"...**

*"Ermәni dilinin dә yazı vә әdәbiyyat dilinә çevrilmәsi İncilin tәrcümәsindәn sonra olmuşdur"* **(6: s. 23-24).**

***

Ermәnilәrin ilk inancları "iranlılar kimi günәşә, aya, suya, torpağa, külәyә, tәpәlәrә, Ağrı, Nimrud, Sübhan dağlarına, bürclәrә, böyük sulara, ulduzlara, itlәrә, göyәrçinlәrә, qartal, şahin kimi quşlara, ağaclara, qayalara, uydurma bütlәrә, tәbiәtә sitayiş olmuşdur. Mәbәdlәri olmamış, ibadәtlәrini açıq havada etmişlәr".

Bölgә kralı Dertand (Trdat) xristianlığı qәbul etdikdәn sonra, ardınca onun arvadı Asken, bacısı Xosrovituht vә sonra bu әrazidә yaşayan xalqın çox hissәsi İsa dinini qәbul etmiş... Qriqor Lusovoriç isә köhnә mәbәdlәri dağıtmış, bir sıra qәdim әsәrlәri mәhv etmişdir. Xristianlığı tәbliğ edәn bölgә dindarları özlәrini katolikos (millәtin nümayәndәsi) adlandırmışlar.

Ermәnilәrin böyük qismi ermәni kilsәsinin әsaslarını quran Qriqor Lusovoriçin şәrәfinә (bәzi qaynaqlara görә bu şәxs özü dә alban olmuşdur –X.İ.) özlәrini qriqoryan adlandırmışlar.

Mәnbәlәrin qeyd etdiyinә görә, **ermәnilәrin ilk dini mәrkәzlәri Muşda yerlәşir vә Artaşat adlanırdı. Sonra bu mәrkәz Eçmiәdzinә, daha sonra Tovinә köçürülmüş, VII әsrdәn etibarәn ermәni apostol (ortodoks) kilsәsinin dini mәrkәzi yenidәn Eçmiәdzinә qaytarılmışdır.**

IV әsrdәn etibarәn Bizans, Roma (hәtta sonralar hәm dә gürcü) kilsәlәri ilә mәzhәb uğrunda mücadilә edәn ermәni qriqoryan kilsәsi İranlıların da onları öz qәdim dinlәrinә



qaytarma yönündә basqılarına mәruz qalmış... nәhayәt Sәlcuq vә Osmanlı idarәsindә tam dini hürriyyәtә qovuşmuşlar.

M.Sәdi Koçaşa görә, "Bunun başlıca sәbәblәrindәn biri türklәrin milli adәt vә әnәnәlәri, islamın başqa dinә mәnsub azsaylı xalqlar haqqındakı hökmlәridir" **(6: s.25-28).**

***

Türk tәdqiqatçısı M.Sәdi Koçaş Osmanlı dövründә ermәnilәrin türklәrә, türk dilinә münasibәti, sayğısı haqda belә deyir:

**"Din vә dillәrini çox sevәn ermәnilәrin içindә türk dilini bilmәyәn, evindә türkcә danışmayan, türk adәt vә әnәnәlәrini türklәr kimi mәnimsәmәyәn ermәni ailәsi olmamış vә ya düşünülmәyәcәk qәdәr az olmuşdur. Bir çox qәzet vә kitabları ermәni әlifbası ilә türkcә nәşr edilirdi. Özlәrinin mәktәblәri olmuşdur. Amma öz arzuları ilә mәktәblәrdә türk dilindә dәrs keçilirdi. Onlar hәtta kilsәdәki dualarını türkcә etmişlәr. Belә ki, Şәrqdә bir çox ermәni qadınları da türklәr kimi çadra örtmüşlәr"** (6: s. 34).

**Tarixi istisnaların bizә ünvanlanmış istehzasına baxın!.. Bu gün bizә düşmәn kәsilmiş ermәni xalqı vaxtilә öz kilsәsindә türkcә dua edәn zaman, yanaşı mәscidlәrdәki türklәr, elәcә dә dünya türklәri Tanrıya daha çox әrәbcә dua edirdilәr!..** Başqa sözlә, mәnimsәdiyi dәyәri, nailiyyәti mühafizә etmә qabiliyyәti qeyri toplumlar vә quruluşlar içәrisindә ermәnilәri fәrqlәndirmәyә, onlara rәğbәt yaratmağa xidmәt edir. Öz tarix, mәdәniyyәt, әdәbiyyat vә qәdim yazılarımıza münasibәtdә özümüzә kәnardan baxmağın çoxdan vaxtı çatmışdır, soydaşlar!..

***

Ermәnilәrә vә onların inkişafına münasibәtdә türk vә rus hakimiyyәtlәrini Varantyan "Ermәni hәrәkatının tarixi" (1914-ci il, ermәnicә) әsәrindә belә fәrqlәndirir:

"Türkiyә ermәnisi rus ermәnisinә nisbәtәn ermәni mәdәniyyәti, dili, tarixi, әdәbiyyatı ilә bağlı çox mәlumatlı vә sәrbәst idi. XIX yüzilliyin әvvәllәrindә ermәnilәr bir millәt olaraq Avropada mәlum deyildilәr" **(6: s. 35).**

***

"Avropada dövlәtli bir ermәnidәn pul tәlәb edәn ermәni inqilabçısına o belә cavab vermişdi:

-Mәn öz pulumla millәtin cәlladı olmaq istәmirәm!" *(Smbat Qabrielyan. Ermәni böhranı vә onun tәkrar yaranması.* Boston, 1905, ermәnicә.)

Daşnakların öldürdüklәri, bütöv bir ermәni yetimxanasının xәrclәrini müntәzәm ödәyәn Moskvadakı ermәni milyonçusu Jambaryan... İzmirdә Balyozyan, Novorossiyskdә Babalyan da hәmin avropalı ermәni milyonçusunun mövqeyindә idilәr, şübhәsiz **(6: s. 35).**

***

Osmanlılar tabeçiliyindәki azlıqlara din, dil, adәt-әnәnә hürriyyәti vermәsәydilәr, "bu gün Orta vә Şәrqi Avropada, Balkanlarda, bütün Anadoluda, Qafqazda, İranda,

Ərəbistanda və Şimali Afrikada türkdən başqa millət, islamdan başqa din qalardımı?" **(6: s. 36-37).**

Bir çox əcnəbi müəlliflər də bu məntiqlə səsləşən fikirlər söyləmişlər.

**Alisa Reqlus:**

"Türk hakimiyyəti şəxsin, fərdlərin mənəviyyatına nüfuz etmir. Deməli, bir çox cəhətlərdən xalq kütlələrinin muxtariyyəti, sərbəstliyi Qərbi Avropanın ən irəlidə olan məmləkətlərindən daha mükəmməldir".

**M.A. Ubiçini:**

"Vicdan hürriyyətinə gəlincə, Türkiyədə hakim olan din (islam), digər dinlər haqqında, xristian dövlətlərdə çox az görünən bir güzəşt göstərməkdədir.

Rumıniyalı professor Jorqa (XVIII əsrin son illərində, polşalı səyyah Mikoşaya istinadən): "Türklər tərəfindən ermənilərə, digər bir millətə bəxş edilən dərəcədən daha çox, daha ziyadə hörmət göstərilməkdədir. Ermənilər eyni zamanda türklər tərəfindən yunanlara verildiyindən daha geniş məzhəb hürriyyətinə malikdir" **(6: s. 39).**

İngilis alimi *C.V.Arnold "The Preacoinq of İslam"* (1896; təkrar nəşr: 1913), italyan şərqşünas *Teano Prensi Leoni Qaetano* isə *"Annales de İ`Jslam"* əsərində Türk ordularının fəth etdiyi yerlərdə başqa dinlərə müdaxilə etmədiyini göstərirlər.

Bəzi qaynaqlarda erməni şahzadəsi kimi təqdim olunan *Mkrtıç Dadyan "Revue des deux Mondes"* nəşrindəki (1867-ci il, iyun) məqaləsində Türk idarəsindəki ermənilərin vəziyyətini, din, fikir özgürlüyünü, sosial durumlarını təhlil etdikdən sonra Osmanlı üsuli–idarəsinə öz təşəkkürünü bildirmişdir **(6: s. 40).**

***

Pyotr dövründən Rusiya tərəfindən ardıcıl dəstəklənmələrinə baxmayaraq Osmanlıdakı 1857-1860-ci illərdə islahat fərmanı əsasında hazırlanan, 1862-ci ildə təsdiq olunmuş **"Nizamnameyi Milləti Ermənıyan**–*Erməni Millətinin Nizamnaməsi"* Rusiya erməniləri haqqında 1836-cı ildən qüvvədə olan qanun (**Polojenie–***Əsasnamə*) ilə müqayisədə çox demokratik və mütərəqqi idi. Belə ki, Osmanlı qanunu ermənilərə daxili sərbəstlik verdiyi halda, Rusiya yasaları onların dini mərkəzlərini, dini rəhbərliyini nəzarətdə saxlayır, katolikos özü və sinod üzvləri isə rus çarının fərmanı ilə təyin edilirdi. Bu mexanizm vasitəsilə 1903-cü ildə bütün erməni kilsələrinə və məktəblərinə rusların aşkar təsiri və təzyiqi müşahidə olunmuşdu **(6: s. 42)...**

Osmanlı Dövlət Şurasının (Danıştay) üzvlərinin 1/3 –i xristianlardan təşkil olunsa da, ruslar yenə xristian kartından əl çəkmək istəmirdilər: "Ya xristianlara müxtariyyət verilməli, ya da Osmanlı imperatorluğu parçalanmalı və bölünməlidir". (İfadə Knyaz Qorçakova məxsusdur və 1868-ci ildə deyilmişdir.)

Ermənilərin sonralar muxtariyyət və istiqlal tələblərinə istinad yeri isə, onların durumundan fərqli durumda olan və öz bölgəsində nisbi çoxluq təşkil edən Balkan xristianlarının Avropa və Rusiyanın yardımı və dəstəyilə istiqlallarına çatmaları idi **(6: s. 44-45).**

...Türklərin məşhur düşməni İqnatevin ağır şərtli ultimatumunun Midhət paşa rəyasətindəki müzakirəsi zamanı erməni keşişi böyük bir həyəcanla ayağa qalxaraq: "Əgər bu möhtəşəm dövlətin yıxılması labüddürsə biz onun xarabaları altında basdırılmağı özümüzə rəva bilirik" **(6: s. 47)...**

***

Rusların "erməni məsələsi"ndə rolunu **Edqar Qranville** belə xarakterizə edir: "... Ruslar erməniləri bu işə təhrik etməyənə qədər heç bir erməni hərəkatı olmamışdı. Rusların "köməyi ilə başlayan Balkan hərəkatına qədər ermənilər sadəcə öz aralarında məzhəb mücadiləsi aparmışlar. Hətta öz aralarındakı anlaşılmazlıqların həlli üçün türklərdən kömək alırdılar.

Rus zülmünə qarşı ermənilərin sığınacaqları yeganə yer Türkiyə idi.

Rus çarının bu məqsədlə Əbdühəmidi erməni qırğınına təşviq etməsi bütün dünyada bilinən bir gerçəkdir."

Edqar Qranvillenin bu qənaətindən sonra M.Sədi Koçaş kimi "erməni məsələsi"nin mahiyyətindən xəbərdar olan hər bir tədqiqatçı istər-istəməz Rusiya Xarici İşlər naziri Lobanov-Rostovskinin "Rusiya hüdudlarında ermənisiz bir Ermənistan" nəzəriyyəsini anmalı olur **(6: s. 51).**

***

Edqar Qranville "Çar Rusiyasının Türkiyədəki mücadilələri" əsərində çox maraqlı bir nəticə ilə də çıxış edir:

"Əsasən ilk mücadilələr türklərlə deyil, kürdlərlə olmuşdu. Kürd baxımından bu bir siyasi məqsədlə deyil, sosial-iqtisadi səbəblər üzündən yaranmışdı. Lakin kürdləri bu işə təhrik edən də ruslardır. Onların səbəbləri isə tamamilə siyasətlə əlaqədar idi" **(6: s. 55).**

Valter Ginnes isə "The National Review" məcmuəsinin 1914-cü il yanvar sayında "İmpression of Armenia and Kurdistan" başlıqlı məqaləsində rusların Osmanlı kürdlərini qızışdırdığını və onlara silah verdiyini yazır **(6: s. 56).**

***

Balkan müharibəsi zamanı cəbhə bölgəsində olan fransız jurnalisti Stefan Lozan türklərin imkan və niyyətlərini sərrast qiymətləndirir:

"...Türklər istəsəydilər Balkanlarda bir nəfər də slavyan qalmazdı. Bəli, bir tək slavyan! Tarix bəzi irqlərin və millətlərin necə yox olub getdiyinə şahiddir. Tarix boyunca hakim xalqlar özlərindəki azlıqlara zülm və zillət edərək onların digər yerlərə köçməsinə nail olduqları kimi, türklər də istəsəydilər, bolqarlar, serblər, qaradağlılar, yunanlar üçün də bu müxtəlif yox etmələri ayrı-ayrılıqda və kütləvi şəkildə tətbiq edə bilərdilər" **(6: s. 52)...**

Stefan Lozan qəzetdəki həmin məktubunda türk diplomatı Qalib Kamal bəyin dilindən Fransa kralı I Fransiski vaxtilə Osmanlı Ordusu və donanmasının əsirlikdən qurtarmasına rəğmən Fransanın hələ də türk düşmənçiliyinə qurşandığını faktlarla xatırladır **(6: s. 54).**

***

Məsələ ilə bağlı obyektiv bilgisi olan bir çox tanınmış türk əleyhdarları belə ermənilərin Osmanlıdakı durumunu təqdir edirdi. Onlardan biri, məşhur şərqşünas, İngiltərə parlamentinin üzvü ser Mark Sukes "The Caliph`s Last Heritage" adlı əsərində türklərə qarşı açıq düşmənçiliyini ifadə etsə də, türk xalqına qarşı yönəlik iddiaları yalanlayır:

"Şəhərlərdə yaşayan ermənilər Türkiyədəki digər xristianlar kimi öz imkanları baxımından mübaliğəli bir inama sahibdirlər..."

"... Erməni komitəçiləri öz dindaşlarını soymağı düşmənlə savaşmaqdan üstün tuturdular. İstanbuldakı erməni anarxistləri öz millətlərini bombalarla öldürmüşlər. Keşişlərin cinayətlərinə başqa keşişlər etiraz etmirdilər.

Kilsə ikiyə bölünmüş vəziyyətdə idi. İnqilabçıların tətbiq etdikləri üsullardan daha betər şeytan əməli düşünmək mümkün deyil. Bunlar həm müsəlmanları, həm də onlara pul verməyən xristianları qətlə yetirmişdilər" **(6: s. 55).**

***

Din və mədəniyyətləri üçün ermənilərin türklərə borclu olduğunu, türk-erməni problemlərinin, qarşıdurmasının böyük dövlətlərin təhriki ilə yarandığını aydın misallarla və sənədlərə sübuta yetirən Edqar Qranville əsərində böyük ingilis alimi prof. C.V. Arnoldun "The Preaching of İslam. An histori of propagation of the Muslim faith" adlanan tədqiqatını maraqlananlara tövsiyə etmiş və həmin tədqiqatı təhlil etmişdir **(6: s. 61).**

Osmanlı dövlətinin, türklərin ermənilərə münasibətini, bu nəhəng dövlətin rəhbər strukturlarında çalışan ermənilərin bitib-tükənməyən siyahısından kiçik bir parça da təsdiq edə bilər:

**Osmanlı İmperiyasının məşhur məclis üzvləri (*senatorlar*):**
Marşal Ohanes Güyümçyan paşa
Abraham Eramyan paşa
Manuk Azaryan
Qabriel Noradunkyan

**Millət vəkilləri:**
*(1876-cı il Birinci Məşrütə Məclisindəki)*
Ovanes Allahverdi-Məclis üzvü, sədr müavini
Səbuh Maqsudyan
Ruben Yazıçıyan
Saak Yavrumyan
Hamazasb Ballaryan
Manuk Karçıyan
Mikael Altıntop
Akop Şahinyan
Taniyel Qaraçiyan

*1908-ci ildəki İkinci Məşrutə Məclisindəki erməni millət vəkillərinin sayı 11 nəfər, 1914-cü ildə yenə 11 nəfər təşkil etmişdir. (Adlarını yazıb oxucunu yormağa lüzum görmürük.)*

**Xarici İşlər Nazirliyindəki bəzi məmurlar:**
Qabriel Noradunkyan-nazir
Ovanes Sakız paşa – məsləhətçi
Arutyun Dadyan paşa-məsləhətçi
Harutyum Dadyan paşa-məsləhətçi
Manuk Azaryan-məsləhətçi

**Xüsusi Dövlət Xəzinəsi Nazirləri:**
Akop Kazazyan paşa – nazir
Mikael Portağalyan paşa – nazir
Ovanes Sakız paşa – nazir.
Dövlət Şurasının bəzi üzvləri
Andon Tınqır Yavər paşa
Abraham Yeremyan paşa
Mihran Düz
Petros Güyümçüyan...



*Əziz oxucu!* Bu siyahını çox uzatmaq olar: Dövlət Şurasındakı erməni millətindən olan bölmə müdirləri, Avropa dövlətlərindəki səfirlər, konsullar, elçilik katibləri, məmurlar... İctimai işlər nazirləri (5 nəfər), Poçt –Teleqraf nazirləri (3 nəfər), Maliyyə naziri (1 nəfər), gömrük məmurları (tək bir gömrükxana müdirinin tabeçiliyində 20 min erməni məmur çalışmışdır) və s. müxtəlif vaxtlarda Osmanlı Dövlətində göstərilən vəzifələri tutmuşlar **(6:** s. 64-70**).**

Bu yerdə bir Azərbaycan xalq məsələni xatırlamaya bimirsən: PİRİNƏ TƏPİK ATIR! Paradoksa baxın ki, Sovet qoşunlarının önündə Berlinin iradəsini sındıran ilk sovet generalı Həzi Aslanov azərbaycanlı olduğu üçün ona marşal adı verilmir, ancaq Türkiyədə,"əzilən" erməni xalqının nümayəndəsi Ohanes Güyümçyan paşa marşal ola bilir. Haşa, biz bu erməni marşalın xidmətlərinə kölgə salmaq iddiasında deyilik, sadəcə olaraq Osmanlıdakı "əzilmiş" erməni xalqının hüquqlarını daha müasir Sovet (oxu: *bolşevik rus*) dövlətindəki bərabər hüquqlu azərbaycanlının (oxu: türkün, müsəlmanın) hüquqi vəziyyəti ilə ötəri şəkildə tutuşdurmaq istərdik. Berlinə ilk girəcəyində Azərbaycanı şöhrətləndirəcək deyə A.Mikoyanın göstərişi ilə Həzi Aslanovun tankının "özümüzünkü"lər (oxu: bolşevik ermənilər) tərəfindən vurulmasını da bura əlavə etsək, mətləb bir az da aydınlaşar..

***

Nyu-York Herald" qəzetinin müxbiri **Sidney Uitmenin "Turkish Memories**, 1914" adlı əsərində deyilir:

"İngiltərənin Ərzurum konsulu Qrivsdən soruşdum:

-Əgər bu məmləkətə (Türkiyəyə) heç bir erməni komitəçisi gəlməsəydi və erməniləri üsyana cəlb və təşviq etməsəydi, bu qırğın olardımı?

-Əlbəttə ki, yox. Güman etmirəm ki, bircə erməni də öldürüləydi..."

"...Bir yəhudi mənə Trabzonda demişdi:

-Əgər bu hərəkətlərin birisi Rusiyada olsaydı, bir tək erməni sağ buraxılmazdı. Rusiyada ermənilər əsgərliyə götürülürlər, məmləkətlərindən çox uzaqlarda əsgəri qulluqda olurlar. Məktubları senzuradan keçirilir. Türkiyədə isə xoşbəxt həyat sürürlər. Dövlətlənirlər. Əsgərliyə getmirlər. Məktəblər sərbəstdir. Milli tarixlərini öyrənirlər. Düşmənçilik təlqin edirlər.

...Türkiyədəki xarici konsulluqların ətrafındakılar ermənilərdir. Onlar nə desələr, konsullar öz elçiliklərinə onu da yazırlar. Bu konsulluqlar Rusiyada, Almaniyada olsaydılar, elçilərinə belə şeylər yazardılarmı? Burada yaza bilmələrinin səbəbi xristian konsulluqlarının olduğu üçündür. Erməni komitəçiləri sakit fermer, sənətkar və hambalları qızışdırırlar. Türklərin xristianlığa aqressiv münasibət göstərmələrindən bəhs edirlər. Halbuki Trabzondan Ərzuruma qədər yollar, qəsəbələr monastırlarla, xristian məbədlərilə doludur. Erməni məktəbləri, kilsələri Rusiyadakından qat-qat artıq sərbəstdirlər" **(6:** s. 75**).**

***

Hələ 1717-ci ildə Venesiyada, Müqəddəs Lazar adasında yaradılmış erməni kilsəsində fəaliyyətə başlayan mxitarçı rahiblər də erməni millətçiliyi və türklərə qarşı fəaliyyətin tarixi və ideoloji məsələlərində yardımçı olmuşlar. Bu məqamda rus generalı Mayevskiyə diqqət etməyə dəyər:

"Erməni ruhani başçılarının din xüsusunda fəaliyyətləri, səyləri yox kimidir. Bunun müqabilində milli fikirlərin inkişafı xüsusunda həddən çox əmək sərf etmişlər. Yüz illərdən bəri belə fikirlər əsrarlı monastırların səssiz divarları içində artmış və inkişaf etmiş,

buralarda dini ayinlər əvəzinə xristian-müsəlman düşmənçiliyi təlqin edilmişdir" (6: s. 77-78)...

***

"Daşnaksütyun"un bəyannaməsində kürdlərə münasibət belə müəyyənləşmişdi:

"...Varlılar! Siz də xalqın düşmənlərdən, kürd bəylərindən sinələrini müdafiə edə bilmələri üçün silah almalarını təmin edin" **(6: s. 83).**

Türkiyənin müxtəlif yerlərindəki erməni komitələrinin fəalları cinayət başında yaxalanan zaman təcili olaraq Rusiya səfirləri və konsulları məsələyə müdaxilə edirdilər. "Erməni məsələsi"nə dəstək verməyən ermənilər özləri də komitəçilər tərəfindən terrora məruz qalırdılar **(6: s. 84).** İş o yerə çatmışdı ki, İstanbulda Robert kollecinin (Amerika kolleci) müdiri doktor Qurus Hamlın 1893-cü ildə Bostonda yayınlanan "Konqresçilər" jurnalına göndərdiyi məktubda erməni liderlərindən şikayətlənmişdi:

"Bir erməni inqilab partiyası Türkiyə imperatorluğunun bəzi yerlərində bütün xristian missionerlərinin fəaliyyətinə böyük pisliklər etməkdə və iztirablara səbəb olmaqdadır..."

Ardınca müəllif oxuculara anladır ki, o, ermənilərin dilindən rusların dəstəyi ilə Türkiyədə törədəcəkləri faciə perspektivli və risqli planları dinlədikdən sonra "bu hərəkətin erməni adını dünyaya nifrətlə xatırladacağını" bildirmişdir **(6: s. 85).**

***

Osmanlıdakı ermənilərə verilmiş azadlığın anarxiya səviyyəsində olduğunu xatırladan türk araşdırmaçısı M.Sədi Koçaş yazır:

"Erməni sənətkarları xəyali Ermənistan tabloları (poçt markaları, pul, siqaret kağızı, teatr pərdəsi, yastıq üzü və s.) düzəldərək onları hər yerdə işlədir, milləti üsyana hazırlamaq məqsədilə bunlardan istifadə edirdilər.

**Osmanlı hökuməti bütün bu hadisələrə qarşı qəti tədbirlər görmək əvəzinə, bunları bir vicdan hürriyyəti, azlıqda olanların haqqı kimi qəbul edirdi.**

**Osmanlı dövlətinin ən böyük günahı elə budur! Hürriyyətin anarxiya demək olmadığını qəbul etmək lazımdır. Elə bu səbəbdən bu üsyanlarda hökumətin də günahkar olduğu qənaətindəyəm. Əgər ilk üsyanları başlayanlara layiq olduqları cəzalar verilsəydi, bu vəziyyət davam etməz və iki tərəfdən milyondan çox insan öldürülməzdi.**

**Halbuki, bütün dünyada zalım kimi tanıdılan və "Qırmızı Sultan" adı ilə xatırlanan II Əbdühəmid həyatını təsadüfən qurtara bilmiş, "Ulduz" sui-qəsdini hazırlayan və bir çox günahsız insanın ölümünə səbəb olan məcarapərəstlərdən sadəcə birinin edamına hökm çıxarmış məhkəmənin qərarına baxmayaraq onu da bağışlamışdır. Dövlət bu şəkildə idarə edilə bilməz" (6: s. 87-88).**

*Müəllifin gəldiyi məntiqi nəticə haqda düşünməyə dəyər!*

***

Britaniyanın Osmanlıya qarşı təzyiqlərlə "erməni məsələsi"ni süni şəkildə şişirdib, sui-istifadə etmə siyasətinə toxunan K.Gürün yazır: "... 1882-ci ildə də İngiltərə Almaniyanı birgə fəaliyyətlərə yönləndirməyə cəhd edir. Almaniyanın Xarici İşlər Nazirliyi 22 aprel 1882-ci ildə Londondakı alman səfirliyinə göndərdiyi 169 saylı əmrində göstərirdi ki, Türkiyənin daxili işlərinə qarışmaq sultanın Almaniyaya qarşı inamının itməsinə gətirib çıxara bilər, həmçinin Avropada sülh maraqları da formalaşmış inamlı münasibətlərin qorunmasını tələb edir" **(8 ; 7: s.153-154)...**



"...10 may 1883-cü ildə lord Daffern öz hökumətinin əmrini terinə yetirərkən yenidən sultana baş çəkdi və erməni məsələsini müzakirə edərkən ona xatırlatdı ki, 4 iyun 1878-ci il Kipr razılaşması həm İngiltərənin, həm də Türkiyənin üzərinə öhdəliklər qoyur və əgər Türkiyə islahatları həyata keçirməməklə öz öhdəlik payını yerinə yetirməsə, o halda İngiltərə də Türkiyənin müdafiəsinin təminatçısı öhdəliyindən azad olmuş sayılacaq.

Sultan cavabında, ingilislərin Kiprdə nə səbəbdən qalmağa davam etmələri ilə maraqlandı. Beləliklə, ingilis diplomatiyasının demarşı nəticə vermədi.

İngiltərənin Xarici İşlər Naziri Qrenvill 1883-cü ildə də Almaniyanı və Avstriyanı birgə fəaliyyətlərin zəruriliyinə inandırmağa cəhd edir, ancaq yenə də müvəffəqiyyətsizliyə uğrayır. Almaniya Xarici İşlər Naziri 17 may 1883-cü ildə Londondakı alman səfirliyinə göndərdiyi 9 saylı əmrində qeyd edirdi: "Başa düşə bilmirəm, sultanı zəiflətmək İngiltərəyə hansı mənfəət gətirəcək. Konqresdə erməni islahatı haqqında məsələ praktiki və nəzəri baxımdan müzakirə olundu. Güman edildi ki, bu sonra parlament debatları zamanı lazım gələ bilər. Praktiki baxımdan islahat şübhəli nəticələrə gətirər, o-ermənilər üçün ikiağızlı xəncərdir. Bizim baxışlarımıza görə, Osmanlı İmperiyasının həyat fəaliyyətinin zəifləməsi və ermənilərin Türkiyə ilə bağlarının qırılması ingilis siyasətinin məqsədi olmalı deyil. İş işlərə bənzər şəkildə qarışmalar çətinliklər yaratmağın ən yaxşı yoludur. Avropada sülh və Şərqdə əmin-amanlıq maraqlarından çıxış edərək, lord Daffernin təşəbbüsünü perspektivsiz sayıram." **(8 ; 7: s.154).**

Avstriya nazirliyi (*yəqin ki, Xarici İşlər Nazirliyi* –X.İ.) də bu məsələlərdə İngiltərəyə qoşulmaq istəmədiyini ifadə edirdi.

Sonucda İngiltərə Misiri tutmaqla öz inadını yeritdi. Və Kiprdə iştirakını sürdürməyə davam etdi. Lozann müqaviləsinədək də **4 iyun 1878-ci il** (***K.Gürünün "Erməni dosyası" kitabının*** *rusca (Bakı) nəşrində səhvən* ***1978-ci il*** *gedib, ancaq* ***1878-ci il*** *olmalıdır* –X.İ.) **Kipr müqaviləsi** ləğv edilməyib (7: s.154-155).

***

İstanbuldakı alman səfiri 28 sentyabr 1890-cı ildə öz ingilis həmkarı ilə söhbəti haqda Berlinə, XİN-nə yazırdı: "Ser Uilyam Uayt (*ingilis səfiri* –K.G.) dedi ki, Ermənistanın muxtar idarəolunma ideyası xaricdə, o sıradan, İngiltərədə komitələr tərəfindən irəli sürülür və təkcə cənab Qladston tərəfindən dəstəklənir, indiki hökumətdə rəğbət oyatmır. Bu yaxınlarda erməni havadarlarından biri, Liberal partiyasından cənab Vilyam Semmer burada olmuşdu. O, ingilis səfirinə bildirdi ki, həm Qladston, həm də o özü erməni məsələsini Solsberi hökumətinin fəaliyyətini mürəkkəbləşdirmək üçün istifadə edirlər". (9 ; 7: s.179)...

***

Fransa arxivlərindən Gürünün aşkar etdiyi növbəti bir sənəd də tipik bir erməni yalanına, saxtakarlığına şahidlik edir. Paris Sülh Konfransına gələn Ahoronyan 11 sentyabr 1919-cu il tarixində Fransa Baş Naziri Klemansoya yazırdı:

"Mustafa Kamal paşanın nizami ordu hissələri türk-tatar bandaları ilə birlikdə Ermənistan respublikasını məhv etməyə başlamışlar.

Bizim hissələr qanlı döyüşlərdən sonra Naxçıvanı tərk etməyə məcbur olmuşlar.

Mustafa Kamal paşanın 2 diviziyası Sarıqamış və Kağızmanl ələ keçirməyə girişmişlər...

Türk əsgərlərinin hücumu Qars bölgəsindən yerli və burada sığınacaq tapmış ermənilərin kütləvi qaçmasına gətirib çıxarmışdır.

Bu bölgənin türklər tərəfindən tutulması – zaman məsələsidir." **(11 ; 7: s. 325-326).**

Həqiqət isə belə idi: Böyük Millət Məclisi tərəfindən yalnız 1920-ci ilin 20 sentyabrından etibarən Kazım Qarabəkir paşaya Doğu Anadoluda xilaskar hərbi əməliyyatlara başlamağa icazə verildi. 26 sentyabrda Kazım Qarabəkir paşanın 28 sentyabr 1920-ci il tarixində saat 3.00.-da hücüma başlamaq haqda əmri hissələrə çatdırıldı. Və həmin hücum əməliyyatlarını da Doğu Anadolunu imperialistlərin köməyi ilə işğalda saxlayan ermənilərin bu işğalla kifayətlənməyib, Oltu bölgəsində Tuzla istiqamətində hücüma keçmələri şərtləndirmişdi. Bunu Ermənistanın ilk Baş Naziri H.Kaçaznuni də etiraf edir **(10:** s.37).

Başqa sözlə, Ahoronyanın "türklərin geniş miqyaslı hücumu" haqda Klemansoya verdiyi 11 sentyabr 1919-cu il tarixli rəsmi məlumat erməni rəsmilərinin də, əksər qeyri-rəsmiləri kimi, ikrahdoğurucu yalanlarla işlədiyinin bariz təsdiqidir.

***

Fransız yüksək komissarı Q.Piko Qahirədə olarkən 19 noyabr 1918-ci il tarixində öz nazirinə göndərdiyi teleqeramda yazırdı: "Sizin təlimatınızı yerinə yetirərkən erməniləri toros keçidlərinin alınmasında istifadəyə yönəltməyə israr etdim, baş komandan inandırdı ki,ilk fürsətdə erməniləri ora göndərəcək. Beyrutda iğtişaşlara səbəb olmuş ermənilər üçün bu, çıxış yolu idi". (12 ; 7: s.337).

***

K.Gürün yazır: İşğalçı fransızlarla danışıqlar nəticə verməDiyi üçün cənubda partizan müharibəsi zərurətə çevrildi. Həlledici savaş 20 yanvar 1920-ci ildə başladı və fransızlar şəhəri tərk etməyə məcbur oldular...

Bu cəbhədə, təbii ki, əməliyyatlar Maraş, Urfa və Antəpdə yerləşən işğalçı fransız qüvvələrinə qarşı yönəlmişdi. Buradakı ilk toqquşmalar da, təxmin etmək heç çətin deyil ki, Avropada, yönləndirilmiş əks-sədalar doğurdu.

Hər şey 6 fevralda İstanbuldakı erməni patriarxının Maraşda 2 min nəfər erməninin öldürülməsi haqda Zaven Nübar paşaya göndərdiyi teleqramından başladı **(13 ; 7:** s.345-346). Bu rəqəm Röyter Agentliyinin 25 fevral məlumatında 70 minə sıçradı **( 14 ).**

"Eyni zamanda Londonda sülh danışıqları gedirdi. 18 fevralda lord Kerzon buradakı çıxışında Poqos Nübar paşanın və İstanbuldakı ingilis admiralının verdiyi məlumatlara istinad edərək, kamalçıların əli ilə Maraşda 20000 ermənin öldürüldüyünü bildirdi. Sultanın devrilməsi və onun hökumətinin həbsi haqda tələb səslənirdi." **( 15 ).**

Fransız Xarici İşlər Naziri Mileranın Londona göndərdiyi teleqrama diqqət edək: "Londonda dolaşan mənşəyi məlum olmayan şayiələr heyrət yaradır. Erməni talanları (qırğınları) haqda heç bir yerdə heç bir fakt yoxdur. Maraşda erməni itkiləri barədə məlumatlar tamamilə həqiqətə uyğun deyil. Bizimlə birlikdə ermənilər də savaşda iştirak edirlər ki, hər savaşda olduğu kimi, təbii, itkilərə məruz qalırlar. Hərtərəfli araşdırmalar göstərir ki, erməni itkiləri 1000 nəfəri aşmır." **( 16 ).**

**Beyrutdan komandan, general Qaronun göndərdiyi 12 mart tarixli (yəqin ki, 1920-cil –X.İ.) tarixli** teleqram da maraq doğurur: "Erməni legionu indiki zamanda 1496 nəfərdən ibarətdir... Legionda say artımı vəziyyəti mürəkkəbləşdirməyə gətirib çıxarardı. Bu erməni hissələrini elə yerlərdə istifadə etməyə dəyər ki, orada türklərlə təmasa çıxmaq imkanları olmasın. Belə bir yer ancaq Suriyadır. Ancaq ermənilər orada da əhalinin nifrətini qazanıblar, hansı ki əhali ermənilərin orada iştirakından qurtarılması üçün generala xahişlə müraciət ediblər." **( 17 ).**



***

"Zeytunda ən böyük üsyan 1895-ci ildə baş vermişdi. Bu üsyan hnçakçıların göndərdikləri adamlar və baş keşiş iqamətgahının təşviqi, köməyi ilə başlanmış davam etdirilmişdi.

Zeytun qışlağındakı 600 türk əsgər və zabit əsir edilərək öldürülmüşdü. Uzun sürən mücadilədən sonra hökumət qatilləri tam həbs edəcəyi anda Avropa dövlətləri işə qarışaraq dövlətin nüfuzunu aşağı salan şərtlərlə üsyanı dayandırmışdılar.

Avropa dövlətlərinin və Rusiyanın bu tərzdə müdaxilə və yardımları Osmanlı dövlətinin üsyançılara cəza verməməsinin, dolayısı ilə komitəçilərin cürətlərini artırmasının başlıca səbəblərindən biri olmuşdur" **(6: s. 89).**

***

**"Nyu-York Herald" qəzetindəki məqalələrin birində də avropalıların araşdırmaları sonucunda, erməni üsyanının xaricdən təşviqi, ermənilərin müsəlmanlara təcavüz edərək gözlərini çıxarmaq, qulaqlarını kəsmək, xristianlığı zorla qəbul etdirmək məqsədilə təzyiq və qətllər törətdiyi haqda bilgi verilir (6: s. 90-91).**

*Bu məqamda haqsızlığın dərəcəsindən heyrətlənməmək olmur: 500 ildən artıq bir müddətdə öz din və adətlərini türkün himayəsi ilə qoruyan erməni əlinə imkan düşən ilk fürsətdə ulu xilaskarı qosqoca türkün kimliyini dəyişməyə qalxarmış!*

***

Rus konsulu general Mayevski (1896-cı il Van üsyanı haqqında):

**"...inqilabçılar (*erməni komitəçiləri* –X.İ.) haqqında heç bir təqib tədbiri görülmədiyindən, bunların cürəti artmış, müsəlmanların səbri tükənmişdi".**

İngilis konsulu Uilyams:

**"Bütün bu hallara sərsəm ermənilər səbəb oldular. Bu ağılsız təhrikdən özlərinə bir fayda olmayacağını dəfələrlə izah etdim.**

**Müsəlmanların səbrlərini son həddə qədər təhrik etdilər. Amma ümidləri qalmadı. Qəzetlərdə erməni məsələsinə aid yazılanlar yalandır... Tamamilə günahsız öldürülən türklərə aid əlimdə sənədlər var. Türklər yalnız Anadoludakı müsəlmanların deyil, digər millətlərin də ən yaxşılarıdır. Rus və Avropa qəzetlərinin iftiralarına layiq deyildirlər" (6: s. 91-92)...**

***

Bir "Daşnaksütyün" baş idarəsində çalışan ermənin öz kitabındakı etirafı: "Osmanlı dövlətinin həbsxanalarında siyasi məhbus yoxdur. Rusiyada isə elə bir həbsxana yoxdur ki, boş olsun. Qafqaz erməni daşnaksağanları həbsdən, işğəncədən, Sibirdən qurtulmaq üçün İstanbula, Osmanlı ölkəsinə pənah gətirirlər".

**Ərzurumdan deputat Qaragin Basdırmaçıyan Qafqaza gedərkən Batumda ruslar tərəfindən tutuqlanan zaman Osmanlı dövləti məsələyə müdaxilə edərək, onu həbsdən azad etdirsə də, bu erməni I Dünya Savaşı dövründə üsyanları idarə edən və türklərə qətliam yapan banda yaradan bir şəxsə "çevrilmişdi" (6: s. 96).**

Yeni seçilmiş katolikos İzmirliyan Peterburqda Çarın hüzuruna gedərək Qafqazdakı həbsxanalarda yatan erməni dustaqlarını buraxmağı xahiş edən zaman Çar vəd versə də, sonra vədinə əməl etməmişdi. Buna baxmayaraq, dünyanın bir çox dövlətlərində rus zülmünə qarşı nümayişlər keçirən erməni komitəçiləri az bir müddət

ötdükdən sonra Osmanlı İmperiyasına qarşı mübarizə aparmaq üçün rusların ağuşuna girdilər.

"Çar Rusiyası da Aralıq dənizində özləri üçün bir qapı əldə etmək üçün erməniləri təhrik edirdilər. Berlin Konqresi ərəfəsində erməni mənşəli rus generalı Loris-Melikov yepiskop Xoren Narbəyə yazdığı bir məktubda:

"Qafqazda sizin üçün yer yoxdur. Siz aşağı *(cənub)* üçün çalışın" deyirdi **(6: s. 96-97).**

***

Erməni xəyanəti Qafqazların, o sıradan İrəvan xanlığının ruslar tərəfindən işğalında oynadığı rolu I Dünya Savaşında da Osmanlıya qarşı daha vüsətlə, daha artıq rəzalətlə oynamaqdaydı. Bu haqda türk araşdırmaçısı M.Sədi Koçaş yazır:

**"...Müharibə sənədlərinə istinad edərək deyə bilərəm ki, şərq cəbhəsində 90 min nəfərlik türk ordusunun şaxtadan və rus ordusunun atəşindən məhv olmasının yeganə səbəbi bir türkiyəli ermənininin rus komandanlığına gedərək türk qüvvələrinin qar yığınları içində köməksiz vəziyyətdə qalmasını xəbər vermiş olmasıdır. Rus komandanlığı bu xəbəri alarkən Sarıqamışdakı və şərq istiqamətindəki rus qüvvələri İrəvan istiqamətində birləşmək məqsədilə geri çəkilmək əmri almışdı. Lakin ermənilərin bu məlumatından sonra göndərilmiş kəşfiyyat dəstəsi türk ordusunun qar içərisində həqiqətən vuruşa bilməyəcək vəziyyətini öyrənmiş, geri çəkilmə əmrini yerinə yetirməmiş, Sarıqamış yaxınlığında və Allahu Əkbər dağlarında 90 min nəfərlik türk ordusunu məğlub etmişdilər.**

**Bu vəziyyət davam etdiyi təqdirdə Osmanlı ordularının iki atəş arasında qalaraq məğlub olacaqları şübhəsiz idi" (6: s. 103-104)...**

***

Osmanlı İmperatorluğunun ən güclü və nüfuzlu öndərlərindən biri, hərbi dəniz naziri Camal paşa ermənilərin müvəqqəti köçürülməsi ilə bağlı qərara etiraz etmiş və 1915-ci ilin sonunda erməni baş keşişi Zaven əfəndi "Para palas" qonaq evində onu ziyarət edərək, xeyirxah fəaliyyətlərinə görə erməni xalqının adından təşəkkür etmiş və minnətdarlığını bildirmişdir **(6: s. 109).**

Ancaq 1920-ci ildə Tiflisdə ermənilər Camal paşanı küçədəcə, yavərlərilə birgə öldürdülər. Buna nə ad vermək olar? – Ermənisayağı minnətdarlıq?!

***

Fransız tarixçisi Larşer "Dünya müharibəsində türk hərbi" adlı əsərində savaşan əsas tərəfləri bu imperiyaların himayəsindəki xalqların təbəəsi olduqları dövlətlərə münasibəti kontekstində də müqayisə edir:

**"Müttəfiqimiz İngiltərə Cənubi Afrikada başladığı qanlı ingilis-bur müharibəsi nəticəsində belə Cənubi Afrika əsgərlərindən sədaqət görmüşdür. Bizim (Fransa) xarici legionlarımızda afrikalı müsəlmanlar da var idi. Hindistan müsəlmanları ingilis ordusunda sədaqətlə çalışırdılar. Lakin türklər onlara tabe olanlardan istisnasız olaraq xəyanət görmüşlər, hətta təbiəti etibarı ilə ən sakit və yatımlı olan yəhudilərdən belə".**

**Ancaq, yenə də bəzi istisnalar vardı. Müharibə dövründə mövcud olmuş "Xüsusi Osmanlı Təşkilat"ının başçısı Əşrəf Quşçubaşının dediyi kimi,**



**"Osmanlının acılarına şərik çıxmış və nəticədə bəzi türklərlə birgə Maltaya sürgün edilmiş yunanlar, ermənilər, yəhudilər də var idi" (6: s. 111).**

Ümumi nisbət isə, göründüyü kimi, hər halda, Larşerin məntiqinə əsas verməkdədir.

***

Erməni müəllifi Boryan komitəçilərin Osmanlıda erməni muxtariyyəti üçün deyil, Rusiyanın bu bölgəni işğalı üçün əlləşdiklərini, erməni yazıçısı Aknuni isə 1905-ci ildə İsveçrədə dərc etdirdiyi 24 məktubunda "Çarın vədlərinə inanan ermənilərin böyük xəta etdiklərini" bildirmişdir. Başqa sözlə, ermənilər Osmanlı dövlətinə qarşı fəaliyyətləri bir muxtariyyət, hürriyyət savaşı deyil, arxadan zərbə-alçaq bir xəyanət idi. Bu xəyanətə heç bir baxımdan bəraət verilə bilməz **(6: s.113-115).**

Kimsə Qafqazda və Osmanlı ərazisində erməni və onun havadarlarının irqçilik və dini ayrı-seçkilik nəticəsinə milyonlarla türkün və b. yerli xalqların soyqırımını və kütləvi tələfata uğramasını görməyib 1915-ci il Türkiyə hadisələrini "erməni soyqırımı" adlandırırsa, o zaman düşünsün ki, bu intihar xarakterli "soyqırımı"nı erməni siyasətçiləri və velikorus şovinistləri erməni xalqına yapmışlar, həm də aşırı məhəbbətləri dolayısıyla.

***

Tələt paşanın qatili Soqomon Tehleryanı layiqincə cəzalandırmayan Almaniya hökumətinə və məhkəməsinə etiraz edən alman generalı Bronzart Şellendrof 24 iyul 1921-ci il tarixli 342 saylı "D.A. Zeitung" qəzetində üsyankarcasına bildirirdi ki, məhkəmə nəyə görə hadisə yerində xidmət etmiş şəxsləri və həqiqi şahidləri deyil, bu olayları başqalarından eşidən adamları şahid kimi dindirir!?.

...Erməni üsyanı üçün səbəb yox idi.

...Ermənilər parlamentdə mövqe və rəy haqqını almışdılar. Hətta bəzən nazir də olurdular.

...Məmləkətlərində əmin-amanlıq fransız generalı Bauman tərəfindən idarə olunan jandarm qüvvələri ilə təmin olunurdu..."

Həmin qəzetin 1921-ci il tarixli 297-ci sayında başqa bir alman erməni üsyanına türklər heç bir bəhanə vermədiyindən və türklərə, türk əsirlərinə qarşı erməni vəhşiliklərindən danışır və buna az diqqət verildiyini bildirir. O, qatil Tehleryanı ruhi xəstə adı ilə azadlığa buraxan məhkəmənin hökmünün ədalətli olduğuna Şərqdə inamsızlıq yaranacağını da önə çəkir **(6: s. 117-119).**

Bu məqamda erməni "müdriki" Poğos Nübar paşadan qalan aforizmə diqqət etməyə dəyər:

**"Ən dəhşətli intiqamı ən yaxın dostlarınızdan almaqla qalib olacaqsınız".**



Silahlı Osmanlı erməniləri





**Karardan önce...**

Hain Ermeni Misak Torlakyan, cinayet işlediği için sanki İngiliz mahkemesi tarafından mükafatlandırılmıştı. Yukarıda Torlakyan kararın açıklanacağı gün askeri mahkemeye getirilirken görülüyor.



İndi isə ermənilərə və onların imperialist havadarlarına türk araşdırmaçısı M.Sədi Koçaşın tarixi hadisələrin məntiqindən doğan suallarıyla təkrar müraciət etmək istərdik: *"İngiltərə böyük vədlərlə bəzi ərəb liderlərini Osmanlı dövlətinə və Xəlifəyə (Sultana – X.) qarşı üsyana qaldırmağa müvəffəq oldu. Müharibədən sonra vədlərini nə dərəcədə yerinə yetirdi?*

*Müharibə zamanı bir tərəfdən Şərif Hüseynə və oğlanlarına "Böyük Ərəbistan padşahlığı", digər tərəfdən də sionist liderlərinə Fələstinin vəd edilməsi müharibə dövründə rusların ələ keçmiş sənədlərindən öyrənilmişdi. Bu sənədlər Şərif Hüseynə göndərilmişdi. O, zaman Şərif Hüseynin inanmadığı bu məsələ müharibədən sonra tətbiq edilənlərlə isbat olunmadımı?.."* **(6: s. 122,124).**

**Bənzər sualları bu gün Türkiyəni bölmək istəyənlərin ssenarisində (*"yol xəritəsi"*ndə) masqalı "əzabkeş-kamikadze", yırtıcı-aktyor, yırtıcı-əzabkeş rolunu oynayanların siyasi-mənəvi öndərlərinə də vermək istərdik.**

***

Əsl soyqırıma məruz qalan türk xalqının nümayəndəsi-Osmanlı hökumətinin Baş naziri Tevfik paşanın böyük dövlətlərə verdiyi 12 fevral 1919-cu il tarixli notada rus mənbələrinə istinadən erməni bandalarının Anadoluda 1000000-dan çox türkü vəhşicəsinə öldürdüyü və erməni iddialarına etirazlar bildirilirdi **(6: s. 129).**

***

ABŞ-ın xüsusi tapşırıqla ezam olunmuş generalı ser Harburt (*Harbord* –X.İ.) 1919-cu ilin sentyabr-oktyabr aylarında bütün Şərqi Anadolunu-Qara dənizdən İranadək-gəzsə də, ermənilərin iddialarına müvafiq məlumatlar öz təsdiqini tapmadı **(6: s. 131).**

***

***Erməni yalanları ilə bağlı gürcü müəllifi Feliks Tsertsvadzenin arqumentləri də cəlbedicidir:***

*"... onlar ciddi – cəhdlə erməni qiyamları mövzusundan yan keçirlər. Belə hadisələr türk hökumətinin əks tədbirlərinə səbəb olurdu, hansı ki, sonralar erməni mətbuatının təqdimatı ilə bütün dünyada soyqırım adlandırdılar.* **Ancaq məncə, Türkiyənin 1908-1915-ci il nümunəsi, məsələn, müasir İsraildən daha demokratik idi.**

*İsrail hələ də ərəblərə yəhudilərlə bərabər hüquq vermək qərarına gələ bilmir. Ərəblər İsrail ordusuna buraxılmır və onlara silah etibar edilmir. Türklər ki erməniləri bərabər və eynihüquqlu vətəndaş sayırdılar. Onları orduya çağırırdılar. Onlara silah etibar edirdilər. Bu bir daha erməni mətbuatının ermənilərin qırılması mifik planının mövcudluğu haqdakı uydurmalarını təkzib edir. Belə plan yox idi.* ***Qırmaq istədikləri xalqı heç vaxt silahlandırmazlar"*** **(5: s. 29).**

***

Feliks Tsertsvadze də "Andonyanın sənədləri"ni xüsusi məqsədlərlə saxtalaşdırılmış teleqramların düzəlmə (ələqayırma) surətləri adlandırır. Feliks Tsertsvadzeyə görə, Tehleryana bəraət vermək dərəcəsində haqsızlıq etmiş bir alman məhkəməsinin də "Andonyanın sənədləri"ni aşyayi-dəlil kimi qəbul etməməsi bu sənədlərin düzəltmə (saxta) olduğu səbəbindən idi. (*Əks halda Tələt paşanın erməni mənsubu qatil tərəfindən siyasi qətlinin səbəb və suç dərəcəsini araşdıran məhkəmə, Tələt paşanın və*

*Ənvər paşanın ermənilərlə bağlı Andonyanın təqdim etdiyi "teleqram"ların qətlin motivinə aid ola-ola niyə qəbul etməsin? – X.İ.)*

"Andonyanın sənədləri" əsl yox, sürət olduğu üçün guya ekspertizaya verildiyinə görə, onun (*Andonyanın* – X.İ.) tərəfindən özü ölənədək, yəni ***alman məhkəməsinin bu "sənəd"ləri rədd etməsindən 16 il sonrayadək də üzə çıxmadı.*** (Aydındır! Yəqin ki, bu **ermənişayağı ekspertiza** imiş –X.İ.)

Həm də bu necə sənəd imiş ki, nə onu göndərənin, nə alanın arxivində yoxdur, nə də maraqlı dövlətlərin əlinə keçmədi-surəti belə...

Ənvər paşa və Tələt paşanın ABŞ-ın Türkiyədəki səfiri Morqentau ilə bu haqda– "ermənilər düşmənin tərəfinə keçəcəyi halda onları müharibənin axırınadək təhlükəsizləşdirmək" (Tələt paşanın adından) və "...əzmək" (Ənvər paşanın adından) – etdiyi söhbətlər də quramadır. Feliks Tsertsvadzenin ifadəsilə desək, Türkiyənin iki rəhbər şəxsinin qarşı duran ABŞ tərəfi ilə bu cür məxfi məsələləri müzakirə etməsi absurddur **(5: s. 35-37)**. Üstəlik, olum-ölüm ayağında olan 600 yaşlı Osmanlı dövləti müstəsna olaraq öz hüququna aid olan məsələni düşmən tərəflə çayxana və ya bazar üslubunda dartışa bilməzdi.

***

Ermənilər Quba və Azərbaycanın başqa bölgələrində yəhudi-tatları (onları dağ yəhudiləri də adlandırırlar, fars dilinin dialektlərindən birində danışırlar) yalnız və yalnız ona görə öldürürdülər ki, onlar azərbaycanlılara oxşayırlar. ABŞ və İsraildəki yəhudi təşkilatları bu məsələyə dair faktlarla maraqlanmışlar. Bu fikir və qənaətlərin müəllifi Feliks Tsertsvadze öz kitabında ermənilərin azərbaycanlılara, türklərə və b. xalqlara qarşı törətdikləri qırğın və vəhşilikləri tarix, məkan, vəhşiliyin dərəcəsi və s. baxımdan təsnif edərək cədvəlləşdirmişdir **(5: s. 45-56)**.

***

**Gürcü tədqiqatçısı Feliks Tsertsvadze erməni başbilənlərinin hiyləgərliklərinin başqa bir "fəslini" də ifşa edərək yazır ki, erməni mətbuatı erməni "soyqırımı"nı yəhudi soyqırımı-Xolokostun kölgəsində yeritmək istəyir. Erməni mətbuatının "bülbülləri" yəhudilərə yarınan zaman kaş qulaq asaydınız, -deyə ABŞ-dakı rusdilli "Novoe russkoe slovo" erməni qəzetində səs – səsə verən Y.Tsaturyan və b. erməni müəlliflərini nəzərdə tutan Feliks Tsertsvadze E. Patriyants və digər erməni yazarlarının hətta getdikcə, Xolkostu-yəhudi soyqırımını yalançı erməni "soyqırımı"nın kölgəsinə salmaq, daha doğrusu öz "faciələrini" daha qabarıq göstərmək istədiklərini bildirir. Hətta T. Osipyan kimiləri absurd eynilik də "kəşf" edərək, yazır: Kim erməni "Soyqırımını inkar edirsə, deməli o, Xolokostu, yəni yəhudi soyqırımını da inkar edir və əksinə (5: s.61-63).** Məntiqə bax! – "Erməni soyqırımı"nı inkar edənə yəhudi soyqırımını tanımaq qadağanmış!..

***

Y.Tsaturyanın ABŞ-dakı "Новое русское слово" erməni qəzetinin 22-23 aprel 2006-cı il sayında dərc etdirdiyi "Чужая боль как своя" adlı məqaləsindəki "...Erməni və yəhudi xalqlarının taleyi çox cəhətdən oxşardır..." ifadəsinə münasibət bidirən gürcü müəllifi F. Tsertsvadze bu xalqları müqayisə edərək deyir ki, əgər bir yaşayış məntəqəsində, yaxud ölkədə yəhudilər peyda olurlarsa, ora canlanır və çiçəklənir, o yerdə sənət, elm, mədəniyyət və istehsal vasitələrinin sürətli inkişafı başlanır, ermənilər yeni ayaq qoyduğu yerlərdə isə fitnə-fəsad, qiyamlar, ərazilərin işğalı, aborigen (yerli)



xalqların həyatının zəhərlənməsi müşahidə olunur. Avropa və ABŞ-a söykənən ermənilər Türkiyə, Azərbaycan və Gürcüstanda [*Cənubi Azərbaycan (İran) və Şimali Qafqazı da əlavə etmək lazımdır* –X.İ.] özlərini məhz belə aparmışlar. Növbə Rusiyanındır, nə zaman ermənilər Rusiyada hakimiyyətdə olacaqlarsa, onda Avropa və ABŞ-la da çəkişəcəklər. Ruslar çox da şirniklənməsinlər: ermənilər Rusiyanın bütün strukturlarındakı rəhbərliklərə çoxdan nüfuz edibdir, hətta uzaq Xakassiyanı belə Rusiya parlamentinin yuxarı məclisində erməni senator təmsil edir – deyən gürcü müəllifi Feliks Tsertsvadze doğrudan da haqlıdır **(5: s. 63-64)**.

**Ədəbiyyat:**


1. И.Г.Чавчавадзе. Армянские ученые и вопиющие камни. Тифлис, 1902 - Баку, 1990.

2. Письмо в редакцию. Историко-филологический журнал АН Армянской ССР, Иреван, 1983, №4.

3. Историко-филологический журнал АН Армянской ССР, Иреван, 1971, №3.

4. İsmayıl Vəliyev "Milli qarşıdurma və erməni problemi"- M. Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, 1998-ci il nəşrinə ön söz.

5. Феликс Церцвадзе. Лицемерие и ложь армянской пропаганды. Баку, 2007.

6. M. Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. İstanbul, 1990-Bakı, 1998.

7. Кямуран Гюрюн. Армянское досьсе. Баку, 1993

**8. (Almaniya Arxivləri): Die Gross Politik, Band 9, №2183.**

**9. Die Gross Politik, Band 9, №2178.**

10. Ов. Качазнуни. Дашнакцутюн больше нечего делать. 1923. – Баку, 1990.

**11. AAEF** – Levant 1918-29 (Armenie). Volume 7, Folio 99.

12. **AAEF** – Levant 1918-29 (Armenie). Volume 1, Folio 244.

13. **AAEF** – Levant (Armenie). Volume 8, Folio 91.

14. **AAEF** – Levant (Armenie). Volume 8, Folio 180.

**15. Ibid., Folio 187.**

**16. Ibid., Volume 9, Folio 36.**

**17. Ibid., Folio 65.**

## ERMƏNİLƏR HAQQINDA ƏLAVƏ QEYDLƏR

Ermənilərin öz tarixçiləri hesab etdikləri alban tarixçisi Musa Xorenatsi (*Xorenli – X.I.*) yazır: "İndi olduğu kimi, keçmişdə də qədim xayların ağızdan-ağıza keçən nəğmələri olmayıb. Ona görə kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır".

Erməni tarixçisi Haykazyanın 1919-cu ildə Parisdə çap etdirdiyi "Erməni tarixi" kitabında isə müəllif öz xalqı haqqında belə deyir: "İlk erməni sülaləsinin başçısı tarixdə olmayıb. O, nağıllardan götürülmüş uydurma şəxsiyyətdir. Movses Xorenatsi özü də V yüzillikdə yaşamış saxtakar bir tarixçidir" (**11:** s. 11).

***

İstər Bizans, istər də dövlət dini zərdüştilik olan İran idarəçiliyi dövrlərində Ermənistanın dinini dəyişmək cəhdları ara verməmiş, ancaq 652-ci ildə bu bölgəni ərəblər işğal etdikdən sonra müsəlmanlar Ermənistan bölgəsi sakinlərinin dini inanclarına müdaxilə etməmişlər (**19:** s. 15)...

***

Ərəblərin Qafqazı işğal etdikləri dönəmdə ermənilərin vəziyyəti ilə bağlı Salman Vilayətoğlunun Simeon Yerevantsiyə istinadən qələmə aldığı bəzi fakt və mülahizələrə diqqət edək: "...IV-VIII əsrlərdə İrana, Ərəbistan çöllərinə, Balkanlardan keçməklə Avropaya səpələnən və bu yerlərin aborigen əhalisi tərəfindən assimilyasiya olunan ermənilər IX əsrin əvvəllərindən etibarən Alban dövlətinin xarabələri üzərində təşəkkül tapan yeni müstəmləkə dövlətlərdə təhlükəsiz yaşamaq imkanı əldə etdilər. Çünki hər bir işğalçıya yerli tayfalar arasında rəxnə sala biləcək, beləliklə vaxtilə qüdrətli Alban dövlətinin əsasını təşkil edən millətin ümumi müqavimətini sarsıda biləcək təxribatçı sakinlər lazım idi və "yer üzündə yer axtarışında olan ermənilər" bu iş üçün ən yararlı kütlə idi. Başqa sözlə, yaranmış şərait həm işğalçılara, həm də ermənilərə sərfəli idi və məhz tərəflər bir-birini tam mənada qane edirdilər. Farslara da, ərəblərə də, bizanslılara da ermənilərin onların tarixi torpaqlarını qan-qadasız tərk edərək tədricən Qafqaza axışmaları sərf edirdi, çünki bu halda aramsız döyüşlər həm erməniləri, həm də Qafqazın əzəli sahiblərini–qüdrətli Alban dövlətinin əsasını təşkil edən hun mənşəli Qafqaz oğuzlarını zəiflədirdi. Və ermənilərdən katalizator kimi istifadə metodu o qədər effektli oldu ki, VIII əsrdən sonra tarix səhnəsinə yeni hegemon güc sahibi kimi çıxaraq, Qafqaza diş qıcırtmış bütün tərəflər eyni taktikadan –erməni faktorundan eyni dərəcədə ustalıqla bəhrələndilər. Təbii ki, bu zaman super güclərin əsas məqsədi öz nəzarətlərini gücləndirmək olduğundan ermənilərin konkret məqsəd –müstəqil dövlət yaratmaq naminə manevr imkanları məhdudlaşırdı, amma bununla belə ermənilərin indiki Azərbaycan və Gürcüstan ərazisində kompakt məskunlaşması üçün münbit şərait, qismən də olsa, təmin olunurdu. Ermənilər üçün göydəndüşmə olan və az qala 1200 ildən bəri davam edən bu ənənənin əsasını isə VII-X əsrlərdə alternativsiz güc sahibi olan ərəblər qoydular. Belə ki, VII-IX əsrlərdə Albaniya bir dövlət olaraq süqut etsə də, xristian kilsələrindən köklü şəkildə fərqlənən, özündə daha çox hürri-zərdüştiliklə oğuz kultunun sintezini yaşadan alban kilsələrinin müqavimətini qırmaq ərəblərə müyəssər olmamışdı. Odur ki, onlar alban məbədlərinin yanında qriqorian kilsələri tikilməsinə yardım edir və xristian birliyi üçün separatizm təhlükəsi yaradan bu kilsələrə ağlagəlməz imtiyazlar verirdilər. Bu eybəcərlik 909-cu ildə özünün kulminasiya nöqtəsinə çatdı, Zəngəzur mahalında Tatev məbədi xəlifənin razılığı ilə rəsmən qriqorian kilsəsi elan edildi və bütün ətraf türk kəndləri onun sərəncamına verildi" (**22:** s.42-43; **23**)...



***

V.A. Parsamyanın yazdığına görə, guya, 1782, 1808, 1819, 1829, 1832, 1835, 1842-ci illərdə türklər Zeytun vilayətində yaşayan ermənilər üzərinə basqın etmiş, onların azadlığına təcavüz etmişlər (**14:** s .224).

V.A. Parsamyanın mövqeyində bir qəribəlik "yoxdur", çünki hər bir "normal" erməni müəllifi "tarixi birtərəfli yazmalı, ermənilərin məsuliyyətini gizləməli, rəqəmləri isə şişirtməlidirlər". I Sasun üsyanında, üsyançıların ümumi sayı 3000-ə yaxın olduğu halda erməni müəllifləri ölənlərin sayını 6000-ə, Pastırmajan isə daha irəli gedərək 12000-ə çatdırdığı halda (**15:** s.182,184), Osmanlıdakı Avropa ölkələrinin konsulları 265 nəfər erməninin üsyanda iştirak zamanı hökumət qüvvələri tərəfindən öldürüldüyünü bildirirdilər. İngiltərə diplomatının rəsmi məlumatında isə bu rəqəm 900-ə qədər müəyyən edilmişdi !!!

Ermənilərin ilk növbədə Osmanlıdakı azsaylı böhranlı, zadyanlı və b. tayfalara qarşı amansız təcavüzü ilə başlayan, öncə millətlərarası münaqişə kimi meydana çıxaraq qısa vaxt ərzində Türkiyənin böyük vilayətlərini saran bu qanlı, dağıntılarla dolu üsyanı təbii ki, hökumət qüvvələri cilovlamalı idi!!!

1894-cü il avqustun 23-də başa çatan Sasun üsyanının təhqiqində İngiltərə, Fransa, Rusiya fəallıq göstərsələr də, ermənilərin törətdikləri qırğınları və üsyana başçılıq edənlərin adlarını belə birgə hazırladıqları sənədlərdə əks etdirmədilər (**11:** s. 16-18).

***

1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində ermənilər ruslara sədaqətlərini sübut edərək müxtəlif fəaliyyətlərlə rus ordusunu dəstəkləsələr də, Qars vilayəti Rusiyanın əlinə keçəndən sonra ruslar burada erməni dövlətinin yaradılacağı haqda vədlərini yerinə yetirmədilər (**11:** s. 20).

***

Rus tədqiqatçısı N.N.Şavrov erməni – türk münasibətləri haqda yazırdı:

"... Türkiyənin müxtəlif şəhərlərində ermənilərin və müsəlmanların mənə məlum olan toqquşmaları belə bir fikir söyləməyə haqq verir ki, baş vermiş qanlı hadisələr hər yerdə məhz ermənilərin özlərinin təşəbbüsləri sayəsində həyata keçirilmişdir. Məhz iki türk generalı – Bağrı paşa və Həmdi paşa şəhərin küçələrində yaralandıqdan sonra Trapezund qırğınları başladı" (**16:** s. 96)... "Mənim əlimdə sübutlar var ki, ermənilər çox soyuqqanlıqla silahsız, günahsız müsəlmanları necə öldürmüşlər" (**16:** s. 98).

N.N.Şavrov onu da bildirir ki, silahlı erməni inqilabçıları türkləri silahlı toqquşmaya cəlb etdikdən sonra özləri döyüş meydanlarından qaçır, arxalarınca münaqişəyə çəkib meydanda buraxdıqları erməni kəndliləri əziyyət çəkirdi (**16:** s. 90).

***

1890-1892-ci illərdə, Zeytun və Sasun bölgələrində böyük erməni üsyanı nəticəsində 65 mindən çox silahsız türk və kürd öldürüldükdən sonra Türkiyə

hökuməti bu ərazilərdə hərbi vəziyyət elan etməyə məcbur olmaqla yanaşı, Rusiya, İngiltərə, Fransa və ABŞ hökumətlərinə erməniləri təhrik etdiklərinə görə etirazını bildirdi. Bunun qarşılığında Avropa tərəddüd etdiyindən erməni siyasətçiləri müəyyən müddətə Osmanlı ərazisindən uzaqlaşmağa məcbur oldular **(11: s. 26).**

12 oktyabr 1895-ci ildə erməni silahlı çətələri türk qarnizonuna basqın edərək, türk əsgərlərinin böyük qismini öldürmüş, qalanlarını tərksilah edərək özlərinə tabe etmiş, qarnizon binasının üzərində "Müstəqil Zeytun"un qırmızı bayrağını da asmaqdan çəkinməmişlər **(11: s. 27).**

***

Erməni kütləvi terror, təcavüz və soyqırım hərəkatında Andranik Ozanyanın öz yeri, dəsti-xətti vardır. 1866-cı ildə Türkiyənin Qarahisar şəhərində doğulan Andranik sonralar erməni komitəçisi olaraq türklərə qənim kəsilmişdi. 1894-cü ildə fevralın 21-də komissar Hüsnü bəyin tapşırığı ilə başlanan əməliyyat nəticəsində yaxalanan Andranik "Quran"a and içdi ki, silahı yerə qoyub Türkiyəni tərk edəcək. Hüsnü bəy uca "Qurani-Kərim" adına bu caniyə inanıb onu sərbəst buraxdı.

**Aprelin 24-də** qanlı döyüş sonrası Hüsnü bəyin çavuşu ilə üzbəüz qalan Andranik aradan çıxmaq istəyərkən çavuş qılıncı ilə onu şikəst etdi.

Növbəti bir toqquşmadan öncə Hüsnü bəy Sasunu mühasirəyə aldı. Başındakı bir neçə min nəfərlik erməni və kürd dəstələri ilə əvvəlki döyüşdə də ona dəstək verən Bitlis qubernatoru qaçdı. Tərəfi zəiflədiyindən ertəsi günkü gərgin döyüşdən sonra, Andranik aprelin 30-da öz yaraqlıları ilə Bolqarıstana qaçaraq, orada türklərə qarşı on il savaşmağa davam etdi **(11: s.34,38-40).**

Andranikin növbəti hiyləsi haqqında professor Vəli Həbiboğlu yazır:

*"Andranik Ozanyan təhlükəli bir vaxtda Türkiyəyə qayıtdı, "Böyük Ermənistan" siyasətini həyata keçirmək məqsədilə o türk komandanlığının rəğbətini qazanmağa çalışdı. Ənvər paşanın qılığına girdi, özünü türkə yaxın bir silahdaş kimi göstərdi, rusların ardınca danışdı. Osmanlı İmperatorluğunun generalı Ənvər paşaya özünü türkün dostu kimi qələmə verərək bildirdi ki, əgər ruslar türk torpağına hücum etsələr, onda ermənilər əziyyət çəkəcəklər. Əgər türk hökuməti, komandanlığı ona səlahiyyət verərsə, o, ermənilərdən ibarət bir ordu yaradar və türk sərhədlərini qoruyar.*

*XIX əsrin 90-cı illərində Osmanlı İmperatorluğu ərazisində, sonra isə dalbadal Balkanlarda minlərlə türkü öldürən, türkün qəsdinə duran bir cəllada Ənvər paşa böyük bir səlahiyyət verdi, onun məkrli siyasətinə inandı, türk ordusunda ən böyük rütbə sayılan "paşa" adını verib onu şərq cəbhəsində yaranacaq erməni hərbi dəstələrinə baş komandan təyin etdi.*

Ənvər paşa kimi qeyrətli, türkə bütün qanı və canı ilə xidmət edən görkəmli bir türk generalının (*və Baş Komandan vəkilinin* – X.İ.) bu səhvi sonralar on minlərlə Azərbaycan türkünün (və yüz minlərlə Anadolu türkünün-X.İ.) vəhşicəsinə öldürülməsinə, ev-eşiklərinin yandırılmasına səbəb oldu (məncə, *"rəvac verdi" demək daha düzgün olardı* –X.İ.)" – **(11: s.51-52).**

Bu səlahiyyətdən məharətlə istifadə edən Andranik erməniləri silahlandırdı... sonra cəbhədən qaçan erməniləri, türkü düşmən saymayan və ona güllə atmağı şəxsiyyətinə sığışdırmayan erməniləri də qəddarcasına güllələtdirərək türkə qarşı düşmənçiliyə köklənmiş əzazil bir ordu yaratdı **(11: s.52,54)...**

Andranikin I Dünya Savaşında rus qoşunlarının tərkibində vuruşaraq ruslara böyük yardım göstərməsini erməni və rus tarixçiləri dəfələrlə yazmışlar. Məsələn o, 1 200 nəfərlik dəstəsi ilə Salmas – Başqala – Van istiqamətində türklərə qarşı savaşaraq ruslara dəstək vermişdir **(11: s.58-59).** Rus qoşunlarının komandanı general Çernozubovun məlumatında bu haqda belə deyilir: "... Hissə Andranikin



başçılığı altında 1915-ci il aprelin 15-28-də Muxanğığın (Dilmanın) məlum döyüşlərində iştirak etmiş, bunun sayəsində də Qafqaz düşmənin yürüşündən qurtarmışdır" **(17: s. 8)...**

*[Professor Teymur Əhmədovun araşdırmalarından aydın olur ki, sonralar Sovet hakimiyyətinin ən məkrli rəhbərlərindən biri olan Anastas Mikoyan və Sovet İttifaqı marşalı İ.X.Baqramyan da vaxtilə Andranikin çətələrində türklərə qarşı vuruşmuşdular* **(11: s. 59)].**

**1917-ci ilin oktyabrında Andranik daşnakların fəaliyyəti ilə barışmayaraq, səbəb göstərmədən "Daşnaksütyun" partiyasının sıralarını tərk etdiyini mətbuat vasitəsilə bildirmişdi (17: s.10).**

***

Rus ordusu sıralarında türklərə qarşı savaşan erməni könüllü bölükləri 1918-ci il iyunun 4-də Sarıqamış – Qars – Aleksandropol (Gümrü) xətti ilə irəliləyən Türk Ordusunun qarşısında duruş gətirə bilməyib geri çəkilmiş, nəticədə daşnak Ermənistanı da Batumda türklərlə sülh müqaviləsi imzalamağa vadar olmuşdur **(11: s. 61).**

***

*İngilis tarixçiləri C.Şou Stanford və Ezzel Kural Şou "Osmanlı İmperiyasının tarixi və müasir Türkiyə"* kitabında bildirirlər ki, **Osmanlı Sultanının Kabinəsinin gizli yazışmalarının diqqətlə öyrənilməsi göstərir ki, hökumətin heç bir üzvü kütləvi qırğın haqda əmr verməmiş, əksinə insan həyatının itkisi ilə nəticələnə biləcək halların qarşısının alınması barədə vilayətlərin hakim dairələrinə göstərişlər verilmişdir (11: s. 86).**

***

1915-ci ilin martında general Kuropatkinin Çara ünvanladığı "1914-1915-ci illər müharibəsinin nəticəsində Rusiyanın sərhədləri" adlı qeydlərində də rus hərbçilərinin apardığı hesablamalara görə, Asiya Türkiyəsində ermənilərin ümumi sayının 1 milyon 150 min nəfərdən çox olmadığı göstərilir **( 12 ).**

***

Ermənistanda yaranmış daşnak hökuməti ilə ziddiyyətləri çözə bilməyən Andranik İrəvan-Naxçıvan istiqamətilə İrana keçsə də, İranda İngilis güvvələrilə birləşmək məqsədilə işğal etmək istədiyi yerləri artıq Osmanlı ordusu tutduğundan (*yəqin ki, söhbət 1918-ci ilin iyunun sonlarından gedir* –X.İ.), o, 8 min əsgər, 4. top və 6 pulemyot və b. silah-sursata malik hərbi imkanla Naxçıvan-Zəngəzur-Qarabağ xətti ilə Bakı Quberniyasına doğru, Stepan Şaumyanın qüvvələrilə vahid cəbhə yaratmaq, Qafqaz (Türk) İslam Ordusunu birgə məhv etmək planını seçdi **(13: s. 4 ).**

1918-ci il iyulun 14-də Andranik Şaumyana yazdığı məktubda Brest-Litovsk müqaviləsinə tabe olduğunu və özünü Rusiyanın sərəncamında hesab etdiyini, Şaumyandan sərəncamlar gözlədiyini bildirir **(11: s.78).**

***

**I Dünya Müharibəsi ərəfəsində və bu müharibənin gedişində Türkiyəni parçalamaq (və bölmək) üçün 100-dən artıq plan mövcud imiş. Türklər Qafqaz cəbhəsində rus, Mesopotamiyada və Ramstin cəbhəsində ingilis, Suriya cəbhəsində fransız ordusu ilə, Dardaneldə İngiltərə, Fransa donanmaları və quru qoşunları ilə vuruşurdu (2: s.7-11).** Buraya daxildəki erməni xəyanətini və silahlı üsyanını; Rusiyadan gəlmiş erməni könüllülərinin və Yunanıstan, Avstraliya, Yeni Zellandiya qüvvələrinin də savaşa qoşulmasını də əlavə etdikdə o vaxt Türkiyəni parçalama planlarının nə qədər böyük miqyasda, nə qədər təhlükəli olduğu xeyli dərəcədə anlaşılır.

***

Erməni çətələrinin Türkiyədə dinc əhaliyə qarşı törətdiyi vəhşiliklər qəzet və jurnallardakı müxtəlif məqalələrin (*"Армянские беспорядки», «Преступления армян против мирных жителей», «Кровавые действия армян в Эрзеруме»; «Андроник-оборотень», «Эрзерум-кровавая бойня»*...) tənqid və ifşa predmetinə çevrilirdi.

***

Osmanlıya qarşı hazırlanmış erməni üsyanına (xəyanətinə) güvənərək, ruslar 1914-cü ilin 4 noyabrında Türkiyə sərhəddini keçib, 7-8 noyabrda Ərzurumdakı Körpüköyü tutdular. 1915-ci il in 3-4 yanvarında Sarıqamış altında rus ordusu möhtəşəm qələbə çaldı (*bu qələbəni ermənilər isə öz adlarına çıxırlar* –A.M.). 29 martda Artvin işğal edildi və türklər sonuncu dəfə, qərbə tərəf geri çəkildilər. Sonra Ərzurum (16 fevral 1916), İsfahan (İran, 17 mart 1916), Trapezund (18 aprel 1916) tutuldu. Ruslar Xoy və Dilman bölgəsində qalib gələrək Van və Urmiya gölləri arasındakı ərazi boyu ümumi hücuma keçdi (2-3 may 1916). Nəhayət, Ərzincan (25 iyun 1916) və Muş (23 avqust 1916) da ruslar tərəfindən işğal edildi **(1: s. 57).**

***

Ərzurumun qarnizon rəisi Bolqarıstan əsilli erməni polkovnik Topkomyan idi **(1: s. 59).**

***

Ermənilər onları ifşa edən əsərləri satın alıb yandırırlar. General Odişelidze, Prjevalski və Lebedinskinin 1920-1925-ci illərdə Parisdə nəşr olunmuş xatirələrinin xeyli hissəsi "Hnçak" və "Daşnaksütyun" partiyalarının xadimləri tərəfindən alınıb məhv edilmişdir **(1: s.55-56).**

***

"Ermənilər öz yaltaqlıq, xidmətçilik, riyakarlıq və bir sıra mənfi, hiyləgər xüsusiyyətləri ilə özlərini yaşadıqları ölkədə müsbət insanlar kimi göstərə bilmiş, müxtəlif yollarla dövlət idarələrində, orduda, siyasətdə və xüsusilə ticarətdə yüksək vəzifələrə yiyələnmişlər. Bu məqsəd üçün onlar heç bir vasitədən, hətta insanı alçaldan mənfur əməllərdən belə istifadə etməkdən çəkinməmişlər" **(19: s. 9).**



***

"Biz türklərlə həmişə qardaş olmuşuq..." *(Daşnak rəhbərlərindən Vahan Papazyanın S.Şaumyana məktubundan)* – **(1: s. 88).**

***

Türkiyə parlamentinin üzvü Qaregin Pastermacyan (Armen Qaro) jurnalist Ariadna Tırkovanın sualını cavablandırarkən gənctürklərin konstitusiyaçı olduğunu bildirərək, onların məhz buna (yəni qanunpərərstliyinə) görə parlamentdə oturduqlarını xatırlatmışdır. (Pastermacyan 1908-1914-cü illərdə Ərzurumdan millət vəkili, həm də görkəmli daşnak xadimlərindən biri idi) – **(1: s. 88).**

***

"Sizi əmin edirəm ki, Türkiyə Ermənistanının erməni əhalisi 1909-cu ildən sonra yeni rejimdəki kimi heç vaxt belə sakit və təhlükəsiz yaşamamışdı. Mən ölkədə yaşadım və buna əmin oldum" *(Rostom Zoryanın Londondakı mətbuat konfransındakı bəyanatından).*

Xatırladaq ki Rostom (Stefan Zoryan) Daşnaksütyunun bani və rəhbərlərindən biri idi. O, Azərbaycanın Bakı, Şamaxı, Quba, Şuşa və b. şəhərlərində kütləvi qırğın və vəhşiliklərin təşkilatçılarından biri olmuşdur. Yada salaq ki, bu hadisələrdə cəmi 220 min (başqa mənbədə: 250 min) nəfərə yaxın insan öldürülmüşdür. Bakı öz sahibinə qayıtdıqdan sonra Rostom xaricə qaçmışdır **(1: s.88,99,102).**

***

Azərbaycan və Gürcüstan tarixinə dair həqiqətləri təhrif edərək "elmi" işlər ortaya qoyan daşnak-müəlliflərindən biri də Adonts Nikolay (Ter-Avetikyan) idi. Xarakterik haldır ki, bir çox erməni tarixçiləri, millətçi publisistləri və siyasətçiləri – terrorçuları milliyyətlərini gizlətmək üçün təxəllüsdən istifadə edirdilər.

***

Aron Antonyan (türk qaynaqlarında: *"Aran Andonian"* – X.İ.), əslən Türkiyə ermənisi, tarixçidir; 1923-cü ildə Parisə köçüb. Andranikə aid çoxsaylı yazıların və "İttihad və Tərəqqi" Partiyasının materiallarını saxtalaşdırıb yazdığı "Nəim bəyin memuarları" əsərinin müəllifidir.

***

Akop Paşa Qazaryan (1833-1891) sənətkar– tacir, Osmanlı dövlətinin maliyyə naziri olmuşdur. Erməni deputatları və çoxsayda erməni yüksək dövlət vəzifələrində, o sıradan diplomatik missiyalarda çalışmışlar. İstər bu deputatların, istərsə də dövlət məmurlarından çoxu erməni üsyanın – erməni xəyanətinin təşkil olunmasında mühüm rol oynamışlar. Erməni patriarxı Nerses Varjapetyanı, islahatlar ilə bağlı nümayəndə heyətinin başçısı Poqos Nübar Paşanı (Poğos Nübaryan) və başqalarını isə xüsusi qeyd etmək lazımdır **(1: s. 90-95).**

***

"26 "Bakı" komissarlarının güllələnməsi ilə bağlı 41 nəfər ittiham olunaraq məhkəmə isə üç mərhələdə və müxtəlif vaxtlarda (1-cisi – 19-26 aprel 1921-ci ildə Krasnovodskda (*Qızılsu* – X.İ.), 2-cisi – 17-27 aprel 1926-cı ildə Bakıda, 3-cüsü də – 1-6 mart 1927-ci ildə ( o da Bakıda)) keçirildi. Stalinə sərf etmirdi ki, onun Tiflis ruhani seminariyasındakı məktəb yoldaşı Anastas Mikoyan ifşa olunsun **(1: s.102-104). Pleşakovun məhkəmədəki şahid ifadəsinə görə, mitinqlərdə Mikoyanı, Şaumyanı və b.-nı eserlərin araşdırmalarına əsaslanıb "Almaniyanın casusu" deyə boykot edirdilər.**

***

30 iyul 1918-ci il Bakı Sovetinin toplantısından sonrakı Bakı partiya komitəsinin xüsusi iclasında qərara gəlirlər ki, Bakıda qiymətli nə varsa, özlərilə dışarı çıxartsınlar. O cümlədən xalqın 20 milyon rubl qızıl pulunun yarısını Şaumyan daşnak Vardanyan vasitəsilə Bakıdan çıxartdı. Yerdə qalan 10 milyon barədə rəsmi məlumat yoxdur (*Ter-Qabrielyanın məhkəmədə verdiyi şahid ifadəsindən* – **1: s.105).**

*Sentrokaspi Diktaturasının Fövqəladə Komissiyasının müstəntiqi Jukov da bildirir ki, ona FK tərəfindən S.Şaumyanın üzərindən 20000 qızıl rubl pulun müsadirə olunması haqda sənəd (akt) və b. sənədlər təqdim edilmişdi* **(1: s.107).**

***

Məlumatlara görə, sonrakı illərdə daşnak-bolşevik Anastas Mikoyan və Suren Şaumyan Bakı arxivlərindən çoxsaylı sənədlər – o sıradan müsəlman qırğınları, Mikoyanın, Stepan Şaumyanın və Beriyanın fəaliyyəti ilə bağlı bir şox sənədləri aradan çıxararaq məhv etmişlər **(1: s.111).**

***

Almaniyanın Xarici İşlər naziri baron fon Byulov Türkiyənin bütün vilayətlərini gəzib-gördükdən sonra demişdi: "Nə qədər ki, mən öz gözlərimə inanıram erməni məsələsi ilə məşğul olmağa heç ehtiyac görmürəm" **(1: s. 120).**

***

1912-ci ilin oktyabrında Qafqaz canişini Voronsov-Daşkov məktub vasitəsilə II Nikolaya çatdırdı ki, əsl rus siyasətinə-Türkiyə ermənilərini himayə etməyə qayıtsın. O zaman 75 yaşı olan bu qoca Voronsov-Daşkovun cavan həyat yoldaşı öz cinsi ehtiyacını ailə "üzvü" yepiskop Mesropla təmin etdiyi üçün, ərköyün Mesrop da "buynuzlu" canişinə "erməni məsələsi"ndə istədiyi xahişi diqtə edə bilirdi **(1: s.124).**

***

1918-ci il mayın 27-də Osmanlı Şərq Orduları Qrupu komandanı Xəlil paşa Kaçaznuni və Xatisovu onların xahişi ilə qəbul edərkən, Erməni Milli Şurasına dinc əhalinin qırğınını dayandırmağı çatdırmalarını xahiş etdi **(1: s.129).**

Ermənilərin rus ordusunun kölgəsində Türkiyənin şərqindəki türkləri soyqırımına uğratması erməni siyasi dairələrini rus ordusunun çəkiləcəyi təqdirdə nə edəcəkləri sualı ilə narahat edirdi. Türk ordusu 1918-ci ilin yanvar-aprel aylarında Ərzincan, Bayrut



(*mənbədə çox güman ki,xətaya yol verilmişdir: yəqin ki, Bayburt oxunmalıdır* -X.İ.), Mamaxatun, Ərzurum, Qars və b. şəhərləri azad etdikdən sonra açılan dəhşətli mənzərəyə şahid olmaq üçün İngiltərə, Fransa, ABŞ, Belçika, İspaniya, Almaniya, Avstriya-Macarıstan və başqa ölkələrdən jurnalistlər, fotomüxbirlər də dəvət olunmuşdu **(1: s.128).**

***

**Maraqlı məqamlardan biri də ondan ibarət idi ki, bolşevik orqanları belə 1918-ci il yaz qırğınlarından yazarkən bunu "... dinc əhaliyə qarşı bəzi ədalətsizliklər kimi" qələmə versə də, ictimayyəti qismən də olsa sakitləşdirmək üçün Şaumyan hökuməti Koksemyakonun (*bəzi mənbələrdə:* Kojemyako) başçılığı ilə yaratdığı Fövqəladə Hərbi-İstintaq Komissiyası məsələni yerlərdə araşdıraraq ilk öncə Stepan Lalayevin həbsinə qərar verdi. Ancaq Lalayev Koksemyakoya "rədd ol!" cavabı verərək, onun kabinəsindən Stepan Şaumyana zəng etdikdən sonra Şaumyan Koksemyakoya belə demişdir: "Lalayevi həbs etmək uyğun deyil, bu nə hoqqadır?"**

***3-4 gün sonra isə Fövqəladə Hərbi-İstintaq Komissiyası ləğv edildi.*** O zaman "Azərbaycan" (rusca) qəzeti 21 oktyabr 1918-ci il tarixli sayında qeyd olunan məsələlərlə bağlı "Çox da uzaq olmayan keçmişdən. Şaumyan və Lalayev" adlı məqalə də dərc etmişdi **(1: s. 130-131).**

Əlbəttə, Şaumyanın Lalayevi dəstəkləməsi **təsadüfi ola bilməz! – Çar Rusiyası dönəminə aid gizli polis raportunda da göstərildiyi kimi, Stepan Şaumyan özü də daşnak olmuşdur** (Sənədin əsli – **21 :** s.28).

***

Martın 21-dək (yəqin ki, *köhnə təqvimlə* –X.İ.) Bakıda müsəlman qırğınlarını davam etdirdilər. Yalnız 36 -cı Türküstan polkunun tələbindən və dənizçilərin hədə-qorxusundan, Caparidzenin müdaxiləsindən sonra, "Ərdəhan" və "Krasnovodsk" hərbi paroxodlarının doğu sahil körpülərinə yan alaraq toplarla şəhərin erməni məhəllələrinə atəş açacaqları ilə erməni-bolşevik rəhbərliyini qorxutduqlarından sonra qara qüvvələrin Bakıda törətdiyi aşkar soyqırımı durduruldu. Ancaq Şamaxı, Quba, Kürdəmir və b. bölgələrdə eyni hadisələr azğıncasına davam etdirilirdi.

"Martın 20-də (yəqin ki, yenə də *əski tarixlə* –X.İ.) Tatevos Amirov 3 nəfər silahlı erməni ilə "Kaspi" redaksiyası tərəfdəki döngədən "İsmailiyə" binasına girdi və az sonra bu binada alov göründü və bina yandı.

Tatevos Qadın Gimnaziyasının və Şəhər Dumasının binalarını da yandırmaq istəyirdi ki, ancaq və ancaq Caparidzenin müdaxiləsindən sonra qarşısı alındı". Məlumat hadisənin şahidinin dilindən, o vaxtlar rusca yayınlanan "Azerbaydjan" qəzetinin 17 mart 1919-cu il tarixli sayında dərc edilib **(1: s. 132).**

***

Məlumatlara görə, daşnak və hnçakçıların "Bakı Soveti" adından fəhlə və kəndlilərə 1 iyun 1918-ci il müraciətinə qədər ermənilər tərəfindən Qafqazda 400 min azərbaycanlı, 120 min gürcü, 15 min kürd, 22 min ləzgi və b. qətlə yetirilmişdi. **Haqsız kütləvi qırğınlar barədə faktlar o qədər qorxunc, dəhşətli idi ki, avqustun 31-də Xəlil paşanın İrəvana gəlişi zamanı, Ermənistan daşnak hökumətinin rəhbərliyi üzr istəyərək, kütləvi qırğınların fəallarını və başçılarını xalqlar məhkəməsinə cəlb edəcəklərinə söz vermişdilər.**

**1918-ci ilin noyabrında isə Andranikin qanlı cinayətlərinin məsuliyyətini özlərindən birdəfəlik kənarlaşdırmaq üçün Ermənistan hökumətinin nüfuzlu öncülləri Manukyan, Kaçaznuni və Saakyan Moskva, İstanbul və Berlinə vəd verdilər ki, əgər Andranik "Ermənistan ərazisinə ayaq bassa, o, tərk-silah ediləcək hərbi məhkəməyə veriləcək"** (1: s.134).

***

1919-cu il 18 yanvar-28 iyun aralığında keçirilən, 27 dövlətin dəvət olunduğu Paris Sülh Konfransı Vudro Vilson (ABŞ), Devid Lloyd Corc (Böyük Britaniya) və Corc Klemensonun (Fransa) "ağsaqqallığı" ilə dünyanın yenidən bölüşdürülməsi, imperiyalar üçün yeni sınır xətlərinin cizilməsi məsələlərini müzakirə edərkən Almaniya, Türkiyə, Sovet Rusiyası, Avstriya, Macarıstan və Bolqarıstanın iştirakını vacib saymamışdı. Ermənilər də özlərini qalib dövlətin nümayəndələri kimi təqdim edərək konfransda söz sahibi olmaq istəsələr də, Poğos Nübar paşa (Türkiyə ermənilərinin elçisi) və Avetis Aqranyan (Ermənistan Respublikasının elçisi) konfransa buraxılmadılar. Çünki Ermənistan savaş tərəfi kimi qəbul olunmadı, ikinci də, ermənilər savaş deyil, iyrənc şəkildə soyqırımı, talançılıq və b. vəhşiliklər törətdiklərindən Antanta bu insanayaraşmaz hərəkətlər müəllifi olan "dənizdən-dənizə" iştahlı, xəstə Ermənistanın qara imicinə (*imaj-görüntü, görsəniş* –X.İ.) ortaq olmaqdan yayınırdı **(3: s.5; 1: s.135).**

***

Qafqazda "qədimliklərini" sübut etmək üçün nə bir qədim daş parçası, nə bir qədim qaynaqda istinad nöqtəsi, nə də qədim erməni kəlləsi tapa bilməyən hay başbilənlərinin iddia və cəfəngiyatlarını onları bu torpaqlara köçürən Rusiya dövlətinin çinovnikləri və mütəxəssisləri (*uzman* —X.İ.) də rədd edir: "... Cənubi Qafqazda indi yaşayan 1300000 erməninin 1000000-dan çoxu yerli sakin deyil və bizim tərəfimizdən bura köçürülüb...

... Yalançı şahidlikdən geniş istifadə edərək, torpaqsız (gəlmə) ermənilər çox böyük miqdarda xəzinə (dövlət) torpaqlarını tutdular" **(4: s.59-61; 1: s.161-162).**

Ümumilikdə, ermənilərin Qafqaza və Rusiyaya köçürülməsi ilə bağlı istər Rusiya, istər İran, istər Türkiyə, istərsə də başqa dövlətlərin arxivlərində saysız-hesabsız sənədlər yatmasıyla bərabər, həmin köçürmələr müxtəlif: rus, erməni, türk, fars, azərbaycanlı, gürcü mənbələrində, beynəlxalq təşkilatların hesabat və sənədlərində bu və ya başqa dərəcədə əksini tapmışdır. Bu xüsusda Rusiyanın İranda səfiri olmuş yazıçı A.S.Qriboyedova diqqət edək: "Ermənilərin çoxu müsəlman (azərbaycanlı-X.İ.) mülkədar torpaqlarında yerləşdirilmişdir...

...Ermənilər (*köçürülmə zamanı* – X.İ.) ilk ayaq basdıqları (müvəqqəti yerləşdirildikləri) torpaqlara yiyələnirlər" **(5: s.339-341).**

Qeyd edək ki, Qriboyedovun bu qeydləri 1828-ci ildə yazılmışdı. Tanınmış rus tarixçisi N.N.Şavrovun verdiyi rəqəmlər də, özünün hissə-hissə açıqladığı kimi, 1826-1828-ci il müharibəsindən sonrakı tarixi dövrə aiddir **(1: s.160-163).** Ancaq ermənilərin I Pyotrla yaxınlaşdıqlarından sonrakı dövrlərdə-1725-ci ildə "Ermənilərin Xəzəryanı vilayətlərə köçürülməsi" ilə bağlı çar fərmanı və b. tədbirlər sayəsində Qafqaza köçürülən ermənilərin sayını da nəzərə alsaq, Qafqazda köklü ermənilərin sayı 300000 ətrafında deyil, xeyli az olmalıdır. Deməli, Qafqaz bölgəsi qədim ermənilərin nəinki vətəni olmamış, onlar burada nəinki azlıqda olmuş, hətta cüzi bir faiz təşkil etmişdilər. Eçmiədzin və başqa bölgələrdən də erməniləri sevindirən bir qədim əşyayi-dəlil tapılmadığından erməni həyasızlığının və onları müdafiə edən (oxu: kart kimi qullanan) hakim böyük dövlətlərə bağlı siyasi dairələrin qara niyyətlərinin şər ölçüsü və insanlıqdan



şeytan qədər uzaq olmaları faktı "insanam" deyənləri misilsiz dərəcədə heyrətləndirir və bugünkü dünyamızın hakimi-mütləq mizan-tərəzisinə nifrət dalğası oyadır.

***

Andranikin adını sovet hakimiyyətinə xidmətdə hallandıraraq, "1918-ci ilin iyulunda (Andranik) Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi" deyən **(6: s. 36)** erməni müəlliflərindən fərqli olaraq Rusiya Xarici İşlər naziri Q.V.Çiçerin yazırdı: "İndi, Brest-Litovsk sülhündən sonra, türk ordusu öncə Batum, Qars, Ərdəhan üzərinə və sonra daha irəli hücuma keçərkən, hər kəsdən əvvəl erməni "milli" hissələrinin komandiri, daşnak general Nazarbekov türklərə müqavimət göstərirdi, ancaq ardınca, o səhnədən çıxdıqdan sonra, mübarizəni ANTANTA CASUSU ANDRANİK davam etdirdi. Andranik Qafqazda ikən Urmiyəyə çıxmaq, orada Denstervilin İngilis ekspedisiyası ilə birləşmək istəyirdi. Ancaq Türk hissələri Urmiyəni və Təbrizi Denstervildən tez alaraq onu, geri çəkilməyə məcbur etdi" **( 7 ).**

İndi isə Andranikin öz ağalarına – Qafqazdakı ABŞ konsulluğuna və İngilis missiyasının ünvanına göndərdiyi məxfi teleqrama diqqət edək: "Mən burada xəyanətkarlar və satqınlar (*bolşeviklərmi?*-A.M.) arasında qaldığımdan xahiş edirəm məni hərbi dəstə rəisi vəzifəsindən azad edəsiniz" **( 8 ).**

Bütün bu kimi sənədlərdən də göründüyü kimi, Silva Kaputikyanların, Q.Azaryanların və b. "yan"ların "Andranik Sovet Rusiyasına xidmət etmişdir" yarlığı bu başqasına heç cür yapışmamışdır. Elə bu həqiqətin nəticəsi idi ki, **Andranikin nəşinin Ermənistana gətirilməsinə Sovet rəhbərliyi icazə verməmişdi (1:** s.174-175).

***

Bakı və Qafqazın başqa bölgələrində (İrəvan quberniyası, Lənkəran, Quba, Şamaxı qəzaları və s.) törədilən kütləvi müsəlman qətliamına etiraz olaraq **N.Nərimanov da erməni-bolşevik liderləri qarşısında kəskin tələblər qoyurdu** *(Erməni Milli Komitəsinin buraxılması, onun hərbi dəstələrinin bölgədən çıxarılması, yaxud sovet hakimiyyətinə tabe edilməsi...)* – **(9; 1:** s. 179-181).

***

Bolşevik liderlərindən S.K.Orconikidze də 1906-cı ildən etibarən erməni millətçiləri tərəfindən gürcü və azərbaycanlıların nahaq qanının tökülməsini öz gözləri ilə gördüyünü etiraf edirdi **(10: s.139-141; 1: s.197).**

***

Q.Plexanov isə V.İ.Leninlə eyni mövqe nümayiş etdirərək erməni marksistləri "Hnçaq"çıların proqram məqsədlərinin bir-birini inkar etdiyini bildirirdi. O, millətçi "Böyük Ermənistan" ideyaları ilə sosial-demokratiya prinsiplərinin bir araya sığmadığını önə çəkirdi **(1: s. 213-214).**

***

A. Mikoyanın təhriki ilə Sovet İttifaqının başçısı İ.Stalin II Dünya Savaşı bitdikdən sonra Türkiyənin körfəzlərini ələ keçirib ona basqı yapmaqla onun doğu vilayətlərini Ermənistana birləşdirmək, SSRİ-nin ərazisini genişləndirmək qərarına gəlmişdi.

Ancaq Türkiyə özünümüdafiədən çəkinmədiyini bəyan etdi və NATO-ya üzv oldu, beləliklə, ermənilərin və velikorusların bu məkrli planı da tarixin arxivinə gömüldü **(11: s.63-64).**

***

*Yerevan Dövlət Universitetinin rektoru, akademik Ambartsumyan Moskvada çıxan "Правда" qəzetində dərc etdirdiyi "Геноуиd" adlı məqalədə bəşəriyyətə qarşı ən qanlı cinayət kimi "erməni soyqırımı"nı qələmə verirdi ( 18 ). Onun məntiqindən belə nəticə hasil olur ki, guya* **ermənilərin müvəqqəti köçürülməsi, erməni üsyan və xəyanətlərinə qarşı adekvat, qanuni tədbirlər görülməsi** *(hamının, hətta Almaniya dövlətinin özünün də etiraf etdiyi)* **yəhudi soyqırımından daha "dəhşətli" imiş!?**

Ondan fərqli olaraq, başqa bir erməni sevdalısı – erməniəsilli dünya şöhrətli şanson ifaçı, Ermənistanın İsveçrədəki səfiri Şarl Aznavur «Nouvelles d`Armenie» jurnalına verdiyi müsahibədə belə demişdir: **"Soyqırım məsələsi məni təngə gətirib"...** *"Başa düşə bilmirəm bu cür şərtlərlə Ermənistanı necə irəli apara bilərik?.. Mən bu fikirləri ABŞ-da işləyən 300 vəkilə rəhbərlik edən hüquqşünasa da demişəm. O da hamı kimi fikirləşirdi, ancaq sonra mənə haqq qazandırdı"* **( 20 ) ...**

**Qeyd:**

Arif Mansurovun "Tarixin ağ ləkələri və yenidənqurma" adlı çox dəyərli kitabında guya kürd əhalinin də vaxtilə Mesopotamiyaya köçürülməsi ilə bağlı ötəri məlumat vardır **(1:** s.57), ancaq Türkiyə arxivlərindəki köçürmələrlə bağlı sənədlərdə ermənilərlə birgə qiyamçı yunanların da köçürülməsi qeyd olunsa da, kürdlərin köçürülməsinə dair məlumatlara rast gəlmədim. Bununla belə, istər erməni, istər türk, kürd, yunan, istərsə də başqa millətin nümayəndəsi olsun, üsyançı, çətə yaradan, qaçaqlıq-quldurluqla məşğul olan istənilən şəxsi və ya dəstəni Osmanlı dövləti sürgün və ya köçürmə vasitəsilə zərərsizləşdirirdi ki, bu da həmin dövlətin humanizm və qanunçuluq bayrağını daim yüksəkdə tutduğuna sübutdur. Bəlkə hörmətli müəllifin toxunduğu məqamın kökündə duran fakt da yuxarıda söylədiyimiz təsadüflər sırasındandır.

**Ədəbiyyat:**


1. Ариф Мансуров. Белые пятна истории и перестройка. Баку, 1990.
2. Н.Сокольский. «Очерки современной Турции», издание Закрайкома РКП, Тифлис, 1923.
3. T. Vəliyev, Ə.Qocayev. Ümumdünya tarixi., 3 c.-də, III c., Bakı, 2004.
4. Шавров Н.Н., «Новая угроза русскому делу в Закавказье: предстоящяя распродажа Мугани инородцам», СПб, 1911.
5. А.С. Грибоедов. «Записки о переселении армян из Персии в наши области». Москва, 1971.
6. Энциклопедия «Гражданская война и военная интервенция в СССР», авторы: А.С.Абакумов, Г.Г.Азарян, А.О.Чебарян, С.В.Хармандарян, К.С.Худавердян, Л.А.Хурушудян, В.А.Амбарцумян и многие др., в.т.ч. и русские ученые., изд-во «Советская енциклопедия», 1983.
7. Газета «Бакинский рабочий», Баку, 14 мая 1925 г.
8. Газета «Азербайджан», Баку, 5 марта 1918 г.
9. Газета «Гуммет», Баку, 3 апреля 1918 г. и №71, май 1918 г.
10. С.К. Орджоникидзе «Статьи и речи». Т. I, Москва, 1956.
11. Vəli Həbiboğlu. Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası. Bakı, 2002.





12. "Azərbaycan" qəzeti, Bakı, 24 aprel 2001-ci il.
13. Ataxan Paşayev. Ön söz.-Teymur Əhmədov. Erməni xəyanəti və Andranik Ozanyanın qanlı əməlləri, Bakı, 2001.
14. В.А. Парсамян. История армянского народа. Ереван, 1972.
15. Кямуран Гюрюн . Армянское досье. Баку, 1993.
16. Н.Н.Шавров. Новая угроза русскому делу в Закавказье. Баку, 1990.
17. Teymur Əhmədov. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri. Bakı, 2001.
18. Газета «Правда», Москва, 24 апреля 1985 г.
19. M. Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. İstanbul, 1990-Bakı, 1998.
20. Şarl Aznavur erməniləri yıxıb sürüdü. (Redaksiya məqaləsi). "Olaylar" qəzeti, Bakı, 07.10.2011.
21. Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. 3 cilddə., I cild. 26 Bakı komissarlarının əsl tarixi., (AMEA Tarix İnstitutunun nəşri), Bakı, 2009.
22. Salman Vilayətoglu. Göyçə. Bakı, ...
23. Симеон Ереванци. ДСАМБАР – Памятная книга зерцало и сборник всех обстоятельств святого престола Эчмиадзина и окрестных монастырей. X в., Москва, 1958.

## *YADDAŞÇA*

***"Erməni məsələsi"***

Təbliqat, təşviqat və terrorizmi öz məqsədlərində vasitə kimi görən "Hnçaq"ın **1886-cı ildə** Cenevrədə bəyan olunmuş proqramında göstərilir:

"Türkləri və kürdləri ixtiyari şəraitdə öldürmək, öz məqsədlərini satan erməniləri də əsirgəməmək, onlardan intiqam almaq" **( 1 )**.

**1885-ci ildə**, "Forverst" qəzetində tanınmış alman jurnalisti Vilhelm Libknext erməni hərəkatını erməni terrorçu təşkilatlarının fəaliyyətinin nəticəsi kimi xarakterizə etmişdi.

Bu zaman müsəlman əhaliyə qarşı, yönəlmiş erməni təbliqatı da güclənirdi: məsələn, Tiflisdə nəşr olunan "Mşak" erməni qəzetinin redaktoru müsəlmanlara torpaqları boşaltmaq və "Ərəbistan səhralarına köçmək" təklif edirdi...

Araşdırmaçılar o dövrdə istər Osmanlı, istərsə də Qafqaz bölgəsində erməni terrorunun güclənməsinin və idarə edilməsinin başında məhz qraf M.T.Loris-Melikovu görürdülər. Bu yüksək çinli erməni məmur, yəni M.T.Loris-Melikov 1881-ci ilə qədər, Çar II Aleksandra sui-qəsd olunanadək, Rusiyanın Daxili İşlər naziri idi **( 2 )**.

***

Təkcə **1890-1892 illər** aralığında erməni "Hnçaq" partiyası tərəfindən 65000 dinc türk və kürd həlak edilmiş, bu qanlı terrora Osmanlı erməniləri də cəlb olunmuşdu.

Hansı zərurətdənsə, **1923-cü ildə** Buxarestdəki çıxışında tanınmış erməni liderlərindən biri öz paxırlarını açmalı, etirafda bulunmalı olunmuşdu: "... Biz öz beynimizdə illüziyalarla (*xəyal, xülya* –X.İ.) dolu atmosfer yaratdıq. Biz öz arzularımızı zorla başqalarının ağlına yeritdik; biz gerçəklik hissini itirmişik..."

Hakimiyyətə təzəcə gələn kimi "erməni məsələsi"nə yardımçı olaraq Şaumyanı Qafqaza fövqəladə komissar təyin edən və "Türkiyə Ermənistanı haqda" dekret verən V.İ. Lenin özü də, "Erməni sosial-demokrat federasiyası" bayrağı altına girmiş ermənilərin bir hissəsini vaxtilə "Hnçaq"çı kimi tanıdığı üçün onlara münasibət səbəbilə, dünya inqilabının imici əleyhinə kompromat verməmək mülahizəsilə demişdi: "Erməni sosial-demokrat federasiyası" haqda son dərəcə saqındırırlar... Əgər bunları rus konfransına buraxsanız... dəhşətlə batarsınız. Qafqazlı yoldaşlar hamısı bu "şayka" (*dəstə, çətə*-X.İ.) əleyhinədir" **( 3 )** ...

**Oktyabr 1895-yanvar 1896** aralığında Zeytunda terrorçu erməni təşkilatı «Hnçaq"ın yerli təşkilatı əyalətin müsəlman (türk, kürd) əhalisininə qarşı qanlı qisasçılıq hərəkətləri törətdi. 30 sentyabr 1895-ci ildəki Böyük Porta (*Osmanlı Nazirlər Kabinəsi* –X.İ.) ətrafında təxribatçı nümayiş, öncədən dinc elan olunmasına baxmayaraq, 2000 silahlı erməninin polislə toqquşmasına gətirib çıxardı və 30 sentyabrı əlamətdar gün kimi yaddaşlara keçirmək məqsədi daşıyırdı **( 14 )**.

**2 sentyabr 1903. Qars.** Erməni qriqoryan Surp-Nişan kilsəsinin zəngi ilə təpədən-dırnağadək silahlı müxtəlif erməni bandit qruplarının üzvləri toplaşdılar. **Hökumət əsgərləri erməni dəstələrini Müqəddəs Məryəm (Svətaə Boqorodiüa) kilsəsindən də qovmalı oldular. Erməni kilsəsində çox sayda atıcı silahlar və partlayıcı**



**maddələr gizlətdiyinə görə iki ruhani tutuqlandı.** İş o yerə çatmışdı ki, **erməni kilsəsinin siyasi-kriminal xarakteri Yaxın Şərqdən Qafqazadək ictimaiyyəti narahat edirdi. Eçmiədzin monastırından 200000 rublun yoxa çıxmasını qeyd edən erməni "Mşak" qəzetinin qeydləri və fransız alimi baron de-Bayın "Eçmiədzin monastırı, dini mərkəzdən çox siyasi mərkəz" təsiri bağışlayır fikri də ermənilər və erməni kilsəsi haqda yuxarıdakı mülahizələri bir daha təsdiq edir ( 19 )**.

Erməni kilsəsinin milli-dini təxribatçı fəaliyyəti haqda Rusiya arxivlərindəki sənədlər də şəhadət gətirir: **"... ibadətdə erməni (*Qriqoryan* –X.İ.) kilsəsində öndə katolikos, sonra xristian-qriqoryanlar durur, yerdə qalanlar – istər xristianlar, istərsə də başqa inanclardan olanlar – "kafirlər, dönüklər və inamsızlar" və erməni kilsəsini sıxışdıranlar hamısı, hətta ona yol verənlər lənətlənirlər. Bu cür təlim nəticəsində rusların hakim sarayı 1903-cü ildə ermənilər tərəfindən lənətlənmişdir" ( 17 ).**

***

**19 dekabr 1917.** Bu tarixdə "qanlı Andranik"in bəyanatı yayılmışdı: "Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, mən elə sabahdan Ərzuruma yollanacam... türkləri və azərbaycanları, kürdləri və yəhudiləri qırmaq üçün... və heç kim məni saxlaya bilməyəcək" **(61-A)**.

**29 dekabr 1917.** Sovet hökuməti "Türkiyə Ermənistanı" haqqında dekret verdikdən sonra icrasını müvafiq mandatla daşnak Stepan Şaumyana həvalə etdi. Tarixi şansdan sui-istifadə edən Şaumyan ətrafına erməni terrorçu dəstələrini yığaraq [başçıları "qanlı Andranik" (Andranik Ozanyan Torosi), Tatevos Amirov (müsəlman uşaqlarını oğurlamaqla məşğul olan cani), kriminal qrup "saxlayan" Stepan Lalayev və b. olmaqla] Doğu Anadolu, Qafqaz və İranın şimalında "Böyük Ermənistan" yaratmağa çalışır, Azərbaycan adlı bir dövlətin varlığına belə imkan verməK istəmirdi. Bu səbəbdən də ermənilər o vaxtlar Anadolu, İran və Qafqaz bölgəsini müsəlmanlardan "təmizləmək" xətti götürmüşdülər **( 62 )**.

Xatırladaq ki, Bakı və onun çevrəsində azərbaycanlıların soyqırımını həyata keçirmək üçün Şaumyangilin Bakıya gətirdikləri böyük silah cəbbəxanasının əsas hissəsi erməni kapitalistlərinin və Mantaşev kimi qohum milyonerlərin zavodlarında, müəssisələrində gizli olaraq saxlanılırdı **( 67 )**.

**1926-cı il. ABŞ.** Bir sıra erməni terrorçu təşkilatları öz press-relizlərində Andranik Ozanyan Torosinin "Mən yenə qayıdacam!" başlıqlı bəyanatını yayınlamışdı. Amerikada yaşayaraq günlərini sayan (o, 1927-ci ildə öldü) tayqulaq **Andranik öz müraciətnaməsində rusları erməni xalqının pisniyyətli düşmənləri adlandırmışdı ( 203 )**.

**1929-cu il. Azərbaycan.** Bu tarixdə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi qərbi Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistana verilməsi haqda qərar çıxarır. Naxçıvan MR-nın 75 illiyini keçirilməsi haqda Azərbaycan Prezidenti Heydər Əliyevin Sərəncamında bu barədə belə deyilir: "... Moskvadakı himayədarlarının köməyi ilə Ermənistanın hakim dairələri Naxçıvan torpaqlarının bir hissəsinin ondan ayrılıb öz ərazilərinə birləşdirilməsinə nail oldular. 1929 – cu ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi – Şərur rayonunun Qurdqulaq, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oqbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy, Ordubad qəzasının **Qorçevan** kəndləri, həm də Kilid kəndinin torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə Aldərə, **Lexvaz (Löhvəz-X.İ.)**, Astazur, Nüvədi və b. yaşayış məntəqələri də verilərək bu ərazilərin əsasında Mehri rayonu təşkil olundu. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam edirdi, o, bu çirkin niyyətlərindən indi də əl çəkməməkdədir" **( 204 )**.

**24 sentyabr 1933-ci il. Nyu-York.** Xidməti zamanı, yüzlərlə gəlib-keçənin gözü önündə erməni terrorçuları ABŞ qriqoryan (erməni) kilsəsinin baş yepiskopu Leon Touryanı öldürdülər. Mərhumun "günahı" kilsə dindarlarına nəsihət oxuyarkən müxtəlif din nümayəndələri arasında sülhsevərlik və dözümlülük ideyalarını təbliğ etməsi idi. Hadisənin şahidi olan ermənilərdən heç biri, daşnakların cəzasından qorxaraq, məhkəmədə ifadə vermədi. ( 205 ).

**Dekabr 1942-ci il. Almaniya.** Erməni terrorçusu, general Dro (Drastamat Kanayan) və yazıçı Qaro Gevorkyan "reyxin aristokratı" Himlerə baş çəkərək ona pastor (protestant keşişi –X.İ.) Lepsiusun "Erməni xalqının ölümcül yürüşü" kitabını təqdim etdilər. 30000 erməni Dro və Himlerin faşistlərə birləşmə çağırışına səs verdilər..."**Ermənilərin müharibədə nasional-sosialist Almaniyası tərəfində iştirakı, şübhəsiz, həm də yəhudiləri qırmaq məqsədi daşıyırdı**" *(E.Fayql). Səmyuel Uimzə görə isə,* **100 mindən artıq erməni Üçüncü reyxin dəstələrinin tərkibində yəhudiləri qırmaqda iştirak edib.**

*Qeyd etməyə dəyər haldır ki, Üçüncü reyxin ən məlumatlı adamlarından olan Dro təxminən həmin dövrdə Sovetlər Birliyinin rəhbəri Stalinlə də görüşmüş* və onu dostu, silahdaşı adlandırmışdır. Əldə olan məlumatlara görə, məhz o, A. Mikoyanla birgə Krım tatarlarının deportasiyasının (ana yurddan *köçürülmə-sürülmə* –X.İ.) təşkilatçısı kimi çıxış edirdi. Nəticədə Krım tatarları kütləvi şəkildə Stalin repressiyasına (*cəza tədbirləri*–X.İ.) məruz qaldılar.

Başqa bir erməni terrorçu-generalı, artıq həm də faşist – Balkan ölkələri, Türkiyə və Azərbaycanda qanlı cinayətlər törətmiş Qaregin Njde vermaxtın Krımdakı əməliyyatlarında fəal iştirak edərək Hitler ordusunun da general rütbəsinə yüksəlmışdı ( 206 ).

**1943-cü il. Berlin.** Erməni terrorçu təşkilatları rəhbərlərinin Adolf Hitlerdən onun şəxsi himayəsi altında erməni ordusu yaradılması, həm də faşistlərin xəzinəsinə erməni varlıları tərəfindən milyonlarla pul vəsaitinin köçürülməsi təklifi etmələrinə baxmayaraq, fürer bu "səxavət" və "dəstəkdən" imtina edib, belə demişdi: "**Üç dəfə xəyanət edənlər, dördüncü dəfə də xəyanət edəcəklər**" ( 207 ).

**Fevral 1945-ci il.** Erməni terrorçu Dronun rəhbərliyi ilə faşist "Hayastan" qəzeti nəşr olunurdu.

Bu qəzetin 1945-ci il fevral nömrəsinin birində – həmişəki kimi 1-ci səhifədə Hitlerin portreti, 2-ci səhifədə faşist generalı, erməni nasisti Sarkisyanın yeni il təbriki verilmişdi:

"... Sovetlər Birliyində bizim dostlarımız və qohumlarımız Yeni ili qeyd etmirlər, onlar nigarançılıq və səbrsizliklə öz xilaskarını (yəni *faşistləri* –X.İ.) gözləyirlər..."

Diqqətəlayiqdir ki, bu cür fikirlər vaxtilə **türk, tatar, kürd, ləzgi, azərbaycanlıları rus kommunist – bolşeviklər bayrağı altında qılıncdan keçirən, indi isə rusları, polyakları, ukraynalıları, yəhudiləri Hitler bayrağı altında qıran Dro**nun mətbuat orqanında dərc olunurdu ( 208 ).

*Erməni terrorizmi*

**26 avqust 1896-cı il**də erməni terrorçu qruplaşması Osmanlı bankına hücum edərək, əməkdaşları da girov götürmüşdü. Bu cinayətin başında Qaregin Pasdermacan (Osmanlı Məclisinin gələcək deputatı) dururdu.

Tədqiqatçı Jorj de Malevilə görə, bu, vətəndaşları girov götürmə aktı çağdaş tarixdə ilk belə hadisə idi.

Tiflisdə rusca yayınlanan "Qafqaz" qəzeti isə o zaman, Gürcüstana köçmüş və Axalsix Şəhər Dumasında çoxluq təşkil edən ermənilərin yerli əhalinin pravoslav kilsəsi



tikmə xahişinə rədd cavabı verməsini və bunun gürcü pravoslav əhalisinin hiddətlənməsinə səbəb olmasını qeyd edirdi ( 15 ).

**13 avqust 1903. Aleksandropol (Gümrü).** Axşam saat 7-də Cənubi Qafqazda xristian pravoslavlığı təbliğ edən protoierey Vasilov xəncərlə öldürülmüşdür. Erməni komitəsinin («Hnçaq"ın yerli təşkilatı) səylərilə qatil gizlənə bilmişdi ( 16 ).

**31 avqust 1903-cü il. Tiflis.** Rusiya qaynaqları bildirir ki, erməni kilsəsindəki liturgiyadan (*xristianların ən əsas ibadət ayini* –X.İ.). sonra qriqoryan ruhaniliyi xalqı vətəndaş itaətsizliyinə çağırdı. Xüsusən fərqlənən ruhani Ter-Araratovun çıxışından sonra erməni terrorçuları vətəndaşlara 40 dəfə güllə atdılar. Ter-Araratovla birgə 4 nəfər səbəbkar həbs edildi ( 18 ).

**2 sentyabr 1903-cü il.** Qarsdakı metodu elə həmin il, həmin gün Bakıda da axşam saat 5 radələrində işlədən erməni başbilənlərinin topladığı silahlı dəstə hökumət qüvvələrinin "dağılın!" təklifinə revolverlərdən *(tapanca* –X.İ.) atəş açmaqla cavab verdilər. 45 nəfər erməni fəalı həbs edildi. Erməni kilsəsindəki ikona və səcdəgahların altından çox sayda silah tapıldı. Rus qafqazşünası V.L.Veliçko ermənilərin iç üzünü açaraq, ***"kilsəni də zənglə duaya yox, qırğına çağıran, səcdəgahı qırğın silahlarıyla doldurulmuş, dua deyil, vəhşilik ocağı və bu kilsənin maraqlarıyla çalışan qanuni hökumətə qarşı qiyam yuvasına çevirmiş"*** **bir qurum kimi** xarakterizə edirdi ( 20 )...

V.L.Veliçko rəsmi sənədlərə əsaslanaraq yazır ki, 14 oktyabr 1903-cü ildə Tiflisdə, şəhərin girişində, Nəbatat bağının yaxınlığında, həyat yoldaşı ilə gəzintidən gələn general-adyutant, knyaz Qriqori Qolitsına hücüm çəkərək xəncərlə başına, üzünə və qoluna zərbələr endirən də məhz erməni kapitalistlərinin pullarının dəstəyi ilə hərəkət edən üç nəfər erməni terrorçusu idi ( 22 ).

**11 may 1905. Bakı.** 5 nəfər erməni terrorçusu knyaz M.A.Nakaşidze və Q.Takayşvilini öldürürlər. Xatırladaq ki, bu şəxslər Qafqaz xalqları arasında dostluq mövqeyindən çıxış edirdilər. Hadisəninin şahidi P.P.Şubinski öz xatirələrində bunu təsdiq edir. Həmin gün ermənilər general Əlixanovu da öldürdülər. Məsuliyyəti terrorçu erməni partiyası "Daşnaksütyun" üzərinə götürdü. Bəzi məlumatlara görə, qatillərdən biri Dro ləqəbli Drastamas Kanayan idi. Bu həmin Drodur ki, əvvəl Zəngəzur qəzasında müxtəlif erməni bandalarının tərkibində türk, kürd və azərbaycanlıları qətlə yetirmə əməliyyatlarında iştirak etmişdi ( 30 ).

**Noyabr 1918 ci il.** Erməni bandit çətələri tərəfindən aşağıdakı kürd və azərbaycanlı kəndləri məhv edilmişdi: Leqat (70 evlik), Tay (75 evlik), Mülk (30 evlik), Gül (10 evlik), Bənövşəpüş (5 evlik), Təgəmir (25 evlik). Sonucda 200 nəfər müsəlman öldürülmüşdü ( 119 ).

**6 aprel 1919-cu il. Azərbaycan.** Azərbaycanın 18 evlik Cavanşir kəndinə hücum edən ermənilər 25 kişi, 20 qadın, 10 uşağı öldürərək kənddə sağ adam buraxmamışlar ( 145 ).

**12 aprel 1919-cu il. Azərbaycan.** 60 evlik azərbaycanlı kəndi Müciyə saldıran erməni millətçi dəstələri 150 kişi, 55 qadın, 25 uşağı qətl edərək, 35 evi yandırdılar. Uşaqların gözlərini çıxardıb sonra onları tonqala atdılar ( 146 ).

**13 aprel 1919-cu il. Azərbaycan.** 70 evlik Xaşman kəndinə hücum edən erməni çətələri 120 nəfər müsəlmanı: 40 qadın, 20 uşaq, 60 kişini tanımayacaq dərəcədə eybəcər hala salaraq öldürmüşdü ( 148 ).

**14 aprel 1919-cu il. Azərbaycan.** 30 evdən ibarət Zeyvə kəndində erməni saqqallıları 30 kişi, 20 qadın və 32 uşağı diri-diri yandırmışdılar ( 149 ).

**25 mart 1920-ci il. Azərbaycan.** Ermənilər tərəfindən müsəlman kəndləri Xudiri, Dankeyrə, Davalı talan edilib yandırıldı. Dinc sakinlərdən çoxsaylı ölülər var. Xilas olanlar qonşu kəndlərə qaçmışlar ( 173 ).

**May 1920-ci il.** AXC liderlərindən Nəsibbəy Yusifbəyli erməni "Daşnaksütyun" təşkilatının terrorçusu tərəfindən öldürülmüşdür ( 184 ).

**19 iyun 1920-ci il. Tiflis. Gürcüstan.** AXC öndərlərindən Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov Tiflisdəki .Paliaşvili adına Opera və Balet Teatrının yanından keçərkən erməni "Daşnaksütyun" terrorçu partiyasının üzvləri Aram Erkayan və Misak Qriqoryan tərəfindən silahlı sui-qəsdə məruz qaldılar. F.Xoyski həlak oldu, X.Xasməmmədov isə ağır yaralandı...

Bu sui-qəsd Cənubi Qafqazdakı demokratik qüvvələrdə hiddət doğurmuş, "Qruziya" qəzetinin 23 iyun saylı buraxılışında Şərqdə demokratik hərəkatın görkəmli nümayəndəsi–Fətəli xan Xoyskinin xatirəsinə nekroloq da dərc olunmuşdu **( 185 )**.

**19 iyun 1920-ci il.** Erməni siyasi terrorçusu Azərbaycanın tanınmış ictimai-siyasi xadimi Həsənbəy Ağayevi qətlə yetirdi **(185-A).**

**15 mart 1921-ci il. Berlin.** Soğomon Tehleryan adlı erməni terrorçusu Berlin küçələrindən birində Tələt paşanı güllələdi. Sonralar, 30-cu illərdə və yəqin ki, A.Mikoyanın köməyi ilə SSRİ-yə keçən bu terrorçu, ardınca qəflətən Qahirədə peyda olur, özü də bir yazıçı, "Xatirələr" kitabının müəllifi kimi **(197).**

**18 mart 1921-ci il. İstanbul.** Daşnak erməni terrorçusu Misak Torlakyan İstanbulda Təpəbaşıdakı "Pera Palas" oteli qarşısında AXC-nin tanınmış liderlərindən Behbud xan Cavanşiri qətlə yetirdi **( 198 )**.

**Hadisə ilə bağlı məhkəmədə iştirak etmiş** İstanbul qəzetçisi **Əhməd Cəmaləddin öz kitabında bu məhkəmənin sonluğunu belə yekunlaşdırır:**

**"1337 sənəsi Təşrin-i sanisinin dördüncü Cümə günü intişar edən** *(yayımlanan* **–X.İ.)** İstanbul qəzetələri Behbud xan Cavanşirin qatili erməni Misak Torlakyan haqqında İngiliz Duvan-ı hərbinin "Türkiyə, Havas, Röyter ajansı tərəfindən bildirilən atidəki **qərarnaməni** İstanbul əhalisinə bildirirlərdi:

*"Dərsəadət 3 ( s h r ), Torlakyan haqqında hökm bu gün elan edilmişdir. Müttəhimin feil-i qətlindən dolayı mücrimiyəti (suçu –X.İ.) təsdiq edilmiş isə də məhkəmə mərkumu mühtəlüş-şüur və qeyri-məsul addetməkdədir."*

Qəzetələr bir qaç gün sonra da Erməni patrikxanasına badət-təxliyə təslim edilmiş olan Torlakyanın bir Yunan vapuruna rəqibən *(qarşı, doğru* –X.İ.) Pirəyə getmək üzrə İstanbuldan uzaqlaşmış olduğunu qeyd etdilər **( 210 )...**

**5 dekabr 1921-ci il. Roma.** Keçmiş vəzir və Xarici İşlər naziri şahzadə Səid Həlim paşa Romada daşnak-terrorçu Arşavir Şiraçyan tərəfindən öldürülmüşdür. Terrorçu faktı etiraf etmişdir **( 199 )** ...

**1921-ci** ildə erməni qatil Arşavir Şirakyan *(başqa qaynaqlarda:* ***Şiraçyan;*** *ruscadan alındıqda:* ***Şiraçyan,*** *ingiliscədən alındıqda isə:* ***Şiracyan*** *–X.İ.)* Romada Osmanlı dövlətinin Xarici İşlər naziri Səid Həlim paşanı öldürdükdən az sonra bəraət aldı və 4 ay keçməmiş başqa bir erməni terrorçusuyla birgə 1922-ci il aprelin 17-də Berlində iki nəfər vəzifəli türk vətəndaşını qətlə yetirdi **( 211 )**.

**17 aprel 1922-ci il. Berlin.** Erməni terrorçuları Arşavir Şiraçyan və Aram Yerqanyan türkləri – tibb professoru Bahəddin Şakiri və Kemal Əzmini öldürmüşlər. B.Şakir "İttihad və Tərəqqi" partiyasının rəhbərlərindən idi. Ölüm faktını terrorçu A.Şiraçyan özü də boynuna almışdı **( 200 )**.

**25 iyul 1922-ci il. Tiflis. Gürcüstan.** Erməni terrorçuları Petros Ter-Poğosyan və Zare Melik-Şahnəzəryan ("Daşnaksütyun"un yaratdığı "Əvəz" xüsusi dəstəsinin üzvləri) tanınmış türk siyasi xadimi, Suriyadakı 4-cü ordunun komandanı Kemal (Camal) paşa və onun yardımçısı Sürəyə bəyi öldürmüşlər. Təşkilatçı –Artaşes Gevorkyandır. Terror aktının erməni ziyalılarında da hiddət doğurduğu tədqiqatçı doktor Lepsiusun təqdim etdiyi məlumatlarda da təsdiqini tapır **( 201 )**.

**Avqust 1922-ci il. Buxara. Özbəkistan.** "Daşnaksütyun" terrorçu qurumunun üzvü Saruxanyan tərəfindən görkəmli türk siyasi xadimi, "İttihad və Tərəqqi" partiyasının başçılarından Ənvər Paşa qətlə yetirilmişdir **( 202 )**.



### *Anadoluda türk soyqırımı*

**1893-ci il mart. Ankara** ətrafında yaşayan müsəlmanlar erməni bandit dəstələri tərəfindən kütləvi qırğına məruz qalmışlar.

Erməni siyasi təşkilatların mübarizə prinsiplərini tədqiqatçı Karibi "Qırmızı kitab" adlı əsərində belə təsnif edib:

1) Qiyamlar qaldırmaq;

2) "Bu qiyamlar, qantökmələr haqda hay-həşir salaraq hökmən onların miqyasını şişirtmək... Onlar belə bir fikri mənibsəyiblər ki, siyasət başdan-ayağa yalandan ibarətdir və xalqın taleyini də yalanlar yolu ilə xilas etmək olar" **( 4 )**.

**1894-cü il 18 sentyabr. İstanbulda** erməni terrorçu ideoloqları müsəlmanlara küçədə, 1 sutka (gün-24saaat) davam edən qanlı səhnə düzənlədilər. Bir qədər sonra isə Ağ Hisarda qadın, ixtiyar və cocuqların da bulunduğu türk və kürd qırğınları törətdilər **( 5 )**.

**1894-cü ilin oktyabrında** «Hnçaq"ın başçılığı ilə Trabzon və onun ətrafında **( 6 )**, Ərzurum şəhəri və onun çevrəsində **(7 )**, Bitlis və onun şəhərətrafı yaşayış məskənlərində **( 8 )** müsəlmanlar kütləvi qırğınlara məruz qoyuldu. Bunları Fransa XİN-in 1897-ci ildə açıqladığı sənədlər də sübut edir. Avropalılar erməni nümayəndələri ilə görüşlərində "Sizin erməni dövləti yaratmaq istədiyiniz Osmanlı vilayətlərinin hansı birində ermənilər əksəriyyət təşkil edir?" sualına cavab ala bilmir və rəsmi söhbətlərdə erməni dövlətçiliyi üçün elçilik edən erməni liderlərinə anladırdı ki, beynəlxalq hüquqa görə onların nəinki Osmanlı tərkibindən ayrıla biləcək dövlət yaratmağa, heç Osmanlı daxilində muxtariyyət almağa belə hüquqları yoxdur. Məhz Avropanın bu yanaşmasından sonra erməni başbilənləri terrora əl atmaq, Avropanı qan gölləri faktı qarşısında qoymaq və öz məsələlərində daha etibarlı hami kimi Rusiyaya daha çox rol vermək... zaman-zaman isə xristian Avropa ilə xristian Rusiyanı xristian ermənilərin məsələsində rəqabətə çəkmək (*yəni kim bu kartı əlindən versə, Türkiyəyə və müsəlman dünyasına birbaşa təsir mexanizmini itirmiş olacaq* –X.İ.) taktikasına üz tutdu. Bu taktika sonralar ermənilərin həm də strateji prinsiplərindən birinə çevrilmiş oldu.

Erməni siyasətinin məhək daşı olan yalan və saxtakarlığın "erməni məsələsi"ndəki rolunu daha aydın təsəvvür etmək üçün erməni yazıçısı Qrant Matevosyanın mövqeyinə də diqqət edək: *"Biz özümüzü və xalqı aldatmalıyıq və məğlubiyyəti qəbul etməməliyik"* **( 8 )**.

**1894-cü ilin noyabrında Osmanlının** Aleppo şəhəri və çevrəsində, Xarput, Urfa, Sivas **( 9 )** ; Diyarbəkir şəhəri və ətrafında **( 10 )** , Adana şəhəri və çevrəsində **( 11 )** , Maraş şəhəri və onun ətraf yaşayış məskənlərində **( 12)** erməni terrorçu təşkilatı «Hnçaq"ın təşkilatçılığı və başçılığı ilə dinc yerli müsəlmanlar kütləvi qırğına məruz qalmışdır. Hətta ermənipərəst mövqeyi ilə məşhur olan Fransanın Osmanlı sarayındakı səfiri cənab Kambonun raportunda da erməni terrorçuları tərəfindən törədilmiş "vəhşicəsinə siyasi qətllərin" siyahısı da var. Həmin raportun şəhadətinə görə, "ermənilər tərəfindən kütləvi qarışıqlıq – itaətsizliklər" salınır, türklərə və kürdlərə qarşı sistemli hücumlar təşkil edilirmiş. Cənab Kambon onu da qeyd etməyi unutmayıb ki, "ermənilərin çoxu Rusiyaya türklərin ucbatından deyil, öz (erməni) terrorçularının əlindən qaçmışlar" **( 12 )**.

**1894-cü ilin noyabrında Kayseri** şəhəri və ətrafında da "Hnçaq"ın "dənizdən-dənizə Ermənistan" şüarı ilə yerli müsəlmanların kütləvi qırğını həyata keçirilmişdi.

Yerli kilsə məktəblərində xəritəsi yayılan bu planlanan Ermənistanın sərhədləri, rus tədqiqatçısı V.L.Veliçkonun yazdığına görə, paytaxtı Tiflis olmaqla az qala Voronejə

qədər nəhəng bir ərazini əhatə etməli idi. Erməni terrorçu təşkilatının ideoloqlarından olan Kaçaznuni açıqca bildirirdi ki, dənizdən-dənizə "Böyük Ermənistan" ideyası ümid (arzu) deyil, erməni xalqının ciddi şəkildə özünün və insanlığın qarşısına qoyduğu tələbdir ( 13 ).

**21 fevral 1914. Türkiyə. Qars və Ərdəhanda** erməni bandit qruplaşmaları tərəfindən 30000 kişi qətlə yetirilmiş, gəncləri seçib oda atmışlar. Bu işgəncə və qırğınların təşkilatçılarından biri, artıq kölgəyə keçmiş terrorçu "Qnçak" təşkilatının ideoloqu, Osmanlı parlamentinin üzvü Stepan Ter-Danielyan idi ( 46 ).

**1914-cü ilin yayı.** Amerikan tarixçisi Stenford C.Şou "Osmanlı İmperiyası tarixi" kitabında yazdığı kimi, yerli müsəlmanların ermənilər tərəfindən qorxunc, amansız qırğınları törədilirdi. "Milyondan artıq türk kəndlisi öz doğma ocaqlarından qaçmağa məcbur olmuşdu. Minlərlə qaçqın tikə-tikə doğranmışdı. Trabzon, Ərzurum, Ərzincan, Van və Bitlisdə 1914-cü ildə 3 300 000 nəfər təşkil edən türk əhalisinin müharibədən sonra 600000 nəfəri qaçqın düşmüşdü. O zaman türk və kürd əhalisinə qarşı qırğınların ideoloqlarından biri "Daşnaksütyun"un üzvü Atom ayamalı Arutyun Şahrikyan idi ( 213 ).

**Fevral 1915.** J. de Malevilin " 1915-ci il erməni faciəsi" kitabında göstərildiyi kimi erməni terrorçularının Şərqi Anadoluda qırğına məruz qoyduğu insanların ümumi sayı az qala 1600000 nəfərə çatırdı. Müəllifin bildirdiyinə görə, bir çox rus zabitləri, ermənilərin düzənlədiyi bu sallaqxanadan qəzəblənərək, erməni başkəsənlərinə qarşı qüvvə tətbiq etmişdilər.

Məhz bu olayların sonunda Osmanlı Ali Komandanlığının əmrilə DİN 24 aprel 1915-ci il tarixində İstanbul və b. böyük şəhərlərdə erməni komitələrini və terrorçu təşkilatlarını bağlamaq haqda sərəncam vermişdi ki, sonralar ermənilər haray-həşir salaraq həmin günü "erməni soyqırımı" günü kimi təqdim etməyə başladılar ( 47 ).

**24 aprel 1915-ci ildə Vanda** 4000 silahlı erməni bandası ətraf yaşayış məskənlərindəki müsəlmanlara qan uddururdu ( 48 )...

**Aprel 1915 ci il.** Ermənilər **Abaağa** kəndinə hücum çəkərək, yüzlərlə sakini öldürmüşlər ( 49 )...

**6 may və 8 mayda Vanda** kütləvi müsəlman qırğınları törədən ermənilər 9 may 1915-ci ildə Bitlisdə 123 nəfəri qətlə yetirdilər. Tədqiqatçı Rafael de Noqalesə görə, Qaregin Pastermacyanın da rəhbərlik etdiyi bu qırğınlar zamanı "Onlar əllərinə keçən bütün dinc müsəlmanları öldürdülər" ( 50 ).

Amerika tarixçisi Stenford C.Şouya görə, ermənilər tərəfindən 14-16 may 1915-ci ildə Vanda "yerli müsəlmanların kütləvi qırğınları" həyata keçirilirdi. Malevil də göstərir ki, ermənilərin 30 illik terrorçu aktları 1915-də yerdə qalan soydaşlarının köçürülməsi ilə nəticələnməli oldu ( 51 ).

**17 may 1915-ci il.** Erməni terrorçuları tərəfindən qədim türk şəhəri Van yandırıldı. Dinc əhalidən çoxsaylı qurbanlar vardır.

C. və K. Makkartilərin tədqiqatına görə, XX əsrin əvvəlindəki qanlı olaylarla 2,5 milyon müsəlman həlak olmuşdur ( 52 ).

**22 iyun 1915.** Türk qoşunları öz vətəndaşlarının imdadına gələndə Vanda meyit dağları gördü: qaça bilməyən türk, azərbaycanlı, kürdlər, erməni bandit çətələri tərəfindən "cəza"landırılmışdı.

1 iyul 1915-ci il tarixli məruzəsində general Nikolayev hansısa Tero və Xeçonun erməni bandalarının vəhşiliyindən bəhs edərək, onları güllələməyə çağırır. O zamanlar 5000 nəfərin əzabla həlak edildiyi yerdə 1915-ci ildə erməni bandit və terrorçu dəstələri tərəfindən qırğına məruz qalmış müsəlmanların xatirəsinə türk memorialı (anıtı) qoyulmuşdur **(52-A).**

**8 may 1916.** Türkiyənin Tercan qəzasındakı müsəlman kəndinə saldıran Andranikin başçılığı ilə erməni saqqallıları 563 nəfəri min bir əzabla məhv etmişlər **(52-B).**



**11 may 1916.** Erməni bandaları türk şəhəri **Malazgirddə** 20 000 müsəlmanı vəhşicəsinə öldürmüş, südəmər körpələri də əzab və işgəncələrdən sonra oda atmışlar ( 53 ).

**22 may 1916.** Erməni bandit dəstələri **Vanda** növbəti dəfə yerli türk və kürd əhaliyə divan tutdular. Dünyada görünməmiş bir alçaqlığa əl ataraq, 1 000 nəfər körpəni boğdular. Vandakı qırğınlar nəticəsində 15 000 müsəlman öldürülmüşdü. Meyitlərin qulaq və burunlarını kəsir, gözlərini çıxarırdılar ( 54 ).

**22 may 1916. Van yaxınlığındakı Köprüköy** erməni bandaları tərəfindən darmadağın edildi. 200 nəfər müsəlman həlak oldu. Müqavimət göstərməyə çalışanlara hədsiz divan tutuldu ( 55 ).

**22 may 1916.** Erməni terrorçuları Vanda yerli sakinlərə qarşı kütləvi zəhərlənmə həyata keçirdilər. Bir neçə yüz nəfər ölənlər sırasında uşaqlar, qocalar, qadınlar da vardı ( 56 ).

**22 may 1916.** Van ətrafındakı qaçqınlarla dolu Yergel və Atyan müsəlman kəndlərində ermənilər 8 000 nəfəri öldürdülər. Yaxşı silahlanmış bu bandalara qarşı yerli müsəlmanların müqaviməti səmərə vermədi ( 57 ).

**23 may 1916.** Van yaxınlığındakı Seyl müsəlman kəndində erməni başkəsənləri qadın, qoca və uşaqların çoxluq təşkil etdiyi 300 nəfəri öldürtdükdən sonra meyitləri ələ saldılar.

Elə həmin dövrdən etibarən dünya ictimayyətini çaşdıraraq məsuliyyəti qarşı tərəfin üstünə atmaq məqsədilə kətan üzərində Vasili Vereşşaqinin "Apofeoz voynı" ("Müharibə apofeozu") rəsmini də guya müəllifin ermənilər üçün çəkdiyi haqda yalanı dövriyyəyə buraxaraq nüsxələməyə başladılar: kəllələrdən ibarət bu "dağ" rəsmini kitabların üzündə, təbliğat vərəqlərində, poçt açıqçalarında və b. nəşr məmulatlarında çap etdilər. Ancaq məlumatı olmayanlar haradan bilsin ki, Vereşşaqin bu rəsmi 1871-1872-ci ildə, nəinki I Dünya Müharibəsindən əvvəl, hətta erməni-türk ixtilafının heç bir qığılcımı olmayan zamanda çəkib. Hər ehtimal üçün xatırladaq ki, V.Vereşşaqin özü isə 1842-1904-cü illərdə yaşamışdır ( 58 ). Bu fakt da bir daha oxucuda tarixi erməni yalan və iftiralarının miqyasını təsəvvür etməyə imkan verir.

**İyun 1916. Edremid (Ədrəmid).** Türkiyənin bu şəhərindəki dinc yerli əhali də ermənilər tərəfindən hücuma məruz qalıb, 15 000 nəfər qurban veriblər. Bu şəhərə saldırmış erməni quldurları patrona qənaət etmək üçün əhaliyə ölümü yalnız "təkmil" işgəncələrlə qıyırdılar ( 59 ).

**Yanvar 1918.** Türkiyəyə aid Qatranlı kəndinə erməni başkəsənləri ətraf müsəlman kəndlərindən yığdıqları 1 400 uşağı diri-diri yandırdılar. Bu uşaqların valideynləri haqqında isə heç bir məlumat əldə edilməmişdir. Əməllərin məsuliyyəti «Daşnaksütyun"un üzərindədir **(65).**

**27 fevral-12 mart 1918.** Rus zabiti Tvyordoxlebovun qeyd etdiyi kimi, bu zaman aralığında Türkiyənin Ərzincan şəhərində Andranikin dəstələri 800 nəfər müsəlmanı qılıncdan keçirmişlər. Ərzurum yaxınlığındakı İlicə (*Ilıca* –X.İ.) kəndində də dinc sakinlər öldürülmüş və Ərzurum şəhərindəki türk bazarında yanğın törədilmiş, şəhərin türk sakinlərindən bir qismi vəhşicəsinə qətlə yetirilmişdir ( 66 ).

**Mart. 1918-ci il. Zevə. Türkiyə.** Erməni bandit dəstələri bu kəndə saldıraraq, 8 qonşu kənddən götürdükləri əsirlərlə birgə vəhşi işgəncələrlə cəmi 2500 nəfər müsəlmanı güllələmişlər ( 88 ).

**16-25 aprel 1918-ci il. Ərzurum.** Rus podpolkovniki (*yarbay* –X.İ.) Tvyordoxlebovun (*Tverdoxlebov* –X.İ.) gündəliyindən: «... nə zaman ki, biz hücumun qarşısını almaq üçün şərəfli döyüşlə Ərzurumu sinəmizlə saxlayırıq-bizim arxamızda ermənilər, bu qaniçən və qorxaq azadlıq mübarizləri müdafiəsiz qoca, qadın və uşaqları qırmağa başlayırlar. Özü də onları əsla qayğılandırmır ki, bununla onlar alçaqcasına bizi aldadır və bütün dünyada təkcə özlərini deyil, həm də rus zabitlərinin adını bədnam edirlər.»

Sonra Tvyordoxlebov qədim Romalı Petroniydən " Ermənilər də adamdır, ancaq evdə 4 ayaqla (yəni yaltaqcasına, sürünər kimi) gəzirlər"-sitatını gətirərək, öz gözü ilə gördüklərinə Puşkinin "Sən köləsən, sən qulsan, sən ermənisən" sözlərini əlavə edib ermənilərə münasibətini tamamlayır ( 99 ).

**25 aprel 1918-ci il.** Qars vilayətinin doğusundakı Subatan kəndində erməni bandaları tərəfindən 750 nəfər türk öldürülmüşdür. Şahidlərin ifadələrinə görə, 257 uşağı Tıptıp küçəsinə qovaraq, onlara divan tutmuşlar. Kütləvi ölümlər dəhşətli işgəncələrlə müşaiyət olunmuşdur **(100)**.

**25 aprel-10 may 1918-ci il. Qars.** Bu elin İlanlı, Qaraqaş, Dərəcik, Təkməli və b. kəndləri erməni çətələri tərəfindən müdhiş qırğınlara məruz qaldı. Qurbanların (minlərlə) çox hissəsi kürdlər idi-ermənilər patrona qənaət etmək üçün "qurban"larını diri-diri yandırır, ya da baltayla doğrayırdılar ( **101** ).

**1 may 1918-ci il. Qars.** Erməni çətələri Qars yaxınlığındaki Şiştəpə və Düzkənd kəndlərinə hücum çəkərək, sırasında qadın, qoca və uşaqların da olduğu 600 nəfər müsəlmanı vəhşicəsinə qılıncdan keçirmişlər ( **105** ).

**1 may 1918-ci il. Qars.** Burada erməni cəlladları qadın və uşaqların da bulunduğu 60 nəfər müsəlmanı vəhşicəsinə öldürdükdən sonra erməni-daşnak təbliğatçıları öz başkəsən terror başçılarını qəhrəman kimi təbliğ edirdi.

Bu mövzuda rus elçisi, general Q.Mayevskinin də münasibətini bilməyə dəyər: "Bizə Balkanların çox qəhrəmanları məlumdur. Ancaq kimsə erməni xalqının qəhrəmanlığı haqda nəsə eşidibmi? Onların azadlıq uğrunda mübarizlərinin adları harada göstərilmişdir? Heç yerdə. Niyə? Çünki erməni xalqının qəhrəmanları daha çox cəllad olmuşlar, nəinki xilaskar. Erməni bandaları, adətən, qarışıqlıq törədirdilər, süngülərlə qadın və uşaqları doğrayıb, qaçaraq gizlənirdilər" ( **106** ).

**İyul 1919-cu il. Türkiyə.** Andranikə bağlı erməni çətələri Sarıqamış şəhəri ətrafındakı kəndlərə silahlı həmlə edərək, 803 nəfəri vəhşi işgəncələrlə öldürmüşdür. Edam edilmişlər sırasında uşaq, qadın və psixi xəstələr də vardı ( **152** ).

**İyul 1919-cu il. Gerus. Türkiyə.** Erməni bandaları Gerus şəhərindən yuxarıdakı kürd kəndlərini darmadağın edərək, dillə deyilməsi müşkül olan zülm vermişdilər. Əliyalın şəkildə müqavimət göstərmək istəyən kürd əhali demək olar ki, tamamilə qılıncdan keçirilmişdir.

Arxiv materiallarında qeyd olunur ki, 1915- 1918-ci illərdə Türkiyənin cənub bölgələrində ermənilər tərəfindən 600 mindən çox kürd məhv edilmişdi ( **153** ).

**15 avqust 1919-cu il. Ərzurum. Türkiyə.** "Daşnaksütyun"un təlimatlarını həyata keçirən erməni çətələri Ərzurum şəhərində 426 nəfər müsəlmanı diri-diri yandırmışlar. Bunların çoxu isə qadın, uşaq və qocalar idi **(154)**.

**6 noyabr 1919-cu il.** Kürd qaçqınlarını izləyən erməni yaraqlıları onları Keçəldələ aşırımındakı daldalanacaqda yaxalayaraq qaubitsa (*qısalüləli ağır top* –X.İ.) atəşinə basmışlar. Qaçqınlar arasında çox sayda ölü və yaralı var **(155)**.

**7 yanvar 1920-ci il. Türkiyə.** Donuxlu kəndindəki cəmi 12 müsəlman ailəsi erməni çətələri tərəfindən qonşu Zeytun kəndinə aparılaraq işgəncələrlə öldürülmüşdür **(160)**.

**12 yanvar 1920-ci il. Türkiyə.** 450 nəfərlik süvari erməni saqqallıları Antepe vilayətindəki Ərəbdar müsəlman kəndinə saldıraraq yerli əhalinin çoxunu əzab və işgəncələrlə öldürdülər **(161 )**.

**2 fevral 1920-ci il. Şürəgöl** (*Şörəyel* -X.İ.). **Türkiyə.** Erməni saldırmasına uğrayan bu şəhərdə 1 350 nəfər dinc müsəlman öldürülmüşdü ( **163** ).

**2 fevral 1920-ci il. Zəruşat. Türkiyə.** Erməni bandaları bu şəhərə saldıraraq 2150 nəfər müsəlmanı öldürdülər. Həlak olanların çoxu suda batırılmışdı **(164)**.

**10 fevral 1920-ci il. Türkiyə.** Ermənilər Çıldır adlanan yerin yaxınlığında 100 nəfər müsəlmanı vəhşicəsinə öldürdülər. Fakt "Osmanlı" arxivindəki sənədlərdə əksini tapmışdır ( **165** ).



**28 fevral 1920-ci il. Pozantı. Türkiyə.** "Osmanlı" arxivindəki sənədlərdə göstərilir ki, daşnak bandaları türk əyaləti Pozantıda 40 nəfər türkü vəhşicəsinə həlak etmişlər ( **166** ).

**9 mart 1920-ci il. Zəruşat. Türkiyə.** Türk şəhəri Zəruşat ətrafında dinc əhaliyə divan tutuldu. Ermənilər 120 nəfər əsir edilmiş mülki müsəlmanı baltalarla doğramışdılar ( **167** ).

**22 mart 1920-ci il. Türkiyə. Şürəgöl** və **Zəruşat** şəhəri erməni başkəsən çətələrinin hücumuna məruz qaldı. Silahlı ermənilərə qarşı yerli əhali kənd təssərüfatı alətləri ilə vuruşurdu. Nəticədə 2000 müsəlman həlak edildi **(168)**.

**5 may 1920-ci il. Qars. Türkiyə.** Erməni millətçi dəstələri Qars şəhərinə hücum çəkdilər. Artilleriyanın köməyindən istifadə edərək odlu silahla 774 dinc müsəlmanı qətlə yetirdilər. Bu fakt İstanbuldakı "Osmanlı" arxivindəki sənədlərlə təsdiqlənir **(182)**.

**15 oktyabr 1920-ci il. Bayburt. Türkiyə.** Bayburt şəhərinin 99 kəndində ermənilər tərəfindən törədilmiş vəhşilik nəticəsində 1387 meyit tapılmışdır. Qaçan uşaqları tutub, ölənədək işgəncə verirmişlər **(188)**.

**17 oktyabr 1920-ci il. Pasin. Türkiyə.** Pasin şəhərinin 30 kəndində erməni başkəsənləri 9 287 nəfəri məhv etmişdir. Qocalara və uşaqlara ermənilər, adətən patron məsrəf etmir, vəhşicəsinə işgəncələrlə öldürürdülər **(189)**.

**19 oktyabr 1920-ci il. Ərzurum. Türkiyə.** Dinc sakinlərə divan tutaraq qorxunc bir sallaqxana təşkil edən daşnak terrorçuları "etnik təmiz zona" yaratmaq üçün Ərzurumun müxtəlif hissələrində 8 439 nəfəri qılıncdan keçirmişlər **(190)**.

**Oktyabr 1920 – ci il. Türkiyə.** Tortum şəhərinə bağlı 64 kənddə ermənilər 3700 nəfəri öldürmüşlər. Meyitlərdə işgəncə izləri qalmışdır. Müsəlman müqəddəslikləri ya yandırılmış, ya da təhqir olunmuşdu **(191)**.

**Oktyabr 1920-ci il. Qars. Türkiyə.** Qars şəhərinin ətrafında erməni "Daşnaksütyun" terrorçu təşkilatının çətələri müsəlman əhaliyə divan tutaraq 11193 dinc sakini əzabla öldürdü. O dövrdə "Daşnaksütyun"un mətbuat orqanı "Harac" (rusca: *"Araç"*) qəzeti yazırdı: "Əgər erməni xalqı yaşamaq və öz dövlət və həyati mövcudluğunu qorumaq istəyirsə, o rus deyil, türk oriyentasiyasına malik olmalıdır." Çoxlu tədqiqatçının çaşdıran, bu süni ziddiyyət də, "Daşnaksütyun"un təbliğat məqsədi idi **(192)**.

**14 dekabr 1920-ci il. Sarıqamış. Türkiyə.** Sarıqamış şəhərinin 18 kəndindəki 5337 nəfər müsəlman qaçqınları erməni saqqallıları tərəfindən öldürülmüşdür. Edam edilənlər sırasında kürdlər, türklər, ərəblər və b. millətlərin nümayəndələri vardı. Təkcə dekabr ayı ərzində buradakı 21 kənddə ermənilər 8202 müsəlmanı qətlə yetirmişlər **(193)**.

**Dekabr 1920-ci il. Türkiyə.** Qarsın və Diqorun kəndlərində erməni çətələri tərəfindən 18620 nəfər öldürülmüşdür. Qadın və uşaqları öldürməzdən əvvəl inanılmaz dərəcədə şiddətli işgəncələrə məruz qoyur, südəmər uşaqları oda atır, əsir götürülmüş kişilərin ətraflarını kəsirdilər. Bütün bu insanayaraşmaz cəlladlığı törədənlər dünyaya sivil bir toplum kimi səslənərək "türklər tərəfindən qırğınlara məruz qaldıqlarını" bağırırdılar.

Mark Bristolun ABŞ administrasiyasına yönəlik erməni yalanlarını durdurmaq barədə çağırışlarından sonra, Yaxın Şərqdə missioner, həm də "ermənilərin əzablarını" yumşaltmaq məqsədi daşıyan ABŞ missiyasının nümayəndəsi Ceyms Barton öz işi ilə bağlı Türkiyə erməniləri ilə təmasda olaraq, onların şişirtməyə meylli olmasıyla rastlaşaraq, onların "bəd niyyətli, hansı ki heç vaxt baş verməmiş vəhşiliklər haqda məlumatlarının və sonsuz erməni dezinformasiyası"nın qarşısını ala bilmədiyini etiraf etmişdi ( **194** ).

**12 sentyabr 1903.** *"Yerli erməni elementinin siyasi həyəcanları və qeyri-adi həyasızlığı ilə şöhrətlənmiş"* (V.L.Veliçko) Şuşada erməni toplumu qarışıqlıq və quldurluq da törətdi. Ermənilər pravoslav kilsəsinin protoiereyi Vasilovun öldürülməsi üçün terrorçu soydaşlarının 25000 rubl aldıqlarını gizlətmirdilər. Rus tədqiqatçısı V.L.Veliçkoya görə *"erməni maliyyə tuzlarının bənzər qanlı işlərdə hansı rol oynadığı"* aşkar idi **( 21 )**.

**1904-cü ilin sentyabrında Bakıda** erməni terrorçuları tərəfindən "xəbərdarlıq" məqsədilə bir qisim azərbaycanlı qətlə yetirilmişdi **( 23 )**.

**Dekabr 1904 – yanvar 1905. Bakı.** Erməni terrorçuları aşağıdakı təhdid bəyannaməsi ilə azərbaycanlıları ruslara qarşı onlarla birləşməyə təhrik etməyə çalışırdılar, əks halda: "Hazır olun ki, biz sizin torpağınızı sizin qanınızla qırmızı rəngə boyayacaq, meyitlərinizi elə oda atacağıq ki, bu od bütün dünyanı saracaq". Ermənilərin bu qorxunc bəyannaməsi və buna müsəlmanların mənfi cavabı İsgəndəriyyədə farsca çıxan "Çöhrə nüma" dərgisində dərc olunmuşdur **( 24 )**.

**5 fevral 1905. Bakı.** Erməni terrorçuları tərəfindən qarışıqlıq salmaq məqsədilə Bakı qəzasında Sabunçu kənd sakini Ağa Rza Babayev öldürüldü. Həmin günün başqa qurbanları realnı və texniki orta məktəbin 7-ci sinif şagirdləri Yakov Lebedev və İvan Volkov idi. Erməni alimi C.Libaridyan yazır ki, 1904-1906-cı illər ərzində erməni terrorçuları tərəfindən 105 "siyasi qətl" həyata keçirilmişdi **( 25 )**.

**6 fevral 1905. Bakı.** Buradakı Mixaylovsk şəhəri xəstəxanasından verilmiş sənədlərə əsasən, erməni milyonçuları Balabek Lalayev, Artyom Babayans, İsay Ter-Osipov və b. maqnatların himayəsi ilə erməni terrorçuları 18 nəfəri öldürmüş, 33 nəfəri isə yaralamışlar. Bunlardan 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni (yəqin ki *öz terrorçularının mövqeyi ilə razılaşmayanlar* –X.İ.), 5 nəfəri isə müxtəlif millətlərin nümayəndələri idi **( 26 )**.

**7 fevral 1905. Bakı.** Həmin erməni terrorçu təşkilatının əli ilə 100-ə yaxın dinc sakin öldürülmüşdür **( 27 )**.

**9 fevral 1905. Bakı.** Erməni terrorçu təşkilatları şəhərdə talan və qırğınlar törətdikdən sonra milyonçu ermənilərin (Balabek Lalayev, Artyom Babayans, İsay Ter-Osipov, Akop Muradyan, Qriqori Sarkisyans, Karen Saakyan və b.) malikanələrinə yığışır və pəncərələrdən, damlardan şəhərin küçələrinə atəş yağdırır, ingilis və fransız istehsalı olan bomba və qumbaralar tullayırdılar. Bu, 6-10 fevral 1905-ci il hadisələri tarixə "Bakı şəhərində qanlı qırğın" kimi daxil olmuşdur **( 28 )**.

**20 avqust 1905-ci il.** Yaxşı silahlanmış erməni millətçi dəstələri Bakıda müsəlmanların sıx yaşadığı məhəllələrə hücum çəkdilər. Çox sayda insanlar öldürüldü. Kişilərin başlarını kəsir, hamilə qadınların qarnını buxarla yandırır, uşaqları tonqallara və ya su quyularına atırdılar. Meyitlərin bir hissəsi dənizə tullanmışdı **( 37 )**.

**1905-ci il. Avqustun sonları. Bakı.** Erməni bandit qrupları tərəfindən azərbaycanlılara görünməmiş divan tutuldu. Şahidlərin dediklərinə görə, bu, hələ yaddaşlarda ağır yaraları sağalmamış fevral qırğınlarından daha müdhiş, daha amansız, daha kütləvi idi.

Rusiya arxivlərindəki materiallara görə, **1905-1906 il hadisələrini** törədən "Daşnaksütyun" bir tərəfdən acığının bir hissəsini müsəlmanları qırmaqla çıxır, digər tərəfdən günahı mətbuat vasitəsilə Rusiyanın üzərinə yıxaraq Qafqaz xalqlarını inqilabiləşdirmə materialı əldə edirdi... Nəticədə, ermənilərə sərf etməyən çox sayda rus dövlət nümayəndələri və şəxslər də aradan götürüldü **( 39 )**.

**Sentyabrın sonu 1905. Qazax. Azərbaycan.** "Daşnaksütyun" beynəlxalq erməni terrorçu təşkilatının saqqallıları qədim Azərbaycan şəhəri Qazağı tutub, çoxsaylı qətllər həyata keçirərək, şəhəri yandırdılar **( 40 )**.



**Noyabr 1917. Nuxa (Şəki).** FİK–in sənədlərinə görə, Azərbaycana məxsus bu qəza kəndlərində silahlı erməni bandaları çöl işlərindən qayıdan müsəlmanları qətlə yetiriblər. Sarı Hacallı kəndindən isə üç qadını oğurlayıb öldürmüşlər. Həmin qadınlar döşləri kəsilmiş şəkildə tapılmışdır **( 60 )**.

**14 dekabr 1917.** FİK üzvünün raportuna görə, erməni bandası **Ağdaş-Qutqaşın (Qəbələ)** yolunda azərbaycanlı Baxşəli adlı şəxsi ailəsilə birgə vəhşicəsinə öldürmüşdür. Millətçi qatillər əvvəlcə onların dərisini soymuş, sonra ağacdan asmışlar **( 61 )**.

**Dekabr 1917.** FİK üzvü N. Mixaylovun məruzəsinə görə, Bağır dərəsində 5 müsəlman cəsədi bulunmuşdu. Cəsədlər nizəylə deşilmişdi. Həmin vaxt Çaxmaqlı stansiyası yaxınlığında eyni vəziyyətdə öldürülmüş 22 azərbaycanlı meyidi aşkar olunmuşdu. Cəsədlərin gözlərini də deşmişdilər. Ərəblər kəndində isə bədəninə süngürlər sancılmış, gözləri çıxarılmış 8 azərbaycanlı meyidi tapılmışdı. Bunların içərisində döşləri kəsilmiş qadınlar da var idi. Ölülərin yanında peyində tapdaladılmış müsəlman müqəddəs kitabı "Quran" da vardı. Azərbaycanlı kəndi Azaxşamda 9 qadın, 9 uşaq öldürülmüşdü. Kürdlərin yaşadığı Kürd kəndində 67 nəfər qətl edilmiş, uşaqların meyiti qanova atılmışdı.

FİK üzvü N.Mixaylov məruzəsində göstərir ki, erməni bandaları kiçik uşaqları göyə tullamaqla xəncərlə doğrayırdılar. Kürd kəndində isə bəzi müsəlmanları divara mıxlayaraq qətl etmişdilər.

Akademik Ziya Bünyadovun araşdırmalarına görə, 1917-ci ildə "Daşnaksütyun"un terrorçu dəstələri Trabzon, Bitlis, Ərzurumda da yerli müsəlmanları qılıncdan keçirmişdi. Bu faktlar general Prjevalski və general Odişelidzenin məruzələrində öz təsdiqini tapmışdır **( 63 )**.

**21 mart 1918-ci il. Bakı.** Erməni terrorçu təşkilatı «Daşnaksütyun" rus ingilabı şüarı ilə İçərişəhərin (orta əsrlərin şəhər-abidəsi) girişindəki binanı mühasirəyə aldı, belə ki, burada iki minə yaxın yaralı azərbaycanlı, rus, ləzgi və yəhudi yerləşmişdi. Erməni terrorçusu Amazaspın və kommunist masqalı daşnak liderlərindən Anastas Mikoyanın əmri ilə bir neçə erməni saqqallısı binaya hər tərəfdən kerosin tökərək onu oda qaladı... Beləcə dinc Bakı sakinlərini diri-diri yandırıb kömürə döndərən erməni vandalları Bakıda talana və soyğunçuluğa başladılar. Müqayisə üçün bildirək ki, 1918-ci il hadisələrindən sonra A. Mikoyan və T. Amirov tərəfindən 20000000 qızıl rubl oğurlanıb, xaricə çıxarılmışdı **( 69 )**.

**1918-ci il. Şamaxı.** Azərbaycanın Şamaxı qəzasının Nəvahi kəndində erməni terrorçu qrupları tərəfindən 2 000 tikili yandırılmışdı **( 73 )**.

**Mart 1918-ci il. Şamaxı qəzasının** Qubalı kəndinə qəflətən hücum çəkən erməni bandit dəstələri orada 250 kişi, 150 qadın və 135 uşağı öldürmüş, körpələri dünya tarixində görünməmiş "yeni vəhşilik yaradıcılığı" ilə məhv etmişlər **( 74 )**.

Mart ayında erməni terrorçuları Şamaxının Qaravəlli kəndində 120 nəfər (6060000 rubl zərər vurmaqla) **( 75 )**, Qonaqkənddə 34 nəfər (8300000 rubl zərər vuraraq) **( 76 )**, **Quşçu** kəndində (arxiv sənədlərində, rusca-**Kuşşi**) 332 nəfər **( 77 )**, 9 evdən ibarət olan Ağabəylidə 7 kişi, 3 qadın və 4 uşaq öldürmüşdülər. Uşaqları öldürməzdən əvvəl onların üstünə itləri salaraq "ov" səhnəsi yaradırdılar **( 78 )**.

Mülklər talanır, evlər yandırılır və müsəlman müqəddəslikləri murdarlanır, təhqir olunurdu **( 77 )**.

Şamaxının Kaşad (*bu adın yazılışı rusca tərtib olunmuş arxiv sənədindən alınmışdır* –X.İ..) kəndində 117 nəfər öldürüldü, kənd tamamilə yandırıldı **(79 )**, Sündü kəndində 250 nəfər **( 80 )**, Ərəb-Qədimlidə 378 nəfər **( 81 )**, Cəgirlidə 75 nəfər öldürüldü, kənd talan edildi, evlər və məscid yandırıldı **(82 )**, Nəbur kəndində 60 nəfər təsviri qələmlə müşkül olan işgəncələrlə öldürüldü **(83 )**, Mərəzəli – Tatar kəndində 300 nəfər **( 84 )**, Ağsu kəndində 500 nəfər öldürüldü, əmlaklar talandı, evlər və məscidlər yandırıldı **( 85 )**. Yuxarı Lənqəbli kəndində öldürülənlərin sayı 500 nəfər təşkil edirdi: kişilərin diri-diri

başının dərisi soyulur, uşaqları patrona qənaət etmək üçün su quyusuna atırdılar. Pirsaatçay istiqamətində qaçıb canını qurtarmaq istəyənləri də erməni pusqusu gözləyirdi: beləliklə, 20 nəfər kənd sakini də orada yaxalanaraq öldürüldü, meyitlər çaya atıldı. Kəndlilərin mal-mülkü talandı **(86 )**.

**Mart 1918-ci il. Şorbağı. Azərbaycan.** Erməni daşnakları bu kəndə də hücum çəkərək 35 kişi, 10 qadın və 6 uşağı kommunistlərin adından min bir işgəncə ilə qətlə yetirmişlər **( 87 )**.

**30 mart-2 aprel 1918-ci il. Bakı**... Təzəpir məscidinin qarşısı meyitlə dolu idi, məscid özü isə murdarlanmışdı... Təkcə Çəmbərəkənd qəbiristanlığında 18 min qurban uyuyurdu: Bakı və ətraf yaşayış məskənlərinin soyqırıma məruz qalmış azərbaycanlı sakinləri.

Bakı və Şamaxı qəzası bölgəsində kommunizm bayrağı altında azərbaycanlı soyqırımı həyata keçirən Stepan Şaumyan Leninə yazdığı 19 aprel 1918-ci il tarixli məktubunda bir çox məsələləri etiraf etməli olmuşdu: "Şəhərimizin (*Bakını nəzərdə tutaraq* –X.İ.) milli tərkibi bizi qorxudurdu. Biz mübarizənin arzuedilməz çalarlar kəsb edəcəyindən əndişələnirdik. Biz hətta daşnak polkuna əl atmalı olduq. Onlardan imtina etmək israfçılığına qəti yol verə bilməzdik. Hər halda qələbə o qədər böyükdür ki, gerçəklik az kədərləndirir."

Bakıda Şaumyanın arzularını layiqincə gerçəkləşdirənlər içərisində fərqlənən, əvvəllər uşaq oğurluğu ilə məşğul olmuş quldurbaşı Tatevos Amiryan və mələz, düdəmə kimi alçaq epitetlərlə tanınan Stepan Lalayev "əksinqilab"la mübarizənin başında Şamaxıya tərəf hərəkətə keçdilər.

Bu soyqırım aktlarından quldurluq məqsədilə də istifadə edən Şaumyanın baqajından öz "silahdaşları", Henri Barbinin məlumatına görə, 80 milyon rubl qızıl pul tapmışdılar **( 89 )**.

**Mart-aprel 1918-ci il. Şamaxı.** Bu qəzanın kəndlərində ermənilərin törətdikləri vəhşiliklər sözün həqiqi mənasında bəşər tarixində rastlanmayan, insanlığın ağla gətirmədiyi işgəncələrlə müşayiət olunurdu: məsələn, kişiləri ayağından asaraq onları sallaqxanadakı kimi qılıncla şallaqlayır, başqalarını taxta çarpayıya bağlayıb, xalça, yaxud palaza bükərək üstünə kerosin töküb yandırır, çoxlarını canlı halda döşəməyə, qapıya, stola (masaya) mıxlayırdılar. Müqəddəs kitablardan (əsasən də "Quran"dan) böyük tonqallar düzəldib, din xadimlərini kəndirlə bərk bağlayaraq bu tonqallara atırdılar. Dəhşətlisi budur ki, bütün bu hadisələr orada yerli-qonşu kəndlərdə yaşayan ermənilərin qarşısında baş verir və onların əl çalması ilə müşaiyət olunurdu. Erməni banditlərinin işgəncələrini sözlə təsvir etmək müşkül olsa da onların "yaradıcılığından" bir "nümunə"ni də təqdim etmək istərdik: bir müsəlmanın əl-ayağını kəsərək, süngü ilə onu deşmələyib məcbur edirdilər ki, öz bədəninin hissələrini çeynəsin...

S.Lalayanın əmrinə əsasən öldürülənləri ağaclardan asırdılar. Belə ki, onlar içərisində uşaqlar da az deyildi. Şahidlərin istintaqa verdiyi bilgilərə görə, qadınlardan boyunbağını çıxarda bilməyəndə başlarını xəncərlə üzürdülər. Sırğanı götürmək üçün qadınların qulağını, qolbağılar üçünsə qızların qolları kəsirdilər, körpələri isə anasının qucağında məhv edirdilər. **( 90 )**.

Şamaxının 260 evlik Təgəli kəndinə hücum nəticəsində bir neçə erməni bandası tərəfindən 360 kişi, 412 qadın və 150 uşaq vəhşicəsinə öldürülmüş, kənd yandırılmışdır. **( 92 )**. Hacıman kəndində isə 30 uşaq, 60 qadın, 40 kişi həlak edilmişdi. **( 94 )**. Bağırlı kəndində qudurğan erməni çətələri 80 nəfər alibağlı kişinin gözü qabağınada 140 uşağı və 150 qadını, onlara divan edərək öldürmüşdü...

Sonda kiçik erməni-daşnak təbliğatçısı ölmüş Bağırlı kəndində kommunist hakimiyyətini elan etmişdir. **( 93 )**. Dilman kəndinə basqın edən ermənilər 300 silahsız kişini, 235 qadını və 50 uşağı məhv edərək, meyitləri eybəcər hala salmışdılar. **( 95 )**. Kəlvədə 250 kişi, 150 qadın və 100 nəfər uşağı öldürüb, hamısının gözlərini çıxardıqdan



sonra «Daşnaksütyun"un saqqallı terrorçuları gülərək Leninin sağlığına içmişdilər **( 96 )**. Tərcan kəndində isə 300 kişi, 40 qadın, 20 uşaq məhv edilmişdi. Bu ölümlər də daşnaklar tərəfindən kəskin işgəncələrlə həyata keçirilirdi **( 97 )**.

Ümumilikdə Şamaxı bölgəsi də daxil olmaqla 1918-ci ildə Cənubi Qafqaz və İran bölgəsində ermənilərin türklərə, müsəlmanlara qarşı törətdikləri soyqırımı bütün mənzərəsilə arxiv materiallarında əks olunub.

**Aprelin əvvəli 1918-ci il.** «Daşnaksütyun"un terrorçu qüvvələri qatarla Bakıdan **Nabaqi** (yazılış ruscadan alınmışdır; güman ki ***Nəvai*** nəzərdə tutulur –X.İ.) stansiyasına gedərək, yerli əhaliyə Sovet hakimiyyəti adından ultimatum verdilər. Ancaq əhali onların əsl məqsədlərini başa düşərək, daşnak tabeçiliyini rədd etdilər. Sonucda çoxu azərbaycanlılar, yerdə qalanları rus, ləzgi və yəhudilərdən ibarət olan yerli əhaliyə divan tutuldu: 555 kişi, 260 qadın, 140 uşaq öldürüldü.

Bu dövrdə S.Şaumyan Moskvaya gizli teleqram göndərərək hər ehtimala qarşı özünü sığortalamağa çalışırdı: ««Daşnaksütyun»un 3-4 minlik qüvvəsi bizim sərəncamımızda idi. Onların iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri verdi. Ancaq bundan qaçmaq mümkün deyildi. Biz şüurlu şəkildə buna getdik. Müsəlman kasıbları güclü zərər çəkdi».

S.Şaumyanın bu gizli teleqramı Moskvada rəhbərliyindəki erməni lobbisi tərəfindən uzun illər məxfi saxlanırdı. Qəflətən teleqramın mətni erməni yazıçısı Mikael Şatiryanın "Palma haqqında hekayə" kitabında dərc olundu. Bununla da yazıçı həm Şaumyanı, həm "Daşnaksütyun"u, həm də özünü ifşa etmiş oldu **( 98 )**.

**Aprelin sonları 1918-ci il. Şamaxı.** Bu qəzanın **Kaçatan** (*Köçatan?* –X.İ.) kəndinə hücum çəkən ermənilər 50 kişi, 60 qadın və 21 uşağı kommunist hakimiyyətinin adı altında bəyanlarla vəhşicəsinə öldürmüşlər **( 103 )**.

Dəvəçi-Bazar, Qızıl-Burunda... Dəvəçi dairəsinə aid kəndlərdə: Dəvəçi, Siyəzən, Səədan, Xaçmaz, Xudat, Sarvan, Böyük Moruq, Üçkənd, Həsən-Qala və b. kəndlərdə yerli müsəlmanların mülkləri talan edildi, yüzlərlə azərbaycanlı, tat, ləzgi öldürüldü, uşaqlar və qocalar işgəncələrə məruz qaldı **( 104 )**.

**1-2 may 1918-ci il. Quba.** ...200 ev və 22 məscid yandırıldı, 3000 nəfər vəhşicəsinə öldürüldü. Amazaspın quldur dəstəsi Qubadan 4000000 rubl nağd pul, 4500000 rubl dəyərində qızıl və zinət əşyaları, 25000000 rubl dəyərində müxtəlif mal və ərzaq məhsulları qarət etdi, 122 kəndi dağıdıb-viran qoydu.

Qusar şəhəri də eyni taleyi yaşadı: dinc ləzgi əhaliyə divan tutuldu. Ümumən, vətəndaşlara vurulan zərər təxminən 100 miyon rubl təşkil edirdi **(107)**.

**1 iyun 1918-ci il. Kürdəmir**... Kürdəmirə ermənilərin hücumu nəticəsində 56 ev, iki məscid yandırılmış, "Quran"ı şəhr edən ədəbiyyatlardan ibarət unikal kitabxana darmadağın edilmişdir **( 110 )**...

**1918-ci il. Qəbələ qəzası. Azərbaycan.** Erməni bandit dəstələri kiçik avar (*müsəlman*- X.İ.) kəndinə saldıraraq yerli kəndlilərə divan tutdu. Uşaqlar daha ağır içgəncəyə məruz qaldı: onlarla avar uşaqlarının gözlərini çıxarıb, onları sapa düzərək öldürülmüş bir ananın yaxasından asdılar **( 124 )**.

**1-3 yanvar 1919. Ağdaş. Azərbaycan.** Ağdaş şəhəri yaxındakı kəndlər erməni bandit çətələri tərəfindən mühasirəyə alınaraq darmadağın edilmişdi. Sakinlərin çoxu qılıncdan keçirilmiş, müsəlman müqəddəslikləri məsxərəyə qoyulmuşdur **( 127 )**.

**28 yanvar 1919-cu il. Gəncə quberniyası. Azərbaycan.** Bu quberniyanın Zağalı kəndinə hücum edən ermənilər 15 müsəlmanı (sıralarında qadın və uşaq olmaqla) qətlə yetirmişlər. Burada da erməni çətələri "Daşnaksütyun"un "türkü şəraitdən asılı olmayaraq məhv etmək" şüarına uyğun missiyanı yerinə yetirmişlər **( 129 )**.

**5 fevral 1919-cu il. Azərbaycan.** Azərbaycan kəndi Əbdüllüyə saldıran erməni saqqalları 25 uşağı, 15 qadını, 50 kişini vəhşicəsinə öldürmüşlər **( 131 )**.

**5 fevral 1919-cu il. Azərbaycan.** Azərbaycan qəsəbəsi Əbdülyanı erməni bandalarının təcavüzünə məruz qaldı: 560 kişi, 15 qadın, 25 uşaq öldürüldü, 144 ev yandırıldı. Ermənilər südəmər körpələri diri-diri tonqala atırdılar ( 132 ).

**5 fevral 1919-cu il. Azərbaycan.** Gilani-Turani kəndinə hücum çəkən ermənilər 10 kişi, 1 qadın,, 1 uşağı öldürərək 170 evi yandırdılar ( 133 ).

**6 fevral 1919-cu il. Azərbaycan.** Azərbaycanlı kəndi Meniman (*Meyniman?* –X.İ.) ermənilərin saldırmasına məruz qalaraq 29 kişi, 10 qadın, 12 uşaq öldürüldü və 37 ev yandırıldı. Demək olar ki, hər bir ölüm əzablı işgəncələrlə müşayiət olunurdu, meyitlərin isə gözləri çıxarılmış, qulaqları kəsilmişdi ( 134 ).

**7 fevral 1919-cu il. Azərbaycan.** Kolantı kəndi ermənilərin hücumuna məruz qaldı. 15 kişi, 3 qadın, 5 uşaq əzabla öldürülmüş, meyitlər eybəcərləşdirilmişdi ( 135 ).

**8 fevral 1919-cu il. Azərbaycan.** Qaramanlı kəndinə saldıran ermənilər 15 uşaq və 36 qadına divan tutdular. Saqqallılar 80 silahsız müsəlmanı bir-birinə bağlayıb diri-diri torpağa basdırdılar ( 136 ).

**Fevral 1919-cu il. Azərbaycan.** Xarici İşlər naziri A.Ziyatxanovun Ermənistan Xarici İşlər nazirinə göndərdiyi 19 fevral 1919-cu il tarixli notada göstərildiyi kimi, erməni terrorçu dəstələri Göyçə gölü ətrafında Azərbaycan sərhədinə keçərək Qızıl-Vəng, Subatan, Zağalı, Şahab və b. azərbaycanlı kəndlərini darmadağın etmişlər. Şahid bilgilərinə görə, kişilər işgəncəylə öldürülmüş, qadınlar-zorakılığa məruz qalmış, uşaqlar isə təndirdə yandırılmışdır ( 138 ).

**Fevralın sonu-martın əvvəli 1919-cu il. Azərbaycan.** Artuç adlı bir erməni başkəsənin başçılığı ilə ermənilər azərbaycanlılara məxsus Seyid-Kətanlı, Xaraba-Kətanlı, Şahaib kənlərini qılıncdan keçirmişlər. Qarınlar cırılmış, gözlər çıxarılmış, qulaqlar kəsilmişdir. Bu kəndlərdəki yüzlərlə kürd qaçqın da ermənilər tərəfindən rəhmsizcəsinə qırılmışdır ( 139 ).

**5 aprel 1920-ci il. Qazax. Azərbaycan.** Erməni bandaları Qazağın Tatlı kəndi yaxınlığındakı kiçik yaşayış məskəninə basqın edib, sakinlərinə divan tutmuşlar ( 176 ).

**5 aprel 1920-ci il. Azərbaycan.** AXC Xİ naziri F.Xoyskinin Ermənistan Respublikası Xarici İşlər nazirinə notasında bidirilir ki, aprelin 5-də səhər saat 5-də Ermənistan tərəfdən erməni silahlı bandit dəstələri Azərbaycanın Yaradulla kəndinə hücum çəkmişdir. Əhalinin üçdə biri qılıncdan keçirilmiş, əmlakı talan edilmişdir ( 177 )...

**8 aprel 1920-ci il. Azərbaycan.** Erməni çətələri ikinci dəfə Yaradulla kəndinə və Qazağın Tatlı kəndinin güneyinə hücum çəkərək bu dəfə də adı çəkilən yaşayış məskənlərini yandırmışlar ( 178 ).

**9 aprel 1920-ci il. Qazax. Azərbaycan.** Barışıq sazişinə müvafiq olaraq Qazax rayonunun azərbaycanlı kəndlilərinin ağ bayraqlar nümayiş etdirmələrinə baxmayaraq bura hücum edən erməni başkəsəni Dronun dəstələri Əskipara, Yuxarı Əskipara, Aşağı Fərəhli, Xeyrimli, Bənəşə, Quşçu Ayrım, Ayrım, Salahlı kəndlərini büsbütün yandırdılar. Dinc əhalidən çoxsaylı təlafat vardı. Qəddarlığı ilə fərqlənən Dro, edamlara, xüsusən də qadınların və qocaların işgəncələrlə məhv edilməsinə məhz özü başçılıq edirdi ( 179 ).

**1920-ci il.** Ədavət və dağıntılardan özü də zərər çəkən, öz hakimiyyəti tərəfindən səfalətə məhkum edilmiş onlarla kəndin erməni sakinləri "Daşnaksütyun"a qarşı qalxıb, sonra azərbaycanlılarla birləşməyə məcbur olmuşdu. Erməni bandit birləşmələrinin **Qazax və Gədəbəyə** ayaq qoyması sonucunda çox sayda müsəlman qılıncdan keçirilmişdi. 2 mindən artıq qaçqın erməni kəndlisi də daşnaklardan qaçaraq Azərbaycana sığınmış, dağlarda gizlənmişdilər ( 195-A ).





**20-21 fevral 1905. İrəvan. Azərbaycan.** Terrorçu "Daşnaksütyun" təşkilatı tərəfindən yerli müsəlmanlar qətlə yetirilmişdir. Dinc sakinlərin vəhşiliklə həlak edilməsi şahidlərdə dəhşət oyatmışdır. "Qafqaz" rus qəzetinin yazdığına görə, bunu törədən şəxslər Paris yaxud Venetsiyada nəşr olunmuş erməni dərslikləri ilə tərbiyə almış insanlar idi. Həmin kitabların müəllifləri elə bil öz şagirdlərini insanlığa qarşı gələcək cinayətlərə hazırlayırdı: *"Ermənistan-böyük sözdür, keçmiş zamanların böyük xəritəsidir, gələcəyin böyük elementidir... Ermənilər əxlaq baxımdan onu əhatə edən millətlərdən üstündür."* Adı çəkilən rus qəzetinin xüsusi qeydlərinə görə, həmin dərsliklərdə göstərilirmiş ki, erməni xalqı Tanrı tərəfindən sivilizasiya və xristianlığı yaymaq üçün vasitəçi seçilmişdir ( 29 ).

*(Başqa sözlə, bu cür erməni dərsliklərinə görə, hər hansı bir vilayətə bir erməni çarığı dəymişsə, deməli, ora "Böyük Ermənistan"ın ürəyi də olmasa, mədəsi və ya ən azı bağırsağı imiş.)*

**24 may 1905. İrəvan quberniyası. Azərbaycan.** İrəvan quberniyasındakı erməni saqqallıları dinc müsəlmanlara atəş açdıqdan sonra erməni banditləri tərəfindən 4 qadın, 2 uşaq və 5 kişi olmaqla 11 nəfər günahsız insan qətlə yetirildi ( 31 ).

**1905. Zəngəzur. Azərbaycan.** Erməni millətçi bandaları onlarla insanı görünməmiş əzablarla həlak etmişlər. Şahidlərin dediyinə görə, qatillər müdhiş, kəskin işgəncələrə əl atmışlar. Məsələn, ağır ağacları əyərək insanların əllərinin, ayaqlarının hərəsini bir ağacın böyük budağına bağlayıb, sonra ağacların budaqlarını buraxırmışlar və həmin şəxs bir neçə yerə parçalanırmış ( 33 ).

**8 iyun 1905-ci il.** Yaxşı silahlanmış erməni çətələri Eçmiədzin qəzasının Uşu kəndini mühasirəyə alaraq, qadın və südəmər uşaqları da məhv edərək, məscidi və Quran kitablarını yandırmış, dini müqəddəslikləri aşağılamışlar **(34).**

**9 iyun 1905-ci il. Eçmiədzin** qəzasının müsəlmanlar yaşayan Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrgu, Əngirsək kəndləri dağıdıldı-oda qalandı. Erməni yaraqlıları sonra müsəlman kəndi Təkyəyə doğru hucuma keçdilər.

Burada da Quran kitablarını ermənilər süngülərə keçirib məşəl kimi yandırırdılar. İyun ayının 10-da Eçmiədzində 9 məşhur islam kəndi dağıdıldı, hökumət heç bir tədbir görmədi ( 35 ).

**Dekabr 1917 – iyun 1918-ci il.** Erməni yaraqlıları İrəvan quberniyasında 200 kəndi darmadağın edərək, dinc sakinləri vəhşicəsinə işgəncələrə məruz qoymuş... İrəvan, Eçmiədzin, Şərur qəzalarından 100 min azərbaycanlı əhalini didərgin salmışlar. Belə ki, bu faktlar ermənilərin özləri tərəfindən də etiraf olunur ( 209 ).

**20-21 mart 1918-ci il. Pəmbək. Azərbaycan.** Bu kənddə ermənilər tərəfindən Novruz bayramında yaşı 13-dən yuxarı 411 azərbaycanlı diri-diri yandırılmışdır. Ümumilikdə Pəmbək (indi: Vanadzor) qəzasının 9 kəndində 1 000-dən çox müsəlman vəhşicəsinə öldürülmüş, kəndlər də talanıb-yandırılmışdır. Bu "cəzalandırılma" əməliyyatı da qırmızı bayraq və kommunizm şüarları altında «Daşnaksütyun» tərəfindən həyata keçirilmişdir. ( 70 ) . Gözəldərə kəndində isə 600 nəfər öldürülmüş, kənd yandırılmışdır. Erməni əsirliyinə düşməkdən qorxan bir qrup azərbaycanlı qadın da meşəyə qaçaraq, özünü öldürmüşdür. ( 71 ).

**29 aprel 1918-ci il.** Ermənilər Gümrü yaxınlığında 3 000 nəfər, içərisində qadın, qoca və uşaqların da bulunduğu dinc sakinləri qətlə yetirmişlər. ( 102 ).

**26 may 1918-ci il.** Öz müstəqillik bəyannamələrini elan etməzdən öncə ermənilər İrəvanın onlara güzəşt edilməsini xahiş etmişdi...* *(* Bu haqda Zəngəzur və s. əski Azərbaycan torpaqlarının tələbi ilə bağlı bu kitabda yayınlanan konsepsiyamızda daha geniş şərh verilmişdir).*

**17-31 avqust 1918-ci il. Azərbaycan.** Eçmiədzin, Sürməli, İrəvan və Yeni Bəyazid qəzalarındakı 50 azərbaycanlı kəndi «Daşnaksütyun"un başçılığı ilə erməni terrorçu çətələri tərəfindən vəhşicəsinə darmadağın edilmişdir. **( 112 ).**

**31 avqust 1918-ci il.** *Ermənistan hökuməti erməni bandalarının silahlı təcavüzünü önləməyi vəd etmiş, Xəlil paşanın başçılığı ilə Türk ordusunun mümkün müdaxiləsindən qorxaraq, rəsmi şəkildə üzr istəmiş, müsəlman qırğınlarının başçılarını və aktiv iştirakçılarını Xalqlar Məhkəməsinə cəlb edəcəyinə söz vermişdi.* ***Hətta erməni bandit dəstələrinin başçıları: Andranik, Manukyan, Saakyan və «Daşnaksütyun"un ideoloqu Hovannes Kaçaznuninin adları siyahıda göstərilmiş; Moskva, İstanbul və Berlinə söz verilmişdi ki, əgər Andranik Ermənistan ərazisinə ayaq bassa, o zaman o dərhal Beynəlxalq tribunala veriləcəkdir.***

**Beynəlxalq mühakimədən qorxan Ermənistan hökuməti 1918-ci il ərzində erməni terrorçu və bandit təşkilatları tərəfindən 400000 azərbaycanlı, 120000 gürcü, 15000 kürd və 22000 ləzgi öldürüldüyünü etiraf etmişdi. Əlbəttə bu rəqəmlər o dövrün mənzərəsini tam əks etdirməsə də, yenə son dərəcə dəhşətli idi.**

Ancaq tarixin sonrakı gedişatı göstərdi ki, Ermənistan hökumətinin bu bəyanatı konyunktur-ikiüzlü xarakter daşıyırmış **( 113 ).**

**Sentyabr. 1918-ci il.** «Daşnaksütyun" erməni terrorçu partiyasının fəalı Andranikin başçılığı ilə erməni bandit birləşmələri *Sisiyanın (rəsmi qaynaqlar "Sisian" və ya "Sisyan" da yazırlar –X.İ.)* bütün kəndlərini oda qaladı. 50 min dinc sakin ev-eşiyini tərk etməyə məcbur oldu. Qaraqışlaq kəndindən əsir alınanlar öldürüldü. Vaqudi kəndində qadın və uşaqları qovaraq məscidə doldurub yandırdılar. Qriqoryanlığı qəbul etməyən Aqudi kəndinin kişilərini vəhşicəsinə döyüb, qadınların döşlərini kəsdilər. Bağırbəyli kəndində 7 kişi və qadını bir kənd evinə doldurub qapını kilidləyərək diri-diri yandırdılar.

Daşnakların belə vəhşiliklərini, onların faşıst xarakterini etiraf etməyə məcbur olan erməni tarixcilərindən biri **A.Lalayan sonralar yazırdı:** *«Daşnak dəstələri başda qanlı xmbapetlər (Andranik paşa, Amazasp və s.) olmaqla türk qadın və uşaq, qoca və xəstələrini qırmaqda maksimum "şücaət" göstərirdilər...»* **( 114 ).**

**Payız 1918-ci il.** 17 evlik Burcalar-Dərzili kəndinə hücum çəkən Tavad Manuçaryansın başçılıq etdiyi erməni bandit qrupu əvvəlcə kəndi tüfəng atəşinə basaraq 21 azərbaycanlını edam etmiş, kəndi yağmalayıb, sonra yaxmışdır **( 115).**

**Payızın sonu 1918-ci il.** 170 evlik Müsəlmanlar kəndinə basqın edərək başkəsən Nerses Arutyunovun erməni bandası 32 nəfər müsəlmanı öldürmüş; 18 nəfər müsəlmansa yaralanmış, mülk – təsərrüfatları talanmış, yandırılmışdır **(116).**

**14 dekabr 1918 ci il. Zəngəzur. Azərbaycan.** Gəncə qubernatorunun 14 dekabr 1918 tarixli 70 №-li teleqramında bidirilir ki, Anranikin komandanlığı ilə erməni başkəsənləri "Kolandərəsi yaxınlığındakı müsəlman kəndlərinə saldıraraq, müsəlmanları qırır və vəhşiliklər törədirdilər." Tədqiqatçıların da təsdiq etdiyi kimi: "Tayqulaq Andranik və Amazaspın daşnak bandaları A.Mikoyanın təhriki ilə dinc azərbaycanlıları qıra-qıra Maku və Xoydan quldur reysi ilə Zəngəzur üzərindən Qarabağa keçdilər." **( 121 ).**

**Dekabr 1918 ci il.** Erməni çətələri Eyvazlı kəndində -1, Ahıllı kəndində -6, Məzrə kəndində -6, Sirik kəndində 35 nəfəri öldürmüşlər **( 122 ).**

**1918 ci il. Basarkeçər. Azərbaycan.** Erməni cəza dəstələri bu qəsbəni ələ keçirərək yerli azərbaycanlılara qan uddurdu. Təcavüzkarların əclaflığının həddi-hüdudu qalmamışdı: hətta əliyalın kişi, qadın, qoca və uşaqları patrona qənaət edərək diri-diri quylayırdılar.



"Azərbaycan" qəzetinin 8 dekabr 1918-ci il sayında qeyd olunduğu kimi: «O zamanlar necə ki, Azərbaycan türkləri, eləcə də bütün Qafqaz müsəlmanları başqa Qafqaz xalqlarından Qafqazda hakimiyyətsizlik və anarxiya dövründə on, hətta yüz dəfələrlə çox əzaba məruz qalsalar da, indiyədək Qafqaz mətbuatı məhz onlara *(müsəlmanlara* -X.İ.) böhtan atır" **(123) ...**

**1918-1919-cu ilin axırları.** Arxiv materialları, tarixçilərin və mətbuatın məlumatları və mühafizə olunan şahid ifadələri əsasında aşkar olunur ki, erməni millətçi bandit çətələri tərəfindən:

İqdır və Eçmiədzin qəzalarında – 60 kənd və bütün kişi əhali;
Göycə-22 kənd və 22 000 nəfər;
Bəyazid (yəqin Yeni Bəyazid-X.İ.) – 84 kənd və 15000 ailə;
İrəvan quberniyası – ucdantutma bütün kəndləri;
Sürməli quberniyası – 96 kənd;
Zəngəzur quberniyası- 115 kənd və 10000 azərbaycanlı, o sıradan 4472 qadın və uşaq məhv edilmişdir.

Yuxarıdakı məlumatlar tədqiqatçılar C. və K.Makkartilər tərəfindən də təsdiq edilərək, o da ifadə olunmuşdur ki, İrəvan quberniyası müsəlmanları ya qılıncdan keçirilmiş, ya da qaçqına çevrilməli olmuşlar.

Erməni liderlərinə görə, onlarda müsəlmanlara qarşı adət almış bədən cəzaları və arasıkəsilməz terror dinc müsəlmanlar içində kütləvi qorxu və panika *(çaxnaşma, vəlvələ, təlaş, vahimə )* yaratmalı idi **( 126 ).**

**1-10 yanvar 1919-cu il. Zəngəzur qəzası. Azərbaycan.** Erməni çətələri "Daşnaksütyun"un proqramının növbəti səhifələrini yerinə yetirərək Zəngəzurun Quşili, Acılı, Ərqazı, Ağsarlı, Şəhərcik, Açaquv, Oxçu kəndlərini darmadağın etdilər. Kirədağ, Molodu, Kovnu, Qarabağlı, Qəvərli, Başmaki, Mahmudlu, Keydaşi, Kaqaç, Kuruqot, Kayçan, Kiri, Əbcibaci kəndləri mühasirəyə alınaraq tamamilə qırılma təhdidi ilə təslim olma təklif edildi. Bu ölüm halqasında Zəngəzurun Ağcı dərəsinin müsəlmanları da qaldı...

Şahidlərin bildirdiklərinə görə, qadınlar özlərini öldürməklə erməni əsirliyinə düşməkdən xilas olurdular **( 128 ).**

**Yanvar 1919-cu il. Göycə və Yeni Bəyazid qəzaları. Azərbaycan.** Erməni bandit çətələrinin Göycə və Yeni Bəyazid qəzalarının müsəlman kəndlərinə yeni hücum dalğası Göycə gölünün doğu və qüzey bölgələrində "etnik təmiz zona" yaratmaq məqsədi daşıyırdı. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı, Şorca, Soğanquluağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Cayəhmədli, İpəkbağ, Qaraiman, Kəsəmən, Başkənd, Kiçik Mərzə, Şişqaya, Baş Hacı, Qərib Qaya kəndlərindəki 15 min ailə mal-mülkünü tərk edərək qaçqın durumuna düşməyə məcbur olub. Həmin dövrə aid olan ingilis jurnalisti Skotland – Liddel tərəfindən hazırlanmış "Müsəlmanlarla müharibə. Ermənilər yenə hücum edir" adlı sənəddə deyilir:

"... Ermənistan, cırılmış sazişini və ehtiyatını yelə verərək, hər şeyi udan torpaq hərisliyi naminə heç bir günahı olmayan kəndlilərə qarşı müharibə edərək, özünə qarşı böyük nifrət yaradır" **( 130 ).**

**Fevral 1919-cu il. Zəngəzur qəzası.** Azərbaycanlılara məxsus Dovorus kəndinə hücum çəkən ermənilər kəndi darmadağın edərək, kəndlilərə ölümcül işgəncələr verdilər **( 137 ).**

**Mart 1919-cu il. Azərbaycan.** Erməni bandit çətələri İrəvan quberniyasının azərbaycanlı kəndləri Qaraxaç, Qadılı, Qarabağlar, Ağasıbəyli, Dəhnəz və Şağanlıya hücum edərək, müsəlman əhaliyə qarşı vəhşilikər törətmişlər. Kişiləri qılıncdan keçirən ermənilər qadınları əsir götürmüşlər **( 143 ).**

**13 aprel 1919-cu il. Azərbaycan.** 5-ci sahənin Dağlıq zolağı üzrə müvəkkil İzmail Sultanovun 21.04.1919 tarixli məlumatına görə... Ararat Respublikasının ordusu (Göyçə gölünün doğu və quzey sahillərində məskunlaşmış (*bineyi qədimdən*-X.İ.) müsəlman əhalini təmizləmək məqsədilə) Yeni Bəyazid qəzasının Göyçə rayonundakı dinc əhaliyə saldırmışlar. Bir həftə ərzində 60 000 nəfər əhalisi olan 22 kənd darmadağın edilmişdir... Erməni yaraqlıların izləməsi səbəbilə qaçıb canını qurtarmaq istəyən azərbaycanlı və kürd qaçqınlar Gəncə qəzasının 5-ci sahəsi ilə sərhəd olan dağların qarlı aşırımlarında həlak oldular. O zaman bir anonim müəllifin dediyi kimi, "Göycə rayonunda müsəlmanlar daha mövcud deyil" ( **147** ).

**21 aprel 1919-cu il. Basarkeçər. Azərbaycan.** Erməni müəllifi A. Lalayan bir erməni banda başçısının "qəhrəman" etirafını sitat *(iqtibas)* gətirərək, o vaxt türklərin erməni daşnaklar tərəfindən kütləvi qırılması... və sağ qalanların su quyularına dolduraraq üzərinə iri daşlar diyirlənməsi və s. kimi erməni vəhşiliklərini qınamışdır ( **150** ).

**4 iyul 1919-cu il. Azərbaycan.** Erməni bandit dəstələri müsəlman ağsaqqallarıyla görüş bəhanəsiylə Böyük Vedi kəndinə yaxınlaşdılar. Qəflətən açılan ateş sonucunda Böyük Vedinin iki elçisi –Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşirbəy oğlu öldürüldü. Silahsız azərbaycanlı kəndliləri ermənilərin hətta toplardan da istifadə etməsinə baxmayaraq mərdliklə müdafiə olunurdular. Təkcə 1919-cu ilin yayında erməni bandit çətələri tərəfindən 300 azərbaycanlı kəndi talan edilmiş və yandırılmışdı. On minlərlə dinc sakin həlak olmuşdu. Bütün bunlar haqda Azərbaycanın Ermənistandakı diplomatik təmsilçisinin notasında da qeyd olunur. Hətta iki-üç günlük körpələr də ermənilərin işgəncə cəhənnəmindən keçirilirdi.

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin müavini F. Vəkilovun Cənubi Qafqazdakı Britaniya silahlı qüvvələri komandanı general-mayor Q.N. Koriyə göndərdiyi notada da müsəlmanların arzusu əleyhinə olaraq, Birləşmiş Qüvvələr İrəvan quberniyasının idarəsini müvvəqqəti olaraq Ermənistana verdiyi qeyd edilərək, orada erməni ordusu tərəfindən müsəlmanlara ardıcıl basqın həyata keçirildiyinə və məcburi deportasiya siyasəti yürüdülduyünə etiraz bildirilir ( **151** ).

**23 noyabr 1919-17 yanvar 1920-ci il. Azərbaycan.** AXC Xarici İşlər naziri F.Xoyskinin Cənubi Qafqazdakı Birləşmiş Qüvvələrin Ali Komissarı polkovnik V.Haskelə notasında bildirilirdi ki, ermənilər tərəfindən Zəngəzur qəzasına aid 40 müsəlman kəndi məhv edilmişdir. Onların siyahısı və Zəngəzurda at oynadan erməni bandalarının tərk-silah olunması haqda xahişnamə amerikan zabitlərindən ibarət komissiyaya təqdim edilmişdi ( **156** ).

**3 dekabr 1919-cu il. Zəngəzur. Azərbaycan.** Deputat Axundzadə Mirzə-Sadığa göndərilmiş teleqramdan: " Zəngəzurda qanlı hadisələr yenidən başlandı. Ermənilər tərəfindən Çaylı və Oxçu kəndlərində 900 müsəlman öldürüldü. İnsanların doldurulduğu məscid bombalarla dağıdılmışdır. 400 qadın və uşağı tikə-tikə etmişlər" ( **158** ).

**1919-cu il. İrəvan quberniyası** müsəlmanlarının Amerika xalqına müraciətində bildirilir ki, ermənilər tərəfindən azərbaycanlılara məxsus 88 kənd dağıdılmış, 1920 ev yandırılmış və 131970 müsəlman kişi öldürülmüşdür ( **159** ).

**30 mart 1920-ci il. Azərbaycan.** Erməni dəstələri qəfil hücumla Bağırbəyli və Müsəlmanlar kəndlərini götürdülər. Sağ qalanlar Şuşa şəhərinə tərəf qaçdılar, hansı ki, növbəti hədəf elə Şuşa özü idi. Arxiv sənədlərinə görə, onlar özünümüdafiə dəstələri təşkil etməyə, son nəfərə qədər erməni millətçilərinə qarşı savaşmağa hazır idilər ( **174** ).

**Mart-aprel 1920-ci il. Qars. Türkiyə.** Erməni çətələrinin müsəlmanları qılıncdan keçirməsi Azərbaycanda kəskin etiraz doğurdu, bununla bağlı Parlament xüsusi iclas keçirdi:



"İrəvan hadisələrini özləri yaşayanlar, günün-günorta çağı sayğısız müsəlman ovunu görənlər, nə vaxtsa çiçəklənən qəzaların yerlə yeksan olduğunu görənlər, əlbəttə, bilirlər ki, Ermənistan hökuməti Qars, Naxçıvan, Zəngəzur və Qarabağı dinc buraxmayacaq. Əvvəlcə müsəlmanları İrəvan, Eçmiədzin, Sürməli və Yeni Bəyazid qəzalarından təmizləmək lazım idi. Bu, hərfi mənada yerinə yetirildi. İndi orada bir nəfər də müsəlman qalmayıb". Azərbaycan Xarici İşlər naziri F.Xoyskinin Cənubi Qafqazdakı Birləşmiş Qüvvələrin ali komissarlarına göndərdiyi 5 aprel 1920-ci il tarixli notasında da deyilirdi: "... Misal üçün, Sürməli, Naxçıvan rayonlarındakı müsəlman əhalinin qırılması və darmadağın edilməsini, Zəngəzurun çoxsaylı müsəlman kəndlərinin darmadağın edilməsini, Qars vilayətindəki müsəlmanların qırılmasını və s. göstərə bilərəm" ( **175** )...

**23 aprel 1920-ci il. Azərbaycan.** Erməni çətələri Azərbaycan kəndi Şiş Qayaya saldıraraq bütün sakinləri öldürdülər. Erməni vandalları körpələri diri-diri su quyularına atırdılar ( **181** ).

**Fevral-mart 1921-ci il.** S.Vratsyanın başçılığı altında "Sovet hakimiyyətinə qarşı erməni hərbi təşkilatı" qırx gün ərzində etnik azərbaycanlıları qırırdı. Bu qırğınlar "kommunistlərə qarşı mübarizə" kimi qələmə verilirdi. Xarakterik haldı ki, Simon Vratsyan (1882-1969-cu illər) "Daşnaksütyun"un qızğın ideoloqlarından biri olduğu halda, 1921-ci ilin yanvarında Sovet Ermənistanı hökumətinə başçılıq edirdi. Onun şəxsi göstərişi ilə Ermənistanda azərbaycanlıların kütləvi qətlləri həyata keçirilirdi. O həm də "Vətənin xilası" daşnak komitəsinin sədri idi.

1926-ci ildə Vratsyan xaricə qaçdı və ABŞ Dövlət Departamentinin Yaxın Şərq üzrə məxfi məsləhətçisi oldu. O, bu vəzifədə ikən erməni agentlər şəbəkəsi vasitəsilə özünün "Daşnaksütyun"dakı silahdaşı, Sovetlər Birliyində yüksək post tutan A:Mikoyana məshəti türklərinin (1943-1944-cu illərdə), çeçen və inquşların (1942-1943-cu illərdə), Krım tatarlarının (1942-ci ildə) köçürülməsi, əslində deportasiyası məsələlərində məsləhətlər göndərirdi ( **196** ).

**İyul 1920-ci il. Zəngibasar. Azərbaycan.** Erməni –daşnak çətələri Zəngibasara saldıraraq bir neçə yüz dinc sakinə divan tutdular. Qaçmaq istəyənləri yaxalayıb öldürür, xəndəklərə tullayırdılar. O zamankı erməni qəzeti "Joğovurd" qeyd edirdi ki, "Daşnaksütyun"un siyasəti nəticəsində Ağbulaq, Ardaniş, Toğulca və b. kəndlərin əhalisi öz doğma yerlərini tərk edir, kartof, buğda, arpa əkinlərini qoyub gedirlər ( **185-B** ).

**Avqust 1920-ci il.** Fövqəladə nümayəndə Dövlətovun məruzəsində deyilir ki, bütün Ermənistanda "...zabitliyin basqısı və özbaşınalığı hökmrandır, bütün ölkə elə bil ki, silahlı düşərgəni xatırladır: bütün siyasəti hərbi güc doğurur... Azərbaycana yeganə və ən qatı düşmən kimi, Sovet Rusiyasına isə türkləri dəstəkləyən ölkə kimi baxırlar."

Kommunistlərlə mübarizə şüarı altında daşnak nəzarətindəki erməni bandit çətələri İrəvanda və başqa qəzalarda müsəlmanları güllələyirdilər. Xatırladaq ki, bu cür kütləvi şəkildə qırılan müsəlmanlar heç bir siyasətə qarışmırdılar. Diqqətçəkən haldır ki, kommunistlərin qələbə yürüşü dövründə isə daşnaklara məxsus erməni yaraqlıları eyni qəddarlıqla azərbaycanlılara bu dəfə "kommunizmin düşməni" kimi divan tuturdular.

Erməni tədqiqatçısı Z.Kardokyana görə, Ermənistan hökumətinin azərbaycanlıları kütləvi şəkildə qırması nəticəsində "Daşnaksütyun" terrorçu təşkilatının nəzarətində olan bu ərazilərdə, qısa zaman ərzində 565 min nəfər insan öldürülmüş, yaralanmış və ya didərgin salınmışdır **(186 )**.

**2 sentyabr 1920-ci il. Zəngibasar.** Erməni "Daşnaksütyun" terrorçularının divanından xilas olmağa çalışan 1 500 nəfər dinc müsəlman özlərini Olta çayına

atdılar. "Osmanlı" arxivindəki sənədlərdə qeyd olunduğu kimi, çayı üzüb keçə bilməyən 650 nəfər boğuldu ( 187 ).

### *Naxçıvanlıların soyqırımı*

**May 1905. Naxçıvan. Azərbaycan.** Erməni bandit dəstələri qarışıqlıq salaraq Naxçıvanda yerli əhalini, içərisində qadın, qoca və uşaqlar olmaqla, məhv etdi ( 32 ).

**1918. Naxçıvan. Azərbaycan.** Naxçıvan quberniyasının Yaycı kəndi Andranikin bandasındakı saqqallılar tərəfindən təcavüzə məruz qalaraq 2500 silahsız yerli müsəlman öldürülərək, cəsədləri Araz çayına atılmışdır. Sonralar erməni əsirləri bildirdilər ki, Andranik onları məcburən öz mübarizəsinə qatır, əks halda, imtina edənləri asdırır.

Başqa bir erməni başkəsən Qaregin Njde (əsl adı-Qaregin Ter-Arutyunyan) Vedibasar vadisində müsəlmanlara qan uddurudu. Onun etirafına görə, onsuz "nəinki Ermənistan, hətta oradakı ermənilər belə mövcud ola bilməzdi."

Sonralar, 40-cı illərdə Qaregin Njde hitlerçi legionlara qoşularaq, orada general rütbəsinədək yüksəlir ( 117 ).

**Mart 1919-cu il. Naxçıvan. Azərbaycan.** Erməni terrorçu dəstələri Naxçıvana hücum etdilər. Yol boyu erməni millətçiləri bir neçə azərbaycanlı kəndini yer üzündən sildilər. Ordubad ətrafında özünü "qəza rəisi" elan etmiş Aşot Movsesyansın dəstəsi azğınlıq törədirdi. Arxiv sənədlərinin şəhadətinə görə, hər gün 5-10 azərbaycanlı "erməni qaniçənliyinin qurbanlarına" çevrilirdi ( 144 ).

**1920-ci il. Naxçıvan. Azərbaycan.**

Bu dəfə erməni millətçiləri müsəlmanları kommunist hakimiyyəti uğrunda mübarizə şüarı ilə qırırdılar. Müvəqqəti barışıq bəhanəsilə (*yəqin ki, guya barışığı təmin etmək* –X.İ.) "Daşnaksütyun" bu il iki dəfə türk və azərbaycanlıları qətlə yetirərək, bölgədə 69 715 nəfər müsəlmanın qanına bais oldu. Bolşevik liderlərindən Q.K.Orconikidzenin mərkəzdəki silahdaşları Lenin, Stalin və Çiçerinə göndərdiyi məktubda da "Dronun başçılığı ilə daşnak qüvvələrinin çəkilməsi bu qüvvələrin Naxçıvanı və onun bölgəsini tutması hədəsi ilə izah olunur. Ermənistan hökuməti bizi bilərəkdən yalan məlumatlandırır. Mən sizinlə tamamilə razıyam ki, kommunist pərdəsi altında millətçi cəhdlər yeridilir... Mən gözəl anlayıram ki, ola bilsin Ermənistan məlum siyasi vəziyyətdə bizə gərəkli ola bilər. Zərurəti aydınlaşdıran kimi qərar verin. Biz üzərimizə düşəni həyatda keçirəcəyik, ancaq icazə verin diqqətinizə çatdırım ki, Azərbaycana qarşı belə münasibət bizi Azərbaycanın geniş kütlələrinin gözündən salır" ( 195-B ).

### *Qarabağlıların soyqırımı*

**8 avqust 1905. Şuşa. Azərbaycan.** Gəncə quberniyasının Şuşa qəzasında Venk kəndindən olan 300 nəfər silahlı erməni millətçisi ticarət karvanına hücum çəkərək, soyub-talamış, tacirləri də "cəza"landırmışdır. Sonra onlar qonşu müsəlman kəndinə hücum çəkərək, Abbas bəyi, onun qardaşını və nökərlərini öldürmüşlər. Bütün kənd əhalisini "cəza"landıran ermənilərə Rusiya ordusunun yaxınlıqdakı kazarmasından çıxaraq öz silahları ilə birgə gələn erməni əsgərləri də qoşuldu...

Məqsəd müsəlmanları qorxudaraq Şuşa və Qarabağın dağlıq hissəsini onlardan "təmizləmək" idi. Xatırladaq ki, rus alimi M.A.Skibitski o bölgədə etnik göstəriciləri araşdırmışdı: Qarabağın dağlıq hissəsində XX əsrin əvvəlində nisbət təxminən 1:4 idi. Daha dəqiqi, azərbaycanlılar 72,6% təşkil edirdi. Müəllif bölgədəki kürd və tat



etnoslarının sayını da göstərmişdi. O hətta "Qarabağda dövlət yaylaq otlaqlarının xəritəsi"ni də tərtib edərək, kitabında yayınlamışdı. Ancaq bu unikal xəritə sonralar Sankt -Peterburq, Moskva, Tiflis və İrəvanın böyük kitabxanalarından yoxa çıxmışdır ( 36 ).

**21 avqust 1905-ci il.** Erməni millətçi dəstələri Şuşa qəzasında bir kənd məktəbini təmir etməklə məşğul olan 17 nəfər azərbaycanlı ustaya saldıraraq onların başını kəsmişlər ( 38 ).

**3 oktyabr 1905. Sırxəvənd. Azərbaycan.** Dinc azərbaycanlı sakinləri sistematik məhv etməklə ad çıxarmış, bununla sonralar general rütbəsi alan daşnak, əsgəri lider Amazaspın başçılığı ilə erməni süvari və piyada dəstələri Sırxəvənd kəndini qılıncdan keçirdi ( 41 ).

**1 yanvar 1906. Papravənd. Azərbaycan.** Erməni millətçi yaraqlıları əliyalın Papravənd (azərbaycanlı) kəndinə saldıraraq, kişilərin başını üzüb, hamilə qadınların qarnını xəncərlə "açaraq" hələ anadan olmamış körpələrin başlarını kəsirdilər. Əməliyyata Andranik (M.S.Ordubadiyə görə isə, *Hamazasp* –X.İ.) başçılıq edirdi. Bu, Muşdakı qanlı imzası ilə "məhşurlaşmış", Rusiyanın Ərzurumdakı konsulu general Q.Mayevskinin qeydlərində də haqqında bəhs olunan əzazil Andranik Ozanyan idi ( 44 ).

**12 iyul 1906 –cı il. Şuşa. Azərbaycan.** 10 min nəfərə yaxın erməni banda üzvləri Şuşaya hücum çəkdilər. 5 gün sürən saldırıda müsəlman evlərinə bomba atılır, körpələr beşikdəcə yandırılır, gah da başlarını daşla əzirdilər.

1905-1906-cı illərdə Qarabağda erməni bandaları tərəfindən ümumilikdə yüzlərlə azərbaycanlı kəndi yandırılmışdı ( 45 ).

**Yay 1918-ci il. Cavanşir qəzası. Azərbaycan.**

Azərbaycan Respublikası Dövlət Arxivindəki sənədlərdə ermənilərin Cavanşir qəzası, Kolanı kənd icmasının 12 kəndində törətdikləri cinayət əməllərini siyahılaşdırılmışdır:

1) Erməni başkəsənləri Maratı kəndində iki müsəlmanı-Məhəmməd İsgəndər oğlu və Müslüm Rəhim oğlunu öldürərək Daş-Arx kanalına atmışlar;

2) Fındıqlı ərazisində erməni banditləri kənd kuryeri Fərhad Cəfərqulu oğlu və onun iki müsəlman yol yoldaşını qətl etmişlər;

3) Erməni vandalları Qarakor kəndində Ocaqverdi Molla Qəmbər oğlu və Eyvaz Molla Novruz oğlunu öldürdükdən sonra, birincinin həyat yoldaşı Sona Şahməmməd qızına vəhşicəsinə divan tutdular;

Umudlu kəndində Süleyman Qazağaslan oğlunu, Məmməd Məşədi Paşa oğlunu və Kazım Atam oğlunu qılıncla parçalamış, Hacı-Görrəvənd kəndində Zeynəb Şirin qızının döşlərini kəsib, özünü də öldürmüş, Sirxəvənd-Bolluqaya kənd sakini Soltan Əli İman oğlunu Qazançı kəndi yaxınlığında vəhşicəsinə yandırmış, meyit kömürlənmiş halda tapılmışdır.

Güneyqaya-Sırxəvənd kəndindən Şərid İsmayıl oğlu və Rəcəb Novruz Əli oğlunun başı kəsilərək vandallıqla öldürülmüşlər. Siyahını davam etdirərək, erməni vəhşilərinin azərbaycanlı kişi, qadın, qoca, əlil və körpələrinə qarşı qaniçən manyaklığını sübut edən dəlil və mənzərələrin sayını artırmaq olar ( 111 )...

**Dekabr 1918 ci il. Cəbrayıl qəzası. Azərbaycan.** Daşnaklar növbəti dəfə Cəbrayıl qəzasının azərbaycanlı kəndlərinə saldırdılar.

Erməni tədqiqatçısı A.Myasnikovun təbirincə desək: "...daşnaklar erməni sahibkarına özünün belə bir vəsiyyətini qoymuşdu: bu-xuliqan alverçi, quldur ədavətçi və insana nifrət ruhudur..." Azərbaycan arxivlərindəki materiallar bunu bir daha sübut edir ( 120 ).

**1918 – 1919-cu il. Qarabağ. Azərbaycan.** Bu iki il ərzində Qarabağın dağlıq və aran hissələrində 150 azərbaycanlı kəndi tamamilə darmadağın edilmiş, əhalinin çoxu qırğına məruz qalmışdır.

Bu zaman ermənilər beynəlxalq mətbuatda və tribunalarda Qarabağı əzəli erməni torpağı kimi göstərməyin yeni dalğasını təşkil edirdilər. Ancaq tarixçi-analitik A.S.Şepotyevin "Azərbaycan" qəzetində dərc olunmuş icmalına görə, "... 1917-ci ilin Qafqaz təqviminə əsasən, 1916-cı ildə Qarabağda 242 min erməni, 322 min müsəlman yaşayırmış. Amma bu rəqəmlər də həqiqətə uyğun deyil, belə ki, Bakıdan Rostovadək və hətta şimala–Don vilayətinin "Qlubokaya" stansiyasınadək səpələnmiş erməni sənətkar və fəhlələrinin də çoxu Qarabağ erməniləri sırasında qeydə alınmışdı. Bakı mədənlərindəki 50 min fəhlə-erməni Qarabağlı sayılırdı, onlarla bütün əlaqələrini kəsməsinə və həqiqətən Qarabağ sakini olmamasına baxmayaraq. Ona görə də oturaq Qarabağ ermənilərinin –dağlıq nahiyənin daimi sakinlərinin sayı xeyli miqdarda az olmalı idi.

Başqa tərəfdən, türk əhalisi hərbi mükəlləfiyyət daşımadığı və daimi yaşayış şəhadətnaməsi almaq məcburiyyətində olmadığı üçün həqiqətdə Qafqaz təqvimindəki göstərilənlərdən daha çox say təşkil etməli idi..." Təsadüfi deyil ki, bu proqnozlar özünü 1917-ci il kənd təsərrüfatı siyahıya almasında təsdiq etdi: Qarabağda ermənilər–170 min, türklər–415 min nəfər.

Ramiz Orbakinin tədqiqatlarına görə, erməni alimlərinin özlərinin də təsdiq etdiyi kimi, Dağlıq Qarabağ ermənilərin tarixi vətənləri çərçivəsindən kənardadır. Bu məqsədlə K.Patkanyanın aşağıdakı fikri iqtibas gətirilir: " **Ermənistan – erməni məskənlərinin səpələndiyi vilayətin coğrafi adıdır.**" Başqa bir erməni alimi B.İşxayan isə 1916-cı ildə yazırdı: **«Ermənilərin əsl vətəni – qədim, tarixi mənada "böyük Ermənistan" – Kiçik Asiyada, yəni Rusiya sınırlarından kənarda yerləşir» ( 125 ) .**

**22 mart 1919-cu il. Xankənd. Azərbaycan.** Ermənilər Novruz Bayramı günü həm Xankəndinə saldırdı, həm də Qazax, Gəncə, Qarabağ qəzalarında kütləvi qırğın və talanlara başladılar. Nəticədə müsəlman kişiləri və çox qadın, qoca və uşaqlar həlak edildi.

Məkrli erməni siyasətinin nəticəsi idi ki, 1918-ci ildə azərbaycanlıları qılıncdan keçirən "Daşnaksütyun"un və onun vəhşi qırğınlarının öncüllərindən olan A.M. Mikoyan 25 aprel. 1920-ci il ildə "Azərbaycan nümayəndələri"nin başçısı kimi... XI Qırmızı Ordunun sərəncamına keçərək, Azərbaycan xalqının adından... XI Ordunu Bakıya dəvət edir **!?**

1919-cu ilin yazında ermənilərin azərbaycanlı, kürd, tat, talış, ləzgi, avarlara qarşı amansız qırğınları da anti-sövet və anti-kommunist təzahürlərə qarşı mübarizə kimi təqdim olunurdu **( 140 ) .**

**23 mart 1919-cu il. Şuşa. Azərbaycan.** Erməni bandaları müsəlmanların, həm də buraya köçürülmüş erməni kəndlilərinin yaşadığı Şuşa şəhərinə hücum çəkmişdir. Şəhərin erməni məhəllələri də darmadağın edilmişdi, səbəb də o idi ki, həmin vaxt Şuşa erməniləri erməni terrorçu təşkilatına daxil olmaq və ya ona maddi yardım etmək istəməmişdilər.

"Daşnaksütyun" terrorçu dəstələri "tabe olmayan" soydaşlarını – erməniləri "alban" adlandıraraq qırırdılar. O dövrdə Qarabağda daşnaklar ümumilikdə 34 erməni (alban) kəndini və dəfələrlə çox müsəlman kəndlərini məhv etmişdilər. **"Albanlara gəldikdə isə, onlar tarix və mədəniyyətlərinə ermənilərin sahib çıxmaq istədiyi yerli uti, tsod tayfalarının nəsilləridir. Erməni müəllifi Moisey Xorenski onları Aran nəsli, albanların ulu babası adlandırır. Ötən əsrin erməni tədqiqatçıları özləri də ermənilərin assimilyasiyaya (*asimlə–bir xalqın mədəniyyətinə, yaşayışına, dilinə və s. tə'sir etmək yolu ilə onu özünə oxşatmaq –X.İ.*) uğratma**



**qabiliyyətlərinin təəccüblü dərəcədə olmasını dəfələrlə qeyd etmişlər. 1897-ci ildə yayınlanmış erməni jurnalı "Murç" isə "Ermənilər və qaraçılar" məqaləsində ermənilərin və qaraçıların qohum xalq olduğunu göstərərək onların mənşə eyniliyi məntiqini irəli sürmüş oldu. Həmin yazıda hətta qaraçı mənşəli ermənilərin adları, həmçinin qaraçı-erməni taborlarının coğrafi marşrutları da göstərilərək, əslində, demək olar ki, "dənizdən-dənizə" coğrafi məkanın konturları da cizilmişdi.**

Y.Karsta görə, ermənilər Fərat çevrəsinə Balkanlardan gəlmişlər. İ.M.Dyakonov isə bidirir ki, erməni dilinin ilk daşıyıcıları Ermeni (*Armeni – X.İ.*) yaylasına köçəri heyvandar kimi gəlmişlər **( 141 ) .**

**24 mart 1919-cu il. Azərbaycan.** Erməni millətçi çətələri Cermanisdən azərbaycanlı kəndi Şeşiki Dağa saldılaraq kəndliləri yeni–kommunist hakimiyyəti adından qılıncdan keçirmişlər **( 142 ) .**

**3 dekabr 1919-cu il. Cəbrayıl qəzası. Azərbaycan.** Erməni saqqallıları Qoqa kəndini mühasirəyə alaraq 10 müsəlmanı qətl etmişlər. Qoca sakin Əsəd Ağa Cavanşiri və onun ailəsini xüsusi amansızlıqla öldürmüşlər **( 157 ) .**

**19 yanvar 1920-ci il. Şuşa. Azərbaycan.** Çoxsaylı erməni bandit birləşmələri Şuşa istiqamətində hücum edərək yolboyu bütün müsəlman kəndlərini qırıb-çatmış, uşaq, qadın və əlilləri belə edam etmişlər **( 162 ) .**

**23 mart 1920-ci il. Əsgəran. Azərbaycan.** Ermənistan əsgəri qüvvələri növbəti dəfə barışığı pozaraq Əsgəran şəhərini tutdular. Cəza əməliyyatlarında əsasən "tayqulaq Andanik"in dəstələri önəmli rol oynayırdılar **( 169 ) .**

**23 mart 1920-ci il. Şuşa, Xankəndi. Azərbaycan.** Ermənistan Ordusu bandit dəstələrinin dəstəyi ilə Xankəndi və Şuşa şəhərlərinə hücum etdi. Qadınlar, uşaqlar və qocaların həlak olduğu bu saldırma ilə Ermənistan növbəti dəfə 23 noyabr 1919-cu il tarixli barışıq sazişini pozmuş oldu **( 170 ) .**

**24 mart 1920-ci il. Tərtər. Azərbaycan.** Bu dəfə erməni daşnaksakan bandalarının hədəfi Tərtər şəhəri yaxınlığındakı kəndlər oldu **( 171 ) .**

**25 mart 1920-ci il. Cəbrayıl. Azərbaycan.** Erməni bandit dəstələri Cəbrayıl şəhərinə hücum çəkdi. Yerli müsəlman əhali isə 23 noyabr 1919-cu il tarixli barışıq sazişinə aldanaraq döyüşə hazır deyildi və çöl-tarla işlərilə məşğul olurdu. Dinc sakinlərdən bir qismi öldürüldü **( 172 ) .**

**19 aprel 1920-ci il. Azərbaycan.** Erməni millətçi bandaları əvvəlcə Gülablının ətrafını yandırdıqdan sonra panikaya düşən kəndlilərdən bir neçəsini girov götürdülər. Bir həftə keçdikdə isə, Abdal və Gülablını tutdular və Gülablını yandırdılar **( 180 ) .**

**11 may 1920-ci il. Azərbaycan.** Erməni silahlı çətələri növbəti dəfə Qarabağda azərbaycanlılara saldırmışdır. Yaralılar haqda məlumatlar var **( 183 ) .**

***Gürcülərin soyqırımı***

**21 noyabr 1905. Tiflis. Gürcüstan.** Tiflisin dinc sakinləri ermənilər tərəfindən Gürcüstan tarixində görünməmiş qanlı və amansız qırğınlara məruz qaldı. Şahidlərin bildirdiyinə görə, gürcü kəndlilərini və Tiflisdəki məhəllələri qırıb-"təmizləyərək" burada erməni gəlmələrini yerləşdirmək istəyirdilər. Uşaq, qadın, qoca və əlillərə də aman vermirdilər. Rəsmi mənbələrə görə, qətl edilən Tiflis sakinləri sırasında xeyli miqdarda azərbaycanlılar da var idi.

Təsadüfi deyil ki, gürcü mütəfəkkir yazıçısı İ.Q.Çavçavadze 1902-ci ildə Tiflisdə nəşr olunmuş "Erməni alimləri və fəryad edən daşlar" elmi-tədqiqat əsəri ilə

ermənilərin iç üzünü açaraq, onların gürcülərə və başqa yerli Qafqaz xalqlarına qarşı törətdikləri təhlükələrdə öz xalqını və dünyanı uyarmışdı.

Həmin kitabın ilk səhifəsində Şota Rustavelidən gətirdiyi epiqraf da çox mətləblərdən xəbər verir: *"Açıq düşməndən qorxum yoxdur, başqa dona girənin isə nəvazişindən qorxuram"* ( **43** ).

Erməni-gəlmələrin bəd, kinli əməlləri haqda "İveriya" qəzetinin 1897-ci il aprel nömrəsində də qeyd olunur: Axalsix şəhəri yaxınlığında bir müalicəvi bulaq, ondan azca aralı çoxdan kiçik bir gürcü kilsəsi və hücrə var idi. Sudan pulsuz istifadə olunurdu. Ancaq sonra həmin kilsəyə erməni ikonaları qoyuldu, qapılardan isə qıfıl asılaraq bağlandı. Bütün bu hərəkətlər gürcülərin haqlı hiddətinə səbəb oldu ( **109** ).

**Noyabr 1918 ci il. Gürcüstan.** Ermənilər o dövrün müasir silahları ilə, xüsusən də toplarla yaxşı təchiz olunmuş halda Axalkələk və Axalsix bölgələrinə hücum edərək, oradakı gürcüləri təmizləyərək, 1919-cu ilin yazında açılacaq Paris Sülh Konfransına hazırlaşırdılar. Orada, yeni dövlətlərin ərazilərinin xalqların real nəzarət etdikləri coğrafiya olacağını duyan ermənilər bu məqsədlə də qafqazlılara qarşı maksimum etnik genəlmə savaşı açmışdılar.

Böyük Sovet Ensiklopediyası müəlliflərinin dediyi kimi: "...daşnaklar Gürcüstan tərkibindəki Axalkələk və Borçalıya, Azərbaycanın tərkibinə daxil olan Qarabağ, Naxçıvan və Yelizavetpol (Gəncə) quberniyasının cənub hissəsinə ərazi iddiaları irəli sürdülər. Bu əraziləri zorla özünə birləşdirmək cəhdləri Gürcüstanla müharibəyə və Azərbaycanla uzunsürən qanlı savaşlara gətirib çıxardı, hansı ki, nəticədə mübahisəli ərazilərin əhalisi (əslində, *əksərən müsəlmanlar* – X.İ.) 10-30% azalmış, yaşayış məskənləri isə, sözün əsl mənasında yer üzündən silinmişdi" ( **118** ).

**1920-ci il. Gürcüstan.** Etnik gürcülər növbəti dəfə erməni terrorçu və bandit dəstələrinin təcavüzünə məruz qalmışlar. Erməni bandaları Allahverdi ərazisini aşaraq Lori hövzəsi bölgəsinin quzeyini tutmaq məqsədi ilə silahlı hərəkətə keçdi. Onların əzəli gürcü torpaqlarına iddiaları Qars, Ərzurum və Adana kimi türk torpaqlarına iddiaları kimi qəbuledilməzdir. Dronun başçılığı ilə erməni çətələri Tiflis ətrafına soxuldu. Burada onlar erməni xutorlarını və kəndlərini çoxaltmaq istəyirdilər. Kəndləri dağıdıb dinc gürcü kəndlilərini qılıncdan keçirərək, Dro gürcü paytaxtını ermənilərin məskənləri –" əraziləri" ilə mühasirəyə almağa çalışırdı. İlk dəfə aşkar oldu ki, ermənilərin qonşuları ( yəni *gürcülər* –X.İ.) "izlənən, günahsız, silahsız, pasifist bir millətlə" deyil, əksinə, terrorçu təşkilatın əlində alət olan bir millətlə üz-üzədir. Ermənilərin fəxri olan "Daşnaksütyun" isə yüz minlərlə insanı qırıb "erməni" ərazilərini genişləndirmək hesabına daha böyük hakimiyyət əldə etmək uğrunda qətiyyətlə mübarizə aparırdı ( **195** ).

### *Gürcüstan: axalkələklilərin soyqırımı*

**5 yanvar 1918-ci il. Axalkələk. Gürcüstan.** Erməni bandit dəstələri bu bölgənin Açaraça, Danqal, Mulanis, Murçaxet, Radizka, Qavur (Gavur? –X.İ.), Qyumriz (Gümrüz? –X.İ.) kəndlərinə hücum çəkmişlər. Bu kəndlərin sakinləri (azərbaycanlılar, türklər) vəhşicəsinə öldürülmüşlər ( **64** ).

**21 may 1918-ci il. Axalkələk. Gürcüstan.** Rus hərbi həkimi Xoroşenkonun məruzəsinə görə, Axalkələkdə və ətraf kəndlərdə erməni terrorçu təşkilatı «Daşnaksütyun"un profesional başkəsənləri tərəfindən yüzlərlə azərbaycanlı doğranmışdı. "XX əsrin sivilizasiyalı ermənilərinin vəhşilikləri bax belədir", –deyə öz məruzəsində Xoroşenko qeyzlə bildirir ( **108** ).



### *Cənubi Azərbaycanlıların soyqırımı*

**17 mart 1918-ci il. Urmiyə. İran...** ABŞ konsulu Şedin və Rusiya konsulu Nikitinin, habelə Fransa, İngiltərə b. ölkələrin dini missionerlərinin gözü qarşısında erməni bandaları bircə gündə 10000 dinc müsəlmanı qətlə yetirdilər. Xarici diplomatlar və missionerlər erməni faşizmindən dəhşətə gəldilər. Bu haqda daha ətraflı, Urmiyə ziyalısı Əli Dehqaninin, "Urmiyə-Zərdüşt peyğəmbərin məskəni" əsərində faktlarla geniş təsvir edilmişdir ( **68** ).

Ümumilikdə isə, Cənubda, o dövrdə soy qırımına məruz qalan soydaşlarımızın və başqa İran müsəlmanlarının ümumi sayı 130000, bəzi mənbələrdə isə 150000 nəfər göstərilir (**Bax**: *bu kitabın "Güney Azərbaycanlıların soyqırımı" bölümünün ədəbiyyatına*).

### *Dərbəndlilərin soyqırımına dair*

**23-24 mart 1918-ci il. Petrovsk (Mahaçqala).** Xüsusilə mühüm işlər üzrə müstəntiq Komarovskinin məruzəsinə görə, Bakıdan qaçqın düşən müsəlmanların bir hissəsi (850 nəfər) erməni saqqallılarından qurtararaq "Poseydon" paroxodu ilə Petrovska (Mahaçqalaya) çatdı. Ancaq "Kornilov" paroxodunda baş vermiş yanğınla bağlı onlar üç gün reyddə (*reyd–* burada: dəniz sahili yaxınlığında limanın girəcəyində gəmilərin dayanması üçün külək tutmayan yer– X.İ.) gözləməli olmuşdular. 4-cü gün qoca, qadın və uşaqları "Evelina" paroxodu ilə geriyə-Bakıya qaytardılar. Yerdə qalan 18-45 yaşlarında 750 nəfərin Mahaçqalada yerləşdiyindən xəbər tutan Şaumyanın göstərişi ilə Stepan Lalayan öz bandası ilə oraya hərəkətə keçdi. Lalayan dəstəsi ilə ora çatdıqdan sonra müsəlmanları 10-15 nəfərlik qruplarla qazamatda və yaxud şəhər kənarında ağaclıqlarda min bir əzab və hoqqa ilə öldürmüşdür. Şahid ifadələrinə görə, 8-10 nəfəri bir-birinə bağlayaraq kimin tüfənginin daha çox adam vuracağı barədə mərcləşirdilər. Başqa müsəlmanları isə əl-ələ zəncirlə bir-birinə bağlayıb, kənardakılardan başlayaraq bir-bir başlarına, qarın və sinələrinə zərbələr endirərək öldürdülər. Bəzilərini isə üz-üzə bağlayır və çalışırdılar ki, bir qılınc zərbəsilə onların başlarını üzsünlər.

Beləliklə həmin gün Lalayevin bandası tərəfindən 535 nəfər qətlə yetirildi. İnsanların tükürpədici dərəcədə eybəcərləşdirilmiş meyitləri hər yanda tökülüb qalmışdı – kəllələri doğranmış, əl-ayaqları kəsilib-atılmışdı. Şahidlər bildirdilər ki, daha betər eybəcərləşdirilmiş meyitlər erməni terrorçu "elitası" «Daşnaksütyun"un tüğyan etdiyi qazamatda, xüsusi otaqda "tapılmışdı."

**Şahidlərin məlumatlarına görə, erməni terrorçuları öldürdükləri uşaqların kəlləsinə paya keçirib şəhərdə qələbə əhvalı ilə gəzirdilər. Öldürülənlər və yaralananlar içərisində azərbaycanlılar, ləzgilər, türkmənlər, kürdlər, yəhudilər və gürcülər vardı ( 72 ).**

### *Qafqaz almanlarının soyqırımı və deportasiyası*

Erməni millətçilərinin ötən əsrin əvvəlində indiki Xanlar (Göygöl) rayonu ərazisində yaşamış almanlara qarşı həyata keçirdikləri qanlı cinayətlər də indiyədək geniş ictimaiyyətə gizli qalan tarix səhifələrindən olub. Bu günlərdə Effektiv Təşəbbüslər Mərkəzinin Xanlar şəhərində təşkil etdiyi elmi-praktik konfrans həmin tarixi gizlinlərin aşkara çıxarılması yönündə mühüm hadisə sayıla bilər.

Xanlar rayonundan millət vəkili, Milli Məclisin "Hüquq siyasəti və dövlət quruculuğu" daimi komissiyası sədrinin müavini Rövşən Rzayevin təşəbbüsü ilə keçirilən konfransda Azərbaycanın tarixçi alimləri ilə yanaşı, Bonn Universitetinin professoru, Qafqaz almanlarının tarixinin tədqiqatçısı xanım Eva Mariya Auxun başçılıq etdiyi alman nümayəndə heyəti də iştirak edirdi. Qonaqlar arasında XIX əsrin əvvəlində Azərbaycana gəlmiş alman kolonistlərinin (*koloniya* – burada: başqa bir ölkədə əcnəbilərin yaşadığı yer, məhəllə; *kolonist* kolóniyada yaşayan –X.İ.) tanınmış nəsillərindən birinin-Forerlər ailəsinin nümayəndəsi Tomas Forer də yer almışdı. İki əsr öncə bu torpaqlara pənah gətirmiş əcdadlarının azərbaycanlılarla dostluq içində yaşadıqlarını nəzərə çatdıran T.Forer alman kolonistlərinin indiki nəslinin də Azərbaycana ən səmimi hisslər bəslədiyini bildirdi.

Xatırladaq ki, almanların Rusiya imperiyasının əyalətlərinə köçü hələ XVIII əsrin əvvəlində I Pyotrun təşəbbüsü ilə başlanmışdı. Ondan sonra II Yekaterinanın çarlığı dövründə bu proses davam etmişdi. XIX əvvəlində imperator I Aleksandr (o, Baden şahzadəsi Yelizavetaya evlənmiş, bacısı Yekaterinanı isə Vürtemberq kralı Fridrix Vilhelmə ərə vermişdi) alman koloniyalarının təşviqini daha da genişləndirdi. 1816-1817-ci illərdən başlayaraq Avropada Napoleon müharibələrindən yoxsul vəziyyətə düşmüş minlərlə alman Qafqaza, o cümlədən Azərbaycana köç etməyə başladı. 1819-cu ildə Vürttemberq krallığından olan ilk alman koloniyası Gəncə yaxınlığına gəlib çıxmış və burada Helenendorf (sonra–*Xanlar,* indi– *Göygöl* adlanır –X.İ.) yaşayış məntəqəsinin əsasını qoymuşdular.

Təxminən eyni vaxtda Rusiya imperiyası cənubda Osmanlı və İranla müharibələr aparırdı və onların nəticəsi olaraq Azərbaycana, o cümlədən Gəncəbasar bölgəsinə ermənilərin də köçürülməsi başlanmışdı. Lakin, alman kolonistlərindən fərqli olaraq, ermənilər bu torpaqlara mənfur niyyət və istilaçılıq arzusu ilə gəlmişdilər. Onlar çox tezliklə təkcə azərbaycanlılara deyil, alman icmasına da qarşı düşmənçilik hissini büruzə verməyə başlamışdılar. Ymumilikdə, almanların Xanlardakı 122 illik tarixinin bütün mərhələləri ermənilərin bu xalqa qarşı fitnəkarlıq əməlləri ilə zəngindir və tarix elmləri doktoru, professor Abbas Seyidov konfransdakı məruzəsində bu barədə konkret faktları diqqətə çatdırdı.

Bu faktlar içərisində ən diqqətçəkəni 1907-ci ildə Yelizavetpol (Gəncə) şəhərində "Daşnaksütyun" partiyasının üzvlərinə qarşı açılmış cinayət işi barədə sənəd idi. Şəhər pristavının köməkçisinin imzaladığı sənəddə qeyd olunur ki, 1905-ci ildən 1907-ci ilin avqustunadək "Daşnaksütyun" partiyasının yerli təşkilatının rəhbəri Koryun silahdaşları Arutyunov qardaşları ilə birlikdə Helenendorf almanlarını partiyanın xəzinəsinə xərac verməyə məcbur ediblər, o cümlədən şərab istehsalçıları olan Forer və Qurrdan hərəyə 30 min rubl pul tələb ediblər. Qurr bu məbləği ödəyə bilmədiyi üçün partiyanın yerli təşkilatının qərarı ilə qətlə yetirilir.

Bu acı faktların almaniyalı qonaqlara təsirini onların üzündən oxumaq mümkün idi, bəziləri göz yaşını saxlaya bilmirdi. Professor Eva Mariya Aux isə öz təəssüratını "Biz daşnak terroru haqqında çox eşitmişdik. Amma bu gün ilk dəfə bu barədə faktları təsdiq edən konkret sənədlərlə tanış oluruq" sözləri ilə bölüşdü.

Erməni millətçilərinin Helenendorf (Göygöl) almanlarına qarşı terror və təqib siyasəti Birinci Dünya müharibəsi dövründə (1914-1918) daha da genişlənir. Rusiya imperiyasının Almaniya ilə müharibəsindən istifadə edən erməni dairələri imperiya rəhbərliyindəki havadarlarının köməyi ilə almanların bu torpaqlardan köçürülməsinə çalışırdılar. 1917-ci ildə onlar bu niyyətə qismən nail olurlar: almanların torpaq sahibkarlığı ləğv edilir, Helenendorfa və ətraf bölgələrə isə Türkiyə və İrandan yeni erməni dəstələri köçürülür. Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi və Leninin Almaniya ilə separat sülh bağlaması alman kolonistlərini sürgündən təhlükəsindən qurtarır, amma bu müvəqqəti "xilas" idi.



1920-ci ildə sovetləşmənin başlamasından sonra ermənilər yenə mərkəzdəki havadarlarının köməyi ilə almanları sıxışdırmağa başlayırlar. Almanların qurduğu "Konkordiya" şərabçılıq firması, digər müəssisələr ləğv olunur, onların bir qismi həbslərə məruz qalır. 30-cu illərdə isə rayonun daxili işlər ("NKVD") və partiya-təsərrüfat orqanlarında məsul vəzifələri ələ keçirən ermənilər almanlarla daha qəddarlıqla davranır, onların tezliklə sürgünə göndəriləcəyini və bu torpaqların ermənilərə qismət olacağını bildirirlər. Bu dövrdə rayonda onlarla alman "antisovet fəaliyyəti"ndə günahlandırılaraq "NKVD"-dəki erməni cəlladların əli ilə güllələnir, digərləri (o cümlədən Helenendorfun əsasını qoymuş Hummellərin bir çoxu) Sibirə sürgün edilir. Ermənilərin mənfur davranışı almanları o həddə çatdırır ki, 1934-cü il mayın 14-də onlar **Helenendorf klubunun divarlarına "Ermənilər qaniçəndirlər, onlar kəndlilərin son damla qanına qədər sorurlar" şüarları yapışdırırlar.**

Nəhayət, İkinci Dünya Müharibəsinin başlanması ilə erməni millətçiləri niyyətlərinə çatırlar. 1941-ci ili oktyabrın 8-də Stalin imzaladığı qərara əsasən, Gürcüstandan 23580 nəfər, Azərbaycandan 22741 nəfər (onların təxminən yarısı Xanlar almanları idi), Ermənistandan isə 212 nəfər (Ermənistanda yalnız bu qədər almanın məskən salması da erməni millətçiliyinin göstəricisi idi) alman Qazaxıstan çöllərinə sürgün edilir. Almanların təsərrüfat sahələri, evləri, mal-qarası isə yeni gələn ermənilərə qismət olur. Stalinin sağ əli olan Mikoyanın səyləri ilə bu ərazilərə təkcə Ermənistandan deyil, İrandan da yüzlərlə erməni ailəsi köçürülür. Hal-hazırda Xanlarda yaşayan 72 yaşlı yeganə alman Viktor Klayn həmin tarixi və erməni millətçilərindən çəkdikləri zilləti göz yaşı içində xatırlayır. Almanların mal-mülkünə sahib olan ermənilər bununla kifayətlənməyərək Xanlardakı alman qəbiristanlığına da sahib çıxmağa çalışıblar, oradakı bir sıra qəbirlərin baş daşları "erməniləşdirilib". Uzun illər diqqətdən kənar qalmış bu vandalizm faktları da professor A. Seyidovun rəhbərlik etdiyi ekspert qrupun apardığı tədqiqat nəticəsində ortaya çıxıb **( 212 )** .

## Mənbələr:


**1.** Georges de Maleville. La Tragedie Armenienne de 1915.

1988; Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; издание «Хисторама» №16, 1985; газ. «Русская мысль» №342, ноябрь 1907. *Bax:* Преступления армянских террористических и бандитских формирований против человечества [*bundan sonra qısa olaraq belə yazılacaq:* ***ПАТБФПЧ*** ] (XIX – XXI вв.) , Баку, 2002, стр. 12-13.

**2.** « Əkinçi» qəzeti, №4, 17 fevral 1877; А. Мансуров. Белые пятна истории и перестройка. Баку, 1990; С.Ю.Витте. Избранные воспоминания. 1991; В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904; С.Г.Шаумян. Избранные произведения. Т.I., 1978; ASALA Cooperating with radikal Lebanese. «Armenian Reporter» qəzeti, 9 iyul 1987; Ю.Помпеев. Кровавый омут Карабаха. 1992. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 14-15.

**3.** В.И. Ленин. Изд. ПСС. 5, т. 47; А. Мансуров. Белые пятна истории и перестройка. 1990; H. Katchaznuni. The Armenian Revolutionary Federation has nothinq to do anymore. 1955; Эмиграция: новая волна. Газ. « Неделя» № 22, 1989.

*Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 16-17.

**4.** Кариби. Красная книга. 1920. *Bax:* Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. № 4, 1989; История – это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо» 23 октября 2002.

**5.** Кариби. Красная книга. 1920. *Bax:* Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. № 4, 1989.

**6.** А. Френкель. Справка… *Bax:* История Азербайджана по документам и публикациям. Под ред. З. Буниятова. 1990; В.Л. Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904; А. Мансуров. Белые пятна истории и перестройка. 1990; *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 20.

**7.** M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən erməni-müsəlman davasının tarixi. *1911. Bakı, 1991;* Доклад члена Чрезвычайной Следственной Комиссии А.Ф.Новацкого от 18.03.1918. ВСА. 930.01.5.-111-1. ADA. 1061-1-108; Мемуары русского офицера Твердохлебова. Известия

Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. № 3, 1988; А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 21.

**8.** Центральный Госархив СССР, ф. 102, оп. 253, ед. хр. 285; А. Мансуров. Белые пятна истории и перестройка. 1990; С.Лурье. Россия в массовом сознании армян. http//:www.polit.ru. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 21-22.

**9.** Кариби. Красная книга. 1920. Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. № 4, 1989.

**10.** Yenə orada.

**11.** История – это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», Баку, 23 октября 2002.

**12.** В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 98-99. ; А.Мансуров. Белые пятна истории и перестройка. 1990; Georges de Maleville. La Tragedie Armenienne de 1915. 1988. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 23.

**13.** В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 98-99, 107; Г.Гусейнов. Армяно- азербайджанский конфликт в ракурсе военно-политических аспектов. Журн. «Возрождение–XXI век» № 4 (26), Баку, 2000; История–это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002; Ов. Качазнуни. Дашнакцутюн больше нечего делать! 1990 ( печ. по изд. 1902), стр. 43; ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр.24.

**14.** Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; Ж.Малевил. Армянская трагедия 1915 года. Баку, 1990; Салахи Р.Соньел. Оттоманские армяне. 1977. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 25.

**15.** Газ. «Кавказ» № 94, Тифлис, 1897; Э.Файгл. Правда о терроре. Армянский терроризм – истоки и причины. 2000; Ж.Малевил. Армянская трагедия 1915 года. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 25-26.

**16.** В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 136.

**17.** Yenə orada, səh. 139; Центральный Госархив СССР, ф. 102, оп. 253, ед, хр. 252, л. 1-18.

**18.** В.Л. Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 139-140; История-это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002.

**19.** Yenə orada; Газ. «Мшак», 23 января 1898.

**20.** Русский вестник. №6, 1903; В.Л. Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 140-141; Lowry Heath W. Nineteeth and Twentieth Century armenian terrorism: thereads of continuitc. 1984. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 29-30.

**21.** В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 141.

**22.** В.Л.Величко. Кавказъ. Русское дело и междуплеменные вопросы. 1904, Баку, 1990, стр. 142-144.

**23.** А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр.32.

**24.** "Çöhrə nüma" jurnalı, farsca, № 18, İsgəndəriyyə, 1905; А.Лалаян. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. Исторические записки. 1936; Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 32-33.

**25.** ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 33.

**26.** T. Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985; А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 33-34.

**27.** Yenə orada , səh.34.

**28.** Yenə orada.

**29.** Указ Президента Азербайджанской Республики Гейдара Алиева о геноциде азербайджанцев. 26 марта 1998. Журн. « Возрождение – XXI век» № 3, № 4, Баку, 1998; T.Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр.34-35; Газ. «Кавказ» № 125, 1897.

**30.** ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 35-36.

**31.** M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911. Bakı, 1991, səh. 26.

**32.** Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 36.

**33.** B. Budaqov. Vətən yanğısı. XX əsrdə Azərbaycana qarşı Ermənistanın təcavüzü. 2002. *Bax: ПАТБФПЧ, стр.36-37.*

**34.** M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911. Bakı, 1991, səh. 34-35.

**35.** Yenə orada, səh. 35.

**36.** T. Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985; M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911. Bakı, 1991; М.А. Скибицкий. Материалы для устройства казенных летних и зимних пастбищ и для изучения скотоводства на Кавказе. 1889. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 38-39.



**37.** M.S.Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911. Bakı, 1991, səh. 64-70; ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 39-40.,

**38.** M.S.Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911. Bakı, 1991, səh. 58; ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 40.

**39.** Yenə orada; Центральный Госархив СССР, ф. 102, оп. 253, ед. хр. 252, л. 1-18.

**40.** T. Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985. *Bax: ПАТБФПЧ, стр.* 40-41.

**41.** Yenə orada, səh.41; Указ Президента Азербайджанской Республики Гейдара Алиева о геноциде азербайджанцев. 26 март 1998. Журн. « Возрождение – XXI век» № 3, № 4, Баку, 1998.

**42.** Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; T. Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985; M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911, Bakı, 1991. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 42.

**43.** T.Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985; M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911. Bakı, 1991; Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; V.Quliyev. Azərbaycanda erməni zülmü. 1999; И.Чавчавадзе. Армянские ученые и вопиюшие камни. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 42-43.

**44.** M.S.Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911, Bakı, 1991, səh. 87-88.; А.Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 43-44.

**45.** T.Swietochowski. Russian Azerbaijan, 1905-1920. 1985; M.S. Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə baş verən ermәni-müsəlman davasının tarixi. 1911, Bakı, 1991, səh. 59-62; Э.Файгл. Правда о терроре. Армянский терроризм – истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 44.

**46.** http://www.devletarsivleri.gov/yayin/osmanli/ermenikatliam/ katliamlistesi. htm.

**47.** Georges de Maleville. La Tragedie Armenienne de 1915. 1988, Баку, 1990 (təkrar nəşri, rusca), стр. 26, 33, 90.

**48.** Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 47.

**49.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**50.** Дж.Алиев, Б.Будагов. Турки и армяне: «геноцид» исторической правды. Журн. «Азербайджан и азербайджанцы» № № 5-6, Баку, 2002; Ж.Малевил. Армянская трагедия 1915 года. Баку, 1990, стр. 23.; Э.Файгл. Правда о терроре. Армянский терроризм – истоки и причины. 2000; V.Quliyev. Azərbaycanda erməni zülmü. 1999; Rafael de Nogales. Four years beneath the Crescent. 1926. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 48-49; http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm; История–это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002.

**51.** Georges de Maleville. La Tragedie Armenienne de 1915. 1988. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 49-50.

**52.** Дж. и К. Маккарти. Тюрки и армяне. 1996; Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 50.; И.Алиев. Шуша . Журн. «Возрождение – XXI век» № 31, Баку, 2000.

**52-A.** Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 50; З. Бунятов. Почему Сумгаит? Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права. № 2, Баку, 1989.

**52-B.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**53.** Yenə orada.

**54.** Yenə orada.

**55.** Yenə orada.

**56.** Yenə orada.

**57.** История–это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002.

**58.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm; Armenian allegations: Myth and Reality. A Handbook of Facts and Documents. 1987; Turkkaya Ataov. An Armenian falsification. 1985. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 52.

**59.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**60.** Доклад члена Чрезвычайной Следственной Комиссии Н. Михайлова. *Bax:* Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. 2001.-ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 56.

**61.** Yenə orada.

**61-A.** С.Д.Сазонов. Выступление министра иностранных дел Российской Империи. 1916; Кариби. Красная книга. 1920; А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX –

XXI вв.), Баку, 2002, стр. 56-57. А. Рзаев. Армянский шовинизм- реальная угроза для человечества. Журн. « Возрождение – XXI век» № 11, Баку, 1999.
62. Указ Президента Азербайджанской Республики Гейдара Алиева о геноциде азербайджанцев. 26 март 1998. Журн. « Возрождение – XX1 век» № 3, №4, 1998; « Azərbaycan» qəzeti №4, 8 oktyabr 1918; С.Г.Шаумян. Избранные произведения. Т.1, 1978; А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 57-58.
63. Доклад члена Чрезвычайной Следственной Комиссии Н. Михайлова. В кн. Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. 2001; З. Бунятов. Почему Сумгаит? Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. №2, 1989; Газ. «Грузия», 9 ноября 1918. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 58-59.
64. Kırzıroğlu Fahrettin. Kars ili ve çevresinde ermeni mezalimi., Ankara, 1970; V.Arzumanlı, N.Mustafa. Tarixin qara səhifələri –Deportasiya, Soyqırım, Qaçqınlıq. 1998. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 60.
65. Yenə orada.
66. Мемуары русского офицера Твердохлебова. Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. №3, Баку, 1988.
67. Т.Чаладзе. Сострадание. 1995. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 61; И.Багирова. Изменение программы и организационной структуры «Дашнакцутюн» на Кавказе. Журн. «Возрождение – XXI век» № 31, Баку, 2000; ГАППОДАР, ф. 276, оп. 8, д. 334, л. 2.
68. Газ. «Зеркало» № 52, Баку, 17 марта 2001;
*Bu kitabın "Güney Azərbaycanlıların soyqırımı" bölümünün ədəbiyyatı.*
69. Дж. и К. Маккарти. Тюрки и армяне. 1996; А. Мансуров. Белые пятна истории и перестройка. 1990; Азербайджанская Демократическая Республика. 1998. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 65-66.
70. Y.Qazıyev. Ermənilərin törətdikləri soyqırımların bəzi məqamları. «Xalq qəzeti», Баку, 31 mart 2002; И. Алиев. Шуша . Журн. «Возрождение – XXI век» № 31, Баку, 2000.
71. Y.Qazıyev. Ermənilərin törətdikləri soyqırımların bəzi məqamları. «Xalq qəzeti», 31 mart 2002;
72. ГААР, ф. 1061, оп. 1, д. 99, л. 3, 5-7; протокол допроса от 5 декабря 1918 года. *Bax:* Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. 2001.; ПАТБФПЧ ..., стр. 67-68.
73. ГААР, ф. 1061, оп. 1, д. 87, л. 19-20.
74. ГААР, ф. 1061, оп. 1, д. 87, л. 25.
75. ГААР, ф. 1061, оп. 1, д. 85, л. 56.
76. ГААР, ф. 1061, оп. 1, д. 85, л. 75.
77. ГААР, ф. 1061, оп. 1, д. 85, л. 22.
78. ГААР, ф. 1061, оп. 1, д. 85, л. 55.
79. ГААР, ф. 1061, оп. 1, д. 6, л. 2.
80. ГААР, ф. 1061, оп. 1, д. 6, л. 48.
81. ГААР, ф. 1061, оп. 1, д. 85, л. 142.
82. ГААР, ф. 1061, оп. 1, д. 85, л. 4.
83. ГААР, ф. 1061, оп. 1, д. 6, л. 137.
84. ГААР, ф. 1061, оп. 1, д. 6, л. 133.
85. ГААР, ф. 1061, оп. 1, д. 6, л. 102.
86. ГААР, ф. 1061, оп. 1, д. 6, л. 12.
87. Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920., Ankara, 2001.-ПАТБФПЧ..., стр. 71-72.
88. http://www.ksu.edu.tr/ermeni/erm_ tur/erm_mezalimi.html.
89. Henry Barby. Les extravagances bolcheviques et L'eoppee armenienne. 1921; С.Г. Шаумян. Избранные произведения. Т.І., 1978; И.Велиев. Депортация. Журн. « Возрождение – XXI век» №2, 1998; 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Tərtibçi V.Şirinoğlu. 2001. «Xalq qəzeti» 30 mart 2002; Ф.Джумшудли. Трагедия 1918 года. Газ. «Азербайджан», 8 октября 1918. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 72-74.
90. Доклад Председателя Чрезвычайной Следственной Комиссии. В кн. Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. 2001; А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ, стр.75-76.; ГААР, ф. 1061. оп. 1, д. 99, л.11.
91. Yenə orada; ПАТБФПЧ, стр.76-77; Н.Нариманов. Что делать, чтобы гражданская война не приняла национальной окраски. «Гуммет» №71, 1918.
92. Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001. *Bax:* ПАТБФПЧ, стр.78; ГААР, ф. 1061, оп. 1, д. 96, л. 32.
93. ПАТБФПЧ, стр.79;
94. Yenə orada.
95. Yenə orada, səh.80.
96. Yenə orada.



97. Yenə orada.
98. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Tərtibçi V.Şirinoğlu. 2001; Л.Мамедова. Армянские бесчинства. Газ. «Бакинский рабочий», 30 марта 2002; М.Шатирян. Сказание о пальме. 1974. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 82.
99. Мемуары русского офицера Твердохлебова. Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. №3, 1988; История Азербайджана по документам и публикациям. Под ред. З. Буниятова. 1990.
100. Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001. *Bax:* ПАТБФПЧ, стр. 83-84; http://www.ksu.edu.tr/ermeni/erm. tur/t-mezar (2).html.
101. V.Quliyev. Azərbaycanda erməni zülmü. 1999; *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 84.
102. Kırzıoğlu Fahrettin. Kars ili ve çevresinde ermeni mezalimi (1918-1920)., Ankara, 1970. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 84.
103. Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001; ГАППОДАР, ф. 277, оп. 2, д.16, л. 11.
104. Доклад члена Чрезвычайной Следственной Комиссии А.Ф.Новацкого. ВСА. 930 01.5-104-101. ADA. 1061-1-95.
105. V. Quliyev. Azərbaycanda erməni zülmü. 1999. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 85-86.
106. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Tərtibçi V.Şirinoğlu. 2001; Л.Мамедова. Армянские бесчинства. Газ. «Бакинский рабочий», 30 марта 2002; V.Quliyev. Azərbaycanda erməni zülmü. 1999. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 86.
107. Исторические документы. Известия Академии наук Азербайджанской. Серия истории, философии и права. Сост: Н.Велиханлы. № 4, Баку, 1990; ГА'АР, ф. 1061, оп. 1, д. 96, л. 34-39; ГААР, ф. 1061, оп. 1,д. 95, л. 5-8; Доклад члена Чрезвычайной Следственной Комиссии А.Ф.Новацкого. ВСА. 930 01.5-104-101. ADA. 1061-1-95. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 86-88.
108. Xoroşenkonun məruzəsinin bu kitabda yayınlanmış surəti; Материалы Всесоюзной научной конференции «Роль взаимовлияния и взаимообогащения литератур народов Востока в развитии и укреплении межнациальных отношений и интернационального воспитания». 1989. В кн. V.Quliyev. Azərbaycanda erməni zülmü. 1999. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 88; История–это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002.
109. Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; Кариби. Красная книга. 1920; Газ. «Иверия», апрель 1897; Газ. «Кавказ» № 94. 1897. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 89-90.
110. Доклад Председателя Чрезвычайной Следственной Комиссии Министру Юстиции от 22 ноября 1918. *В кн.* Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. 2001. – ПАТБФПЧ, стр.91.
111. ГААР, ф. 970, оп. 1, д. 161, л. 1-9.
112. 22.09.1919. tarixli sənəd. BCA.930.01.4-77-1. ADA. 970-1-184.
113. А.Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 93-94.
114. «Respublika» qəzeti, Bakı, 29 mart 2002; А.Лалаян. Исторические записки. Контрреволюционный «Дашнакцутюн» и империалистическая война 1914-1918 гг. 1936. *Bax:* ПАТБФПЧ, стр. 94-95.
115. Доклад члена Чрезвычайной Следственной Комиссии от 20.09.1919. ВСА. 930. 01.5-93-1. ADA. 1061-1-60.
116. Доклад члена Чрезвычайной Следственной Комиссии от 20.09.1919 ВСА. 930. 01.5-94-1. ADA. 1061-1-61.
117. Доклад члена Чрезвычайной Следственной Комиссии от 20.09.1919 ВСА. 930. 01.5-93-1. ADA. 1061-1-60; «Rusiya Kommunist (bolşeviklər) Partiyası Zaqafqaziya Ölkə Komitəsinin xəbərləri» №№ 6-7 iyun-iyul, 1919; Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000; Нурани. Гарегин Нжде. Газ. «Эхо плюс», 15 июня 2002. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 95-96.
118. Т.Чаладзе. Сострадание. 1995; Большая Советская Энциклопедия. Под ред. О.Ю. Шмидта, т. 3, 1926; Госархив Армении, д. 644, ф. 67. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 101-102; История–это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002.
119. ГААР, ф. 970, оп. 1, д. 161, л. 1-9;
120. Yenə orada; А.Мясников. Армянские политические партии за рубежом. 1925. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 102-103.
121. 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Tərtibçi V.Şirinoğlu. 2001. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 103; З. Буниятова. Почему Сумгаит? Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. № 2, Баку, 1989; И. Алиев. Шуша . Журн. «Возрождение – XXI век» № 31, 2000.

**122.** 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı. Sənədlər və materiallar. Tərtibçi V.Şirinoğlu. 2001; *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 104.

**123.** B. Budaqov. Vətən yanğısı. XX əsrdə Azərbaycana qarşı Ermənistanın təcavüzü. 2002; Газ. «Азербайджан», 8 декабря 1918. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 104-105.

**124.** B. Budaqov. Vətən yanğısı. XX əsrdə Azərbaycana qarşı Ermənistanın təcavüzü. 2002. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 105.

**125.** И.Велиев. Депортация. Журн. «Возрождение – XXI век» № 2, Баку, 1998; А. Щепотьев. «Azərbaycan» qəzeti, 11 fevral 1919; ГААР, ф. 970, оп. 1, д. 46, л. 7; К. Патканян. Ванские надписи и их значение для истории Передней Азии. 1875; Б.Ишханян. Народности Кавказа. 1916; Р.Орбаки. История не терпит коньюнктуры. «Независимая газета», 12 март 1999. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр.105-108.

**126.** Yenə orada; Дж. и К. Маккарти. Тюрки и армяне. 1996; *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 108-109.

**127.** ГААР, ф. 894, оп. 4, д. 65, л. 129-134.

**128.** Азербайджанская Демократическая Республика. 1918-1920 гг. Армия. Документы и материалы. 1998. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 109.

**129.** ГААР, ф. 894, оп. 4, д. 65, л. 129;

**130.** ЦГАОР Аз. ССР, ф. 894, оп. 10, д. 81, л. 9-10; «Azərbaycan» qəzeti, Bakı, 17 may 1919.

**131.** Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001. *Вах:* ПАТБФПЧ, стр.111.

**132.** Yenə orada.

**133.** Yenə orada.

**134.** Yenə orada.

**135.** Yenə orada, səh.111-112.

**136.** Yenə orada, səh.112.

**137.** ГААР, ф. 894, оп. 4, д. 65, л. 129-134;

**138.** Нота министра иностранных дел Азербайджанской Республики А. Зиятханова министру иностранных дел Республики Армения от 19 февраля 1919 года. В кн: Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. 2001. – ПАТБФПЧ, стр.112-113.

**139.** BCA. 930 01. 4-61-1. ADA. 970-1-41.

**140.** В.И.Ленин. ПСС. Изд. 5, т. 51; Т.Чаладзе. Сострадание. 1995. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 113-114.

**141.** С.Шадунц. Газ. «Бакинский рабочий», 21 декабр 1922; Армяне из цыган. Журн. «Мурч», 1897; И.Алиев. Нагорный Карабах. История. Факты. События. 1989; И.М.Дьяконов. К проистории армянского языка. 1983. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 114-116.

**142.** Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. Баку, 1998, стр.188-189; Газ. «Азербайджан», № 64, 27 марта 1919 г.

**143.** ГААР, ф. 970, оп. 1, д. 41, л. 20, Комментарий. Внешняя политика.

**144.** "Azərbaycan" qəzeti, № 64, 27 mart 1919; ЦГАОР Аз. ССР, ф. 970, оп. 1, д. 167, л. 1-3.

**145.** Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001. *Вах:* ПАТБФПЧ, стр. 119.

**146.** Yenə orada.

**147.** Ю.Помпеев. Кровавый омут Карабаха. 1992. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 119-120.

**148.** Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001. *Вах:* ПАТБФПЧ, стр.120.

**149.** Yenə orada.

**150.** А.Лалаян. Контрреволюционная роль партии «Дашнакцутюн». Известия Академии наук Азербайджанской ССР. Серия истории, философии и права. №1, 1990.

**151.** ГААР, ф. 970, оп. 1, д. 54, л. 94-97; ГААР, ф. 897, оп. 1, д. 38, л. 69;

**152.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**153.** ГААР, ф. 2898, оп. 1, д. 15, л. 3-5; «Respublika» qəzeti, Bakı, 29 mart 2002.

**154.** «Türk kültürü» dərgisi, № 81, 1969. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 130; http://www.devletarsivleri.gov.tr/ yayin/osmanli/ermenikatliamlistesi.htm.

**155.** ГААР, ф. 894, оп. 10, д. 191, л.1.

**156.** ГААР, ф. 970, оп. 1, д. 113, л. 2.

**157.** ГААР, ф. 894, оп. 10, д. 104, л. 1-3.

**158.** Azerbaycan belgelerinde ermeni sorunu. 1918-1920. Ankara, 2001. *Вах:* ПАТБФПЧ, стр. 131.

**159.** И.Велиев. Депортация. Журн. «Возрождение – XXI век» № 2, Баку, 1998. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 132.



**160.** http://www.ksu.edu.tr/ermeni/erm_tur/erm_mezalimi.html.

**161.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**162.** Азербайджанская Демократическая Республика. 1918-1920. Армия. 1998. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 132.

**163.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**164.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**165.** М.Яшароглу. 87-летняя бредовая идея. Газ. «Зеркало», Баку, 24 апреля 2002.

**166.** Yenə orada.

**167.** Yenə orada.

**168.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**169.** ГААР, ф. 970, оп. 1, д. 113, л. 91.

**170.** ГААР, ф. 970, оп. 1, д. 113, л. 83.

**171.** ГААР, ф. 970, оп. 1, д. 113, л. 83.

**172.** ГААР, ф. 2901, оп. 1, д. 4, л. 22.

**173.** ГААР, ф. 2894, оп. 2, д. 5, л. 5.

**174.** ГААР, ф. 970, оп. 1, д. 113, л. 103.

**175.** «Azərbaycan» qəzeti, 2 aprel 1920; «Azərbaycan» qəzeti, 7 aprel 1920.

**176.** ГААР, ф. 2894, оп. 2, д. 5, л. 31.

**177.** «Azərbaycan» qəzeti, 9 aprel 1920;

**178.** ГААР, ф. 2894, оп. 2, д. 5, л. 44.

**179.** ГААР, ф. 970, оп. 1, д. 126, л. 22.

**180.** ГААР, ф. 970, оп. 1, д. 115, л. 76

**181.** ГААР,ф. 970, оп. 1, д. 36, л. 36.

**182.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm. ; М.Яшароглу. 87-летняя бредовая идея. Газ. «Зеркало», 24 апреля 2002.

**183.** Газ. «Коммунист»,12 мая 1920. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 138.

**184.** V. Quliyev. Azərbaycanda erməni zülmü. 1999; Azərbaycan Demokratik Respublikası. Azərbaycan Hökuməti. 1918-1920. 1990. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 139.

**185.** ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр 139 – 140.

**185-A.** Yenə orada, səh.140.

**185-B.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm; «Joğovurd» qəzeti (erməncə) № 105, İrəvan, 1920. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 140.

**186.** Архив МИД СССР, д. 54862, л. 25-28; З. Кардокян. Население Советской Армении 1831-1931 годы; А.Гулиев. Истинный геноцид и его жертвы. Журн. « Возрождение – XXI век» № 26, Баку, 2000. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 140-141.

**187.** М.Яшароглу. 87-летняя бредовая идея. Газ. «Зеркало», 24 апреля 2002.

**188.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**189.** Yenə orada.

**190.** М.Яшароглу. 87-летняя бредовая идея. Газ. «Зеркало», 24 апреля 2002.

**191.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm.

**192.** Yenə orada; «Harac» qəzeti, (erməncə) № 225, İrəvan, 1920.

**193.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm. М.Яшароглу. 87-летняя бредовая идея. Газ. «Зеркало», 24 апреля 2002.

**194.** http://www.devletarsivleri.gov.tr/yayin/osmanli/ermenikatliamlistesi.htm; Armenian allegations: Myth and Reality. A Handbook of Facts and Documents. Vashington,1987, təkrar nəşri (rusca), Bakı, 1992, səh. 241-255.

**195.** Кариби. Красная книга. 1920; Э.Файгл. Правда о терроре. Армянский терроризм – истоки и причины. 2000. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 144; История–это причина армянского терроризма. Список Л.Микучадзе. Газ. «Эхо», 23 октября 2002.

**195-A.** Архив МИД СССР, д. 56822, л. 36.

**195-B.** Указ Президента Азербайджанской Республики Гейдара Алиева о проведении 75-летия Нахчыванской Автономной Республики. 4 февраля 1999. Журн. « Возрождение – XXI век» №13, Баку, 1999; М.Яшароглу. 87-летняя бредовая идея. Газ. «Зеркало», 24 апреля 2002; Архив МИД СССР, д. 56822, л. 97; М.Неймат. Предыстория армянских территориальных притязаний на Нахчыван, Зангезур, Карабах. Журн. «Азербайджан и азербайджанцы»№№ 5-6, Баку, 2002. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр.145-147.

**196.** А.Мясников. Армянские политические партии за рубежом. 1925 год; А.Мансуров. Белые пятна истории и перестройка. 1990; Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000. *Вах:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 147.

**197.** Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000; М.А.Гасратян, С.Ф.Орешникова, Ю.А.Петросян. Очерки истории Турции. 1983. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 148.

**198.** V. Quliyev. Azərbaycanda erməni zülmü. 1999. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 148.

**199.** A.Şiraçyan. Bir ermeni terroristinin itirafları. 1997; Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000; К.Салимов. Современные проблемы терроризма. 1999. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 148-149.

**200.** Наука истинна. Сост: Э. Казибекова, Э. Ахундова, Ю.Бельявский, 1999; A.Şiraçyan. Bir ermeni terroristinin itirafları. 1997; М.А. Гасратян, С.Ф.Орешникова, Ю.А.Петросян. Очерки истории Турции. 1983; C.Walker. Armenia: the survival of a nation. 1980. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 149.

**201.** Наука истинна. Сост: Э. Казибекова, Э. Ахундова, Ю.Бельявский, 1999; Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000; М.А. Гасратян, С.Ф. Орешникова, Ю.А. Петросян. Очерки истории Турции. 1983; C.Walker. Armenia: the survival of a nation. 1980. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 149.

**202.** Наука истинна. Сост: Э. Казибекова, Э. Ахундова, Ю.Бельявский, 1999; *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 149.

**203.** А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 149-150.

**204.** Указ Президента Азербайджанской Республики Гейдара Алиева о проведении 75-летия Нахчыванской Автономной Республики. 4 февраля 1999. Журн. « Возрождение – XXI век» № 13, Баку, 1999.

**205.** Э.Файгл. Правда о терроре. Армянский терроризм-истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 151.

**206.** Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000; А. Мансуров. Белые пятна истории и перестройка. 1990. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 151-152; Нурани. Гарегин Нжде. Газ. «Эхо плюс», 15 июня 2002., Газ. «Эхо», 31 августа 2002.

**207.** Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр.152-153.

**208.** Э.Файгл. Правда о терроре. Армянский терроризм–истоки и причины. 2000. *Bax:* ПАТБФПЧ (XIX – XXI вв.), Баку, 2002, стр. 153-154.

**209.** Газ. «Бакинский рабочий» (под ред. А.Амиряна), 28(15) мая 1918 г.; И. Велиев. Депортация. Журн. «Возрождение–XXI век», №2,1998.

**210.** Ahmed Cemaleddin [Saraçoğlu]. Torlakyan Davası: Behbud Han Cevanşirin Katli., İstanbul, 1921. – Bakü, 2007, s.385-386.

**211.** Vəli Həbiboğlu. Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası. Bakı, 2002, s. 81.

**212.** Vüqar ORXAN. Erməni terrorunun qatı açılmamış izləri.

Ötən əsrin əvvəlində daşnakların Azərbaycanda yaşayan almanlara qarşı həyata keçirdikləri qanlı cinayətlər bu qəbildəndir., «525-ci qəzet», Bakı, 16.09.2006.

**213.** А. Гулиев. Истинный геноцид и его жертвы., Журн. «Возрождение –XXI век» № 4 (26), 2000.; ПАТБФХЧ (XIX-XXI вв.), Баку, 2002, стр. 46.




## *RUS DİPLOMAT VƏ HƏRBÇİLƏRİ ERMƏNİLƏR HAQDA*

**Van rus hərbi hissələri komandanı Nikolayevin Qafqaz Orduları komandanına göndərdiyi teleqrafdan** *[1 Temmuz (iyul) 1915-ci il]:*

Erməni könüllüləri oğurlanmış qənimətləri götürən zaman vəzifəsi bunun qarşısını almaq olan rus əsgərlərinə ermənilər tərəfindən atəş açılmışdır. Bundan başqa, könüllülər davamlı surətdə yağma yapmaq və hər cür cinayətlər işləməkdən zövq almaqdadırlar. Bu çoxalan cinayətlərə son vermək məqsədilə Vanda hərbi məhkəmə qurulmuşdur. Bunlara mane olmaq üçün ayrıca qaydalara nəzarət edən birliklərin təşkilinə lüzum görülmüşdür **(1:** s. 27).

***

**"Rusiyanın Bitlis konsulunun məruzəsi"ndən** *(3 dekabr 1910-cu il, № 602):*

... Erməni komitələri indiyə qədər erməni camaatının cəhalətindən çox mahiranə bir surətdə istifadə etmişlər.

İndi adi çəkilən cəmiyyətin [*Erməni İxtilal Cəmiyyəti (Partiyası) "Daşnaksütyun"* – X.İ.] Sasun, Muş sancağı, Muş ovası, Bulanıq, Ahlat və Malazgird qəzalarıyla, Bitlis şəhərindəki üyələrinin sayı 100 000 nəfərə çatmışdır. Bu təşkilatın vilayət (*Bitlisi nəzərdə tutur*–X.İ.) içindəki başlıca rəisi Karmen (Carmen), digər adıyla Karnikdir. Daşnaksütyun cəmiyyətinə girməzdən öncə Karnik bir keşiş idi. Əsl adı Dacad Vartabed (Dadjad Vartabete) imiş. Sonra ruhani qiyafəsini ataraq Daşnaksütyun cəmiyyətinə girdiyi vaxt, başqa erməni ixtilalçıları kimi, o da müstear bir isim (*ayama, ləqəb* – X.İ.) almış və bu günə qədər Karmen adıyla tanınmışdır...

Rəisləriylə birlikdə bu 100000 üzvün girdiyi cəmiyyətin mərkəzi idarəsi Muş şəhərindədir. Bu təşkilat 20 komitəyə, 100 alt komitəyə və 8000 qrupa ayrılmaqdadır...

Sonra məruzə müəllifi daşnakların silahlı olduqları və silahlarının markası, miqdarı və s. haqda da məlumat verir **(1:** s.10-26; **2:** s.77-82).

***

**General Bolkovitinov** da 9 Temmuz (iyul) 1915-ci il tarixli məktubunda Vorontsov-Daşkova Nikolayevin yuxarıda xatırlatdığımız teleqrafdakı "ermənilərin rusların üzünə ağ olması" məsələsini çatdıraraq, qayda yaradanadək yeni erməni könüllü dəstələrinin yaradılmasının yasaqlandığını bildirir **(1:** s.29; **3:** s.631-633).

***

**Qafqaz Rus ordu komandanı general Odişelidze**nin Qafqaz Osmanlı ordu komandanına yolladığı 10 yanvar və 9 fevral 1918-ci il tarixli teleqramlarında erməni çətə rəisi Sivaslı Murad və b.–nın əli ilə 1918-ci ilin yanvarında Ərzincanda mənasız yerə (tərksilah adıyla) müsəlmanların qırılması; Kelersen kəndində, Fol kəndində *(rus forması geyinmiş erməni banditləri tərəfindən),* Qızılağac kəndində, Şarlıbazar, Akkilsə, İnesil və b. kəndlərdə müsəlmanların öldürülməsi, var-dövlətlərinin talanması bildirilir. (Teleqramların əsli Genəlkurmay arxivində saxlanılır – **1:** s.32-36).

***

**Türküstan Ovçu Alayından yüzbaşı vəkili Kazimirin məruzəsindən:**
"Ermənilər müsəlmanları Sarıqamışda işlətmək bəhanəsilə topladılar və şəhərdən 2 kilometr ayrılınca qətl etdilər.

Hərgah ermənilər arasında rus zabitləri olmasaydı, zülmün daha da böyük olacağı təbii idi. Bir gecədə 800 müsəlmanın doğrandığını birbaşa ermənilərdən eşitdim. 15-16 yanvar (1918) gecəsində ermənilər Ərzincanda müsəlman əhaliyə qarşı kütləvi qırğın törətdilər.

Albay Morelin gördüyü tədbirlər nəticəsiz qaldı. Zülm və yağma davam etdi"...

Başqa qaynaqlar isə əslində albay Morelin də erməni yanlısı olduğunu bəlirləməkdədir **(1: s.32-40; 4.).**

***

Erməni əsilli olmasına baxmayaraq, istehkam zabiti Morozovun da fransızca yazdığı, əlyazmasıyla (M.Meguerditche imzasıyla) hazırladığı məruzədə deyilir: "...Qətliam ən çox Erməni kilsəsi civarında icra edilmişdir. Verilən nəsihətlərə baxmayaraq bu kütləvi qırğının önünə keçmək mümkün olmamışdır. Ərzincan ilə ətrafında 250-300-ə yaxın müsəlman qətl olunmuşdur" **(1: s.38; 5.).**

## Yarbay Tverdoxlebovun Xatirəsindən

*"Rus əsgərlərindən bu sözləri dəfələrlə eşitdim:* **"Erməni yaxşı millətdir! Türklər bunları becərdilər, ancaq yaxşı qıra bilmədilər; bir dənə qalmayıncaya qədər qırmalıydılar!..""**

***

Ilıca qəsəbəsində qalmış (qaçmamış) türklərin hamısının öldürülmüş olduğunu və koruş baltalarla ənsələrindən kəsilmiş bulunduqlarını və bir çox uşaq cənazələri gördüyünü birbaşa Odişelidze özü söyləmişdir.

Ilıca qətliamından üç həftə sonra martın 11-də oradan keçən Qaymaqam Qryaznov müşahidələrini aşağıdakı şəkildə nəql etmişdir:

"O, kəndlərə gedən yollarda əzası dağıdılmış (eybəcər hala salınmış) bir çox cənazəyə rast gəlmişdir. Hər keçən erməni bunlara bir kərə söyər və tüpürərmiş.

12×15 kvadrat sajen (25,5 × 31,9 kv. m) genişliyindəki məscid həyətində iki arşın hündürlüyündə cənazə yığılmışdı. Bunların arasında hər yaşda qadın-kişi, çoluq-çocuq və ixtiyarlar vardı. Qadın cənazələrində zorakı təcavüz əlamətləri bəlli idi. Bir çox qadın və qızların tənasül üzvlərinə tüfəng fişəngi (*güllə* –X.İ.) soxulmuşdu. Erməni hissələri nəzdində telefon xidməti yapan erməni qızlarından bir-ikisini Qaymaqam Qryaznov məscid avlusuna (*həyət* –X.İ.) dəvət etmiş; erməni mərifətlərini görüb sərzənişlə iftixar etmələrini təklif etmiş; o halı gördükləri zaman təsirlənəcəklərinin əksinə sevinclə gülməyə başlamaları nifrət və heyrətinə səbəb olmuşdur. Çox mütəəssir olan Qryaznov bunları tənə ilə töhmətləməyə başlamış; *ermənilərin hətta qadın belə olsalar, ən alçaq və vəhşi camaat olduqlarını və hərb etmiş, bir çox faciə görmüş bir zabitin belə tüklərini ürpədən bu vəhşilik lövhəsi qarşısında təlim, tərbiyə və məktəb görmüş gənc qızların sevinclə gülməsi buna dəlildir* –deyincə bir parçacıq sıxılmaq lüzumunu xatırlarına gətirən qızlar, sinirlərinin *gəvşəmə*sindən (*zəifləmək* –X.İ.) güldüklərini iləri sürmüşlərsə də, hunharca fikirlərini təvil (*izah* –X.İ.) edəməmişlər..."



*Alaca mənzil komandanlığı öhdəçisi bir erməni 12 martda Alacada törədilən vəhşiliyi belə anlatmışdır:*
**"Ermənilər bir qadını canlı olduğu halda divara mıxlamışlar, sonra ürəyini oyub başının üstündən asmışdılar!"**

...Osmanlıların Ilıcaya doğru gəldikləri hərbi hərəkatdan bəlli olduğu zaman, Ərzurum şəhərində ermənilər tərəfindən türk əhalinin dərhal həbsinə başlandı. Xüsusən də 10-11 martda tutuqlamalar gözə çarpacaq dərəcəyə çatdı. 11-12 mart gecəsi ermənilər, rus zabitlərini aldadaraq qətliam törətdilər və Türk əsgərinin qorxusundan özləri də fərar etdilər... o gecə qətl edilənlərin üç minə çatdığı ermənilər tərəfindən fəxrlə söylənmişdir...

***

Bəzilər susmağı üstün tutar, bəziləri də rusların sərzənişlərinə qarşı : *" Siz russunuz, heç bir zaman erməni millətinin məfkurəsini anlaya bilməzsiniz!"* deyərdilər.

***

Ermənilər rüzgar (yel) əkdilər, fəqət rüzgar əkənin fırtına biçəcəyini unutdular!

*Ərzurum, 29 aprel 1918.*

***Ərzurum-Dəvəboynu Mövqeləri Müvəqqəti komandan vəkili və II Ərzurum istehkam Topçu alayı komandanı: Qayməqam yarbay Tverdoxlebov*** **(1: s.45-53; 6.).**

***

Yüzbaşı İvan Qokilaviç Piliatın Ərzurumdan, türk əsirliyindən yazdığı 30 aprel 1918-ci il tarixli məktubunda da general Odişelidzenin planında türk hissələri ilə savaşmaq olmadığı qeyd edilərək ermənilərin qəddarlığından dad edilir: "Cənabi-Haqqa şükür ki, ermənilərə yox, türklərə əsir oldum". Əslən ukraynalı, Kiyevli olan yüzbaşı (kapitan) 7-ci Qafqaz Dağ Topçu Taburunun komandanı kimi Rusiya ordusunda Osmanlıya qarşı vuruşmağa məcbur olsa da, ermənilərin əlində ölmədiyinə şükür edir. (*Məktub Tverdoxlebovun xatirəsinə əlavə olaraq yayınlanmışdır* – **1: s.55-56).**

## Yarbay Tverdoxlebovun Tarixçəsi

"Rəsmi keçid törənində (*10 mart 1918, rumi tarixlə* –X.İ.) general Odişelidzeyə erməni albayı Torkom (*əslən Bolqarıstan ermənisi olan, Ərzurum mərkəz komandanı* –X.İ.) erməni dilində yazılmış bir çıxış mətni oxudu. Təbii, ermənicə bilmədiyimiz üçün heç birimiz bir şey anlamadıq. Sonra söylədiklərinə görə, (burada) Ermənistanın qurulduğunu və birbaşa özünün də hökuməti idarə etməyə başladığını elan edibmiş. Başkomandan (Odişelidze) bunu öyrəndiyi vaxt Torkomu Ərzurumdan qovdu.

Hökumətin heç cür erməni istiqlalına meydan verməк istəmədiyini bundan anladıq..."

Sonra Tverdoxlebov ermənilərin Ərzincanda və Ərzurum yaxınlığındakı Ilıca kəndində biçarə türkləri qətl etdiyinə toxunur...

"İngilis zabitləri bu toplantıya (*Ərzuruma* –X.İ.) çağırmaqda birinci məqsədimiz, rus zabitləri ilə erməni komandanı arasındakı münasibəti görmələri və rus zabitlərinin erməni vəhşiliklərinə nə dərəcəyə qədər əngəl olmağa qadir bulunduqlarını anlayıb, bir neçə gün sonra geri dönüşlərində, gördüklərini və mülahizələrini bu olayla doğrulaya

bilmələri idi. Çünki, doğrudan da, əmrim altında olan teleqraf və telefon xətlərinə malik olmadığımdan, yazdığım teleqrafların ünvanlarına verilmədiyinə əmin olduğumu və görüb xəbər alaraq öyrəndiyim hər cür erməni vəhşiliklərini bütün dəhşətiylə ortaya qoydum... "... *erməni vəhşilik və rəzilliklərinə son verilməsini, belə olmazsa, bütün rus zabitlərinin yerlərini buraxaraq geri getmələrinə icazə verilməsini israrla istədiyimizi*" bildirdim. Məndən sonra söz alan zabitlər də, mənim mülahizəmi doğruladılar".

***

"...Rus zabitləri indiyə qədər bir çox suçlu (*səbəbsizcə yerli türklərin qanını tökən* –X.İ.) ermənini ortaya qoyduğu halda, bunların heç birisinin cəzalandırılmadığı söylənincə susurdular..."

***

**Vəhip paşanın komandanlığı altında Türk ordusunun Ərzuruma yaxınlaşdığı və Brest-Litovsk (3 mart 1918) anlaşması əsasında Rusiya ordusunun Anadoludan çəkilib (1877-ci il sərhədlərinə qədər) getməli olduğunu eşidən erməni "igidləri" rus topçu arabalarından atları açıb iki-iki minərək (yəni rus zabitlərini qaçaqaçda piyada buraxaraq) "gecədən faydalanıb Ərzurum-Qars şose yolu ilə fırtına kimi (** *ölülü-dirili* **–X.İ.) qaçmağa başlamışlar" ( 7 )...**

[(**Qeyd:** o vaxt ruslardakı tarix rumi təqvimi ilə olduğundan 13 gün artımı ilə sürüşdürməklə miladiyə çevrilir. –Qeydlər doç.dr. Azmi Süslünündür **(1: s. 58-83)]**.

**Ədəbiyyat:**


1. Azmi Süslü. Ruslara göre Ermenilerin Türklere yaptıkları mezalim, Ankara, 1987.
2. Ermeni komitelerinin amal və hareketı ihtilaliyesi ilan-ı Meşrutiyetden evvel ve sonra. İstanbul, 1332 (1916), Matbaa-i Orhaniye ve Amire.
3. Esat Uras. Tarihte Ermeniler ve Ermeni meselesi. İstanbul, 1976, 2. Baskı, Belge yayınları.
4. Məruzənin əsli: Genelkurmay III Ordu Mezalim Dosyası, numara 21-22. [Sənəd madame Pacine və ər (*sıravi əsgər* –X.İ.) Alexandre tərəfindən təyid (*təsdiq* –X.İ.) edilmişdir.]
5. Sənədin əsli: Genelkurmay III Ordu Mezalim Dosyası, numara 23.
6. Sənədin əsli (əsər): 1919-cu ildə "Xatirə..." adı ilə Osmanlıca, elə həmin ildə fransızca, 1979-cu ildə ingiliscə dərc edilmişdir. Əsər sonra rusca da (Bakıda) nəşr olunmuşdur.
7. Tverdoxlebovun 12 mart 1918-ci il tarixinədək durum haqda 18 may 1918-ci ildə qələmə aldığı "Tarixçə"dən; sənədin əsli: T.C. Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Başkanlığı Arşivi (Birinci Dünya Savaşı Dolabı, İskis. 401, Dosya. 1578, F. 1-24, 1-67; Əsərin əsli Kazım Qarabəkir Paşanın "Cahan Harbını nasıl idare etdik? Erzincan-Erzurumun kurtuluşu" (İstanbul, 1939) kitabında yer almış (türkcə), 1982 -ci ildə fransızca nəşr edilmişdir...




YARBAY TVERDOXLEBOVUN TARİXÇƏSİNİN (RUSCA) ƏSLİ

*(sənədin üz qabığı, 1-ci və sonuncu səhifələri)*



Въ половинѣ декабря 1917 года Кавказская русская армія ушла самовольно съ фронта будто раздробленными и согласіе Командующаго арміей и Главнокомандующаго.

Вмѣстѣ съ арміей ушелъ и Эрзерумскій крѣпостной артиллерійскій полкъ. Изъ Эрзерумской артиллеріи было имѣвъ одинъ офицеръ управленія артиллеріи укрѣпленной позиціи Эрзерума и Деве-Бойну и около 40 офицеровъ отъ ушедшаго артиллерійскаго полка.

Эти офицеры остались по долгу службы при своихъ пушкахъ, брошенныхъ русскими солдатами. Остальные офицеры ушли.

Пушекъ осталось на укрѣпленной позиціи свыше четырехсотъ штукъ. Силъ для вывоза пушекъ не было, пушки были такимъ образомъ привязаны къ позиціи, и офицеры по долгу совѣсти и службы были привязаны къ пушкамъ и остались ожидать когда имъ Командующій арміей прикажетъ уйти или дастъ новыхъ солдатъ.

Одновременно съ уходомъ перваго полка вмѣсто него былъ сформированъ изъ оставшихся офицеровъ 2-й Эрзерумскій крѣпостной артиллерійскій полкъ.

Съ уходомъ съ фронта арміи - въ Эрзерумѣ составился революціоннымъ путемъ армянскій союзъ, назвавшій себя „союзомъ армяно-[illegible]". Этимъ союзомъ дано тогда Командующему арміей для новаго артиллерійскаго полка около 400 совершенно необученныхъ армянъ. Часть этихъ людей сейчасъ-же разбѣжалась, а оставшихся хватило только для занятія карауловъ и для охраны [illegible] пор[illegible].

Нѣсколько ранѣе ухода съ фронта арміи, а именно [illegible] на сѣверномъ Кавказѣ началась гражданская [illegible] и съ ней Закавказье оказалось отрѣзаннымъ отъ Россіи [illegible] что образовалось временное правительство, [illegible] съ Тифл. Закавказскимъ Комиссаріатомъ.



| | |
|---|---|
| A | |
| U | [illegible] |
| F | 1-68 |

По дорогѣ туда и обратно, а также и въ послѣдующіе дни, многіе жители по [illegible] самъ со мною [illegible] у меня руки и всячески выражали свою благодарность.

Также относились и къ другимъ русскимъ офицерамъ, справедливо разсуждая, что если бы въ Эрзерумѣ не было бы русскихъ офицеровъ, то турецкія войска едва-ли застали-бы въ немъ столько живыхъ жителей, сколько они застали когда пришли.

Теперь удивляю, что успѣли надѣлать въ Эрзерумѣ армяне передъ своимъ бѣгствомъ и сколько тысячъ безоружныхъ стариковъ, женщинъ и дѣтей они порубили, и благодарю Бога за то, что обстоятельства сложились не дали мнѣ уйти съ ними, при томъ еще [illegible] армяне [illegible] на [illegible] и [illegible] [illegible] [illegible] [illegible] труды [illegible].

Вр. и. д. Начальника артиллеріи
укрѣпленной позиціи Эрзерумъ и
Деве-Бойну и Командиръ 2-го
Эрзерумскаго крѣпостного артилле-
рійскаго полка, военнопленный
Подполковникъ Твердохлѣбовъ.

13 апрѣля 1918 г.
29
[illegible]

Мой [illegible] о враждебномъ отношеніи [illegible]
Ахалкалак. уѣзда къ мѣстнымъ мирнымъ мусульманамъ
съ Декабря 1917 г. по 8/21 марта 1918 года
Какъ [illegible] группы, которые [illegible]
звѣрствами и жестокостями и какъ я лично самъ видѣлъ, я
составилъ настоящій [illegible] разсказъ.
Въ концѣ Декабря прошлаго года въ сел. Богдановка армя-
нами всѣхъ мусульманъ, [illegible]
[illegible]
[illegible]
[illegible] / Вновь [illegible] армяни [illegible] сел.
[illegible] въ [illegible] всѣхъ мусульманъ
и [illegible] кинжалами, [illegible]
[illegible] и вообще
[illegible] трупами, а [illegible]
и трупы [illegible] образно. [illegible]
трупы [illegible] кинжалами были [illegible]
Въ Январѣ 1918 г. Армяне стали нападать на села му-
сульманъ, предварительно обманывая жителей [illegible]
[illegible], что если вы сдадите все оружіе то [illegible]
не будемъ трогать. Повѣривъ словамъ армянъ, мусуль-
мане сдавали оружіе думая, что никогда армяне не
[illegible], но [illegible] въ своихъ убѣжденіяхъ. Армяне
послѣ отобранія отъ мусульманъ оружія, разорили
села Хоспія(?), [illegible], Вачеванъ(?), Токъ, Сканъ(?), Кулаланъ(?)
Патканъ(?), Сагамо(?), [illegible] и [illegible], [illegible]
этихъ селъ армяне выгоняли людей(?), имущество



и угнали скотъ, а остальной часть перебили на мѣстѣ,
а часть мужчинъ и всѣхъ женщинъ взяли въ плѣнъ
въ гор. Ахалкалаки, гдѣ ихъ держали на [illegible]
съ водой въ сутки, отъ чего многіе плѣнные погибли
[illegible]. Кромѣ отъ голода и холода, такъ и отъ [illegible]
между плѣнными [illegible] уговора докторовъ
держать плѣнныхъ въ чистотѣ и кормить болѣе лучше,
но армяне не обращали на это вниманіе и мусуль-
мане умирали безъ числа. Никто не смѣлъ дать по-
мощи мусульманамъ т. к. армяне не допускали и
безъ того никого къ помѣщеніямъ плѣнныхъ. Но вотъ 8/21 марта
1918 г. когда турец. войска вошли въ сел. [illegible] и началось
поголовное бѣгство армянъ, что въ 5 ч. вечера того же
дня армяне стали убивать плѣнныхъ мусульманъ
т. е. часть порѣзали кинжалами, а часть убили
изъ ружей, послѣ чего обрушили крышу [illegible]
гдѣ помѣщались плѣнные, такъ что трупы были погребены
подъ развалинами домовъ, а многихъ убитыхъ [illegible]
[illegible] бросили въ [illegible] и сожгли съ [illegible]. Вотъ
что творилось въ 20 вѣкѣ въ странѣ культурными
людей армянскаго народа.
[illegible]

Türk tarixinin böyük simalarından biri də heç şübhəsiz Ənvər Paşadır. Təpədən-dırnağacan qəhrəman ruhu ilə yoğrulmuş o bənzərsiz savaşçının ömrünün son günləri və şəhadəti hər kəsi, hətta onun düşmənlərini də yaxından ilgiləndirən bir məsələdir...

Tarixi qaynaqlardan bəlli olduğu kimi, 1918-ci il noyabrın 8-dən 9-na keçən gecə Ənvər Paşa, Tələt Paşa, Vahəddin Şakir və bir neçə başqa şəxs gizli olaraq Türkiyəni tərk etməyə məcbur olmuşdular. Ənvər Paşa bir müddət xaricdə fəaliyyət göstərərək, barış yarandıqdan sonra vətənə dönmək niyyətindəydi. Beləliklə, Ənvər Paşa və yol yoldaşları bir alman gəmisilə Krıma gəldilər. Tələt Paşa və başqaları Moskva üzərindən Berlinə yol alsalar da, Ənvər Paşa Qafqaza yollanacağını bildirdi. Quru yolları Denikin qüvvələri kəsdiyi üçün o, kiçik yelkənli gəmi ilə Güney Qafqaza çıxmaq istədikdə tufana düşüb geri qayıtmalı oldu. Sonra Moskvaya, oradan Almaniyaya gedən, yenidən geri qayıdıb Moskvada siyasi fəaliyyətə qoşulan Ənvər Paşa "İslam ihtilal cəmiyyətləri ittihadı" yaradaraq, 1920-ci ilin 1-7 sentyabrında Bakıda keçirilən Şərq xalqlarının qurultayına qatıldı. O, burada Tunis, Əlcəzair və Trablusqərb inqilabçılarının təmsilçisi kimi çıxış etmək istəsə də, türk kommunistləri və başqa bolşeviklər ona imkan vermədilər. İclasın işində iştirak edən Zinovyevin təklifilə Ənvər Paşanın çıxış mətninin Ostrovski soyaqdlı bir bolşevik tərəfindən səsləndirilməsi razılaşdırıldı. Bir çox bolşevikin bu varianta da etiraz etməsinə baxmayaraq, qurultayın qərarı ilə həmin çıxış səsləndirildi və basında yayınlandı (**8:** s.117-118)...

Ənvər Paşa Bakıda ikən Nuru Paşa haqqında da bəzi bilgilər, o sıradan, Nuru Paşanın sovetlərə qarşı üsyanlarda iştirakını öyrəndi.

Qurultaydakı iştirakının ardından Moskvaya qayıdan Ənvər Paşa yenidən Bakıya dönüb sonra Orta Asiyaya doğru gizli hərəkət məqsədilə Neftçala ərazisinə getdi. Burada bir neçə gün gəmi gözləməli olduğundan sıxıntı və rahatsızlıq keçirən Ənvər Paşa sonda Türküstana uğrayaraq, orada mücadiləsini sürdürməyə çaba göstərməkdəydi (**8** : s.118)...

Yavər Mühiddin bəy Ənvər Paşa ilə bağlı xatirələrində o böyük insanın şəhadəti haqda belə deyir:

"Erməni sui-qəsdi buraya yetişmişdi. Eyni gündə öyrənmişdik ki, Bakı yoluyla gəlişimizi izləyən gün, Buxaraya üç erməni yolçu gəlmiş və bu üç erməni Ənvər Paşanın Buxaraya keçdiyini öyrənərək onu məhv etmək təlimatını icra etməklə vəzifələndirilmişlər.

O zaman Buxarada ümumi əmniyyət müdiri Kazım, müavini də Xəlil Bəydi. Bu üç erməninin alçaq məqsədi təhqiqat ilə aydınlaşırdı. Özləri yaxalandılar və haqlarında lazım gələn muamiləni (*rəftar, əməliyyat, akt, proses, iş...* –X.İ.) yerinə yetirdilər".

*Qeyd:* "Ənvər Paşa gizli hərəkət etdiyinə görə bu ermənilərin ruslar tərəfindən göndərildiyi anlaşılır. Məqsədləri onu ermənilərə öldürtməkdi. Zatən Cemal Paşanı (Camal Paşa-X.İ.) rusların öldürtdüyünə dair iddialar və hətta kanıtlar (*sübutlar* –X.İ.) vardır" (**1:** s.368).

B.Hayitin yazdığına görə, ruslar Bakıda bir oteldə Ənvər Paşanı Reissich isimli bir casusa öldürtmək istəmişlər, fəqət bacara bilməmişlər (**2:** s.192). Bolşeviklər Ənvər Paşanın Şərqi Buxaradakı hərəkətlərini (izləməyi) erməni Ağabekova həvalə etmişlər (**3:** s.283). Ağabekov 4 yəhudi, 3 fars, 5 erməni, 1 özbək, 1 tacik, 3 hindistanlı və 2 rus tacirindən ibarət bir istiqbarat şəbəkəsi qurmuşdur. Bunlardan yalnız 2 rus, 1 erməni və 1 yəhudi əsas məqsəd olan Ənvər Paşanın yerini təsbitdən xəbərdardır. Şəbəkə nəhayət, Ənvər Paşanın Abidərya kəndində olduğunu öyrəndi və şəhid olma hadisəsi bu istiqbarat nəticəsində baş verdi (**2:** s.220). Ancaq Ənvər Paşanı şəhid edən Ağabekov deyildi, hər hansı bir bolşevik əsgəriydi (**4:** s.456). Ağabekovun əsl adı (*soyadı* –X.İ.) Arotonovdur (**5:** s.3,9). Ağabekovun memuarlarında Ənvər Paşanı guya özünün şəhid etdiyi yolundakı iddiaların gerçək olmadığı artıq isbatlanmışdır (**6:** s.98).



Mühiddin bəy xatirələrində Rusiya bolşeviklərinin Camal Paşa ilə Ənvər Paşanın bir araya gəlməsinə maneçilik törətdiklərini də qeyd edir. Camal Paşa Ənvər Paşaya teleqraf çəkərək onunla Buxaranın Çarcu qəsəbəsində buluşacaqlarını, Ənvər Paşanın oraya tanınmış siyasətçi, firqədaşı Doktor Nazim bəyi göndərdiyini, hər ikisinin 3 ekim (oktyabr) 1921-ci ildə Daşkənddə buluşaraq Moskvaya getdiyini bildirir (**6:** s.77). Ancaq Ənvər Paşanın və Camal Paşanın planına görə, Camal paşa Kabildən Moskvaya doğru qatarla hərəkət edən zaman Buxarada düşərək onu Çarcuda qarşılayan Nazim bəylə görüşüb Ənvər Paşanın yanına gəlməli idi. Ənvər Paşanın Türküstanda və bitişik bölgələrdə (Əfqanıstan və s.) güclənəcəyindən ehtiyat edən Moskva onu təkləmək və ona qarşı təxribat (sui-qəsd) törətmək planına əl atdı. Bu səbəbdən də "Camal Paşanın Buxarada qatardan düşməsinə (ruslar) icazə verməmiş, Daşkənddə də gözlətmədən məcburən Moskvaya göndərmişlər (**4:** s.386 ; **7:** s. 434; **1:** s.362; **6:** s.77,100).

Bu hadisələrdən bir neçə ay keçmiş Camal paşanın rus bolşeviklərinin hakimiyyəti altında olan Tiflisdə həlak edilməsinin də motivləri tam anlaşılır.

Xatırladaq ki, Türküstanda bolşevizmə qarşı savaşan Ənvər Paşa 1922-ci il avqustun 4-də indiki Tacikistan ərazisində Abi-Dərya çayı kənarında qeyri-bərabər döyüşlərin birində həlak olmuş, ertəsi gün Çeqen kəndinin kənarındakı bir təpənin üzərində dəfn edilmişdi.

XX əsrin 90-cı illərində o böyük şəxsiyyətin nəşi İstanbula gətirilərək, yenidən torpağa tapşırıldı (**8** : s.118)...

**Ədəbiyyat:**


1. Halil Paşa, İttihat ve Terakkiden Cumhuriyete Bitmeyen Savaş, 2.b., Kamer y. İstanbul, 1997.
2. Baymirza Hayit, Basmacılar-Türkistan Milli Mecadele Tarihi, TDV y. Ankara, 1997.
3. Baymirza Hayit, Türkistan Rusiya ile Çin Arasında, ter. Abdülkadir Sadak, İstanbul, 1975.
4. Zeki Velidi Togan, Hatıralar, İstanbul, 1969.
5. "Enver Paşanın şehadeti", Yeni Türkistan, 5. yıl, şubat 1931, 32. sayı.
6. Bekirağa Bölüğünden Türkistana Yaver Muhiddin Beyin hatıraları, Hazırlayan: Dr. Yusuf Gedikli, İstanbul, 2003.
7. Bugünki Türkili Türkistan və Yakın Tarihi, 2. b., Enderun k., İstanbul, 1981.
8. Mehman Süleymanov. Nuru Paşa., Bakı, 1999.

## OSMANLI İMPERİYASININ DAĞILMASINDA SİONİZMİN ROLU

Akademik Ədalət Əliyev Osmanlı İmperiyasının dağıdılmasının bir çox pərdəarxası məqamlarına aydınlıq gətirmək üçün əcnəbi və türk müəlliflərinin əsərlərinə və tarixi sənədlərə müraciət edərək aydın mənzərə ortaya qoya bilmişdir.

Bünövrəsinin ilk kərpicini Fələstində qoymağı düşünən yəhudi millətçi öncülərinin yaratmaq istədiyi Böyük Yəhudi dövləti yolunda ilk baş tutmayan cəhdlərdən sonra onlar Qarasu adlı bir yəhudini Sultan II Əbdülhəmidin yanına göndərdilər. Yəhudilər tərəfindən Sultana 5 milyon qızıl lirə hədiyyə, dövlət xəzinəsinə də yüz illiyə 100 milyon qızıl lirə faizsiz kredit təklif olunur, əvəzində Fələstin torpaqlarında yəhudi dövləti qurmağa razılıq istənirdi.

Sultan II Əbdülhəmid bu təklifi eşidincə qəzəblənərək Qarasunu qovmuş, o, isə İtaliyadan belə bir hədələyici tel göndərmişdi: "Bizim təklifimizi rədd etdiniz. Bu Sizə və Sizin dövlətinizə çox baha başa gələcək..."

Ancaq yəhudilər ümidlərini itirməyərək 1897-ci ildə Teodor Xerts adlı liderlərindən birini də ravvin Mussa Levinin müşaiyətilə Sultanın hüzuruna yollamışlar. Osmanlı ərazisindəki azsaylı yəhudi camaatına münasibətində diqqət və himayəsinə görə Sultana təşəkkür edən Teodor Xerts Fələstindəki dövlət torpaqlarının yəhudilərə verilməsi müqabilində aşağıdakı təkliflər paketini təqdim edirdi:

1. Osmanlı dövləti üçün böyük donanma qurulması.
2. Osmanlının bütün xarici aləmdə dəstəklənməsi.
3. Osmanlı dövlətinin maliyyə məsələlərinin həllində hər cür köməklik göstərilməsi.
4. Avropaya yüksək təhsil almağa getmə ehtiyacını önləmək üçün Qüdsdə Osmanlı universitetinin yaradılması.

Qarşısındakını sonadək səbrlə dinləyən Sultan II Əbdülhəmid əvvəlki dövrlərdən indiyədək "yəhudi qardaşlarımızla tamamilə sülh, sakitlik və təminatla" yaşadıq, "bəlkə nəzərimizdən qaçan hansısa probleminiz var" dedikdə qarşı tərəf susdu və sonra tam razılıq ifadə etdikdən sonra Sultanın diqqətinə çatdırmaq istədi ki, həmin yəhudi dövləti Osmanlının tərkibində nəzərdə tutulur və oraya valini də Sultan özü təyin edəcəkdir. Ancaq II Əbdülhəmid müsəlmanların bu torpaqlar üçün qan tökdüyünü və Fələstinin islam aləminə mənsub olduğunu, eyni zamanda bu dövlət torpaqlarının əvvəlki sultanlardan miras qaldığını əsas gətirərək Fələstini yəhudilərə və ya heç kəsə satmaq haqqına sahib olmadığını bildirdi **(1: s.255-258)...**

Yəhudi başbilənləri Sultanın qeyrəti, ədaləti və iradəsi qarşısında aciz qalmayaraq İngiltərədəki və Fransadakı əski təcrübələrinə *[uzunmüddətli plan əsasında, yaxın ətrafını ələ alaraq, 1647-ci ildə İngiltərə Kralı I Şarlı devirib, 1649-cu ildə başqa ölkədən İtsxak Dürevlavis adlı yəhudi prokuror çağıraraq onun hökmü ilə I Şarlın başını Londonda, bir yəhudinin bankı önündə vurdurmuş, bu çevrilişdə yəhudilərlə iş birliyində olmuş tanınmış İngilis komandanı general Kromuelli və onun ardıcıllarını qəbirdən çıxarıb asmışdılar* **(1: s.239-242***)***; *1789-cu ildə isə Fransada xalq üsyanı adı ilə qarmaqarışıqlıq və itaətsizlik yaradıb, Fransa Kralı XVI Luisi devirmək, sonra da öldürmək üçün Mirrebau və Dik Durliyanın rəhbərliyi ilə terror aktları təşkil etmiş, terrorun fəalları Dik Durliyanın vasitəçiliyiylə Fransa mason təşkilatına nüfuz edərək, onu öz istədikləri kimi yenidən formalaşdıraraq yeni güc mərkəzinə çevirmiş, sonra devrilmiş kralın tacı vəd edilmiş Dik Durliyanı da aldadaraq öldürmüşdülər və s...* **(1: s. 243,253-255)]** *əl ataraq Sultanı devirmək, Sultanlığı parçalamaq, Xilafəti çökdürmək, sonra da öz planlarına nail olmaq xətti götürdülər. Bunun üçün müxalif "İttihad və Tərəqqi" partiyasına dəstək verməyi qərara aldılar. Tələt paşanı Osmanlı dövlətindəki lobbinin əsasını qoymaq üçün mason təşkilatına cəlb etdilər* **(1: s.256).**



İmperatorluğun mərkəzi Selanik Osmanlıdakı masonluğun da mərkəzinə çevrildi. "Dünyanın qızılı yəhudilərin əlində olmalıdır" deyən sionistlər Sultan II Əbdülhəmidin almadığı rüşvəti, yardımı və dəstəyi əks cəbhədəki öz lobbilərinə, o sıradan bəzi "İttihad və Tərəqqi"çilərə, Maliyyə Nazirliyinə nüfuz edə bilən Hüseyn Cahid Yalçın kimilərinə və bənzər satqın şəxs və terrorçu qurumlara yönəltdilər **(1: s.256,261).**

Sonluqda Sultan II Əbdülhəmid devrildi və xalq deputatlarından biri – Qarasu II Əbdülhəmidin edam edilməsi məsələsini müzakirəyə çıxardı!..

Akademik Ədalət Əliyevin faktlar əsasında gəldiyi bir nəticə də önəmlidir:

"Müsəlmanlara qarşı (*Osmanlıda* –X.İ.) törədilən təxribatların böyük hissəsi Selanik yəhudilərinin payına düşür, hansı ki, onlar nə vaxtsa (*uzun illər* –X.İ.) özlərini müsəlman kimi təqdim etmiş, sonralar yenidən yəhudi olduqlarını bildirmişlər".

"İttihad və Tərəqqi" öncülərinin masonların təsiri ilə hərəkət etdiklərini sonralar anlayan Ənvər Paşa, Calal paşa (məncə, müəllif xətaya yol verir, əslində: *Camal paşa* – X.İ.) ilə sonralar söhbətində belə demişdir: "... biz Sultan Əbdülhəmidi yaxşı tanımamışıq. Ona görə də biz sionistlərin əlində piyada fiqura çevrilmişdik və masonlar bizi qullandılar. Sionizm üçün biz qulluq göstərdik. İşdə bizim günahımız da bundadır".

Eyni faktları yəhudi yazıçısı Bernard Luis də "Çağdaş Türkiyənin doğuluşu" kitabında şərh edir **(1: s. 262).**

Osmanlı İmperatorluğunun parçalanması məqsədilə öncə onun tərkibindəki Liviyanın işğalı üçün sionistlər tarixdə analoqu olmayan bir plan da qurmuşdular: Osmanlı Müdafiə Nazirliyində söz sahibi olan şəxs rüşvətlə ələ alınaraq, mərkəzdən uzaq Liviyadakı Osmanlı hərbi hissələrinə aid silahlar təmir adı ilə bölgədən çıxarılır, əsgəri heyət də müvəqqəti olaraq Yəmənə köçürülür; Liviya nümayəndəsinin əsil gerçəkliyi Sultana çatdırması Sultanın ətrafında yaradılmış informasiya blokadası və b. manеələr səbəbindən hec cür mümkün olmur; Roma bələdiyyəsi masonluğunun 33-cü pilləsində olan yəhudi sionosti Mitr Saleh İtaliya rəhbərliyi ilə əvvəldən danışıqlara girərək bu dövlətə pul yardımının müqabilində artıq bir nəfər də Türk əsgəri qalmayan Liviyaya İtaliyanın 1912-ci ildə ordu yeritməsinə nail olur və işğal maneəsiz baş tutur!

Bu plan və əməliyyatdan əsas məqsəd Osmanlı Sultanlığının torpaqlarını mərhələlərlə ayırmaq və son nəticədə Sultanın hakimiyyətini devirib sonralar Fələstin torpaqlarında yəhudi dövləti yaratmaq və b. planları həyata keçirmək idi **(1: s.262-263).**

Sonrakı dövrlərdə Sultan II Əbdülhəmidin özünün də bu məsələlərə münasibəti, Sultanın Misirin din başçısı Şeyx Mahmud Əbuş Şamata göndərdiyi və Xilafətin dağılması ilə bağlı əsas tarixi səbəbləri şərh etdiyi 22/9/1329-cu il (müsəlman təqvimilə) tarixli məktubunda ifadə olunmuşdur **(1: s. 263-265).**

Qəribə və təzadlıdır, deyilmi?! – 306-cı ildə İspaniyadakı Elvir kilsəsinin qərarından dolayı yəhudilərlə xristianlar arasında münasibət pisləşdikdən sonra, 1492-ci ildə İspaniyadan, 1496-cı ildə isə Portuqaliyadan və başqa Avropa dövlətlərindən yəhudilərin qovulması barədə müvafiq dövlətlərin sərəncamlar verdiyi vaxtda yəhudilərin üzləşdikləri soyqırımı təhlükəsindən qurtararaq onlara qucaq açan, sığınacaq verən də məhz Osmanlı dövləti olmuşdu!

Sultan Məhmət Fateh başkənd Bursada yəhudilərə sinaqoq *(yəhudi məbədi)* tikməyə icazə vermiş, İstanbulun fəthindən sonra isə ora köçməyə dəvət etmiş, orduda xidmətə çağırmış, başqa sözlə, onlarla tamhüquqlu Osmanlı təbəəsi kimi rəftar etmişdi...

Bir çox müəlliflər kimi, akademik Ədalət Əliyev də yəhudilərin Osmanlıya köçmələrindən, onlara göstərilən qayğıdan Osmanlı xristianları, xüsusən də ermənilərin qaygılanaraq qıcıqlandığını yazır. Bundan başqa, müəllif qeyd edir ki, tədbirlər zamanı isə ermənilər yəhudiləri "xristian qanı"ndan istifadədə ittiham edirdilər...

Sionistlərin Osmanlı İmperatorluğunun çökdürülməsində açıq-aşkar roluna və yəhudi millətçilərinin türklərə xəyanətinə baxmayaraq, II Dünya Savaşı dövründə də türk xalqı və Türkiyə dövləti öz ərazilərində yəhudilərin həyatını qorudu **(1: s. 265-266).**

Türkiyədə hal-hazırda, Azərbaycanda olduğu kimi, yəhudi xalqı azadlıq, əmin-amanlıq və firavanlıq içərisində yaşayır.

**[Haşiyə:** *XX əsrin 18-20-ci illərində yəhudilər də azərbaycanlılar və başqa xalqlarla birgə kütləvi şəkildə Qubada, Bakıda, Cənubi Azərbaycanda və s. yerlərdə qırğınlara məruz qoyan ermənilərə cavab olaraq, azərbaycanlıların soyqırımının, o sıradan Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması üçün dünya yəhudi qurumlarının təşəbbüslə çıxış etməsi isə təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.***]**

**Qeyd:** Akademik Ədalət Əliyevin sənədlər və sənədli qaynaqlar əsasında apardığı araşdırmalara görə, kommunizm nəzəriyyəsinin və hərəkatının ideya və mənşəyi sionizmlə eynidir. Karl Marks və Fridrix Engels isə mason təşkilatının və İngilis lobbisinin 31-ci pilləsinə aid imişlər **(1: s. 233).**

Müəllif göstərir ki, marksizmlə yanaşı Mussa Xessin "Roma və Qüds" kitabı da yayılmalıymış. Akademik Ədalət Əliyev Lenin və Trotskinin Nyu-Yorkdakı sionistlərə məxsus "Warboq", "Leeb and Kohen" banklarının, milyarder Yakub Şeyfin... ayırdığı külli miqdarda vəsaitlərlə bolşevik hərəkatı yaradıb çar Rusiyasını dağıtmaq planı güddüklərini, II Nikolayı devirib öldürdüklərini... və istədikləri hakimiyyəti yaratdıqlarını, bolşevik Rusiyasında Uzaq Şərqdə bir yəhudi muxtariyyətinə nail olduqlarını və s.-ni də qeyd edir.

Eyni məqsədlə Sovet İmperiyasının sionistlər və ermənilər tərəfindən dağıdıldığına, sonrakı hakimiyyətin həmin prinsiplərlə ötürülməsini təmin etdiyinə dair dəlillərlə çıxış edən müəllif Rusiyanın 2015-ci ildə 7 dövlətə bölünməsi planlaşdırıldığını da bildirir... və sionistlərin növbəti hədəfi kimi ABŞ-ı göstərir **(1: s. 267-268,271-275)!**

**Ədəbiyyat:**


1.Адалят Алиев. Человек и власть, раскол планеты, Баку. 2005.




## ERMƏNİ TARİXİ VƏ ERMƏNİ – GÜRCÜ ZİDDİYYƏTLƏRİ

**Önyazı:**

*Erməni ideoloqları iddia edirlər ki, erməni xalqı nadir bir xalqdır:*

**"Bizim xalqımız müstəqil vahidlərin cəmidir. Digər xalqlar isə müstəqil cəmin sıfıra bərabər mənasız bir zərrəsidir."** *(Aharonyan A. "Bogin" məcmuəsi, 1966, № 8-9, s. 90).*

***

Ermənilərin tarixini onların iç-içə və ya qonşuluqda yaşadıqları xalqlarla zidliklər və məkrlər tarixi də adlandırmaq olar...

Ermənilər "erməni məsələsi"ni "dəmə qoymaq" – onun tarixi-ideoloji "əsaslarını" hazırlamaq üçün: 1) sərfəli tarixi-ideoloji kitablar yazmaq və ermənipərəst müəlliflərə bu xüsusda sifarişçi olmaq (həm də məmnunedici ödənişlə); 2) hədəf-obyekt millətlərin tarixi daş yaddaşlarında cərrahiyyə əməliyyatı təşkil edib, bu daşları sərfəli kitablarla uzlaşdırmaq; 3) ermənilər haqqında tarixi həqiqətləri "erməni həqiqətləri"nə görə redaktə etmək; hədəf-obyekt millətlərin (türklər, gürcülər və s.) tarixi şəxsiyyətlərinin və milli nailiyyətlərinin bəzisini mənimsəmək, bəzisinə hücuma keçmək... və s. vasitələrə əl atırlar.

"Albaniya tarixi"nin müəllifi azərbaycanlı Musa Qalakəndlidən yeni peyda etdikləri müəllif-Moisey Kalankatuatsi düzəldən ermənilər salnamənin orijinalını yoxa çəkərək, "Aluank (?) ölkəsinin tarixi" adlandırdıqları "qədim", "tarixi" bir əsər də ortaya qoymuşlar **(1: s.7).**

Bir neçə il öncə, qədim Azərbaycan günəşi, xalqımızın yetirməsi (Urmiya türkü), irsinə ulu və bütün tərəqqipərvər dünyanın saygı duyduğu Zərdüşt peyğəmbəri də mənimsəməyə çalışan ermənilər Almaniyada müvafiq bir kitab yayınlamışdılar (bu haqda Azərbaycan qəzetləri İnternetdəki xəbərlərə dayanaraq yazılar vermişdi)...

Puşkin, Nekrasov, Jemçujnikovun şeirlərində ermənilər haqda tənqidi, təhqiramiz fikirlərin təhrifinə və ya gizlədilməsinə nail olan **erməni "ziyalı" fədailəri Şota Rustavelini də erməni çıxara bilmədiklərindən müsəlman çıxararaq** *(erməni professor Patkanyanın ardıcılı olan Marrın dili ilə),* ürəkləri soyumayanda gürcülərin fəxri, çar Tamaranı gələcəyə ümidsiz baxan bir pozğun kimi təsvir edərək, onunla yatıb-duran erməni erkəklərinin yataq hüququndan istifadə edib həm də ölkəni (Gürcüstanı) idarə etdiklərini və düşməndən qoruduqlarını yazırlar. Çar Tamara ilə bağlı erməni məcara və "qəhrəmanlıqlarını" oxucu düşüncəsinə yeridən əsər – 1968-ci ildə İrəvanda erməncə və sonra rusca çıxan Vermişevin "Amirspasalar" romanı – həm də gürcülərin tarix boyu öz müstəqilliklərini qoruya bilmədiklərini, buna nail olduqları dövrlərdə isə ona ermənilərin hesabına nail olduqlarını iddia edir.

Bu həyasızlıqlara "Qrakan Tert" erməni qəzetində "Xalqlar dostluğu haqda qiymətli roman" adı verərək yazı ilə çıxış edən Mikael Şatiryanın riyakarlığına, sadəcə olaraq, *erməni mövqeyi* də demək olar...

Bütöv xalqın tarixini oğurlayıb, ermənilər tərəfindən mənimsənilməsinə heyrət edən müəlliflərdən biri də Revaz Caparidzedir **( 2 ).**

Erməni muzdlusu, baron Brambeus təxəllüslü rus yazıçısı Senkovskiyə görə isə, guya Gürcüstanın çox hissəsi, Tiflislə birgə, qədim zamanlardan ermənilərə məxsus olub! (? –X.İ.) – **(3: s.151-178; 1: s.18).**

Moisey Xorenskinin tarixinin (*görəsən, ermənilərin bu müəllifin əsərini saxtalaşdırmaları sonucunda meydana çıxan* ***"tarix"****dənmi söhbət gedir? –X.İ.*) əfsanə olması, heç bir dəlilə söykənməməsi haqda hələ 1871-ci ildə qənaətini bildirən

Lenorman, ermənilərin qədimlik iddialarına da cavab olaraq, onların Kirin müasiri Tiqranadək (*I Tiqranın özünün də erməni olması təsdiqini tapmayıb* –X.İ.) əfsanələrinin, rəvayətlərinin belə olmamasını diqqətə alaraq, öyünmələrinin yersiz olduğunu isbata yetirmişdir (1: s. 24)...

***

**1926-cı ildə akademik S.Açaryan sübut etmişdi ki, erməni dilində 4 min ədəd azərbaycanlı sözü var (1:** s. 26).

***

**Erməni alimi professor Patkanovun yetirməsi olması ilə fəxr edən cənab Marr da vaxtilə gürcüləri "Pələng dərisi geymiş pəhlivan"a görə hədələyərək bildirirdi ki, bu əsər gürcülərə məxsus deyil və orijinalı müsəlmanlara məxsusdur, həm də Londonda saxlanılır. Şota Rustaveli də müsəlmandır. Bir sözlə gürcülər bu əsəri müsəlmanlardan mənimsəyiblər: ya oğurlayıblar, ya da köçürüblər!..**

1877-ci ildə fransız qəzeti "Temp"in Tiflisə göndərdiyi Kutuli soyadlı müxbiri də orada planlaşdırılmış erməni əhatəsinə düşərək Gürcüstanı Ermənistan və Tiflisi də erməni şəhəri kimi "görərək", beləcə də təqdim etmişdir.

Artsruni və onun parlamentarlar içində, böyük qonaqlıq-şadyanalıqlarda, filosoflar sırasında və b. sahələrdə olan "qonaqpərvər", "Böyük Ermənistan"çı həmtayları bu yelbeyin fransız müxbirinə istədiklərini təlqin edərək onu xalis erməni ölkəsinin düz ortasında olduğuna inandıra bilmişdilər. Artsruni Avropadan Qafqaza həqiqət axtarmağa gəlmiş Kutuliyə "Bizim xalqımız poeziyanı sevmir, biz daha çox mühakimə və tənqidi sevirik" deyə erməni xalqını "dərin" xalq kimi təqdim etmişdir. Ancaq Avropadan gəlib erməni qonaqlığına düşmüş Kutulu ermənilərə elə avropalı Hötenin dili ilə cavab verə bilməmişdi: " bir şəxsin ki, ürəyi şair səsindən titrəmir, o barbardır" **(1: s.27-28).**

Ezov isə Gürcüstan çarı, mütləq-hakim İraklini ələ salaraq, deyir: "Rusiyaya onu güzəşt etdi ki, hansı ona məxsus deyildi". Ezova görə, o zaman Gəncə-Qarabağın taleyinə erməni monax Minas sərəncam verirmiş, Gürcüstan da İrakliyə məxsus deyilmiş. Yəni Ezovun niyyətində bunu demək istəməkdir: GÜRCÜSTAN GÜRCÜSTAN HA DEYİLMİŞ, QƏDİM ERMƏNİSTANMIŞ! **(1: s. 30).**

"Ararat" sözünün yəhudi ismi olub (*bizcə, bu özü də subyektiv fikirdir; bəzi başqa qaynaqlara görə, bu sözün qədim türkcədə açılışı var* – X.İ.), "Urartu"dan törədiyini qeyd edən Qolmstremə görə, Urartu ərazisindəki mixi yazılı daşlar, guya, ermənilərin xeyrinə fəryad edirmiş. Mixi yazılar, xüsusən də assur-vavilon mixi yazıları üzrə nüfuzlu tədqiqatçı, qədim zamanların tarix bilicisi sayılan Fransua Lenorman isə, "Ermənistan"ın etnoqrafik deyil, coğrafi anlayış olduğunu sübut edir. Və o, bildirir ki, "Ermənistan" adı ilk dəfə Əhəmənilər dövründə xatırlanır, b.e.ə. VII əsrin sonunda. O vaxt ermənilər, yəni haykanlar haqda hər hansı bir xatırlama belə yox idi. Haylar isə Urartuya miladdan öncə, VI əsrdə gəlmişlər. Urartuya aid yazılar, assuri mixi yazıları isə çox əvvələ, ən sonuncuları b.e.ə. IX əsrə aiddir **(4: s.124-129).**

Əvvəlcə "Nairi", sonra "Urartu" kimi tanınan ölkə haqda hələ assur çarı Salmansar və Tiqlat-Palasarın dövründəki yazılarda da xatırlanır. Yada salaq ki, I Salmansar b.e.ə. XIV, I Tiqlat-Palasar isə b.e.ə. XII əsrdə hökmranlıq etmişlər **(5:** s. 389).

Lenormana görə, Urartu ölkəsinin aborigenlərinin nə dil, nə də qohumluq etibarilə ermənilərə heç bir aidiyyəti yoxdur. Bu Ermənistan ölkəsinin aborigenləri, b.e.ə. VII



əsrin sonunadək, o tayfalarla qohum idi ki, bu tayfalara gürcülər və b. Qafqaz xalqları aiddir.

Professor İlya Serebrovun dediyi kimi: "Lenorman nəinki ermənilərlə gürcülərin mənşə qohumluğu haqda bütün düşüncələri aradan qaldırdı, hətta Əhəmənilərə qədərki Ermənistan ərazisinin özünü də ermənilərin hakimliyindən çıxararaq həmişəlik gürcülərə aidliyini möhkəmləndirdi".

Bu gedişat erməni professoru Patkanovu qeyzləndirdi, ancaq tarixi dəlillərlə deməyə sözü olmadığından məsələni felyeton predmetinə çevirdi **(1: s. 31-35).**

İ. Çavçavadze ermənilər tərəfindən başqa xalqların abidə yazılarının qaşınıb-qazılması, beləliklə başqalarının sahib olduğu tarixin və ərazinin mənimsənilməsi adətinin qədim erməni gələnəyi olduğunu sübut etmək üçün Lenorman və Henrix Raulinsonun elmi qənaətlərini əlavə şahid gətirir:

"Yuxarıda sadaladığım faktlara əsasən mən də Henrik Raulinsonun dediyini deməliyəm ki, "urartu dili" indiki hayos (hay) diliylə heç bir qohumluğa malik deyil. Hayoslar, Frigiyadan çıxmış, tədricən Frigiyanın doğusunda yerləşən yüksəklikləri tutmuş, oradan qədim urartuların bir hissəsini sıxışdırmış, bir qismini isə udaraq onların adlarını, inamlarını, dillərini və əfsanə-rəvayətlərini özlərininki ilə əvəz etmişlər." (Fransua Lenorman) – **(1: s. 36).**

Lenorman ermənilərin nahaq yerə özlərini Toqormosdan törəmiş bir tayfa (xalq) olduğunu da nəzərə çatdırır. Bibliyada da adı keçən Urartu aborigenləri "toqorm"larla qohumluğunu sübut edib, qədim Urartunun varisləri olduğuna dünyanı inandırmaq istəyən ermənilərin və onların havadarlarının mülahizələri əsassızdır, çünki Lenorman aşkarlamışdır ki, indi ermənilərin "Van yazıları" kimi təqdim etdiyi mixi yazıların böyük qismi hələ b.e.ə. VII əsrin sonunadək həkk edilmişdi. Lenorman alarodluların urartulularla sinonim təşkil etdiyini (alardu –› Araruda –› ararudi –› Ararata –› Urartu) və bir sözlə, sonralar Ermənistan (Armeniya) adlanan ölkənin aborigenləri olan tayfa adlarının, onların mixi yazı və danışdıqları dillərin, qısası, etnik atributlarının haylarla heç bir əlaqəsi yoxdur **(1: s.34-36).**

İndi isə Nikolskiyə müraciət edək: "Assuri və Vavilon mənbələrinə görə, Urartu ölkəsi onlarda Nairi ölkələri adlanan daha geniş bir bütövün hissəsi idi..."

İndi ermənilərin mənimsədiyi qədim adlardan biri Nairinin əsl sahiblərinin ünvanını xeyli dəqiqləşdirdikdən sonra, Nikolskinin çox maraqlı, növbəti açıqlamalarına diqqət edək: "60-cı illərin (*XIX əsr nəzərdə tutulur* –X.İ.) əvvəllərində cənab Mesrop, hələ sadə bir monax olduğu vaxt, mxitarçıların yazılarından oxuduğu– ***harada ki indi ermənilər məskunlaşmışlar, orada mixi yazılar vardır*** məntiqinə görə o, bu daşları (yazıları) yığmaq istəyirdi ki, bunların qədim Ermənistan tarixinə yaxınlığı üzə çıxacaq".

**Nikolskiyə dayanaraq, İ.Çavçavadze yazır ki, Mesrop altı və ya səkkiz yazını Patkanov vasitəsilə bu işin mütəxəssisləri olan Mordtmona, Seysə və Müllerə göndərdi. Nəticə erməniləri, əlbəttə ilk öncə cənab Mesropu və erməni professoru Patkanovu məyus etdi: daşları tədqiq edən yuxarıda adlarını çəkdiyimiz mütəxəssislər öz rəylərində bildirdilər ki, həmin yazıların ermənilərlə heç bir bağlılığı yoxdur.**

**Qeyd edək ki, Mesropun təqdim etdiyi yazıların çoxu Eçmiədzindən 25 verst məsafədə, quzey-batı istiqamətində tapılmış daşlar idi. Burada "Bluri" adlandırılan bir təpə və onun yanında hansısa qədim xarabalıqlar var. Ermənilər çoxdan ora tamah salaraq bildirirdilər ki, orada onların qədim paytaxtı-mifik "Armavir" yerləşmişdir. Nəhayət mütəxəssis alimlər, Uvarovun rəhbərliyi ilə orada qazıntı aparıb, bir həftəlik çalışmalardan sonra, nə illah eləsələr də, o xarabalıqlarda erməniyə aid nəinki bir "mübtəda", "xəbər", heç "vergül" də tapılmadı. İşi belə görən erməni başbilənləri-Mesrop və Patkanov bilmədikləri**

**məsələ haqqında mübahisə və etiraz edərək, yeni tədqiqatların aparılmasını tələb etdilər (5: s. 380; 1: s. 36-38).**

İ.Çavçavadze erməni alimlərinin saxtakarlığını müəyyən edən D.Bakradze, İlya Serebryakov, Lenorman, Raulinson, Nikolski kimi alimlərin adını çəkərək, Patkanov, Artsruni, Ezov, Xudabaşev və onların "elmi" sexlərinin heç nədən iyrənmədən öz qaralarını ağartmaq, başqasının ağını qaraltmaq yolundan əl çəkmədiyini bildirir.

Erməni sevdalısı Q.Qolmstrem də gürcü və b. xalqların dili ilə fəryad edən daşların ermənicə ah-uf elədiyini inadla iddia edərək dostlarına əsassız mədhiyyə söyləməkdən də utanmır: "Bu xalq (ermənilər) çox əsrlər ərzində xristian pravoslav tövsiyələrinə özünün dönmədən sadiq qaldığını sübut edib" ( 6 ).

Bu boyda eybəcər yalana dözməyən İ.Çavçavadze deyir: " Din-vicdan, inam məsələsidir, bu məsələdə hər kəs sərbəst və toxunulmazdır. Ancaq uşaq da bilir ki, ermənilər qriqoryan məzhəbinə məxsusdurlar və ümumiyyətlə *(genəllikdə)* Rusiyada və xüsusilə *(özəllikla)* rus ədəbiyyatında məlum olan məzhəbə *(pravoslavlığa* –X.İ.) heç aidiyyətləri yoxdur... Çünki (pravoslav) tövsiyələrindən ermənilər hələ VI əsrdə imtina ediblər və o zamandan pravoslavlıqdan ayrılıblar" **(1: s. 39-40).**

Erməni alimlərinin və onların himayədarlarının yazılı əməllərindən, yazılı riyakarlığından dad edən İ.Çavçavadze özünə və oxucuya əslində cavabı aydın olan bir bəşəri sualla müraciət edir: "Təkcə Ezov kifayətdir ki, öz-özündən qorxub ümidsizcə bir nida edəsən: doğrudanmı insan Tanrının obrazı və bənzəridir?!" **(1: s. 41-42).**

**Araşdırmaçılar bu qənaətə gəlmişlər ki, erməni başbilənləri onların yalan "tarix" və "ideologiya"larını ifşa edən əsərləri bütün nüsxələri ilə satın alıb məhv edir, müəllifləri də elə hay-küyə basırlar ki, informasiyası olmayan ictimaiyyət onların (*ermənilərin* –X.İ.) fəryad və iniltilərinə aldanmış olur.**

"Veliçko və Mets, Puşkin və Çavçavadze, Sokolski və Myasnikov, Bukşpan və Qriboyedov, Leskov və Tverdoxlebov, Odişelidze və Açaryan, Anuçin və Qukasyan, Yust, Pavloviç, Piotrovski və bir çox başqaları ilə belə də oldu" **(1: s. 41-42).**

Ermənilər və erməni məsələsi haqda araşdırmalar aparmış V.L.Veliçko yazır: "Ermənilər haqda qədimdən pis fikir formalaşıb – və yəqin ki, bu əsassız deyil, belə ki, əks halda bu, bütöv xalqlarda və həm də müxtəlif zamanlarda yarana bilməzdi...

...Ermənilər kimdir? Onların əsas mənşəyi az açıqlanıb. Tarix onların ilk qovuşmasının Babil əsirliyi zamanı baş verdiyini, ancaq ardınca –Yerusəlimin dağılmasından sonra böyük yəhudi kütləsi ilə qarışdıqlarını (qovuşduqlarını) təsdiqləyir. Antropoloji baxımdan onların çoxu son dərəcə braxikefaldırlar, yəni qısabaşdırlar. Və tədqiqatçılar Şantr, Erkert, Pantyuxov və başqalarının araşdırmalarından göründüyü kimi, bu yöndən, onlar dağ yəhudiləri və siro-xaldeylərlə (assurilərlə) uyğunluq təşkil edirlər. İngilis alimi Bertin onların fələstinəqədərki dövr yəhudiləri ilə eyni tipdən olduqları qənaətindədir.

Professor D.N.Anuçkin deyir ki, ermənilər ari qəbiləsi deyil, çox guman, ariləşdirilmişlər (dil etibarilə). Bu deyilənlərdən əlavə, özünü erməni sayanların heç də hamısı əsl erməni qəbiləsinə mənsub deyillər. Erməni jurnalı "Murç", ermənilərin başqa xalqları əhəmiyyətli dərəcədə assimlyasiyaya (assimlə-*asimlə* **–X.İ.)** uğratma qabiliyyətinə malik olunduğundan bəhs edərək, 90-cı illərin sonunda ermənilər sırasında xeyli çox faiz *asimlə* olunmuş qaraçı olduğunu göstərir **( 7 )**.

"Dünyada iki xalq var ki, onlar milli dilsiz və vətənsiz mövcuddur: bu, yəhudilər və qaraçılardır. Nə Asiya tiranlığı, nə orta əsrlərə xas amansız izləmələr, nə də hətta çağdaş humanist mədəniyyət onları başqa xalqlara qovuşdurub assimlə edə bilmədi...

Ancaq təkcə ermənilərə müyəssər olmuşdur ki, qaraçıları assimlə etsinlər... İrəvan, Şamaxı, Yelizavetpol, Tiflis və b. yerlərdəki qaraçılar, hansı ki, qaraçılıqlarını 50 il əvvəlki tarix təsdiqləyir, artıq qaraçı deyillər və erməni ünsürü ilə qovuşub, ermənilər tərəfindən assimlə edilmişlər, öz mənşələri haqda sonralar xatırlamaq üçün yalnız öz



soyadlarını saxlamışlar... Assimlə edilmiş qaraçı-ermənilərdən hətta istedadlı insanlar da çıxmışdır. Məsələn, Sankt-Peterburq Universitetinin professoru Kerobe Patkanyan qaraçı mənşəlidir, monax şair Ələmdaryan-həmçinin, indiki erməni yazıçılarından ikisi də sıradan, qaraçı əsillidirlər, çoxlu şeirləri olan xalq şairi Qanes oğlu (*Hanesoğlu?* – X.İ.) və başqaları..."

... Əhəmiyyətli say təşkil edən erməni qrupu haqqında Qafqaz antropoloqu, doktor Pantyuxov daha maraqlı nəticəyə gəlmişdir. Hörmətli alim təsadüfdən yararlanaraq, Tiflis Türkiyədən gəlmiş yarımvəhşi qaçqınlarla dolan zaman Türkiyə erməniləri üzərində antropoloji ölçmələr aparmışdır. Sən demə çağırılmamış qonaqların böyük hissəsi özünün fiziki quruluşuna görə– tərtəmiz kürddürlər. Bu, o ehtimala meydan verir ki, Türkiyədə ermənilərin qırılmasının bir qisim epizodları müxtəlif inanclı kürd qəbilələrinin öz aralarında çoxdankı haqq-hesabı çəkmələrindən ibarət olmuşdur" **(8: s.64-66).**

Veliçko Qafqaz Albaniyasının ermənilərdən xristianlıq (məncə, *"xristianlıq"* yox, *"katoliklik"*, daha dəqiqi, ***qriqoryanlıq** demək düzgün olardı* –X.İ.) əxz etmiş və XIX əsrədək Eçmiədzin kilsəsi ilə rəqabət apararaq mövcud olan Ağvan və ya Qmidzasar katolik kilsəsinə aid olan qeyri-erməni xristianların sonra, tədricən erməniləşdiyini, onlarla qarışıb xarakterlərini mənimsədiyini də bildirir.

**"Ermənilərin arzusu dışında, zorla başqa xalqlarla cütləşmələri də baş vermişdir. Həm qoşun-qoşun farslar, həm də Azərbaycan tatarları, türklər, gürcülər və dağlılar, aydındır ki, öz dövlətçiliyini və bununla bağlı məğrur, mərdanə özünümüdafiəsini çoxdan itirmiş bir xalqın qadınları ilə təşrif gözləyərək davranmamışlar.**

**Bu şərtlərdən anlaşılır ki, ermənilərin damarlarından hər cür qan axır" (8: s. 66-67)...**

Əsl erməni xarakterinə qorxaqlığın "yaraşıq" olduğunu, erməni xarakterinin bir çox dillərdə lətifə predmetinə çevrildiyini qeyd edən Veliçko bu və bunun kimi bir çox çəhətlər baxımından isə ermənilərin semit xalqları ilə ümumilik təşkil etdiyini bildirir.

Buna baxmayaraq, "Ermənilər əsla sevmirlər ki, onları yəhudilərlə müqayisə etsinlər və öz müdafiəçilərinə tapşırırlar ki, haykan xalqının ari mənşəli olması haqda imkan daxilində daha ucadan danışsınlar **(8: s. 67).**

O zamanlar Moskvada keçirilmiş arxeoloji qurultayda, antropologiya şöbəsi Fiqe soyadlı bir fransızın ermənilərin semitizmi haqda məruzəsini dinləmişdi. Bu isə erməniliyi semitizmdə şübhəlilikdən həddən artıq cəsarətlə müdafiə edənləri, o sıradan, qeyri-ixtiyari o oyuna bulaşanları (məsələn, Varşavalı əməkdar professor D.İ.Azareviçi və b.-nı) rahatsız etmişdi **( 8: s. 68)...**

"Ermənilərin rus ədəbiyyatında ilk muzdlusu Senkovski idi. O, hər bir daşın belə gürcü çarlığı haqqında "dillədiyi" vilayətləri də qədim erməni hakimliyinə aid ərazilər kimi təqdim edən cəfəngiyatlar yazırdı. Baron Brambeus ləqəbli bu Senkovski və onun ardınca erməni "tarixçi"ləri Emin* *(Moisey Xorenskinin tarixi)*, Xudobaşev* (*Obozrenie Armenii*), nəhayət Yeritsov* (Kavkazskaə Starina 1872 q. №1) da o istiqamətdə çalışaraq, məsələn, Saatabaqo vilayətinə, yəni atabəy Cakeli hakimliyinə, indiki Axalsix qəzasına (*XIX əsrin axırları, XX əsrin əvvəli nəzərdə tutulur* –X.İ.) Gürcüstanın tarixi sahiblik haqqını oğurlamağa cəhd edirdilər." Veliçkoya görə, vaxtilə çar Tamaranın da bu bölgədə olduğuna dair izlər mövcuddur, həm də oranın əhalisi türkləşmiş gürcülərdən ibarətdir, ermənilər isə, bu əraziyə (necə ki, bütün Qafqaza – X.İ.) XIX əsrin birinci hissəsində gəlmişlər. (8: s. 69).

Fransız "Temps" qəzetinin müxbiri Kutulinin ermənilərə aldanaraq, öz kitabında, Tiflisdəki gözəl qadınları-erməni, eybəcərləri-gürcü kimi təqdim etməsi isə, bölgəni yaxşı tanıyan-müxtəlif dünya oxucuları sırasında ciddi gürcü alimlərinin də acı gülüşünə səbəb olmuşdu **( 8: s. 71).**

[Haşiyə: Ermənilərin o xisləti günümüzədək davam edir. Belə ki, başqa xalqların təkcə torpaqlarına deyil, uğur və qiymətli özəlliklərinə də göz dikən ermənilər "Saperavi" adlı gürcü şərabını, "xaçapuri"ni Fransa mağazalarında erməni məhsulları adı altında satırlar. Gürcüstan Dövlət Patent Xidmətinin rəhbəri İrakli Qavaladze bildirib ki, Ermənistan tərəfdən gürcü brendlərinin oğurlanması ilə bağlı birinci hal deyil. Avropadakı "rus dükanları" adlanan satış məntəqələrində də gürcü brendləri erməni brendləri kimi təqdim edilir. Ermənilər müxtəlif xalqlara (əsasən də azərbaycanlılara) məxsus mahnı, xalça, milli xörək və çeşidli ürün adlarını da "mənimsəmək"də ad çıxarmışlar (**16:** s.9)].

Ermənilər haqda əsl həqiqəti söyləyənlərdən biri-qərəzsiz, humanist, əxlaqlı bir müəllif olan Tasit deyir: "...bu qədimdən ikiüzlü xalqdır, həm xarakterinə görə, həm də coğrafi vəziyyətinə görə" (**8:** s.71-72).

Ermənistanı, Kürdüstanı və Mesopotamiyanı gəzib-dolaşan fransız səyyahı qraf de-Şölye isə ermənilərə dair qənaətini belə ifadə edir: "onların kasıblığı və əzabları məndə rəhm oyatmasına baxmayaraq, onların hiyləgərliyi elə iyrənc, alçaqlıqları elə utandırıcı (utanc verici) və əclaflıqları elə hiddətləndiricidir ki, mən onlara heç cür bənd ola bilmədim".

Alman səyyahı Alfred Kyortenin "Anadolu eskizləri" də Türkiyədəki bəzi xalqların xarakterizəsi ilə məşhurdur: "demək olar ki, bu vilayətlərdə xalqın nüvəsi ilə təmas edən hər kəs, türklərə hörmətlə yanaşmağı və sevməyi, yunanlara yuxarıdan aşağı baxmağı, erməniləri görmək istəməməyi və onlara nifrət etməyi öyrənir... Belə bir xalq deyimi özünü doğruldur ki, bir yunan iki yəhudini aldada bilər, bir erməni iki yunanı. Yəqin belə demək olar ki, əgər sizi Anadolunun harasındasa aldadıblarsa, deməli siz erməniləri iş görmüsünüz". Həmin müəllif Əskişəhirdəki bir podratçıdan sitat da gətirir: "... mən ermənilərlə hətta yazılı şərtlərlə də heç iş görmürəm, çünki onların yalançılığını və davakarlığını hətta yazılı şərtlər də cilovlaya bilmir" (**8:** s. 73).

Veliçko VI İohannın "Dünyanın yaranmasından 925-ci ilə qədərki Ermənistan tarixi" (fransızca, Sen-Martenin tərcüməsində) adlanan kitabındakı erməni "tarixi"nə, əslində heç bir dəlilə söykənməyən əfsanələrə də mənfi münasibətini bildirərək, ermənilərin guya Nuh –› Yafət (Yafəs) –› Homer –› Tiras –› Torkom –› Hayk nəsil şəcərəsinə malik olduğunu da istehza ilə qarşılayır.

Müəllif ermənilərin güvənilməz və dayanıqsız tayfa olduğuna işarə edərək, tarixi sənədlərə əsasən bildirir: farslar, romalılar və ərəblərin Ermənistana kimisə hakim təyin etmələri kifayət idi ki, bu (*erməni* – X.İ.) hakim yubanmadan yerli əhalinin hiddətini (*onlara qarşı* – X.İ.) təşkil etsin.

Veliçkonun qənaətinə görə, Ermənistan yaylası ərazisində müəyyən qədər də olsa müstəqilliyə malik çarlıq ləğv edildikdən xeyli vaxt sonra, V əsrdə, artıq Ermənistanın fars əyalətinə çevrildiyi zamanlar ermənilər içərisində daxili hakimiyyət başda katolikos olmaqla teokratiyaya məxsus idi. "Dövlətçiliyin bəzi əlamətlərinin XI əsrdə Kiçik Kilikiyada təzahürü görünsə də, 1375-ci ildə birdəfəlik əriyib getdi (dağıldı)" – (**8:** s. 74-75).

***

Bir qədər də erməni-gürcü münasibətlərini müəyyənləşdirən, Qafqaz xalqlarının istiqlal əldə etdiyi dövrdəki zidliklərə toxunaq.

I Dünya Savaşından sonra Gürcüstanda və eləcə də Qafqazda gedən mürəkkəb prosesləri araşdıran Şota Vadaçkoriya o dövrün mətbuatı və tarixi qaynaqları əsasında o xüsusda bir sıra ciddi məsələlərə aydınlıq gətirə bilmişdir.



Gürcü müəllifi Şota Vadaçkoriya XX əsrin əvvəllərinə aid Gürcüstan qaynaqlarından istifadə edərək ermənilərin bu ölkə içərisində bir çox qorxulu, məkrli niyyətlərini ifşa etmişdir...

Bir sıra tarixi qaynaqlardan da bəlli olduğu kimi, ağıllarının və bəd niyyətlərinin bəlasına düşərək, sonra qaçqın "yazıqlığı" ilə külli miqdarda humanitar yardım alan ermənilər bu pulun da böyük hissəsini gizli silahlanmaya sərf edərək Gürcüstan, Acarıstan, Azərbaycan, Türkiyə və Dağlı xalqlarının torpaqlarına qarşı yeni silahlı üsyanlar və təcavüzlər planlayırdılar.

Şota Vadaçkoriya ermənilərin bu "qibtəedici" özəlliyi haqda tarixi bir örnək gətirərək yazır: 1918-ci ildə Zaqafqaziya – Qafqaz cəbhəsinin qaçqınlar komitəsinə 15 milyon rubl ayırdıqda, N.Jordaniyanın Gürcüstan parlamentində çıxışına görə, bu pulun böyük hissəsini – 10 milyon 252 min rublunu erməni qaçqınlar təşkilatı almışdı. Parlamentdə onun bu sözlərini dinləyər-dinləməz Q.Veşapelinin atmacası eşidildi: "Yəqin çoxlu tüfəng alıblar" (**9:** s.12-13).

Daşnakların xüsusi canfəşanlıqla fərqlənən "Orizon", "Aşxatavor" kimi qəzetləri isə qabaqdangəlmişlik edərək qaçqınları siyasi məqsədlərinə alət edib:

– "Ənvər Türkiyədə, Xan Xoyski Azərbaycanda, N.Jordaniya Gürcüstanda erməniləri qırıb-çapırlar."

– "Gürcüstanda yeni Mesopotamiya yaratmayın!"- kimi ifadələrlə siyasi şivən qaldırırdılar (**9:** s.13).

Müəllifin bildirdiyinə görə, o vaxtlar "Ertoba" qəzeti erməni mətbuatının bu böhtan dolu "hərbə-zorbalarına" "Gürcüstan Mesopotamiyası" və "Daşnaksütyunun yeni fitnələri" tipli məqalələri ilə layiqli cavablar verirdi.

"Daşnaksütyunun yeni fitnələri" məqaləsinin müəllifi nəticə çıxarmaları üçün ermənilərə deyirdi: "Elə bir ləyaqətli düşmən olun ki, qarşı tərəf sizlərə hörmətlə yanaşa bilsin." (9: s.13-14).

"Ertoba" qəzetində daşnakların Axalkələkdə törətdikləri vəhşiliklərə toxunan, "Cavaxeli" ləqəbli imza ilə yayınlanmış "Qana bulaşmış əllər" məqaləsində Xospiy kəndinin əhalisinin, həm də Poladaşvili soyadlı gürcü müsəlman ailəsinin tamam qırılmasından bəhs edilirdi. Bu cinayət aktı 10 may 1918-ci ildə Gürcüstan Milli Şurasının iclasında da dartışıldı. Həmin məsələ ilə bağlı Ermənistan Milli Şurasına ünvanlanan müraciət isə cavabsız qaldı (**9:** s. 14-15).

Ermənilər öz iddialarından əl çəkmir, "Gürcüstan ikinci Mesopotamiyadır!" deyə bağıraraq, siyasi vay-şivənlərinə davam edirdilər. Məsələn, daşnaqların "Orizon" qəzeti yalan xəbər dərc edərək yazırdı ki, "...Osmanlı hökuməti ilə (*uluslararası* –X.İ.) razılaşmalara baxmayaraq, gürcü hakim dairələri qaçqınların köhnə yaşayış yerlərinə qayıtmasına maneçilik törədirlər." Eyni ittihamı erməni nümayəndə heyətinin başçısı Yekcanyan da Gürcüstan parlamenti sədrinə qarşı yönəltmişdi (**9:** s.15-16).

Erməni təhdidlərinin getdikcə artdığını görən Gürcüstan hökumətinin yetkililərindən Sp. Cediya erməni qaçqınlarının geriyə qaytarılmasını tək çözüm yolu saydığını bildirirdi. "Əgər Ermənistan rəhbərliyi özünə gəlib Gürcüstanın müstəqilliyini laxlatmaq, dövlətin daxilində hərbi üsyan hazırlamaq əvəzinə öz xalqının güzəranının bərpasına çalışsaydı, o zaman Gürcüstan da, bütün Zaqafqaziya, o sıradan, ermənilərin özləri də rahatlanıb uduşda olardılar,"-deyə Sp. Cediya Ermənistanla ilgili bu acı həqiqəti təəssüflə bəyan edirdi (**9:** s. 16-17).

Diqqətəlayiq haldır ki, gürcü hökumətinin Gürcüstandakı erməni qaçqınlarının 1/3-ni Ermənistanda yerləşdirmək təklifinə erməni hökuməti rədd cavabı vermişdi (**9:** s. 18). Erməni qaçqınlarını Borçalıdakı erməni kəndlərinə köçürmək təklifi də Ermənistan hökuməti tərəfindən etirazla qarşılandı (**9:** s. 19).

"Ertoba" qəzeti daşnaların belə etirazlarını aşağıdakı kimi şərh edirdi: daşnalar qorxurdular ki, o zaman Axalkələkdə ermənilər azalar və onların bu rayona gələcəkdəki

iddialarına əsas olmaz, ona görə də bu məsələyə indidən etiraz edirdilər. Həmin qəzet "Erməni vəkillərinin nəzakəti" məqaləsində isə yazırdı: "Erməni qaçqınları daşnalardan ötrü elə bir ağır artilleriyadır ki, onun "nüvəsi" Gürcüstan Respublikasının ürəyini parçalaya bilər. Məgər bundan imtina etməkmi olar?!" (9: s. 19).

Ermənistan hökumətinin başlıca vəzifəsi gürcü liderlərini təsir altında saxlamaq, öz "vacib" planlarını həyata keçirmək – beləliklə də öz qaçqınlarını Gürcüstandan köçürməmək idi (9: s. 19).

Erməni liderlərinin əsl simasını açan Tiflisdə yayınlanan "Ertoba" qəzeti yazırdı: "Erməni daşnakları ikili siyasətə qulluq edən ikiüzlü bir partiyadır. Hamı ilə mübarizə apardığı halda, hamı qarşısında "quyruq bulayır". Hamı ilə dostluq edir və hamıya xəyanət edir" (9: s. 22)...

Parlament iclasında A. Cacenaşvili daşnak liderlərindən birini belə xarakterizə etmişdir: "İkili siyasət yürüdən Xatisov Rusiyaya sədaqətli olduğuna and içirdi. Bu gün, durum dəyişdikdə, öz sədaqətini Osmanlılara bildirir, halbuki, qabaqlar onlara qarşı satqınlıq siyasəti aparırdı. Xatisov qaçqınlığı törədən ənənəvi siyasətçilərin tipik nümayəndəsidir. Onlar əbəs yerə düşünürlər ki, insanları müharibə qaçqına çevirir, onları bu hala avantürizm və siyasi kallıq gətirib çıxarır" (9: s. 22).

Gürcüstan daxilində erməniləri silahlandırma (9: s. 24) və Tiflisdə, üstəlik Gürcüstanın başqa bölgələrində (bundan başqa, Ukraynada, Donda və b. yerlərdə) ermənilərin səfərbərliyini keçirmə (həm də bu səfərbərliklər Tiflisdən idarə olunurdu) kimi addımları daşnakların daha böyük iddialara malik olduqlarından xəbər verirdi (9: s. 27)...

Daşnaqların ərazi iştahının mücəssəmələrindən olan "Qafqaz poçtu" adlı ingilisdilli erməni qəzeti o dönəmlərdə yazırdı: "... qabaqlar Tiflis ermənilərə məxsus idi və yalnız millətçilik tədbirlərindən sonra şəhər Gürcü hökumətinin əlinə keçdi " (9: s. 27)... Bu kimi iddiaların sonucunda Gürcüstan hökumətinin çarəsi tükənərək, öz ərazilərində Ermənistan (yəqin ki, Erməni-X.İ.) Milli Şurasının fəaliyyətinə qadağa qoydu (9: s. 28).

Gürcü mənbələri həmin dövrdə ermənilərin ingilislərin dəstəyinə nail olduqlarını da qeyd edirlər (9: s. 27-30)... [Gürcü müəlliflərinin bir mülahizəsi də diqqətçəkicidir: sonralar "İngiltərənin (*ədalətli yürüdülməyən* –X.İ.) Yaxın Şərq siyasəti iflasa uğradı" və ingilislər Tiflisi də tərk etmək zorunda qaldılar (9: s. 30)]...

Gürcüstan parlamentinin 1919-cu il 10 noyabr tarixli iclasında Gürcüstan hökumətinə müraciət edən Ermənistan nümayəndəsi Doluxanov yanvarın 5-də milliyətcə erməni olan şəxslərin tutulmasının səbəblərini quberniya idarəsindən, bəzi ermənilərin məsul işlərdən azad edilməsinin səbəblərini isə Ədliyyə Nazirliyindən açıqlamağı tələb edirdi (9: s. 28).

Gürcüstan parlamentinin iclasında ermənilərin əsassız ittihamlarına cavab verənlərdən biri–R. Qabaşvili aşağıdakıları söyləməyə vadar oldu: "Ölkə müstəqilliyinin xilası naminə satqınlıq siyasəti yeridən millətcə erməni olan şəxslərə qarşı cəza tədbirləri həyata keçirmək gərəkdir." Bundan başqa, o bildirdi ki, Ermənistanla müharibə vaxtı Gürcüstana qarşı fəaliyyətdə olan bütün xəyanətkarlar məhv edilməlidir. K.Ninindze, Doluxanov Avetisyana "Orizon" və "Nororizon" qəzetlərinin gürcülərə qarşı fəaliyyətini xatırlatdı. Onu Axalkələk mahalında Xospiy kəndinin gürcü müsəlman əhalisinin amansız qırılması faktı qarşısında qoydu və bildirdi ki, nəhəng daşnak partiyasının siyasəti hər yerdə eynidir (9: s. 28-29).

Gürcüstanın təşəbbüsü ilə 25 aprel 1919-cu ildə Tiflisdə Ümumqafqaz Konfransı keçirildi. Bu konfransa Dağlı Xalqları Respublikasının təmsilçiləri də qatılmışdılar. Konfransın qətnaməsi Qafqaz xalqlarının istiqlaliyyətinə müdaxilə edən yabançı qüvvələrə, o sıradan Denikin ordusuna qarşı yönəlmişdi və bir sıra əməli təkliflərə söykənirdi. Konfrans erməni tərəfinin pozuculuq fəaliyyəti sayəsində sonuc vermədi (9: s. 51-53).



1919-cu ilin avqust-sentyabr aylarında Məshət-Cavahetiyada keçirilmiş seçkilər də erməni millətçilərinə gerçək münasibəti açıqladı: Axalkələk mahalının 35 000 seçicisindən 30 000-i seçkidə iştirak etmiş, onlardan 24 000-i gürcü sosial-demokratlarına, 2 500-ü milli-demokrat partiyasına, 3 000-ə yaxını isə Daşnaksütyuna (Axalkələkdə isə: 21 687 iştirakçının 13 000-i sosial-demokratlara, 7 000-i daşnaklara) səs vermişdi. "Ertoba" qəzetinin yazdığı kimi, seçkilər sübut etdi ki, ermənilərin "Böyük Ermənistan"ın "ayrılmaz parçası" kimi "gördükləri" bu vilayətlərdə əhalinin 2/3 hissəsi canı-qanı ilə Gürcüstana bağlıdır. Xatırladaq ki, o dönəmdə ermənilər Cavahetiyanı israrla tələb edir və bu yolda hər vasitəyə əl atır, həmçinin ingilislərin müdaxiləsinə güvənirdilər (9: s. 53-54).

Ermənilərin iddia paketinə Tiflis quberniyası və Batum diyarı da daxil idi. Bu iddialarını onlar 7 may 1920-ci il tarixli Gürcüstan-Rusiya müqaviləsinə münasibətdə açıq şəkildə ortaya qoymuş oldular. Ermənilər Qara dənizə çıxışı ələ keçirmək üçün Çoroki rayonunu xüsusi canfəşanlıqla tələb edir, Qarsa dəmiryolu çəkmək səbəbilə bu bölgə onlara vacib olduğunu bildirirdilər. Hətta xatırlanan Gürcüstan-Rusiya müqaviləsinin göstərilən ərazilərə şamil edilməməsi tələbilə Ermənistan Xarici İşlər naziri Sovet Rusiyasındakı həmkarı Çiçerinə məktub da göndərmişdi (9: s.54-55)...

"Ertoba" qəzetinin yazdığı kimi, ermənilər Acariya (*Acarıstan* –X.İ.) müsəlmanlarının Gürcüstana birləşmək istəyini gerçəkləşdirməyə də mane olmuşdular. (*Paris 18 yanvar 1919-cu il–21 yanvar 1920-ci il və San-Remo 19-26 aprel 1920-ci il konfranslarında ermənilərin pozuculuq fəaliyyətləri nəzərdə tutulur –Ş.V.*) – (9: s. 55)...

I Dünya Savaşı dönəmindən günümüzə gəldikdə də, erməni iddiaları siyasi, mənəvi, etnik sınırlar tanımadan, ermənilərə rəhm və güzəşt edərək dövlətçilik haqqı tanımış qonşu xalqların (türk, gürcü, azərbaycanlı) siyasi, mənəvi, etnik kimlikləri üzərinə yeriməkdədir.

Belə cəhdlərdən birində gürcü kilsələri erməni kilsələri kimi təqdim edilərək, Gürcüstan üzərinə növbəti "gərnəşmə" zəminlərinə hazırlıq görülməsi sezilir: daha aydın desək, 1995-ci ildə İrəvanda yayınlanmış "Gürcüstanda erməni kilsələri" xəritə-məlumat kitabında Gürcüstan ərazisində 650 erməni kilsəsinin olduğuna diqqət çəkilir. Gürcü alimi, professor Bondo Arveladze konkret olaraq, bir neçə kilsənin misalında, detallara vararaq sübut edir ki, bu cür iddialar əsla həqiqətə uyğun deyildir ( 10 ) ...

Ermənistandan dəstək alan Gürcüstanın indiki Samtsxe-Cavahetiya mahalında məskunlaşmış erməni icması isə silahlı mübarizəyə ciddi hazırlıq görür. Ermənistandan qeyri-hökumət təşkilatları adı altında maliyyələşib-təlimatlanan bölücü qurumların bəzi aktivləri (qeyri-hökumət təşkilatlarının başçıları Qriqor Minasyan, Sergey Akopcan və b. timsalında) silahlı qruplar yaratmaq və Gürcüstan əleyhinə casusluq etmək suçu ilə yarğılanaraq tutulmuşlar ( 11 ) ...

Bu da təsadüfi deyil ki, Rusiyanın Gürcüstana və ümumilikdə Qafqaza yeni basqı dalğası fonunda ermənilərin təcavüzkarlıq ruhu daha da havalanmış və bir erməni keşişinin deyimində açıq, həyasızcasına ifadə olunduğu kimi (**"İki erməni dövlətinin olmasından məmnunam, ancaq üçüncüsü də lazımdır – Cavahetiya".**) – ( **15** ), hər cür beynəlxalq normaları və sərhəd bütünlüyü prinsiplərini pozmaqdan qurur duyma eyforiyasına qapılmaq durumundadır.

Ermənilərin Gürcüstanın indiki Samtsxe-Cavahetiya mahalında və başqa bölgələrində törətdikləri vəhşilklər-təcavüz, terror və bölücülük fəaliyyətləri haqda müasir Gürcü mətbuatı saysız-hesabsız faktlar dolu məqalələr yayınlamaqdadır. Bu fəaliyyətləri və çağdaş erməni iddialarının boyutlarını anladan (yayınlamış) faktiki məqalələrdən ibarət topluda günümüzdəki erməni-gürcü konfliktlərinə dair mənzərə daha gerçəkçi bir şəkildə üzə çıxır ( 14 ) .

*Başqa sözlə, qonşu xalqların ərazilərindən xülya təriqi ilə "yamanrnış", quduz düşüncə məhsulu olan "Böyük Ermənistan" coğrafiyasını erməni dövlətçiliyinə "təslim*

*etmə" çabaları o zaman olduğu kimi, bu gün də bölgədə barış, düzən və xeyir-bərəkət qoymamış, istiqbala gedən bütün yolları əngəllərlə doldurmuş və batırmışdır... İstiqbala gedən yolların çırağına daş-kəsək atan ermənilər öz yollarını da qaranlığa qərq edərək, qonşularını özləri ilə birgə dibsiz bir uçuruma doğru sürükləməyi özlərinə əskidən bir "peşə" seçmiş və yarına da bu "peşə"ylə "inam"la qoşmaqdadırlar...*

***

**Filologiya elmlər doktoru, ermənişünas Bondo Arveladzenin Ermənistan Respublikası Yazıçılar İttifaqının sədri Sero Xanzadyana açıq məktubu çağdaş erməni vəhşiliyinin bir çox mühüm detallarını ortaya qoymuşdur:**

"Mziya M. (atasının xahişi ilə qızın soyadı göstərilmir) Suxumidə Qoqua küçəsində öz evində erməni yaraqlıları tərəfindən qrup halında zorlanmışdır. Sonra kef məclisi qurulmuşdur. Huşu özünə gələn Mziya M. avtomatdan açdığı atəşlə 7 quldurdan 3-nü öldürmüş, 4-nü isə yaralamışdır. Yerli sakinlərdən kimsə onu gizlətmişdir. Fəqət orada olan erməni qızı onu ələ vermişdir. Batalyondan gələnlər onu həyətə çıxarmış, yenidən zorlamış, əzab vermiş, qulaq və barmaqlarını kəsmiş, sonra isə güllələmişlər.

Sentyabrın 10-da Suxumi rayonunun ən qədim kəndi Akafda erməni yaraqlıları Raulun, İlya Papiyanın, Anzorun, Cenerin, Oqar Qoquanın, Nora Aroniyanın, Kuta Kartavanın ailə üzvlərini məhv etmiş, evlərini yandırmışlar. Akafda 27 nəfər bu hücumun qurbanı olmuşdur.

Daha bir neçə fakta diqqətinizi cəlb etmək istərdik, cənab Xanzadyan, Pşabi kəndində erməni yaraqlıları 11 nəfəri öldürmüşlər. Onların yarısı qadın idı. Hamısını bir evə toplamış və orada güllələmişlər. Onların hamısı öldürüldükləri həyətdə də dəfn edilmişdir. 20 evi yandırmış, daşınan və daşınmayan əmlakı talan etmişlər. Onlar bağıra-bağıra deyərmişlər:

"Siz gürcüləri bu torpaqda yaşamağa qoymayacağıq!"

Nino Desadzeni özünün xüsusi evindən çıxarmış və oraya Armavirdən olan bir erməni köçürmüşlər. Gürcülərin min bir əzabla İşxva kəndində tikdirdikləri məktəbi erməni uşaqlarına vermişlər. Tavasupleba kəndində də belə etmişlər.

İşxva kəndində ermənilər qrup halında Nina Kvparasxeliyanı zorlamış və öldürmüşlər. Otobai kəndində Kapo Capavanı və 83 yaşlı dəyirmançı Doli Kvelabayanı ona görə öldürmüşlər ki, onlar öz evlərinə girmiş, ərzaq "oğurlamaq" istəmişlər. Şarqebi kəndində 97 ev yandırılmışdır. Qudava kəndində Rezo Xaburzaniyanı və onun oğlunu öz evində öldürmüşlər. Otobai kəndində (zərərçəkənin xahişi ilə ad-soyadını göstərmirik) 19 yaşlı gənc həbs edilmiş, öz bağındakı armud ağacından ayağından (başıaşağı) asılmış, onu yelləddərək mərc gəlmişlər – kimin gülləsi boşa çıxmaz? Yaralı gənc böyük çətinliklə xilas edilmişdir. Otobai kəndində ata və oğul Siquları həbsə almış, onların əl-ayağını bağlamış və bıçaqla boğazlarını kəsmişlər. Tsebelda kəndində pedaqoq İradi Papianı öldürmüş, ürəyini çıxarıb itə atmışlar...

...Qarabağda müharibə başlayandan az sonra mən Yerevanda olmuşam. Orada Qarabağ qaçqınları ilə görüşüb, söhbət etmişəm. Onlar açıqca etiraf edirdilər:

Biz Qarabağda çox yaxşı yaşayırdıq, ancaq neçə ildir Yerevandan bizə rahatlıq vermirdilər, təbliğat aparır, bizi öyrədirdilər ki, Qarabağı Azərbaycandan qoparmağı tələb etməliyik ki, onu Ermənistanla birləşdirsinlər" **(12; 13: s.372-373)...**



**Ədəbiyyat:**

1. Ариф Мансуров. Белые пятна истории и перестройка. Баку, 1990.
2. "Литературная Грузия», Тбилиси, 1970 г., №2.
3. "Библиотека для чтения» 1838 г., стр. 151-178. Письма «Некоторые сомнения касательно истории Грузии».
4. Ленорман, "Ассирологические письма", серия 1-я, письмо 2-е.
5. "Древности восточные» и проч. соч. Никольского.
6. Г.Гольмстрем. И камни возопиют., «Пет. Вед.», 1899 г., №33.
7. «Мурч», 1897 г., Статья под заглавием «Армяне из цыган» .
8. В.Л.Величко «Кавказъ. Русское дело и междуплеменные вопросы», С.-Петербург, 1904-Баку, 1990.
9. Şota Vadaçkoriya. Gürcüstan siyasi fikrində gürcü-erməni münasibətləri məsələləri 1918-1920., Bakı, 2006.
10. Bondo Arveladze. Armenian or Georgian Churches in Georgia?!, 1996. –Baku, 2002.
11. Rasim Bayramov. "Gürcüstanda erməni separatizminin təhlükəsi böyüyür"., "Azərbaycan" qəzeti, Bakı, 27.02.2009.
12. «Новая Кавказская газета», Москва, 1996, № 1 (9).
13. Ə.M.Quliyev, A.Ə. Quliyev. Türk oğlu,... 17-ci... hücuma hazır ol!, Bakı, 2003.
14. Armenian treason and Georgia., 1-st book, Baku, 2008.
15. Orxan Güneyli. Qarşıda Ermənistan-Gürcüstan qarşıdurması., "Türküstan qəzeti", Bakı, 11-23 may 2009.
16. "Ermənilər xaçapuriyə də əl atdı"., "Yeni Müsavat" qəzeti, Bakı, 06.01.2011.

## BU YAXINLARDA QARS VİLAYƏTİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA RSFSR-in GÜRCÜSTANDAKI SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİNƏ

### *MƏLUMAT*

1917-ci il siyahıya almasına görə, Qars vilayətində 394 min adam yaşayırdı: müsəlman – 205 min, erməni (Türkiyə ermənilərindən başqa *) – 85 min (hazırda 20 min Şimali Qafqazdadır), yunan – 48 min, rus – 31 min (hazırda 12 minə qədəri Şimali Qafqazdadır), başqa millətlər – 5 min.

1918-ci ilin yazında türklərin Qars vilayətinə hücumu zamanı müsəlmanlar, 3 rus və 15-20 yunan kəndi istisna olmaqla, demək olar, bütün əhali vilayətdən qaçmış və yalnız türklər Qars vilayətindən çıxdıqdan və vilayətdə əhalini öz yerlərinə qaytarmağa çalışan millətlərarası hökumət –Milli Şuraya malik Cənub-Şərq Respublikası elan edildikdən sonra əhali oraya qayıtmağa başlamışdı. 1919-cu ilin yazında ingilislər bu hökuməti həbs etmiş, bütün hakimiyyət isə erməni milli partiyalarının nümayəndələrinə, əsasən daşnaksakanlara verilmişdir. Bu vaxtdan etibarən Erməni Respublikası yaradılmağa başlanmışdır.

Daşnaklar qeyri-erməni əhalinin ermənilərdən azı 3 dəfə artıq olduğu Qars vilayətində müvəffəqiyyətlə Erməni Respublikası yaratmaq üçün qanlı yol seçdilər. Bu məqsədlə onlar kaqtoqonlardan – oğrular və quldurlardan mauzerçilər adı altında partizan dəstəsi yaradaraq onlara quldurluq və soyğunçuluqla məşğul olmaq üçün tam sərbəstlik verdilər, qoşunlar isə yenicə qayıdıb gəlmiş və heç nə ilə silahlanmamış qeyri-erməni əhalini *tərk-silah etməyə (silahsızlaşdırma –X.İ.)* başladılar; müsəlmanlar isə qaçmamalarına baxmayaraq, hələ bundan əvvəl ingilislər tərəfindən tərk-silah olunmuşdular.

İlk növbədə erməni hökumətinin hərəkətlərinə müqavimət göstərməyən Saqanluq məntəqəsinin Kekyaç, Todluçrisi, Karaqamda, Ortokola, Alakelesə və s. kəndləri** tərk-silah edildi. Lakin bu tərk-silahın nəticələri belə oldu: həmin kəndlərdə bir nəfər də sakin qalmadı, bir hissəsi qırılıb-çatıldı, qadınlar zorlandı, uşaqlar və qocalar çaylarda batırıldı, yaxud yandırıldı, bütün mülkiyyət isə indi orada yaşayan mauzerçilərin ailələrinə qaldı.

Bu ilin yanvar və fevral aylarında hökumət Zəruşad məntəqəsinin Mamaş, Kaznafor, Kamorvan, Gegerçi, Kmbat və s. kəndlərərini tərk-silah etməyə başladı. Hava şəraiti də erməni mauzerçilərinə sərfəli idi: qaşan müsəlmanlar 25-30 dərəcə şaxtada donub çöllərdə qaldı.

Hal-hazırda erməni hökuməti Olti və Kağızman məntəqələrinin dinc əhalisi ilə müharibə aparır. İndi müsəlmanlar birləşmişlər və erməni qoşunlarına böyük müqavimət göstərirlər, lakin silahları olmadığına görə məğlub olurlar.

Moskva hadisələrindən*** sonra ruslar və yunanlar etibarsız ünsürlərə aid edildilər. Talanlar və zorakılıq başlandı. Çox adam öldürldü və həbs edildi, qadınlar zorlandı. Yunanlar bu zülmə dözməyərək ev-eşiklərini tərk etdilər, daşınar əmlakı dəyər-dəyməzə satdılar və indi Gürcüstana gedirlər. Özü də hökumət onlara öz əmlaklarını qızıla, Nikolay pullarına və bonlara satmağı qəti qadağan etmişdi. Onlar əmlaklarını yalnız çeklərə sata bilərdilər, bunları isə heç yerdə pula dəyişmirlər. Buna görə də yunanlar pulsuz-parasız köçüb gedir və yollarda aclıq çəkirlər. Acından ölmə halları da olmuşdur.

O ki qaldı rus əhalisinə, onlar hələ də erməni mauzerçilərinin zülmü altındadırlar. Heç kim torpağı şumlamır və başqa işlər görmür, bunu hədər zəhmət hesab edirlər. Əslində, işləmək də mümkün deyil: atları yığırlar, taxıl yoxdur, hökumət rus əhalisinə həftədə adam başına ¾ funt Amerika taxılı verir. Əhali pencərlə qidalanır. Acından ölmə halları çoxdur. Bundan başqa, hökumət atları yığaraq cəbhəyə göndərmiş, əhalini pulsuz olaraq duz daşımağa, cavanları isə hərbi hissələrdə işləmək üçün səfərbər etmişdir. Atların və əkinçilik alətlərinin olmadığı və günün günortaçağı mauzerçilər tərəfindən qarət edilmək və öldürülmək təhlükəsinin qaldığı bir şəraitdə, belə hadisələr kəndlərin həndəvərində hər gün baş verir, rusların əkdikləri taxılı da, çox güman ki, yığmaq mümkün olmayacaqdır. Payızda rus məktəblərinin 2/3-si işləməyəcək, belə ki, yerli hakimiyyətin xəyanətkar kimi təqib etdiyi müəllimlər qaçıb getmişlər, onların əmlakı müsadirə olunmuşdur. Hətta gizlənənlərin ələ verilməsini tələb etmək üçün onların qohumlarının girov götürülməsi halları da var.

O ki qaldı yeni müəllimlərin gəlməsinə, bu, böyük çətinliklərlə bağlıdır: gəlmə ziyalılar hakimiyyət tərəfindən nəzarət altına alınır və azacıq şübhə doğurduqca, onları geri qaytarırlar.

Daşnakların zorakılığından və özbaşınalığından danışarkən aşağıdakı hadisələri göstərmək olar:

1. Əvvəllər Blaqodarnoye kəndindən 820 baş mal-qara, 210 at, 2/3 milyon manat pul təzminat almışdılar; kənd bir aya yaxın bir rota (*bölük* –X.İ.) əsgəri yedizdirmişdi, indi isə 500 pud yağ verməlidir. Bir neçə adam öldürülmüş, hakimiyyət tərəfindən təqib olunanların çoxu qaçıb dağılmışdır.

2. Novosəlim kəndindən 20 at, 80 öküz, 17 pud yağ alınmış, bir rota əsgər bir ay kəndin hesabına dolanmışdır, 35 at arabası arabaçılarla birlikdə cəbhəyə, 5 at arabası isə duz daşımağa göndərilmişdir, 15 qadın zorlanmış və kəndxuda öldürülmüşdür.

3. Vladiqars kəndindən 18 at, 5 öküz və 30 qoyun alınmışdır.

4. Novopetrovka kəndində 22 at, 40-a qədər qaramal və davar oğurlanmış və zorla alınmışdır. Günün günortaçağı kəndin yaxınlığında 4 at və furqon götürülmüş, 4 kişi öldürülmüş, bir qadın və onun 10 yaşlı qızı zorlandıqdan sonra döşləri və cinsi orqanları kəsilmişdir. Kəndin nümayəndələri cinayətkarların adlarını göstərməklə qubernator Karqanyansa şikayət etdikdə isə şallaqla döyülmüşlər.

Başqa kəndlərdə də vəziyyət belədir. Bütün bu qarətçiliyin və təzminatların dözülməzliyi bir də ondadır ki, rus əhalisi buralara yaxınlarda qayıtmışdır, son dərəcə müflisləşmişdir və özünü güclə dolandırır. Məsələn, Novosəlim kəndində cəmi 100 at var idi, onlardan 20-ni zorla aldılar, 35-ni cəbhə üçün, 18-ni isə arabaya qoşmaq üçün götürdülər.

Açıq-aşkar qarətçilikdən əlavə, gecə oğurluğu və soyğunçuluğu var, onlardan qorunmaq mümkün deyil, belə ki, əhalidəki silah hakimiyyət tərəfindən yığılmışdır və silah saxlamaq qəti qadağandır. Hakimiyyət isə əhalinin şikayətlərinə məhəl qoymur, üstəlik onları söyərək – "Siz bolşeviklərə belə lazımdır" – deyir.

Böyük Ermənistan bax belə yaradılır, Qarsın divarları proletariatın qanına və göz yaşlarına bulaşmışdır. 205 min müsəlmandan sərhədyanı zolaqda 50 mini qalmışdır, yunanlar tamamilə çıxıb getmişlər; ruslar qalmışlar, onlar da nəzərlərini Şimala dikmişlər. Bütün əhali bizdən xahiş edib ki, ən qısa müddət ərzində köçmək imkanlarını aydınlaşdıraq, o vaxta qədər isə artıq dərəcədə xahiş edirlər ki, Qars vilayəti əhalisinin həyatını daşnakların zorakılığından qorumaq üçün Sizdən asılı olan bütün tədbirləri görəsiniz.

Bu məqsədlə Sizdən habelə xahiş edirik ki, tezliklə Şimali Qafqaza getməkdə bizə kömək göstərəsiniz.

Qars vilayəti Rus Milli Şurasının üzvü Nümayəndə-müvəkkil
9 iyun 1920-ci il.****
**(1: v. 14-15).**

**Qeydlər:**

* Qars vilayəti əhalisinin ümumi sayından göründüyü kimi, yerli ermənilər 20 min idi.

** Təhrifə yol verməmək üçün yer adlarının yazılışı arxiv sənədində olduğu kimi saxlanmışdır.

*** Çox güman ki, 1920-ci il mayın 7-də RSFSR ilə Gürcüstan arasında bağlanmış sülh müqaviləsi nəzərdə tutulur ( 2: s. 55-61).

**** Bu arxiv sənədi haqda ilk bilgini tarix elmləri namizədi Vaqif Ağayev vermişdir. O, sənədin məzmunu iki dildə təqdim edərkən ruscasında tarix olaraq 9 iyul 1920-ci il göstərilmişdir **(2: s. 61). Biz isə bu unikal sənədin özünü arxivdən əldə edərək, müəyyənləşdirdik ki, göstərilmiş tarixlərdən "9 iyul 1920-ci il" doğrudur, başqa sözlə sənədin məzmununun azərbaycancasında qeyd olunmuş "9 iyun" "9 iyul" kimi oxunmalıdır. Sənədin özünə gəldikdə isə, bu kitabımızın növbəti dörd səhifəsində onun surətini sizə təqdim edirik. Xatırladırıq ki, həmin sənəd ilk dəfə bizim kitabda dərc olunur.**

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası MDƏYTA, f. 28, siyahı 1, iş 171. *(ЦГАНИ Азербайджанской Республики, ф. 28, оп. 1, д. 171.)*

2. "Azərbaycan Diplomatiyası" elmi dərgisi, Bakı, 1993.




**BU YAXINLARDA QARS VİLAYƏTİNDƏ BAŞ VERMİŞ HADİSƏLƏR HAQQINDA RSFSR-in GÜRCÜSTANDAKI SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİNƏ *MƏLUMAT (SƏNƏDİN ÜZÜ)***



К о п и я.

14

Д О К Л А Д Н А Я  З А П И С К А.

Полномочному Представителю Р.С.Ф.С.Р. в Грузии о ~~последующих~~ недавних событиях в Карсской области.

Всего населения в Карсской области, по переписи 1917 года, проживало 394 тысячи человек: из коих мусульман 205 тысяч, армян / без турецких / 85 тыс. / из них в настоящее время 20 тыс. на Северном Кавказе/, 48 тысяч греков, 31 тыс. русских / из коих в настоящее время до 12 тыс. на Северном Кавказе / и 5 тыс. всех остальных национальностей.

Весной 1918 года во время вторжения турок в Карсскую область, почти все население за исключением мусульман, 3-х сел русских и 15-20 сел. греков / Гельского участка /, бежало из области и стало возвращаться после того, как турки оставили Карсскую обл. и она была объявлена Юго-Восточной Республикой с межнациональным Правительством Милли-Шурой, которое стремилось возвратить население на свои места. Весною 1919 года это Правительство англичанами было арестовано, а полнота власти передана представителям армянских национальных партий, главным образом дашнакцаканам. С этого времени начинается создание Армянской Республики.

Для успешности создания Армянской Республики в Карсской обл., где населения не-армянского в 3 раза больше армянского, дашнаки избрали кровавый путь. С этой целью они организовали партизанов из кагтагонов-воров и разбойников под названием „маузеристы", дав им полную свободу грабежа и разбоя, а войска приступили к разоружению не-армянского населения, хотя оно только что водворилось и не было ничем вооружено, мусульмане же хотя и не убегали, но англичанами до этого уже были разоружены.

Первыми стали разоружаться села Сагануугского участка: Кекяч, Тодлучриси, Карагамда, Ортокола, Алакелеса и др. которые действиям армянского правительства не ~~[illegible]~~ сопротивлявшиеся. Но результаты этого разоружения были следующие: ни в одном из указанных сел не осталось ни одного жителя, частью бежали, частью были перебиты, женщины изнасилованы, дети и старики потоплены в реках или сожжены, а все имущество осталось в пользу семейств маузеристов, которые и сейчас живут там.

В январе и феврале текущего года Правительство присту[...]
разоружению сел Зарушадского и Шурагельского участков: [...]
Казнафор, Каморван, Гегерчи, Кибат и т.д. Результаты были [...]
только на помощь армянам-маузеристам: был еще 25°-30° моро[з ...]
торий устилал трупами степи богатые мусульман.

В настоящее время Армянским Правительством ведется во[йна с]
мирным населением в участках Ольтинском и Кагызманском. [Те]
перь уже мусульмане сорганизовались и дают большие отпо[р ар]
мянским войскам, хотя за неимением оружия за неимением о[...]
все же остаются побежденными.

После Московских событий под неблагонадежный элемент п[...]
русские и греки. Начались погромы и насилия. Много убито, [...]
ствано, женщин изнасиловано. Греки не выдержали такого [...]
бросили свои очаги, за бесценок отдали движимое имущество [и]
уходят в Грецию. При чем при покупке власть строго запре[щает]
продавать на золото, николаевские деньги и боны, но на че[...]
которые нигде не размениваются, и греческое население уез[жает]
без гроша денег, и по дороге голодает. Были случаи голодно[й смер]
ти.

Что же касается русского населения, то оно пока еще то[...]
под игом маузеристов. Никто не пашет и никаких других раб[от]
не производит, считая это все равно напрасным трудом. Да и не [...]
но работать: лошадей отбирают, хлеба нет, Правительство выд[ает]
американского хлеба русскому населению по ¾ фунта на душу [в]
неделю. Население питается травой. Много случаев голодной с[мер]
ти. Кроме всего этого Правительство мобилизовало мужчин на бесплат[ные]
работы по перевозке соли, лошадей на фронт в батарею и пул[...]
и молодых людей для обслуживания в войсковых частях. Хлеб [...]
[...] засеянный русским населением, тоже по всей вероятност[и]
не будет убран за неимением лошадей, земледельческих оруд[ий и]
опасности быть ограбленным и убитым маузеристом, что случа[ется]
ежедневно, около сел среди дня. Школы русские к осени до [...]
будут функционировать, так как учителя разбежались, преследуе[мые]
властями, как изменники, имущество их конфисковано и да[...]
[...] случаи арестов [...] заложников [...]





Что же касается приезда новых учителей, то это связано с большими трудностями: приезжая интеллегенция берется властью под надзор и за маловажное подозрение в неблагонадежности выселяется обратно.

Говоря об отдельных случаях дашнакского насилия и произвола можно указать следующие случаи:

1/ С села Благодарного раньше взыскали контрибуцию в 820 голов рогатого скота, 210 лошадей, 3½ миллиона рублей денег; кормило село около месяца роту солдат и теперь еще обложено на 500 пудов коровьего масла. Несколько человек убито, многие разбежались, преследуемые властью.

2/ С сел Ново-Селим взято 20 лошадей, 8 быков, стояла рота солдат I месяц на продовольствии села, 17 пудов коровьего масла, возложено отбывание подвод на фронте в 35 лошадей с людьми и 5 подвод на перевозку соли, изнасиловано 15 женщин и убит старшина. 3/ Село Владикарс лишилось 18 лошадей, 5 быков и 30 шт. овец.

4/ В селе Ново-Петровка украдено и отобрано: 22 лошади, до 40 шт. крупного и мелкого скота. Около села среди дня взято 4 лошади, фургон, убито 4 человека мужчин, изнасилована женщина и ея 10 летняя дочь, у которых отрезали груди и половые органы. На жалобу Губернатору Кабраньяну с указанием лиц-преступников Представители села получили в ответ плети.

В таком же положении находятся и другие села. Все эти грабежи и контрибуции еще тем не выносимы, что русское население возвратилось не так давно, разорено до нитки и теперь с трудом перебивается. Например, в сел. Ново-Селим всего около 100 лошадей, а из них 20 отняли, 35 взяли на фронт и 18 в подводы. На село Благодарное наложили 500 пуд. масла, когда у них взяли 820 голов скота и теперь осталось всего навсего коров 120 шт.

Кроме открытого грабежа идут ночные воровства и разбои, защищаться же против них нет возможности, так как оружие все у населения отнято властью и строго запрещается иметь таковое. На жалобы же населения власть не принимает мер, но еще обсыпает руганью и словами: " так Вас и нужно, большевиков."



Вот как создается великая Армения. Кровь и слезы пролл
риата залили стены Карса. Вместо 205 тыс. человек мусул
осталось только в пограничной полосе не больше 50 тыс.,
целиком ушли и остались русские, которые тоже все взоры
направили на Север. Все население просило нас выяснить
ность переселения в самом непродолжительном времени, до то
времени просить Вас принять все зависящие от Вас меры к ог
дению жизни от насилия дашнаков населения в Карской облас

С этой целью просим Вас также способствовать нам скоре
проезд на Северный Кавказ.

Член Русского Национального Совета Карской области
/ подпись./

Представитель-Уполномоченный / подпись./

2-го Июля 1920 года

С подлинным верно:
Секретарь



## ERMƏNİLƏRİN RUSİYAYA ƏRAZİ İDDİALARI: İKİNCİ "QARABAĞ" HAZIRLAYIRLAR?

**Şimali Qafqazda yaşayan ermənilərin bir qrupu təşkilat yaradaraq, onu milli azadlıq cəbhəsi adlandırmışdır. Bu təşkilat öz müraciətlərini Rusiya və Ermənistan prezidentlərinə, ABŞ senatına və BMT-yə, habelə Ermənistanın hüdudlarından kənarda yaşayan ermənilərə və Rostov vilayətinin, Stavropol və Krasnodar diyarlarının rəhbərlərinə göndərmişdir.**

**Göstərilən qrup həmin sənədlərdə Şimali Qafqazla bağlı tələblər irəli sürərək iddia edir ki, Şimali Qafqaz Ermənistanın ayrılmaz tərkib hissəsidir. Lakin hazırda Şimali Qafqazı "Böyük Ermənistan"la "birləşdirmək" mümkün olmadığından, müraciətlərin müəllifləri buna kömək göstərilməsini xahiş edirlər ki, Rostov vilayətinin, Stavropol və Krasnodar diyarlarının ərazisində erməni muxtariyyəti yaradılsın.**

Sənədləri "təşəbbüs qrupu" deyilən qrupun adından A. Melik-Tevosyan, protokolları isə həmçinin A. Aqababyan imzalamışlar.

Bəs "birləşmə" uğrunda mübarəzənin hansı forma və metodlarından istifadə etmək təklif olunur? Bu sual Şimali Qafqazın erməni milli azadlıq cəbhəsi "təşəbbüs qrupu"nun iclasının 4 nömrəli protokolunun əvvəlində göstərilmişdir. Həmin protokolda təxminən aşağıdakılar deyilir:

"Birinci məsələ barəsində Yerevandan olan məsul əməkdaşın məlumatı dinlənilmişdir. O, Rusiyada hadisələrin inkişafı haqqında və Rusiya rəhbərliyində kadr dəyişiklikləri ilə əlaqədar ermənilərin siyasi faydaları haqqında Moskvadan alınmış məlumatları oxumuşdur. Məruzəçi Zaqafqaziyada vəziyyəti araşdırmış, Qarabağ ermənilərinin milli azadlıq hərakatındakı nailiyyətlərini qeyd etmiş, Rusiya qoşunlarının komandanlığını düşmənə kömək göstərməkdə təqsirləndirmişdir.

Daha sonra məruzəçi Şimali Qafqaz bölgəsində yaşayan ermənilər arasında işi kəskin şəkildə fəallaşdırmağın labüdlüyünü nəzərə çarpdırmışdır. Fəaliyyətin forma və metodları Dağlıq Qarabağda aparılan işin forma və metodları ilə eyni olmalıdır.

Şimali Qafqaz torpaqlarının Ermənistana məxsus olduğuna dair tarixi faktlara əsaslanan materialların əvvəlcə yerli mətbuatda, sonra da vilayət və respublika qəzetlərində ardıcıl surətdə dərc edilməsinə nail olmaq lazımdır. Ermənilərin yaşadığı (yaxşı olar ki, əhalisinin azı 25 faizi ermənilər olan) hər bir yaşayış məntəqəsində Şimali Qafqaz erməni milli azadlıq cəbhəsinin təcili qaydada özəkləri yaradılmalıdır. "Təşəbbüs qrupu" bu özəklərin ciddi uçotunu (*hesab, qeyd-yazıya alınma* –X.İ.) aparmalı, onları ədəbiyyatla, xəritələrlə, çıxışların tezisləri və mətbuat üçün hazır məqalələrlə müntəzəm olaraq təchiz etməlidir.

Bu işdə ermənilərə-velikorus şovinizminin güclənməsi nəticəsində vəzifələrindən azad edilmiş keçmiş nomenklatura işçilərinə xüsusi diqqət yetirmək nəzərdə tutulur. Təcrübəli, savadlı və eyni zamanda, incik düşmüş kadrlardan istifadə olunması asan iş deyildir. Lakin bu zaman onların əlaqələrini və nüfuzunu nəzərə almaq gərəkdir.

Hazırda yüksək vəzifələr tutan erməniləri, kommersiya strukturlarının nümayəndələrini göstərilən tədbirlərin maliyyələşdirilməsinə cəsarətlə cəlb etmək lazımdır. Məruzəçinin dediyinə görə, Yerevan və diaspor xeyli vəsait ayıracaqlar.

Lazım gələrsə, bilavasitə yerində əməli kömək göstərmək üçün bölgəyə mütəxəssis və təlimatçılar göndəriləcəkdir. Çox ehtiyac olarsa, yerli özəkləri silahla və digər müdafiə vasitələri ilə təchiz etmək, habelə son dərəcə çətin yerlərə "fədai"lər göndərmək üçün imkan var.

Məruzəçi axırda qeyd etmişdir ki, görülən tədbirlərin hamısı məxfi xarakter daşımalı, sənədlər etibarlı yerlərdə saxlanmalı və təhlükə yaranarsa, dərhal ləğv olunmalıdır.

"Təşəbbüs qrupu"nun iclasında qərara alınmışdır ki, "Şimali Qafqazın hər bir yaşayış məntəqəsində erməni milli azadlıq cəbhəsinin özəklərinin yaradılması sahəsində təşkilat işi genişləndirsin. Habelə son dərəcə zəruri halda yerli erməni gənclərə gizli müharibə aparmağı öyrətmək üçün Şimali Qafqaza təlimatçılar göndərilməsi haqqında ASALA-nın Yunanıstandakı və İrandakı rəhbərlərinə xahişlə müraciət edilsin".

"Təşəbbüs qrupu"nun digər iclasında qərara alınmışdır ki, "aşağıdakı şəxslər cəbhənin təsis yığıncağının fəxri qonaqları kimi dəvət edilsinlər: G.Şahnazarov, Y.Bonner, K.Brutents, S.Sitaryan, S.Kaputikyan, Z.Balayan, S.Sarkisyan, S.Xanzadyan, S.Ayvazyan, L.Ter-Petrosyan, B. Arakyants, R.Koçaryan, L.Petrosyan, L.Kurginyan, Ş.Aznavur".

Bu "dəvət"in belə möhtərəm cənablara çatıb-çatmadığı bizə məlum deyildir. Amma bir şey tamamilə aydındır – başı müsibətlər çəkən ölkəmizdə ikinci "Qarabağa" yol vermək olmaz.

**S.ALEKSEYEV.**

*("Русский вестник", №2, 1993-cü il.)* – ( 1: s. 70-73).

**Qeydlər**: Bu kitabın çapa hazırlandığı vaxtdan bir müddət qabaq Rusiyanın Budyonovsk şəhərinin erməni icması və bu ölkədə fəaliyyət göstərən erməni kilsəsi ermənilər tərəfindən qurulduğunu iddia etdikləri adı çəkilən şəhərə tarixi "Surb xaç" adının qaytarılması məsələsini qaldırıblar (*yeri gəlmişkən, onu da yada salaq ki, "xaç" sözünün ermənilərə heç bir aidiyyəti yoxdur və bu, türk sözüdür. Həm xaç sözünü, həm də xaçın özünü ermənilər başqa xalqlardan almışlar* – X.İ.).

Bu yaxınlarda da Ukraynanın Lvov şəhər şurasının deputatı Vardkez Arzumanyan ***Lragir.am*** internet saytına müsahibəsində 6 min nəfərlik erməni icmasının adından çıxış edərək, Lvov şəhərinin adının dəyişdirilməsi və "Aryuts" qoyulması haqda məsələ qaldıracağını bildirib. V. Arzumanyan da Lvov şəhərinin əsasının ermənilər tərəfindən qoyulduğunu iddia edərək, Erməni Apostol Kilsəsinin Ukrayna Yeparxiyası və Ermənistanın Ukraynadakı səfirinin bu niyyətin gerçəkləşməsi üçün əllərindən gələn köməyi əsirgəməyəciyinə əmin olduğunu söyləyir – ( 2 ).

**Ədəbiyyat:**

1. "Azərbaycan Diplomatiyası" elmi dərgisi, Bakı, 1993.
2."Ermənilər Ukraynanı qarışdırır" adlı redaksiya məqaləsi. "Hürriyyət" qəzeti, Bakı, 29 yanvar 2008-ci il.



## QARABAĞDA ERMƏNİLƏRİN RUSLARA MÜNASİBƏTİNƏ DAİR

Qarabağ məsələsinin həm rəsmi səviyyədə gündəmə gətirilməsində, həm də Azərbaycan torpaqlarının işğalında ruslardan siyasi-hərbi dəstək alan ermənilərin ruslara əslində münasibəti nədən ibarətdir. Belə bir suala aydınlıq gətirmək üçün ermənilərin bölgədə xidmət aparan rus hərbçilərinə qarşı cinayətkar hərəkətlərə diqqət yetirmək lazımdır. Əlbəttə, bu cinayətkar hərəkətlər barəsində də yenə bizlər deyil, məhz ruslar özləri rəsmi bilgi verməkdədirlər. Söhbət Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin 1990-cı ildə komendantı, SSRİ DİN Baş İdarəsinin Qarabağda dislokasiya olunmuş daxili qoşunlarının komandan müavini general-mayor Qenrix Malyuşkinin *Trendə* açıqlamalarından gedir:

**Trend əməkdaşının sualı:**

–"Erməni silahlıları tərəfindən öldürülən qurbanlar sırasında sizin hissənin rus əsgərləri də var idimi?"

**General-mayor Qenrix Malyuşkinin cavabı:**

–" Mənim Dağlıq Qarabağda olduğum müddətdə erməni silahlıları tərəfindən 30 nəfər rus hərbi qulluqçusu öldürülmüş, 200 nəfərdən çoxu isə yaralanmışdır" **(1: s.117).**

General-mayor Qenrix Malyuşkin *Trendə* verdiyi geniş müsahibəsində **(1: s.115-125)** 1993-1994-cü illərdən etibarən Qarabağla bağlı xatirələrini qələmə aldığını və bu xatirələri Rusiyanın tanınmış nəşrləri olan «Правда», «Правда России», «Московская правда», «Щит и меч» qəzetlərində və «На боевом посту» jurnalında çap etdirdiyini bildirir **(1: s.121)...**

*Qenrix Malyuşkinin açıqlamasına dair şərhə lüzum görmürük. Necə deyərlər, görünən dağa nə bələdçi?!*

**Ədəbiyyat:**

1. "Xocalı soyqırımı rabitəçilərin yaddaşında" (məsləhətçi: *akademik Əli Abbasov*, redaktor: *Müşviq Əmirov*, tərtibçi: *Camaləddin Dostəli*), Bakı, 2009.

# ƏLAVƏ BÖLÜM

## QAFQAZ İSLAM ORDUSUNUN XİLASKAR HƏRBİ ƏMƏLİYYATLARI

### Gəncə ermənilərinin tərk-silah edilməsi

Türk hərbi hissələrinin (5-ci Qafqaz firqəsinin) əsas bölükləri Gəncəyə yetişənədək birinci məsələ olaraq Nuru paşa buradakı ermənilərin silahsız hala gətirilməsini qarşıya qoydu.

Xatırladaq ki, o vaxt Gəncə çayından şərqdə yerləşən erməni məhəllələrində 20 mindən artıq erməni yaşayırdı. Bu ermənilər 600 nəfərlik (pulemyotlarla, başqa atıcı silahlarla silahlanmış və normal hərbi təchizata malik) tabora sahib idilər **(1: s. 556)**.

Nuru paşanın əmrinə əsasən 9-cu Qafqaz alayı və mürəttəb *(toplanmış, müxtəlif yerlərdən yığılmış* –X.İ.) 2-ci süvari alayından ibarət olan Gəncə dəstəsi **(2; 3: s.24)** iyunun 10-da gecə saat 23.30-da qərargahı mühafizə məqsədilə ayrılmış pulemyot *(makinalı tüfəng* –X.İ.) bölüyünün bir taqımı istisna olmaqla, yerdə qalan qüvvələrlə Gəncə ermənilərinin tərk-silah edilməsi üçün hərəkətə keçdi. Gəncə dəstəsi Gəncə çayının batı yönü ilə Yelenendorf (və ya Helenendorf; sonralar Xanlar, indi Göygöl) istiqamətində irəliləyib sonra halqavari hərəkət xətti cizərək erməni məhəllələrini arxadan *(doğu yöndən)* mühasirəyə almağa çalışdı. O zaman Yelenendorfdakı əsas əhali vaxtilə bura köçürülmüş almanlardan ibarət idi və onların da 4 pulemyot və başqa silahlarla təchiz olunmuş taborları var idi. Əks halda tərk-silah olunacağını görən bu alman taboru türklərin ultimatumundan sonra, onlara qoşuldu. Alman taboruna türk komandan təyin edildi və bu tabor Zurnabad-Hacıkənd xəttində yerləşdirilərək, Gəncə ermənilərinin ətrafla əlaqələrini kəsmiş oldu **(4: s.28-29)**.

Bunun ardınca, 4 erməni müşahidəçisini və keşikçisini əsir götürdükdən sonra erməni məhəlləsinə təslim olma təklifi ilə iki zabit göndərildi. Ermənilər isə bu zabitlərə atəş açaraq bütün qüvvələri ilə hücuma keçdilər. Onlar Gəncə dəstəsinə aid bölmələri, özəlliklə də 9-cu Qafqaz alayının bölmələrini mühasirə etməyə cəhd göstərdikdən sonra, təhlükənin ciddiliyini nəzərə alan Gəncə dəstəsi komandanlığı bölmələri geri çəkmək əmrini verdi. Bu uğursuz döyüşdə Gəncə dəstəsindən 13 nəfər şəhid oldu, birisi zabit olmaqla 7 nəfərsə yaralandı **( 5 )**.

Gəncə dəstəsi geri çəkilərək etibarlı mövqelər tutub erməni çətələrinə silahla cavab verməyə davam etdi. Sonra Yelenendorfdan olan bir alman vasitəsilə ermənilərə xəbər göndərildi ki, təslim olmasalar Gəncədəki erməni məhəllələri toplarla darmadağın ediləcək, tutulanlar isə edam olunacaq. Ermənilər bu ultimatuma müsbət cavab versələr də, vədlərinə xilaf çıxdılar.

11 iyun uğursuzluğundan sonra Türk-Azərbaycan komandanlığı qətiyyətli addımlar atmasaydı, yaranan psixoloji disbalans *(müvazinət pozulması* –X.İ.) növbəti uğursuzluqlara, kim bilir, bəlkə də Azərbaycan məsələsinin birdəfəlik bütün gündəliklərdən çıxmasına gətirib çıxara bilərdi.

Ona görə də iyunun 12-də Gəncə dəstəsinin bölmələrini erməni məhəllələrinə istiqamətləndirərək, eyni zamanda toplardan bu məhəllələrə xəbərdarlıq atəşləri açıldı: top mərmilərinin azlığına və açılan atəşlərin sərrast olmamasına baxmayaraq ermənilər top atəşlərinin davam etdiriləcəyindən qorxaraq tərk-silaha razılıq verdilər **(4: s.32)**...



***

Qaynaqların verdiyi bəzi bilgilərə görə, o vaxt alman-gürcü qüvvələri də Qafqaz İslam Ordusuna arxa cəbhədən təhlükə törədə bilərmiş **( 6 )**.

İyunun 24-də Şərq Ordular Qrupu komandanı Vəhib paşanın Nuru paşaya göndərdiyi iki teleqramda bu ehtimal qeyd edilir və Qazax, Zaqatala sınırlarının möhkəm tutulması, müdaxilə edən qüvvələrə silahla cavab verilməsi əmr olunurdu **( 7 )**.

Xatırladaq ki, Almaniyanın Bakı (Azərbaycan, Qafqaz) məsələsinə müdaxiləsi üzündən türk-Azərbaycan birləşmələri ilə alman qüvvələri arasında toqquşmalar da baş vermişdi **(8: s. 183-187)**.

**Ədəbiyyat:**


1. Birinci dünya harbinde türk harbi Kafkas cebhesi *(türk qynaqları gah "cebhe", gah da "cephe" yazırlar –X.İ.)* 3-cü Ordu harekatı. c. 11, Ankara, 1993.
2. ATASE, k. 3823, d. 22, f. 7-3.
3. Bilen Tayyar. Kafkas Azerbaycan Harekatı və Bakünün kurtulması. "Azerbaycan" dergisi, eylül-ekim 1990.
4. Rüştü. Büyük Harpde Bakü yollarında 5. Kafkas piyade fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. 1934, №34.
5. ATASE, k. 3819, d. 6, f. 2.
6. ATASE, k. 3823, d. 22, f. 2; k. 3819, d. 6, f. 2-2.
7. ATASE, k. 3827, d. 38, f. 2, 2-1.
8. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.


### Göyçay çevrəsindəki döyüşlər

Hələ Bakı Sovetinin 22 (9) fevral 1918-ci il tarixli iclasında müzakirə olunan Yelizavetpol və Yevlax yaxınlığındakı hadisələr – döyüş bölgələrindən tərxis olunaraq Gəncə üzərindən qatarla hərəkət edən əski çar Rusiyasına məxsus (*heyətinin əksəri ermənilərdən və ruslardan ibarət* –X.İ.) hərbi eşelonların müsadirəsinə cəhd və əsgərlərin Gəncə ətrafındakı kəndləri darmadağın etmələri hadisəsi Şaumyanın dengəsini pozmuşdu **(12; 13: v.93)**. O, bu hadisələrin gələcək inkişafını sülhməramlı missiya ilə yoluna qoymağı təklif edən "Armotvod"un (*ordunu ötürmə, çəkilməsini təşkil etmə vəzifəsini daşıyan təşkilat* –X.İ.) nümayəndəsi yoldaş Tulpanın mövqeyini tənqid edərək, bölgəyə sülhməramlı elçi taqımı deyil, cəza dəstəsi göndərmək lazım olduğunu bildirirdi. Şaumyan məsələnin baiskarı olaraq Gəncə Müsəlman Milli Komitəsini və Zaqafqaziya Komissarlığını hədəfə alırdı:

"Nə qədər ki Zaqafqaziya Komissarlığı və başında bəylərin, xanların durduğu Yelizavetpol Müsəlman Milli Komitəsi mövcuddur, hansı ki, erməni-tatar qırğınlarını təşkil etmişdi, bu olaylar təkrarlana bilər" **(12; 13: v.93-94)**...

Adı çəkilən iclasdakı çıxışçılardan biri – yoldaş Mudrıy bildirirdi ki, Gəncə hadisələrində 12 əsgər həlak olmuşdur **(12; 13: v.95-96)**...

Şaumyan tərxis olunan həmin hissələrin Batumdan Tiflis üzərindən qatarla daşınmasına öz hakimiyyətinin devriləcəyi qorxusu ilə razılıq verməməsini də Zaqafqaziya Komissarlığı hökumətinin qeyri-səmimiliyi kimi qiymətləndirirdi **(12; 13: v.95)**...

Ümumilikdə, Şaumyan siyasi-ideoloji çıxışlarında, o sıradan, Bakı Sovetinin yığıncaqlarındakı nitqlərində özünü demokrat kimi təqdim edərək, 1917-ci il Fevral

Burjua İnqilabından cari dövrədək Qafqaz öndərlərinin, o sıradan Zaqafqaziya Komitəsini, daha sonra – Oktyabr Devrimindən sonra yaranmış Zaqafqaziya Komissarlığı hökumətini formalaşdıran şəxslərin (Gegeçkori, Çxenkeli, Jordaniya, Papacanov, Cəfərov, Xasməmmədov, Xan Xoyski...) fəaliyyətini tənqid etməklə Qafqazın fövqəladə komissarı kimi özünün sosial bazasını gücləndirmək istəyirdi. Həmin liderləri Qafqazı milli bölücülüyə (erməni, gürcü, tatar separatizminə) və anti-sosialist yönlərə sürükləməkdə suçlayır, populistcəsinə geniş kasıb kütlələrinin hisslərinə ümid edirdi (13: v.109-110).

Ancaq Şaumyan kütlələri Zaqafqaziya Komissarlığına qarşı qoymağa çalışmaqla yanaşı, həm Gəncədəki bəy-xan dayaqlarını, həm də Tiflis hökumətini silahla məhv etmək məqsədini Bakı Sovetinin əsas məqsədlərindən biri kimi hesab edirdi.

Rusiyadan nə qədər silah-sursat və canlı qüvvə yardımı edilsə də, "Armotvod"un nümayəndəsi Tulpanın da yığıncaqda dediyi kimi, Bakı Sovetinin bu məqsədi həyat keçirmək üçün addım ata biləcəyi hələ ki real görünmürdü (13: v.94-95)...

Sonralar, S.Şaumyan V.Leninə yazdığı bir məktubda "...Bakıdakı vətəndaş müharibəsindən dərhal sonra az qüvvələrlə" də olsa, Gəncəyə doğru hərəkət etmədiklərindən təəssüfləndiyini bildirərək, onlar üçün Gəncə, sonra da Tiflis üzərinə yerimə planının hələ də gündəmdə qaldığını ifadə edirdi (1: s.519).

S.Şaumyanın birbaşa sərəncamında olan 18 minlik bolşevik ordusunun da 60-70%-i ermənilərdən ibarət idi (2: s.144).

Rusiyadan iyunun əvvəlində 12 ədəd dörd düyməlik top, onun heyəti, Tula zavodundan çox sayda pulemyot..., Xəzər hərbi donanmasının gücləndirilməsi üçün üç keşikçi gəmisi və üç minadaşıyan gəmi də Bakı Sovetinə əlavə dəstək məqsədilə göndərilmişdi (3: s.38-40).

İyun ayının sonlarında Ter-Qabrielyan Rusiyadan 4 ədəd zirehli avtomobil, 13 ədəd təyyarə, çoxlu silah-sursat gətirsə də, Bakı XKS əlavə olaraq 2-3 diviziya, 6 ədəd təyyarə, 6 ədəd zirehli avtomobil, 180 pulemyot, bir neçə top, 18 milyon tüfəng gülləsinin, 25 min dəst hərbi geyim və s. hərbi ləvazimat göndərilməsini də xahiş edirdi (4: s.103).

Mühəndis – istehkam işlərinin gücləndirilməsi üçün Q.Korqanovun əmri ilə iyunun 3-də 5 tikinti dəstəsi və 4 fəhlə arteli təşkil edilməyə başlandı. ( 5: v.16 ).

Q. Korqanovun 8 saylı əmrinə əsasən iyunun 6-da 1-ci Qafqaz Qırmızı Korpusu dəmiryolu boyunca Hacıqabuldan qərbə tərəf hücuma keçməliydi (5: s.6).

**Ancaq bu hücum iyunun 10-da başlandı, erməni-bolşevik qüvvələrinin qarşısında o zaman müsəlman və gürcü korpuslarının (Seymə məxsus) birgə qüvvələri dayanmışdı. Həmin birləşmələrə qərargahı Ucarda yerləşən gürcü knyazı, polkovnik Maqalov komandanlıq edirdi. Müştərək qüvvələrin sayca xeyli az hissəsi Kürdəmir ətrafında yerləşdirilmiş, sərəncamında bir neçə top da olan bu bölüklərə polkovnik Qlebov rəhbərlik edirdi** (6: s.190).

Xatırladaq ki, müsəlmanlarla müştərək olan gürcü korpusunu vaxtilə Seym hökuməti göndərmişdi və məqsəd Şaumyangilin Gəncə üzərinə yürüşünü önləmək idi. Əks halda, sonra növbə Tiflisə gələ bilər, Qafqaz respublikalarının, o sıradan da müstəqilliyə ilk can atan və özünə bu istiqamətdə Almaniya kimi arxa görən Gürcüstanın da istiqlaliyyəti əldən gedə bilərdi...

İyunun 11-də erməni-bolşevik ordusu Sığırlı stansiyasındakı milli qüvvələrimiz üzərinə hücum çəkərək stansiyanı asanlıqla işğal etdi (1: s.507).

Düşmənin üstün qüvvəyə malik olduğunu, ona əlavə yardım gəlməkdə davam etdiyini, Hacıqabul və Qarasu stansiyalarında çox sayda erməni-bolşevik birləşmələrinin toplandığını nəzərə çatdıraraq Həbib bəy Səlimov buraya yeni qüvvələr göndərilməsi haqda Ə.Şıxlinskiyə müraciət etmişdi ( 7 ).



İyunun 11-14-ü aralığında Gəncədəki türk bölükləri oradakı erməni çətələrinin və erməni əhalisinin silahsızlandırılması ilə məşğul olduğundan Gəncədən kömək gələ bilməzdi, nəticədə iyunun 12-də Kürdəmir kəndi və Kürdəmir stansiyası da düşmən tərəfindən tutuldu (1: s.507).

Yevlaxdakı Kürüstü körpüyə təhlükə yaxınlaşdığına baxmayaraq, Nuru paşa məsələni diqqətlə ölçüb-biçdikdən sonra Azərbaycana yenicə gələn 10-cu Qafqaz (*Türk* -X.İ.) alayının hissə və bölmələrini Ağstafadan birbaşa qatarla Ucara, oradan isə Qaraməryəm səmtinə göndərtdirdi (8: s.192).

Müsəlman korpusunun zirehli qatarı isə Müsüslü-Kürdəmir istiqamətinə göndərildi (4: s.110).

Ərkani-hərb rəisi Nazim bəy də ora ezam edildi.

Gəncədən bir süvari bölüyü və Cavad məntəqəsindəki minbaşı Nazim Ramazanovun dəstəsi də Müsüslü dəstəsinə daxil edildi (9: s.34-35).

Əlavə yardımla bağlı ehtiyaclar haqqında Nuru paşa Vəhib paşaya məlumat göndərdi.

Ərkani-hərb rəisi Nazim bəyin 15 iyunda Müsüslü cəbhəsindən Nuru paşaya ünvanladığı xəbərdə isə onun keçirdiyi tədbirlərdən rahatsız olan gürcü və rus teleqrafçılarının gecə ikən dəstədən fərarilik etmələri bildirilir, bu sahə üzrə mütəxəssis göndərilməsi xahiş olunurdu (9: s.35). Qaraməryəm ətrafına gətirilmiş Qafqaz Qırmızı Ordusunun 1-ci və 3-cü briqadalarına, ümumilikdə bölgədəki erməni-bolşevik birləşmələrinə Qaraməryəmlə Göyçay arasında olan erməni kəndlərinin silahlı bölükləri də dəstək verirdi. O bölükləri zərərsizləşdirmək məqsədilə 10-cu Qafqaz alayının 30-cu taboru iyunun 15-də Mollaisaqlı və Sultankənd istiqamətlərinə göndərildikdən sonra erməni silahlı çətələri Kalaker kəndi yönünə geri çəkildilər (9: s.42).

İyunun 16-da səhər saat 9-da erməni-bolşevik qüvvələrinin 3-cü briqadasının bölükləri azərbaycanlı, gürcü və dağıstanlılardan ibarət dəstə üzərinə həmlə edərək 7 saatlıq döyüşdən sonra Qaraməryəmi tutdu (8: s.194-195).

İyunun 17-də düşmən hərbi birləşmələri Müsüslü səmtinə doğru irəliləməyə çalışsa da, itkilər verərək geri çəkilməyə vadar oldu (1: s.514).

İyunun 18-də Ordu ərkani-hərb rəisi Nazim bəy və Göyçaydakı 10-cu Qafqaz alayının komandanı Osman bəy firqə qərargahı və baş komandanlıqla razılaşdırmadan Göyçay ətrafındakı mövqelərdən şərqə doğru hücum qərarı verdilər. Tələskənlik, taktiki səhvlərə yol verilməsi, düşmən qüvvələrinin və onların mövqelərinin kifayət qədər öyrənilməməsi, habelə bu cür hücum əməliyyatını həyata keçirmək üçün lazımi ehtiyat qüvvənin yaradılmaması, cinah döyüşlərindən düzgün istifadə edə bilməmək və başqa amillər nəticəsində bu hücum türk-Azərbaycan qüvvələrinin məğlubiyyəti ilə nəticələndi. Bu döyüşlərdə 28-ci tabordan ehtiyat mülazimi (*ehtiyatdakı leytenant, ehtiyatdakı teymən* –X.İ.) Lütfü əfəndi itkin düşdü, 29-cu tabordan mülazimi-əvvəl (*kiçik leytenant, kiçik teymən* –X.İ.) İsmayıl Haqqı və mülazim Zəki əfəndilər, 30-cu tabordan mülazim Kazim və İbrahim əfəndilər şəhid oldular. Ümumilikdə isə 122 nəfər şəhid və itkin, 121 nəfər isə yaralanan vardı.

Bu uğursuz hücumda xeyli atıcı silah, mərmi və 2 ədəd top düşmənin əlinə keçmiş, bir sözlə, çoxlu silah-sursat itkisi verilmişdi (9 : s.46).

Həmin gün Müsüslü yaxınlığındakı toqquşmada isə 21-ci düşmən taborunun iki bölüyü savaşa bilməyib geri çəkildiyi üçün erməni-bolşevik rəhbərliyi bunu xəyanət kimi qiymətləndirib onları tribunal qarşısına çıxarmışdı (10: s.114)...

Nuru paşa Qaraməryəm ətrafındakı döyüşləri təhlil edərək, verilən insan tələfatını və iki ədəd topun itirilməsini ciddi hadisə kimi dəyərləndirməklə (9: s.47) Nazim bəyə, Osman bəyə və tabeçiliyindəki digər komandanlara xəbərdarlıq etmiş oldu.

Nuru paşa Göyçayda olarkən yerli əhali ilə də görüşüb, onlardan da dəstək istədi, qida, xüsusilə də su təchizatı məsələsini önə çəkdi, bir çox əsgərlərimizin ancaq susuzluqdan həlak olmasını diqqətə çatdırdı (**8:** s. 199).

Təbii ki, o, növbəti döyüşü uğurla başa çatdırmağı vacib hesab edirdi və buna görə Mürsəl bəyin qərargahı iyunun 20-də Göyçaya köçürüldü, könüllülərin (Bərdədən Yevlaxa 500 süvari, Ağdaşdan 2-3 min silahlı, Qazaxdan 800 süvari, Qazax və Gəncə ətrafından 4500 nəfərlik süvari və Göyçaydan atlı dəstəsinin),.Xaldana göndərilmiş hərbi bölüklərin, Gəncədəki bir Osmanlı süvari bölüyünün və 9-cu Qafqaz alayının iki bölüyünün, bundan əlavə, Gəncədəki 46-cı və 26-cı taborların, istehkam bölüyünün, Şnayder və dağ toplarının, 9-cu alayın pulemyot bölüyünün Mürsəl bəyin sərəncamına göndərilməsi planlaşdırıldı. (**9:** s.200).

Nuru paşa Nazim bəyə göndərdiyi teleqrafda Qutqaşın istiqamətindəki 20-dən artıq azərbaycanlı kəndini erməni-bolşevik çətələrinin viran qoymasını və bu barədə tədbirlər görülməsi zərurətini də qeyd edirdi (**9:** s. 48).

Müsüslü ətrafında toplanan hissə və bölmələr Müsüslü dəstəsi (müfrəzəsi) adlandırıldı və podpolkovnik (yarbay) Həbib bəy Səlimov onun komandanı təyin olundu. Nazim bəy Gəncəyə, qərargaha qaytarıldı. Həlledici hücuma hazırlıq işləri iyunun 27-də tamamlanmalı və 28-də hücum başlanmalı idi. Düşmən hazırlıq tədbirlərini duymasın deyə, Göyçay qəsəbəsindəki bütün ermənilər firqə qərargahının önündəki Aleksandr adlı erməni həkimin evinə toplayıb, onlara mühafizəçi qoydular. Bununla belə, erməni-bolşevik komandanlığı iyunun 26-da kəşfiyyat vasitəsilə türk – Azərbaycan qüvvələrinin hücum hazırlığı xəbərini duydu və onu önləyərək, üç taboru vasitəsilə iyunun 27-də səhər saat 6-da Göyçay-Qaraməryəm şosesi boyunca və bu yolun quzeyindən, iki piyada bölüyüylə isə ərazinin quzey tərəfindən 10-cu Qafqaz alayının sol cinahına hücum əmri verərək savaşa başladı.

Rüşdünün xatirələrində göstərildiyi kimi, bu zaman 10-cu Qafqaz alayı şose yolun quzeyində, 13-cü alay şose boyunca, Göyçay-Bığır arasında, köməyə gələn süvari və piyada könüllü qüvvələrsə Ləkiçilpaq və Qaraxızır məntəqələrində mövqe tutmuşdular. Erməni-bolşevik birləşmələri Göyçayın quzeyindən hücuma keçib Qafqaz İslam Ordusu bölüklərini qəfil mühasirəyə almaq və zərbə endirmək məqsədi güddüyü bəlli olan kimi azərbaycanlılardan ibarət könüllülərə Veysəlli səmtinə doğru hücuma başlamaq, cinahdan və arxadan düşmənə zərbə endirmək, habelə imkan olsa, Ağsu-Qaraməryəm yolunu kəsərək düşmənin geri çəkilməsinə mane olmaq buyuruğu verildi. Saat 10 radələrində düşmən birləşmələrinin 10-cu alayın sol cinahına keçmək təhlükəsi artdığı üçün ehtiyatdakı 25-ci tabor döyüşə qatıldı. 13-cü alaydan verilən raporta görə, düşmən qüvvələri bu alaya cinahlardan zərbə endirmək məqsədilə hərəkətə keçmişdi. 500 nəfərlik düşmən bölükləri Bığır istiqamətinə irəliləyir, 150 nəfərlik düşmən dəstələri isə Əlikənd məntəqəsinə soxulmuşdu. 13-cü alayın sağ cinahına əsasən azərbaycanlılardan ibarət olan 119 nəfərlik süvari və 188 nəfərlik piyada qüvvə köməyə göndərildi (**9:** s. 60).

Müsüslü dəstəsindən göndərilən bölmələrin qarşısını almaq məqsədilə işə düşən düşmən topları atlıların yardıma yetişməsini ləngitdi. Nəhayət, saat 15-də Bığır istiqamətində irəliləməyə nail olmuş erməni-bolşevik qüvvələrinin hərəkəti dayandırıldı, bununla da düşmənin qəfil zərbə vurmaq niyyəti gerçəkləşə bilmədi. Sonra 10-cu Qafqaz alayı əks-hücuma keçərək düşməni 3 km geriyə çəkilməyə məcbur etdi. Əlikənd və Veysəlli kəndləri də Qafqaz İslam Ordusunun tam nəzarətinə keçdi (**9:** s. 60-61).

27 iyun döyüşü, yuxarıda sadalanan məlumatlardan da göründüyü kimi, türk-Azərbaycan qüvvələrinin ilk ciddi uğuru idi və hərbi-psixoloji yönlərdən çox əhəmiyyət kəsb edirdi (**8:** s.199-203).

İyunun 29-da səhər tezdən Qafqaz İslam Ordusunun şose yolu boyunca həmlə edən 13-cü alayının və 10-cu alayın əməliyyatları daha uğurlu oldu, düşmən şərqə tərəf



geri çəkildi. *Bu döyüşdə azərbaycanlı atlı dəstəsinin Veysəlli kəndi səmtindən çox böyük sürətlə savaşa girməsi isə türk zabitlərini də heyrətə gətirmişdi* (**9:** s.62)...

Axşam saat 18.15-də düşmənin məğlubiyyəti ilə bitən döyüşdən sonra, gözlənilmədən gecəylə Göyçayın şimalındakı Pezəvənd kəndinə hərəkət etmiş Əmirovun (Əmiryanın) 1000 nəfərlik dəstəsi iki top və iki pulemyotla səhər saat 6.15-də qəflətən saldıraraq Göyçayın quzey məhəllələrini tutdu.

Bütün qüvvələrin irəli cəbhədə olmasından və Göyçayda heç bir müdafiə dəstəsi qalmamasından düşmən dərhal istifadə etmiş, Göyçay əhalisi isə hər bir şeyi ataraq Ucar və Ağdaş istiqamətinə qaçmışdı.

Sonra Qazaxdan, Ağdaşdan və Qaraməryəm ətrafından Göyçaya müvafiq qüvvələr cəmləndi.

300 süvari ilə Yevlaxa gələn Nazim bəy oradan Nuxadakı keçmiş türk əsiri miralay Yusif bəyə göstəriş verdi ki, təlim edərək ətrafına cəmlədiyi Azərbaycan könüllüləri ilə Qumlax-Padar istiqamətinə doğru yürüsün (**8:** s.204-208).

Nazim bəy sonra Ləki stansiyasına gəldi. O, bölgədəki vəziyyətlə tanış olduqdan sonra, Nuru paşaya verdiyi məlumatda Bərgüşad stansiyasına əlavə qüvvələrin göndərilməsinin zəruri olduğunu bildirdi.

Təcili tədbirlər həyata keçirildikdən sonra türk-Azərbaycan qüvvələri Əmirovun (Əmiryanın) dəstəsinə ağır zərbə vuraraq, onu iki top və iki pulemyotu da döyüş meydanında buraxaraq, 5-6 km geri çəkilməyə məcbur etmişdi (**8:** s. 208).

Ağdaş və həvalisi (çevrəsi –X.İ) komandanının Nuru paşaya göndərdiyi 1 iyul tarixli raportda da vəziyyətin qənaətbəxş olduğu bildirilir: "Düşmənin səhər Göyçay üzərinə hücumunu təhlükəli görərək bir süvari bölüyü və bir piyada dəstəsi və kifayət qədər camaatla həmən Göyçayın qərbindəki Ərəbkəndinə yürüdüm. Düşmən şimala atılmışdır. Dəstələr şimala doğru hərəkət edərək düşmənin Göyçaya həmləsinin qarşısını almışdır. Dəstə Nazim bəylədir. Göyçay əhalisi Göyçayı təxliyyə etmişdir. Düşmən Göyçayı topa tutsa da dağıntı çox deyil" (**11**).

Yekun olaraq bildirək ki, Göyçay və Qaraməryəm çevrəsində 27-30 iyun zaman kəsiyində baş verən gərgin savaşlar erməni-bolşevik ordusunun məğlubiyyəti ilə nəticələndi və düşmən Ağsuya tərəf geri çəkilməyə məcbur oldu (**8:** s.210).

**Ədəbiyyat:**

1. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг. Баку, 1957.

2. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана в начале XX века. Баку, 1991.

3. Военные моряки в борьбе за советов в Азербайджане и Прикаспии. Баку, 1971.

4. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957.

5. Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi (SPİH MDA), f. 303, siy.1a, iş 2.

6. 26 Бакы комиссарлары. Бакы, 1958.

7. ATASE, k. 3827, d. 40, f. 8-3.

8. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.

9. Rüştü. Büyük Harpde Bakü yollarında 5. Kafkas piyade fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. 1934, № 34.

10. Кадишев А.Б. Интервенция и гражданская война в Закавказье. Москва, 1960.

11. ATASE, k. 3827, d. 38, f. 5.

12. Газета «Известия совета рабочих и солдатских депутатов Бакинского района», Баку, № 44, 9 марта (24 февраля) 1918 г.
13.ARPİİSSA f.276, siy.3, iş 209.

## Ağsu və Kürdəmir çevrəsindəki döyüşlər

İyunun 30-da Ənvər paşanın əmri ilə 38-ci piyada alayının və bir dağ topçu taborunun Azərbaycana göndərilməsindən əvvəl, iyunun 14-də S.Şaumyan V.Leninə göndərdiyi teleqramda L.Biçeraxovun öz dəstəsi ilə bir həftə ərzində Azərbaycana yetişəcəyini bildirirdi.

Sərəncamında 1500 nəfər Kuban və Terek kazakı olan Biçeraxov İrandan Azərbaycana hərəkət edərkən isə Qəzvin və Ənzəli arasında Kiçik xanın dəstələri onun qarşısını kəsməyə çalışıb bir müddət ləngitdilər.

Denstervilin qeydlərinə görə, iyulun 1-də, hələ Türk qüvvələri Kürü keçməmişkən, L.Biçeraxov Kür çayı üzərindəki körpünü tutaraq türklərə ciddi maneə yaratmaq istəyirdi (1: s.217, 219).

Ancaq əvvəlki bölümdəki qeydlərimizdən də göründüyü kimi, general Denstervil bu məsələdə yanılır. Çünki iyulun 1-də Biçeraxov öz dəstəsi ilə İranda gəmilərə minməzdən əvvəl türk-Azərbaycan qüvvələri nəinki Yevlaxda Kürü keçmiş, üstəlik Göyçay-Qaraməryəm ətrafında erməni-bolşevik birləşmələrinə ilkin "dərs" də vermişdilər.

İyulun 6-da L.Biçeraxov erməni-bolşevik qüvvələrinin komandanı elan edilərək sol cinaha göndərildi. Cəbhənin mərkəzi hissəsi və sağ cinahının komandanlığı isə birbaşa hərbi və dəniz komissarı Q.Korqanovun öz əlində idi (2: v.1).

Nuru paşa arxa cəbhəni təhlükədən qorumaq məqsədilə Qarabağdakı erməni çətələrinin cilovlanması və Culfa-Ordubad yolu ilə Şuşaya silahlı dəstə göndərilməsi üçün Şərq Orduları Qrupu komandanlığına müraciət etdi.

Bundan başqa Şəki, Qutqaşen, Göyçay və Şamaxı bölgəsindəki ermənilər də Qafqaz İslam Ordusuna qarşı təcavüzkarlığı gücləndirmişdilər. Qayabaşı və Söyüdlü kəndlərinin erməniləri Göyçay savaşlarından da öncə fəallaşmışdılar. Döyüş bölgəsi çevrəsində arzuedilməz ehtimalları önləmək üçün Nuru paşa bu savaşlardan sonra Nazim bəyə buyuruq verdi ki, Ağdaş, Xaldan və Nuxadakı qüvvələrə ümumi rəhbərlik edərək Söyüdlü və Qayabaşı ermənilərinin təcavüzkarlığını aradan qaldırmaq üçün gərəkli tədbirlər görsün.

İyulun əvvələrində Qayabaşı və Söyüdlü məntəqələrindəki erməni dəstələri darmadağın edildi. Nic və Söyüdlü iyulun 12-də İsmayıl Həqqi (*Haqqı* – X.İ.) bəyin komandanlığındakı Şəki dəstəsi tərəfindən nəzarətə götürülmüşdü.

Qayabaşıdan qaçıb silahı yerə qoymayan ermənilərin təqib və tərk-silah edilməsi üçün Xaldan dəstəsinin komandanına da müvafiq əmr verildi.

Ümumilikdə həm Xaldan dəstəsi komandanı, həm də Gəncə mövqe komandanı Cəmil Cahid bəy Şəki-Qutqaşın istiqamətində erməni çətələrinin törədə biləcəyi təhlükəni önləmək üçün Nuru paşadan əmr almışdılar (1: s. 220-221).

İyulun 2-də Pezəvənd və Qırdadul kəndləri tutulduqdan sonra oradakı erməni çətələri Əmirvan və Bəylərkənd yönünə çəkildi, türk-Azərbaycan qüvvələri İvanovka ətrafında da mövqe tutdu, iyulun 3-də ermənilərin dayaq nöqtələrindən sayılan Çanaqbulaq kəndi də ələ keçirildi.

Ağdaş mövqe komandanı minbaşı Ehsan bəyin bildirdiyinə görə, son əməliyyatlarda onun dəstəsindən də 100 nəfərlik kömək göndərilmişdi.

İvanovkada tələyə düşən erməni-bolşevik çətələri qorxularından iki topun birini döyüş meydanında qoyub qaçmışdılar.



İyulun 1-dən 4-dək Qaraməryəm ətrafındakı erməni qüvvələrinin əzilməsi və tərk-silah edilməsi uğrunda gedən əməliyyatlarda 7 zabit, 39 əsgər şəhid olmuş; 9 zabit və 93 əsgər yaralanmış; bir zabit, 74 əsgər isə itkin düşmüşdü (1: s. 221-222).

5 iyulda Ağsu-Kürdəmir xəttinin ələ keçirilməsi üçün türk-Azərbaycan qüvvələri əməliyyatlara başladı. Məsələnin ciddiliyinə görə Nuru paşa özü də Gəncədən Ağsu cəbhəsinə yollanmışdı.

İyulun 6-da 10-cu və 13-cü alaylar savaşa uğurlu hücum əməliyyatları ilə başladılar. Düşmənin istifadəsindəki zirehli maşınlar və bir hərbi təyyarə də nəticəyə mane ola bilmədi: 13-cü alay günorta artıq Ağsuda idi, sonra da irəliləyərək Şamaxı yolunun yoxuşunadək düşməni təqib etdi. 10-cu alay da Şamaxıya doğru qaçan qüvvələri güclü şəkildə əzişdirdi və Gürcüvanı ələ keçirib orada mövqe tutdu. Geri çəkilən və qaçan erməni-bolşevik birləşmələri bir səhra topu, bir cəbbəxana arabası, 5 ədəd pulemyot, 30-a qədər atıcı silah, talan edilmiş məhsullarla dolu 10-15 nəqliyyat arabası və s.-ni döyüş meydanında buraxmalı oldu.

İyulun 6-da Ağsu cəbhəsindən köməyə gəlmiş 46-cı piyada taboru ilə mürəttəb süvari alayından ibarət Həsən bəyin dəstəsi Ağsu və Kürdəmirdə mövqe tutmuş düşmənin Qaraqoyunlu məntəqəsində əlaqəsini kəsdi.

İyulun 7-də düşmən də L.Biçeraxovun dəstəsini və zirehli avtomobilləri Müsüslü cəbhəsinə göndərməklə Kürdəmir ətrafında dairəvi formada güclü müdafiə xətti yaratdı. Kürdəmirin qüzey istiqamətində yolüstü Qarasaqqal kəndi Həsən bəyin qüvvələri tərəfindən ələ keçiriləndən dərhal sonra, Q. Korqanovun S.Şaumyana göndərdiyi teleqramdan da aydın olduğu kimi, düşmənin 1-ci briqadası, Biçeraxovun dəstəsi və Təlimatçılar Məktəbinin bölmələri bu istiqamətə göndərilmişdi.

Ərazidə olan bataqlıq sahələr də düşmənin müdafiə imkanlarını artırırdı.

İyulun 8-də bu istiqamətdəki 12 saat sürən döyüşlər sonucunda Həsən bəyin dəstəsindən 5 nəfər şəhid verilmiş, 12 nəfər yaralanmış, Müsüslü dəstəsindəki Azərbaycan milli qüvvələrindən 8 nəfəri şəhid olmuş, 2-si zabit olmaq üzrə 12 nəfər isə yaralanmışdı. Müsüslü dəstəsinin sərəncamına verilmiş 60-cı tabordan isə şəhid sayı 5 nəfər, yaralı sayı 50-dən artıq idi.

Kürdəmirin qaytarılması üçün bu istiqamətdə aparılan ilk döyüşlərdə Qafqaz İslam Ordusunun canlı qüvvə itkisi daha çox idi.

İyulun 8-də Kürdəmir cəbhəsində gecəyə qədər gedən ağır döyüşlərdən sonra 13-cü alay gecəni İbrahimbəyli və Qarasaqqal məntəqələri arasında keçirməyə məcbur oldu. Müsüslü dəstəsilə savaş zamanı zirehli qatardan və Kürdəmir ətrafındakı yaşıllıqlardan (təbii maneələrdən) istifadə edən düşmən müqaviməti uğurla təşkil edə bilmişdi (1: s. 222-227).

Şamaxı ermənilərindən ibarət 800 nəfərlik taborun da fəal qoşulduğu döyüşlər və Qarakənd, Mədrəsə ermənilərinin göstərdiyi yardımlar sonucunda qüvvələrimiz geri–Ağsunun 10 km-liyinə atıldı. Şamaxı səmtindəki Meysarı və Mədrəsə yörəsində də gərgin keçən döyüşdən sonra 10-cu alay arxaya – Şərədil dağlarına tərəf çəkilməyə vadar oldu (1: s. 227).

İyulun 10-da 13-cü alayın atlı dəstəsi gecəykən Kərrar stansiyasına gedərək dəmiryolu xəttini dağıtdı ki, düşmən geri çəkiləndə daha çox çətinliklə üzləşsin. Qazaxda toplanaraq Bərgüşada göndərilmiş 350 nəfərlik atlı dəstəsinin də iştirak etdiyi savaşda 13-cü alay çox çətinliklə də olsa, düşmənin iradəsini qıraraq Kürdəmiri ələ keçirdi.

Şamaxı cəbhəsində də iyulun 10-12-də erməni-bolşevik qüvvələrinin hücumu dəf edilmiş, vəziyyət normallaşmışdı.

İyulun 12-13-də Müsüslü dəstəsi Kərrar stansiyasını ələ keçirmək üçün gərgin döyüşlərə başladı. Stansiyanın 400 metrliyinə yaxınlaşsa da, düşmənin müdafiə imkanları (2 zirehli maşını, 8 ədəd topu, zirehli qatarları və b.) və təbii şərait bu stansiyanı götürməyə mane oldu. Ancaq Qarasaqqal kəndi düşməndən təmizləndi.

Nəhayət, 14 iyulda Kərrar stansiyası da türk-Azərbaycan qüvvələri tərəfindən geri alındıqdan sonra erməni-bolşevik birləşmələri Sığırlı stansıyasına çəkildi (1: s.227-228, 230-231).

İyulun 14-də S.Şaumyanın yenidən cəbhə bölgəsinə gəlməsi, L. Biçeraxovla planlar cızması, V.Leninə, İ.Stalinə əlavə hərbi və başqa yardımlar üçün müraciət etməsi və sonra Rusiyanın yenidən göstərdiyi müvafiq hərbi yardımlar da vəziyyəti dəyişə bilmədi (1: s.229, 231).


Ədəbiyyat:

1. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.
2. Az. MDA, f. 970, siy. 1, iş 1.


## Şamaxı və Hacıqabul bölgəsindəki hərbi əməliyyatlar

Dövrümüzün görkəmli hərb tarixçisi Mehman Süleymanovun araşdırmalarından bəlli olur ki, Kərrar stansiyası ətrafında döyüşlər getdiyi zaman düşmən Salyan bölgəsində hərbi şəraiti mürəkkəbləşdirərək türk-Azərbaycan qüvvələri ilə növbəti döyüş zərurəti yaratmışdı.

Erməni-daşnak Ter-Avakimovun komandanlığı altında olan erməni-bolşevik qüvvələrə qarşı Nazim Ramazanovun başçılığı ilə (ona azərbaycanlı zabit Sultan Hüseynzadə də kömək edirdi) 35-40 nəfərlik, iki "maksim" pulemyotuna və iki topa malik bölmə və Sərxan Şirvanlının könüllülər dəstəsi savaşmalı olmuşdu.

Türk qaynaqlarındakı bilgiyə görə, o vaxt Qırmızı Ordu dəstəsinin tərkibində 50 nəfərlik atlı bölüyü, 400 piyada, 12 pulemyot, 2 top və iki gəmi var imiş. Bundan başqa, Hacıqabulda qərar tutan iki hərbi təyyarə də hər gün türk-Azərbaycan birləşmələrinin Salyan mövqelərini bombardman edib geri qayıdırmış. 100 nəfər salyanlı könüllünün də qoşulduğu Qafqaz İslam Ordusu bölməsi Qaraqaşlı kəndini tutaraq orada müdafiə mövqeyi yaratmış, 3 gün ərzində erməni-bolşevik qüvvələrin hücumunu dəf etmişdi. Qırmızı Ordu birləşmələri Salyanı güclü top atəşinə tutmuş və bu güclü dağıntılara səbəb olmuşdu. Onların 3-4 dəfə hücum çəkərək Qafqaz İslam Ordusu bölməsini darmadağın etməyə çalışması da, əks nəticə vermişdi. Çox böyük üstünlüyə malik olsa da, düşmən hərbi birləşmələri döyüşlərin 4-cü günü böyük itkilər sonucunda Salyandan geri çəkilmişdilər. Ter-Avakimovun əmri ilə, əsasını ermənilər təşkil edən 3-cü tabor geri çəkildikdən sonra, törətdikləri soyqırımı cinayətlərinin məsuliyyətinə görə türklər qarşısında cavab verəcəkləri təhlükəsindən qorxan ermənilər xəstələri, yaralıları, silah və hərbi təchizat ləvazimatlarını atıb qaçmışdılar.

Türk hərbçilərinin yardımı sayəsində Xıllı kəndi erməni-bolşevik birləşmələrindən təmizləndikdən sonra geriyə qaçan və Bankə məntəqəsində toplaşan bu azğın ünsürlər üzərinə 1918-ci ilin iyul ayının sonlarında edilən sürətli və sərrast hücum nəticəsində onlar tamamilə darmadağın oldu. Döyüşdən salamat çıxıb qaçanlar isə hərbi əşya və vasitələri döyüş meydanındaca buraxaraq Kür çayındakı gəmilərlə dəniz yolu ilə Bakıya üz tutdular.

Kürün mənsəbi azad edildikdən və orada bir neçə gəmi və barj batırıldıqdan sonra gələcəkdə yeni erməni-bolşevik qüvvələrinin Kür üzərində ciddi təhlükələr yaratması, o cümlədən Yevlaxdakı Kürüstü körpüyə qorxu törətməsi ehtimalları aradan qalxdı (1: s.233-234).



Salyan bölgəsində düşmən qüvvələrinin zərərsizləşdirilməsi Bakı üzərinə iki istiqamətdə irəliləyən türk-Azərbaycan qüvvələrinin arxa cəbhəsinə təhdid imkanlarını da kifayət qədər azaltmışdı. Əks halda, Göyçay-Şamaxı şose yolu və Tiflis-Bakı dəmir yolu boyunca hərəkət edərək getdikcə bir-birindən uzaq düşən Qafqaz İslam Ordusu bölükləri Şamaxı üzərinə hücum çəkərkən və ya başqa əməliyyatları həyata keçirərkən inamla savaş apara bilməz, uğur qazanmaq ehtimalları məchula dirənərdi.

Nuru paşa ilə zəruri məsləhətləşmələrdən sonra Şərq cəbhəsi komandanı Mürsəl bəyin komandanlığı ilə iyulun 19-da Şamaxı üzərinə hücum qərarı qəbul edildi.

İyulun 19-na keçən gecə Şamaxı çevrəsinə yağan güclü yağış dağ şəraitində irəliləməni çətinləşdirdiyindən Nuru paşanın gözlədiyi kimi 13-cü alay Ağsu bölgəsindəki döyüşqabağı mövqelərindən Göylər kəndinə, sonra Şamaxının doğu səmtinə deyil, Mədrəsə məntəqəsinə çıxmağa məcbur oldu. Nuru paşa isə Şamaxı-Bakı yolunu tutaraq, geri çəkilmək istəyən erməni-bolşevik qüvvələrinin yolunu bağlamaq, onların sonralar Bakının müdafiəsini gücləndirəcək qüvvələrə qatılmasını önləmək üçün ya məhv, ya da əsir edilməsi əmrini vermişdi (1: s. 235-238).

Buna baxmayaraq, istər 13-cü alay, istərsə də Gürcüvan kəndi ətrafındakı mövqelərdən birbaşa Şamaxıya doğru hərəkət əmri almış 10-cu Qafqaz piyada alayı vurduğu zərbələrlə erməni-bolşevik qüvvələrinin durumunu çox çətinləşdirmişdilər deyə, artıq saat 11-dən etibarən düşmən qüvvələri geri çəkilməyə başlamış, saat 16.35-də isə kütləvi şəkildə Şamaxı səmtinə qaçmışdılar (1: s. 236).

İyulun 20-də də yağışın çətinlik yaratmasına baxmayaraq Şimal qrupu Çuxanlı-Məlikçoban xətti yörəsindəki mövqelərə çıxaraq düşməni əhatə etməyə yönəlik döyüşlər apardı. Uğursuzluğa düçar olan düşmənin bir topu, üç topalağı, iki pulemyotu, bir zirehli və daha iki hərbi avtomobili, 15 sandıq güllə və başqa döyüş vasitələri ələ keçirildi ( 2 ).

Şamaxı bölgəsindəki düşmən dəstəsinin komandanı Qazarov belə hesab edirdi ki, Qafqaz İslam Ordusu bölmələri Mədrəsə civarından Acıdərə yüksəkliyi xətti ilə Mərəzəyə çıxmağa çalışır, ona görə də erməni-bolşevik gücləri Şamaxıda da dayanmayıb geri çəkilməyə davam etmək niyyətindəydi.

Doğrudan da, Cənub qrupu yayındırıcı döyüşlər aparmaq tapşırığı alsa da, Şimal qrupu iyulun 21-də təqibi davam etdirərək Mərəzəyə çıxmalı idi.

Mərəzə kəndi yaxınlığındakı yüngül bir döyüşdən sonra buranı da müdafiəsiz buraxıb qaçan erməni-bolşevik "qəhrəmanlarına" yerli xristian əhali də qoşuldu.

3-cü briqadanın komissarı təyin edilmiş A. Mikoyan və onun rəyi ilə həm də S.Şaumyan (Həştərxandan V.Leninə göndərdiyi teleqramda) bu biabırçı uğursuzluqlarda "satqınlıq" üzündən geri çəkilmək əmri verən 3-cü briqada komandiri Hamazaspı günahlandırırdılar (1: s.238-239).

Şimal qrupunun təqibindən qaçan düşmən qüvvələri Cəngini də keçib 6 verstlik məsafədə mövqe tutdular. (*Bununla da Cəngi çayına nəzarəti də əldə etmiş ordumuzun içməli su məsələsi də həll olundu –X.İ.*) İyulun 22-də Cənub qrupu da düşməni əzərək qovdu və Sığırlı stansiyasını ələ keçirdi. Bu qrupa aid Azərbaycan süvari dəstələri isə Padar stansiyasına daxil oldular və düşmən şərqə tərəf çəkildi (1: s. 240-241).

V.Leninin buyuruğu ilə Bakıdakı erməni-bolşevik qüvvələrinə Petrovun komandanlığı altında Ukrayna cəbhəsindən 780 nəfər yaxşı silahlanmış dəstə göndərildi (3: s.566).

Mehman Süleymanovun da qeyd etdiyi kimi, Bakını əsl sahiblərindən qorumaq üçün göndərilmiş Petrovun qüvvələri 100-200 atlı kazak dəstəsindən, 6 topçu batareyasından, Baltik və Qaradənizçilər bölüyündən, üstəlik, süvari kəşfiyyatçılar bölməsindən ibarət idi.

15 gün ərzində 10 minlik ordu toplayacağı vədi ilə ingilislərdən 180 milyon rubl alan, ancaq cəmi 600-ə yaxın adam səfərbər edən L.Biçeraxov isə S.Şaumyanın ona

bağladığı ümidləri çoxdan puça çıxardığından, hətta daha betəri-sonucda onun cəbhə komandanlığından çəkilməsindən, yerinə müvəqqəti olaraq erməni Avetisovun təyin edilməsindən sonra Petrovun dəstəsinin köməyi də S.Şaumyana az gəldiyi üçün iyulun 20-də (sonra 23-də, daha sonra 26-da) o, V.Leninə növbəti hərbi yardım haqda növbəti teleqramlarını göndərərək **(1:** s.242-244,247) son həyəcan "akkordlarını" Şimala çatdırmaqla özünün siyasi fəaliyyətinin siyasi elegiya ilə nəticələnəcəyini büruzə verməkdəydi.

Petrova gəldikdə isə, onun Voronej quberniyasında talançılıq və başıpozuqluqda ad çıxarmış dəstəsi haqda rəsmi məruzələr vaxtilə hətta V.Leninə qədər gedib çatdığından da aydındır ki, Bakını "müdafiə etmək" kimi ciddi vəzifələr belə komandanların səviyyəsində olan məsələ deyildi.

Ancaq bununla belə, sonralar–iyulun 24-də Petrov özü də S.Şaumyana və Q.Korqanova göndərdiyi məktubda erməni komandanları Əmirov (Əmiryan) və Hamazaspdan, rəsmi əmr olmadan qoşun hissələrini geri çəkmələri (əslində: *qaçmaları* –X.İ.) haqda şikayətlənərək sual edirdi: "Yoldaş Şaumyan və yoldaş Korqanov. Mən başa düşə bilmirəm insanların "xalq işi uğrunda canından keçmək" kimi böyük işə getdiyi cəbhəyə düşmüşəm, yoxsa allah bilir hara?.."

Bu halların aradan qalxmayacağı təqdirdə, Petrov Şaumyanla Korqanovu Moskvaya –Xalq Komissarları Sovetinə məlumat verəcəyi ilə hədələyirdi **(1: s.243,245).**

Qafqaz İslam Ordusunun Tiflis – Bakı dəmiryol xətti istiqamətində hücum əməliyyatları aparan Cənub qrupu hərəkat istiqamətlərindəki yaşayış məntəqələrini düşməndən azad edərək 26 iyulda Padara çatdı və Qarasu stansiyası da ələ keçirildi. Düşmən də arxaya çəkildikcə dəmir yollarını dağıdaraq türk-Azərbaycan qüvvələrinin irəliləmə sürətini aşağı salmaq, vaxt qazanmaq istəyirdi.

Kür çayı boyunda yerləşən Əhməd Həmdi bəyin dəstəsi ilə 26 iyulda əlaqə yaradılaraq, onların da Bakı üzərinə həmlədə iştirak edəcəyi bildirildi. Komandanlığın əmrinə əsasən Əhməd Həmdi bəyin dəstəsi Cənub qrupuna birləşmək üçün Hacıqabul-Bakı dəmiryol xəttinə doğru irəlilədiyindən erməni-bolşevik qüvvələri mühasirəyə düşəcəklərindən qorxaraq iyulun 26-da Hacıqabulu da tərk etməyə, Ələtə tərəf çəkilməyə məcbur oldular ki, bu haqda Bakıdan aldığı teleqramı V.Lenin iyulun 29-da Moskvada ÜRMİK-in, Moskva Sovetinin, Moskvanın fabrik-zavod komitələrinin və həmkarlar birliklərinin birgə toplantısında dərin təəssüflə oxumuşdu.

Qeyd edək ki, geri çəkilən düşmən qüvvələri Qarasu-Hacıqabul stansiyaları arasında 6 ədəd körpünü, Hacıqabul stansiyasındakı və ümumən, dəmir yolu üzərindəki lazımlı qurğuları və yanacaq sisternlərini (çənlərini) partlatmış, Qafqaz İslam Ordusuna əlavə çətinliklər yaratmışdı **(1: s.249-250).**

Vəziyyətin müşküllüyünü görən L.Biçeraxov da Cənub qrupu qarşısından tam geri çəkilərək **(4: s.234),** Biləcəri stansiyası ilə Xəzər dənizi arasında elə bir mövqe tutmuşdu ki, böhran anında qatar vasitəsilə Dağıstana doğru əkilə bilsin. Qəribə haldır ki, L.Biçeraxov heç vaxt bolşeviklərə etibar etməmiş, ingilis generalı Denstervil isə "bolşeviklərin Biçeraxova xəyanət etməsini və hətta onu tutub türklərə təhvil vermək niyyətində olmasını" önə çəkərək bu ağqvardiyaçı komandanın hərbi uğursuzluq yükünün əsas məsuliyyətini S.Şaumyan hökumətinin üstünə atmışdı **(5: s.175).**

Sonra hakimiyyətə gələn Sentrokaspi yönəticiləri də bolşevikləri Biçeraxova zəruri şərait yaratmamaqda suçlayırdılar **(6: v.3).**

Erməni-bolşevik rəhbərliyinə aid bilgilərdən aydın olur ki, Petrovun dəstəsindəki 780 nəfərdən cəmi bir neçə günlük döyüşdən sonra vur-tut 200 nəfər qalmış, 3 mindən çox erməni döyüşçüsü isə müxtəlif təchizat bəhanələri ilə qaçıb Bakıya sığınmışdı. Erməni-bolşevik ordu komandanı Avetisov şəhərdəki 160 min xristianın həyatını təhlükədə qoymamaq üçün ağ bayraq qaldıraraq türklərlə təslim olma təklifini irəli sürsə də **(3:** s.617) , bu təklif qəbul olunmamışdı.



Ancaq sonra, ayyarımlıq Sentrokaspi hakimiyyəti dövründə də yüksək vəzifə tutan Avetisov türklərə təslim olmaq təklifi verdiyini "təkzib" edərək, yeni hakimiyyətdə mövqeyinin zəifləməsinin qarşısını almağa çalışırdı **(6:** v.6**).**

İyulun 31-də Şaumyanın sədrliyi ilə Bakı XKS hakimiyyəti təhvil verdi. Avqustun 1-də "Sentrokaspi və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin Diktaturası" hakimiyyəti yaradıldığı bildirildi.

Hakimiyyəti təhvil verərək dərhal şəhərdən qaçmağa çalışan Bakı Soveti liderlərinin mindiyi gəmi "Sentrokaspi"nin sərəncamında olan Xəzər donanması gəmiləri tərəfindən geri–Bakıya qaytarılaraq həbs olundu. Həbs olunan erməni və erməniçi-bolşevik komissarlar Petrovun və Tatevos Əmirovun silahlı dəstələrinin təzyiqi ilə həbsdən buraxıldılar **(7 :** v.2**).**

**Ədəbiyyat:**


1. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.
2. ATASE, k. 3819, d.6, f.5.
3. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг. Баку, 1957.
4. 26 Бакы комиссарлары. Бакы, 1958.
5. Денстервиль. Британский империализм в Баку и Персии 1917-1918 г. Тифлис, 1925.
6. SPİH MDA, f. 303, siy. 1a, iş 18.
7. SPİH MDA, f. 303, siy. 1a, iş 14.


## Bakı şəhəri uğrunda döyüşlər

Avqustun 1-də türk-Azərbaycan qüvvələri Bakı şəhəri üzərinə hücumu davam etdirərək, şiddətli döyüşlərdən sonra saat 14. 30-da 763 rəqəmli hakim yüksəkliyi ələ keçirib, Qurd Qapısı məntəqəsindəki Sallaxana və Qışla ətrafındakı yüksəklərə qalxmış, şəhərin 2 km-liyinə yaxınlaşmış və Hacı Həsən kəndini də ələ keçirərək münasib mövqe tutmuş, müvafiq dəmiryol hissəsini də nəzarətə almışdı. Qeyd olunan əraziyə düşmənin zirehli qatarının gəlməsinin artıq qarşısı alınsa da, Şimal qrupunun hücumlarının kəsərini azaltmaq və onun həmlələrini vaxtındaca dəf etmək üçün Xəzər dənizindəki hərbi gəmilərin topları və "Sentrokaspi" hərbi hava qüvvələrinə məxsus üç ədəd bombardmançı təyyarə hadisələrə dərhal güclü şəkildə müdaxilə edirdi **(1: s.101-102).**

Mehman Süleymanovun qeyd etdiyi kimi, topçu cəbbəxanasındakı kasadlıq və Bakı komissarlarının tabeliçiyində olan qoşun bölmələrinin döyüşdə iştirakı ( o sıradan, Petrovun dəstəsinin Petrovski meydanında qurulmuş iki batareyasının aktiv fəaliyyəti) Qafqaz İslam Ordusunun Şimal qrupuna hücumları genişləndirmək imkanı vermədi.

Həm dəmir yolunun Ələt-Bakı hissəsi, həm də bu ərazidəki şose yolu Xəzərdəki "Sentrokaspi" gəmilərinə məxsus topların nəzarətində olduğu üçün Cənub qrupunun şəhərə doğru irəliləməsi müşkülə çevrilmişdi.

Ona görə də Nuru paşa avqustun 1-də Ələtdə mövqe tutmuş Cənub qrupu üçün alternativ marşrutla: Hacıqabul stansiyası-Nəvaimuğanlı-Ötəmki qışlağı-Çarbulaq-Güzdək yolu ilə şəhərə doğru irəliləməyi təklif edirdi **(2: s.266-267).**

Avqustun 2-də gecə başlayan döyüş bütün gün sürdü. Düşmənin gücləndiyi və ona köməyə əlavə qüvvələr gəldiyi məlum oldu **( 3 )**.

Nuru paşa şimaldan L.Biçeraxov tərəfindən, İrandan isə ingilislər tərəfindən Bakıdakı erməni-"Sentrokaspi" qüvvələrinə əlavə qoşunlar göndərildiyi haqda bilgilər alan kimi 15-ci firqənin bütünlüklə Azərbaycana göndərilməsi haqda yüksək komandanlıq qarşısında məsələ qaldırdı (4: s.576).

Nuru paşa İranın Ənzəli şəhərinə, oradan da Bakıya doğru hərəkət etmək istəyən ingilis qoşunlarının qarşısını kəsmək üçün İrandakı qeyrətli soydaşımız Kiçik xana silah və zabitlə kömək göstərmək zərurətini də komandanlığa çatdırdı ( 5 ).

Ancaq görünür Rəşti tutan Kiçik xana zəruri köməkliklər yetişmədiyindən o, ingilislərin qarşısını kəsməyə çalışaraq onları bir neçə gün ləngitsə də ingilislər Ənzəliyə hərəkət etmək üçün özlərinə yol açmağa nail olmuşdular (2: s.269-270).

Türkiyə arxivlərindəki sənədlərdə ingilislərin yardıma gəldiyini eşidərək Ağsu ətrafındakı erməni kəndlərindən səfərbər edilmiş 200 nəfərlik çətənin də baş qaldırdığı və onu yatırtmaq üçün Zaqataladakı bir milli süvari dəstəsinin Ağsu civarına göndərilməsi də qeyd olunur ( 6 ).

Avqustun 3-də "Sentrokaspi" hökuməti L.Biçeraxovdan teleqram aldı və çox sevindi. L.Biçeraxov tezliklə köməyə gələcəyini bildirirdi, ancaq Azərbaycanın şimalındakı türk-Azərbaycan qüvvələri ona imkan vermədi.

Milli könüllü qüvvələr türk zabitlərinin rəhbərliyi ilə Azərbaycanın şimalındakı erməni-bolşevik, biçeraxovçu (rusiyapərəst) qüvvələri əzərək bu bölgədən qovmaq üçün konkret əməliyyatlara başladılar. Türk zabiti minbaşı Səbri bəyin komandanlığındakı 1000 nəfərlik dəstə Qusarı tutaraq, bir bolşevik-gürcü bölüyünü əsir götürdü. Sonra üç istiqamətdən Qubaya hücum edilərək, avqustun 2-də Quba şəhəri geri alındı, düşmən qüvvələri Xaçmaza qaçaraq avqustun 8-dək müqavimət göstərməyə davam etdi. *(Xatırladaq ki, Quba üzərinə həmlədə Dağıstana yardıma gəlmiş Osmanlı ordusu 4-cü firqəsinin komandanı Şükrü bəy də iştirak edirdi.)*

Avqustun 8-də Xaçmaza gələn və oranı nəzarətə alan L.Biçeraxov türk-Azərbaycan qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini anlayıb, şimala doğru çəkildi və avqustun 15-də Dərbəndi tutdu (2: s.271-272).

Türk-Azərbaycan komandanlığına göndərdiyi xəbərdə özünün təkcə bolşeviklərə düşmən olduğunu bildirən hiyləgər L.Biçeraxov Quba, Bakı qəzalarının, Dağıstan vilayətinin xanlarına, bəylərinə və bütün müsəlman əhalisinə müraciətində isə əslində həm də Osmanlı, Azərbaycan qüvvələrinə düşman kəsildiyini büruzə verirdi. Üstəlik, müsəlmanların başının altına yastıq qoyaraq, onları silahsızlaşdırmaya, təslimçilik mövqeyi tutmağa vadar etmək məqsədilə yayılmış bu müraciətdə ermənilər əleyhinə ilğımvari, əslində yalançı, məchul bir hədə də var idi:

"...L.Biçeraxov erməniləri müdafiə etmir. O, ancaq Rusiyanı müdafiə edir. Əgər ermənilər günahkardırsa, bunu Baş komandan kimi L.Biçeraxovun Bakı, Dərbənd və Petrovskidə təyin etdiyi xüsusi məhkəmələr araşdıracaqdır. Əgər məhkəmə 10 min erməninin günahkar bilsə, onda L.Biçeraxov onların hamısını asacaqdır. Müsəlmanlardan heç kim bu məhkəməyə qədər silaha və zora əl atmamalıdır" (2: s. 272-274)...

Avqustun 4-də polkovnik Stoksun komandanlığı altında Ənzəli üzərindən hərəkət edən ingilis qüvvələrinin bir qismi Bakıya yetişdikdən sonra "Sentrokaspi" qoşunlarının Biləcəri və Binəqədi istiqamətindəki mövqeləri möhkəmləndirildi. Cənub qrupu Puta stansiyasına çatan kimi Bakı civarındakı türk-Azərbaycan birləşmələri də yenidən qruplaşdırıldı (2: s. 275).

Avqustun 5-də səhər saat 4.25-də başlayan döyüşlərdə öncə üstünlük Qafqaz İslam Ordusu bölmələrində idi. Düşmən geri çəkildikcə 13-cü alay Bayıl ətrafındakı strateji yüksəklikləri ələ keçirdi. Cəbhənin mərkəzində, Qurd Qapısı keçidi istiqamətində də savaş uğurlu gedirdi. Şimal qrupu düşmənin Qurd Qapısı dağı boyunca yerləşən birinci müdafiə səddini tutaraq, ikinci müdafiə xəttinə yaxınlaşırdı.



**Bakının alınacağı zamankı talelərindən qorxan bolşeviklər "Sentrokaspi" ordusuna kömək etmək qərarına gəldilər. Qafqaz İslam Ordusu qüvvələrinin top mərmilərinin tükəndiyi vaxtda S.Şaumyanın təklifi ilə Petrov gəmilərə yüklənmiş topçu batareyasını şəhərə gətirərək güclü top atəşinə başladı. Şimal qrupu, xüsusilə də 10-cu və 13-cü alaylar böyük itki verərək, Qurd Qapısı yüksəkliklərindəki mövqelərini tərk etmək məcburiyyətində qaldılar...**

Beləliklə, türk-Azərbaycan qüvvələrinə məxsus səhra və rus dağ toplarının, həmçinin başqa topların mərmilərinin tez qurtarması nəticəsində Şimal qrupu, əsasən də 10-cu və 13-cü alaylar qəflətən top dəstəyindən məhrum olaraq 9 zabit, 139 nəfər əsgər şəhid vermiş, şəxsi heyət sırasından 19 zabit, 444 nəfər əsgər isə yaralanmış, başqa itkilər də verilmişdi (2: s 278-281).

Uğursuzluğa düçar olduğumuz 5 avqust savaşından bir neçə gün sonra Türk ordusuna yazılmış azərbaycanlı əhalinin müraciətində isə şəhərin alınma zərurəti və Türk ordusunun tarixi vəzifəsi haqda nisgilli, nigaran, ancaq qürurlu notlarla deyilirdi:

*"...Əgər sən bu sarı işıqlı altun şəhəri almasan, qadınlar saçlarını yolacaq, ağılların qeyb edəcəklər. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq. Sən də bu tozlu-torpaqlı yerlər içində pərişan və səfil qalacaqsan. Türkün gözlərini oyub ipliklərə düzən düşmənlərə bayramlar hazırlayacaqsan.*

*Fəqət sən, ey türk əsgəri, ingilislərin gücünü kəndi zorunla Çanaqqalada qırdın. Ən böyük hərb gəmilərinin böyük mərmilərinə aylarla duruş gətirdin. Kütülamaredə 14 minini əsir aldın. Qarşıdakı düşmənin çoxunu-erməniləri bəlkə də Azərbaycandan, Qarsdan bəri önünə qataraq ta bu şəhərə dikdin. Türk adını böyüdən Çanaqqala, Kütülamare, Qaliçiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almazı olacaqdır"* ( 7 )...

***

Bolşevik Rusiyası Bakını əldən vermək istəmir və uzun müddətdən bəri müxtəlif vasitələrlə türklərin Bakıya doğru hərəkətini əngəlləməyə çalışırdı.

Erməniçi Bakı bolşeviklərinə göndərilən hər cür yardımdan əlavə, sovet Rusiyası Almaniyadan Osmanlının öncə Qafqaza, xüsusən də Bakıya girməsinin qarşısını almağı tələb edirdi. Bu xüsusda Rusiya Xarici İşlər naziri Çiçerinin iyulun 25-də (erməni-bolşevik Bakı Soveti qüvvələrinin Şamaxı ətrafındakı ciddi məğlubiyyətindən sonra) Almaniyanın Rusiyadakı səfirliyinə verdiyi notanı xatırlatmaq istərdik. Yada salaq ki, həmin notaya bənzər bir məktub da təlimat üçün Rusiyanın Almaniyadakı səfiri İoffeyə göndərilmişdi (8: s.544-545).

Çiçerinin iyulun 29-da İoffeyə göndərdiyi eyni məqsədli teleqramdan sonra Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi Her Buşse rusların əbəs yerə rahatsız olduğunu–türklərin Bakıya doğru irəliləməsinin doğru olmadığını İoffenin diqqətinə çatdırdı. Her Buşse onu da əlavə etdi ki, türklər vədlərini yerinə yetirməsələr, almanlar onları buna məcbur edəcəklər (8: s. 545-546).

İoffe Moskvaya göndərdiyi 1 avqust tarixli məktubunda bildirirdi ki, Almaniya Xarici İşlər Nazirliyinin şöbə müdiri Kryuge və Almaniyanın İstanbuldakı elçisi Kont Brensdorfdan alınan xəbərlərə görə, Sədr-əzəm Tələt paşa, Hərbi Nazir Ənvər paşa və Xarici İşlər Naziri Nəsimi bəy Nuru paşaya Bakı üzərinə hücumu dayandırmaq haqda qəti göstəriş vermişlər (8: s. 546).

Almaniyanın Rusiya ilə separat danışığa girməsinə qarşılıq olaraq Ənvər paşa, Tələt paşa və başqa Osmanlı yöneticiləri də Nuru paşanın Bakıya doğru irəliləməsini "qadağan" edən əmr və göstərişlər verirdilər. Məsələn, Ənvər paşanın avqustun 4-də 3-cü Ordu komandanına göndərdiyi məktubda belə deyilirdi: "... **Nuru paşaya çatdırılması lazımdır: əmri-qəti təkrar edirəm ki, Bakıya heç bir surətlə**

**tərəfimizdən düçari-təərrüz olmayacaqdır... Şorsu-Salyan-Kürdəmir-İbrahimbəyli-Zərqova-Qonaqkənd-Giləzi irəlisində nə bizim əsgərlər, nə də bizə dost çətələrdən heş kimsə bulunmayacaqdır. Bu xəttin irəlisində bu surətlə bizdən kimsə varsa geri çəkilməlidir" ( 9 )** ...

Nəhayət, Çiçerin başqa kanallardan aldığı əks məlumatlardan sonra, Osmanlının Moskva elçisi Qalib Kamal bəylə görüşüb türkləri Brest-Litovsk barışığı şərtlərini pozmaqda suçladı. Türk elçisi ittihama faktlara söykənən qarşılıqlı ittihamla cavab verərək, Brest-Litovsk sülhünü əslində Rusiyanın pozduğunu bildirdi. O, Türk ordusunun Qafqaz hərəkatında məqsədin isə azərbaycanlıları və müsəlmanları soyqırıma uğradan erməni silahlı dəstələri ilə mübarizə aparmaqdan, Azərbaycan xalqını və buradakı türk əsirlərini erməni-xristian quldur dəstələrindən qorumaqdan ibarət olduğunu bəyan etdi (**8**: s.548).

Avqustun 19-da Çiçerin Rusiya XİN adından əvvəlki tələblərlə Almaniyanın baş konsuluna da nota göndərdi (**8**: s.548)...

M.Ə.Rəsulzadənin yazdığı kimi, Almaniya Bakı vilayətinin Kür çayınadək olan hissəsini Rusiyaya (əslində erməni-bolşeviklərə) halal edərək bizi "bir təngə qaza satmışdı". (*Bu dırnaraqarası ifadə Əhməd Ağaoğluna məxsusdur* – X.İ.) – (**10**: s.43).

Almaniyanın Azərbaycan məsələsi ilə bağlı Rusiya ilə bağladığı gizli anlaşmaya etiraz olaraq sentyabrın 12-də İstanbulda M.Ə. Rəsulzadə Almaniyanın İstanbuldakı səlahiyyətli elçisi qraf Valdburqa etiraz notası təqdim etdi (**11**: s.119).

Sonra Türkiyə-Almaniya-Rusiya arasındakı diplomatik təmas və yazışmalardan bəlli oldu ki, Rusiya Qafqaz dövlətlərinin müstəqilliyinə, xüsusən də Quzey və Güney Qafqaz müsəlmanlarının bir araya gəlib dövlət yaratmasına qarşıdır. Rusiya guya Qafqazda bir dövlətin yaranmasına etiraz etmirdi, ancaq belə bir dövlət müsəlman dövləti olmamalıydı.

Almaniya da "beynəlxalq hüquq"u əsas gətirərək hələlik Rusiyanın mövqeyini dəstəkləyirdi.

Almaniyanın təzyiqi ilə Osmanlı dövlətinin Qafqaz siyasətinin dəyişəcəyi halda isə Ənvər paşa istefaya gedəcəyini bildirirdi.

Mehman Süleymanovun araşdırmalarına görə, hətta Ənvər paşanın tarixi qoyulmamış bir istefa ərizəsi indi də arxivdə saxlanmaqdadır (**2**: s.289-291).

O da mümkündür ki, həmin istefa ərizəsi xarici təzyiqlərin qarşılığında bir jest kimi ortaya qoyulmuş olsun. Çünki Tələt paşa hökuməti rəhbərliyi səviyyəsində Ənvər paşayla bu məsələdə heç bir fikir ayrılığı yox idi, Ənvər paşa həm də Baş Komandanın, yəni Sultanın vəkili idi.

***

5 avqust uğursuzluğundan sonra Nuru paşa Bakının alınması üçün əlavə olaraq 5000 nəfər piyada gücü, 2 səhra batareyası, 4 ağır batareya, bir təyyarə dəstəsi, bir telefon (*teleqraf ?* -X.İ.) bölüyü, 28 min ədəd top mərmisi, 1000 sandıq mauzer gülləsi, rus piyada tüfəngi üçün 500 sandıq güllə, arxa cəbhə xidməti üçün 20 ədəd yük avtomibili göndərilməsinin zəruri olduğunu bildirirdi ( **12** ).

Şərq Ordular Qrupu komandanı Xəlil paşanın əmri ilə avqustun 9-da 9-cu Ordunun 1200 nəfərdən ibarət 107-ci Qafqaz alayı Qarakilsə üzərindən Qazağa doğru hərəkətə keçdi. Bundan sonra 9-cu Ordunun tərkibindəki 36-cı firqənin bir alayının və firqə topçu bölmələrinin də Bakıya yardıma getməsi əmr olundu.

Nuru paşanın bir neçə kiçik gəmi hissələrinin Azərbaycana göndərilərək Kür çayı mənsəbindəki mövcud gəmi təmiri zavodlarında yığılması ilə bağlı təklifi isə bu və ya başqa səbəblər üzündən həyata keçirilmədi.



Gəncə və Qazax bölgəsindən yeni toplanmış 7 zabit və 234 nəfər əsgər də Gəncədən qatarla Bakı ətrafına yollandı.

Bakı çevrəsindəki kəndlərdən könüllülərin toplanması üçün Ləzgi süvari alayının bir bölüyü və bir qrup türk zabiti Maştağa kəndinə göndərildi. Əvvəl bu məsələdə irəliləyiş nəzərə çarpmasa da, sonra, "Sentrokaspi" mənbələrinin də qeyd etdiyi kimi-avqustun 10-da Bakı kəndlərinin azərbaycanlı əhalisi kütləvi şəkildə "Sentrokaspi" iqtidarına qarşı çıxışlara başladı. Ümumilikdə 5 avqust döyüşündən sonra Bakı əhalinin "Sentrokaspi"-ingilis işğalçı qoşunlarına qarşı fəallığı xeyli artmışdı (**2**: s. 293-294).

Xatırladaq ki, L.Biçeraxovun Azərbaycan-Dağıstan sınırında savaşa girən qüvvələrindən başqa, Bakının və Muğanın rus əhalisindən təşkil edilmiş bir taboru da vardı. Sonralar nümunəvi alaya, ardınca nümunəvi briqadaya çevrilən bu tabor 5 avqust döyüşlərində iştirak edirdi. Bakının Türk-Azərbaycan qüvvələri tərəfindən geri alınmasınadək "Sentrokaspi" qüvvələrinin tərkibində vuruşan bu briqada Petrovska doğru çəkilərək L.Biçeraxovun əsas qüvvələrinə qoşuldu (**13**: v.11).

Sənədlərdən anlaşıldığı kimi, Bakı şəhəri geri alınanadək general-mayor Dokuçayev "Sentrokaspi" qoşunlarının baş komandanı, polkovnik Avetisov qərargah rəisi, general-mayor Baqratuni isə "Sentrokaspi" hökumətinin hərbi naziri idi (**14**: s.205).

Bəzi arxiv sənədlərində isə göstərilir ki, 5 avqust döyüşlərindən sonra ilk əmrləri "Sentrokaspi" baş komandanı adından erməni polkovniki Avetisov imzalayırmış (**15**: v.23).

Görünür yeni baş komandan təyin olunanadək Avetisov baş komandan vəzifəsini müvəqqəti icra etmişdir (**2**: s.294).

5 avqust döyüşündən sonra "Sentrokaspi" hökuməti çoxsaylı ingilis qoşunlarını Bakının müdafiəsinə cəlb etmək üçün o vaxt İraqda olan general Denstervilin yanına elçi göndərdi. Avqustun 7-də bu elçi, yəni erməni həkim Araratians Denstervillə görüşdükdən sonra, bəlli oldu ki, ingilislər bu məsələ ilə əlaqədar məhdud kontingent (*sonralar məlum olduğu kimi, 1000 nəfər civarında* –X.İ.) ayırmaq fikrindədirlər. Denstervilin tövsiyəsi isə bu idi ki, "Sentrokaspi" hökuməti özünə və Bakının ( *o zaman özləri dediyi kimi, 160 minlik xristian əhalisi olan* –X.İ.) səfərbər edilməsinə və əks-hücuma keçməsinə ümid bağlamalı idilər. Denstervil Bakının müdafiəçiləri sırasında böyük çoxluq təşkil edən ermənilərin fəallığına daha çox ümid bağladığını bildirirdi (**14**: s.189).

Bununla belə, Denstervil imkan daxilində maksimum sayda hərbi qüvvə ilə erməni-xristian qüvvələrinə yardım edəcəyinə söz vermişdi (**14**: s.190).

Denstervel ona əməkdaşlıq təklif etmiş, üstəlik iki kiçik gəmi bağışlamış Lənkərandakı rus əhalinin formalaşdırdığı, bir neçə səhra topuna malik 5000 nəfərlik hərbi dəstənin Bakı üzərinə yeriyərək Qafqaz İslam Ordusuna arxadan zərbə vurmaq planını isə alqışlamışdı və bu qüvvələrə çox ümid bağlayırdı. Muğanın bol taxıl ehtiyatlarına malik olması və Lənkəranın Xəzərlə bağlılığı da Denstervildə öz qənaətlərinin müəyyənləşməsi üçün Muğana ingilis əsgər və zabitlərdən ibarət kiçik bir hərbi heyət göndərərək, iki rus zabitini də onlara qoşmasına səbəb oldu (**14**: s. 194-195).

N.Ramazanovun düşmən qüvvələrinin Muğandakı hazırlıqları ilə bağlı xəbərdarlığından sonra Qarakilsədən yola salınmış 107-ci alayın 1200 nəfərlik qüvvəsinin Salyan ətrafına göndərilməsi qərara alındı (**16**: s.153-154).

Bakıya göndərilən ingilis qüvvələrinin isə bütün heyətinin şəhərə yetişməsi avqustun 17-də başa çatdı (**14**: s.263).

İngilis komandanlığı iki məsələyə çox əhəmiyyət verirdi:

1) Bakı ətrafında müdafiənin düzgün qurulması,

2) "Sentrokaspi" ordusunun təkmilləşdirilməsi və gücləndirilməsi (**14**: s. 195).

İngilis zabitləri "Sentrokaspi" qoşunlarındakı nizam-intizamsızlığı diqqətə çəkərək şəhərin müdafiəsini gücləndirmə tədbirlərinə məşğul ikən ermeni-bolşevik Bakı Soveti öndərləri şəhərdən qaçaraq gələcək məsuliyyətdən yaxa qurtarmağa çalışırdılar.

**İyulun 31-dəki uğursuz qaçma cəhdindən sonra, avqustun 3-də S.Şaumyan məsləkdaşı Ter-Qriqoryanla birgə yerdə qalan silahdaşlarını ataraq bu dəfə ikilikdə qaçmağa çalışdılar. Ancaq yenə də onlar "Sentrokaspi" gəmiləri tərəfindən yaxalanaraq geri qaytarıldılar. Bu dəfəki qaçma cəhdindən sonra "Sentrokaspi" hökuməti Şaumyanla birgə istefaya gedən əski hökumət komandasına bildirdi ki, fəaliyyətləri haqda hesabat təqdim edib silahları da təhvil versələr, Bakıdan getmələrinə maneə qalmaz.**

Şaumyanın komandası öncə bu şərtə razı olsa da, avqustun 10-da Bakı bolşeviklərinin partiya təşkilatı qərara aldı ki, hakimiyyətin yenidən ələ keçirilməsi üçün şəhərdə vətəndaş müharibəsinə hazırlıqlar aparılsın, bununçün isə partiya təşkilatı hələlik qaçaraq şəhəri tərk etsin.

Avqustun 13-dəki növbəti qaçış cəhdi də uğursuz oldu. Bu dəfə də keçmiş komissarlar tutularaq geri qaytarıldı və Petrovun dəstəsi zorla tərk-silah edildi. Bununla da kifayətlənməyən **"Sentrokaspi" hökuməti ermeni-bolşevik Bakı komissarlarını əksinqilabla mübarizə üzrə fövqəladə komissiyanın istintaqına verdilər (2: s. 300-302).**

Avqustun 5-dən sonrakı dövr ərzində Qafqaz İslam Ordusu düşmənlə mövqe döyüşləri aparır, əlavə qüvvələrin gəlişini gözləyirdi.

Doğu cəbhəsində mövqeləri möhkəmləndirmək üçün avqustun 13-də Maştağa dəstəsi yaradıldı. 38-ci alayın 2-ci taborunun komandanı qaymeqam Həsən bəy bu dəstənin komandanı, minbaşı Tofiq bəy isə mövqe komandanı təyin edildi. Miralay Həbib bəy Səlimov Gəncəyə göndərilərək, onun yerinə – Cənub qrupunun komandanı görəvinə Cəmil Cahid bəy təyin olundu. Avqustun 13-də Osmanlı ərazilərindən gələn 106-cı piyada alayı, ertəsi gün isə 107-ci alay Azərbaycan ərazisinə keçdi. Adı çəkilən bu alaylar Ağstafadan qatarla cəbhə bölgəsinə göndərildi ( **17** ).

Avqustun 15-də "Sentrokaspi"-İngilis qoşun bölmələri Buzovna-Mərdəkan ətrafında fəallaşmağa çalışsalar da Maştağa dəstəsi onların qarşısını aldı və Ləzgi alayının süvariləri hətta içərisində iki ingilis hərbçisi olan avtomobili də ələ keçirdi ( **18** ).

Qəti hücuma başlamazdan öncə Nuru paşa Biləcərinin quzeyindəki Yanardağ yüksəkliyinin və Bineqədi-Xırdalan xəttinin tutulmasını zəruri sayırdı (**16:** s.157; **2:** s.305).

Avqustun 23-də Bakıda saxlanan avstriyalı əsirlərdən bir zabit qaçaraq "Sentrokaspi" və ingilis qüvvələrinin sayı, imkanları və yaxın vaxtda gözə aldığı planlar haqda ilginc bilgilər verdi (**16:** s.166-167).

Yada salaq ki, o vaxt Osmanlı Şərq Orduları Qrupu Ərkani-hərb rəisi milliyətcə alman qaymeqam Parakuin də Bakı civarında idi. Bakı ətrafına gəlmiş bir qrup alman zabiti türk zabitləri ilə birgə Bakı cəbhəsindəki hərbi şəraiti öyrənərək, zəruri tədbirlərin icrasını müəyyənləşdirməyə çalışırdılar ( **16:** s. 166-167).

Avqustun 26-da Qafqaz İslam Ordusu Xırdalanın şimal-şərqindəki strateji nöqtələr olan 311 və 364 rəqəmli təpələrin alınması əmrinin icrasına başladı. Saat 11.40-da 364 rəqəmli təpə alınsa da, düşmən 311 rəqəmli təpəni həmin gün lazımınca qoruya bildi (**2:** s.308,310-311).

Bu döyüşün gedişi haqda ingilislərin 39-cu briqadasının komandanı polkovnik Favielin general Denstervilə yazdığı raportdan belli olur ki, həmin döyüşdə ingilislərdən 80 nəfər zabit və əsgər öldürülmüşdü (**14:** s.234).



Denstervilin qənaətinə görə, ingilis qoşunları olmasaydı türk-Azərbaycan qüvvələri avqustun 26-da Bakıya daxil ola bilərdilər (**14:** s. 235).

Avqustun 26-da saat 16-da "Sentrokaspi" komandanlığı tərəfindən əks-hücuma keşməklə bağlı verilmiş əmrin mətnində göstərilir ki, Qafqaz İslam Ordusu artıq Novxanı, Goradil, Pirşağı, Kürdəxanı və Fatmai kəndlərini tutmuşdur. Maştağa, Hökməli kəndlərində və Şabandağ yüksəkliklərində mövqeləri möhkəmləndirmiş, Fatmai kəndində topçu batareyası yerləşdirmişdir. Zihli dağı ətəyində simli maneələr aşkarlanmışdır (**19:** v.8-10)...

Onu da qeyd edək ki, düşmən qoşunlarının şərq cəbhəsindəki əks-hücum əməliyyatlarında ayrıca topçu döyüş sahəsi də yaradılmışdı. Bu sahəyə cəlb olunmuş heyətə məxsus 8 top, bundan başqa dəniz hidrotəyyarə divizionu və Kuban təyyarə divizionu türk-Azərbaycan birləşmələrinin Xırdalan yaxınlığında, Şabandağ, Atəşgah yüksəkliklərində, Saray və Novxanı məntəqələrində yerləşdirilmiş toplarını susdurmalı idi. Düşmən "Göytəpə" hərbi gəmisi ilə də, Xəzər üzərindən-Pirşağı və Goradil səmtlərindən sahilə yan alaraq, bu kəndləri və Novxanı məntəqəsini atəşə tutmalı idi (**19:** v.8-10)...

Ancaq düşmənin əks-hücum cəhdləri ciddi sonuc vermədi.

Avqustun 21-də Qafqaz İslam Ordusu səhər tezdən hücuma keçərək, 13-cü alayın, 38-ci alayın birinci taborunun və 29-cu taborun böyük sürətlə irəliləməsi, iradə, qətilik və döyüşkənlik göstərməsi sayəsində Binəqədidəki 311 rəqəmli strateji əhəmiyyətə malik olan təpəni ələ keçirdi... 38-ci alaya əlavə yardım göndərilərək Digah və Məhəmmədli kəndlərini tutaraq orada möhkəmlənmək əmri verildi (**16:** s.176)...

Avqustun 31-də axşam saat 8-də başlayan "Sentrokaspi Diktaturası"nın Hərbi Şurasının yığıncağındakı müzakirələr də çıxış yolunu müəyyən edə bilmədikdən sonra, *sentyabrın 1-də general Denstervil şəhərdəki müxtəlif qurumların rəhbərlərini iqamətgahına dəvət edərək saat 4-də keçirdiyi müşavirədə bildirdi ki,* **"Yer üzərində heç bir qüvvə Bakını türklərdən qoruya bilməz..."**, *buna görə də düşmənə təslimçi barışıq üçün elçi qrupu göndərmək və onun şərtlərini öyrənmək lazımdır.*

**Denstervilin 1 sentyabr tarixli bu təklifi sentyabrın 4-də "Sentrokaspi" rəhbərliyi tərəfindən rədd edilərək, ingilis qoşunlarının şəhəri tərk etmə qərarına isə hədə ilə cavab verildi. "Sentrokaspi" hökuməti ingilis qoşunlarını nəinki şəhərdən buraxmayacağını bildirirdi, əksinə Denstervildən əlavə ingilis qüvvələri gətirilərək şəhərin müdafiəsini təmin etməyi tələb edirdi (14:** s.246-247,250-251).

"Sentrokaspi" rəhbərliyinin ingilisləri ittiham etdikdən sonra irəli sürdüyü aşağıdakı tələbi də çox ilgincdir: "Bütün baş verənlərin nəticəsi olaraq indi biz təkid edirik ki, siz dərhal ya İrandan, ya da Bağdaddan Bakıya kifayət qədər qoşun gətirəsiniz. Biz bu köməyi özümüz üçün zəruri, sizin üçün isə məcburi sayırıq...". Bu üzlü tələb müəllifləri Denstervilə Rusiyadan da təcili kömək gözlədiklərini bildirirdilər (**14:** s.250-251).

Xatırladaq ki, Denstervilin qeyd etdiyi kimi, o zaman düşmənin əlində iki rus və iki ingilis təyyarəsi, altı ədəd də zirehli maşın olduğu halda Qafqaz İslam Ordusunun sərəncamında təyyarə yox idi, bu da döyüşlərin gedişində düşmənə üstünlük verirdi (**14:** s. 257).

Əvvəlki qeydlərimizdən məlumdur ki, düşmən Xəzərdəki hərbi gəmilər vasitəsilə də əlavə üstünlüklərə malik idi. Bununla belə, türk-Azərbaycan birlikləri sentyabrın 1-də günortayadək Digah, Məhəmmədli kəndlərini və Digahın güneyindəki 345 rəqəmli təpəni tutdular. "Sentrokaspi"-ingilis bölükləri böyük bir vahimə içərisində Balaxanı və Ramana kəndlərinə doğru çəkildilər. Bu istiqamətdə gedən döyüşlərdə Şimal qrupunun hissələri bir düşmən təyyarəsini sıradan çıxardılar. O təyyarə də Salyan qışlası ətrafında süquta uğradı ( **20** ).

İngilislərin Bakıya əlavə birliklər gətirəcəyindən ehtiyatlanan Ənvər paşa Osmanlı dövlətinin 9-cu Ordu komandanlığından tələb edirdi ki, İraq və İran bölgəsindən Bakı səmtinə doğru hərəkət edə biləcək ingilis qüvvələrinin qarşısını kəsmək üçün Təbrizə, Qəzvinə və daha güney məntəqələrə qoşun çıxarılsın və həmin bölgədə ingilislərə təhlükə yaradılsın. Bu halda İran bölgəsindəki təhlükəyə başı qarışacaq ingilis qüvvələrinin Bakıdakı müttəfiqlərinə hərbi yardım göstərmək imkanı aradan qalxacaqdı ( 21 ).

Bakı üzərinə həlledici hücumun həyata keçirilməsi üçün yardıma gələn 15-ci firqənin hissələri əmrə əsasən sentyabrın 1-də, 3-də və 4-də Qarakilsədən çıxaraq Dilcan-Karvansara-Qazax-Ağstafa marşrutu ilə irəliləyib sonra qatarla hərəkət etməli idi.

Rusiya ilə ayrıca gizli sövdələşmənin və türklər üzərinə təzyiqin fayda gətirməyəcəyini duyan almanlar da Bakı üzərinə hücumda iştirak etməyə qərar versələr də, Ənvər paşa başda olmaqla Osmanlı komandanlığı bunu rədd etdi. Almanların türklərlə hesablaşmadan Tiflisdəki hərbi heyətlərinin bir taborunu Azərbaycana göndərmək (hətta Bakı artıq alınmış olduğu halda, sentyabrın 20-dən sonra da) planını pozmaq üçün Xəlil paşa Gürcüstan sınırındakı dəmiryol körpüsünü partladıb-dağıtmaq və teleqraf xəttini kəsmək tapşırığı ilə ora xüsusi qrup göndərdi (**2:** s.324,365-366).

Ordu ərkani-hərb rəisi Nazim bəyin təklifinə əsasən Bakı üzərinə qəti hücum iki istiqamətdən: şimal və qərbdən həyata keçirilməli, əməliyyat keçirilən zaman Kütülamare* və Trablus komandanları (*uyğun olaraq, Xəlil paşa və Nuru paşa nəzərdə tutulur* –X.İ.) da Bakı cəbhəsində olmalı idi (**2:** s. 325).

Ordu Ərkani-hərb rəisi Nazim bəylə Şərq cəbhəsi komandanı Mürsəl paşanın qənaətinə görə, həlledici hücumdan öncə Biləcərinin cənub-qərbindəki sahə də tutulmalıydı (**2:** s. 327).

Sentyabrın 9-na keçən gecə 15-ci firqə qərargahı Güzdək məntəqəsinə yetişdi. (Qeyd edək ki, 5-ci firqə qərargahı da burada yerləşirdi.)

Sentyabrın 10-da Xəlil paşa, Nuru paşa, Azərbaycan qolordusu komandanı Əliağa Şıxlinski və başqa zabitlər də Bakı cəbhəsinə gəldilər. Qafqaz İslam Ordusu qərargahı və Şərq Ordular Qrupu komandanı Xəlil paşa da Güzdəkdə yerləşdilər.

Sentyabrın 10-da Nuru paşa Bakı üzərinə qəti hücuma hazırlıqla bağlı son əmrini imzaladı (**2:** s. 328-329)...

**[Haşiyə:** Abşeron rayon Mədəniyyət və Turizm İdarəsinin rəisi, vətənsevər ziyalılarımızdan olan İlham Manafovun tövsiyəsi ilə Qobu əhalisindən əldə etdiyimiz şahid materialında bildirilir ki, türk ordusu şəhərə yaxınlaşaraq Qurd Qapısından hücumu həyata keçirən dönəmdə Nuru paşanın Qobuda – indiki Qobu Qəsəbə Uşaq İncəsənət Məktəbinin direktoru Azər Bayramovun babası olan Bayram Qasımovun atası Kərbəlayı Qasım Mehralı oğlunun evində də qərargahı olub. Abşeron rayon Qobu qəsəbə icra nümayəndəsi Akif Qasımovun verdiyi məlumata görə, Xəzər dənizinin göründüyü bu evdən Nuru paşa müşahidələr aparır və onun əsasında, Qurd Qapısından həyata keçirilən piyada hücumuna dəstək vermək məqsədilə Şabanı dağında yerləşdirilmiş olan topçu bölüyünə müvafiq əmrlər verilirmiş.





*Nuru paşanın Qobu qəsəbəsindəki müvəqqəti qərargahının yerləşdiyi ev (hal-hazırkı görünüş)*

Hadisələrin şahidi, o zaman qonşuluqda yaşayan və sayğı əlaməti olaraq qonaqlara (*türk komandanının qərargah heyətinə*) xidmət göstərən gənc qız – sonralar Bayram Qasımovun həyat yoldaşı olmuş Gərəkməz Söydüm (*Sevdim*) qızı həmin olayların təfərrüatlarını yeni nəslə ötürmüşdür.

Akif müəllim yaşlı nəsildən əldə etdiyi bilgiyə əsasən onu da xatırladır ki, Bakı savaşından öncə Qurd Qapısı ərazisi Qasımçapan adlanırmış ( **22** )]...

Sentyabrın 12-də Süleyman İzzət bəyin əmri ilə Əhmədli səmtindəki milli qüvvələr fəal, nümayişkaranə hərəkətlərə əl atdılar. Güclü cəbəl topları vasitəsilə Balaxanı yörəsindəki "Sentrokaspi"-ingilis birləşmələrinin mövqeləri hədəfə alındı. Düşmən cavab tədbiri olaraq bir qırıcı təyyarəni havaya qaldırıb Binəqədi arxasındakı Şimal qrupu qüvvələrinin müvafiq bölüklərini bombardman etdi və nəticədə 20 nəfər yaralandı.

Bundan sonra Süleyman İzzət bəyin əmri ilə Biləcəri ətrafındakı düşmən qüvvələri də güclü top atəşinə tutularaq, şimal istiqamətində çoxlu qüvvə toplandığı haqda təəssürat yaradıldı.

12 sentyabr taktiki hücumunun əsas məqsədi də elə əslində bu idi (**2:** s.333).

Rəsmi məlumatlara görə, Bakı üzərinə son hücum əməliyyatında 8000-ə yaxın Osmanlı qüvvəsi, 6-7 min nəfərlik Azərbaycan birləşmələri iştirak edirdi. "Sentrokaspi"nin isə 40000 nəfərlik silahlı heyəti olsa da, ancaq labüd məğlubiyyət xofu üzündən onlardan yalnız 3-5 min nəfəri son döyüşlərdə cəbhəyə yollanmağa cəsarət etmişdi. Ümumilikdə isə, "Sentrokaspi" qoşunlarına Biçeraxovun qüvvələri, ingilis birləşmələri də dəstək verirdi (**2:** s. 334-335).

Şəhərə son hücum ərəfəsində – sentyabrın 12-də Qafqaz İslam Ordusunun milliyyətcə ərəb olan bir hərbçisi düşmən tərəfə keçərək hücumun sentyabrın 14-nə keçən gecə başlayacağı, əsas zərbənin isə şimaldan yox, qərb istiqamətindən vurulacağı haqda sirləri də "Sentrokaspi"-ingilis komandanlığına çatdırdı (**14:** s. 257-258).

**Ədəbiyyat:**


1. Yüceer N. Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan və Dağıstan harekatı. Ankara, 1996.
2. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.
3. ATASE, k. 3819, d.6, f.51 və f. 48-4.
4. Birinci dünya harbinde türk harbi Kafkas cephesi 3-cü Ordu harekatı. C. 11, Ankara, 1993.
5. ATASE, k. 3819, d.6, f.54.
6. ATASE, k. 3819, d.6, f.59-5 və 59-7.
7. ATASE, k. 5309, d. 51, f. 72.
8. Kurat A.N. Türkiye və Rusya. Ankara, 1990.
9. ATASE, k. 3824, d. 27, f. 1-3, 1-4.
10. *Рәсулзадә М.Ә. Азәрбајҹан Ҹүмһуријјәти. Бакы, 1990.*
11. *Һәсәнов Ҹ. Азәрбајҹан бејнәлхалг мүнасибәтләр системиндә. 1918-1920, Бакы, 1993.*

12. ATASE, k. 3819, d. 6, f. 69-2.
13. SPİH MDA, f.276, siy. 3, iş 177.
14. Денстервиль. Британский империализм в Баку и Персии 1917-1918. Тифлис, 1925.
15. SPİH MDA, f. 303, siy.1a, iş 14.
16. Rüştü. Büyük Harpde Bakü yollarında 5. Kafkas piyade fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. 1934, №34.
17. ATASE, k. 3819, d. 7, f. 31-2,33,35-1,37-2.
18. ATASE, k. 3819, d. 7, f. 40.
19. SPİH MDA, f. 276, siy. 3, iş 177.
20. ATASE, k. 3820, d. 9, f. 2.
21. ATASE, k. 3820, d. 9, f. 2-6.
22. Qobu Qəsəbə Uşaq İncəsənət Məktəbinin direktoru Azər Bayramov, direktor müavini Afaq Mənsimova və Abşeron rayon Qobu qəsəbə icra nümayəndəsi Akif Babalı oğlu Qasımovun Azər müəllimin nənəsi, qeyd olunan hadisələrin şahidi Gərəkməz Söydüm *(Sevdim)* qızının vaxtilə vermiş olduğu şahid bilgisinə dayanan ifadələri.

***

**Qeyd:**

Yazıda Xəlil paşanın qəhrəmanlığına işarə edilən "Kutü'l-Ammare Savaşları"nı anlatmaq üçün bir türk qaynağından üslubuna toxunmadan iqtibas gətirmək yerinə düşərdi:

"19 Nisan 1916'da Osmanlı ve Alman İmparatorluğu Mareşali Colmar von der Goltz Paşa, Bağdat'ta bulunan karargâhında tifüsten ölünce, genç yaşta olmasına rağmen Mirliva Halil Paşa 6. Ordu komutanlığına atandı.

29 Nisan 1916'da Irak Cephesi'nde Kut'ül Ammare kasabasında General Charles Townshend komutasındaki İngiliz ordularını esir aldı. İngiliz General, Kut'ta yaşanan açlıktan dolayı diğer 4 general, 481 subay ve 13100 er ile birlikte teslim oldu.

Irak Ordusu Komutanı Halil Paşa'nın, Kut'ül-Ammare zaferinden sonra 6. Orduya yayınladığı mesaj şöyledir:

*"Arslanlar! Bütün Türklere şeref ve şan, İngilizlere kara meydan olan şu kızgın toprağın güneşli semasında şehitlerimizin ruhları sevinçle gülerek uçarken, ben de hepinizin pak alınlarından öperek cümlenizi tebrik ediyorum. Ordum gerek Kut karşısında ve gerekse Kut'u kurtarmaya gelen ordular karşısında 350 subay ve 10 bin erini şehit vermiştir. Fakat buna karşılık bugün Kut'ta 13 general, 481 subay ve 13 bin 300 er teslim alıyorum. Bu teslim aldığımız orduyu kurtarmaya gelen İngiliz kuvvetleri de 30 bin zayiat vererek geri dönmüşlerdir. Şu iki farka bakılınca, cihanı hayretlere düşürecek kadar büyük bir fark görülür. Tarih bu olayı yazmak için kelime bulmakta müşkülata uğrayacaktır. İşte Türk sebatının İngiliz inadını kırdığı birinci zaferi Çanakkale'de, ikinci zaferi burada görüyoruz.*

***Halil Paşa"***

*İngiliz tarihçisi James Morris, Kut'un kaybını "Britanya (İngiltere) askeri tarihindeki en aşağılık şartlı teslimi" olarak tanımlamıştır.*

*Ancak Osmanlı 6. Ordusunun bu çabası bu cephedeki savaşın sonucunu değiştirememiş ve Mondros Ateşkes Antlaşması öncesinde Irak hemen hemen yitirilmiştir."*



**Qaynaqlar:**

1. 91.Yıldönümünde Kut'ül Ammare Zaferi, Türk Silahlı Kuvvetleri Genelkurmay Başkanlığı, URL erişim tarihi: 16 Ocak 2010;
2. İttihad ve Terakki'den Cumhuriyet'e Halil Paşa Bitmeyen Savaş, Kum Saati Yayınları, Taylan Sorgun, 2003;
3. Kim Kimdir sitesindeki Halil Kut biyografisi;
4. Halil Kut biyografisi (İngilizce);
5. Kafkas İslam Ordusu'nun Bakü'yü Fethi;
6. http://tr.wikipedia.org/wiki/Halil_Kut

## Bakı üzərinə ilk həlledici hücum

Baki şəhəri üzərinə növbəti – həlledici hücum ilk hücumdan 40 gün sonraya, sentyabrın 13-dən 14-nə keçən gecəyə təyin edildi.

Öncəliklə yada salaq ki, "Sentrokaspi" ordusuna general Dokuçayev, ingilis birliklərinə polkovnik Keyvort komandanlıq edirdi. Ümumi nəzarəti "Sentrokaspi" hərbi naziri Baqratuni və ingilis generalı Denstervil həyata keçirirdi **(1: s.260-261).**

5-ci firqə Ərkani-hərb rəisi Rüşdü bəyin yazdığı kimi, o gecə yatmaq heç kəsin ağlına gəlmirdi. 5 avqust uğursuzluğunun öcünü almaq üçün hər kəs qarşıdakı ağır döyüşü səbrsizliklə gözləyirdi. Qurd Qapısı istiqamətindən sərt təpəliklərə qalxmaq üçün ensiz bir yol olsa da, qoşunlar daha geniş bir cəbhədə irəliləməli idilər. Hücum əmrinə görə, 9-cu alay və 56-cı alay Şubanı yüksəkliklərindən enib, dəmir yolunu keçdikdən sonra sərt təpəliklərə dırmaşaraq düşmənin ilkin müdafiə xəttini bir güllə belə atmadan tutmalıydı. Rüşdü bəyin xatırladığı kimi, gündüz bu təbii manеələri keçmək çox çətinliklər törədirdi. Gecə isə, həm də səssizliyə riayət etmək şərtilə, düşmənin duyuq düşməməsi üçün Qurd Qapısı yüksəkliyinə qalxıb, düşmənin ilk səngər xəttini güllə işlətmədən tutmaq, doğrudan da, hərb tarixi üçün fenomenal hadisəydi **(2: s.199-202).**

*Beləliklə, sentyabrın 14-nə keçən gecə saat 1.00-da hərəkətə keçən Qafqaz İslam Ordusu qüvvələrindən 5-ci firqəyə məxsus 56-cı piyada alayı Sallaxanaya gedən yolun hər iki tərəfi ilə irəliləyərək yüksəkliklərə qalxıb saat 3.00-da düşmənin ilk müdafiə xəttini tutdu. Sağ cinahda irəliləyən 5-ci firqənin 9-cu alayı da sərt yüksəkliklərdəki düşmən xəttini 3.30-da zəbt etdi.* ***Bu səssiz əməliyyat planı və onun surətlə, həm də xətasız həyata keçirilməsi ingilis generalı Denstervilin özünü də şoka salmışdı: "İnanılması mümkün deyildi ki, cəbhəmizin ən güclü sahəsi düşmən tərəfindən belə asanlıqla ələ keçirildi. Xüsusilə də bütün qoşunlar gözlənilən hücum barədə xəbərdar edildikləri bir halda..." – deyə Denstervil bu müdhiş savaş "anons"u haqda heyrətini ifadə edirdi*** **(1: s. 263).**

Gecə yarı 15-ci firqə də hücuma qoşuldu. Səhər saat 6-da Şimal qrupu "Sentrokaspi"-ingilis qoşunlarının mövqelərini güclü şəkildə atəşə tutdu. Denstervilin də bildirdiyi kimi, "Sentrokaspi"-ingilis qoşunlarının əsas hissəsi şimalda, Biləcəri ətrafında yerləşdirilmişdi. Qurd Qapısı səmtində təbii müdafiə imkanları çox olduğu üçün düşmən şəhərin cənub-qərb qapılarına nisbətən az qüvvə yığmışdı **(1: s.263).** Nuru paşa da şəhərin alınması üçün cızdığı planda bu amilləri nəzərə almışdı.

Birinci və ikinci müdafiə sədlərinin alınmasından sonra topları Qurd qapısı yüksəkliyinə qaldırmaq üçün Cənub qrupu döyüşdə zəruri fasilə yaratdı ki, bu da Denstervili çaşdırmışdı, belə ki, bu zaman "Sentrokaspi"-ingilis qüvvələri arxalarına

baxmadan qaçmaqda idilər. Yada salaq ki, 9-cu alayın qarşısından qaçan ingilis qüvvələrinə mayor Ley rəhbərlik edirdi (3: s.343).

Döyüşlərin ara verməsindən yararlanan ingilis komandanlığı qərb cəbhəsinə polkovnik Keyvortun tabeliyində olan qüvvələrdən yardım göndərdi. Denstervilin göstərdiyi kimi, səhər saat 8-də bu istiqamətdə çaşqınlıq aradan götürülmüş, qərb cəbhəsinin mərkəzində "Sentrokaspi"-ingilis qoşunlarının mövqeyi möhkəmləndirilmişdi (1: s. 264).

Səhər saat 8.23-də Qafqaz İslam Ordusunun komandanlığı qərb cəbhəsindəki 5-ci firqəyə məxsus topları Qurd Qapısı yüksəkliklərinə qaldırmaq əmri verdikdən sonra bu istiqamətdə hücumun uğurla davamı üçün zəruri şərait yarandı ( 4 ).

Sağ cinahda daha irəlidə olan 13-cü alay Maşatlıq adlı məntəqəni və Bayıl yüksəkliklərini tutdu. Putadakı zirehli qatar da saat 11.45-də Heybət stansiyası yönünə irəliləməyə başladı. Bu zirehli qatarın top zərbələri vasitəsilə 5-ci firqənin piyada alaylarının irəliləməsini dəstəkləmək mümkün idi (2: s. 204-205).

Mənbələrdə də anladıldığı kimi, şimal cəbhəsində isə polkovnik Faviyielin rəhbərliyi altındakı Varvik və Uorçester taborları 38-ci alaya inadla müqavimət göstərirdilər. Biləcəri yörəsindəki toplar və pulemyotlardan əlavə 2 ədəd aeroplan və 6 ədəd zirehli avtomobil də ingilis qüvvələrini himayə edirdi. Aeroplan bu əməliyyatlarda aktiv iştirak edərək, həm Azərbaycan birliklərinin mövqelərini bombalayır, həm də pulemyotlarla 38-ci alayın qüvvələrini atəşə tuturdu (1: s. 265).

Şimal cəbhəsindəki düşmən qüvvəsinin çoxluğunu və müqavimətin gücünü nəzərə alaraq, 15-ci firqə komandanı Süleyman İzzət bəy ordu rəhbərliyindən kömək üçün əlavə bir batareya və imkan daxilində piyada qüvvəsi istədi... Məsələ həll olunduqdan sonra 107-ci alay Biləcəriyə doğru irəliləmək əmri aldı ( 5 ).

Günortadan sonra yenidən hücuma keçən 38-ci alay saat 15-də Biləcərinin ətrafını tutdu. Sağ cinahındakı 3-cü tabor ingilislərin pulemyot mövqelərini ələ keçirib xeyli əsir də götürdü.

Günün ikinci yarısında 107-ci Qafqaz alayı isə 5-ci və 15-ci firqələr arasında qalmış boşluğa doğru, Hacı Həsən məntəqəsindən Biləcəri istiqamətində savaşa qatılmaq əmri aldı. Abşeron yarımadasının doğu qisimlərində isə Azərbaycan birlikləri döyüşə atılmışdılar. Könüllülərdən toplanmış tabor düşməni qovaraq Sabunçunu ələ keçirmiş, süvarilər də Zığdan Əhmədli səmtinə irəliləmişdi.

Bütün cəbhələrdə uğursuzluğa düçar olan düşmənin müqaviməti qırılmışdı.

General Denstervilin yazdığına əsasən, Bakıda olduqları 5 avqust-15 sentyabr döyüşləri ərzində ingilislərdən 180 nəfəri ölmüş, itkin düşmüş və ya yaralanmışdı. Sentyabrın 14-də saat 22-də qaçmağa hazırlaşan ingilis qoşunları artıq "Kryuger" gəmisinə yüklənmişdi. Biçeraxovun qüvvələrinə məxsus birləşmələr də öz gəmiləri ilə Petrovska tərəf çəkilməyə başlamışdılar.

"Sentrokaspi" hökuməti bu dəfə də ingilis generalı Denstervili qorxutmağa və şantaja çalışaraq, onu geri qayıdıb müdafiəni davam etdirməyə çağırdı. Ancaq Denstervil bu şantaj və təhdidli çağırışı rədd edərək, belə bir uğursuz durumda ingilis əsgərlərini mənasız yerə qurban vermək fikrində olmadığını bildirdi...

Beləliklə, ingilislər də sentyabrın 14-ü gecə saatlarında dəniz yolu ilə Ənzəli limanına doğru qaçdılar.

14 sentyabr axşamına qədər Bakının quzey-batısındakı düşmən mövqeləri tutulsa da, Nuru paşa bol pulemyot, tüfəng və zirehli avtomobillə təchiz olunmuş düşmənlə gecəni küçə savaşında keçirməyi məsləhət görmədi. O, gecəni şəhər xaricində keçirmək, yalnız toplar vasitəsilə düşmənin müqavimət nöqtələrini, gəmilərə və s. yüklənmiş sursat, təhizat və ehtiyat vasitələrini atəş altında saxlamaqla kifayətlənmək əmri verdi (3: s.346-347,350).



**Ədəbiyyat:**


1. Денстервиль. Британский империализм в Баку и Персии 1917-1918. Тифлис, 1925.
2. Rüştü. Büyük Harpde Bakü yollarında 5. Kafkas piyade fırkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. 1934, №34.
3. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan.Bakı, 1999.
4. ATASE, k. 3820, d.11, f.7-86.
5 . ATASE, k. 3820, d. 11, f. 7-49, 7-60.


## Bakı üzərinə son hücum-şəhərin azad edilməsi

Bakı üzərinə hücumu başa çatdırmaq məqsədilə Nuru paşa sentyabrın 14-də saat 20.30-da 100 saylı əmr imzalayaraq, sentyabrın 15-də Qafqaz İslam Ordusunun Şərq (Bakı) cəbhəsindəki vəzifələri müəyyənləşdirdi:

"1. Sabah səhər vaxtı hücum hərəkatına davam edilərək Bakı şəhəri zəbt olunacaqdır.

2. 5-ci Qafqaz firqəsi Volçi Varotaya qarşı sağ cinahını təmin etməklə bərabər böyük qismi ilə 56-cı alay məntəqəsindən sol cinahı Ermənikəndin cənubundan keçmək üzrə hücum edərək şəhərin Çyornı qorod deyilən neft şəhərinə qədər qərb qismini zəbt edəcəkdir. Firqə özünə ayrılan Bakı qismində bir alay piyada ilə caddə və meydanların lüzumunda müdafiəsi üçün iki dağ batareyası bulunduracaqdır...

3. 15-ci firqə sağ cinah ilə Erməni kəndini təmizləmək üzrə şimal və şərqdən Bakının Çyornı qorod qismini zəbt və işğal edəcəkdir...

4. 15.9.1334 (1918) sabaha piyada hücumu ortalıq ağardıqdan, topçu ilə hazırlandığından sonra yapılacaqdır...

5. Şəhərin zəbtindən dərhal sonra bəllibaşlı caddə və meydanların atəş altına alınması üçün makinalı tüfənglər və daha mühüm yerlərə toplar yerləşdirilməlidir." – (1).

Sentyabrın 15-də 5-ci firqə səhər tezdən qərb (Qurd Qapısı) səmtindən hücuma başladı və qısa müddət ərzində şəhərin kənarına yetişdi. Düşmən bu cəbhədə müqavimət göstərə bilmirdi. Bəzi düşmən gəmilərinin yüklənərək limandan uzaqlaşması aydın görünürdü.

Səhər saat 5.20-də şimaldan 15-ci firqə də hücuma keçərək düşməni geriyə atdı. Düşmən Ermənikənd yörəsində bir qədər müqavimət göstərsə də 38-ci alay onu əzişdirərək xeyli əsir götürdü və 2 ədəd uzun mənzilli, 8 ədəd səhra, 2 ədəd dağ topları, bundan başqa 2 ədəd təyyarə qənimət götürdü. Səhər saat 8.30-da 38-ci alayın 2-ci taboru Qara şəhər çevrəsindəki əsas yüksəkliklərə yiyələnmişdi. Əhmədli yönündən şəhərə yaxınlaşan Azərbaycan milli qüvvələri də düşmənə zərbə endirərək onu içəriyə doğru – qərb istiqamətində geri çəkilməyə məcbur etdi.

Geri çəkilərək pulemyotları və bəzi başqa silahları binalarda quraşdıran düşmən saat 10-da Qafqaz İslam Ordusu 107-ci alayının 3-cü taboruna müqavimət göstərərək onu da geri çəkilmək məcburiyyətində qoydu. Bu, 107-ci alayın başqa taborlarının şəxsi heyətinə pis təsir göstərdiyindən, firqə komandanlığı daha təcrübəli 38-ci alayın 2 pulemyotlu bir bölüyünü o istiqamətə göndərərək düşmənin müqavimətinin qırılmasını təmin etdi (2: s.353-355).

5-ci firqə Ərkani-hərb rəisi Rüşdü bəyin yazdığı kimi, saat 10.30-da üzərində İran bayrağı ilə böyük ağ bayraq olan bir avtomobil şəhərdən çıxaraq 5-ci firqənin 13-cü alayının mövqelərinə doğru yaxınlaşmağa başladı. Avtomobildəki İran konsulu ilə "Sentrokaspi" ordusu qərb cəbhəsi komandanı idi. Bu şəxslər şəhərin artıq təslimə hazır

olduğunu bildirir və təslim şərtlərinin müzakirə edilməsi üçün Bakı hökuməti, İran, ABŞ, İsveç, Danimarka konsulları və bir ingilis zabitindən ibarət elçi dəstəsinin qəbulunu xahiş edirdilər (3: s.212).

Nümayəndə heyətinin gətirilməsi üçün avtomobillə şəhərə göndərilən Rüşdü bəyin göstərdiyi kimi, məğlubiyyət anının çatdığını duyan ermənilər şəhərdə vəhşiliklərini daha da artıraraq talanlar törədir, azərbaycanlılara və iranlı müsəlman işçilərə divan tuturdular. Türk ordusunun yaxınlaşmasını görən azərbaycanlıların müqavimət göstərməsi ilə küçə döyüşləri daha da genişlənmişdi...

Danimarka konsulluğunda Rüşdü bəy nümayəndə heyətinin toplaşmasını gözlədi, qısa zamandan sonra bir neçə maşına əyləşib 5-ci firqənin qərargahına gəldilər... 5-ci firqə qərargahında müzakirə mövzusu aşağıdakı məsələlərdən ibarət idi:

1. Şəhərin qeyd-şərtsiz təslim edilməsi;
2. Bakıda yerləşən düşmən ordusunun təslim olması;
3. Top və silahların, binaların, həmçinin başqa obyektlərin təslim edilməsi;
4. Nargin adasında həbs və sürgündə olan türk, alman, Avstriya əsirlərinin təhvil verilməsi;
5. Silah anbarlarının, ərzağın, avtomobillərin, yük maşınlarının, zirehli avtomobillərin, təyyarələrin və başqa hərbi mülkiyyətin təslim edilməsi (3: s. 213.)

Bakı şəhəri zəbt olunarkən 17 erməni, 9 rus, 10 gürcü zabitindən başqa, 1151 erməni, 383 rus, 4 ingilis və 113 nəfər də ayrı-ayrı millətlərdən olan əsgər əsir götürüldü ( 4 ) .

Bakıda asayişin və normal həyatın bərpası üçün Qafqaz İslam Ordusu komandanlığının əmri ilə Cəmil Cahid bəy Bakı mövqe komandanı təyin olundu və Hacıqabuldan Bakıya gətirildi ( 5 ) .

Nuru paşa Bakı üzərinə hücum zamanı göstərdiyi fədakarlıqlara görə gecə ikən ilk piyada hücumunu həyata keçirən 9-cu, 56-cı alaylara və Biləcərinin güney-doğusundakı sırtları zəbt edən 38-ci alaya xüsusi təşəkkürünü ifadə edirdi və topçu dəstəyi olmadan gecə vaxtı düşmənin iki müdafiə xəttini tutmuş 56-cı alayın xidmətini fərqləndirərək onun komandanı minbaşı Fəhmi bəyin rütbəsini yarbaylığa yüksəltmək üçün Ənvər paşaya uyğun təqdimat yazmışdı (2: s. 357-358).

Sentyabrın 16-da səhər tezdən Bakının asayişi üçün ayrılmış və artıq bu görəvi yerinə yetirən hissələrdən başqa, yerdə qalan Qafqaz İslam Ordusu birlikləri Bakı ətrafındakı Qırmızı Qışla məntəqəsində rəsmi keçid keçirib sonra şəhərə daxil oldu. Bəzi bilgilərə görə, xilaskar qoşunları intizarla qarşılamağa çıxmış bu torpaqların əsl yiyəsi olan yerli xalq – azərbaycanlılar və başqa şəhər sakinləri küçələrə tökülüb türk-Azərbaycan əsgərlərini salamlayaraq Qafqaz İslam Ordusunun qüvvələriylə Xəzərin sahilindəki geniş meydana toplaşıbmışlar. Nuru paşa Bakı əhalisi qarşısında çıxış edərək, din, dil və irq ayrılığına yol verilməyəcəyini, qanun qarşısında bərabərlik və can, mal güvənliyi təmin ediləcəyini, duruma Azərbaycan hökumətinin göz qoyacağını bildirirdi.

Xəlil paşa xatirələrində qeyd etdiyi kimi, "Cəngavər ruhlu və böyük vətənsevər Nuru paşanın bu , bəlkə də həyatının ən gözəl günüydü".

Bu tarixi qələbənin xoşbəxtliyini Ənvər paşa və Azərbaycan hökuməti də eynən yaşamış, H.Z.Tağıyev ikimərtəbəli böyük malikanəsini (*sonralar Tarix Muzeyinininin, indi isə Xalçaçılıq Muzeyinininin binası* – X.İ.) Türk komandanlığına hədiyyə etmiş, Azərbaycan hökumətinin öncülləri "Bristol" hotelində Türk-Azərbaycan komandanlığına ziyafət vermiş, Mayılov teatrında Bakının azad edilməsi səbəbilə tədbir keçirilmişdi.

Şərq Ordular Qrupu komandanlığının yeni qərargahının yerləşdiyi Təbrizə tezliklə dönməli olan Xəlil paşa H.Z.Tağıyevin dəvətini qəbul edib qısa müddətdə onun evində qonaq olmuşdu. Ənvər paşa Xəlil paşaya göndərdiyi sevinc və qutlamalar dolu



teleqramında isə ordu dincəldikdən sonra Bakıda bir tümən buraxılaraq yerdə qalan hissələrin 9-cu Orduya geri qaytarılmasını istədiyini bildirirdi (2: s. 358-359).

Bakının geri alınması vəsiləsilə F.Xoyski də Nuru paşaya göndərdiyi teleqramda "...dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim" deyə hədsiz sayğı və qürur dolu hisslərlə bu qələbəyə münasibətini bildirirdi.

"Açıq söz" qəzetinin 20 sentyabr sayında Abdulla Şaiqin "İntizar qarşısında neyçün böylə gecikdin?" misrası ilə başlayan şeirində isə Azərbaycan xalqının türk qardaşının köməyinə necə ümid bağlaması və s. ifadə olunur. Xəlil paşa Bakı azad edildikdən sonra şəhərdə gördüyü durumu belə qələmə almışdır: "...sokaklarda (*küçələrdə* -X.İ.) ermənilər tərəfindən qətl edilmiş bulunan yerli türk xalqının cəsədləri toplanır və yüzlərlə çoluq, gənc, ixtiyar qadın, erkək kəndiləri (*özləri* -X.İ.) üçün qazılan məzarlarında son uyqularını tərk edirdilər. İnsanlığın gördüyü vəhşətlərdən birisi də ingilislərin işğalı altinda olan Bakıda türk xalqına qarşı ermənilər tərəfindən göstərilmiş olan bu vəhşətdir" (2: s. 360--362).

Şəhərdə baş verən qanunsuzluqları, talanları aradan qaldırmaq üçün Nuru paşa sərt qaydalar qoymalı olmuşdu.

N.Yüceerin "Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan ve Dağıstan harekatı" əsərində göstərildiyi kimi (6 : s.124), o zaman Bakıda baş vermiş bir qisim talan hərəkətini Azərbaycan türkləri deyil, İran işçiləri törədirmiş ki, yüzdən artıq bu cür cinayət törədənlər asılmışdı.

Nizaməddin Onk isə "Yeni Azerbaycan Cümhuriyyeti kurulurken" adlı sənədli araşdırmasında (7 : s.33) yazır ki, Bakının Quba, Quru bağ, Parapet, Vağzal, Bulvar meydanlarında, şəhər körpüsündə dar ağacları quraraq talan və soyğunçuluqda suçlanan şəxsləri asdılar, bununla da qısa vaxt içərisində şəhərdə asayiş bərpa olundu (2: s. 363)...

Bakı alındıqdan sonra şəhər içində lap az sayda qüvvə saxlayaraq qalanları Bakının və Abşeronun qorunmasında cəlb olundu. 5-ci firqənin hissə və bölükləri Puta, Biləcəri, Hacı Həsən, Xırdalan, Hökmalı, Masazır və Binəqədidə yerləşərək mümkün xarici müdaxilədən, o sıradan ingilislərin böyük miqyaslı hücumundan Bakının müdafiəsini təşkil etmişdi (3: s. 217).

Süleyman İzzət bəyin "15. piyada tümeninin Azerbaycan və Şimali Kafkasyadakı harekatı və müharibeleri" adlı tarixi yaddaşçasında göstərdiyi kimi (8: s.49), onun komandanlıq etdiyi 15-ci firqə isə yarımadanın şərq burnundan Qaratəpəyədək sahil xəttini qorumalı idi. Əmrdə göstərildiyi kimi, bu firqənin hissələri Suraxanı, Sabunçu və Balaxanıda yerləşməliydi...

Süleyman İzzət bəyin əmrinə əsasən, 17 sentyabrdan başlayaraq dəniz sahilinin doğu qismi Qarayazı süvari alayının, yerdə qalan hissəsi Ləzgi süvari alayının baxımına verilmişdi. 38-ci piyada alayının bölmələri Sabunçu və Suraxanıda, 107-ci alayın bölmələri Ramana və Balaxanıda, topçular Bülbülədə, teleqraf taqımı firqə qərargahı ilə birgə Sabunçuda, səhiyyə bölüyü isə Keşlədə yerləşdirilmişdi.

Qafqaz İslam Ordusunun sırada duran görəvləri Qarabağı və Quzey Qafqazı erməni-bolşevik-ağqvardıyaçı zülmündən qurtarmaq üçün o istiqamətlərə hərbi qüvvələr göndərmək idi. Komandanlığın əmrini yerinə yetirmək üçün Bakı bölgəsindəki qüvvələr yenidən qruplaşdırıldı: bu bölgə 5-ci firqəyə təslim edilərək, 15-ci firqə Quzey Qafqaza doğru hərəkətə keçmək üçün sentyabrın 22-də Biləcəri-Xırdalan ətrafında toplanmalı idi (8: s.51; 2: s.367).

Qarabağda və Quzey Qafqazda isə soyqırıma və erməni-xristian təcavüzünə məruz qalan türk-müsəlman əhali bu xilaskar ordunun gəlişini səbirsizliklə gözləyirdi.

**Ədəbiyyat:**

1. ATASE, k. 3820, d. 11, f. 7-57.
2. Mehman Süleymanov. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.
3. Rüştü. Büyük Harpde Bakü yollarında 5. Kafkas piyade fırkası., 93 saylı Askeri mecmuanın tarih kısmı. 1934, № 34.
4. ATASE, k. 3821, d. 14, f. 28.
5. ATASE, k. 3820, d. 11, f. 7-116.
6. N.Yüceer. Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan ve Dağıstan harekatı. Ankara, 1996.
7. Nizaməddin Onk. Yeni Azerbaycan Cümhuriyyeti kurulurken., "Türk dünyası" tarih dergisi, Nisan, 1992.
8. Süleyman İzzət. 15. piyada tümeninin Azerbaycan və Şimali Kafkasyadakı harekatı və müharibeleri., 103 saylı Askeri mecmuanın tarih kısmı, 1936, № 44.

## *LƏNKƏRAN HADİSƏLƏRİ*

Azərbaycanın erməni-bolşevik, erməni-ağqvardıyaçı (velikorus – Böyük Rusiyaçı) qüvvələri tərəfindən zəbt edilmiş bölgələrindən biri də coğrafi cəhətdən önəmli yerə malik Lənkəran bölgəsi idi.

Xatırladaq ki, o işğalçı qüvvələrə vaxtilə Muğan bölğəsinə köçürülmüş rus əhali də dəstək verməkdəydi. 1918-ci ilin payızında Qafqaz İslam Ordusu Bakı, Şirvan, Salyan, Kürdəmir, Quba, Qarabağ, bölgələrini işğalçı erməni-bolşevik-ağqvardıyaçı-ingilis qüvvələrindən təmizlədikdən sonra Lənkəran bölgəsində də uyğun hərbi əməliyyatlar aparılaraq burada da Azərbaycanın suverenliyi təmin edilməli idi.

Ancaq Mudros barışığının tələblərinə əsasən Türk Ordusu Azərbaycandan çıxmalı oldu. Azərbaycan İngiltərənin təsir dairəsinə verildi, Qafqaz bölgəsini general Tomsonun komandanlığı altında ingilis ordusu nəzarətə götürdü və Bakıya ingilis qoşunları gətirildi...

***

Arxiv materiallarından göründüyü kimi, Bakı Sovetinin – **Bakı şəhəri və onun rayonlarının fəhlə, əsgər və matros deputatları soveti**nin 22 (9) fevral 1918-ci il tarixli iclasında Muğan bölgəsində müsəlmanların rus əhalini tamamilə sıxışdırdığı, əhalinin vəziyyətinin dəhşətli olduğu bəyan edilir, Şimala köçmək istəyənlərə kömək tələb olunurdu. Bundan başqa, Lənkəran və Cavad qəzalarında bol məhsul yetişdiyi bildirilir, bu məhsul ehtiyatının "quldur"ların (*yəqin ki, Azərbaycan milli qüvvələri nəzərdə tutulur* –X.İ.) əlinə keçməsinə imkan verməməyə, müvafiq tədbirlər görməyə çağırışlar səslənirdi **(13; 14 : v.97)...**

Hərb tarixçisi Mehman Süleymanovun araşdırmalarına görə, o vaxt Lənkəranda çox qısa zaman ərzində bir neçə siyasi qüvvə öz hakimiyyətini elan etmiş, 1918-ci ilin başlancığında müsavatçılar oradakı silahlı dəstələri tərk-silah edib hakimiyyətə nəzarəti ələ alsalar da, aprel ayında "Aleksandr Jander" gəmisiylə gələrək hadisələrə qarışan bolşevik qüvvələri hakimiyyəti götürmüşdülər. Ancaq Bakıda erməni-bolşevik hakimiyyətini "Sentrokaspi Diktaturası" əvəz etdikdən sonra Lənkəranda rus əhali tərəfindən də müdafiə olunan ağqvardiyaçı (denikinçi) polkovnik İlyaşeviçin qoşun hissələri fəallaşdılar. 1918-ci ilin avqustunda qərargahını Biləsuvardan Prişibə köçürən İlyaşeviçin ordusu tədricən 10 minə çatdı **(1: s.340-341).**



1918-ci il dekabrın axırlarında Lənkəran əhalisinin nümayəndə heyəti (Teymur bəy Bayrambəyovun başçılığı ilə) Bakıya gələrək Tomsonla görüşdü. Lənkəran bölgəsinin ağqvardıyaçılardan təmizlənməsi və burada Azərbaycanın suverenliyinin təmin edilməsi məsələsinin müsbət həll ediləcəyi haqda Tomson onlara vəd verdi **(2: s.72; 3: s.58-59).**

1919-cu ilin fevralında rus zabitlərinin tabeçiliyində olan ərazi hissəsində "Lənkəran respublikası" elan edildi və Suxorikov burada yaradılıdığı bildirilən "demokratik hökumətin" başçısı seçildi **(3: s. 59)**

Bu oyuncaq hökumət Azərbaycan rəhbərliyi ilə də ikibaşlı danışıqlara gedərək, vaxtı uzadıb Paris Sülh Konfransının yekunlaşmasına qədər gözləmək, sonra Azərbaycanı parçalamaq istəyirdi **(3: s. 59-60).**

1919-cu ilin yazından başlayaraq bolşeviklər Lənkəranda çevriliş planı gerçəkləşdirməyə çalışırdılar. Aprelin 25-də ağqvardiyaçılar müşavirə keçirən günnahar fasiləsində oyuncaq hökumətin binasını, poçtu, radiostansiyanı, dəniz agentliyini və mayakı tutaraq, İlyaşeviç başda olmaqla kütləvi həbslər həyata keçirdilər.

Bakı bolşevikləri aprelin sonunda gizlicə "Vstreça" gəmisiylə Lənkərana çox sayda silah-sursat, 9 milyon rubl nağd pul, siyasi ədəbiyyat göndərmişdilər.

1919-cu ilin mayında S.Orconikidzenin göstərişi ilə Şimali Qafqazdan 200 nəfər döyüşçü də Lənkəran bolşeviklərinə köməyə göndərildi. V.Leninin tapşırığı ilə T.İ.Ulyansev (Otradnev) də Lənkəran bölgəsinə gələrək, burada inqilabi şura təşkil etdi. Bu zaman "Lənkəran bolşevikləri"nin sərəncamında bir piyada taboru, süvari eskadronu, 6 səhra və 3 dağ topu, 3 hidroplan vardı. Onların silahlı qüvvələrinin ümumi sayı 5-6 min nəfər civarında idi **(1: s.342-343).**

Erməni-bolşeviklərin və hegemonluq niyyətilə onları devirməyə çalışan ağqvardıyaçıların meydan suladıqları "sahibsiz" bölgəyə çevrilmiş Lənkəran çevrəsində Azərbaycan dövlətinin suverenliyini bərpa etmək üçün 1919-cu il iyunun sonlarında Bakıdan Məlik-Yeqanovun rəhbərliyi altında Astaraya hərbi qüvvə göndərildi və bu qüvvə N.Ramazanovun yerli partizanlardan ibarət dəstəsi ilə birləşdi **(3: s. 75).**

Hüseyn Əlixanın və Rəşid xanın sayca kiçik dəstələri də Ramazanovun və Şahverənin partizan dəstələrinə qoşuldular. Xatırladaq ki, Şahverənin Zuvand dağlarında məskən salmış dəstəsi də əvvəldən bolşevik və denikinçi qüvvələrə qarşı fəal mübarizə aparırdı.

Milli qüvvələrin iyulun 17-dəki planına görə, Lənkəran üzərinə hücum Şahverənin dəstəsiylə qərbdən, Ramazanovun dəstəsi vasitəsilə cənubdan – Lənkəran çayının yatağı boyu, Hacı Osmanın qüvvələri ilə də şərqdən həyata keçirilməli idi.

Rusca çıxan "Azerbaydjan" qəzetinin 19.07.1919-cu il sayında qeyd olunduğu kimi, burada vuruşan bolşeviklərin çoxu ermənilər idi.

Azərbaycanlıların uğurlu hücumundan sonra "Milyutin" gəmisində və başqa üzən obyektlərdə sığınacaq tapan erməni-bolşevik qüvvələri iyulun 18-də azərbaycanlı könüllü dəstələrini top atəşinə tutaraq və şəhərin mərkəzində də zirehli avtomobillərdən istifadə edərək müdafiə olunmağa çalışdılar.

Lənkəran içərisində bir neçə gün davam edən döyüşlərdən sonra, bolşevik qüvvələri Sara adasına çəkilərək hakimiyyəti Muğanın ağqvardıyaçı qüvvələrinə təhlil verdilər **( 4 ; 1: s.345-346)...**

N.Əlizadənin yazdığı kimi, Məlik-Yeqanovla birlikdə Astaraya Azərbaycan qoşun bölükləri də göndərilmişdi **(3: s. 75).**

Bolşeviklərdən hakimiyyəti təhvil almış və Azərbaycan hakimiyyətinə tabe olmaq istəməyən İlyaşeviçin çevrəsindəkilərlə Azərbaycan hakimiyyəti nümayəndələri bir neçə gün danışıqlar apardılar. İngilislərin rəyini bəhanə edən İlyaşeviçin mövqeyi, nəhayət İngilis komandanlığı tərəfindən də rədd edilərək, onlara xəbərdarlıq edildi: **"Müttəfiq dövlətlərin və admiral Kolçakın nümayəndələrinin Parisdə qəbul etdikləri**

razılaşmaya əsasən Britaniya hökuməti qərara gəlir ki, Muğan vilayəti və Lənkəran qəzası Azərbaycanın hüdudları daxilində olan ərazi kimi bu respublikanın hakimiyyət orqanları tərəfindən idarə edilməlidir və həmin ərazilərdə bu hakimiyyət bərqərar olmalıdır" ( 5 )...

Bu tələblərlə razılaşmayan xristian, bölücü Muğan qüvvələri avqustun 10-na keçən gecə Azərbaycan milli qüvvələri üzərinə qəti hücuma keçsələr də uğursuzluğa düçar oldular və böyük itkilər verərək geri çəkildilər. Nəticədə ağqvardıyaçı (xristian, velikorus) Muğan qüvvələri ingilislərə xəbər göndərərək Azərbaycanın bu bölgədə suverenliyinin təmin edilməsinə razı olduqlarını bildirdilər ( 6 ).

Ancaq avqustun 11-də Muğan xristianlarının qurultayında bu "məsələ" Ümumrusiya Müəssislər Məclisində həll ediləndək Azərbaycan hökumətinə tabe olmaq qərara alındı ( 7 ).

Avqustun 12-də saat 13.00-da Azərbaycan nümayəndələri bir qrup əsgərlə şəhərə daxil olduqdan sonra Məlik–Yeqanov Lənkəran qəzasında fövqəladə vəziyyət elan etdi ( 8 ).

Azərbaycan istənilən vaxt şimaldan, dənizdən və cənubdan velikorus qüvvələrinin hücumuna məruz qala biləcəyindən Muğan bölgəsindəki İlyaşeviçə bağlı qoşunlara qarşı qəti tədbirlər görmək üçün bölgəyə Azərbaycan Ordusu hissələri göndərildi (**1:** s.349).

1919-cu il avqust ayının başlancığında 3500 nəfərlik nəzərdə tutulan Lənkəran dəstəsi hazırlanmış, bununla bağlı avqustun 4-də hərbi nazir S.Mehmandarov uyğun əmr də imzalamışdı (**9:** v.11).

Lənkərana doğru hərəkət edən dəstə avqustun 15-də Salyana çatdı...

Ancaq Lənkəran əməliyyatına komandan təyin olunmuş Azərbaycan Ordusunun Baş Qərargah rəisi general Həbibbəy Səlimov S.Mehmandarovdan gözləmədiyi bir teleqram almışdı. Teleqramda Lənkəran dəstəsinə aid yüngül topçu batareyasının dərhal geri – Hacıqabula, oradan da Bakıya göndərilməsi tələb olunurdu (**10:** v.5,11).

Komandanlığın başqa bir teleqramında isə dəstə Lənkərana çatan kimi, bir günlük istirahətdən sonra orada 600 nəfərlik bir taborun saxlanılaraq yerdə qalan qüvvələrin Hacıqabula qaytarılması əmr edilirdi. Ancaq gələcəkdə, Lənkəran köməkçi taboru yaradılması və bu 600 nəfərlik taborun da geri göndərilməsi istənirdi (**11:** v.10).

Azərbaycan Ordusunun fəaliyyətini hər yöndən araşdıran Mehman Süleymanovun yazdığına görə, Lənkəran dəstəsindən qarşıya qoyulan tapşırığı tez-tələsik yerinə yetirib Azərbaycanın başqa bölgələrində mürəkkəbləşmiş məsələlərin həllinə qoşulmaq tələb olunurdu. Quzeydə Denikin, Qarabağda erməni təhlükəsi, həm də Şamaxıda yenidən baş qaldırmış malakan çətələrinin hökumətə qarşı çıxışları Azərbaycana yeni çətinliklər yaratmaqla Lənkəran bölgəsində silahlı dəstələrin silahsızlaşdırılması, qayda-qanunun bərpası məsələsində ildırımsürətlə tələskənlik diqtə edirdi.

Lənkəran dəstəsi güney istiqamətinə hərəkət etdikcə yolboyu rus kəndlərindəki əhalini də tərk-silah edir, alınan top, pulemyot və başqa silahlar Bakıya göndərilirdi. Beləliklə, avqustun 20-də Porkovsk mühasirə olunaraq, silahlar yığıldıqdan sonra – ertəsi gün dəstə Prişibə doğru getməli idi...

Nəhayət, avqustun 23-də Lənkəran dəstəsi Lənkəran şəhərinə girdi.

Dəstənin gəlişi Lənkəran camaatı tərəfindən böyük sevinc və təntənə ilə qarşılandı.

Avqustun 24-25-də Lənkəranda istirahət verilən hissə və bölmələr buranı əsas bazaya çevirərək, avqustun 26-da Yeddi Oymaq, Biləsuvar, iki gün sonra Astraxanka məntəqələrində oldular.

Lənkəran dəstəsi avqustun 17-18-də rus kəndlərindən 3 top və 5 pulemyot, avqustun 20-də Pokrovkadan 2 top, 4 pulemyot, avqustun 26-da Biləsuvarda rus əhalidən 6 top və s. ələ etdi.



Ümumilikdə Muğanın rus çətələrindən 22 top, 32 pulemyot müsadirə edən Lənkəran dəstəsi avqustun sonunda qarşıya qoyulan vəzifəni tamamilə yerinə yetirmişdi (**1:** s:354-355,357-359).

1919-cu il sentyabrın 3-də Lənkəran dəstəsi Hacıqabula qayıtdı. Dəstənin komandiri general-mayor H.Səlimovun və dəstənin qərargah rəisi podpolkovnik Ehsan xan Naxçıvanskinin imzaladığı növbəti – 23 saylı əmrə görə 8 topa malik 2500 nəfərlik Lənkəran dəstəsi 6 top batareyası və 8000 nəfərlik silahlı dəstəsi olan Muğanın rusdilli əhalisindən bütün silah-sursatı müsadirə etməli idi.

Sonluqda Lənkəran dəstəsi bu vəzifəni də layiqincə yerinə yetirərək, düşməndən çox sayda top və pulemyot, 4 minə yaxın mərmi, 3 yük avtomobili, 209 xidməti at və xeyli hərbi təchizat götürmüşdü.

**Rus ordusunda qulluq etmiş keçmiş əsgərlərin şəhadətinə görə, o zamankı Azərbaycan Ordusundakı nizam-intizam Napoleon dövrlərindəki nizam-intizamdan da güclü imiş. Bu keyfiyyət hesabına da Ordu qat-qat çətin vəzifələrin öhdəsindən uğurla gələ bilirdi (1:** s. 359-360).

İngilis qəzetçisi Skotland Liddelin Bakıdan hazırladığı yazıya görə, Lənkəranda bolşeviklərə qarşı mübarizədə 9 nəfər azərbaycanlı şəhid olmuşdu:

"..Görkəmli adamlar və tüfənglərinin lüləsi aşağı çevrilmiş bir neçə min əsgər azərbaycanlıların çiyinlərində apardığı 9 tabutun ardınca düzülmüşdülər. Küçələr adamlarla və əsgərlərlə əhatə olunmuşdu" (**12:** v.1)...

Ancaq Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyinin rəsmi məlumatlarında bu şəhidlər barədə bilgi yoxdur (**1:** s. 361-362).

**Ədəbiyyat:**


1. Mehman Süleymanov. Azərbaycan Ordusu. (1918-1920). Bakı, 1998.
2. Привольный А.А. Над Муганью зарево Октября. Баку, 1979.
3. Əлизадə. Н. Лəнкəран гəзасы зəhмəткешлəринин совет hакимиjjəтинин гəлəбəси вə мөhкəмлəндирилмəси уғрунда мүбаризəси тарихиндəн., Бакы, 1963.
4. Газ. «Азербайджан», Баку, 30.07.1919.
5. Газ. "Азербайджан", Баку, 13.08. 1919.
6. Газ. "Азербайджан", Баку, 16.08. 1919.
7. Газ. "Коммунист". Баку, 16.08. 1919.
8. Газ. "Азербайджан", Баку, 16.08. 1919, 22.08.1919.
9. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f. 2894. siy. 1, iş 2.
10. AR Mərkəzi Dövlət Arxivi, f. 2898, siy. 2, iş 47.
11. AR Mərkəzi Dövlət Arxivi, f. 2898, siy. 1, iş 12.
12. AR Mərkəzi Dövlət Arxivi, f. 970, siy.1, iş 171.
13. Газета «Известия совета рабочих и солдатских депутатов Бакинского района», Баку, № 44, 9 марта (24 февраля) 1918 г.
14. ARPİİSSA f.276, siy.3, iş 209.


***("Qafqaz İslam Ordusunun Hərbi Əməliyyatları" bölümü qısa ixtisarla "Hürriyyət" qəzetinin 2010-cu il saylarında yayınlanmışdır.)***

**Ermənistan – Azərbaycan: Dağlıq Qarabağ münaqişəsinə yeni baxış: Zəngəzur və işğal-qəsbkarlıq nəticəsində itirilmiş başqa ərazilər məsələsinin qaldırılması və Ermənistan – Azərbaycan münaqişəsinin tarixi varisliyi ilə bağlı kompleksin ortaya qoyulması ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Sədrinə**

## MÜRACİƏT

*Hörmətli Sədr!*

Ermənistan – Azərbaycan münaqişəsinin predmeti olan Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində ATƏT-in Minsk Qrupu çərçivəsində atılan addımların ilbəil təkliflər paketi qismində ciddi bir yenilik gətirmədiyini, beynəlxalq erməni mafiyasının və erməni havadarlarının ardıcıl səyləri nəticəsində bu münaqişənin həllinin Azərbaycana yeni ərazi və status güzəştləri ilə başa gələcəyi ehtimallarının azalmadığını nəzərə alaraq, bu dövlətlərarası münaqişəyə daha geniş, daha böyük problemlər kontekstində baxılmasına səy göstərməyi Azərbaycan dövlətinin və Azərbaycan xalqının düşdüyü tarixi situasiya diqtə etməkdədir.

Bu yaxında bəzi ictimai təşkilatlar və elmi ictimayyət tərəfindən "İrəvan məsələsi"nin qaldırılması da bu istiqamətdə atılan addımlardan sayıla bilər. Ancaq ötən əsrin tarixi sənədlərinə ekskurs etsək, aşkar görünür ki, 1918-ci ilin 29 mayında Müsəlman Milli Şurasının qərarı ilə İrəvanın ermənilərə güzəştə gedilməsi, o sənəddə deyildiyi kimi, tarixi bəla, qaçılmaz müsibət olsa da, hər halda bağışlama aktıdır. (**Bax:** *Müsəlman Milli Şurasının yığıncağının 3 saylı protokolu, Tiflis şəhəri, 29 may 1918-ci il – ARDA, f. 970, siyahı 1, iş 1, vərəq 51-52*).

Bu məsələdən ancaq və ancaq ermənilərə qarşı güzəşt siyasətinin uğursuz olduğunu və hətta əks nəticə verdiyini... beləliklə, indi də bizim yeni güzəştlərə gedəcəyimiz halda ermənilərin sülhpərvər xalqa çevriləcəyinə təminat olmadığını və Qafqazın barış və hüzur bölgəsinə çevrilə bilməcəyini dünya dövlətləri qarşısında irəli sürmək üçün mümkün olan arqument kimi yararlanmaq olar.

Doğrudan da o zaman – İrəvanın onlara güzəştə gediləcəyi halda ermənilər öz ərazi iddialarından əl çəkəcəkləri ilə bağlı təminat versələr də, Osmanlı dövləti də Ermənistana güzəştə gedərək onun müstəqilliyini tanısa da... sonucda ermənilər yenidən həm Azərbaycana, həm də Türkiyəyə qarşı ərazi iddialarından nəinki əl çəkmədilər, hətta Qərbin imperialist dövlətlərinin və Sovet hakimiyyətinin əli ilə bu iddialarının bir qismini təmin etdirdilər...

Ancaq bizim Sizə bugünkü müraciətimizin əsas qayəsi Ermənistan Azərbaycan: Dağlıq Qarabağ münaqişəsinin müzakirələri zamanı çox ciddi bir məsələni – Zəngəzur, Dərələyəz və sovet zamanında (Dağlıq Qarabağ məsələsinə qədər) işğal olunmuş digər ərazilərimizin məsələsini qaldırmağınızı xahiş etməkdir.

**Sual oluna bilər: biz Zəngəzur, Dərələyəz, Zəngibasar, Vedi, Göyçə, Dilcan məsələlərini qaldıra bilərikmi, buna hüquqi əsasımız varmı, məsələni qaldırmaqla müəyyən təsir mexanizmi əldə etmiş oluruqmu?..**

Əvvələ, xatırladım ki, Azərbaycan Respublikası özünü 1918-20-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdiyindən 1992-ci ildə BMT-yə daxil olarkən Cümhuriyyətimizin 1920-ci il 27 aprel tarixində – hakimiyyətin Azərbaycan kommunistlərinə təhvili zamanı malik olduğu əraziləri bugünkü Azərbaycan Respublikasının qanuni əraziləri hesab etməli və Sovetlər dönəmində ermənilərə verilmiş ərazilərin məsələsini dərhal BMT-də mübahisəli ərazi məsələsi kimi müzakirəyə təqdim etməli idi!!!

Məlumdur ki, sovet hakimiyyəti qanuni hakimiyyət deyildi və baxmayaraq ki, hakimiyyət kommunistlərə təhvil edilərkən Azərbaycanın ərazi bütövlüyünə təminat



verilmişdi, lakin sonra daşnak Ermənistanı kimi erməniçi-velikorus Sovet hakimiyyəti də öz təminatını pozmuş, nəticədə Azərbaycanın 26 min kv. km ərazisi qəsb edilmişdir!

Daşnaklar öz təminatını pozaraq Andronik, Dro, Njde və başqa generalların başçılığı altında müxtəlif silahlı birləşmələrin köməyi ilə Azərbaycan ərazisi olan Şərur – Dərələyəz mahalında və yuxarı Zəngəzurda – indiki Sisyan, Gorus, Qafan rayonlarının ərazilərində etnik təmizləmə aparıb, bu bölgəni işğal etmişdilər. Hətta 1920-ci il dekabrın 25-i erməni daşnakları bu ərazidə "Azad Sünik hökuməti" adlandırdıqları bir oyuncaq qurum da yaratmışdılar. Bundan sonra gələn 11-ci Qırmızı Ordunun hissələri bu yerləri daşnaklardan təmizləyərək Ermənistana birləşdirdi. Başqa sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin əraziləri olan Göyçə, Dərələyəz, Zəngəzur, Vedi, Zəngibasar və Dilcan mahalları Azərbaycandan işğal və etnik təmizləmə yolu ilə alınaraq Ermənistana birləşdirildi. Bu ərazilərin qəsb edilməsi, arxiv materiallarından da göründüyü kimi, silahlı basqınlar, hərbi əməliyyatlar nəticəsində alınması, əvvəllər Antantanın, sonradan Moskva sovet rəhbərliyinin birbaşa himayəsi altında icra olunduğu üçün Sovet dövründə bunların işğal aktı kimi tanınması mümkün olmamış, əksinə Azərbaycanda işğal gücünə hakimiyyətə gələn Moskva və erməni-gürcü emissarlarının (Kirov, Mikoyan, Mirzoyan, Orconikidze...) vasitəsilə-Azərbaycan K (b) P MK bürosunun 30 noyabr 1920-ci il tarixli qərarı ilə dəstəklənmişdir.

1929-cı il 18 fevral tarixində M.Çxakayanın sədrliyi ilə keçən Zaqafqaziya SFSR sovetlərinin MK Prezidiumunun 3 saylı iclasının qərarı ilə Azərbaycana məxsus Cəbrayıl qəzasının İranla 25 kilometrlik sərhəddi olan strateji əhəmiyyətə malik 3 kəndinin – Nüvədi, Yernəzər və Tuğut kəndlərinin Ermənistanın yeni təşkil olunmuş Mehri rayonu tabeçiliyinə verilməsi isə sovet rəhbərliyinin dünya üzərində az-az rastlanan "dinc işğalçılıq" təzahürlərindən idi. "Zakfederasiya"nın bu əcaib qərarı hətta sovet rejimində belə 40 il təsdiqini tapmamış, ən nəhayət, Azərbaycan KP MK bürosunun 26 noyabr 1968-ci il tarixli iclasında "müzakirə" edildikdən sonra Azərbaycan SSR Ali Sovetinin 7 may 1969-cu il tarixli qərarı ilə "təsdiqlənmişdir".

Xatırladaq ki, bu "dinc" qəsbkarlıq nəticəsində Naxçıvanla Azərbaycanın yerdə qalan hissəsini 1920-ci ildən etibarən ayıran 20 km-lik "erməni zolağı" böyüyüb 45 km təşkil etdi!

Yeri gəlmişkən onu da qeyd edək ki, Ermənistan bununla da İrana geniş çıxış koridoru əldə etdi ki, bu qəsbkarlığın acı nəticələri indiki Ermənistan –İran təcavüzkarlıq əlaqələrində özünü göstərməkdədir. Bu problem eyni zamanda bölgədə Rusiyanın mövqeyinin güclənməsinə, Qərbin mövqelərinə əlavə problemlər gətirməyə xidmət edir.

Qonşu xalqların ərazilərini qanunsuz yolla ələ keçirib orada yeni tipli velikorus dövləti quran sovetlər hakimiyyəti dağıldıqdan sonra isə bölgədə və o sıradan Azərbaycanda hüquqi situasiya (durum) dəyişmiş, dövlətlər öz müstəqilliyini bərpa etmişlər. O cümlədən, həm Ermənistan, həm də Azərbaycan Respublikaları özlərini vaxtı ilə mövcud olmuş müvafiq müstəqil respublikaların varisləri hesab etmiş və edirlər. Bu gün Azərbaycan Respublikası 1918-20-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun malik olduğu bütün – 112 min kvadrat kilometr ərazidə öz suverenliyini bərpa etmək üçün müvafiq addımlar atmalı və bu zaman 1918-20-ci ilədək mövcud olmuş daşnak Ararat Respublikasının varisi Ermənistan Respublikasına da vaxtı ilə sələfinin verdiyi Azərbaycana qarşı ərazi iddialarından əl çəkmək təminatını xatırlatmalıdır.

Ümumiyyətlə isə, yuxarıda nəzərə çatdırdığım məsələlər kompleksinin həlli üçün Azərbaycan Respublikası tərəfindən aşağıdakı hüquqi prosedurlar həyata keçirilməlidir:

1. Azərbaycanın Milli Məclisi Cümhuriyyət dövründən bizə miras qalmış, ancaq sovetlər dövründə qəsbkarlıq yolu ilə ermənilərə verilmiş ərazilərin – Yuxarı Zəngəzur, Dərələyəz, Vedi, Zəngibasar, Göyçə, Dilcan mahallarının Azərbaycandan qoparılmasını işğal faktı kimi tanımalıdır.

Bununla bağlı isə əvvəlcə:

Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Kommunist (bolşeviklər) Partiyası MK siyasi və təşkilat bürolarının 30 noyabr 1920-ci il tarixli qərarını pisləyərək, bu qərarı işğalçı erməniпərəst sovet rəhbərliyinin qanunsuz qərarı kimi qiymətləndirməlidir.

Nüvədi, Yernəzir və Tuğut kəndlərinin Azərbaycanın Cəbrayıl qəzasının tabeçiliyindən çıxarılaraq Ermənistanın Mehri rayonun tabeçiliyinə verilməsi haqda Zaqafqaziya MİK-nin 18 fevral 1929-cu il qərarı (protokol № 3) və Azərbaycan SSR Ali Sovetinin 1969-cu il fərmanı qanunsuz olduğu üçün Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ləgv edilməlidir).

2. Bu işğalı etiraf etməsi tələbi ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Ermənistan Respublikası parlamentinə müraciət göndərilməlidir.

3. Bu işğalda mərkəzi sovet hakimiyyətinin də rolunu etiraf etməsi üçün Azərbaycan Milli Məclisi Rusiya parlamentinə müraciət ünvanlamalıdır.

4. Yuxarıda adı çəkilən ərazilərdə işğal faktının və bu işğalda bolşevik Rusiyasının rolunu ifadə edən beynəlxalq hüquqi sənədlərin qəbulu üçün Azərbaycan Respublikası tərəfindən BMT-yə və Avropa Şurasına müraciətlər ünvanlanmalıdır.

5. Azərbaycan Respublikası tərəfindən BMT-yə və Avropa Şurasına, ATƏT-ə müraciətlər qəbul edilərək *Ermənistan – Azərbaycan münaqişəsinə* daha geniş kontektsdə – **Azərbaycanın Yuxarı Zəngəzur, Dərələyəz, Vedi, Zəngibasar, Göyçə, Dilcan** *(ümumi sahəsi təqribən 26 min kvadrat km olan)* **mahallarının və Qarabağın – daha doğrusu, Azərbaycanın 11 rayonunun işğalı və İrəvanın ermənilərə güzəşt edilməsi zamanı ermənilərin Azərbaycana qarşı ərazi iddialarından əl çəkəcəkləri haqda verdikləri təminat kontekstində** baxılması tələbi qoyulmalıdır.

6. Yuxarıda qeyd olunan müraciətlərin qiymətləndirilməsindən sonra Zəngəzur və başqa ərazilərimizin qaytarılması tələbi irəli sürülməli və bu istiqamətdə ardıcıl mübarizə aparılmalıdır.

*Hörmətli Sədr!*

Müraciətimizi yekunlaşdıraraq, yuxarıda sadaladığımız tarixi fakt və sənədlərin hüquqi əlaqələrini nəzərə alaraq, beynəlxalq hüquq prinsipləri çərçivəsində Yuxarı Zəngəzur və başqa qəsb olunmuş ərazi məsələlərinin beynəlxalq təşkilatların, o sıradan BMT, Avropa Şurası və ATƏT qarşısında qaldırılmasını, Ermənistan – Azərbaycan münaqişəsinə qarşı tərəfin aqressivliyini daha aşkar sübuta yetirən daha geniş problemlər kontektsində yanaşılmasını tələb etməyinizi xahiş edirik.

Ümid edirik ki, xalqımızın haqq işi uğrunda mübarizədə məsələlərin bu cür qoyuluşu, qismən də olsa, öz töhvəsini verəcəkdir.

**Hörmətlə: Xaqani İsmayıl,**

*yazıçı-tarixi tədqiqatçı, "31 Mart" (Azərbaycanlı Soyqırımını Tanıtım) Təşkilatının Sədri*

Tarix: 26. 06. 2005.

***

*Bu müraciət (konsepsiya) müvafiq mətbuat konfransında qısa müzakirə olunmuş, prof. Firidun Ağasıoğlu (Azərbaycan), doktor Tariyel Vəli Nüvədili (ABŞ) və b. alimlər, ziyalılar, ictimai xadimlər, qəzetçilər, mətbuat orqanlarının redaktorları tərəfindən imzalanaraq Bakı şəhərində yayınlanan "Vətəndaş naminə" qəzetinin 3-10 iyul 2005-ci il tarixli 26 (71) saylı buraxılışında dərc edildikdən sonra Milli Məclisin o dönəmdəki Sədri prof. Murtuz Ələsgərova göndərilmişdir.*



**Qeyd:**

1. Qafqazda ciddi mətbuat orqanlarından sayılan, Bakıda rusca yayınlanan «Gxo» qəzeti (28/09/2005 ) və az sayda başqa qəzetlərimiz bu müraciətlə bağlı bilgilər yayınlamışlar;

2. Ermənistanın "Arminfo", "İA Regnum", "Vision", "Hayastan.com" və b. ingilis, fransız və rusdilli informasiya agentlikləri, saytları və qəzetləri də bu müraciətə (konsepsiyaya) münasibətini bildirmişlər.

3. Bəzi rəsmi qaynaqlara görə, 1918-20-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi 114 min kvadrat kilometr, Ermənistanın zəbt etdiyi (və ya SSRİ rəhbərliyi tərəfindən zorla Azərbaycandan alınaraq Ermənistan sınırlarına daxil edilmiş) ərazi sahəsi 27,4 min kv. km. sayılmalıdır. Əlbəttə, son dönəmlərdə işğal olunmuş Dağlıq Qarabağ və ona bitişik ərazilər bura aid deyildir. (*Bax:* **"Azərbaycan" qəz., Bakı, 24.04.2001.**, səh.2);

AMEA Tarix İnstitutunun araşdırmalarına əsasən, Azərbaycan Cümhuriyyətinin mövcudluğu zamanı onun ərazisi 113 895, 97 $km^2$ idi. Bunun da 97 297, 67 $km^2$ mübahisəsiz, 16 589, 30 $km^2$ mübahisəli ərazilər hesab olunurdu. (*Bax:* **Azərbaycan tarixi, 7 c.-də, 5-ci c., Bakı, 2001,** səh. 422).

4. 1929-cı il 18 fevral tarixində M.Çxakayanın sədrliyi ilə keçən Zaqafqaziya SFSR sovetlərinin MK Prezidiumunun iclasının 3 saylı protokolu ilə daha ətraflı tanış olmaq üçün, *bax:* **Əli Vəlioğlu. Nüvədi və nüvədililərin tayfa şəcərəsi.**, Bakı, 2009, səh.2.

## "DİNC" ERMƏNİ-BOLŞEVİK TERRORU

***"Xristianlıq Afrikaya gəldiyi zaman afrikalıların torpağı, xristianların isə İncilləri var idi. Xristianlar bizə gözlərimizi bağlayaraq, dua və ibadət etməyi öyrətdilər. Gözlərimizi açdıqda onlar bizim torpağımızı, biz də onların İncillərini almışdıq".***

*Keniyanın ilk Baş Naziri Como Kenyatta (1889-1978)]* – ( 21 )

Qırmızı Ordunun Azərbaycanı işğal etməsilə məmləkətimizin qara günləri yeni dəhşətlərilə geriyə döndü. Yeni mənəvi, fiziki, psixoloji qətliam erasının yönətməni, yazarı və oyunçuları da əsasən ermənilər və anti-azərbaycançı velikoruslar, yaxud velikorus nökərləri idilər. Nə yazıq ki, bu faciə serialının (sicilləməsinin) oyuncaqları isə özümüzünkülər, öz doğma mənsəbpərəstlərimiz, "molodes sobak!" epitetli şan-şöhrətbazlarımız, məşhurlaşmış-məşhurlaşmamış satqınlarımız idi!

Belə bir çətin şəraitdə Azərbaycan İnqilab Komitəsinin Rəyasət Heyətinin Sədri Nəriman Nərimanov bütün varlığı ilə məmləkətin haqlarını müdafiə edir, lazım gəldikdə Leninlə, Stalinlə diplomatik dildə, ancaq ultimativ bir tonda danışaraq təklənmiş Azərbaycanın mövqelərini qorumağa çalışır, beləliklə özü də bu mücadilədə təklənməyə məruz qalırdı...

*Bolşevik işğalından sonra ölkəmizin düşdüyü ağır durumu daha yaxından öyrənmək üçün Nərimanovun Leninə və Stalinə yazdığı məktublara müraciət edək.*

**Nərimanovun Leninə yazdığı məktub** (*kiçik ixtisarla*):

...Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda o, Mərkəz, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari-ümumiyyə ilə birtəhər mübarizə aparmaq olardı (*Nərimanov ərazilərimizin, dəyişdirilməsi dışında, Gürcüstana verilmə ehtimalının yox dərəcəsində olduğu üçün, çarəsizlikdən bu diplomatik yanaşmanı ortaya qoyur* –X.İ.), lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək bir səhvdir. Bu barədə bizim nümayəndəmiz ətraflı danışacaqdır.

Bizi dəhşətli vəziyyətdə qoyan Mərkəzin başqa bir münasibəti: Mərkəzdən hər gün nümayəndələr gəlib əllərindəki mandatlara əsasən bu və ya digər səbəbə görə tanınmış xalq komissarına tabe olmaq haqqında bizə göstəriş verirlər.

Əziz Vladimir İliç, məgər "Müstəqil Azərbaycan" Sizin dilinizdən çıxmamışdırmı? Axı məhz buna əsaslanaraq, biz Müsavatın qurduğu fitnəkarlığı (*yəqin ki, Nərimanov siyasi məqsədlə belə bir ifadə işlədir* -X.İ.) məhv edə bildik.

İndi vəziyyət belə şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış, üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs bütün Azərbaycan kəndliləri?

Mən qəti surətdə bildirirəm: əgər Siz də bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə Mərkəz qarşısında məsələ qoyaq. Onda qoy tarixən dolaşıq milli məsələləri belə asanlığla həll edənlər bura gəlsinlər. O zaman bilərik ki, bizim mənasız –Şərqə doğru– çığırtımız nə deməkdir. Belə olan halda Şərqə doğru necə gedəcəyik?



Yeganə ümidimiz – inqilabımızı Şərqdə siyasətlə müdafiə etmək ümidi də alt-üst oldu. Və bütün bunların müqəssiri kimdir? – 1-ci Mərkəzin xəbərsizliyi və 2-ci Mərkəzdə oturmuş erməni daşnak-kommunistlərin iyrənc işi.

Mən Sizin diqqətinizi buna cəlb edirəm.

Əgər qısa bir müddətdə Mərkəz daşnak-kommunistlərin bütün murdar hərəkətlərinə son qoymaq iqtidarında olmasa, bütün müsəlman Şərqi bizdən üz döndərəcəkdir...

Azərbaycanın Respublikası EA-nın
Azərbaycan Tarixi Muzeyi,
elmi arxiv, inv. № 2041
**(1: s.62-63).**

***

**Nəriman Nərimanovun Stalinə yazdığı gizli məktub**dan*
(iyun 1923- 27 may 1924-cü il) bəzi parçalar (*ixtisarlarla*)
**(Surəti: Yol. [ L. D. ] Trotskiyə
Yol. [ K. B. ] Radekə):**

...Bizim qoşunlar maneəsiz şəhərə girmiş və əhali onları mehribancasına qarşılamışdı.

Sən demə, müsavat hökuməti, hər şeydən naümid olub, akt tərtib etmişdi, burada deyilirdi ki, hakimiyyət müsəlman kommunistlərinə verilir **(1: s.17)...**

*"Azərbaycanı başdan-başa qarət edirlər,sağa-sola güllələyirlər."*

Bəzi yoldaşlar məni (onların arasında nə Qarayev, nə Hüseynov var idi) bu sözlərlə qarşılamışdılar...

Mən (*İnqilab Komitəsinin Rəyasət Heyətinin toplantısını çağıraraq, faktiki olaraq hər şeyi yönətən XI Qırmızı Ordu Siyasi İdarəsinin xüsusi şöbəsinin reisi Pankratovu da dəvət edərək*-X.İ.) belə bir məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin.

Mirzə Davud Hüseynov və Qarayev bunun əleyhinə çıxdılar.

Beləliklə hər şey öncəki kimi davam edirdi...

Sonra, Moskvaya yola düşməzdən qabaq yol. Orconikidze nəyə görə isə Mərkəzi Komitədə belə bir məsələ qoydu:

***"Azərbaycan Respublikası müstəqilmi yaşamalı, yaxud tərkib kimi Sovet Rusiyasına daxil olmalıdır?"***

MK üzvləri-Qarayev və M. D. Hüseynov belə bir fikir irəli sürürdülər ki, bizə heç bir müstəqillik lazım deyil, biz Azərbaycanı Sovet Rusiyasına birləşdirməliyik...

Sonra Orconikidze mənə müraciət etdi və soruşdu: "Bu məsələ barədə siz nə fikirləşirsiniz, Sizin rəyiniz mənim üçün vacibdir."

Mən qəti şəkildə bildirdim: "*Azərbaycan respublikası Gürcüstan və Ermənistan sovetləşdirilənədək müstəqil olmalıdır, sonra isə baxarıq*" **(1: s.17).**

...Mən Qarayevi yetkinləşməmiş bir oğlan uşağı kimi, ancaq Hüseynovu aşkar, qatı milliətçi kimi tanıyırdım.

...Mənim üçün bir şey aydın idi: Hüseynov da, Qarayev də öz keçmişlərindən qorxurdular və hazırda heç bir qüvvəyə malik olmadıqları üçün solluq oyunu oynamalı idilər...

...Onlar (*M. D. Hüseynov, Ə. Qarayev nəzərdə tutulur. Əslində həm də onların erməni-gürcü və velikorus əqidəli himayədarları*-X.İ.) müsəlman fəhlələrinin inkişaf

səviyyəsini qaldırmaq haqqında mənim tələblərimdə milli meyl görürdülər (1: s.18-19)...

...Sözsüz ki, başını itirmiş müsavat hökuməti kommunistləri xəlvətdən güllələməyə başlayanda bu müsibətdən yaxa qurtarmaq üçün yol. Mikoyana belə çətin bir anda mən lazım idim.

Ancaq sonra?

Çevriliş baş verdikdən sonra, bu asan hiss olunmağa başladı, həm də Mikoyan dedi:

"Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin..."

Axı həmin o Mikoyan 18-ci ildə məni kommunizm haqqında mühazirə oxumaq üçün fəhlə rayonlarına dəvət edirdi, indi məni şübhə altına alır.

Mən təsdiq edirəm ki, mənim "Bahadır və Sona" romanım yol. Mikoyan hələ daşnak olarkən artıq uğur qazanmışdı.

Onda nə üçün 20 il keçdikdən sonra mən millətçi olmalıyam, yol. Mikoyan isə beynəlmiləlçi. Beləliklə Mikoyan Bakı Komitəsinin şəxsində müxalifət yaradır ki, mənim fəaliyyətim millətçi təmayül olmasın.

BEKA-nın (*Azərbaycan Kommunist Partiyasının Bakı Komitəsi* –X.İ.) katibi sifətilə fəhlə qüvvəsini bölüşdürməyə və "solluq oyunu oynamağa" başlayır (1: s.26)...

Mikoyandan sonra BEKA-nın katibi Sərkis olur, Sərkisdən sonra isə Mirzoyan. Çox güman ki, Mirzoyandan sonra Kasparov olacaq və i.a.

Mən bildirirəm ki, bu, ağılla düşünülmüş və düzgün hesablanmış bütöv bir plandır. Hələlik bunu mötərizədə saxlayıram, çünki əminəm ki, bu mötərizələr nəticədə özləri açılacaqlar. Lakin işimin elə ilk günlərindən mən açıq deyirəm:

bir çox mülahizələrə görə hələlik erməni yoldaşların görkəmli, məsul vəzifələrə təyin edilməsini dayandırmaq vacibdir.

Zaqafqaziyanın keçmişi, ümumilikdə və özəlliklə 18-ci ildə Bakıda bizim işimiz bu məsələ üzərində düşünməyə məcbur edirdi (1: s.31)...

İranda Mikoyanla Sultanzadənin birgə kommunist inqilabı olmasaydı; əgər məni, ancaq özlərinin bugünkü vəziyyətini düşünən xəbis qəlbli adamlar əhatə etməsəydi, əgər Mərkəz mənə etibar etsəydi bu çox asan olardı. Mərkəz ancaq Serqo Orconikidzeyə etibar edir.

Serqo isə o xəbis qəlbli adamlara daha çox etibar edirdi, onlar da öz vəziyyətlərini qorumaq və möhkəmləndirmək üçün onun qarşısında nökərçilik edir və Azərbaycanda milli təmayül haqqında çığırırdılar. Bu isə yol. Serqonun çox xoşuna gəlirdi.

Mərkəz baş aça bilmirdi ki, nə üçün mən, 20 il bundan qabaq öz romanımda beynəlmiləlçiliyi təbliğ etdiyim halda, o zaman ən çətin anda müsəlmanlar arasında hər cür dini inkar etdiyim halda, indi mənim millətçi təmayülüm olmalıdır, dünənki daşnak və müsavatçı isə beynəlmiləlçi olmalıdır.

Burada məsələni belə qoymaq lazımdır:

ya həqiqətən Mərkəz bu məsələdən baş aça bilmir, ya da o, ucqar respublikaların daxili işlərinə qarışmaq məqsədilə qəsdən bu "beynəlmiləlçiləri" irəli çəkir, müdafiə edir...

Onsuz da bir qədər sonra Mərkəz bu suallara cavab verməli olacaqdır, belə ki, bütün bu müddət ərzində respublikaların həyatından olan zəngin materialı inkar etmək çətindir.

Biz partiyamızın intizamı ilə qüvvətliyik, ancaq intizamı Şərqdə az-çox məşhur olan partiya üzvlərinin şəxsiyyətsizləşdirilməsinə yönəltmək bizim Şərq siyasətimizin məhv olması deməkdir (1: s.34)...



...Genuyaya yola düşməzdən qabaq yenə də Şərqdə bizim siyasətimiz mövzusunda mən yol. Stalinə məruzəmdə təqdim etmişdim ki, burada təxminən aşağıdakıları qeyd edirəm: "Genuya bizə heç bir şey verməyəcəkdir. Avropanı güzəştə getməyə məcbur etmək üçün, Şərq məsələsini düzgün səmtə yönəltmək vacibdir. Ancaq bizim indiyə qədər yol verdiyimiz səhvlərin nəticəsidir ki, Şərq daha bizə inanmır, o, məzlum kütlə simasında bizdən üz döndərmişdir, mən səhvlərin düzəldilməsi işinə ucqar respublikalarda, xüsusilə Türküstanda və Buxarada başlamağı təklif edirəm. Yeri gəlmişkən 19-cu ildən bütün məruzələrimdə Əfqanıstanla daha sıx əlaqə yaratmaq, Hindistanda daha da uğurlu inqilabi iş məqsədilə mən həmişə Türküstana diqqət yetirirəm ki, bu da Lloyd Corcun bütün planlarını alt-üst edərdi.

Əfqanıstanla əlaqə yaratmaq haqqında məruzəmi yol. Leninin necə diqqətlə dinlədiyini mən indi xatırlayıram. Mən bu məruzədə, yeri gəlmişkən, belə fikir yürüdürdüm ki, bizim işğalçılıq məqsədi güdmədiyimizi əfqan kütlələrinə sübut etmək üçün çarlıq dönəmində Əfqanıstanla Rusiya arasında çəkişmə üçün bir bəhanə olan məlum torpaq sahəsindən keçmək vacibdir.

İngiltərə bu məsələdə Əfqanıstanı həmişə müdafiə edir və bununla da ona Rusiyanın işğalçılıq cəhdlərini sübuta yetirirdi.

Yol. Lenin, bu məsələ ilə tanış olduqdan sonra, mənə dedi: "Burada çox danışmayacağıq, verəcəyik. Mənim adımdan yol. Çiçerinə çatdırın ki, bu məsələ ixtilafa səbəb olmasın..."

Yol. Çiçerin məni dinləyib dedi ki, hərbi idarənin rəyi olmadan heç bir şey demək olmaz və deyəsən, hərbi idarəyə veriblər, o da məsələyə hərbi nöqteyi-nəzərdən yanaşmışdır, yəni Əfqanıstana rədd cavabı verilmişdir.

Elə bu məqamda yol. Karaxan (*Qaraxanyan*-X.İ.) əlavə edib Türküstan səfirinə demişdi: "Hələ məlum deyil Buxara Respublikasına müstəqil yaşamağa imkan verəcəyikmi".

Əfqan səfiri öz təəccübünü mənə bildirib dedi ki, bundan sonra sizin sözlərinizə, yol. Leninin imzaladığı müraciətlərə inanmaq olarmı?

Mənim tərəfimdən bu barədə Leninə məlumat verilmişdi. Sonra nə oldu, bilmirəm.

Amma onu bilirəm ki, Əfqanıstanda İngiltərənin caynaqlarından qurtulmaq üçün Sovet hakimiyyətinin (Rusiyanın) qolları arasına atılmaq qərara alınmışdı.

Yəqin ki, bizdən ümidini kəsən əfqan səfiri qəti bildirmişdi ki, o, Avropaya, İngiltərəyə gedir (1: s.13-14)...

...Türküstanda bizim siyasətimizə və oradan sonra Əfqanıstanla əlaqə yaratmağa nə qədər ciddi əhəmiyyət verdiyimi məruzəmdən görmək olar ki, burada mən yol. Stalinə Genuyaya gedənə qədər yerlərdə bizim özümüzün yaratdığımız nöqsanlarla tanış olmaq üçün mənimlə birlikdəTürküstana yola düşməyi təklif edirdim.

Türküstandakı, Buxaradakı sonrakı hadisələr və Ənvərin məcarası-bütün bunlar məhz onun nəticəsidir ki, indiyədək biz Şərq məsələsində istiqamət götürə bilməmişik.

Genuyadan sonra mən yol. Stalindən soruşdum: mənim sonuncu məqaləmi oxumuşdurmu?

O, cavab verdi ki, oxumuşdur və umumilikdə, o mənim fikrimlə razıdır. Daha sonra mən bu mövzu barədə danışmadım, çünki hiss etdim ki, həqiqətən o, həmişəki kimi mənim irəli sürdüyüm vəziyyətlə razıdır, lakin bir çox mülahizələrə görə əməli iş gözləmək gərək deyil (1: s.15)...

...Mənim irəli sürdüyüm məsələləri araşdırmaq üçün Bakıya gəlmiş məlum komissiyanın kommunist vicdanına zərbə endirmək üçün, mən onların soyadlarını

təkrar edirəm: eserlər Xanbudaqov, Axundov Ruhulla, Cəbiyev Həbib, Rəhim Hüseynov, Cahangir Nağıyev, müsavatçı M.D. Hüseynov, menşevik Qarayev.



А. С. С. Р.

آذربایجان مرکزی دولت آرخیوی

АЗЕРБАЙДЖАНСКИЙ ЦЕНТРАЛЬНЫЙ ГОСУДАРСТВЕННЫЙ АРХИВ

№ نمره

ДЕЛО

Начато 192 г.

Кончено 192 г.

На листах







Копия. –

АРМЯНО-АЗЕРБАЙДЖАНСКАЯ ГРАНИЦА ПРЕДВАРИТЕЛЬНАЯ.

(1920 г.)

Граница Азербайджана с Арменией идет по прежней административной границе Сурмалинскаго уезда до реки Аракс, проходит через Эриванский уезд через селение Агамзалы, Баш-Гярны и Имирзин и следует затем по границе Ново-Баязетскаго и Шаруро-Даралагезскаго уездов, сворачивая потом по озеру Гокча так, что селение Гюзель-Даре отходит к Армении, а селение Ташкенд и Басаргечар к Азербайджану. Граница разделяет озеро Гокча пополам и затем идет по границе Гянджинской губернии и Эриванской так, что селение Чубухлы остается за Арменией, а весь остальной восточный берег озера Гокча за Азербайджаном.

На основании этой границы в территорию Азербайджана входят целиком вся Гянджинская губерния и все уезды- Сурмалинский Нахичеванский и Шаруро-Даралагезский Эриванской Губернии, а также южная часть Эриванскаго уезда с селениями Камарлу, Беюк-Веди и Девалу и восточная часть Ново-Баязетскаго.

Заведующий Информационным Под"отделом А. ШЕПОТЬЕВ.

С подлинным верно:
Пом. Завед. Политотдела Наркоминдел АССР

ADA 28-1-99

141

ПРАВИТЕЛЬСТВУ АРМЯНСКОЙ РЕСПУБЛИКИ, МИНИСТРУ ИНОСТРАННЫХЪ ДѢЛЪ.

Рабоче-крестьянское Правительство Азербайджанской Соціалистической Республики, въ лицѣ Революціоннаго Комитета, требуетъ: 1/ очистить отъ Вашихъ войскъ территорію Карабаха и Зангезура, 2/ Отойти къ своимъ границамъ и 3/ прекратить межнаціональную рѣзню. Въ противномъ случаѣ Революціонный Комитетъ Азербайджанской Соціалистической Совѣтской Республики будетъ считать себя находящимся въ состояніи войны съ Правительствомъ Армянской Республики. Отвѣтъ на ноту долженъ быть полученъ въ трехдневный срокъ.

ЗАМѢСТИТЕЛЬ КОМИССАРА ПО ИНОСТРАННЫМЪ ДѢЛАМЪ
АЗЕРБАЙДЖАНСКОЙ СОВѢТСКОЙ СОЦІАЛИСТИЧЕСКОЙ РЕСПУБЛИКИ
МИРЗА ДАВУДЪ ГУСЕЙНОВЪ.

30 Апрѣля 1920 года.

Вѣрно:

Секретарь [illegible]

**ADA 28-1-99**

***

**Qeyd:** *N.Nərimanov dönəmində dövlət rəmzlərində ay-beşguşəli ulduz nişanəsi saxlanırdı* **(ADA 28-1-49)**





Список VI

турецких политических пленных, находящихся на Мальте, на которых Азербайджанская С.С.Р. согласна обменять задержанных в Баку английских подданных.

| № по порядку | Имя и фамилия | |
|---|---|---|
| 1. | Исмаил [illegible] | Депутат-социалист, из Константинополя |
| 2. | Осман [illegible] | Председатель Союза портовых рабочих, из Риза. |
| 3. | Мемед Эмин | турецкий национальный поэт |
| 4. | Ахмед Эмин | журналист (левый) |
| 5. | Ахмед Агаев | журналист, |
| 6. | [illegible] Джемидже | Депутат парламента, из Констант. |
| 7. | Зия Гекалб | Профессор Констант. Университ. |
| 8. | Гусейн Джагид | журналист, |
| 9. | Каравасыф | представитель национального движения. |
| 10. | Рауф-бей | бывш. Морской министр, |
| 11. | Фахри паша | Командир Хиджаса. |
| 12. | Кючук Джемаль паша | бывш. Военный министр. |
| 13. | Джевад паша | Начальник Генерального Штаба. |
| 14. | [illegible]-паша | Генерал. |
| 15. | Джавид-бей | бывш. Министр финансов |
| 16. | Хайри-Эфенди | Шейх-уль-ислам |
| 17. | Муамер-бей | губернатор Сиваса. |
| 18. | Мемдух-бей | губернатор Мосула. |
| 19. | Сабит-бей | " Харпута, |
| 20. | Халит-бей | Депутат, из Эрзинджана |
| 21. | Саид Халим-паша | бывш. премьер-министр |



| | | |
|---|---|---|
| 22. | Фаик-бей | Губернатор Мерзифон |
| 23. | Кемаль-бей | Министр продовольствия |
| 24. | Джевад-бей | Комендант гор. Константинополя |
| 25. | Али Ихсан-паша | Командир Армии |
| 26. | Махмуд Кямиль паша | Командир Армии |
| 27. | Рахми-бей | Губернатор гор. Смирны |
| 28. | Джелал Нури | журналист |
| 29. | Ибрагим-бей } с 9-ью сотрудниками | Председатель Юго-Западной Республики |
| 30. | Гасан-Хан | Военный Комиссар Ю.-З. Республики |
| 31. | Пертев паша | Генерал |
| 32. | Халиль-бей | Председатель Парламента |
| 33. | Саид-паша | бывш. Комендант гор. Константинополя |
| 34. | Сулейман Назиф бей | журналист |
| 35. | Чолак Кемал | Подполковник |
| 36. | Шефкет | Подполковник (Галатасарай) |
| 37. | Фаик-бей | Капитан |
| 38. | Доктор Эсад-паша | Профессор |
| 39. | Гусейн Кадри | Депутат (Караси) |
| 40. | Невзад-бей | Комендант гор. Муш |
| 41. | Гусейн Тосун | Депутат гор. Эрзерума |
| 42. | Сулейман Суди | Депутат Лазистан |



| | | |
|---|---|---|
| 43. | Ферид-бей | Председатель союза грузчиков |
| 44. | Доктор Русухи | |
| 45. | Рза-бей | Артиллерийск. офицер Трапезунд |
| 46. | Джевдет | Губернатор Адана |
| 47. | Шюкри | Председатель военного Комитета |
| 48. | Белич | Завед. Отделом Военного Министерства |
| 49. | Ибрагим-бей | бывш. Министр Юстиции |
| 50. | Хайри-Адил-бей | Внутрен. дел Министр |
| 51. | Зекерия-бей | Губернатор Адрианополя |
| 52. | Тефик-бей | Майор. |
| 53. | Бедри-бей | Губернатор Диарбекира |
| 54. | Джемал-бей | Начальник гарнизона Эскишехир. |
| 55. | Ахмед-бей | Губернатор Сиваса |
| 56. | Чолак-Селахадин | Полковник |
| 57. | Фетхи-бей | Турецк. посол в Болгарии |
| 58. | Абдул Халик-бей | Губернатор Халепа. |

**ADA 28-2-53**

М О С К В А

Наркоминделу Чичерину Копия Ленину Копия Тифлис Дипломатическому Представителю Р.С.Ф.С.Р. Тов.Кирову

29 Июня армянския регулярныя воинския части силою в три полка при четырех орудиях и двадцати пулеметах перешли границу Азербайджана со стороны Казахскаго уезда и бомбардировали деревню Ханлых-лар точка Продолжая наступление указанныя части заняли четвертаго Июля селение Кохна Кишлак в пяти верстах от полотна железной дороги и в шести верстах от станции Татлы точка Целью дашнакскаго отряда является повидимому захват важных стратегических пунктов, лежащих в районе его наступлений точка Эта новая авантюра задуманная дашнакскими империалистами грозит вызвать вопреки воле трудящихся масс Армении и Азербайджана кровавую распрю между двумя соседними народами, желающими жить в мире точка Поэтому протестуя самым решительным образом от имени рабоче-крестьянскаго правительства Азербайджана против ничем не вызваннаго вероломнаго нападения дашнакских воинских частей на нашу территорию, заявляю, что вся ответственность за возможныя последствия этой агрессивной политики Армянскаго Правительства должна лечь исключительно на последнее точка Вместе с тем мое Правительство надеется что Вы не преминете обратить серьезное внимание пребывающей ныне в Москве Армянской Делегации на вышеизложенное точка Номер Шестого Июля

Н А Р К О М И Н Д Е Л

Н. Нариманов



Ա. Գ. Ն.

ՀԱՅԱՍՏԱՆԻ ՀԱՆՐԱՊԵՏՈՒԹՅԱՆ
ԴԻՊԼՈՄԱՏԻԿԱԿԱՆ
ՆԵՐԿԱՅԱՑՈՒՑՉՈՒԹՅՈՒՆ
Ադրբեջանում

Représentant diplomatique
DE L'ARMENIE
En Azerbeidjan

9 Іюня 1920

№ 1271

Комиссару по Иностраннымъ Дѣламъ
Азербайджанской С.С.Республики.-

Телеграммой Министра Иностранныхъ Дѣлъ Республики Арменіи, отправленной изъ Эривани 26-го Мая с/г. за № 3202 и полученной здѣсь 31-го Мая, о полученіи каковой телеграммы доложено Вамъ, къ сожалѣнію, лишь 23-го Іюня, обращалось Ваше вниманіе на то обстоятельство, что одинъ отрядъ азербайджанскихъ войскъ вторгся въ предѣлы Арменіи и что этотъ отрядъ при своемъ отступленіи захватилъ шесть человѣкъ чиновъ Арменіи и привезъ ихъ въ Баку. Этой телеграммой Правительство Арменіи, черезъ своего Министра Иностранныхъ Дѣлъ протестовало противъ агрессивной дѣятельности вашихъ войскъ. Казалось, что послѣ этого Правительство Азербайджана, разъ оно не находится въ состояніи войны съ Арменіей, должно было положить предѣлъ враждебнымъ дѣйствіямъ, исходящимъ изъ Азербайджана и направленнымъ противъ Арменіи. Но, къ сожалѣнію, оказывается, что подобныя явленія нисколько не прекратились, а продолжаются и понынѣ, съ тѣмъ только различіемъ, что теперь таковыя дѣйствія ведутся отъ имени повстанцевъ. По этому поводу я имѣлъ бесѣду съ Вами 26 Іюня, а въ Ваше отсутствіе, 29 Іюня съ Предсѣдателемъ Ревкома докторомъ Наримановымъ. Согласиться съ объясненіемъ Вашимъ, что въ данномъ случаѣ нѣтъ внѣшняго воздѣйствія и что

все это есть ни что иное, какъ организованное мѣ
ми большевиками внутренне движеніе,- нельзя, ибо
хорошо извѣстно, какая неудача постигла всѣ попыт
къ внутреннему перевороту въ предѣлахъ Республик
Арменіи. Всѣ онѣ заранѣе были обречены на гибель,
какъ не имѣли подъ собой никакой почвы, а внѣшняя
посторонняя помощь не доходила до нихъ. Но это движе-
ніе на границѣ Азербайджана,которое Вы называете по
станческимъ движеніемъ, почему то начинаетъ прини
длительный характеръ. Истинная же причина этого заклю
чается въ слѣдующемъ.

Часть армянскаго крестьянства въ Казахѣ была вве
дена въ заблужденіе приближеніемъ русскихъ войскъ,
каковое обстоятельство большевистскіе агитаторы стали
толковать превратно, распуская слухи, что нѣтъ болѣе
Азербайджана, что скоро настанетъ также конецъ сущест
вованію Грузіи и Арменіи, ибо русскіе думаютъ и долж
возстановить свои старыя границы. Часть армянскаго
крестьянства въ Казахѣ имѣла наивность повѣрить этим
провокаціоннымъ слухамъ и воизбѣжаніе столкновенія съ
русскими, измѣнила своему правительству. Пребываютъ
ли эти,такъ называемые, повстанцы въ своей наивной
вѣрѣ, мнѣ неизвѣстно, но полагаю, что дѣйствительност
должна была открыть имъ глаза. Какъ бы то ни было, а
всетаки Азербайджанъ формируетъ особые армянскіе
отряды и подъ видомъ,такъ называемыхъ, повстанцевъ и
добровольцевъ, направляетъ ихъ противъ Арменіи / сооб
щеніе газ."Коммунистъ" о занятіи Каравансарая /. Данн
Вами и докторомъ Наримановымъ во время вышеупомянут
бесѣдъ объясненія, что Правительство Азербайджана не
принимаетъ никакого участія въ этихъ дѣйствіяхъ и
что все это, быть можетъ, дѣлаетъ партія коммунистов
не можетъ почитаться удовлетворительнымъ и пріем



5

ибо за всѣ совершаемыя въ предѣлахъ Азербайджана дѣй-
ствія противъ Арменіи является отвѣтственнымъ Азербай-
джанское Правительство. Но ввиду того, что эти воин-
скія части формируются въ Баку, Акстафѣ и Казахѣ и въ
таковыя привлекаются армяне изъ красноармейскихъ
частей; армянамъ же, желающимъ возвратиться на родину,
отказываютъ въ пропускѣ и предлагаютъ вступить въ фор-
мируемые отряды и вмѣстѣ съ ними отправиться въ Арме-
нію; а также ввиду того,что отряды эти получаютъ отсю-
да оружіе, военное снаряженіе, одежду, денежныя сред-
ства, руководителей и инструкціи въ то время, когда
Арменія не находится въ состояніи войны съ Азербайджа-
номъ, то, къ сожалѣнію, приходится констатировать,что
политика мусаватскаго правительства по отношенію къ
Арменіи продолжается и теперь, несмотря на господство
Совѣтской власти въ Азербайджанѣ.

Обращая, т.Комиссаръ, особенное Ваше и всего
Ревкома Азербайджана вниманіе на указанное явленіе,
которое недопустимо съ точки зрѣнія международнаго
права и совершенно нежелательно для установленія
добрососѣдскихъ отношеній между Арменіей и Азербайджа-
номъ, прошу о принятіи мѣръ къ прекращенію подобныхъ
явленій.-

ДИПЛОМАТИЧЕСКІЙ ПРЕДСТАВИТЕЛЬ
РЕСПУБЛИКИ АРМЕНІИ М. Арутюнянц

Секретарь Тер Іоаннисянъ

ADA 28-1-104

Onların cinayətkar işi özünü nədə göstərmişdir. Özünün "Qafqaz" siyasətinin inkişafına mane olan hər şeyi məhv etmək üçün Serqoya məni Azərbaycandan uzaqlaşdırmaq lazım idi. O, məsləhət üçün Mirzoyana müraciət etdi, Mirzoyan dedi: "Bizə ancaq sənin razılığın lazımdır və Nərimanov burda olmayacaq". Serqo dedi: "İşində ol". Mirzoyan mənim EFKA-dan (yəqin ki *Fövqəladə Komitə* gözə alınır –X.İ.) qovduğum və bu andan solluq oyunu oynamağa başlayan , Qarayev və M.D. Hüseynovla birlikdə mənə qarşı açıq çıxış edən, Mirzoyana çox şey vəd edən Xanbudaqova müraciət etdi; o mənə qarşı fəaliyyətə başlamaq üçün MK-ya katib seçilməsini xahiş edirdi.

Bu, Mirzoyan tərəfindən yerinə yetirilir: onu,-Xanbudaqovu AKP MK-ya katib seçirlər və iş başlayır, o öz qohumlarını qəzalara göndərir və onlara tapşırıqlar verir ki, Nərimanovun adını çəkməsinlər və onu heç yerə seçməsinlər və i.a. Belə bir işi qurtardıqdan sonra Xanbudaqov Mirzoyana deyir: "Mənim qəzalarım hazırdır." Mirzoyanın özünün fəhlə rayonları artıq çoxdan hazır idilər. Serqoya məlumat verirlər ki, indi Nərimanovu cəsarətlə çıxarmaq olar. Moskvada daha yüksək vəzifə vermək bəhanəsi ilə çıxarırlar. Və həqiqətən SSR İttifaqı MİK-nin sədri seçirlər. Mirzoyan və Serqo şadlıq edirlər: məni çıxartdılar və heç bir şey olmadı, Azərbaycanda nəinki üsyan yoxdur, hətta heç kim Nərimanovun adını çəkməyə cəsarət etmir **(1: s.56-57)...**

...Mənim zərrə qədər şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini **erməni daşnaklarına** tapşırır. Nə kimi nəticələr olacağını demək çətindir, lakin əgər olsa, bunun bütün məsuliyyəti Serqo ilə Stalinin üzərinə düşəcəkdir. Maraqlısı odur, bu şəxslər elə fikirləşirlər ki, türklər o qədər axmaqdır, bütün bunları başa düşmürlər **(1: s.60)...**

...Gedəcək yolumuz yoxdur. Azərbaycanda vicdanlı işçilər, türk kommunistləri bütün bunları, mən təkrar edirəm, yaddan çıxarmayacaqlar **(1: s.60).**

*Qeyd:* III variant Surəti
(axırıncı) Murtuzov 2-18-31 **Məxfi**
otaq № 44

***Azərbaycanın Respublikası EA-nın***
***Azərbaycan Tarixi Muzeyi.***
***inv. № 2028a***
==============================

**Qeyd:**
Qafqaz diyar yoxlama komissiyası və onun sədri Mavrin də Azərbaycanın müsəlman kommunistlərinə münasibətdə qərəzli mövqe tuturdu. Onun yorumuna görə, Azərbaycandakı müsəlmanlar arasında səbatlı kommunistlər yox idi.

Nəriman Nərimanov bu münasibətlə yazırdı: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti Mavrin düşündüyü kimi, millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı. Gürcüstana müftə neft verilməzdi, Azərbaycan kommunistləri partiyanı sağlamlaşdırmaq məsələsində öz müqəddəratlarını Mavrin kimi "beynəlmiləlçilərə" tapşırmazdılar. Nərimanov təmizlənmənin qərəzçiliklə aparıldığını göstərərək diqqəti ona cəlb edirdi ki, bir nəfər də "sol" kommunist partiyasından çıxarılmamışdı, partiyadan kənarda qalanlar əsasən "sağ" kommunist adlananlardır" **(1: s.191; 2: s.191; 4: s.36).**



Tarixi araşdırmaçı Rəna Bayramovanın da yazdığı kimi, arxiv materialları və araşdırmalardan bəlli olur ki, Azərbaycanda sovetləşməyə qarşı ciddi müqavimət (dayanışma) göstərilmişdir.

Tərəddüd içərisində olaraq, ancaq hələ də ümidini kəsməyənlər, mübarizə aparmağın yersiz olduğunu düşünənlər, qeyri-leqal fəaliyyətə keçən siyasi partiyalar və rus ordusunun özünü necə aparacağını gözləyən Milli ordu əsgərləri qısa müddətdə məsələnin əsl mahiyyətini anladılar. XI Ordunun özbaşınalığı, qarətçilik, hərcmərclik, ölçüyə gəlməyəcək dərəcədə baş alıb gedən haqsızlıq, özəlliklə də günahsız adamların ciddi bir səbəb olmadan güllələnməsi xalqın qəzəbinə səbəb oldu. Qəzəb dalğası isə mərhələlərlə, vüsət alaraq, üsyanlara gətirib çıxardı **(3: s.45; 4: s.36-37).**

Sonralar, Rus ordusu tərəfindən qeyri-bərabər döyüşlərdə məğlub edilsə də, **1920-ci il mayın 26-dan iyunun 20-dək Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada və Zaqatalada baş verən silahlı üsyan Azərbaycan milli mücadilə tarixinə qızıl hərflərlə yazıldı.** Qeyd edək ki, öncə milli qüvvələrimizin üstünlüyü ilə başlamış bu savaşlarda təkcə Gəncə əhalisi sırasından 12 min nəfər soydaşımız həlak olmuş, XI Ordu qüvvələri isə Gəncə üsyanında 8,5 min nəfər itkiyə məruz qalmışdı **(4: s.37-39)...**

***

22 may 1919-cu ildə Mikoyan Leninə yazırdı: "Erməni hökumətinin agentləri-daşnaklar Qarabağın Ermənistana birləşdirilməsinə nail olmağa çalışırlar. Ancaq bu, Qarabağ əhalisi üçün Bakıda öz həyat mənbəyindən məhrum olmaq və heç nə ilə, heç vaxt bağlı olmadığı Erivanla birləşmək olardı " **(6: s.224).**

Levon Mirzoyan: "Erməni kəndlisi deyir ki, Bakı və Ağdamla sıx əlaqədə olmadan o, yaşaya bilməz. Aran hissəyə yolu təhlükəsizləşdirib, onun mədəni inkişafına imkan vermək gərəkdir " **(6: s.223).**

1927-ci ildə tanınmış erməni yazıçısı Marietta Şaginyan da eyni cür düşünürdü: "Bu torpaq öz coğrafi və iqtisadi mövqeyinə görə daha çox Azərbaycana yönümlüdür" **(8: s.19; 6: s.224).**



*Soldan:* **Anastas Mikoyan, İosif Stalin, Serqo Orconikidze**

Rusiya KP MK Qafqaz bürosunun 4 iyul 1921-ci il tarixli iclasının (iştirakçılar: *Orconikidze, Kirov, Myasnikov, Fiqatner, Maxaradze, Nərimanov, Nazaretyan...*-cəmi 9 nəfər) 11 saylı protokoluna əsasən səs çoxluğu ilə (*Orconikidze, Kirov, Myasnikov, Fiqatnerin erməniçi-velikorus mövqeyi sayəsində*) Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılması qərarı qəbul edilsə də, Nərimanovun dərhal etiraz bəyanatı ilə çıxışı və məsələnin qəti həlli üçün Rusiya KP MK-nın müzakirəsinə vermə təklifi qərəzkar tərəfi zor duruma salır: ertəsi gün (5 iyul 1921-ci il tarixində) Rusiya KP MK Qafqaz bürosu yenidən yığışaraq Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanmasına qərar verir **(9; 6:s.226)**. Müxtəlif orqanlarda dəfələrlə yenidən müzakirə edilsə də, Nərimanovun təklif və təkidi ilə 1923-cü ildə Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması qərarı ilə məsələ qəti şəkildə çözülür...



**Nəriman Nərimanov**

Mikoyan vaxtilə Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanmasına tərəfdar olması ilə bağlı Leninə göndərdiyi yazılı məlumata görə sonralar bərk peşman olmuş, "səhv"ini düzəltmək üçün yollar axtarırdı.

1942-ci ilin ortalarında Türkiyənin Cənubi Qafqazla sınırlara 26 diviziya yerləşdirməsi **(10: s.54)** SSRİ Silahlı Qüvvələri Baş Komandanlığının Qərargahı yanında fəaliyyət göstərən daimi müşavirlərdən biri olan Mikoyana bəhanə vermiş oldu. O, Qafqazın müdafiəsini "daha güvənli qurmaq üçün" Azərbaycan türklərini buradan SSRİ-nin doğu bölgələrinə (Sibir və Qazaxıstana) köçürmək layihəsini irəli sürdü. Səbəb kimi Anadolu türkləri ilə Qafqaz türklərinin eyni soydan olmaları və eyni dinə qulluq etmələri göstərilir; türklər hücuma keçəcəyi halda azərbaycanlıların onlara daxildən kömək edəcəyi ehtimalı "aksiom" kimi ortaya qoyulurdu.

Ancaq (Azərbaycanın bacarıqlı jurnalisti Musa Bağırovun 1972-ci ildə istefada olan sovet marşalı G. K. Jukovdan aldığı bilgiyə görə) bu-çox təhlükəli və ağlabatan təxribata öncə L. Beriya etiraz etmiş, sonra (həlledici anda) Mir Cəfər Bağırov onunla birgə Stalinin qəbulunda olarkən çox ciddi, məntiqli dəlillər gətirərək, Mikoyanın planını pozmuşlar **(11).**

*(Yenə də həmin qaynağa görə, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, azərbaycanlı general Həzi Aslanov da milliyyətcə erməni marşal Baqramyanın xəyanəti ilə öldürülmüşdür...)*

Akademik, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Yemelyanovun Musa Bağırova bildirdiyinə görə, azərbaycanlılara qarşı soyqırımı siyasətinin konturları Mikoyan tərəfindən təkbaşına cizilmirdi: məsələn, 1942-ci ildə azərbaycanlıların köçürülmə planı Hindistanın Mədrəs şəhərində erməni icması tərəfindən hazırlanmışdı.

Sonralar Musa Bağırov Hindistanda, Mədrəs şəhərində erməni kilsəsinə gedib ermənilərlə təmasda olur. Keşiş erməni dilində gözəl danışan Musa Bağırovu erməni bilərək:

–"Qarabağı nə vaxt alırsınız?" –deyə ona sual edir...

Musa Bağırov Mədrəsdə ikən latış mühacirləri ilə, fars tacirləri ilə təmasa girir və bəlli olur ki, 26 "Bakı komissarları"ndan S. Şaumyan son vaxtlaradək Mədrəsdə



yaşayırmış. Azərbaycanın qeyrətli jurnalisti Musa Bağırov 26 "Bakı komissarları"ndan A. Caparidzenin qızı Lutsiya xanımla da müvafiq söhbət aparmışdır. Lutsiya Caparidze S. Şaumyanın 1918-ci ildə öldürüldüyünə dair əsaslı şübhələrinin olduğunu bildirmişdir **( 11 )** ...

[(Ancaq heyf ki, 26 "Bakı komissarları"ndan, azərbaycanlı Məşədi Əzizbəyovun nəvəsi, mərhum tarixçi-akademik Püstəxanım Əzizbəyova isə? özü də müvafiq dəlillərə malik ola-ola, Stepan Şaumyanın 1918-ci ildə öldürülmədiyini inkar edir, bununla da ermənilərin dəyirmanına su tökməklə məşğul olurdu...

Başqa bir təəssüfləndirici məqam isə Məşədi Əzizbəyovun oğlu Əzizağa Əzizbəyovun ölkəmizin milli maraqlarına qarşı (ermənipərəst) fəaliyyətidir. Mir Cəfər Bağırov o dönəmlərdə Respublika ticarətini cənginə keçirmiş yüksək vəzifəli erməniləri sıxışdıraraq, ölkənin bu gəlirli sahəsinə xərçəng kimi yerimiş düşmən ünsürləri təmizləməyə çalışırdı. Bu məqsədlə də Əzizağa Əzizbəyovu Azərbaycan Xalq Ticarət Komissarı vəzifəsinə irəli çəkib, ona dayaq olmuş, o isə bunun müqabilində ermənilərlə Mir Cəfər Bağırova qarşı birləşmiş, hətta Mikoyana söykənərək Kremlə Mir Cəfər Bağırovdan rəsmi şikayət yazmış, bir qədər keçdikdən sonra Moskvada, Mikoyanın başçılığı altında olan SSRİ Xalq Ticarət Komissarlığında işləməyə gedərək Azərbaycandan ayrılmışdı. Ancaq orada bir qədər işlədikdən sonra, bağışlanmaz səhvə yol verdiyini (ermənilərə alət olduğunu və b...) başa düşmüş, yenidən Mir Cəfər Bağırovun himayəsinə qayıtmışdı) – **( 17 )]** .

*İndi isə doğal şübhələrin (quşquların) qaynaqlandığı məqamlara aydınlıq gətirmək üçün öncə 26 "Bakı komissarları"nın ölümünə gedən yolun son səhifələrinə nəzər salaq...*

Tarixi qaynaqlardan bəlli olur ki, 26-lar ingilislərin Bakıya gəlişindən sonra dəfələrlə gəmilərlə şimal istiqamətində (Rusiyaya, Həştərxana doğru) qaçmağa cəhd göstərmiş, ancaq buna müvəffəq ola bilməmişdilər:

**13 avqust.** "Bakı komissarlar"ı və Rusiyadan sonralar kömək üçün göndərilmiş Petrovun silahlı dəstəsi 17 gəmidə Həştərxana doğru yola düşsələr də, dənizdə qopan şiddətli fırtına onları Jiloy adasının qabağında dayanıb, lövbər saxlamağa məcbur etmişdi.

**14 avqust. "Sentrokaspi" Diktaturasının göndərdiyi ("Ərdahan", "Qars", "Göytəpə" adlanan) hərbi gəmilər** komissarların **gəmilərinə yaxınlaşaraq geri qayıtmalarını tələb edir, əks halda top atəşinə tutulacaqları barədə ultimatum verərək hədələyirdilər...**

Komissarlar **ultimatumu rədd etmiş; mübahisəli durumda, avqustun 14-də və 15-də** Jiloy adası yaxınlığında gözləməyə məcbur olmuşdular.

**16 avqust. Havanın əlverişli olduğunu görən** "Bakı komissarları" yollarına davam etməyə çalışırlar. Bu dəfə də **"Sentrokaspi" Diktaturasının hərbi gəmilərindən biri meqafonunun metallik səsi ilə gecənin gətirdiyi sükunəti pozur:** *" "Sentrokaspi Diktaturası" və İcraiyyə Komitəsi adından əmr edirik ki, istiqaməti dəyişdirib, Bakıya qayıdın!"*

**"Ərdahan", "Qars", "Göytəpə" gəmilərindəki projektorlar** "komissarlar"ın **gəmilərinə güclü işıq saçaraq, daha sonra göyərtədəki topların lülələri də o səmtə yönəldilir.**

"Komissarlar" adından Caparidze cavab verir ki, indi də, onlara sürə kimi tanınan **iki saatlıq möhlət bitdikdən sonra da Denstervil lakeylərinin hökumətini tanımayacaq və əmrə tabe olmayacaqlar.**

**İki saat ötür. Hərb gəmilərindən atılan top mərmiləri "Sentrokaspi" yetkililərinin öz tələbində qərarlı olduqlarını bir daha nümayiş etdirir. Projektorların işıq zolaqları** "komissarlar"ın **olduğu "İvan Kolesnikov" gəmisini**

**aramsız axtarır... İki mərmi eyni zamanda hədəf götürülmüş gəminin böyrünü deşir: maşın hissəsinə su sızmağa başlayır (19 : s.256)...**

**Neft və benzin yüklənmiş gəmilərə top mərmilərinin dəyməsi partlayış və yanğınlara, yüzlərə qaçqının ölümünə səbəb olacaqdı.**

**Gəmilərdə əsl fəlakət başlayır... Sonucda** "komissarlar" ağ bayraq əvəzinə bir mələfəni yüksəklərə qaldırıb, **gəmilərin yönünü** geriyə doğru dəyişməyə məcbur olurlar **(19 : s.256-257)...**

Stepan Şaumyanı oğlu Suren Şaumyan və sabiq hərbi komissar Korqanovla birgə Jiloy adası yörəsindən qayıtdıqdan sonra mindikləri "Leyla" barkasından düşürərək zirehli maşınla Şamaxı yolundakı "Sentralnı qazamat" deyilən dustaqxanaya aparırlar **(19 : s.261)...**

**İngilis generalı Denstervil də Bakıdan aldığı teleqramda** Petrovun dəstəsinin silahsızlaşdırıldığı və "komissarlar"ın həbs edildiyi haqda xəbəri oxuyan kimi "Prezident Kryuger" **gəmisinin kapitanına Bakıya yola düşməyi əmr edir (19 : s.258)...**

Denstervilin yazdıına görə, üç minlik Türk Ordusu hücuma keçəndə düşmənin işğal etdiyi Bakı şəhərində və cəbhədə 40 mindən çox erməni-xristian (menşevik, eser, daşnak) silahlı qüvvəsi var imiş **(19 : s.265)...**

**14 sentyabr.** "Komissarlar" Bayıl qazamatında ikən türklər şəhəri geri qaytarmaq üçün həlledici savaşa başlamışlar.

Bir qrup silahlı fəhlə "komissarlar"ı qazamatdan çətinliklə də olsa, azad edir *(əslində bu əməliyyat "Sentrokaspi" hökumətinin son məqamda məsələyə loyal yanaşması nəticəsində baş tutub* –X.İ.) və şəhərdən çıxarmaq üçün əvvəldən hazırlanmış "Sevan" gəmisinə doğru aparırlar.

Ancaq "Sevan" gəmisinə yetişə bilmirlər; belə ki, onlar gələnədək gəmi dayandığı yerdən yoxa çıxır: bir qədər sonra öyrənirlər ki, "Sentrokaspi" hökuməti "Sevan"ı zəbt edib, aparıb...

Artıq atışmalar Bayıl küçələrinə qədər gəlib çıxmışdı; şəhərdə bir münasib yer tapıb gizlənmək üçün geri çəkilən "komissarlar" güllələrdən qoruna-qoruna Sahil küçəsinə yetişincə gəmilərə tələsən bir dəstə adama rast gəlirlər. Daşnak Tatevos Amirov (Amiryan) da atın üstündə, bu adamların arasındadır. O, Şaumyanı görcək bərk sevinir və deyir: " "Türkmən" gəmisi mənim sərəncamımdadır. Minib bizimlə bərabər gedə bilərsiniz".

"Komissarlar" qaçqın və əsgərlərlə dolu "Türkmən" gəmisinə minirlər. Amiryanın göstərişi ilə "komissarlar"ı üst göyərtədə və **kayut kampaniyada** *(gəmidə sərnişinlərin və ya komanda heyətinin yeyib-içməsi və istirahəti üçün ümumi otaq, kayut –X.İ.)* yerləşdirirlər. Buradakı silahlı dəstə içərisində nizam-intizam və qarşılıqlı olaraq bir-birinə inam yox idi, özbaşınalıq hökm sürür, hər kəsə qorxu hissi hakim kəsilmişdi...

Manaf Süleymanovun təbirincə desək, "Sevan" gəmisinin yoxa çıxması və "Türkmən" gəmisinin "təsadüfən xilas" kəmərinə dönməsində, şübhəsiz ingilis barmağı olmamış deyildi; bu barmaq da "komissarlar"ı öncə Türkmən sahillərinə, daha sonra Ağcaqum çölünə aparmışdı **(19 : s.265-266)...**

26 "Bakı komissarları"nın ölümünü öz gözləri ilə görmək imkanını məsuliyyətsizcəsinə qaçırmış tək azərbaycanlı qaçqını, feodal oğlu, Qızılsunun *(kommunistlər onu sonradan "Krasnovodsk" adlandırmışdılar*-X.İ.) polis komissarı Alaniyanın qonağı olmuş və sonralar Avropaya mühacirət etmiş yazıçı Məhəmməd Əsədbəy bu haqda yazırdı:

Qızılsu Respublikasında inzibati amir hakimiyyətinə malik tək şəxs-polis komissarı, gürcü... Alaniya idi. Solçu sosial-demokrat, knyaz və gürcü istiqlalçısı olduğu üçün Alaniyanın kommunistləri görməyə gözü yox idi **(18: s.113)...**



"Gecəyarıdan xeyli keçmiş, biz öz kino-mənzilimizdə yatarkən, qapı döyüldü. Knyaz Alaniya içəri girdi...

– Bu gün 26-lar edam olunacaq. Axı siz də iştirak etmək istəyirdiniz.

Atam yerindən sıçradı.

–Siz dəli olmusuz, nədir?!-deyə o çığırdı.-Göndərin onları gəldikləri yerə, qoyun Rusiyaya rədd olsunlar, onlar indi bizə nədə mane ola bilərlər axı?

Alaniya çiyinlərini çəkdi, ancaq saygısını saxladı:

–Mənsə onların qanını içərdim; mən düşünürdüm ki, bu işi ilk bəyənən siz olacaqsınız. 26 komissarlar özlərinə ölümü yüz dəfə qazanıblar."

O çıxdı. Təbii ki, mənim yenidən yuxuya getməyim alınmadı. Ürəyimdə atamı suçlayırdım, axı 26 komissarlar azərbaycanlıları qan dənizində boğmuş kəslər idi" **(18: s.115)...**

Bununla belə, Məhəmməd Əsədbəy atasından gizlin, pəncərədən düşərək qazamata doğru qaçıb və 26-ların əli qandallı, edam edilmək üçün çölə aparıldığının şahidi olub.

"Çölə (*Ağcaqum çölü nəzərdə tutulur*-X.İ.) isə getmədim. Həvəsim ölmüşdü..." – deyə hadisənin sonluğunu ənənəvi qaydada (başqalarından eşitdiyi və ya kommunistlərin yazdığı kimi) tamamlayan Məhəmməd Əsədbəy Azərbaycan tarixi üçün önəmi olan çox ciddi bir məsələdə başısoyuqluq edərək fürsəti qaçırır. Məsələ burasındadır ki, o, Qızılsu Respublikasındakı bir çox şahidlərdən fərqli olaraq, Stepan Şaumyanı, Tatevos Amiryanı və b.-nı üzdən yaxşı tanıyırdı. Əgər qazamatda ikən onlar dəyişdirilmişdisə və ya güllələnmə səhnəsində hər hansı qurama epizod var idisə, bunu az-çox ayırd edib sonralar yazmaq-yayınlamaq imkanından məhrum olan çoxlarından fərqli olaraq, o həmin tarixi hadisə üçün etibarlı şahid ola bilərdi, üstəlik də, ardınca mühacirət həyatı yaşayırdı-azadlıqda, senzurasız xoşbəxtlər sırasındaydı...

Azərbaycanlıların qisasını qismən də olsa, almış olan gürcü knyazı Alaniya isə iki il sonra Dağıstanda təsadüfən çılğın dağlı kommunistlərin əlinə keçmiş, vaxtilə 26-ları tutuqladığı və edam hökmü verdiyi üçün öldürülmüşdü ( əslində şəhid edilmişdi). Onun qarnını yarıb, qum və daş dolduraraq, sonra isə tikmişdilər **(18: s.116)...**

26-ların ölümü ilə bağlı olan hər kəsi, o sıradan, hətta o gəminin matroslarını da ölüm gözləyirdi. Eləcə də onların qardaşlarını, əmioğullarını, dayıoğullarını, bibioğullarını, xalaoğularını və dostlarını da həmçinin **(18: s.117)...**

**Ancaq, əlbəttə ki,** o vaxtlar həm də çox gənc olan Məhəmməd Əsədbəy **məsələyə ingilislərin gizli şəkildə müdaxiləsindən xəbər tuta bilməzdi; çünki bu, həm Birləşmiş Qüvvələr, həm də Sovet Rusiyası üşün dövlət sirri idi...**

*Bəli, 26-lar haqda əsl həqiqət bambaşqaydı. Aşağıdakı rəsmi sənəd də 26-lardan bir qisminin 20 sentyabr 1918-ci il tarixində Ağcaqum çölündə güllələnmədiyini təsdiq edir:*

## STEPAN ŞAUMYANIN AĞCAQUM ÇÖLÜNDƏ GÜLLƏLƏNMƏDİYİNƏ DAİR ARXİV SƏNƏDİNİN SURƏTİ:

26 ФЕВРАЛЯ 1919 Г.
№ 894
Секретно

МИНИСТРУ-ПРЕДСЕДАТЕЛЮ, МИНИСТРУ ИНОСТРАННЫХ ДЕЛ.

...Тифлисской радиостанцией перехвачена радио-телеграмма из Астрахани на имя Соколова (по-видимому, сенатора), касающаяся обмена военнопленными: Шаумяна и др. – с арестованными членами Союзной миссии, причем телеграмма заканчивается следуюущими словами: «до скорого свидания в Баку».

Дипломатический Представитель
Азербайджанской Республики
при Правительстве
Грузинской Республике -подпись

И. об. Военного Атташе
Подполковник-подпись

ЦГАОР Азерб. ССР, ф. 970, оп. 1 д. 42 л. 10,14.



## STEPAN ŞAUMYANIN AĞCAQUM ÇÖLÜNDƏ GÜLLƏLƏNMƏDİYİNƏ DAİR ARXİV SƏNƏDİNİN TƏRCÜMƏSİ

26 FEVRAL 1919-CU İL
№ 894 Məxfidir

BAŞ NAZİRƏ, XARİCİ İŞLƏR NAZİRİNƏ.

...Tiflis radiostansiyası tərəfindən Həştərxandan Sokolovun adına *(görünür ki, senatordur)* radio-teleqram tutulmuşdur. Teleqram hərbi əsirlərin – Şaumyan və b.-nın Müttəfiq dövlətlərin həbs olunmuş üzvləri ilə dəyişdirilməsinə toxunur və bu sözlərlə yekunlaşır: "tezliklə Bakıda görüşənədək".

Azərbaycan Respublikasının
Gürcüstan Respublikası Hökuməti yanında
Diplomatik Nümayəndəsi – imza

Hərbi Attaşeni əvəz edən
Podpolkovnik – imza

***

***Qeyd:***

Mən bu sənəd haqda 2008-ci ilin sentyabrında ANS televiziyasının "Dahilərin divanı" proqramında *(veriliş 31 mart 2011-ci ildə təkrar yayınlanmışdır)* açıqlama versəm də, ardınca yazılı və elektron KİV-lər gərəkən müzakirə şəraiti yaratmadılar; ancaq yanvarın 24-26-sı aralığında Bakıdakı "Sahil bağı"nda aparılan qazıntıda 26-lardan yalnız 23-nün cəsədinin (tabutda) bulunmasından sonra eyni sənədin AMEA Tarix İnstitutu tərəfindən "tapıldığının" elan olunması bütün medianı və ictimaiyyəti hərəkətə gətirdi ki, bu da mənə nədənsə Bəhlul Danəndənin bütün Şərqdə məşhur olan bir lətifəsini xatırlatdı.

Yanılmıramsa, belə bir sənədin varlığını müasirlərimizdən ilk dəfə akademik Ziya Bünyadov dilə gətirmişdi. Bu sənədin surəti də "Azərbaycan SSR EA-nın Xəbərləri"ndə hələ 20 il öncə yayınlamışdı (bax: *Tarix, fəlsəfə, hüquq seriyası, 1989, №2, səh.140)*. Tarix İnstitutunun vaxtilə yayınladığı sənədi yenidən "tapması" özünüreklam xarakterli bir açıqlama tərzi olsa da, xalqımızın psixoloji qavramına biçilmiş, yeni sarı simə anında toxunulmuş və insafən, effekt alınmışdır...

AMEA Tarix İnstitutunun 26-larla bağlı önəmli gizlinləri aşkarlamağa yönəlik son fəaliyyətlərinə gəldikdə isə, bu təqdir edilməlidir. Əlbəttə, məsələnin əsas ipucları İngiltərə və Rusiyanın əlində olsa da, nəticələri Hindistanın Mədrəs şəhərindəki qəbiristanlıqlardan birindəki cənazə qalıqları ilə tutuşdurmaq lazım gələcək ki, bu da müşkül məsələyə oxşayır. Doğrudur, Azərbaycan xalqı üçün onu soyqırıma uğradanların təşkilatçısı və rəhbəri olmuş Şaumyanın və ya cənazəsinin qalıqları əski "26-lar bağı"nda tapılmayan Tatevos Amiryanın və başqa birisinin sür-sümüklərinin Mədrəsdəki hansı çatlamış gorda olması o qədər də maraqlı deyil. Sadəcə, "Poçt qutusu"ndakı Novruzəlinin durumuna düşmüş Azərbaycan çoxluğu üçün bu gizlinlərin önəmli məqamlarının açılması həm də bir ibrət tarixi ola bilərdi. Rusiya bu işdə təbii ki, maraqlı olmayacaq, Hindistan da həmçinin. İngilis arxivlərindən aşkarlanacaq sənəd və materiallarda isə bu məsələ ilə əlaqədar müəyyən irəliləyişə nail olmaq mümkündür. Hindistan isə Ermənistanın lehinə mövqe tutmuş bir dövlət kimi, həm də orada ciddi nüfuzu olan yerli erməni icmasının təsiri ilə Mədrəsdəki cəsədlərin ekspertizasına icazə verməyəcək.

"27-ci komissar" isə onlarla birgə tutuqlanmasına baxmayaraq, Şaumyangilin xilası üçün danışıqların təməlini qoyan Anastas Mikoyan idi. Mikoyanın oradan, özü də aşkar şəkildə, qurtulmasının və "28-ci komissar" kimi tutuqlanmış Şaumyanın oğlu, 16 yaşlı soyqırımçı (RK(b)P Bakı Komitəsi yanında döyüş drujinası pulemyotçular komandasının rəisi) Sureni də azad etdirə bilməsinin səbəbləri üzərində düşünərkən, hər dəfə yadıma Nərimanovun Stalinə məktubundakı bir fakt düşür. Nərimanovun həmin tarixi, məxfi məktubunda Stalinə bildirir: "...mənim "Bahadır və Sona" romanım (*Nərimanov romanda təbliğ etdiyi türk-erməni dostluğuna işarə vurur*-X.İ.) yol. Mikoyan hələ daşnak olarkən artıq uğur qazanmışdı. Onda nə üçün 20 il keçdikdən sonra mən millətçi olmalıyam, yol. Mikoyan isə beynəlmiləlçi" **(1:** s.26).

**26-lar tutuqlanarkən də Mikoyan (çox güman ki) özünü daşnak kimi təqdim edərək, həmin dustaqların onun nəzarətində olduğunu bildirmişdi. Daşnakların ingilisləri Bakıya dəvət edənlər sırasında olması və Mikoyanın rəsmən daşnak bileti təqdim etməsi ona bu fürsəti yaratmışdı...**

Yeri gəlmişkən, ölkə qəzetləri AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudlunun dilindən "Şaumyanın, Tatevos Amiryanın və Arsen Avenyanın cənazəsinin qalıqlarının "26-lar bağı"nda tapılmadığını" bildirirlər. Tatevos Amiryan əvvəldən axıradək Daşnaksütyun Partiyasının üzvü olmuş, gəmidəki "Bakı kommunası"na bağlı silahlı dəstəyə də komandanlıq etmişdi. 25 "Bakı komissarları"nın Qızılsuda tutuqlanması zamanı onları müdafiə edərək həbslərinə mane olmağa səy göstərdiyi üçün o da tutuqlanmış, beləliklə sonralar hər kəsin alışdığı bu olayla bağlı hallanan 26-lar rəqəmi belə "düzəlmişdi". Ancaq 26-lar sırasında Arsen Avenyan adlı birisi yerli-dibli olmamışdır; o sırada olan "Arsen" adlı şəxsin soyadı "Amiryan"dır, "Avenyan" soyadlı şəxs isə olmayıb. Arsen Amiryan da öncələr Daşnaksütyun Partiyasının rəsmən üzvü olmuşdu və Tatevosun qardaşı idi. Yox, əgər o gəmidə Arsen Avenyan adlı bir şəxs vardısa və güllələnərək cəsədi "26-lar bağı"nda dəfn edildiyi bildirilmişdisə, belə birisinin rəsmi sovet ensiklopediyalarında adının əsla keçməməsi də növbəti sual doğurur...

AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudlunun ən yeni açıqlamalarında isə, Ağcaqum hadisəsindən ("26-lar"ın güllələnməsindən) sonrakı 10 gün ərzində Mikoyan və Şaumyanın Qızılsu qazamatında olduqları (quru yemək payı aldıqları və s.) haqda yeni təkzibedilməz dəlillər üzə çıxdığı bildirilir **( 25:** s.2 **)** .

[*Yeri gəlmişkən, Yaqub Mahmudlu həmin açıqlamasında Tarix İnstitutunun son araşdırmaları sayəsində, Sovetlər Birliyindəki Azərbaycana düşmən olan qüvvələrin, özəlliklə də yüksək vəzifəyə malik erməni məmurların Nərimanova qarşı bir qeyri-*



*rəsmi xəyanət cəbhəsi oluşdurduqları və onun başına olmazın oyunlar açdıqları faktlarını özündə əks etdirən, Moskva və Peterburq arxivlərində qorunan bir çox sənədlərin açıqlandığını da ölkə ictimaiyyətinin diqqətinə çatdırmışdır* – **( 25:** s.2 **)]** .

**Qeyd:** AMEA Tarix İnstitutu 1918-ci il mart soyqırımı ilə bağlı mövzu ilə əlaqədar, əsasən sənədlər toplusundan ibarət olan üçcildlik yayınlamışdır. 1-ci cilddə 26-ların güllələnməsi ilə bağlı məsələlərin açılmasına həsr olunmuş iki məhkəmə – 1921-ci il Krasnovodsk məhkəməsi və 1926-cı il ("Funtikovun işi" adlanan) Bakı məhkəməsi ilə bağlı sənədlər və institutun əməkdaşlarının məqalələri toplu halında nəşr edilmişdir. Şaumyanın Ağcaqum hadisələrində güllələnmədiyinin dəlilləri (bizim də bu bölümdə bəhs etdiyimiz iki tarixi sənəd –Azərbaycanın Gürcüstandakı nümayəndəliyindən AXC Baş Naziri və Xarici İşlər Nazirinə göndərilmiş gizli teleqram və Qızılsu qazamatında saxlanılan Stepan Şaumyan və onun yanında bulunanlara 20 sentyabr – 1 oktyabr 1918-ci il aralığında quru yemək payı verildiyini təsdiq edən, hal-hazırda orijinalı Türkmənistan arxivlərindən birində saxlanılan sənəd – pay cədvəli) həmin nəşrdə yayınlanmışdır – **[(31:** s.31-38); Pay cədvəlinin fotosurəti – **( 32 ) ].**

***

**[Qeyd:** Valideynləri tanınmış Bakı qoçusu Nəcəfqulunun qohumu və qonşusu olan ictimaiyyətçi-yazar Xoşqədəm bəy Cəbrayıloğlunun atası "avtoritet Qurd Cəbrayıl" kimi məşhur olan şəxs hələ Sovetlər zamanında oğluna danışarmış ki, vaxtilə (təxminən 1925-26-cı illərdə) o, Bakıdakı Bayıl qazamatında yatarkən bir neçə aylığa onun qazamat yoldaşlarından biri 26-ları güllələnməyə əmr verən Findikov (*Funtikov nəzərdə tutulur* –X.İ.) olmuşdur. **Funtikov da "Qurd Cəbrayıl"a bildirib ki, "biz yalnız bizə müqavimət göstərənləri güllələməyə göstəriş verdik, Şaumyanı və başqalarını isə təhvil verdik"** (*yəqin ki, ingilislərə –X.İ.*). Sovetlər hakimiyyəti ətraflarda da bərqərar olduqdan sonra Funtikov başqa ad-soyad və pasporta Biləcəridə yaşayırmış, ancaq öz qızı komsomola keçən zaman doğmaca atasını satıb və Funtikova "vətən xaini "adı verərək dərhal tutuqlayıblar...

Müğənni Bilal Əliyevin Xoşqədəm bəy Cəbrayıloğluna verdiyi məlumata görə, Azərbaycanın böyük sənətkarı mərhum Rəşid Behbudov, SSRİ xalq artisti Zeynəb Xanlarova və o, Sovetlər dönəmində Hindistanda qastrol səfərində olarkən Şaumyanın Hindistanda yaşadığı haqda yerli əhalidən kimsə onlara məlumat sızdırıbmış. Bilal Əliyev onu da bildirib ki, bu məsələdən xəbər tutduğuna görə, sonralar Rəşid Behbudovun "başı ağrıyıbmış"... ]

***

Tədqiqatçılar Ə. M. Quliyev və A. Ə. Quliyevin haqlı olaraq qeyd etdiyi kimi, rusların (*yalnız ruslarınmı?*-X. İ.) çörəyini yeyib, yalnız ermənilərə xidmət etmək üçün Moskvada yaşayıb-işləyən A. İ. Mikoyan 1948-ci ilin I rübündə SSRİ Ali Soveti Rəyasət Heyəti, 1960-cı ildə isə Sov. İKP MK Rəyasət Heyəti qarşısında DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini qaldırmışdı. Mikoyan hətta bu qərar layihəsinə SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri G. Şvernikin imza atmasına da nail olmuşdu **(5:** s. 75; **6:** s. 271).

"Bu (*məsələnin 1948-ci ildə qaldırılması*-X. İ.) elə bir dövrə təsadüf edirdi ki, 1945-ci ilin sonlarında Harutyunovun Dağlıq Qarabağ tələbinə Mir Cəfər Bağırovun çox obyektiv və kəsərli cavabı hələ də yaddaşlardan silinməmiş və dillərdə gəzməkdə davam edirdi.

Buna görə də Azərbaycan rəhbərliyinin yenidən ciddi cəhd göstərməsinə ehtiyac qalmadı və SSRİ hökuməti G.Şvernikin əsassız qərar layihəsini rədd etdi" (6: s. 271). **(Yada salaq ki, Harutyunov Üİ K(b)P MK-nın müzakirəsinə çıxarmaq tələbilə Dağlıq Qarabağın "həmsərhəd olması (*əslində həmsərhəd də deyil: ən yaxın nöqtəsi belə 10 km uzaqlıqdadır, həmin ən yaxın aralıqda isə Laçın bölgəsi yerləşir-X. İ.* ) səbəbilə və yerli kadrların Ermənistan ali məktəblərində təhsil almasına imkan yaratmaq üçün" Ermənistana birləşdirilməsi məsələsini qaldırmışdı. Mir Cəfər Bağırovun rəyi soruşulduqda o da yazılı olaraq bildirmişdi ki, ümumilikdə Güney Qafqazda sınırlara yenidən baxmaq gərəkdir. Bağırovun bu təklifi Azərbaycan Xalq Cümhuriyyətinin ərazi məsələsinə baxışı ilə səsləşirdi. Bağırovun bu cür uzaqgörən diplomatik əks-həmləsi ÜİK(b)P MK yönətimini (örnəyin, G. M. Malenkovun şəxsində) zor duruma salmış; beləliklə, məsələ** qapanmışdı) **(12:** s. 88-90; **6:** s.238-240)...

Bununla belə, İrandan ermənilərin SSRİ-yə köçürülməsi məsələsinə müsbət cavab alan Q. Harutyunov onların Ermənistanda yerləşdirilməsi bəhanəsi ilə azərbaycanlıların Ermənistandan köçürülməsi haqda qərar verilməsinə nail olur **(13:** s.48): Stalinin 23 dekabr 1947-ci il tarixli fərmanı ilə 1948-1950-ci illərdə Ermənistandan 100 min nəfər soydaşımız mal-mülklərini də itirərək Azərbaycanın Kür-Araz ovalığına köçürülür **(14)...**

Diqqətçəkən məqamlardan biri də 1937-ci il 17 noyabr tarixli repressiya dövrü qərarlarının Kür-Araz ovalığına köçürülən azərbaycanlılara şamil edilməsi idi və əslində öncə soydaşlarımızın Qazaxıstan və Sibirə sürgünü nəzərdə tutulmuşdu. Ancaq Azərbaycan rəhbərliyinin ciddi cəhdləri sayəsində "pambıqçılığın inkişafı naminə" onlar Kür-Araz ovalığına yerləşdirilərək Sibir sürgünündən xilas oldular **(6:** s.244)...

*O dönəmdə xaricdən gələn ermənilərin də heç biri azərbaycanlıların boşaltdıqları kəndlərə getmədiyindən, Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda da göstərildiyi kimi, (soydaşlarımızın faktiki sürgün edilərək qovulduğu-X. İ.) 476 kənd xaraba qaldı* (6: s.246)...

**[İ.Stalinin əmri ilə II Dünya Savaşı dönəmində Krım tatarları, çeçenlər, inquşlar, qaraçaylılar, balkarlar, kalmıklar... və 1944-cü ildə Ahıska türklərinin sürgün olunmasında ( 20 ; 27 ) da Sovetlər Birliyi yönətimində hakim rollardan birini oynayan ermənilərin və onların həmişəoyaq lideri Mikoyanın da rolu az olmamışdı.]**

Qafqazlardakı hiylə və xəyanətlərə növbəti bir erməni xəyanəti ilə güneyli soydaşlarımızı İranda duzağa salmış Sovetlər Birliyi məkri də əlavə olundu: bu dəfəki hədəf isə Güney Azərbaycan idi; 1947-ci ildə Güney Azərbaycan inqilabının öndəri və İran ərazisində yaradılmış **məşrutə Azərbaycanının** dövlər başçısı Seyid Cəfər Pişəvəri erməni sürücü Melikyanın əli ilə avtomobil qəzasına salındı, yaralı vəziyyətdə xəstəxanaya çatdırılan o böyük şəxsiyyət oradaca Moskvadan (Azərbaycan rəhbərliyinin başı üzərindən) öncədən əmr almış xüsusi xidmət orqanının "həkim" müdaxilesi ilə həlak edildi **( 28 )**.

Ermənilər bunlarla da kifayətlənməyərək, milli məsələdə yeni-yeni uğurlara imza atmaq isteyirdilər. Ancaq onların növbəti cəhdi məyusluqla sonuclandı: SSRİ-dəki erməni millətçilərinin başbiləni Mikoyanının DQVM ilə bağlı 1960-cı ilki təşəbbüsünün ləğvində Azərbaycan KP MK və xüsusən də Azərbaycan KP MK-nın 1958-ci ildə Sov.İKP MK-da bölmə müdiri görəvində çalışmış ideoloji katibi Nazim Hacıyev həlledici rol oynadı.

Sov.İKP MK Rəyasət Heyətində N. S. Xruşşovun rəhbərliyi altında məsələnin müzakirəsi zamanı Mikoyanın "millətçi" damğası vurduğu Nazim Hacıyev cəsarətlə onun cavabını verdikdən sonra Xruşşov mübahisəyə yekun vuraraq demişdi:



"N. Hacıyev xalqının mənafeyini müdafiə edir. O, millətçi deyil, vətənpərvərdir. Anastas İvanoviç, bəs sən kimi müdafiə edirsən? Erməni burjua təşkilatı "Ramqavar" (*Ermənistanın sovetləşməsinin 40 illiyinə hazırlığı fürsət bilərək, ABŞ-dakı "Ramqavar" partiyası Bostonda erməncə yayınlanan "Baykar" qəzeti vasitəsilə* Qarabağ və Naxçıvanın Ermənistana *hədiyyə edilməsini Azərbaycan rəhbərliyindən xahiş etmişdi-X. İ.* ) nə vaxtdan kommunistlərin maraqlarını ifadə edir? Bu məsələyə son qoymaq lazımdır!" – **(6:** s. 272-273).

Ancaq Mikoyan, bir qədər sonra, Azərbaycan xalqından intiqam almaq üçün Kreml xəstəxanasının professoru Abramyanın əli ilə Nazim Hacıyevi aradan götürdü **(7:** s.12; **6:** 273).

Mikoyan 1964-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri seçildikdən sonra Dağlıq Qarabağ məsələsini bir daha gündəmə gətirdi. O vaxtlar Sov.İKP MK -nın 1-ci katibi və SSRİ Nazirlər Sovetinin Sədri vəzifəsində çalışan N. S. Xruşşov Mikoyanın bu fitnəkar təklifinə qısaca olaraq belə cavab vermişdi:

*"Mən DQMV ermənilərinin bir sutka (gün-X .İ.) ərzində Ermənistana köçürülməsi üçün 12 min hərbi yük avtomaşını ayırmağa hazıram!"* – **(8:** s.19)...

Tədqiqatçılar Ə. M. Quliyev, A. Ə. Quliyev və bənzərlərinin düşüncəsinə görə, ermənilər Dağlıq Qarabağ məsələsini 1975-ci ildə – Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi 1-ci dönəmdə də qaldırmaq istəmişlər, ancaq Əliyev DQMV üçün sosial-iqtisadi inkişaf planı ortaya ataraq düşmənin bəhanələrini yoxa çıxartmışdır. 1975-ci ildə Moskva nümayəndə heyəti tərkibində Bakıya gələn erməni yazıçısı Marietta Şaginyan özü də Heydər Əliyevlə görüşündə **İrəvanda DQMV-nin Ermənistana verilməsi barədə məktub hazırlandığını, ancaq o, bu məktubu imzalamaqdan boyun qaçırdığını bildirirərək, "Sizdə ermənilər yağ içində böyrək kimi yaşayırlar"**- deyə Azərbaycandakı soydaşlarının durumundan razılığını dilə gətirmişdi **(6:** s.277-279).

Sonrakı uzaqgörən gediş kimi, ermənilər Dağlıq Qarabağ məsələsini qaldırmaq yolunda ən ciddi maneəni, yəni Heydər Əliyevi Sov.İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin I müavini vəzifəsindən kənarlaşdırmaq məqsədilə Qorbaçovun Sovetlər Birliyi imperiyasının başına gətirilməsində fəal iştirak etdilər...

1987-ci ildə Heydər Əliyev məcburi istefaya göndərildi. Sonra Ermənistandakı azərbaycanlıların bir qismi öldürüldü, yerdə qalanı isə var-dövlətini itirərək (ən yaxşı halda külli miqdarda zərərə uğrayaraq), son nəfərinədək qovuldu **( 16:** s.154-170 **)...** ***[Bu mövzu ilə bağlı, habelə Ermənistandan qovulan azərbaycanlıların yeni statistikası haqda daha ətraflı Sənubər Sarallının "Oğurlanmış tarix. Soyqırım" kitabı vasitəsilə ilə tanış olmaq olar –(30)]...*** **SSRİ rəhbərliyindəki ermənipərəstlərin əli, ermənilərin təşkilatçılığı, təşəbbüskarlığı və ilkin qətllərin icraçılığı ilə Sumqayıtda erməni faciəsi təşkil edildi [hadisələrin SSRİ Baş Prokurorluğu tərəfindən aparılan istintaqı və Moskva məhkəməsinin hökmü bunu birbaşa və dolayısıyla təsdiq edir; ancaq nədənsə Ermənistan Baş Prokurorluğunun www.genproc.am/sumqait saytında bu tip məlumatlar daxil edilməyib – (26:** s.11)]... və tədricən Qarabağ savaşı başlandı; 1993-cü ilədək ermənilər Rusiyanın dəstəyi ilə Azərbaycan torpaqlarının 20%-ni işğal edib, növbəti soyqırım silsiləsi törətdilər; 1 milyon soydaşımız isə öz yurd-yuvalarından qaçqın düşdü. [Ancaq təəssüf ki, indiyədək BMT tərəfindən, müxtəlif vaxtlarda dəfələrlə Azərbaycanın mövqeyini dəstəkləyən qətnamələr (o sıradan, **1993-cü ildə ard-arda onaylanmış – erməni işğalçıları tərəfindən tutulmuş ərazilərin dərhal boşaldılmasını tələb edən 822, 853, 874, 884 saylı BMT qətnamələri)** qəbul edilsə də, işğalçını inadından döndərəcək uluslararası güclər hələ də bunun marağında deyillər]...

*Qeyd:* Heç şübhəsiz ki, ermənilərin yazdığı soyqırımı səhifələrindən biri də Qazax rayonunun işğal etdikləri 7 kəndində vəhşicəsinə törətdikləri faciələrdir. Qənirə Paşayeva və Akif Aşırlının qələmə aldığı "Erməni işğalının qurbanı – Bağanıs Ayrım" kitabında bu olaylara aydınlıq gətirilir ( 22 ) . Bu hadisələr bir daha onu göstərir ki, Qarabağ məsələsi də ermənilər üçün əslində bəhanədir: əsl məqsəd isə işğal və etnik təmizləmə yolu ilə Azərbaycan torpaqlarının hesabına, demək olar ki, hər bir erməninin qafaya qoyduğu (mərhələli də olsa) "Böyük Ermənistan" dövləti yaratmaqdır.

## *XOCALI SOYQIRIMINA DAİR*

Çağdaş, "mədəni" erməni kimliyinin ən bariz təzahürü, heç şübhəsiz, Xocalı vəhşətidir...

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni terror təşkilatlarının və rus hərbi birləşmələrinin 366-cı alayının genişçaplı hücumu ilə Xocalı əhalisinə qarşı sözün əsl mənasında soyqırımı törədildi: burada minlərlə əliyalın, dinc Azərbaycan türklərinin kütləvi ölüm səhnəsi düzənləndi. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin soyqırımı araşdıran istintaq komissiyasına təqdim etdiyi hərbçilərin danışıqlarının lent yazısı da planın öncədən hazırlandığını və 366-cı rus hərbi alayının milyonlarla pul qarşılığında bu müdhiş faciədə iştirak etdiyini təsdiqləyir.

Rəsmi bilgilərə görə, Xocalı qətliamında 613 nəfər şəhid olmuş, onlardan 56-sı xüsusi qəddarlıq və işgəncələrlə öldürülmüşdür. O sıradan, 27 ailə tamamilə məhv edilmiş; 30 ailə öz başçısını itirmişdir. 1275 nəfər isə əsir alınaraq, olmazın zülmlərə uğradılmışdır...

Hələ 1992-ci il fevralın 16-da, 366-cı alayın nəzdində Xaçik Vartanyanın başçılığı altında "Klukin, erməni cəbhəsi" adlı türk qanı içməyə hazır olan "rota" (*bölük*-X. İ.) yaradılmışdı. Bu bölüyün özəyini Livan, Amerika, Kanada, İsveç və Hollandiyadakı erməni icmalarını təmsil edən, "Böyük Ermənistan" xəstəxəyallı azğın erməni birləşmələri təşkil edirdi. Fevralın 17-də düşüncə və hisslərinə türk düşmənçiliyi hopdurulmuş Livanlı erməni qızlarından ibarət "Şuşanik" adlanan snayperçilər ( *kəskin nişançılar*-X. İ.) dəstəsi də onlara qoşuldu.

Çağdaş erməni təcavüzünün ən ifrat pilləsi olan Xocalı soyqırımı-uluslararası çapda millətçi kimi tanınan erməni icma, diaspor qurumları və lobbiçilərinin birgə hazırladıqları "Böyük Ermənistan" planının yeni dönəmə uyğun mərhələsi "Haydad" və "ASALA" terror təşkilatlarıyla birgə həyata keçirildi. Bu əməliyyat vaxtı SSRİ Müdafiə Nazirliyinə məxsus hərbi texnika, tərkibində zəhərli kimyəvi maddələr olan mərmilər, qullanılması yasaqlanmış "dairəvi" güllələr və başqa silahlar da tətbiq edilərək sınaqdan çıxarıldı (**15:** s.30-31).

Xocalı soyqırımında iştirak edən hərbi hissələrdən birinin əks-kəşfiyyat reisi, polkovnik V.Savelyev özünün "Məxfi arayış"ında erməni vandalları ilə yanaşı, rusların "zabit şərəfi"ni ləkələyən hərbçilərin də adlarını açıqlayıb. Bunların sırasında 366-cı motoatıcı alayın komandanı Yuri Yuriyeviç Zarviqorov və ondan başqa, 23 nəfər də rus soyadlı zabit də vardır (**15:** s.31-34)...

Xatırladaq ki, Xocalıda törədilmiş soyqırımı haqda dünyanın çeşidli basın qurumları da həyəcanla xəbərlər yaymışdılar. Bunlardan "Vaşinqton-Post", "Tayms", "İzvestiya","Sandi Tayms", "Fayneşnl tayms", "Le Mond", "Qolos Ukraini", "Nie" kimi qəzetlər, "Valer aktual", "Krua İ'Evelman" (başqa bir qaynaqda: "Krua İ'Eveneman") adlı jurnallar da vardır (**15:** s.70-72; **33:** s.21-23)...



Erməni "fədai"lərini öyən "Московские новости» qəzeti o vaxt dünyaya car çəkərək sanki insanlığı "müjdə"ləməyə can atırdı: "Xocalıda ancaq ölülər qalmışlar" (**8:** s.8)...

Xocalı soyqırımı törədilən zaman hadisələrin canlı şahidi olan jurnalist Viktoriya İvleva faciəni təsvir edərkən yazırdı : "...Bu adamların cəsədləri eybəcərləşdirilmiş şəkildə qar üzərində qalaqlanmışdı" (**15:** s.35).

Azərbaycanın qeyrətli telejurnalisti Çingiz Mustafayev də olayların dərhal ardınca həyatını risqə atmaq bahasına da olsa, bu faciələri videolentə almağa nail olmuşdu (**8:** s.8)...

Azərbaycan xalqının Xocalı yarası bu gün nəinki yetkinlik yaşına çatmış insanlarımızın, hətta fidan körpələrimizin də məsum yaddaşını yaralamaqda, varlığını sarsıtmaqda, düzənini pozmaqdadır. Tədqiqatçı-jurnalist Əsli Xəlilqızının üç dildə (*Azərbaycan, rus və ingiliscə*) "Çaşıoğlu" nəşriyyatı tərəfindən yayınlanmış kitabı da məhz "Güllələnmiş uşaqlıq" adlanır. Bu kitab Xocalı faciəsinin şahidi və zərərçəkəni olan kiçik yaşlı uşaqların şahid yaddaşı əsasında qələmə alınmış sənədli topludur (**29**)... Kitabda uşaqların dilə gətirdikləri olaylarla tanış olduqca bir daha aydın olur ki, onların nəinki uşaqlığı güllələnib, gəncliyi, taleyi, nəsilağacı, mili düzəni bizə "barbar" deyənlər tərəfindən barbarcasına topa tutulubdur...

*Ermənilər və onların havadarları Rusiya rəhbərliyi, habelə onların buyuruğunu həyata keçirən rus hərbçiləri (Xocalı olaylarında: 366-cı rus alayı) tərəfindən tarixin qara dəftərinə yazılan bu cür siyasət və onun icrası beynəlxalq hüququn əlifbasından da bəlli olduğu kimi, BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cezalandırılması Haqqında Konvensiya ilə bəşəri cinayət kimi qiymətləndirlir.*

*Soyqırımını (o sıradan, günümüzdəki Xocalı qətliamını) və ya insanlıq əleyhinə başqa cinayətləri və hərbi suç işlədilməsini aşağıdakı hüquqi sənədlər də qəti qadağan etmişdir:*

*–Nürnberq Hərbi Tribunalının Nizamnaməsi;*
*–Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad. 4);*
*–Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.1);*
*–Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad. 6);*
*–Azərbaycan Respublikası Cinayət Məcəlləsi (mad. 103);*
*–Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı.*

*Qeyd:*

***Bu cür ciddi səbəblərdən də, kitabda toxunulan soyqırımı aktlarına və onları törədən şəxslərə, subyektlərə, dairələrə münasibətdə beynəlxalq hüquq müstəvisində layiqli hüquqi qiymət verilməli, yer üzündə sülhə və əmin-amanlığa qarşı yönələn belə qara qüvvələrin fəaliyyətləri cilovlanmalıdır.***

**Haşiyə:**

*1. Dünyaca ünlü və bütün dövlətlərin ilgisini çəkən "WekiLeaks" saytının açıqlamalarına dayanaraq "The Guardian" qəzeti tərəfindən 2010-cu ilin dekabrında yayılan sənədlərin birində Qarabağ münaqişəsinə aid ciddi məqamlar üzə çıxıb: Bütün dünyaya rəsmən bəlli olub ki, Avropa Birliyi Rusiyanın bu münaqişənin çözülməsində maraqlı olmadığı qənaətinə gəlib. ABŞ isə mövqeyini dəyişib və başa düşür ki, Qarabağ*

*münaqişəsi həll olunmadan Türkiyə-Ermənistan münasibətlərini normallaşdırmaq cəhdləri sonuca ulaşmayacaq. Bu məqamlar ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Filip Qordonun ötən il iyulün 3-də Avropa Birliyinin Siyasət Direktorları ilə Stokholmda keçirdiyi görüşün protokolunda öz əksini tapıb* – **(23:** s.8).

2. *"Ötən həftə Ermənistanda maraqlı etiraz aksiyası olub (olayın yazıya alınma tarixi: 20.12.2010 –X.İ. ). İrəvanın mərkəzi meydanlarından birinə toplaşan ermənilər Britaniya ensiklopediyasında Ermənistan barədə yer alan məlumatlardan "şoka düşdüklərini" ifadə ediblər və nəşrin dərhal həmin məlumatları dəyişməsini tələb ediblər... Britaniya ensiklopediyası Ermənistan barədə tanıtım xarakterli məlumatlarda bu ölkədə əsas dilin erməni və Azərbaycan dilləri olduğu, əsas dinlərin isə pravoslav və islam (şiə məzhəbi) sayıldığını göstərib.*

*Söhbət bir neçə aydır İrəvanın kitab mağazalarında satılan və Britaniyada "Macmillan children"s books" nəşriyyatının 2009-cu ildə rus dilinə tərcümə edilmiş coğrafiya ensiklopediyasından gedir"* – ***(24:** s.11).*

**Hansı səbəbdənsə bu nəşrdə ermənilərin mənsub olduğu qriqorian, katolik dini məzhəbləri əvəzinə pravoslav dini göstərilib.**

**Bu nəşrdə erməniləri qəzəbləndirən əsas həqiqətlər isə yəqin ki bunlardır:** *Ermənistanda yüz minlərlə azərbaycanlının (əsasən şiə məzhəbli) yaşaması (1988-89-cu illərədək mövcud olmuş faktlar), Qarabağın tarixi Azərbaycan ərazisi kimi göstərilməsi, Qarabağ uğrunda təkcə Dağlıq Qarabağ* ***ermənilərinin deyil,*** *Ermənistanın Azərbaycanla silahlı münaqişəyə girişməsi... Ermənistanın "unutduğu" bir çox həqiqətləri Britaniya ensiklopediyasından da tələb etməsi rus (tərcümə) redaksiyasının məsələyə yenidən baxacağı vədi ilə qarşılansa da, əsas tərəfin – ingilis redaksiyasının qətiyyətli rəddi ilə nəticələnib* – ***(24:** s.110)].*

**Ədəbiyyat:**


1. Нəриман Нəриманов. Учгарларда ингилабымызын тарихинə даир. (И. В. Сталинə мəктуб). Бакы, 1992.

2. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, *f. 268, siyahı 26, iş 32.*

3. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-30). Bakı, "Mütərcim", 1996.

4. Rəna Bayramova. Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)., Bakı, 2007.

5. Ə. Abdullayev. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti tarixindən., Bakı, 1995.

6. Ə. M. Quliyev, A.Ə. Quliyev. Türk oğlu,... 17-ci hücuma hazır ol!, Bakı, 2003.

7. E.Fətullayev. "Gələcək günlərim geyindi matəm...", "Azadlıq" qəzeti, 10-12 aprel 1999, s.12.

8. Ю. Помпеев. Кровавый омут Карабаха., Баку, 1992.

9. Партархив Закрайкома по архиву N-9, д.15, 1921. Л.Л. 2(-2) об. Кавбюро ЦК РКП за 1921 г. Протоколы Президиума и Пленума...

10. С. М. Штеменко. Баш штаб мүһарибə иллəриндə., Бакы, 1972.

11. *Таһир Ајдыноғлу. «Һаггын үстүнү өртсəлəр дə заман ачыр.», «Халг гəзети», 7 мај 1993, с. 3.*

12. Играр Алиев. Нагорный Карабах: история, факты, события., Баку, 1989.

13. И. Мəммəдов, С. Əсəдов. Ермəнистан азəрбајчанлылары вə онларын ачы талеји., Бакы, 1992.





14. Атахан Пашајев. «Көчүрмə-1948-53»., «Республика» гəзети, Бакы, 6 апрел 1991-чи ил.

15. Akif Aşırlı. Türkün Xocalı soyqırımı., Bakı, 2005.

16. И.Вəлизадə, Б.Мурадов. Ермəнистан азəрбајчанлыларынын сојгырымы., Бакы, 1996.

17. Teyyub Qurban. Mir Cəfər Bağırovun məhkəməsi necə hazırlanmışdır?, "Ekspress" qəzeti, Bakı, 06-10 dekabr 2008.

18. Мухаммед Асад-Бек. Кровь и нефть на Востоке., Штутгарт, 1929.-Баку, 2005.

19. Манаф Сулејманов. Ешитдиклəрим, охудугларым, көрдүклəрим..., Бакы, 1996.

20. Əlipaşa Ənsarov. Ahıska türkləri., Bakı, 1996.

21. www.islam.com.az; *bax:* Prof. Şinasi Gündüz. Missionerlik., Bakı, 2006.

22. Alim. Erməni yalanına tutarlı sillə., "Olaylar" qəz., Bakı, 20.04.2010, s.8.

23. "WekiLeaks"dən Qarabağa dair şok xəbər., "Yeni Müsavat" qəzeti, Bakı, 16.12.2010.

24. F.Məmmədov. Britaniya ensiklopediyasında erməniləri dəhşətə salan həqiqətlər., "Yeni Müsavat" qəzeti, Bakı, 20.12.2010.

25. "Şaumyan böyük Ermənistan qurmaq istəyirdi"., "Zaman" qəzeti, Bakı, 23-24.12.2010.

26. APA-nın məlumatı. *Bax: "Baş Prokurorluq Ermənistan fitnəsinə cavab verdi"., "Yeni Müsavat" qəzeti, Bakı, 06.01.2011.*

27. Rana. Onlar türklərdi., Münhen – 1947. , Ankara,1951–Bakı, 1993.

28. ATV International, 25.01.2011. saat 19.40 (proqram sunucusu: Həmid Herisçi, ssenari müəllifi: İlham Tumas, verilişin qonağı: prof.-dr. Cəmil Həsənli).

29. *Əsli Xəlilqızı.* Güllələnmiş uşaqlıq. Расстрелянное детство. Shot through childhood., Bakı, 2007.

30. Санубер Сараллы. Украденная история. Геноцид. Баку, 2007.

31. Azərbaycan xalqına qarşı 1918-c i il mart soyqırımı. 3 cilddə., I cild. 26 Bakı komissarlarının əsl tarixi., (AMEA Tarix İnstitutunun nəşri), Bakı, 2009.

32. ARPİİSSA, f. 303, siy. 1a, iş. 20.

33. "Xocalı soyqırımı rabitəçilərin yaddaşında" (məsləhətçi: *akademik Əli Abbasov,* redaktor: *Müşviq Əmirov,* tərtibçi: *Camaləddin Dostəli*), Bakı, 2009.


***(Araşdırmanın müxtəlif hissələri, ixtisarla, "Dağlıq Qarabağ məsələsi: keçmişdən günümüzədək", "Soyqırımı tanıtım yolunda", "26-ların aqibəti" başlıqları ilə "Mədəniyyət" qəzetinin 27.01.2010, 29.01.2010, 03.02.2010; 26.02.2010; ... tarixli saylarında, "Hürriyyət"qəzetində (2009-2010) və Azərbaycan Mətbuat Şurasının saytında (2010) yayınlanmışdır.)***

## QƏRBİ AZƏRBAYCAN (ÇAŞDAŞ ERMƏNİSTAN) ƏRAZİLƏRİNDƏ YER ADLARININ SOYQIRIMI

Çar Rusiyasının arxivləri, İran və Osmanlı mənbələri, Qərb diplomatlarının hesabatları, müxtəlif alim və səyyahların əsərləri, həmçinin o zamankı və sonrakı bir çox erməni müəllif və mənbələrinin hamısı birmənalı şəkildə ermənilərin Çar Rusiyasının himayəsi ilə Qafqaza və İranın şimalına (Cənubi Azərbaycana) köçürüldüyünü dəfələrlə qeyd etsə də, əksər çağdaş erməni «tarixçi»lərinə və siyasətçilərinə bu həqiqət sərf etmədiyi üçün onlar hələ də dünya oxucusunu çaşdırmaqdan nə usanmır, nə də utanmaq bilmirlər. Onların dırnaqarası arqumentlərini yerlə yeksan etmək üçün hörmətli tarixçi-alim İsrafil Məmmədov erməni müəllifi T.M. Avetisyanın özünə istinadən 1420-ci illərdən (Pir Yaqub Hüseyn oğlu dövründən) 1827-ci ilədək [Hüseyn xan Qacar *(1807-1827)* dövrünədək] İrəvan hökmdarlarının siyahısını təqdim edib. Bu da ermənilərin sonralar "Yerevan"a döndərdikləri İrəvanın bir şəhər və bir xanlıq kimi tarixdə mövcud olan bütün məlum dövrünü əhatə edir. Buradakı bütün hökmdarlar türk olduğu halda, bəs bir neçə il öncə ermənilər guya «erməni şəhəri İrəvan»ın 2500 illiyini hansı məntiqlə qeyd edirdilər?!..

Doğrudur, Rusiya tərəfindən «Erməni Vilayəti» yaradılanadək ( 1828-ci il martın 21-i) də ermənilər Qafqaza az-az da olsa köçməyə davam etmiş, daha doğrusu, orta əsrlərin sonuna nisbətdə nəzərə çarpacaq intensivliklə könüllü qaydada mülklər almaq və fəhlə-sənətkar kimi çalışmaq yolu ilə əsasən də İrəvan bölgəsinə köçmələrini sıxlaşdırmışdılar. Bu köçlər xüsusən də Çar Rusiyasının Qafqaza sahib olmaq üçün aşkar savaşa başladığı XVII əsrin sonundan daha fərqli sürət kəsb etməyə başlamışdı. Bununla bərabər, yerli müsəlmanların da uzun və amansız müharibələrdən təngə gələrək, Türkiyəyə, İrana və s. köçmələri müşahidə olunurdu. Bütün bu kimi fakorlara baxmayaraq «Erməni vilayəti» adlandırılan əyalətin başkəndi İrəvanda 1828-ci ildə azərbaycanlılar hələ də mütləq əksəriyyət-75,6% təşkil edirdilər. Bu rəqəm əsrin sonuna yaxın (1897-ci il statistikası ilə) 43,1%-ə, 1916-cı ildə isə 24,4%-ə düşmüşdü.

Rusların da Cənubi Qafqaza köçürülməsi haqda Dövlət Şurası 1830-cu ildə ayrıca qərar qəbul etmişdi.

Rusiya quberniyalarından «narazı» rus (malakan) kəndlilərinin Şimali Azərbaycana, onun tərkib hissəsi olan İrəvan quberniyasına köçürülməsi başlandı. Sektantların ilk köçü 1803-cü ildə Zəngəzur mahalının Nəzərçay kəndinə gəldi.

Tambov və Saratov quberniyasından malakanlar Göyçə mahalının kəndlərinə köçürüldülər.

Aborigen xalq xristian idarəçiliyinin zülmü altında inləyirdi. Məhkəmələrdə hakimlər mütləq rus millətinin nümayəndələrindən təyin olunurdu. Hər beş nəfər məhkəmə iclasçısının üçü rus, biri erməni, biri isə müsəlman əhalidən seçilirdi. Təbii ki, şəraitdən bəhrələnərək ermənilər hər cür imtiyazlardan istifadə edirdilər. Qafqazda, xüsusən də İrəvan çevrəsində etnik «təmizləmə» siyasətinin izləri hətta küçələrə, bağlara kimi sirayət etməkdəydi. Birdən-birə İrəvan küçələrinin adları dəyişdirilərək, «Tsarskaya, Tserkovskaya, Ter- Quqasovskaya, Armyanskaya, Xotsents» və s. adlandırılmağa başladı. Hətta İrəvan xanlığından xatirə qalmış bağ adlarını da dəyişməyi unutmadılar...

Çar Rusiyasının Qafqazı işğal etməsindən sonra Qafqazda türk yer adlarının erməni-rus adları ilə əvəzlənməsi sonralar da davam etdirilirdi: Gümrü-Aleksandropol, Gəncə-Yelizavetopol və başqaları bu qəbildəndir.

Ancaq yer adlarının dəyişdirilməsi siyasəti sovetləşmədən sonra Ermənistanda daha böyük vüsət aldı.



Xüsusilə də 1935-ci il yanvarın 3-dən etibarən Ermənistan ərazisində görünməmiş bir tarixi saxtakarlığa, cinayətə əl ataraq bu məmləkətdəki gerçək yer adlarının dəyişdirilməsinin kütləviləşdirilməsinə start verildi. Sovet hakimiyyəti quruldugdan 1935-ci ilə qədər bu ölkədə 190-dan artıq toponim dəyişdirilmişdisə, sonrakı dönəmlərdə (Ermənistanın müstəqillik əldə etdiyi 1991-ci ilədək) bu qəsdlər silsiləsi tarixi yer adlarımızın əsl soyqırımı prosesinə dönüşdü.

Qeyd edək ki, bununla qonşularımız (hələ sovetlər dönəmindən etibarən də) YUNESKO-nun mədəni dəyərlərin qorunması haqqında 1954, 1970 və 1972-ci il konvensiyalarını pozaraq bəşərin mədəni çağırışlarına sanki bütün varlıqlara diş qıcamış məxluqların zooneriltisi ilə cavab vermək xislətinə davam etməkdədir...

Nümunə üçün diqqətə çatdıraq ki, Ermənistanın başqa bölgələrində olduğu kimi Talin rayonu ərazisində də yer, yaşayış məskəni adlarını dəyişdirməkdə təcrübəsi dalana dirəndikcə metodlarında "yeniləşmələrə" əl atan erməni yönətimi bəzi kənd adlarını sonralar "erməni redaktəsi"ndə vermişdir: Haqqa-Akko, Gəlto-Qalto,Tilik-Tlik, Məsdərə-Mastara, Aşna-Aşnak, Əgərək-Aqarak, Dayan-Dian, Zərincə-Zarnca və b.

Ermənistanda türk yaşayış məskəni kimi uzun sürəli tarixə düşmüş rayon adları da bu minvalla dəyişdirilmişdir: Aparan- Abaran, Ani-Agin, Allahverdi-Tumanyan, Axta-Hrazdan, Aşağı Qaranlıq-Martuni, Barana-Noyemberyan, Basarkeçər-Vardenis, Böyük Qarakilsə-Quqark, Vedi-Ararat, Qarakilsə-Sisian, Qəmərli-Artaşat, Qızıl Qoç-Qukasyan, Düzkənd-Axuryan, Ellər-Abovyan, Ərtik-Artik, Əştərək-Aştarak, Zəngibasar-Masis, Karvansaray-İcevan, Keşişkənd-Yeğeqnadzor, Kəvər-Kamo, Gorus-Qoris, Sərdarabad-Hoktemberyan, Soylan-Əzizbəyov-Vayk, Üçkilsə-Eçmiədzin, Hamamlı-Spitak, Çəmbərək-Krasnoselsk,Calaloğlu-Stepanavan, Şəmşəddin-Berd.

Bu məqamda Sərçəbet (el arasında: Sərçəvet) adlı bir kəndin nümunəsində Ermənistan ərazisində bir məntəqə adı dəyişiminin təfərrüatlarına nəzər salmaq istərdik:

Sərçəbet – Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir rayonunda) kənd adı. XIX yüzilliyin sonundan etibarən bu kənd haqda bilgimiz yoxdur. Sərçəbet həm də Cılğaçayın bir qolunun adıdır. Əsli Sarıcabət. Azərbaycan dilində sarıca (torpağın suxurunun sarı rəngə çalmasını bildirir) və türk dillərində bət- "üz", "səth" sözlərindən ibarətdir. *(Akademik Budaq Budaqov, professor Qiyasəddin Qeybullayev)*

Xatırladaq ki, ermənilər bu adı "Sarçapet" formasına salaraq "orfoqrafik əməliyyata uğratmış" – guya erməniləşdirməyə nail olmuşdular. Əslində dilimizə bələd olan hər bir kəs Sarçapet sözünün türk dillərindən alınmış mürəkkəb isim olduğuna şübhə etməz... Eyni bölgədəki Şahnəzər kəndini də "Şaxnazar" adlandıraraq heç olmasa tələffüzündə ermənilik yaratmaq istəyən qonşularımız, sonralar bunun gülünc olduğunu duyunca, 1978-ci ildən başlayaraq, "Metsavan" adlandırmağa başladılar.

**Qeyd:** Təəssüf ki, hörmətli alimlərimiz, o sıradan görkəmli akademik Budaq Budaqov və professor Qiyasəddin Qeybullayev həmin bölgədəki (indi Ermənistanın Taşir rayonundakı) növbəti bir azərbaycanlı kəndinin isə adının mənasını açıqlaya bilməyiblər. Akademik Budaq Budaqov və professor Qiyasəddin Qeybullayev bu məsələyə toxunarkən yazırlar: " İlməzli- Tiflis quberniyasının Borçalı qəzasında (indi Ermənistanın Taşir rayonunda) kənd adı... Mənası məlum deyil", Doğrudur, tarixən bəzi toponimlərin mənasını açıqlamaq müşkülə çevrilir, bəzən isə bu, yüzillərlə və ya həmişəlik mümkün olmur. Ancaq " İlməzli" yer adında bu məsələ çözüləndir: saygılı oxucularımıza ərz olsun ki, biz (bəndeyi-həqiriniz) yer adları haqda özəl araşdırmaların müəllifi olmasaq da, hər kəsə sirli görünən bu ad üzərində qeyri-ixtiyari araşdırma apararaq, (təvazökarlıqdan uzaq səslənsə də) bir yazıçı həssaslığı

ilə bu adın mənasını aça bilmişik: il-yıl söz kökünü qarşılaşdıraraq, ilməz-yılmaz (yenilməz), ilməzli- yenilməzli... Qeyd edək ki, bu açılış, təqdim etdiyim yazıçı və ya filoloqlar, o sıradan, tanınmış yazıçı Abbas Abdulla tərəfindən mübahisəsiz qəbul olundu... Buradan çıxan əsas məntiqi sonuc da ondan ibarətdir ki, istər günümüzdəki yer adlarının, istər qədim etnos (ulus), dövlət və ya tarixi yer adlarının açılışını düzgün vermək üçün öncə qardaş türk dillərindən yararlanmaq lazımdır. Çünki öz türk dillərimizdə çox sadə, tam məntiqli şəkildə açılışı olan bölgəmizə aid bir çox toponim və tarixi adlar vardır. Daha doğrusu, bu toponim və tarixi adların böyük çoxluğu türk dili ilə normal açılışa malik olduğu halda, tarixçilərimiz və filoloqlarımız çox vaxt əcnəbi açarlarla (oxu: sözlərlə) bu xəzinəyə giriş tapdığını zənn etmiş, ancaq illər sonra, bu naşı yanaşma özünü doğrultmamış, hətta acı gülüş doğurmuşdur. Belə örnəklərdən ən barizi kimi, heç uzağa getməyərək, yurdumuzun və dövlətimizin adının-"Azərbaycan" sözünün öncələr rəsmi (akademik) qurumlar tərəfindən izahını göz önünə gətirmək kifayətdir. Bu halal sözümüzün bütün ünsürləri (Az+ər+bay+can (və ya: kan)) də halal olduğu halda, onun izahını haram (yad-yabançı) ünsür birləşmələrinin ümidinə buraxmaq istəyirdilər...

Başqa sözlə, türkün və ya istənilən başqa etnosun özünəqayıdışı öz dilinə (halal dil fonduna) qayıdışdan keçir. Halal yer adlarının və başqa xüsusi isimlərin (özəl adların) bərpası da bu qayıdış yolununun keçidlərindəndir...

Ədəbiyyat:


1. İsrafil Məmmədov. Tariximiz, torpağımız, taleyimiz. Bakı, 2002, 2003.
2. Vandalizm: tarixi adlara qarşı soyqırımı., Bakı, 2006. (AMEA Tarix İnstitutu – ideya və ön sözün müəllifi: *tarix e.d., professor Yaqub Mahmudlu*, tərtib edən: *tarixçi-alim Nazim Mustafa).*
3. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti., Bakı, 1998.
4. Əзиз Əлəкбəрли. Гəдим түрк-огуз јурду "Ермəнистан", Бакы, 1994.


***(Yazı "Mədəniyyət" qəzetinin 05.03.2010. tarixli sayında yayınlanıb.)***



## GÜRCÜSTAN ƏRAZİLƏRİNDƏ YER ADLARININ SOYQIRIMI

İndiki Gürcüstan ərazisində Azərbaycan türklərinin yığcam yaşadığı qədim və ən ünlü tarixi mahallardan biri Borçalı elidir. Gürcü Sovet Ensiklopediyasının da etiraf etdiyi kimi, "Borçalı" sözü ən böyük türk tayfalarından birinin adı olmuşdur. Xatırladaq ki, indiki Gürcüstan türklərinin soy-kökündə dayanan türkdilli tayfalar (hunlar, buntürklər, barsillər, bulqarlar, xəzərlər, oğuzlar, qıpçaqlar, qarapapaqlar) tarixi Borçalı ərazisində hələ miladdan öncə məskunlaşmışlar.

Hər kəsə məlum bir həqiqətdir ki, Borçalı eli tarixən türk-Azərbaycan dövlətlərinin tərkibində olub; 18-ci əsrin əvvəlində də Səfəvi dövlətinin Gəncə bəylərbəyliyinə aid idi. Ancaq Bəylərbəyi Ziyadoğlunun 1736-çı ildə Nadirin Muğanda şah edilməsinə qarşı çıxması səbəbilə Nadir şah (1736-47) Borçalı və Qazax mahallarını Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarlığına peşkəş etdi... Azərbaycanlı başçıların türk ulusunun sonrakı taleyini nəzərə almayan bu hikkəli qərarları nəticəsində yüzillərlə o bölgə xalqı min bir əzablara düçar oldu və məhrumiyyətlərə məruz qaldı...

Daha sonra Borçalı yeni yaradılmış Ermənistan və Gürcüstan dövlətləri arasında paralandı: 11-12 fevral 1921-ci ildə Borçalı mahalının Loru *(o zaman beynəlxalq hüquqa görə, neytral zona statusuna malik olan, 13 noyabr 1920-ci il tarixindən etibarən,Türk Ordusunun nəzarətinə keçməsini önləmək üçün Ermənistanın (əlacsızlıqdan) təklifi ilə Gürcüstana verilən)* bölgəsində yaşayan ermənilər qiyam qaldıraraq, gürcü qoşunlarının bu bölgədən çıxarılmasına nail oldular. Sonucda, RK(b)P MK-nın Qafqaz Bürosunun 6 noyabr 1921-ci il tarixli qərarı ilə sahəsi 2367,44 kv.km. olan bu səfalı və metal ehtiyatlarına malik nahiyə Ermənistana verildi.

"Corcian Tayms" qəzetinin 20-27 oktyabr 2005-ci il sayında yayınlanmış "Gürcüstan tarixi torpağı Lorini necə itirdi?" məqaləsində də vurğulandığı kimi, gürcü müəllifləri tərəfindən, bu məsələ Stalinin rəyi və göstərişi ilə baş tutduğu ifadə olunur.

Göründüyü kimi, tarixi Azərbaycan torpağı olan Borçalıya iddia üzərində bu iki yabançı ölkə (Gürcüstan və Ermənistan) vuruşarkən biz azərbaycanlılar heç yada düşmürdük. Səbəbi də Nadir şahdan üzü bəri bir çox Azərbaycan (türk) hökmdarlarının siyasət meydanında tarixi məsuliyyət tələb edən addımlar atarkən burnundan uzağı görməməsidir...

1929-cu ildə Gürcüstanın tərkibindəki Borçalı qəzası ləğv edilərək üç rayona bölündü: Borçalı (Marneuli), Lüksemburq (Bolnisi), Başkeçid (Dmanisi). Borçalı adı 1949-cu ilədək saxlandıqdan sonra, indiki Marneuli toponimi ilə əvəzləndi. Gürcüstanın müstəqillik dönəmindən isə tarixi Borçalı ərazisinin Gürcüstana aid hissəsində Kvemo-Kartli quberniyası yaradıldı.

Əsası 40-50-ci illərdə qoyulan türk mənşəli yer adlarının gürcüləşdirilməsində əsas məqsəd yerli əhalini uzaq tarixi keçmişi ilə birləşdirən bağları qırmaq, sakinlərə bu bölgələrə gəlmə olduqlarını təlqin etmək və Gürcüstan türklərinin ulusal köklərə malik qədim maddi-mənəvi abidələrini dağıtmaqla onları zəifləmək idi.

Tarixi araşdırmalar göstərir ki, Gürcüstandakı azərbaycanlı (türk) kökənli yer adlarının dəyişdirilməsi prosesi Bolnis (Bolnisi) bölgəsindən başladı: Qoçulu-Çapala, Cəfərli-Samtredo, Mığırlı-Vanati, İmirhəsən-Savaneti, Aşağı Qoşakilsə-Kvemo Arkvani, Muğanlı-Farizi, Kolagir-Surtava, Daşlıqullar-Muxrani, Həsənxocalı-Xidisquri, Əsmələr-Mskneti... kimi süni əvəzləmələr aparıldı. Altı ay ərzində əhalisinin 100%-i türklərdən ibarət olan 35 kəndin adı bu minvalla dəyişdirildi. Bu yaşayış məntəqələri sakinlərinin sayı 1000-10000 nəfər arasında olan böyük kəndlərdir. Gürcüstanın rəsmi dövlət qəzeti olan "Sakartvelos Respublika" 10 iyun 1992-ci il tarixli sayında türklərin tarixinə və mənəviyyatına vurulan bu zərbəni "Tarixi həqiqətin zəfəri"

adlandırırdı. Bolnis(i) rayonunun türk əhalisinin, eləcə də onların respublikada təmsil olunduqları ictimai-siyasi təşkilatların rayon və respublika rəhbərlərinə çoxsaylı müraciətləri, etiraz hərəkətləri sonucu dəyişdirmədi. Gürcüstan türklərinin yaratdığı "Qeyrət" xalq hərəkatının respublikanın dövlət başçısına göndərdiyi teleqram da heç bir nəticə vermədi. "Qeyrət" xalq hərəkatının başqa bir müraciəti isə Azərbaycan Respublikasının o vaxtkı Prezidentinə ünvanlanmışdı: "Kəndlərin adları bizim tariximizdir, özgürlüyümüzdür, namusumuzdur, ləyaqətimizdir. Bu adları itirmək tariximizi, ləyaqətimizi itirmək demək olar. Bu addəyişmə kampaniyası təkcə borçalılara deyil, bütün xalqımıza təhqirdir... Bu qeyd-şərtsiz Ermənistan variantıdır. Orada da soydaşlarımız qovulmazdan əvvəl onların obalarının dədə-baba adları dəyişdirilmişdi...

Kənd məclislərinin addəyişməyə etirazlarını ifadə edən qərarlarına Gürcüstan rəhbərliyi məhəl qoymur. Artıq çayların, dağların da adlarını dəyişdirməyə başlayıblar. Gülməli bir vəziyyət yaranıb. Xalq arasında "Xram" adlandırılan çayı Bolnisidə "Kçiya" adlandırırlar. Marneuli, Dmanisi və Qardabanidə isə çayın əvvəlki adı qalır."

Bütün bunlara rəğmən rəsmi Tiflis iddia edirdi ki, addəyişmə məsələsinə türklər tolerant yanaşır. Gürcü araşdırmaçısı M.Komaxetiya yazır: "E.Şevardnadzenin tərəfdarları hesab edirdilər ki, 35 Azərbaycan kəndinin adının dəyişdirilməsi (1993) əhalini narahat etmədi. Hazırda kənd, yaxud da çay iki adlıdır. Biri rəsmidir (gürcücədir), ikinci azərbaycancadır və yerli əhali gündəlik həyatında öz dilindəki adlardan istifadə edir ki, bu da öz növbəsində müəyyən problemlər yaradır". Müəllif bu vəziyyətin Gürcüstandaxili inteqrasiyaya mənfi təsir göstərdiyini də etiraf edir: "Yerli əhali hesab edir ki, hakimiyyət bu yollla onların tarixi yaddaşını məhv etməyə cəhd göstərir. Bu da azərbaycanlıların inteqrasiyasına neqativ təsir göstərir."

Borçalıların dövlət başçılarına ünvanladığı müraciətlər cavabsız və nəticəsiz qaldı. Addəyişmə kampaniyası və onun yanlış nəticələrinin aradan qaldırılması təkcə milli haqların, vətəndaş hüquqlarının pozulması deyildi, eyni zamanda Gürcüstan və Azərbaycan arasında 1993-cü ilin əvvəllərində dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqaviləyə sayğısızlıq idi.

1992-ci ildə Marneuliyə gələn Gürcüstanın baş naziri T.Siqua bölgədə türk kənd adlarının dəyişdirilməsi ilə məşğul olacağını vəd etmişdi: "Bu məsələyə çox məsuliyyətsiz yanaşdılar. Belə etmək olmaz, bir zərbəylə, məsuliyyətsizcəsinə. Bütün bu məsələlər elmi əsaslarla sübut olunmalıdır. Əgər lazım gələrsə, məsələ parlamentə çıxarılacaq. Mən sizə söz verirəm ki, parlamentin qərarı olmadan heç bir ad dəyişdirilməyəcək." Bu bəyandan sonra, doğrudur, addəyişdirilmə prosesi dayandırıldı, ancaq nə bu məsuliyyətsiz əmrin sərəncamçıları cəzalandırıldı, nə də nəticələr aradan qaldırıldı. O zaman T.Siqua seçki kampaniyası aparırdı və sadəcə olaraq parlamentə düşmək üçün ona borçalıların səsi lazım idi.

İndiki Gürcüstan ərazilərində yığcam yaşayan başqa bir türk topluluğu isə bugünkü leksikonda məshəti türkləri və ya Ahıska türkləri adlandırdığımız Ahıska, Adıgün, Aspinza, Axalgələk bölgələrində məskunlaşmış türklərdir.

Sovet hakimiyyəti yaradılandan sonra Ahıska qəzasında vəzifə başına keçən ermənilər və gürcülər (Ömər Faiq Nemanzadənin anılarında da göstərildiyi kimi) yerli türkləri vəzifə başına buraxmırdılar. Erməni millətinin hakimiyyətdə olan nümayəndələri türklərin savadlı, qabaqcıl təmsilçilərini müxtəlif bəhanələrlə həbsxanalara saldırır, ya da Uzaq Sibirə sürgün etdirirdilər. Türk dünyasının önəmli tarixi şəxsiyyətlərindən sayılan yazıçı və siyasi xadim Ömər Faiq Nemanzadə 1921-ci il mayın 30-da Tiflis İnqilab komitəsinə bu məsələlər barədə geniş məlumat yazmışdı.

Bununla belə, ölkədə anti-türk siyasəti davam etdirilirdi və bunun nəticəsi idi ki, hətta 1924-cü ildən sonra Gürcüstandakı türk məktəbləri də bağlandı. Ahıska



türklərinin övladlarına gürcü dilində oxumağı, vəzifə başına keçmək istəyən nümayəndələrinə isə gürcü soyadları qəbul etməyi təklif edirdilər...

Gürcü millətçiləri bu sakinlərin milli-mənəvi aləmini də rahat buraxmayaraq, aborigen əhalinin toponim dünyasını da topa tutmağa başlamışdı. Artıq ən qədim türk yer adlarını belə ya tamamilə dəyişir, ya da gürcüləşdirirdilər. Bunlardan bəzi nümunələri diqqətinizə təqdim etmək yerinə düşərdi: Siryox –Sirioxi, Qurgəl – Qurgeli, Sür –Sviri, Cunta –Çvinta, Qurutuban –Kurtubani, An –Ani, Sxaltuba – Tekoltibila, Oral –Orali, Minazə –Minadze... (Ahıska rayonu üzrə), Səbuzər – Sabuzara, Beynarə –Benara, Varxan –Varxani, Sakraze –Tsaqradze, Abastuban – Abastumani, Adıgün –Adıqeni, Qorgül – Qorquli, Aral -Arali... (Adıgün rayonu üzrə), Qəmze – Kamza, Aşağı Oşora –Aşoranij, Van –Vani, Qoyundərə – Koiundara, Varxan –Varxani... (Aspinza rayonu üzrə), Azmana –Dzmana, Miraşxana – Miraşxani, Dabana –Dabania, Damğalı –Damkalı, Kaxaşen –Qoqaşeni... (Axalgələk rayonu üzrə), Saramo –Saqamo (Boqdanovka rayonu üzrə).

Yada salaq ki, yuxarıda sadaladığımız bölgələrdəki Ahıska türkləri 202 kənddə məskunlaşmışdılar və onların ümumi sayı 195 min nəfər təşkil edirdi.

1944-cü ilin noyabrında bu xalq öz ata-baba ocaqlarından deportasiya *(sürgün)* edilərək, sovet (rus) əsgərinin tüfəngi altında vaqonlara doldurulub Orta Asiyaya, Ural dağlarına (Qazaxıstan, Qırğısıstan, Özbəkistan çöllərindəki sərt iqlim şəraiti olan ərazilərə) sürüldülər. Orta Asiyaya çatanacan yolda ölənlərin sayı 17 min nəfərə çatırdı. Yolda ikən bu çarəsiz türk toplumu çeçenlərin, qaraçayların və Ermənistan (əzəli Qərbi Azərbaycan) türklərinin də bu cür aqibətlə üzləşdiyindən danışır, bununla da təskinlik tapırdılar.

Təbii ki, 1944-cü ildə İ.Stalinin əmri ilə Ahıska türklərinin elliklə yurd-yuvalarından sürgün olunmasında Sovetlər Birliyi yönətimində hakim rollardan birini oynayan ermənilərin və onların lideri Mikoyanın rolu az olmamışdı.Çünki bu köçlərdə ən maraqlı tərəf, heç şübhəsiz ki, ermənilər idi. İndi o bölgələrdə ermənilərin məskunlaşması da bunun sübutudur.

**Ədəbiyyat:**


1. Ваһид Өмәрли. «Гарајазы. Күрҹүстанда түркләр». Бакы, 2001.
2. Əlipaşa Ənsarov. Ahıska türkləri., Bakı, 1996.
3. Borçalı dünən, bu gün və sabah. Bakı, 2009. (Layihənin rəhbəri: *Kamran Ramazanlı*, məsləhətçi: *Gültəkin Hacıbəyli*, ekspert: *Xaləddin İbrahimli*).


*(Yazı "Mədəniyyət" qəzetinin 07.04.2010. tarixli sayında "Gürcüstanda Azərbaycan-türk toponimləri" başlığı ilə yayınlanıb).*

Ermәni terrorçularının yaxın onilliklәrdә türk diplomatlarına qarşı dünyanın çeşidli ölkәlәrindә törәtdiklәri xain terror aktları tarixi araşdırmaçılara vә siyasәt, media, sivil toplum quruluşları mәnsublarına, habelә mütaliәli hәr bir dünya aydınına bәlli olduğu üçün burada tәfsilatı ilә tәkrara varmaq istәmirik. Ancaq bu haqda bilgisi olmayan oxucularda tәsәvvür yaratmaq üçün o qanlı olaylardan bir neçәsini diqqәtә çatdırmağı vacib sayırıq:

**27 yanvar 1973. Santa Barbara, Kaliforniya ( ABŞ).** 78 yaşlı ermәni mühaciri Qurgen Yanikyan Mәhmәt Baydarı (Los-Ancelesdәki türk baş konsulu) vә Bahadır Dәmiri (Los-Ancelesdәki türk konsulu) "Biltmor" mehmanxanasına qonaq adı ilә çağıraraq qәflәtәn güllәlәyir. Bu ölüm hadisәsi yaşadığımız dönәmdә günümüzәdәk uzanan ermәni terroru zәncirinin ilk halqası idi. Başqa sözlә, Yanikyan çağdaş ermәni terrorunun "atası" sayıla bilәr **(4: s.144).**

**22 oktyabr 1975. Vyana (Avstriya).** Üç nәfәr silahlı buradakı Türkiyә sәfirliyinә soxularaq, türk sәfiri Daniş Tunalicili öldürmüşlәr. Mәsuliyyәti Ermәni Azadlıq Ordusu adlı terrorçu qurum öz üzәrinә götürmüşdür **(4: s.145).**

**24 oktyabr 1975. Paris (Fransa).** Türkiyәnin Fransadakı sәfiri İsmayıl Erez sәfirlik yaxınlığında öz şәxsi avtomobilindә öldürülmüşdür. Hücum zamanı, hәmçinin sәfirin sürücüsü Talip Ener dә hәlak edilmişdir. Mәsuliyyәti öncә "Ermәni xalqının soyqırımının intiqamçıları desant dәstәsi" adlı qrup üzәrinә götürsә dә, daha sonra kimsә "Frans Press" agentliyinә zәng edәrәk bu işin Ermәnistanın azadlığı uğrunda Ermәni Gizli Ordusunun (ASALA) әli ilә törәdildiyini bildirmişdir **(4: s.145-146).**

**28 oktyabr 1975. Beyrut (Livan).** Beyrutdakı Türkiyә sәfirliyi raket bombardmanına mәruz qalmış, sonucda ciddi dağıntılar baş vermişdir. Mәsuliyyәti ASALA öz üzәrinә götürmüşdür **(4: s.146).**

**29 may 1977. İstanbul (Türkiyә).** İstanbul aeroportu Yaşılköydә güclü bomba partladı: sonucda 5 nәfәr hәlak oldu, 42 nәfәr isә yaralandı (o sıradan ABŞ vәtәndaşı). Hәmin gün İstanbul vağzalı Sirkesidә dә oxşar bomba partlayışı nәticәsindә bir nәfәr öldü, 10 nәfәr yaralandı. Yunanıstanın Afina şәhәrindә, "Frans Press" agentliyinin ofisinә daxil olan "28 may adına ermәni tәşkilatı" qrupu üzvünün anonim telefon zәngi mәsuliyyәti bu qrupun öz üzәrinә götürdüyünü bildirmişdir **(4: s.147).**

**9 iyun 1977. Vatikan (İtaliya).** Türkiyәnin Kafedral Baş Kilsәdәki (Papa xidmәt edәn) sәfiri Taha Kәrim iki terrorçu tәrәfindәn öz iqamәtgahı qarşısında öldürülmüşdür. Nümayәndәlәrindәn biri Beyrutdakı informasiya agentliyinә zәng edәrәk, Ermәni xalqının soyqırımının mәhkәmәsi qrupu (CSAQ) mәsuliyyәti öz üzәrinә götürmüşdür **(4: s.147).**

**4 oktyabr 1977. Los-Anceles, Kaliforniya (ABŞ).** Los-Ancelesdәki Kaliforniya universitetinin türk tarixi ilә mәşğul olan professoru (amerikalı yәhudi) Stanford Şounun evinin qabağında bomba partladıldı. Yunayted Press İnterneşnl agentliyinin ofisinә daxil olan anonim telefon zәngi mәsuliyyәti "Ermәni qrupu – 28" -in üzәrinә götürdüyünü çatdırmışdır **(4: s.147)...**

**4 noyabr 1980. Cenevrә (İsveçrә).** Cenevrәdәki İsveçrә mәhkәmәsinin binası partlayış sonucunda ciddi zәdәlәndi. Cenevrә hakimiyyәt orqanlarının düşüncәsinә görә, bomba ASALA-nın 3 oktyabr 1980-ci ildә hәbs olunan iki terrorçusunun (*Syuzi Mahserecyan vә Aleksandr Yenikomeçiyan*-X.İ.) әli ilә yerlәşdirilmişdir. Nәticәdә mәsuliyyәti "3 oktyabr tәşkilatı" öz üzәrinә götürmüşdür **(4: s.155)...**

**2 yanvar 1981. Beyrut (Livan).** ASALA-nın mәtbuata rәsmi mәlumatında bu terrorçu tәşkilat "bütün dünyada İsveçrә diplomatlarına hücum" tәhdidi ilә bәyanat vermişdir. Bu bәyanat İsveçrә hәbsxanasında saxlanılan Syuzi Mahserecyana vә Aleksandr Yenikomeçiyana guya pis münasibәt göstәrilmәsi ilә bağlı idi **(4: s.157)...**

(Bu dönәmdәki qanlı olaylar haqda daha әtraflı bilgi almaq istәyәnlәrin diqqәtinә çatdıraq ki, ABŞ-da ingiliscә yayınlanmış *"Armenian Allegations: Myth and Reality"* (Washington, D.C.,1987) adlı fakt vә sәnәdlәrdәn ibarәt mәlumat kitabında tәkcә 1973-1987-ci illәr aralığında dünyanın müxtәlif qitә, ölkә vә şәhәrlәrindә ermәnilә in türk diplomatlarına vә başqalarına qarşı törәtdiklәri 201 terror aktının siyahısı verilmişdir. O sәbәblә dә, tәkrara varmamaq üçün hәmin siyahıdan yalnız bәzilәrini oxucuların diqqәtinә sunmaqla yetinirik.)

***

*İndi isә ermәnilәrin başqalarına qarşı törәtdiklәri bәzi terror aktlarından az bir qisminә diqqәt yetirәk:*

**İyun 1972. Münhen (Almaniya).** Fәlәstin terrorçuları Münhen Olimpiadasında iştirak edәn İsrail idmançılarını öldürmüşdülәr. İsrailin MOSSAD tәşkilatı onları taparaq mәhv etmişdir. Bәlli olmuşdur ki, onların içәrisindә ikisi ermәni, o sıradan ASALA-nın öndәri A. Akopyan imiş **(4: s.180).**

**Yanvar 1977. Moskva (SSRİ).** Metroda elektrik qatarının vaqonunda vә şәhәrin mәrkәzindәki iki yerdә üç әldәqayırma mina partladılaraq, onlarca günahsız adam öldürüldü, xeyli adam yaralandı.

Terror aktını "Yeni Ermәnistan" partiyasının terrorçuları S. Zatikyan, A. Stepanyan vә E. Bağdasaryan törәtmişlәr **(1: s.11).**

**Noyabrın әvvәli 1977. Moskva (SSRİ).** S. Zatikyan, A. Stepanyan vә E. Bağdasaryan bolşevik devriminin 60 illik yubileyi әrәfәsindә yenidәn **Moskvaya** gәlmişdilәr. Minanın biri "Detskiy Mir" univermağında, ikincisi metronun "Ploşşad Revolyutsii" stansiyasında, üçüncüsü isә başqa bir mühüm yerdә partladılmalı idi.

Xoşbәxtlikdәn faciә baş tutmadı: terrorçular minalarını Kursk vağzalında qoyub qaçdılar **( 2 ).**

**11 dekabr 1988. İrәvan (Ermәnistan).** Ermәnistanda baş verәn 7 dekabr zәlzәlәsindәn zәrәr çәkәnlәrә kömәk göstәrmәk mәqsәdi ilә Azәrbaycandan gedәn "İl-76" uçağı İrәvan yaxınlığında ermәnilәr tәrәfindәn qәzaya uğradıldı. Uçaqdakı 79 nәfәrdәn 78-i hәlak oldu, hәrbçilәrin xәstәxanaya götürdüyü bir nәfәri isә ermәni cәlladlarının әlindәn rus әsgәrlәri zorla qurtardılar (hal-hazırda şikәst durumundadır).

Hadisәnin sadәcә qәza olduğunu iddia edәn ermәnilәr, iki dәfә qәza yerindә olaraq mәsәlәni incәlәmәyә çalışan Azәrbaycan heyәtinә "qara qutu"nu vermәkdәn boyun qaçırdılar **( 3: s.411).**

**20 Noyabr 1991. Dağlıq Qarabag (Azәrbaycan** (Sovet) **Respublikası).** Әksәriyyәti Azәrbayçanın seçmә oğullarından ibarәt, bir neçә nәfәri isә Rusiya vә Qazaxıstandan olan sülhmәramlı dövlәt, hәrb xadimlәri vә jurnalist "Mİ-8" vertolyotu ilә Dağlıq Qarabağa uçurdular. Lakin düşmәn bu vertolyotu vurdu. Ekipajla birlikdә 22 nәfәr sülhsevәr heyәt mәhv oldu. Halbuki bu heyәtin gәlişi vә mәqsәdi haqda әvvәlcәdәn qarşı tәrәfә xәbәr verilmişdi.

Kremlin göstәrişi ilә Sovet Azәrbaycanından alınaraq Moskvaya göndәrilәn "Qara qutu" bu ağır çinayәtin üstünü örtmәk üçün yanmış elan edildi.

Ermәni faşistlәri bundan istifadә edib, üç aydan sonra vertolyotun qәzaya uğradığını bildirdilәr. Lakin nәinki Azәrbaycan vә Rusiyanın Qarabağdakı hәrbçilәri, hәtta fransız jurnalisti dә ermәni yalanını tәkzib etdi **(1: s.137,140).**

*Hal-hazırda Bakıda yaşayan Ağdam qaçqını Әjdәr Zeynalovun dediklәrindәn:*

"Ağdam şəhərinin təcili yardım məntəqəsində həkim işləyirdim. Vertolyotun vurulması haqqında məlumat alan kimi rus əsgərləri ilə birlikdə qəza yerinə yola düşdük. Meyitləri gətirdik.

Bir-iki gün əvvəl Qarakəndin ermənilləri əsgərlərlə birlikdə Qaradağlı kəndinin azərbaycanlılarına hücum etmişdilər. Ölən və yaralananlar olmuşdu.

Hökumət adamları vəziyyəti öyrənmək və sülh yaratmaq məqsədilə "Mİ-8" vertolyotu ilə hadisə yerinə uşmuşdular.

Rasiya *(ratsiya–radio stansiyası –X.İ.)* ilə qəflətən İsmət Qayıbovun (Respublikanın Baş Prokurorunun) səsini eşitdim:

"Biz təhlükədəyik! Bizi aparırlar!" – dedi.

Bu sözləri Ağdam aeroportunda kasetə də yazmışlar, Əlif Hacıyev tutub.

Əjdərin versiyasına görə, faciə vertolyot qayıdanda olmuşdur. Güman ki, danışıqlar arası vertolyotun pilotu (rus) ermənilər tərəfindən satın alınmış, buna görə də o, sərnişinləri ermənilərə girov aparırmış. İsmət Qayıbov yalnız bunu xəbər verə bilmişdi.

Belə bir vəziyyətdə ya pilotu azərbaycanlı sərnişinlər, ya da vertolyotu ermənilər vurmuşlar. Hər iki halda, vertolyot yerə xətasız düşmüşdür. Bunu görən ermənilər yaxınlaşıb sərnişinləri öldürmüş və izi itirmək üçün onlarla birlikdə vertolyota od vurmuşlar" (3: s.416-417).

"Yeni Müsavat" qəzetinin 24 noyabr 1999-cu il tarixli sayında yayınlanmış Cümşüd Nuriyevlə müsahibədə isə bildirilir ki, Dağlıq Qarabağ səmasında vurulan vertolyotda 22 nəfər yox, 15 nəfər olmuşdur: vertolyotun yükü "ağır" olduğu üçün 7 nəfər yerə endirilmişdir. Onlar Məhəmməd Əsədov, Zülfü Hacıyev və Osman Mirzəyev idi. Qalan 4 nəfər isə hərbçi olmuşdur: 2 nəfəri general, 1 nəfəri polkovnik, 1 nəfəri də podpolkovnik.

Generallardan biri qazax imiş. Sonra onların 7-ni də ermənilər aparmışlar. Guya Məhəmməd Əsədov, Zülfü Hacıyev və Osman Mirzəyev hələ də sağdır və erməni əsiridirlər **(3: s.417-418)**...

Əslində isə bu ciddi məsələ müstəqil dövlətimiz tərəfindən indiyədək araşdırılmalı və xalqımız daha düzgün məlumatlandırılmalı idi...

***

**Qeydlər:**

Azərbaycan müəllifi Aygün xanım Həsənoğlunun ingiliscə yayınlanmış "Erməni sindromu" adlı tədqiqatında da müxtəlif dönəmlərdə erməni terroru, Qarabağ əsirlərinin və girovların başına gətirilən müsibətlər, işğal olunmuş Qarabağ ərazilərində Azərbaycan mədəniyyət abidələrinin dağıdılması, başqa sözlə, mədəniyyətimizin işğal bölgəsindəki qətli ilə bağlı dəlillər sunularaq, saxta barışçı donuna bürünmüş erməni vandallarının gerçək siması dünya oxucusuna təqdim edilməklə onların gerçək üzü aşkara çıxarılır **( 7 )**.

***

Türkiyənin "Sabah" qəzetinin bu yaxınlarda yaydığı bilgiyə görə, ermənilər "ASALA" terrorçu təşkilatının fəaliyyətini bərpa etməyi qərara alıblar. Bu məqsədlə də onlar "Amerikanın erməni legionu" (ALA) adlı hərbiləşdirilmiş qurum yaradıblar.

Türkiyə Milli İstiqbarat Təşkilatının məlumatına əsaslanaraq qəzet yazır ki, erməni legionu tipli təşkilat həmçinin Livanda da fəaliyyət göstərir. Məlumatda "Amerikanın erməni legionu" adlanan bu quruma qeyri-rəsmi dəstək verən dövlətlərdən birinin də İsrail olduğu qeyd olunur **( 5 )** ...



***

Tehranda on ildən artıqdır ki yayımlanan "Araks" (**Arazı Araks** yazmaqla onu öz sözləri kimi təqdim etmək istəyirlər –X.İ.) dərgisi də terrora dəstək verən qurumlar sırasındadır. "Araks" dərgisində bizim kitabın bu bölümündə sadalan amansız və müdhiş terror hərəkətləri digər ermənilərə də nümunə kimi təqdim edilir. Təsisçisi Anahid İsayan, redaktoru Movses Keşişyan olan həmin dərgidə yayınlanmış *Dünya ermənilərinə müraciətdə* deyilir:

***"Harada və necə yaşamasından asılı olmayaraq, hər bir erməni "Hay Dad", yəni "Erməni Ədalət Məhkəməsi" qarşısında öz borcunu hökmən yerinə yetirməlidir."* –(6: s.70).**

*(Necə deyərlər, lənətlənmiş Şeytandan Tanrıya sığınıram; qoy Tanrı Yer üzünü erməni millətçilərinin "ədalət"indən qorusun! –X.İ.)*

Həmin müraciətdə terrorsevər erməni məcaraçıları dünya xalqlarına və dünya dövlətlərinə də "ərkyana", ultimativsayağı tələblər irəli sürürlər:

1. **1915-ci il olaylarını bütün dünya rəsmən soyqırım kimi etiraf etsin.**
2. **NATO qüvvələri dərhal Türkiyədən çıxarılsın.**
3. **Bütün erməni torpaqları Ermənistana qaytarılsın.**
4. **Türkiyədə kürd bölücülərinə qarşı hər cür əməliyyatlar dayandırılsın.**
5. **Ətrafda yaşayan bütün qonşu ölkələrin dövlətləri Türkiyəyə qarşı birləşsin.**
6. **Dünyanın bütün ölkələri Arsaxın müdafiəsinə qalxsınlar – (6: s.72-73)...**

***

Başqa sözlə, "Hay Dad" adı ilə terrorçu çağırışlar edən erməni millətçiləri indi isə ABŞ-da "ASALA"nın uzantısını (varisini) yaratmaqla bütün dünyanın təcavüzkarlığa qarşı olan görüşünə və mütərəqqi dünya dəyərlərinin tələblərinə rəğmən böyük və ya güclü dövlətlərə söykənən siyasi qatil platformasında qalacaqlarını və Şər qüvvələrə səcdə edərək haqlının haqqına müştəri çıxacaqlarını bir daha bəyan etmiş olurlar.

**Ədəbiyyat:**


1. Ю. Помпеев. Кровавый омут Карабаха., Баку, 1992.
2. П. Студеникин, полковник, «Фергане-Москва», газета «Советская Россия», 13 июля 1989 г.
3. Ə. M. Quliyev, A.Ə. Quliyev. "Türk oğlu,... 17-ci hücuma hazır ol!", Bakı, 2003.
4. Armenian Allegations: Mith and Reality. Washington, D.C., 1987 – Армянский геноцид-миф и реальность. Баку, 1992.
5. "Sabah" qazetesi *(Türkiyə) – bax:* Hamlet Ərəstunoğlu. Amerikanın erməni legionu yaradılıb. "Yeni Müsavat" qəzeti, Bakı, 20.09.2011.
6. İsrafil Məmmədov. Tariximiz, torpağımız,taleyimiz. Bakı, 2002, 2003.
7. Aygun Hasanoglu. Armenian syndrome. Baku, 2009.

## ERMƏNİLƏRİN "VƏHŞİ" KİMİ TANITMAQ İSTƏDİKLƏRİ TÜRKLƏRİN MƏDƏNİYYƏT TARİXİNƏ DAİR QEYDLƏR

**«Я впервые слушал азербайджанскую речь, меня поразила ее красота; окончания спрягаемых глаголов казались просто роскошными – как цветы в вазе».**

(Çevirməsi: **"İlk dəfə azərbaycan dilində danışığı eşidən zaman, bu dilin gözəlliyi məni heyran etdi; dəyişən fellərin sonluqları mənə sadəcə dəbdəbəli gəlirdi –güldandakı güllər kimi".**)

*(П. С. Массагетов «Заветные травы») – **(10:** s.4).*

***

**"Azərbaycan türkcəsi çox xoşuma gəldi".**

*(Məşhur amerikalı cazmen Stenli Cordan – ( 9 )).*

*Yaxın dövrlərə qədər dünya elmi fikri müəyyən siyasi, dini, etnik dairələrin təsiri altında və bəzən də onların birbaşa sifarişi ilə türkləri (və o sıradan azərbaycanlıları) ən erkən yazılı mədəniyyətə və kimliyə malik olan xalqların sırasında göstərmir, onların bu dəyərlərə sahib olma dönəmini süni şəkildə yaxınlaşdırmağa (cavanlaşdırmağa) çalışır, beləliklə çağdaş sivilizasiyanın yazısının və yazılı mədəniyyətinin yaranmasında və formalaşmasında türklərin rolunu inkar etməyə, əslində gizlətməyə çalışırdı. Məhz bu yanaşma nəticəsində, bizdən çox sonralar yazıya, ədəbiyyata, dövlətçiliyə malik olmuş bəzi xalqlar tarixi məqsədli şəkildə "çəpəki" izah edənlərin xidməti sayəsində ön sıralara çıxarılmış, "qədim"ləşdirilmiş, "dərin"ləşdirilmiş, "ulu"laşdırılmışdır; türk kimliyi isə bu süni fonda kiçildilmiş miqyasda təqdim edilmişdir.*

*Ancaq nə yaxşı ki, bu uzun sürən haqsızlıq, uca Tanrının adil hökmü ilə, dünya alimlərinin yeni elmi kəşfləri sayəsində aradan qaldırıldı; süni örtülmüş qara pərdə altından əsl görkəmi ilə ortaya çıxan ulu və qoca **Türk**ün nəhəng kimliyi saxtakarlar dünyasını və eləcə də həqiqətsevər bəşər alimlərini lərzəyə gətirdi...*

*Türk yazılı kimliyi haqqındakı təsəvvürlərdə baş vermiş dəyişikliklərin və gəlinən önəmli nəticələrin nədən ibarət olduğunu öyrənmək üçün aşağıdakı alimlərin tədqiqatlarına nəzər yetirmək də kifayətdir: Melioranski P.M., Kramer S.N., Xalıq Tarcan, Kazım Mirşan, Elməddin Əlibəyzadə, Baloğlan Şəfizadə, Tariyel (Vəli Nüvədili) Azərtürk...*

İndi isə əsas mətləbə keçərək bu nəticələrin bir qismi ilə sizləri tanış etməyə çalışaq:

"Bütün tarixi faktlar, tapıntılar, arxeoloji qazıntıların nəticələri və s. bu səmtə yön alır: qədim türk əlifbası türklərin öz icadıdır; tarixi də onunla müqayisə edilən əlifbalardan çox-çox qədimlərə gedib çıxır" **(4:** s.251).

***

"Qədim türk əlifbası türk xalqlarının, təbiidir ki, həm də Azərbaycan xalqının öz əcdadlarının yaratdığı ilk əsl milli əlifbasıdır. Və dünyanın bütün əlifbaları bunun davamıdır" **(4:** s.254).



***

N.S. Kramerin "Tarix Şumerdən başlanır" fundamental əsəri bir çox mühüm həqiqətlər üzərinə işıq salır **( 3 )**.

Başqa sözlə, dünya elmi fikrinin gəldiyi sonuc belədir: *Şumerlər çağdaş türk xalqlarının əcdadlarıdır* **(4:** s.255).

**ABŞ-da yaşayan** Azərbaycan kökənli tədqiqatçı, doktor Tariyel (Vəli Nüvədili) Azərtürk də Şumer yazılı abidələrinə münasibətini bildirərək bu qədim incilərin semitdilli xalqlara deyil, Azərbaycan türklərinin babalarına məxsus olduğunu açıqlayır **( 6 )**.

***

**"Orxon- Yenisey" yazıları** qədim Şumer **yazı mədəniyyətinin davamı və inkişaf nəticəsidir;** dünya **yazı mədəniyyətinin nadir incisidir (4:** s.255).

***

Professor Elməddin Əlibəyzadə türk yazılarının tarixi haqda belə deyir: **""Mixi" yazıların inkişafı** "Qlozel" **yazılarına,** "İssıq" **yazısına (və başqa yazılara), ondan da "Orxon-Yenisey"ə gəlib çıxınca 7- 8 min ilə yaxın və bəlkə də daha artıq bir yol keçmişdir" (4:** s.255).

***

*XX yüzilliyin başlanğıc dönəmində* **"Orxon- Yenisey" kitabələrini araşdıran ünlü türkoloq P.M.Melioranski heyrətlə demişdi: "Belə imlaya malik olan bir** əlifba birdən-birə yaradılmır; onda, deməli, yazı *türklərə, nisbətən qədimlərdən artıq məlum idi və onlar bunun üzərində lazımi cidd-cəhdlə məşq etmişdilər... Ümid etmək olar ki, Qərbi Türküstanda, habelə, bəlkə də Yeddisuda yeni bir yazı tapıldı, onda bu* əlifbanın mənşəyi məsələsi daha artıq aydınlaşa bilər" **(2:** s.46-47).

Alimin uzaqgörənliyi illər sonra öz təsdiqini tapdı...

1924-cü ildə Fransanın *Vichy* bölgəsində bir mülk sahibinin öz ərazisində tapdığı, sonralar "Qlozel" muzeyində saxlanılan 3 min parçadan ibarət kitabələrin oxunması müşkülə çevrilmişdi. Miladdan öncə 2500-cü ilə aid edilən bu kitabələrin türk alimləri Xalıq Tarcan və Kazım Mirşan tərəfindən oxunuşu və "öntürkcə" olduğu təsdiqləndi. 1993-cü ildə Sarbon Universitetində keçirilən "Əlifba yazının *başlanğıcı* və Qlozel kitabələri" adlı elmi konfransda kitabədəki hərflərlə bağlı illərlə davam edən dartışmalara son qoyuldu. Kitabələrdəki hərflərin qarşılıqlı olaraq tutuşdurulması, aralarındakı qabarıq bənzərliyin sübutu salondakı müxtəlif millətlərdən olan elm adamlarını inandırdı, verilən izahlar, gətirilən dəlil-sübutlar böyük alqışa səbəb oldu **(4:** s.260).

Bu haqda bilgilər, düşünsə və sonuclar Türkiyənin "Hürriyət" qəzetində "Dünyaya ayna" adı altındakı yazı ilə yayımlandı **(1:** s.15).

Kitabələrdəki *Saxsı lövhə üzərində yazı və "Keyik rəsmi üzərində yazı", habelə* **"Orxon-Yenisey"** və Qlozel əlifbalarının qarşılaşdırılmış sxemi də "Hürriyət" qəzetində oxucuların diqqətinə təqdim edildi **(1:** s.15)...

Yazıların oxunmasında və araşdırılmasında böyük xidmətləri olan türk alimi Kazım Mirşan yazır: "Kitabələrdəki əlifba etrusk əlifbasına çox yaxındır. Etrusk əlifbası daha gec çağlara aid olan latın əlifbasını doğurmuşdur. Etrusk ilə heç bir bağlılığı olmayan Yunan əlifbasının da öntürklərə əsaslandığını bilirik. Finikiya və krill

(*kiril* –X.İ.) əlifbaları da xüsusi istisna təşkil etmir, bunun bir çox nümunələrini verən çoxlu kitabələr mövcuddur" **(4:** s.261)...

Yazı oxundu, öyrənildi, onun **"Orxon- Yenisey" yazısı,** əlifbası ilə yazıldığı, həm də 4500 il bundan öncəyə aidliyi təsdiqləndi; beləliklə, türk **yazısının nəinki** *Qərbi Türküstanda, ondan da çox-çox uzaqlarda aşkarlanması* (1: s.15) *faktı dünya elm tarixinin səhifələrinə müdhiş bir həyəcanla həkk edilmiş oldu...*

Professor Elməddin Əlibəyzadənin də qeyd etdiyi kimi, **"Orxon- Yenisey"** əlifbası ilə yazılmış, Qlozel kitabələri adlandırılan qədim türk kitabəsinin məzmunu, həm də "Avesta"nın leytmotivini-baş xəttini müəyyənləşdirmiş oldu **(4:** s.263).

Elməddin Əlibəyzadə haqlı olaraq bildirir ki, yerin dərin qatlarında, müqəddəs torpağın qoynunda qorunub saxlanılan yeni-yeni əvəzsiz incilərimiz tapılmaqdadır, bu tapıntıların *aşkarlanması davam edir...*

Və o, türk **yazısının,** əlifbasının gəlişmə tarixinin yeni bir dönəminə toxunaraq 1970-ci illərdə üzə çıxarılmış "İssıq" türk **yazısının** ("Gümüş cam üzərində yazı") artıq bu sahədəki bütün dartışmalara son qoyduğunu vurğulayır **(4:** s.263)...

Azərbaycanlı professor Baloğlan Şəfizadə də qədim türk yazıları və yazılı abidələri haqda maraqlı fikir və mülahizələrin müəllifidir:

"...Bu vaxta qədər təqdim olunduğunun əksinə olaraq, artıq sübut olunmuşdur ki, yer üzünün bəlkə də ilk əlifbası və yazı mədəniyyəti Azərbaycan türklərinə məxsus olmuşdur. "Avesta"nın ilk variantı 21 kitabdan ibarət, 21 hərfli bir əlifba ilə tarixən Azərbaycan ərazisinə düşən qədim Pərəsada (müasir Cənubi Azərbaycanın Nəhavənd, Rey, Həmədan, İsfahan hissələri və tarixən Azərbaycan adlanan ərazi "Avesta"da belə adlanmışdır. – B.Ş.), yaxud Pərəsatda yazıya alınmışdır. Yer "Dədə Qorqud" dastanları"nda Parasar adlanmışdır. Əlifba 12 bürc və 9 planetin həndəsi quruluşuna rəğmən yaradıldığından ona "Ulduz əlifba"sı adını sonralar vermişlər. Əslində bu ilk əlifbanın adı "Vattan" adlanır ki, indi işlətdiyimiz vətən sözü də bu kökə bağlıdır. Mənası isə "oddan yaranan" deməkdir. "Vattan" – hərfən: od danı deməkdir. Əlifbanın sonrakı daha mükəmməl variantları Maq əlifbası (1), Maq əlifbası (2) olmuşdur. Bu əlifbalarda hərflər estetik cəhətdən aşılanmış, fəqət ilk təyinatını itirməmişdir. "Avesta" ikinci dəfə məhz bu əlifbalarla qələmə alınmışdır ki, bu əlifbalar bir-birindən o qədər də fərqlənmir. Bu əlifbaların qırmızı türk irqinə məxsusluğu dünya alimləri tərəfindən təsdiq edilmişdir. Daha sonra bu əlifbalar minillər boyu dəyişilmiş, finikiya, aramey, orhon, yenisey variantlarına çevrilmişdir. Qeyd edək ki, adını çəkdiyimiz əlifbaların tarixi də bu vaxta qədər təqdim edildiyindən fərqli olaraq, e.ə. ən azı 2-ci minilliyə təsadüf edir. Daha sonra Avesta və Alban əlifbaları yaradılmışdır ki, bunların da yaradıcıları Azərbaycan türklərinin ulu babaları olmuşdur. Özü də bu əlifbalar yer üzündəki ən kamil əlifbalardır. "Avesta" əlifbası yeganə əlifbadır ki, orada uzun və qısa saitlər üçün ayrıca işarələr ayrılmışdır. Bununla da ənənəvi olaraq uzun sait tələffüzünün semit dillərinə məxsusluğu məsələsi gündəlikdən çıxarılmışdır. Vokalizmin və ahəng qanununun aparıcı olduğu bir dildə uzun saitlərin olmaması ağla sığmır. Məlumdur ki, sonralar əruz vəznində yazılan şeirlər muğam ahəngində oxunmaq üçün yazılırmış. Və o cümlədən "Quran" da "səc"də yazılmaqla muğam ahəngində oxunmaq üçün nəzərdə tutulmuşdur. Bəs bu muğam üstündə nəğmələr, yaxud müqəddəs mətnlər oxumaq ənənəsinin başında duran maqlar və onların maq nəğmələri nə üçün unudulmuşdur? Məlumdur ki, Ü. Hacıbəyov dünyada ilk dəfə musiqinin "bəlkə də türklərə məxsusluğunu" qeyd etmişdir. "Bəlkə"ni biz o dövrün siyasi havası ilə əlaqələndirməliyik. Həqiqət isə həqiqət olaraq qalır. Maqlarla bağlı ərazimizdə olan yer-yurd adları, muğamlarımızın adları, arxeoloji abidələr, qalalar, qədim məskənlər və nəhayət ailə-məişət ayinləri dediklərimizi təsdiq edir. Yazı mədəniyyəti təkcə əlifba ilə bitmir. Bu əlifbalardan olan "Avesta" əlifbası ilə yazılan mətnlərə müraciət edək: bu əlifba sasani imperiyası



dövründə "Avesta"nın sonuncu redaksiyası qələmə alınarkən o biri ulduz və maq əlifbalarına söykənilərək yaradılmışdır. Ərəb, fars, aramey əlifbalarının bu mənşəyə bağlılığını – yəni ki, maq əlifbalarından yarandığını elm çoxdan etiraf etmişdir.

Ümumiyyətlə elmin maqik əlifbalar adlandırdığı əlifbalar maqlara məxsus olmuşdur. Hətta dünya elmindəki "maqiya" istilahının da maqlarla bağlı olduğunu ən adi ensiklopedik lüğətlər belə etiraf edirlər. A.Kamyu Maqiyanı "spesifik sivilizasiya" adlandırmış və "Mitra kultunun" timsalında ona qayıtmaq istəmişdir. Pifaqorçular, platonçular, yeni platonçular da Maqiyanı dediyimiz anlamda başa düşüblər. Bizim eranın 3-cü əsrindən etibarən – yəni erkən orta əsrlərdən başlayaraq bu anlamı öz ilkin kontekstindən ayırmağa başlamışlar ki, bu deformasiya indi də davam edir...

Ulduz və maq əlifbaları dünyanın ən qədim hesab olunan yazılarından (şumer, misir) daha qədim və daha mükəmməldir...

Göründüyü kimi yer üzündə yazı və əlifba Kür-Araz mədəniyyəti zəminində yaradılmış maq sivilizasiyası ilə, maq mədəniyyəti ilə, maq yazısı ilə bağlı olub yer üzünə ilk insanın gəlişi ilə əlaqədardır. "Quran"da da buna işarələr vardır" **(5:** s.5-7)...

"...Nyuberq "Qatlar"da şamanizmin nişanələrini görüb. Hecada yazıldığı qəbul olunub. "Qat" sözü türkcədir. Ancaq müəlliflər Zərdüştün Kseriksin hakimiyyətindən altı il əvvəl yaşadığını yazırlar. Bu isə 8-9 min il bundan əvvələ gedib çıxır... Zərdüştün Azərbaycan türkü – Urmiyalı olması isə aksiomadır. Nizami Gəncəvi bunu təsdiq edib.

"Qatlar"ın məzmunu da "erkən əkinçilik və maldarlıq dövrü" adlanan və e.ə. 11-9 min il bundan əvvələ təsadüf edən hadisələri təsdiq edirsə, yunan və roma müəllifləri də maqların və Zərdüştün Troya müharibəsindən və Platondan 5-7 min il əvvəl yaşadıqlarını deyirlərsə-daha nə lazımdır?..." **(5:** s.22-23) – deyə müəllif Zərdüştün və "Avesta"nın süni və həm də məqsədli şəkildə gəncləşdirilməsinə etiraz edir.

B.Şəfizadə özü də astroloji hesablamalar apararaq, dünya arxeologiyası və linqvistikasının son nailiyyətlərinə dayanaraq, Zərdüştün 11-9 min il bundan əvvəl yaşadığı qənaətinə gəlir **(5:** s.23).

"A.A.Toxe-Qode "Avesta"nın Homerin "İliada" və "Odisseya"sına təsirindən danışıb. D.Laerti isə Zərdüştün Troya müharibəsindən beş min il əvvəl yaşadığını yazır: əgər Troyanın süqutu b.e.ə. 1184-cü ildə olubsa, Zərdüşt b.e.ə. 7-ci minillikdə yaşamış olur. Yenə də bizim irəli sürdüyümüz hipotez doğrulmuş olur..." –deyə müəllif bir neçə yöndən yanaşma ilə Azərbaycanın və bəşərin fəxri ulu Zərdüştün yaşam tarixinə aydınlıq gətirərək, bu tarixi (bununla da xalqımızın yazı və mədəniyyət tarixini) süni olaraq cavanlaşdıran "elmi" tendensiyaların doğru olmadığını sübut edir **(5:** s.23-24).

Azərbaycanlı professor Elməddin Əlibəyzadə də Zərdüştün yaşam və "Avesta"nın yaradılma tarixləri haqda professor B.Şəfizadə ilə uyğun mövqeni bölüşür: "Yunanlar Zərdüşt və onun dininin çox qədim tarixə malik olduğunu Zərdüşt etiqadlı Kiçik Asiya xalqlarından öyrənmişlər. İngilis alimi Meri Boysun tədqiqatına görə, "Antik müəlliflərin məlumatları güman etməyə imkan verir ki, farslar Kiçik Asiyada ilk dəfə yunanlarla toqquşan vaxtda artıq Zərdüşt etiqadlı idilər, təbii ki, onu fars peyğəmbəri və "ulu maq" saymışlar. Onlar bilmişlər ki, o çox qədim dövrlərdə yaşamışdır. Bəli, smirnli Germodor və Germipp Zərdüştün yaşadığı dövrü Troya müharibələrindən beş min il əvvələ aid edirlər. Lidiyalı Ksanf Zərdüştün Kserksin Yunanıstana basqınından altı min il əvvəl yaşadığını qeyd edir. Buradan belə anlaşılır ki, farslar yunanlara söyləmişlər ki, onların peyğəmbəri uzaq keçmişdə yaşamış; yunan alimləri də artıq özləri hesablayıb, bu söhbətləri düzəltmişlər" **(8:** s.62; **7:** s.5)...

Biz Meri Boysun yunan alimlərinə istinadən söylədiyi fikrə daha artıq inanırıq. "Avesta"nın məzmunu, dini-mifoloji əsasları, habelə orada xatırlanan və Azərbaycan

torpağında mövcud olub, sonralar unudulan, dəyişilib yeni şəklə düşən məşhur dağ, dəniz, çay adları çox-çox qədimlərdən xəbər verir; "Avesta"da, bir qayda olaraq, **Xukarya** (dağ), **Daitya** (çay), **Vorukaş** (dəniz, göl) adları çəkilir. Kitabdakı hadisələr, tanrı ilə görüşlər, qurbanvermələr, vəsf himnləri bu yerlərdə (habelə Savalan dağının zirvə və ətəklərində, indiki Muğan-Mil düzənliklərində) baş verir. Azərbaycan torpağının ürəyi sayılan bu yerlərin coğrafi şöhrətini "Avesta" bütün dünyaya yaymış, bu günə gətirib çıxarmışdır. M.ö. minillikdə artıq bu sıra dağlar, çay və dəniz **Qafqaz, Araz, Kaspi** adlanırdı; "Avesta" m.ö. son minilliyin məhsulu olsaydı, orada məhz bu adlar xatırlanardı. Deməli, yunan alimlərinin "Avesta"nın yaşını hesablamaları daha ağlabatandır" **(7: s.5-6)...**

**Ədəbiyyat:**


1. "Hürriyet" qazetesi, İstanbul, 1 Nisan 1993.
2. Мелиоранский П.М. – Об орхонских и енисейских надгробных памятниках с надписьями, «ЖМНП», т. ССС XVII, Спб., 1898.
3. Крамер С.Н. – История начинается в Шумере., «Наука», Москва,1965.
4. Elməddin Əlibəyzadə. Azərbaycan dilinin tarixi, I c., Bakı, 2007.
5. Baloğlan Şəfizadə. Azərbaycan ədəbiyyatı tarixi., Bakı, 2003.
6. Tariyel (Vəli Nüvədili) Azərtürk. Əcdad., Sietl (ABŞ),1996; Tariyel Azərtürk. Muğam "Şumer" türkünün milli sərvətidir., Sietl (ABŞ), 2001...
7. Ana kitabələr (*tərtib edəni Elməddin Əlibəyzadə*)., Bakı, 1996.
8. Мэри Бойс. Зороастрийцы. Верования и обычаи., Москва,1987.
9. "Yeni Müsavat" qəzeti, Bakı, 09.08.2009.
10. **Русско-азербайджанский разговорник**. – Москва, изд. «Астрель», 2005.


(Qeyd: *yazı Bakıda nəşr olunan "Mədəniyyət" qəzetinin 24.07.2009 və "Hürriyyət" qəzetinin 13.07.2009 tarixli saylarında qısa ixtisarla yayınlanmışdır.*)

## TÜRK YAZILI ABİDƏLƏRİ HAQDA MÜBAHİSƏLƏRƏ DAİR

**Homer:** *"Tarix türklərdən çox şey öyrəndi".*
**Jorjino:** *"Xaç türklərin boynunda olsaydı, o, dünyanın sahibi olardı".*

***"Türklərin mədəniyyət tarixinə baxış"** adlı araşdırmamız dərc olunandan sonra yazıçı Əlisa Nicat "Hürriyyət" qəzetinin 20-23 iyul 2009-cu il tarixli sayında çıxış edərək, istər şumerlərlə bağlı alimlərin təqdim etdiyimiz qənaətləri haqda, istərsə də göstərdiyimiz iqtibas və qaynaqların legitimliyi (etibarlılığı) barədə şübhə toxumu səpməyə çalışmışdır. O səbəbdən də mövzu ilə bağlı oxucularımıza həm əlavə tarixi bilgilər verməyi və həm də qaynaqların rəsmiliyini diqqətə çatdırmağı zəruri hesab edirik.*

Opponentimiz bizi "təkzib" etməyə cəhd edərkən ilk öncə mənim professor B.Şəfizadədən gətirdiyim ««Qatlar»ın məzmunu da "erkən əkinçilik və maldarlıq dövrü" adlanan və e.ə. 11-9 min il bundan əvvələ təsadüf edən hadisələri təsdiq edirsə, yunan və roma müəllifləri də maqların və Zərdüştün Troya müharibəsindən və Platondan 5-7 min il əvvəl yaşadıqlarını deyirlərsə – daha nə lazımdır?...» sitatında göstərilən tarixləri şübhə altına almağa çalışır:



Bizim prof. B.Şəfizadədən iqtibas etdiyimiz "Qatlar"ın məzmunu ilə bağlı bu fikrin səhihliyinə inanmaq istəməyənlərə qaynağı və onun statusunu açıqlamağa məcburuq: [*Baloğlan Şəfizadə. Azərbaycan ədəbiyyatı tarixi* (Ən qədim dövrlər)., Bakı, 2003, səh.23.; Rəyçilər: filologiya e.d., prof. A.Rüstəmova və filologiya e.d., prof. N.Araslı; xüsusi red.: AR Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitunun "Lüğət və Terminologiya" şöbəsinin müdiri, filologiya e. d. İ.Məmmədov. **Qeyd:** *kitab AR Təhsil Nazirliyi tərəfindən nəşr olunmuşdur!*]

Opponentimiz növbəti bir "təkzib" məktubunda, prof. B.Şəfizadədən iqtibas gətirdiyim yuxarıdakı cümlədəki "Zərdüştün Platondan 5-7 min əvvəl yaşadığı" haqda fikrə irad bildirərək yazır: **"...Şəfizadə olanda nə olar, bu səhv fikirdir. Ona görə onu təkrar etməyə dəyməz. Bütün ensiklopediyalara görə, mənbələr Zərdüştün eradan qabaq VII-VI əsrlərdə Savalan ətəklərində doğulub-yaşadığını və sonra da Baktriyaya köçüb getdiyini yazır."**

Əvvəla, nəzərə almaq lazımdır ki, prof. B.Şəfizadə bu mülahizəni bir fərziyyə kimi yazmayıb. Məqaləmdə ondan gətirmiş olduğum iqtibasa diqqət yetirdikdə bu aydın olur: "...yunan və roma müəllifləri də maqların və Zərdüştün Troya müharibəsindən və Platondan 5-7 min il əvvəl yaşadıqlarını deyirlərsə-daha nə lazımdır?...

A.A.Toxe-Qode "Avesta"nın Homerin "İliada" və "Odisseya"sına təsirindən danışıb. D.Laerti isə Zərdüştün Troya müharibəsindən beş min il əvvəl yaşadığını yazır: əgər Troyanın süqutu b.e.ə. 1184-cü ildə olubsa, Zərdüşt b.e.ə. 7-ci minillikdə yaşamış olur. Yenə də bizim irəli sürdüyümüz hipotez doğrulmuş olur..."

B.Şəfizadəyə məxsus bu sitatdan göründüyü kimi, o, yunan və roma müəlliflərinə əsaslanır, A.A.Toxe-Qodeyə, D.Laertiyə və başqalarına istinad edir. Homerin yaşam tarixi e.ə. 12-7 yüzilliklərdə, Troyanın süqutu isə b.e.ə. 1184-cü ildə baş vermişdisə, ensiklopediyaların Zərdüştün eradan qabaq VII-VI əsrlərdə doğulub-yaşadığını yazması nə dərəcədə məntiqidir?! Və opponentimiz nədən həmin ensiklopediyaların Zərdüştün yaşam tarixi haqqında B.Şəfizadənin versiyası ilə uzlaşan bir versiyanı da təqdim etdiyinə toxunmur?! – ASE-də bu barədə deyilir: **"Yunan və Roma müəlliflərinin çoxu** (diqqət edin: bəziləri də deyil, *çoxu!* **–X.İ) hesab edir ki, Zərdüşt e.ə. altı min il, bəlkə də daha əvvəl yaşamışdır" (ASE, IV c., Bakı, 1980**, s.323-324). Doğrudur, daha sonra, "bu da yəqin ki, zərdüşti kosmik xronologiyasına – maqların işləyib hazırladıqları dünya mərhələləri təliminə əsaslanan anlaşılmazlığın məhsuludur... antik mənbələrdən yalnız belə bir nəticə çıxarmaq olar ki, peyğəmbər çox qədimlərdə yaşamışdır," –deyə o mülahizə şübhə altına alınaraq, əsas versiya kimi e.ə.1000-600 illər götürülür (*ancaq bu "yəqin ki" heç nə ilə əsaslandırılmır! Əsl fərziyə elə bu "yəqin ki..."nin özüdür!* –X.İ.) – **(ASE, IV c., B., 1980, s. 324).**

Ancaq həmin ensiklopediyalar B.Şəfizadənin və onun həmfikirlərinin mülahizələrindən doğan suallara aydınlıq gətirə bilmir (*Bu yaxınlaradək bir çox ensiklopediyaların millətlərin, mədəniyyətlərin tarixinə dair mübahisəli məsələləri azad şəkildə, tarixi gerçəklərə söykənərək qələmə alan tədqiqatçıların düşüncə, mülahizə və konsepsiyalarını əks etdirmədiyi heç kəsə sirr deyil. Bəzi məmləkətlərdə bu meyllər hələ də davam edir* –X.İ.). Necə ola bilər ki, Homer ona təsir edən Zərdüştdən əvvəl yaşasın?! Necə ola bilər ki, Troyanın süqutundan (b.e.ə. 1184-cü il) 5-6 əsr sonra doğulan Zərdüştün yaşam tarixini əcnəbi müəllif D.Laerti (heç bir özəl və ya etnik marağı olmaya-olmaya) birdən-birə Troya müharibəsindən beş min il əvvələ atsın?! **Bundan başqa, əksər qədim Yunan və Roma müəllifləri o qədərmi "kəmsavad" və "diletant" idilər ki, Troyanın süqutundan 5-6 əsr sonrakı hadisələrin mənzərəsi ilə Troya müharibəsindən beş min il əvvələ aid olayların cizgilərini səhv salsınlar?!..**

"Alimlərin əksəriyyəti "Avesta"nın ilkin variantının yaranmasını və zərdüştiliyin tarixini Midiya (*e.ə. VII əsrin sonu – e.ə. VI əsrin 1-ci yarısı* –X.İ.) və Əhəməni (*e.ə. VI əsrin ortaları – e.ə. 330-cü il* –X.İ.) imperiyalarından çox-çox qədimlərə aparırlar.

Məsələn, "Qatlar"ın yaranma tarixi b.e.ə. III minilliyə aid edilir. "Qatlar"ın mətni isə bundan xeyli qədimlərdə yazıldığını təsdiq edir. Əgər belədirsə, ola bilməzdi ki, böyük bir ədəbi abidənin müxtəlif hissələri müxtəlif zamanlarda yaranmış olsun. İranda indi də qalan "Zərdüşt kəbəsi"nin də əhəmənilərdən əvvəl tikildiyini qeyd edirlər (*V.Q.Lukonin*).

V.İ.Abayev (*ASE-nın"Zərdüşt" və "Zərdüştilik" məqaləsilə bağlı istinad etdiyi müəlliflərdən biri; digər bir müəllif İqrar Əliyevdir, qalanları isə Avropa və rus müəllifləridir* – **X.İ.**) bəzən mövcud fikirlərin əksinə olaraq, "Avesta"nın ən qədim olan hissələrinin belə e.ə. I minilliyin birinci yarısından qədimdə yaranmadığını qeyd edir ki, bu zaman tarix böyük imperiyalar dövrünü çoxdan yaşayırdı. Bu da Qatlar"ın təhrif olunmuş məzmunu ilə belə qətiyyən uyuşmur. Halbuki Abayev özü bu fikirdədir ki, **"Qatlar"ın məzmununda şəhər mədəniyyətinə işarə belə yoxdur".** (Bax: *Baloğlan Şəfizadə. Azərbaycan ədəbiyyatı tarixi* (Ən qədim dövrlər)., B., 2003, s.19-20).

Göründüyü kimi, V.İ.Abayev, bununla da, zərdüştilik tarixi ilə bağlı vermiş olduğu hökmü özü inkar edir...

Azərbaycanlı araşdırmaçı İ.Sadıq da türk yazılarının "cavanlaşdırılması" meyllərinə qarşı etiraz edərək yazır: "Türkün qədimliyi deyəndə, onun mədəniyyəti haqqında düşünəndə alimlərin xəyalları çox zaman Orxon-Yenisey yazılarında ilişib qalır... Ancaq həmin yazıların da tarixi hələ tam dürüstlüyü ilə üzə çıxarılmamışdır. Onların hamısı yanlış olaraq V-VIII əsrlərə aid edilmişdir. Halbuki Saymalı-Daş abidələri arasında e.ə. III minilliyə aid yazılar var. Tyan-Şan dağlarının Saymalı-Daş dərəsində tapılmış bu abidələrdəki rəsmlərin və yazıların bir qismi saklara (e.ə. I minilliyə), bir qismi e.ə. üçüncü, hətta dördüncü minilliyə aiddir". (Новгородова Э. Путь на гору солнца. «Вокруг света». 1988, №11, с. 17 ; Шер Я.А. К интерпретации сюжетов некоторых петроглифов Саймалы-Таша. КВ. Ленинград, 1978, с.164-165; İslam Sadıq. Şumerdə izim var mənim., Bakı, 2008, s. 4).

Bütün bu deyilənlərdən belə nəticə hasil olur ki, mübahisə doğurmayan məsələləri çıxmaq şərtilə dünyanın tarixi yenidən yazılmalıdır *(yeri gəlmişkən, bu təkliflə prof. E. Əlibəyzadə rəsmən çıxış etmişdir)!*

***

Opponentimiz "təkzibnamə"sinin başqa bir yerində *"türklük"* anlayışını da dolaşdıraraq yazır: **"...Şumerlər türk olmayıblar, eləcə də, necə ki, sözün əsl mənasında biz və osmanlılar və ya başqaları türk deyilik və deyillər. Türklər Orxon-Yenisey, yəni Göy türklərdir və onlar irqən Monqoloid olublar. Biz və osmanlılar isə Yevropeidik, ona görə türk adlana bilmərik (? –X.İ.). Türkdilli, daha doğrusu, türk dilləri ailəsinə daxil olanlarıq, necə ki, şumerlər, osmanlılar, özbəklər, altaylılar və s.**

**Biz irqcə şumerlərin varisləri, qohumları da ola bilmərik. Necə ki, Orxon-Yenisey türkləri şumerlərin varisi və ya şumerlər onların əcdadı deyillər. Amma əgər "türk" adı Ural-Altay dilləri qrupuna verilən şərti ad kimi götürülsə, onda türk adlana bilərik, eləcə də şumerlər. Yalnız şərti və nadir hallarda. Çünki hər xalqın öz adı var, eləcə də elə şumerlərin də"...**

Əvvəla, "Türklər Orxon-Yenisey, yəni Göy türklərdir və onlar irqən Monqoloid olublar," –fikri yanlışdır. Çünki Orxon-Yenisey abidələrinin qədim kurıqan, qırğız, oğuz, Şərqi Türk, Qərbi Türk, uyğur xaqanlarına (*Monqolustan ərazisində hökmranlıq edən* – X.İ.), uyğur dövlətinə (*Şərqi Türküstan*), xəzərlərə, peçeneqlərə məxsus olduğu bildirilir. İndiki anlamda Şimali Monqolustan ərazisinə düşən (Orxon) Türk xaqanlığı dönəmində (Orxonda və başqa bitişik bölgələrdə: Yenisey, Lena-Baykal, Altay, Şərqi Türküstan, Orta Asiya və hətta Şərqi Avropada); ondan öncəki və sonrakı Türk dövlətləri zamanında türklərin yaratdığı abidələrdən bəhs olunur! Ərazidən deyil! (Bir də ki ərazi



məsələsinə qalsa, o dönəmlərdə həmin bölgələrin də türk ərazisi olduğunu inkar edən dəlillər ortada yoxdur.) Elə isə, indiki Çin dövlətinin quzeyində yaşayan uyğurlar çinlilər (yəni *"xan"*lar nəzərdə tutulur) kimi monqoloidmi olmalıdırlar? – Xeyr, uyğurlar xalis avropoiddirlər (*monqol tayfalarının bir qismi türk dilini qəbul edərək, türklərə qaynayıb-qarışarsa və hətta zaman-zaman türkləşərsə, bu ayrı məsələdir; belə xüsuslar bizim türklüyümüzü əlimizdən ala bilməz, əksinə onu daha möhtəşəm, daha güclü və daha şərəfli bir etnos kimi təqdim etmiş olur* –X.İ.)...

[Yeri gəlmişkən, onu da xatırladaq ki, XIX əsrin sonundan etibarən türk yazılı abidələri kimi təsdiqlənmiş "Orxon-Yenisey abidələri (öncəki ikiyüzillik ərzində -X.İ.) səhv olaraq qədim yunanlara, qotlara, keltlərə, skiflərə, slavyanlara aid edilmişdi" – **(ASE, VII c., B., 1983, s.383; ASE, IX c., B., 1986, s.429)]...**

**Turan etno-linqvistik dillər qrupu**ndan söz etdikdə isə bura türk, monqol, hunqar və fin dilləri daxildir (*sonralar bu, opponentimizin dediyi Ural-Altay dilləri qrupu adlandırıldı, ancaq özü də bildiyi kimi, bu adlandırma şərtidir, çünki həmin qrupa daxil edilən bəzi dillər (saam, Pribaltika-fin dilləri) iltisaqi deyil, flektiv ünsürlü dillərdir*–X.İ.) – **(ASE, I c., B., 1976, s.276-277; ASE, IX c., B., 1986, s.458; Tariyel Azərtürk. Mixi yazıların mənşəyi, kimindir onlar?, Sietl (ABŞ), 2002, s.14).** Deməli Ural-Altay dilləri qrupuna verilən şərti ad "Turan"dır, "türk" deyil. Yəni "türk" "Turan" dilləri qrupuna aid olunmuş ən birinci, dominant dilin adıdır, hərçənd "Turan" sözü özü də "türk" sözündən törəyib, ancaq o türklərin yaşadığı arealı (əraziləri–yerləri) ifadə edir. Bizim üstünlüyümüzlə formalaşmış dil qrupu anlayışı da türklüyümüzü əlimizdən almır, əksinə... Ona görə opponentimizin bu haqdakı şərti mülahizəsi də yanlışdır: başqa sözlə, biz qeyd-şərtsiz türkük! ( Ancaq qeyri-peşəkar yanaşmaya, subyektiv eqoizmə gəldikdə isə, bu, hər kəsin şəxsi işidir: **kim istəyir özünü monqol kimi təqdim edə və ya özünü monqol kimi apara bilər!)**

***

Şumer mətnləri ilə türklüyün bağlılıq dərəcəsi haqda müəyyən təsəvvür əldə etmək üçünsə, bu yöndə uzun illər araşdırmalar aparan T. V. Nüvədilinin tədqiqatlarının bəzi ümumi cizgilərinə nəzər salaq: "...O, Amerikada ingilis dilində nəşr etdirdiyi **"The Turkic World –Türk Dünyası"** elmi jurnalında çap elədiyi tədqiqat nəticələrində Şumer dilindəki sözlər, adlar, ifadələrlə Azərbaycan-Türk dili söz və ifadələrini 5 yöndə izləyir, araşdırır: *1) bəzi ümumi mülahizələr, 2) tanrıların adları, 3) Şumeriya və Arratada yer adları, 4) Şumer-müasir Turk sözlüyü və nəhayət, 5) Gil Yazılardan oxunub artıq tərcümə edilmiş Şumer mətnlərinə bilavasitə bir daha nüfuz...*

Qeyd edək ki, əfsus, şumer mətnlərini oxuyan, tədqiq edən ilk tədqiqatçılar arasında türk və ya türkdilli alim olmayıb. Görünür bu səbəbdən də gil lövhələrdən oxunan sözlər əcnəbilər tərəfindən anlaşılmadığından parçalanıb, sözün hecası və ya səsi kökdən ayrılıb, tanınmaz hala düşüb. Belə yarıtmaz "ənənə" də bu şəkildə davam edib, gəlib. Nəzərə alaq ki, mətnlərdə "o" səsi yoxdur, yerinə "a", "u" işlənib, "ə" səsi yerinə "e", "a"; "ü" səsi əvəzinə "u"; "g" səsi yerinə "k", "q" (həm "qe", həm də "kü" səsi verən), "ğ" yerinə də yenə həmin səslər, "ö" əvəzində "o" işlənib; "ş" "s" ilə, "z" ilə, "c" ilə qarışdırılıb; "p" "b" "d" "t" səsləri dolaşıq salınıb. Çətinlik də elə buradan törənib. Bir sözlə, Avropa dillərinin çoxuna yad olan 8 səsimiz (ə, ö, ü, y, c, ğ, g, h) batırılıb...

Bütün bu çətinlikləri Tariyel Vəli məharətlə aradan qaldırıb, əvvəlcə mətnin sözlərini müvafiq "Azərbaycan qəlibinə" salıb, sonra bunların doğrudan da bizim sözlər olduğunu, Azərbaycan, müasir və Qədim Turk, Orxon-Yenisey lüğət fondlarında onların varlıqlarını müəyyən edəndən sonra, açılışlarına çalışıb, mənalarını tapıb. Və o sözlərin hamısını da dünya şumeroloqlarına isbat üçün ingiliscəyə çevirərək hər qəzələdən (*bu məqamda söz Tariyel Vəli Nüvədilinin 6500 il öncəyə aid etdiyi Enlil İsmə*

*Doğan adlı qədim Şumer-Azərbaycan şairinin əski qəzəl formasında yazmış olduğu şeirlərdən gedir* -X.İ.) sonra "Şumercə-Azəricə-İngiliscə" lüğətində verib" *(Елмəддин Əлибəјзадə. «Kahкəшанлы улу кечмишимизə ачылан гапы»-bax: Тарујел Вəли Нуведилu. Əчдəд.; Сиетл (АБШ), 1997, с.17-18)...*

***

***"Türklərin mədəniyyət tarixinə baxış"*** adlı araşdırmamızda toxunduğumuz başqa bir məqama da etiraz edərək, "Dünyada heç kim hələ şumer yazılı abidələrinin semitdilli xalqlara aid olduğunu dilə gətirməyib" -deyə opponentimiz diletantcasına növbəti bir "hücum"unda doktor T. V. Nüvədilini hədəfə alır.

Oxucularda şübhə yeri qalmasın deyə, doktor T.V.Nüvədilinin bu məqamı hansı qaynaqlardan və müəlliflərdən əxz etdiyini diqqətə çatdırıq:

""Böyük Britaniya, Fransa və Almaniya arxeoloq və linqvistləri (*dilçiləri* –X.İ.) ən ilkin Mesopotamiya yazı sistemini XIX əsrin birinci yarısında aşkar edib deşifrəyə (*şifrə çözümünə* –X.İ.) vardıqdan sonra bu qərara gəldilər ki, bu əski dilin nə Hind-Avropa, nə də sami mənşəli dillər qrupuna aidiyyəti yoxdur. Mixi yazıların dili aqlyutinativ (*iltisaqi* –X.İ.) olub bu tip dillər qrupuna böyük oxşarlıq nümayiş etdirir. Aqqlyütinativ dillərə Turan etno-linqvistik dillər qrupu aiddir. Məlumdur ki, sonradan Ural-Altay dillər qrupu adlandırılan bu qrup dillərə Türk, Monqol, Hunqar və Fin dilləri daxildir.

Turan-Şumer etno-linqvistik bağlılığı ideyası 1870-ci illərə kimi bütün oriyentalist (*şərqşünas* –X.İ.) dairədə çalışan alimlər tərəfindən qəbul olunaraq əhəmiyyətli dərəcədə inkişaf etdirildi. Lakin sonradan iki faktor bu ideyanın gələcək tərəqqisinə ciddi əngəl törətməyə başladı. Birincisi, 1848-49-cu illərdə rəsmi şəkildə meydana gələn Finn-Uqri doktrinası; ikincisi, Buxarest ravvini J.Halevi tərəfindən irəli sürülən nəzəriyyə. Bu nəzəriyyəyə görə, ümumiyyətlə tarixdə Şumer adında xalq olmamış, guya o dil Akkad din xadimləri tərəfindən icad olunaraq öz sirrlərini söyləmək üçün lokal mühitdə işlədilib" **– (From the İnternate Site of "Corvinus Library, Hungarian Histori". –** *Bax:* **Tariyel Azərtürk. Mixi yazıların mənşəyi, kimindir onlar?,** Sietl (ABŞ), **2002,** s.14)...

Heç şübhəsiz Mixi yazıların deşifrəsi sahəsindəki kəşflər, dəqiqləşdirmələr..."Gil yazılar yəhudinindir" ideyasına sarsıdıcı zərbə vurdu... Odur ki bundan qəzəblənən yəhudi mənşəli J.Halevi samiliyin sivil köklərini daha da dərinləşdirmək, onu antikləşdirmək ideologiyasına xidmət edən yuxarıdakı radikal millətçi nəzəriyyəsini irəli sürdü...

...Şumeri Türklə bağlayanlar din xadimi J.Halevinin Parisin Sarbon Universitetində iş alması, yəni, onun nəzəriyyəsinin elmi ictimaiyyət tərəfindən etiraf olunması (*elmi işin bəyanilməsindən çox, burada, onu universitetə dəvət edən cuhud mənşəli Fransa alimlərinin milli təəssübkeşlikləri daha qabarıq rol oynamışdır şübhəsiz*) ilə pərən-pərən oldular. O vaxtdan elmdə akkadşünaslıq dominant rol oynayır". Çünki akkadlar yəhudilərə genetik qohum sayılır. Odur ki, yüksək-yüksək ideyalara malik çivi yazılarının təmiz Azərbaycan türkcəsində olduğunu demək olar ki, bütün dünyada oriyentalist elm-tədqiqat mərkəz və kafedralarını əllərində saxlayan (*hətta Türkiyədə belə*) cuhud mənşəli heç bir alimə sübut etmək olmur.

Məsələ təkcə semitlərin bu sahəyə sahiblik iddiaları və hər şeyi zəbt etmək cəhdləri ilə bitmir. Burada ikinci və daha güclü bir qüvvə, necə deyərlər, közü öz qabağına çəkməkdədir. Bu, Hind-Avropa dilləri qrupuna daxil olan bütün Avropa və Amerika xalqlarının elmi nümayəndələridir" **(Tariyel Azərtürk. Mixi yazıların mənşəyi, kimindir onlar?, Sietl (ABŞ), 2002,** s.14-15)...

***



*İndi isə şumerlərlə türkləri əlaqələndirən məqamlara dair bir çox dünya alimlərinin rəylərini diqqətə çatdırıq:*

**Rus alimi Dmitri Reder yazır:** *"Şumerlərin dili ayrıca bir dildir. Yalnız onu qəti demək olar ki, o iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər* **(«Мифы и Легенды Древнего Двуречья», Москва, 1965,** с.150).

***

**İngilis alimləri S.Lloyd, Q.Çayld isə bu qənaətə gəlmişlər:** *"Turanlılar təxminən on-on iki min il bundan qabaq səfalı, bəhrəli Dəclə-Fərat çayları hövzəsində məskən salıb, ətraflarda yaşayan vəhşi tayfaların heyrətli nəzərləri altında dünya sivilizasiyasının yəhərini aldılar. Dünyada ulu bir mədəniyyətin məşəli alışdı. Bu işıq ehtiyacı daxildən gəlirdi. Və çox çəkmədi ki, qoca Asiyanın münbit torpaqlı hər guşəsində "işıq adaları" şöləndi»* **(«Реки Близнецы», Москва, 1972,** с.16 ; **«Древний Восток в свете новых раскопок», Москва, 1956,** с.252)...

***

**Alman alimi Q. Vinkler:** "Bizə çatmış Şumer mətnlərinin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də, dünyanın bu ilk dili barəsində bizdə müəyyən fikir yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi quruluşlu dildir və semit dillərinin quruluşundan tamamilə fərqlənir **(Западняя Азия и Древние Времена – История Человечества, т. III, Санкт – Петербург, 1903,** с. 6-7).

***

**ABŞ alimi T.Azərtürk:** Bisütun qayasəthi Dara yazılarının sirlərini açandan sonra mixi (*Şumer* –X.İ.) yazılarının deşifrəsini (*şifrəsinin çözümünü* -X.İ.) həyata keçirən Ser Henri Ravlinson bu naməlum mətnlərin <u>Ural-Altay və ya Skif dillərinə</u> (*başqa sözlə Türk dilləri ailəsinə* –X.İ.) aid olduğu mülahizəsini irəli sürmüşdü. Sonradan deşifrə prosesinə qoşulmuş Yulius Oppert də bu fikirlə razılaşmışdı... **(Tariyel Azərtürk. Mixi yazıların mənşəyi, kimindir onlar?, Sietl (ABŞ), 2002,** s.16).

***

Polşa alimi M. Belitski: "Bu xalq soykökü, dili və mədəniyyətinə görə Şimali Babilistanda sakin olan semit tayfasına yaddır, bu mübahisəsizdir. Şumerlərin mədəniyyətindən danışarkən bunu unutmaq olmaz". Hinks və Ravlinsonun gəldikləri çox tələsik nəticələrin (məs., babillilərin "iskit" (*skif* –T.V.N., yəni *türk* –X.İ.) mənşəliliyi haqqındakı nəticənin) elm tərəfindən təkzib olunduğuna baxmayaraq, etiraf edək ki, onların fikri əsasən doğru idi". **(«Забытый мир Шумеров», Москва, 1980,** с. 48, с. 17; ***Елмəддин Əлибəјзадə. «Kahкəшанлы улу кечмишимизə ачылан гапы»****-bax:* ***Тарујел Вəли Нуведилu. Əчдəд., Сиетл (АБШ), 1997, с.16).***

***

Türkdilli xalq olan şumerlər e.ə. VII-VI minilliklərdə Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən Mesopotamiyaya gəlmiş, e.ə. III minilliyin əvvəllərində (Ön Asiyada) mixi yazı sistemini yaratmışlar **(T.T.Vəliyev, Ə.Ə.Qocayev, B.O.Namazov. Ümumdünya tarixi., I hissə, Bakı, 2003,** s.34-35; **rəyçilər: tarix e.d., prof.**

**R.C.Süleymanov, tarix e.d., prof. O.B.Əhmədov; redaktoru: tarix e.d., prof. Tofiq Vəliyev; kitab** AR Təhsil Nazirliyinin təsdiq etdiyi dərsliklər əsasında hazırlanmışdır).

***

**Türk alimi Ahmet Cavat yazır:** *"Şumer dilinin turani dillərə bənzədiyi artıq qəbul edilmişdir. Şumerlər haqqında ən yeni və mötəbər əsər nəşr etdirən Voolley şumerlərin morfoloji cəhətdən "əski türkcəyə bənzər" bir dildə danışdıqlarını qəbul edir…*

*Şumerlər türkdür, şumerlərin türk olduğu məsələsinin çoxlu sübutları var; bizi bu qənaətə gətirən ən güclü sübut ikisidir: 1) dil sübutu; 2) geoloji və arxeoloji sübut"* **("Alfabenin mənşəyi ən əski Türk yazısıdır", İstanbul, 1993,** s.10 və s. 58-59).

***

Məsləkdaşlarımızın bir iradı və ya sualı da şumerlərlə türklərin antropoloji cizgilərinin uyğun gəlib-gəlməməsi məsələsinədir. Ancaq, şükür ki, bu xüsusda da şumerlərlə aramızda heç bir problem yoxdur, əksinə uyğunluq var: antropoloji tədqiqatlara görə, şumerlər böyük avropoid irqinin aralıqdənizi və balkan-qafqaz qollarına mənsub olmuşlar. **(Большая Советская Энциклопедия (БСЭ), 29-й том, 1978, Москва,** c. 518). Türklər isə, əsasən, böyük avropoid irqinin aralıqdənizi qoluna aiddir. **(БСЭ, 26-й т., 1977, М.,** c.340). Bundan başqa, əldə olunun (cüzi) linqvistik və toponimik məlumatlara görə, şumerlər həmin ölkənin avtoxton (*yerli –X.İ.*) sakinləri olmamış və b.e.ə. V minillikdə (*başqa qaynaqlarda bu tarix daha qədimdir – **X.İ.***) artıq oranı məskunlaşdırmışdılar **(БСЭ, 29-й т., 1978, М.,** c. 518).

***

Təəccüblü burasıdır ki, adını ziyalı, yazıçı qoymuş bəzi soydaşlarımız ucuz şöhrət aludəçisi olaraq, rəsmi rəylərlə yayınlanmış mənbələrin və qədim yazılı abidələrimizlə məşğul olan tədqiqatçılarımızın [professorlar E.Əlibəyzadə və B. Şəfizadə, d-r T. V. (Nüvədili) Azərtürkün, üstəlik də, Fransada 4500 il öncəyə aid türk kitabələrinin oxunuşunu kəşf etmiş türk alimlərinin (X.Tarcan və K.Mirşan)] əsərlərinin heç bir elmi müəssisədə və təşkilatlarda guya "hesaba alınmadığı"nı iddia edirlər.

*Qəribədir! Guya, AR Təhsil Nazirliyi və dünyaca ünlü Sarbon Universiteti və b. elmi müəssisə və ya təşkilat sayılmırmı!?..*

**(Nədən kitabələrinin 4500 il öncəyə aidliyi dünya miqyaslı elmi konfransda təsdiq edilən türklər cəmi 500 il daha qədim sayılan və bir çox əlamətlərinə görə türklərə xas cəhətləri özündə ehtiva edən şumer mətnlərinin oxunmasına cəhd göstərmək hüququndan məhrum olsunlar?!..)**

***

Qeyd:

Yazının bu məqamında vaxtilə Azərbaycan EA Tarix İnstitunun direktoru İqrar Əliyevin dilçi-professor Firidun Ağasıoğluya (Cəlilova) təhqir təcavüzü ilə "yüklənmə"sini xatırladım. Ancaq bir neçə il öncə **Türkiyə Cümhuriyyəti yeni tarix ensiklopediyasına "Erməni tarixi" ilə bağlı məqaləni nə İqrar Əliyevə, nə də başqa bir tarixçiyə deyil, məhz (araşdırmaları gerçəyə dayandığı üçün) dilçi-professor Firidun Ağasıoğluya sifariş vermişdi...**

Onu da qeyd edək ki, prof. E. Əlibəyzadə, şumerlərlə bağlı İ.M.Dyakonovu standart götürərək, 29 iyun 1993-cü il tarixli "Elm" qəzetində *""Türkün Yolu" adlı sayıqlama haqqında bir neçə söz"* adlı məqalə ilə çıxış etmiş akademik Ziya Bünyadovun da



mövqeyinin yanlış olduğunu əsaslandırır **(Елмəддин Əлибəjзадə. «Каhкəшанлы улу кечмишимизə ачылан гапы»**-*bax:* **Таријел Вəли Нүвəдили. Əчдад., Сиетл (АБШ), 1997,** c.14)...

[O da heç kəsə sirr deyil ki, elmdə özünü doğrultmayan dominant *(hakim)* nəzəriyyələr tarixin hökmü ilə bəlli bir zamanda qüvvəsini itirir. Ç. Darvinin *("insanın meymundan əmələ gəlməsi" ifadəsi ilə məşhurlaşmış)* üzvi aləmin materialist təkamülü (tarixi inkişaf) nəzəriyyəsi kimi. Uzun illər bioloqlar, seleksiyaçılar, filosoflar və b. Ç.Darvin nəzəriyyəsinin yedəyində kitabxanaları dolduracaq sayda elmi kitablar yazmış və elm aləminə, dünya ictimaiyyətinə sırımış, ensiklopediyaları da bu mülahizələrlə zəbt etmişdilər. Sonra nə oldu? – Əfv edərsiniz, indi həmin kitablara, söz məsəli, Təzə Bazarda və ya Yaşıl Bazarda yumurta bükürlər!..]

***

Öz tariximizi özümüzün araşdırmamağımızın hansı nəticələrə və fəsadlara səbəb olduğunu xatırladan **doktor Tariyel Azərtürk yazır:**

"Hunların qəhrəmanlığı, döyüş bacarığı barədə tarix çox yazıb. Bu yaxınlarda ABŞ-da çəkilmiş ikiseriyalı "Attila" filmi bu qəhrəman etnosun tarixi reallığını lentdə əbədiləşdirmişdir. Əfsus ki, qərbli düşüncəsində kök salmış, yumşaq desək, Türkə biganə münasibət **hunların türkdilli xalq olduğunu** ikiseriyalı kinofilmin heç bir yerində nəzərə çarpdırılmasına onu yaratmış müəlliflərdən heç birinə imkan vermir. Bunda təkcə ssenari yazarı deyil, son illərdə baş qaldırıb hər şeyi Hind-Avropa mədəniyyəti ilə bağlamağa səy göstərən və tarixin bütün türklüyünü farslaşdıran, özlərini "arilər" adlandıran tədqiqatçılar da günahkardır. Təkcə onlarmı?

Yer Səyyarəsinin Saxadan Mərmərəyə kimi bütöv arealını qucaqlamış bizim türkdilli dünyamızın araşdırıcılarının günahı daha çoxdur. Çünki alimizdə tarixin danılmaz faktları ola-ola öz kimliyimizi araşdırıb dünyada təbliğ edə bilməmişik…

Bu fonda indi-indi Avropa, xüsusilə, postsovet məkanındakı türkdilli tədqiqatçıların türklük tarixinə həsr edilmiş saysız-hesabsız və görkəmli əsərlər çap edib, onları internet vasitəsilə dünya efirinə çıxarmaları adamı sevindirməyə və ruhlandırmaya bilmir. Bu mənada Tatarıstan alimlərinin yapdıqları ciddi elmi işlər təqdirəlayiqdir."

**(Qeyd:** *Yazı Bakıda nəşr olunan "Mədəniyyət" qəzetinin 07.10.2009, 09.10.2009 və "Hürriyət" qəzetinin 17-20.08.2009, 31.08.-03.09.2009 tarixli saylarında və saytlarda yayınlanıb.)*



Orxon əlifbası ilə yazılmış abidə



Orxon-Yenisey əlifbası ilə yazılmış abidə

## KÜRDLƏRİN TÜRK SOYUNDAN GƏLDİYİNƏ DAİR TARİXİ BƏLGƏ

**"...Ben er Kürt el kan Alp Urungu, altunlıg keşiğin bantım beldə, elim tokuz kırk yaşım. Kanım, elime sizime yıta bükmedim kanım elime yıta adırıltım, kök tengride kün ay azdım yıta sizima adırıltım..."**

(Ben, er Kürt ilinin hanı Alp Urungu. Altunlu okluğumu bağladım beldə. Ülkem. Otuz dokuz yaşımda hanım! Elime, sizlerime ne çare; doyamadım. Hanım, elime ne çare; ayrıldım. Mavi semada güneş, ay azdım, ne çare; sizlerimden ayrıldım).

*(Hüseyin Namık Orkun. Eski Türk Yazıtları., TDK Yayınları, İstanbul 1940, Elegeş yazıtı, c.III, s.181.)*

*"Əski Türk boylarının adları boyun bu siyasi və sosyal xüsusiyyətlərini meydana qoymaqdadır. Bu adlar şöylə siniflendirilmişdir:*

*...Hal və tavır və ya hava hadisəsini bildirənlər (Arqu, Arqın, Çuvaş, Karluk, Boran, Kürt və b.)*

*Prof. Dr. İbrahim Kafesoğlu. Türk Milli Kültürü., Ötüken Yayınevi, İstanbul, 1998, 17.basım, s.230.)*

**Ədəbiyyat:**

Seyfettin Altaylı. Kürtler, PKK ve Ermeniler., "Azerbaycan Türk Kültür Dergisi", *Ankara, Ocak 2008, sayı: 373, s.37-38.*





*Naxçıvan.* **Nuh Peyğəmbər türbəsi** (2006-cı ildə yenidən bərpa edilib)

## GƏMİQAYA ABİDƏSİ

**"Nuh peyğəmbərin Azərbaycanla bağlı olması onunla əlaqədardır ki, Naxçıvanda ona dair çoxlu mifoloji materiallar var, Nuh peyğəmbərlə bağlı yer adları var. Hətta Naxçıvan sözünün mənası da "Nuh çıxan" deməkdir. Bundan başqa, "Nuhdaban", "Nəbiyurdu", "Gəmiqaya" kimi toponimlər də Nuh peyğəmbərin adı ilə bağlıdır. Nuhun hərəkət istiqaməti isə Gəmiqaya ilə izah olunub. Nuh peyğəmbərin qəbri də Naxçıvandadır. Onun qəbrinin Azərbaycanda olması barədə VIII əsr mənbələrində də məlumatlar var. Qazıntılar zamanı həmin qəbir tapılıb və bərpa olunub. Nuh haqqında çoxlu rəvayət, əsatir də var. Dini kitablarda da onun haqqında yer alıb. Eramızdan əvvəl VI minillikdə dünya tufanı baş verib. Naxçıvan isə Nuhun quruya çıxdığı yer olub...**

**Qədim Şumer əfsanəsində dünya tufanı haqda məlumat verilib. Dünya tufanı isə Mesopotamiyadan üzü bəri olub. Nuh və onun gəmisində olan 73 nəfər Gəmiqaya yaxınlığında quruya çıxıb."**

*(AMEA Naxçıvan bölməsinin rəhbəri İsmayıl Hacıyev)*

**Ədəbiyyat:**

Leyla İlqar. AMEA Naxçıvan bölməsinin rəhbəri Vasif Talıbova qarşı., "Yeni Müsavat"qəzeti, Bakı, 02.05.2009.

## AZIX MAĞARASI

*Son dövrlərdə (əsasən 1992-1993-cü illərdə), bütün dünyaya da məlum olduğu kimi, Ermənistanın Azərbaycan torpaqlarını işğalı sonucunda on minlərlə soydaşımız həlak olmuş, itkin və əsir düşmüş, 1 milyondan artıq vətəndaşımız öz doğma torpağında qaçqına çevrilmiş; qiyməti ölçüyə gəlməyən çox sayda mədəniyyət abidələrimiz düşmənə "əsir düşmüş" və ya məhv edilmişdir. Belə abidələrimizdən biri də, qədimliyinə görə dünyada 3-cü olan Azıx mağarasıdır. Ermənilər tərəfindən həm ulusumuza, həm dəyərlərimizə qarşı yürüdülən soyqırımı və nadir mədəni incilərimizin mənimsənilməsi siyasətinin ölkəmizə və xalqımıza vurduğu zərərin ölçüsünü azacıq da olsa təsəvvürə gətirmək üçün Azərbaycan ərazisində yerləşən qədim mədəniyyət abidəsi Azıx mağarası haqda dünya oxucularına qısaca bilgi verək:*

Azərbaycan SSR EA-nın Tarix İnstitutunun arxeoloqları apardıqları arxeoloji araşdırmalar sonucunda bir neçə mağara abidəsi tapıb tədqiq etmişlər. Bunlardan Daşsalahlı, Damcılı, Şuşaqala, Daşqala, Kilit, Azıx və Tağlar mağaralarını göstərmək olar.

Adları çəkilən mağara düşərgələri insanlıq tarixinin müxtəlif dövrlərinə aiddir **( 1 )**. Bu mağara düşərgələri sırasında **Azıx mağarası [Azıx kahası;** *azıx*-qədim türk dillərində *ayı* deməkdir – (**2:** s.183**)]** dünya arxeologiyasında önəmli yerlərdən birini tutaraq, özünün maddi mədəniyyət qalıqları ilə şöhrət tapmışdır. Mağaranı 1960-cı ildə Azərbaycan arxeoloqu Məmmədəli Hüseynov qeydə almış və həmin vaxtdan başlayaraq burada uzun illər ərzində tədqiqatlarını sürdürmüşdür **( 1 )** . Mağarada qalınlığı 10-14 m olan 10 təbəqə aşkar edilmişdir **(2:** s.183**) ...**

Azıx mağarası Azərbaycan Respublikasında, Qarabağ dağlarının güney-doğu yamaclarının Güney Azərbaycan (İran) ərazisi ilə kəsişdiyi nöqtədə yerləşir.



Hələ çox qədim dövrlərdə, yəni pliosenin sonlarında, pleystosenin əvvəllərində Azıx mağarası ərazisində Quruçay dərəsi yolu ilə müxtəlif iqlim şəraitində yaşamış çoxlu heyvanat aləmi yayılmışdı. Eyni zamanda **2 milyon il** bundan öncə Doğu Afrikada yaşamış **Homo Habilis**ə yaş baxımdan yaxın olan ilk insanlar da burada yayılmış, heyvanları izləyərək bu dərədə məskən salmışdılar **( 1 )** .

Quruçay dərəsi, Azıx mağarası yerləşən ərazi ilə birlikdə istehsal alətləri hazırlamaq üçün zəngin xammal mənbəyi olmuşdur...

Azıxda öyrənilmiş çay daşı alətləri mədəniyyəti Doğu Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. *Eyni zamanda alətlərin hazırlamasında fərqli cəhətlər də vardır ki, bu da Azıxın alt çöküntülərindən aşkar olunmuş əmək alətlərini* **Quruçay mədəniyyəti** *adlandırmağa imkan vermişdir.*

Quruçay mədəniyyətinin yaşı Xəzər dənizinin Abşeron səviyyəsi ilə yaxşı bağlanılır. **Bu baxımdan Quruçay mədəniyyətinin yaşı 1 milyon 200 min ildən qədimlərə aid edilə bilər.**

Aşkar olunmuş maddi mədəniyyət qalıqları göstərir ki, Azıx mağara-paleolit düşərgəsi öz qədimliyinə, öz təbəqəliyinə, stratiqrafik ardıcıllığına, arxeoloji cəhətdən zənginliyinə görə hələlik əski Sovetlər Birliyi ərazisində yeganə abidədir. Stratiqrafiya əsasında burada qədim və orta paleolit daş alətlərinin hazırlanma texnikasının inkişaf xüsusiyyətlərini müəyyən etmək mümkün olmuşdur. Buradan aşkar olunmuş maddi mədəniyyət qalıqları **azıxantrop**ların təsərrüfat həyatı haqqında təsəvvür əldə etməyə imkan yaradır **( 1 )** .

**1968-ci ildə** Azıx mağarasında alt çənə sümüyünün bir hissəsi tapılmış ibtidai insanın (***azıxantrop***un) 250-300 min il bundan öncə yaşadığı müəyyənləşdirilmişdir. Antropoloji özəlliklərinə görə sinantrop və Heydelberq adamına uyğun gəlir; bununla yanaşı, neandertal adamına da yaxındır **(2:** s.183-184**).**

Azərbaycan ərazisində *təqribən milyon il bundan öncə də* yaşayış olduğunu sübut edən **Azıx mağarası** *arxantropların və daha qədim adamların yurdu və emalatxanası olmuşdur.* Azıx mağarasını geoloqlar, geomorfoloqlar, paleozooloqlar da öyrənirlər **(2:** s.183**)...**

**Ədəbiyyat:**

*1. M.* М. Һүсejнов. АЗЫХ МАҒАРАСЫ. (THE AZYKH CAVE. ПЕЩЕРА АЗЫХ. LA CAVERNE D'AZYKH.), АЗӘРБАЈЧАН ССР ЕА Тарих Институтунун нәшри (ил костәрилмәјиб), Бакы.
2. АСЕ, 10 ч.-дә, 1-чи ч., Бакы, 1976.

Azərbaycanın qədim mədəniyyət beşiklərindən biri də indiki Qobustan Dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən mədəniyyət abidələri və insan düşərgələri kompleksidir.

Arxeoloji qazıntılar Qobustanın 10 min ildən artıq bir dönəmdə ibtidai (*ilkin*) mədəniyyət yaratmış insanların məskəni olduğunu göstərir.

Qobustanda 6 mindən çox qədim şəkil, 10-dan çox daş, tunc, antik və orta əsrlərə aid düşərgə və yaşayış məskənləri tədqiq edilmiş, 40-a qədər tunc dövrü kurqanı və daş dövrü qəbri öyrənilmişdir.

Qobustanın qayaüstü təsvirləri həm mövzu müxtəlifliyi, həm də onların kompozisiyalılığı ilə çox zəngindir **(1: s.3)...**

Qobustanın qaya təsvirləri süjet çeşidlərinə və uzun bir dönəmi (*e.ə. 8-ci minillikdən – eramızın 19-cu yüzilliyinədək*) əhatə etməsinə (*qapsamasına*) görə dünyada bu tipli abidələrdən ən zənginidir.

Araşdırmalar sonucunda təqribən 750 qaya üzərində 4000-ə qədər insan, heyvan təsviri, çeşidli işarə, damğa, yağış suyu və qurban kəsilən heyvanların qanını toplamaq üçün qullanılan yalaqlar-qablar və b. üzə çıxarılmışdır. "Qobustanın qayaüstü təsvirləri, əsasən, qadın və kişi rəsmlərindən, vəhşi öküz, keçi, maral, ceyran, gur, şir şəkillərindən ibarətdir. Heyvanlar bəzən öz təbii böyüklüyündə çəkilmişdir. Qayalar üzərində qazıma üsulu ilə çoxlu qayıq təsviri həkk olunmuşdur... Ay, Günəş, ulduz, xaç təsvirləri də az deyil, ərəb əlifbası ilə yazı da vardır... Qobustanın qayaüstü təsvirləri arasında ov səhnəsi, kollektiv əmək prosesi, taxıl biçimi, əlləri yuxarı qaldırmaqla ibadət etmək, qız qaçırmaq, fərdi və yallıyaoxşar kollektiv rəqs səhnələrinə də təsadüf olunur" **(2: s.189)...**

Qobustanın qayaları üzərindəki mərdlik, dözümlülük və toplu rəqs (bu gün də Azərbaycan milli rəqsi kimi yaşayan) "Yallı" səhnəsi özəlliklə diqqətçəkicidir. Çox güman ki, "Yallı" Qobustanda indiyədək qalmış və səsləndirməyə yararlı qədim musiqi alətinin – "Qavaldaş"ın sədaları altında ifa olunmuşdur **(1: s.3-4).**

1960-cı ildən başlayaraq ərazidə aparılan arxeoloji qazıntılar sayəsində 14 qədim düşərgə və yaşayış məskəni, 30-dan çox kurqan öyrənilmişdir **(2: s.189)...**

Qobustanın qayaüstü təsvirləri 1947-ci ildən araşdırılır **(2:** s.189) və onları ilk dəfə ünlü arxeoloq, Azərbaycan elm xadimi İ.M.Cəfərzadə tapmış və öyrənmişdir. Qədim qayaüstü təsvirlərin öyrənilməsi işini Qobustan abidələrinin arxeoloji qazıntılar yolu ilə araşdırmaçıları –Cəfərqulu Rüstəmov və onun həyat yoldaşı, tarixçi-alim F.M.Muradova davam etdirmişlər **(1: s.4).**

**Ədəbiyyat:**

1. Чәфәргулу Рүстәмов. Гобустан., Бакы, 1990.
2. АСЕ, 10 ч.-дә, 3-чү ч., Бакы, 1979.





***Qobustanın ən qədim insan təsvirləri***



Qobustan. ***Orta əsrlərin daş dili – damğalar***



Qobustan. **Daşların "Yallı" yaddaşı** [mezolit dövrü]






*Naxçıvan MR, Ordubad.* ***Gəmiqaya abidələrindən biri.***



Qobustan. ***"Tiqris" tipli qədim gəmilər***



Qobustan. ***Orta əsrlərin daş dili – damğalar***

***[Qeyd:*** Qobustan abidələrinin yuxarıdakı ifadələrlə təqdimatı Cəfərqulu Rüstəmova məxsusdur.*]*

Azərbaycan filoloqu, professor Qara Namazov ingilis tarixçisi Ceyms Çörçvodun *(Churchward James)* Atatürkün 1990-cı ildə şəxsi arxivi açılarkən üzərə şıxmış 4 kitabı əsasında araşdırma apararaq onların qısa məğzini oxuculara çatdırıb. Rəyçilərin *(AMEA-nın müxbir üzvü, prof. Vəli Əliyev, BDU-nun qədim və orta əsrlər kafedrasının müdiri, dos. Mehman Abdullayev)* mülahizələrinə görə, Q.Namazovun oxuculara təqdim etdiyi bu kitab ""İtmiş sivilizasiyalar"ın, bəşəriyyətin ilkin yaşam dövrünün, müxtəlif təbii fəlakətlər nəticəsində 12 min il bundan qabaq okeana qərq olmuş Mu ölkəsinin tarixinin öyrənilməsi sahəsində Azərbaycan elmində atılmış ilk uğurlu addımlardan biridir" **(1:** s.5).

Habelə rəyçilər tərəfindən əsərin ümumtürk dünyası və Azərbaycan tarixi üçün böyük əhəmiyyəti qeyd olunur: "Çünki kitabda Günəş imperiyası adlanan Mu ölkəsində yaşayan əhalinin dilinin mayyalıların dili ilə eyni olması, mayyalıların dilinin isə uyğur dilinə çox yaxın, hətta demək olar ki, eyni olması, C.Çörçvodun qədim Akkad və Xalde Hindi-Naqa (Maya) dilləri ilə türk dilləri arasında paralellər aparması, 30-a qədər sözün həm qrammatik quruluşca, həm də məzmunca bir-biri ilə səsləşməsiylə bağlı fikirləri Q.Namazova heyrətamiz nəticələr çıxarmağa imkan vermişdir. Bu dəlillər türklərin dünyanın ən qədim sivilizasiyasının daşıyıcıları olduğunu göstərməklə yanaşı, dünyanın ən qədim xalqlarından olduğunu da sübuta yetirir" **(1:** s.5**)**.

Rəyçilər həmçinin Q.Namazovun Amerika qızıldərililərinin türksoylu olması, onların dillərində 2 mindən çox türk mənşəli sözün müəyyən edilməsi və qızıldərililərlə Qafqazın ən qədim sakinləri olan türklərin eyni kökə malik olması, onların qədim dövrdə türklərin ulu vətənindən ayrılıb, Amerika qitəsində məskunlaşması haqqında gəldiyi nəticələrin elmimiz üçün maraq doğurduğunu bildirirlər **(1:** s.5-6**)...**

Xatırladaq ki, tədqiqatçı-alim Əjdər Fərzəli hələ 2010-cu ildə çapdan çıxan Azadlıq dilində danışıq kitabında "Mu-Günəş İmperiyasından – Utitar-Odlar ölkəsinədək" başlığı altındakı fəsli C.Çörçvodun tarixi kəşflərinə həsr etmişdir. Əjdər Fərzəli C.Çörçvodun əsərlərini elmi cəhətdən təhlil edərək, Mu dövləti ərazisindəki sakinlərin danışığındakı və yazılarındakı ünsürlərin indiki Azərbaycan bölgələrində yaşayan insanların danışığında və yazılarında olmasını yüksək səviyədə təhlil etmişdir **(1:** s.7**)**.

Ceyms Çörçvodun bəhs olunan kitabları bunlardır:

1. Batmış qitə Mu. 401 səh.
2. Batmış Munun övladları. 268 səh.
3. Munun müqəddəs simvolları. 266 səh.
4. Muda öyrədilən kosmik qüvvələr.

Qara Namazov bildirir ki, sonuncu kitabı əldə edə bilməsə də, orada bəhs edilən bəzi məsələlərə o biri üç kitabda toxunulmuşdur **(1:** s.9**)**.

Xatırladaq ki, Q. Namazovun yazdığı kimi, ingilis tarixçisi C.Çörçvod 50 il (1886-1936) müddətində Yer kürəsinin bütün qitələrini gəzmiş, insanlıq tarixinin ilkin çağlarını araşdırmış, ayrı-ayrı ölkələrin arxeoloqları, geoloqları, hidroloqları, antropoloqları, etnoloqları, tarixşünasları ilə əlaqələrə girmiş, habelə, Hindistanın, Birmanın, Yunanıstanın, Tibetin, Amerikanın, Avropanın monastırlarında çalışan rahiblərlə görüşmüş, çox zəngin litoqrafik, hiyeqrafik, xüsusən də, rəmzi və həndəsi yazılar toplamışdır. O, ayrı-ayrı ölkələrdə rastladığı xarabalıqları, ən qədim tikililəri, piramidaları, Amerikada böyük mədəniyyəin yaradıcısı Maya səltənətini, qızıldərililərdən qalmış möhtəşəm sarayların qalıqlarını gəzmiş, gördüklərinin şəklini çəkmiş, tarixin bir neçə dönəmini izləməyə nail olmuşdur **(1:** s.10**)**.

Bir sözlə, Ceyms Çörçvodun tədqiqatlarının üzə çıxması türk kimliyi və etnik coğrafiyasına, türk qədimliyi və türkün tarixdə rolu məsələlərinə yenidən baxmağı tələb edir...

***

Türkün qədimliyi ilə bağlı mövzunu səmimi şəkildə keçirilmiş bir elmi müzakirədə alimlərin və bilginlərin (Elməddin Əlibəyzadə, Elman Əliyev, Əlyar Səfərli, Hacı Qadirzadə, Əjdər Fərzəli, Abbas Seyidov, Mirələkbər Seyidov və b.-nın) sıra ilə öz tarixi dəlillərini sunaraq ortaya qoyduqları faktlar və yanaşmalar üzərindən davam etdirək:

**Elməddin Əlibəyzadə** ("Bilqamıs // Gilqamış" dastanındakı "Kainatın və insanın yaranması haqqında" kitabədən):

– "**An** və **Kin**in (Ata göylər və Ana Yerin) nikahından–qovuşmasından ilkin insan tanrılar – Enlil və Enki qardaşları doğuldu."

**Elman Əliyev:**

– "Maraqlıdır. Həmin fikir "Bibliya"da da eynilə təkrar olunur. Amma adlar başqadır. Habil və Qabil qardaşlarıdır."

**Elməddin Əlibəyzadə:**

–"Çünki ilk qaynaq, mənbə Şərqdir, Şumer qaynaqlarıdır..."

Daha sonra Elməddin Əlibəyzadə Adam ata, onun yaranması məsələsinin bir qədər də açıqlandığı, bütünlüklə bu məsələyə həsr olunan Şumer yazılı abidəsindən – "Enema El işi Dünyanın yaranması" dastanından ilginc iqtibaslar gətirir **(2:** s.158-159**)...**

**...Elməddin Əlibəyzadə:**

– "Burada ən maraqlı cəhət ilk yaradılışın adlarının türkcə olmasıdır: Adam//Adəm, Hava//Həvva.

Diqqət edilməli, düşündürücü haldır ki, son vaxtlar bu istiqamətdə axtarışlar, tədqiqatlar aparılır, fikirlər söylənilir. Məsələn, **amerikalı alim Ceyn Matlok "Ey dünya insanları, hamınız türksünüz!" adlı kitabında dünyada yaşayan xalqların hamısının türk kökündən ayrılıb yarandığını sübut edir. Habelə peyğəmbərlərin hamısının türk əsilli olduğunu deyir.** *Lent.az*-ın xəbərinə görə, tədqiqatçı bunu Türkiyə mətbuatına açıqlamasında deyib. 81 yaşlı alim, araşdırmaçı bildirib ki, dünyada insan övladı ilk dəfə türkcə danışıb, elm, fəlsəfə və dinin də yaradıcıları türklərdir..." **(3 ; 2:** s.162**)**.

Elməddin Əlibəyzadə daha sonra XVII əsrdə yaşamış Xivə xanı hərbçi və tarixçi Əbülqazi Bahadır xanın qədim qaynaqlara dayanan fikirlərinə diqqət çəkir: "...Gəmidən çıxan üç gəlini sağaltdılar, qalan bütün adamlar öldülər, ondan sonra Nuh peyğəmbər üç oğlundan hər birini müxtəlif ölkəyə göndərdi. Xam (Qam) adlı oğlunu o, Hindistan ölkəsinə göndərdi. Sam adlı oğlunu İran ölkəsinə göndərdi. Yafəs (Yafət) adlı oğlunu quzey qütbü tərəfə göndərdi. O, hər üçünə dedi: "Adəm oğullarından sizin üçünüzdən başqa heç kim qalmadı. İndi siz üçünüz bu (üç) yurdda yerləşin. Haçan sizin çoxlu oğullarınız (uşaqlarınız) olarsa, o yerləri (özünüzə) yurd edin və (orada) yaşayın. Və Yafəs atasının iradəsi ilə Cudi dağını tərk edərək İtil və Yayıq sahillərinə getdi...

Yafəsin səkkiz oğlu vardı, (onun) oğullarının adları bunlardır: Türk, Xəzər, Saklab, Rus, Minq, Çin,Kəməsi, Tarix. Yafəs ölərkən öz yerinə böyük Türkü qoydu. Digər

oğlanlarına isə dedi: "Türkü özünüzə hökmdar bilib, itaətindən çıxmayın!"" (2: s.162-163).

"Buna görə də dünyanın tarixi yenidən yazılmalıdır." – Deyə Elməddin Əlibəyzadə məntiqi hökm verir (2: s.163)...

**Ədəbiyyat:**


1.Qara Namazov. C.Çörçvodun tarixi kəşfləri. Bakı, 2011.

2.Elməddin Əlibəyzadə. Zəkalı dost harayı. –"Elman Əliyev: olduğu və göründüyü kimi"., Bakı, 2012.

3. "Yeni Müsavat", Bakı,11.09.2009.




***KƏŞMİR***

*(Coğrafi arayış)*




**Kəşmirin xəritəsi.** Şimal-qərbdəki hissə Pakistanın, ortadakı – cənubdakı hissə (Cammu və Kəşmir) Hindistanın nəzarətində olan ərazilərdir. Şimal-şərqdəki hissə isə Aksay-Çin adlanır ki, bu hissəni də Çin tutmuşdur.

**Kəşmir** şimalda Əfqanıstanla, şərqdə Çinin Sintszyan-Uyğur və Tibet Muxtar rayonları ilə, cənubda Hindistanın Himaçal-Pradeş və Pəncab ştatları və qərbdə Pakistanla həmsərhəddir. **Kəşmirin bölünməsi sərhədlər barədə rəsmi razılaşmalarla təsdiq edilməyib və bölgə onu zəbt edən dövlətlər, özəlliklə də Hindistan və Pakistan arasında gərginlik ocağıdır.**

Hindistan və Pakistan biri-birinin nəzarətində olan hissələri tanımır, Hindistan Trans-Qaraqorum böyük yolu boyunca 1963-cü ildə Çinə verilmiş vilayətlərə, Pakistan isə Aksay-Çin və Trans-Qaraqorum böyük yolu istisna olmaqla bütün bölgəyə iddia edir. Bir neçə dəfə ərazi üzərində münaqişə baş vermişdir. I Hindistan və Pakistan müharibəsindən sonra indiki nəzarət xətləri bəlirləndi. II Hindistan və Pakistan müharibəsi BMT komissiyalarının nailiyyətlərinin üzərindən xətt çəkdi...

**İndi Kəşmir aşağıdakı kimi bölünmüşdür:** Hindistanın Cammu və Kəşmir ştatları (Ladakx əyaləti də daxil olmaqla) –ümumi sahəsi 101387 km² və əhalisi 10,1 milyon nəfər; Pakistanın nəzarətində olan, özünü elan edərək ancaq beynəlxalq aləm tərəfindən tanınmayan "Azad Kəşmir" dövləti – ümumi sahəsi 13000 km² və əhalisi 3,6 milyon nəfər; Pakistanın nəzarətindəki «şimal əraziləri» – sahəsi 72500 km² və əhalisi 1 milyon nəfər; Çinin yuridiksiyasında olan hissə – sahəsi 37555 км² və əhalisi –cəmi bir neçə min nəfər. Kəşmirin ümumi sahəsi isə 222236 km² təşkil edir.

**Ədəbiyyat:**


http://ru.wikipedia.org/wiki/

## KƏŞMİR MƏSƏLƏSİ

*BMT-nin gündəliyində ən əski sorunlardan sayılan Kəşmir sorunu Pakistan və Hindistan arasında 1947-ci ildən indiyədək sürən çəkişmə durumu yaratmışdır. Pakistan üçün bu problem ərazi məsələsi deyil, 13 milyondan artıq kəşmirlinin tarixi taleyi ilə bağlı insani (humanitar) bir məsələdir.*

*Bəzilərinə mürəkkəb bir məsələ kimi gələn bu problem (BMT –nin Kəşmir haqqındakı qətnamələrində və uluslararası bəyannamələrdə də ifadə olunduğu kimi) əslində sadə bir məsələ olaraq, beynəlxalq hüquqda hər hansı bir mübahisəli anlaşılma, dolaşıqlıq yaradan bir sorun deyil. Kəşmir xalqı Hindistanın, Pakistanın və beynəlxalq ictimaiyyətin ona vəd etdiyi öz taleyinə qərar vermə haqqının gerçəkləşməsini istəyir. Pakistan öz öhdəsinə düşəni yerinə yetirsə də, indi sıra Hind öndərlərinindir* ***(1:*** *s.1)****.***

Himalay ətəklərində yerləşən Cammu *(Camu)* və Kəşmir Ştatı birlikdə 84 471 kvadrat mil alanı sararaq Hindistan, Pakistan, Çin və Əfqanıstanla əhatə olunmuşdur. Bu ştatın bir hissəsi olan **Kəşmir vadisi 25 mil en və 85 mil uzunluğa maliklir. "Yer üzündə cənnət" adını alan bu sahə görənləri heyran etmişdir.** Ancaq bu yerin sakinlərinin yaşadıqları tarix əzab və kədərlə doludur. Bu gün də onların həyatı bədbəxtlik və sıxışdırılma masalları ilə anladıla bilər. Heç də təsadüfi deyil ki, *ünlü alim Vinsent Smit bu qonuda yazmışdı:* ***"Hökumət məsələsində dünyada çox az yer tapılar ki, Kəşmirlilərdən daha pis taleyi olsun" (2:*** *s. 3)****.***

BMT –nin gündəliyində ən köhnə sorunlardan sayılan Kəşmir sorunu Hindistan Subkontinentinin *(Subqitə –X.İ.)* bölünməsi zamanı yarımçıq qalan (yekunlaşmamış) məsələdir. Hindistanın zülmü altında inləyən Kəşmir xalqı *Subqitə*dəki başqa xalqlara baxdıqda daha uzunsürən özgürlük mübarizəsi aparmışdır. Kəşmirlilər yabançı zülmkar hökmdarlara qarşı hələ 1830-cu ildə üsyan qaldımışlar. Cammunun Racası və Sikx İmperiyasının hərbi rəisi Qulab Sinqx onların üsyanını qanda boğaraq, Kəşmir öndərlərini qırıb-çatdı. *1846-cı ildə Qulab Sinqx Kəşmiri Britan-Hind hökumətlərinden kiçik bir məbləğə – 7500000 rupiyə aldıqdan sonra önceki hökmdarlardan daha qəddarcasına yönətməyə başladı. Onun varisləri də qəddarlıqda sələflərindən geri qalmırdılar. Axır ki, 1920, ardınca da 1930-cu illərdə* Kəşmirlilərin könlündəki azadlıq qığılcımı alovlandı **(2:** *s. 3)***...**













"Cammu ve Kəşmir Ştatı Hindistan *Subqitəsinin* 584 ştatından biri olaraq, knyazlar tərefindən idarə olunurdu. 1947-ci ildə, müsteqillik qazananda kralın o vaxtkı canişini bu ştatların hökmdarlarına məsləhət gördü ki, xalqların istəklərini və coğrafi yerləşməni göze alaraq ya Hindistana, ya da Pakistana birləşsinlər. Kəşmir müsəlmanları Pakistana birləşmək üçün iki əsas səbəbə malik idilər: birincisi,

müsəlmanların say üstünlüyü (onlar ştat əhalisinin 80%-ini təşkil edirdilər –X.İ.) və ikincisi, ştatın Pakistana coğrafi yaxınlığı.

Ancaq Hindistan liderləri, sanki ştatın müsəlman olmayan hökmdarını öz ölkəsini Hindistana birləşdirməyə məcbur etdilər. ***Kəşmir müsəlmanları üsyana qalxaraq, ştatın böyük hissəsini azad edərək orada Azad Cammu və Kəşmir Hökuməti qurdular.*** Hindistan Birləşmiş Millətlər Təşkilatına bu ərazinin qaytarılması xahişi ilə üz tutdu, ancaq BMT hindlilərin bu iddiasını rədd edərək Kəşmirlilərin öz müqəddəratını müəyyənləşdirmə hüququna dayanan istəyini dəstəkləyərək bu haqda qətnamə də qəbul etdi. *5 yanvar 1949-cu ildə qəbul olunmuş həmin qətnamədə deyilir:*

**"Cammu və Kəşmir Ştatının Hindistana və ya Pakistana birləşmə məsələsi demokratik yolla, azad və ədalətli plebesitlə** (*xalq səsverməsi* **–X.İ. ) həll olunacaq."**

BMT Təhlükəsizlik Şurası çeşidli qətnamələrdə, o sıradan, 1951-ci il və 1957-ci il qətnamələrində, yenidən və yenidən Kəşmirlilərin öz müqəddəratını təyin etməsi hüququnu onaylamağı təkrarlamışdır:

"Hindistan və Pakistan Hökumətlərinin Birləşmiş Millətlər Təşkilatının Hindistan və Pakistan məsələləri üzrə Komissiyasının 13 avqust 1948-ci il və 5 yanvar 1948-cu il tarixli qətnamələrinin şərtlərini qəbul etdiyini qeydə alaraq, bu Hökumətlər bir daha təsdiq etdilər ki, Cammu və Kəşmir Ştatının gələcəyi demokratik yolla, Birləşmiş Millətlər Təşkilatının himayəsində (sayəsində) keçirilən azad və ədalətli xalq səsverməsi əsasında həll olunmalıdır..." *( № 91 – 30 mart 1951-ci il)* – **(2:** s.3-4**).**

"Cammu və Kəşmir Ştatının yekun ərazi yerləşimi (bağımlılığı) demokratik yolla, Birləşmiş Millətlər Təşkilatının himayəsində (sayəsində) keçirilən azad və qərəzsiz xalq səsverməsi yolu ilə ifadə olunaraq, insanların istəklərinə uyğun müəyyənləşəcək". *( № 122 – 24 yanvar 1957-ci il)* – **(2:** s.5**).**

***Bu məqsədlə də Hindistan Ştatda xalq səsverməsi keçirilməsi qərarı ilə razılaşdı və onun liderləri ən azı qırxdan artıq dəfə bu haqda özlərinə öhdəlik götürdülər.*** Ancaq onlar vaxt udmaq istəyirdilər və referendum keçirilməsi istəklərində səmimi deyildilər, Kəşmir məsələsi haqda, hər dəfə Hindistana təzyiq olanda danışığa başlayırdılar və bu hindlilərin vaxt uzatma taktikası idi. Pakistan və Hindistan bu məsələ ucbatından üç dəfə savaşa girmişlər. Və hər bir savaşın sonucunda Hindistan problemi həll edəcəyinə vəd vermiş, ancaq faktiki heç nə etməmişdir **(2:** s.5**).**

Kəşmir məsələsi haqda Birləşmiş Millətlər Təşkilatı qətnamələrinin yerinə yetirilməsinin sonsuz olaraq ləngidilməsi, Ştatda çoxsaylı seçki məzhəkələri (*o sıradan 1987-ci ildə keçirilən saxta seçkilər* –**(4:** s.1)), bundan başqa, 1980-ci illərdə bütün dünyanı saran demokratikləşmə dalğası Hindistanın işğal etdiyi Kəşmir bölgəsinin əhalisini küçələrə tökülməyə, öz müqəddəratını təyin etmə hüquqununun gerçəkləşdirilməsini təbliğ etməyə vadar etdi. Hindistanın Kəşmirlilərin azadlıq hərəkatını qanda boğmaq üçün hərbi güc tətbiq etmə cəhdlərini görüncə, Kəşmirlilər də məcburən silaha əl atmalı oldular. Onların bu azadlıqsevərlik ruhunu boğmaq üçün Hindistan Kəşmirə 700 min nəfərlik tam silahlanmış əsgəri qüvvə yeritdi. Bu hərbi qüvvə Hindistanın Kəşmir üçün hazırlayıb tətbiq etdiyi rəhmsiz qanunlar sayəsində hüdudsuz səlahiyyətlərə malik idi. O səbəbdən də Hindistanın bu əsgəri müdaxiləsi çoxsaylı dağıntılara gətirib çıxardı. *Hindistanın Kəşmirlilərə qarşı törətdiyi bu cinayət Hind və dünya insan haqları təşkilatları (****"Beynəlxalq Amnistiya", "Human Rayts Votç"*** *və b.) tərəfindən rəsmən (yazılı olaraq) təsdiqlənmişdir* **(2:** s.5-6**).**

**Hindistanin işğal etdiyi Kəşmir bölgəsini ziyarət edən Avropa Parlamentinin elçiləri, buranı "dünyanın ən gözəl qazamatı" adlandırmışlar.** Bu nümayəndə



heyəti öz hesabatında Kəşmirlilərə qarşı törədilən aktları **dövlət terrorçuluğu'** kimi qiymətləndirərək aydın şəkildə qınamışdır. Həmin hesabatda beynəlxalq insan haqlarını müdafiə təşkilatlarının bu afət bölgəsinə maneəsiz girişinə şərait yaradılması zərurəti göstərilməklə, Hindistan hökumətini tutulanların işi ilə bağlı prosesləri izləməyə (diqqətə götürməyə) çağırmışdır. Heyətin hesabatında, həmçinin, **Avropa Parlamentində** *Kəşmir üzrə Məruzəçinin* təyin edilməsi də tövsiyə olunurdu.

Hindistan liderləri adətən səmimi olmayan açıqlamalar verərək, dünya ictimaiyyətini aldatmağa çalışırlar. Hərdən Hind liderləri Kəşmirliləri terrorçuluqda suçlayırlar. Ancaq gerçəklik bundan ibarətdir ki, BMT Nizamnaməsi, 1948-ci il İnsan Haqları Universal Bəyannaməsi və BMT-nin başqa Bəyannamələri insanlara öz müqəddəratını təyin etmək haqqını verməkdədir. Ona görə də Kəşmirlilərin azadlıq uğrunda mücadilələrini terrorçuluq kimi qələmə vermək yanlış və qərəzlidir. Hindistanın bu fəaliyyətləri terror adlandıraraq yurd dışından təşkil olunması ilə bağlı mövqeyinə gəldikdə isə, Pakistan dəfələrlə təklif irəli sürmüşdür ki, Nəzarət Xəttində BMT Müşahidəçilərinin rolunu gücləndirmək gərəkdir, ancaq Hindistan bu təkliflə razılaşmamışdır. İşğal olunmuş ərazilərdəki dəfnlərdə külli miqdarda insanların iştirakı, məzarların artım sürəti, miqdarı da Kəşmir xalqının bu hərəkatı dəstəklədiyini təsdiq edir. Bundan başqa, yabançı ölkə tərəfindən dəstəklənən hərəkat bu qədər uzun sürə fasiləsiz və amansızlıqla davam edə bilməzdi. Çeşidli Hind və dünya analitikləri də Kəşmirlə ilgili Hindistanın iddialarını rədd etmişlər **(2:** s. 6-7**).**

Hindistan həmçinin üçüncü tərəfin bu münaqişənin çözülməsində vasitəçiliyinə qarşı çıxır. O, bəyan edir ki, məsələni ikitərəfli şəkildə, Simldə qəbul olunmuş Anlaşmaya dayanaraq çözmək mümkündür ( **3:** s.4-16 ; **2:** s.7). Əlbəttə, bu məqamda da Hindistan Hökuməti səmimi deyil: çünki Siml Anlaşmasının qəbulundan 34 il keçməsinə rəğmən Pakistanın bu yöndə təkliflərinin heç birini qəbul etməyib. Bundan başqa, həmin Anlaşmanın aşağıdakı maddə və bəndlərindən də göründüyü kimi, Siml Anlaşması Kəşmirin mübahisəli statusunu dəyişmir, BMT-nin rolunu aradan qaldırmır:

**1 (i) – BMT Nizamnaməsi tərəflər arasında münasibətləri idarə etməlidir.**

**1 (ii) – BMT sülh yolu ilə tənzimləmədən kənarlaşdırılmır.**

**1 (iv) – Kəşmir məsələsi iki xalq arasında mübahisə və münaqişə səbəbi sayılır.**

**5 (ii) – Hindistan və Pakistanın qəbul etdiyi mövqelər müdafiə olunur və "Nəzarət Xətti" uluslararası sınırlardan fərqli tutulur.**

**7 – Kəşmir mübahisəsinə şözülməmiş sorunlardan biri kimi baxılır... (3:** s.4-16 ; **2:** s.7**).**

Məsələ BMT gündəliyindədir və BMT-nin Silahlı Qüvvələrinin Müşahidəçi Qrupunun Hindistanda və Pakistanda olması da BMT-nin bu mübahisəni çözmədə iştirakını göstərir...

Hind əsgəri qüvvələri tərəfindən Hindistanın işğal etdiyi Kəşmir bölgəsində törədilmiş bənzərsiz cinayətlər, Hindistanın müntəzəm artan hərbi gücü fonunda, dünya liderlərinin, o sıradan keçmiş ABŞ Prezidenti Bill Klintonun da dediyi kimi, Hindistan Subqitəsini dünyanın ən təhlükəli bölgələrindən birinə çevirib.

BMT Təhlükəsizlik Şurasında daimi üzv olmaq üçün zəruri tələbləri qarşılamaq məsələlərində sıxışmayan Hindistan BMT Təhlükəsizlik Şurasının Kəşmir haqqındakı qətnamələrini yada salmalı olduğu halda, bunlara cəzasızlıqdan doğan bir saymazyanalıqla yanaşır. Eynən dünya ictimaiyyəti də BMT Nizamnaməsi qarşısında öz məsuliyyətini etiraf edərək Kəşmir məsələsinin tez bir zamanda həllinə çalışmalıdır. **Nə üçün İraq, Kosovo və Doğu Timor** (*son dönəmlərdə isə Liviya...* –

X.İ.) haqda BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilə bilir, ancaq **Kəşmir** (*Dağlıq Qarabağ, Fələstin... –X.İ.*) **haqqındakı qətnamələr həyata keçirilmir?..**

***Sülh imkanları daralır, bu minvalla bölgələrdəki münaqişələr bütün dünyanı sara bilər. Özəlliklə də ona görə ki, həm Hindistan, həm də Pakistan nüvə silahına malik dövlətlərdir.*** *Ona görə də dünya ictimaiyyəti öz acısını (dərdini) qanla yazan Kəşmirlilərin ağır durumuna etinasız qalmamalıdır.* Dünya ictimaiyyəti təşəbbüsü üzərinə götürərək Hindistanın Kəşmirlilərə qarşı yürütdüyü ədalətsiz siyasətə və cinayətlər silsiləsinə son verərək, bu zülm zəncirini hər hansı bir halqasındasa durdurmalıdır. **Bu qonuda Doktor Martin Lüter Kinqin qeydi çox dəqiqdir:** *"Xalqın ümumi faciəsi pis adamlar tərəfindən sıxışdırılmasında və ya qəddarlığa məruz qalmasında deyil, kənardan yaxşı adamların bunları görərək susmasındadır"* **(2:** s.8)...

***

*Pakistan Parlamentinin Parlament Palatasının Kəşmir üzrə Özəl Komitəsinin arayışında Hindistanın Kəşmirdə törətdiyi müxtəlif cinayət əməlləri və Kəşmir tarixçəsinin bəzi önəmli məqamları öz tarixi ardıcıllığı ilə əks olunmuşdur. Onlardan bəzilərini diqqətinizə çatdırmağı vacib sayırıq:*

**1832** –Maharaca Rancit Sinq komandan Ranci Qulab Sinqi 1832-ci il üsyanını yatırmaq üçün Kəşmirə göndərdi. **Qulab Sinq kəşmirlilərin diri-diri dərisini soydu.**

**1931** *(13 iyul)* –Maharaca Xara Sinqə qarşı nitqlə çıxış etmiş müsəlmanın yarğılandığı Şrinahar qalası (qazamatı) önündə 13 müsəlmanı güllələdilər...

Bu ildə həmçinin Lahorda Əllamə İqbalın başçılığı ilə Bütövhind Kəşmir Komitəsi yaradıldı...

**1947** –Maharaca Xara Sinqin əsgərləri yüz minlərlə Kəşmirlini məhv etdi.

**1947** *(27 oktyabr)* –Eyni zamanda, Hindistan öz ordusunu göndərərək Cammu və Kəşmiri işğal etdi. Kəşmirlilər buna üsyan edərək, Ştatın bəzi bölgələrini azad etdilər ki, bu hissə də **Azad Cammu və Kəşmir** adlanır.

**1986** –Hindistan tərəfindən işğal olunmuş Kəşmirdəki siyasi partiyalar 1987-ci il seçkilərində fəal iştirak məqsədi ilə Birləşmiş Müsəlman Cəbhəsi yaratdılar. Seçkilərin saxtalaşdırılması və 1988-ci ildə elektrik enerjisinin qiymətinin qaldırılması əhalidə Hindistana qarşı qəzəb oyatdı, xalq nümayişlərə çıxıb etirazlarını bildirdikdə, Hind ordusu nümayişçilərə atəş açdı, hərəkatın öncüllərini həbs etdi və komendant saatı tətbiq etməyə başladı...

*Əfqanıstanın Sovet işğalından azad olunması və bütün dünyaya, özəlliklə də Şərqi Avropaya yayılan demokratiya dalğası əsrlərlə ürəklərdə tutuşan azadlıq alovunu yandırdı ki, bütün bunlar da 17 ildən artıq bir sürə davam edən etiraz və nümayiş hərəkatına gətirib çıxardı. Bu dönəmlə bağlı bəzi bigilərə diqqət edək:*

**1989** –Hind təhlükəsizlik ordu qüvvələri məscidi murdarladıqdan və müsəlmanları dua zamanı əzişdirdikdən sonra Kəşmir gəncləri Hind qüvvələri ilə toqquşdu.

Daxili İşlər Naziri Müfti Səidin qızını oğurladılar (əsir götürdülər), ancaq 5 gündən sonra azad buraxdılar.

**1990** –Mir Vaiz Molvi Faruk öldürüldü; onun dəfn mərasimini gülləbaran edərək, 50 nəfəri həlak etdilər.

**1991** *–Hindistan əsgərləri Kunan Poşpura kəndində bir gecədə 23 qadının namusunu onların öz ailələrinin gözü qarşısındaca ləkələdilər,* hansı ki bu hadisə dünya ictimaiyyəti tərəfindən qınandı.

Hindistan ordusunun əsgərləri 73 nəfəri öldürdülər, bundan sonra isə dəfn mərasimini güllə yağışına qərq edərək, daha 50 nəfəri şəhid etdilər.



**1992** – bir olayda Hind ordusu 14 günahsız Kəşmirlini öldürdü. Sonra iğtişaşlar zamanı daha 12 nəfəri qətlə yetirdi.

**1992 – Qadınların təhqir edilməsi davam edirdi.** *Hind təhlükəsizlik ordusu qadınların zorlanmasını Kəşmirlilərin iradəsini sındırmağa yönəlik müharibə silahı (vasitəsi) və hərbi strategiya kimi istifadə etməyə başlamışdı.*

**1993 – Sopor şəhəri bütünlüklə** Hind əsgərləri tərəfindən yandırılmış; 40 sakin öldürülmüşdü.

**1994 – Azadlıq uğrunda mübarizə güclənirdi. Hind hökumətinin başlatdığı terror beynəlxalq insan haqları müdafiəçiləri və onların fəalları** tərəfindən qınansa da, davam etməkdəydi.

**1995** – *Britaniya insan haqları üzrə parlament qrupunun rəhbəri Erik Avbari Hindistanın işğalı altında olan Kəşmirdəki durumu çağdaş dünyanın ən dəhşətli faciəsi adlandırıb...*

Hind əsgərləri müqəddəs Nurdin Vəli (Çarar Şərif) məqbərəsini yandırdılar, bütün bunlar isə müsəlmanları bərk hiddətləndirdi.

**1996 – Lok Sabaya** *(Hindistan Parlamentinin Namayəndələr Palatası)* saxta seçkilər geniş boykot olundu. Seçki keçirməyə təyin olunmuş yüz minlərlə dövlət qulluqçusu üç həftə tətil etdi.

Dünya KİV-ləri bu seçkiləri təsvir edərək onun saxta olduğunu bildirdilər. 12 nəfər ABŞ konqresmeni də Hindistan hökumətinə ünvanladıqları məktubda seçki prosesi zamanı sui-istifadə səbəbi ilə qayğılandıqlarını ifadə edirdilər.

**1998** – Hind əsgərləri Şrinaharda Daud Hakanın məzarını murdarladılar.

ABŞ Departamenti **və** "Human Rayts Votç" təşkilatı Hind əsgərləri tərəfindən *kütləvi, tələsik qətllər* (bu ifadə yəqin ki qətlin öncədən, məqsədli şəkildə planlaşdırıldığını vurğulamaq amacı ilə işlənib *–X.İ.*) və insanların təhqir olunması hallarını təsdiq edib.

Avropa Birliyi Hindistanın işğalı altında olan Kəşmirdə insan haqlarının tapdalanmasını qınadı və Hind hökumətindən inadla tələb etdi ki, beynəlxalq təşkilatların bu bölgəyə baş çəkməsinə icazə versin...

Hind əsgərləri *(isə yenə də)* masqalanaraq Kəşmirliləri gülləleyir və planlı şəkildə onları öldürürdülər.

Britan parlamentar Corc Calovey demişdir ki, Britaniya Kəşmir sorununu cözməlidi.

**Prezident Klinton bəyan etmişdir ki, Kəşmir məsələsində əsas problemi, vasitəçilərdən imtina edərək, Hindistan yaradır.**

Qoşulmayan Ölkələr Hərəkatının Sammitində çıxış edən Nelson Mandela Cammu və Kəşmir xalqlarının özgürlük uğrunda müqavimət mübarizəsini dəstəkləmişdir.

BMT-nin Baş Katibi Kofe Annan Kəşmir məsələsinin dünyanı narahat edən səbəblərdən biri olduğunu bildirmişdir.

**2000** –Hind əsgərləri çoxsaylı Kəşmir müsəlmanlarını qırmaqdan başqa,Sinqapurun Şati kəndində 35 sikxi də öldürdülər və bu iyrənc cinayətin məsuliyyətinin yaraqlıların üzərinə atılması böyükçaplı etirazlara səbəb oldu.

**2001** – Hindistan **Pakistanın sərhədinə misli-bərabəri olmayan sayda hərbçi yeridərək** Kəşmir məsələsinə görə **Pakistanı təhdid edirdi.**

**2002** – Hind əsgərləri masqalanaraq günahsız insanlara atəş açaraq onları qətlə yetirirdilər.

*Bütün Partiyaların Hürriyət Konfransının* öndəri Arns Abdul Qəni də öldürüldü.

Hindistan beynəlxalq müşahidəçilərə Kəşmirdə səslərin sayılmasına nəzarət etməyi imtina etdi. Bu səbəbdən Kəşmirlilər də seçkini boykot etməli oldular.

**Beynəlxalq Bank, İngiltərənin Xarici İşlər Katibi və Fransanın Xarici İşlər Nazirliyi uyardı ki, Kəşmir böhranı nüvə müharibəsinə səbəb ola bilər.**

NATO liderləri də Subqitədə gərginlikdən dolayı rahatsızlıqlarını dilə gətirdilər.

İngiltərənin Xarici İşlər Katibi D.Strau bildirdi: **"Biz Hindistanla Pakistan arasında sərhədi yetərincə ayırmadığımıza görə ciddi səhvə yol verdik".**

**2003** – Hind əsgərləri 17 nəfər Kəşmirlini Damxal Xancorporda və 18 nəfərini Curezdə *(Baqramola)* öldürdülər.

**Pakistan Prezidenti Pərviz Müşərrəf demişdir ki, Pakistan Kəşmirdən hərbi qüvvəsini çəkə bilər, hərgah Hindistan da eyni hərəkəti etməyə razılıq verərsə.**

*ABŞ Dövlət Katibinin Yardımçısı (Müavini) Riçard Armitaq qeyd edirdi ki, Fələstindən savayı, Kəşmir də dünyanın ən təhlükəli yeridir.*

## HİNDİSTAN ORDUSU TƏRƏFİNDƏN HİNDİSTANIN İŞĞAL ETDİYİ KƏŞMİRDƏ İNSAN HÜQUQLARININ POZULMASI

*(1989-CU İLIN YANVARINDAN 2006-CI İLIN FEVRALINADƏK)*

| | |
|---|---|
| Ölənlərin sayı | 90 776 |
| Qazamatda ölənlərin sayı | 6 817 |
| Tutulan vətəndaşların sayı | 111 269 |
| Dağıdılmış evlərin/mağazaların sayı | 105 143 |
| Dul qalmış qadınların sayı | 22 371 |
| Yetim qalmış uşaqların sayı | 106 616 |
| Zorlanmış qadınların sayı | 9 637 |

*(Mənbə: Bütün Partiyaların Hürriyət Konfransı – 2: s. 9)*

**Ədəbiyyat:**

1.*Хамид Насир Чатта, Председатель Специального Комитета Парламента по Кашмиру. Предисловие.* См: Общий обзор Кашмирского спора. Составитель Султан Ахмед.

2.Общий обзор Кашмирского спора. Составитель : Султан Ахмед.

3.И.Хаваджа. Симлское соглашение (Анализ).

4.Молана Фазал-ур-Рехман. Предисловие. –См: Пламена свободы. КОИ. Составитель: Султан Ахмед. *(Специальный Комитет Парламента по Кашмиру. Парламентская Палата. Исламабад)*

**Əlavə ədəbiyyat:**

1.Пламена свободы. КОИ. Составитель : Султан Ахмед. *(Специальный Комитет Парламента по Кашмиру. Парламентская Палата. Исламабад)*

2.Kashmir: Paradise on Earth or a Nuclear Flashpoint. Laura Schuurmans. *Kashmir Solidarity Forum., Jakarta –Indonesia, September 2010.*

3. Khagani Ismail. Black Day in Kashmir History., "AzerNews", Bakı, November 2-15, 2011., p.3.







*Şrinaharda hasar qapısı, 400-500-cü illərə aid Zeyn əl-Abidin məqbərəsi, əski hindi məbədi* **(1868. Con Burk. Şərq və Hind kolleksiyası. Britaniya kitabxanası)**

1965-ci ilin yazında Hindistan və Pakistan arasında **Böyük Kaç Rani** adlı səhra ərazisinə görə sərhəd münaqişəsi üz verdi. 30 iyunda Böyük Britaniyanın müdaxiləsi sayəsində razılaşma əldə olundu, ancaq məsələnin həlli 4 iyul 1969-cu ildə İslamabadda yekunlaşdı. Nəticədə Pakistan 900 kv.km. ərazi qazandı. **Kaç Ranı** hadisələrindəki hərbi üstünlük Kəşmir məsələsində Pakistanı güc vasitələrinə üstünlük verməyə meylləndirdi...

**1948–ci illərdəki I Hindistan-Pakistan savaşının nəticələrinə əsasən Kəşmir ştatı iki düşmənçilik edən hissəyə bölünmüşdü.** Pakistan ştatın hind hissəsində nəzarəti həyata keçirməyə ümid qoymamışdı. Pakistan xüsusi xidmət orqanları 1965-ci ilin avqust ayında Kəşmirin hind hissəsinə hazırlıqlı təxribatçılar göndərərək orada üsyan qaldıraraq sonra Hindistana qarşı partizan müharibəsinə çevirməyə çalışdı. "Qibraltar" kod adı altında həyata keçirilən bu əməliyyat uğursuzluqla nəticələndi. 15 avqustda Hind ordusu təxribatçıların düşərgələrini darmadağın etmək üçün ştatın Pakistan hissəsinə hücuma keçdi.Buradakı 12-ci Pakistan diviziyası hücumun qarşısını ala bilmədi və çox tezliklə Hindistan qüvvələri Pakistan Kəşmirinin "paytaxtı" Müzəffərabada təhlükə yaratmışdılar. 12-ci Pakistan diviziyasına düşmənin təzyiqini azaltmaq üçün Pakistan komandanlığı sentyabrın 1-də Kəşmirin Hindistanın nəzarətində olan hissəsinə geniş hücum (**Grand Slam** əməliyyatı) əmri verdi. Bu andan müharibə açıq müstəviyə keçdi. Birinci dəfə olaraq, Hindistan hərbi əməliyyatları

Kəşmir sınırlarından çıxararaq Pakistan böyük şəhərlərindən biri Lahora tərəf hücuma keçdi. Ordu Lahora çatdıqdan sonra əks-hücumla Pakistan ordusu Hindistan ordusunu geri atmağa müvəffəq oldu.

Sonra Pakistan ordusunun fəxri 1-ci tank diviziyası hind şəhəri Amritsar istiqamətində irəliləyərək, bu şəhəri tutmaq tapşırığını yerinə yetirmək istərkən Asal-Uttar kəndi yaxınlığında pusquya düşdü və Hind- Pakistan müharibəsinin bu ən məşhur döyüşündə böyük itkilər verdi. Hindlilər də öz növbəsində Sialkot istiqamətində pakistanlıların müdafiəsini yara bilmədilər, hərçənd gərgin döyüşlərdən sonra Fillor yaşayış məntəqəsini ələ keçirə bildilər. Şərqi Pakistanda tərəflərin aviasiyası əsgəri dislokasiya *(qoşunun müəyyən ərazidə yerləşməsi)* yerlərini və təchizat bazalarını müntəzəm bombalasa da, bu bölgədə xüsusi qızğınlıqla döyüşlər getmirdi.Bir sözlə, 1965-ci ilin avqust-sentyabrında baş verən ikinci Hindistan-Pakistan savaşı rus qaynaqlarına görə, Pakistanın Kəşmirin hind hissəsində üsyan qaldırma cəhdindən başlayaraq, Hindistan-Pakistan sərhəd bölgəsində münaqişəyə dönüşdü.

Bu hərbi əməliyyatların qalibi olmadı –BMT Təhlükəsizlik Şurasının 22 sentyabr tarixli qətnaməsindən bir gün sonra–sentyabrın 23-də bu qanlı döyüşlər dayandırıldı.

1966-cı ildə SSRİ-nin vasitəçiliyi ilə Pakistan prezidenti Ayyub Xan Muhammed və Hindistanın baş naziri Lal Bahadur Şastri Daşkənd bəyannaməsini imzalayaraq müharibənin nəticələrində razılığa gəldilər. 1965-ci il Hindistan-Pakistan savaşı hər hansı tərəfin qəti qələbəsi ilə sonuclanmadı. Həm Hindistanda, həm də Pakistanda dövlət təbliğatı müharibənin uğurla başa çatdığını bildirirdi. Müstəqil müşahidəçilərin rəyinə görə, savaş 23 sentyabrdan sonra da davam etsəydi, yekun uğur Hindistanın tərəfində olacaqdı...

1971-ci ildə Hindistanın Şərqi Pakistandakı vətəndaş müharibəsinə müdaxilə etməsi III Hindistan-Pakistan savaşına səbəb oldu: sonucda Pakistan uğursuzluğa düçar oldu: Şərqi Pakistan müstəqillik əldə edərək o ərazidə Banqladeş dövləti yaradıldı.

**Ədəbiyyat:**
http://ru.wikipedia.org/wiki/

***

**Qeyd:** *Xatırladırıq ki, yuxarıda bəhs olunan olaylar dönəmində embarqo uyqulanması sonucunda Pakistan Çinlə, Hindistan isə SSRİ ilə sıcaq münasibətlərə malik idi. O baxımdan da istər Qafqazlar, istər Anadolu, istər Orta Asiya, istərsə də Kəşmir olayları olsun, həm SSRİ-nin, həm də onun varisi indiki Rusiya Federasiyasının (sələfləri çar Rusiyasının imperialist tutumuna uyğun) mövqeləri siyasiləşmişdir. Ola bilər ki, Pakistan və onun Hindistanla bağlı müharibələri, Kəşmir sorunu, Banqladeşin yaranması ilə bağlı proseslər və s. barədə yuxarıda Rusiya qaynağından alaraq sizə şərh vermədən təqdim etdiyimiz qiymətləndirmə tərəfsiz olmasın. – Hindistan və Britaniya qaynaqlarının təsirilə formalaşmış olsun. Ona görə də Kəşmir sorunu ilə bağlı bölümdə olduğu kimi, Hindistan-Pakistan savaşları ilə bağlı bu bölümdə də sizi Pakistan tərəfin təqdim etdiyi faktlara diqqət etməyə dəvət edirik:*



## II HİNDİSTAN- PAKİSTAN SAVAŞI: FAKTLARIN DİLİ İLƏ



*"Ölkənin müdafiəsinin möhkəmlənməsində hər birinizin oynayacaq mühüm rolu var və şüarınız birlik, inam və intizam olmalıdır. Siz ölkənizin miqyasının kiçik olmasını şücaət və vəzifənizə fədakarcasına sədaqətinizlə əvəz etməlisiniz, çünki əhəmiyyət kəsb edən həyat deyil, məhz həyata gətirdiyiniz şücaət, mətanət və qətiyyətdir".*
***(Kaide Azım Məhəmməd Əli Cinna)***

Qırx altı il bundan öncə -1965-ci il 6 sentyabr tarixində beynəlxalq forumlarda beynəlxalq sərhədləri aşmayacağı barədə verilən vəd və bəyanatların əksinə olaraq Hindistan ordusu Vaqah sərhədini keçərək Lahora tərəf hərəkətə keçdi. Bu hücum ikinci Hindistan-Pakistan müharibəsilə nəticələndi. Bu, Pakistan Silahlı Qüvvələrinin və Pakistan xalqının ölkənin müdafiəsi üçün birləşdiyi və öz düşməninə qarşı nümunəvi cəsarət, şücaət və igidlik göstərdiyi bir an idı.




Pakistan Ordusunun qəhrəman oğulları düşmənin işğalçı həmləsinə cavab olaraq, Hindistan torpaqlarını ələ keçirməklə müstəsna qəhrəmanlıq göstərmişlər. İkinci Cahan Savaşından sonra öz miqyasına görə ən böyük amansız tank döyüşü Sialkot bölgəsinin Çavinda ərazisində baş vermişdi. Hərbi dəniz qüvvələri hücuma keçib Dvareka limanında Hindistan hərbi hava qüvvələrini susdurmuşdu.



*Pakistan əsgərləri tank əleyhinə topla*



*Ələ keçirilmiş Hindistan artilleriyasının topları*



Pakistan Hərbi Hava Qüvvələri (PHQ) quru qoşunlarına müstəsna surətdə təcili və nümunəvi yardım göstərmişdir... 1965-ci il savaşında Pakistan Hava Qüvvələri rəqibinə güclü zərbə vurmuş və onu şok və proqnozlaşdırılmayan taktikalar altında təlaşda saxlayaraq düşməni alçaldıcı şəkildə məğlub etmişdi...

Beləliklə də, sayca daha az olan Pakistan Hərbi Hava Qüvvələri özündən 4 dəfə üstün olan qüvvələr üzərində qələbə çaldı, onun hava hücumundan müdafiə nəzarətçiləri, mühəndisləri, maddi-texniki təminat mütəxəssisləri də pilotları qədər qəhrəmandırlar.

"Times of İndia" qəzeti tədqiqat illərindən sonra 1992-ci ildə Hindistan Müdafiə Nazirliyi tərəfindən tamamlanmış, lakin həmin dövrdən gizli saxlanılan 1965-ci il müharibəsinin rəsmi xronologiyasının nüsxəsini əldə etmişdir. Şovinist jurnalistika ilə ümumiləşdirilmiş müasir hesabatlar bu müharibəni demək olar ki, hər bir cəbhə üzərində parlaq qələbə kimi göstərmişdir. Lakin rəsmi tarixçilərin cəhdlərinə baxmayaraq gizlədilməsi mümkün olmayan həqiqət ondan ibarətdir ki, çox görkəmli komandanlardan biri general-leytenant Hərbaxş Sinqxin sözlərinə görə həmin müharibə "**itirilmiş qələbələrin siyahısıydı**".

1965-ci il müharibəsi Napoleonun "dünyada yalnız iki qüvvə mövcuddur, qılınc və ruh" məşhur deyiminin həqiqi təsvirini əks etdirdi. Müharibə ərzində xarici jurnalistlərin aşağıda verilmiş müşahidələri həmçinin Pakistan xalqının bu qılınc və ruhunun fantastik vəhdətinin sübutudur.



15 sentyabr 1965-ci il tarixində Amerika Yayım Korporasiyasının əməkdaşı Roy Maloni demişdi, "**artıq iyirmi il təcrübəsi olan bir jurnalistəm və açıq bildirmək istəyirəm ki, mən heç vaxt hal-hazırda Pakistan uğrunda döyüş aparan əsgərlərdən başqa daha əmin və qalib əsgərlər qrupu görməmişəm**".

17 sentyabr tarixində "*Time Magazine*" yazmışdı ki, "**Pakistanın kiçik lakin yüksək hazırlıqlı ordusu Hindistanlılar üçün bərabər rəqib olmaqdan daha üstündür**".

Sentyabr 1965-ci il tarixli *London Daily Mirror* qəzetinə görə "**Hindistan, əhalisi ondan 4,5 dəfə, silahlı qüvvələri isə 3 dəfə az olan xalq tərəfindən tamamilə məğlub edilir**".

Eyni fikirlər 16 sentyabr tarixli India Times qəzetində də nəşr edilmişdi "**Bütün cəbhələrdə düşmənin (Pakistanın) qəzəblə mübarizə aparmasından aydın idi ki, Pakistan ərazisində irəliləmək Hindistan ordusu üçün asan deyildi**".

Times of İndia qəzeti Hindistanın iki yüksək rütbəli Ordu zabitlərindən sitat gətirir "**Pakistan Ordusu pərakəndə dəstədən yox peşəkar əsgərlərdən ibarətdir**".

Bu gün bizim üçün bir millət kimi əhəmiyyətlidir, çünki Hindistanın Pakistana qarşı başladığı müharibədə biz, Hindistanın çoxölçülü hücumlarını dayandırmaq və dəf etmək məqsədi və qərarı üzrə birləşmiş bir millət kimi mübarizə aparırdıq. Müharibə ərzində ölkənin hər bir vətəndaşı hökumətin arxasında olmuşdur. O günlərdə milli prioritetlər aydın və qəti olmuşdur, ölkə üçün hər hansı təhlükə birlik və eləcə də hökumət və silahlı qüvvələrə sonsuz dəstək tələb edirdi. Hər hansı siyasi partiyanın və ya liderin müharibədən xeyir götürüb siyasi və ya şəxsi qazanclar üçün hökuməti qınamaq kimi məsələlər yox idi. Pakistanın ürəyi olan Lahor 1965-ci ildə müharibənin başladığı anda fərqli mövqe qazanmışdır. Bir tərəfdən o, düşmən hücumlarının, boş lovğalıqların və təbliğat xarakterli iddiaların hədəfi idi, digər tərəfdən isə onun vətəndaşları bu səhnədə Pakistanın əks-hücumlarının iştirakçıları olmuşlar. O zaman sərhəddə olan düşmən vacib olan yenə məsələ idi və onun qarşısını təkcə cəbhədəki əsgərlər deyil, həmçinin tam dəstək verən əhali almalı idi.

Hindistan Pakistan qüvvələrinin və əhalisinin vətənpərvərliyinə müqavimət göstərə bilmədi və 22 günlük müharibədən sonra atəşkəs razılaşması imzaladı.

Millətin dəstəyi ilə Pakistanın silahlı qüvvələri beynəlxalq sərhəddə Hindistanın açıq təcavüzünü dəf etdi, **Hindistandan dörd dəfə çox ərazini tutmaqla onu haqq ödəməyə, atəşkəs elan etməyə və danışıqlara gəlməyə və bir-birinin ərazisini boşaltmağa məcbur etdi...**

Atəşkəs bağlandığı zaman düşmənin Pakistanda zəbt etdiyi əraziyə nisbətən Pakistan daha çox Hindistan ərazısini işğal etmişdi. Hətta Time jurnalı bildirdi ki, **"hər iki tərəfin iddialarına baxmayaraq pərt edən fakt bu idi ki, Xem Karan Pakistan administrasiyasının nəzarəti altındadır".**



*Pakistan əsgərləri Xem Karanda*

27 sentyabr tarixində Kanadanın Globe and Mail qəzeti yazır: **"Pakistanlılar hələ də Xem Karan və onun üç mil Hindistan ərazisinə qədər uzanan altı millik ərazisini əldə saxlayırlar. Görünür buna görə də Yeni Dehlidəki dövlət qulluqçularına bu barədə heç nə deyilməmişdi. Onlar qəbul etmək istəmirdilər ki, Pakistan Hindistan Pəncabında sabit mövqe qazanmışdır".**



*General Musa Xem Karan Dəmiryol Stansiyasında*

Hindistan daha çox itkilər vermişdi, iki tərəf arasındakı nisbət 1:3 olaraq Hindistanın əleyhinə idi. Pakistan Hindistana nisbətən daha çox əsir götürmüşdü. *Danışılmayan Hekayədə*, general-leytenant B.M. Kaul qeyd edir: **"Bütün deyə biləcəyim budur ki, etməli olduğumuz işi-bizdən daha kiçik bir güc olan – Pakistanı məğlub edə bilmədik".**


*Pakistan əsgəri Munabadda*


*Kişangarh Qalası Pakistan ordusu tərəfindən tutulub*



***

Pakistan milləti ana vətənlərini qoruyarkən həyatlarını verdikləri 1965-ci il Şühədasını (Şəhidlərini) heç vaxt unutmayacaqlar. Pakistan xalqı 6 sentyabr 1965-ci il şəhidlərinin ruhunu yaşatmalı və ölkəni yaradan atalarının düşündüyü kimi ölkəni inkişaf etmiş, elmli, demokratik və hamının firavan yaşadığı İslam dövləti etməlidirlər.

***(Qaynaq: Pakistanın Azərbaycandakı Səfirliyinin rəsmi məlumatı)***

**Bakı. "Happy İnn Hotel".** *Pakistanın Azərbaycandakı Səfiri cənab İnayat Ullah Kakarın və Pakistanın Azərbaycandakı Səfirliyinin hərbi attaşesi Colonel Rizwan Afzal Malikin rəhbərliyi ilə təntənəli şəkildə keçirilmiş bir sıra xarici ölkə nümayəndəliklərinin də qatıldığı Pakistanın Ordu Günü (Defence Day) münasibətilə rəsmi törəndən anılar*


















# UKRAYNA XALQININ QORXUNC TARİXİ FACİƏSİ

### UKRAYNADA "QOLODOMOR" ACISI

**Hər il Ukraynada noyabrın son şənbə günü (2012-ci ildə bu tarix 24 noyabra təsadüf edir) "Qolodomor"** ( ingiliscə: *Holodomor*) **faciəsi və siyasi repressiya qurbanlarının anım günü qeyd olunur.**

Ukrayna prezidenti ictimai təşkilatların, Mədəniyyət və İncəsənət Nazirliyinin, Dini İşlər üzrə Dövlət Komitəsinin, Dövlət Televiziya və Radioverilişləri Komitəsinin təşəbbüsünü dəstəkləyərək, Respublikada "Qolodomor" faciəsi və siyasi repressiya qurbanlarının anım gününü təyin etmək haqda sərəncam imzaladı.

Öncəliklə, Ukrayna prezidentinin 26 noyabr 1998-ci il tarixli fərmanı ilə noyabrın son şənbə günü "Qolodomor" faciəsi qurbanlarının anım günü kimi müəyyən edildi. Ancaq daha sonra, 31 oktyabr 2000-ci il tarixli fərmanla bu gün "Qolodomor" faciəsi və siyasi repressiya qurbanlarını anma günü kimi qeyd olunmağa başladı.

**2002-ci ildə Ukrayna 1932—33-cü illərdə Respublika əhalisinin aclıqla kütləvi qırılmasının 70-ci hüzn ilini qeyd etdi. Tədbirlərdə Respublika rəhbərliyi "Qolodomor" faciəsinin beynəlxalq səviyyədə rəsmi olaraq Ukrayna xalqının "soyqırımı" kimi tanınması xüsusunda israrlı tələblərdə bulunurdu.**

İnqilabdan sonrakı Rusiya dönəmində birinci **"qolodomor"** 1921–22-ci illərdəki "Povoljye aclığı" kimi tanınır. Ancaq əslində güclü quraqlıq nəticəsində məhsul məhv olmuş, sonda təkcə Povoljye deyil, Güney Uralın və Sibirin əksər quberniyaları, Qazaxıstanın guzey bölgələri, Krım, Ukrayna və başqa vilayət və məmləkətlər də (bəzi bilgilərə görə, bu zaman 30 milyon insan) aclığa məruz qalmışdılar. P.N.Popovun hesablamalarına görə, bu zaman 5,2 milyon nəfər, başqa hesablamalarına görə isə, 7 milyon nəfər həlak olmuşdu.

İkinci aclıqla qırılma dalğası 1932-33-cü illəri əhatə edir. Bu vaxt aralığında isə SSRİ üzrə rəsmi rəqəmlərə görə 9 milyon nəfər, qeyri-rəsmi rəqəmlərə görə 13 milyon nəfər insan aclıqdan həlak olmuşdu.

***

### 2012-Cİ İL 20 MAY, BAZAR GÜNÜ – UKRAYNANIN QOLODOMOR VƏ SİYASİ REPRESSİYA (CƏZA TƏDBİRLƏRİ –X.İ.) QURBANLARINI ANMA GÜNÜ

2007-ci ildən etibarən hər il may ayının üçüncü bazar günü 1937 – 1938-ci illərdə Ukraynada siyasi repressiyalar nəticəsində qurban getmiş şəxsləri kədərlə yad etmə günüdür. Ölkədəki anım tədbirləri Ukrayna Prezidentinin 431/2007 saylı 21 may 2007-ci il tarixli Sərəncamı – **«Про заходи у звязку з 70-ми роковинами Великого терору – масових політичних репресій 1937 – 1938 років»** – ilə həyata keçirilir.

Məlum olduğu kimi, Ümumittifaq Kommunist (Bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunun "Sovet əleyhinə ünsürlər haqqında" 2 iyun 1937-ci il tarixli qərarına dayanaraq Sovet Sosialist Respublikaları İttifaqı Daxili İşlər Xalq Komissarlığı 0044 saylı 5 avqust 1937-ci il tarixli əmri ilə kütləvi cəza tədbirlərinin başlanğıcını qoydu.

1938-ci ilin noyabrında 681692 nəfər ölüm cəzasına məhkum edilmiş, 1,7 milyondan artıq insan düşərgələrə sürülmüşdür.

Ukrayna Təhlükəsizlik Xidmətinin (UTX) gizli arxiv və sənədlərinin açılması nəticəsində aydın olmuşdur ki, 1935-1951-ci il aralığında Ukraynada 2 milyon 800 min nəfər sakin qolçomaqlıqdan salınma prosesinin qurbanı olmuşdur.

1936-cı ildə 15717, 1937-ci ildə 159537, 1938- ci ildə 106096, 1939- cu ildə isə 11744 nəfəri həbs etmiş, 1937-ci ildə təqribən 16,5 min nəfəri güllələmişlər.

Bu səbəbdən də Prezident UTX-yə həvalə etmişdir ki, 1937-1938-ci illər cəza tədbirləri ilə bağlı sənəd və materialları toplayaraq kitab kimi nəşr etsin, xarici dillərdə ölkədən kənarda yayımını təmin etsin. Bundan başqa, Ukrayna Prezidentinin sərəncamı ilə məktəb və digər təhsil müəssisələrində bu mövzuda dərslərin keçirilməsi tələb olunur.

***



Фото: president.gov.ua

Жертвы голодомора-1933 год

**Примерные подсчеты показали, что по закону о трех колосках было осуждено около 200 тыс. украинцев.**

"Qolodomor" faciəsi nəticəsində həlak olanların sayı barədə son, dəqiq məlumatlara görə, bu say 3 milyon 941 min nəfərdir. Kiyev şəhər Apelyasiya məhkəməsinin 13 yanvar 2010-cu il tarixli hökmünün ittiham hissəsində də bu rəqəm əks olunaraq, faciənin təşkilatçısı kimi İosif Stalinin və digər SSRİ və Ukrayna SSR hökumət nümayəndələrinin adları (cəmi 7 nəfər) bəlli olmuşdur. Ukraynalı etnosunun doğulmamış qisminə görə uğradığı itkilərlə bağlı statistika da müxtəlif qaynaqlarda bir-birindən fərqlənir: Britannik ensiklopediyasının elektron versiyasına görə, 1932-1933-cü ildə 4-5 milyon etnik ukraynalı qurban getmişdir, Brokhauz ensiklopediyasın görə, isə bu itkilər 4-7 milyon civarındadır. Ukrayna Təhlükəsizlik Xidmətinin sorğularına əsasən hesablamalara görə, ukrayalı etnosunun doğulmamış qisminə görə uğradığı itki



6 milyon 122 min nəfərdir. Xatırladaq ki, bu rəqəm qolodomorla bağlı cinayət işinin materiallarına daxil edilmişdir.

Uzun sürə (sovetlər dönəmidə) Qolodomor mövzusu daxildə yasaqlansa da, Qərbdə bu haqda qəzetlərdə yazılar dərc olunur və müvafiq aksiyalar keçirilirdi. II Dünya Savaşından sonra ukraynalıların cəm olduğu ABŞ-da, Kanadada xüsusilə 1970-ci illərin sonu – 1980-ci illərin başlanğıcında bu məsələ daha fəal şəkildə müzakirə və tədqiq olunurdu.

SSRİ məkanında Qolodomorun müzakirəsi "yenidənqurma" dönəmində – 1980-ci ilin sonlarında başladı. 1990-cı illərin ortalarında **"Qolodomor"** *("1932-1933-cü illərdə Ukraynada böyük aclıq" mənasında)* beynəlxalq sənədlərə daxil oldu. 1921-1923 –cü və 1946-1947-ci illər qolodomorları yuxarıdakı anlamda işlənmir, ancaq həmin mövzudakı elmi araşdırmalarda *ukraynalıları Ukrayna ərazisində "aclıqla sakitləşdirmə"* kimi adlandırılır.










**Ədəbiyyat:**

1. http://www.calend.ru/ holidays/
2. http://webplus.info/
3. http://cards.tochka.net/
4. http://ru.wikipedia.org/
5. http://ru.wikipedia.org/wiki/

## ORTA ASİYADA DAŞNAK FACİƏLƏRİ

Qafqazdan sonra Orta Asiya da rusların işğalına məruz qalmışdır. Hələ 1839-cu ildən etibarən Rusiya bu istiqamətdə ilk silahlı hücumu həyata keçirmiş, vaxtilə nüfuzu olan Kokand xanlığı darmadağın edilərək, Daşkənd də Rusiyanın tərkibinə qatılmış, tezliklə Xivə və Buxara xanlıqları da vassala çevrilmişdilər...

Aşağıda bəhs olunan hadisələrin baş verdiyi dönəmdə indiki Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistanı xatırladan xüsusi bir nəsnə yox idi. O vaxtlar Rusiya İmperiyası Orta Asiya bölgəsi ərazilərində Ural, Turqay, Akmola, Semipalatinsk, Semireçensk, Fərqanə, Sır-Dərya, Səmərqənd və Zakaspi vilayətləri, muxtarlıqlarını bu və ya başqa şəkildə saxlaya bilmiş Buxara əmirliyi və Xivə xanlığı inzibati subyektlərini yaratmışdı ( 1 ) ...

***

Çar Rusiyasının və bolşeviklərin aləti olan daşnaklara gəldikdə isə, I Dünya Savaşı dönəmində onların törətdikləri zəncirvari vəhşiliklər Anadolu, Qafqaz, İran bölgəsi ilə qısıtlı qalmayıb, Orta Asiya bölgələrinə də sıçramışdı.

1918-ci ilin fevralında Fərqanə vadisində Çust və Kokandda baş verən müdhiş hadisələr Mərkəzi Aziyada milli-demokratik dövlət qurulmasına cəhd–körpü olan Kokand muxtariyyətinin qanda boğulması ilə nəticələnmişdi...

Bolşeviklərin müəssisələrdə öz təbliğatlarını qurması, Daşkənd, Aşqabad və digər şəhər ziyalıları arasında başqa siyasi partiyaların fəal iş aparması, *özgə xalqdan olanlar* (**инородец** – çar Rusiyasında: əksəriyyətlə ölkənin şərq əyalətlərində yaşayan xalqların nümayəndələrinə verilən ad) – müsəlmanlar sırasında da oyanışa səbəb oldu: Osmanlı İmperiyasında gənctürklərin tələb etdiyi islahatların nümunəsində Buxara əmirliyində dəyişikliklər tələb edən gəncbuxaraçıların hərəkatı möhkəmlənməyə başladı. Onların sırasından yetişən parlaq öndərlərdən biri də 25 dekabr 1890-cı ildə Perovsk (indiki: Qızılorda) yaxınlığında, Sırdərya çayı üzərindəki qazax aulunda anadan olmuş Mustafa Çokay (Şokay) idi. Mustafa Şokay Çöl aristokratları soyundan idi, onun babası Xivə xanının idarə müdiri, atası isə xalq arasında hörməti olan hakim idi...

3 iyul 1907-ci ildə çar II Nikolayın sərəncamı ilə Sibir və Orta Asiyanın yerli (aborigen) xalqları seçki hüququndan məhrum edilmiş, bununla da bu xalqlar Rusiya Dumasındakı cüzi təmsilçiliyini də itirmişdilər. Ancaq qazax siyasətçiləri və ziyalıları belə bir alçaldıcı və acınacaqlı durumla barışmayaraq hər vasitə ilə öz xalqlarının maraqları uğrunda mübarizələrini davam etdirirdilər. Dövlət Dumasının I çağırış deputatı, kadet Alixan Bukeyxanov hələ 1913-cü ildə IV Rusiya Dövlət Dumasının müsəlman fraksiyasının katibi vəzifəsinə Petroqrad Universitetinin tələbəsi (hələ 1916-cı ildə bu ali məktəbi əla qiymətlə bitirəcək) Mustafa Şokayı namizəd göstərmişdi. Sonralar Şokay Başqırdıstandan deputat seçkisinə qatılacaqdı, həm də qazax xalqının mənafelərindən çıxış etmək üçün **( 1 )**.

Ufa mülkədarı Selimgirey Janturin Mustafaya zəruri miqdarda torpaq sahəsi bağışlayaraq onun Dumaya namizəd göstərilməsinə razılıq verdi. Dumada çalışarkən Şokay Rusiyanın müsəlman öndərləri ilə tanış oldu və Əhməd Zəki Validi *(Başqırd Muxtariyyətinin gələcək başçısı)* ilə dostlaşdı...

25 iyun 1916-cı ildə I Dünya Savaşının qızğın çağında çar II Nikolay "Özgə xalqdan olanların müsadirəsi" (**"О реквизиции инородцев"**) adlı sərəncam imzaladı. Başqa sözlə, 19-43 yaşlarında olan yerli Türküstan və Çöl əhalisi (sovetlər dönəmindəki "stroybat"a cəlb olunanlar kimi) arxa cəbhə işləriylə – səngər qazmaqla məşğul olmalı idi. Sərəncam Ramazan ayına və kənd təsərrüfatı işlərinin qaynar dövrünə təsadüf



etmişdi ki, bu da bütün xalqın qəzəbinə səbəb oldu: Türküstan və Çöl ölkəsində güclü üsyan başladı **( 1 )**.

Dövlət Duması bu olayların "səbəblərini" yeni-yeni araşdırmağa başlayırdı ki, Fevral İnqilabı baş verdi və II Nikolay taxtdan kənarlaşdırıldı. Şokay öz silahdaşları ilə Petroqraddan vətənə – Türküstana döndü. Onunla qatarda Daşkəndə yollanaraq, burada öz hakimiyyətlərini qurmaq üçün təbliğata gələn sovetlərin emissarları da vardı.

Mustafa Şokay öncə təbliğata önəm verərək ana dilində, özgürlük ideyaları aşılayan "Birlik Tui" ("Birlik bayrağı") və rusca, demokratik dəyərlər təbliğ edən"Svobodnıy Turkestan" ("Azad Türküstan") qəzetlərini nəşr etməyə başladı.

1917-ci ilin aprelində Daşkənddə ictimai təşkilatların Türküstan qurultayında iştirak edən 27 yaşlı Şokay Türküstan Milli Şurasının Daimi İcraiyyə Komitəsinin sədri görəvinə yüksəldi.

21-28 iyul 1917-ci ildə o, əsasən qazaxların məskunlaşdığı Sır-Dərya vilayətinin nümayəndəsi kimi I Ümumqırğız (Ümumqazax) qurultayına (Orenburqda) qatılaraq, Ümumrusiya Müəssislər Məclisinə və Ümumrusiya Müsəlmanlarının "Şurai-İslam" adlanan qurultayına nümayəndə seçildi. Daha sonra Müvəqqəti Hökumətin Türküstan Komitəsinin tərkibinə daxil edildi...

13 sentyabr 1917-ci ildə bolşeviklər Daşkənddə fəallaşdılar. 29 oktyabrda şəhər artıq tamamilə sovetlərin sərəncamına keçdi. 25 oktyabrda bolşevik devrimi nəticəsində hakimiyyətdən salınmış Müvəqqəti hökumətin Türküstan Komitəsinin üzvlərinin həbsi barədə qərar verildi. Mustafa Şokayın başına 1000 rublluq mükafat təyin edildi. Şokay öz tərəfdarları ilə Daşkəndi tərk edərək Fərqanə vadisinə, 40 il öncə Rusiya tərəfindən darmadağın edilmiş Kokand xanlığının əski başkəndi Kokanda sığınaraq bu bölgədə antiimperialist əhval-ruhiyyənin güclü olduğunu nəzərə alıb burada fəaliyyətlərini davam etdirdilər.

27 noyabr 1917-ci ildə Bütün Müsəlmanların IV Fövqəladə Qurultayında Türküstan müvəqqəti şurasının rəhbərliyi ilə **Turkeston muxtoriati** elan edildi. Şuranın sədri vəzifəsinə Muhammedcan Tınışpayev, xarici işlər naziri postuna Mustafa Şokay gətirildi. Ancaq Tınışpayevin tezliklə görəvdən uzaqlaşmasından sonra fikir ayrılıqları yarandı, nəticədə Şuranın sədri vəzifəsinə Mustafa Şokay seçildi.

Milli partiyanın, kadr, təcrübə və ən əsası, ordunun olmaması, bolşeviklərin dağıdıcı gücü qarşısında Türküstan muxtariyyətini çıxılmaz duruma saldı.

12 noyabr 1917-ci ildə Rusiyada Müəssislər Məclisinə seçkilərdə bolşeviklərin 23,9% səsinə qarşı eserlər 40,4% səs toplasalar da, Müəssislər Məclisinə dəstək nümayişi gülləyə tutuldu, proletariat diktaturası və qırmızı terror bütün demokratik hərəkatların qapısını bağladı.

Ancaq Türküstan öz istiqlaliyyətinə cəhd etməyi qərara aldı. Türküstan muxtariyyətinin başçısı Şokay həmçinin Orenburqda keçirilmiş II Ümumqırğız qurultayında elan olunan Alaş (Qazax) muxtariyyətinin "Alaş-Orda" hökumətinin üzvü seçildi...

Kokand hökuməti 20 mart 1918-ci ildə birbaşa, bərabər əsaslarla, gizli səsvermə yolu ilə **2** *(müsəlmanlar)*: **1** *(qeyri- müsəlmanlar)* mandat sayı nisbətilə parlament seçkiləri keçirmək niyyətində olduğunu bildirdi. Eyni zamanda Daşkənddə sırasına heç bir yerli sakini almayan– 14 nəfər üzvü olan Türküstan Sovet Respublikası (rusca: *TASSR*) elan edildi. Bu qurumun xalq komissarları sovetinin sədri, az öncə Daşkənd dəmiryolunda kontorçu işləmiş Fyodor Kolesov *müsəlmanları yuxarı hakimiyyət orqanlarına buraxmağın mümkünsüz olduğunu, həmçinin onların proletar təşkilatlarına malik olmadıqlarını söyləyirdi.*

Türküstan sovetlərinin IV qurultayında (19-26 yanvar 1918-ci il) Kokand muxtariyyəti hökuməti qanunsuz elan olunaraq rəhbərlərinin tutulması istəndi. Türküstan muxtariyyətinin elan edilməsi gerçəkliyi isə təhrif olunaraq, *"əksinqilabi ünsürlərin müsəlman burjuaziyası və qara kütlələr içərisində dayaq axtarma cəhdi"* kimi

qələmə verilərək, bu muxtariyyətin darmadağın olunması üçün Moskvadan Daşkəndə 11 eşelon (qədəmə) əsgəri qüvvə və artilleriya yetişdi. Sonradan çoxlarının öz xatirələrində qeyd etdikləri kimi, Kokand üzərinə göndərilən hərbi qüvvələrin özəyi silahlı daşnaklardan ibarət idi ( 1)...

***

Orta Asiyada daşnakların fəaliyyəti və Türküstan muxtariyyətinin boğulmasında rolu, yuxarıda da göstərdiyimiz kimi, maraq doğuran mövzulardandır.

Bir çoxlarının xatirələrindən anlaşıldığı kimi, çarlıq dönəmində Rusiyanın Orta Asiyaya köçürdüyü əhali arasında erməni sənətkarları və tacirləri də az deyildi. Bəzi məlumatlara görə, Kopetdağ dağ silsiləsi bölgəsində də Rusiya Şimali Qafqazda mövcud olmuş kazak stanitsaları (kəndləri) və erməni qəsəbələri zənciri (silsiləsi) yaratmağa cəhd etmişdi.

***

Nuraninin də yazdığı kimi, daşnaklar Rusiya (bolşevik) ordusuna soxularaq, demək olar ki tamamilə, öz komandan və "politruk"larını *(siyasi rəhbər)* da dəyişmədən Orta Asiya milli dirçəliş hərəkatını pantürkizmə bağlayaraq onun mücəssəməsi olan Kokand muxtariyyətini öz mövcudluğunun 64-cü günündə –13 fevral 1918-ci ildə dinc sakinləri ilə birgə qan gölündə boğdular ( 1 ).

"...Şamaqdiyev təsdiq edir ki, 15 ay ərzində Daşkənd (*Daşkənd Soveti* –red.) tərəfindən muzdla tutulmuş erməni daşnakları 20000 nəfəri əzab verərək öldürdülər və o, etiraf edir ki, yerli qırmızı qvardiyaçı hissələr "intizama tabe olmurdular... və (yerli) əhalinin əmlakını müsadirə etməklə özlərini təmin edirdilər..." (2: s.56).

M.Z.Sadıxlı "Tarix sənə cavab verəcək..." kitabında bu hadisələrlə bağlı türküstanlı bolşevik RSFSR Xalq Komissarları Sovetinin sədr müavini Turar Rıskulovun xatirələri ilə tanış olmağı tövsiyə edir ( 1 ). Başqa sözlə, Turar Rıskulovun "İnqilab və Türküstanın köklü əhalisi" kitabında "Daşnaklar Fərqanədə nələr etdilər" bölümü məhz bu olaylara həsr olunub: "Kokandda üsyanın boğulduğu doqquz gün ərzindəki tozanaq altında müxtəlif soyğunçuluqlar da həyata keçirildi. Hesablarını düzgün götürən daşnaklar dərhal pul yığmağa girişdilər və şəhər "təmizlənmə"yə məruz qaldı." Yenə də, Rıskulovun yazdığına görə, daşnaklar Kokanda ayaq basdıqdan sonra "ermənilərin tacir təbəqəsi də qəzəbli "inqilabçı"lara çevrildi" və şəhərin darmadağın edilməsinə girişən dəstələrə qoşuldu. Mağazalar darmadağın edildi. Anbarlara geri götürülən mallardan başqa yerdə qalanları yandırıldı. Kütləvi qətllər baş verdi. Əndicanda üsyandan sonra həmin daşnaklardan ibarət qarnizon bütövlükdə köhnə şəhəri günahkar elan etdi və orada axtarış aparılmasına dair qərar qəbul olundu. Həftə ərzində sürən axtarış soyğunçuluq, qətllər və zorlamalarla müşayiət olundu ( 3: s.105-108).

İngilis tədqiqatçıları (və onlara istinad edən başqa müəlliflər) yazırlar ki, qırğına məruz qalan yerli əhalinin sayını dəqiq müəyyən etmək mümkün olmasa da, bircə şeyi qeyd etmək olar ki, şübhəsiz, bu böyük say təşkil edir. Kokandın əhalisi 1897-ci ildə 120000 nəfər idisə, bu say 1926-cı ildə 69300-yə enmişdi. Şəhər dağıdılmış və yandırılmışdı. Sadıxlının göstərdiyi kimi, "boşeviklərin bu müttəfiqləri Türküstan kasıblarının gözü qarşısında özlərini o qədər etibardan salmışdılar ki, Fərqanə kommunistlərinin xahişi ilə bölgədə məsələ beləcə qəti şəkildə qoyulmuşdu: "Türküstan hökuməti "Daşnaksütyun" partiyası ilə münasibətləri kəsməyi qərara alır, əks halda faktlar erməni millətçi partiyası "Daşnaksütyun"un mahiyyətini birdəfəlik ifşa edəcəkdir" ( 1 ).



"Daşnaksütyun"un əksinqilabçı cəbhəyə sayılması da Orta Asiyada qüvvə paylaşmasında dəyişikliyə gətirib çıxarmadı: 1922-ci ildə isə Türküstan cəbhəsindəki komandan Semyon Budyonnını Qaspar Voskanov əvəz etdi. Ona qarşı dayanan Türkiyədən mühacirət etmiş ünlü Ənvər paşa idi. Ənvər paşa öncə Britaniya Hindistanının müsəlman əhalisi arasında qiyam qaldırmaq istədi, ancaq sonra basmaçılara, daha doğrusu, Orta Asiya əhalisinin üsyançı hərəkatına qoşuldu. Bundan sonra Lenin, Trotski və Dzerjinski Türküstan cəbhəsinə teleqramlar yağdıraraq Ənvər paşanı diri tutmaq əmri verməyə başladılar. Bununla Ənvər paşanı yəqin ki, Atatürkə qarşı istifadə etmək planını gerçəkləşdirməyə çalışırdılar. (Nuraninin yazdığı kimi, Atatürk Türkiyəsinə istiqlal savaşında yardım edən Sovet Rusiyası ola bilər ki, təxmin etməmişdi ki, elə həmin qüvvələr hakimiyyətə gələrkən Sevr müqaviləsini tarixin arvivinə atacaqlar.) Bəlkə də Ənvər paşa ilə bağlı planla Lenin hökuməti 1922-ci ilədək qanunla sultan vəzifəsini daşıyanVəhidəddinə qarşı təzyiq vasitəsi əldə etmək, onun mövqelərini zəifləmək istəyirdi ( 1 ).

Voskanov isə tezliklə I xüsusi süvari briqadasının komandanı Akop (Yakov) Melkumyana belə bir teleqram göndərir: "Mənə ölü Ənvər lazımdır. Oxu. Düşün. Yubanmadan yandır." SonraYakov Melkumyan erməni jurnalistlərlə söhbəti zamanı daşnak terror silsiləsinin davamına işarə verərək açıqca deyir: "Ənvəri mən öldürdüm" ( 1 ).

**Qeyd:** Ənvər paşanın ölümü ilə bağlı mübahisəli iddiaların müqayisəsi üçün bax: *bu kitabın "Erməni sui-qəsdi Türküstanda" bölümünə.*

**Ədəbiyyat:**


1. Нурани. "Неизвестная трагедия. Дашнаки сыграли решающую роль в уничтожении Туркестанской автономии"., газета "Эхо", Баку, 25.02.2009 .
2. Ш.А.Шамагдиев "Очерк истории гражданской войны в Ферганской долине", Ташкент: Изд-во АН Узб.ССР, 1962 г.
3.Турара Рыскулова "Революция и коренное население Туркестана", Ташкент, 1925.
4. http://turan.info/forum/
5. Большая Советская Энциклопедия, 26-й том, Москва,1977.

**QƏBUL OLUNMUŞ QISALTMALAR VƏ İZAHLAR:**

İngiltərə arxivləri: Foreign Office Public Record Office *(İngiltərə Xarici İşlər Nazirliyinin Arxivi)* – **FO**
Fransa arxivləri: Archives des Affaires Etrangeres de France *(Xarici İşlər Nazirliyinin Arxivi)* – **AAEF**
Amerika arxivləri: United States National Archives *(Milli Arxiv)* – **USNA**
Almaniya arxivləri: **Die Gross Politik** (yayınlanmış sənədlər)
Böyük Osmanlı Arxivi – **BOA**
Государственный Архив Азербайджанской Республики – **ГААР**
Azərbaycan Dövlət Arxivi – **ADA**
Azərbaycan Respublikası Dövlət Arxivi – **ARDA**
Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi – **SPİHDA**
**Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi** – ARPİİSSA
Преступления армянских террористических и бандитских формирований против человечества (XIX – XXI вв.) , Баку, 2002. – **ПАТБФПЧ**
T.C. Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Başkanlığı Arşivi – **ATASE**
Erkan-İ Harbiye-i Umumiye Riyaseti – Genelkurmay
Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi –**NMRDA**
Rusiya Federasiyası Dövlət Arxivi –**RFDA**
MV; DH.ŞFR – **Türkiyə arxivlərindən**

***

Qaynaqların nömrəsi adətən mötərizədə, qara (yağlı) şriftlə, səhifələr açıq şriftlə verilmişdir.



## *KİTABIN İÇİNDƏKİLƏR*


**MÜƏLLİF HAQQINDA**........ 5

**ÖN SÖZ** (AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılov........ 7

Biganəlik-informasiya savaşında məğlubiyyətdir........ 11

Müəllifin Araşdırmalarının Təqdimat və xarici səfərləri haqqında........ 12

Geniş mətbuat konfransi........ 13

İmperializmin tükənməyən gedişləri (müəllifdən)........ 26

"Erməni məsələsi" beynəlxalq miqyasda gündəmə çixarilanadək ermənilərin vəziyyəti........ 31

Azərbaycanlilarin soyqirimi........ 55

Bakı, Göyçay, Şamaxı qəzalarında soyqırımı. Kürdəmir qətliamı........ 77

Stepan Lalayanin cinayət işinin materiallarindan (İngiliscəsi)........ 86

Nuru Paşanın Qafqaza göndərilməsi........ 105

Türk-azərbaycan vətənsevərliyi necə qalib gəldi........ 110

Cavad qəzasında Azərbaycanlıların soyqırımı *(Salyan və* Neftçala hadisələri )........ 116

Güney Azərbaycanlıların soyqırımı........ 120

Borçalı hadisələri........ 127

Qarayazı hadisələri........ 130

Şimali qafqaz böhranı : dağıstan hadisələri........ 133

Qərbi azərbaycanlıların soyqırımı........ 139

Qarabağda azərbaycanlılara qarşı soyqırımları ( 1918-1920 )........ 164

Naxçıvan hadisələri........ 169

Anadolu türklərinin soyqirimi........ 187

Osmanli arxivlərində 1914-1921-ci illər araliğinda Ermənilərin türklərə yapdiqlari kütləvi qirğin və Zülmlərə aid bəzi bəlgələrin siyahisi........ 190

Kars ve çevresindeki ön araşdirmalarda tesbit edilen 62 toplu mezar mahalleri........ 194

Kazım qarabəkir paşa və doğunun xilası........ 197

Cənubi-qərbi qafqaz cümhuriyyəti (cqqc)-qars Demokratik cümhuriyyəti........ 199

Doğu anadolunun və cənubi – qərbi qarqazın qurtuluşu .......... 204
Tarixi dəlillər «erməni soyqırımı»nın mövcudluğunu təkzib edir .......... 212
Ermənilərin "soyqirimi", yoxsa müvəq...i köçürülməsi ?-osmanli bəlgələrində .......... 2?7
"Düsseldorf rus ortodoks metropoliti paulosun məktuo"undan .......... 250
Düsseldorf rus ortodoks metropoliti paulos... məktubunun (almanca) əsli .......... 252
Kipr və ermənilər .......... 256
Gürcüstanda ermənilərin törətdiyi soyqirim və saldirilar .......... 259
Ermənilərin türk kilsələrinə iddialarina dair .......... 261
Eçmiədzinə aparılmış "oğurluq tarix" .......... 262
Erməni tarixinə dair bəzi məqamlar .......... 264
"Erməni məsələsi" və saxta erməni tarixinə aid bəzi qeydlər .......... 272
Ermənilər haqqinda əlavə qeydlər .......... 290
YADDAŞÇA .......... 302
Rus diplomat və hərbçiləri ermənilər haqda .......... 337
Erməni sui-qəsdi türküstanda .......... 346
Osmanli imperiyasinin dağilmasinda sionizmin rolu .......... 348
Erməni tarixi və erməni – gürcü ziddiyyətləri .......... 351
Bu yaxinlarda qars vilayətində baş vermiş hadisələr haqqinda rsfsr-in Gürcüstandaki səlahiyyətli nümayəndəsinə məlumat .......... 362
Ermənilərin rusiyaya ərazi iddialari: ikinci "Qarabağ" hazirki yirlar .......... 369
ƏLAVƏ BÖLÜM
Qafqaz Islam ordusunun xilaskar hərbi əməliyyatları
Gəncə ermənilərinin tərk-silah edilməsi .......... 372
Göyçay çevrəsindəki döyüşlər .......... 373
Ağsu və Kürdəmir çevrəsindəki döyüşlər .......... 378
Şamaxı və Hacıqabul bölgəsindəki hərbi əməliyyatlar .......... 379
Bakı şəhəri uğrunda döyüşlər .......... 383
Bakı üzərinə ilk həlledici hücum .......... 393
Bakı üzərinə son hücum-şəhərin azad edilməsi .......... 395
Lənkəran hadisələri .......... 398
Zəngəzur və işğal-qəsbkarlıq nəticəsində itirilmiş başqa ərazilər məsələsinin qaldırılması və Ermənistan – Azərbaycan münaqişəsinin tarixi varisliyi ilə bağlı kompleksin ortaya qoyulması ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinə Müraciət .......... 402
Dinc" erməni-bolşevik terroru .......... 406
Qərbi azərbaycan (çaşdaş ermənistan) ərazilərində yer adlarinin soyqirimi .......... 436
Gürcüstan ərazilərində yer adlarinin soyqirimi .......... 439
ERMƏNİ TERRORU YENİ DÖNƏMDƏ .......... 442
Ermənilərin "vəhşi" kimi tanitmaq istədikləri
Türklərin mədəniyyət tarixinə dair qeydlər .......... 446
Türk yazili abidələri haqda mübahisələrə dair .......... 450
Kürdlərin türk soyundan gəldiyinə dair tarixi bəlgə. .......... 458
Gəmiqaya abidəsi
Azix mağarasi .......... 460
Qobustan möcüzələri. .......... 462
Türk kimliyi yeni qaynaqlar işiğinda .......... 466
Kəşmir məsələsi .......... 470
II Hindistan-pakistan savaşı: faktların dili ilə .......... 479
Ukrayna xalqinin qorxunc tarixi faciəsi .......... 485
Orta asiyada daşnak faciələri. .......... 488
Qəbul olunmuş qısaltmalar və izahlar. .......... 492






WE DO
WAR
WE WANT
PEACE



